# İlham Əliyevin ekoloji siyasəti

## Davamlı inkişaf və yaşıl dünya

## (2003-2023)

## 3 cilddə

**I cild**

Nitqlər, çıxışlar, müsahibələr, görüşlər, qəbullar, müraciətlər, iqtibaslar və ekoloji təqvim

**Layihənin rəhbəri və baş məsləhətçi:** **Sadiq Qurbanov,**
Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri, t.e.n., dos.

**Elmi redaktoru:** **Urxan Ələkbərov,**
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik

**Tərtibçilər:** **Zakir İsmayılov**
**Səməd Vəkilov**

**İlham Əliyevin ekoloji siyasəti. Dayanıqlı inkişaf və yaşıl dünya (2003-2023). 3 cilddə. I cild. - Bakı, 2024. .- 587 s.**

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Bu gün "yaşıl iqtisadiyyat” termini qlobal səviyyədə bəşəriyyətin inkişafının ana xətlərindən birini təşkil edir. Azərbaycan dövləti yaşıl enerji iqtisadiyyatına verdiyi önəmi əməli fəaliyyətlərlə sübut edir. Hzırda dünya iqtisadiyyatında “yaşıl iqtisadiyyatın” xüsusiyyətləri aydın görünür. Bu istiqamətdə müəyyən tendensiyalar hər bir ölkənin iqtisadiyyatında müəyyən dərəcədə təzahür edir. Buna görə də ekoloji tələbləri nəzərə alan iqtisadiyyat, görünür, gələcəkdə “yaşıl iqtisadiyyatdan” çox, sadəcə alternativi olmayan müasir iqtisadiyyat kimi səslənəcək və gələcəkdə bu, daha aydın şəkildə özünü büruzə verəcək.

Azərbaycan qlobal təşəbbüslərə həmişə ilk qoşulan ölkələr sırasında olmuşdur. Bütün bu kimi genişmiqyaslı beynəlxalq tədbirlər Azərbaycan Prezidenti İlham Əliyevin birbaşa iştirakı və şəxsi təşəbbüsü ilə həyata keçirilməkdədir. Şübhəsiz, bu ilin sonunda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Bakıda keçirilməsi də elə bu zərurətdən irəli gəlib.

Bu kitabda Azərbaycan Prezidenti İlham Əliyevin ekoloji siyasətinin ana xəttini təşkil edən “yaşıl iqtisadiyyat”a dair nitqləri, çıxışları, görüşləri və seçilmiş iqtibasları geniş şəkildə, xronoloji ardıcıllıqla verilmişdir. Ölkəmizdə, eyni zamanda, erməni vandallarından təmizlənən ərazilərimizdə münaqişə sonrası həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq layihələrinin reallaşdırılması zamanı ekoloji cəhətdən təmiz texnologiyalara, “günəş enerjisinə”, həmçinin “ağıllı” və “yaşıl” yanaşmalara üstünlük verilməsinə dair materiallar öz əksini tapır. Kitabdan tədqiqatçılar, sahibkarlar, doktorantlar, magistrantlar və tələbələr faydalana bilərlər.

Kitab ekoloji maarifləndirmə məqsədilə tərtib edilmişdir.

# M ü n d ə r i c a t


- ✓ Ön söz ........................................................................................................................ 10
- ✓ Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ........................................ 15
- ✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqlərindən, çıxışlarından, müsahibələrindən ekologiyaya və ətraf mühitə dair götürülmüş iqtibaslar.......................... 16
- ✓ Azərbaycan Prezidenti İlham Əliyevin ekologiyaya dair rəsmi dövlət tədbirlərində iştirakı (nitqlər, çıxışlar, müsahibələr, görüşlər, qəbullar, müraciətlər) ........................................ 110
- ✓ Şirvan Milli Parkının açılışına həsr olunmuş təntənəli mərasimdə çıxış ........................ 111
- ✓ Xıllı "Nərə" balıqartırma zavodunun açılış mərasimində çıxış.......................................... 113
- ✓ Vayxır su anbarı ilə tanışlıq .................................................................................. 116
- ✓ Qəbələ şəhərinə çəkilmiş yeni su xəttinin açılışı .............................................................. 117
- ✓ Hirkan Milli Parkının açılış mərasimi........................................................................... 118
- ✓ Heydər Əliyev Su Anbarının istifadəyə verilməsi mərasimi ............................................ 119
- ✓ Bakının ətrafinda bəzi yerləri su basması ilə əlaqədar yaranmış vəziyyətlə tanışlıq ........... 120
- ✓ Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması məsələlərinə həsr olunmuş müşavirədə nitqi ........................................... 121
- ✓ Almaniya Federativ Respublikasının nümayəndə heyəti ilə görüş .................................... 139
- ✓ Azərbaycan Prezidenti İlham Əliyevə dünyada çox böyük nüfuza malik Mixael Zukkov
- ✓ Fondunun ali mükafatı təqdim olunmuşdur........................................................................ 140
- ✓ Heydər Əliyev Su Anbarında elektrik stansiyası tikilmişdir............................................... 152
- ✓ Almaniyanın Mixael Zukkov Fondunun prezidenti ilə görüş ............................................. 153
- ✓ Türkiyənin ətraf mühitin mühafizəsi və meşə təsərrüfatı naziri Osman Pepen ilə görüş...... 154
- ✓ Xəzərin dəniz mühitinin mühafizəsinə həsr olunmuş birinci Bakı konfransının iştirakçılarına ....................................................................................................................................... 155
- ✓ İranin ekologiya komitəsinin sədri, İran Prezidentinin ekologiya məsələləri üzrə müavini doktor Vaez Cavadi ilə görüş.................................................................................................. 156
- ✓ «Xəzər dənizinin davamlı inkişafi üçün strategiyalar» mövzusuna həsr olunmuş konfransın iştirakçılarına ........................................................................................................................ 157
- ✓ Dəvəçi rayonunda Taxtakörpü su anbarının və su-elektrik stansiyasının təməli qoyulmuşdur ....................................................................................................................................... 158
- ✓ Füzuli su elektrik stansiyasının təməli qoyulmuşdur ......................................................... 160
- ✓ Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizdə su təchizatı sistemlərinin inkişafı ilə bağlı layihələrə dair iclasda nitqi ................................................................................................ 161
- ✓ Qlobal ekologiya fondunun icraçı direktoru xanım Monik Barbü ilə görüş ........................ 166
- ✓ Altıağac Milli Parkında......................................................................................................... 167
- ✓ «Azərbaycan və Türkmənistanın neft və qaz potensialı: energetika, iqtisadiyyat, ekologiya. əməkdaşlığın strategiyası» beynəlxalq konfransının iştirakçılarına.................................... 168
- ✓ Balakən şəhərinə yeni su xətti çəkilmişdir........................................................................... 169
- ✓ Bulaq kompleksinin açılışı.................................................................................................... 172
- ✓ Heydər Əliyev Beynəlxalq Aeroportuna

✓ çəkilmiş yolun kənarında və Zığ-Günəşli yamacında görülən yaşıllaşdırma işləri ilə tanışlıq ....173
✓ Davos İqtisadi Forumunun «Enerji Outlook–2009» mövzusunda iclası....174
✓ Latviyanin ətraf mühit naziri Raymonds Veyonisin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş ....179
✓ Bakı bərk məişət tullantılarının yandırılması zavodunun təməlqoyma mərasimi ....180
✓ Sumqayıt elektrik stansiyasi istifadəyə verilmişdir ....182
✓ Keçmiş «Binə» ticarət mərkəzinin yerində aparılan yaşıllaşdırma işləri ilə tanışlıq ....187
✓ Hövsan aerasiya stansiyasının əsaslı yenidənqurmadan sonra açılışı mərasimi ....189
✓ Ağdaş rayonunda yeni su xəttinin açılışı mərasimi....192
✓ Göyçay şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi ilə tanışlıq ....192
✓ "Göyçay-1" su elektrik stansiyasının təməli qoyulmuşdur....193
✓ Azərbaycan Prezidenti İlham Əliyevin ekoloji problemlərə həsr olunmuş müşavirədə nitqi ....194
✓ Naxçıvan şəhərini içməli su ilə təmin edəcək su təchizatı sistemlərinin birləşdiyi paylayıcı qurğu istifadəyə verilmişdir....201
✓ "Balakən-1" su elektrik stansiyasının təməlqoyma mərasimi....202
✓ «Qusar-1» kiçik su elektrik stansiyasının təməlqoyma mərasimi....203
✓ Şəmkir şəhərinə içməli su verilmişdir....204
✓ «Azərbaycan yaşıl dünya naminə» devizi altında
✓ keçirilən beynəlxalq ekologiya sərgisi ilə tanışlıq ....209
✓ Ordubadda Biləv su elektrik stansiyasının açılışı ....210
✓ Mingəçevir Su Elektrik stansiyasında aparılan yenidənqurma işləri ilə tanışlıq....213
✓ Qobustan-Cəngiçay Dövlət Təbiət Yasaqlığının ərazisinə ilk ceyran sürüsünün buraxılması mərasimi ....214
✓ Oğuz-Qəbələ-Bakı su kəmərinin istifadəyə verilməsi mərasimi....215
✓ «Astara-1» kiçik su elektrik stansiyasının təməlqoyma mərasimi ....219
✓ Vəlvələçay-Taxtakörpü kanalı ilə tanışlıq ....220
✓ Taxtakörpü su anbarının su-elektrik stansiyası ilə birlikdə inşa edildiyi ərazi ilə tanışlıq....221
✓ Qala qəsəbəsindəki arxeoloji etnoqrafik muzey kompleksinin ərazisində aparılmış tikinti-quruculuq işləri ilə tanışlıq və əntiq əşyalar muzeyinin açılışı mərasimində iştirak ....222
✓ Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğunun təməlqoyma mərasimində iştirak ....224
✓ Qobustan tinglik mərkəzi ilə tanışlıq ....227
✓ Ucarda su-kanalizasiya sistemləri kompleksinin təməli qoyulmuşdur ....228
✓ «Bakı Ağ şəhər»in təməl daşının qoyulması mərasimində iştirak ....229
✓ Təhlükəsizlik konfransının «Enerji, ehtiyatlar və ətraf mühit: yeni təhlükəsizlik parametrləri» mövzusu müzakirələrində iştirak ....231
✓ Niderland krallığının infrastruktur və ətraf mühit naziri xanım Melani Şultz Van Haegenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüş....234
✓ Azgüntex zavodunun açılışı mərasimi ....235

- ✓ Heydər Əliyev prospektinin Suraxanı rayonu ərazisindən keçən hissəsində yeni salınmış parkın açılışı mərasimi....237
- ✓ Hacıqabul rayonunda Şirvan-Muğan qrup su kəmərinin təməli qoyulmuşdur ....238
- ✓ Küllülü-Zərdab magistral su kəmərinin açılışında iştirak....245
- ✓ Füzuli su elektrik stansiyası istismara verilmişdir....251
- ✓ Beyləqan şəhərinin su və kanalizasiya sistemləri kompleksinin təməli qoyulmuşdur....256
- ✓ İmişli şəhər su anbarları kompleksinin istifadəyə verilməsi mərasimi ....257
- ✓ «Xəzər: ətraf mühit üçün texnologiyalar» beynəlxalq ətraf mühit sərgisinin iştirakçılarına 261
- ✓ Balaxanıda Bakı bərk məişət tullantılarının yandırılması zavodunun açılışı mərasimi ....262
- ✓ Türkiyə Respublikasının meşə və su işləri naziri Veysəl Əroğlunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş ....266
- ✓ Şirvan-Muğan su kəmərindən Hacıqabul şəhərinə içməli suyun verilməsi mərasimi....267
- ✓ Mingəçevir Su Anbarının təhlükəsizlik sistemi ilə tanışlıq ....271
- ✓ Şirvanda "Cənub" elektrik stansiyasi istismara verilmişdir....273
- ✓ Şirvan-Muğan qrup su kəmərindən Şirvan şəhərinə içməli suyun verilməsi mərasimi ....280
- ✓ Ağstafa şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimi ....281
- ✓ Tovuz şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulmasi layihəsi ilə tanışlıq ....287
- ✓ Siyəzən şəhərində içməli su xəttinin və kanalizasiya şəbəkəsinin istifadəyə verilməsi mərasimi….289
- ✓ Vəlvələçay–Taxtakörpü anbarının su ilə doldurulmağa başlanması mərasimi....289
- ✓ Kürdəmir şəhərinə içməli suyun verilməsi mərasimi....291
- ✓ «İsmayıllı-1» su-elektrik stansiyasının açılışı mərasimi....296
- ✓ Oğuz şəhərinə içməli suyun verilməsi mərasimində rayon ictimaiyyətinin nümayəndələri ilə görüş ....297
- ✓ Qax şəhərinin su təchizatı və kanalizasiya sistemləri kompleksi istifadəyə verilmişdir....301
- ✓ Oğuz şəhərinə içməli suyun verilməsi mərasimi ....302
- ✓ Zaqatala şəhərinə içməli suyun verilməsi mərasimi ....306
- ✓ Biləsuvar şəhərinə içməli suyun verilməsi mərasimində rayon ictimaiyyətinin nümayəndələri ilə görüş ....310
- ✓ Yardımlı şəhərinə içməli su verilmişdir....313
- ✓ Naftalan şəhərinə içməli suyun verilməsi mərasimi olmuşdur ....316
- ✓ Quba şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi başa çatmışdır ....320
- ✓ Şabran rayonu ərazisində inşa olunan Taxtakörpü su anbarı, Taxtakörpü su-elektrik stansiyasi və Taxtakörpü-Ceyranbatan su kanalının açılışı mərasimi ....322
- ✓ Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətini yaxşılaşdırmaq üçün kompleks tədbirlərin həyata keçirilməsi istiqamətində görülən işlərin gedişi ilə tanışlıq ....328
- ✓ Su anbarı və sutəmizləyici qurğular kompleksinin istifadəyə verilməsi mərasimi ....329
- ✓ «Arpaçay-1» və «Arpaçay-2» su-elektrik stansiyalarının işə salınması mərasimi....331
- ✓ Suraxanı Günəş Elektrik stansiyasının açılışı mərasimi ....334

✓ Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpası işləri ilə tanışlıq ..........337
✓ Füzulidə Mil-Muğan hidroqovşağının fəaliyyəti ilə tanışlıq..........338
✓ Şəmkirçay su anbarının açılışı mərasimi ..........339
✓ Sabirabad şəhərinə içməli suyun verilməsi mərasimi ..........346
✓ «Baki Ağ şəhər»in inşası başa çatan ofis binası ilə tanışlıq..........349
✓ I Avropa oyunları üçün yaradılan avtobus deposu və təlim mərkəzində görülən işlərlə, Zığ
✓ gölünün kompleks bərpası layihəsi ilə tanışlıq ..........351
✓ Bakı «Ağ şəhər» bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə tanışlıq..........353
✓ «Ağ şəhər» bulvarında yaradılan şəraitlə tanışlıq..........354
✓ Böyükşor bulvarının və parkının açılışı mərasimi ..........355
✓ Bakı «Ağ şəhər» bulvarının açılışı mərasimi..........357
✓ «Milan Expo 2015» ümumdünya sərgisində iştirak..........358
✓ Ağsuya içməli suyun verilməsi mərasimi..........364
✓ "Göyçay" su elektrik stansiyasının açılışında iştirak..........368
✓ Ucar şəhərinin su təchizati sistemi yenidənqurmadan sonra istifadəyə verilib..........369
✓ Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğular kompleksinin açılışı mərasimi ..........373
✓ Naxçıvan Günəş Elektrik stansiyasının açılışı mərasimi ..........379
✓ Zirə mədəniyyət mərkəzinin və eko-parkın açılış mərasimi..........380
✓ Prezident İlham Əliyev Münxen təhlükəsizlik konfransı çərçivəsində iqlim və enerji təhlükəsizliyi mövzusunda panel-müzakirədə iştirak edib..........388
✓ Tovuzçay su anbarının açılışı mərasimində rayon ictimaiyyətinin nümayəndələri ilə görüş392
✓ Ulu Öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağac əkmə kampaniyasinda iştirak ..........396
✓ «İsmayıllı-2» su-elektrik stansiyasının açılışı mərasimi..........397
✓ Qusarın içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin
✓ başa çatması mərasimində rayon ictimaiyyətinin nümayəndələri ilə görüş..........398
✓ Yeni bitum istehsalı qurğusunun təməlqoyma mərasimi..........402
✓ Tərtər şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması başa çatıb ..........403
✓ Ordubad su-elektrik stansıyasının təməlqoyma mərasimi ..........408
✓ Culfa rayonunun mərkəzi və ətraf kəndlərində içməli suyun və kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimi..........409
✓ Şahbuz rayonunun mərkəzi və ətraf kəndlərində içməli suyun və kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimi..........410
✓ Varvara su-elektrik stansiyasının yenidən qurulmasından sonra açılışı mərasimi..........411
✓ Varvara balıqartırma müəssisəsinin açılışı mərasimi..........412
✓ Ulu Öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağac əkmə kampaniyasinda iştirak ..........414
✓ Yasamal rayonunda yeni salınmış parkla tanışlıq..........416
✓ Pirallahı rayonunun içməli su təchizatı layihəsinin açılışı mərasimi ..........419
✓ «Pirallahı» günəş elektrik stansiyasının açılışı mərasimi..........422

- ✓ Pirallahı rayonunda balıqyetişdirmə fermalarının təməlqoyma mərasimi ............................423
- ✓ Balakən su elektrik stansiyasının açılışında iştirak.............................................................424
- ✓ Göygöldə “Çiçəkli” su elektrik stansiyası əsaslı yenidənqurmadan sonra istismara verilib .425
- ✓ İçməli su təchizatı layihəsinin açılışı zamanı Gədəbəy rayon ictimaiyyətinin nümayəndələri ilə görüş ..........................................................................................................................426
- ✓ Cəlilabadın içməli su təchizati sisteminin və kanalizasiya şəbəkəsinin açılışı mərasimində
- ✓ rayon ictimaiyyətinin nümayəndələri ilə görüş.....................................................................430
- ✓ Xıdırlı kəndində dəniz suyunun duzsuzlaşdırılması kompleksinin fəaliyyəti ilə tanışlıq .....433
- ✓ Yeni yaradılan Şamaxı Safari Parkı ilə tanışlıq ....................................................................434
- ✓ Qobustan şəhərinə içməli suyun verilməsi mərasimi............................................................436
- ✓ «Ağ şəhər» də görülən işlərlə tanışlıq....................................................................................440
- ✓ Mingəçevir Su Elektrik stansiyası yenidənqurmadan sonra istismara verilib.......................443
- ✓ Xızı şəhərinə və Altıağac qəsəbəsinə içməli suyun verilməsi mərasimində iştirak ..............445
- ✓ Ulu Öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağac əkmə aksiyasında iştirak...449
- ✓ «Şamaxi Safari» parkı ilə tanışlıq ..........................................................................................451
- ✓ “Astara şəhərinin içməli su təchizatı sistemləri” layihəsinin icrası başa çatdırılıb ...............452
- ✓ Milli parkın ərazisində yenidən qurulmuş «Milan Ekspo–2015» sərgisində
- ✓ Azərbaycan pavilyonu ilə tanışlıq..........................................................................................455
- ✓ Xızı rayonunda «Yeni Yaşma» külək elektrik parkının açılışı mərasimi...............................457
- ✓ “Lerik şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması” layihəsinin icrası başa çatıb ....................................459
- ✓ Kimya sənaye parkının rezidenti olan «Baku Non Ferrous and Foundry Company» MMC-nin əlvan metallar və ferroərintilər zavodunun açılışı mərasimi ................................................462
- ✓ Ulu Öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağac əkmə aksiyasında iştirak...463
- ✓ Qətər dövlətinin bələdiyyə və ətraf mühit naziri
- ✓ Abdullah Bin Əbdüləziz Bin Turki Əl-Subaie ilə görüş.......................................................465
- ✓ İçməli su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində Ağdaş şəhər ictimaiyyətinin nümayəndələri ilə görüş.............................................................................466
- ✓ Bakı şəhər icra hakimiyyətinin başçısı ilə görüş...................................................................470
- ✓ Heydər Əliyev fondu tərəfindən Bakının Xətai rayonunda salınan yeni «Gənclik» parkında «Təbiət naminə birləş, həyat naminə birləş!» layihəsi çərçivəsində ağac əkmə aksiyasında iştirak ...................................................................................................................................474
- ✓ Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Şamaxı rayonunda ağacəkmə aksiyasında iştirak ediblər.....................................................................................................476
- ✓ Binəqədi rayonunda aparılmış yenidən qurulma işləri ilə tanışlıq .......................................478
- ✓ «Şəmkirçay» sutəmizləyici qurğular kompleksinin istifadəyə verilməsi mərasimi .............479
- ✓ Bakının Suraxanı rayonunda keçmiş yod-brom zavodunun ərazisində ağac əkmə mərasimi ...............................................................................................................................................482
- ✓ Su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirə..................................483
- ✓ Bakının Yasamal rayonunda salınacaq meşə tipli yeni parkda görüləcək işlərlə tanışlıq .....509
- ✓ Balaxanı qəsəbəsində aparılmış abadlıq işləri ilə tanışlıq ....................................................511
- ✓ Yasamal rayonunda yeni salınmış meşə tipli parkın açılışı mərasimi..................................515

✓ Zəngilan rayonunun Bəsitçay Dövlət Təbiət
✓ Qoruğunun ərazisində çinarəkmə mərasimi....516
✓ Ordubad su-elektrik stansiyasının tikintisi ilə tanışlıq....517
✓ Prezident İlham Əliyev Ağdam şəhər meşə-parkında ağac əkib....518
✓ Aşağı Köndələnçay su anbarına baxış....519
✓ Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Bakıda yeni yaradılan
✓ "Gənclik" parkının açılışında iştirak ediblər....520
✓ Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub....521
✓ Bakı Zoolojı Parkının yenidən qurulmadan sonra açılışı mərasimi....522
✓ Cıdır düzündə ağacəkmə aksiyasında iştirak....524
✓ Nizami Gəncəvi adına mədəniyyət və istirahət parkında əsaslı təmir və yenidən qurulmadan sonra yaradılmış şəraitlə tanışlıq....525
✓ "Xızı-Abşeron" külək elektrik stansiyasının təməlqoyma mərasimində iştirak....526
✓ "Qobu" enerji qovşağının açılışında iştirak və dövlət başçısının AZƏRTAC-a müsahibəsi 530
✓ Qaradağ Günəş Elektrik stansiyasının təməlqoyma mərasimi....535
✓ Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Füzuli şəhərində yeni yaradılacaq parkda ağac əkiblər....539
✓ Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsi ilə tanışlıq....540
✓ Yeni tikilmiş 4,4 mvt gücündə "Kəlbəcər-1" kiçik su elektrik stansiyasının açılışında iştirak ....541
✓ Kəlbəcərdə "Çıraq-1" kiçik su elektrik stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub ..542
✓ Qubadlıda Zabuxçay və Bərgüşadçay su anbarlarının layihələri ilə tanışlıq....543
✓ Zəngilanda Arximed turbini tipli su elektrik stansiyası işə salınması mərasimi....544
✓ Cəbrayılda yaradılacaq meşə təlim mərkəzi, «Ağıllı tingçilik» və «Dostluq meşəsi» kompleksinin layihəsi ilə tanışlıq çərçivəsində rayon ərazisinə 18 baş ceyran buraxılıb....545
✓ «Azərbaycan–Türkiyə beynəlxalq meşə təlim mərkəzi», «Ağıllı tingçilik» və «Dostluq meşəsi» kompleksinin təməlqoyma mərasimi....546
✓ "Oğuz" kiçik su elektrik stansiyaları silsiləsi istismara verilib....548
✓ Bakı Ağ şəhərin mərkəzi park kvartalında görülmüş işlərlə tanışlıq və Qarabağ atları kompleksinin təməlqoyma mərasimi....549
✓ Bakıda Cənub Qaz Dəhlizi məşvərət şurası çərçivəsində nazirlərin 9-cu və yaşıl enerji məşvərət şurası çərçivəsində nazirlərin 1-ci iclaslarının açılışı olub....551
✓ Neftçalanın yenikənd kəndində "Azerbaijan fish farm" MMC-nin nərə damazlıq təsərrüfatında yaradılan şəraitlə tanışlıq....555
✓ "Azərenerji" ASC-nin Zəngilanda "Sarıqışlaq" su elektrik stansiyasında tikinti işlərinin gedişi ilə tanışlıq....557
✓ Kəlbəcər rayonunda "Qamışlı" kiçik su elektrik stansiyasının açılışı mərasimi....559
✓ Kəlbəcər rayonunda "Meydan" kiçik su elektrik stansiyasının açılışı mərasimi....560
✓ Laçın rayonunda Şərqi Qafqaz turları və şahin quşları təbiətə, müxtəlif növ balıqlar Həkəri çayına buraxılıb....561
✓ 32 mindən artıq çəki, qızılbalıq və qızılxallı forelin Həkəri çayına buraxılması mərasimi ..563

- ✓ Mərkəzi Nəbatat bağının ərazisində aparılan abadlıq, yenidən qurulma və tikinti işlərinin gedişi ilə tanışlıq ....... 564
- ✓ «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin «Çıraq-1» və «Çıraq-2» kiçik su elektrik stansiyalarının açılması mərasimi ....... 565
- ✓ Kəlbəcərdə "Soyuqbulaq" kiçik su elektrik stansiyasının açılışı olub ....... 566
- ✓ Laçın rayonunda "Mişni" və "Alxaslı" kiçik su elektrik stansiyaları istifadəyə verilib ....... 567
- ✓ Laçın rayonunda "Həkəri balıq təsərrüfatı"nın açılışı olub ....... 569
- ✓ «Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin Cahangirbəyli su-elektrik stansiyasının açılışı mərasimi ....... 570
- ✓ Dubayda Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd
- ✓ Bin Zayed Əl Nəhyan ilə görüş ....... 572
- ✓ Dubayda COP28 çərçivəsində təşkil olunan dünya iqlim fəaliyyəti sammitinin açılışmərasimi keçirilib ....... 573
- ✓ COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib ....... 574
- ✓ Prezident İlham Əliyev BMT-nin iqlim dəyişmələri üzrə çərçivə konvensiyasının icraçı katibini qəbul edib ....... 576
- ✓ Ekoloji təqvim ....... 578
- ✓ Nəticə ....... 581
- ✓ Ədəbiyyat ....... 583

# ÖN SÖZ

Əziz oxucu!

Prezident İlham Əliyevin 20 illik uğurlu fəaliyyəti dövründə ekologiya, ətraf mühit və yaşıl dünya naminə siyasəti nəticəsində ötən dövrdə dayanıqlı inkişafın və ekoloji təhlükəsizliyin təmin edilməsi sahəsində xeyli işlər görülmüşdür. Bu istiqamətdə son illərdə ölkəmizdə ekoloji tarazlığın qorunması sahəsində əsaslı dönüş yaranmış, təbii ehtiyatların, faydalı qazıntıların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin qorunması, bərk sənaye və məişət tullantılarının, o cümlədən təhlükəli tullantıların tələb olunan səviyyədə idarə olunması istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilmiş və ətraf mühitin mühafizəsi sahəsində ciddi nailiyyətlər əldə edilmişdir.

Bu gün ekoloji dayanıqlıq və iqtisadi inkişaf arasında formalaşan mürəkkəb münasibətlər sürətlə dəyişən proseslərlə müşayiət olunan əsrimizin ən əsas probleminə çevrilməkdədir. Bir-biri ilə ziddiyyətdə olan, amma yaşam üçün əvəzolunmaz əhəmiyyət kəsb edən hər iki problemin həlli müasir elmin ən çox müzakirə edilən məsələlərindəndir. Bu problemlərin kəsişməsini isə bəşəriyyətin inkişaf tarixinin növbəti bifurkasiya nöqtəsi kimi də səciyyələndirmək olar. Dünyamız həm geri dönüşü olmayan, həm də sosial, iqtisadi, siyasi və ekoloji müəmmalarla dolu olan yol ayrıcına qədəm qoymuşdur. Bu nöqtədən sonrakı inkişaf trayektoriyasının seçilməsi ekoloji və iqtisadi siyasətə harmonik yanaşmaya heç zaman olmadığı qədər kəskin tələbat yaratmaqdadır.

Müasir dövrdə iqlim dəyişiklikləri daha kəskin formalarda təzahür edir. Təbii resursların istismarı isə heç zaman görünməmiş sürətlə artmaqdadır. Belə şəraitdə siyasətçilər, iqtisadçılar və ekoloqlar davamlı inkişafı dəstəkləyən səmərəli strategiyaların işlənməsi ilə bağlı olan çox mürəkkəb məsələlərlə qarşılaşmalı olurlar. Qısamüddətli iqtisadi faydalar və uzunmüddətli ekoloji dayanıqlıq arasında ziddiyyətlər elmi müzakirələrin intensivləşməsinə və məsələnin sistemli həllində innovativ yanaşmalara rəvac verməkdədir.

Məlum olduğu kimi, 2010-cu il Prezident İlham Əliyev tərəfindən ölkəmizdə "Ekologiya ili" elan olunmuşdu. Bu bir daha ona sübut idi ki, ətraf mühitin problemlərinin həlli Azərbaycan dövlətinin prioritetlərindən biri olaraq qalır. Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin ekoloji durumunun sağlamlaşdırılmasına xüsusi diqqət göstərir. Bu diqqət həm də ölkə rəhbərinin bilavasitə sədrliyi ilə ekoloji problemlərin müzakirəsinə həsr olunmuş müşavirələrin keçirilməsində, ətraf mühitlə bağlı qəbul olunmuş Dövlət proqramlarının icrasına diqqətin artırılmasında, mövcud ekoloji problemlərin daha səmərəli həll edilməsi məqsədilə müvafiq sərəncamların imzalanmasında özünü göstərir.

İndiyədək qəbul edilmiş "Azərbaycan regionlarının sosial iqtisadı inkişafına dair" dörd Dövlət Proqramında qarşıya qoyulan əsas vəzifələrdən - əhalinin ekoloji təmiz su ilə təmin edilməsi, energetika sahəsində yeni su, külək və günəş elektrik stansiyalarının tikilməsi, regionlarda ekoloji təmiz qida istehsal edən müəssisələrin yaradılması və s. genişmiqyaslı işlər bu gündə davam etdirilməkdədir.

Prezident İlham Əliyev çıxışlarının birində qeyd edir ki, "Bakının ekoloji vəziyyəti çox ağır idi, havanın çirklənməsi çox yüksək idi. 20 il bundan əvvəl və bu gün böyük fərq var. Görün Bakıda biz hansı böyük işlərə, onların icrasına nail olduq. Birinci, bu Bibiheybət buxtası. Bu, bir ekoloji fəlakət zonası idi. Şəhərin mərkəzində bütün neft gölməçələri artıq buxarlanırdı. Bu zəhərli hava ekoloji vəziyyətimizə böyük ziyan vururdu və o mənzərə də çox acınacaqlı idi…Mən bu məsələni qaldıranda bəziləri deyirdilər ki, bu, mümkün deyil, bu, əbədi belə qalmalıdır, bunu saflaşdırmaq mümkün deyil. Amma göründü ki, mümkündür. Bu gün baxın, bu, şəhərin ən gözəl yerlərindən biridir, istirahət zonasıdır, böyük parkdır. Bulvar salmışıq, Su İdman Sarayı, muzeylər, ictimai obyektlər şəhər sakinləri üçün çox gözəl rekreasiya zonasına çevrilib.

Gələcək nəsillər bəlkə də heç təsəvvür edə bilməyəcək ki, Bakıda "Qara şəhər" adlı bir yer olub. Çünki tüstülü, mazutlu "Qara şəhər" indi "Ağ şəhər"ə çevrilib.

Daha bir təhlükəli yer Balaxanı zibilxanası idi. Bura daim yanır, tüstü buraxırdı və şəhəri elə bil böyük, tutqun bulud bürüyürdü. Yaxından keçmək mümkün deyildi, sanki boğulacaqdın. Ora da təmizləndi, yerində böyük zibilyandırma zavodu tikildi, poliqon inşa edildi. Daha sonra olimpiya stadionu istifadəyə verildi, böyük bir park salındı. Yaxınlıqdakı Böyükşor gölü təmizləndi."

Azərbaycan Prezidenti üçün Abşeronun günəşi də, Xəzərin küləyi də əziz və dəyərlidir. Odur ki, ölkədə artıq neçə bərpaolunan enerji stansiyasının tikintisinə start verilib. Qarabağ və Şərqi Zəngəzur isə bütövlükdə "yaşıl enerji" zonası elan edilib. Hazırda BP şirkəti ilə Cəbrayılda ildə təxminən 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcəyi proqnozlaşdırılan 240 meqavat gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyasının layihəsi üzrə işlər aparılır.

Hazırda 30 il düşmən tapdağında olan bölgələrimizdəki çayların da vəziyyəti dövlət başçısınının diqqət mərkəzindədir. Ermənistan Azərbaycanın keçmiş işğal edilmiş ərazilərində ekosid - ətraf mühitə qarşı genosid törədib. Meşələrimizin 60 min hektarı məhv edilib, kəsilib və oğurlanıb, torpaqlarımız və çaylarımız çirkləndirilib və zəhərlənib. İşğal zamanı düşmən çoxsaylı su anbarlarımıza da ciddi zərər yetirib. İndi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda 10-a qədər su anbarı ya tikilir, ya da tam təmir olunur. Bütün bu işlər dövlət başçısının nəzarətindədir.

Məqsəd ölkədə keyfiyyətli və təmiz ekoloji mühitin qorunması, resurslardan səmərəli istifadənin təmin edilməsidir. Uzun illər ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişaf diqqət mərkəzindədir. Onu da qeyd edək ki, işğaldan azad olunan ərazilərimizin "yaşıl enerji" zonasına çevrilməsi hədəflənib və bu istiqamətdə konkret addımlar atılır. Bildiyimiz kimi, "yaşıl enerji" zonası ifadəsi təkcə bərpaolunan enerji mənbələrindən enerji istehsal edən yerlər barədə işlədilmir. Bu ifadənin əhatə dairəsi genişdir və özündə ekoloji təmiz nəqliyyat vasitələrinin təşviqi, "yaşıl məşğulluğ"un təmini, resurslardan səmərəli istifadə kimi çoxşaxəli məsələləri birləşdirir.

Ölkəmizin "yaşıl enerji" sahəsinə göstərdiyi xüsusi diqqət bu sahənin qısa zamanda sürətlə inkişaf edəcəyindən xəbər verir. İşğaldan azad olunmuş 10 min kvadratkilometr ərazinin "yaşıl enerji" zonası elan edilməsi də bu sahəyə olan qayğının göstəricisidir. İşğaldan azad olunan bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Laçın və Kəlbəcərin dağlıq əraziləri külək enerjisi, Zəngilan, Füzuli, Cəbrayıl və Qubadlı isə günəş enerjisi potensialı ilə diqqət çəkməkdədir. "Yaşıl enerji" zonası elan edilən bölgələrdə artıq bir neçə su-elektrik stansiyası inşa edilərək istismara verilib. Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma işləri, qurulan yaşayış məntəqələrindəki müasir infrastruktur gələcək iqtisadi məhsuldarlığın artımına, həyat səviyyəsinin yüksəldilməsinə və dayanıqlılığın möhkəmlənməsinə əlverişli zəmin hazırlayır.

İqtisadiyyat və ekologiya sahəsində transformasiya dünyanın iqtisadi xəritəsinə köklü şəkildə təsir edir və qlobal iqlim dəyişikliklərinin miqyası nəzərə alınaraq cəmiyyətdə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilir, təmiz enerji mənbələrindən istifadə genişlənir, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq olunur. İqtisadi inkişaf nəticəsində bir tərəfdən texnoloji yeniliklərin enerjiyə tələbatı, digər tərəfdən isə məişət və sənaye tullantılarının, çirkab suların həcminin artması müşahidə edilir. Hazırda bu sahələrin idarə olunması, ətraf mühitin mühafizəsi, insanların sağlam təbii şəraitdə yaşaması, təbii sərvətlərdən əhalinin rifahı naminə daha səmərəli istifadəsi kimi məsələlər əsas prioritetlərdir. Bu prioritetlər daxilində son zamanlar ekoloji cəhətdən əlverişli

texnologiyaların - "yaşıl texnologiya"ların tətbiqi geniş vüsət almışdır. "Yaşıl texnologiya"lar ətraf mühit üçün tam zərərsiz və ya minimal zərərlə işləyən texnologiyalardır.

"Yaşıl iqtisadiyyat" termini insan rifahını və sosial ədaləti təmin edən və eyni zamanda ətraf mühit risklərini kəskin azaldan iqtisadiyyat kimi müəyyən edilir. Onun əsas komponentlərindən olan "Yaşıl biznes müəssisələri" qlobal və yerli səviyyədə ətraf mühitə, cəmiyyətə, icmalara və iqtisadiyyata zərərli təsir etməyən, iqtisadi inkişafı, sosial tərəqqini və ətraf mühitin mühafizəsini təmin edən müəssisələrdir. "Yaşıl artım" və "yaşıl iqtisadiyyat" ölkəsi kimi hədəflər Azərbaycan şirkətləri qarşısında yeni çağırışlar qoyur. "Yaşıl enerji" sahəsində dünyanın aparıcı şirkətləri ilə əməkdaşlığın dövlətimizin birbaşa dəstəyi ilə həyata keçirilməsi yüksək göstəricilərin əldə olunmasını təmin edən əsas amildir.

Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsinə çevrilmək Azərbaycan dövlətinin milli hədəflərindən biri kimi müəyyən edilib. Bir müddət əvvəl Bakıda Yaşıl Enerji Məşvərət Şurasının birinci toplantısının keçirilməsi bu istiqamətdə siyasi iradənin növbəti nümunəsidir. Artıq bütün dünyada Azərbaycanın "yaşıl enerji" dəhlizi barədə danışılır. Azərbaycan Gürcüstan, Rumıniya və Macarıstan ilə yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş də imzalayıb. Neft-qaz ölkəsi olan Azərbaycan yaşıl enerji növlərinin yaradılmasını və yaşıl enerjinin dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyən edib.

COP29-un Bakıda keçirilməsi qərarı həm də Azərbaycanın yaşıl enerji siyasətinə qlobal dəstəyi ifadə edir. Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibi seçilməsi son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. Bu qərar bir daha bu spekulyasiyaları alt-üst etdi və Azərbaycanın müsbət imicinin üzərinə kölgə sala bilməyəcəklərini təsdiqlədi. Ölkəmiz bu təşəbbüslə dövlətimizin qüdrətini bir daha dünyaya göstərdi, beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirdi. Belə mötəbər tədbirin Azərbaycanda keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Beynəlxalq aləm ekoloji problemlərin həlli istiqamətində müəyyən addımlar atmaqdadır. Bu məsələdə Azərbaycan ön sıralarda yer alır. Şübhəsiz, bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Bakıda keçirilməsi elə bu zərurətdən irəli gəlib.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası, yəni COP29 bu il Azərbaycanda keçiriləcək. Bununla bağlı qərar COP28-in ötən il dekabrın 11–də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub. İndiyə qədər bir sıra beynəlxalq tədbirlərə ev sahibliyi etmiş, bu sahədə kifayət qədər təcrübə toplamış dövlətimiz 70-80 min xarici qonağın iştirak edəcəyi bu tədbirin öhdəsindən bacarıqla gələcək və dünya miqyasındakı imicini artıracaq. Həm də sivil dünyanın ayrılmaz hissəsi kimi ölkəmizin bəşəri dəyərlərə malik olduğunu bir daha nümayiş etdirəcək.

Məlum olduğu kimi, Azərbaycanın 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair milli prioritetlərindən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilib. Həmin sənədə əsasən ümumi enerji istehsalında bərpaolunan enerjinin payının 2025-ci ildə 24 faiz, 2030-cu ildə isə 30 faizə çatdırılması nəzərdə tutulur. Hazırda ölkəmizin bərpaolunan enerji potensialı - quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Qeyd edək ki, ölkəmiz baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını da hədəf kimi götürüb.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının, həmçinin Naxçıvanın da "yaşıl enerji zonası" elan edilməsi elə bu istiqamətdə atılan addımlardandır. Ölkəmiz, eyni zamanda, erməni vandallarından təmizlənən ərazilərimizdə münaqişə sonrası həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq layihələrinin reallaşdırılması zamanı ekoloji cəhətdən təmiz texnologiyalara, həmçinin "ağıllı" və "yaşıl" yanaşmalara üstünlük verir.

COP29 konfransına ev sahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu missiyaya uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

"Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək", - deyə Prezident İlham Əliyev ötən il dekabrın 15-də COP29-un ölkəmizdə keçirilməsi ilə əlaqədar müşavirədə vurğulayıb.

Azərbaycan yaşıl enerji iqtisadiyyatına verdiyi önəmi əməli fəaliyyətlərlə də sübut edir. Buna misal olaraq, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləyib.

Azərbaycan bərpaolunan enerji mənbələri üzrə yüksək potensiala malik olan ölkələrdəndir. Energetika Nazirliyinin məlumatına əsasən, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.

Prezident İlham Əliyevin 2021-ci ilin 2 fevral tarixli Sərəncamı ilə təsdiqlənmiş "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" əsasında ölkədə bərpaolunan enerji istehsalı siyasətinin strateji təməli qoyulub. Sənəddə qeyd olunmuş 5 Milli Prioritetdən biri "təmiz ətraf mühit" və "yaşıl artım"la bağlıdır. Bu isə yaşıl iqtisadiyyata keçidlə bağlı qarşıya yeni hədəflər qoyur. Bu prioritetlər qəbul edilənə qədər 2020-ci il yanvarın 9-da Azərbaycanın Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətləri arasında bərpaolunan enerji üzrə pilot layihələrin həyata keçirilməsi ilə bağlı imzalanmış müqavilə əsasında 2022-ci il yanvarın 13-də "ACWA Power" şirkəti ilə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib. 2022-ci il martın 15-də isə Bakıda "Qaradağ" Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi çərçivəsində "Masdar" şirkəti ilə dörd anlaşma memorandumu imzalanıb.

Bununla yanaşı, əvvəldə də qeyd etdiyim kimi Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib və 2022-2026-cı illər üzrə tədbirlər planı təsdiqlənib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

Elə bütün bunlara görə respublikamızda ekoloji təhlükəsizliyin təmin edilməsində vətəndaşların ekoloji cəhətdən maarifləndirilməsi vacib şərtlərdən biridir. Ekoloji maarifləndirmənin əhatə dairəsi uşaq və gənclərdən başlayaraq yaşlı nəslə qədər bütün sosial qrupları əhatə edir. Bu işdə kütləvi informasiya vasitələrindən səmərəli istifadə edilməsi tələb olunur. Son illərdə respublikamızda ekoloji təbliğatın genişləndirilməsində xeyli işlər görülmüşdür.

Prezident İlham Əliyevin və onun ailəsinin ətraf mühitin yaşıllaşdırılması ilə bağlı müxtəlif aksiyaların keçirilməsində fəal iştirak etməsi ekoloji maarifləndirməyə böyük bir nümunədir. Bu cür aksiyaların keçirilməsi insanlarda ekoloji şüurun formalaşmasına müsbət təsir edir.

Ekoloji maarifləndirmə ilə bağlı ətraf mühitin mühafizəsi və sağlamlaşdırılması sahəsində layihələr həyata keçirmək, müxtəlif ekoloji proqramlara hazırlıq və bu sahədə səmərəli təkliflər irəli sürmək istiqamətində respublikamızda həyata keçirilən tədbirləri də xüsusi qeyd etmək lazımdır. Məhz, IDEA İctimai Birliyi gənc nəsli müsbət və davamlı ekoloji dəyişiklik yaratmağa hazırlamaq naminə dialoq, liderlik və təhsil kimi başlıca prinsiplərə əsaslanan fəaliyyət göstərməkdədir.

Bu toplu Prezident İlham Əliyevin ekoloji siyasətə dair rəsmi materialları təqdim etməklə, bizi ekoloji və iqtisadi siyasətin kəsişdiyi mürəkkəb sahələrə səyahətə çıxarır, indiki reallığımızı formalaşdıran tarixi presedentləri və keçmiş təşəbbüslərin uğur və çatışmazlıqlarını araşdırır, iqtisadi rifah və ekoloji dayanıqlığın bir-birini istisna etmədiyi gələcək üçün yol xəritəsinə dair fikirləri təqdim edir.

Kitabda Qlobal iqlim dəyişmələri və atmosferin çirklənməsi ilə bağlı yaranan problemlərin təhlili, məişət tullantılarının idarə edilməsi, "təmiz şəhər" modeli, yaşıl iqtisadiyyatın fiskal və maliyyə komponentlərinin inkişafı, bərpa olunan və alternativ enerji mənbələrindən istifadə, yaşıl turizm, ekoloji vergi və təhsil haqqında fikirlər kitabın məzmununda xüsusi yer tutur.

Kitabla tanış olduqda görmək olar ki, Azərbaycan Prezidenti İlham Əliyev bu sahədə çox geniş fəaliyyət sahəsi yaratmış və həyata keçirilməsi işində nə qədər ağır, zəhmətli işləri öz üzərinə götürmüşdür. 20 illik fəaliyyəti dövründə Prezident İlham Əliyev ekologiyaya dair keçirdiyi dövlət tədbirlərində 9 dəfə geniş nitq söyləmiş, 61 dəfə çıxış etmiş, 17 görüş keçirmiş və 160-dan artıq müxtəlif tədbir və mərasimlərdə iştirak etmişdir. Kitabda müxtəlif çıxışlardan götürülmüş 185 dəyərli iqtibas verilmişdir.

Bu dördə ekologiyaya dair 20-ə yaxın Dövlət Proqramı, Milli Strategiya, Milli Proqram və Tədbirlər Planı qəbul edilmiş, 62 qanun, 97 fərman, 91 sərəncam imzalanmışdır.

Ekoloji maarifləndirmə işini genişləndirmək sahəsində də xeyli işlər görülmüşdür və görülməkdədir. Tərtib olunmuş bu kitabın da əsas qayəsi bundan ibarətdir.

**Sadiq Qurbanov,**
Milli Məclisin Təbii ehtiyatlar, energetika
və ekologiya komitəsinin sədri

**AZƏRBAYCAN RESPUBLİKASINDA 2024-CÜ İLİN “YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ” ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında 2024-cü il “Yaşıl dünya naminə həmrəylik ili” elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

# Azərbaycan Respublikasının Prezidenti
# İlham Əliyevin
# nitqlərindən, çıxışlarından, müsahibələrindən ekologiyaya və ətraf mühitə dair götürülmüş
# İ Q T İ B A S L A R

## (AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN 2003-2023-CÜ İLLƏR ƏRZİNDƏ NİTQLƏRİNDƏN, ÇIXIŞLARINDAN, BƏYANATLARINDAN, MÜSAHİBƏLƏRİNDƏN EKOLOGİYA VƏ ƏTRAF MÜHİTƏ DAİR GÖTÜRÜLMÜŞ İQTİBASLAR)

***"– Hörmətli Prezident, Amerikada prezident seçkiləri yaxınlaşdığı bir dövrdə həmin ölkədəki ermənilər prezident Buşa məktub göndərərək Bakı–Ceyhan neft kəmərinin Gürcüstandan yox, Ermənistan ərazisindən keçməsini təklif etdilər. Bu cür təklifləri necə qiymətləndirirsiniz?***

*– Bilirsiniz ki, ermənilər hər zaman bu boru xəttinin əleyhinə çıxıblar. Çünki onlar gözəl başa düşürlər ki, kəmər istifadəyə veriləndən sonra Azərbaycanın iqtisadi potensialı xeyli dərəcədə artacaq, güclənəcəkdir. Təbii ki, Azərbaycan iqtisadi cəhətdən güclü dövlətə çevrilərsə, əlbəttə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də üstünlük əldə edəcəkdir. İkincisi, bu layihə Azərbaycanı, Gürcüstanı və Türkiyəni bir daha yeni formada birləşdirən layihədir. Ermənistan onsuz da regionda gedən bütün iqtisadi layihələrdən kənarda qalır. Demək olar ki, təcrid olunub. Bu layihə Ermənistanı daha da təcrid edəcəkdir. Bütün bu amilləri nəzərə almaq şərtilə Ermənistan əvvəldən layihənin əleyhinə çıxmışdır. Sadəcə olaraq, Ermənistanın bu vaxtadək bütün cəhdləri nəticə verməmişdir. Ona görə də indi tələb edirlər ki, kəmər Ermənistan ərazisindən keçsin. Halbuki bu, mümkün deyil, biz buna heç vaxt razı ola bilmərik. Digər tərəfdən, erməni lobbisi dünyada fəaliyyət göstərən ekoloji qurumlara, qeyri-hökumət təşkilatlarına böyük təzyiqlər göstərir ki, guya bu layihə ətraf mühit baxımından təhlükəlidir. Əslində isə bu belə deyildir.*

***– Gürcüstanda da ətraf mühit adı altında Bakı–Tbilisi-Ceyhan layihəsinə qarşı çıxan bəzi qruplar var. Bəzi xarici ölkələr onları təşkilatlandırır, maliyyələşdirirlər. Bunların la¬yihə üçün maneə yarada biləcəyinə inanırsınızmı?***

*– Xeyr, artıq onların heç bir təsiri qalmamışdır. Bilirsiniz, bəzi ekoloji qurumlar bəlkə də, həqiqətən, narahatlıq hissləri keçirirlər. Amma onların böyük əksəriyyəti ermənilərin təsiri altında olan qurumlardır və burada ancaq siyasi motivlər var. "Mavi axın" layihəsi ətraf mühit üçün qat-qat təhlükəlidir. Amma baxın, onun tikintisində həmin təşkilatlardan heç birinin səsi çıxmadı. Nə üçün Bakı-Ceyhan kəmərinin əleyhinə çıxırlar? Bunun əsasında ancaq siyasi amillər dayanır. Bu təşkilatlar bizə kredit ayıran Dünya Bankına, digər beynəlxalq maliyyə qurumlarına da müraciətlər göndərmişlər. Onları bu işdən çəkindirmək üçün cəhdlər göstərmişlər. Amma onların heç birinin nəticəsi olmamışdır. Ermənistanın bu növbəti təxribat planı həyata keçməmişdir".*

***11 aprel 2004-cü il,***
***Türkiyənin "Şou-TV" kanalına müsahibəsindən***

*"Əlaqələrimizin sürətlə inkişaf etməsindən bir daha şad olduğumu vurğulayıram. Qarşıda çox böyük vəzifələr durur. Hamımız üçün böyük əhəmiyyət kəsb edən Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi diqqət mərkəzindədir. Eyni zamanda, bütün başqa sahələrdə də əlaqələr inkişaf edir və biz çox istəyirik ki, bu əla qələr da ha da güclənsin. O cümlədən ətraf mühit, ekologiya sahələrində də əməkdaşlığın çox bö yük önəmi vardır. Azərbaycan bu baxımdan müəyyən çətinliklər çəkir. Çünki sovet dövründə, ümumiyyətlə, ekologiya anlayışı yox idi. Ölkəmiz*

*müstəqillik əldə etdikdən sonra respublikamızın o qədər böyük iqtisadi-sosial və digər problemləri var idi ki, bu məsələ bir az arxa plana keçmişdi. İndi biz buna çox böyük əhəmiyyət veririk. Bir müddət əvvəl yeni nazirlik yarandı və bu sahədə böyük planlarımız vardır.*

*İndi öncül məsələyə çevrilən Azərbaycanda ətraf mühitin qorunması barədə mən müvafiq göstərişlər vermişəm və geniş proqram hazırlanır. Ümumiyyətlə, Azərbaycanda, xüsusilə Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılacaqdır. Əlbəttə, buna maliyyə vəsaiti lazımdır, təşkilatçılıq məsələləri öz həllini tapmalıdır və beynəlxalq məsləhətlər, tövsiyələr çox lazımdır. Bu baxımdan Türkiyə ilə Azərbaycan arasında əməkdaşlıq bu istiqamətdə çox uğurlu inkişaf edə bilər. Mən sizin səfərinizi məhz bu baxımdan qiymətləndirirəm".*

***8 iyul 2004-cü il,***
***Türkiyənin Ətraf Mühitin Mühafizəsi və Meşə Təsərrüfatı naziri Osman Pene ilə görüşdə söhbətindən***

*"Ətraf mühitin qorunması da bizim üçün çox vacib məsələdir. Xüsusilə neftin qalıqları ilə çirklənmiş torpaqların təmizlənməsi, meşə təsərrüfatının bərpası və digər məsələlər öz həllini tapmalıdır. Bu məsələlərlə bağlı bir neçə qərarlar qəbul edilib, sərəncamlar verilib, milli parklar yaradılıbdır. Keçmişdə ətraf mühitin qorunmasına böyük diqqət göstərilmirdi. Əgər xatırlayırsınızsa, Azərbaycan Sovet İttifaqının tərkibində olan zaman ümumiyyətlə biz "ekologiya" sözü eşitmirdik, heç belə bir məfhum da yox idi. Amma indi biz Azərbaycanın hərtərəfli inkişafı üçün, gənc nəslin sağlam böyüməsi üçün bu sahəyə də diqqət göstərməliyik".*

***12 may 2005-ci il,***
***Bakıda yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramının icrasına dair illik konfransda nitqindən***

*"Azərbaycanı istəməyən qüvvələr var və onların çox böyük maliyyə imkanları, çox böyük əlaqələri var. Mən qeyd etdim ki, bəzi siyasətçilər – əgər onları siyasətçi adlandırmaq mümkündürsə – Bakı–Tbilisi–Ceyhan neft kəmərinin pozulmasına çalışırdılar. Baxın, dünyada nə qədər kəmər tikilir. Qazaxıstandan Rusiyaya kəmər tikildi. Heç kim demədi ki, bu, ekologiyaya mənfi təsir göstərəcəkdir. O kəmər bu kəmərdən nə ilə fərqlənir? Rusiyadan Türkiyəyə Qara dənizin dibi ilə qaz kəməri, «Mavi axın» kəməri tikildi. Heç kim demədi ki, bu, ekologiyaya təsir göstərə bilər. Halbuki, əgər orada, dənizin dibində hansısa partlayış, yaxud da problem yaranarsa, görün, bu nə qədər böyük ekoloji fəlakət olacaqdır. Yaxşı, bizim kəmər nə üçün burada təhlükə yarada bilər?*

*Mən bu məsələlərlə on il ərzində bilavasitə məşğul olan adam kimi, bütün bunları yaxşı bilirəm. Bilirəm, nə qədər böyük səylər göstərdilər ki, bu baş tutmasın, amma alınmadı. Heydər Əliyevin qətiyyəti, onun cəsarəti, müdrikliyi, onun siyasi təcrübəsi və dünyadakı siyasi əlaqələri imkan vermədi ki, ermənilər öz çirkin arzularına çatsınlar. İndi Bakı–Tbilisi–Ceyhan kəməri artıq reallıqdır. Bunu istəməyən də bilir, buna tərəfdar olan da sevinir".*

***16 avqust 2005-ci il,***
***Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti və hərbi hissə komandirlərinin iştirakı ilə keçirilən müşavirədə nitqindən***

*"Bu gözəl lisey xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyır. Heydər Əliyevin Azərbaycan tarixində rolu və fəaliyyəti müstəsna əhəmiyyət kəsb edir. Burada deyildi ki, «Qara şəhər» adlandırılan bu ərazidə 1970-ci illərdə, demək olar, ekoloji fəlakət hökm sürürdü. Sənaye potensialının güclənməsi ilə yanaşı, bu ərazinin abadlaşdırılması, hesab edirəm, çox böyük nailiyyətdir. İndi buranı tanımaq mümkün deyildir. Bütün sahələrdə – istər ölkəmizin sosial-iqtisadi inkişafı işində, beynəlxalq aləmə inteqrasiya işində, Azərbaycanda güclü iqtisadi potensialın yaranması, neft strategiyasının uğurla icra olunması, Azərbaycanda vətəndaş cəmiyyətinin yaranması, ictimai-siyasi sabitliyin qorunması və möhkəmlənməsi işində Heydər Əliyevin rolu çox böyük əhəmiyyət kəsb edir. Bu özünü 1970-ci illərdə Sovet Azərbaycanının inkişafında və 1990-cı illərdə göstərirdi".*

***15 sentyabr 2005-ci il,***
***Ölkəmizdə yeni dərs ilinin başlanması və «Bilik günü» münasibətilə Bakının Xətai rayonundakı Heydər Əliyev adına liseydə keçirilmiş mərasimdə nitqindən***

*"Burada Balaxanıdakı zibillikdən söhbət açıldı. Mən bir dəfə səfərdən Bakıya qayıdarkən vertolyotla yuxarıdan müşahidə edirdim, çox acınacaqlı bir mənzərə idi. Oradan qalxan zəhərli tüstü bütün Bakını əhatə edir. Bəlkə bu, yerdə o qədər də hiss olunmur. Amma hündürdən baxanda bu, böyük bir ekoloji fəlakətdir. Mən göstəriş verdim, indi bu işlə məşğul olurlar. Balaxanıda böyük bir zibil emalı zavodunun tikilməsi nəzərdə tutulur. Bu həm yeni iş yerlərinin açılması deməkdir, eyni zamanda, Bakıda ekoloji vəziyyəti yaxşılaşdıracaqdır. Həm də bu zavod elektrik enerjisi hasilatını artıracaqdır. Bu haradasa, il yarım, iki il ərzində tikilə bilər. Artıq ilkin göstərişlər verilibdir və yaxın zamanlarda bunu həll etməliyik".*

***2 noyabr 2005-ci il,***
***Bakı şəhər icra hakimiyyətində şəhərətrafı kənd və qəsəbələrin sosial-iqtisadi inkişafına dair keçirilmiş müşavirədə yekun nitqindən***

*"Ətraf mühitin qorunması işində geniş ekoloji proqram qəbul edilməlidir. Bu barədə bu gün danışdıq. Çünki bizim imkanlarımız artır, iqtisadi potensial artır, amma insanların sağlamlığı bilavasitə ekoloji vəziyyətlə bağlıdır. Ona görə bu məsələyə diqqət göstərilməlidir".*

***31 yanvar 2006-cı il,***
***Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə 2005-ci ilin sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasda yekun nitqindən***

*"Ətraf mühitin qorunmasına dair bu yaxınlarda geniş müşavirə keçirilmişdir. Çünki buna böyük ehtiyac vardır. Bizim iqtisadi imkanlarımız artır, ölkədə işlər çox yaxşı gedir və belə olan halda ekoloji məsələlərə də böyük diqqət göstərilməlidir. Çünki bu hər bir vətəndaşa təsir edən amildir. Göstəriş verilibdir ki, bu məsələyə dair geniş proqram, sərəncam hazırlansın. İndi bu işlər görülür və yaxın zamanlarda geniş proqram tərtib olunacaqdır ki, Azərbaycanda və xüsusilə Bakıda, Abşeron yarımadasında ekoloji durum kəskin şəkildə yaxşılaşsın. Bütün aidiyyəti orqanlara müvafiq göstərişlər veriləcəkdir".*

***31 iyul 2006-cı il,***
***Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə keçən Nazirlər Kabinetinin 2006-cı ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasda giriş nitqindən***

*"Bilirsiniz ki, Amerika Konqresində ermənipərəst konqresmenlər tərəfindən bu layihəyə çox mənfi münasibət var. Bu da təbiidir. Çünki biz xatırlayırıq ki, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinə qərar veriləndə və o tikiləndə də onlar eyni hərəkətlər etmişdilər. Hətta Bakı–Tbilisi–Ceyhan əleyhinə bir kampaniya başlanmışdı, o vaxt internet saytı da açılmışdı. Müxtəlif bəhanələrlə, xüsusilə ekoloji məsələlərin qabardılması ilə çalışırdılar ki, buna problem yaratsınlar. Müəyyən mərhələdə buna nail oldular. Beynəlxalq maliyyə qurumları bir az tərəddüd də etdilər. Mən bunu yaxşı xatırlayıram. O vaxt bu məsələyə maliyyə ayıran təşkilatlar buna bir ara verdilər, məsələ bir neçə ay uzandı. Amma ondan sonra Azərbaycanın mövqeyi, təkidi və əlbəttə, bizimlə bərabər çalışan beynəlxalq şirkətlərin fəaliyyəti nəticəsində bütün bu çətinliklər aradan qaldırıldı. Yəni o vaxtda onların, Ermənistanın və erməni lobbisinin fəaliyyəti iflasa uğramışdı. Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin çəkilişində də eyni hərəkətlər etmişdilər ki, nə üçün bu, Ermənistandan yan keçir. Ona görə yan keçir ki, Ermənistan Azərbaycan torpaqlarını zəbt edibdir, işğalçı siyasət aparır. Belə olan halda, bizim aramızda heç bir əməkdaşlıq ola bilməz. Bütün yollar Ermənistandan yan keçəcəkdir.*

*Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə də onların müdaxiləsi heç bir səmərə verməyəcəkdir. Maliyyə mənbələrini biz özümüz müəyyən etmişik. Bizə heç kimdən kreditlər lazım deyil, heç kimin siyasi və maddi dəstəyi də lazım deyildir. Ermənipərəst konqresmenlər də bilməlidirlər, Azərbaycan elə ölkə deyil ki, kiminsə puluna möhtac olsun. Biz özümüz bu məsələnin həlli üçün kredit veririk, özümüz bu məsələni həll edirik və Azərbaycan, Türkiyə, Gürcüstan rəhbərliyinin və xalqlarının birliyi, iradəsi bunu da mümkün edəcəkdir.*

*Bu layihənin də çox böyük tarixi əhəmiyyəti var. Avropanı Asiya ilə birləşdirən, Azərbaycanı Türkiyə ilə dəmir yolu ilə birləşdirən layihə bizim həm iqtisadi, həm də siyasi gələcəyimiz üçün böyük əhəmiyyət kəsb edir. Əminəm ki, 2007-ci ildə artıq əməli, praktiki işlər, tikinti başlanacaq və qısa müddət ərzində biz Bakı–Tbilisi–Qars dəmir yolunu inşa edəcəyik. Beləliklə, Bakı– Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və Bakı–Tbilisi–Qars. Mən hesab edirəm və sizə də deyirəm ki, məhz biz bunu Bakı– Tbilisi–Qars adlandırmalıyıq ki, tam şəkildə bütün coğrafi nöqtələr burada öz əksini tapsın".*

***22 yanvar 2007-ci il,***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2006-ci ilin yekunlarına və 2007-ci ildə qarşıda duran vəzifələrinə həsr olunmuş iclasda nitqindən***

*"2007-ci ildə ekoloji proqramlar həyata keçiriləcəkdir. Keçən il biz geniş ekoloji proqram qəbul etdik. Orada bütün vəzifələr öz əksini tapıbdır. Maliyyə mənbələri də mövcuddur. Sadəcə olaraq qısa müddət ərzində ekoloji vəziyyətin yaxşılaşması istiqamətində işlər görülməlidir. Xüsusilə Bakıda və Abşeron yarımadasında. Çünki ən ağır ekoloji vəziyyət məhz buradadır. Azərbaycanın bölgələrində ekoloji vəziyyət çox yaxşıdır. Siz də, hamımız bölgələrdə olanda görürük ki, oranın havası da təmizdir, adam rahat nəfəs alır. Amma Bakıya qayıdanda görürük ki, havası ağırdır. Bu da təbiidir. Çünki böyük şəhərdir, həm neft-qaz mədənləri,*

*həm tıxaclar, maşınların sayının artması havanı korlayır. Ona görə ilk və əsas diqqət Bakı və Abşerona yönəldilməlidir və biz burada nə lazımdırsa onu da etməliyik. Heç bir vəsaitin ayrılmasında məhdudiyyət olmamalıdır, əksinə, mən sizə deyirəm və tələb edirəm ki, ekoloji vəziyyətin sürətlə, maksimum dərəcədə yaxşılaşması üçün tədbirlər görün".*

***22 yanvar 2007-ci il,***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2006-ci ilin yekunlarına və 2007-ci ildə qarşıda duran vəzifələrinə həsr olunmuş iclasda yekun nitqindən***

*"Ekologiya məsələləri həm bizi, həm də Dünya Bankını çox narahat edir. Biz geniş ekoloji proqramı qəbul edəndən dərhal sonra Dünya Bankından nümayəndələr gəlmiş və bizimlə bərabər işləmək arzularını bildirmişdilər. Bu da çox müsbət haldır. Bu, elə sahədir ki, oraya qoyulan sərmayə birbaşa gəlir gətirmir. Ancaq bu, bütövlükdə ölkənin inkişafı, insanların sağlamlığı, təbiətin qorunması üçün bizə lazımdır. Düzdür, Azərbaycanda bütövlükdə ekoloji vəziyyət yaxşıdır. Ancaq Bakı və Abşeron yarımadası haqqında bunu demək olmaz. Çünki uzun illər, əsrlər boyu neftlə çirklənmiş torpaq, gölməçələr burada ekoloji vəziyyəti mənfiyə doğru tam şəkildə dəyişmişdir. Bunları təmizləmək, bu vəziyyəti aradan qaldırmaq üçün böyük vəsait lazımdır. Bəlkə də, yüz milyonlarla dollar vəsait lazımdır və biz bunu edəcəyik. Çünki bu, insanların sağlamlığı üçün lazımdır. Görəndə ki, beynəlxalq təşkilatlar da bu işlərə qoşulur, əlbəttə ki, bu, bizə daha da güc verir. Ancaq, ilk növbədə, biz bunu öz imkanlarımız hesabına etmək istəyirik. Qəbul edilmiş ekoloji proqramda da bütün bu məsələlər təsdiq olunub və bu il onun icrasına başlanmalıdır".*

* * * *

*"Neft-qaz hasil edən ölkələrin təcrübəsi başqadır. Düzdür, orada da müxtəliflik var, amma bəzi hallarda nə qədər çox neft hasil olunursa, ölkə o qədər çox kasıblaşır, neftin nə qədər çox ixracı təmin edilirsə, insanlar o qədər çox müflisləşirlər. Belə nümunələr kifayət qədərdir. Amma biz daim bunu yadda saxlamalıyıq və elə etməliyik ki, neft-qaz amili Azərbaycana rifah gətirsin, sülh, insanlara rahatlıq gətirsin. Yoxsulluğun azaldılması, iş yerlərinin açılması və qeyri-neft sektorunun inkişafı, - o cümlədən neft sektorunun fəaliyyəti nəticəsində, - onu göstərir ki, şəffaflıq da təmin olunmalıdır və təmin edilir. Şəffaflıq bütün hallarda lazımdır, ilk növbədə, hasilat sənayelərində. Çünki əgər bunu təmin etməsək, gələcəkdə bizi böyük problemlər gözləyər. Ona görə hərtərəfli inkişaf, biznes mühitinin yaxşılaşdırılması, neft-qaz sektorunun inkişafı, iqtisadiyyatımızın şaxələndirilməsi də prioritet məsələ kimi qalır. Yeni müəssisələr, fabriklər, infrastruktur layihələri, elektrik stansiyaları, yollar, turizm, təhsil, səhiyyə, ekologiya – bütün bu istiqamətlərdə bizim proqramlarımız var və icra olunur. Əsas odur ki, daha da sürətlə icra olunsun və xüsusilə bölgələrdə proseslər daha da sürətlə getsin. Abadlıq işləri, bütün işlər zövqlə görülməlidir, yeni tikilən binalar müasir standartlara cavab verməlidir. Mən bir dəfə bunu demişəm, bir də demək istəyirəm ki, bizim mütəxəssisləri – rəssamları, dizaynerləri, zövqü olan insanları da cəlb etmək lazımdır. Yoxsa, hər kəsin zövqü ilə iş görsək, o qədər də ürəkaçan mənzərə yaranmayacaqdır."*

***13 fevral 2007-ci il,***
***Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının üç illiyinə həsr olunmuş konfransda Azərbaycan Prezidenti İlham Əliyevin yekun nitqindən***

*"Ətraf mühitlə bağlı vəziyyətə gəldikdə, biz bunun üzərində işləyirik. Bilirsiniz, bizə Sovet İttifaqından çox mənfi bir miras qalmışdır. Ümumiyyətlə, o vaxt dünyada ekologiya haqqında olan anlayış, belə bir məfhum bizdə yox idi. Biz sadəcə, təbii resurslardan istifadə edirdik. Məqsəd o idi ki, dayanmadan istehsal edək. Heç kim diqqət yetirmirdi ki, təbiətin vəziyyəti necədir. İndi Bakıda, Abşeron yarımadasında neftlə çirklənmiş bir çox göllər var. Azərbaycanın digər yerlərində ətraf mühitlə bağlı vəziyyət çox yaxşıdır. Göllərimiz, çaylarımız və dağlarımız yaxşı vəziyyətdədir.*

*O ki qaldı Bakının özünün rayonları, onlar neft hasilatı ilə əlaqədar çətin vəziyyətə düşübdür. Ona görə bizim ekoloji proqramımız qəbul edilibdir. Bu mənim tərəfimdən, Prezident Sərəncamı əsasında qəbul olunmuşdur. Biz bu proqram çərçivəsində gələn 5–10 il ərzində yüz milyonlarla dollar sərf edərək, Bakı ətrafında və digər yerlərdə neftlə çirklənmiş gölləri tamamilə təmizləyəcəyik və öz təbiətimizə onun gözəlliyini qaytaracağıq. Bu proqramı başladıqdan dərhal sonra Dünya Bankı bizimlə birgə işləməyə gəldi. Biz öz iradəmizi nümayiş etdirdik ki, vəsaitlərimizdən istifadə edəcəyik. Bizim digər yardıma ehtiyacımız yoxdur. Bu bizim əhalimiz üçün, həyatın yaxşılaşması üçün vacibdir. Biz ekoloji təşkilatlarla da işləyirik. Xüsusən, Zukkov Fondu ilə çalışırıq. Mən bu gün Mixael Zukkovla görüşdüm. Onlar ölkəmizə, iqtisadi inkişafa böyük töhfə verirlər."*

***15 fevral 2007-ci il,***
***Azərbaycan Prezidenti İlham Əliyev Almaniyanın Konrad Adenauer Fondu tərəfindən təşkil olunmuş "Azərbaycan XXI əsrdə - inkişaf və perspektivlər" mövzusunda geniş müzakirələrdə çıxışından***

*"Bəzən məlumatsızlıq əlavə problemlər yaradır. Ona görə də bu görüş – Azərbaycan–Almaniya biznes forumu çox yaxşı fürsətdir. İlk növbədə, siz imkanları araşdıra biləcək, gələn beş ildə Azərbaycanda nələrin baş verə biləcəyini müzakirə edəcəksiniz. Bizim bütün sahələri əhatə edən dövlət proqramlarımız var. Yoxsulluğun azaldılması, regional inkişafın təmin olunması üçün, eləcə də infrastruktur, enerji sektorunun inkişafı, o cümlədən alternativ enerji mənbələri ilə bağlı proqramlarımız var. Bizim ekologiya sahəsində də böyük proqramımız var. Hər bir proqramın özünün maliyyə mənbəyi var. Bunlar sadəcə, arzular deyil. 2007-ci ildə praktiki addımlar atılmalıdır və bu proqramların əksəriyyəti 2012-ci ilə qədər yekunlaşdırılacaqdır."*

***16 fevral 2007-ci il,***
***Azərbaycan–Almaniya biznes-forumunda nitqindən***

***"S u a l: Sizin məqsədiniz iqtisadiyyatın şaxələndirilməsini gücləndirmək və tarazlı iqtisadi inkişafa nail olmaqdır. Bu perspektivdə ölkənizdə Fransanın və onun şirkətlərinin rolunu necə dəyərləndirirsiniz? Fransada olduğunuz müddətdə enerji ilə bağlı sahələrlə yanaşı, ətraf mühit, bank, sığorta, yeyinti sənayesi, gömrük kimi sahələrdə əməkdaşlıq baxımından hər hansı irəliləyişə nail oldunuzmu? Sizin fikrinizcə, hər iki dövlətin marağında olan davamlı inkişaf və ətraf mühitin qorunması kimi sahələrdə əməkdaşlığı artırmaq olarmı?***

***İ l h a m Ə l i y e v:*** *Azərbaycanın enerji sektorunda və qeyri-neft sektorunda Fransanın bir sıra aparıcı şirkətləri uğurla fəaliyyət göstərir. Demək olar ki, Fransaya hər səfərim zamanı bu ölkənin işgüzar dairələri ilə görüşlərim olur. Dövlət səfəri çərçivəsində*

*də Fransanın nüfuzlu «Qaz de France», «Vinci», «BNP Paribas», «Société Générale» kimi şirkətlərinin, Lill şəhəri işgüzar dairələrinin nümayəndələri ilə görüşlərim olubdur. Bundan əlavə, bir sıra nüfuzlu Fransa şirkətlərinin nümayəndə heyətlərinin ölkəmizə xeyli sayda səfərləri zamanı mən onlarla görüşmüşəm. Hazırda qeyri-neft sektorunun inkişafı Azərbaycan iqtisadiyyatında prioritet məsələdir. Hesab edirəm ki, bu sahədə Fransa şirkətləri Azərbaycanda daha da fəal işləyə bilərlər."*

*Ətraf mühitlə bağlı məsələyə gəlincə, deyə bilərəm ki, bu sahədə bizə Sovet İttifaqından çox mənfi bir miras qalmışdır. Belə ki, o zamanlar ekologiya haqqında anlayış belə yox idi. Heç kim təbiətin vəziyyətinə fikir vermirdi. Hazırda bu sahəyə ölkəmizdə böyük diqqət yetirilir. Mənim tərəfimdən imzalanmış sərəncam əsasında ekologiya sahəsində proqram qəbul olunmuşdur. Biz bu proqram çərçivəsində gələn 5-10 il ərzində yüz milyonlarla dollar sərf edərək, Bakı ətrafında və digər yerlərdə neftlə çirklənmiş gölləri tamamilə təmizləyəcəyik. Fransa şirkətlərinin ətraf mühitin qorunması sahəsində xeyli təcrübəsi vardır. Bu mənada biz həmin istiqamətdə Fransanın şirkətləri, habelə müvafiq strukturları ilə əməkdaşlıq etməyə hazırıq.*

***17 may 2007-ci il,***
***Azərbaycan Prezidenti İlham Əliyevin Fransanın"La Lettre Diplomatigue" jurnalına müsahibəsindən***

*"Humanitar sahədə qəbul edilmiş qərarlar da öz bəhrəsini verir. Azərbaycanda çox yüksək sürətlə məktəb tikintisi aparılır, xəstəxanalar tikilir, insanları narahat edən əsas məsələlər öz həllini tapır. Ekologiya məsələlərinə xüsusi diqqət göstərməliyik. Əvvəllər maliyyə vəziyyətimiz bu sahəyə böyük investisiyalar qoymağa imkan yaratmırdı. Amma indi bizim maliyyə vəziyyətimiz yaxşılaşır, bu sahəyə mütləq böyük həcmdə investisiyalar qoymalıyıq.*

*Bildiyiniz kimi, ekoloji vəziyyətin yaxşılaşması üçün xüsusi proqram qəbul edilibdir. Bundan əlavə, təxirəsalınmaz tədbirlərin görülməsi üçün mən Prezident fondundan vəsait ayırmışam və Azərbaycanda 100 kənd içməli su ilə təmin ediləcəkdir. O kəndlər ki, orada içməli su çox keyfiyyətsizdir və insanlar bundan əziyyət çəkirlər. Bu, insanların sağlamlığına da çox mənfi təsir göstərir. Yəni, bu təxirəsalınmaz tədbirlər imkan verəcək ki, ekoloji cəhətdən ən çətin vəziyyətdə olan insanlar daha yaxşı yaşasınlar. Şübhəsiz ki, bütün Azərbaycanda ekoloji məsələlərə çox böyük diqqət göstərilməlidir.*

*Biz indi iqtisadi cəhətdən güclü ölkəyə çevrilirik, maliyyə çatışmazlığı artıq yoxdur və olmayacaq da. Biz siyasi cəhətdən bu bölgədə və geniş mənada qitədə öz yerimizi möhkəm tutmuşuq. Bir çox hallarda çox vacib məsələlərin həllində çox mühüm rol oynayırıq.*

*Çox böyük beynəlxalq məsələlərdə təşəbbüskarlığı da öz üzərimizə götürürük. Biz mütləq və mütləq elə etməliyik ki, Azərbaycanda ekoloji vəziyyət sağlamlaşsın, xüsusilə Abşeron yarımadasında. Burada neftlə çirklənmiş gölməçələr, məişət tullantılarının yandırılması və havanın çirklənməsi kimi məsələlərlə bağlı müxtəlif göstərişlər verilibdir. Sadəcə olaraq, onlar vaxtlı-vaxtında yüksək səviyyədə icra olunmalıdır ki, Abşeron yarımadasında və bütövlükdə, Azərbaycanın hər bir yerində ekoloji vəziyyət yaxşılaşsın. Bu, insanların sağlamlığına çox yüksək dərəcədə təsir göstərir.*

*Mən əminəm ki, biz bu məsələni həll edəndən sonra Azərbaycanda xəstəliklər də azalacaq və insanlar daha da sağlam olacaqlar. Bu bizə lazımdır, bizim insanlarımız sağlam olmalıdırlar. Ekoloji təhlükəsizlik məsələlərinə də böyük diqqət yetirilməlidir. Bununla bərabər, xaricdən gətirilən və Azərbaycanda istehsal olunan qida məhsullarına da böyük*

*diqqət verilməlidir. Azərbaycana keyfiyyətsiz məhsullar daxil olmamalı və ölkədə standartlara uyğun şəkildə məhsullar – istər sular, istərsə də müxtəlif növ içkilər və qida məhsulları buraxılmalıdır.”*

***1 avqust 2007-ci il,***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2007-ci ılın birinci yarısında sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda nitqindən***

*“Ölkəmiz müasirləşir, zənginləşir, gənc nəsil vətənpərvərlik ruhunda tərbiyə olunur. Fiziki sağlamlıq lazımdır. Bilirsiniz ki, biz bütün ölkədə idman qurğuları tikirik. Sağlamlıq olmalıdır, xəstəxanalar tikilir, ekoloji vəziyyət düzəlməlidir. Ona görə indi böyük sayda tədbirlər planı tərtib olunub, vəsait ayrılıb ki, Azərbaycanda ekoloji vəziyyət yaxşılaşsın. Nə üçün? İnsanlar sağlam olsunlar, Azərbaycan xalqı, Azərbaycan milləti güclü olsun, sağlam olsun. Biz istədiyimizə nail olaq, biz qüdrətlənək, zəngin dövlət yaradaq və bizim insanlarımız yaxşı yaşasınlar. Budur mənim əsas istəklərim. Əminəm ki, siz də bu fikirdəsiz və biz hamımız birlikdə doğma Vətənimizi gücləndirməliyik, bunu edirik və gələcəkdə də edəcəyik.”*

***23 avqust 2007-ci il,***
***Hacıqabul rayon uşaq tibb mərkəzinin təməlqoyma mərasimində nitqindən***

*“Ekologiya proqramı icra olunur və mən ümid edirəm ki, bunun nəticəsində Azərbaycanda və xüsusilə, Abşeron yarımadasında ekoloji problemlər öz həllini tapacaqdır. Uzun illər ərzində çirklənmiş, xüsusilə neft məhsulları ilə çirklənmiş əraziləri təmizləyəcək və insanlar üçün çox gözəl şərait yaradacağıq. Çünki ətraf mühitin qorunması hər bir ölkənin prioritet məsələsi olmalıdır, xüsusilə, ekoloji durumu o qədər də yaxşı olmayan bölgələrdə. Biz bunu etməyə qadirik. Artıq həm dövlət büdcəsindən, həm də təcili və təxirəsalınmaz tədbirlərin görülməsi üçün prezidentin ehtiyat fondundan kifayət qədər vəsait ayrılıbdır. Həm təmizlənmə işləri, həm də içməli su kəmərinin çəkilməsi, xüsusilə, ekoloji cəhətdən ən ağır vəziyyətdə olan yüzlərlə kəndə keyfiyyətli içməli suyun çəkilməsi məsələləri də həll olunur.”*

* * * *

*“Burada ekoloji məsələlərdən danışıldı, bu sahə də həmişə diqqət mərkəzində olmalıdır. Bu bizim sağlamlığımız, gənc nəslin sağlamlığı məsələsidir. Ətraf mühitin qorunması hər bir ölkənin inkişafını göstərən bir amildir. Biz isə müasir ölkə qururuq, ölkəmizi hərtərəfli inkişaf etdirmək istəyirik. Ona görə bu sahə də həmişə diqqət mərkəzində olmalıdır. Həm ətraf mühitin qorunması, çirklənmənin qarşısının alınması, həm də əhalinin təmiz su ilə təmin olunması məsələləri. İndi Oğuz–Qəbələ–Bakı su kəməri tikilir. Bu da tarixi bir layihədir. Uzun illər, bəlkə də onilliklər ərzində bu barədə müxtəlif söhbətlər gedirdi, danışıqlar aparılırdı, layihə öyrənilirdi. Ancaq biz bunun real tikintisinə başlamışıq və işlər uğurla gedir. Əminəm ki, gələn il Bakıya təmiz içməli su gətiriləcəkdir.*

*Bununla bərabər, digər istiqamətdə Samur–Abşeron kanalının tikintisi də davam edir və biz bu yaxın zamanlarda yəqin ki, Taxtakörpü su anbarının tikintisinə də başlayacağıq. Beləliklə, Azərbaycanı – Bakını və bütün bölgələri içməli su ilə təmin edəcəyik.*

*Bəzi hallarda yeni yollar çəkilən zaman, yaxud da infrastruktur layihələri həyata keçirilən zaman ağaclar məhv olunur. Burada Hüseyn Bağırov qeyd etdi, məhz bu məqsədlə böyük vəsait ayrılıbdır. İstənilən diametrdə olan ağacları köçürmək üçün xarici avadanlıq, maşınlar alınıbdır. Mən deyirəm ki, o maşınlar işə düşəndən sonra bir dənə də ağac kəsilməməlidir. Əgər hansısa avtomobil yolu çəkilirsə, yaxud da bir infrastruktur layihəsi həyata keçirilirsə, ağaclar sadəcə olaraq köçürülməlidir və yeni yerlərdə əkilməlidir. Ağacları kəsmək olmaz və əfsuslar olsun ki, bəzi hallarda biz görürük ki, həm Bakıda, həm də rayonlarda ağaclar kəsilir. Bu bizim təbii sərvətimizdir. Həm ekoloji baxımdan, həm də şəhərlərə gözəllik vermək baxımından. Əgər hansısa ağac götürülməlidirsə, o yalnız və yalnız köçürülməlidir. Əgər bu mümkün deyilsə, bir ağac əvəzinə, başqa yerdə minimun bir-iki ağac əkilməlidir. Mən xahiş edirəm ki, buna fikir verəsiniz."*

***22 oktyabr 2007-ci il,***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2007-ci ilin doqquz ayında sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda nitqindən***

*"Azərbaycana çox böyük valyuta axını gözlənilir. Biz neft satışından əldə olunacaq bütün vəsaiti, əlbəttə ki, ölkə iqtisadiyyatına yönəldə bilmərik. Çünki bu, böyük inflyasiyaya səbəb olacaqdır. Biz bu vəsaiti ən vacib, ən lazımlı olan iqtisadi infrastruktura, sosial məsələlərə yönəldəcəyik. Qalan vəsaiti isə biz xarici banklarda saxlamaqdansa, gərək layihələrə yönəldək. Bizim üçün lazım olan və iqtisadi səmərə verən layihələrə.*

*Eyni zamanda, Dövlət Neft Şirkətinin qarşısında vəzifə qoyulubdur ki, o, sosial məsələlər ilə də məşğul olsun. İndi Dövlət Neft Şirkətinin vəsaiti hesabına ölkəmizin müxtəlif bölgələrində yeni müalicə-diaqnostika kompleksləri, mərkəzləri, xəstəxanalar tikilir. Buna çox böyük vəsait ayrılır və bu xəstəxanalar ən yüksək səviyyədə tikilir. Dünyada olan ən qabaqcıl texnologiyalar, avadanlıqlar, tibbi ləvazimatlar onlarda quraşdırılır və bu proses davam edəcəkdir.*

*Eyni zamanda, göstəriş vermişəm ki, ekoloji məsələlərlə də ciddi məşğul olsunlar. Onilliklər ərzində çirklənmiş yerləri, xüsusilə Abşeron yarımadasında neftlə çirklənmiş yerləri təmizləsinlər və ilk növbədə, Bibiheybət neft mədəninin təmizlənməsi ilə məşğul olsunlar. İndi Bibiheybət neft mədəni elə gündədir ki, oraya baxanda adamın ürəyi ağrıyır. Biz gərək oranı təmizləyək və orada gözəl, yəni ekoloji cəhətdən ən müasir infrastruktur yaradılmalıdır. Parklar salınmalıdır ki, ora insanların istirahət elədikləri yerə çevrilsin. Bu, planlarda var və bu ekoloji məsələlərə də böyük diqqət göstərilməlidir."*

***14 noyabr 2007-ci il,***
***Azərbaycan Prezidenti İlham Əliyevin Sədrliyi ilə ölkənin energetika sektorunda vəziyyətə və qışa hazırlıq məsələlərinə dair müşavirədə yekun nitqindən***

*"Bu çox yaxşıdır. Amma eyni zamanda, mən tapşırıq vermişdim, Azərbaycanda da yeni güclü emal kompleksinin tikintisinə böyük ehtiyac var. Neft kimyası kompleksinin tikintisinə böyük ehtiyac var. Bizim neftayırma zavodlarımız işləyir. Sən də direktor olmusan, yaxşı bilirsən. Amma onlar hələ ki, tam, yəni dünya səviyyəsində məhsul buraxmır. Baxmayaraq ki yenidənqurma işləri aparılıb və bəzi məhsullar dünya səviyyəsinə çatdırılıbdır. Amma onlar çoxdan tikilib, ekoloji cəhətdən havanı korlayır. Azərbaycanda yeni,*

*müasir neft kimyası kompleksi tikilməlidir. Beləliklə, biz həm neftimizi, həm də qazımızı daha səmərəli şəkildə emal edib dünya bazarlarına çatdıracağıq. Bu həm məşğulluqdur, iş yerləridir, həm sənaye potensialıdır, həm də yenilikdir, müasirlikdir. Bilirsiniz ki, Avropada indi meyarlar çox güclənib, çox sərtləşibdir. Bizdə istehsal olunan dizel yanacağı, yaxud da kerosin ilə gələcəkdə dünya bazarına çıxmaq mümkün olmayacaqdır. Belə olsa, biz yalnız xam nefti satacağıq. O da bir yoldur, amma mən hesab etmirəm ki, bu bizim üçün əsas yoldur. Xam neft öz yerində, amma biz neft məhsulları bazarını da itirməməliyik. Nəzərə alın ki, indi biz müxtəlif ölkələrdə – həm qonşu ölkələrdə, həm də Avropada neft məhsullarının satışı ilə də məşğul olmaq istəyirik. Ona görə 2008-ci ildə bu sahədə konkret tədbirləri hazırlayın və məruzə edərsiniz. Bir sözlə, sənaye potensialının artımı bizim prioritet məsələmiz olmalıdır. 2008-ci ildə başqa sahələrdə də işlər qəbul edilmiş proqramlar əsasında gedəcəkdir. Nəqliyyat sektorunda həm magistral yollar, həm Bakının yolları, həm də körpülər, yol qovşaqları – bütün bunlar proqramda var. Biz onu Dövlət İnvestisiya Proqramına da salacağıq. Elə etməliyik ki, bütün yol infrastrukturu ən yüksək səviyyədə olsun, dünya standartlarına cavab versin. Həm mövcud yolları yenidən qurmalı, həm də mövcud olmayan, yeni şəhərlərarası yollar salmalıyıq ki, yol hərəkəti daha da rahat olsun. 2008-ci ildə də ekologiya məsələlərinə diqqət göstəriləcək, vəsait ayrılacaqdır. Biz böyük ekoloji proqram qəbul etdik. O, artıq icra olunmağa başlamışdır. Mən görürəm, artıq Bibiheybətdə birinci işlərə başlanmışdır. Mən o məsələni Dövlət Neft Şirkətinin qarşısında qoydum ki, Bibiheybət buxtasını və orada olan çirklənmiş bütün əraziləri siz təmizləməlisiniz. Onlar da mənə söz vermişdilər ki, oranı gözəl bir parka çevirəcəklər.”*

* * * *

*“Ora Bakının neftlə çirklənmiş əsas yerlərindəndir. Həm görüntü baxımından, həm də ekologiya baxımından çox mənfi təsiri olan bir yerdir. Amma tarixi bir yerdir. Azərbaycanın neft tarixi həm də oradan başlanmışdır. Ona görə biz o yeri abadlaşdırmalıyıq, orada gözəl parklar salınacaqdır. İndi belə bərbad vəziyyətdə olan yerləri biz yüksək səviyyəyə çatdıracağıq. Əlbəttə, ekologiya proqramı bunlarla bitmir. Neft Şirkəti vaxtilə neft sənayesinin fəaliyyəti nəticəsində çirklənmiş yerləri təmizləməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi də öz vəzifələrini bilir. Bu yaxınlarda içməli su baxımından ən pis vəziyyətdə olan kəndlərə suyun verilməsinə başlanmışdır. 50 kəndə su verilir.”*

***11 yanvar 2008-ci il,***
***Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2007-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2008-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda yekun nitqindən***

*“Bildiyiniz kimi, bir müddət bundan əvvəl yenə də ölkəmizin inkişafı və insanların sağlamlığının möhkəmləndirilməsi üçün geniş ekoloji proqram qəbul edilmişdir. Proqram icra olunmağa başlamışdır və ilk növbədə, Bakıda və Abşeron yarımadasında neftlə çirklənmiş gölməçələrin qurudulması, təmizlənməsi və onların yerində müasir infrastrukturun yaradılması, parkların salınması, ağacların əkilməsi nəzərdə tutulur. Bu işlər artıq başlanmışdır.*

*Eyni zamanda, içməli su baxımından ən ağır vəziyyətdə olan 50 kənddə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə yeni sutəmizləyici qurğular quraşdırılıbdır. Bu çox vacib məsələdir. Çünki Azərbaycanda bu baxımdan ən pis vəziyyətdə olan cəmi 100 kənd*

*var. Orada içməli suyun keyfiyyəti çox aşağı idi, insanlar, demək olar ki, suyu birbaşa arxdan götürüb içirdilər. İndi biz 50 kənddə proqramı icra etdik. Növbəti 50 kənddə bu yaxınlarda işlər tamamlanmalıdır. Görəndə ki, bu tədbirlərin çox gözəl səmərəsi var, mən göstəriş verdim ki, bu praktikanı başqa kəndlərə də tətbiq edək. Yəni, içməli suyun səviyyəsini yaxşılaşdıraq. Mənə verilən məlumata görə, hazırlanmış tədbirlər planının icrası nəticəsində 450 minə qədər əhali təmizlənmiş, ən yüksək keyfiyyətli su ilə təmin olunacaqdır. Bu da sağlamlıq deməkdir. Gələcək nəsillərin sağlamlığı, insanların həyatının keyfiyyəti deməkdir. Bu proqram da çox vacibdir. Mən buna çox böyük əhəmiyyət verirəm."*

***11 fevral 2008-ci il,***
***Azərbaycan Prezidenti İlham Əliyevin regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördillik yekunlarına həsr olunmuş konfransda yekun nitqindən***

*"Bəzi hallarda vəziyyətlə yaxından tanış olmayan, yaxud da qərəzli mövqedə dayanan beynəlxalq qurumlar buna görə bizi tənqid etməyə çalışırlar ki, Azərbaycanda silahlanma prosesi gedir və hərbi xərclər artır. Onlar bilməlidirlər ki, Azərbaycanın dövlət büdcəsi son dörd il ərzində 10 dəfə artıbdır. Əlavə artımlar nəticəsində daha da çox artacaqdır və hərbi xərclərin çoxalması ümumi kontekstdən çıxarılmamalıdır. Nəzərə alaq ki, biz müharibə şəraitindəyik. Ona görə, baxmayaraq, 1 milyard 300 milyon dollar çox böyük məbləğdir, mən hesab edirəm və əminəm ki, biz bunu daha da artırmalıyıq. İndi hesablamalar gedir. Hesab edirəm ki, builki müdafiə xərcləri 2 milyard dollara yaxın olmalıdır. Biz bu sahəyə diqqətimizi bundan sonra da yönəldəcəyik və Azərbaycanın artıq çox güclü müdafiə potensialı var. Bu, bölgədə ən böyük potensialdır və biz bunu artırmalıyıq. Beləliklə, əsasən, üç istiqamət üzrə artımlar edilməlidir. İnfrastruktur deyəndə, burada, əlbəttə ki, müxtəlif sahələr nəzərdə tutulur - nəqliyyat, energetika, neft-qaz sahəsi, turizm sahəsi, ekologiya layihələri. Yəni müxtəlif infrastruktur layihələri.*

* * * *

*"Növbəti aylarda dövlət investisiya xərcləri nəticəsində bir neçə sahədə çox böyük işlər görüləcəkdir. Yollar tikilir, bütün istiqamətlərdə bu proses çox sürətlə gedir və daha da sürətlə getməlidir. Su xətləri, qaz şəbəkələri, meliorasiya, ekologiya ilə bağlı məsələlər öz həllini tapmalıdır. Bu gün ekologiya və təbii sərvətlər naziri bu sahədə görülən işlər haqqında danışdı. Əlbəttə, böyük problemlər var. Xüsusilə Bakıda, Abşeron yarımadasında biz çox böyük işlər görməliyik - həm Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həm də bu çirklənmənin əsas səbəbkarı neft sənayesi tərəfindən. Yəni biz bu vəziyyətdən çıxmalıyıq. Çünki Sovet İttifaqı zamanında, ümumiyyətlə, ekoloji məsələlərə diqqət göstərilmirdi. Ancaq plan var idi, tələbat var idi - nəyin bahasına olursa-olsun, neft-qaz hasil edilməliydi. Ekoloji vəziyyətə isə fikir verilmirdi. Bu, həqiqətdir. Müstəqilliyimizin ilk illərində pulumuz yox idi ki, bu məsələlərə vəsait qoyaq. Xarici təşkilatlar da bu məsələdə çox passiv idilər və beynəlxalq maliyyə qurumlarına dəfələrlə etdiyimiz müraciətlər cavabsız qalmışdı. O vaxt xarici firmalar, yaxud da qurumlar vəsaiti ya gəlir gətirən sahələrə qoyurdular, ya da ki, onu banklardan götürürdülər. Neft-qaz - bu idi onları maraqlandıran. Bu da təbiidir. Ekoloji vəziyyət isə bizim dərdimizdir, bizim problemimizdir. Amma indi ki, maliyyə imkanlarımız var, ilk növbədə, bu sahəyə böyük investisiyalar qoymalıyıq. Bilirsiniz ki, bir müddət bundan əvvəl xüsusi proqram*

*qəbul edilmişdir. Mən hesab edirəm ki, qısa müddət ərzində Abşeron yarımadasında ekoloji vəziyyət sağlamlaşdırılmalıdır. Hüseynqulu Bağırov dedi ki, bəzi reytinq təşkilatları Azərbaycanı, Bakını bu məsələdə ədalətsiz tənqid etməyə çalışırlar. Bu, həqiqətdir, bununla biz başqa sahələrdə də üzləşirik. Reytinq təşkilatları sifarişlərlə işləyirlər. Onlar kimi tərifləmək, kimi tənqid etmək barədə bir, yaxud da ki, bir neçə mərkəzdən sifariş alırlar. Onlar da verilən sifarişlər əsasında da fəaliyyət göstərirlər. Ona görə təəccüblü deyil ki, Azərbaycan bir çox hallarda bu cür "beynəlxalq reytinq tərtib edən" təşkilatlar tərəfindən tənqid olunur. Bu, təzyiq mexanizmidir, bizə təzyiq etmək cəhdləridir.*

*Ancaq ekoloji məsələlərlə bağlı biz, əlbəttə ki, böyük proqramlar icra etməliyik. Dövlət Neft Şirkətinə də göstəriş verilib və onlar indi işə başlayıblar və proqram hazırlayırlar. Ekologiya və Təbii Sərvətlər Nazirliyinə və bütün aidiyyəti strukturlara da göstəriş verirəm ki, ekoloji məsələlərə çox böyük diqqətlə yanaşsınlar. Biz indi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə içməli su probleminin həlli ilə də məşğuluq. Bu görülən işlər, təmizləyici qurğuların quraşdırılması nəticəsində təxminən yarım milyon insan keyfiyyətli su ilə təmin olunacaqdır. Bu insanlar kanaldan, arxdan su içirlər, keyfiyyətsiz su içirlər. Ekologiya həm ölkə üçün, həm də insanların sağlamlığı üçün lazımdır."*

***14 aprel 2008-ci il,***
***Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin***
***2008-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına***
***həsr olunmuş iclasda yekun nitqindən***

*"Bu gün elə məsələ tapmaq çətindir ki, biz bunu edə bilməyək. Bax, bu müqəddəs ocağa gələrkən mən yolda maşını saxlatdım və yuxarıdan Bibiheybət buxtasına baxdım. Bir müddət əvvəl mənim tərəfimdən göstəriş verilmişdi ki, bütün bu ərazi neftlə çirklənmiş gölməçələrdən təmizlənsin. Bu ərazidə uzun illər – bir əsrdən çoxdur ki, neft hasil edilir və ekoloji vəziyyət çox acınacaqlı idi. Bu gün yuxarıdan bu əraziyə baxarkən gördüm ki, həqiqətən də elə məsələ yoxdur ki, biz bunu həll edə bilməyək. Artıq köhnədən qalan neft dirəkləri yığışdırılıb, Bibiheybət buxtasının ətrafında 30 mindən çox ağac əkilibdir. Ekoloji vəziyyət böyük dərəcədə yaxşılaşıbdır və vaxtilə ekoloji fəlakət sahəsi kimi tanınan bu ərazi bu gün artıq ekoloji cəhətdən ən təmiz yerlərdən birinə çevrilib və bu hələ başlanğıcdır. Bir ildən, iki ildən sonra o ağaclar böyüyəcək, gözəl parklar olacaq, orada insanların istirahəti üçün, yaşaması üçün çox gözəl imkanlar yaranacaqdır. Nə üçün mən bunu deyirəm, ona görə ki, bir daha qeyd etmək istəyirəm, müasir Azərbaycanın qarşısında elə problem yoxdur ki, biz bunu uğurla həll etməyək və bütün istiqamətlərdə bizim proqramlarımız uğurla icra edilir. Həyatımızın hər bir sahəsi üçün müvafiq proqramlar var və onların konkret icra mexanizmləri var, maliyyə resursları var. Ölkəmizdə gedən quruculuq-abadlıq işləri hər bir Azərbaycan vətəndaşını sevindirir. Biz nəinki transmilli enerji və nəqliyyat layihələrini icra edirik, biz ölkəmiz üçün ölkə daxilində çox böyük infrastruktur və sosial obyektlərin tikintisi ilə məşğuluq – təhsil sahəsində, səhiyyə sahəsində, yollar çəkilişi sahəsində – bütün sahələrdə".*

***12 iyul 2008-ci il,***
***Azərbaycan Prezidenti İlham Əliyevin Bibiheybət***
***ziyarət kompleksinin açılışında nitqindən***

*"İqtisadi və sosial məsələlərin həlli ilə bərabər, bütün başqa məsələlər də həll olunmalıdır. Mən bunu əvvəllər də demişəm. Bütün sahələr üzrə bizim proqramlarımız var. Ekoloji tədbirlərin güclənməsi işinə 2009-cu ildə daha da böyük vəsait ayrılmalıdır. Bu*

*proses başlanıbdır. Neftlə çirklənmiş ərazilər təmizlənir və bütövlükdə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün əlavə tədbirlər görülməlidir. Dövlət proqramı var, vəsait ayrılır. Mən hesab edirəm ki, biz bu sahəyə daha da böyük diqqət göstərməliyik. Çünki sirr deyil ki, Bakıda və Abşeron yarımadasındakı ekoloji vəziyyət bizi qane edə bilməz. Bunun müxtəlif səbəbləri var. Uzun illər ərzində bu ərazilərdə neft hasil olunubdur və deyə bilərəm ki, ekoloji normalara çox da böyük əhəmiyyət verilmirdi. İndi biz bu böyük işləri görməliyik. Neftlə çirklənmiş bütün ərazilərdə rekultivasiya işləri aparılmalıdır. Bu da çox böyükhəcmli işlərdir. Həm böyük vəsait, həm peşəkarlıq, həm də texnikanın alınmasını tələb edir. Ancaq biz elə məqsəd qoymuşuq ki, Bakının, Abşeron yarımadasının neftlə çirklənmiş bütün əraziləri təmizlənməlidir və beləliklə, Azərbaycanda ekoloji vəziyyət yaxşılaşacaqdır.*

*Bakı buxtasının təmizlənməsi üçün əlavə tədbirlər görülməlidir. Bu, kompleks tədbirlər olmalıdır. Həm təmizlənmə, həm kanalizasiya ilə bağlı işlərin sürətlə getməsi – bütün bu işlər görülməlidir. Əgər əlavə tədbirlər görülməlidirsə, vaxtında müraciət edin və nə lazımdırsa, biz edəcəyik".*

***6 avqust 2008-ci il,***
***Respublika Nazirlər Kabinetinin 2008-ci ilin birinci yarısının sosial-iqtisadi yekunlarına həsr olunmuş iclasda yekun nitqindən***

*"Ondan sonrakı illərdə həm tranzit ölkələrlə, həm maliyyə qurumları ilə, həm bizim neft-qaz hasilatında iştirak edən tərəfdaşlarla çox gərgin, ciddi və ağır, bəzi hallarda çox kəskin danışıqlar, müdrik siyasət nəticəsində bütün bu layihələr indi reallığa çevrilibdir. Onlar kağızda qala bilərdi, yəni bir fikir, bir əfsanə kimi qala bilərdi. Onsuz da bu layihələr əfsanə kimi tanınırdı və bunlara çox ciddi müqavimət göstərilirdi. Əfsuslar olsun ki, ölkə daxilində bəzi qüvvələr – mən onları antimilli qüvvələr kimi hesab edirəm – əvvəllər Azərbaycan iqtidarına yox, Azərbaycan dövlətinə qarşı fəaliyyət göstərirdilər. Bu gün o fəaliyyət sıfır dərəcəsindədir. Öz dövlətinin maraqlarını müdafiə edən, dövlətinin xoşbəxtliyini istəyən hər bir adam bu layihələri dəstəkləyir. Kim bu layihələrin əleyhinə çıxıb? İlk növbədə dünya erməniliyi, erməni lobbisi böyük tədbirlər görübdür, böyük kampaniya aparıblar, internet saytları yaradıblar, ekologiya məsələlərini buraya qatıblar, guya ki, bu, ekoloji məsələlərə ziyan vuracaqdır. Dünyada bizə qarşı, Azərbaycana qarşı çox ciddi kampaniya aparıblar. Hətta bəzi mərhələlərdə beynəlxalq maliyyə qurumları da bu layihələrin maliyyələşməsinə fasilə vermişlər. Bütün bunları mən yaxşı xatırlayıram. Nəyə görə?! Çünki dünya erməniliyi öz təsir imkanlarını işə salmışdı, müxtəlif ölkələrdə – ad çəkmək istəmirəm, ali qanunvericilik orqanlarının dəstə-dəstə üzvləri bəyanatlar yayırdılar ki, bu layihə ancaq o təqdirdə icra oluna bilər ki, Ermənistandan keçsin. Ermənistandan keçməsə, bu layihə icra olunmamalıdır, ona vəsait ayrılmamalıdır. O vaxt vəziyyət başqa idi. Bizim öz imkanlarımız yox idi ki, bunu maliyyələşdirək. Bu gün Azərbaycanın qarşısında elə problem yoxdur. Özümüz ölkə daxilində və xaricdə istənilən layihəni maliyyələşdirə bilərik. Amma o vaxt biz xarici maliyyə dəstəyindən asılı idik. Yəni çox ciddi kampaniya aparılırdı, müqavimət göstərilirdi. Bizi istəməyən qüvvələr, xüsusilə dünya erməniliyi, erməni lobbisi çox gözəl başa düşürdü ki, bu layihələr icra edildiyi halda, Azərbaycan xeyli dərəcədə güclənəcək, Azərbaycanın imkanları artacaq və Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində Azərbaycan güclü tərəf kimi çıxış edəcəkdir. Ona görə bizim bu layihələri uğurla icra etməyimiz erməniliyinə vurulan zərbədir, onların məğlubiyyətidir və dünya erməni lobbisinin iflasıdır, məğlubiyyətidir. Gənc Azərbaycan dövlətinin qələbəsidir.*

*Ancaq bu təbiidir, çünki bizi istəməyən qüvvələr çalışırdılar ki, bu layihələr baş tutmasın. Amma ölkə daxilindəki satqınlar, xainlər və beşinci dəstə – onların da bəziləri müxtəlif ekoloji bəhanələrlə bu layihələrin əleyhinə çıxırdılar. Onların əksəriyyəti bugünkü sıradan çıxmış müxalifətdə cəmləşibdir, bir hissəsi dırnaqarası qeyri-hökumət təşkilatlarında cəmləşibdir və bu gün fəaliyyət göstərir. Bir hissəsi xaricdən qrant almaqla, o cümlədən erməni mənbələrindən qrant almaqla Azərbaycan əleyhinə bu gün də kampaniya aparırlar. Bu gün də Azərbaycan dövlətini sarsıtmaq istəyirlər. Bu gün də arxadan zərbə vurmaq istəyirlər. Biz bilirik onlar kimlərdir və onlar da bilsinlər ki, biz onları tanıyırıq. Onlar bilsinlər ki, vaxt gələcək, Azərbaycan dövlətinin əleyhinə apardıqları o çirkin əməllərə görə cavab verəcəklər".*

* * * *

*"Çox böyük ekoloji proqram qəbul olunubdur. Bu pro-qram bütün məsələləri əhatə edir. Həm ətraf mühitin çirklənmədən qorunması, həm bu vaxta qədər çirklənmiş ərazilərin təmizlənməsi, həm də Kür–Araz çayları boyu yaşayan insanların içməli su ilə təmin olunması. Görülən tədbirlər nəticəsində artıq 10 minlərlə vətəndaşımız içməli su ilə təmin olunub, yeni, müasir təmizləyici qurğular tikilibdir. Bütün proqramın başa çatması nəticəsində bu bölgələrdə yaşayan 800 min insan təmiz içməli su ilə təmin olunacaqlar. Bu vaxta qədər kanaldan, yaxud da ki, birbaşa çaydan su içən insanlar ən təmiz su ilə təmin olunacaqlar. Bu həm həyati təhlükəsizlik, həm də sağlamlıq üçün çox böyük əhəmiyyət daşıyır. Bütövlükdə, biz ekoloji məsələlərin həllinə daha da ciddi diqqət verməliyik. Hazırda bu siyasət uğurla aparılır".*

***13 oktyabr 2008-ci il,***
***Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə nazirlər kabinetinin 2008-ci ilin doqquz ayında sosial-iqtisadi inkişafın yekunlarına həsr olunmuş geniş iclasda yekun nitqindən***

*"Samur–Abşeron kanalının tikintisinin də çox böyük əhəmiyyəti var. Taxtakörpü su anbarı tamamilə su təhlükəsizliyi məsələlərimizi təmin edəcəkdir. Bu da çox önəmlidir. Azərbaycanın su mənbələrinin böyük əksəriyyəti ölkəmizin hüdudlarının kənarında formalaşır, biz su təhlükəsizliyi məsələlərinə çox ciddi yanaşmalıyıq. Ekologiya nazirliyi xətti ilə bölgələrdə – Kür, Araz çayları boyunca yerləşən kəndlərdə sutəmizləyici qurğuların quraşdırılması və 100 minlərlə insanın içməli su ilə təmin edilməsi məsələləri də öz həllini tapır. Birinci mərhələdə bölgələrdə yaşayan 400 min insan, hansılar ki birbaşa çaydan, kanaldan götürdükləri suyu dədə-baba qaydaları ilə təmizləyərək istifadə edirlər, onlar artıq təmiz içməli su ilə təmin olunacaqlar. Ümumi proqram isə 800 min əhalini əhatə edir və göstəriş verilibdir ki, bütün su mənbələrimiz, çaylarımız olan yerlərdə müasir təmizləyici qurğular quraşdırılsın. Növbəti illərdə biz bu layihəni daha da geniş şəkildə həyata keçirəcəyik. Artıq bu barədə müvafiq göstərişlər də verilibdir.*

*Növbəti 5 ildə meliorasiya, suvarma sahəsinə böyük vəsaitlər, sərmayələr qoyulacaqdır. Suvarılan sahələrin artırılması ilə kənd təsərrüfatının səmərəli inkişaf etdirilməsi çox böyük əhəmiyyət kəsb edən məsələdir. Ümumiyyətlə, növbəti 5 ildə ekoloji məsələlərin həllinə çox böyük diqqət göstərilməlidir. Bir müddət əvvəl Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün böyük ekoloji proqram qəbul edildi. Xüsusilə Bakıda, Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılması, neftlə çirklənmiş ərazilərin təmizlənməsi,*

*rekultivasiyası, ağacların əkilməsi üçün lazımi göstərişlər verilibdir. Növbəti illərdə bu məsələyə çox böyük diqqət göstəriləcəkdir.*

*100 ildən çoxdur ki, Rusiya imperiyası və Sovet İttifaqı zamanlarında da, müstəqillik illərində də Azərbaycanda neft çıxarılır. Əfsuslar olsun ki, ekoloji məsələlərə diqqət göstərilməyib, "ekologiya" termini Sovet İttifaqı zamanında çox az işlənilib. İndi isə biz əsrlər boyu çirklənmiş torpaqları təmizləməliyik. Ekologiya Nazirliyi, Dövlət Neft Şirkəti və digər qurumlar bu işlərlə məşğul olur. Ən acınacaqlı yerlərdən biri olan Bibiheybət buxtasının ətrafında artıq parklar salınır, ağaclar əkilir, çirklənmiş gölməçələr təmizlənir. Bu, çox böyük vəsait tələb edir və biz o vəsaiti birbaşa insanların sağlamlığına, ekoloji vəziyyətin yaxşılaşmasına yönəldilən vəsaitdən ayırırıq.*

*Həllini gözləyən işlərimiz də çoxdur. Belə görünə bilər ki, ekoloji məsələlər sosial-iqtisadi inkişafla birbaşa əlaqəsi olmayan məsələlərdir. Ancaq belə deyil. Bu məsələlər hər bir ölkə üçün çox əhəmiyyətlidir və təsadüfi deyil ki, inkişaf etmiş ölkələrdə ekoloji məsələlərin həllinə çox böyük diqqət göstərilir. Azərbaycan da istisna olmamalıdır."*

***23 fevral 2009-cu il,***
***"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" icrasının yekunlarına həsr olunmuş konfransda yekun nitqindən***

*"Bir daha demək istəyirəm ki, bölgənin və Avropanın enerji təhlükəsizliyini təmin etmək üçün bizim imkanlarımız da var, iradəmiz də. Qarşılıqlı surətdə faydalı əməkdaşlığın dərinləşməsi bizə də, tərəfdaşlarımıza da lazımdır. Ekoloji tədbirlər haqqında da bir neçə kəlmə demək istəyirəm.*

*Ekologiya məsələləri hər bir ölkə üçün, vətəndaş üçün vacibdir. Bu sahəyə çox böyük diqqət göstərilir və bu da təbiidir. Bu elə sahədir ki, buraya qoyulan vəsaiti bəlkə də Azərbaycan iqtisadiyyatı da, vətəndaşları da görmürlər. Amma bunu həm indiki nəsillər, həm də gələcək nəsillər görəcəklər. Sağlam ekoloji mühit, sağlam hava, təmiz su – insanın həyatı üçün ən əhəmiyyətlidir. Elə hesab edilməməlidir ki, ekologiya sektoruna qoyulan vəsait heç bir nəticə vermir. Yox, nəticəni gələcək nəsillər görəcəkdir. Bir neçə il əvvəl qəbul edilmiş böyük ekoloji proqram icra olunur. Hesab edirəm ki, bu proqrama müəyyən əlavələr də edilməlidir və bu əlavələr edilir. Proqram qəbul ediləndə çay sularının təmizlənməsi layihələri yox idi, bu vaxta qədər görülmüş digər tədbirlər də nəzərdə tutulmurdu. Nəzarət gücləndirilməlidir və lazımi tədbirlər görülməlidir. Xüsusilə ağacların əkilməsi işində daha da fəal olmalıyıq. Bu yaxınlarda mənə məruzə edildi, Bakının və ətraf qəsəbələrin ekoloji xəritəsi də hazırlanıb. Ondan çox yer müəyyən edildi ki, orada kütləvi şəkildə ağacların əkilməsi nəzərdə tutulur. Mən bu layihəni dəstəklədim. Nazir tərəfindən mənə edilən məruzəni bəyənirəm və hesab edirəm ki, dərhal bu işlərə başlamalıyıq. Qısa müddət ərzində Bakıda və Bakının ətrafında ən azı 3 milyon ağac əkilməlidir. Nazirlər Kabinetinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Bakı Şəhər İcra Hakimiyyətinə tapşırıq verirəm ki, təkliflər planı hazırlayıb, ekoloji xəritəni təsdiq etmək lazımdır.*

*Bütün proqramın icrası üçün konkret tədbirlər planı hazırlanmalı, həm texniki, həm də maliyyə məsələləri həll edilməlidir. Ağacların müasir texnologiyaya uyğun şəkildə suvarılması, qorunması, xidmət göstərilməsi – bu işlər kompleks şəkildə görülməlidir. Bununla da biz Bakıda və Abşeron yarımadasında ekoloji sağlamlıq üçün çox böyük, bəlkə də tarixi bir iş görmüş olacağıq. Yenə də deyirəm ki, bunun nəticəsini biz gələcək nəslin sağlamlığında görəcəyik.*

*Bir məsələyə də toxunmaq istəyirəm. Mənə verilən məlumata görə, bəzi hallarda Bakıda hansısa obyektin tikintisi üçün ağaclar kəsilir, məhv edilir. Yerlər alınır, hasarlanır və hasarın dalında ağaclar məhv edilir. Sonra orada fərdi yaşayış evləri, hündürmərtəbəli binalar tikilir. Bu siqnallar mənə dəfələrlə daxil olubdur. Mən Hacıbala Abutalıbova göstərişlər vermişdim. Bu gün də həm yerli icra orqanlarına, həm də vəzifədən istifadə edən şəxslərə sonuncu dəfə xəbərdarlıq edirəm ki, bunu yığışdırsınlar. Mən Bakıda və Azərbaycanda ağacların kəsilməsinə qadağa qoyuram. Yalnız o şərtlə ağac kəsilə bilər ki, hansısa infrastruktur layihəsi icra olunur, yol genişlənir. Yaxud da ki, hansısa dövlət əhəmiyyətli tədbirin keçirilməsi üçün lazımdırsa, o zaman ağaclar çıxarıla bilər. Özü də maksimum çalışmalıyıq ki, ağaclar məhv edilməsin. İndi xüsusi maşınlar da alınıbdır. Bu maşınlarla ağacı kökü ilə bərabər çıxarıb başqa yerdə əkmək mümkündür. Düzdür, bütün ağacları bu yolla biz başqa yerdə əkə bilmərik. Çünki bunu bütün ağaclara tətbiq eləmək çətindir. Əgər hansısa bir dövlət əhəmiyyətli işlə, layihə ilə əlaqədar ağaclar kəsilməlidirsə, kəsilən bir ağacın əvəzinə on ağac əkilməlidir və buna nəzarət olmalıdır. Həm Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həm də şəhər, rayon icra hakimiyyətləri bu işlərdə ciddi dönüş yaratmalıdır. Bu, son xəbərdarlıqdır. Bundan sonra da mən eşidəm, biləm ki, haradasa, hansısa iş adamı, yaxud da vəzifəli şəxs və ya başqa hansısa adam yeri hasarlayıb, ağacları kəsib özü üçün mülk tikir, kəsilən ağacların yerində tikilən binalar səhəri gün dağıdılacaq və təqsirkar şəxslər cəzalandırılacaqlar."*

***22 aprel 2009-cu il,***
***Respublika Nazirlər Kabinetinin 2009-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasda yekun nitqindən***

*"Ekoloji tədbirlərin gücləndirilməsi üçün nə lazımdırsa, onu edirik. Bildiyiniz kimi, mən bu sahəyə xüsusi diqqət göstərirəm. Xüsusilə Abşeron yarımadasında ekoloji vəziyyətin ciddi şəkildə sağlamlaşdırılmasına böyük ehtiyac var. Elə etməliyik ki, Bakı və Abşeron yarımadası ekoloji cəhətdən ən təmiz bölgəyə çevrilsin. Nə üçün məhz bu əraziyə diqqət göstərilir? Çünki Azərbaycanın digər bölgələrində ekoloji vəziyyət çox yaxşıdır, təbiətimiz çox gözəldir. Bakıda və Abşeronda isə neft-qaz hasilatı nəticəsində yaranmış ciddi ekoloji problemlər təxirəsalınmaz tədbirləri gözləyir.*

*Bu məqsədlə müvafiq proqramlar başlanmışdır. Milyonlarla yeni ağacın əkilməsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə bərabər Dövlət Neft Şirkətinin iştirakı ilə neftlə çirklənmiş bütün yerlərin təmizlənməsi, onların yerində parkların salınması, Xəzər dənizinin Bakı buxtasının təmizlənməsi – bütün bunlar təxirəsalınmaz tədbirləri nəzərdə tutur.*

*Beləliklə, biz bütövlükdə ekoloji vəziyyətin yaxşılaşdırılmasına nail ola bilərik. Keçən müşavirədə ciddi xəbərdarlıqdan sonra Bakıda ağacların kəsilməsi, demək olar ki, dayanıbdır, tək-tək hallar var. Onlar da dərhal nəzərə alınır və bu qanunsuz işlərlə məşğul olan insanlar cəzalandırılır. Bu nəzarət yerli icra orqanları tərəfindən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən və bütün ictimaiyyət tərəfindən daim olmalıdır. Mən çox şadam ki, ictimaiyyət də bu məsələlərə çox müsbət yanaşır və nəinki yanaşır, ictimaiyyət tərəfindən verilmiş siqnallar dərhal tədbirlərin görülməsinə səbəb olur. Bakı şəhərində ağacların qanunsuz kəsilməsi dayandırılmalıdır və şadam ki, qısa müddət ərzində biz bu sahədə ciddi dönüşə nail ola bildik.*

*Bakıda tezliklə məişət tullantıları zavodunun tikintisi başlanmalıdır. Biz bu məsələ ilə bağlı uzun illərdir ki, məşğuluq. Müxtəlif şirkətlərin təklifləri daxil olubdur. Bildiyimə*

*görə, bütün tədbirlər görülüb və biz tezliklə zavodun tikintisinə başlamalıyıq. Bu zavodun olmaması şəhərin havasının çirklənməsinə çox mənfi təsir göstərir. Balaxanıda yandırılan məişət tullantılarının tüstüsü bütün şəhəri bürüyür. Ona görə işə nə qədər tez başlasaq, bir o qədər yaxşıdır.*

*İçməli su təchizatı ilə əlaqədar görülən tədbirlər gözəl nəticəsini verir. Ekologiya və Təbii Sərvətlər naziri qeyd etdi ki, 200 mindən artıq əhali içməli su ilə təmin edilibdir. Görüləcək tədbirlər nəticəsində Kür–Araz çayları boyu və digər çaylar ətrafında yerləşən kəndlərdə yaşayan insanların hamısı təmiz içməli su ilə təmin ediləcəkdir. Bununla bərabər, Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi gedir və inşaat daha da sürətlə getməlidir. Bakıda müxtəlif yerlərdə su anbarları tikilməlidir. Bu proses də başlanmışdır. Gələn ilin büdcəsi hesabına daha böyük su anbarlarının tikintisi nəzərdə tutulubdur. Əgər su anbarları tikilməsə, o zaman Oğuz–Qəbələ kəməri ilə gələn suyu saxlamaq mümkün olmayacaq və onun səmərəsi aşağı düşəcəkdir.*

*Bir müddət bundan əvvəl Azərbaycanda çox böyük Şəmkirçay su anbarının təməli qoyuldu. Bu, böyük, ölkəmiqyaslı layihədir. Layihənin icrası nəticəsində on minlərlə hektar torpaq suvarılacaq və kənd təsərrüfatı istehsalına böyük təkan veriləcəkdir. Qərb bölgəsində içməli su probleminin böyük hissəsi də həll ediləcəkdir. Hesab edirəm ki, bu layihəyə çox ciddi fikir verilməlidir. Gələn ilin büdcəsində də vəsait nəzərdə tutulacaqdır. Çalışmalıyıq ki, maksimum 3 il ərzində Şəmkirçay su anbarı istifadəyə verilsin.*

*Bu yaxınlarda mən alternativ enerji mənbələri ilə əlaqədar agentliyin yaradılması haqqında müvafiq sərəncam imzaladım. Biz bu sahəyə çox ciddi fikir verməliyik.*

*Düzdür, bu vaxta qədər biz bu işlərlə ciddi məşğul olmurduq. Çünki bizim üçün ilk prioritet enerji təhlükəsizliyimizi təmin etmək idi. Azərbaycanda son illər ərzində tikilən yeni elektrik stansiyaları bu məsələni həll edibdir. Biz bu gün artıq nəinki xarici enerji mənbələrindən asılı deyilik, qonşu ölkələrə – Rusiyaya, İrana, Gürcüstana və Türkiyəyə elektrik enerjisi ixrac edirik. Naxçıvandan Türkiyəyə 20 meqavata yaxın elektrik enerjisi ixrac edilir.*

*Biz bundan sonra mütləq alternativ enerji mənbələrinin yaranmasına çalışmalıyıq. İlk növbədə, kiçik çaylarda mini su elektrik stansiyaları tikilməlidir. Mənə verilən məlumata görə, Tovuzçay su elektrik stansiyasının tikintisi ilə bağlı müəyyən işlər görülür. Hesab edirəm ki, yaxın aylarda biz bu məsələni ciddi müzakirə etməliyik və lazım gələrsə gələn ilin büdcəsindən Tovuzçay su anbarının və elektrik stansiyasının tikintisi ilə bağlı müəyyən vəsait nəzərdə tutmalıyıq. Çünki bu tikinti 3-4 il davam edə bilər. Tovuzçay elektrik stansiyasının enerji potensialı 400 meqavata yaxın ola bilər. Bu həm çox böyük qənaət olacaq, həm də ki, alternativ enerji mənbələrinin yaranmasına xidmət göstərəcəkdir.*

*Külək və günəş enerjisindən də səmərəli şəkildə istifadə etməliyik. Bizdə həm külək kifayət qədərdir, həm də günəş. Belə gözəl təbii imkanlardan yararlanmalıyıq. Bu sahəyə yerli və xarici özəl şirkətləri də cəlb etmək olar. Əgər belə bir maraq olarsa – bildiyimə görə, həm xarici, həm də yerli şirkətlər maraq göstərir – bu sahədə özəl qurumlar da fəaliyyət göstərə bilərlər. Hesab edirəm ki, Azərbaycan dövləti gələn ildən başlayaraq dövlət büdcəsi hesabına pilot layihələr kimi həm külək, həm də günəş elektrik enerjisinin istehsalı üçün əməli-praktik işlər görməlidir.*

*Enerji təhlükəsizliyi məsələlərinə gəldikdə, bir daha demək istəyirəm ki, Azərbaycan tam şəkildə özünü təmin edib və bizim digər layihələrdə iştirakımız imkanlarımızı daha da genişləndirə bilər. Biz enerji təhlükəsizliyi məsələlərində beynəlxalq təşkilatlarla və dost ölkələrlə əməkdaşlıq edirik. Bu əməkdaşlıq qarşılıqlı maraq əsasında qurulur. Enerji sahəsində gələcək əməkdaşlıqda bazar iqtisadiyyatı prinsipləri üstün olmalı, azad rəqabət prinsipləri tam şəkildə təmin edilməli və dünyada mövcud olan presedentlər və praktika*

*bütün gələcək layihələrə də şamil edilməlidir. Qaz ehtiyatlarımız bizə ən azı 100 il kifayət edəcəkdir. Əlbəttə ki, biz bu işləri maksimum səmərə ilə görməliyik.”*

**22 iyul 2009-cu il,**
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2009-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasda yekun nitqindən***

*“Bakı–Tbilisi–Ceyhan neft kəməri ətrafında çoxlu spekulyasiyalar, çoxlu söhbətlər gəzirdi. Kəmərin çəkilməsini istəməyən tərəflər var gücü ilə çalışırdılar ki, biz buna nail ola bilməyək. Müxtəlif yerlərdə, internet saytlarında kampaniyalar aparılırdı. Xatırlayıram, «Bakı–Tbilisi–Ceyhan kampaniyası» adlı bir hərəkat da başlamışdı və buna ekoloji nöqteyi-nəzərdən yanaşmaq istəyənlər də az deyildi. Biz, əlbəttə ki, bütün ekoloji məsələləri təmin edirik. Ancaq ekologiya adı altında kəmərin tikintisinə gizli və açıq şəkildə müxalif mövqedə dayanan tərəflər bu amildən istifadə etmək istəyirdilər və hətta onların səyləri müəyyən dərəcədə, müvəqqəti olaraq nəticə də vermişdi. Çünki Bakı–Tbilisi– Ceyhan neft kəmərinin tikintisi böyük dərəcədə xarici maliyyə qurumlarının resurslarından asılı idi. Bizim o qədər imkanımız yox idi ki, bu kəməri özümüz maliyyələşdirək. Belə olan halda müəyyən müddətdə yubanma da olmuşdur. Mən bunu da çox yaxşı xatırlayıram. Amma buna baxmayaraq, Azərbaycan dövlətinin iradəsi, xarici neft şirkətlərinin uğurlu fəaliyyəti, beynəlxalq dəstək nəticəsində Bakı– Tbilisi–Ceyhan neft kəməri müvəffəqiyyətlə tikildi, istismara verildi və bu gün Azərbaycan neftinin dünya bazarlarına çatdırılmasında mühüm rol oynayır.”*

**16 sentyabr 2009-cu il,**
***“Əsrin müqaviləsi”nin 15-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə nitqindən***

*“Gələn il ekoloji tədbirlərin gücləndirilməsi nəzərdə tutulur. Biz bu sahəyə böyük əhəmiyyət veririk. Mən tam əminəm ki, bu sahə hamı üçün prioritet olmalıdır. Biz bu torpaqda yaşayırıq, bu havanı uduruq, bu suyu içirik. Azərbaycanda ekoloji tədbirlərin gücləndirilməsi insanların sağlamlığı üçün başlıca şərtdir. Bu məqsədlə indi çaylar boyu təmizləyici qurğular quraşdırılır. 200 mindən artıq əhali Dünya Səhiyyə Təşkilatının standartları səviyyəsində içməli su ilə təmin edilir. Bu məqsədlə hər il həm büdcədə, həm prezidentin ehtiyat fondunda vəsait nəzərdə tutulur. Biz nəinki Kür–Araz, bütün başqa çaylarda bu qurğuları tikməliyik və orada yaşayan insanlar təmiz su içməlidir. Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi də bu istiqamətdə atılan vacib addımdır. O da təmiz, saf bulaq suyudur.*

*Biz neftlə çirklənmiş əraziləri tezliklə təmizləməliyik. Bu proses başlanıb. Bibiheybətdə ən acınacaqlı vəziyyətdə olan sahələrdən biri artıq abadlaşıb, park salınıb. Neftlə çirklənmiş sahələrə baxanda adam dəhşətə gəlirdi, oralar fəlakət mənzərəsi idi. Orada artıq park salınıb. Qarşıya məqsəd qoyulur və icra edilir. Biz bunu bütün sahələrdə etməliyik. Azərbaycanın bu torpağı – Bakıətrafı bütün ərazilər təmizlənməlidir, rekultivasiya edilməlidir, neftlə çirklənmiş torpaqlar çıxarılmalıdır, yerinə ağaclar əkilməlidir. Bu, sağlamlıq deməkdir.*

*Hava da insanın sağlamlığı üçün ən vacib amillərdən biridir. Bu sahədə də kompleks tədbirlər görülməlidir. Mən beynəlxalq maliyyə qurumları, xüsusilə Dünya Bankı ilə bu*

*məsələ barədə dəfələrlə müzakirələr aparmışam. Onlardan xahiş etmişəm ki, bir kompleks tədbirlər planı üzərində birlikdə çalışaq, insan sağlamlığı üçün lazım olan tədbirləri tam təfərrüatı ilə təhlil edək və yol xəritəsini yaradaq, bunu tezliklə icra edək. Burada müxtəlif amillər vardır. Təkcə neft-qaz sənayesi deyil, avtomobillərin buraxdığı qazlar da havanı çirkləndirir. Bəlkə də ən çox çirkləndirmə mənbəyi elə budur. O da yanacağın keyfiyyətilə bağlıdır. Biz Avro-2, Avro-3 standartına keçməliyik. Bəzi ölkələr buna keçiblər. Çünki onlar benzini, dizel yanacağını xaricdən alırlar. Amma biz öz məhsullarımızdan istifadə edirik ki, o da standartlara uyğun deyildir. Neftayırma zavodları yenidən qurulmalıdır. Əslində, neftayırma zavodları Bakının mərkəzindən çıxarılmalıdır. İndi Bakıda «Qara şəhər» adlandırılan sahə yoxdur. Əvvəllər olub. «Qara şəhər» adlandırılan ərazi indi abadlaşır, parklar, yollar salınır. Neftayırma zavodları şəhərdən çıxarılmalıdır.*

*Ya gərək mövcud zavodlarda yenidənqurmanı davam etdirək, bu da böyük vəsait tələb edir. Ya da yeni böyük neftayırma, neft-kimya kompleksinin tikintisinə başlayaq ki, bütün ekoloji standartlara tam cavab versin. Mən hesab edirəm ki, 2010-cu il ərzində biz ciddi qərar qəbul etməliyik.*

*Dediyim kimi, ekoloji tədbirlər davam etdirilməlidir. Keçən dəfə danışdığımız kimi, hər yerdə ağaclar əkilməlidir. Mən istəmirəm ki, bu proses bir kampaniya xarakteri daşısın. Keçən dəfə bu məsələ barədə mən öz fikrimi bildirəndə bütün ölkə üzrə ağacəkmə kampaniyası başlamışdı, televiziya da onu işıqlandırırdı. Ancaq bir müddət keçəndən sonra bu, elə bil ki, aradan qalxdı. Yəni bizdə bu xüsusiyyət vardır, nəyəsə böyük şövqlə başlayırıq, prezidentin göstərişi var, hamı ağac əkir. Bir-iki aydan sonra bu unudulur. Aydındır ki, bu, mövsümlə bağlıdır. Demək istəyirəm ki, bu iş kampaniya xarakteri daşımamalıdır, daim aparılmalıdır.*

*Ekoloji tədbirlərin görülməsi prioritet xarakter daşıdığına görə mən təklif edirəm ki, gələn il Azərbaycanda «Ekologiya ili» elan edilsin. «Ekologiya ili»ni yüksək səviyyədə keçirmək üçün tezliklə tədbirlər planı hazırlansın, dövlət büdcəsində bu öz əksini tapsın və beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıqda bu amil nəzərə alınsın."*

***16 oktyabr 2009-cu il,***
***Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2009-cu ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclasda yekun nitqindən***

*"Ölkəmiz üçün vacib olan müxtəlif layihələr Azərbaycan Dövlət Neft Fondunun xətti ilə icra edilir. Su kəmərləri, suvarma kanalları, məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması, təhsil məsələlərinin həlli, növbəti ildən ekologiya və alternativ enerji mənbələrinin yaradılması sahəsində də Neft Fondunun vəsaitindən istifadə olunacaqdır. Bizim iqtisadi imkanlarımızın təməlində neft sənayesidir."*

***5 noyabr 2009-cu il,***
***Əfsanəvi neft daşlarının 60 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqindən***

*"Biz həm xarici, həm daxili, yerli investorları bu sahəyə investisiya qoymağa dəvət edirik. Çünki bu çox gəlirli və Azərbaycan üçün çox lazımlı sahədir. Bu həm bizə böyük üstünlük verəcəkdir, həm də neftimiz, qazımız daha da böyük həcmdə ixrac ediləcəkdir,*

*Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına xidmət göstərəcəkdir, biz də bütün resurslarımızdan səmərəli istifadə edəcəyik.*

*Bu gün artıq Azərbaycanın su resurslarının xəritəsi hazırdır. Biz gələn ildən kiçik çaylarda kiçikhəcmli elektrik stansiyaları tikməyə başlayacağıq. Azərbaycanda ilin böyük əksəriyyətində günəşli hava şəraiti, külək müşahidə olunur. Baxmayaraq, bəzi hallarda külək bizə əziyyət verir, xüsusilə bu gün. Biz sizinlə bu küləkli havada görüşürük. Amma bununla bərabər, külək enerjisindən istifadə etmək də bizim üçün çox sərfəli olacaqdır.*

*Bir sözlə, Azərbaycanın enerji potensialının yeniləşməsi, yaradılması işində çox vacib addımlar atılıb. Görülən bu işlər bizi tam qane edir. Qısa müddət ərzində biz nəinki öz daxili tələbatımızı ödəyə bildik, başqa ölkələrə də elektrik enerjisini ixrac edirik."*

***19 noyabr 2009-cu il,***
***Sumqayıt Elektrik Stansiyasının istifadəyə verilməsi mərasimində çıxışından***

*"İnformasiya texnologiyaları, kənd təsərrüfatı, infrastruktur, təhsil, səhiyyə, ekologiya sahələri indi prioritetdir. Təsadüfi deyildir ki, 2010-cu il «Ekologiya ili» elan olunub. Biz bu sahəyə daha çox diqqət yetirməliyik. Çünki Azərbaycanda neft hasilatına başlanan ilk dövrlərdən ekoloji məsələlərə fikir verilməyib. İndi isə bu sahədə böyük işlərin görülməsinə ehtiyac vardır. Biz çirklənmiş əraziləri, torpağı, Xəzər dənizini təmizləməliyik və bu layihə üçün böyük vəsait ayrılacaqdır. Biz digər layihələri də dünyanın aparıcı şirkətləri ilə birgə həyata keçirməyi planlaşdırırıq. Bu təcrübə artıq vardır. Keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan hətta qeyri-mütəşəkkil, kasıb və iqtisadiyyatı tənəzzülə uğramış ölkə olarkən, biz böyük beynəlxalq şirkətləri ölkəmizə sərmayə qoymağa cəlb etməyə nail olduq. O sərmayələrin əksəriyyəti enerji sektoruna yatırılmışdı və bu, təbii bir hal idi. Bu il isə biz tərəfdaşlarımızı ölkəmizin həm enerji, həm də qeyri-enerji sektorlarına sərmayə yatırmağa dəvət edirik."*

***9 dekabr 2009-cu il,***
***MEDEF-ə üzv olan iş adamları ilə görüşdə çıxışından***

*"Bu gün Azərbaycanın bölgələrində quraşdırılan avadanlıqlar dünyanın ən qabaqcıl xəstəxanalarında quraşdırılan avadanlıqlardan fərqlənmir. Ona görə ki, insanlarımızın sağlamlığı üçün kompleks tədbirlər görülür. İdman da o tədbirlərin sırasında öz yerini tutur. Ekoloji tədbirlər də gücləndirilir. Gələn il Azərbaycanda «Ekologiya ili» elan edilib. Əminəm ki, gələn il ekoloji vəziyyətin yaxşılaşdırılması sahəsində çox vacib işlər aparılacaqdır. Əlbəttə, təkcə gələn illə məhdudlaşmayacaq, ondan sonrakı illərdə də bu işlərə böyük əhəmiyyət verəcəyik."*

***25 dekabr 2009-cu il,***
***Milli Olimpiya Komitəsinin idmançılara, məşqçilərə və idman mütəxəssislərinə mükafatları təqdim etməsi mərasimdə nitqindən***

*"2010-cu il Azərbaycanda «Ekologiya ili» elan edilmişdir. Bu da təsadüfi deyildir. Bu, insanların sağlamlığına birbaşa təsir edən məsələlərdir. Azərbaycanda ekoloji vəziyyət çox yaxşıdır. Bizim təbii şəraitimiz, gözəl təbii imkanlarımız vardır. Təmiz hava, təmiz bulaq suları, təmiz çaylar. Lakin Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına böyük ehtiyac vardır. Uzun illər, əsrlər ərzində neft-qaz sənayesinin inkişafı nəticəsində Abşeronun*

*böyük əraziləri həm neftlə, həm də neft tullantıları ilə çirklənmişdir. Biz böyük təmizlik işləri aparmalıyıq. Bu, böyük vəsait tələb edir, ancaq biz bunu etməliyik.*

*Biz qısa müddətdə hər sahədə dönüş yarada bildik: həm dövlət siyasətində, həm ictimai fikirdə. Mən görürəm ki, təşəbbüslərimiz əhali tərəfindən necə də gözəl qarşılanır, insanlar bu təşəbbüslərə qoşulurlar, iməciliklər keçirilir, kütləvi qaydada ağaclar əkilir. Bir xalq hərəkatı formasını almışdır, belə də olmalıdır. Çünki bu, ümummilli işimizdir, onu lazımi səviyyədə görməliyik. Ekologiya məsələlərinin, ətraf mühitin təmizlənməsi məsələlərinin həlli nəinki bu il, bundan sonrakı illərdə də prioritet məsələ kimi qalacaqdır.*

*Məişət tullantıları zavodunun istifadəyə verilməsi nəticəsində xeyli irəliləyişə nail olacağıq. Artıq bu gün Balaxanı zibilxanasından o tüstülər gəlmir. Orada həm çeşidlənmə, həm də təmizlənmə işləri aparılıb. Necə deyərlər, bu xoşagəlməz vəziyyətin qarşısını qısa müddətdə çox böyük səmərə ilə aldıq.*

*Bakıda və Abşeron yarımadasında milyonlarla yeni ağac əkiləcəkdir. Mən çox şadam ki, bölgələr də bu təşəbbüsə qoşulublar. Baxmayaraq ki, bölgələrimizin böyük əksəriyyətində meşə təsərrüfatı, gözəl dağlar, meşələr vardır, orada da təşəbbüsə qoşulurlar.*

*Sutəmizləyici qurğuların quraşdırılması davam etməlidir. Kür–Araz çayları boyu və başqa çaylar üzərində bu proses dayanmamalıdır. Bunun üçün də lazımi vəsait ayrılacaqdır. Keçən ilin sonunda mən Hövsan aerasiya stansiyasının açılışında iştirak etdim. Bu da çox böyük və ölkəmiz üçün çox vacib olan layihədir. Artıq kanalizasiya sularının böyük hissəsi təmizlənmiş qaydada Xəzər dənizinə axıdılır. Həm dənizin ekologiyasını qoruyuruq, həm də Azərbaycanda çox vacib olan su-kanalizasiya problemlərinin həlli üçün bu işləri görürük.”*

***18 yanvar 2010-cu il,***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2009-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasda yekun nitqindən***

*“Bu il Azərbaycanda «Ekologiya ili» elan edilib. Bu da təsadüfi deyildir. Çünki indi ən böyük diqqət bu sahəyə göstərilir. Biz xüsusilə Bakıda, Abşeron yarımadasında ekoloji vəziyyəti qısa müddət ərzində yaxşılaşdırmalıyıq. Bölgələrdə də bu məsələyə diqqət göstərilməlidir. Konkret proqramlar vardır və yerli icra orqanları bu işlərə fəal qoşulublar. Mən bunu alqışlayıram. Daha da fəal olmaq lazımdır ki, biz istədiyimizə nail olaq. Biz Azərbaycanı ekoloji cəhətdən ən təmiz ölkəyə çevirməliyik. Baxmayaraq ki, əsrlər boyu xüsusilə Bakı və ətrafında neft mədənlərində hasilatla bağlı məsələlər o qədər də ekoloji standartlara uyğun deyildi. Bizi böyük işlər gözləyir. Neftlə çirklənmiş bütün əraziləri, gölməçələri təmizləməliyik, Xəzər dənizinin buxtasını təmizləməliyik. Məişət tullantıları zavodunun tikintisi nəticəsində artıq ekoloji vəziyyət xeyli dərəcədə yaxşılaşdırılacaqdır.”*

***12 mart 2010-cu il,***
***“Regionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda yekun nitqindən***

*“Kənd təsərrüfatına 14 milyon manat, perspektivdə heyvandarlıq kompleksi ilə bərabər inşa olunacaq gübrə fabrikinə 5-6 milyon manat sərmayə qoyuluşu nəzərdə tutulur. Yəni burada layihə tamamlanana qədər 36 milyon manat sərmayə yatırılacaqdır. Bu günə qədər məqsədimiz ekoloji təmiz məhsul istehsal etmək və əkin aparmaqdır. Hazırda Avropa standartlarına uyğun sertifikat almaq üçün işlər görülür. Şirkətimizin araşdırma-tədqiqat*

*mərkəzi dünyanın kənd təsərrüfatı üzrə qabaqcıl mütəxəssisləri ilə işbirliyi qurmuşdur. Onların arasında ABŞ, Hindistan, Türkiyə, Hollandiya, İsraildən mütəxəssislər vardır. İnşallah yeni texnologiyalar tətbiq etməklə 3 il sonra, cənab Prezident, biz bu torpağı ekoloji təmiz əraziyə çevirəcək, kimyanı bu ərazidən çıxaracağıq. Burada ekoloji təmiz məhsul emalı ilə Azərbaycana imic, nüfuz, Azərbaycan xalqına isə sağlamlıq bəxş edəcəyik."*

***29 aprel 2010-cu il,***
***Biləsuvarda müasir konserv zavodunun işə salınması mərasimində çıxışından***

*"Biz ciddi ekoloji tədbirləri görürük. İlk növbədə ona görə ki, ekoloji vəziyyətin yaxşı olmaması insanlara mənfi təsir göstərir. Təmiz hava, təmiz su, təmiz ətraf mühit - biz bütün bunları ona görə edirik ki, insanların sağlamlığını qoruyaq. Yəni, bu sahəyə ciddi diqqət göstərilməlidir.*

*Bu ildən biz Avro-2 standartına keçirik. Hesab edirəm ki, bu da çox vacib addımdır. Mən şəxsən hesab edirəm ki, biz bu sahədə bir az gecikmişik. Bunu daha əvvəl etməli idik. Ancaq burada obyektiv səbəblər vardır. Neftayırma zavodlarımız uzun illərdir ki, fəaliyyət göstərir. Orada istehsal olunan yanacaq imkan vermirdi ki, biz Avro standartlarına daha da sürətlə keçək. Zavodların modernləşdirilməsi prosesi gedir, yeni neftayırma kompleksinin tikintisi nəzərdə tutulur. Biz elə etməliyik ki, dünyada, Avropada mövcud standartlara maksimum dərəcədə yaxın olaq. Avro-2-yə keçmək, sadəcə olaraq birinci mərhələdir. Biz elə etməliyik, Avropa İttifaqında bu sahədə olan standartlara maksimum dərəcədə yaxın olaq.*

*Mütəmadi qaydada ekoloji monitorinq aparılmalıdır. Bu il geniş şəkildə ekoloji tədbirlər nəzərdə tutulur. Elə etməliyik ki, büdcədən bu məqsədlər üçün nəzərdə tutulan vəsait vaxtında verilsin. İlin təxminən dörd ayı keçibdir. Çox işlər görülübdür. Xüsusilə, ağacəkmə ilə əlaqədar digər işlər görülübdür. Keçən dəfə dediyim kimi, biz artıq çirklənmiş göllərin təmizlənməsinə dərhal başlamalıyıq. Büdcədə vəsait nəzərdə tutulub. Elə etməliyik ki, bütün tender prosedurları tezliklə başa çatsın ki, bu işlər ləngiməsin. Bakı buxtasının təmizlənməsi işləri də bu il ciddi aparılmalıdır. Bakı buxtasına çirkab axıdan kanalizasiya xətlərində ciddi tədbirlər görülməlidir, təmizləyici qurğular tikilməlidir. Aidiyyəti orqanlar təkliflər hazırlasınlar. Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu yaxınlarda mənə Bakı buxtasına çirkab axıdan xətlərin xəritəsini vermişdir. Bu, dözülməz bir haldır. Bakı buxtası Bakının, ölkəmizin sərvətidir.*

*Biz Bakı bulvarında geniş quruculuq işləri aparırıq. Dörd kilometr uzunluğu olan bulvarda çox müasir səviyyədə abadlıqquruculuq işləri aparılır. Bakı bulvarı, mən şəxsən elə hesab edirəm ki, dünyanın ən gözəl bulvarıdır. Ən gözəl bulvarlarından biri deyil, ən gözəl bulvarıdır. Həm təbii vəziyyətinə, abadlığına və yaradılmış rahatlığına görə. Bakının gözəlliyi bənzərsizdir, təkrarolunmazdır. Bakı buxtası Bakının əsas gözəlliklərindən biridir. Biz bulvar hissəsini genişləndirdik. Orada görülən tikinti işləri imkan verir ki, insanlar düz dənizin qırağı ilə gəzə bilsinlər, dənizə yaxın olsunlar. Əvvəlki illərdə bu belə deyildi. Yadınızdadır, orada daşlar qoyulmuşdu, dənizlə ünsiyyət mümkün deyildi. Ancaq bu gün elə şərait yaratmışıq ki, insanlar düz dənizin qırağı ilə gəzə bilirlər. Elə etməliyik ki, su təmiz, şəffaf olsun və heç bir qoxusu olmasın. Buna nail olmaq üçün orada bütün təmizləyici tədbirlər görülməlidir, özü də çox böyük sürətlə."*

***14 aprel 2010-cu il,***
***Nazirlər Kabinetinin 2010-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasda yekun nitqindən***

*"Azərbaycanda bu sahədə də böyük işlər görülür. Bütün bölgələrdə müasir xəstəxanalar, diaqnostika mərkəzləri tikilibdir. İndi doğum evlərinin tikintisi sürətlə gedir. Bunun nəticəsində Azərbaycanda uşaq ölümünün səviyyəsi aşağı düşübdür. İnsanlarımızın sağlamlığını təmin edən tədbirlərin sayı çoxdur - həm tibbi xidmət, eyni zamanda, təmiz ekoloji vəziyyət. Leriklilərin bu cəhətdən bəxti gətirib. Onlar çox gözəl təbii şəraitdə yaşayırlar. Ancaq başqa müxtəlif yerlər vardır ki, orada ekoloji vəziyyət o qədər də yaxşı deyil, xüsusilə neftlə çirklənmiş ərazilərdə. Biz indi böyük proqramlar icra edirik ki, çirklənmiş gölməçələri qurudaq, təmizləyək, abadlaşdıraq, Abşeron yarımadasında da ekoloji vəziyyət bizi qane etsin. Bütün işlər görülür. Böyük proqram icra olunur. Həm Xəzər dənizinin təmizlənməsi, kanalizasiya sisteminin quraşdırılması, həm də ağacəkmə kampaniyası davam etdirilir. Azərbaycan əhalisi bu və ya digər bölgədən asılı olmayaraq, təmiz ekoloji şəraitdə yaşamalıdır".*

***25 iyun 2010-cu il,***
***Lerik rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından***

*"Bu il Azərbaycanda «Ekologiya ili» elan edilibdir və mən çox şadam ki, ilin birinci yarısında bu sahədə görülən tədbirlər öz nəticəsini verir. Artıq Azərbaycanda bu il bir neçə milyon ağac əkilibdir. Təkcə Bakı və Abşeron yarımadasında 800 min ağac əkilibdir və bu proses payızda davam etdiriləcəkdir. Ancaq tədbirləri təkcə «Ekologiya ili»ndə görməməliyik. Bu, daimi proses olmalıdır və Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün kompleks tədbirlər görülür. Bu ay biz artıq Avro-2 standartına keçdik. Bu da, hesab edirəm ki, çox vacib və əlamətdar hadisədir. Bu, birinci addımdır, bu bizim bu məsələyə nə qədər ciddi yanaşmağımızı göstərir. Ancaq bu addımdan sonra əlavə başqa addımlar da atılmalıdır. Yəni Avro-2 bizim son hədəfimiz deyil, ondan sonra Avro-3, Avro-4, Avro-5 var, yəni görülən bütün işlər bu istiqamətə yönəldilməlidir. Avro-2 standartlarına keçid artıq çox ciddi bir addımdır.*

*Bakıda bildiyiniz kimi, məişət tullantıları zavodu tikilir. Balaxanı poliqonunda görülən işlər artıq ekoloji vəziyyətin yaxşılaşmasına gətirib çıxarıbdır. Artıq o bölgədən ənənəvi tüstülər qalxmır. Vaxtilə oradan qalxan tüstülər bütün şəhəri bürüyürdü və insanların sağlamlığına böyük ziyan idi. Artıq bu məsələ də öz həllini tapıbdır. Yəni ciddi yanaşma olanda və konkret tədbirlər görüləndə hər bir məsələ öz həllini tapa bilər. Bəziləri hesab edirdi ki, Balaxanı poliqonu elə orada bizə əbədi problem yaradacaq, bunun qabağını almaq heç cür mümkün deyil və bu, böyük bir fəlakətdir, orada yığılan tullantılar elə yavaş-yavaş yanacaq və tüstü şəhəri bürüyəcəkdir. Biz göstərdik ki, əgər iradə varsa və ciddi yanaşma varsa, hər şeyi etmək mümkündür."*

* * * *

*"Bu çox böyük layihədir, həm praktiki əhəmiyyəti var, həm də rəmzi xarakter daşıyır. Neft kəmərindən əldə edilmiş gəlirləri biz su kəmərinin tikintisinə yönəltdik. Yəni, böyük, daim diqqət mərkəzində olan bir layihədir. Bu layihənin ilin sonuna qədər uğurla başa çatdırılması tələb olunur. Ümumiyyətlə, ekoloji vəziyyətlə bağlı görülən işlər təkcə bu məsələlərlə məhdudlaşmır. Azərbaycanda son 6 ildə milli parkların, qoruqların, yasaqlıqların ərazisi iki dəfə artıbdır. Ölkə ərazisinin 10 faizi məhz milli parklar, qoruqlar, yasaqlıqlardır. Bu çox böyük bir rəqəmdir və onu göstərir ki, biz öz təbii sərvətimizə, təbiətimizə çox böyük həssaslıqla yanaşırıq. Elə etməliyik ki, təbiəti maksimum dərəcədə qoruyaq."*

* * * *

*“Qaz anbarlarının həcminin artırılması işində yaxşı nəticələr var. Enerji sektorunda işlər cədvəl üzrə gedir. Bu il biz 3 yeni kiçik hidroelektrik stansiyasının təməlini qoyduq. Azərbaycanda yeni proqram, bərpa olunan enerji növlərinin inkişafı proqramı çərçivəsində Göyçay, Ağdaş və Balakən rayonlarında bu stansiyalar artıq tikilməyə başlamışdır. Bu yaxınlarda mən Balakəndə olarkən «Balakən-1» stansiyasının təməl daşını qoydum. Ancaq təkcə o rayonda 10 kiçik elektrik stansiyasının tikintisi nəzərdə tutulur. Artıq ölkəmizin bütün su resurslarının xəritəsi tərtib olunub. Bu xəritə əsasında bütün çaylarda, harada ki, imkan var, biz kiçik həcmli su elektrik stansiyaları qurmalıyıq. Beləliklə, bu həm ekoloji cəhətdən çox gözəl layihə, həm də enerji təhlükəsizliyimizi təmin edən layihə olacaqdır. Təbii ki, ucuz enerjini istehsal etməklə biz daha çox qaza qənaət edəcək və onu ixrac edəcəyik.*

*Bu il Azərbaycanda günəş elektrik enerjisinin yaradılması işində birinci addımlar atılmışdır. Dünən Mərkəzi Seçki Komissiyasının yeni inzibati binasının açılışı zamanı mənə nümayiş etdirildi. İlk günəş batareyaları qurulubdur və Mərkəzi Seçki Komissiyasının binası tam şəkildə günəş enerjisi hesabına qidalandırılacaqdır. Mənim tərəfimdən göstəriş verildi ki, bu gözəl təşəbbüsü biz qısa müddətdə Azərbaycanda daha da geniş yayaq. Nəzərə alsaq ki, bu bizim strateji və uzunmüddətli siyasətimizdir. Əlbəttə ki, birinci mərhələdə yəqin ki, o batareyalar xaricdən gətirilməlidir. Ancaq istehsalı ölkəmizdə təşkil etməliyik ki, vəsait Azərbaycandan getməsin və yerli şirkətlər, yerli sahibkarlar bu işlərdən faydalansınlar. Ümid edirəm ki, sahibkarlar da məni eşidirlər, bu sahəyə dövlət çox böyük diqqət göstərir.*

*Biz alternativ enerji mənbələri olmadan da öz enerji təhlükəsizliyimizi tam şəkildə təmin edirik və başqa ölkələrin də enerji təhlükəsizliyi işlərində iştirak edirik. Ancaq bu gün bərpa olunan enerji növlərinin yaradılmasına başlamalıyıq. Bu bizim həm iqtisadi gücümüzü artıracaq, həm də dünyada gedən proseslərə böyük töhfəmiz olacaqdır. Çünki iqlim dəyişikliyi məsələləri artıq dünyada çox böyük müzakirə mövzusuna çevrilibdir. Düzdür, Azərbaycan öz tərəfindən iqlim dəyişikliyinin dərinləşməsinə dünya iqlimi üçün problem yaradan ölkə deyil. Ancaq bu bizim töhfəmiz olacaqdır. Bu sahədə işlər görülməyə başlayıb və hesab edirəm ki, bu çox sürətlə inkişaf etməlidir. Nəzərə alsaq ki, dövlət büdcəsində də dövlət tərəfindən görüləcək işlərin sürətləndirilməsi üçün kifayət qədər vəsait var. Ancaq bununla bərabər, biz özəl sektoru da bu işlərə dəvət edirik.”*

***13 iyul 2010-cu il,***
***Azərbaycan Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2010-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasda yekun nitqindən***

*“Planetin istənilən guşəsinə təsir göstərə biləcək ən ciddi və uzunmüddətli çətinliklərdən biri iqlim dəyişikliyidir. Biz Azərbaycanda 2010-cu ili «Ekologiya ili» elan etmişik və ətraf mühitin qorunması sahəsində müxtəlif xüsusi proqramlar qəbul etmişik.”*

***23 sentyabr 2010-cu il,***
***BMT Baş Məclisinin 65-ci sessiyasının açılışı mərasimində çıxışından***

*“Bu il Azərbaycanda «Ekologiya ili» elan edilib və bu sahədə böyük işlər görülüb. Mən çox şadam ki, ağacəkmə təşəbbüsüm Azərbaycan ictimaiyyəti tərəfindən dəstəklənib. Böyük sevinc hissi ilə deyə bilərəm ki, mənə verilən məlumata görə, 9 ayda Azərbaycanda*

*6 milyon ağac əkilmişdir. Onlardan 800 mini Bakı və Abşeron yarımadasında əkilmişdir. Bu proses davam edir və əminəm ki, 2011-ci ildə də ekologiya ilə bağlı bütün məsələlər uğurla həll olunacaqdır.*

*Biz «Ekologiya ili»nin elan edilməsi ilə bağlı bir məqsədi güdürdük ki, bu sahəyə həm ictimaiyyət, həm də dövlət qurumları tərəfindən diqqət daha da artsın və buna nail olduq. Biz bu gözəl təşəbbüsləri növbəti illərdə davam etdirməliyik.*

*İndi Kür və Araz çayları boyunca qurulan təmizləyici qurğular yüz minlərlə insanın təmiz su ilə təmin olunmasına xidmət göstərir. Çirklənmiş göllərin, Xəzər dənizinin təmizlənməsi, kanalizasiya sisteminin qurulması – bütün bu işlər gələn il də nəzərdə tutulur. Biz elə etməliyik ki, Bakı və Abşeron yarımadasının bütün ekoloji problemlərini tezliklə həll edək, neftlə çirklənmiş gölməçələri qurudaq. Digər göllərdə – hansı ki, keçən müşavirədə bu barədə mən geniş söyləmişdim – təmizlik işləri aparılmalıdır, kanalizasiya sistemi qurulmalıdır. Bir sözlə, bu sahə daim diqqət mərkəzində olmalıdır.”*

* * * *

*“Bu gün «Azərenerji»nin prezidenti bərpa olunan enerji mənbələrinin layihəsi ilə bağlı görülən işlər barədə məlumat verdi. Biz bu sahəyə böyük əhəmiyyət veririk. Su mənbələrimizdən, resurslarımızdan bu məqsədlə istifadə etməliyik. Bu il işlər görülür, təməl daşını qoyduğumuz stansiyalar tikilir. Naxçıvandakı Biləv Su Elektrik Stansiyası böyük hadisədir. O, Naxçıvanın enerji potensialını gücləndirəcəkdir. Gələn il bütün başqa rayonlarda kiçik su elektrik stansiyaları tikilməlidir. Büdcədə kifayət qədər vəsait vardır. Bu vəsaitdən səmərəli şəkildə istifadə etməliyik. Bəzi hallarda işlərin yubanmasına bürokratik əngəllər də problem törədir. Əgər bürokratik prosedurlardan tezliklə keçə bilsəydik, bəzi hallarda bürokratiya, süründürməçilik, gərəksiz razılaşdırmalar olmasaydı, xüsusilə ekologiya sahəsində daha da çox işlər görülə bilərdi. Ağac əkmək, yaxud da ki, hansısa çirklənmiş gölü təmizləmək üçün aylarla icazə, razılaşdırma gözləməməliyik. Prezident tərəfindən məsələ qoyulub, tezliklə həll olunmalıdır. Özü də indi bizdə texniki imkanlar, peşəkar mütəxəssislər, hər şey vardır. Biz bu məsələlərə vaxt sərf etməməliyik. O cümlədən, bərpa olunan enerji mənbələrinin yaradılması üçün büdcədə vəsait vardır. Ancaq bu vəsaitdən necə istifadə olunub, indi ona baxmaq lazımdır. Məncə biz orada nəzərdə tutulmuş vəsaitin heç 50 faizini də istifadə edə bilməmişik. Belədir. Ona görə bu dözülməzdir. İl başa çatır. İlin əvvəlindən qarşıya vəzifə qoyulubdur. İndi biz cəmi 3 su elektrik stansiyasında təməl daşını qoyduq. Halbuki, stansiyaların sayı daha da çox ola bilərdi.*

*Bərpa olunan, yəni günəş enerji növlərinin yaradılması barədə mən ilin əvvəlindən məsələ qaldırdım. Agentlik yaradıldı. Mən başa düşürəm ki, burada təşkilati məsələlər, texniki-iqtisadi əsaslandırma həll olunmalı idi, ancaq il başa çatır. Bizim bir dənə günəş batareyamız var?! Yoxdur. Birikisini mənə göstərdilər, Mərkəzi Seçki Komissiyasının binasının qabağında nümayiş etdirdilər, vəssalam. Azərbaycanda günəş batareyaları istehsal edəcək zavod tikilməlidir. Zavod tikilsə həm iş yerləri olacaq, həm də ki, yerli istehsal. Amma o vaxta qədər gözləməliyik?! Hesab edirəm ki, bu il ərzində müəyyən yerlərdə günəş batareyalarını quraşdıra bilərdik.”*

***20 oktyabr 2010-cu il,***
***Azərbaycan Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2010-cu ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasda yekun nitqindən***

*"Biz Azərbaycanda Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün çox böyük proqramlar icra edirik. Deyə bilərəm ki, bu il Azərbaycanda «Ekologiya ili» elan edilibdir və çox böyük həcmdə ekoloji tədbirlər nəzərdə tutulur. Xüsusilə Xəzər dənizinin çirkab sulardan və neftlə çirklənmiş hissənin təmizlənməsi, müasir kanalizasiya sisteminin quraşdırılması ümumi işimizə töhfəmizdir. Ekoloji məsələlər həmişə zirvə görüşlərində xüsusi yer tutubdur. Bu gün biz bu məsələ ilə bağlı fikir mübadiləsi aparacağıq. Bir sözlə, biz Azərbaycanda çalışırıq ki, Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına töhfəmizi verək."*

***18 noyabr 2010-cu il,***
***Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının III Zirvə görüşündə çıxışından***

*"Onu da qeyd etmək istərdim ki, diskussiya və konstruktiv fikir mübadiləsi prosesində əvvəlcədən hazırlanmamış məsələlərə dair qərar qəbul etmək zərurəti də yarandı. Bu bir daha məhz konstruktivizmə, bizim qarşılıqlı əlaqələri möhkəmlətmək və müəyyən müddət gündəlikdə qalmış, bir iclasdan digərinə keçmiş və indiyə qədər həll edilməmiş qalan məsələləri həll etmək əzmində olmağımıza dəlalət edir. Buna görə də hesab edirəm ki, bu həm Xəzər problemlərinə münasibətimizin, həm də bizim regionda təhlükəsizliyin, ekoloji təhlükəsizliyin, enerji, nəqliyyat təhlükəsizliyinin təmin edilməsi məsələlərinə çox mühüm töhfə vermək istəyimizin olduqca vacib göstəricisidir.*

*Mətbuat nümayəndələrinə məlumat vermək istərdim ki, biz Xəzər dənizində nərə balıqlarının müxtəlif növlərinin ovlanmasına 5 il müddətinə moratorium tətbiq edilməsi mexanizmini üç ay ərzində müzakirə edib təkliflər hazırlamaq barədə müvafiq idarələrə tapşırıq verilməsini qərara almışıq. Hesab edirəm ki, bu, ekoloji vəziyyəti xeyli yaxşılaşdırmağa və ümumi sərvətimiz olan nərə balıqlarının nadir növünü xilas etməyə imkan verəcək çox mühüm, fundamental qərardır."*

***18 noyabr 2010-cu il,***
***Xəzəryanı ölkələrin dövlət başçılarının mətbuat üçün bəyanatından***

*"Bildiyiniz kimi, 2010-cu il Azərbaycanda «Ekologiya ili» elan edilmişdir. Bu, şüar naminə atılmış addım deyil, biz 2010- cu ildə ekoloji məsələlərin həlli ilə çox ciddi məşğul olduq. Bundan sonrakı illərdə də bu məsələ daim diqqət mərkəzində olacaqdır. Təkcə bir il ərzində görülmüş işlər və irəli sürülmüş təşəbbüs nəticəsində Azərbaycanda 6 milyondan çox ağac əkilmişdir. Bu, tarixdə misli görünməmiş bir nəticədir. Biz ilin əvvəlində qarşıya məqsəd qoymuşduq ki, 3 milyon ağac əkilsin. Ancaq 6 milyon ağacın əkilməsi onu göstərir ki, hər bir 19 bölgədə, hər bir kənddə insanlar bizim təşəbbüsümüzə qoşularaq Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına öz töhfələrini vermişlər.*

*Əhalini, xüsusilə çaylar boyu yerləşən kəndlərdə yaşayan insanları içməli su ilə təmin etmək üçün təmizləyici qurğular tikilmişdir. Artıq o çaylar boyu yerləşən kəndlərdə yaşayan 300 min Azərbaycan vətəndaşı təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təchiz edilir."*

***31 dekabr 2010-cu il,***
***Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikindən***

*“2010-cu il Azərbaycanda «Ekologiya ili» elan edilmişdi. Mən çox şadam ki, “Ekologiya ili” çərçivəsində həm dövlət tərəfindən böyük işlər görüldü, həm də özəl sektor bu işlərə qoşuldu. Ölkə əhalisi də bu təşəbbüsə qoşularaq, ekoloji vəziyyətin yaxşılaşdırılmasına öz dəyərli töhfələrini vermişdir. 6 milyondan artıq ağac əkilmişdir. Proses bu il də davam etdiriləcəkdir, bu tempi azaltmamalıyıq. Ekoloji vəziyyətin yaxşılaşdırılması ölkəmizin uğurlu inkişafı üçün, əhalinin sağlamlığı üçün çox böyük əhəmiyyət daşıyır.*

*Ekoloji tədbirlər ancaq ağac əkməklə bitmir, məhdudlaşmır. Çaylar boyunca yerləşən kəndlərdə təmizləyici qurğuların istifadəyə verilməsi nəticəsində artıq 300 min Azərbaycan vətəndaşı Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin edilibdir. Keçən ilin sonunda Oğuz–Qəbələ–Bakı su kəməri istismara verilibdir. Yaxın vaxtlarda yəqin ki, bir-iki aydan sonra bu kəmər tam gücü ilə işləyəcək və beləliklə, Bakının təmiz, keyfiyyətli içməli su ilə təmin olunması üçün əlavə böyük imkanlar yaranacaqdır. Kəmərin tikintisi sırf sosial xarakter daşıyır. Bu, kommersiya layihəsi deyil, lakin ona böyük vəsait qoyulubdur. Ancaq biz bunu etməliydik. Çünki xalqımız ən yüksək şəraitdə yaşamalıdır. Azərbaycanda ən qabaqcıl texnologiyalar tətbiq olunmalıdır. Azərbaycanda istifadəyə verilmiş səhiyyə ocaqlarında ən qabaqcıl avadanlıqlar quraşdırılır. Biz dünyanın aparıcı, inkişaf etmiş ölkələrinin ən qabaqcıl klinikalarında olan avadanlığı, aparatları gətiririk. Biz Azərbaycana ən keyfiyyətli malları gətirməliyik. Azərbaycan vətəndaşları buna layiqdirlər. Biz ölkəmizi müasirləşdiririk və dünyada gedən texnoloji tərəqqiyə gərək həmişə diqqətlə yanaşaq. Ölkəmizə ən qabaqcıl texnologiyaları gətirək ki, Azərbaycanda bütün işlər yüksək səviyyədə görülsün. Beləliklə, görülən işlər nəticəsində həm insanlar üçün yaxşı şərait yaradılır, həm də ölkə daha da güclənir. Əminəm ki, bizim uğurlu inkişafımız gələcək illərdə də yüksək templərlə davam edəcəkdir.”*

***14 yanvar 2011-ci il,***
***Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda nitqindən***

*“Ekoloji tədbirlər davam etdiriləcək, bu barədə mən öz fikirlərimi giriş sözümdə bildirdim. Ekoloji tədbirlər çox vacibdir. 2010-cu ildə biz bu sahəyə çox ciddi nəzarət etmişik və çox ciddi diqqət vermişik, böyük vəsait ayrılmışdır. Dediyim kimi, doğrudan da bu, ümumxalq təşəbbüsünə çevrilmişdir. «Ekologiya ili» rəsmən başa çatsa da, «Ekologiya ili»nə xas olan ab-hava gərək davam etsin. Həm ağac əkilməsi eyni templə davam etdirilməli, həm də təmizləyici qurğular istifadəyə verilməli, içməli su layihələri icra olunmalıdır.”*

* * * *

*“2011-ci il başlayıb, keçən il bizdə «Ekologiya ili» elan olunmuşdu. Dediyim kimi, yaxşı nəticələr əldə edilmişdir.”*

***14 yanvar 2011-ci il,***
***Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2011-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda yekun nitqindən***

*“Bu il “Turizm ili” elan edilib, amma o demək deyil ki, “Ekologiya ili” başa çatıbdır. “Ekologiya ili” hər il olmalıdır. Keçən il böyük işlər görülüb – ağaclar əkilib, neftlə çirklənmiş gölməçələr təmizlənib, içməli su layihələri icra edilmişdir. Baxmayaraq ki, bu*

*il "Turizm ili"dir, ancaq "Ekologiya ili" bu il də davam etdirilməli və bütün yerli icra orqanları keçən il işlədikləri kimi, bu il də işləməlidirlər. Nəzərə alsaq ki, Azərbaycan ictimaiyyəti də bu məsələyə çox böyük həvəslə yanaşmışdır, bu iş davam etdiriləcəkdir."*

***1 mart 2011-ci il,***
***Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda yekun nitqindən***

*"Şəhərimizdə abadlıq-quruculuq işləri çox geniş vüsət almışdır. Şəhərdə, demək olar ki, teatrlar, muzeylər əsaslı təmir edildi. Yeni muzeylər, nadir memarlıq abidəsinə çevriləcək Xalça Muzeyi tikilir və mədəni həyatımızı zənginləşdirən digər tarixi binalar ya təmir olunur, ya da təmir olunubdur. Növbəti illərdə təmirə ehtiyacı olan bütün şəhər mədəniyyət ocaqları əsaslı təmir olunacaqdır. Şəhərimizdə möhtəşəm Heydər Əliyev Mərkəzi tikilir. Bu Mərkəz dünya memarlıq xəzinəsinə daxil edilibdir. Hələ ki, tikinti gedir, ancaq bu Mərkəzin görüntüləri artıq ən mötəbər kataloqlarda öz əksini tapıb. Mərkəzin böyük funksional mənası vardır. İndi bəziləri heç xatırlamır ki, o yerdə vaxtilə böyük zavod yerləşmişdi. O zavodun əvvəlki adı «Şmidt», sonra «Səttarxan» idi. Yararsız vəziyyətə düşmüş zavodun ərazisində on hektarlarla torpaq sahəsi var idi. Zavod oradan köçürüldü və yerində böyük bir park salınır. Şəhərin girişində müasir Azərbaycanın memarlıq simvoluna çevrilmiş Heydər Əliyev Mərkəzinin ətrafında doqquz hektar sahədə gözəl park salınır. Biz bütövlükdə şəhərimizdə yeni parkların salınması ilə nəinki estetik məqsədə çatırıq, həm də bu, şəhərimizin «ağciyərləridir». Biz indi müəyyən layihələr üzərində işləyirik ki, şəhərin mərkəzində yeni meşə zolaqları salaq. O yerlərdə ki, vaxtilə tikilmiş və yararsız vəziyyətə düşmüş ya sənaye müəssisələri, ya yaşayış binaları yerləşirdi, oradan köçürülmə işləri aparılacaqdır. Əgər yaşayış binalarıdırsa, bazar qiyməti ilə kompensasiya ödəniləcəkdir. Necə ki, bu vaxta qədər bütün kompensasiyalar bazar qiyməti ilə ödənilib və onların yerində yeni parklar, meşə zolaqları yaradılacaqdır ki, şəhərimizin ekologiyasına müsbət təsir göstərsin.*

*Ekoloji məsələlərin həlli üçün kompleks tədbirlər görülür. Biz artıq "Avro-2" standartına keçmişik. Ancaq bu, birinci addımdır. "Avro-3", "Avro-4" standartlarına da keçməliyik və beləliklə, şəhərimizin ekoloji vəziyyəti daha da yaxşılaşdırılacaqdır. Balaxanı poliqonundan şəhəri bürüyən tüstülər daha qalxmır, o, artıq yoxdur. Biz həmin zibilxananı təmizlədik, indi onun yerində böyük park salınır. Məişət tullantıları zavodu tikilir. Bu, böyük vəsait tələb edir. Bu layihə dövlət büdcəsi tərəfindən maliyyələşdirilir və yaqin ki, 1-2 ilə bu zavod da istifadəyə veriləcəkdir. Bu da dünya səviyyəsində bir zavod olacaqdır. Şəhərimizdə təkcə keçən il 3 milyon ağac əkilmişdir. İndi biz gərək o ağaclara yaxşı qulluq edək. Çünki bəzi hallarda ağaclar təbii olaraq quruyur. Ona görə suvarma işləri, ağaclara xidmət etmək üçün xüsusi tapşırıqlar verilib ki, bu proses daim nəzarətdə olsun. Bu il, ondan sonrakı illərdə bu proses davam etdiriləcəkdir. Şəhərimizdə ağacəkmə prosesi sürətlə gedəcəkdir. Mən xüsusi göstəriş vermişəm ki, boş yerlərdə, görkəmli yerlərdə yeni ağaclar əkilsin. Bayıl yamacında böyük bir meşə zolağı yaradılacaqdır. Bakını əhatə edən bu dağlar indi quru dağlardır. Amma o dağlar meşə ilə örtüləcəkdir və həm ekoloji vəziyyət yaxşılaşdırılacaq, həm də gözoxşayan bir mənzərə yaradılacaqdır."*

***12 mart 2011-ci il,***
***Bakı şəhərinin və paytaxtətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına dair müşavirədə giriş nitqindən***

*“Ekoloji məsələlərin həlli sahəsində çox yaxşı işlər gedir, xüsusilə magistral yolların kənarında böyük meşə zolaqları salınır. Keçən il «Ekologiya ili» olduğuna görə, qeyd etdiyim kimi, Bakıda üç milyondan artıq ağac əkilmişdir. Bu proses davam etdirilməlidir. İndi yaz başlayır. Yaz-payız mövsümlərində bu işə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə daha da böyük təkan verilməlidir. Vaxtilə aeroportun yanında fəaliyyət göstərən yarmarkanı oradan köçürdük, o da çox böyük məsələ idi. Heç kim inanmırdı ki, biz oranı köçürə bilərik, ancaq köçürdük, onlara yerlər də verildi, orada iş adamları da müasir səviyyədə ticarət obyektlərini tikdilər. Dairəvi yol da ora birləşdi və bu gün xaricdən və bölgələrdən Bakıya alış-veriş üçün gələnlər şəhərin mərkəzinə girmədən şimal istiqamətindən, yaxud da ki, cənub–qərb istiqamətindən birbaşa o ticarət mərkəzinə rahat çata bilirlər. Keçmiş yarmarkanın yerində isə meşə zolağı salındı və əminəm ki, bir neçə ildən sonra orada böyük meşə yaranacaqdır. Planlarımızda şəhərin müxtəlif yerlərində yeni parkların, meşə zolaqlarının salınması da vardır. Bakı Şəhər İcra Hakimiyyətinə bu məsələlərlə bağlı müvafiq tapşırıqlar verilib.“*

* * * *

*“Bakımızın inkişafı davam edir, şəhərimiz gözəlləşir, abadlaşır. Hazırda yeni böyük layihə icra edilməyə başlamışdır – «Ağşəhər» layihəsi. Bu layihənin də çox böyük rəmzi mənası vardır. Çünki tarixi «qaraşəhər» adlandırılan ərazidə yeni inkişaf layihəsi təqdim edilibdir. Beynəlxalq sərgilərdə «Ağ şəhər» layihəsi təqdim olunur. Böyük bir yaşayış mərkəzi olacaqdır. Kiçik bir şəhərə bərabər inkişaf layihəsi olacaqdır. Bakıda ekoloji cəhətdən ən yararsız yerlərdə, neftlə, neft tullantıları ilə çirklənmiş torpaqlarda müasir, ekoloji təmiz, yeni bir tikinti layihəsi icra ediləcəkdir. Çox böyük vəsait tələb edən layihədir və bu layihəni biz həm dövlət tərəfindən maliyyələşdirəcəyik, həm də əsas yükü özəl sektor öz üzərinə götürəcəkdir. Azərbaycanda özəl sektorun inkişafı, xarici sərmayələrin qorunması üçün bütün lazımi tədbirlər görülüb. Bu gün verilən tapşırıqlar növbəti illərdə icra olunmalıdır. Şəhərimizdə bütün işlər yüksək səviyyədə görülməlidir, sakinlərin rahatlığı üçün bütün şərait yaradılır, yaradılacaqdır. Bakı şəhərinin qəsəbələrinin Yeni İnkişaf Proqramının qəbul olunmasından sonra qəsəbələrə yeni həyat gələcək, güclü təkan veriləcəkdir. Bütün dövlət qurumları, yerlərdəki nümayəndələr bu proqramın icrasında fəal iştirak etməlidirlər. Bakı bizim paytaxtımızdır, doğma, əziz şəhərimizdir. Elə etməliyik ki, Bakı şəhərində bütün işlər yüksək səviyyədə görülsün.“*

***12 mart 2011-ci il,***
***Bakı şəhərinin və paytaxtətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına dair müşavirədə yekun nitqindən***

*“Ətraf mühitin qorunması işində səylərimizi daha da gücləndirməliyik. Düzdür, «Ekologiya ili» rəsmən başa çatdı. Ancaq hər il «Ekologiya ili» olmalıdır – həm ağacəkmə məsələləri, həm içməli su ilə təminat, neftlə çirklənmiş ərazilərin təmizlənməsi. Bu məsələlərin həlli üçün dövlət büdcəsində vəsait nəzərdə tutulur. Dövlət büdcəsinə düzəlişlər ediləndən sonra yenə də bu məqsədlər üçün vəsait nəzərə alınmalıdır. Hazırda bütün ölkədə içməli su və kanalizasiya layihələri icra edilir. Bu layihələr daha da sürətlə icra edilməli, dövlət büdcəmiz əsas yükü öz üzərinə götürməlidir.“*

***12 aprel 2011-ci il,***
***Nazirlər Kabinetinin 2011-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasda yekun nitqindən***

*"Elektrik enerjisi, qaz, su ilə təchizat xeyli dərəcədə yaxşılaşdırılmışdır. Demək olar ki, bu sahədə əsas problemlər öz həllini tapmışdır. Yeni kanalizasiya sisteminin yaradılması üçün mənə bu yaxınlarda əlavə təkliflər verilibdir. Təklifləri bəyəndim və yaxın zamanlarda Sumqayıtın kanalizasiya sisteminin yeniləşdirilməsi üçün əlavə addımlar atılacaqdır.*

*Yaxşı bilirsiniz ki, Sumqayıt sənaye şəhəri kimi formalaşmışdır. Əfsuslar olsun ki, indi bəzi xarici mətbuat orqanlarında Sumqayıtla bağlı qeyri-dəqiq informasiyalar yazılır, guya burada ekoloji vəziyyət ağırdır, çirklənmə həddən artıq çoxdur. Bunlar həqiqətə uyğun deyildir. Biz istəyirik ki, daha da çox qonaqlar gəlsinlər və görsünlər Sumqayıt necə gözəl, abad şəhərə çevrilibdir. Yaşıllıqlar salınıb, yaşamaq, istirahət etmək üçün yeni şərait yaradılıb."*

***7 iyul 2011-ci il,***
***Sumqayıt şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından***

*"Bu, işin bir tərəfidir, çox vacib tərəfdir. Çünki hər bir vətəndaş, xüsusilə Sumqayıt sakinləri istəyirlər ki, Sumqayıt şəhəri gözəlləşsin, abadlaşsın.*

*Mən həmişə deyirəm ki, Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Ümid edirəm ki, vaxt gələcək, biz Sumqayıt haqqında da eyni sözləri deyə biləcəyik. Siz sumqayıtlılar yaxşı bilirsiniz ki, Sumqayıt sənaye şəhəri kimi formalaşmışdır. Əfsuslar olsun ki, indi bəzi xarici mətbuat orqanlarında Sumqayıtla bağlı qeyri-dəqiq informasiyalar yazılır, guya burada ekoloji vəziyyət ağırdır, çirklənmə həddən artıq çoxdur. Bu, tamamilə həqiqətə uyğun deyildir. Biz də bunu bilirik, siz də bunu bilirsiniz. Biz istəyirik ki, daha da çox qonaqlar gəlsinlər və görsünlər Sumqayıt necə gözəl, abad şəhərə çevrilibdir. Yaşıllıqlar salınıb, burada yaşamaq, istirahət etmək üçün yeni şərait yaradılıb."*

* * * *

*"Bundan başqa, Sumqayıtda ölkə miqyasında və nainki ölkəmizdə, bölgədə, Cənubi Qafqazda ən böyük texnologiyalar parkı yaradılıbdır. Artıq bir neçə müəssisə fəaliyyət göstərir. Orada da işlər çox yüksək səviyyədə qurulubdur. Bu gün mən yenə də oraya gedəcəyəm, görülən işlərlə tanış olacağam. Mən dəfələrlə orada olmuşam, biz xarici qonaqları da dəvət edirik, gəlib görürlər və çox böyük təəssürat altında qalırlar. Çünki orada doğrudan da ən müasir, qabaqcıl texnologiyalar tətbiq olunur. Bu texnologiyalar parkı da imkan verəcəkdir ki, Sumqayıt böyük, dünya miqyaslı sənaye şəhəri kimi inkişaf etsin. Orada həm sənaye potensialı güclü, həm ekoloji vəziyyət yüksək səviyyədə olacaq və həm də insanların rahatlığı üçün şərait yaradılacaqdır."*

***7 iyul 2011-ci il,***
***Nəsimi adına Sumqayıt şəhər dənizkənarı parkında əsaslı yenidənqurma və abadlıq işlərinin gedişi ilə tanışlıqda çıxışından***

*"İnsan üçün onun sağlamlığı çox vacibdir. Sağlamlığı şərtləndirən amilləri həkimlər yaxşı bilirlər. Bir neçə amil vardır və onların içində tibbi xidmət, əlbəttə ki, xüsusi yer tutur. Xəstəliyin vaxtında müəyyən edilməsi, düzgün diaqnozun qoyulması və düzgün müalicəsi, demək olar ki, insanların, xəstələrin sağlamlığını müəyyən edir. Sağlamlığn təmini üçün ekologiya da çox vacib rol oynayır. Şabran rayonunun ekoloji vəziyyəti çox yaxşıdır. İstəyirik ki, Azərbaycanın bütün bölgələrində ekoloji vəziyyət yüksək səviyyədə olsun. İçməli*

*su insan sağlamlığı üçün çox vacib rol oynayır. Bu layihələr də hər bir rayonda, o cümlədən Şabranda artıq icra edilməyə başlanmışdır. İcra başçısı məlumat verdi ki, içməli su, kanalizasiya layihələri artıq icra edilir. Keyfiyyətli qida məsələsinə də diqqət göstərilir. İndi istehlak bazarına nəzarət edilır. İnsanların sağlamlığı üçün mütləq idmanla məşğul olmaq lazımdır. Baxın, ölkəmizdə nə qədər idman qurğuları tikilibdir."*

***15 avqust 2011-ci il,***
***Şabran Rayon Mərkəzi Xəstəxanasının açılışı mərasimində çıxışından***

***"Sakin:*** *Möhtərəm cənab Prezident, gəlişinizdən çox məmnunluq duyuruq. Xoş gəlmisiniz! Bilirik ki, Sizin hər gəlişiniz mütləq mütərəqqi bir irəliləyişə səbəb olur.*

*Xatırlayıram ki, 2006-cı ildə bizim iqtisadi artımımız 34,5 faiz olandan sonra Siz Kürdəmir şəhərində çıxış edərək dediniz ki, əgər hər hansı iqtisadi artımın nəticəsindən əhali nəsə əldə etməyəcəksə, belə iqtisadi artım heç kimə lazım deyil. Qəsəbəmizin də bir neçə problemi vardır və doğrudan da Sizin gəlişinizlə biz bundan bəhrələnə bilərik. Birincisi odur ki, bizim 205 nömrəli məktəbin yerləşdiyi ərazidə mazut gölü vardır. Sahəsi 3-4 hektar olar. Yaxşı olardı ki, orada park yaradılsın. Bizim belə bir xahişimiz vardır. Daha sonra bilirik ki, Oğuz–Qəbələdən su çəkdirdiniz. Həmin o sudan biz də bəhrələnmək istərdik. Üç məktəbin yanında, sağlıq olsun, dördüncü məktəb tikiləcəkdir. Bu əraziyə Oğuz–Qəbələ suyunun çəkilməsini də Sizdən xahiş edirik. Uşaqlar hər dəfə sərin sudan istifadə etsinlər. Bu çox yaxşı olardı. Bundan başqa, qəsəbəmizdə «Qır gölü» deyilən sahə var. Orada ötən əsrin 30–40-cı illərində flora-fauna, numizmatika xarakterli arxeoloji qazıntılar aparılmışdır. Orada açıq muzey yaradılması barədə göstərişiniz olsaydı, bu da bizim qəsəbəmiz üçün çox əhəmiyyətli iş olardı.*

***İlham Əliyev:*** *Yaxşı, bu məsələləri biz nəzərə alacağıq. Parkların salınmasına mən həmişə böyük həvəslə yanaşıram. Bakının mərkəzindəki bütün parklar, demək olar ki, yenidən qurulub. Yeni parklar da salınır. Çalışırıq ki, şəhərimizi maksimum dərəcədə yaşıllaşdıraq. Çünki bu yaşıllıq ekologiya, sağlam həyat deməkdir. Əgər belə təklif varsa, əlbəttə ki, məmnuniyyətlə buna baxacağıq. Keçən dəfə mən Binəqədi rayonunda olarkən Biləcəri parkı ilə tanış oldum. Biz bu parkın yenidən qurulmasını da indi icra edəcəyik. O da 50-60 il əvvəl salınmışdır."*

***5 sentyabr 2011-ci il,***
***Bakının Binəqədi qəsəbəsində daxili yollarda aparılmış əsaslı təmir və yenidənqurma işlərinin gedişi ilə tanışlıqda çıxışından***

*"İnsanın sağlamlığını şərtləndirən digər sahələrə də Azərbaycanda çox böyük diqqət göstərilir. İlk növbədə ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün konkret addımlar atılır. Siz yaxşı bilirsiniz ki, ekologiyanın insanın sağlamlığına çox böyük – həm müsbət, həm mənfi təsiri ola bilər. Keçən il Azərbaycanda «Ekologiya ili» elan edilmişdi. Çox böyük tədbirlər görülmüşdür. İl yarım ərzində ölkəmizdə 10 milyondan artıq ağac əkilmişdir. Ekoloji vəziyyətin yaxşılaşdırılması bilavasitə insanların sağlamlığına təsir göstərir. Ölkəmizin hər bir yerində böyük su layihələri icra edilir. Su, əfsuslar olsun ki, bütün dövrlərdə Azərbaycanda çox kəskin, çox ciddi problem olub. Biz bu problemin həlli üçün konkret addımlar atırıq və 2013-cü ilin sonuna qədər Azərbaycanda əhaliyə verilən*

*su Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verməlidir. Bu bir meyardır və biz çalışacağıq ki, bu məqsədlərə nail olaq. Bu layihələr çox böyük vəsait tələb edir. Azərbaycan dövləti bu vəsaiti ayırır və beynəlxalq təşkilatlar da bizə kreditlərlə kömək edirlər. Mən tam əminəm ki, içməli su və kanalizasiya layihələrinin icra edilməsi nəticəsində bu amillər də insanların sağlamlığına çox müsbət təsir göstərəcəkdir."*

***12 sentyabr 2011-ci il,***
***Bakıda Dünya Səhiyyə Təşkilatının Avropa regional komitəsinin 61-ci sessiyasında çıxışından***

*"Bu yaxınlarda biz Qobustan rayonunda hibrid tipli birinci günəş-külək elektrik stansiyasının açılışını qeyd etdik. Düzdür, bu stansiyanın istehsal gücü o qədər də böyük deyil və böyük də olmamalıdır, 5 meqavat səviyyəsindədir. Ancaq bu birinci ciddi addımdır. Bu müasirlikdir, yenilikdir, yeni texnologiyalardır, ekoloji cəhətdən təmiz texnologiyalardır. Bu, gələcəyə baxışımızdır. Ekoloji məsələlərə gəldikdə, qeyd etməliyəm ki, bu gün Azərbaycanda bir dənə də olsun mazutla işləyən elektrik stansiyası yoxdur. Amma bir neçə il əvvəl stansiyalarımızın, demək olar ki, əksəriyyəti mazut rejimində işləyirdi. Həm bu məqsədlər üçün böyük vəsait sərf edilirdi – indi biz o mazutu emal edirik, yəni yenidən emala verilir, neft və yüngül məhsullar ixrac edilir – həm də ekologiyamız zərər çəkirdi. İndi bütün stansiyalar qazla işləyir və bu, ekoloji cəhətdən çox təmiz rejimdir. Ancaq bərpa olunan elektrik stansiyaları ekoloji cəhətdən daha da sərfəli olacaqdır."*

***21 sentyabr 2011-ci il,***
***Şüvəlanda «Şimal» elektrik stansiyasının ikinci buxar-qaz enerji qurğusunun təməlqoyma mərasimində çıxışından***

*"İnsanın sağlamlığı üçün vacib olan digər amillər də var – ekologiya, içməli su, təmiz hava, idman. Bütün bu amillər də çox vacibdir. Biz elə etməliyik ki, Azərbaycanda bütün bu sahələr dünya standartları səviyyəsində olsun. İndi həm Bakıda, həm bölgələrdə içməli su ilə bağlı layihələr həyata keçirilir. Veriləcək suyun keyfiyyəti Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun olmalıdır. Azərbaycanda bütün işlər dünyanın ən gözəl təcrübəsinə uyğun olmalıdır. O cümlədən səhiyyə məsələləri ilə bağlı olan vəziyyət də bu istiqamətdə inkişaf etməlidir."*

***23 sentyabr 2011-ci il,***
***Xaçmaz rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından***

*"İnsanların sağlamlığı üçün lazım olan digər məsələlər də həll olunur. İçməli su insan sağlamlığı üçün bir nömrəli məsələdir, indi həll olunur. Ekologiya ilə bağlı olan vəziyyət, təmiz hava, keyfiyyətli qida. Biz bütün bu məsələlərə diqqət veririk, dünya miqyasında inkişaf etmiş ölkələrin təcrübəsini də öyrənirik və tətbiq edirik. Bu xəstəxana Dünya Bankı ilə birgə icra edilmiş layihədir və burada bütün standartlar dünya səviyyəsindədir."*

***30 oktyabr 2011-ci il,***
***Ağdaş rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından***

*“Mən bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik edirəm. Bütün həkimləri təbrik edirəm. Həkimlər üçün gözəl şərait yaradılmışdır. Dünyanın inkişaf etmiş ölkələrinin aparıcı paytaxtlarında belə şərait bəlkə də bundan bir qədər aşağı səviyyədə var. İnsanların sağlamlığı bizim üçün prioritet məsələdir. Təkcə gözəl xəstəxananın tikilməsi ilə işimiz bitmir. Ekologiya – Allaha şükür ki, burada ekoloji vəziyyət çox yaxşıdır – təmiz hava! İndi su layihəsi icra ediləcəkdir. Həkimlər hamıdan yaxşı bilir ki, insanın sağlamlığı üçün içməli su, təmiz qida birinci yerdədir. Hər bir vətəndaş ildə bir dəfə müayinədən keçməlidir. İndi belə şərait hər bir yerdə vardır.”*

***17 noyabr 2011-ci il,***
***Şəki rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından***

*“2011-ci ildə ekoloji tədbirlər görülmüş, 7 milyon ağac əkilmişdir. Mən çox şadam ki, «Ekologiya ili» başa çatdıqdan sonra da bu sahə diqqət mərkəzində qalır, belə də olmalıdır. 2012-ci il üçün də konkret təkliflər hazırlayın! Yəqin ki, bu təkliflər var, baxacağıq, vəsait ayrılacaqdır. Bu ekoloji tədbirlər hər bir vətəndaş üçün çox vacibdir.*

*2011-ci ildə 32 kənddə modul tipli sutəmizləyici qurğu istifadəyə verilmişdir və təkcə keçən il 50 minə yaxın əhali, hansı ki təmizlənməmiş sudan istifadə edirdi, təmiz su içir. 2012-ci ildə də bu proqram davam etdirilməlidir.*

*Çirklənmiş ərazilərin təmizlənməsi prosesi gedir. Balaxanı poliqonu parka dönüb. Vaxtilə o bəlkə də ölkəmizin ən bərbad ekoloji vəziyyətdə olan, fəlakət vəziyyətində olan bir yeri idi. Balaxanı zibilxanasını görən adam dəhşətə gəlirdi. Şəhər əhalisi sadəcə olaraq, oradan qalxan tüstünü görürdü və bu tüstü bütün şəhəri bürüyürdü. İndi o zibilxananın yerində parklar salınıb, 100 hektar ərazidə poliqon yaradılıb, ağaclar əkilib, müasir sistemlər qurulur. Buraya zibil gətirən bütün maşınlar dezinfeksiya olunur. Budur müasir yanaşma. Orada məişət tullantılarının yandırılması zavodu uğurla tikilir. Azərbaycan dövləti böyük vəsait ayırmışdır. Ümid edirəm ki, zavod bu il açılacaqdır və bu, ekoloji tədbirlərə ən böyük töhfəmiz olacaqdır.”*

***16 yanvar 2012-ci il,***
***Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2012-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda yekun nitqindən***

*“Ekoloji tədbirlərin görülməsi ilə bağlı bir neçə söz demək istəyirəm. Bu məsələ daim diqqət mərkəzində olmalıdır. Bakının ekoloji vəziyyəti bizi qane edə bilməz. Bu reallıqdır. Əfsuslar olsun ki, əsrlər boyu Bakı sənaye şəhəri kimi formalaşıb, xüsusilə neft sənayesi burada yaranıb. Həmişə şəhər ekoloji cəhətdən çox ağır vəziyyətdə idi. Sovet dövründə müəyyən standartlar var idi, sovet standartları var idi. O standartlar gözlənilirdi. Amma indi biz bilirik ki, o standartlar dünya standartlarına, əlbəttə, uyğun deyildir.*

*İçməli su, kanalizasiya layihələri, göllərin təmizlənməsi məsələləri ilə də bağlı İqtisadi İnkişaf Nazirliyinə göstəriş verilmişdi. Bakının ərazisində yerləşən göllər təmizlənməlidir. Oraya axıdılan suların təmizlənməsi və yeni xətlərin çəkilişi məsələləri həllini tapmalıdır. İlk növbədə çirklənmənin səbəbini aradan qaldırmalıyıq. Ondan sonra təmizləmə, ekoloji tədbirlərlə indiki gölləri gözəl, təmiz göllərə çevirməliyik. Onların ətrafında meşə zolaqları, parklar salınmalıdır ki, insanlar bu göllərdən istifadə etsinlər. Bütün göllərin siyahısı vardır.*

*Konkret tapşırıqlar verilib. Bu il müəyyən dərəcədə vəsait də nəzərdə tutulur. Əsas vəsait gələn il və 2014–2015-ci illərdə ayrılacaq ki, bu gölləri biz gözəl, şəffaf, təmiz göllərə çevirək. Beləliklə, həm insanların istirahəti üçün yeni yerlər yaradılacaq, həm də ekoloji vəziyyət yaxşılaşacaqdır. Bakıda yerləşən yod zavodunun qalıqlarının köçürülməsi prosesi də başlayıb. Bu da çox zəhərli müəssisə idi. O işləmir, ancaq ətrafında yerləşən tullantılar zəhərlidir. Büdcədə vəsait nəzərdə tutulub. Həmin vəsait Fövqəladə Hallar Nazirliyinə ayrılıb. Onlar indi işləyirlər. Bu ilin sonuna qədər yod zavodunun ərazisi tamamilə təmizlənəcək.*

*Ağacəkmə məsələləri də yaddan çıxmamalıdır. Mən çox şadam ki, "Ekologiya ili"ndə bütün şəhər, rayon icra hakimiyyətlərində böyük fəallıq nümayiş etdirilirdi. Hər yerdə ağacəkmə prosesləri gedirdi. "Ekologiya ili" başa çatandan sonra yavaş-yavaş bu proses - yeni ağacların əkilməsi, yeni zolaqların yaradılması səngiməyə başlamışdır. Düzdür, biz dövlət xətti ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinə vəsait ayırırıq, onlar bu prosesi davam etdirirlər. Nəzərdə tutulmuş yerlərdə yeni ağaclar əkilir. Ancaq hesab edirəm ki, əlbəttə, mövsüm gələndə rayon icra orqanları da ağacəkmə məsələlərinə yenə də diqqət göstərməlidirlər. Bu, kampaniya olmamalıdır, bu, daimi, gündəlik iş prosesi olmalıdır."*

***20 iyun 2012-ci il,***
***"2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda yekun nitqindən***

*"Qaradağ Sement zavodu 1950-ci illərdə yaradılmışdır. Əlbəttə ki, vaxt keçdikcə texnologiya köhnəlir və müasir tələblərə cavab vermirdi. Baxmayaraq ki, bu sahədə dünyanın aparıcı şirkəti olan «Holcim» 10 ildən artıqdır bu zavodu işlədir və buraya sərmayə qoymuşdur. Yeni zavodun tikilməsi çox vacib idi. İsveçrə ilə Azərbaycan rəhbərliyi arasında aparılmış danışıqlar və əldə edilmiş razılaşmalar nəticəsində yeni zavodun tikintisi haqqında qərar qəbul edildi. Mən o günləri yaxşı xatırlayıram. Xatırlayıram ki, qərar verildikdən dərhal sonra – 2009-cu ildə yeni zavodun təməl daşı qoyuldu. Bu zavod bütün müasir standartlara cavab verir. Burada ən son texnologiyalar tətbiq edilib. Çox sevindirici haldır ki, bu zavod ekoloji cəhətdən tamamilə təhlükəsizdir.*

*Azərbaycanda ekologiya məsələlərinə çox böyük diqqət göstərilir, ekoloji tədbirlər həyata keçirilir."*

***10 iyul 2012-ci il,***
***«Holcim–Azərbaycan» ASC-nin yeni sement zavodunun açılışı mərasimində çıxışından***

*"Sənaye inkişafımızla bağlı bir məsələyə də toxunmaq istəyirəm. İri sənaye müəssisələrinin şəhər mərkəzindən çıxarılması prosesi gedir, getməlidir. Bakı sakinləri bu prosesin müsbət nəticələrini görürlər. Biz vaxtı ilə köhnəlmiş, ekoloji cəhətdən təhlükəli sənaye müəssisələrini şəhərin mərkəzindən çıxarırıq, yeni yerlərə köçürürük. Köhnəlmiş müəssisələrin fəaliyyətə davam etməsi də lüzumsuzdur. Biz yeni, güclü sənaye potensialı yaradırıq. Çalışmalıyıq ki, ən qabaqcıl texnologiyalar tətbiq edilsin. Şəhərin mərkəzində – köçürülən köhnəlmiş sənaye müəssisələrinin yerlərində ictimai istifadə üçün yerlər yaradılmalıdır. Parklar, avtomobil dayanacaqları, bağçalar salınmalıdır ki, insanlar üçün daha yaxşı şərait yaradılsın. Yaşıllıq zolaqları, ağaclar əkilməlidir. Bu il 2 milyondan artıq ağac əkilib. «Ekologiya ili» çərçivəsində hər yerdə bu proses sürətlə gedirdi. Mən demişdim ki, «Ekologiya ili» bu gün də davam edir, sabah da davam edəcək, hər il bizdə «Ekologiya ili»*

*olmalıdır. Çünki ekologiya həyatımızdır, sağlamlığımızdır, gələcəyimizdir. Bu proses davam etdirilir və etdirilməlidir. Bayraq Meydanına gedən yol və yeni bulvar bunun bariz nümunəsidir. Bu yerlər köhnəlmiş, yəni sovet dövründə tikilmiş və heç bir əhəmiyyət daşımayan zavodlarla əhatə olunmuşdu. Onları köçürmək o qədər də asan deyildi. Müqavimətlər də oldu. Ancaq iradə olduqda müqavimət heç bir nəticə vermir.*

*Bu gün Bakı sakinləri və Azərbaycan vətəndaşları görürlər ki, nə qədər böyük işlər görüldü. Bu sahə ümumi istifadəyə verildi, bulvar uzadıldı, yaşıllıq zolaqları yaradıldı və insanlar rahat istirahət edirlər. Belə yerlər Bakının mərkəzində çoxdur, çalışmalıyıq ki, onları mərkəzdən çıxaraq və işləyən müəssisələri köçürək, işləməyən müəssisələr də oradan yığışdırılsın.*

*Şəhərdə və ətraf qəsəbələrdə çirklənmiş göllər həddən artıq çoxdur. Təxminən 30-a qədər göl var. O göllərin yaranma tarixi bizə bəllidir. Oraya lay suları, kanalizasiya suları axır, Bakının müasir simasına uyğun gəlmir. Göstəriş verilib, hazırda İqtisadi İnkişaf Nazirliyi və «Azərsu» şirkəti bu məsələ ilə bağlı təkliflər hazırlayır. Biz bu gölləri təmizləməliyik, abadlaşdırmalıyıq, kanalizasiya və drenaj sistemlərini yaratmalıyıq ki, bu göllərdən Bakı sakinləri və qonaqlar istifadə etsinlər. Çox acınacaqlı mənzərə təşkil edən bu göllər gözəl, şəffaf göllərə çevrilməlidir. Baxmayaraq ki, böyük və çətin bir işdir.*

*Həm maliyyə resursları tələb edən, həm də texniki cəhətdən çox çətin bir işdir. Ancaq bunu mütləq etməliyik. Bunun ölkəmizin gələcəyi üçün çox böyük əhəmiyyəti olacaqdır. Təsəvvür edin ki, çirklənmiş, ekoloji vəziyyəti korlayan bu göllər gələcəkdə əgər təmiz göllərə çevrilərsə, görün nə qədər yaxşı şərait, nə qədər yeni istirahət yerləri, parklar, meşə zolaqları yaradılacaq.*

*Misal üçün, Böyük Şor gölü. İndi ən ağır vəziyyətdə olan Böyük Şor gölü şəhərin lap mərkəzindədir. İndi Böyük Şor gölünün təmizlənməsi, yeni kanalizasiya sistemlərinin, lay sularının ötürülməsi, yaşıllıq zolaqlarının yaradılması layihəsi əgər uğurla başa çatarsa, böyük bir ərazidə, şəhərin mərkəzində gözəl, təmiz göl yaranacaqdır.*

*Xocasən gölü, Xırdalan gölü, Qanlı göl, Zığ gölü – bu göllərin sayı həddən artıqdır. Bu göllərə yuxarıdan, helekopterdən baxanda dəhşətli mənzərə açılır. Biz bu gölləri təmizləməliyik. Göstərişlər verilib, bu il əlavə vəsaitin ayrılması da nəzərdə tutulub. Ancaq gələn ilin investisiya proqramında bu məsələ xüsusilə qeyd olunmalıdır və çalışmaq lazımdır ki, mümkün olan işləri bu il görək. Əsas işləri gələn ilin əvvəlində maksimum diqqətlə görməliyik."*

***11 iyul 2012-ci il,***
***Nazirlər Kabinetinin 2012-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda yekun nitqindən***

*"Mən istəyirəm ki, Azərbaycan xalqı sağlam olsun. Gənc nəsil sağlam yetişsin. Bunun üçün bir daha demək istəyirəm ki, kompleks tədbirlər görülür. Həm infrastruktur layihələri, dövlət siyasəti, ekoloji tədbirlər, xüsusilə Kür, Araz çayları boyu yerləşən rayonlarda, kəndlərdə ekoloji vəziyyət, içməli su ilə təchizat xüsusi məna daşıyır. Məhz buna görə biz bir neçə il bundan əvvəl sutəmizləyici qurğuların yaradılmasına başlamışıq. Bu gün bunun bəhrəsini görürük. Əminəm ki, vətəndaşlarımız kompleks tədbirlər nəticəsində daha da sağlam olacaqlar."*

***27 oktyabr 2012-ci il,***
***Əsaslı şəkildə yenidən qurulan Saatlı Mərkəzi Rayon Xəstəxanası ilə tanışlıqda çıxışından***

*"Mən istəyirəm ki, Azərbaycan xalqı sağlam olsun. Gənc nəsil sağlam yetişsin. Bunun üçün, bir daha demək istəyirəm ki, kompleks tədbirlər görülür. Həm infrastruktur layihələri, dövlət siyasəti, həm ekoloji tədbirlər, xüsusilə Kür, Araz çayları boyu yerləşən rayonlarda, kəndlərdə ekoloji vəziyyət, içməli su ilə təchizat xüsusi məna daşıyır. Məhz buna görə biz bir neçə il bundan əvvəl sutəmizləyici qurğuların yaradılmasına başlamışıq. Bu gün bunun bəhrəsini görürük. Əminəm ki, vətəndaşlarımız kompleks tədbirlər nəticəsində daha da sağlam olacaqlar. Həkimlərin peşəkarlığı, onların xəstələrə qayğısı, əlbəttə, yüksək səviyyədə olmalıdır. Həkimlər də biliklərini artırmalıdırlar. Təkmilləşmə işləri aparılmalıdır ki, məsələlər daha da uğurla həllini tapsın."*

***27 oktyabr 2012-ci il,***
***Saatlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından***

*"Bu çox böyük tarixi layihədir. Çünki içməli su insan sağlamlığı üçün ən əsas məsələlərdən biridir. İnsan sağlamlığı isə bizim üçün, yəni dövlət üçün ən əsas məsələdir. Ümumiyyətlə, səhiyyə sisteminin təkmilləşdirilməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması, əhalinin təmiz içməli su ilə təmin edilməsi məsələləri diqqət mərkəzindədir."*

***28 oktyabr 2012-ci il,***
***İmişli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından***

*"Əlbəttə, başqa sahələrdə olduğu kimi, ekoloji vəziyyət, təmiz hava, keyfiyyətli qida, təmiz içməli su – bütün bu məsələlər Azərbaycanda öz həllini tapır, o cümlədən də idman sahəsində. Bu amillər bir məqsədə xidmət edir ki, Azərbaycan vətəndaşı yaxşı yaşasın, rifah içində yaşasın, sağlam olsun və öz xalqına, öz Vətəninə sədaqətlə xidmət etsin."*

***7 noyabr 2012-ci il,***
***Azərbaycan Milli Olimpiya Komitəsinin 20 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə çıxışından***

*"Bu stansiya ekoloji cəhətdən də çox sərfəlidir. Bildiyiniz kimi, son illər ərzində Azərbaycanda bütün stansiyalar ya qaz ilə, ya da su mənbəyi hesabına fəaliyyət göstərir. Biz artıq mazutdan istifadə etmirik və beləliklə, ölkəmizin ekoloji vəziyyətini də yaxşılaşdırırıq. Ancaq iqtisadiyyat artır, tələbat artır, əhalinin sayı artır. Beləliklə, elektrik enerjisinə olan tələbat artacaq və yenə qeyd etmək istəyirəm ki, biz yeni stansiyaların tikintisi ilə məşğuluq. Hazırda bərpa olunan elektrik enerjisinin yaradılması ön plandadır və bu sahədə su, külək, günəş stansiyalarının tikintisi nəzərdə tutulur."*

***15 dekabr 2012-ci il,***
***Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından***

*"Bərpa olunan enerji növlərinin yaradılması ilə bağlı işlər başlamışdır. Ümid edirəm ki, bu istiqamət də çox perspektivli olacaqdır. Beləliklə, bizim zəngin qaz, neft yataqlarımız, ehtiyatlarımız var və bundan sonra ən azı 100 il ərzində Azərbaycanda daxili mənbələrlə, yəni enerji mənbələri ilə heç bir problem olmayacaqdır. Hesab edirəm ki, bərpa olunan enerji*

*növlərinin yaradılması və bu prosesin genişləndirilməsi də zəruridir. İlk növbədə, bu bizə əlavə maliyyə imkanları yaradacaqdır. Digər tərəfdən, bu yeni texnologiyaların, bərpa olunan texnologiyaların, «yaşıl energetika»nın yaradılması hesab edirəm ki, dünyada gedən ekoloji problemlərin həllinə də bizim töhfəmiz olacaqdır."*

***12 fevral 2013-cü il,***
***"Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransda yekun nitqindən***

*"Burada göstəriləcək xidmət əminəm ki, yüksək səviyyədə olmalıdır. Yaxın zamanlarda bu mərkəz fəaliyyətə başlayacaqdır. İndi fəaliyyətə başlamaq üçün bütün imkanlar vardır. Burada yaxşı həkim heyəti formalaşmalıdır ki, Tovuz rayonunun sakinlərinə yaxşı xidmətlər göstərilsin. İnsanın sağlamlığı üçün lazım olan amillər bəllidir. İlk növbədə, diaqnostika və müalicə vaxtında aparılmalıdır, ətraf mühit də yaxşı vəziyyətdə olmalıdır. Bu baxımdan Tovuzda heç bir problem yoxdur, ekoloji vəziyyət burada yaxşıdır. İçməli su mütləq təmiz olmalıdır və bu gün biz Tovuzda içməli su layihəsinin istismara verilməsini qeyd edəcəyik. Bu da hesab edirəm ki, böyük hadisədir. Ondan sonra, əlbəttə ki, keyfiyyətli qida olmalıdır. Biz bu məsələyə də diqqət yetiririk. Müvafiq orqanlar istehlak bazarındakı vəziyyəti müşahidə edir, nəzarət edirlər. Hesab edirəm ki, bu istiqamətdə də irəliləyiş vardır. Digər amillər də öz rolunu oynayır. Onların arasında idman da çox vacib məsələdir. Tovuzda artıq neçə ildir ki, idman mərkəzi vardır. Yəni bütün bu amillər insanların sağlamlığını təmin edir və eyni zamanda, maddi rifah məsələləri. Son illər biz Azərbaycanda bütün bu istiqamətlər üzrə yaxşı dinamikanı görürük. Nəinki Tovuzda, istənilən bölgədə, bütün bu istiqamətlər üzrə bizim siyasətimiz aparılır. Bu ilin sonunda regionların sosial-iqtisadi inkişafı üzrə 2-ci Dövlət Proqramı başa çatır və proqramda nəzərdə tutulmuş bütün məsələlər artıqlaması ilə öz həllini tapır."*

***5 iyul 2013-cü il,***
***Tovuz rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından***

*"Sumqayıtın ekoloji vəziyyəti daim diqqət mərkəzindədir. Çünki sovet dövründə Sumqayıtın ekoloji vəziyyəti ağır idi. Biz bunu bilirik. Əfsuslar olsun ki, bu köhnə informasiyalar, məlumatlar bu gün də dünya mətbuatında mövcuddur. Ancaq həqiqət elədir ki, bu gün Sumqayıt ən təmiz şəhərlərdən biridir. Çünki vaxtilə havanı çirkləndirən müəssisələr öz fəaliyyətini dayandırmışdır. Yeni müəssisələr isə çox yüksək ekoloji standartlar əsasında tikilir.*

*Bu gün Sumqayıt yaşıl şəhərdir, gözəl havası, gözəl iqlimi, gözəl təbiəti vardır. Sumqayıt bu gün parklar, bağlar şəhəridir. Parkların sayına görə heç Bakıdan da geri qalmır. Çox şadam ki, Sumqayıtda bu parkların yenidən qurulması prosesi gedir. Mən son 10 ildə Sumqayıta 10 dəfədən çox səfər etmişəm və Sumqayıtın inkişafı daim diqqət mərkəzindədir. Çox şadam ki, insanlar üçün vacib olan bu sahə də öz həllini tapır. Sumqayıt parklar, bağlar, ağaclar şəhəridir, yaşıl şəhərdir və burada yenidənqurma işləri aparılır. Binaların bir çoxu əsaslı şəkildə təmir edilir. Sumqayıt üçün ənənəvi istirahət zonaları yenidən qurulur. Burada inkişaf, dizayn, quruculuq işləri Bakı şəhərinin səviyyəsində olmalıdır."*

* * * *

*"Sumqayıtda yeni, ekoloji cəhətdən təmiz Kimya Sənaye Parkının yaradılması müstəqilliyimizin üstünlüklərini bir daha göstərir. Çünki vaxtilə burada tikilmiş kimya zavodları*

*ekoloji cəhətdən standartlara uyğun deyildi. Sovet dövründə, ümumiyyətlə, ekologiya barədə heç kim düşünmürdü. Sadəcə, nəyin bahasına olursa-olsun məhsulun istehsalı tələb edilirdi.*

*Bu gün isə müstəqil Azərbaycanda, sosial dövlət olan Azərbaycanda insan amili ön plandadır. Ona görə burada yaradılan, yaradılacaq bütün zavodlar dünya səviyyəsində ekoloji standartlara uyğun olmalıdır. Kimya Parkının yaradılması burada 10 minlərlə yeni iş yerlərinin açılmasına gətirib çıxaracaqdır. Çünki böyük şirkətlər böyük müəssisələr yaradacaqdır və ondan sonra orta və kiçik sahibkarlar o böyük zavodlarda istehsal olunan ilkin məhsullardan son məhsulu istehsal etmək üçün öz işlərini quracaqlar.*

*Beləliklə, gələcəkdə Sumqayıtda bütün bu zavod və fabriklərdə işləmək üçün başqa rayonlardan da işçi qüvvəsi gələcəkdir. Bu proses başlamışdır. Qonşu rayonlardan, ətraf yerlərdən indi işçi qüvvəsinin axını müşahidə olunur.*

*Yəni Sumqayıtı mən belə görürəm: gələcəkdə Cənubi Qafqazın ən böyük sənaye mərkəzlərindən biri, dünya miqyasında ən böyük sənaye mərkəzlərindən biri olmalıdır, eyni zamanda, ekoloji cəhətdən tam təmiz, insanlar üçün rahat, yaşamaq, işləmək üçün rahat, gözəl, abad bir şəhər olmalıdır. Sumqayıtın təbiətini, dənizə çıxışını nəzərə alaraq şəhər geniş miqyasda sənaye, turizm, mədəniyyət, istirahət mərkəzi olmalıdır. Bax, mən Sumqayıtı belə görürəm. Bu məqsədlərə çatmaq üçün hesab edirəm ki, kifayət qədər işlər görülmüşdür və sumqayıtlılar bütün bu işlərdə fəal iştirak etmişlər. Bütün bu uğurlarla mən sizi təbrik edirəm. Əminəm ki, gələcəkdə bizim bütün planlarımız həyatda öz əksini tapacaqdır. Bir daha sizi təbrik edirəm."*

***3 oktyabr 2013-cü il,***
***1 saylı Sumqayıt Şəhər Xəstəxanasında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə tanışlıqda çıxışından***

*"Sumqayıt bu gün müasir sənaye şəhəridir. Burada artıq onlarla yeni müasir müəssisə fəaliyyət göstərir. Kimya Sənaye Parkının yaradılması Sumqayıtın inkişafına böyük təkan verəcəkdir. Burada minlərlə, bəlkə də 10 minlərlə yeni iş yeri açılacaq, onlarla yeni müəssisə yaradılacaqdır. Müəssisələrin hamısı yüksək standartlara uyğun olacaq, ən yüksək ekoloji standartlar burada tətbiq ediləcəkdir.*

*Təqribən 200 hektara yaxın bu ərazi ekoloji fəlakət ərazisi idi. Burada ekoloji normalara riayət edilmirdi. Demək olar ki, bu ərazinin təmizlənməsi böyük bir qəhrəmanlıq idi. Ancaq biz bunu təmizlədik. Ekoloji cəhətdən tam təmiz ərazidir. Burada Azərbaycanı və Sumqayıtı gələcəkdə sənaye mərkəzi kimi təsdiqləyən onlarla müəssisə yaradılacaqdır. Beləliklə, ölkəmizin qeyri-neft sektorunun inkişafı təmin ediləcəkdir."*

***3 oktyabr 2013-cü il,***
***Sumqayıt Kimya Sənaye Parkının təməlqoyma mərasimində çıxışından***

*"Ekoloji tədbirlər görülür və görüləcəkdir. Əfsuslar olsun ki, Bakıda 200 ilə yaxın davam edən neft istehsalı ekologiyaya böyük dərəcədə ziyan vurmuşdur. Bu ziyanı biz indi aradan götürürük. Bu, çox çətin, çox böyük vəsait tələb edən məsələdir. Bakıda neftlə, digər tullantılarla çirklənmiş kifayət qədər yerlər vardır. Siz də bunu yaxı bilirsiniz, mən də yaxşı bilirəm. Biz bu yerləri tədricən təmizləyirik, rekultivasiya aparılır. Bu gün çıxışlarda bu, səsləndi. Bu, böyük vəsait və vaxt tələb edir.*

*Ancaq deyə bilərəm, görülən işlər sübut edir ki, bu sahədə də biz uğurlara çatacağıq. Çünki misal üçün, Bakının və dünyanın ən qədim neft mədənlərindən biri olan Bibiheybət mədənində indi təmizlik işləri aparılıbdır. İndi buruqların ətrafı təmizdir. Mən demişəm ki, orada ağaclar əkilsin, park salınsın. Bir neçə ildən sonra o buruqlar meşə arasında qalacaqdır.*

*"Ağ şəhər" layihəsinin icra olunduğu ərazidə vaxtilə Nobel qardaşlarının gördüyü işlər nəticəsində böyük çirklənmə olmuşdur. İndi o torpaqlar oradan çıxarılır, rekultivasiya işləri aparılır. Yeni şəhər içində yeni bir şəhər salınır.*

*Digər yerlərdə ekoloji tədbirlər görülür. Biz Balaxanıda tullantıların təmizlənməsinə nail ola bilmişik. Bu da hesab edirəm ki, böyük tarixi layihədir. Bu layihəyə başlayanda bir çoxları inanmırdı ki, biz buna nail olacağıq. Çünki siz də yaxşı xatırlayırsınız ki, orada tullantılarla əlaqədar yanğınlar nəticəsində bütün ətrafı tüstü bürüyürdü. Hazırda ora da təmiz bir yerdir, poliqondur. Dövlət hesabına məişət tullantıları zavodu tikilmişdir. İndi məişət tullantılarının idarə edilməsi, utilizasiya ilə bağlı əlavə konkret tədbirlər görülür. Yəni, tullantıların insanların həyətlərindən götürülməyindən məişət tullantıları zavoduna qədər bir zəncir qurulur. Əminəm ki, biz bu sahədə də lazımi səviyyəyə çatacağıq. Burada heç nə icad etmək lazım deyildir. Sadəcə olaraq inkişaf etmiş şəhərlərdə bu məsələlər necə həll olunursa, Bakıda da bu məsələ o səviyyədə öz həllini tapmalıdır.*

*Bakının ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün digər tədbirlər də həyata keçirilir. Ağacəkmə tədbirləri görülür. Düzdür, son illər bu işlər bir az səngiyib. Ancaq hesab edirəm ki, biz buna yol verməməliyik. "Ekologiya ili"ndə daha çox ağac əkilmişdir. Yadımdadır, mən "Ekologiya ili" başa çatanda dedim ki, "Ekologiya ili" rəsmən başa çatır. Ancaq hər il "Ekologiya ili" olmalıdır. Ağacəkmə yaddan çıxmamalıdır. Yerli icra orqanları, bələdiyyələr lazımi vaxtlarda, mövsümdə bu işlərlə ciddi məşğul olsunlar. Biz Bakını daha da yaşıllaşdırmalıyıq. Bu proses daim getməlidir, yaddan çıxmamalıdır.*

*Bakının ekoloji vəziyyətini ağırlaşdıran o illər boyu mövcud olan göllərdir. O göllərə axıdılan sular çirkab sularıdır, lay sularıdır, neft mədənlərindən çıxan sulardır. Bu göllər həm ekoloji vəziyyəti korlayır, həm ümumi görüntünü pozur. Artıq vaxt gəlib çatıb ki, biz bu məsələ ilə də məşğul olaq. Bu da maliyyə baxımından çox ağır bir məsələdir. O göllərin təmizlənməsi məsələsi gündəlikdədir. Bəzi təklİflər var idi ki, bu göllər qurudulsun. Digər təkliflər var idi ki, təmizlənsin. Hər bir gölə fərdi qaydada yanaşmaq lazımdır. Deyə bilərəm, ictimaiyyət də bunu bilməlidir ki, biz əgər belə demək mümkünsə, ən ağır göldən başlamaq istəyirik. Biz Böyük Şor gölünün təmizlənməsinə başlamaq istəyirik. Böyük Şor gölü min hektarı əhatə edir. Bu, çox nəhəng bir göldür. Ona görə təklif verilmişdir ki, biz bu gölü iki yerə bölək. Göl üzərindən avtomobil yolu çəkiləcəkdir. Belə layihə vardır. Altızolaqlı avtomobil yolu çəkiləcəkdir. Gölün birinci hissəsini - 300 hektar olan sahəni biz təmizləməliyik, şəffaf gölə çevirməliyik. Bu, həm istirahət zonasına çevriləcəkdir, həm nəqliyyat üçün çox vacib bir infrastruktur olacaqdır. Bütövlükdə biz özümüzü bu işlərdə də sınamalıyıq. Yəni, biz buna nail ola biləcəyik, yoxsa yox?*

*Bu günə qədər Azərbaycanda, Bakıda heç vaxt belə işlər görülməmişdir. Bizim də təcrübəmiz yoxdur. Əlbəttə ki, biz bu sahədə təcrübəsi olan xarici şirkətləri dəvət etmişik, onlarla işləyəcəyik. Ancaq biz baxmalıyıq bu mümkündür, yoxsa yox. Çünki müxtəlif fərziyyələr, müxtəlif fikirlər vardır. Ona görə biz həm özümüzü sınamalıyıq, həm də ki, bu üsuldan istifadə etməliyik.*

*Əgər istədiyimizə nail ola bilsək, 2015-ci ilin yayına qədər Bakıda 300 hektarı əhatə edən gözəl, təmiz, şəffaf bir göl yaranacaqdır. Digər göllərlə bağlı həm şəhər icra hakimiyyəti, həm İqtisadiyyat və Sənaye Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi birgə işləsinlər, konkret təkliflər versinlər. Ola bilər, biz xüsusi proqram da qəbul edək ki, bu məsələlər də öz həllini tapsın və Bakının ekoloji məsələləri yüksək səviyyədə həll edilsin."*

* * * *

*“Bakı sənaye şəhəri kimi formalaşıb və təsadüfi deyildir ki, Bakıda çoxsaylı sənaye müəssisələri vardır. Onların bir hissəsi artıq köhnəlib, sıradan çıxıb. Biz onları köçürmüşük, sökmüşük. Onların yerində bayaq da qeyd etdiyim kimi, yeni, gözəl parklar, ictimai yerlər salınır. Ancaq, əlbəttə ki, iqtisadi inkişafımızın gələcək istiqaməti sənayeləşmə ilə bağlı olacaqdır. Bu barədə mən dəfələrlə demişəm ki, Azərbaycanda müasir sənaye kompleksləri tikilməlidir. Ancaq bu komplekslərin tikintisi üçün yerlər artıq müəyyən edilib. Sənaye mərkəzi Bakıdır, Sumqayıtdır, Gəncədir, Mingəçevirdir. Sənaye daha çox bu şəhərlərdə inkişaf edəcəkdir. Paytaxtın sənaye potensialının gücləndirilməsi ilə bağlı Bakıda, Qaradağ rayonunda bu işləri görmək üçün daha da yaxşı imkanlar vardır. Həm ərazi böyükdür, həm şəhərin mərkəzindən bir qədər aralıdır. Ona görə Bakıda, şəhərin mərkəzində sənaye müəssisələrinin yaradılması məqsədəuyğun deyildir. İşləməyən, havanı çirkləndirən sənaye müəssisələri ya bağlanmalıdır, ya onlara qarşı cəza tədbirləri görülməlidir. Ümumiyyətlə, biz ekologiyanı pozan müəssisələrin fəaliyyətinə yenidən baxmalıyıq. Kim o müəssisələri işlədir, ya dövlət, ya özəl qurumlar buyursunlar getsinlər bütün ekoloji normalara riayət etsinlər.*

*Ona görə Bakının sənaye inkişafı ilə bağlı hesab edirəm ki, Qaradağ rayonunda böyük imkanlar var və bizim sənayemiz orada inkişaf edəcəkdir. Onsuz da orada həm Gəmiqayırma zavodu, həm yeni dəniz limanı tikilir. Orada digər böyük müəssisələr tikilmişdir. Gələcəkdə orada neftayırma, neft-kimya kompleksi tikiləcəkdir. Ona görə şəhər icra hakimiyyəti də bu məsələyə diqqət yetirsin ki, Bakı şəhərində böyük sənaye müəssisələrinin tikintisinə ehtiyac yoxdur”*

***23 dekabr 2013-cü il,***
***Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrasının yekunlarına həsr olunmuş konfransda yekun nitqindən***

*“Ekoloji vəziyyətin yaxşılaşdırılması işləri hər il diqqət mərkəzindədir. Kompleks tədbirlər görülür. Daha da ciddi tədbirlər görülməlidir. Xüsusilə havanı çirkləndirən amillər bir daha təftiş edilməlidir. Əlbəttə ki, «Avro-3» standartına keçid sürətləndirilməlidir. «Avro-3» də son hədd deyildir. «Avro-4», «Avro-5» ilə bağlı işlər daha da sürətlə getməlidir. Əlbəttə ki, bu işlərdə Azərbaycanda fəaliyyət göstərən neftayırma zavodlarının da böyük rolu vardır. Orada da yenidənqurma aparılmalıdır. Bakıda yeni Neftayırma zavodunun tikintisi nəzərdə tutulur. Ancaq o tikilənə qədər mövcud zavodlarda ekoloji tədbirlər görülməlidir. Ümumiyyətlə, havanı çirkləndirən amillərə qarşı ciddi mübarizə aparılmalıdır.*

*Mənə verilən məlumata görə, əsas amil minik maşınlarıdır. Keçən il Azərbaycana yüz mindən çox avtomobil idxal edilibdir. Bu, əlbəttə ki, vətəndaşların rifah halının yaxşılaşmasını təsdiqləyən bir faktdır. Ancaq, eyni zamanda, bizim yol infrastrukturumuza nə qədər böyük yükdür. Biz yollar çəkirik, qovşaqlar, tunellər tikirik. Bəlkə də Bakıda, Azərbaycanda olan bu layihələr heç bir başqa ölkədə yoxdur. Nə qədər yollar, tunellər tikilib və tikilir. Nə qədər vəsait ayrılır. Ancaq yüz min maşının – onların da böyük hissəsinin Bakıya gəlməsi, əlbəttə ki, tıxac problemlərini yaradır, ekoloji vəziyyəti pisləşdirir. Ona görə, vaxtilə biz ekoloji standartlara, yaxud da ki, texniki şərtlərə uyğun olmayan maşınların idxalını dayandırmışıq. Hesab edirəm ki, bu il Ekologiya və Təbii Sərvətlər Nazirliyi, digər aidiyyəti qurumlar və Nazirlər Kabineti bütövlükdə bu məsələyə bir də baxmalıdır. Ekologiyanı çirkləndirən*

*maşınlar Azərbaycana buraxılmamalıdır. Sıradan çıxmış maşınlar, ümumiyyətlə, gətirilməməlidir və mənə konkret təkliflər verilməlidir ki, biz bu məsələni birdəfəlik həll edək.*

*Havanı çirkləndirən müəssisələrdə ciddi yoxlamalar aparılmalıdır. İqtisadiyyat və Sənaye Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, digər aidiyyəti qurumlar belə müəssisələrin siyahısını mənə təqdim etsinlər və orada ciddi tədbirlər görülməlidir. Ya o müəssisələri işlədənlər, - istər dövlət, istər özəl qurumlar - lazım olan təmizləyici qurğuları quraşdıracaqlar, ya da ki, o müəssisələr bağlanmalıdır. Birmənalı şəkildə. Havanı çirklədən, insanları zəhərləyən müəssisələr lazım deyildir. Deyə bilərəm ki, cərimələr burada işləmir. Çünki cərimələrin tutulması prosesi çox mürəkkəbdir. Bir də ki, indi cərimələrin məbləği də o qədər böyük deyil ki, bu cərimələrə görə kimsə öz fəaliyyətini dayandırsın. Ona görə, ya təmizləyici qurğular quraşdırılmalıdır, ya müəssisə bağlanmalıdır. Heç bir tərəddüdsüz. Hesab edirəm ki, bu, ekoloji vəziyyətin yaxşılaşmasına böyük təsir göstərəcəkdir. Biz milyonlarla ağac əkirik, ictimai zonalar yaradırıq, içməli su-kanalizasiya xətləri çəkirik. Ancaq havanı çirkləndirən müəssisələr bizim bütün bu işlərimizin üstündən elə bil ki, xətt çəkir. Ona görə bu, çox ciddi məsələdir. Bu, hər bir Azərbaycan vətəndaşının sağlamlığı məsələsidir. Sağlamlıq isə birinci yerdədir.*

*Digər ekoloji tədbirlər də görüləcəkdir. Böyükşor gölünün təmizlənməsi layihəsi bu il başlanacaq və gələn il onun birinci mərhələsi başa çatmalıdır. Artıq İqtisadiyyat və Sənaye Nazirliyi mənə bu barədə məlumat veribdir. İşlər bu il başlayacaq və Böyükşor gölünün üçdəbir hissəsi bəndlə ayrılacaq, orada ekoloji tədbirlər görüləcəkdir. Əminəm ki, bu təcrübə uğurlu olacaqdır. Ondan sonra qalan hissə təmizlənəcəkdir. Böyükşor gölünün ümumi ərazisi min hektardan çoxdur. Çox böyük bir göldür. Şəhərin mərkəzində yerləşir və bilirsiniz ki, o gölə axıdılan çirkab suları, lay suları, neftlə çirklənmiş sular Bakının ekoloji vəziyyətini böyük dərəcədə pisləşdirir. Ona görə, bu layihələr də icra edilməlidir və digər göllərlə bağlı vaxt gəlib çatıb ki, biz ciddi məşğul olaq. Mən bir neçə il bundan əvvəl bu barədə öz fikirlərimi bildirmişəm. Hətta o göllərin hamısının adlarını da sadalamışam. Ona görə, vaxt gəlib çatıb. Bütün göllərin təmizlənməsi, haradakı bu, mümkün deyil, onların qurudulması, yəni, kompleks tədbirlər planı olmalıdır. Biz xüsusi proqram da qəbul edə bilərik və edəcəyik."*

***9 yanvar 2014-cü il,***
***Nazirlər Kabinetinin 2013-cü ilin sosial-iqtisadi inkişafının yekunların və 2014-cü ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda yekun nitqindən***

*"Cənub və qərb zonalarının, Naxçıvan Muxtar Respublikasının turizm potensialı kifayət qədər genişdir. Burada da böyük işlər görülür və görüləcəkdir. Əlbəttə ki, ekoloji tədbirlər ciddi şəkildə görülməlidir. Bu barədə mən dəfələrlə öz fikirlərimi bildirmişəm. Biz ətraf mühiti qorumalıyıq, Bakını və Abşeron yarımadasını əsrlərboyu yığılan tullantılardan təmizləməliyik. Biz «Qara şəhər»i «Ağ şəhər»ə çeviririk. Bütün bölgələrdə görülən işlər, yeni açılan müəssisələr ən yüksək ekoloji standartlara cavab verməlidir."*

***5 fevral 2014-cü il,***
***Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunmuş konfransda yekun nitqindən***

*"Ətraf mühitin qorunmasına böyük diqqət göstərilir. Bu gün Sumqayıtda fəaliyyətə başlayan bütün sənaye müəssisələri ən yüksək ekoloji standartlara cavab verməlidir. Qarşıya bu*

*məqsəd qoyulub, nəinki Sumqayıtda, bütün Azərbaycanda fəaliyyət göstərən zavodlarda ekoloji standartlar ən yüksək səviyyədə olmalıdır. Çünki vaxtilə Sumqayıtın ekoloji vəziyyəti ilə bağlı problemlər olmuşdur. Bu problemlər, demək olar ki, aradan qaldırılıbdır. Bir sözlə, bu gün «Sənaye ili»ndə əlamətdar bir gündür. Bu zavodların fəaliyyətinə dəstək olan bütün vətəndaşlara öz minnətdarlığımı bildirmək istəyirəm. Burada, əlbəttə ki, investorlar əsas rol oynamışlar, böyük investisiyalar qoyulmuşdur. Hər 2 zavoda 90 milyon manat investisiya qoyulmuşdur. Bu, investorların Azərbaycan iqtisadiyyatına verdikləri dəstəkdir, Azərbaycanın uğurlu gələcəyinə onların inamının təzahürüdür. Çünki ölkəmiz sürətlə inkişaf edir, bütün məsələlər uğurla həll edilir. Biz çalışmalıyıq ki, daxili və xarici investorları Azərbaycana daha da çox cəlb edək. Burada biznes mühiti də yaxşıdır. Gəlirli sahələr yaradılır. Həm sahibkarlar, həm burada işləyənlər, həm də dövlət bundan fayda götürür və götürməlidir. Bax, bu müştərək fayda əsasında Azərbaycan iqtisadiyyatı inkişaf edir."*

* * * *

*"Kağız və karton istehsalat kombinatının fəaliyyəti sayəsində nəinki Sumqayıtda, bütün respublikamızda məntəqələr açılacaq, orada da iş yerləri yaradılacaqdır. O köhnə kağızları yığmaq üçün məntəqələr yaranacaq və biz eyni zamanda, ekoloji problemlərin həllinə də töhfəmizi vermiş oluruq. Çünki hazırda köhnə kağızlar, qəzetlər, sıradan çıxmış digər əşyalar yandırılır və havanı çirkləndirir. İndi bütün kağız tullantıları burada yığılacaq və beləliklə, ekoloji vəziyyətin yaxşılaşdırılmasına da biz dəstək olacağıq. Bu 2 müəssisənin xüsusiyyəti ondan ibarətdir ki, onların fəaliyyəti nəticəsində biz karton, kağız və bitki yağları sahəsində özümüzü 100 faiz təmin edəcəyik. Yəni qarşıya bu hədəf də qoyulub. Mən dəfələrlə demişəm ki, Azərbaycanda tələb olunan bütün məhsullar istehsal edilməlidir. İxrac potensialı da yaradılır. Həm bitki yağları, həm kağız-karton məhsulları xaricə ixrac ediləcəkdir."*

***25 fevral 2014-cü il,***
***«Azərsun Sənaye Parkı»nın nəzdində yaradılan Sumqayıt yağ fabrikinin***
***açılışı mərasimində çıxışından***

*"Ətraf mühitin qorunması ilə bağlı bir neçə söz demək istərdim. Bir neçə il bundan əvvəl Azərbaycanda "Ekologiya ili" elan edilmişdi. Xatırlayıram, o vaxt biz "Ekologiya ili"ndə görülən işləri müzakirə edərkən mən demişdim ki, "Ekologiya ili" hər il olmalıdır. Çünki ətraf mühit, xüsusilə Bakı və Abşeron yarımadası üçün əsas məsələlərdən biridir. Burada illər, əsrlər boyu neftlə çirklənmiş gölməçələr, yerlər, ekoloji cəhətdən məqbul olmayan mənzərə vardır. Biz son illərdə bu istiqamətdə çox böyük işlər görmüşük. Çünki neft hasilatı Azərbaycanda artıq 200 ilə yaxındır ki, aparılır. Ancaq əfsuslar olsun ki, ekoloji vəziyyətə diqqət lazımi səviyyədə olmamışdır. Yadınıza salın, Bibiheybət buxtası nə gündə idi, bir fəlakət mənzərəsi idi. İndi ora tamamilə təmizlənib. Buruqlar yerində qalıb, ətrafı təmizlənib. İndi göstəriş vermişəm ki, orada, o buruqların arasında ağacəkmə kampaniyası da başlasın. Biz oranı yaşıllıq zonaya çevirməliyik. Şəhərin mərkəzində yod zavodu fəaliyyət göstərirdi. Sonra fəaliyyəti dayandırılmışdır. Ancaq orada qalan o yod çöküntüləri ətraf mühitə nə qədər böyük ziyan vururdu. Biz oranı da təmizlədik, o məsələ də ən yüksək səviyyədə öz həllini tapmışdır. Balaxanı zibilxanası yanırdı, tüstü verirdi. O tüstü bütün şəhəri bürümüşdü, nəfəs almaq mümkün deyildi. Nəinki Balaxanı sakinləri, bütün şəhər o tüstüdən əziyyət çəkirdi. Biz oranı da təmizlədik. İndi poliqonda bir dənə də olsun tullantı,*

*zibil yoxdur. Ağaclar əkilib, tüstü də yoxdur. Böyük maliyyə vəsaiti hesabına zibilyandırma zavodu tikilib fəaliyyət göstərir. Yəni, belə misallar çoxdur. Ağacəkmə kampaniyası zamanı on milyondan çox ağac əkilibdir və bu proses davam etdirilir.*

*Ona görə biz ekoloji vəziyyətlə bağlı məsələləri daim diqqət mərkəzində saxlayırıq. Ancaq ictimaiyyəti də, məni də narahat edən məsələ ağacların kəsilməsi məsələsidir. Buna yol vermək olmaz. Hesab edirəm ki, biz burada daha da ciddi məsuliyyət tətbiq etməliyik. Ağackəsmə tam şəkildə dayandırılmalıdır. Ancaq nadir hallarda, o da Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi ilə haradasa ağac ya köçürülə, ya kəsilə bilər. Ona görə mən dəfələrlə bu məsələlərlə bağlı öz fikrimi bildirmişəm. Deyə bilərəm ki, vəziyyət əvvəlki illərə nisbətən daha da müsbətdir. Ancaq biz istədiyimizə tam şəkildə nail ola bilməmişik. Gecə vaxtı gəlirlər, qanunsuz olaraq ağacları kəsirlər, yerləri düzəldirlər ki, ev tiksinlər. Bu, vicdansızlıqdır, bu, biabırçılıqdır, bu, cinayətdir.*

*Ona görə aidiyyəti qurumlar təklif versinlər, biz ağacları kəsənlərə qarşı daha da ciddi tədbir görməliyik. Onlar məsuliyyətə cəlb edilməlidir. Bir daha demək istəyirəm ki, şəhərdə bir dənə də olsun ağac Ekologiya və Təbii Sərvətlər Nazirliyinin icazəsi, rəyi olmadan kəsilə bilməz. Bu, mənim son xəbərdarlığımdır. Biz bu aydan başlayaraq "Avro-4" standartına keçmişik. Bu da əminəm ki, havanın tərkibini böyük dərəcədə yaxşılaşdıracaqdır. Çünki verilən məlumata görə, havanı çirkləndirən əsas amil sənaye müəssisələri yox, maşınlardır. Burada "Avro-4" standartının tətbiq edilməsi hesab edirəm ki, bunun qarşısını alacaqdır. Eyni zamanda, əlbəttə biz bunu da deməliyik ki, Azərbaycanda istehsal olunan yanacağın keyfiyyəti də yaxşılaşdırılmalıdır. Bakıda yeni neftayırma zavodunun tikintisi nəzərdə tutulur, tikiləcəkdir, ancaq bu, vaxt aparacaqdır. Haradasa bəlkə 3 il-4 il vaxt aparacaqdır. Çalışmalıyıq və hökumət də öz təkliflərini versin ki, o tikilənə qədər Azərbaycanda istehsal olunan yanacağın keyfiyyətini biz necə yaxşılaşdıra bilərik. Hesab edirəm ki, biz bu məqsədlər üçün də maliyyə resursları ayıra bilərik.*

*Bakıda mövcud olan göllərin təmizlənməsi proqramı da artıq başlayır. Bu göllərin siyahısı mənə verilibdir. Burada 9 göl vardır. Amma bu gölləri heç göl adlandırmaq da düzgün deyildir. Çünki göl təbii, təmiz bir su hövzəsidir, bu göllər isə ekoloji fəlakət mənzərəsidir. İllər boyu bu göllərə kanalizasiya, çirkab suları, neftlə çirklənmiş sular, lay suları axıdılıb. Bu göllər şəhərin içində, şəhərin mərkəzində bir ekoloji fəlakətdir. Ona görə bu məsələ ilə bağlı artıq bütün göstərişlər verilibdir. Biz daha bundan sonra bu vəziyyətlə barışa bilmərik. Bu məqsədlər üçün nə qədər lazımdırsa, o qədər də vəsait ayrılacaqdır. Bu çirkab su hövzələrini biz təmiz göllərə çevirəcəyik. Bakı indi parklar şəhəridir. Bakı olacaq təmiz göllər şəhəri. Bu vəzifəni mən bu gün qarşıya qoyuram və hesab edirəm ki, biz tezliklə bu işlərə başlamalıyıq. Sözün düzü, artıq biz başlamışıq. Bu sahədə təcrübəsi olan xarici şirkətlərlə artıq müqavilələr də bağlanıbdır. Biz ən ağır, ekoloji və texniki cəhətdən ağır olan layihədən başlamışıq. Bu da Böyükşor gölünün təmizlənməsidir. Böyükşor gölünün ərazisi 11 kvadratkilometrdir. Yəni, min hektardan böyükdür. Böyükşor gölünü biz hələlik iki yerə bölürük. Bənd tikiləcəkdir. Bu bənd, eyni zamanda, avtomobil yolu olacaqdır. Həm nəqliyyat üçün, həm bu təmizləmə işlərini mərhələlərə bölmək üçün biz bu işləri görürük."*

***13 aprel 2014-cü il,***
***Nazirlər Kabinetinin 2014-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda yekun nitqindən***

*"İçməli su və kanalizasiya layihələri bütün ölkə üzrə gedir, o cümlədən Bakıda. Dövlət büdcəsi hesabına böyük investisiyalar qoyulur, həm də kreditlər verilir. Şəhərimizdə*

*artıq bir neçə belə layihə başa çatıb. Mən də açılışlarda iştirak etmişəm. Vətəndaşlarla söhbət əsnasında onların bu məsələyə müsbət yanaşmasını görmüşəm. Uzun illər keyfiyyətsiz sudan əziyyət çəkən vətəndaşlar bu gün artıq 24 saat fasiləsiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun olan içməli suya malikdirlər. Elə etməliyik ki, bütün şəhərlərimizə içməli su xətləri çəkək. Eyni zamanda, kəndləri də içməli su ilə təmin edirik. Həm «Azərsu» şirkəti, həm də Ekologiya və Təbii Sərvətlər Nazirliyi çaylar boyu yerləşən kəndlərdə modul tipli təmizləyici qurğular quraşdırır. O ərazilərdə yaşayan təxminən yarım milyona qədər vətəndaş indi təmiz içməli su ilə təmin olunub."*

* * * *

*"Böyükşor gölünün təmizlənməsi burada qeyd olundu. Layihə icra olunur. Bu çox böyük layihədir, rəmzi xarakter daşıyır. Bakının ətrafında çirklənmiş göllərin sayı 10-dan çoxdur. Onlardan ən böyüyü, ən çirklənmişi Böyükşor gölüdür və biz məhz bu göldən başlamışıq. Bu gölü biz tədricən təmizləyəcəyik. Hələ ki, 2 yerə bölmüşük, ola bilsin 3 yerə böləcəyik. Eyni zamanda, yol da salınacaq. Artıq bənd tikilir. Bu, şəhər nəqliyyatı üçün də faydalı olacaq. Bu gölü hissə-hissə təmizləmək daha asandır. Hesab edirəm ki, gələn ilin yayına qədər birinci hissə artıq istifadəyə veriləcək. 300 hektar təmiz göl şəhərin mərkəzində vətəndaşların sərəncamına veriləcəkdir. Gölün ətrafında yaşıllıq, gəzinti zolaqları, bulvar, yəni şəhər üçün böyük bir park və göl yaradılacaqdır. Bu da həm ekoloji cəhətdən, həm də insanların istirahəti üçün çox böyük əhəmiyyət daşıyan məsələdir.*

*Bununla paralel olaraq Zığ gölünün təmizlənməsi də artıq nəzərdə tutulur. Biz yəqin ki, yaxın aylarda bu gölün təmizlənməsinə başlamalıyıq. Biz hələ ki, 2 göldən başlayıb, növbəti illərdə bütün gölləri təmizləyəcəyik. O göllərə illər ərzində çirkab sular, lay, neft, kanalizasiya suları axıdılırdı. Bu göllər bu gün bir ekoloji fəlakət mənbəyidir, şəhərimizi zəhərləyir. Amma biz bu gölləri təmizləyib, gözəl ekoloji layihəyə çevirəcəyik və bu, şəhərin ekologiyasına çox müsbət təsir göstərəcəkdir.*

*İndi Balaxanı zibilxanasının təmizlənməsi, orada zibilyandırma zavodunun, poliqonun yaradılması ətraf mühitə nə qədər böyük təsir göstərmişdir. İndi əvvəlki illərdə olduğu kimi, şəhəri bürüyən zərərli tüstü yoxdur. İndi şəhərin havası dəyişir. Biz «Avro» standartına keçmişik. «Avro» standartından aşağı səviyyədə olan avtomobillər artıq Azərbaycana idxal edilmir. Bu da böyük dərəcədə müsbət təsir göstərəcəkdir. Çünki havanı çirkləndirən əsas amil avtomobillərdir. Həmçinin neftayırma zavodumuzda yenidənqurma işləri nəzərdə tutulur. Artıq layihə təqdim edilibdir. Mən hələ ki, bu barədə geniş danışmaq istəmirəm. Bəlkə də, biz bunu ayrıca müzakirə edəcəyik. Ancaq bizim zavodumuzda ən azı «Avro-5» benzinin istehsalı nəzərdə tutulur və vaxt qoymuşam ki, biz bu məsələni 3 il ərzində həll etməliyik.*

*Göllərin, neftlə çirklənmiş yerlərin təmizlənməsi, torpaqların rekultivasiyası. Bibiheybət buxtasının əvvəlki görüntülərinə nəzər salsaq görərik ki, biz nə dərəcədə böyük işlər görmüşük. İndi orada ağaclar əkilib, park salınıb. O, böyük bir fəlakət zonası idi. Ceyms Bond haqqında filmi orada çəkmişdilər. Təqribən 10 il bundan əvvəl böyük bir fəlakət zonası kimi çəkmişdilər. Bibiheybətin o filmdəki və indiki vəziyyətinə baxmaq olar. İndi biz orada incəsənət, idman şəhərcikləri salırıq. Avropa oyunlarına hazırlıq məqsədi ilə orada böyük Su İdmanı Sarayı və açıq meydançalar tikilir. Böyük hovuzlar, istirahət zonaları, idman meydançaları olacaqdır. Oyunlardan sonra isə onlardan vətəndaşlar da istifadə edəcəklər.*

*Bax, budur bizim gördüyümüz işlər. Ekologiya məsələlərinin həllinə də daim diqqət göstərilir. 6 ayda həm Bakıda, həm bölgələrdə 2 milyondan çox ağac əkilibdir. Mən həmişə deyirəm ki, bu, daimi proses olmalıdır. Biz nə qədər çox ağac əksək, xüsusilə Abşeron yarımadasında, o qədər də insanların sağlamlığına xidmət etmiş oluruq.*

*Yəni bizim gördüyümüz işlərin həcmi o qədər böyükdür ki, bir müşavirədə bu barədə danışmaq mümkün deyildir. Mən bu gün sadəcə olaraq, əsas məsələləri qeyd etdim. Yenə də demək istəyirəm ki, 6 ayın nəticələri ümidvericidir. Ölkəmiz inamla, dinamik şəkildə inkişaf edir. Ölkə iqtisadiyyatı dayanıqlıdır. Əminəm ki, biz ilin sonuna qədər bütün vəzifələri uğurla icra edəcəyik. Nazirlər Kabinetinin üzvlərinə isə uğurlar arzulayıram."*

***10 iyul 2014-cü il,***
***Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda yekun nitqindən***

*"Yəni dövlət siyasətimizin bütün istiqamətləri bu zavodda, demək olar ki, öz əksini tapıb. Çox şadam ki, hazırda Azərbaycanda bir neçə Sement zavodu fəaliyyət göstərir. Yadımdadır, bir neçə il əvvəl sadəcə olaraq, yalnız «Qaradağ» sement zavodu işləyirdi. O da ekoloji normalara uyğun deyildi. Orada böyük yenidənqurma işləri aparıldı və ötən dövrdə «Holcim» zavodunun fəaliyyətə başlamasını qeyd etdik. Qazaxda, Naxçıvanda, Sumqayıtda sement zavodları vardır. Hazırda bu zavodun – ən böyük «Norm» zavodunun fəaliyyətə başlaması Azərbaycanda sement istehsalını 5 milyon tona çatdırır, bəlkə ondan da bir qədər çox. Tələbat isə 4,5 milyon tondur. Yəni biz artıq fikirləşməliyik ki, ilk növbədə, daxili bazarımızı qoruyaq. Bu məqsədlə İqtisadiyyat və Sənaye Nazirliyi təklifləri hazırlayır. Çünki artıq bu zavodun fəaliyyətə başlamasından sonra xaricdən sementin gətirilməsi məqsədəuyğun deyildir. Öz sementimizlə, ixrac məhsulumuzla yeni bazarlara çıxmalıyıq. Əslində bizim ixrac potensialımızın gücləndirilməsi artıq təmin edilir. Nəzərə alsaq ki, bu zavodda istehsalı artırmaq üçün imkanlar var, hesab edirəm, gələcəkdə yeni bazarlara çıxdıqca Azərbaycanın bütün sement zavodları öz fəaliyyətlərini genişləndirə bilər."*

***21 iyul 2014-cü il,***
***«Norm» sement zavodunun açılış mərasimində çıxışından***

*"Bizim böyük planlarımız var və hesab edirəm ki, bu, bölgənin, bu zonanın inkişafına yeni təkan verəcək. Biz bu layihəni planlaşdıranda, əlbəttə, şəhərimizin ekoloji vəziyyətini də nəzərə aldıq. Çünki biz hesab edirik ki, bu gün Bakıda icra edilən quruculuq, abadlıq işləri mütləq ekoloji tədbirlərlə dəstəklənməlidir. Biz bu işləri paralel şəkildə aparırıq. Bakının yaşıllaşdırılması, milyonlarla ağacın əkilməsi, bəzi köçürmələrin həyata keçirilməsi və o ərazilərdə ictimai yerlərin, parkların, istirahət zonalarının yaradılması bizim siyasətimizin təzahürüdür.*

*Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Biz gözəl şəhərimizi öz işimizlə daha da gözəlləşdiririk. Hazırda şəhərimizin mərkəzində yerləşən ticarət limanı, əlbəttə ki, oradan köçürülməlidir və o zona bizim bulvara birləşdirilməlidir. Beləliklə, Bakıda yeni bir gözəl istirahət məkanı yaranacaqdır."*

***22 sentyabr 2014-cü il,***
***Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksinin bərə terminalının açılışı mərasimində çıxışından***

*"Xəzər dənizi regionunda ticari-iqtisadi əlaqələrin dərinləşdirilməsi, enerji ehtiyatlarının mənimsənilməsi və beynəlxalq bazarlara nəql edilməsi üzrə investisiya şəraitinin yaxşılaşdırılması, etibarlı və təhlükəsiz kommunikasiyalar yaradılması, yüksək rentabelli və ekoloji təmiz texnologiyaların cəlb edilməsi bizim üçün prioritet olaraq qalır. Xəzər dənizi nəqliyyat dəhlizlərinin inkişafı üzrə bir sıra beynəlxalq və regional layihələrdə əlaqələndirici elementdir.*

* * * *

*"Azərbaycan ekologiya sahəsində əməkdaşlığa çox böyük əhəmiyyət verir və Xəzərin ətraf mühitinin bugünkü vəziyyəti ilə əlaqədar sahilyanı dövlətlərin ümumi narahatlığına şərik çıxır. Biz daha səmərəli əməkdaşlığa ümumi səyi yüksək qiymətləndirir və Xəzər dənizinin ətraf mühitinin qorunmasına dair Çərçivə Konvensiyası üzrə işlərə öz töhfəmizi veririk."*

***29 sentyabr 2014-cü il,***
***Xəzəryanı ölkələrin dövlət başçılarının IV sammitində çıxışından***

*"Mən dəfələrlə demişəm ki, bizim təşəbbüslərimiz regional əməkdaşlığın dərinləşməsinə xidmət edir. Azərbaycan bu gün bölgədə elə böyük rol oynayır ki, bizim maraqlarımızı nəzərə almadan heç bir təşəbbüs irəli sürülə bilməz. Bu layihə bizim önəmimizi daha da artıracaq və Azərbaycan güclənəcək, öz təsir imkanlarını genişləndirəcəkdir. Əlbəttə ki, bu layihənin icrası zamanı tərəfdaş ölkələrlə əlaqələndirmə işləri yüksək səviyyədə aparılmalıdır. Mən artıq öz həmkarlarımla bu barədə danışmışam. Yəqin ki, gələcək aylarda bir Əlaqələndirmə Şurası, yaxud da, işçi qrupu yaradılmalıdır ki, bu məsələlər bütün ölkələrlə – tranzit və istehlakçı ölkələrlə müzakirə edilsin. Bu layihənin icrası yüksək ekoloji standartlar əsasında təşkil edilməlidir.*

*Əlbəttə ki, beynəlxalq səviyyəli standartlar tətbiq ediləcək. Çünki biz ekologiya məsələlərinə çox böyük diqqət göstəririk. Çirklənmiş ərazilərin təmizlənməsi, ağacların əkilməsi, məişət tullantıları zavodunun tikintisi, içməli su, kanalizasiya layihələrinin icrası son illərdə vəziyyəti böyük dərəcədə müsbətə doğru dəyişmişdir. Xəzər dənizinə axıdılan çirkab sularının qarşısı indi yeni kanalizasiya layihələrinin icrası nəticəsində alınır. Çirkab suları təmizləyici qurğulara istiqamətləndirilir. İndi Bibiheybət zonasında böyük ekoloji layihə icra edilmişdir. Bura vaxtilə neftlə çirklənmiş qara bir ərazi idi. İndi orada idman şəhərciyi tikilir və birinci Avropa Oyunlarının bir hissəsi orada keçiriləcək. İndi ora abad bir ərazi olubdur. Hətta indi orada buruqlar da vardır və hasilat davam edir. İndi biz buruqların ətrafını da abadlaşdırırıq, abadlaşdıracağıq. Əlbəttə ki, hazırda böyük ekologiya layihəsi icra edilir. Böyükşor gölünün təmizlənməsi də tarixi nailiyyətdir. Çünki onilliklərlə o gölə çirkab suları, lay suları axıdılırdı. Bu, şəhərimizin ortasında böyük bir ekoloji fəlakət idi. İndi gölün təmizlənməsi prosesi gedir. Birinci hissə gələn ilin yayına hazır olacaqdır.*

*Yəni, ekologiya məsələlərinin həllinə daim diqqət göstərilməlidir. Çünki bu, həyatdır, bizim həyatımızdır, uşaqlarımızın həyatıdır, xalqımızın gələcəyidir. Biz təbiəti qorumalıyıq və çalışmalıyıq ki, vaxtilə çirklənmiş ərazilərin hamısını təmizləyək.*

*Mən burada "Ağ Şəhər" layihəsini də qeyd edə bilərəm. "Ağ Şəhər" Qara şəhərin ərazisində yaradılır. Burada da çox böyük rəmzi məna var. Vaxtilə xaricdən gəlmiş iş adamları Azərbaycanda neft sənayesində işləmişlər, böyük qazanc, milyardlarla vəsait əldə etmişlər. Ancaq bizim üçün nə qoyub getmişlər? Qara şəhəri qoyub getmişlər. Bu ekoloji fəlakəti qoyub getmişlər. O xarici neft baronlarının qazandıqları pulların hansı hissəsi ekoloji məsələlərə xərclənib? Oraya heç bir vəsait qoyulmamışdır. Sadəcə olaraq qazanc dalınca Azərbaycana gəlmişlər, böyük pullar əldə etmişlər. Ancaq bizə nə qoyub getmişlər? Qara şəhəri.*

*İndi biz - müstəqil Azərbaycan bu ekoloji fəlakəti aradan götürürük. Bu da rəmzi xarakter daşıyır ki, Qara şəhər əvəzinə "Ağ Şəhər" olacaq. "Ağ Şəhər" nəinki Cənubi Qafqazda, yaxud da, bu böyük regionda, dünya miqyasında ən gözəl şəhərsalma layihələrinin birinə çevriləcəkdir. Artıq "Ağ Şəhər"in konturları görünür.*

*Bax, biz bu yolla başqa layihələri də icra etməliyik. Biz buraya da iş adamlarını cəlb etməliyik. Bilirəm ki, indi Azərbaycanda, Bakıda və digər yerlərdə ev tikintisinə böyük maraq var. Bu maraq bir ara bir az səngimişdi. Ancaq iqtisadiyyatımız sürətlə artdığı üçün indi bu maraq yenə də çox böyükdür. Orada da bu işləri çox düzgün şəkildə təşkil etmək olar. Əgər hansısa iş adamı, bir şirkət ev tikmək istəyirsə, orada ekoloji tədbirlər də görülməlidir. Köçürülmələr də aparılmalıdır. İndi boş yer verək ki, gəlin burada ev tikin, hesab edirəm, bu dövr artıq arxada qalıb. Kim ev tikmək istəyir şəhər, rayon icra hakimiyyətlərinə müraciət etsin. Bu qurumlar onlara ya yararsız vəziyyətdə olan keçmiş sənaye obyektlərinin, zavodların yerində, ya da ekoloji tədbirlərə ehtiyac olan ərazilərdə yer versinlər ki, orada tiksinlər.*

*Biz bunu Bakıda etmişik. Vaxtilə yararsız vəziyyətdə olan sənaye sahələrində görün nələr yaratmışıq. Heydər Əliyev Mərkəzi Leytenant Şmidt adına zavodun ərazisində tiki¬libdir. O da bir ekoloji fəlakət idi. Mən oraya gəlib baxanda dəhşətə gəldim ki, bu şəraitdə istehsalı necə təşkil etmək olar? Hər şey dağılmışdı. Amma indi bəziləri hətta unudub ki, orada Leytenant Şmidt adına zavod olub. Yaxud da ki, indi Olimpiya şəhərciyinin yaradıldığı ərazi. Metronun «Koroğlu» stansiyası ilə üzbəüz bu ərazidə Şifer kombinatı, Lampa zavodu var idi. Onlar da havanı çirkləndirirdi. İndi burada gözəl olimpiya şəhərciyi yaradılıb. Həm Bakıda, həm də bütün şəhər və rayonlarımızda bu yolla getməliyik.*

*İndi «Ağ şəhər» bulvarı tikilir. Yəqin ki, bir neçə aydan sonra artıq ictimaiyyət üçün açıq olacaq. Beləliklə, Bibiheybət istiqamətindən – Bayraq Meydanından o tərəfə də işlər davam etdirilir – idman şəhərciyindən ta «Ağ şəhər»ə, Neftayırma zavoduna qədər təqribən 16 kilometr uzunluğunda gözəl bir gəzinti zolağı – bulvar olacaqdır."*

**8 oktyabr 2014-cü il,**
***Nazirlər Kabinetinin 2014-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasda yekun nitqindən***

*"Bu, bölgənin ən böyük, ən gözəl, ən müasir Olimpiya stadionu olacaqdır. Orada çıxış etmək, oynamaq hər bir futbolçuya zövq verəcək. Həm stadionun özü, həm onun yerləşməsi, ətrafındakı infrastruktur ən yüksək səviyyədədir. Bununla paralel olaraq stadionun arxasındakı Böyükşor gölü indi xüsusi ekoloji layihə çərçivəsində təmizlənir və onun birinci mərhələsinin gələn il başa çatması da gözlənilir. Bu təmizləmə işlərinin getdiyi vaxtda artıq Böyükşor gölünə köçəri quşlar da qonur. Budur əsas göstərici, yəni uzun illər ekoloji fəlakət mənbəyi olan bu göl indi təmizlənir və gözəl ekoloji bir sahə yaradılacaqdır."*

**17 dekabr 2014-cü il,**
***"Qarabağ" futbol klubunun üzvləri ilə görüşdə çıxışından***

*"İndi böyük ekoloji layihələr icra edilir. Göllərin təmizlənməsi prosesi gedir, o cümlədən Böyükşor gölünün təmizlənməsi uğurla davam etdirilir. Böyükşor gölü ikiyə bölünür. Göl üzərində bənd artıq tikilibdir. Bəndin üzərində geniş avtomobil yolu çəkilir, yəni nəqliyyat üçün çox gözəl imkanlar açılır. Böyükşor gölünün təmizlənməsinin birinci mərhələsi nəticəsində – o da oyunlara qədər hazır olacaq, şəhərin mərkəzində 300 hektar sahədə təmiz, gözəl, abad bir göl olacaq ki, onun ətrafında bulvar, meşə, gəzinti, idman, velosiped zolaqları – hər şey nəzərdə tutulubdur. Təmizləmə prosesi getdiyi bir vaxtda – mən bunu*

*böyük sevinclə qeyd etmişəm – artıq köçəri quşlar da o gölə qonur. Bu da onu göstərir ki, deməli, orada su təmizlənir.*

*Eyni zamanda, «Baku Sport City» yerləşən ərazidə, köhnə buruqların yerində gözəl bir idman mərkəzi salınır. Bibiheybət neft yataqları dünyanın ən qədim neft yataqlarından biridir. Vaxtilə neft hasilatının fəsadları orada özünü büruzə vermişdi, o yer tamamilə ekoloji fəlakət mənzərəsini əks etdirirdi. Orada olan buruqlar bəzi filmlərdə də öz əksini tapmışdır. İndi o ərazi tamamilə təmizlənir, böyük – 20 hektarlıq bir park salınır. Su İdmanı Sarayının ətrafı gözəl Bakının bəlkə də ən gözəl park zonasına çevriləcəkdir. Beləliklə, bulvarın uzunluğu da artacaqdır. Ənənəvi bulvarın uzunluğu 3 kilometr yarım idi. İndi isə yeni layihələr nəticəsində bulvarın uzunluğu 16 kilometrə çatacaqdır. Bu, dünyanın bəlkə də ən uzun bulvarı olacaq. Hər bir insan «Ağ şəhər»dən başlayaraq ta Bibiheybət buruqlarına qədər piyada gedə bilər. Ancaq bu çox uzun məsafədir. Ona görə bulvara əlavə xüsusi kiçik avtobuslar gətiriləcək ki, onlar da insanlara rahatlıq verəcək."*

***22 dekabr 2014-cü il,***
***Milli Olimpiya Komitəsində 2014-cü ilin idman yekunlarına həsr edilmiş mərasimdə çıxışından***

*"Ekologiya ilə bağlı məsələlər prioritet olaraq qalır. Keçən il Azərbaycanda 4 milyona yaxın ağac əkilibdir. Bu, çox müsbət haldır. Bu proses həm Abşeron yarımadasında, həm bütün bölgələrdə gedir. Neftlə çirklənmiş ərazilər təmizlənir. Eyni zamanda, içməli su layihələri və digər layihələr ekoloji vəziyyətin yaxşılaşmasına xidmət göstərir. Böyükşor gölündə işlər sürətlə gedir. Bir neçə aydan sonra Böyükşor gölünün təmizlənməsinin birinci mərhələsi başa çatacaq. Hesab edirəm ki, bu, buna oxşar bütün başqa layihələr üçün bir nümunə olacaqdır. Çünki biz bu istiqamətdə çox fəal iş aparırıq, neftlə çirklənmiş bütün yerləri, gölməçələri təmizləyirik. Bibiheybət, "Ağ şəhər", Böyükşor. Bu il Zığ gölünün təmizlənməsi nəzərdə tutulubdur. Bu da çox önəmli layihədir. Biz Bakının ətrafında yerləşən, neftlə və lay suları ilə çirklənmiş bütün gölləri tədricən təmizləyəcəyik. Orada istirahət və əyləncə zonaları, ictimai yerlər yaradılacaq. Ümumiyyətlə, Bakıda son illərdə çoxsaylı ictimai yerlər, parklar, bağçalar yaradılır. Bu ictimai yerlərin sayına görə Bakı bəlkə də dünya miqyasında ön sıralardadır. Çünki Bakı bu gün parklar, bağçalar şəhəridir və Bakı təmiz göllər şəhəri olacaqdır. Mən buna əminəm. Böyükşor gölünün təmizlənməsinin birinci mərhələsinin bu ilin yayına qədər başa çatması, hesab edirəm, hər kəsə göstərəcək ki, biz bunu da edə bilmişik və güclü iradə olan yerdə, istənilən layihə icra edilə bilər."*

***10 yanvar 2015-ci il,***
***Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda yekun nitqindən***

*"Sumqayıtda digər layihələr də icra edilib. Şəhər gözəlləşir, abadlaşır. Sumqayıt indi ekoloji cəhətdən ən təmiz şəhərlərdən biridir. Vaxtilə Sumqayıtı ekoloji fəlakət şəhəri kimi təsvir edirdilər. Əfsuslar olsun ki, bəzi hallarda Azərbaycana qarşı aparılan kampaniya çərçivəsində yenə də Sumqayıt haqqında həqiqəti əks etdirməyən sözlər deyilir. Amma buraya gələn hər bir insan görür ki, indi Sumqayıt parklar şəhəridir. Sənaye müəssisələrində bütün ekoloji standartlar gözlənilir, tətbiq edilir. Havası təmiz, gözəl infrastrukturu*

*olan bir şəhərdir. Son illərdə Sumqayıtda bir neçə park qurulub, yenidən salınıb, əsaslı təmir edilib. Şəhər gözəlləşir, binalar tikilir. Mən dəfələrlə demişəm ki, Sumqayıtda gedən işlər Bakıda gedən işlərin səviyyəsində olmalıdır."*

***13 yanvar 2015-ci il,***
***Sumqayıt şəhərində «Alyans Tekstil» tikiş fabrikinin açılışında çıxışından***

*"Mən hesab edirəm ki, üçüncü proqramın başa çatması nəticəsində biz bütün bu rəqəmləri 100 faizdən artıq səviyyədə görməliyik və görəcəyik.*

*Regionlarda, ümumiyyətlə, ekoloji vəziyyət yaxşıdır. Biz ekoloji tədbirlərin görülməsi üçün diqqəti daha çox Bakıya yönəldirik, bu da təbiidir. Bölgələrdə yaxşıdır, amma bu, daim diqqət mərkəzində olmalıdır."*

***27 yanvar 2015-ci il,***
***«Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının birinci ilinin yekunlarına həsr olunmuş konfransda yekun nitqindən***

*"Azərbaycanda, o cümlədən Bakıda daim ekoloji tədbirlər aparılır, göllər təmizlənir, ağaclar əkilir, parklar salınır. Bakı indi parklar, bağlar şəhəridir. Eyni zamanda, bölgələrdə insanları içməli su ilə təmin etmək üçün təmizləyici qurğular yaradılır. Biz içməli su problemini həll etmək üçün 3 istiqamətdən istifadə edirik. İlk növbədə, «Azərsu» tərəfindən icra edilən layihələr. Burada da bir neçə şəhərdə artıq içməli su layihəsi başa çatıbdır və bu proses gedir, əhali tərəfindən də çox gözəl qarşılanır. «Meliorasiya və Su Təsərrüfatı» Səhmdar Cəmiyyəti bu işləri görür. Həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyi çaylar boyu yerləşən kəndlərdə təmizləyici qurğular quraşdırır. Bu günə qədər çaylar boyu, xüsusilə Kür, Araz çayları boyu yerləşən kəndlərdə 480 min əhali artıq təmiz içməli su ilə təmin edilib. 292 kənddə müasir təmizləyici qurğular quraşdırılıb. Bu vaxta qədər onlar suyu çaydan götürürdülər, duruldurdular, yaxud da ki, kanallardan su içirdilər. Bu, insanların sağlamlığına mənfi təsir göstərirdi. Hazırda 28 kənddə işlər gedir, təmizləyici qurğular quraşdırılır. Bu kəndlərdə 51 min insan yaşayır. Hesab edirəm ki, bu işlər bu ilin sonuna qədər tamamlanmalıdır. Beləliklə, 530 min insan ancaq bu təmizləyici qurğular hesabına içməli su ilə təmin ediləcəkdir."*

***10 aprel 2015-ci il,***
***Nazirlər Kabinetinin 2015-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda yekun nitqindən***

*"İçməli su ilə təminat, əlbəttə ki, ilk növbədə, «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin üzərinə düşür. Ancaq bununla bərabər, qeyd etməliyəm ki, digər qurumlar da bu işlərlə məşğuldur. Ekologiya və Təbii Sərvətlər Nazirliyi sutəmizləyici qurğuları quraşdırır. Məndə olan məlumata görə, bu il 90 min əhali təmin olunub, 48 məntəqədə qurğular quraşdırılıb, proqramın əvvəlindən isə 530 min insan çaylar boyu yerləşən kəndlərdə artıq bu qurğulardan istifadə edir. Bu proses davam etdirilməlidir. «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin xətti*

*ilə subartezian quyularının qazılması davam edir. Hər il Prezidentin ehtiyat fondundan xüsusi vəsait ayrılır, bu barədə sərəncam mətbuatda dərc edilir və o sərəncamda həm kənd əhalisinin bunu bilməsi, eyni zamanda, nəzarət üçün bütün kəndlərin adları göstərilir. Bu il kəndlərdə 300 quyu qazılmalıdır. Onlardan 170-i artıq qazılıbdır və bu proqram 630 min insanı əhatə edir. Beləliklə, «Azərsu» ilə bərabər, ekologiya və meliorasiya qurumları 1 milyon 160 min insanı təmiz içməli su ilə təmin edib. Bu çox ciddi sosial məsələdir. İlk növbədə, sosial məsələdir, yəni buna ayrılan vəsait heç vaxt dövlət büdcəsinə qayıtmayacaq. Çünki bizdə suyun qiyməti çox aşağıdır. Ancaq biz bunu insanların sağlamlığı, normal yaşaması üçün edirik və etməliyik."*

* * * *

*"Mən ekoloji vəziyyətlə bağlı dəfələrlə məsələ qaldırıram və şadam ki, Bakıda ekoloji vəziyyət yaxşılaşır. Son mühüm nailiyyət Böyükşor gölü ilə bağlıdır. Avropa oyunlarının açılışı və bağlanışı mərasimlərində yuxarıdan çəkiliş aparılarkən biz Böyükşor gölünün mənzərəsini də görürdük. Görürdük ki, bu, indi şəffaf, gözəl bir göldür. Vaxtilə ekoloji fəlakət gölü idi. İkinci dünya müharibəsi zamanı ondan açıq neft rezervuarı kimi istifadə edirdilər. Ondan sonra kanalizasiya, lay suları, bütün zir-zibil bu gölə tökülürdü və onun yanında dayanmaq mümkün deyildi. Artıq Böyükşor gölünün bir hissəsi təmizlənib, gözəl bulvar salınıb, göz oxşayır. Bu göstərir ki, hər şeyi etmək mümkündür. Gərək sadəcə, niyyət və istək olsun.*

*Böyükşor gölünün 2-ci hissəsinin təmizlənməsi davam etdirilməlidir. Bu il və gələn il bu məqsədlər üçün vəsait ayrılmalıdır. Beləliklə, şəhərdə gözəl göl yaranacaq. Bilirsiniz ki, biz təmizləmə işləri aparmaq üçün bu gölü bəndlə ikiyə böldük. Eyni zamanda, bu bənd gələcəkdə yola çevriləcək və əlavə bir yol arteriyası kimi fəaliyyət göstərəcək.*

*Zığ gölünün təmizlənməsi prosesi də bu il başlanmalıdır. Bu məqsədlər üçün də büdcədən vəsait tapın və biz bunu da yubatmayaq.*

*Bu il Bakıda «Ağ şəhər» bulvarı istifadəyə verilib. O da ekoloji fəlakət zonasında yaradılan bulvardır. Bayıl bulvarı neft buruqlarına qədər gəlib çatıb. O tərəfə daha gedə bilmirik, çünki artıq orada neft hasil edilir, bu tərəfə də gedə bilmirik ki, orada Neftayırma zavodu yerləşir. Ona görə yəqin ki, bir neçə il gözləməli olacağıq. Heydər Əliyev adına Neftayırma zavodunda böyük yenidənqurma işləri nəzərdə tutulur. Hesab edirəm ki, «Ağ şəhər» bulvarına yaxın yerləşən Neftayırma zavodu tədricən oradan köçürülməlidir. Bu həm ekoloji cəhətdən lazımdır, həm də işin daha da səmərəli şəkildə qurulması bunu tələb edir. İndi o yerlərə, o zonalara yaxınlaşdıqca dərhal havanın tərkibi hiss edilir. Biz havanı təmizləməliyik, havanı çirkləndirən orada uzun illər fəaliyyət göstərən bir qurğudur."*

***13 iyul 2015-ci il,***
***Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda yekun nitqindən***

*"Bu doğrudan da çox əlamətdar hadisədir və bir daha göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun rahatlığı, sağlamlığı dayanır. İnsan sağlamlığı üçün nə lazımdırsa, Azərbaycanda biz bunu edirik. Son illər ərzində ölkə üzrə 500-dən çox tibb müəssisəsi tikilib və təmir edilib. Ekologiya ilə bağlı məsələlər öz həllini tapır. Naxçıvanda bu problem yoxdur. Çünki burada çox gözəl, təmiz iqlim var. Amma bəzi yerlərdə, xüsusilə Bakıda, Abşeron yarımadasında ekoloji tədbirlərin görülməsinə böyük ehtiyac var idi.*

*Ölkə üzrə içməli su layihələri icra edilir. Bu da insan sağlamlığı üçün çox vacib olan məsələdir. Şadam ki, Naxçıvan şəhərində də bu problem artıq öz həllini tapıb. Artıq bir müddətdir ki, sakinlər fasiləsiz olaraq təmiz içməli su alırlar. Kanalizasiya şəbəkəsinin yaradılması istiqamətində də işlər gedir. Bizim planlarımızda o da var ki, Naxçıvanın bütün rayon mərkəzlərində içməli su, kanalizasiya layihələri icra edilsin və biz bu məqsədə çatacağıq."*

***1 dekabr 2015-ci il,***
***Naxçıvan Muxtar Respublika Xəstəxanasının açılışında Naxçıvan ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından***

*"Ekoloji tədbirlər daim aparılır. Keçən il 4 milyondan çox ağac əkilmişdir. Bu siyasət davam etdirilməlidir. Ağacəkmə. Yadımdadır, əvvəllər biz buna kampaniya deyirdik, "Ekologiya ili"ndə biz bu işə fəal başlamışdıq. Ancaq hələ o vaxt mən deyirdim ki, bu, kampaniya olmamalıdır, bu, daimi proses olmalıdır. Bakıda və Abşeron yarımadasında ağacəkmə daimi proses olmalıdır. Çirklənmiş yerlər təmizlənməlidir. Böyükşor gölünün təmizlənməsinin birinci mərhələsi keçən il həyata keçirilmişdir. Çirklənmiş və üfunət iyi verən bu ərazi indi artıq adamın gözünü oxşayır. Təmizlənmiş gölə köçəri quşlar qonur. Burada böyük bulvar salınıb. Böyükşor gölünün təmizlənməsinin ikinci hissəsi də bu il icra edilməlidir. Zığ gölünün təmizlənməsi layihəsi də icra edilməlidir. Dövlət büdcəsində bu məqsədlər üçün vəsait tapmaq lazımdır."*

***10 yanvar 2016-ci il,***
***Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda yekun nitqindən***

*"Bu il də ekoloji tədbirlər görülməlidir. Xüsusilə ağacəkmə prosesi gedir. Ağac əkməyə insanları daha çox cəlb etmək olar, xüsusilə bölgələrdə. Burada müvəqqəti iş yerləri yaradılmalıdır. Yerli icra orqanları, Ekologiya və Təbii Sərvətlər Nazirliyi təkliflər hazırlasınlar ki, bu il biz nə qədər ağac əkəcəyik, nə qədər insan bu işlərə cəlb ediləcəkdir. "*

***26 yanvar 2016-cı il,***
***«Regionların 2014–2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda yekun nitqindən***

*"Ekoloji tədbirlərin davam etdirilməsi çox önəmlidir. Son illər ərzində həm Bakı şəhərində, həm bölgələrdə bu istiqamətdə çox böyük işlər görülmüşdür. Hesab edirəm ki, Bakı şəhərinin sakinləri bunu hər gün hiss edirlər. Bakının havası təmizləndi. Bakıda indi havanın meyarları yüksək səviyyədədir. Bunu hər bir vətəndaş hiss edir. Bəziləri unudurlar ki, əvvəlki vəziyyət necə idi. Ancaq biz bunu xatırlayırıq. Bir neçə strateji layihə öz həllini tapmışdır. Onların içərisində mən əlbəttə ki, Balaxanı zibilxanasının ləğvini və burada böyük zibilyandırma zavodunun tikintisini xüsusilə qeyd etmək istəyirəm. Vaxtilə şəhərimizin havasını ən çox zəhərləyən elə Balaxanı zibilxanası idi. Yanırdı, şəhərimizi tüstü bürüyürdü və o zonada havanın çirklənməsi həddindən artıq yüksək idi. Bu, çox böyük ekoloji və sağlamlıq layihəsi oldu. Şadam ki, bu, öz həllini tapdı, orada bütün yerlər təmizləndi. Sahə abadlaşdı və gözəlləşdi. İndi orada Balaxanı Texnologiya Parkı yaradılır.*

*Böyükşor gölünün təmizlənməsi layihəsinin birinci mərhələsi keçən il başa çatmışdır. O da Balaxanı zibilxanasına yaxın olan bir ərazidə yerləşir. Onilliklər ərzində buraya lay suları, neftlə çirklənmiş sular, kanalizasiya suları axıdılırdı. Ora bir ekoloji fəlakət zonası idi. İndi köçəri quşlar o gölə qonur. Ətrafında gözəl bulvar yaradılıbdır. Abadlıq işləri aparılır, insanların sağlamlığı, istirahəti üçün çox gözəl bir məkana çevrilib. İndi Böyükşor gölünün təmizlənməsinin ikinci mərhələsi də gündəlikdədir.*

*Bibiheybət buxtasının təmizlənməsi də uğurla başa çatdı. Vaxtilə bu da bir ekoloji fəlakət mənzərəsi idi. Bu gün orada gözəl parklar salınıb. Birinci Avropa Oyunları yarışlarının bir hissəsi orada keçirilibdir. Böyük Su İdmanı Sarayı, digər idman qurğuları tikilibdir. Bayraq Meydanından ta Bibiheybət buxtasınadək yaşıllıq zonaları, bulvar salınıbdır. Bu da əlbəttə ki, şəhərimizi çirkləndirirdi - Balaxanı bu tərəfdən, Qaraşəhər başqa tərəfdən. Orada da böyük təmizləmə işləri aparılmışdır, torpaq qatları götürülmüşdür. Orada vaxtilə neftayırma zavodunun bütün tullantıları yığışırdı. İndi biz Qaraşəhəri Ağ Şəhərə çeviririk. Yəni, bunlar doğrudan da nəhəng layihələrdir. İndi biz Bakıda möcüzələr yaradırıq ki, şəhərimiz gözəlləşsin, ekoloji vəziyyət yaxşılaşsın, insanlar sağlam olsunlar. İçməli su layihəsi həyata keçirilibdir. Dünyanın ən böyük ultrasüzgəcli sutəmizləmə qurğusu Azərbaycanda tikilib və istifadəyə verilibdir. İndi əhalimizin böyük hissəsi Dünya Səhiyyə Təşkilatının normalarına uyğun su ilə təmin olunur. Bu layihələrin hər biri tarixi əhəmiyyət daşıyan layihələrdir.*

*Bakıda yerləşən yod zavodunun bütün qalıqları çıxarılıb. O da bir tərəfdən ekologiyanı zəhərləyirdi. Baxın, bunlar insanların sağlamlığına nə qədər ziyan vururdu. İndi bunların heç biri yoxdur. Hamısını qısa müddət ərzində biz etmişik. Böyük vəsait xərcləmişik, nəyə görə? Çünki insanlar sağlam olsunlar, hava təmiz olsun, ekoloji vəziyyət yaxşılaşsın. Həm Bakıda, həm regionlarda milyonlarla ağac əkilib və bu proses davam etdirilir."*

***9 aprel 20016-cı il,***
***Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda yekun nitqindən***

*"Təmiz ekoloji vəziyyət, ekologiya tədbirləri də insanların sağlamlığı üçün çox vacibdir və bu da Ağsuda var. Çünki Ağsunun gözəl təbiəti, havası insanın sağlamlığına gözəl şərait yaradır."*

***29 aprel 2016-cı il,***
***Mərkəzi Xəstəxananın yeni binasının açılış mərasimində Ağsu rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından***

*"Azərbaycanda idman infrastrukturu yaradılır. Son illər ərzində bölgələrdə 40-dan çox Olimpiya İdman Mərkəzi yaradılıb, tikilib. Bakıda isə idman infrastrukturu ən yüksək səviyyədədir. Təkcə son 1-2 il ərzində bir neçə gözəl, möhtəşəm idman obyekti istifadəyə verilib – Milli Gimnastika Arenası, Bakı Olimpiya stadionu, Beynəlxalq Atıcılıq Mərkəzi, Su İdmanı Sarayı. Bu idman obyektləri eyni zamanda, gözəl memarlıq əsərləridir. Bu binalar, bu qurğular Bakını daha da gözəlləşdirir. Onların ətrafında böyük abadlıq, təmizlik işləri aparılıb. Bakı Olimpiya stadionunun ətrafı ekoloji fəlakət zonası idi. Bir tərəfdən, bataqlıq, digər tərəfdən, Böyükşor gölü ekoloji təhlükə mənbəyi idi. Bütün o ərazilər təmizləndi, neftlə və digər tullantılarla çirklənmiş torpaqlar oradan çıxarıldı, böyük abadlıq işləri aparıldı. Böyükşor gölünün bir hissəsi*

*tamamilə təmizləndi, 1 kilometr uzunluğunda yeni bulvar, parklar salındı. Su İdmanı Sarayının ətrafı da əvvəllər neft mədənləri idi. Onlar da oradan götürüldü, təmizləndi. Bu gün Su İdmanı Sarayının ətrafında 10 hektarlarla ölçülən gözəl park salınıb və Bakı vətəndaşları bu imkanlardan istifadə edirlər.*

*Biz bu işləri görərkən bir neçə məqsədi güdürdük. Avropa oyunlarının keçirilməsi üçün Bakıya yeni idman obyektləri lazım idi. Eyni zamanda, ekoloji məsələlər də öz həllini tapdı, şəhərimizin gözəlləşməsi, abadlaşması daha da sürətlə getdi."*

***18 iyul 2016-cı il,***
***Rio De Janeyroda keçiriləcək XXXI Yay Olimpiya Oyunlarında iştirak edəcək Azərbaycan nümayəndə heyətinin rəsmi yolasalma mərasimində nitqindən***

*"Əlbəttə, Xaçmaz rayonunun turizm potensialı daha da geniş olmalıdır. Düzdür, son vaxtlar Xaçmaz rayonunda, xüsusilə, Yalama-Nabran zonasında çoxlu istirahət zonaları yaradılıb və turistlərin sayı kifayət qədərdir. Ancaq hesab edirəm ki, bu daha da geniş vüsət ala bilər, daha da keyfiyyətli xidmət göstərilə bilər. Əlbəttə ki, burada ekoloji məsələlər də öz həllini tapmalıdır. Müvafiq göstərişlər verilib. Yolların çəkilişi ilə bağlı artıq işlər görülür. Bax, bu Xudat-Yalama-Zuxuloba yolu, eyni zamanda, turizm obyektlərinə gedən yoldur. Sahil yolu da var, mən oraya da baxacağam. Lazım olarsa orada da təmir-bərpa işləri aparılacaq. Çünki turizm bu zona üçün kənd təsərrüfatı ilə bərabər ən çox gəlir gətirən sahədir. Biz bu sahələri inkişaf etdirməliyik."*

* * * *

*"Bu gün bütün kənd təsərrüfatına göstərilən qayğı hər kəsin gözü qarşısındadır. Buna görə biz Sizə minnətdarıq. Bu qayğıdan, bu təşəbbüsdən istifadə edərək biz də çalışırıq ki, öz işimizi günün tələbləri səviyyəsində quraq və ekoloji cəhətdən təmiz məhsul istehsal edək."*

***8 sentyabr 2016-cı il,***
***Yalama Aqroparkının açılış mərasimində Xaçmaz rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından***

*"Hər zaman maraqlanırdım ki, işlər necə gedir. Məlumat verilirdi ki, orada çətinlik, burada çətinlik var. Ancaq bu gün Sumqayıt bulvarı artıq açılıb. Bu bulvarın yaradılmasında şəhər rəhbərliyinin xüsusi rolu, Sumqayıt sakinlərinin böyük rolu vardır. Mən çox istəyirdim ki, Sumqayıtda Bakı bulvarına bənzər bir bulvar olsun. Bu gün biz buna nail olduq. Sumqayıt bulvarı cəmi 1 il ərzində, bəlkə də ondan da az bir vaxtda yaradılıb. Məsafəsi 4 kilometrdən çox olan bu bulvar göz oxşayır. Burada həm plyaj, həm də bulvar hissələri var, yol çəkilib və bütün infrastruktur, istirahət zonaları yaradılıb. Əminəm ki, bulvar Sumqayıt sakinlərini və şəhərin qonaqlarını sevindirəcək. Bu nəyi göstərir? Bu onu göstərir ki, biz Azərbaycanda istənilən işi görə bilərik. Sumqayıt sovet vaxtında kimya sənayesi mərkəzi idi. Kimin ağlına gələ bilərdi ki, Sumqayıt belə gözəl, ekoloji cəhətdən təmiz şəhərə çevriləcək. İndi Sumqayıtın havası çox təmizdir, ekoloji problemlər öz həllini tapıb. Şəhərin abadlaşdırılması işi böyük zövqlə və böyük məhəbbətlə aparılır. Küçələr salınır, Sumqayıta giriş küçəsində abadlıq işləri aparılır, yaşıllıq zolaqları yaradılır, ağaclar əkilir. Bunu ancaq öz şəhərini, öz xalqını sevən insanlar edə bilər.*

* * * *

*"Son illər ərzində Sumqayıtın sənaye potensialı böyük dərəcədə artıb və əsas məsələ ondan ibarətdir ki, ekoloji məsələlərə çox böyük diqqət göstərilir. Sumqayıt sovet vaxtında həmişə ekoloji problemlərlə dolu bir şəhər kimi təqdim edilirdi və xarici mətbuatda da ekoloji cəhətdən çətin şəhərlərin sırasına həmişə Sumqayıtı da salırdılar. Müəyyən həqiqət var idi. Siz sumqayıtlılar bunu yaxşı bilirsiniz. Amma bu gün Sumqayıt dünya miqyasında ən ekoloji təmiz şəhərlərdən biridir. Bu gün bulvarda, şəhərdə gəzərkən həm gözəlliyi görürsən, həm də havanın çox təmiz olmasını hiss edirsən. Yəni Sumqayıtın havası kurort havasını xatırladır.*

*Əminəm ki, Sumqayıtın gələcək inkişafında turizm sektoru da öz rolunu oynayacaq. Bunu bir neçə il bundan əvvəl təsəvvür etmək çətin idi ki, Sumqayıtı turizm mərkəzi kimi görmək istəyirik. Bu gün bu reallıqdır – gözəl sahil zonası, plyaj, təmiz hava, parklar, ictimai zonalar, istirahət zonaları. İndi Sumqayıt parklar şəhəridir. Mənə bu gün məlumat verildi ki, yeni inşaat layihələri icra ediləcək, bulvara yaxın yerdə yeni yaşayış binaları, hotellər tikiləcək. Ona görə Sumqayıt gələcəkdə Azərbaycanın turizm zonası kimi də özünü göstərməlidir.*

*Yeni inşa olunan sənaye müəssisələrində əsas şərt ondan ibarətdir ki, ekologiyaya tam riayət edilsin və ekoloji təmiz sənaye müəssisələri yaradılsın."*

***27 sentyabr 2016-cı il,***
***Heydər Əliyev Mərkəzinin yeni binasının açılış mərasimində Sumqayıt şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından***

*"Biz keçən ay «Ağ şəhər» layihəsinin 5 illiyini qeyd etdik. 5 il ərzində şəhər içində şəhər yaratmışıq. Dağılmış, neftlə çirklənmiş «Qara şəhər» ərazisində indi ekoloji təmiz, müasir layihə artıq icra edilir. Onun bir hissəsi artıq icra edilib. Növbəti mərhələdə «Ağ şəhər» ərazisində əlavə 60 yaşayış binası da tikiləcək."*

* * * *

*"Ekoloji tədbirlər bu il də aparılmalıdır. Çirklənmiş ərazilər təmizlənməlidir. Modul tipli sutəmizləyici qurğular yaradılmalıdır. Yüzlərlə kənddə bu qurğular quraşdırılıb və bu proses davam etdirilməlidir.*

*Son bir neçə il ərzində ölkəmizdə ağacəkmə kampaniyası çox geniş vüsət almışdır. Bu il də bu işlər aparılmalıdır. Ancaq hesab edirəm ki, bundan sonra daha çox dekorativ ağaclar yox, yəni, barverən ağaclar əkilməlidir. Ona görə bütün rayonlarda da iqlimə uyğun şəkildə ağacəkmə prosesi davam edəcək. Ancaq bunun həm iqlimə, ekologiyaya, həm də ki, iqtisadiyyata müsbət təsiri olmalıdır. Ona görə müvafiq tədbirlər görülməlidir, tinglər tədarük edilməlidir. Yaxud da harada ki, çatışmır xaricdən gətirilməlidir, bu işlərə vəsait ayrılmalıdır."*

***10 yanvar 2017-ci il,***
***Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda yekun nitqindən***

***"S u a l: İpək yolu layihəsinin reallaşmasında ekoloji problemlərin həlli, bu işdə həm QHT-lərin rolu, həm də dayanıqlı inkişaf məsələləri ilə bağlı nə deyə bilərsiniz?***

***C a v a b:*** *Ətraf mühitlə bağlı məsələlərə həmişə böyük narahatlıq və diqqətlə yanaşılır. Mən sizə neft boru kəmərinin Azərbaycandan Gürcüstana və Türkiyənin Aralıq dənizinə podrat işlərini apardığımız vaxtı xatırlada bilərəm. Həmin vaxt vəziyyəti müşahidə*

*etmək üçün ətraf mühitlə məşğul olan QHT-lər çox fəal idi və canlılar üçün ətraf mühiti təmin etmək məqsədilə bir çox tədbirlər görülmüşdür. Bütün tədbirlər ən yüksək səviyyədə görülmüşdür.*

*Ekoloji fəlakətdən əziyyət çəkmiş bir ölkə kimi, Azərbaycan təmiz enerjiyə çoxlu investisiya yatırır. Biz hidro, günəş və külək enerjilərinə indi çoxlu investisiya yatırırıq. Eyni zamanda, Azərbaycanda, xüsusilə Xəzər dənizinin bizə aid olan hissəsində neft-qaz əməliyyatları tamamilə beynəlxalq standartlara uyğun surətdə aparılır. Azərbaycan, Bakı 1847-ci ildə dünyada neftin ilk dəfə istehsal olunduğu məkandır. Həmin vaxtda və XX əsrin əksər hissəsində ekoloji məsələlər prioritet sayılmırdı. Odur ki, biz müstəqilliyimizi bərpa etdikdən sonra həmin amilə görə ətraf mühitin çirklənməsi nöqteyi-nəzərdən çox çətin vəziyyətdə idik. Xüsusilə Abşeron yarımadasını, Xəzər dənizini nəzərdə tuturam. Biz bu əraziləri təmizləmək üçün yüz milyonlarla dollar xərcləmişik və xərcləməkdə davam edirik. Əlbəttə ki, biz ətraf mühitin qorunmasına çox ehtiyatla yanaşırıq. Biz bu hədəflərə yalnız yaxından əməkdaşlıq edərək nail ola bilərik. Çünki biz eyni səmanı, havanı paylaşırıq, eyni suyu içirik. Buna görə də düşünürəm ki, ölkələrin öhdəlikləri və aparıcı QHT-lərin bu vəziyyəti yaxından müşahidə etməsi çox önəmlidir.”*

***19 yanvar 2017-ci il,***
***Davosda Dünya İqtisadi Forumunun “İpək Yolunun səmərəsi” adlı interaktiv iclasında suallara cavabından***

*“Biz enerji şaxələndirilməsi haqqında danışanda nəqletmə marşrutları ilə yanaşı, mənbələr barəsində də danışırıq. Xəzər dənizinin Azərbaycan sektorunda olan mənbələr yeni mənbələrdir və bu, regionun və Avropa istehlakçılarının qaz ilə təchizatında yeganə yeni mənbədir. Bu baxımdan, regional və artıq beynəlxalq əməkdaşlıq, qarşılıqlı etimad və dəstək bu layihənin həyata keçirilməsinin ən vacib elementlərindəndir.“*

* * * *

*“Bilirik ki, burada müəyyən müdaxilə və kənardan təzyiq halları olacaq. Müəyyən ekoloji və digər bəhanələr ortaya atılacaq. Ancaq burada biz reallığı nəzərə almalıyıq. Reallıq isə ondan ibarətdir ki, Azərbaycanın tərəfdaşları, ölkəmizin strateji tərəfdaşı və bizim bütün neft və qaz layihələrimizin operatoru olan bp şirkəti ilə birlikdə həyata keçirdiyimiz heç bir layihə ilə bağlı, istər Azərbaycanda, istərsə də buradan başlanan nəqletmə marşrutu boyu hər hansı bir ekoloji problem baş verməmişdir.*

*Yadımdadır ki, biz Bakı–Tbilisi–Ceyhan kəmərini inşa edəndə də layihənin icrasının əleyhinə olan müəyyən dairələrin sponsorluğu ilə «Bakı–Tbilisi–Ceyhan kampaniyası» adlanan kampaniya başlanıldı. Onlar həmin layihənin nüfuzdan salınması üçün geniş fəaliyyətə başladılar. Layihəni regionun ekoloji fəlakəti adlandırdılar. Təəssüf ki, o zaman bəzi maliyyə qurumları da prosesi ləngitdilər. Ancaq Bakı–Tbilisi–Ceyhan artıq 11 ildir ki, fəaliyyət göstərir və o zamandan bəri burada xırda narahatlıq belə doğuracaq epizod olmayıbdır. Bizim bp və digər tərəfdaşlarımızla həyata keçirdiyimiz bütün layihələr ən yüksək ekoloji standartlara cavab verir“.*

***23 fevral 2017-ci il,***
***«Cənub Qaz Dəhlizi» Məşvərət Şurasi çərçivəsində keçirilən nazirlərin 3-cü toplanısında nitqindən***

*"Bu il «Cənub Qaz Dəhlizi»nin icrası ilə bağlı da önəmli hadisə baş verib. «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurası üçüncü dəfə Bakıda görüş keçirib. Bu layihədə iştirak edən bü¬tün ölkələrin, Avropa Komissiyasının, Amerikanın, Böyük Britaniyanın yüksəkvəzifəli nümayəndələri öz iştirakları ilə bir daha bu layihəyə dəstəklərini göstərmiş oldular. Məşvərət Şurasının yekunu olaraq, qətnamə qəbul edildi. Bu qətnamədə yenə də ölkəmizin liderlik rolu qeyd edilir. «Cənub Qaz Dəhlizi»nin icrası artıq reallıqdır. Düzdür, bizə əngəl törətmək istəyənlər də var. Bu da təbiidir. Biz bunu hələ 10 il bundan əvvəl görmüşük. Yadımdadır, o vaxt Bakı–Tbilisi–Ceyhan neft kəməri tikiləndə bizim siyasətimizə zərbə vurmaq istəyən qüvvələr, erməni lobbisi və bu layihəyə müsbət yanaşmayan bəzi dairələr müxtəlif yollarla daha çox ekoloji bəhanələr gətirərək çalışırdılar ki, bizim işimizə zərbə vursunlar. Buna müəyyən dərəcədə nail oldular. Yadımdadır, o vaxt hətta bəzi beynəlxalq maliyyə qurumları da kreditləşməni bir qədər yubatdılar. Buna baxmayaraq, Bakı–Tbilisi–Ceyhan 2006-cı ildə açıldı. Bu gün də bəzi dairələr, bəzi kənar qüvvələr çalışırlar ki, yenə də ekoloji bəhanələr gətirərək, «Cənub Qaz Dəhlizi»nin bəzi seqmentlərində işləri yubatsınlar. Ancaq bunun heç bir əsası yoxdur. Bu sadəcə olaraq, bir bəhanədir. Bütün ekoloji normalar gözlənilir, bütün məsələlər razılaşdırılıb. Tezliklə «Cənub Qaz Dəhlizi»nin istifadəyə verilməsi həm bizim, həm də bu layihədə iştirak edən və bu layihədən gələcəkdə xeyir götürəcək bütün tərəflər üçün önəmlidir. Mən əminəm ki, 2017-ci il bu baxımdan həlledici il olacaq və biz gələn il TANAP layihəsinin açılışını qeyd etməliyik."*

* * * *

*"Bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Ancaq Bakı necə idi? Bu, artıq yaddan çıxır, bulvar nə gündə idi? Adam qorxurdu bulvara getməyə. Heç kim bulvara çıxıb orada ailəsi ilə gəzmirdi. Qaranlıq küçələr, dağılmış binalar, daxmalar, dar yollar – bu idi əvvəlki Bakı. İndi Ba-kının tarixi binaları tarixi irsimiz qorunmaqla, təmir edildi. İçərişəhər artıq dünyanın ən cəlbedici tarixi yerlərindən birinə çevrildi. Bakı Bulvarının uzunluğu 3 kilometrdən 16 kilometrə çatdırıldı, söküntü işləri aparıldı, yeni yollar açıldı, yeni parklar salındı. Bu gün Bakı parklar, göllər şəhəridir. Biz gölləri təmizlədik. Biz ekoloji fəlakət mənbəyi olan Bibiheybət buxtasını təmizlədik. Biz ekoloji təhlükə mənbəyi olan Böyükşor gölünü təmizlədik və hələ ki, burada işlər davam edir. Bunlar olmasaydı, hansı turist Azərbaycana gələrdi?! Biz beynəlxalq yarışlar keçirdik, dünyanın diqqətini cəlb etdik. Biz «Eurovision», Avropa oyunları, 500 milyon auditoriyası olan «Formula-1»i keçirdik. Biz İslam Həmrəyliyi oyunlarını keçirəcəyik. Bunlar olmasaydı, kimsə gələrdimi?! Əsas amillər bunlardır, bunu hamı bilsin və düzgün qiymətləndirsin."*

***10 aprel 2017-ci il,***
***Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda giriş nitqindən***

*"Azərbaycanda qazlaşdırmanın səviyyəsi 92 faizdir. Bu il daha da artacaq. İçməli su layihələri nəzərdə tutulan investisiya həcmində tam icra edilməlidir. Eyni zamanda, bu il biz kəndlərdə yaşayan əhalinin təmiz içməli su ilə təmin edilməsi üçün 270 kiçik layihə icra edəcəyik. Bu təmizləyici qurğuların 170 kənddə quraşdırılması "Azərsu" ASC-nin, 100 kənddə isə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə təmin ediləcək. Müvafiq Sərəncam imzalanmışdır. Bütün kəndlərin adları bu Sərəncamda göstərilmişdir. Mən xüsusilə belə tapşırıq verdim ki, həm o kəndlərin sakinləri, həm bu işi icra edənlər bilsinlər,*

*bu məsələ nəzarət altındadır. Əgər sadəcə o Sərəncamda yazılsaydı ki, 100 və ya 200 kəndin su problemi həll edilsin, buna filan qədər vəsait ayrılsın, sonra ona nəzarət etmək çox çətin olacaqdı: 100 kəndəmi, yoxsa 50 kəndə su verildi? Sərəncamda bütün o rayonların, kəndlərin adı göstərilib və mən o kəndlərin sakinlərindən xahiş edirəm ki, onlar da nəzarət etsinlər. Götürsünlər o Sərəncamı baxsınlar. Əgər onların kəndi o siyahıda varsa və o iş görülmürsə dərhal yerli icra orqanlarına, Prezident Administrasiyasına məlumat versinlər. Əlbəttə ki, əgər o işdə hansısa bir qüsur olarsa, buna yol verən şəxslər müvafiq qaydada cəzalandırılacaqlar. Mən bunu ona görə deyirəm ki, ictimai nəzarət güclənsin. Mən dəfələrlə bu barədə demişəm ki, ictimai nəzarəti gücləndirmək üçün gərək ictimaiyyətdə məlumat olsun. Bax, bu məlumatı biz veririk, 270 kəndin modul tipli təmizləyici qurğularla təmin edilməsi bu il başa çatmalıdır, vəsait ayrılıb və nəzarət də olmalıdır."*

**10 aprel 2017-ci il,**
***Nazirlər Kabinetinin ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda yekun nitqindən***

*"Bu gün bizim neftimiz xalqımıza xidmət edir, dövlətimizi gücləndirir. Bax, bütün bu ərazi hələ də neft buruqları ilə doludur və birinci quyu da burada qazılmışdır. Bu ərazinin fotoşəkilləri, videogörüntüləri var. Onlar yaxın tarixin görüntüləridir. Bura ekoloji fəlakət zonası idi. Hər tərəfdə neft gölməçələri, köhnə buruqlar var idi, ərazi neftlə çirklənmişdi. İndi bu ərazi şəhərimizin ən abad yerlərindən birinə çevrilibdir. Yəni biz neftdən gələn gəliri ölkəmizin inkişafına yönəltdik, insan kapitalına, infrastruktur layihələrinə qoyduq və bu gün neft Azərbaycan xalqının inkişafını təmin edir. Bax, müstəqillik budur və 25 il müstəqil dövlət kimi yaşayan Azərbaycan bu gün ayaqda möhkəm dayanır. Neft bizim təbii sərvətimizdir, xalqımızın böyük sərvətidir, biz də ondan istifadə edib ölkəmizi inkişaf etdiririk. Əlbəttə, neftçilərin də burada əməyi xüsusi qiymətə layiqdir. Mən həmişə neftçilərin əməyini, onların cəsarətini qiymətləndirirəm. Onlar ağır şəraitdə çalışırlar, ölkəmizin inkişafı üçün işləyirlər. Çalışırlar ki, öz əməyi ilə ölkəmizi gücləndirsinlər."*

**26 aprel 2017-ci il,**
***Bibiheybət mədəninin ərazisində dünyada sənaye üsulu ilə qazılmış ilk quyunun bərpadan sonrakı vəziyyəti ilə tanışlıqda çıxışından***

*"Buranın yeri də çox böyük rəmzi məna daşıyır. Mən 10 il bundan əvvəl Dövlət Neft Şirkətinə göstəriş vermişdim ki, onilliklər ərzində çirklənmiş Bibiheybət ərazisini, buruqların ətrafını təmizləsinlər, neft gölməçələrini qurutsunlar, bu zonada böyük yaşıllıq zolaqları salınsın və onlar bu işlərə başladılar. Bu yerlərin foto və videogörüntüləri vaxtilə müxtəlif dərgilərdə, jurnallarda, qəzetlərdə dərc edilmişdi. Hətta məşhur Ceyms Bondun filmlərindən biri də burada çəkilmişdir. Əgər o filmə baxsanız görərsiniz ki, buradakı mənzərə nə gündə idi. Bura ekoloji fəlakət zonası idi. Ancaq bu gün bu-ra şəhərimizin ən abad yerlərindən biridir.*

*Burada yaşıllıqlar salındı, ağaclar əkildi, eyni zamanda, neft buruqları da öz fəaliyyətini davam etdirir. Burada belə gözəl neft məktəbi, idman şəhərciyi, Su İdmanı Sarayı yaradıldı, bax, o binalar jurnalistlər üçün tikilib. Hesab edirəm ki, bu da nadir təşəbbüsdür. Heç bir başqa ölkədə dövlət jurnalistlər üçün bina tikmir. Bu binalarda yaşayan və yaşayacaq*

*jurnalistlər müxtəlif mətbu orqanların nümayəndələridir, burada mənzillərin bölgüsü də püşkatma yolu ilə aparılıb, ədalət və obyektivlik tam təmin edilibdir.*

*Bibiheybət ekoloji fəlakət zonasının abadlaşdırılması, təmizlənməsi bir daha onu göstərir ki, biz qara qızıl kapitalını insan kapitalına qoyuruq. Çünki siz gənclərin bəlkə də yadında deyil, 10 il bundan əvvəl Bakının havası tam fərqli idi. Bir tərəfdən, bu ərazidə buxarlanan neft, digər tərəfdən isə indiki «Ağ şəhər» ərazisindəki neft tullantıları havanı çirkləndirirdi. Həmin ərazidə təmizləmə işləri nəticəsində bir metrdən çox neft çöküntüləri çıxarıldı. İndi «Ağ şəhər» müasir ekoloji layihəyə çevrilib. Balaxanı zibilxanası da fəlakət zonası idi. Orada yandırılan zibil şəhərimizin səmasına zəhərli tüstü buraxırdı. Həmin ərazi də təmizləndi. Sonra Böyükşor gölü. Bu göldən İkinci dünya müharibəsi zamanı açıq rezervuar kimi istifadə olunurdu, onun kənarında neft qoxusundan dayanmaq mümkün deyildi. İndi bu gölə quşlar qonur. Budur bugünkü Azərbaycan. Biz neftlə çirklənmiş bütün əraziləri təmizləyirik və təmizləyəcəyik. Bakı bu gün parklar, bağlar şəhəridir, təmiz hava şəhəridir. Eyni sözləri Sumqayıta da aid etmək olar."*

***1 may 2017-ci il,***
***Bakı Ali Neft Məktəbinin yeni kampusunun açılışında çıxışından***

*"Ötən əsrin 70-ci illərində Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda neft sənayesinin inkişafı daha geniş vüsət almışdır. Bir çox önəmli layihələr icra edilmişdir. O layihələr ki, bu gün də müstəqil Azərbaycana xidmət göstərir. Ancaq əfsuslar olsun ki, müstəqillik ərəfəsində və müstəqilliyimizin ilk illərində neft sənayesi Azərbaycanda tənəzzülə uğradı. Neft və qaz hasilatı kəskin şəkildə aşağı düşmüşdü. Azərbaycan dinamik inkişaf templərini, demək olar ki, itirmişdi. Vaxtilə heç bir ekoloji standartlara uyğun olmayan hasilat nəticəsində Bakının və Abşeron yarımadasının böyük əraziləri neftlə çirklənmişdi. Hazırda biz o çirklənmiş yerləri təmizləyirik, orada çox böyük ekoloji layihələr icra edilir və o cümlədən məşhur Bibiheybət ərazisi bu gün ekoloji baxımdan təmiz, yaşıl məkana çevrilibdir.*

***31 may 2017-ci il,***
***XXIV Beynəlxalq "Xəzər Neft və Qaz-2017" sərgi və konfransının açılışı mərasimində nitqindən***

*"Gələcək planlarımıza gəldikdə, real artım tempi göstərir ki, gələn il 500 ton barama tədarük edilə bilər. Əkilən və əkiləcək ağacları nəzərə alsaq, biz 2019-cu ildə ən azı 1000 ton səviyyəsinə qalxa bilərik. Əgər bütün planlarımız həyatda öz əksini tapsa, biz 2025-ci ildə 6 min ton barama istehsal edə bilərik. Beləliklə, sovet vaxtının ən yüksək səviyyəsinə qalxıb, hətta onu keçə də bilərik. Real imkanlar var. Kütləvi şəkildə ağaclar əkilir. Bizdə iki il bundan əvvəl təqribən 300 mindən bir qədər çox tut ağacı var idi. Son 1-2 il ərzində isə onların sayı 2 milyon 200 minə çatdı. Bütün tinglər dövlət tərəfindən alınır, özü də xaricdən, valyuta ödənilir, baramaqurdu toxumları da gətirilir və ağacəkmə prosesi kütləvi xarakter alıbdır. Dövlət yenə də əsas yükü öz üzərinə götürür və tapşırıq verilmişdir ki, gələn dörd il ərzində əlavə 8 milyon tut tingi əkilsin. İndi bizim 2 milyon 200 min ağacımız var, 8 milyon əlavə əkiləcək. Beləliklə, 10 milyon tut ağacımız olacaqdır. Bu işi Ekologiya və Təbii Sərvətlər Nazirliyi görəcək. Bütün aidiyyəti qurumlar da bu işlərə qoşulsunlar. Eyni zamanda, mən məsləhət görürəm ki, kəndlilər, fermerlər də fərdi qaydada tut*

*ağacları əksinlər ki, istehsal daha da artsın. Beləliklə, Azərbaycanda baramaçılıq kütləvi xarakter alacaqdır. Əgər hazırda 700-dən çox kənddə baramaçılıqla məşğul olurlarsa, bu, onu göstərir ki, bu sahəyə çox böyük maraq var. Bu, çox sevindirici haldır."*

**4 avqust 2017-ci il,**
***Qaxda barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində yekun nitqindən***

*"**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən də Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı arzulayıram. Şadam ki, siz burada işləyirsiniz. Oradakı fotoşəkillərdə bu sahənin əvvəlki görüntüləri əks olunub. Burada heç bir təsərrüfat yox idi, kol-kos idi. İndi gözəl çay plantasiyaları yaradılıb və siz də ənənəvi işlə təmin olunmusunuz. Çünki çayçılıq cənub zonası, xüsusilə Lənkəran üçün ənənəvi sahədir. Burada həm dövlət üçün, həm də özünüz üçün fəaliyyət göstərirsiniz. Həm çayçılıq inkişaf edir, həm də siz əməkhaqqı alırsınız. Çayçılıq çox gözəl, ekoloji cəhətdən təmiz işdir. İşləmək də o qədər çətin deyil.*

***İ ş ç i l ə r:** Buna görə də Sizə minnətdarıq. Çox sağ olun. Allah Sizə cansağlığı versin.*

***İ l h a m Ə l i y e v:** Sağ olun. Lənkəranda çayçılıq daha da inkişaf etdiriləcək, yeni sahələr salınacaq. Çayçılığın əvvəlki şöhrətini bərpa edəcəyik."*

**2 sentyabr 2017-ci il,**
***«Astara Çay» MMC-nin plantasiyalarına baxışda çıxışından***

*"Bu bir daha onu göstərir ki, bizim çox böyük və zəngin təbii resurslarımız vardır. Yaxşı yadımdadır ki, biz Bakı–Tbilisi–Ceyhan neft kəmərini inşa edərkən, o vaxt işimizə maneçilik törətmək istəyən qüvvələr var idi. Bizə qarşı kampaniyalar, şər-böhtan kampaniyası aparılırdı. Ortaya süni bir ekoloji mövzu qoyulmuşdu ki, guya burada ekologiya pozulacaqdır. Halbuki bu gün Bakının vaxtilə çirklənmiş yerlərində biz parklar saldıq, cənnət yaratdıq. Elə Bibiheybət yatağının – ən qədim neft yatağının əvvəlki görüntüləri necə idi, indiki görüntüləri necədir! Əvvəlki görüntülər bir fəlakət mənzərəsi idi. Bu gün isə bu, Bakının ən gözəl parklarından biridir. Yəni biz ekoloji vəziyyətin yaxşılaşdırılmasına da çox böyük vəsait qoyuruq. Amma o vaxt bunu bəhanə gətirərək, işimizi əngəlləmək istəyirdilər."*

**8 noyabr 2017-ci il,**
***Xəzərdə 2 milyard ton neftin hasil olunması münasibətilə keçirilən təntənəli mərasimdə nitqindən***

*"Sumqayıtın ümumi inkişafı məni çox sevindirir. Mən 18-ci dəfədir ki, Sumqayıtda səfərdəyəm. Bu il ikinci dəfədir gəlirəm. Şəhərdə bütün infrastruktur layihələri, demək olar ki, başa çatmaq üzrədir. Fasiləsiz içməli su ilə təminat 94 faizə çatıbdır, qazlaşdırılma 100 faizdir, elektrik enerjisi ilə heç bir problem yoxdur, yeni yollar salınır. Biz bu il Bilgəh–Sumqayıt sahilboyu yeni yolun salınmasını təmin etdik. Sosial obyektlər, məktəblər, xəstəxanalar, Olimpiya İdman Kompleksi, Paralimpiya Mərkəzi, «ASAN xidmət» Mərkəzi yaradılıb. Bu gün biz «Kimyaçı» Mədəniyyət sarayının əsaslı təmirdən sonra açılışını qeyd edəcəyik. Yəni həm sosial, həm*

*də iqtisadi sahədə, sənaye sahəsində çox böyük inkişaf vardır. Sumqayıt bulvarı isə – mən bunu bulvarın açılışında da demişəm – bir möcüzədir. Çünki qısa müddət ərzində belə bulvarın salınması doğrudan da çox böyük hadisədir. İnsanların rahat yaşaması, işlə təmin olunması üçün bütün işlər görülür. Bir daha demək istəyirəm ki, Sumqayıt dünya miqyasında böyük müasir sənaye mərkəzinə çevrilir. Bir məsələni də qeyd etməliyəm ki, bütün müəssisələr ən yüksək ekoloji standartlara malikdir. Bunu mən xüsusi tapşırmışam. Çünki bilirsiniz ki, vaxtilə Sumqayıtın ekoloji vəziyyəti çox ağır idi. Hətta bütün beynəlxalq reytinqlərdə dünyanın ekoloji cəhətdən ən problemli şəhərlərindən biri idi. Bu gün isə Sumqayıt ekoloji cəhətdən bəlkə də ən gözəl və təmiz şəhərlərdən biridir. Bax, biz buna nail ola bilmişik. Sumqayıtın ekoloji vəziyyətinin daim yaxşılaşdırılması diqqət mərkəzindədir və bu gün buranın təmiz havası, gözəl iqlimi əminəm ki, sumqayıtlılar üçün də çox önəmlidir.“*

**15 dekabr 2017-ci il,**
***Sumqayıt Kimya Sənaye Parkında görülən işlərlə tanışlıq, yeni müəssisələrin təməlqoyma və açılışı zamanı şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxışından***

*“Bakının ekoloji vəziyyəti yaxşılaşır. Vaxtilə şəhərimizin havasını çirkləndirən Balaxanı zibilxanası tamamilə aradan götürülübdür, indi park salınıbdır. Böyükşor gölü. Onun bir hissəsi, birinci mərhələsi tamamlanıb və təmizlənib. Bibiheybət buruqları ekoloji fəlakət mənzərəsi idi. Bu gün orada park, idman şəhərciyi salınıb. Bakının o hissəsi ilə bağlı bizim əlavə planlarımız var. Yeni yollar salınır. Vaxtilə tikilmiş və yararsız vəziyyətə düşmüş binalar sökülür, vətəndaşlara kompensasiya ödənilir və həmin binaların yerində yeni ictimai zonalar yaradılır. Yəni, Bakının gələcək inkişafı ilə bağlı bizim böyük planlarımız var. Bakının nəqliyyat problemləri də həll olunur. Bakıda onlarla körpü, yol qovşağı tikilmişdir. Əgər vaxtilə tikilməsəydi, biz indi tıxacdan hərəkət edə bilməzdik. Şəhərimizin gələcək hərtərəfli inkişaf planı da diqqət mərkəzindədir. Şəhərimizin hər bir yerində abadlıq işləri getməlidir və əminəm ki, gedəcəkdir.”*

**19 mart 2018-ci il,**
***Novruz bayramı münasibətilə ümumxalq şənliyində nitqindən***

*“Dünya neftinin tarixi Azərbaycandan başlanır. 1846-cı ildə dünya miqyasında ilk dəfə olaraq sənaye üsulu ilə neft məhz Azərbaycanda, Bakıda hasil edilmişdir. O tarixi anı əks etdirən abidə şəhərimizin mərkəzində bir neçə il bundan əvvəl ucaldılıb. O vaxt – XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində Azərbaycan dünya neft hasilatının əksəriyyətini təmin edirdi. Ancaq Azərbaycan xalqı bundan bəhrələnə bilibmi?! Əlbəttə ki, yox! O illərin şəkillərinə, statistik məlumatlarına baxmaq kifayətdir ki, hər kəs görsün – xalq səfalət içində yaşayırdı, yoxsulluq hökm sürürdü, heç bir sənaye inkişafından söhbət getmirdi. Sadəcə olaraq, Azərbaycan resurs mənbəyi idi və Azərbaycandan çıxarılan «qara qızıl» Azərbaycan xalqının inkişafına xidmət etmirdi. Bizim neftimiz tükənirdi. Neftdən əldə edilən gəlir Azərbaycan xalqının rifahına yönəlmirdi və eyni zamanda, biz Abşeron yarımadasında böyük ekoloji problemlərlə üzləşmişdik. Bu problemləri bu gün müstəqil dövlət həll edir.”*

**29 may 2018-ci il,**
***Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində nitqindən***

*"Bizim gələcək sənaye inkişafımızla bağlı planlarımız əminəm ki, həyata keçiriləcək. Bir çox yeni, ən yüksək texnologiyalara cavab verən sənaye müəssisələri yaradıla-caqdır. Ona görə İtaliya şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün gələcəkdə də geniş meydan, geniş imkanlar olacaqdır.*

*Mən İtaliya Prezidenti cənab Sercio Mattarellanı bir daha salamlayıram. Qeyd etməliyəm ki, bu müəssisə Sumqayıt şəhərində yaradılır. Sumqayıt şəhərinə ilk dəfədir ki, aparıcı Avropa dövlətinin Prezidenti gəlir. Bu, Sumqayıtın tarixi üçün də çox əhəmiyyətli məsələdir. Sumqayıt indi müasir sənaye şəhəridir. Cənubi Qafqazda Bakıdan sonra ikinci sənaye şəhəridir. Sumqayıt sovet vaxtında kimya sənayesi şəhəri kimi yaradılmışdır. Sumqayıtın çox ciddi ekoloji problemləri var idi. Mən cənab Prezidentə bu barədə məlumat verdim. Ekoloji vəziyyət, havanın çirklənməsi insanları çox narahat edirdi. Bütün bunlara son qoyuldu. Bu gün müasir müstəqil Azərbaycanda ən yüksək ekoloji standartlar təmin edilir və Sumqayıt indi ekoloji inkişaf baxımından ölkəmizin ən qabaqcıl yerlərində qərarlaşıb. Bu zavodun sumqayıtlılar üçün də böyük əhəmiyyəti olacaq. Sumqayıtda yaradılacaq böyük sənaye klasterində minlərlə, on minlərlə insan işləyəcək və beləliklə, şəhərin inkişafı da uğurla gedəcək."*

***18 iyul 2018-ci il***
***Sumqayıt Kimya Sənaye Parkında "SOCAR Polymer" layihəsi çərçivəsində inşa edilən polipropilen zavodunun açılışında çıxışından***

*"Xəzər dənizinin ekoloji vəziyyətinin yaxşılaşdırılması, onun bioresurslarının mühafizəsi və artırılması ölkəmiz üçün prioritet məsələlərdən biridir. Son illər Azərbaycanda Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Xəzər dənizinin çirklənmədən qorunması məqsədilə mövcud sutəmizləyici qurğuların modernləşdirilməsi və yenilərinin inşası üzrə irimiqyaslı layihələr icra edilir.*

*Müstəqillik dövründə Azərbaycanın həyata keçirdiyi neft-qaz əməliyyatları da ən yüksək beynəlxalq ekoloji standartlara cavab verir. Azərbaycan Dövlət Neft Şirkəti SOCAR neft-qaz əməliyyatları zamanı ISO Beynəlxalq Standartlaşma Təşkilatının tələblərinə uyğun idarəetmə sistemi qurmuş və sertifikatlaşdırmışdır. Bu istiqamətdə həyata keçirilən layihələr Dünya Bankı Ekspert Şurası tərəfindən iki dəfə "Ali Mükafat"a layiq görülmüşdür. 2015-ci ildən etibarən Azərbaycanda neft-qaz əməliyyatları aparan bütün şirkətlər üçün ən müasir avadanlıqlarla təchiz edilmiş Tullantıların İdarə Edilməsi Mərkəzi yaradılmışdır. Neft hasilatı zamanı səmt qazının emissiyası göstəricilərinin aşağı olmasına görə Avropa İttifaqına neft ixrac edən əsas 10 ölkə arasında Azərbaycan birinci yeri tutur. Azərbaycan infrastrukturun inkişafına böyük önəm verir. Davos Dünya İqtisadi Forumunun qiymətləndirməsinə görə Azərbaycan dünyada infrastrukturun inkişafı səviyyəsi üzrə 26-cı, rəqabətqabiliyyətlilik indeksi üzrə isə 35-ci yerləri tutur".*

***12 avqust 2018-ci il,***
***Aktauda Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında çıxışından***

*"Azərbaycan Xəzərdə ekoloji vəziyyətin yaxşılaşmasına fəal və böyük töhfə verir. Hökumətimizin gördüyü tədbirlər xüsusən neft-qaz əməliyyatlarının həyata keçirildiyi zaman Xəzər dənizinin çirklənməsinin qarşısını almağa hədəflənib. Mən artıq Sammit zamanı bu barədə danışmışam və bir daha demək istəyirəm ki, Azərbaycanın müstəqillik dövründə həyata keçirdiyi bütün neft-qaz əməliyyatları İSO beynəlxalq standartlarına uyğundur.*

*Gələn il biz Xəzərdə neft çıxarılmasının 70 illiyini qeyd edəcəyik, bu da dəniz yataqlarında neftin ilk hasilatı idi. Əlbəttə, əvvəlki illərdə Xəzərin neft-qaz ehtiyatlarının istismarı zamanı Xəzərin ekologiyasına müəyyən dərəcədə ziyan dəyib. Lakin bu gün ölkəmiz mümkün olan hər şeyi edir ki, Xəzər ekoloji inkişaf, ekoloji sabitlik zonasına çevrilsin."*

***12 avqust 2018-ci il,***
***Xəzəryanı dövlətlərin başçılarının Aktau Zirvə***
***toplantısında mətbuata birgə bəyanatından***

*"Bakıda neftayırma zavodunun yenidən qurulması, modernləşdirilməsi prosesi gedir. Bu da çox önəmli sənaye layihəsidir. Bu, bizə imkan verəcək ki, daha keyfiyyətli neft məhsulları istehsal edək. Yenidənqurma başa çatandan sonra Azərbaycanda istehsal olunacaq benzin "Avro-5" standartına cavab verəcək. Bu da ölkəmizin ekoloji vəziyyətinə müsbət təsir göstərəcəkdir. Eyni zamanda, bu zavodun yenidən qurulması, modernləşdirilməsi bizə böyük iqtisadi səmərə verəcək."*

* * * *

*"Ölkəmizin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün işlər görülür, təhlil aparılır. İlk növbədə, neftlə çirklənmiş ərazilər təmizlənir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müvafiq göstəriş verilib, vəsait ayrılıbdır. Abşeron yarımadasında neftlə çirklənmiş yerlər tam təmizlənəcək, həmin yerlərdə bağlar, yaşıllıqlar, göllər salınacaqdır. Ölkəmizin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün işlər görülür, təhlil aparılır. İlk növbədə, neftlə çirklənmiş ərazilər təmizlənir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinə müvafiq göstəriş verilib, vəsait ayrılıbdır. Abşeron yarımadasında neftlə çirklənmiş yerlər tam təmizlənəcək, həmin yerlərdə bağlar, yaşıllıqlar, göllər salınacaqdır.*

*Bu işlər gedir, gələn ildə də bunlar nəzərdə tutulur. Xəzərin sahilində yeni təmizləyici qurğuların yaradılması istiqamətində işlər gedir. Burada da vəziyyət bizi tam qane edə bilməz. Havanı çirkləndirən məişət obyektlərinə ciddi xəbərdarlıq edilib. Axsam saatlarında Bakı şəhərini tüstü bürüyür. Şadlıq evlərində tüstü təmizlənmədən havaya sovrulur. Onlara çox ciddi xəbərdarlıq edilib, kim əməl etməyəcəksə, o şadlıq evinin, məişət obyektinin qapısı bağlanacaqdır.*

*Mən tapşırmışam ki, bunun üçün hüquqi əsaslar hazırlansın. Bildiyimə görə, birinci xəbərdarlıqdan sonra bir çox məişət obyektləri təmizləyici qurğuları quraşdırmağa başlayıb. Onların hamısına məsləhətim budur ki, bu işi tezləşdirsinlər. Çünki ikinci xəbərdarlıq olmayacaq, bir də görəcəklər ki, obyekt əldən çıxdı.*

*Tezliklə bütün böyük-kiçik məişət obyektlərində havanı çirkləndirən, havaya tüstü, kanserogen buraxan obyektlərdə təmizləyici qurğular quraşdırılmalıdır, müvafiq qurumlar monitorinq aparmalıdır. Mən Bakı Şəhər İcra Hakimiyyətinə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göstəriş verdim ki, mənə dərhal məlumat verilsin və dərhal ölçü götürüləcəkdir.*

*Ağacların kəsilməsi halları azalıb, amma tam aradan qal-dırılmayıbdır. Bir daha deyirəm – əgər Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi olmadan kimsə bir ağac kəsərsə, onda özündən küssün."*

***9 oktyabr 2018-ci il,***
***Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının***
***yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda yekun nitqindən***

*"İnsan sağlamlığını şərtləndirən bir çox amillər var. Onların arasında, ilk növbədə, sağlam həyat tərzidir. Mən bütün vətəndaşlara buradan müraciət edirəm ki, sağlam həyat tərzi hər bir vətəndaş üçün əsas prinsip olmalıdır. Diaqnostika, əlbəttə ki, çox vacib rol oynayır. Bu gün ölkəmizdə mövcud olan laboratoriyalar bütün analizləri edə bilər. Vətəndaşlar hər il kütləvi şəkildə müayinədən keçirlər və beləliklə, ciddi xəstəliklərin qarşısı alınır. Profilaktika çox önəmli rol oynayır. Digər tərəfdən, ölkəmizin ekoloji vəziyyəti, əlbəttə ki, insanların sağlamlığına birbaşa təsir göstərir. Bu istiqamətdə də çox vacib addımlar atılır. Havanı çirkləndirən müəssisələrdə, ictimai obyektlərdə təmizləyici qurğular quraşdırılır. İçməli su layihələri uğurla icra edilir, o cümlədən Quba şəhərində beş il bundan əvvəl mənim iştirakımla içməli su layihəsi istifadəyə verilmişdir. İndi müvafiq qurumlar qida təhlükəsizliyi ilə bağlı çox ciddi məşğuldurlar. Keyfiyyətsiz, bəzi hallarda saxta üsullarla hazırlanan qidalar aşkarlanır. Bu cinayətlərə yol verənlər isə cinayət məsuliyyətinə cəlb edilir. İdman, əlbəttə ki, insanların sağlamlığı üçün çox önəmli bir amildir. İdmanla məşğul olmaq üçün indi ölkəmizdə bütün şərait var."*

***11 oktyabr 2018-ci il,***
***Quba Rayon Mərkəzi Xəstəxanasının açılışında çıxışından***

*"Regionların sosial-iqtisadi inkişafı məsələlərinə baxanda biz mütləq ekoloji vəziyyətə nəzər salmalıyıq. Biz ekoloji vəziyyəti yaxşılaşdırmalıyıq, ekoloji tarazlığı pozan amillərdən özümüzü qorumalıyıq. Bu sahədə son illər ərzində işlər aparılıb. Hesab edirəm ki, bu məsələ daim diqqət mərkəzində olmalıdır. Xüsusilə Bakıda, Sumqayıtda, digər böyük şəhərlərdə ekoloji tarazlığı pozan müəssisələrə çox ciddi xəbərdarlıq edilməlidir ki, onlar təmizləyici cihazları quraşdıraraq, havanın çirklənməsinin qarşısını alsınlar. Bu, çətin məsələ deyil. Ekologiya ilə bağlı digər məsələlər də öz həllini tapmalıdır. Dəmir yolu layihələri ilə bağlı mən giriş sözümdə qeyd etdim. Şimal–Cənub, Şərq– Qərb nəqliyyat dəhlizləri fəaliyyətdədir, bu işlərə yeni tərəfdaşlar qoşulur. Mənim bir neçə ölkənin dövlət başçısı ilə apardığım danışıqlar nəticəsində indi Orta Asiya respublikalarından əlavə yüklərin Ələt limanına gəlməsi və oradan dəmir yolu ilə dünya bazarlarına çatdırılması təmin edilib. Biz bir neçə ölkə ilə artıq çox səmərəli əməkdaşlıq edirik. Bu ölkələrin sayı artır və biz yeni mənbələrdən yükləri cəlb edib Azərbaycan ərazisindən göndəririk. Ölkə daxilində bir neçə dəmir yolu layihəsi gündəlikdədir. Biz Şimal–Cənub nəqliyyat dəhlizinin bərpası ilə məşğuluq. Düzdür, bu yol var, fəaliyyət göstərir, ancaq onun sürəti aşağıdır. Ona görə Yalamadan Astaraya qədər yeni dəmir yolu xətti çəkilməlidir. Artıq keçən ildən bu prosesə start verilib və beləliklə, Azərbaycan–Rusiya və Azərbaycan–İran sərhədlərini birləşdirən Şimal– Cənub nəqliyyat dəhlizi yüksəksürətli dəhliz olacaq və yüklərin mənzil başına çatdırılma müddəti də, əlbəttə ki, qısalacaqdır.*

***29 yanvar 2019-cu il,***
***Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfransda yekun nitqindən***

*"Bu zavodun fəaliyyətə başlaması Sumqayıt şəhərinin ümumi inkişafına da böyük töhfədir. Sumqayıt bu gün nəinki Azərbaycanın, ümumilikdə Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir. Son illərdə Sumqayıtda bir çox müasir müəssisələr yaradılıb. Bu il Sumqayıt Kimya Sənaye Parkında bir neçə müəssisənin açılışı nəzərdə tutulur. Sumqayıtın sənaye, iqtisadi, sosial inkişafı daim diqqət mərkəzindədir. Sumqayıt bu gün yüksək ekoloji standartlara uyğun*

*şəhərlərdən biridir. Biz bu sahəyə də çox böyük önəm veririk. Çünki bilirsiniz ki, sovet vaxtında Sumqayıtda ekoloji vəziyyət o qədər də ürəkaçan deyildi. Sovet məkanında Sumqayıt bu baxımdan geridə qalmış şəhərlərdən biri idi. Bu da təbii idi, çünki o vaxt müasir təmizləyici qurğular mövcud deyildi və burada böyük kimya mərkəzi yaradılmışdı. Bu gün isə Sumqayıtın gözəl havası, ictimai yerləri var, istirahət üçün parklar yaradılıb, vaxtilə salınmış parklar abadlaşdırılıb, Sumqayıt bulvarı yaradılıb, özü də qısa müddət ərzində. Bu da çox gözəl hadisədir. Yəni şəhərin ümumi inkişafı ilə bağlı çox böyük tədbirlər görülür, infrastruktur layihələri icra edilir. Bu yaxınlarda 2 saylı şəhər xəstəxanasının təmiri ilə bağlı müvafiq sərəncam verilibdir. Bu xəstəxanada təxminən 200-ə yaxın çarpayı vardır. Ondan əvvəl biz 1 saylı xəstəxananın təmirini təmin etdik. Qazlaşdırılmanın səviyyəsi təxminən 100 faizdir. Yəni bir sözlə, belə zavodların fəaliyyətə başlaması şəhərin inkişafına da təkan verir."*

**18 fevral 2019-cu il,**
**Sumqayıt şəhərində «Socar Polymer»in yüksəksıxlıqlı polietilen zavodunun açılışında müəssisənin kollektivi ilə görüşdə çıxışından**

*"Siz xatırlatdınız, mən demişəm ki, Sumqayıt bulvarı bir möcüzədir, Sumqayıt inkişaf baxımından paytaxt şəhərinə yaxın olmalıdır və bu gün biz bunu görürük. Düzdür, Bakı son illər çox gözəlləşib, abadlaşıb, ancaq Sumqayıt kimi gözəl şəhərdə insanların istirahəti üçün mütləq bulvar olmalı idi və biz 1 il, hətta 1 ildən tez bir vaxtda 4 kilometr uzunluğunda bulvar yaratdıq. İndi bura Sumqayıtın əsas istirahət zonasıdır, görün nə qədər gözəlləşib. Siz də burada dəfələrlə olmusunuz, mən də dəfələrlə olmuşam. Əvvəlki mənzərə, əlbəttə ki, çox acınacaqlı idi. Amma bu gün yeni yollar salınır, yeni binalar tikilir, ictimai yerlər yaradılır. Yəni Sumqayıtın kompleks inkişafı daim diqqət mərkəzindədir. Bir tərəfdən, sənaye müəssisələrinin yaradılması – Sumqayıt bu gün Cənubi Qafqazda Bakıdan sonra ikinci böyük sənaye şəhəridir – digər tərəfdən, bu gün Sumqayıtın ekoloji vəziyyəti görün nə qədər yaxşılaşıb. Sumqayıtın havası elə bil ki, kurort havasıdır. Əvvəlki illərdə olan toz-dumana, havanı çirkləndirən bəzi müəssisələrin fəaliyyətinə son qoyuldu. Bütün yeni müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Buna görə indi burada ekoloji durum çox yaxşıdır. 1000-ə yaxın evin dam örtüyü təzələnib və bu iş davam edir. Liftlər, həyətlər, yollar təmir olunub. Bu yaxınlarda 2 saylı xəstəxananın əsaslı təmiri haqqında sərəncam imzalandı. Bundan əvvəl 1 saylı xəstəxana əsaslı təmir edilib. Baxacaqlar, əgər 2 saylı xəstəxananın təmiri mümkündürsə, təmir olunacaq, mümkün deyilsə, sökülüb yenidən tikiləcəkdir. Qazlaşdırılma – burada qazla problem olmamalıdır, həll edilib. İçməli su, elektrik enerjisi ilə bağlı məsələlər həll olunub. Biz burada böyük bir elektrik stansiyası tikmişik ki, bu, Sumqayıtı tam təmin edir. Əlbəttə ki, iş yerlərinin yaradılması diqqət mərkəzindədir. Baxın, bu tikintilərdə nə qədər adam işləyir, yeni müəssisələrdə də nə qədər adam işləyəcək. Bütün bu işləri biz ona görə görürük ki, vətəndaşlar daha da yaxşı yaşasınlar. İndi minimum əməkhaqqının, minimum pensiyanın, şəhid ailələrinin müavinətlərinin, təqaüdlərin qaldırılması – bütün bunlar nəyə görə mümkün olub? Ona görə ki, çox ciddi islahatlar aparılıb və bizə əlavə gəlir gəlir. Bu gəliri biz ilk növbədə hara yönəltməli idik? Məhz sosial məsələlərin həllinə. Bu siyasət davam etdiriləcək və əmək haqlarının, pensiyaların qaldırılması bundan sonra da nəzərdə tutulacaq ki, vətəndaşlar daha da yaxşı yaşasınlar, uşaqlar daha da yaxşı böyüsünlər, vətənimizin layiqli övladları olsunlar, ölkəmiz daim qabağa getsin, inkişaf etsin, güclənsin."*

**18 fevral 2019-cu il,**
**Sumqayıt dənizkənarı bulvarda yaradılmış şəraitlə tanışlıqda söhbətdən**

*"Fransa Beynəlxalq Münasibətlər İnstitutunun eksperti Tatyana Kostuyeva-Janın ekologiya ilə bağlı sualını cavablandıran Prezident Vladimir Putin bu barədə Prezident İlham Əliyevin də öz münasibətini bildirməsini xahiş etdi.*

***S u a l: Ümumiyyətlə, ekologiya məsələləri yəqin ki, hamını narahat edir. İlham Heydər oğlu, bəlkə bu barədə fikrinizi bildirəsiniz?***

***C a v a b:*** *Mən Vladimir Vladimiroviçin tezislərini tam dəstəkləyirəm. Öz tərəfimdən demək istərdim ki, Azərbaycanda da elektrik enerjisinin istehsalında qaz və hidroresurslardan istifadə edirik. Bu planda biz, həmçinin tullantılar üzrə öhdəliklərimizi də yerinə yetiririk. Mövzu qlobal xarakter daşıyır və əlbəttə, əsas həlledici sözü iqlimin istiləşməsində başlıca töhfə verən ölkələr deməlidir. Bizim ölkəmiz ərazi baxımından kiçikdir və əhalisi də azdır, ona görə də biz qlobal proseslərə ciddi təsir etmirik. Lakin beynəlxalq ictimaiyyətin məsuliyyətli üzvü kimi, öz tərəfimizdən həm ölkəmizdə, həm də Xəzər regionunda ekoloji şəraiti yaxşılaşdırmaq üçün zəruri tədbirlər görürük. Çünki bu təkcə bizə yox, həm də digər sahilyanı ölkələrə və bütövlükdə regiona aiddir."*

***3 oktyabr 2019-cu il,***
***«Valday» beynəlxalq diskussiya klubunun 16-cı illik iclasının plenar sessiyasında çıxışından sonra jurnalistlərin suallarına cavabından***

*"Bu əslində bizə imkan verdi ki, bu yataqları müstəqillik dövrü üçün saxlayaq. Əgər o vaxt o texnologiya olsaydı, «Azəri–Çıraq»dan, «Günəşli»dən bütün neft, «Şahdəniz»dən isə qaz çıxarılacaqdı. İndi orada dərinlik 400 metrdir, başqa yeni kəşfiyyat layihələrində isə 700 metrə çatır. Biz «Heydər Əliyev» qazma qurğusunu tikdik, o, suyun dərinliyi 1000 metr olan sahələrdə quyular qaza bilir. Ondan sonra layların dərinliyi 7000 metrə qədər gedir. Sovet vaxtında bu yox idi. Mən həmişə deyirəm ki, o vaxt belə texnologiyanın olmaması bizi xilas etdi. Olsaydı, bütün ehtiyatları çıxaracaqdılar. Necə ki, quruda neftimizin hamısını çıxarıb aparıblar. Azərbaycandan 1 milyard tondan çox neft çıxarılıb. Sovet İttifaqı dağılanda biz nə gördük? Dağılmış infrastruktur, neftlə çirklənmiş gölməçələr, Bibiheybət, Balaxanı, ekoloji fəlakət qoyub getdilər. İndi biz bunları təmizləyirik, nə qədər əziyyət çəkilir, nə qədər vəsait ayırırıq."*

***24 oktyabr 2019-cu il,***
***Akademik Akif Əlizadə ilə görüşdə söhbətdən***

*"İqlim dəyişikliyi qlobal təhlükədir. Azərbaycan onun fəsadlarına qarşı mübarizə üzrə beynəlxalq səyləri dəstəkləyir. Azərbaycan Paris Sazişini ratifikasiya edib, baza ili – 1990-cı illə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürübdür. Elektrik enerjisinin istehsalı üçün Azərbaycanda ancaq ekoloji təmiz qaz və su-elektrik stansiyalarından istifadə olunur."*

***25 oktyabr 2019-cu il,***
***«Qoşulmama Hərəkatı»na üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII zirvə görüşündə çıxışından***

*"Bu gün Sumqayıt müasir, böyük sənaye potensialına malik olan, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl şəhərdir. Əldə edilmiş bütün nailiyyətlər münasibətilə sumqayıtlıları təbrik edirəm. Sumqayıtın qədim tarixi vardır. Ancaq şəhər kimi, Sumqayıt 70 il bundan əvvəl*

*formalaşıb. 1949-cu il noyabrın 22-də Nazirlər Sovetinin qərarı ilə Sumqayıt şəhəri yaradılıb və Sumqayıtın sürətli inkişafı başlanıbdır. Sumqayıt sənaye şəhəri kimi formalaşıb, kimyaçılar şəhəri kimi inkişaf edibdir. Sumqayıtda bir çox sənaye müəssisələri, yeni iş yerləri yaradılıbdır. Azərbaycanın müxtəlif bölgələrindən Sumqayıta kadrlar gəlməyə başlayıbdır. Sovet İttifaqının digər respublikalarından gələnlər də Sumqayıtda işlə təmin olunurdular.*

*Ancaq əfsuslar olsun ki, şəhərin yaranmasının birinci mərhələsini əhatə edən dövr ərzində Sumqayıtda ekoloji tarazlığa fikir verilməmiş, ekoloji tarazlıq pozulmuşdur. Sumqayıt o illərdə Sovet İttifaqında ekoloji cəhətdən ən qeyri-təmiz şəhər kimi fəaliyyət göstərirdi. Əlbəttə ki, bu, insanların sağlamlığına da zərər vururdu. Ancaq 1969-cu ildə ulu öndər Heydər Əliyev Azərbaycana rəhbər seçiləndən sonra ekoloji vəziyyətə diqqət yetirməyə başlamışdır. Mən bilirəm ki, Heydər Əliyev Sumqayıtın ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün mərkəzi orqanlara dəfələrlə müraciət etmişdir, bunun nəticəsində müvafiq tədbirlər görülmüş, təmizləyici qurğular quraşdırılmış və ötən əsrin 70-ci illərində şəhərin ekoloji vəziyyəti yaxşılaşdırılmışdır, ancaq standartlara hələ də tam cavab vermirdi. Bu gün biz görürük ki, Sumqayıt ekoloji cəhətdən təmiz bir şəhərdir, təbiəti çox gözəldir. Əminəm ki, bu istiqamətdə bundan sonra da atılacaq addımlar Sumqayıtı daha da gözəlləşdirəcəkdir.”*

***21 noyabr 2019-cu il,***
***Sumqayıt şəhərinin 70 illiyinə həsr olunmuş tədbirdə nitqindən***

*“Bakı çar Rusiyası və sovet dövründə sənaye şəhəri kimi formalaşıb. Təbii ki, sənayenin genişmiqyaslı inkişafı şəhərimizin ekoloji vəziyyətinə çox mənfi təsir göstərmişdir. Bir neçə il bundan əvvəl mənim göstərişimlə Bakıda geniş yenidən qurulma və abadlıq işlərinə start verildi. Vəzifə isə ondan ibarət idi ki, biz Bakını parklar və bağlar şəhərinə çevirək və buna da nail oluruq. Bu gün həm Bakı sakinləri bunu görür, həm də xarici qonaqlar bunu qeyd edirlər. Bakının ekologiyasını böyük dərəcədə çirkləndirən yerlər və müəssisələr artıq ləğv olunur. Onların yerində müasir, şəhərsalma qaydalarına uyğun yeni ictimai zonalar yaradılır. Biz ilk növbədə, Bibiheybət buxtasının yaşıllaşdırılması, neft gölməçələrinin qurudulması və təmizlənməsi məsələsinə diqqət yetirdik. Vaxtilə ekoloji fəlakət mənzərəsini əks etdirən Bibiheybət buxtası indi yaşıllıq, park zonasıdır. Orada idman şəhərciyi, o cümlədən Su İdmanı Sarayı, digər idman və istirahət infrastrukturu yaradılıbdır.*

*Balaxanı zibilxanası digər tərəfdən, şəhərimizin havasını çirkləndirirdi. Onilliklər ərzində biz bu acı reallıqla üz-üzə qalmışdıq. Orada yandırılan zibilin tüstüsü bütün şəhərimizin səmasını zəhər kimi bürüyürdü. Biz oranı da təmizlədik, müasir Zibilyandırma zavodu, poliqon tikilibdir. Çoxdandır ki, orada məişət tullantılarının çeşidlənməsi prosesi təşkil edilib və artıq bu zona ekoloji təmiz zonaya çevrilibdir. O əraziyə bitişik olan Böyükşor gölünün təmizlənməsi layihəsi də çox böyük əhəmiyyət daşıyır. Ora da vaxtilə ekoloji fəlakət zonası idi. Çünki sovet vaxtında oraya həm kanalizasiya, həm də lay suları axıdılırdı, eyni zamanda, oradan açıq səma altında neft anbarı kimi istifadə olunurdu.*

*Böyükşor gölünün birinci hissəsinin təmizlənməsi, hesab edirəm ki, şəhər üçün tarixi hadisədir. Hazırda orada 1 kilometr uzunluğunda bulvar salınıb və artıq gölə quşlar da qonurlar. Bu da onu göstərir ki, təmizlik tam təmin edilibdir. Mən digər sahələri də sadalaya bilərəm, onlardan biri də «Qara şəhər»dir. İndi bəzilərinin yadından çıxır ki, biz maşınla o yerdən keçəndə pəncərələri bağlayırdıq. Çünki tüstüdən, iydən dayanmaq mümkün deyildi. Biz «Qara şəhər»i «Ağ şəhər»ə çevirdik. Hesab edirəm ki, bu da dünya miqyasında ən böyük və ən müasir standartlara cavab verən şəhərsalma layihələrindən biridir. Artıq orada çoxmənzilli evlər tikilir, ictimai*

*zonalar yaradılır. «Qara şəhər»i ləğv edib onun yerində ekoloji təmiz «Ağ şəhər» yaratmaq bizim növbəti tarixi xidmətimizdir.*

*«Sovetski» adlandırılan ərazidə yaşayış çox ağır idi. Yəni bir-birinin içində olan köhnə daxma tipli tikililər həm ekoloji vəziyyətə çox mənfi təsir göstərirdi, həm də orada yaşayan insanlar və nəqliyyat üçün böyük problem yaradırdı. Yolların eni 2-3 metr idi. Biz böyük işlər görərək, oradan da vətəndaşları kompensasiya əsasında köçürdük. Bəzilərinə yeni evlər verildi, bəzilərinə pul təminatı. İndi orada fəaliyyət göstərən Mərkəzi Park dünya miqyasında ən gözəl parklardan biridir. Bütün bunlar görülmüş işlərin bir hissəsini təşkil edir. Bütün işləri sadalamaq üçün günlərlə vaxt lazımdır. Görülən işlər onu sübut edir ki, Bakı şəhərinin inkişafına, havasının təmizlənməsinə və nəticə etibarilə, vətəndaşların rahat yaşamasına nə qədər böyük diqqət göstərilir. İndi Bakı bulvarı 15 kilometr uzunluğunda gözəl bir milli parkdır. Vaxtilə uzunluğu cəmi 3 kilometr idi. Orada yerləşən sıradan çıxmış və yarıdağılmış tikililər söküldü, insanlar üçün şərait yaradıldı. Ona görə Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətində ilk növbədə, bu amillər nəzərə alınmalıdır. Vətəndaşların rahatlığı, ekoloji cəhətdən təmiz layihələrin icrası və şəhərsalma qaydalarına tam riayət edilməsi əsas prinsiplər olmalıdır."*

***8 yanvar 2020-ci il,***
***Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsinə yeni təyin olunmuş Anar Quliyev ilə görüşdə çıxışından***

*"Azərbaycan daim ekoloji tarazlığı qoruyub saxlamaqla, yəni, ətraf mühiti qorumaqla öz vətəndaşlarının sosial-iqtisadi inkişafına çalışır. Yerli və beynəlxalq daşımaların idarə olunmasının təkmilləşdirilməsi, o cümlədən təhlükəsizliyin yüksək səviyyədə təmin edilməsi məqsədilə "Ağıllı şəhər" konsepsiyasına start verilib. Bu konsepsiyanın məqsədi resursların istehlakı, israfı və ümumi xərcləri azaltmaqla enerji, nəqliyyat və kommunal xidmətlər kimi şəhər xidmətlərinin keyfiyyətini artırmaqdır."*

***18 yanvar 2020-ci il,***
***Davos İqtisadi Forumunun rəsmi saytında "Azərbaycanın vahid və dayanıqlı dünyada rolu" sərlövhəli məqaləsindən***

*"Ekoloji vəziyyətin yaxşılaşdırılması daim diqqət mərkəzindədir. Bu istiqamətdə bir çox önəmli tədbirlər görülür. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə çaylarboyu yerləşən bir çox kənddə modul tipli təmizləyici qurğular quraşdırılıbdır. Ancaq mənə bəzi yerlərdən gələn məlumata görə, bu qurğuların bir neçəsi sıradan çıxıbdır. Ona görə birinci növbədə, bu qurğuların fəaliyyəti ilə bağlı monitorinq keçirilməli, geniş təhlil aparılmalı, mənə məruzə edilməlidir ki, onların vəziyyəti nə yerdədir. İkincisi, bu qurğuların istismarı ilə bağlı gərək təkliflər verilsin. Əfsuslar olsun ki, bu günə qədər bu qurğular başlı-başına buraxılıbdır.*

*Yerli icra orqanları, bələdiyyələr əslində bu qurğuların istismarı ilə məşğul olmalıdır. Bir çox yerlərdə belə deyil. Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu qurğuları quraşdırıb və sanki işini yekunlaşdırıb. Ona görə həm monitorinq aparılmalıdır, həm də lazımdırsa, yeni kəndlərdə belə qurğular quraşdırılmalıdır və onların istismarı ilə bağlı konkret bir məsul qurum müəyyən edilməlidir.*

*Ağacəkmə prosesi davam etdiriləcək. Keçən il Nəsiminin 650 illiyi ilə bağlı bir gündə 650 min ağac əkildi. Son illərdə isə əkilən ağacların sayı bəlkə də 10–20 milyonu ötüb. Bu*

*çox müsbət haldır. Xüsusilə təbiəti ağacla o qədər də zəngin olmayan bölgələrdə bu proses geniş vüsət alıb və almalıdır. Bununla paralel olaraq, çirklənmiş yerlərin təmizlənməsi, torpaqların rekultivasiyası prosesi davam etdirilir. Abşeron yarımadasında bu işlər aparılır və aparılacaqdır. Bizim mövcud göllərin təmizlənməsi prosesi daha geniş vüsət almalıdır. Biz hələlik yalnız Böyükşor gölünün bir hissəsini təmizləmişik. Bu da çox böyük layihədir. İndi digər hissənin və həmçinin digər göllərin təmizlənməsi gündəlikdədir.*

*Son illərdə bu istiqamətdə çox böyük işlər görülüb. Bakı sakinləri və qonaqlar hiss edirlər ki, burada havanın keyfiyyəti xeyli yaxşılaşıb. Nəyin hesabına? Çünki biz havanı çirkləndirən bir çox mənbələri ləğv etdik. Onlardan biri Bibiheybət zonası idi, hansı ki, o, ekoloji fəlakət mənzərəsi idi. İndi orada park salınıb, idman qurğuları, xiyabanlar yaradılıb, bulvar o zonaya qədər uzadılıbdır. İkincisi, havanı, ekologiyanı böyük dərəcədə çirkləndirən «Qara şəhər» idi. İndi onun yerində «Ağ şəhər» yerləşir. Bu da böyük şəhərsalma layihəsidir. Yaxın gələcəkdə Neftayırma zavodunun o ərazidən köçürülməsi nəticəsində həm bulvarın uzunluğu artacaq, həm də o zonada ekoloji vəziyyət daha da yaxşılaşacaqdır. Əlbəttə, Balaxanı zibilxanası havanı, demək olar ki, zəhərləyirdi. Çünki orada yanan məişət tullantılarının söndürülməsi mümkün deyildi. Hazırda orada böyük Zibilyandırma zavodu və çeşidləmə poliqonu fəaliyyət göstərir. Bu ərazi də ekoloji təmiz zonaya çevrilibdir.*

*Biz bütün bunları ona görə edirik ki, Bakının ekoloji vəziyyəti yaxşılaşsın və insanların sağlamlığına ziyan dəyməsin. Eyni zamanda, vaxtilə ekoloji vəziyyəti ağır olan Sumqayıt da indi ekoloji cəhətdən təmiz şəhərdir. Mən orada olarkən sumqayıtlılara deyirəm ki, Sumqayıtın havası Bakının havasından daha təmizdir. Ancaq Bakının havası da böyük dərəcədə təmizlənibdir."*

***3 fevral 2020-ci il,***
***Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda yekun nitqindən***

*"Biz bütün başqa sahələrdə də əməkdaşlığa açığıq. Azərbaycanın gələcək planlarına gəldikdə, infrastruktur layihələri prioritet təşkil edəcək və biz İtaliya şirkətlərini dəvət edirik. Əminəm ki, biznes- forum çərçivəsində Azərbaycanda görüləcək işlər haqqında təqdimat ediləcək və İtaliya şirkətləri məlumatlandırılacaqlar. Xüsusilə içməli su layihələri, meliorativ tədbirlərin görülməsi və Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılması bu gün gündəlikdə duran məsələlərin arasındadır. Çünki Bakının da yerləşdiyi Abşeron yarımadasının neft hasilatına görə ekoloji vəziyyətinin yaxşılaşdırılmasına böyük ehtiyac vardır. Azərbaycan dövləti bu məqsədlərə böyük vəsait ayırır. Bildiyimə görə, İtaliya şirkətləri bu sahədə hələ ki, fəal işləmir və demək olar ki, digər Avropa şirkətləri bu sahəni əhatə edir. Ona görə mən İtaliya şirkətlərini bu sahəyə dəvət edirəm. Əminəm ki, Azərbaycan hökumətinin üzvləri bu məsələ ilə bağlı lazımi məlumatı təmin edəcəklər.*

*Əminəm ki, elektroenergetika sahəsində imzalanmış Memorandum da icra ediləcək. Yenə də qayıdıram Davos Dünya İqtisadi Forumunun hesabatına. Orada göstərilir ki, elektrik enerjisinin əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Bizim bütün yaşayış məntəqələrimiz elektrik enerjisi ilə təchiz edilib. Biz elektrik enerjisini ixrac edirik. Bu ilin yanvar ayında 2 böyük şirkətlə 440 meqavat gücündə külək və günəş elektrik stansiyalarının tikintisi ilə bağlı müvafiq sənədlər imzalanıbdır. İtaliya şirkətlərini də bu sahəyə dəvət edirik. Bizim bərpa olunan enerji ilə bağlı çox böyük potensialımız vardır. Azərbaycanda İtaliyadakı kimi, günəşli günlər kifayət qədər çoxdur. Amma İtaliyadan fərqli*

*olaraq, küləkli günlər də çoxdur. Bəzən bu, problem yaradır. Ancaq bərpa olunan enerjinin istehsalı üçün, hesab edirəm ki, bu, əlverişli amildir. Ona görə bu sahəyə də İtaliya şirkətlərini dəvət edirik."*

***21 fevral 2020-ci il,***
***Romada Azərbaycan-İtaliya biznes forumunda çıxışından***

*"Bu dəmir yolunun tikintisi, eyni zamanda, şəhər nəqliyyatına da müsbət təsir göstərəcək, tıxaclar, avtomobil yollarına düşən yük azalacaq, Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunun ekoloji vəziyyəti yaxşılaşacaq. Çünki havanı çirkləndirən ən böyük amil nəqliyyat vasitələridir. Avtobuslara tələbat azalacaq, indi müəyyən marşrutlarda fəaliyyət göstərən avtobuslar digər marşrutlara köçürüləcək."*

***18 mart 2020-ci il,***
***Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonra açılışında çıxışından***

*"Bu gün Sumqayıt nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye şəhəridir. Vaxtilə Sumqayıt yaradılanda Sovet İttifaqının kimya sənayesinin mərkəzi kimi nəzərdə tutulurdu və bu funksiyanı yerinə yetirirdi. Ancaq sumqayıtlılar yaxşı bilirlər ki, ekoloji vəziyyətə çox böyük zərbə vurulmuşdu. Sumqayıt ekoloji fəlakət zonası idi və Sovet İttifaqı məkanında bəlkə də ekoloji baxımdan ən çirklənmiş şəhərlərindən biri idi. Bu gün isə Sumqayıt Azərbaycanın ekoloji baxımdan ən təmiz şəhərlərindən biridir. Çünki burada yaradılmış bütün yeni müəssisələr ekoloji normalara tam cavab verir. Köhnə müəssisələr artıq bağlanıb, onların əraziləri yeni sənaye parklarının sərəncamına verilib. Bu gün Sumqayıtda təmiz hava artıq adi hala çevrilib. Halbuki Sumqayıtda yaşayan insanlar, xüsusilə yaşlı nəsil yaxşı xatırlayır ki, burada ekoloji vəziyyət çox ağır idi. Sumqayıtın yanından maşınla keçənlər də pəncərəni bağlayırdılar ki, o iylər onlara təsir etməsin. Biz şəhərin inkişafına kompleks şəkildə yanaşırıq və sənaye potensialının artırılması bundan sonra da davam edəcək. Ona görə ikinci qaz xəttinin istifadəyə verilməsi həm bu günün tələbatını ödəyir, həm də bundan sonra inşa ediləcək, yaradılacaq müəssisələrin potensialını nəzərdə tutur."*

***24 aprel 2020-ci il,***
***Xızı rayonunun Ağdərə kəndindən Sumqayıt şəhərinə çəkilən magistral qaz kəmərinin açılışında çıxışından***

***"S u a l: Dünyada strateji və enerji sabitliyinin dəstəklənməsinə Azərbaycanın töhfəsi nədən ibarətdir?***

***C a v a b:*** *Mən dəfələrlə demişəm ki, hər bir ölkənin enerji təhlükəsizliyi onun milli təhlükəsizliyinin ayrılmaz tərkib hissəsidir. Buna görə də əsas məsələ enerji müstəqilliyinin təmin edilməsi idi və biz buna nail olduq. Son illərdə Azərbaycan elektrik enerjisinin və təbii qazın idxalçısından onların ixracatçısına çevrilib. 2003-cü ildən bəri Azərbaycanda 30-dan çox elektrik stansiyası tikilib. Bir neçə ildir ki, biz istehsal edilən elektrik enerjisinin artıq*

*hissəsini ixrac edirik. Yeri gəlmişkən, biz ölkənin ekoloji vəziyyətinə böyük diqqət yetiririk, buna görə də son illərdə Azərbaycanda inşa edilən elektrik stansiyaları bütün ekoloji tələblərə cavab verir və respublikanın təbii qaz və su ehtiyatları əsasında işləyir. Biz Azərbaycanda bərpa olunan enerjinin inkişafına da böyük diqqət yetiririk. Bu ilin yanvar ayında ilkin razılıq əldə edildi və bərpa olunan enerji sahəsində böyük təcrübəyə malik olan iki iri xarici şirkət Azərbaycanla ilkin sazişlər imzaladı. Həmin sazişlərə əsasən, ölkəmizdə yalnız əcnəbi investorların hesabına ümumi gücü 440 meqavat olan 2 elektrik stansiyası tikiləcək – biri külək enerjisindən, digəri isə Günəş enerjisindən elektrik enerjisi istehsal edəcək."*

***9 may 2020-ci il,***
***Rusiyanın nüfuzlu "Natsionalnaya oborona" ("Milli müdafiə") jurnalının may buraxılışına müsahibəsindən***

*"Beləliklə, Sumqayıt nəinki Azərbaycanın, eyni zamanda, Cənubi Qafqazın ikinci böyük sənaye şəhərinə çevrilib. Sovet dövründən fərqli olaraq, bu gün burada fəaliyyət göstərən sənaye müəssisələri bütün ekoloji standartlara cavab verir.*

*Siz gəncsiniz, siz o illəri xatırlamırsınız. Ancaq sovet dövründə Sumqayıtın yanından keçərkən maşında oturanlar pəncərələri bağlayırdılar, çünki o iydən insanların gözü yaşarırdı. Yəni, Sumqayıt doğrudan da böyük bir ekoloji bəla mərkəzi idi. Çünki kimya sənayesinin sürətli inkişafı və bir çox hallarda ekoloji standartlara riayət edilməməsi nəticəsində Sumqayıtın ekoloji vəziyyəti çox ağır idi və burada bir neçə növ xəstəliklər geniş vüsət almışdı. Biz isə Sumqayıtı müasir, təmiz sənaye mərkəzinə çevirdik. Bu gün Sumqayıtın havası Bakının havasından daha təmizdir. Sumqayıtda aparılan yaşıllaşdırma işləri, yeni parkların salınması, ekoloji tədbirlərin görülməsi, uzun illər sumqayıtlıları narahat edən Acıdərə kanalının tamamilə təmizlənməsi və yenidən qurulması xüsusi əhəmiyyət daşıyır. Ona görə bir sənaye şəhəri kimi Sumqayıtın siması tamamilə dəyişib və bu gün ən yüksək standartlara cavab verir."*

***12 may 2020-ci il,***
***Sumqayıtda "Gilan Tekstil Park" MMC-nin tibbi maska fabrikinin və qoruyucu kombinezonların istehsalı müəssisəsinin açılışında çıxışından***

*"Taxılçılıq, pambıqçılıq Tərtər üçün ənənəvi kənd təsərrüfatı sahələridir. Pambıqçılığa gəldikdə, Tərtərdə məhsuldarlıq ölkə üzrə orta məhsuldarlıqdan üstündür. Hər hektardan 34 sentner pambıq götürülüb. Ölkə üzrə bu göstərici də yaxşı səviyyədədir, 29 sentnerdir. Amma Tərtər burada qabaqcıl yerlərdədir. Nəzərə almalıyıq ki, mənfur qonşularımız uzun illər ərzində Tərtərin suyunu kəsiblər. O suyu ki, Azərbaycan Respublikası onun yığılması ilə bağlı vaxtilə, 1970-ci illərdə böyük işlər görüb.*

*Sərsəng su anbarının inşası Azərbaycan Respublikası tərəfindən, respublika büdcəsi tərəfindən həyata keçirilib. İndi isə mənfur qonşular bizim suyumuzu kəsiblər. Bu, ekoloji terrordur.*

*Sirr deyil ki, Ermənistan terror dövlətidir və bunu bu dövlət dəfələrlə göstərib, hətta öz rəhbərlərinə qarşı terror törədiblər. İyirmi il bundan əvvəl Ermənistan rəhbərliyinin bir çox üzvü bu ölkənin parlamentində qətlə yetirildi və o cinayətin üstü açılmayıb. Halbuki hər kəs bilir ki, o cinayətin sifarişçiləri kimdir. Ancaq onu ört-basdır edirlər. Çünki onların terrorçu mahiyyəti bu gün də yaşayır. Kiminsə suyunu kəsmək cinayətdir. Bu, faşizmin təzahürüdür və təsadüfi deyil ki, Ermənistanda faşistlərə abidələr ucaldılır. Azərbaycanda*

*quruculuq, abadlıq işləri aparılır, hər bir şəhərdə sosial obyektlər, belə gözəl olimpiya mərkəzləri, xəstəxanalar, məktəblər tikilir, yollar çəkilir, qazlaşdırma aparılır."*

**3 iyun 2020-ci il,**
***Tərtər Olimpiya İdman Kompleksinin açılışında çıxışından***

*"Bilirsiniz ki, Sumqayıt şəhərinə mən daim böyük diqqət göstərirəm və Prezident kimi dəfələrlə Sumqayıtda olmuşam, orta hesabla minimum ildə iki dəfə, bəzi illərdə daha da çox. Sumqayıtın sənaye potensialının inkişafı bu gün göz qabağındadır. Sumqayıt nəinki Azərbaycanın, eyni zamanda, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və eyni zamanda, müasir sənaye şəhəridir. Çünki bildiyiniz kimi, - yaşlı nəsil bunu yaxşı bilir, - əvvəlki dövrdə Sumqayıtda çox çətin ekoloji vəziyyət mövcud idi. Bu gün yeni istifadəyə verilmiş bütün müəssisələr yüz faiz ekoloji standartlara cavab verir. Buna görə Sumqayıtda indi ekoloji vəziyyət çox yaxşılaşıb və hava da təmizdir. Sumqayıt bu gün parklar, bağlar şəhəridir, yaşıllaşdırma işləri gedir. İndi insanları narahat edən və ekoloji problem yaradan Acıdərə kanalı da təmizlənir. Buraya da böyük vəsait ayrılır. Bununla paralel olaraq, şəhər infrastrukturu yeniləşir, o cümlədən sosial obyektlər inşa edilir. 1 saylı şəhər xəstəxanasının əsaslı təmirindən sonra əlbəttə ki, vəziyyət daha da yaxşılaşıb."*

**9 iyun 2020-ci il,**
***Paytaxtın Bilgəh qəsəbəsində, həmçinin Sumqayıt şəhərində və Abşeron rayonunun Saray qəsəbəsində quraşdırılan modul tipli xəstəxana komplekslərinin açılışında çıxışından***

*"Bu gün ölkəmizin elektroenergetika sahəsində növbəti önəmli addım atılır. "Qobu" Elektrik Stansiyasının təməl daşını qoyduq. Əminəm ki, bu stansiyanın tikintisi uğurla gedəcək və nəzərdə tutulmuş vaxtda – 2022-ci ilin əvvəlində tam istifadəyə veriləcəkdir. Bu, bizim enerji potensialımızın gücləndirilməsi istiqamətində çox önəmli addımdır. Stansiyanın generasiya gücü 385 meqavatdır. Bu, ölkəmizdə tikilən böyük stansiyalar arasında öz yerini tapacaq.*

*Bütövlükdə bu stansiyanın çox böyük əhəmiyyəti var. Çünki bu stansiyanın timsalında biz müasir Azərbaycanın ümumi inkişafını görürük. Burada ən müasir texnologiyalar tətbiq ediləcəkdir. Dünyanın aparıcı şirkətləri bizimlə bərabər bu stansiyanın inşasında iştirak edəcəkdir. Eyni zamanda, çox güclü beynəlxalq nəzarət olacaq.*

*Stansiya bütün beynəlxalq ekoloji standartlara tam cavab verir. Ona görə ekoloji baxımdan stansiyanın əhəmiyyəti xüsusi qeyd edilməlidir. Burada şərti yanacağın sərfiyyatı da aşağı səviyyədədir - 260 qram. Energetiklər bilirlər ki, bu, çox aşağı səviyyədir."*

**21 avqust 2020-ci il,**
***"Qobu" Elektrik Stansiyasının təməlqoyma mərasimində çıxışından***

***"S u a l: Cənab Prezident, ölkəmizdə neft hasilatı ciddi ekoloji problemlər meydana gətirmişdir. Hazırda isə Sizin göstərişinizlə ekoloji vəziyyətin yaxşılaşdırılması və ətraf mühitin qorunması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir. Bununla bağlı nə deyə bilərsiniz?***

***C a v a b:*** *Bəli, tamamilə haqlısınız. Bu, doğrudan da ciddi məsələdir. Çünki o vaxt Bakı, Abşeron yarımadası, Sumqayıt şəhəri ekoloji fəlakət zonaları kimi təqdim edilirdi və faktiki olaraq ekoloji fəlakət mövcud idi. İndi bir çox hadisələr yaddan çıxır. Ancaq bizim neftlə ən çox çirklənmiş ərazimiz Bibiheybət buxtası idi. İndi Bibiheybət buxtası gözəl parklar, istirahət zonalarına çevrilib. Bibiheybət qəsəbəsi indi faktiki olaraq yenidən qurulub. Yəni, Bibiheybət buxtası ekoloji fəlakət zonası idi və o görüntülər yəqin ki, bir çoxlarının xatirindədir. Digər ekoloji fəlakət zonası Balaxanı və onun neft mədənləri idi. İndi baxın, Balaxanı gözəl bir qəsəbəyə çevrilibdir və orada işlər artıq tamamlanmaq üzrədir. Mən özüm gedib baş çəkəcəyəm və baxıb görəcəyəm ki, mənim göstərişlərim necə yerinə yetirilir. Təkcə Balaxanı yox, bütün qəsəbələr. Mən demişəm, Bakının bütün qəsəbələri abadlaşdırılmalıdır, orada insanlar üçün daha yaxşı şərait yaradılmalıdır, insanları narahat edən bütün problemlər həll olunmalıdır və bu qəsəbələr estetik cəhətdən müasir səviyyəyə uyğun olmalıdır. Qəsəbələrdə bütün tarixi abidələr bərpa edilməlidir və biz bu qəsəbələrə yeni həyat verəcəyik. Balaxanı zibilxanasını yadımıza salaq. Oradan çıxan tüstülər bütün şəhəri bürüyürdü və zəhər idi. Mən bu məsələ ilə məşğul olmağa başlayanda bəziləri deyirdilər ki, bunu söndürmək mümkün deyil. Çünki o, altdan yanır və orada qazlar əmələ gəlir, çox təhlükəli yerdir, yaxın düşmək olmaz. Bəziləri deyirdi ki, gəlin bunun üstündə sarkofaq tikək. Yəni, belə cəfəng təkliflər var idi. Amma biz bunun da yolunu tapdıq. Tamamilə təmizləndi. İndi orada gözəl park salınıb və zibilyandırma zavodu fəaliyyətə başlayıb. Onun yanında növbəti ekoloji fəlakət zonası – Böyükşor gölü də, onun bir hissəsi təmizləndi. O da ekoloji fəlakət idi, çünki açıq neft rezervuarı idi, eyni zamanda, bütün kanalizasiya suları da oraya axıdılırdı. Amma indi orada bulvar salınıbdır və o gölə quşlar qonur.*

*Digər layihələr. İndi Qara şəhəri yadımıza salaq. Artıq o anlayış yoxdur, onun yerində Ağ şəhər var. Ağ şəhər şəhərsalma layihəsini biz icra edəndə orada təqribən ən azı iki metr torpaq layı çıxarıldı. O da bütün neft çöküntüləri idi, qudron idi, zəhər idi. Onun yanında "Azərneftyağ" neft emalı zavodu yerləşir. Artıq onun da fəaliyyəti başa çatmaq üzrədir. Çünki iki ildən sonra Heydər Əliyev neftayırma zavodunda yenidənqurma başa çatacaq, "Avro-5" benzin istehsal olunacaq. Beləliklə, havanı ən çox çirkləndirən nəqliyyat vasitələri də təmiz benzinlə təmin ediləcək və "Azərneftyağ" neft emalı zavodu söküləcək. Bütün o rezervuarlar, qurğular söküləcək, ora böyük park olacaq. Həmçinin yod-brom zavodu. Bəziləri bilmir, o da aeroport yolunda yerləşirdi, o da bir zəhər idi. Biz oranı da utilizasiya etdik, oradakı çöküntüləri poliqona daşıdıq. Yaxud da ki, Sumqayıt şəhərinin ekoloji vəziyyətinə baxın. Əvvəllər Sumqayıtın yanından keçəndə hər kəs pəncərəni bağlayırdı ki, o üfunət iyi, o zəhər girməsin maşına. Amma bu gün Sumqayıt elə bil ki, kurort şəhəridir. Sənaye potensialı möhkəmləndirilməklə orada müasir təmizləyici qurğular quraşdırıldı, sənaye parkları yaradıldı. Sumqayıt Sovet İttifaqında bəlkə də ən çirklənmiş şəhər sayılırdı, bu gün ən təmiz şəhərlərdən biridir. Bütün bunları biz etmişik. Çünki bu, bizim xalqımızın həyatıdır, uşaqlarımızın, gələcək nəslin sağlamlıdır. Amma çar Rusiyası dövründə, sovet dövründə buna fikir verilirdimi? Xeyr. Ancaq plan, ancaq hasilat, ancaq istismar, neft ver, qaz ver. Bəs insanların həyatı, onların yaşayışı, onların sağlamlığı? Ona görə bizim üçün bu, ön plandadır.*

*Mən Prezident seçiləndən sonra demişdim, ilk bəyanatlardan biri idi ki, "qara qızıl"ı insan kapitalına çevirməliyik, insanlara xidmət etməliyik. Biz bu sahədə, ilk növbədə, insan amilini nəzərə almalıyıq. Çünki neft bizim üçün məqsəd deyil, daha yaxşı həyat yaratmaq, daha yaxşı ölkə qurmaq, daha yaxşı şərait yaratmaq üçün vasitədir və bunu edirik.*

*Ekoloji layihələr hələ ki, bitməyib, hələ görüləsi işlər çoxdur. Hazırda Abşeron yarımadasında neft gölməçələrinin təmizlənməsi işi gedir. Mən tapşırıq vermişəm ki, bütün*

*neft mədənlərində təmizləmə işləri aparılsın, orada ağaclar əkilsin, - necə ki, burada, Bibiheybətdə. Biz ekoloji fəlakət zonalarını ekoloji cənnət zonalarına çevirməliyik, bunu edirik və edəcəyik."*

***19 sentyabr 2020-ci il,***
***"Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimindən sonra Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və Real Televiziyasına müsahibəsindən***

*"Qeyri-qanuni məşkunlaşdırma 1949-cu ilin Cenevrə Konvensiyası daxil olmaqla, beynəlxalq hüququn ciddi pozulmasıdır. Bu, müharibə cinayətidir. Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz məskunlaşdırmanın hüquqi qüvvəsi ola bilməz. Bugünkü Ermənistan ərazisində Azərbaycan xalqına məxsus mədəni miras dağıdılıb və talan edilibdir. Ermənistan işğal edilmiş ərazilərimizdə də Azərbaycanın tarixi və dini abidələrini dağıdıbdır. Məqsəd isə orada azərbaycanlıların bütün izlərini silməkdir.*

*Ermənistan işğal olunmuş ərazilərdə qanunsuz olaraq təbii ehtiyatları istismar edir və süni ekoloji böhran yaratmaq məqsədilə su ehtiyatlarından istifadə edir. Azərbaycanın işğal altında olan ərazilərində qızıl və digər qiymətli metal və minerallar hasil edən Ermənistan onları beynəlxalq bazarlara ixrac edir. Bu, qanunsuz biznes fəaliyyəti və çirkli pulların yuyulması sxemidir.*

*Azərbaycanın təbii ehtiyatlarını qanunsuz istismar edən beynəlxalq şirkətlər qeyri-qanuni fəaliyyətlərini dərhal dayandırmadıqları halda onlar hüquqi məsuliyyətlə üzləşəcəklər. Azərbaycan işğal edilmiş ərazilərimizdə təbii ehtiyatlarımızın qanunsuz istismarı ilə məşğul olan şəxs və şirkətlərə qarşı artıq hüquqi addımlar atmağa başlayıb. Ermənistan təmas xətti və Ermənistan–Azərbaycan sərhədi boyu mülki vətəndaşları məqsədyönlü şəkildə hədəfə alır və təxribatlar törədir."*

* * * *

*"Biz iqlim dəyişikliyi səbəbindən yaranmış içməli su qıtlığı probleminin həlli üçün səmərəli tədbirlər həyata keçiririk. Azərbaycan Paris Sazişini ratifikasiya etmiş, baza ili – 1990-cı illə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalma ilə bağlı öz üzərinə könüllü öhdəlik götürmüşdür. Azərbaycanda elektrik enerjisinin istehsalı üçün ekoloji cəhətdən təmiz təbii qaz və hidroelektrik enerji stansiyalarından istifadə olunur."*

***24 sentyabr 2020-ci il,***
***BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında videoformatda çıxışından***

*"Əlbəttə ki, əsas məsələyə gəlincə, biz indi Azərbaycanın öz ərazilərini azad etdiyini görürük. Biz ilk olaraq, on minlərlə hektar torpağı su ilə təchiz edəcək çox mühüm su anbarını azad etdik. Ermənistan faktiki olaraq, bizə qarşı ekoloji terror törədib. Onlar Tərtər çayının qabağını bağlayırdılar və beləliklə, yüz minlərlə hektar torpaq su ilə təchiz olunmurdu. Onlar bunu yayda, insanların ehtiyacı olanda bağlayırdılar və qışda açırdılar, bu isə daşqına*

*səbəb olurdu. Beləliklə, Ermənistanın terrorçu xisləti hər addımdadır. Biz əraziləri geri qaytarandan sonra – bu, müxtəlif məhsullar becərmək, mal-qara saxlamaq üçün çox münbit torpaqlardır – əlbəttə ki, kənd təsərrüfatımızın inkişafına yeni təkan veriləcəkdir. Biz ərazilərin azad edilməsi ilə əlaqədar kənd təsərrüfatımızın gələcək inkişafını artıq planlaşdırmağa başlamışıq. Düşünürük ki, insan kapitalına investisiyalar bizə inkişaf üçün yaxşı imkanlar yaradacaqdır. Çünki bir gün neft və qaz tükənəcək, baxmayaraq ki, bizim ehtiyatlarımız çox böyükdür. Biz böyük həcmdə təbii qaz ixrac etməyə yenicə başlamışıq və neft istehsalı sahəsi qarşıdakı onilliklərdə ümumilikdə sabit olacaqdır. Lakin, əlbəttə, qeyri-neft sektoru prioritetdir.*

*Yaponiya şirkətlərinə gəlincə, onlar burada enerji sahəsində çox fəaldırlar. Yaponiya banklarından alınmış kreditlərlə Bakıda iki böyük elektrik stansiyası tikmişik.*

***21 oktyabr 2020-ci il,***
***Yaponiyanın «Nikkei» qəzetinə müsahibəsindən***

*"Kəlbəcər rayonu füsunkar təbiətə, zəngin mədəni irsə malikdir. Bizim bir neçə böyük çayımızın mənbəyi Kəlbəcər rayonundadır. Onların arasında ən böyüyü Tərtər çayıdır, uzunluğu 200 kilometrdir. Bazarçay, Xaçınçay – onların uzunluğu təqribən 200 kilometrə yaxındır. Bu çaylar böyük ərazini qidalandırır. Ancaq mənfur düşmən bizi bu imkanlardan məhrum etmişdi. Çünki Tərtər çayı keçən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Sərsəng su anbarına axıdılır. Sərsəng su anbarı o vaxt o məqsədlə tikilmişdi ki, Qarabağın Aran zonasında yerləşən 6-7 rayonda suvarma işləri təmin edilsin. Sərsəng su anbarı inşa ediləndən sonra heç vaxt suvarılmayan 100 min hektar ərazi artıq suvarılmağa başlandı. Ağdam, Goranboy, Yevlax, Bərdə, Tərtər və digər rayonlar oradan qaynaqlanırdı. Mənfur düşmən suyumuzu kəsdi. Yayda suyu kəsirdi, qışda buraxırdı və su basırdı bütün torpaqları. Bizə qarşı ekoloji terror təşkil edilirdi. Ermənistan terror dövlətidir, bu terrorun bir çox əlamətləri vardır. Tarixi abidələrimizin dağıdılması, mülki əhaliyə qarşı törədilmiş soyqırımı, meşələrimizin qırılması, çaylarımızın məcrasının dəyişdirilməsi və digər əlamətləri vardır. Baxın, Kəlbəcərdən başlayan Tərtər çayının suyu Sərsəng su anbarında və ondan sonra Suqovuşan su anbarında yığılırdı, işğalçının maraqlarını təmin edirdi, bizə isə su gəlmirdi. Biz Suqovuşan qəsəbəsini aldıqdan sonra indi artıq suyun verilməsi başlanılıb və 100 min hektara suyun verilməsi nəzərdə tutulur.*

*Kəlbəcər rayonunda böyük meşə əraziləri vardır – 24 min hektar. Bu, böyük sərvətimizdir. Mənfur düşmən bu meşələri qırıb, talayıb, satıb. Görün son günlər ərzində onlar hansı çirkin işlərlə məşğuldurlar, meşələri yandırırlar ki, ekoloji facië, fəlakət yaratsınlar.*

*Bu oğrular meşələri qırıb aparırlar ki, Ermənistanda satsınlar. Evləri yandırırlar, hansı ki, o evləri onlar tikməyiblər. Onlar kəlbəcərlilərin evlərinə giriblər, soxulublar, orada yaşayıblar. Məktəbləri yandırırlar, apara bilmədikləri ev heyvanlarını öldürürlər. Görün biz kimlərlə, hansı vəhşilərlə üz-üzə idik! Mən bir daha deyirəm və hər dəfə də deyəcəyəm, bizim qələbəmiz təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil, biz erməni faşizmini məhv etdik."*

***25 noyabr 2020-ci il,***
***Azərbaycan xalqına müraciətindən***

*"Dəymiş ziyana gəldikdə, eyni zamanda, biz itirilmiş gəliri də hesablamalıyıq. Çünki bu 30 il ərzində biz bu müəssisələrdən hansı gəliri götürə bilərdik. Orada bir çox müəssisələr və bu müəssisələrin böyük potensialı var idi. Onlar dağıdılıb və biz götürə biləcəyimiz o gəliri götürməmişik. O da hesablanmalıdır. Həmçinin ekologiyamıza vurulan ziyan hesablanmalıdır. Mən bəzi rəqəmləri səsləndirəcəyəm. Qırılan meşələr. Bu meşələr elə-belə*

*qırılmayıb. Bu meşələr qırılıb və satılıb. Qırılmış o meşələrin, ağacların bazar qiyməti hesablanmalıdır. Çünki bunlar satılıb və qanunsuz gəlir mənbəyi olubdur. Bununla paralel olaraq, bizim torpaqlarımız qanunsuz yollarla istismar edilib. İndi Ermənistan mətbuatında gedən məlumata görə, o torpaqların böyük hissəsini kriminal rejimin başçıları zəbt etmişdilər. Orada Ermənistanın keçmiş prezidentləri Koçaryan və Sarkisyanın böyük torpaq sahələri var idi. Eyni zamanda, qanunsuz rejimə rəhbərlik edənlərin böyük torpaq sahələri var idi. Onlar hər il böyük gəlir əldə edirdilər. Çünki o torpaqlar çox münbitdir və çox məhsuldardır. Eyni zamanda, örüş sahələri, otlaq sahələri. Bütün bunların qanunsuz istismarı gərək qiymətləndirilsin və biz onu pul ekvivalentinə çevirməliyik."*

***6 yanvar 2021-ci il,***
***2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən***
***müşavirədəki giriş nitqindən***

*"Mən giriş sözümdə meşələrin qırılması ilə bağlı məlumat verdim və söylədim ki, dəymiş ziyan hesablanmalıdır. İstəyirəm bütün Azərbaycan xalqı bilsin ki, azad edilmiş ərazilərdə 1988-ci ildə meşə fondu 228 min hektar təşkil edirdi, 2020-ci ildə isə cəmi 174 min hektar. Yəni 54 min hektar meşə fondu məhv edilib, qırılıb və bu, erməni cinayətinin növbəti nümunəsidir. Ona görə bu məsələ çox ciddi təftiş edilməlidir. Qeyd etdiyim kimi, dəymiş ziyan hesablanmalıdır, eyni zamanda, bu meşə fondunun bərpası ilə əlaqədar aidiyyəti qurumlar, ilk növbədə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, həmçinin Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi xüsusi proqram tərtib etməlidir ki, biz ermənilər tərəfindən dağıdılmış meşələri bərpa edək.*

*Azad edilmiş torpaqlarda eyni zamanda, dövlət təbiət qoruqları və yasaqlıqlar olub. Mən bu məlumatı da Azərbaycan xalqına çatdırmaq istəyirəm. Laçın rayonunda Qaragöl Dövlət Təbiət Qoruğu 1987-ci ildə yaradılıb, 240 hektar sahəsi var idi, tamamilə məhv edilib, talan olunub və bütün ağaclar qırılıb. Zəngilan rayonunda Bəsitçay Dövlət Təbiət Qoruğu 1974-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Bu, Avropada unikal meşə sayılır və burada nadir çinar ağacları var idi. Bu qoruq 107 hektarı əhatə edib, indi isə cəmi 42 hektarı qalıb. Bu, erməni vəhşiliyinin növbəti təzahürüdür. Bu onu göstərir ki, onlar başa düşürdülər və bilirdilər ki, bu torpaqlarda müvəqqəti oturublar. Onlar bizim evlərimizi dağıdıblar, tarixi abidələrimizi dağıdıblar, məscidlərimizi dağıdıblar, meşələrimizi də dağıdıblar. Nadir çinar meşəsindən cəmi 42 hektar qalıb. Oraya da mütləq bir qrup ezam olunmalı, yerində təftiş aparılmalı və bu qoruq bərpa edilməlidir.*

*Qubadlı Dövlət Təbiət Yasaqlığı 1969-cu ildə yaradılıb, 1988-ci ildə sahəsi 8500 hektar olub, 2020-ci ildə isə 6923 hektar. Yəni 1577 hektar dağıdılıb, talan edilibdir.*

*Daşaltı Dövlət Təbiət Yasaqlığı 1981-ci ildə Heydər Əliyev tərəfindən yaradılmışdır. 1988-ci ildə 400 hektar sahəsi var idi, hazırda 350 hektardır. Burada da 50 hektar dağıdılıb.*

*Laçın Dövlət Təbiət Yasaqlığı 1961-ci ildə yaradılıb, 1988-ci ildə 7500 hektar sahəsi var idi. Hazırda 4457 hektar qalıb, 3043 hektar ermənilər tərəfindən məhv edilib.*

*Zəngilan rayonunda Arazboyu Dövlət Təbiət Yasaqlığı 1993-cü ildə yaradılıb, sahəsi 1700 hektar idi. Hazırda cəmi 135 hektar qalıb. Yəni 1565 hektar məhv edilib. Bu məlumat «Azərkosmos» tərəfindən «Azərsky» peykindən götürülüb və mənə təqdim edilibdir. Ona görə bir daha deyirəm – oraya xüsusi qruplar ezam edilməli, yerində baxılmalı, sənədləşdirilməli, dəymiş ziyan hesablanmalı və Ermənistanın növbəti ekoloji terroru kimi qeydiyyata alınmalıdır.*

***6 yanvar 2021-ci il,***
***2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirədə nitqindən***

*"Sizin də yəqin bildiyiniz kimi, artıq Azərbaycan vurulmuş ziyanın qiymətləndirilməsi prosesinə başlayıbdır. Yəni yaxşı tanınmış beynəlxalq şirkətlərin köməyi ilə maddi, mədəni, mənəvi, ekoloji ziyan hərtərəfli qiymətləndiriləcək və bu da bizə təcavüzkar Ermənistan dövlətini beynəlxalq məhkəmələrə vermək imkanını yaradacaq."*

***13 yanvar 2021-ci il,***
***İSESKO-nun baş direktoru Salim Bin Məhəmməd Əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə çıxışından***

***"S u a l: Cənab Prezident, biz ilk növbədə, bu təməlqoymaları, eyni zamanda, istehsala başlamanı hərbi-diplomatik qələbələrimizdən sonra həm də iqtisadi sahədə uğurların davamı və Sizin prioritet kimi müəyyənləşdirdiyiniz sənayeləşmə siyasətinin növbəti təzahürü kimi qiymətləndirməliyik. Təməlini qoyduğunuz və eyni zamanda, hazırda məhsul istehsalına başlayan müəssisələrin növbəti mərhələlərdə qeyrineft sənayesinin şaxələndirilməsi fonunda töhfəsini necə qiymətləndirirsiniz?***

***C a v a b:*** *Bu müəssisələrin yaradılmasının və təməlinin qoyulmasının çox böyük əhəmiyyəti var, ilk növbədə, Sumqayıt şəhərinin inkişafı üçün. Sumqayıt hazırda nəinki Azərbaycanın, həm də Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye mərkəzidir. Eyni zamanda, son illər ərzində Sumqayıtda yaradılmış bütün müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Sumqayıt üçün bunun xüsusi əhəmiyyəti vardır. Çünki əvvəllər Sumqayıt ekoloji fəlakət zonası idi. Biz isə Sumqayıtı müasir sənaye mərkəzinə çevirərək, ilk növbədə, insanların sağlamlığını nəzərə almışıq. Bildiyiniz kimi, sovet vaxtında burada tikilmiş çoxsaylı müəssisələr istismar müddətini başa vurmuşdu, sıradan çıxmışdı və ekoloji vəziyyətə çox mənfi təsir göstərirdi. O müəssisələr söküldü və mənim göstərişimlə 10 il bundan əvvəl onların ərazisində 500 hektar sahəni əhatə edən Sumqayıt Kimya Sənaye Parkı yaradıldı. Son illər ərzində bu sənaye parkı o qədər böyüdü və genişləndi ki, artıq göstəriş verildi, əlavə torpaq sahələri tapılsın və bu istiqamətdə işlər aparılır."*

* * * *

*"Beləliklə, ölkəmizin uzunmüddətli dayanıqlı inkişafı təmin ediləcək. İlin əvvəlində məhz buraya gəlməyim təsadüfi deyil. Yəni 2021-ci il də artıq qələbələrlə başlayır. Əlbəttə, mənim bu il ilk səfərim hamımız üçün doğma Şuşa şəhərinə oldu. Bu da mətbuatda kifayət qədər işıqlandırılıb. İkinci səfərim isə Sumqayıtadır. Son 17 il ərzində mən Sumqayıtda bəlkə də 30 dəfə olmuşam. Hər dəfə burada olanda həm sənaye müəssisələrinin işə düşməsi, həm də şəhərsalma ilə bağlı görülən işlər, insanları narahat edən problemlərin həlli daim diqqət mərkəzində olur. Bu gün Sumqayıt həm memarlıq, həm də ekoloji baxımdan gözəl şəhərdir, havası təmizdir, gözəl bulvarı var və iş yerləri də yaradılır. Bax, bu 3 müəssisədə 350-dən çox iş yeri yaradılıb və burada işləyənlərin əksəriyyəti məhz yerli sakinlər olacaqdır."*

***18 yanvar 2021-ci il,***
***Sumqayıt Kimya Sənaye Parkında iki zavodun təməlqoyma və vərəqə şüşə istehsalı müəssisəsinin açılışı zamanı müsahibəsindən***

*"Biz Xəzər Gəmiçiliyini müasirləşdirmişik, Xəzərdə ən böyük donanmaya sahibik və hər il donanmaya yeni gəmilər təqdim edilir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər dənizində yükdaşımaların təşkili üçün əvəzolunmaz rol oynayır. Birincisi, biz limanı Bakı*

*şəhərindən çıxardıq. Bu, Bakının ekoloji vəziyyətinə müsbət təsir göstərdi, eyni zamanda, yeni istirahət zonası yaradıldı. Ələtdə ən müasir dəniz ticarət limanının işə düşməsi bizim imkanlarımızı böyük dərəcədə artırıbdır."*

**26 yanvar 2021-ci il,**
**Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri vəzifəsinə yeni təyin olunmuş Rəşad Nəbiyev ilə videoformatda görüşdə çıxışından**

*"Mən bəyan etmişdim ki, azad edilmiş torpaqlar "yaşıl enerji" zonası olacaq. Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər.*

*Bizim planlarımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı vardır. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı vardır. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq, Qarabağ «yaşıl enerji» zonasına çevirəcəyik.*

*Mən bu proqramı elan edəndə bunu nəzərdə tuturdum və bu gün birinci layihə – bax, orada gördüyünüz «Güləbird» Su Elektrik Stansiyası artıq istismara verilir."*

* * * *

*"Prezident İlham Əliyev: Bəsitçay Dövlət Təbiət Qoruğunda çinar ağacları əkdik. Bəsitçay qoruğu 1974-cü ildə ulu öndər Heydər Əliyevin tapşırığı ilə yaradılmışdır. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Bu, nadir çinar ağacları meşəsi idi. İşğaldan sonra mənfur düşmən çinarların böyük hissəsini kəsib, doğrayıb, talayıb və yandırıb. Bu, erməni vandalizminin növbəti əlamətidir. Bu gün Bəsitçay təbiət qoruğunun bərpasına start verildi. Biz bu qoruğu bərpa edəcəyik. Əlbəttə ki, burada kəsilmiş ağacların yaşı təqribən 200-300 ilə bərabər idi. Ancaq hər halda öz borcumuzu yerinə yetirdik. Eyni zamanda, Bəsitçaya balıqlar da buraxdıq. Bəsitçay da çox gözəl çaydır. Ümumiyyətlə, bu bölgə çaylarla zəngindir. Tərtərçay, Xaçınçay, Bəsitçay, Bazarçay, Həkəri çayı və digər çaylar bundan sonra Azərbaycan xalqına xidmət edəcək. Mənfur düşmən işğal dövründə Tərtərçayın da suyunun qabağını kəsmişdir və bir neçə rayonumuzda yüz min hektardan çox torpaq susuz qalmışdır. Bizə qarşı ekoloji terror törədilmişdir".*

**14 fevral 2021-ci il,**
**Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfərində çıxışından**

*"Digər önəmli məsələ azad edilmiş torpaqlarda meliorativ tədbirlərin görülməsi ilə bağlıdır. Azad edilmiş torpaqlarda bizim böyük su mənbələrimiz mövcuddur və su mənbələrimiz orada formalaşır. Biz uzun illər ərzində, 30 ilə yaxın müddətdə bu imkanlardan məhrum idik. Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini, o cümlədən bu sahədə də aparırdı və bizə qarşı ekoloji terror təşkil edilmişdir. Meşələrin qırılması, qoruqların məhv edilməsi - 54 min hektar meşə sahəsi ermənilər tərəfindən kəsilib, dağıdılıb, talanıb, oğurlanıb və bu, böyük cinayətdir. Dəymiş bütün ziyan indi hesablanır, o cümlədən bu ziyan da*

*hesablanacaq. Onlar bizi sudan məhrum etmişdilər. Sərsəng su anbarı və Suqovuşan su anbarı onların nəzarətində idi. Bu iki su anbarını 1970-ci illərdə ulu öndər Heydər Əliyev tikdirmişdir. Onun təşəbbüsü ilə bu su anbarları tikilmişdir ki, Ağdam, Tərtər, Goranboy, Bərdə və digər rayonlarımızda suvarma işləri aparılsın. Sərsəng su anbarının əsas məqsədi, funksiyası sadaladığım və digər rayonlarımıza suyun verilməsi idi. O vaxt bu mənbədən 100 min hektara yaxın torpağa su verilirdi, eyni zamanda, Suqovuşandan da. Lakin o, kiçikhəcmli su anbarıdır. Sərsəng su anbarında 500 milyon kubmetrdən çox su toplanırdı. Ancaq ermənilər suyumuzu kəsirdilər, qışda ekoloji ziyan vurmaq üçün qəsdən buraxırdılar, yaz-yay aylarında suyu kəsirdilər, biz susuz qalmışdıq. Biz o bölgənin suvarılması ilə bağlı xüsusi tədbirlər planı hazırlamışdıq və mənim göstərişimlə orada yüzlərlə subartezian quyusu qazılmışdır. Ancaq biz Suqovuşan qəsəbəsini azad edərkən Suqovuşan su anbarını da nəzarətimizə götürdük. Suqovuşan nəzarətimizə keçəndən sonra imkan yaranıb ki, dediyim Ağdam, Tərtər, Bərdə, Goranboy və digər rayonlarımızda su təminatı böyük dərəcədə yaxşılaşsın. Ancaq o rayonlara gedən kanallar uzun illər ərzində istifadəsiz qalıb. Təhlil aparılmalıdır, onların vəziyyəti nə yerdədir, təmirə ehtiyac varsa, bu işlərə də baxılmalıdır ki, biz vaxt itirmədən suyu sahə başına, vətəndaşlarımızın sərəncamına gətirək."*

***5 aprel 2021-ci il,***<br>
***Zaur Mikayılovu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri təyin olunması ilə əlaqədar videoformatda qəbulda çıxışından***

*"Eyni zamanda, işğal edilmiş ərazilərimizdə qeyri-qanuni iqtisadi fəaliyyətlə məşğul olan, çaylarımızı çirkləndirən, təbiətimizə ziyan vuran və təbii sərvətlərimizi, o cümlədən qızıl və digər qiymətli metalları qanunsuz olaraq talayan xarici şirkətlərə qarşı hüquqi prosedurlara start verilib. Beləliklə, xarici sərmayə üçün cəlbedici sahə turizm ola bilər. Bütün bu ekoloji ziyana baxmayaraq, Qarabağ və Şərqi Zəngəzur təkcə Azərbaycanın deyil, bütün regionun ən gözəl bölgələridir. Mən ümid edirəm ki, xarici investorlar Azərbaycanda olduqca münbit sərmayə iqlimini nəzərə alacaqlar. Dünya Bankının "Doing Business" hesabatına əsasən, Azərbaycan biznes mühitinə görə dünyada 28-ci yerdədir və Azərbaycanda xarici sərmayələr müvafiq qaydada qorunur. Ümid edirəm ki, xarici şirkətlər bu mövzunu ciddi nəzərdən keçirəcək.*

*Yeri gəlmişkən, deyə bilərəm ki, artıq Avropadan olan bir şirkət azad edilmiş ərazilərdə 200 meqavat gücündə günəş elektrik stansiyasının inşası ilə bağlı Azərbaycan hökuməti ilə ilkin sənədləri imzalayıb. Bu, yaxşı başlanğıcdır və əminəm ki, İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan tərəfindən azad olunmuş ərazilərimizdə daha çox şirkətlər çalışacaq və daha geniş fəaliyyət olacaqdır."*

***18 iyul 2021-ci il,***<br>
***Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə birgə mətbuat konfransında jurnalistlərin suallarına cavabından***

*"Ermənistan Azərbaycanın keçmiş işğal edilmiş ərazilərində ekosid - ətraf mühitə qarşı genosid törədib. Meşələrimizin 60 min hektarı məhv edilib, kəsilib və oğurlanıb, torpaqlarımız və çaylarımız çirkləndirilib və zəhərlənib.*

*Ermənistan keçmiş işğal olunmuş ərazilərdə bizim su ehtiyatlarımızdan süni ekoloji fəlakət yaratmaq üçün istifadə edib. 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası "Azərbaycanın cəbhəboyu rayonlarının sakinləri qəsdən sudan məhrum edilir" adlı qətnamə qəbul edərək, Ermənistan hökumətindən su ehtiyatlarından siyasi təsir və ya təzyiq aləti kimi istifadəsinə son qoyulmasını tələb etmişdir.*

*Ermənistan həmin qətnaməyə qətiyyən məhəl qoymadı və Sərsəng su anbarını humanitar və ekoloji terrorizm aləti kimi istifadə etməyə davam etdi. Ermənistan qəsdən qış aylarında su anbarını açaraq ətraf ərazilərdə daşqın törədir, yay aylarında isə suyu kəsərək keçmiş cəbhəyanı bölgədə yaşayan insanları və təsərrüfatları sudan məhrum edirdi.*

*Ermənistan transsərhəd Oxçuçay çayını kəskin şəkildə çirkləndirir. Bu isə çayın Azərbaycan ərazisi boyu keçdiyi ərazinin ekoloji sistemini bərpa olunmaz deqradasiyaya məruz qoyur. Təəssüflər olsun ki, bəzi xarici şirkətlər də bu ekoloji cinayətdə iştirak edir."*

***23 sentyabr 2021-ci il,***
***BMT Baş Assambleyasının 76-cı sessiyasının***
***illik ümumi müzakirələrdə çıxışından***

*"...Azərbaycan ərazilərində vandalizmin izləri belədir. Təbiətə çox böyük ziyan vurulub, 60 min hektara yaxın meşə qırılıb, doğranıb, Ermənistana və İrana satılıb. Qızıl yataqları və digər təbii ehtiyatlar qanunsuz istismar edilib. Transsərhəd Oxçuçay çayı bir Avropa şirkətinin iştirakı ilə sistematik olaraq çirkləndirilirdi, bu da artıq nüfuzlu beynəlxalq ekspertlər tərəfindən təsdiq edilmiş ekoloji fəlakətə gətirib çıxarıb."*

***15 oktyabr 2021-ci il,***
***Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans***
***formatında keçirilən iclasında çıxışından***

***"Tələbə Azelma Ağakişiyeva: Cənab Prezident, mən Bakı Ali Neft Məktəbinin İnformasiya təhlükəsizliyi fakültəsində ikinci kursda oxuyuram və İnformasiya Olimpiadası üzrə respublika birincisi olmuşam. İKT-nin əsas vəzifələrindən biri də ekoloji sistemin qorunmasıdır. Ekoloji problemlər bir çoxları kimi, məni də çox narahat edir. Mən bilmək istərdim ki, ermənilərin ziyan vurduğu azad olunan torpaqlardakı ekologiya və ətraf mühiti qorumaq, bərpa etmək üçün hansı tədbirlər görülür?***

***Prezident İlham Əliyev:** Sağ ol. Ermənilər bizə çox böyük ziyan vurdular, bizim ekoloji vəziyyətimiz çox acınacaqlıdır. Əlbəttə ki, görüləsi işlər çoxdur, ancaq bizdə olan təcrübə deməyə əsas verir ki, biz bu işin öhdəsindən gələcəyik. Çünki Azərbaycanda, ümumiyyətlə, azad edilmiş torpaqları nəzərə almasaq ən çətin vəziyyət Bakıda, Sumqayıtda və Abşeron yarımadasında idi. Bu da neft-qaz hasilatı ilə və Sumqayıtdakı kimya sənaye müəssisələri ilə bağlı idi. Biz çox böyük işlər gördük və illər keçdikcə, əlbəttə, unudulur və bəzilərinə elə gəlir ki, həmişə belə olub. Amma mən bu işin təşkilatçısı kimi hər bir layihəni yaxşı xatırlayıram. Bakının ekoloji vəziyyəti çox ağır idi, havanın çirklənməsi çox yüksək idi. 20 il bundan əvvəl və bu gün böyük fərq var. Görün, Bakıda biz hansı böyük işlərə, onların icrasına nail olduq. Birinci, bu Bibiheybət buxtası. Bu, bir ekoloji fəlakət zonası idi. Şəhərin mərkəzində bütün neft gölməçələri artıq buxarlanırdı. Bu zəhərli hava ekoloji vəziyyətimizə böyük ziyan vururdu və o mənzərə də çox acınacaqlı idi. Hətta Ceyms Bond filmlərinin biri də, bax, burada çəkilmişdi. O filmdə həmin o Bibiheybət buxtası göstərilir. Həqiqətən, ekoloji fəlakət zonası idi. Amma mən bu məsələni qaldıranda bəziləri deyirdilər ki, bu, mümkün deyil, bu, əbədi belə qalmalıdır, bunu saflaşdırmaq mümkün deyil. Amma göründü ki, mümkündür. Bu gün baxın, bu, şəhərin ən gözəl yerlərindən biridir, istirahət zonasıdır, böyük parkdır. Bulvar*

*salmışıq, Su İdman Sarayı, muzeylər, ictimai obyektlər şəhər sakinləri üçün çox gözəl rekreasiya zonasına çevrilib. Ondan sonra Ağ şəhər. İndi "Qara şəhər" nədir bəlkə də gənclər heç bilmir. Yəni, sizdən sonrakı nəsil, ümumiyyətlə, bilməyəcək ki, Bakıda Qara şəhər adlı bir yer olub. Amma bunun adı Qara şəhər olub. Nəyə görə? Bu tüstüyə görə, mazuta görə. Biz o Qara şəhəri Ağ şəhərə çevirməyə başlayanda da bir çoxları şübhə ilə yanaşırdılar ki, bu, mümkün deyil. Amma baxın, şəhərin bu tərəfində və o tərəfdə - iki yerdə şəhəri əhatə edən iki fəlakət zonası idi. Biz o neft çöküntülərini oradan götürməyə başlayanda gördük ki, minimum bir metr dərinliyində neft çöküntüləri vardır. Onlar hamısı utilizasiya edildi, çıxarıldı və bu gün şəhərsalma nöqteyi-nəzərindən bəlkə də ən uğurlu dünya miqyasında layihələrdən biri Ağ şəhərdir. O çirklənmiş yerlərdən əsər-əlamət qalmayıb və keçən ilin son günlərində "Nizami" parkını da yenidən bərpa etdik və açdıq.*

*Üçüncü çox təhlükəli yer Balaxanı zibilxanası idi. Yəqin ki, sizin yadınızda deyil. Amma o zibilxana daim yanırdı, altdan tüstü çıxırdı və şəhəri belə böyük bir bulud bürümüşdü. Oradan keçəndə artıq bu, hiss olunurdu, maşınla keçəndə hiss olunurdu. Biz oranı da təmizlədik, böyük zibilyandırma zavodu tikildi, poliqon tikildi. Ondan sonra orada Olimpiya Stadionu inşa edildi, böyük bir park salındı. Onun böyüründə Böyükşor gölü, hansı ki, ondan İkinci Dünya müharibəsi zamanı açıq neft rezervuarı kimi istifadə edilirdi və oraya müxtəlif yerlərdən, həm neft laylarındakı sular, həm də kanalizasiya suları yığılırdı. Onun böyük hissəsi təmizləndi. Yəni, belə hallar çox olub. Məsələn, Bakıda yod-brom zavodu, - indi bəlkə də bir çoxları, heç gənclər bilmir, - nə dərəcədə zərərli bir müəssisə idi. Yəni, Bakı şəhəri faktiki olaraq təbii fəlakət üstündə idi və bu, insanların sağlamlığına təsir göstərirdi. Ümumiyyətlə, havanın tərkibində çoxlu zərərli maddələr var idi. Yəni, bunları biz bacarmışıq və bu proses davam edir. Hələ ki, təmizləməyə ehtiyac olan yerlər çoxdur.*

*Sovet vaxtında Sumqayıt şəhəri ekoloji cəhətdən ən çirklənmiş şəhər hesab olunurdu. Doğrudan da o vaxt Sumqayıtdan o tərəfə, şimal istiqamətinə gedən maşında oturanlar bu zəhərli iydən şüşələri bağlayırdılar. İndi Sumqayıt öz sənaye potensialını qoruyub, amma artıq ekoloji cəhətdən çox təmiz şəhərdir. Hətta deyərdim ki, Bakıdan da təmiz şəhərdir. Baxmayaraq ki, Sumqayıtda elə sənaye müəssisələri, texnoparklar və digər obyektlər yaradılıb ki, Sumqayıt bu gün də Cənubi Qafqazın Bakıdan sonra ikinci ən böyük sənaye şəhəridir. Demək istəyirəm ki, bu mümkündür.*

*O ki qaldı, azad edilmiş torpaqlara, əlbəttə ki, orada fəsadlar çox böyükdür və ermənilər şüurlu şəkildə bizim təbiətimizə də qəsd ediblər. İndi Tərtər çayının suyunun kəsilməsi öz yerində, bununla paralel olaraq digər transsərhəd çayları çirkləndiriblər. Zəngəzurda yerləşən mis-molibden kombinatları öz axıntılarını düz Oxçuçaya, Bəsitçaya, Araz çayına tökərək ekoloji fəlakət törədiblər. Əfsuslar olsun ki, onlarla həmrəy olan, əlbir olan bəzi aparıcı Avropa şirkətləri də bu cinayəti törədiblər. Biz indi hüquqi prosedurlara başlamışıq. Qanunsuz istismar edilən bizim qızıl yataqlarımız təkcə sərvətimizin talanması deyil, eyni zamanda, o hasilatın nəticəsində yaranan ziyanlı, zəhərli maddələrin düzgün utilizasiya olunmaması, hasilat üçün istifadə edilən reagentlər, o zəhərlər hamısı bizim təbiətimizə böyük ziyan vurdu. Oxçuçayın o görüntüləri var, sapsarıdır. Kim bunu edib? Ermənilər! Bizim meşə fondumuz məhv edilib. Statistika var. 1988-ci ilin statistikasına görə, azad etdiyimiz ərazilərdə meşə fondu 230 min hektar idi, 230 min hektar. Müharibədən sonra mən tapşırıq verdim, bizim peykimiz "Azersky", - onlar görüntüləri mənə təqdim ediblər. Artıq o görüntülərdən görünür ki, 55 min hektar meşə fondu ermənilər tərəfindən qırılıb, yəni, kəsilib, satılıb. Bu, böyük cinayətdir. İndi bu prosesləri biz artıq sürətləndiririk. Topxana meşəsini, onun böyük hissəsini qırıblar. Bəsitçay Təbii Qoruğu hansı ki, öz əhəmiyyətinə görə Avropada ikincidir. Ona görə biz bu bərpa işlərinə start vermişik. Bizim*

*təbii sərvətlərimizi qanunsuz istismar edən xarici şirkətlərə qarşı hüquqi prosedurlara start vermişik. Onların bir çoxu əslən ermənilərdir. Onlara qarşı artıq vəkillər də tutulub və indi görəcəklər onları nələr gözləyir. Biz onların yaxasını buraxmayacağıq. Əlbəttə, bununla paralel olaraq, çox genişmiqyaslı ekoloji bərpa tədbirləri də görülür və görüləcək. Bilirəm ki, Azərbaycanda bu sahədə də gənclər, o cümlədən könüllülər çox fəaldır. İndi vaxtaşırı ağacəkmə aksiyaları, çimərlikləri o tullantılardan təmizləmə aksiyaları televiziyada da göstərilir. Mən bunları alqışlayıram və əminəm ki, azad edilmiş torpaqlarda da gənclər ekoloji tarazlığı bərpa etmək üçün fəal olacaqlar.*

***2 fevral 2022-ci il,***
***Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş***
***Gənclər Forumunda gənclərin suallarına cavabından***

*"Suvarma işləri həm azad edilmiş torpaqlar üçün, həm bütün ölkə üçün ərzaq təhlükəsizliyini şərtləndirən əsas amillərdən biri olacaq. Bu layihələr elə icra edilməlidir ki, bizim ümumi suvarma təsərrüfatımıza inteqrasiya olunsun. Bax, buna da çox ciddi fikir vermək lazımdır. Çünki azad edilmiş torpaqların relyefi belədir ki, - xüsusilə Kəlbəcər, Laçın, Qubadlı zonasını nəzərdə tuturam, - oradan həm suvarma suyu, həm içməli su öz axarı ilə gəlib Ağdama, Bərdəyə və digər yerlərə çata bilər. Bu, ümumi suvarma sistemimizə inteqrasiya edilməlidir. Eyni zamanda, biz çaylarımızdan içməli su mənbəyi kimi istifadə etməliyik. İşğal dövründə çaylarımız da ekoloji terrora məruz qalmışdır, çaylarımız da işğal altında idi və düşmən bizi çaylarımızdan da məhrum etmişdi. Çünki biz Tərtər çayının suyundan faktiki olaraq istifadə edə bilmirdik. Tərtər çayı isə Azərbaycanın ən böyük çaylarından biridir. Suqovuşan ermənilərin əlində olduğu üçün yayda suyu kəsirdilər, bizə qarşı ekoloji terror törədilmişdi. Qışda isə buraxırdılar ki, o da daşqınlara səbəb olurdu."*

* * * *

*"Avropa Şurası Parlament Assambleyasında bir neçə il bundan əvvəl xüsusi məruzə hazırlandı və qəbul edildi - Ermənistanın Azərbaycana qarşı ekoloji terroru ilə bağlı məruzə. Orada hər şey açıq-aşkar deyilmişdi. Tərtər çayının suyundan bizi məhrum etmişdilər. Halbuki Heydər Əliyev Suqovuşan su anbarını inşa edəndə Bərdə, Ağdam, Goranboy, Yevlax, Ağcabədi və digər rayonların 100 min hektar torpağını suvarması nəzərdə tutulurdu və su gedirdi. İndi biz Suqovuşana qayıtmışıq, indi suyu bərpa etmişik və yeni kanallar da çəkiləcək. Digər çaylar, - qoy, bunu həm Azərbaycan vətəndaşları, həm dünya bilsin, ermənilər bizi nədən məhrum etmişlər, - Həkəri çayı - ən böyük çaylardan biri, istifadə edə bilmirdik. Bazarçay. Buna Bərgüşad çayı da deyilir. Lev çay, Zabux, Tutqun, Turqay, Bəsitçay, Qarqarçay, Quruçay, Kondələnçay, Oxçuçay. Bütün bu çayları ermənilər işğal etmişdilər, vəhşicəsinə istismar edirdilər. Oxçuçay çayının fəlakəti indi dünyanın gözü qabağındadır. Biz bu məsələni qaldırmışıq. Məsələni qaldıranda bizə söz verildi ki, bu fəlakəti törədən şirkət gəlib bunu təmizləyəcək. Amma artıq bundan bir il vaxt keçib, bizə heç bir təklif verilmir. Oxçuçayı zibilləyən, zəhərləyən "Cronimet" şirkətidir. Bu, böyük şirkətdir və bəzi xarici mətbu orqanlarında gedən məlumatlara görə, korrupsiya sxemləri əsasında Serjik Sarkisyanın keçmiş xunta rejiminin nümayəndələri ilə bunların qanunsuz biznes əlaqələri olub və onlar birlikdə orada o mis kombinatını işlədiblər. Ondan sonra Ermənistan hökuməti korrupsiyalaşmış həmin o erməni nümayəndələrindən bu kombinatın payını alıbdır. Ancaq bu fəlakəti törədən "Cronimet" şirkəti buna cavab verməlidir, yoxsa yox? Mən*

*demişəm ki, beynəlxalq məhkəmələrdə məsələ qaldırılmalıdır. İndi mən çox şey demək istəmirəm, biz artıq hüquqi iddia ilə də çıxış edəcəyik, hazırlıq işləri gedir, beynəlxalq mütəxəssislər cəlb olunub. Biz erməniləri törətdikləri vəhşiliklərə görə bütün dünyada ifşa edəcəyik. O cümlədən xarici şirkətləri, hansılar ki, bizim təbii yataqlarımızı istismar ediblər. Qızıl yataqlarımızı, digər yataqlarımızı qanunsuz istismar edən xarici şirkətlər hesab edirlər ki, bizdən yaxa qurtaracaqlar? Yox! Biz onları məhkəməyə gətirəcəyik, onları biabır edəcəyik. Oxçuçay suyunu sarı rəngə boyayan "Cronimet" şirkəti gəlsin o zibilini təmizləsin. Yoxsa hesab edirlər ki, vaxt keçdi və biz hər şeyi unutduq. Biz heç nəyi unutmamışıq və unutmayacağıq."*

**12 aprel 2022-ci il,**
**Bu ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə yekun nitqindən**

*"Bu günə qədər türkiyəli mütəxəssislər bizə minatəmizləmə işlərində kömək edirlər, ancaq bizim daha geniş beynəlxalq əməkdaşlığa ehtiyacımız var. Təəssüflər olsun ki, bu cür dəhşətli davranışa görə Ermənistana heç irad belə tutulmayıb. Bizim hazırda tapdığımız minalar yeni basdırılanlardır və həmin ərazilər onları aşkar etmək üçün çox əlverişsizdir. Bu, bir daha onların davranışının göstəricisidir. Düzgün qeyd etdiniz, biz onlara 10-20 gün arası vaxt verdik ki, noyabrın 10-da imzalanmış razılaşmaya əsasən tərk etməli olduqları ərazilərdən çıxsınlar. Lakin onlar bu müddəti minaların basdırılması, özlərinə məxsus olmadığı, lakin içində yaşadıqları evlərin yandırılması, ağacların kəsilməsi və digər ekoloji fəlakətlərə yol açan əməllərə sərf etdilər.*

*Yəni, bu, onların davranışını göstərir və bu, açığı desək, təkcə hökumətin davranışı deyil. Bu, onlara heç bir pislik etməmiş, oraya yalnız sahib olduqlarını qaytarmağa gələnlərə və doğma yurdlarında yaşamağa* gələnlərə qarşı olan nifrətin səviyyəsidir."

* * * *

*"Nəqliyyat dəhlizlərinə gəlincə, əlbəttə, biz onların qısa müddətdə reallaşdırılmasını istəyirik. Ermənistan, nəhayət, qərar verməlidir ki, onlar bunu necə görmək istəyirlər. Mən artıq bu haqda danışdım, əlavə edim ki, biz həqiqətən də Zəngəzurdan yoxlamasız keçid məsələsinə sadiqik və Ermənistanın bunun bir hissəsi olması üçün biz, hətta elektrik xətləri haqqında düşünə bilərik. Yeri gəlmişkən, İranla imzaladığımız anlaşma memorandumunda biz avtomobil və dəmir yolları ilə yanaşı, elektrik kabellərinin keçidi ilə bağlı məsələləri əks etdirmişik. Çünki bu da elektrik enerjisinin ixracı yollarından biridir. Ümumilikdə Azərbaycanın inteqrasiyası və gələcək inkişafı ilə bağlı - Azərbaycanda biz regionların beşillik inkişafı planları əsasında işləyirik, bu, regionların inkişafı proqramı adlanır. Bu proqramlardan birincisi mənim tərəfimdən birinci dəfə prezident seçiləndən bir neçə ay sonra – 2004-cü ilin fevral ayında qəbul edilib və hər beş ildən bir biz bu planları yenidən nəzərdən keçirir və digər beşillik hədəflər qoyuruq. Bu proqram nəşr olunur, ictimaiyyətə açıq sənəddir və əsasən regionların müraciətləri – insanların istəkləri əsasında formalaşır. Çox işlər görülüb, indi Qarabağ və Zəngəzurun Azərbaycanın digər hissələrinə dərin inteqrasiyası üzərində işləyirik. Buna görə də bu dəmir yolları, hava limanları, avtomobil yolları, elektrik xətləri demək olar ki, yekunlaşmaq üzrədir.*

*Ən vacib məqam müəyyən vaxta ehtiyac olan su paylanması ilə bağlıdır. Çünki biz 30 il ərzində çaylarımızdan məhrum olmuşduq. Ermənistan yaz və yayda, bizim suya ehtiyacımız olanda Tərtər çayının qarşısını bağlayır və yüz minlərlə hektar ərazilərimizdə quraqlıq yaradırdı və sonra qışda onlar çayın qarşısını açır və sel yaradırdılar. Bu, ekoloji terror idi. Yeri gəlmişkən, Avropa Şurası Parlament Assambleyası bir neçə il bundan əvvəl*

*bu məsələ ilə bağlı xüsusi hesabat hazırlamışdı. Səsvermə ilə qəbul edilmiş həmin sənəddə Ermənistanı bu ekoloji terrora görə qınamışdı. Amma Qarabağda çoxlu su resursları var ki, biz onları, həmçinin Azərbaycanın digər hissələrinə yönləndirəcəyik və bu, bizə yalnız bütövlükdə Qarabağın suvarılmasına deyil, bu suyu Azərbaycanın su problemi olan digər ərazilərinə də gətirməyə imkan verəcək. Bu, sürətli və səmərəli inteqrasiya olacaq.*

*Həmçinin bizim orada yeni idarəçilik sistemimiz var. Mənim Qarabağ və Şuşa üzrə xüsusi nümayəndələrim var, siz onlarla görüşdünüz. Digər ərazilər üçün də xüsusi nümayəndələr təyin ediləcək, onların hələlik təyin edilməməsinin səbəbi orada hələ ki, fəal yerləşmə prosesinin aparılmaması ilə əlaqədardır, amma bu da olacaq. Biz, bu yeni idarəçilik modelini sınaqdan keçiririk. Çünki mövcud regional idarəçilik sistemi Sovet İttifaqının çökməsindən sonra yaradılıb və fikirləşirəm ki, bu, o qədər də hərtərəfli düşünülməmişdir. Buna görə də çoxlu suallar var. Çox güman ki, bilirsiniz, çoxlu, bəlkə də 10-dan çox regional rəhbər şəxslər rüşvət, səhv idarəçilik və digər yanlış hərəkətlərə görə həbs olunub. Bu proses ictimai şəkildə baş verib, rüşvət prosesi videoya çəkilib. Təəssüf ki, bu sahə korrupsiya ilə çirklənib. Beləliklə, Qarabağda sınaqdan keçirdiyimiz yeni sistem fərqli olacaq və düşünürəm ki, yekun sınaqlar bitəndən sonra bu sistemi Azərbaycanın digər ərazilərinə də tətbiq etmək və regionlarda dövlət idarəçiliyini təkmilləşdirmək mümkün olacaq. Çünki Bakıda qəbul etdiyimiz qərarların hamısı insanların həyat şəraitinin və infrastrukturun yaxşılaşdırılması, iqtisadi inkişaf məqsədi daşıyır, amma bəzən onlar regionlarda icra edilmir və insanlar bunu görmür.*

*Yaşıl gündəliklə bağlı - mən artıq Qarabağı yaşıl zona elan etmişəm və bu, o deməkdir ki, bu, həyata keçiriləcək. Çünki mən heç vaxt icrasına əmin olmadığım məsələləri bəyan etmirəm. Eyni zamanda, bu yaşıl gündəlik ölkənin digər bütün ərazilərində tətbiq ediləcək.*

*"Ağıllı şəhər" – bizdə heç vaxt "ağıllı şəhər" olmayıb. Birinci "ağıllı şəhər" Ağdamda, "ağıllı kənd" isə Zəngilanda olacaq. Sonra biz onu Azərbaycanın digər ərazilərində də tətbiq edəcəyik. Həqiqətən də çoxlu planlarımız var. Çox işlər var, gündə 24 saat işləyirik, hər kəs həvəslidir – hökumət, xalq, keçmiş məcburi köçkünlər.№*

***29 aprel 2022-ci il,***
***ADA Universitetində "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq"***
***mövzusunda beynəlxalq konfransda müsahibəsindən***

*"Ermənistan işğal dövründə işğal altında olan torpaqların ekologiyasına da böyük zərər vurmuşdur və mən həmin rəqəmləri səsləndirmişdim. Əlli-altmış min hektar meşə ilə örtülü sahə tamamilə məhv edilmişdir. Biz bunu peyk vasitəsilə müşahidə edirdik. Xüsusilə Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonlarında meşələrin kütləvi surətdə qırılması prosesi gedirdi. Yəni, bu, faktiki olaraq vəhşilik və talançılıqdır. Ermənistanın işğal dövründə çirkin əməllərini təsvir etmək üçün, hesab edirəm ki, bu iki ifadə ön planda olmalıdır – vəhşilik və talançılıq. Zəngilanda da bu mənfur işlər görülmüşdür və bunun nəticəsində təbiətə çox böyük ziyan vurulmuşdur.*

*Hər kəs yaxşı bilir ki, Avropada ərazisinə görə ikinci ən böyük çinar meşəsi Zəngilan rayonunda olub - Bəsitçay təbiət qoruğu. O Bəsitçay təbiət qoruğunun böyük hissəsi məhv edilib və mən Zəngilanda olarkən o kəsilmiş ağacların kötüklərini görmüşəm və eyni zamanda, yandırılmış ağacları da görmüşəm. Eyni çirkin əməlləri onlar Kəlbəcər və Laçın rayonlarında müharibədən dərhal sonra etmişdilər. Onlara möhlət verilmişdi o ərazilərdən çıxmaq üçün, iyirmi gün vaxt verilmişdi. O günləri onlar yenə də bəd əməllər üçün istifadə*

*etmişdilər. Onlara məxsus olmayan, azərbaycanlıların tikdirdikləri və onların qanunsuz yaşadıqları evləri məhv etmiş, yandırmış, ağacları kəsmiş, yandırmışlar. Bütün əşyaları ya məhv etmiş, ya da ki, söküb aparmışlar. Bu biabırçı kadrlar xarici kanallar vasitəsilə də görüntüləndi və hər kəs görə bildi ki, onlar hansı əşyaları özləri üçün əziz bilib tələm-tələsik çıxarmağa nail olmuşdular. Amma, eyni zamanda, ağacları kəsib yandırmışdılar.*

*Biz Bəsitçay təbiət qoruğunun bərpasına başladıq. Mən tarixi Zəfərdən sonra ilk dəfə Zəngilanda olanda orada ağaclar əkmişəm. Göstəriş verilib və təbii ki, biz Bəsitçay təbiət qoruğunu bərpa edəcəyik. Amma, buna, əlbəttə ki, çox vaxt lazım olacaq.*

*Eyni zamanda, Ermənistan Zəngilandakı və digər rayonlardakı qızıl və digər qiymətli metallar yataqlarını da vəhşicəsinə istismar etmişdir. Zəngilanda Vejnəli qızıl yatağını vəhşicəsinə istismar etmişdir. Oranı da ekoloji fəlakət zonasına çevirmişdir və qanunsuz olaraq orada çıxarılan qızıl xaricə aparılıb satılmışdır.*

*Biz indi bütün hüquqi prosedurlara start vermişik. Mən bu haqda Azərbaycan ictimaiyyətini məlumatlandırmışdım. Bir cinayət də cavabsız qalmayacaq. Birincisi, biz dəymiş bütün ziyanı hesablayırıq, bütün şəhər və kəndlərimizin pasportlaşdırılması prosesi gedir. Hər bir binanın, yaxud da ki, o binadan qalan dağıntıların video-foto çəkilişi aparılır. Bu, sübutdur və biz beynəlxalq məhkəmələrə də müraciət etmək əzmindəyik, hazırlıq işləri gedir. Həmçinin Vejnəli qızıl yatağının xarici vətəndaşlar tərəfindən, o cümlədən erməni əsilli xarici vətəndaşlar tərəfindən qanunsuz istismar edilməsi onlara baha başa gələcək. Biz o adamların adlarını bilirik. Biz onları dünya qarşısında ifşa edəcəyik və bizə təzminat ödəyəcəklər. Vurulmuş ziyanın təzminatını mütləq ödəyəcəklər.*

*Eyni zamanda, təbii fəlakət zonaları arasında yenə də Zəngilanın ərazisindən keçən Oxçuçay çayının taleyini biz əfsuslar olsun ki, ürək ağrısı ilə dilə gətiririk. Oxçuçay da Ermənistanın ekoloji terroruna məruz qalmışdır. Əfsuslar olsun ki, bir xarici şirkət də bu ekoloji terrorun ermənilərlə birlikdə müəllifi olmuşdur. Oxçuçayın sarı rəngə boyanması artıq mətbuatda dəfələrlə dərc edilib, həm foto, həm videogörüntülər var. Yəni, Ermənistanda istismar edilən mis kombinatının bütün axıntıları Oxçuçaya təmizlənmədən ötürülürdü. Bu, cinayətdir, bu, ekoloji terrordur. Bunu kim edib? Ermənistanın keçmiş rəhbərliyi. Çünki həmin o mis kombinatının səhmdarları Ermənistanın keçmiş rəhbərliyinə yaxın olan və qohumluq əlaqələri olan adamlardır. Biz bilirik ki, bu mis kombinatının işlənilməsi korrupsiya sxemləri əsasında olub. Təəssüf ki, beynəlxalq auditə subyekt olan xarici şirkət də bu korrupsiya əməllərində iştirak edib.*

*Ermənistan rəhbərliyinə gəldikdə, onların hər bir addımı, hər bir hərəkəti biabırçılıq olub. Amma beynəlxalq auditlə işləyən beynəlxalq şirkət bu çirkin əməllərə əl atırsa, burada həmin o şirkətin yerləşdiyi ölkələrin hüquq-mühafizə orqanlarının işi olmalıdır. Biz bir neçə dəfə o şirkətin adını çəkmişik, bu gün də çəkə bilərəm: "Cronimet" şirkəti. Nə üçün bu günə qədər reaksiya verilmir? Nə üçün Almaniyanın hüquq-mühafizə orqanları bu şirkətin əməllərini araşdırmır? Biz axı, rəsmən müraciət etmişik. Həm də həmin "Cronimet" şirkətinə müraciət etmişik: gəlin, təmizləyin bu ekoloji terrorun fəsadlarını. Cavab yoxdur. Hüquq-mühafizə orqanlarından cavab yoxdur. Axı, biz bilirik ki, Avropada ekologiyaya nə qədər böyük diqqət göstərilir. Biz bilirik ki, havanın yarım dərəcə istiləşməsi indi bütün dünya, Avropa üçün böyük problem kimi qəbul edilir. İqlim dəyişikliyi problemi bu gün dünya gündəliyinin diqqətini cəlb edib. Amma burada açıq-aşkar görünür ki, təmiz qaynaqlardan axan çay sarı rəngə boyanır. Yəni, oradan götürülən nümunələr, o cümlədən işğal dövründə götürülən nümunələr bunu göstərir. Birinci olaraq erməni ekoloqları bu məsələni qaldırmışdılar. Onlar qeyd edirdilər ki, burada təbii fəlakət baş verir. Əlbəttə ki, onlar Azərbaycana, necə deyərlər, xoş münasibət göstərən adamlar deyildilər, onlar hesab edirdilər ki, bu torpaqlar Ermənistanın əlində əbədi olacaq. Ona görə məsələ qaldırmışdılar və əvvəlki rəhbərliyi, kriminal xunta rejimini - Serjik Sarkisyanı və onun qohumlarını ittiham etmişdilər. Onların da əlində sübutlar var. Amma bir addım atıldı? Yox.*

*Ona görə bu məsələni də indi bizim mərkəzi icra orqanları qaldırıblar və məşğul olurlar. Əlbəttə ki, siz mənim nümayəndəm kimi bütün bu məsələləri daha dərindən təhlil etməlisiniz və vurulmuş ziyanın ödənilməsi, məhkəmə və hüquq iddialarının qaldırılması ilə bağlı öz töhfənizi verməlisiniz. Əlbəttə, bu, əsas məsələlərdir, bu, ilkin mərhələdə görüləcək işlərdir, o cümlədən minatəmizləmə işləri. İndi bizim müvafiq qurumlarımız bu işlə məşğul olurlar. Əlbəttə ki, mənim yerlərdəki nümayəndələrim də burada fəal iştirak etməlidirlər, öz köməklərini göstərməlidirlər.*

*Qarşıda duran digər vəzifələr, əlbəttə ki, ilk növbədə, keçmiş məcburi köçkünlərin azad edilmiş torpaqlara tezliklə qayıtmaları ilə bağlıdır. Burada da dövlət nə mümkünsə edir, bütün güclər səfərbər olunub. Maliyyə vəsaiti səfərbər edilib. Keçən il və bu il bu məqsədlər üçün hər il üzrə 2,2 milyard manat vəsait nəzərdə tutulub, yəni, toplam 4,4 milyard manat. Bu il bizim iqtisadi inkişafımız daha sürətlidir və ilin birinci rübündə iqtisadiyyat təxminən 7 faiz artıb, gəlirlərimiz də artıb. Ona görə mən hesab edirəm ki, təxirəsalınmaz işlərin görülməsi üçün biz əlavə vəsait ayırmalıyıq. Azad edilmiş torpaqların bərpası üçün əlavə vəsait ayırmalıyıq. Hökumətə bu məsələ ilə bağlı göstəriş verildi. Yəqin ki, yaxın gələcəkdə biz bunu rəsmən təsdiqləyəcəyik ki, daha çox işi bu il görə bilək. Hələ, deməli, ilin 4 ayı keçib, görüləcək işlər çoxdur. Ona görə keçmiş məcburi köçkünlərin qaytarılması üzrə birinci layihə, qeyd etdiyim kimi, yaxın zamanlarda icra olunacaq. Digər layihələrə də mütləq başlamaq lazımdır.*

*Zəngilan şəhərinin Baş planının ilkin versiyası mənə təqdim edilmişdir. Prinsip etibarilə bu, məqbuldur. Amma, əlbəttə ki, göstəriş vermişəm ki, daha geniş diskussiyalar, müzakirələr aparılsın. Siz də təbii olaraq bu işlərə dərhal qoşulun. Zəngilan şəhərinin Baş planı bütün müasir memarlıq normalarını ehtiva edəcək. Həm xarici görünüşü çox gözəl olmalıdır, rahatlıq olmalıdır, həm də bütün ekoloji standartlar burada təmin edilməlidir və tətbiq olunmalıdır. Zəngilan şəhəri və ümumiyyətlə, Zəngilan rayonu təbiət nöqteyi-nəzərindən çox gözəl olduğu üçün yeni yaradılacaq şəhər də bu gözəlliyi özündə təcəssüm etdirməlidir. Ona görə Baş planın qəbul edilməsi, təsdiq olunması və ondan sonra işlərin daha sürətlə getməsi, əlbəttə ki, təmin ediləcəkdir.*

*Zəngilanda kənd təsərrüfatının inkişafı ilə bağlı çox böyük imkanlar var. Mən artıq bəzi fikirlərimi bildirmişəm. Amma rayonun bütün kənd təsərrüfatı potensialı tam dəqiqliyi ilə təhlil edilməlidir və ora qayıdacaq keçmiş məcburi köçkünlər üçün də tövsiyələr verilməlidir. Əlbəttə ki, burada mərkəzi icra orqanları - Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və mənim nümayəndəm kimi siz birgə işləməlisiniz. Zəngilan rayonunun kənd təsərrüfatı potensialının maksimum dərəcədə realizə etmək üçün tövsiyələr verilməlidir - harada hansı iş görülməlidir? Əlbəttə ki, sovet vaxtında orada kənd təsərrüfatı ilə bağlı aparılan işlər təhlil edilməlidir. Ancaq təbii ki, bu, bizim üçün əsas ola bilməz. Çünki o vaxt tam fərqli aqrotexniki imkanlar, tam fərqli texnologiyalar var idi. Biz Zəngilan rayonunda kənd təsərrüfatı sahəsinə ən qabaqcıl texnologiyaları gətirməliyik və bunu mən mərkəzi icra orqanları qarşısında vəzifə kimi qoymuşam – dünyada ən mütərəqqi texnologiya nədirsə, o, bizdə olmalıdır, xüsusilə azad edilmiş ərazilərdə. Çünki 30 ilə yaxın insanlar torpaq həsrəti ilə yaşamışlar, Ermənistan onların ömrünün böyük hissəsini oğurlamışdır. Onlardan minlərlə, on minlərlə insan öz doğma torpağını görməyib, həsrətlə həyatdan gedib. Ona görə oraya qayıdacaq insanlar üçün xüsusi şərait yaradılmalıdır. Kənd təsərrüfatı həm məşğulluq, həm ərzaq təhlükəsizliyi, həm də ixrac deməkdir.*

***4 may 2022-ci il,***
***Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonuna***
***Prezidentin yeni təyin edilmiş xüsusi nümayəndəsi Vahid Hacıyev ilə***
***videoformatda görüşdə çıxışından***

*“Dünən mən Zəngilan şəhərinin Baş planı ilə tanış oldum. Hesab edirəm ki, ən gözəl variantı seçdik. Bu sahədə təcrübəsi olan beynəlxalq şirkət Baş planı təqdim etdi və mən dedim ki, Zəngilan şəhəri park şəhərinə çevrilməlidir. Yəni, Zəngilanın təbiəti o qədər gözəldir ki, biz təbiətə bir zərrə ziyan vurmamalıyıq, əksinə, təbiəti daha da zənginləşdirməliyik, xüsusilə nəzərə alsaq ki, ermənilər Bəsitçay təbii qoruğunu da məhv etmişlər. O məşhur palıd ağaclarını da kəsmişlər, Oxçuçayı da zəhərləmişlər. Vejnəlidə də bizim qızıl yataqlarımızı istismar edərkən heç bir ekoloji normaya riayət etməmişlər. Biz təbiəti qorumalıyıq və Zəngilan şəhərinin artıq dünən Baş planı təsdiq olunandan sonra inşaat işləri başlanacaq.”*

***27 may 2022-ci il,***
***Zəngilan rayonunda “Ağıllı kənd” layihəsinin birinci mərhələsi üzrə***
***açılış zamanı kənd sakinləri ilə görüşdə çıxışından***

*“Biz ətraf mühitin bugünkü vəziyyəti ilə əlaqədar sahilyanı dövlətlərin narahatlığına şərikik. Azərbaycan Xəzər dənizinin ekoloji problemlərinin həlli üçün əməkdaşlığın genişləndirilməsində maraqlıdır. Xəzərin bioloji su ehtiyatlarının qorunub saxlanması və səmərəli istifadəsi üzrə komissiya çərçivəsində Xəzəryanı dövlətlərin uğurlu qarşılıqlı fəaliyyəti davam edir. Bu ilin sonunda Bakıda “Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında” Çərçivə Konvensiyasının tərəflərinin VI konfransının keçirilməsi nəzərdə tutulub. Bu gün məhdud tərkibdə görüşdə biz xüsusi narahatlıq doğuran məsələlər, konkret olaraq Xəzər dənizinin dayazlaşması barədə həmkarlarımızla fikir mübadiləsi apardıq. Biz bunu uzun illər boyu müşahidə edirik və təəssüf ki, dayazlaşma dinamikası narahatlıq doğurur. Buna görə biz fikir mübadiləsi apardıq və yəqin ki, nümayəndə heyətlərimiz belə ekoloji fəlakətin səbəblərinin aşkar edilməsi və Xəzərin bundan sonrakı dayazlaşmasının qarşısını almağa yönəlmiş tədbirlərin müəyyənləşdirilməsi üçün xüsusi ekspert qruplarının yaradılması işini davam etdirəcəklər.”*

***29 iyun 2022-ci il,***
***Aşqabadda Xəzəryanı Dövlətlərin Dövlət Başçılarının***
***VI Zirvə Toplantısında çıxışından***

*“Son illərdə bir çox işlər görülüb. Mən dəfələrlə Göygöl, Lerik və Masallı rayonlarında olarkən, o cümlədən bu məsələ ilə də maraqlanırdım və öz tövsiyələrimi verirdim. Bilirəm ki, bu rayonlarda müasir istirahət zonaları, otel kompleksləri inşa edilib və əlbəttə ki, bu proses daha geniş vüsət almalıdır. Bir neçə il bundan əvvəl, hətta Vətən müharibəsinə qədər biz Göygöl gölünü də ictimaiyyət üçün açdıq. Mən əvvəlki illərdə, müharibədən əvvəlki illərdə də maraqlanırdım ki, nə üçün Göygöl gölümüzə, bizim təbii sərvətimizə insanların yaxınlaşması, yaxud da ki, gəlişi mümkün deyil. Bunu onunla əsaslandırırdılar ki, təmas xəttinə yaxın olan ərazidir. Ondan sonra araşdırmağa başladıq və gördük ki, Göygöl gölü turizm obyekti kimi və bu gölün ekoloji vəziyyəti, ekosistemi qorunmaq şərtilə açıla bilər və bunu da etdik. İndi minlərlə insan hər gün, xüsusilə yaz-yay mövsümlərində Göygöl gölünə gəlir, bu gözəl mənzərəni seyr edir, xüsusilə Vətən müharibəsindən sonra ki, artıq biz düşməni torpaqlarımızdan qovduq. Əlbəttə ki, bu gözəl yerin turizm üçün çox böyük əhəmiyyəti var. Eyni zamanda, nəzərə alsaq ki, bu gün Göygöl rayonundan Kəlbəcər rayonuna yol açılır, tunel çəkilir, bu rayonun Kəlbəcər-Laçın zonasının inkişafı ilə bağlı xüsusi rolu vardır.*

* * * *

*“Azərbaycan ərazi baxımından o qədər də böyük ölkə deyil. Bizim üçün hər qarış torpaq qiymətlidir, dəyərlidir və torpaqdan insanlar istifadə etməlidirlər. Fermerlər, kəndlilər məhsul yetişdirmək üçün istifadə etməlidirlər. Biz ölkəmizin ekoloji sistemini qorumalıyıq və sizə də tövsiyələrimin biri bundan ibarətdir. Görülən və görüləcək bütün işlər elə aparılmalıdır ki, ekologiyaya ziyan dəyməsin. Xüsusilə həm Göygöl, həm Lerik, həm də Masallı çox zəngin təbiəti olan rayonlardır. Ona görə ekoloji tarazlıq, ekoloji normalar qorunmalıdır. Bunu mütləq nəzərə alın.”*

* * * *

*“Sahibkarlıq inkişaf edir, mən bunu dəstəkləyirəm və bunun üçün bir çox addımlar atılır. Ancaq burada da bütün qaydalara riayət edilməlidir, xüsusilə həm inşaatda, həm kənd təsərrüfatı sahəsində, turizm sahəsində. Baxmaq lazımdır, yaradılan obyekt nə dərəcədə bu və ya digər bölgənin memarlıq üslubuna cavab verir, nə dərəcədə müasir normalara cavab verir, bunun inşaat zamanı əmsalı normalara uyğundur, yoxsa yox. Əfsuslar olsun ki, vaxtilə Bakı şəhərində inşa edilmiş bir çox hündürmərtəbəli binalar indi heç bir şəhərsalma normalarına uyğun gəlmir. Nə üçün? Çünki qanunsuz işlər görülüb. Rayon icra başçıları qanunsuz icazələr verib və bunun nəticəsində də faktiki olaraq şəhərsalma prinsiplərinə böyük zərbə dəyib. Ona görə indi bunları düzəltmək çox çətindir. Amma biz indi bu mərhələdə imkan verə bilmərik ki, inşaatda şəhərsalma normaları pozulsun. Məsələn, işğaldan azad edilmiş rayonlarda bütün şəhərsalma, ekoloji normalar 100 faiz gözlənilir, özü də dünyanın ən inkişaf etmiş ölkələrinin standartları əsasında. Bax, siz də öz fəaliyyətinizdə bu məsələlərə ciddi fikir verməlisiniz və nəzarət etməlisiniz.”*

***25 iyul 2022-ci il,***
***Masallı, Lerik və Göygöl rayon icra hakimiyyətinin başçısı vəzifəsinə yeni təyin edilmiş Araz Əhmədov, Əkbər Abbasov və Elvin Paşayev ilə görüşdə çıxışından***

*“Əminəm ki, bundan sonra da Azərbaycan və türkmən xalqları iki qardaş xalq kimi çiyin-çiyinə gedəcək və qarşıda duran bütün vəzifələri uğurla icra edəcəklər. Bizi bir-birimizdən ayıran Xəzər dənizidir. Ancaq Xəzər dənizi də hazırda ölkələri birləşdirən dənizdir. Xəzər dənizinin ekoloji tarazlığının, təbii resurslarının qorunması əlbəttə ki, bütün Xəzəryanı ölkələr üçün əsas vəzifələrdən biridir. Azərbaycan və Türkmənistan öz tərəfindən bu məsələlərə çox böyük töhfə verir.”*

***16 avqust 2022-ci il,***
***Türkmənistanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qurbanməmmet Elyasov ilə görüşdə çıxışından***

*“Biz Azərbaycanda bərpaolunan enerji mənbələrini öz enerji təhlükəsizliyimizin təmin olunması üçün inkişaf etdirmirik. Enerji təhlükəsizliyimizi hələ bir neçə il əvvəl təmin etmişik. Bu gün Azərbaycan nəinki öz enerji tələbatlarını təmin edir, o cümlədən xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini ixrac edir. Bərpaolunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir. Birincisi, bu onunla bağlıdır ki, nəhəng potensial var. İkincisi, biz onun sayəsində ixracımızı şaxələndirəcəyik. Əlbəttə ki, nəticədə iqtisadiyyatımızın yeni ekoloji təmiz sektoru yaranacaq.”*

***16 yanvar 2023-cü il,***
***Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin açılış mərasimində çıxışından***

***"M ü x b i r: Orta Dəhliz bu baxımdan getdikcə çox vacib rol oynayır. Cənab Prezident, «Bir kəmər – bir yol» layihəsində çoxlu yeniliklər olub. Layihə indi daha çox «yaşıl», ekoloji cəhətdən təmiz və daha yüksək keyfiyyətə malikdir. Bu Sizin Çinlə və başqa ölkələrlə əməkdaşlığınızda özünü necə göstərir?***

***İ l h a m   Ə l i y e v:*** *Biz Çinlə əməkdaşlıq portfelimizə «yaşıl enerji» sahəsində əməkdaşlığı əlavə etmək istəyirik. Çünki Azərbaycanda böyük potensial var, Çində isə böyük texnoloji nailiyyətlər mövcuddur. Beləliklə, biz bu səyləri birləşdirməliyik. Bizim prioritetlərə gəldikdə, bərpa olunan enerji mənbələri bizim üçün indi əsas prioritetlərdən birinə çevrilib. Son bir neçə ay ərzində 22 qiqavat bərpa olunan enerji mənbələrini yaratmaq üçün sərmayə təmin edəcək sənədlər imzalamışıq. Söhbət həm dənizdən, həm də qurudan gedir. Bu isə regional iqtisadi konfiqurasiyanı tamamilə dəyişəcək. Çünki Avropada baş verən «yaşıl enerji»yə keçiddən xəbərimiz var. Eyni zamanda, Azərbaycan neft və təbii qazın təchizatçısıdır. İndi biz «yaşıl enerji»ni, o cümlədən dənizdə külək elektrik stansiyalarından hasil olunacaq «yaşıl hidrogen»i təchiz etməyi planlaşdırırıq. Dediyim kimi, biz ilkin sənədləri imzalamışıq. Müqavilələr gələcəkdə imzalanacaq. Lakin bunun təkcə bizim ölkə üçün yox, həm də bütün region üçün çox böyük potensialı vardır. Biz ixrac etmək imkanına malik olmaq üçün həm də ötürücü xətlərə sərmayə yatırmalıyıq, çünki bizim özümüzə bu qədər enerji lazım deyil."*

***18 yanvar 2023-cü il,***<br>***Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibəsindən***

*"Beləliklə, yeni stansiyanın tikilməsi ölkənin enerji dayanıqlılığının təmin olunması, əlavə generasiya güclərinin yaradılması, yüksələn enerji tələbatının qarşılanması, ixrac imkanlarının artırılması, bərpaolunan enerji mənbələrinin enerji sisteminə inteqrasiyasının əks təsirlərinin balanslaşdırılması, ətraf mühitin qorunması, elektrik enerjisinin istehsalında təbii qaza qənaət edilməsi, iqlim dəyişiklikləri ilə bağlı baş verən kataklizmlərin qarşısının alınması və regionda yeni iş yerlərinin açılması baxımından xüsusi əhəmiyyətə malikdir. Həmçinin stansiyanın Mingəçevirdə qurulması bu şəhərin əlavə iş yerlərinin yaradılması ilə sosial-iqtisadi inkişafında da mühüm rol oynayacaq."*

***13 fevral 2023-cü il,***<br>***1280 mvt gücündə ən böyük istilik elektrik***<br>***stansiyasının təməlqoyma mərasimində çıxışından***

*"Azərbaycana səfər etdiyinizə görə təşəkkür edirəm. Əgər siz Qarabağda olmusunuzsa, ola bilsin ki, bizim planlarımızdan xəbərdarsınız. Biz artıq bütün şəhərlər üçün Baş planı təsdiqləmişik. Hazırda 20-dən çox kəndin də Baş planı təsdiqlənib. Bilirsiniz ki, biz, həmçinin müxtəlif ölkələrdən beynəlxalq şirkətləri və yerli şirkətləri dəvət etmişik. Qeyd etdiyim kimi, biz Qarabağda və Şərqi Zəngəzurda ekoloji cəhətdən təmiz, yaşamaq üçün asan olan, nəqliyyata və bütün xidmətlərə yaxşı çıxışı olan yaşayış sahələri və ictimai məkanlar inşa etmək istəyirik.*

*Sizin enerji istehsal edən binalarla bağlı sualınıza gəlincə, Davos Dünya İqtisadi Forumunda iştirakım zamanı mən bir şirkətin sahibi ilə görüşdüm, mənə bu məlumatı verən ölkənin və şirkətin adını çəkmək istəmirəm, bu, mənim üçün çox maraqlı xəbər idi, mən dərhal Qarabağda bütün bərpa işlərinin koordinatoru olan Prezident Administrasiyasına göstəriş verdim və hazırda biz pilot layihə üzərində işə başlamışıq. Pilot layihənin texniki-iqtisadi əsaslandırma işləri ola bilsin ki, bir neçə aya hazır olacaq. Bina özü çox gözəl görünür,*

*çox yaxşı təsir bağışlayır, təkcə panellər deyil, özü enerji istehsal edir. Əgər sizdə bu texnologiya və ya "nou-hau" varsa, yaxud bununla bağlı təklif verə bilərsinizsə, bunu ancaq alqışlamaq olar. Bu, həqiqətən də tamamilə yeni inkişaf, yeni texnologiyadır. Düşünürəm ki, bu, Qarabağ üçün çox uyğun olacaq, xüsusilə nəzərə alsaq o, yaşıl enerji zonasıdır."*

* * * *

*"Suyun paylanması ilə bağlı görülməli çox iş olacaq. Hazırda biz su təchizatı və sanitariya şəraitinin yaxşılaşdırılmasına ehtiyac duyduğumuz bir çox şəhərdə layihələr həyata keçiririk. Hədəfimiz bütün ölkə ərazisində içməli su təchizatının 100 faiz təmin edilməsidir. Sözsüz ki, bunu etmək çətin olacaq, çünki görülməli işin həcmi böyükdür. Lakin bizim, həmçinin su ehtiyatlarının idarə olunması sahəsində bəzi struktur islahatlarının həyata keçirilməsi ilə bağlı planlarımız var. Bunun vaxtı gəlib çatıb. Hazırda hökumət müxtəlif variantları və xüsusilə indi suyun ildən-ilə azaldığını gördüyümüz bir vaxtda, suyun paylaşdırılması ilə bağlı müasir texnologiyaların tətbiqini dəyərləndirir. Qeyd etdiyim kimi, Xəzər dənizi dayazlaşır, həmçinin çaylarımızda, transsərhəd çaylarında və mənbəyini Azərbaycandan götürən çaylarda sululuq azalıb. Əfsuslar olsun ki, biz bunu görürük. Beləliklə, su ehtiyatlarının idarə olunması, su ehtiyatlarından səmərəli istifadə sözsüz ki, qarşıdakı illər üçün prioritetlərdən biri olacaq."*

***13 mart 2023-cü il,***
***Almaniyanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşdə çıxışından***

*"İşğal altında olmuş ərazilərdəki 67 məsciddən 65-i dağıdılıb, qalanlarından isə donuz və inəklər üçün tövlə kimi istifadə edilib ki, bu da bütün dünya müsəlmanlarına qarşı təhqirdir.*

*60 min hektar meşəlik məhv edilmiş, kəsilmiş və daşınmışdır, torpaqlarımız və çaylarımız çirkləndirilmiş və zəhərləndirilmişdir.*

*Ermənistan indi də Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhədində transsərhəd ekoloji fəlakət törətməkdə davam edir. Bununla Ermənistan 1991-ci il Transsərhəd kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasından – Espoo Konvensiyasından irəli gələn öhdəliklərini pozmuş olur. Bu Konvensiyada ölkələrin mənfi transsərhəd təsirlərdən qaçmaq üçün bir-biri ilə məsləhətləşmələr aparmasının vacibliyi açıq şəkildə qeyd edilir."*

***5 iyul 2023-cü il,***
***«Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli» mövzusunda nazirlər görüşündə çıxışından***

*"Bir məsələyə də mən toxunmaq istərdim. Bu da ekoloji tarazlıqla bağlı olan məsələdir. Qarabağ və Şərqi Zəngəzur ekoloji fəlakət zonasına çox yaxın idi. Çünki Ermənistan həm Ermənistandakı müəssisələrin fəaliyyəti nəticəsində, eyni zamanda, o vaxt işğal edilmiş torpaqlarda - Qarabağda və Şərqi Zəngəzurda təbii resurslarımızın vəhşicəsinə istismarı nəticəsində təbiətimizə böyük zərbə vurub. Təkcə onu demək kifayətdir ki, 60 min hektardan çox meşə fondu ermənilər tərəfindən dağıdılıb, talan edilib, çıxarılıb, satılıb, yaxud parket düzəldiblər və satıblar. Yəni, bütün bu peyk görüntüləri bizdə var. İndi transsərhəd*

*təhlükələri mütləq nəzərə alınmalıdır və Azərbaycanın burada sərgilədiyi mövqeyi yenə də beynəlxalq təcrübəyə, beynəlxalq konvensiyalara əsaslanır, o cümlədən Espo Konvensiyasına, bunu hər kəs internetdə açıb baxa bilər. O göstərir ki, transsərhəd çayların çirkləndirilməsi və ölkələrin sərhədlərinə yaxın müəssisələrin, ekoloji təhlükə mənbəyi sayıla biləcək müəssisələrin yaradılması qonşu ölkələrlə mütləq razılaşdırılmalıdır və biz bunu Ermənistandan tələb edirik. Bu gün Azərbaycan ictimaiyyəti, qeyri-hökumət təşkilatları artıq bu məsələ ilə bağlı Ermənistanın rəsmi orqanlarına müraciət ünvanlayıblar və ekologiya sahəsində fəaliyyət göstərən beynəlxalq ekspertlər və qeyri-hökumət təşkilatlarının nümayəndələri də bu müraciətə qoşulublar. Ona görə mən hesab edirəm ki, Azərbaycan Hökuməti də burada kənarda qalmamalıdır. Bizim vətəndaş cəmiyyətimiz bu addımı atır, çox yaxşı, amma baxmaq lazımdır, rəsmi xətlə, yəni, dövlət xətti ilə hansı təşkilatlara hansı müraciətlər ünvanlanmalıdır ki, Ermənistan bu təhlükəli praktikadan əl çəksin. Əgər onlar hansısa müəssisə yaratmaq istəyirlərsə, bizim buna, əlbəttə ki, münasibətimiz ola bilməz. Onların daxili işidir. Amma əgər bu müəssisə bizim sərhədimizin 500 metrliyində yerləşirsə, orada təhlükəli maddələrdən istifadə ediləcəksə və bu maddələr yenə də Araz çayına, Oxçu çayına töküləcəksə, bu, bizim məsələmizdir. Biz buna necə imkan verə bilərik? Əlbəttə ki, biz bu məsələləri qanun çərçivəsində, beynəlxalq konvensiyalar çərçivəsində, diplomatiya çərçivəsində mütləq diqqətdə saxlamalıyıq. Ona görə bu tapşırığı verirəm, siz baxın, hansı hüquqi yollar var ki, Ermənistan bu təhlükəli praktikadan əl çəksin.”*

* * * *

*“Ancaq, eyni zamanda, bu hadisənin təbii səbəbi var idi. O da ondan ibarətdir ki, xarici şirkət buraya pul qazanmağa gəlib. Biz etiraz eləmirik, investisiya qoyubdur, iş yerləri yaradıbdır. Əlbəttə, onlar gəlib burada xeyriyyəçiliklə məşğul olmurlar ki, pul qazanmağa gəliblər. Amma bu o demək deyil ki, bizim təbiətimiz məhv olsun. O demək deyil ki, insanların örüş, otlaq sahələri zəbt edilsin. O demək deyil ki, heç kimdən icazə almadan ikinci tullantı gölü qursun. Kim onlara icazə verib? Görünür, ya Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə sövdələşiblər, ya da ki, onu özbaşına ediblər, ona görə ciddi araşdırılmalıdır. Prokurorluğa, digər aidiyyəti qurumlara bütün göstərişlər verilmişdir. Mən xəbər tutandan sonra zəng edib Baş nazirə dedim ki, mütləq komissiya yarat və göndər hadisə yerinə getsin. Yaxşı, bunu mən deməli idim? Ekologiya naziri özü bilmirdi ki, oraya getməlidir. Mən demişəm, gedin orada camaatla danışın, o torpağın, havanın nümunələrini götürün, beynəlxalq ekspertləri cəlb edin ki, - çünki nazirlik bir halda bu hadisənin səbəbkarı olub, ola bilər ki, işi malalasın, - onlar rəy versinlər, bu yataqların istismarı nə dərəcədə insanların sağlamlığına, təbiətə zərərlidir, ya zərərli deyil? Bu günə qədər cavab yoxdur. Bəli, Nazirlər Kabinetində müşavirə keçirilib, orada açıqlama verilib. O açıqlamanı oxuyan heç nə başa düşə bilməz ki, orada nə deyilib və o açıqlamanın məqsədi nə idi? İşi malalamaq, yaxud da ki, hansısa belə ümumi sözlərlə bu məsələyə diqqət yetirmək. Mən konkret tapşırıq vermişdim, konkret. Hanı ekspertizanın nəticələri? Nə qədər vaxt keçib? Bir aya yaxın vaxt keçib. Heç kim mənə məruzə etmir - Nazirlər Kabineti etmir, Ekologiya və Təbii Sərvətlər Nazirliyi etmir. Hesab edirlər ki, mən bunu unutmuşam. Yox, mən heç nə unutmuram. İndi yenə də deyirəm, polisə daş atan utanmalıdır - öz ailəsi qabağında, uşaqları qabağında, ailə üzvləri qabağında, ictimaiyyət qabağında. Çünki o eybəcər mənzərəni ictimaiyyət görüb. Ona görə mən tapşırıram, bir həftə vaxt verirəm, həm mənə, həm ictimaiyyətə məlumat verilməlidir və məsələ araşdırılmalıdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi nə üçün bu məsələyə diqqət yetirməyib, biganə qalıb və mən tapşırıq verəndən sonra gediblər, gəliblər, nəticə haqqında heç bir məlumat yoxdur.”*

* * * *

*"Bu gün dünyada ekologiyanı korlayan şirkətlər müflisləşir. Onlar öz ölkələrində belə hərəkət edə bilərdilərmi, gedib göl qursunlar, oraya zibil, zəhər töksünlər. Onları orada ayaqlarından asardılar. Elə iş verərdilər ki, ömürlərinin sonuna qədər həbsxanada yatardılar. Amma burada hesab edir ki, nə istəyir onu da edir. Çünki gedib kiməsə görüb, kiməsə salam verib, gedib kiməsə nəsə pay verib. Bunun başqa izahatı ola bilməz. Dözülməz haldır - bütövlükdə həm oradakı təxribatçıların hərəkətləri, həm xarici şirkətin fəaliyyəti, həm də bizim nazirliyimizin fəaliyyəti. Yeganə olaraq burada özünü ləyaqətlə aparan Azərbaycan polisi idi. Onu hər kəs bilməlidir. İndi bəziləri ağızlarını büzürlər. Gedin, açın gözünüzü baxın, Amerika polisi ildə neçə nəfəri öldürür - 1000 nəfəri. Fransa polisi neçə nəfəri öldürür və nəyə görə öldürür? Bu yaxınlarda Fransa polisinin əməllərini bütün dünya gördü. Mən onlara bəraət qazandırmıram, o dözülməzdir. Əfsuslar olsun ki, insanları öldürən o polisin mütləq əksəriyyəti məsuliyyətdən yayınır. Bir müddətdən sonra onları ya ümumiyyətlə məhkəmədə buraxırlar, ya da ki, şərti iş verirlər. Bizim polis gecə-gündüz soyuqda, istidə, dağda asayişi qoruyur. Bizim Daxili Qoşunlarımız Qarabağda müharibə zamanı şəhid verib. İndi kimsə gəlsin, polisə ləkə vursun. Mən buna imkan verməyəcəyəm və hər kəs bunu bilsin - təxribatçılar, o təxribatlara uyanlar və bütün ictimaiyyət."*

* * * *

*"Burada işləyən həm xarici şirkətlər, həm yerli şirkətlər Azərbaycan qanunlarına hörmət etməlidirlər.*

*Hörmət etməyəcəklərsə, onların fəaliyyəti burada mümkünsüz olacaq. Baxmayaraq ki, pay bölgüsü haqqında saziş əsasında xarici investor Gədəbəydəki qızıl yataqlarını istismar edir, baxmayaraq ki, uzun illər burada çalışır, Azərbaycan qanunlarına, ekoloji tarazlığa hörmət edilməlidir. Onu da bildirməliyəm ki, bizim dövlət şirkətimiz «AzerGold» da qızıl yataqları istismar edir. Amma mənə verilən məlumata görə, o sahədə bütün ekoloji normalara riayət edilir.*

*O cümlədən yerli icmalarla təmaslar qurulub, müxtəlif humanitar aksiyalar keçirilir, insanlar kütləvi surətdə işə cəlb olunublar. Bax, bu yanaşma Azərbaycan şirkəti tərəfindən göstərilən yanaşmadır.*

*O yanaşma isə xarici şirkət tərəfindən göstərilən yanaşmadır. Bu dözülməzdir. Xarici şirkətin nümayəndələri də dəvət edilməlidirlər. Əgər bu günə qədər dəvət edilməyiblərsə, Nazirlər Kabinetinə onlar izahat verməlidirlər. Yenə də deyirəm, bir həftə ərzində mənə və ictimaiyyətə məlumat verilməlidir. Orada təbiətə, insanların sağlamlığına zərrə qədər təhlükə varsa, o fəaliyyət dayandırılmalıdır. Vəssalam!"*

***11 iyul 2023-cü il,***
***Bu ilin altı ayının sosial-iqtisadi yekunlarına***
***həsr olunmuş müşavirədə çıxışından***

*"Azərbaycanın İqtisadi Əməkdaşlıq Təşkilatına uğurlu sədrliyi münasibətilə Prezident İlham Əliyevi təbrik edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev "Yaşıl keçid və qarşılıqlı əlaqələr" ilində ölkəmizin sədrliyi çərçivəsində həyata keçirilən tədbirlərin və təşəbbüslərin tərəfdaşlığımızın genişlənməsinə böyük töhfə verdiyini vurğulayaraq dedi:*

*"Bakıda Təmiz Enerji Mərkəzinin və Regional Elektrik Bazarının təşkili istiqamətində əməli tədbirlər həyata keçirilir, həmçinin ekologiya sahəsində də yüksək səviyyəli dialoq platforması yaradılıb. Turizm sektorunda əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə ilk dəfə olaraq tur-operatorlar şəbəkəsi formalaşdırılıb və Təhlükəsiz Turizmin İnkişafı Proqramı təsdiq edilib".*

***9 noyabr 2023-cü il,***
***Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində***
***İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 16-cı Zirvə toplantısında çıxışından***

*"Azərbaycan COP29-a ev sahibliyi etməyə hazırdır. Məruzə edə biləcəyimiz bir çox məsələlər var. Sovet İttifaqının süqutu ilə Azərbaycanda neft-qaz infrastrukturu tamamilə dağıldı, neft hasilatında kəskin azalma oldu, Bakıətrafı ərazilərdə sanki ekoloji fəlakət baş vermişdi. İndi isə Olimpiya Stadionuna, Su İdmanı Sarayına baxanda onların yerləşdiyi ərazilərdə vəziyyətin əvvəl necə olduğunu təsəvvür etmək çox çətindir. O ərazilərin hamısını neft gölləri basmışdı. Onları təmizləmək üçün çoxlu vəsait xərcləməli olduq və nümayiş etdiririk ki, biz yalnız istehsal etmirik, həm də ərazini təmizləyirik. Qarşıda görüləsi hələ çox işimiz var. Amma bu, məsuliyyətli olmağın yaxşı bir göstəricisidir.*

*Eyni zamanda, bizim ətraf mühitə məsuliyyətli yanaşmamıza dəlalət edən amillər arasında 2,6 trilyon kubmetr həcmində təbii qaz yataqlarının olmasını, mövcud boru kəmərləri şəbəkəsi və neft yataqları sayəsində enerji təhlükəsizliyimizi tam təmin etdiyimizə baxmayaraq, bərpaolunan enerji mənbələrinə sərmayə qoymağımızı da söyləyə bilərəm. Artıq qeyd etdiyim kimi, bütün bunlar çox böyük praktiki təsirə malik olacaqdır. Əgər biz elektrik enerjisi istehsalı üçün təbii qaz istehlakını yalnız bərpaolunan enerji resursları hesabına 50 faiz azaltsaq, daha 2,5-3 milyard kubmetr qazı bu saat ehtiyacı olan Avropaya göndərə bilərik. Bu, hər iki tərəf üçün faydalı bir vəziyyətdir. Növbəti COP konfransı gələn il keçirilməlidir. Əgər bu son maneə də aradan qaldırılsa, ADA Universiteti məxsusi olaraq bu məsələyə həsr olunmuş yaxşı bir konfrans keçirəcəkdir."*

***6 dekabr 2023-cü il,***
***ADA Universitetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin birgə təşkilatçılığı ilə "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda çıxışından***

*"Digər vacib vəzifələrdən biri bərpaolunan enerji ilə bağlıdır. Burada da biz ön sıralardayıq, artıq işlərə start verildi. Bizim planlarımıza görə 2030-cu ilin sonuna qədər Azərbaycanda 5 min meqavata yaxın bərpaolunan enerji növləri, yeni enerji növləri yaradılmalıdır, əsasən günəş, külək və hidro – su elektrik stansiyaları. Dediyim rəqəm tam realdır, bu, artıq imzalanmış kontraktlar əsasında olacaqdır. Niyyət protokolları isə daha böyük rəqəm haqqında bəhs edir, təqribən 10 min meqavat. Beləliklə, biz böyük həcmdə təbii qazımızı ixrac edə biləcəyik, ona qənaət olunacaq. Elektrik enerjisinin böyük hissəsi bərpaolunan enerji hesabına istehsal ediləcək. Biz iqlim dəyişikliyi məsələlərinə də öz töhfəmizi vermiş olacağıq, xüsusilə nəzərə alsaq ki, Azərbaycan bu il COP29-a - dünya miqyasında ən böyük beynəlxalq konfransa ev sahibliyi edəcəkdir. Ona görə bərpaolunan*

*enerji növləri ilə bağlı bizim hədəflərimiz aydındır. Onu da bildirməliyəm ki, bütün bu layihələr xarici investorlar tərəfindən icra edilir və ediləcək. Əgər belə demək mümkündürsə, biz indi xarici investorların rəqabət prosesini də görürük. Çünki o qədər çox ölkə Azərbaycanda bu sahəyə vəsait qoymaq istəyir ki, bizim bu qədər imkanımız hələ ki, yoxdur. Halbuki Dünya Bankının qolu olan Beynəlxalq Maliyyə Korporasiyası təkcə dənizdə külək potensialımızı 157 min meqavat səviyyəsində təsbit edib.”*

***14 fevral 2024-cü il,***
***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin***
***andiçmə mərasimində nitqindən***

# Azərbaycan Prezidenti İlham Əliyevin ekologiyaya dair rəsmi dövlət tədbirlərində iştirakı (nitqlər, çıxışlar, müsahibələr, görüşlər, qəbullar, müraciətlər)

**ŞİRVAN MİLLİ PARKININ AÇILIŞINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ ÇIXIŞ**

*(1 oktyabr 2003-cü il)*

*Azərbaycan prezidenti Heydər Əliyevin 2003-cü il 5 iyul tarixli sərəncamı ilə Bakı şəhərinin Qaradağ rayonunun, habelə Salyan və Neftçala rayonlarının ərazilərində 54373,5 hektar sahədə Şirvan Milli Parkı yaradılmışdır. Parkın yaradılmasında əsas məqsəd yarımsəhra landşaftının başlıca komponentlərinin, Azərbaycan Respublikasının "Qırmızı kitab"ına düşmüş ceyranların və bu ərazi üçün səciyyəvi olan fauna növlərinin qorunub saxlanılması, ekoloji monitorinqin həyata keçirilməsi, əhalinin ekoloji maarifləndirilməsi, turizm və istirahət üçün şərait yaradılmasıdır.*

*Milli Parkın ərazisində relyefin, bitki və torpaq örtüyünün müxtəlifliyi burada bir sıra təbii landşaft sahələrini ayırmağa imkan verir. Ərazinin əsas hissəsini yovşanlı, şoranotlu, yarımsəhra təpəliklər və düzənlik təşkil edir. Qədim sahil tirələri, külək vasitəsilə yaranan əsas relyef forması olan təpəciklər isə ceyranların sığınacağı və mühafizəsi üçün çox sərfəlidir. Şirvan Milli Parkının herpetofaunasını 17 növ sürünən heyvanlar təşkil edir.*

*Təsadüfi deyildir ki, Azərbaycanda və dünya miqyasında nəsli kəsilmək təhlükəsi ilə üzləşən quşlardan Milli Parkın ərazisində 34 növə rast gəlinir. Onlardan 14-ü yalnız Azərbaycanın "Qırmızı kitab"ına, 10-u Beynəlxalq Təbiəti Mühafizə Cəmiyyətinin siyahısına daxil edilmişdir. Şirvan Milli Parkında məməli heyvanların respublikamızda yayılmış bütün növlərinə də rast gəlinir.*

Hörmətli xanımlar və cənablar! Əziz dostlar!

Mən sizin hamınızı Şirvan Milli Parkının açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu, Azərbaycanın müasir tarixində çox əlamətdar bir hadisədir və bir daha göstərir ki, ölkəmizdə təbiətin, ətraf mühitin qorunmasına ən yüksək səviyyədə böyük diqqət yetirilir.

Bu park möhtərəm cənab Prezidentin sərəncamı əsasında təşkil olunmuşdur. Eyni zamanda, Ağgöl və Ordubad milli parklarının yaradılması da cənab Prezidentin həmin sərəncamı ilə həyata keçirilmişdir.

Azərbaycanda təbiətin qorunması bizim gələcəyimizlə bağlı məsələdir. Azərbaycanın çox gözəl təbiəti, iqlimi vardır. Biz hamımız bu təbiəti qorumalıyıq. Son illər ərzində ölkəmiz bütün sahələrdə böyük uğurlar əldə etmişdir. Azərbaycan hərtərəfli inkişaf edir, beynəlxalq aləmdə özünə layiq yer tutmuşdur.

Bu yaxınlarda Amerika Birləşmiş Ştatlarında Birləşmiş Millətlər Təşkilatının toplantısında iştirak edərkən bir daha əmin oldum ki, Azərbaycana böyük hörmət, rəğbət vardır. Ölkəmiz regionda mühüm mövqelərə sahib olmuşdur. Bu, Heydər Əliyev diplomatiyasının təntənəsidir.

Eyni zamanda, islahatların həyata keçirilməsi nəticəsində ölkəmiz iqtisadi cəhətdən güclənmişdir. Azərbaycanda çox güclü iqtisadi potensial yaranmışdır. Ümumi daxili məhsulun artımı, inflyasiyanın səviyyəsi, digər iqtisadi göstəricilər bizi qabaqcıl ölkələr sırasına daxil etmişdir. Bu da möhtərəm cənab Prezidentin iqtisadi sahədə apardığı islahatların və siyasətin nəticəsidir.

Neft strategiyası həyata keçirilir. Bu strategiyanın nəticəsində artıq minlərlə iş yerləri açılmışdır. Azərbaycanda Neft Fondu yaradılmışdır ki, bu da öz növbəsində ölkəmizin inkişafına güclü təkan verir. Burada toplanmış vəsaitin hesabına indi sosial proqramlar həyata keçirilir, qaçqınlar üçün yeni evlər, qəsəbələr tikilir, əməkhaqlarının artırılması üçün

imkanlar yaranır. Bir sözlə, Azərbaycan son illər ərzində çox böyük və uğurlu yol keçmişdir. Deyə bilərəm ki, digər keçmiş sovet respublikaları ilə müqayisədə biz çox irəlidə gedirik və qabaqcıl yerləri tuturuq.

Çox sevindirici haldır ki, bütün bu uğurlarla, iqtisadiyyatda əldə olunmuş nailiyyətlərlə, beynəlxalq aləmdə qazanılmış qələbələrlə yanaşı, bizdə təbiətə də diqqət yetirilir və onun qorunması üçün imkanlar tapılır. Mən bu münasibətlə Ekologiya və Təbii Sərvətlər Nazirliyini təbrik etmək istəyirəm. Onlar öz daxili imkanları hesabına Şirvan Milli Parkının təşkil olunmasında böyük rol oynamışlar. Biz istəyirik ki, bu cür parkların sayı çoxalsın. Bilirəm ki, bu, nazirliyin proqramında vardır. Hesab edirəm ki, beynəlxalq təşkilatların köməyi ilə və daxili imkanlar hesabına, eyni zamanda, Azərbaycan hökumətinin səyi nəticəsində belə parkların sayı çoxalacaqdır. Bu parkların açılması və fəaliyyət göstərməsi artıq öz ilkin nəticələrini verməkdədir. Burada mənə məlumat verdilər ki, parkda ceyranların sayı artmışdır, onlar 2 min baş artaraq 8 minə çatmışdır.

Burada Azərbaycan faunasının "Qırmızı kitab"a düşmüş digər növləri də qorunub saxlanılır. Bu bizim üçün çox vacibdir. Ümumiyyətlə, Azərbaycan hökuməti gələcəkdə ekologiya məsələlərinə daha böyük diqqət göstərəcəkdir. Təəssüflər olsun ki, Sovet İttifaqı dövründə, ümumiyyətlə, ekologiya termini mövcud deyildi, bu barədə heç kim düşünmürdü. O cümlədən, neft sektorunda, neft hasilatı sahəsində də buna əhəmiyyət verilmirdi. İndi isə neft sektorunda bütün ekoloji tədbirlər görülür və deyə bilərəm ki, burada aparılan işlər ən yüksək dünya standartlarına uyğun şəkildə təşkil olunmuşdur. Mən bunu təsadüfi demirəm. Çünki bilirəm ki, bu ərazidə xarici neft şirkətləri, "Salyan Oyl" neft şirkəti fəaliyyət göstərir. Mən əminəm ki, onlar bütün işlərini, o cümlədən ətraf mühitin qorunmasını da dünya standartları səviyyəsində saxlayacaqlar. Başqa cür ola da bilməz. Azərbaycan bizim Vətənimizdir, doğma torpağımızdır və biz bu torpağı qorumalıyıq.

Bir daha sizin hamınızı bu gözəl Şirvan Milli Parkının açılışı münasibətilə təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.
1-ci kitab: avqust 2003 - oktyabr 2003. - Bakı: Azərnəşr, 2008. – S. 199-201.**

## XILLI “NƏRƏ” BALIQARTIRMA ZAVODUNUN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*(1 oktyabr 2003-cü il)*

Hörmətli xanımlar və cənablar!

Əziz neftçalalılar!

Bu gün Azərbaycanın müasir tarixində çox əlamətdar bir gündür. Azərbaycanın Neftçala rayonunun ərazisində yeni, dünya standartlarına cavab verən "Nərə" balıqartırma zavodu tikilib və istifadəyə verilir. Mən bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm.

Bu gün artıq ikinci dəfədir ki, bilavasitə ekoloji problemlərlə bağlı olan mərasimdə iştirak edirəm. Bu gün səhər Bakının Qaradağ, habelə Salyan və Neftçala rayonlarının inzibati ərazilərində yerləşən Şirvan Milli Parkının açılışında iştirak etmişdim və indi də burada sizinlə birlikdəyəm. Deyə bilərəm ki, bunların hər ikisi Azərbaycan Respublikasının prezidenti hörmətli Heydər Əliyevin sərəncamları əsasında, onun təşəbbüsü ilə yaradılmışdır. Bu, bir daha göstərir ki, Azərbaycanın dövlət başçısı, bütün başqa məsələlərlə yanaşı, ekologiyaya, ətraf mühitin qorunmasına böyük diqqət göstərir. Bu, həqiqətən də belədir. Biz bu məsələdə bundan sonra da diqqətli olacağıq. Çünki bu, Azərbaycanın gələcəyi məsələsidir.

Azərbaycan iqtisadi cəhətdən sürətlə inkişaf edir. Ölkəmiz iqtisadi islahatların aparılmasında qabaqcıl yerlərdən birini tutur. Bu bizim hamımızı çox sevindirir. Bu işlər ölkəmiz üçün gözəl potensial və perspektivlər yaradır. Amma bununla yanaşı, biz daim diqqət mərkəzində saxlamalıyıq ki, Azərbaycanın gözəl təbiəti qorunsun. Bu istiqamətdə bu gün iki obyektin açılışı bir daha göstərir ki, dövlət başçısı bu işlərə də öz diqqətini əsirgəmir.

Bu zavod ən müasir avadanlıqla təchiz olunub, ən yüksək dünya standartlarına uyğun şəkildə tikilmişdir. Bu çox sevindirici haldır. Qeyd etməliyəm ki, son illər ərzində Azərbaycanda yaradılan, tikilən binaların, müəssisələrin, idman qurğularının, demək olar, tam əksəriyyəti dünya standartlarına cavab verir.

Bu bizi çox sevindirir. Eyni zamanda, sevindirici hal həm də odur ki, bu zavod, əsasən, yerli inşaatçılar tərəfindən tikilmişdir. On il bundan əvvəl Azərbaycanda hər bir tikili, hər bir kiçik bina xaricdən gələn mütəxəssislər tərəfindən tikilirdi. Yerli şirkətlərin təcrübəsi yox idi. Amma bu illər ərzində təcrübə də toplanmışdır və biz görürük ki, yerli inşaatçılar bütün binaları, zavodları, fabrikləri ən yüksək səviyyədə tikə bilirlər. Bu çox sevindirici haldır və biz gələcəkdə buna daha böyük əhəmiyyət verməliyik, yerli inşaatçıları, istehsalçıları dəstəkləməliyik.

Biz Azərbaycanda istehsalı artırmalıyıq, çalışmalıyıq ki, idxal azalsın, daxili istehsal artsın. Bu istiqamətdə işlər aparılır. Təxminən 20 gün əvvəl Xaçmaz rayonunda böyük emal müəssisəsi tikilib istifadəyə verilmişdir. Bu gün də Neftçala rayonunda balıqartırma zavodu istifadəyə verilir. Əminəm ki, gələcəkdə də Azərbaycanın hər bir bölgəsində yeni infrastruktur, yeni müəssisələr, fabriklər tikiləcəkdir. Bu da öz növbəsində, yeni iş yerlərinin açılmasına imkan verəcəkdir. Azərbaycan hökumətinin qarşısında duran ən önəmli problemlərdən biri də məhz yeni iş yerlərinin açılmasıdır.

Bu gün burada qeyd olundu ki, zavodda yüzə yaxın adam işləyəcəkdir. Yəni, artıq burada yüz iş yeri açılmışdır. Hökumətin planlarına növbəti 5 il ərzində 600 min yeni iş yerinin açılması daxildir. Beləliklə, Azərbaycanda işsizlik, demək olar ki, tamamilə ləğv olunacaqdır. Bu çox sevindirici haldır və hökumət bu istiqamətdə işləyir və bundan sonra da işləyəcəkdir.

Eyni zamanda qeyd olundu ki, bu zavod Xəzəryanı ölkələrdə nadir bir müəssisədir. Bu sahədə Azərbaycan birincilik əldə etmişdir. Bu bizi çox sevindirir. Çünki Xəzər dənizinin müxtəlif sərvətləri vardır. Onun bioresursları, Xəzərdəki neft-qaz yataqları da bu sərvətlərdəndir. Qürur hissi ilə deyə bilərəm ki, Heydər Əliyevin neft strategiyasının həyata

keçirilməsi nəticəsində Azərbaycan öz neft-qaz yataqlarının işlənilməsində və enerji daşıyıcılarının dünya bazarlarına çatdırılmasında birinciliyi qazanmışdır və onu əldən verməyəcəkdir. Məhz Azərbaycanın neft strategiyası sayəsində Xəzər dənizində beynəlxalq konsorsiumlar yaradılmışdır və bu xarici şirkətlər Azərbaycanın iqtisadiyyatına artıq bir neçə milyard dollar investisiya qoymuşlar.

Bu da, öz növbəsində, ona gətirib çıxarmışdır ki, son illər ərzində neft sektorunda on mindən artıq yeni iş yerləri açılmışdır. Bizim məqsədimiz ondan ibarətdir ki, bütün sahələrdə, xüsusilə, qeyri-neft sektorunda buna oxşar meyl müşahidə olunsun. Bu zavodun açılışı da onu göstərir ki, belə meyl vardır və bu siyasət gələcəkdə də davam etdiriləcəkdir.

Azərbaycan Xəzər dənizinin statusu məsələsində dəfələrlə öz mövqeyini bəyan etmişdir. Bu mövqe ədalətlidir və biz çox şadıq ki, son illər ərzində qonşularımızla – Rusiya və Qazaxıstan ilə Xəzər dənizinin dibinin bölünməsi haqqında imzaladığımız sənədlərdə məhz Azərbaycanın mövqeyi öz əksini tapmışdır. Bizim başqa ölkələrin sektorlarında gözümüz yoxdur. Ancaq öz sektorumuzda da işləyəcəyik və işlərimizi lazım bildiyimiz kimi quracağıq. Bu işdə heç kim bizə mane ola bilməz. Xəzər dənizinin sektorlara bölünməsi məsələsində də böyük irəliləyiş müşahidə olunur.

Azərbaycan öz neft ehtiyatlarını artıq hasil edir və iki neft kəməri vasitəsilə dünya bazarlarına çıxarır. Bildiyiniz kimi, hazırda Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft kəməri də inşa edilir və inşallah, 2005-ci ilin sonlarında o da istismara veriləcəkdir. Bundan sonra Azərbaycanın xəzinəsinə çox böyük həcmdə valyuta axını gələcəkdir. Bu da, öz növbəsində, qarşımızda duran planları həyata keçirməyə, yoxsulluğu azaltmağa, iş yerləri açmağa, yeni səhiyyə ocaqları, təhsil müəssisələri, yeni infrastruktur yaratmağa imkan verəcəkdir. İmkanlarımız çoxdur. Bu istiqamətdə hökumət xüsusi bir proqram – Azərbaycanın iqtisadi inkişaf proqramını hazırlayır və burada bütün bu məsələlər öz əksini tapacaqdır.

Əlbəttə, bu məsələlərin həlli bizim valyuta ehtiyatlarımızın bu proqramın həyata keçirilməsinə verdiyi imkandan asılı olacaqdır. Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində artıq valyuta ehtiyatları yaranır. Bu məqsədlə Neft Fondu yaradılmışdır və orada 1 milyard 400 milyon dollar vəsait toplanmışdır. Bu vəsait Azərbaycanın gələcək nəsilləri üçün istifadə olunacaq, eyni zamanda, ölkəmizin qarşısında duran mühüm sosial-iqtisadi problemlərin həllində də öz rolunu oynayacaqdır.

Açılışına toplaşdığımız zavod həm də Dünya Bankının krediti ilə yaradılmışdır. Bu bizi çox sevindirir. Azərbaycan beynəlxalq maliyyə qurumları ilə çox sıx və uğurlu əməkdaşlıq edir. Əlamətdar haldır ki, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, dünyanın digər aparıcı maliyyə qurumları Azərbaycanda həyata keçirilən iqtisadi siyasəti çox yüksək qiymətləndirir və bəyənirlər. Təbii ki, bu belə də olmalıdır. Çünki ölkəmizin iqtisadiyyatı hər il təxminən 10 faiz artır, inflyasiyanın səviyyəsi 2 faizdən yuxarı deyildir. Digər iqtisadi göstəricilər də deməyə əsas verir ki, Azərbaycan inamla irəliləyir.

Amma 1993-cü ili yada salaq. Həmin il, o vaxtkı iqtidarın dövründə inflyasiya min faiz təşkil edirdi. Yəni, pulun dəyəri tamamilə itirdi. Azərbaycan, demək olar ki, xaos vəziyyətində, böhran içərisində idi. Xəzinə boşalmışdı, burada qalan vəsaiti isə həmin iqtidar oğurlayıb xaricə aparmışdı. İndi isə Azərbaycanın sərvətləri, o cümlədən valyuta ehtiyatları çox etibarlı şəkildə qorunub saxlanılır. Bu məqsədlə Neft Fondu yaradılıb və o, çox şəffaf qurumdur. Onun fəaliyyəti, orada yığılan vəsait haqqında mütəmadi qaydada əhaliyə məlumat verilir. Bu şəffaf qurum Azərbaycanın gələcəyində və perspektivlərində çox mühüm rol oynayacaqdır.

Bütün bu sadaladığım amillər deməyə imkan verir ki, Azərbaycan yaxın gələcəkdə çox böyük uğurlar əldə edəcək, iqtisadi cəhətdən güclənəcəkdir. İqtisadiyyatımız daha da inkişaf edəcəkdir. Artıq biz bu inkişafı görürük. Xüsusilə aqrar sektorda. Azərbaycan MDB

məkanında yeganə ölkədir ki, torpaq kəndlilərə verilmişdir. Biz artıq bunun nəticələrini görürük. Eyni zamanda, özəlləşdirmə prosesi nəticəsində minlərlə, on minlərlə sahibkarlar təbəqəsi yaranmışdır. Biz çalışmalıyıq ki, ölkəmizdə güclü orta təbəqə yaransın, Azərbaycanın bütün bölgələri hərtərəfli inkişaf etsin. Bu məqsədlə biz bundan sonra da işimizi elə quracağıq ki, hər bir bölgədə, Azərbaycanın hər bir rayonunda yeni iş yerləri açılsın, yeni zavodlar, fabriklər istifadəyə verilsin ki, insanlar işlə təmin olunsunlar.

Biz bütün bunları edəcəyik. Əlbəttə, ilk növbədə biz istəyirik ki, Azərbaycan dünyada daha möhkəm şəkildə özünə layiq yer tutsun. İndi bu, baş verir. Mənim son görüşlərim, xaricdə apardığım danışıqlar bir daha onu göstərir ki, ölkəmiz dünyada öz mövqelərini möhkəmləndirmişdir. İndi Azərbaycanla hesablaşır, ona hörmət edirlər. Ölkəmizin regiondakı mövqeyi möhkəmlənmişdir. Azərbaycansız regionda heç bir iqtisadi layihə həyata keçirilə bilməz.

Halbuki Ermənistan öz işğalçı siyasəti nəticəsində bütün regional layihələrdən məhrum olubdur. Biz onları bu layihələrdən təcrid etmişik. Hesab edirəm ki, Azərbaycanla Ermənistan arasında olan iqtisadi uçurum daha da genişlənəcəkdir. Azərbaycan möhkəm və zəngin ölkəyə çevriləcəkdir. Ermənistanda isə bu perspektivlər yoxdur. Əlbəttə ki, bu amil danışıqlar prosesində də mühüm rol oynayacaqdır. Azərbaycanın ordusu güclənir. Dövlətimizin başçısı cənab Prezidentin göstərişləri əsasında ordu quruculuğunda da böyük işlər görülmüşdür. Artıq bizim ordumuz qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir. Amma biz istəyirik ki, müharibə olmasın, problemi sülh yolu ilə həll edək. Eyni zamanda, ordumuz güclü olmalıdır və bu istiqamətdə işlər aparılır.

Yenidən iqtisadiyyata qayıdaq, çünki hər şey iqtisadi zəmin üzərində qurulur. İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Bunu cənab Prezident bir neçə il əvvəl demişdir. Bu ifadə bu gün də aktualdır, sabah da aktual olacaqdır. Ona görə də, ilk növbədə, iqtisadi inkişafa diqqət yetirilməlidir və yetirilir. Əlbəttə, bundan sonra maaşların və gəlirlərin daha da artırılmasına imkan yaranacaqdır. Deyə bilərəm ki, cənab Prezidentin son sərəncamları nəticəsində 2 milyon insan bunu hiss etmişdir – maaşlar 50 faiz qaldırılmış, pensiyalar artırılmışdır. Bu proses davam edəcəkdir. İmkan yarandıqca, biz bunu davam etdirəcəyik. Çünki bütün müsbət nəticələrə baxmayaraq, biz çox gözəl bilirik ki, problemlər də çoxdur və xalqın müəyyən təbəqəsi çətinlik çəkir. Yoxsulluğun azaldılması istiqamətində biz yenə də beynəlxalq maliyyə qurumları, o cümlədən Dünya Bankı ilə sıx əməkdaşlıq edirik və çalışırıq ki, bu məsələ də aradan qalxsın. Əminəm ki, bu, belə də olacaqdır.

Azərbaycanda bu zavodun tikilib istifadəyə verilməsi bir də ona görə önəmlidir ki, iqtisadiyyatımızın təkcə neft və qaz üzərində qurulmadığını bir daha göstərir. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, qeyri-neft sektoru inkişaf etdirilsin. Neft sektorunda hər şey yerindədir. 9 il ərzində Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycan böyük uğurlar əldə etmişdir. Azərbaycan nefti dünya bazarlarına çıxarılmışdır və ölkəmiz bundan böyük gəlirlər əldə edir. Biz qeyri-neft sektoruna da eyni meyarlarla yanaşmalıyıq. Orada da böyük dönüş gözlənilir və əminəm ki, bu, yaxın gələcəkdə baş verəcəkdir.

Beləliklə, Azərbaycan hərtərəfli inkişaf edəcəkdir. Ölkəmizin iqtisadiyyatı, bölgələri hərtərəfli inkişaf edəcəkdir. Biz bunu istəyirik və əminəm ki, buna nail olacağıq.

Əziz dostlar!

Mən bir daha sizin hamınızı bu gözəl müəssisənin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Sizə uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**1-ci kitab: avqust 2003 - oktyabr 2003. - Bakı: Azərnəşr, 2008. – S. 202-207.**

## VAYXIR SU ANBARI İLƏ TANIŞLIQ
*(13 may 2004-ci il)*

Azərbaycan Prezidenti İlham Əliyev daha sonra Vayxır su anbarına gəldi. Ümummilli liderimiz Heydər Əliyevin göstərişi ilə tikilən bu su anbarı muxtar respublikanın Babək və Şahbuz rayonları kəndlərinin suvarma suyuna olan ehtiyacını tam ödəyəcəkdir.

Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov burada işlərin gedişi barədə Prezident İlham Əliyevə ətraflı məlumat verdi. Bildirildi ki, su anbarının və magistral kanalların tikintisində indiyədək 90 milyard manatlıq iş görülmüşdür. Dəryaçada 100 milyon kubmetr su toplanacaq və bu, 16800 hektar əkin sahəsini suvarmağa imkan verəcəkdir. İndiyədək 2500 metrlik əsas kanalın 200 metrində, 5 kilometrlik sol sahil kanalının 4,5 kilometrində, 21,5 kilometrlik sağ sahil kanalının 12,6 kilometrində tikinti işləri başa çatdırılmışdır. Prezident İlham Əliyev tikinti layihəsinin detalları ilə yaxından tanış oldu, burada elektrik stansiyasının inşası və digər məsələlərlə əlaqədar göstəriş və tövsiyələrini verdi.

* * * *

Azərbaycan Prezidenti İlham Əliyev Vayxır su anbarı ilə tanışlıqdan sonra qədim diyarın müqəddəs yerlərindən biri olan Əshabi Kəhf ziyarətgahına gəldi. Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva bu müqəddəs ocağı ziyarət etdilər, nəzir verdilər.

**AZƏRTAC**
**2004, 13 may**

## QƏBƏLƏ ŞƏHƏRİNƏ ÇƏKİLMİŞ YENİ SU XƏTTİNİN AÇILIŞI

*(18 avqust 2005-ci il)*

Avqustun 18-də Azərbaycan Prezidenti İlham Əliyev Qəbələ şəhərinə çəkilmiş yeni içməli su xəttinin açılış mərasimində iştirak etmişdir.

Buraya toplaşan minlərlə insan dövlətimizin başçısını böyük səmimiyyətlə və gül-çiçəklə qarşıladı.

Prezidentə məlumat verildi ki, su xəttinin çəkilməsinə 1 milyard manat vəsait xərclənmişdir. Sutka ərzində şəhərə 3 min kubmetr su veriləcək ki, bu da Qəbələ əhalisinin 60 faizinin su təchizatını yaxşılaşdırmağa imkan yaradacaqdır.

Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, kranı açdı. Şəffaf bulaq suyunun axması mərasim iştirakçıları tərəfindən böyük sevinclə qarşılandı. Dövlətimizin başçısı İlham Əliyev sərin sudan içdi, qəbələliləri bu əlamətdar hadisə münasibətilə təbrik etdi.

Rayon sakinləri onlar üçün yaradılan şəraitə görə minnətdarlıq etdilər və dövlətimizin başçısına uzun ömür, cansağlığı arzuladılar.

**AZƏRTAC**
**2005, 18 avqust**

## HİRKAN MİLLİ PARKININ AÇILIŞ MƏRASİMİ
*(8 sentyabr 2005-ci il)*

"Sentyabrın 8-də Lənkəranda Hirkan Milli Parkının açılış mərasimi olmuşdur. Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Mərasimə toplaşanlar dövlətimizin başçısını böyük səmimiyyətlə qarşıladılar.

Prezident İlham Əliyev Milli parkın rəmzi açılışını bildirən qırmızı lenti kəsdi. Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov dövlətimizin başçısına məlumat verdi ki, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 9 fevral tarixli sərəncamı ilə yaradılmış Hirkan Milli Parkı Lənkəran və Astara rayonlarının ərazisində yerləşir. Parkın sahəsi 21435 hektardır. Onun yaradılmasında əsas məqsəd həmin ərazidə təbiətin kompleks şəkildə qorunması, üçüncü dövrün relikt və endemik bitki növlərinin mühafizəsi, Azərbaycanın «Qırmızı kitabı»na daxil edilmiş tipik flora və fauna növlərinin qorunub saxlanması, ətraf mühitin monitorinqinin həyata keçirilməsi, ictimaiyyətin məlumatlandırılması, eləcə də tədqiqatlar, turizm və istirahət üçün şərait yaratmaqdır. Hirkan Milli Parkının ərazisinin çox hissəsini meşələr, sıra dağlar əhatə edir. Buranın yayı quraq, payızı rütubətli, qışı isə mülayimdir. Park bitkilərin növ zənginliyinə görə Qafqazda birinci yeri tutur. Bunların əksəriyyətinin adı Azərbaycanın «Qırmızı kitabı»na daxil edilmişdir. Ərazidə kökü kəsilməkdə olan müxtəlif heyvanlar vardır. Ümumiyyətlə, ərazinin bitki aləminin zənginliyi burada çoxsaylı heyvanların yaşaması üçün əlverişlidir. Burada bəbir, xallı maral, vaşaq, porsuq, çöl donuzu, cüyür, yenot və digər heyvanlara rast gəlmək olar.

Hirkan Milli Parkı özünün nadir təbiət abidələri ilə də məşhurdur.

Burada 100-dən çox təbiət və mədəniyyət abidəsi var. Hirkan Milli Parkına xaricdən də qonaqlar gəlir.

Prezident İlham Əliyev parkın ekoturizm və məlumat mərkəzi, treninq otağı, əməkdaşlar üçün iş otaqları, fauna və flora muzeyi ilə tanış oldu, Azərbaycanın zəngin təbiətinin bu nadir guşəsinin flora və faunasının qorunması üçün müvafiq göstəriş və tapşırıqlar verdi.

Sonra prezident İlham Əliyev parkın inzibati binasının qarşısına toplaşan sakinlərlə səmimi görüşdü, onların problemləri ilə maraqlandı. Sakinlər dövlətimizin başçısına təşəkkür edərək, göstərilən diqqət və qayğını yüksək qiymətləndirdilər, ümummilli lider Heydər Əliyevin Lənkərana və Astaraya tarixi səfərlərini xatırlatdılar və onun daxili və xarici siyasətini uğurla davam etdirdiyinə, xalqın güzəranının yaxşılaşdırılması, sosial rifahının yüksəlməsi istiqamətində gördüyü tədbirlərə görə minnətdarlıqlarını bildirdilər."

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**12-ci kitab: avqust 2005 - sentyabr 2005. - Bakı: Azərnəşr, 2013. – S. 224-225.**

## HEYDƏR ƏLİYEV SU ANBARININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*(19 dekabr 2005-ci il)*

Dekabrın 19-da Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev su anbarı istifadəyə verilmişdir. Prezident İlham Əliyev bu münasibətlə keçirilən mərasimdə iştirak etmişdir. Mərasimə toplaşan minlərlə insan dövlətimizin başçısını hərarətlə və böyük mehribanlıqla qarşıladı.

Prezident İlham Əliyev əvvəlcə Heydər Əliyev su anbarının və magistral kanalların planı ilə tanış oldu. Məlumat verildi ki, su anbarı vasitəsilə ətraf rayonların yaşayış məntəqələri su ilə təmin olunacaqdır. Suvarılacaq 16 min hektarın 6 min hektarı əkin dövriyyəsinə yeni daxil edilmiş sahələrdir və bu, yerli əhali tərəfindən yüksək qiymətləndirilir. Kanallar üzərində 60 qurğu yerləşdirilmişdir. 100 milyon kubmetr su tutumu olan bu anbarın tikintisinə 1980-ci ildə, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanmışdı. Lakin o, Moskvaya getdikdən sonra inşaat işləri yarımçıq qalmışdı. Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra bu nəhəng obyektin tikintisi bərpa olunmuşdur. Prezident İlham Əliyev su anbarının istifadəyə verilməsini bildirən düyməni basdı və su boru vasitəsilə kanallara axdı.

Prezident bu prosesi böyük maraqla izlədi və bu mənzərəli yerdə xatirə şəkli çəkdirdi. Dövlətimizin başçısı vurğuladı ki, bu su anbarı əhalini su ilə təmin etməklə yanaşı, həm də elektrik enerjisinə olan tələbatı qismən ödəyəcəkdir. Eyni zamanda, burada turizmin və çay balıqçılığının inkişafı üçün də imkanlar yaradılacaq, yeni iş yerləri açılacaqdır. Ətraf sahələr yaşıllığa qərq olacaqdır.

Prezident İlham Əliyev mərasimə toplaşanlarla görüşdü, onları bu tarixi hadisə münasibətilə təbrik etdi. Sakinlər su anbarının istifadəyə verilməsini ulu öndərin Naxçıvana göstərdiyi diqqət və qayğının daha bir təzahürü kimi qiymərtləndirdilər, onun tarixi xidmətlərini xatırlatdılar. Dahi şəxsiyyətin siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən məmnunluqlarını ifadə etdilər.

**AZƏRTAC**
**2005, 19 dekabr**

# BAKININ ƏTRAFINDA BƏZİ YERLƏRİ SU BASMASI İLƏ ƏLAQƏDAR YARANMIŞ VƏZİYYƏTLƏ TANIŞLIQ

*(16 may 2006-cı il)*

*Bakının Sabunçu, Suraxanı və Əzizbəyov rayonları ərazisinin bir sıra yerlərində əsasən qrunt sularının yığılması nəticəsində əmələ gəlmiş gölməçələr ekoloji vəziyyətə mənfi təsir etməklə yanaşı, paytaxtın ümumi mənzərəsinə də xələl gətirir.*

*Azərbaycan prezidenti İlham Əliyev mayın 16-da mövcud vəziyyətlə yaxından tanış olmuşdur. Dövlətimizin başçısı həmin ərazilərə axan suyun qarşısının vaxtında alınmaması və gölməçələrin qurudulmaması ilə bağlı müvafiq strukturların rəhbərlərinə iradlarını bildirdi.*

**İlham Əliyev:** Bu sizi narahat etmir?

**Nizaməddin Rzayev:** (*«Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti*): Narahat edir.

**İlham Əliyev:** Bəs niyə tədbir görmürsünüz? Çətinliklərə görə belə məsuliyyətsizlik etmək olmaz. Su basıb buranı, gəlib artıq yola çıxıbdır. Gərək bunu sizə mən deyim ki, tədbir görəsiniz? Bir gündə nə qədər qurudulur?

Mən o vaxt sizə demişdim və siz də başladınız buranı qurutmağa və xeyli hissəsini də qurutmuşdunuz.

**Hacıbala Abutalıbov:** Bəli, tam qurumuşdu.

**İlham Əliyev:** Hətta keçən il də elə buraya gəlmişdik. Burada su yox idi. Düz oraya, çənlərə qədər getdik. Sonra isə mən görürəm ki, su oranı basıb, bir aydan sonra, yəqin ki, bu yolu da basacaqdır.

**Hacıbala Abutalıbov:** Əlbəttə, siz deməsəydiniz, yolu su basacaqdı.

**İlham Əliyev:** Amma bunu mən deməməliyəm. Bunu sən gərək edəsən, bu sənin vəzifəndir. Mən səni belə yüksək vəzifəyə təyin etmişəm. Tədbir görün, həm burada, həm orada su axmasının qarşısını alın. Oranı da su basmışdır.

**Hacıbala Abutalıbov:** Artıq işə başlayıblar.

**İlham Əliyev:** Elə etmək lazımdır ki, su yığılmasın.

**Nizaməddin Rzayev:** Baş üstə, cənab Prezident.

**İlham Əliyev:** Yoxsa buranı qurudacaqsınız, sonra yenə nasos işləməyəcək və yenidən buranı su basacaqdır.

Son vaxtlar paytaxtımızın magistral yolları sürətlə abadlaşır. Belə bir vaxtda Böyükşor gölünə yenidən yeraltı suların yığılmasının aeroport yolunun buradan keçən hissəsi üçün təhlükə doğurduğunu nəzərinizə çatdırıram, təxirə salınmadan bunun qarşısı alınmalıdır.

Aeroport yolu genişlənəcək, mən artıq göstəriş vermişəm. Gərək gələcəkdə buraya su yığılmasın. Yoxsa yol salınacaq, ondan sonra su yığılarsa, yolu altdan yuyub dağıdacaqdır.

Mən kanalizasiya təsərrüfatını verdim «Azərsu»ya. İstəyirdim ki, bu sahədə işlər daha da səmərəli olsun. Nəticədə nə oldu? İcra hakimiyyətinin tabeliyində olanda heç olmasa bura qurudulurdu, indi, sizə veriləndən sonra başlı-başına buraxmısınız, su basıb şəhəri. Ona görə birlikdə tədbir görün, birdəfəlik bu məsələ həll olunsun.

Suraxanı rayonu ərazisindəki süni gölü isə təkcə qrunt suları deyil, həm də ətrafdakı yaşayış məntəqələrindən axıdılan kanalizasiya suları yaratmışdır. Qrunt sularını haraya axıtmaq lazımdır? Şəhərdə belə yerlər kifayət qədərdir. Mən hər yerə baxa bilmərəm, amma xəbərim var, belə yerlər çoxdur. Xüsusi proqram hazırlayıb onları qurutmaq və əraziləri normal vəziyyətə salmaq lazımdır. Ondan sonra qrunt sularının axmasının səbəbi aradan qaldırılmalıdır ki, yenidən belə vəziyyət yaranmasın. Xüsusilə havaların getdikcə istiləşdiyi bir vaxtda belə gölməçələrin ətraf mühitə mənfi təsirinin artmasının, antisanitariya şəraiti yaratmasının qarşısını almaq üçün Bakı Şəhər İcra Hakimiyyətinin və «Azərsu» SC-nin rəhbərlərinə kompleks tədbirlər görməyi tapşırıram.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev. 17-ci kitab: may 2006 - iyun 2006. - Bakı: Azərnəşr, 2014. – S. 98-99.**

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ ÖLKƏMİZDƏ EKOLOJİ VƏZİYYƏTİN YAXŞILAŞDIRILMASI MƏSƏLƏLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*(3 iyul 2006-cı il)*

Ölkəmizin sosial-iqtisadi inkişafı bizim qarşımızda yeni imkanlar açır. Biz çalışırıq ki, ölkəmizin hərtərəfli inkişafı daha da sürətlə getsin. Şübhəsiz ki, iqtisadi nailiyyətlər bu işdə əsas rol oynayır. Bu baxımdan da bizim işlərimiz çox uğurla gedir. İqtisadi artım çox yüksək sürətlə gedir, ümumi daxili məhsul ildən-ilə artır və bu göstəriciyə görə Azərbaycan dünyada birinci yerdədir. Eyni zamanda, böyük infrastruktur layihələr həyata keçirilir, Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşübdür. Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi uğurla davam etdirilir və ilin sonuna qədər istismara veriləcəkdir. Böyük abadlıq-quruculuq işləri aparılır və regionların sosial-iqtisadi inkişafı sürətlə gedir. Mənim rayonlara mütəmadi səfərlərim bunu bir daha göstərir ki, hər yerdə quruculuq-abadlıq işləri gedir. Bilirsiniz ki, sosial məsələlərin həllinə böyük diqqət göstərilir və Azərbaycanda məktəb, xəstəxana tikintisi geniş vüsət alıbdır. Azərbaycanda elə bir sahə yoxdur ki, sürətlə inkişaf etməsin. Yol tikintisi – həm magistral yolların, həm kənd yollarının tikintisi geniş şəkildə aparılır. Bütövlükdə ölkəmiz yeniləşir, müasirləşir, zənginləşir. Biz həyatımızın hər bir sahəsinə böyük diqqət göstərməliyik. Bütün bunlar, əlbəttə, ölkənin iqtisadi potensialına söykənir və bu potensialın möhkəmlənməsi bizim üçün ən başlıca vəzifədir. Çox şadam ki, biz bunu uğurla icra edirik. Bu baxımdan elə bir sahə olmamalıdır ki, diqqətdən kənarda qalsın, yaxud da o sahəyə kifayət qədər diqqət göstərilməsin.

Bugünkü müşavirə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması ilə bağlı olacaqdır. Biz bu sahəyə də böyük diqqət göstərməliyik. Bir müddət bundan əvvəl mənim tərəfimdən Ekologiya və Təbii Sərvətlər Nazirliyinə göstəriş verilmişdir. Bu işlər çox geniş şəkildə təhlil edildi, çirklənmiş ərazilərin xəritəsi tərtib olundu, demək olar ki, ekoloji cəhətdən narahatlıq doğuran bütün məsələlər ətraflı öyrənildi və müəyyən təkliflər də artıq mövcuddur.

Mən istərdim ki, bugünkü müşavirədə biz bu məsələləri kompleks şəkildə müzakirə edək. Bundan əvvəl hökumətə, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, digər müvafiq qurumlara göstərişlər verilmişdi. Ancaq məsələlərin həlli, əlbəttə, kompleks yanaşmadan asılıdır. Azərbaycanın hərtərəfli uğurlu inkişafı bizə imkan verir ki, bu sahəyə də böyük diqqət göstərək, maliyyə resurslarını müəyyən edək və işə başlayaq.

Bildiyiniz kimi, uzun illər ərzində bütövlükdə bu sahəyə diqqət yetirmək çox çətin idi. Çünki sovet vaxtında «ekologiya» sözü ümumiyyətcə, heç mövcud deyildi, heç belə bir anlayış da yox idi. Sadəcə olaraq planın yerinə yetirilməsi məsələsi qarşıya qoyulurdu.

Azərbaycan neft ölkəsidir. Uzun illərdir ki, Azərbaycanda neft hasilatı aparılır. Ancaq əfsuslar olsun ki, heç vaxt ekoloji məsələlərə böyük diqqət göstərilmirdi. İndi Azərbaycan xarici neft şirkətləri ilə birgə fəaliyyətə başlayıbdır. 1994-cü ildən bu günə qədər «Əsrin müqaviləsi»nin və başqa müqavilələrin icrası nəticəsində bizim bu sahədə də təcrübəmiz artır. Bildiyiniz kimi, xarici neft şirkətlərinin ekologiya məsələlərinə böyük diqqəti vardır. Bu, bütün müqavilələrdə öz əksini tapıbdır və xarici neft şirkətlərinin Azərbaycanda fəaliyyəti ekoloji baxımdan bizi qane edir. Düzdür, bəzi hallarda müəyyən pozuntular da olur. Amma bizim Ekologiya və Təbii Sərvətlər Nazirliyi dərhal bu məsələlərə öz münasibətini bildirir.

Azərbaycanda neftlə çirklənmiş ərazilər kifayət qədərdir. Mənə verilən məlumata görə, Abşeron yarımadasında 10 min hektardan artıq torpaq neftlə çirklənmişdir. Bu, böyük bir ekoloji təhlükədir. Bizim insanlarımızın səhhətinə də mənfi təsir göstərir. Həm neftlə

çirklənmiş torpaqlar, eyni zamanda, Bakı buxtası ekoloji cəhətdən yaxşı vəziyyətdə deyildir. Bütün kanalizasiya suları, demək olar ki, Bakı buxtasına axıdılır. Qurğular sıradan çıxıb, biz gərək onları yenidən quraq. Buna böyük vəsait lazımdır. İndi biz müxtəlif beynəlxalq təşkilatlarla bu işləri görürük, kreditlər də ayrılıbdır. Hövsan kanalizasiya sisteminin bərpa edilməsi ilə əlaqədar işlər görülməyə başlanıbdır. Ancaq bu bizi qane etmir.

Bu yaxınlarda mənə məlumat verildi ki, Xəzər dənizinin çimərliklərində vəziyyət həddindən artıq gərgindir. Mən müvafiq orqanlara dərhal göstəriş verdim və təcili tədbirlər görürlər. Artıq bu gün mənə verilən məlumata görə, Xəzər dənizinin çimərlikləri ekoloji normalara uyğundur. Ancaq nə üçün bu məlumat mənə iyun ayında verildi?! Aprel, may ayında müvafiq işlər aparılmalı idi. Dənizin suyunun tərkibi yay mövsümünə qədər öyrənilməli idi. Biz çox qısa müddət ərzində bunu etməyə məcbur olduq. Yəni bütün bu məsələlərə kompleks şəkildə yanaşılmalıdır.

Neftlə çirklənmiş torpaqlar təmizlənə bilər, müasir texnologiyalar var. Ancaq əgər biz çirklənmə mənbəyini aradan götürməsək, bunun heç bir əhəmiyyəti olmayacaqdır. Biz Bakı buxtasını təmizləyə bilərik. Düzdür, bu, böyük bir işdir və çoxlu maliyyə vəsaiti tələb edən məsələdir. Ancaq əgər o kanalizasiya suları, yaxud neft mədənlərindən axan çirklənmiş sular yenə oraya axıdılacaqsa, onun heç bir əhəmiyyəti olmayacaqdır.

Mən şəxsən özüm o yerləri gəzmişəm. O süni gölməçələrin yaranması böyük ekoloji fəlakətə gətirə bilər. Aeroport yolunun altından keçən kanal neftlə çirklənmiş suları təmizlənməmiş düz dənizə axıdır. Mən indi bu məsələləri qaldırıram. Müvafiq orqanlar bu məsələlərə böyük diqqət göstərməlidirlər, bu onların gündəlik işi olmalıdır.

Bir daha demək istəyirəm ki, biz iqtisadi cəhətdən möhkəmlənirik. Azərbaycanın uğurlu iqtisadi inkişafı artıq gerçəklikdir, faktdır və gələcəkdə bizə böyük imkanlar gətirəcəkdir. Ancaq insanların sağlamlığı, ekoloji vəziyyət, udduğumuz hava, içdiyimiz su – bütün bunlara biz çox böyük diqqət göstərməliyik. Ona görə bu məsələlər bu gün geniş müzakirə olunmalıdır. Müşavirə nəticəsində müvafiq sərəncam da hazırlanmalıdır və mən onu imzalayacağam. Ondan sonra geniş proqram da tərtib olunmalıdır.

Bütün qurumlar, bütün aidiyyəti orqanlar bilməlidirlər ki, kim nə etməlidir, nə vaxt etməlidir, hansı müddət əzrində etməlidir, buna nə qədər vəsait lazımdır, bu vəsaiti biz haradan alacağıq. Bütövlükdə, qısa müddət ərzində biz Azərbaycanın, Abşeron yarımadasının ekoloji vəziyyətini yaxşılaşdırmalıyıq. Ən çətin vəziyyət Bakı, Abşeron və Sumqayıtdadır. Azərbaycanın digər bölgələrində belə böyük problemlər yoxdur. Mən Azərbaycanın müxtəlif bölgələrində tez-tez oluram. Həm havası təmizdir, həm də ekoloji vəziyyət müsbətdir. Ancaq Bakı, Abşeron, Sumqayıt bu baxımdan ən çətin vəziyyətdədir. Burada təxminən 3 milyona yaxın insan yaşayır. Belə olan halda biz bu məsələlərə ciddi baxmalıyıq və nə lazımdırsa, onu da etməliyik.

**Hüseynqulu Bağırov:** Möhtərəm Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Azərbaycan Respublikası hazırda dünyada nadir olan iqtisadi inkişaf dövrünü yaşayır. Müharibənin vurduğu yaralara baxmayaraq, belə yüksək göstəricilər banisi ümummilli liderimiz Heydər Əliyev olan sabitlik və sosial-iqtisadi inkişaf strategiyasının mürəkkəb bir şəraitdə uğurla həyata keçirilməsi və cənab Prezident, Sizin yeni dövrdə bu strategiyanı yeni məzmunda, enerji, coşqu, dəmir iradə ilə davam etdirməyiniz nəticəsində mümkün olmuşdur.

Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması naminə istifadə məsələsi Sizin apardığınız sosial-iqtisadi islahatlarda mühüm yer tutur. Ölkəmizin ekoloji durumuna həm vaxtilə ulu öndərimizin göstərdiyi, həm də möhtərəm Prezident, Sizin çox gərgin iş rejiminizdə göstərdiyiniz xüsusi diqqət və qayğı ictimaiyyət tərəfindən daim yüksək qiymətləndirilmişdir.

Respublikanın başqa ərazilərində olduğu kimi, Abşeron yarımadasında da ətraf mühitin sağlamlaşdırılması sahəsində müəyyən tədbirlər görülmüşdür. Sumqayıtın bir neçə min kvadratmetr ərazisində 40 min tondan çox civə tərkibli təhlükəli tullantılar toplanaraq, emal olunaraq, daşınaraq xüsusi poliqonda müasir standartlara uyğun şəkildə basdırılmışdır. Həmin tullantıların basdırıldığı və ən müasir standartlara cavab verən poliqon Dünya Bankının krediti hesabına tikilmişdir və bu və ya başqa ərazilərdəki təhlükəli tullantılar üçün nəzərdə tutulmuşdur. Poliqona 7 kilometr yol çəkilmiş, asfalt döşənmişdir.

Cənab Prezident, Sizin sərəncamınızla Abşeron yarımadasında – Şah dili ərazisində 800 hektardan çox sahədə Abşeron milli parkı yaradılmışdır ki, bundan sonra yarımadanın nadir təbiəti qorunub saxlanılsın. Həmin parkda müvafiq infrastruktur yaradılır, xüsusi mərkəz, muzey və idarə binaları tikilmişdir. Burada insanlara Abşeronun real təbiəti ilə tanış olmaq imkanı yaradılır. Abşeron yarımadasının çirkləndirilməsində əsas rolu olan neftlə çirklənmiş torpaqların pozulmuş hidrologiyası nəticəsində yaranmış çoxsaylı göllərin vəziyyəti öyrənilmiş, xüsusi xəritələr, hesabatlar hazırlanmış və tədbirlər planı tutulmuşdur. Bakı aeroportunda uçuş-enmə zolağı boyunca ərazilərin vəziyyəti tədqiq edilmiş və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün Azərbaycan Dövlət Neft Şirkəti və «Azərbaycan Hava Yolları» Dövlət Konserni ilə razılaşdırılmış tədbirlər planı hazırlanmışdır. Abşeron yarımadasının sahilləri, çimərlik zonası tədqiq edilmiş, vəziyyəti nəzarət altında saxlamaq üçün müasir tələblərə cavab verən 7 ekoloji laboratoriya yaradılmışdır. Həmin ərazilərdə vəziyyət barədə məlumat qərar qəbul edən şəxslərə mütəmadi olaraq çatdırılır. Bir neçə istiqamətdə gündəlik, həftəlik, aylıq xüsusi məlumat bülletenləri hazırlanır, dövlət orqanlarına təqdim olunur.

Cənab Prezident, görülən bu işlərlə yanaşı, Sizin tamamilə düzgün qeyd etdiyiniz kimi, respublikada həlli vacib olan ekoloji problemlər də mövcuddur. Bunların da əksəriyyəti Abşeron yarımadasında cəmləşmişdir. Ölkə əhalisinin təxminən 40 faizinin və sənaye potensialının 70 faizinin cəmləşdiyi bu ərazi ekoloji cəhətdən respublikanın ən gərgin regionudur. Ümumi sahəsi 222 min hektar olan Abşeron yarımadasındakı yararsız torpaqların, yəni üst qatı pozulmuş, çirklənməyə məruz qalmasa da, öz təbii imkanlarını itirmiş torpaqların sahəsi 30 min hektara qədərdir. Bunun neftlə çirklənmiş hissəsi 10,6 min hektara yaxındır. Neft və neft məhsulları ilə ən çox çirklənmiş torpaq sahələri Qaradağ, Binəqədi, Sabunçu, Suraxanı, Əzizbəyov və Səbail rayonları ərazisindədir.

Abşeron yarımadasının çirklənmiş və sıradan çıxmış torpaqlarının bərpası ilə əlaqədar nazirlik tərəfindən bu zonanın ekoloji vəziyyəti və onun sağlamlaşdırılması üçün zəruri tədbirlər proqramı və Bibiheybət zonasında ekoloji vəziyyət və onun yaxşılaşdırılması üçün zəruri tədbirlər proqramı hazırlanmışdır. Abşeron yarımadasının ekoloji problemlərindən biri sənaye və məişət sularından əmələ gəlmiş və bu sularla çirklənmiş göllərdir. Ümumi sahəsi 3325 hektara yaxın 800-ə qədər göldən 200-ü nisbətən iri göllərdir. Onların tərkibinə hər il 40 milyon kubmetrdən çox çirkab və yaxud lay suları axıdılır. Göllərin ekoloji vəziyyətini gərginləşdirən əsas amillər neftlə çirklənmə, istehsal, sənaye mənşəli tullantı suları, kommunikasiya sistemləri ilə təchiz olunmadan inşa edilən çoxsaylı yeni yaşayış evlərindən və ictimai binalardan axıdılan məişət və təsərrüfat sularından ibarətdir. Böyükşor, Bülbülə, Qırmızıgöl, Xocasən və Çuxurdərə gölləri daha çox çirklənməyə məruz qalmışdır. Bu göllərdə zərərli maddələrin miqdarı normadan 8–12 dəfə artıqdır. Problemin aradan qaldırılması üçün nazirlik tərəfindən Abşeron yarımadasında yerləşən göllərin və digər yerlərin ekoloji vəziyyətinin sağlamlaşdırılması layihəsi hazırlanmışdır. Nəzərə alsaq ki, bu göllər artıq böyüməkdə olan Bakı şəhərinin ərazisinin genişlənməsinə mane olur, istərdim bəzi ərazilər haqqında geniş məlumat verim.

Böyükşor Abşeron yarımadasının Binəqədi, Sabunçu və Nərimanov rayonları ərazisində yerləşən böyük göldür. İlk dövrlərdə göl, əsasən, yeraltı sulardan qidalanırdısa, hazırda buraya çoxsaylı çirkab axınları mövcuddur. Gölün su səthi 1300 hektar, uzunluğu 10 kilometr, eni 1,5–2 kilometrdir. Dərinliyi 4–8 metr olan bu böyük göl 45 milyon kubmetrə qədər su saxlayır. Bu günə qədər gölün torpaq tökülməklə tamamilə qurudulmuş ərazisi 15 hektardan çoxdur. Amma bir neçə yüz hektar ərazidə, demək olar ki, suyun səviyyəsi torpağadək enmiş, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən oradakı cəzaçəkmə müəssisəsinin yanından qarşıdakı sahilə qədər bənd vurulmuşdur. Hazırda göldən gündə 7 min kubmetrə qədər su vurulur. Orada suyun azalmaması göstərir ki, gölün qida mənbələrinin qarşısı alınmamışdır.

**İlham Əliyev**: Bu, böyük problemdir. Amma mən hesab edirəm ki, bəlkə baxasınız, bu gölü qurutmaq o qədər də asan məsələ deyildir. Bəlkə onu təmizləmək olar ki, təmiz bir göl kimi qalsın. Bunu etmək mümkündür, müvafiq işlər görülməlidir. Əgər o təmizlənərsə, gölün ətrafında tamamilə yeni bir mühit yaranacaqdır. Sonra orada yaşayış massivləri tikmək, parklar salmaq olar. Çünki o sahə ekoloji cəhətdən çox bərbad vəziyyətdədir. Yəni siz bu varianta da baxın.

**Hüseynqulu Bağırov:** Əslində, bu problemin həlli ilə bağlı təkcə tədqiqat işləri yox, həm də, cənab Prezident, Sizin tapşırığınızla müəyyən hazırlıq işləri görülür. Sizin razılığınızla hazırda Dünya Bankı ilə danışıqlar aparılır. Artıq danışıqlar layihə hazırlamaq prosesinə keçmişdir. Sizin səsləndirdiyiniz bir fikir burada əsas götürülmüşdür ki, çirklənmiş torpaqların və ərazilərin təmizlənməsi, bərpası, ola bilsin, hansısa xüsusi bir fonda, agentliyə tapşırıla bilər və onlar Dünya Bankından alınan kredit və yaxud dövlətin vəsaiti ilə işləyəcəkdir. Amma müəyyən ərazilərin sahibləri olduğu üçün iri müəssisələrə məxsus min hektarlarla torpaq sahələri istismardan çıxarılıb müəyyən müddətdən sonra dövlətə qaytarılmalıdır. Onlar imkanlı təşkilat kimi, torpaqları bərpa edib tədricən dövlətə qaytarar, yaxud dövlətin göstərdiyi istiqamətdə istifadəsini təmin edə bilər.

**İlham Əliyev:** Əlbəttə, Dünya Bankının krediti ilə işləmək lazımdır. Biz uzun müddətdir Dünya Bankı ilə əməkdaşlıq edirik. Amma bəzi hallarda onların prosedura qaydaları çox vaxt aparır. Ona görə baxın, təxirəsalınmaz tədbirlər haqqında fikirləşmək lazımdır. Biz əlavə maliyyə resurslarını da bu işlərə cəlb edəcəyik. Amma əsas məsələ çirklənmənin səbəbini aşkar etmək, onu təhlil etmək və onun qarşısını almaqdır. Əgər onu etməsək, heç bir işin səmərəsi olmayacaqdır. Əlbəttə ki, ən çox çirkləndirən müəssisələr, təşkilatlar gərək bu işə məsuliyyətlə yanaşsınlar. Məndə olan arayışda hansı sahələrdə hansı təşkilatların ekoloji vəziyyətə daha çox mənfi təsir göstərdiyi bildirilir.

Misal üçün, göllərdən danışırsınız, bu göllərin çirklənməsində səbəbkarlar ilk növbədə neft-qazçıxarma müəssisələri, yerli icra hakimiyyətləri, bələdiyyələrdir, torpaq ayıranda bütün şəhərsalma normaları və ekoloji amillər nəzərə alınmır. «Azərsu» Səhmdar Cəmiyyətidir ki, kanalizasiya şəbəkəsi yaşayış məntəqələrini tam əhatə etmir və axıntı suları lazımi səviyyədə təmizlənmir. Bakı buxtasının çirklənməsində ən çox günahkar təşkilatlar yenə də neft-qazçıxarma və neft emalı müəssisələri, «Xəzərdənizneftdonanma», Xəzər Dəniz Gəmiçiliyi, Beynəlxalq Dəniz Ticarət Limanı, «Azərsu» Səhmdar Cəmiyyəti, Bakı Şəhər İcra Hakimiyyəti, bələdiyyələr və sairdir. Məndə başqa məlumatlar da var. Amma gərək əsas bu təşkilatlar bütün bu qüsurları tezliklə aradan qaldırsınlar, tədbirlər planı hazırlasınlar və biz işə başlayaq.

**Hüseynqulu Bağırov**: Cənab Prezident, tamamilə doğru buyurursunuz. İcazənizlə Böyükşorla bağlı məlumatı yekunlaşdıraraq deyim ki, Sizin sözünüzün təsdiqi kimi, hazırda «Azərsu»nun əvvəllər Bakı Şəhər İcra Hakimiyyətinin balansında olan nasos stansiyası işləyir. Sutkada 20 min kubmetr çirkab su Hövsan istiqamətinə vurulur. Ancaq

araşdırmalar göstərir ki, eyni zamanda, qurudulan ərazidən təxminən 7 min kubmetrdən artıq həcmdə su kənara axıdılır. Ətraf ərazilərdə 49 axardan təxminən 16 min kubmetr çirkab suyu, məişət tullantıları gəlir ki, bu da müəyyən səviyyənin saxlanılması üçün yetərlidir.

**İ l h a m  Ə l i y e v:** Yəni, bir tərəfdən təmizlənir, su vurulur, göl qurudulur, digər tərəfdən isə oraya yenə də su axır. Bunun heç mənası yoxdur, onu əbədi qurudacaqlar? Ona görə deyirəm ki, yeni bir təklif üzərində işləyin, gölü təmizləyib onu çox gözəl, ekoloji cəhətdən təmiz bir göl edək və o ərazi tamamilə öz görkəmini dəyişəcəkdir.

**H ü s e y n q u l u  B a ğ ı r o v:** Cənab Prezident, baş üstə.

Cənab Prezident, Bakı buxtası məsələsinə tamamilə doğru toxundunuz. Bu, narahatlıq doğuran məsələlərdən biridir və buna dəfələrlə toxunmusunuz. 2000-ci ildə Hollandiya şirkəti tərəfindən Bakı buxtasının təmizlənməsi layihəsi hazırlanmışdır. Bizim apardığımız tədqiqatın nəticələri, demək olar, onların araşdırmaları ilə üst-üstə düşür. Əgər oraya gündəlik axıdılan 937 min kubmetr çirkab sularının qarşısı alınarsa, tədqiqatçıların göstərdiyi 60 milyon tondan 120 milyon tona qədər dib çöküntülərinə əl vurmadan, təbii çöküntülər hesabına oranın izolyasiyası və suyun təmizlənməsi hesabına 3-4 ilə Bakı buxtasını təmizləmək mümkün olacaqdır. Bu, böyük vəsaitlərin xərclənməsinin də qarşısını alır. Onsuz da bu işlər görülməli, kanalizasiya və başqa axarların qarşısı alınmalıdır. Çirkli sular təmizləyici qurğulardan keçirilərək, lazım gələrsə, dənizə buraxılmalıdır. Bu işin görülməsi Bakı buxtasının qısa müddətdə təmizlənməsinə səbəb olacaqdır.

Bibiheybət zonasının yaşayış məntəqələrində ətraf əraziyə və 32-ci kanal vasitəsilə Xəzər dənizinə sutka ərzində axıdılan 13 min kubmetr təsərrüfat-məişət sularının təmizlənməsi zəruridir. Bura Bakının mərkəzinə yaxın perspektivli bir ərazidir. Hazırda orada kortəbii şəkildə kiçik və infrastrukturu olmayan yaşayış evləri tərəfindən ikinci ekoloji problemin yaranmasına aparan proses müşahidə olunur. İndi «Bakı buxtasının ekoloji vəziyyəti və onun yaxşılaşdırılması üçün zəruri Tədbirlər Proqramı» işlənib hazırlanmışdır və razılaşdırılmaq üçün ikinci dəfə Nazirlər Kabinetinə göndərilmişdir. Demək olar ki, bu iş sona çatmışdır.

Siz Abşeron çimərlikləri ilə bağlı da doğru qeyd etdiniz.

Çimərliklərin ekoloji vəziyyəti ilə bağlı problemlər də narahatlıq doğurur. Biz bu məsuliyyəti öz üzərimizə götürürük, nazir kimi, şəxsən mən öz üzərimə götürürəm. Əlbəttə, bu barədə vaxtında və mütəmadi məlumat verilməlidir ki, tədbirlər görülsün. Söz veririk ki, bundan sonra tədbirlər vaxtında görüləcəkdir. Bunun üçün xüsusi laboratoriya yaradılmışdır. Həmin laboratoriyada təkcə kimyəvi yox, həm də bioloji tədqiqat aparmaq mümkündür. Bununla bağlı məlumatın qərar qəbul edən şəxslərə hər üç gündən bir göndərilməsi təşkil olunmuşdur.

Amma dənizin səviyyəsinin qalxması ilə əlaqədar əksər çimərliklərin ərazisi azalmış, bir çox ərazilərdə bataqlıqlar əmələ gəlmişdir. Sizin göstərişinizdən sonra bəzi tədbirlər görülmüşdür. Buzovna–Zuğulba zonasında dənizin içindən keçən borular təmir olunmuşdur. Oraya, rəsmi sənədlərə görə, gündə 10 min kubmetr, əslində isə 14 min kubmetrə qədər çirkab suları axıdılır.

«Azərsu» tərəfindən inşa olunan bioloji qurğu artıq işə düşmüşdür. Düzdür, həmin qurğu 4 min kubmetrə qədər çirkab su qəbul edir, o da mövcud kanalizasiya şəbəkəsinin imkanlarını göstərir. Eyni zamanda, Buzovnada kanalizasiya şəbəkəsi qurularsa, həmin qurğu suyun təmizlənməsinin öhdəsindən tamamilə gələcəkdir. Bütün proqnozlar göstərir ki, bu, bütün şimal zonasındakı çimərliklərin vəziyyətini əsaslı surətdə dəyişmiş olacaqdır.

**İ l h a m  Ə l i y e v:** Çalışmalıyıq ki, bütün zonalarda çimərliklərdə vəziyyət yaxşı olsun. Ona görə indi fikirləşmək lazımdır, proqram tərtib etmək lazımdır ki, hansı tədbirlər görülməlidir, harada nə tikilməlidir – təmizləyici qurğular, kanalizasiya xətləri. Hamısı kompleks şəkildə olmalıdır, özü də təkcə Bakıda yox. Məndə olan məlumata görə, şimal

istiqamətində də vəziyyət çox ağırdır. Nabran çimərliklərində vəziyyət dözülməz həddə gəlib çatıbdır. Orada tikilən yeni mehmanxanaların, istirahət zonalarının heç birinin kanalizasiyası yoxdur, bütün sular dənizə axıdılır və faktiki olaraq orada da çox böyük problemlər yaranır. Yəni Xəzərin sahili boyu bütün bu məsələlərə biz baxmalıyıq. Burada söhbət 800 kilometrlik ərazidən gedir. Yəni bütün bu sahəyə biz gərək kompleks şəkildə baxaq. Əlbəttə, o çox böyük maliyyə vəsaiti tələb edəcəkdir. Amma onu mərhələlərə bölərik. Ən ağrılı, ən çətin yerləri müəyyən etməliyik, oradan başlamalıyıq. Amma proqram gərək bütün ekoloji vəziyyəti əhatə etsin.

**H ü s e y n q u l u   B a ğ ı r o v:** Cənab Prezident, bununla bağlı müəyyən təkliflər hazırlanıb ki, nəzərdə tutulan xərcləri də kəskin surətdə azaltsın. Birincisi, özəl şirkətlərin öz hesablarına kiçikhəcmli təmizləyici qurğuların quraşdırılması məsələsidir. İkincisi, iki min insana xidmət edə bilən, qiyməti aşağı olan, məhəllələrdə istifadə edilən qurğular çox faydalıdır.

**İ l h a m   Ə l i y e v:** İndi Azərbaycanda biznes çox sürətlə inkişaf edir. Biz də lazımi şəraiti yaratmışıq. Azərbaycanda bu məsələyə çox liberal yanaşma var. Mənim də siyasətim bundan ibarətdir ki, özəl sektor, sahibkarlıq inkişaf etməlidir, həm kreditlər ayrılır, həm də başqa yardımlar edilir. Mənim iş adamları ilə mütəmadi görüşlərim, onlara siyasi dəstəyin verilməsi, əlbəttə, onların işini yüngülləşdirir. Amma onlar da bu işlərə gərək məsuliyyətlə yanaşsınlar. Onları məcbur etmək lazımdır. Harada yeni bir tikinti aparılırsa, yeni turizm zonası tikilirsə, mütləq orada ən müasir təmizləyici qurğular olmalıdır. Harada ki yoxdur, onların lisenziyasını geri almaq lazımdır. Artur müəllim, Mədəniyyət və Turizm Nazirliyinə göstəriş verin ki, təhlil aparsın. Hansı istirahət zonaları bütün normalara riayət etmirsə, onlara çox ciddi sanksiya tətbiq olunmalıdır. Biz bunu mütləq edəcəyik. Çünki o şirkətlər özləri pul qazanırlar. Daha da çox qazansınlar, biz bunun tərəfdarıyıq. Eyni zamanda təbiətə ziyan vurmasınlar.

**H ü s e y n q u l u   B a ğ ı r o v:** Abşeron yarımadasındakı mühüm obyektlərdən biri də Ceyranbatan su anbarıdır. Sahəsi 13,89 kvadratkilometr olan anbarın şərq yamacında inşa edilmiş yaşayış massivində 1500-dən artıq fərdi ev mövcuddur. Bundan əlavə, anbarın sanitar-mühafizə zonasının ətraf ərazisində 12 müəssisə fəaliyyət göstərir. Nəzərə alsaq ki, orada qrunt az gillidir, ənənəvi metodlardan istifadə edən əhali çirkab sularını həyətdəki quyularına buraxır. Orada da təcili surətdə müəyyən tədbirlərin görülməsi gündəlikdədir.

**İ l h a m   Ə l i y e v:** Bizdə qanunvericilikdə bu məsələlər öz əksini necə tapır? Yəni ekologiyaya ziyan vuran təşkilatlar, firmalar, insanlar – onlara qarşı hər hansı bir tədbir görülə bilərmi? Yaxud da bununla bağlı cinayət məsuliyyəti bizim qanunvericilikdə var, yoxsa yox?

**H ü s e y n q u l u   B a ğ ı r o v:** Cənab Prezident, cərimələr nəzərdə tutulubdur. Müqayisə üçün deyə bilərəm ki, 2001-ci ildə cərimələrin və vurulmuş ziyanın hesabına Ətraf Mühitin Mühafizəsi Fonduna 650 milyon manat daxil olmuşdur.

**İ l h a m   Ə l i y e v:** 650 milyon manat, yəni köhnə pulla.

**H ü s e y n q u l u   B a ğ ı r o v:** Bəli. 1,4 milyard manat da tətbiq olunmuş, amma ödənməmişdir. 2005-ci ildə bu rəqəmin ödənmiş hissəsi 4,9 milyard manata çatdı. 33 milyard manat cərimə tətbiq olunmuşdur.

**İ l h a m   Ə l i y e v:** Bilirsiniz ki, başqa ölkələrdə, məsələn, inkişaf etmiş ölkələrdə ekologiya məsələlərinə çox böyük diqqət göstərilir. Orada bu, qanunvericilikdə necə təsdiq edilmişdir?

**H ü s e y n q u l u   B a ğ ı r o v:** Müəyyən qərarlar daha da sərtləşdirilmişdir.

**İ l h a m   Ə l i y e v:** Gərək biz də sərtləşdirək. Hətta burada cinayət məsuliyyətindən söhbət getməlidir. Hamı bilməlidir ki, ekologiyanı pozan, ətraf mühitə ziyan vuran təşkilatlar cəzalandırılacaqdır. Ona görə bunun üzərində işləyin, təklif verin, biz bunu sonra həll edəcəyik.

**H ü s e y n q u l u   B a ğ ı r o v:** Cənab Prezident, ümumiyyətlə, bu gün aparılan tikinti işlərinin hamısı ekoloji cəhətdən razılaşdırılmalıdır. Amma deyə bilərik ki, irimiqyaslı sənaye və biznes xarakterli tikililərlə bağlı 30–35 faiz müraciətlər olur. Faktlar onu göstərir ki, özəl sektor ətraf mühitə təsir edir, ancaq onlar tərəfindən belə bir praktika yoxdur. Amma Sizin tapşırığınızla bu, tətbiq olunacaqdır.

**İ l h a m   Ə l i y e v:** Mütləq tətbiq edin.

**H ü s e y n q u l u   B a ğ ı r o v:** Mühüm dövlət əhəmiyyətli obyekt olan Heydər Əliyev adına Beynəlxalq Hava Limanının ətraf ərazisində antropogen fəaliyyət nəticəsində 1187 hektara yaxın sahənin təbii landşaftı tamamilə pozulmuşdur. Belə ki, 130 hektar ərazi sənaye və məişət tullantıları altında qalmış, 750 hektar ərazi neft məhsulları ilə çirklənmiş, 307 hektar torpaq sahəsi isə tullantı sularının axıdılması nəticəsində bataqlıqlaşmışdır.

Heydər Əliyev adına Beynəlxalq Hava Limanının ətraf ərazisini əsas çirkləndirən «Binə» və «Sədərək» ticarət mərkəzlərinin tullantıları, Tağıyev adına və «Balaxanıneft» neftqazçıxarma idarələrinin lay suları, «İqlim» İstehsalat Birliyinin, ətraf qəsəbələrin tullantılarıdır. Nazirlik «Heydər Əliyev adına Beynəlxalq Hava Limanının ətraf ərazisində ekoloji vəziyyət və onun yaxşılaşdırılması üçün zəruri Tədbirlər Proqramı» işləyib hazırlamışdır. Proqram Dövlət Neft Şirkəti və «Azərbaycan Hava Yolları» Dövlət Konserni ilə razılaşdırılmışdır və hazırda hökumətdə baxılır.

Abşeron yarımadasının mühüm magistral yollarından biri olan aeroport yolunun ətrafında da gərgin ekoloji vəziyyət mövcuddur. Buna Siz özünüz müdaxilə etmisiniz və bir sıra yerlərdə operativ tədbirlər görülmüşdür. Metronun «Əzizbəyov» stansiyası və Sabunçu dairəsi arasında yolun təxminən 2 kilometrinin sağ və sol hissələrinin su altında qalmaq təhlükəsi, Sabunçu və Suraxanı dairələri arasındakı yolun nisbətən çökək hissələrinə bu ərazilərdə yeni inşa olunmuş yaşayış massivlərindən axan tullantı sularının sızması və üfunətli gölməçələrin formalaşması, Yeni Suraxanıdan Mərdəkan dairəsinə qədər yolun sağ və sol hissələrinə Balaxanı və Suraxanı mədənlərindən neft tərkibli tullantı suların axıdılması, «Sədərək» və «Binə» ticarət mərkəzlərindən bərk məişət tullantılarının qeyri-qanuni olaraq yaxın ərazilərə tökülməsi problemləri vardır.

Abşeron yarımadasının ən ciddi ekoloji problemlərindən biri bərk tullantıların idarə olunması ilə bağlıdır. Yarımadada olan 5 məişət tullantıları poliqonunun ümumi sahəsi 232,5 hektardır. Qeyri-qanuni zibilliklərin sayı 130-dək, sahəsi isə 448,6 hektardır. Onların təxminən 35 faizi Əzizbəyov, 25 faizi isə Sabunçu rayonlarının ərazisindədir.

Rəsmi fəaliyyət göstərən poliqonlar ekoloji norma və standartlara cavab vermir. Belə ki, poliqonların əraziləri hasara alınmamış və nəzarət təşkil olunmamışdır, tullantılar boşaldılandan sonra torpaq qatı ilə örtülərək basdırılmır. Çeşidlənmə aparılmadığından təhlükəli və bir sıra sənaye tullantıları məişət tullantıları ilə birlikdə poliqonda yerləşdirilir.

Hazırda tullantıların idarə olunması ilə özəl şirkətlər – «UP–Azərbaycan», «ADES» Almaniya–Azərbaycan, «Kasko–RJP», «Kasko–Waste Services» Finlandiya–Çexiya–Azərbaycan birgə müəssisələri və yerli icra hakimiyyətlərinin mənzil-kommunal təsərrüfatı qurumları və bələdiyyə orqanları məşğuldur. Bu təşkilatlar tərəfindən tullantıların düzgün idarə olunmaması səbəbindən həm müvəqqəti toplanma məntəqələrində, həm də poliqonlarda yanma halları baş verir ki, bu da öz növbəsində ətraf mühitin, xüsusən də küləkli günlərdə Bakı şəhərinin atmosfer havasının daha çox çirklənməsi ilə nəticələnir.

Qeyd etməliyəm ki, əvvəlki illərdə olduğu kimi, indi Bakı şəhəri sənaye tullantıları, zavodların tüstüsü ilə əhatə olunmur. Onların həcmi 90-cı ilə nisbətən 5 dəfə azalmışdır. Bunun da təbii səbəbləri var. Yeni yaradılan müəssisələr müasir standartlara cavab verir. Köhnə müəssisələrin bir çoxu isə fəaliyyət göstərmir. Ancaq avtomobillərin sayı kəskin

şəkildə artmışdır və çirklənmədə 30–70 faiz rol oynayır. Amma bu, müəyyən saatlarda hiss edilir. Bakıda külək olmayanda səhər tezdən, yaxud cənub-şərq küləyi olanda müşahidə edilən, boğazı qıcıqlandıran boz rəngli hisin yeganə mənbəyi Balaxanı zibilxanasında mütəmadi baş verən qəsdən yandırılma, yəni yerin boşalması üçün məqsədli yandırılmadır. Yaxud özündən alışma prosesi gedir, çünki emal olunmuş tullantılar həddən artıq sıxlaşdırılmışdır. Bundan da ziyanlı nəticələr əmələ gəlir.

**İ l h a m  Ə l i y e v:** Bu barədə də müvafiq göstərişlər verilibdir. İndi İqtisadi İnkişaf Nazirliyi yeni zibil emalı zavodunun tikintisi ilə bağlı müəyyən tədbirlər görür. Biz tezliklə bunu həll etməliyik. Çünki Balaxanı zibilxanası böyük bir ekoloji fəlakətdir. Mən bir dəfə vertolyotla rayondan qayıdarkən onun üzərindən keçirdim. Çox böyük bir bəladır və onu aradan qaldırmaq, orada vəziyyəti yaxşılaşdırmaq çox çətin olacaqdır. Yeni zibil emalı zavodunun tikintisi, əlbəttə, bu məsələyə kömək göstərəcəkdir. Ancaq buna əgər indi başlasaq, haradasa iki il vaxt aparacaqdır. Fikirləşin, bu iki il ərzində nə etməliyik ki, orada vəziyyəti bir az sağlamlaşdıraq.

**H ü s e y n q u l u  B a ğ ı r o v:** Cənab Prezident, adi tullantılar üçün ayrılmış ərazidə, Sumqayıtın 11 kilometrliyində poliqon tikilir. Burada bütün proseslər ən yüksək standartlara cavab verəcəkdir. Bu da nümunə olmalıdır. Ayrı-ayrı iri müəssisələr özlərinin ərazisində belə poliqonlar tikməlidir ki, zavod tikilənədək tullantıları müvəqqəti orada saxlasınlar.

**İ l h a m  Ə l i y e v:** Bir problemi də qeyd etdiniz, buna daha da ciddi fikir vermək lazımdır. Torpaqların çoxu bataqlıqlaşır. Həm aeroport ərazisində, həm sahilboyu ərazilərdə. Mən vertolyotla uçanda görürəm, böyük ərazilər artıq bataqlığa çevrilir. Nə işlər görmək lazımdır?

**H ü s e y n q u l u  B a ğ ı r o v:** Cənab Prezident, bunlar əsas iki səbəbdəndir. Birincisi, neft tullantıları daşıyan kollektorlar, o cümlədən Hövsan kollektoru olduqca köhnədir və həddən artıq neft və məişət tullantılarını daşıyır. Xəzər dənizi də çirklənir və ətrafdakı çökək yerlərdə torpaq boşalır.

Fikir vermisinizsə, aeroportun uçuş-enmə zolağının ətrafında olan rəngbərəng gölməçələri də qidalandıran mənbə həmin ərazidə olan neft qurğularından az miqdarda axan, lakin yüksək konsentrasiyalı tullantılarla bərabər, həmin kollektordan olan sızmalardır. İkincisi isə həmin ətrafda yaradılan, infrastrukturu olmayan iri yaşayış məntəqələrinin tullantılarının axıdılmasıdır. Bunun bir çıxış yolu var ki, 5 min nəfər əhalisi olan məntəqələrdə 100-150 min manata başa gələn kiçik təmizləyici qurğular quraşdırılsın. Bunlar məhəllə-məhəllə də qoyula bilər ki, daxili şəbəkənin çəkilməsinə, ən bəsit üsulla qazma işlərinə pul xərcləmədən torpaq təmizlənsin və yenidən əhalinin istifadəsinə verilsin, bataqlığın qarşısı alınsın. Cənab Prezident, göllərlə bağlı hazırladığımız layihədə, ümumiyyətlə, onların qurudulması, çökəkliklərin doldurulması və yaşıllıqların salınması nəzərdə tutulmuşdur. Birinci növbədə işə aeroport ərazisində başlanması təklif olunmuşdur. Civə üsulu ilə kaustik soda və xlor istehsalı zamanı əmələ gələn təhlükəli tullantıların basdırılması üçün Sumqayıtda müəyyən işlər aparılmışdır. Lakin 40–45 min ton civəli tullantının basdırılmasına baxmayaraq, indinin özündə orada 200–210 min ton ən təhlükəli tullantı hələ də qalmaqdadır. Bu işin görülməsi həmin ərazilərdə ətraf mühitin kəskin şəkildə sağlamlaşmasına səbəb olacaqdır. Suraxanı rayonu ərazisində yod-brom istehsalı zamanı tərkibində radioaktiv maddələr olan tullantılar (45 min ton kömür) yaranmışdır. Bu istehsal sahəsi bazasında səhmdar cəmiyyətin yaradılmasına baxmayaraq, hələ də tullantılar bu ərazidə qalmaqdadır. Bundan başqa, neft-qazçıxarma və neft emalı müəssisələrində formalaşmış 142 min 300 ton neft tərkibli şlam müəssisələrin ərazilərində saxlanılır. Təhlükəli tullantıların yerləşdirilməsi üçün 4 poliqondan 2-nin vəziyyəti qənaətbəxş deyildir.

Abşeronun daş və qum karxanaları barədə. Ölkədə dövlət balansında qeydiyyata alınmış 22 əhəngdaşı yatağının 15-i yarımada ərazisində yerləşir. Qum yataqlarının sayı isə 3 ədəddir. Yataqlar altında qalan torpaq sahəsi 4577 hektar təşkil edir ki, bunun da 4300 hektarı əhəngdaşı yataqları, 277 hektarı isə qum yataqlarıdır. Əhəngdaşı yataqlarının ərazisinin təxminən 1000 hektarı sıradan çıxaraq yararsız hala düşmüşdür.

Digər hallarda olduğu kimi, yerin təkindən istifadə üçün də torpaq ayrılarkən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyinin nəzərə alınmaması nəticəsində yerin təkindən qanunsuz istifadəyə şəraitin yaradılması, yataqların istismarı zamanı köhnə texnologiyadan istifadənin böyük itkilərə səbəb olması, əvvəllər istismar olunmuş və istismarı başa çatmış karxanalarda rekultivasiya işlərinin aparılmaması, yerin təkindən istifadə üçün torpaqayırma zamanı sanitar-mühafizə zonasına əməl olunmaması, dövlət balansında qeydiyyata alınmış yataqların sanitar-mühafizə zonalarında və bu zonalara yaxın ərazilərdə (məsələn, Türkan və Zirə ətrafında) yerli icra hakimiyyəti və bələdiyyə orqanları tərəfindən yaşayış evlərinin tikintisi üçün torpaq sahələrinin ayrılması və s. ekoloji problemləri dərinləşdirən amillərdəndir.

Mövcud problemin aradan qaldırılması üçün ilk növbədə, yerin təkindən istifadə hüququnun verilməsi sahəsində bu gün mövcud olan boşluğun təcili aradan qaldırılması çox vacibdir.

Cənab Prezident, atmosfer havasının çirklənməsi ilə bağlı məlumat verdim. Ümumiyyətlə, 90-cı ilə nisbətən kəskin surətdə yaxşılaşma gedir. Çünki müəssisələrdə atmosferə atılan karbon qazının həcmi 60 milyon tondan 37 milyon tona enmişdir.

**İlham Əliyev:** Norma nə qədərdir?

**Hüseynqulu Bağırov:** İqtisadiyyatın gücü qədər. Biz Kiota Protokoluna 60 milyon tonla daxil olmuşuq. Ona görə bu qədər karbon qazının atmosferə buraxmasına ixtiyarımız var. Amma hazırda bunun həcmi 37-38 milyon tondur. Burada iki variant var: dünyada qəbul olunmuş karbon alverinə qoşulmaq, yaxud da ehtiyatda saxlamaq ki, bir zaman lazım olacaqdır.

**İlham Əliyev:** Buna ehtiyacımız yoxdur.

**Hüseynqulu Bağırov:** Bəli. Bundan başqa, 2 milyon tona yaxın da zəhərli tullantı atılırdı ki, onların da həcmi 800 min tona enmişdir. Bunun tərkibində avtomobillərin tullantıları 170 min tondan 500 min tona çatmışdır.

Problemin aradan qaldırılması üçün istismar edilən nəqliyyat vasitələrinin texniki vəziyyətinə nəzarətin gücləndirilməsini, istismarda olmuş nəqliyyat vasitələrinin idxalında məhdudiyyətlərin qoyulmasını, tullantıların idarə olunmasının təşkili və onların zibilxanalarda yandırılmasının qarşısının alınmasını və məşəllərdə yandırılan qazların zərərsizləşdirilməsini təklif edirik.

Çox sağ olun.

**Oqtay Şirəliyev:** Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Respublikanın bütün regionlarında olduğu kimi, Bakı şəhərində də quruculuq, təmir və abadlıq işlərinin aparılması ilə yanaşı, yaşayış məntəqələrinin ekoloji vəziyyətində, o cümlədən su təchizatında, kanalizasiya sistemlərində, çimərliklərin sanitariya vəziyyətində bir sıra nöqsan və çatışmazlıqlar mövcuddur.

Hələ keçən əsrin 70–80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin gərgin səyi nəticəsində ümumi dəyəri 400 milyon manat təşkil edən Bakının böyük kanalizasiyasının tikintisi layihələndirilmiş və inşasına başlanılmışdı. Lakin sonrakı illərdə bu iş başa çatdırılmamışdır. Hazırda Bakı şəhərinin yalnız 78 faizi mərkəzləşdirilmiş kanalizasiya sisteminə qoşulmuşdur. Çirkab suların ümumi həcminin 27 faizi təmizlənmədən Xəzər dənizinə axıdılır.

Hazırda fəaliyyətdə olan Hövsan aerasiya stansiyasına daxil olan çirkab suların mexaniki və bioloji təmizlənməsi tam təmin edilmir. İndiyədək çirkab suları qəza xətti ilə

dənizə axıdılır. Bununla yanaşı, şəhərin bir sıra yaşayış məntəqələrinin çirkab suları da təmizlənmədən birbaşa dənizə axıdılır. Belə ki, Badamdar, Bibiheybət qəsəbələrinin və 20-ci Sahə yaşayış məntəqəsinin təsərrüfat-məişət çirkab suları bilavasitə əhalinin kütləvi istirahət yeri olan Şıx çimərliyinin yaxınlığında dənizə buraxılır.

Qobustan qəsəbəsinin çoxmərtəbəli binalarının, Xətai rayonunda Zığ yolu boyunca Əbilov və Naximov qəsəbələri ərazilərində tikilən fərdi yaşayış evlərinin çirkab suları isə dənizkənarı sahəyə, oradan da dənizə axıdılır.

Əzizbəyov rayonunun Pirallahı qəsəbəsi üçün nəzərdə tutulmuş kanalizasiya təmizləyici qurğuları səmərəli işləmədiyindən çirkab suları təmizlənmədən bilavasitə dənizə buraxılır. «Zeytun» sovxozu adlanan ərazidə tikilən yaşayış evlərinin çirkab suları yaxınlıqdakı boş əraziyə axıdılaraq burada çirkab gölməçəsi yaratmışdır. Bəzi hallarda kanalizasiya sistemləri olmadığına görə çirkab suları ətraf göllərə axıdılır. Belə ki, Xocasən qəsəbəsinin şəxsi evlərindən xaric olan çirkab suları Xocasən gölünə, Binəqədi, Rəsulzadə qəsəbələrinin, «Baksol» yaşayış sahəsindən, o cümlədən 60-a qədər fərdi donuzçuluq təsərrüfatından çirkab suları Böyükşor gölünə, Suraxanı rayonunun Bülbülə və Əmircan qəsəbələrinin çirkab sularının əsas hissəsi Bülbülə gölünə buraxılır.

Yasamal rayonunun 1-ci Alatava massivində tikilmiş fərdi evlərin çirkab və lay suları köhnə daş karxanasının yerində yaranmış süni gölə axıdılır. Belə faktlar başqa yaşayış məntəqələrində də mövcuddur.

Respublikanın ikinci iri sənaye şəhəri olan Sumqayıtda da çirkab suların tam təmizlənib zərərsizləşdirilməsi təmin edilmir. Belə ki, «Üzvisintez» zavodunun nəzdində olan təmizləyici qurğuların layihə gücü sutkada 182 000 kubmetr olduğu halda, şəhər ərazisindən çıxan çirkab suların həcmi sutkada 252 000 kubmetr təşkil edir və nəticədə 70 000 kubmetr çirkab suları təmizlənmədən 9 nöqtədən Xəzər dənizinə axıdılır.

Hazırda fərdi evlərin tikintisi geniş vüsət almışdır. Lakin bunların tikintisi üçün müvafiq kommunikasiyaları olmayan ərazilər ayrılır. Məsələn, Saray qəsəbəsində fərdi tikintilər üçün nəzərdə tutulmuş ərazinin kanalizasiya sisteminin layihə-smeta sənədlərinin hələ 1999-cu ildə razılaşdırılmasına baxmayaraq, indiyədək onun tikintisi başlanmamışdır. Ceyranbatan su hövzəsinin yaxınlığında fərdi tikililərin yerləşməsini nəzərə alaraq yağış sularının kanalizasiya-drenaj sisteminin layihəsinin hazırlanması barədə Səhiyyə Nazirliyinin təklifi bu günə kimi həll olunmamışdır. Son illərdə Bakı şəhərində çoxmərtəbəli binaların inşası zamanı mövcud tikinti norma və qaydalarının, eləcə də gigiyena normativlərinin tələblərinin kobud surətdə pozulması faktlarını da qeyd etmək vacibdir. Belə ki, yeni tikintilər çox hallarda şəhərin mərkəzi hissəsində, əhalinin daha sıx məskunlaşdığı yerlərdə aparılır və ərazinin kiçik olması səbəbindən əhalinin sıxlığı həddən artıq çoxalır. Bu da insan sağlamlığı üçün zəruri olan bir çox gigiyenik normativləri gözləməyə imkan vermir. Binaların bir-birinə, o cümlədən köhnə tikililərə yaxın tikilməsi, ilk növbədə, təbii hava axınının çətinləşməsinə və mikroiqlimin digər göstəricilərinin də pozulmasına gətirib çıxarır. Yeni layihələr üzrə tikilən evlərdə mənzillərin bir qismi dalan sistemi ilə yerləşdirildiyindən mənzillərə havanın təbii axını olmur. Belə şəraitdə qısa müddətdə otaqlarda havanın həm fiziki və həm də kimyəvi göstəriciləri pisləşir.

Bu, binalardakı mənzillərə təbii işığın düşməsində də ciddi çətinliklər yaradır və sakinləri düz düşən təbii günəş şüalarından məhrum edir.

Bununla yanaşı, binalara nəqliyyat vasitələrinin, xüsusilə təcili yardım, yanğınsöndürmə maşınlarının və digər xidmət nəqliyyatının yaxınlaşması məsələsi də çox problem yaradır.

Bütün bunları nəzərə alaraq respublika sanitariya-epidemioloji orqanları tərəfindən obyektlərin tikintisinin layihələşdirilməsi dövründə ətraf mühitin mühafizəsi tədbirlərinin

yerinə yetirilməsi üzərində nəzarət gücləndirilmişdir. Belə ki, 2005-ci ilin axırlarında və 2006-cı ilin ötən dövrü ərzində ətraf mühitin mühafizəsi üzrə tədbirlərin lazımi səviyyədə nəzərə alınmaması səbəbindən bir sıra obyektlərin layihələrinə mənfi rəylər verilmişdir. O cümlədən, Balaxanı qəsəbəsində beton zavodunun tikintisinə, Qaradağ rayonunda gips istehsalı, Səngəçal qəsəbəsində modul tipli elektrik stansiyasının tikintisi və s. Sanitariya norma və qaydalarına cavab vermədiyi üçün Bakı şəhərində 17 yaşayış evinin tikintisinə icazə verilməmişdir.

Bundan əlavə, dövlət sanitariya nəzarəti orqanları ilə razılaşdırılmadan qəbiristanlıqdan 5–10 metr aralıda Şərifzadə küçəsində aparılan tikintinin, Nizami rayonunda məktəbin sanitariya mühafizə zonası gözlənilmədiyinə görə tikintinin dayandırılması barədə qərar çıxarılmış və Bakı Şəhər İcra Hakimiyyətinə göndərilmişdir. Təkcə 2005-ci ilin axırlarında və 2006-cı ildə yaşayış məntəqələrinin sanitariya təmizliyinə görə, ərazidə torpağın mühafizəsi qaydalarının pozulmasına görə, su təchizatında, kanalizasiya sistemlərində nöqsanlara görə 147 nəfər vəzifəli şəxs cərimələnmişdir.

Digər problem Abşeron yarımadası və Xəzərsahili çimərliklərdir. Onların sanitariya-mühafizə zonalarına çirkab suların axıdılması, dəniz suyunun bakterioloji çirklənməsi müxtəlif xəstəliklərin əmələ gəlməsinə şərait yaradır. Şıx, Novxanı, Buzovna çimərliklərinin və Şüvəlan–Mərdəkan sahələrinin suyunun mikrobioloji göstəricilərinin normadan 20 dəfə yüksək olması səbəbindən həmin ərazilərdən çimərlik kimi istifadə olunması dövlət sanitariya-epidemioloji nəzarəti orqanları tərəfindən qadağan edilmişdir. Lakin qərarın çıxarılmasından bir aydan yuxarı vaxt keçməsinə baxmayaraq, indiyədək çimərlik rəhbərləri tərəfindən onun icrası təmin olunmur. Ona görə hazırda biz Azərbaycan Respublikası Ali Məhkəməsinə müraciət etmişik.

Möhtərəm cənab Prezident!

Yuxarıda sadalanan ekoloji problemlər və digərləri Sizin nəzərinizdədir. Belə ki, Bakı şəhəri qəsəbələrinin 2006-2007-ci illər üzrə sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair qəbul olunmuş proqramda su və kanalizasiya sistemlərinin təmiri, tikintisi üçün 30 milyon manat məbləğində vəsait ayrılmışdır ki, bunun da 23 milyon manatı kanalizasiya xətlərinin bərpasına sərf olunacaqdır. Daha bir vacib qərar Fövqəladə Hallar Nazirliyi nəzdində Tikintidə Təhlükəsizlik İşləri üzrə Agentliyin yaradılmasıdır. Bu da tikintidə baş verə biləcək, o cümlədən tikinti üçün torpaq sahələrinin ayrılması, tikintidə istifadə olunacaq inşaat materiallarının keyfiyyəti, sanitariya-mühafizə zonalarının gözlənilməsi, lazımi yolların çəkilməsi sahəsində olan nöqsan və çatışmazlıqların qabaqcadan qarşısının alınmasına imkan verəcəkdir.

Əminik ki, görüləcək bütün bu tədbirlər Bakı şəhəri əhalisinin, xüsusən gələcək nəslin sağlam ekoloji mühitdə yaşamasını təmin edəcəkdir.

Diqqətinizə görə minnətdaram.

**İlham Əliyev:** İndi ekoloji vəziyyətin insanların səhhətinə təsiri haqqında dünyada kifayət qədər məlumatlar var, kitablar var, dissertasiyalar müdafiə olunubdur. Azərbaycanda da gərək bu təhlil daha da dəqiq aparılsın. Ekoloji vəziyyətin insanların sağlamlığına olan təsiri və onun nəticələri haqqında geniş təhlil işləri aparılmalıdır. Biz bunu onsuz da bilirik. Bu həqiqətdir ki, ekoloji vəziyyət bərbad olanda, əlbəttə, insanların sağlamlığına mənfi təsir göstərir. Amma bunu da tam dəqiqliklə bilməliyik ki, hansı xəstəliklərə gətirib çıxarır. Azərbaycanda bu təsir nə dərəcədə yüksəkdir, insanların sağlamlığına nə dərəcədə təsir göstərir? Yəni biz buna kompleks şəkildə baxmalıyıq.

Bütövlükdə, ekoloji tədbirlərin görülməsinin də əsas məqsədi insanlarımızın sağlamlığını qorumaqdır. Əlbəttə ki, təmiz dəniz, təmiz torpaq, meşələr, təbiət – bu, dünyanın gələcəyinə lazımdır, bəşəriyyətin inkişafına lazımdır. Eyni zamanda, bizim üçün əsas məqsəd insanlarımızın sağlamlığıdır. Ekologiyanın bərbad vəziyyətdə olması, ilk növbədə, insanlarımızın sağlamlığına mənfi təsir göstərir, Azərbaycan millətinin genefonduna böyük zərbə vurur. Ona görə də mən istəyirəm ki, bu məsələlərə kompleks şəkildə yanaşaq.

Ekoloji vəziyyətin yaxşılaşması, insanların sağlamlığının təmin olunması, havanın təmizlənməsi, Bakının içməli su ilə təmin edilməsi, Şimal dağlarından çəkiləcək su kəməri – hamısının məqsədi məhz bundan ibarətdir. Eyni zamanda, bəlkə ekoloji məsələlərə bilavasitə bunun aidiyyəti yoxdur, ancaq mənə verilən məlumata görə, Azərbaycanda istehsal olunan məhsulların da bəzi hallarda tərkibi standartlara o qədər də uyğun gəlmir. Harada ki, ekoloji normalar pozulur, standartlar pozulur, orada çox ciddi sanksiyalar tətbiq olunmalıdır. Mən hesab edirəm ki, cərimələr burada çox böyük təsir göstərməz. Çünki iri şirkətlər var, onların böyük gəlirləri var. İndi Hüseynqulu Bağırov dedi, o cərimələrdən cəmi nə qədər pul yığılıbdır, köhnə pulla 650 milyon manat.

**Hüseynqulu Bağırov:** 2001-ci ildə 650 milyon, 2005-ci ildə 5 milyard manata yaxın.

**İlham Əliyev:** 5 milyard, yəni yeni pulla 1 milyon manat. Ancaq bəzi şirkətlər üçün 1 milyon artıq o qədər də böyük cərimə deyildir. Ona görə ciddi sanksiyalar tətbiq olunmalıdır. O şirkətlər bağlanmalıdır, o istehsalatlar bağlanmalıdır. Buna həm Səhiyyə Nazirliyi, həm Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, bütün digər aidiyyəti qurumlar baxmalıdırlar. Çünki bizim üçün əsas vəzifə insanlarımızın sağlam olmasıdır, gənc nəslin, uşaqların sağlamlığıdır.

Mən yenə də deyirəm, bizim iqtisadi göstəricilərimiz çox yaxşıdır, iqtisadi imkanlarımız artır. Ancaq bu tərəfdən insanlarımızın sağlamlığı zərbə altındadır, ekoloji vəziyyət bərbad, sanitariya normalarına riayət olunmur, kanalizasiya suları təmizlənmədən dənizə axıdılır. Neft şirkəti bütün torpaqları çirkləndirir. Neft şirkətini biz son zamanlar tərifləmişik və böyük uğurları var. Amma bu gün tənqid etməliyik. Çünki uzun illərdir bu məsələyə heç bir əhəmiyyət verilmirdi, heç bir vəsait qoyulmurdu. Düzdür, vaxt var idi maddi imkanlarımız yox idi, indi bu imkanlar var. İndi neft şirkətinin özünün imkanları var, başqa şirkətlərin imkanları var, «Azərikimya»nın imkanları var. Bu sahəyə diqqət göstərilməlidir. Bu bizim gələcəyimizdir, millətimizin sağlamlığı bir nömrəli məqsəddir.

İndi Bibiheybət neft yatağından söhbət düşdü. Mən bu yaxınlarda dağa çıxmışdım, oradan aşağı baxırdım. Bu, demək olar ki, ekoloji fəlakətdir. Özü də buradan, mərkəzdən beş dəqiqəlik yoldur. Təcili olaraq vəziyyətin aradan qaldırılması üçün işlər görülməlidir və mən neft şirkətinə artıq göstəriş verdim. Mənə deyirlər iki ilə, iki il çoxdur. Qısa müddət ərzində ora tamamilə təmizlənməlidir. Belə sahələr çoxdur və buna çox böyük diqqətlə yanaşmalıyıq.

Bir də demək istəyirəm, mən hesab edirəm, bugünkü müşavirənin nəticələri məhz bundan ibarət olacaq ki, bütün bu məsələlərə kompleks şəklində baxaq və lazımi qərarlarımızı verək.

**Hacıbala Abutalıbov:** Möhtərəm Prezident!

Sizin bu diqqətiniz xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin paytaxtımızın inkişafına, ekoloji durumuna, Xəzər dənizinin təmizliyinə, yaşıllıqlar zolağının salınmasına göstərdiyi böyük qayğının davamıdır. Xüsusilə vurğulamaq lazımdır ki, Sizin rəhbərliyiniz altında Bakı Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə verdiyiniz göstəriş və tapşırıqlar, həmçinin Bakı qəsəbələrinin sosial-iqtisadi inkişafı ilə bağlı imzaladığınız çox mühüm sərəncam Bakının və onun qəsəbələrinin sosial-iqtisadi və ekoloji problemlərinin həllinə çox böyük təkan vermişdir.

Bununla belə, qeyd etmək lazımdır ki, son illərdə Bakı şəhərinin iqtisadi baxımdan sürətlə inkişafı, şəhərin və onun qəsəbələrinin əhalisinin xeyli artması, şəhərə normadan artıq minik və yük maşınlarının daxil olması, quruda neft hasilatı zamanı və kanalizasiya sisteminin lazımi səviyyədə olmaması nəticəsində yaranan zəhərli və çirkab suların təmizlənmədən ərazilərə və Xəzər dənizinə axıdılması şəhərin ekoloji vəziyyətində müəyyən

problemlər yaratmışdır. İcazə verin Bakı şəhərinin ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün həlli vacib olan əsas problemləri Sizin diqqətinizə çatdırım.

Əsas problemlərdən biri Azərbaycan Dövlət Neft Şirkətinin, Xəzər Dəniz Gəmiçiliyinin və digər qurumların tabeliyində olan, Bakı şəhərinin Xəzər dənizi sahili boyunca yerləşən və müasir standartlara cavab verməyən müəssisələri tərəfindən və quruda neft hasilatı zamanı yaranmış çirkab suların təmizlənmədən ətraf ərazilərə və ya Xəzər dənizinə axıdılmasıdır. Neft quyularından çıxan zəhərli və çirkab suların təmizlənmədən ərazilərdə uzun illər yaranmış süni gölməçələrə və Xəzər dənizinə axıdılması həmin ərazilərin və dənizin çirklənməsinə səbəb olur. Eyni zamanda, bu suların bioloji normalara cavab verməyən vəziyyətdə, mexaniki təmizlənmə aparılmadan böyük əraziləri əhatə edən kanallar vasitəsilə dənizə axıdılması həmin suların torpaqlara sızmasına və buxarlanma nəticəsində ətraf mühitin havasının zəhərlənməsinə gətirib çıxarır.

Möhtərəm Prezident, Bakı Şəhər İcra Hakimiyyəti şəhərin ekoloji vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar yuxarıda sadalanan problemlərin həlli üçün aşağıdakı təklifləri diqqətinizə çatdırır.

Birincisi, quruda neft hasilatı zamanı yaranmış çirkab suların axıdıldığı ərazilərin neft tullantılarından təmizlənməsinə, bu ərazilərin rekultivasiya olunaraq yararlı hala gətirilməsinə, həmin ərazilərdə yaşıllıq zolaqlarının salınmasına nail olmaq və neft tullantılarının birbaşa dənizə axıdılmasının qarşısını almaq üçün Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən müasir texnoloji üsullarla işləyən bioloji təmizləyici qurğuların tikilib istifadəyə verilməsi.

İkincisi, Bakı şəhərinə verilən və əhali tərəfindən istifadə edilən suyun miqdarına uyğun olaraq çirkab suların təmizlənməsi üçün «Azərsu» Səhmdar Cəmiyyəti tərəfindən Bakının ayrı-ayrı qəsəbələrində müstəqil bioloji təmizləyici qurğuların tikilib istifadəyə verilməsi.

Üçüncüsü, Bakı şəhərində ekoloji tarazlığın qorunub saxlanılması üçün müasir tələblərə cavab verən bərk məişət tullantılarını emal edən zavodların tikilməsi, həmin tullantıların normativ əsaslarla daşınması üçün avtomaşınların və konteynerlərin alınması.

Dördüncüsü, nəqliyyat vasitələrindən atmosferə atılan zəhərli qazların qarşısını almaq üçün istismar müddəti ötmüş avtomobillərin şəhər ərazisində hərəkətini məhdudlaşdırmaq, əhalinin köhnə və ucuz avtomobillərə nisbətən yeni avtomobillərin alınmasında maraqlı olmasına şərait yaradılması üçün dünya dövlətlərinin təcrübəsindən istifadə etmək.

Beşincisi, rayonlardan və xaricdən ticarət məqsədi üçün Bakı şəhərinə daxil olan iri yük avtomobillərinin qarşısını almaq üçün terminalların, müasir tipli anbarların və iri ticarət mərkəzlərinin şəhərdən kənarda yerləşdirilməsi.

Möhtərəm Prezident, Sizi əmin edirik ki, şəhər icra hakimiyyəti çox mühüm əhəmiyyət kəsb edən məsələ – Bakı şəhərinin ekoloji vəziyyətinin yaxşılaşdırılması ilə bağlı Sizin qarşımızda qoyduğunuz tapşırıq və göstərişləri rəhbər tutaraq onların yerinə yetirilməsi üçün bütün səylərini və imkanlarını əsirgəməyəcəkdir. Diqqətinizə görə sağ olun.

**İlham Əliyev:** Siz köhnə avtomobillərin azaldılmasını təklif edirsiniz. Əlbəttə, burada dünya praktikasını biz gərək öyrənək. Məndə olan məlumata görə, inkişaf etmiş ölkələrdə məhdudiyyət var, köhnə avtomobillər ölkəyə idxal edilmir. Yəqin ki, biz də buna yaxınlaşmalıyıq, amma eyni zamanda, Azərbaycanın indiki durumunu biz gərək nəzərə alaq. İnsanlarımızın imkanlarını nəzərə almalıyıq. İnsanlarımızın hələ imkanı yoxdur ki, kütləvi şəkildə təzə avtomobillər alsınlar. Ona görə ucuz qiymətə köhnə avtomobillərin alınması baş verir. Biz bunun qarşısını belə inzibati yollarla ala bilmərik. Nə vaxt iqtisadi imkanlar artacaq, əlbəttə, biz bunu etməliyik və edəcəyik. Ancaq gərək biz buna yavaş-

yavaş, tədricən yaxınlaşaq. Eyni zamanda, siz təklif edirsiniz, biz rayonlardan gələn maşınları saxlayaq, Bakıya buraxmayaq?

**Hacıbala Abutalıbov:** Yox, yox.

**İlham Əliyev:** Bəs necə?

**Hacıbala Abutalıbov**: Şəhərdə olan iri ticarət mərkəzlərinə, əsasən, rayonlardan 54 min 117 maşın gəlir. Onların qarşısını almaq üçün iri ticarət mərkəzlərini şəhərdən kənarda yerləşdirmək, orada böyük anbarların və terminalların tikilməsinə və dairəvi yolun birbaşa istifadəsinə nail olmaq.

**İlham Əliyev:** Bəli, buna baxmaq olar. Ancaq biz qadağa qoya bilmərik ki, rayonlardan Bakıya gəlməsinlər. Düzdür, biz indi Bakının nəqliyyat problemlərini həll edirik, yeni körpülər salınır, yeni yollar açılır. Sizə də mən göstəriş vermişəm ki, şəhərdə yeni yolların açılması üçün tədbirlər görülsün. Gərək biz buna kompleks şəkildə yanaşaq ki, insanların gündəlik həyatına müdaxilə etməyək. Ancaq bunu elə tənzimləyək ki, işlər yaxşı getsin, eyni zamanda, insanları biz incitməməliyik. Rayonlardan da Bakıya gəlirlər. Ona görə gəlirlər ki, burada imkanlar daha da genişdir. Ona görə gəlirlər ki, burada alış-veriş işləri ilə məşğuldurlar. Bununla yanaşı, siz şəhərin təmizlik məsələlərinə daha da böyük diqqət göstərin. İndi şəhərin mərkəzi təmizdir və bunu hamı da görür, etiraf edir. Bakıya gələn xarici qonaqlar da həmişə bunu vurğulayırlar ki, çox təmiz şəhərdir, təmizlik işləri burada yaxşıdır. Ancaq şəhərin kənarında vəziyyət belə deyildir.

**Hacıbala Abutalıbov:** Vəziyyət ağırdır.

**İlham Əliyev:** Ağırdır. Mən özüm qəsəbələrdə, şəhərin müxtəlif yerlərində tez-tez oluram. Özüm gedirəm, vəziyyətlə tanış oluram və bəzi hallarda görürəm ki, ora zibilxana, bura zibilxana, magistral yolların sağında, solunda polietilen torbalar. Bu, dəhşətli bir mənzərədir. Mən dedim ki, aydınlaşdırın, baxın, bununla necə mübarizə aparmaq olar.

Misal üçün, Şamaxı yolunun sağı da, solu da, haraya baxırsan hər tərəf belə torbalardır. Biabırçılıqdır. Abşeron rayonu deyir ki, bu, Binəqədinin ərazisidir, siz deyirsiniz ki, bu, Abşeronun ərazisidir. O torbaları da külək gah oraya aparır, gah buraya aparır. Belə də qalır. Yolun bir tərəfi Binəqədi, o biri tərəfi Abşeron rayonu. Elədir?

**Hacıbala Abutalıbov:** Düzdür, elədir.

**İlham Əliyev:** Yaxşı, buna bir çarə qılın. Yəni bu təmizlik işləri bütün şəhərlərdə, kəndlərdə getməlidir. Yenə də deyirəm, şəhərin mərkəzində işləri yaxşı qurmusunuz, bütün ətraf yerlərdə də təşkil edin.

**Hacı bala Abutalıbov:** Baş üstə.

**İlham Əliyev:** Yaxşı, əyləşin. Ramil Usubov cinayət məsuliyyəti ilə bağlı arayış vermək istəyirdi.

**Ramil Usubov** (*Daxili İşlər naziri*): Cənab Prezident, bildirmək istəyirəm ki, Cinayət Məcəlləsində belə maddə var. Əgər bu tullantılar faunanın, floranın kütləvi məhvinə gətirib çıxarırsa və insanın ölümü, şikəst olması ilə nəticələnən hallar olursa, bu hallarda cinayət işi qaldırmaq olar. Yəni cinayət məsuliyyətinə cəlb etmək olar. Cənab Prezident, ümumiyyətlə, cərimələr də çox kiçikdir və bu, fayda vermir. Məsələn, tutaq ki, nəqliyyat vasitələrində ekologiyanı pozan hallar müşahidə olunur. Yəni maşın həddsiz tüstü verir və xəttə buraxılır. Amma cəriməsi nədir? Keçmiş pulla cəmi 20 min manat, indiki pulla 4-5 manatdır. Biz ötən il 6 min belə maşın tutub cərimələmişik. Amma bu, səmərə vermir. Təklif edirəm, bu cərimələr yüksəldilsin. Həm cinayət məsuliyyətinin sanksiyaları daha yüksək olsun, həmçinin də cərimələr daha da yüksəldilsin.

**İlham Əliyev:** Mən razıyam, bunu hazırlayın, biz qəbul edək. Ancaq belə maddə var, gərək baxaq. Bu maddə ilə nə qədər adam məsuliyyətə cəlb olunubdur? Yəqin ki, heç kim.

**Ramil Usubov:** Cənab Prezident, elədir.

**İlham Əliyev:** Yaxşı, əyləşin.

**V a q i f  Ə l i y e v** (*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Sumqayıt nəhəng sənaye müəssisələrini özündə cəmləşdirdiyi üçün ekoloji vəziyyət baxımından keçmiş İttifaqın ən gərgin şəhərlərindən biri olmuşdur. Bu vəziyyətin yaranmasının əsas səbəbi şəhərin kiçik inzibati ərazisində onilliklərlə müxtəlif zəhərli texnologiyaların yerləşdirilməsi, təbiətə ziyan vuran obyektlərin ifrat sıxlığı idi. Sumqayıt şəhərində ekologiya məsələlərinə münasibət 70-ci illərdən başlayaraq müsbət mənada sürətlə dəyişmişdir. Ulu öndərimiz Heydər Əliyevin ciddi səyləri nəticəsində ekoloji tədbirlərin mərkəzləşmiş qaydada maliyyələşdirilməsinin aparılmasına başlanılmış, şəhərin sənaye müəssisələrində 200-dən çox qaz-toz tutucu qurğular, sutkada 360 min kubmetr çirkab suları təmizləməyə imkan verən 23 lokal su qurğuları, gücü sutkada 182 min kubmetr olan ümumşəhər sutəmizləyici qurğusu tikilib istifadəyə verilmiş, ildə 170 min ton istehsalat tullantılarını utilizə və təkrar emal edən texnologiyalar mənimsənilmişdir.

Lakin həyata keçirilən bu işlərlə yanaşı, Sumqayıtda İttifaq qərarları ilə ekoloji ziyanlı sənaye obyektlərinin də intensiv qaydada tikilib istifadəyə verilməsi davam etdirilmiş, bu da öz növbəsində, görülən ekoloji tədbirlərin səmərəsini azaltmışdır.

Keçmiş İttifaqın dağılmasından və respublikamız müstəqillik əldə etdikdən sonra şəhərdə bir sıra iri çirklənmə mənbəyi olan sənaye obyektlərinin istismarı dayandırılmış, digər obyektlər isə böyük fasilələrlə layihə güclərinin 10–12 faizi səviyyəsində işləmişdir. Nəticədə Sumqayıt şəhərinin ekoloji fonunda əhəmiyyətli dərəcədə müsbət dəyişikliklər olmuş, su hövzəsinə çirkab suların axıdılmasının həcmi ildə 450–500 milyon kubmetrdən 76,3 milyon kubmetrə, atmosferə atılan tullantıların miqdarı ildə 200 min tondan 31,9 min tona qədər enmişdir. Sumqayıt şəhərində fəaliyyət göstərən iki istilik elektrik mərkəzinin, «Azərboru» Səhmdar Cəmiyyətində marten sobalarının istismardan dayanması, kimya sənayesi müəssisələrində bir sıra istehsal sexlərinin müxtəlif səbəblərdən istismar olunmaması hesabına atmosferə atılan tullantıların həcmi xeyli azalmışdır.

Şəhərdə uzun müddət həllini gözləyən mühüm problemlərdən biri elektroenergetika kompleksinin yeniləşdirilməsi idi.

Regionların sosial-iqtisadi inkişafı proqrami çərçivəsində nəzərdə tutulmuş və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci ilin avqust ayında təməlqoyma mərasimində iştirak etdiyi, ekoloji baxımdan daha üstün texnologiyaya malik 517 meqavat gücündə yeni elektrik stansiyasının tikintisi cədvəl üzrə davam etməkdədir.

Sumqayıtın Xəzərsahili zolağının uzunluğu 20 kilometrdən artıqdır. İl ərzində şəhərdə 43 milyon kubmetrə yaxın məişət çirkab suları əmələ gəlir. Şəhər üzrə 21 nöqtədən dənizə mütəşəkkil və qeyri-mütəşəkkil çıxışlar vardır. Sosial-ekoloji baxımdan ən əsas problemlərdən biri yaşayış zonasında əmələ gələn məişət çirkab suların təmizləyici qurğuya verilmədən birbaşa su hövzəsinə axıdılmasıdır.

Problemin həlli ilə əlaqədar 2005-ci ildə ölkə prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Sumqayıtda məişət çirkab sularının təmizlənməsi üçün sutkalıq gücü 200 min kubmetr olan ən müasir avadanlıqla təchiz ediləcək qurğunun inşasına başlanılmışdır. Mövcud təmizləyici qurğudan fərqli olaraq, bu qurğuya sənaye zonası deyil, yaşayış massivlərində yaranan məişət çirkab sularının nəqli nəzərdə tutulur. Qurğunun tikilib istismara verilməsi nəticəsində çirkab suların Xəzər dənizinə axıdılmasına son qoyulacaqdır.

Lakin bununla yanaşı, şəhərin 21-ci, 22-ci mikrorayonları, Hacı Zeynalabdin Tağıyev qəsəbəsi, Şirvan dəmir yolu stansiyası ərazilərində kanalizasiya xətlərinin çəkilməsi, kanalizasiya sistemlərində ötürücü qurğuların quraşdırılması, ərazilərdə yaranan məişət çirkab sularının mütəşəkkil qaydada təmizləyici qurğuya ötürülməsi probleminin həlli zərurəti yaranmışdır.

Sumqayıt şəhəri ərazisində antisanitariya vəziyyəti yaradan başlıca problemlərdən biri də uzun illər ərzində Abşeron rayonunun Saray qəsəbəsindən çirkab suların qeyri-mütəşəkkil şəkildə şəhərin 18-ci mikrorayonu ərazisinə və Ceyranbatan qəsəbəsindən şəhərin meşə-tinglik təsərrüfatının ərazisinə axıdılmasıdır. Şəhər ərazisində antisanitariya vəziyyəti yaradan mənbələrdən biri də yeraltı suların məişət çirkab sularının axdığı Hacı dərəsi kanalının boruya alınmamasıdır. Kanalın uzunluğu 8 kilometrdir. Təkcə Ceyranbatan qəsəbəsindən bu kanala sutkada 2 min kubmetrdən çox çirkab suları axıdılır. Eyni zamanda, Sumqayıt şəhəri ərazisində bataqlıq, gölməçə və subasmaların ümumi sahəsi 129 hektardan çoxdur. Bu da şəhər ərazisinin 1,4 faizini təşkil edir.

Sumqayıt şəhərində ildə təqribən 450 min kubmetr məişət tullantısı əmələ gəlir və bu, ümumşəhər poliqonuna daşınır. Tullantıların poliqona qeyri-mütəşəkkil daşınması və yandırılmasının, eləcə də kanalizasiyaya tökülməsinin qarşısı əsasən alınmışdır. Hazırda şəhər ərazisindən məişət tullantılarının daşınması işləri Azərbaycan–Almaniya birgə müəssisəsi tərəfindən həyata keçirilir. Müəssisə şəhərin bütün ərazisində məişət tullantılarının toplanması məqsədilə müasir tələblərə cavab verən qutuların qoyulması, məişət tullantılarının daşınması və ümumşəhər poliqonunda mütəşəkkil qaydada yerləşdirilməsi tədbirlərinin həyata keçirilməsini tam təmin edir.

Lakin Sumqayıt şəhərində məişət tullantılarını emal edən qurğunun tikintisi məsələsi daha kəskin durur. Bununla bağlı Almaniya mütəxəssisləri ilə əməkdaşlıq edirik. Şəhərdə əmələ gələn sənaye-məişət tullantıları ilə çirkləndirilmiş ərazilərin kadastrı, tullantıların toplanılması, kənarlaşdırılması və utilizasiyası üzrə konsepsiya hazırlanmışdır.

Son illər ərzində Sumqayıt şəhərində bir sıra yeni istehsal müəssisələri istifadəyə verilmiş, bu müəssisələrdə ekoloji baxımdan yüksək texnologiyalar tətbiq edilmiş, atmosferin və ətraf mühitin digər sahələrinin çirkləndirilməsinin qarşısı nisbətən alınmışdır.

Diqqətinizə görə sağ olun.

**Xoşbəxt Yusifzadə:** Hörmətli Prezident, bir şeyi demək istərdim ki, Azərbaycan Dövlət Neft Şirkətinin özünü özü ilə müqayisə etsək, 10–20 il bundan qabaq, yaxud ondan da əvvəl, doğrudan da, çox dəyişikliklər olubdur. Axır vaxtlar görülən işlərin sırasında deyə bilərəm ki, indi «Azəri», «Çıraq» yatağında quyulardan çıxan suyu təzədən laylara vurmaq qərara alınmışdır. Biz bununla, necə deyərlər, bir güllə ilə iki dovşan vururuq. Həm lay sularından azad oluruq, həm də lay təzyiqi saxlanılır. Orada lay suyunun dəniz suyu ilə fərqi ondadır ki, onun yuma imkanı daha çoxdur. Orada laylarda neftin artırılması daha çoxdur.

Biz bu yaxınlarda iki müştərək müəssisə düzəltmişik. Biri Binəqədidədir. Hörmətli Prezident, onu bilirsiniz, iki ildir Binəqədidə çox torpaqlar təmizləndi. İndi özümüz orada bir müəssisə yaratmışıq, 90 nəfər işləyir. Balaxanıda, başqa neft rayonlarında da çirklənmiş torpaqları təmizləyirlər. Bu ilin martında əsasən neftayırma zavodlarında suları təmizləməkdən ötrü yeni bir müştərək müəssisə yaratmışıq. Bu istiqamətdə işlər görülür.

Siz Bibiheybəti dediniz. Siz də getmişdiniz, «Azfen»in o sahəsini görəndən sonra, hesab edirəm ki, işləmək olar.

**İlham Əliyev:** Əlbəttə, görmüşəm ki, oranı necə abadlaşdırıblar.

**Xoşbəxt Yusifzadə:** Biz həmişə fikirləşirdik ki, o yerləri necə abadlaşdırmaq olar. «Azfen» elə abadlaşdırıb ki, fontan armaturları da rənglənibdir. Amerikada gördüyüm kimi, asfaltın içində rəngli-rəngli quyular qalır.

Hörmətli Prezident, mən çox sevinirəm, Sizə çox sağ olun deyirəm ki, bu məsələyə doğrudan da çox ciddi yanaşırsınız. Siz Balaxanı barədə dediniz, mən bir dəfə oradan keçib Pirşağıya getdim. Oraları görəndə, necə deyərlər, çiyrəndim. Mədənlərin içində o qədər çirkab gördüm ki. Orada olan tikililər də müsibətdir, kim necə istəyir tikir, necə istəyir düzəldir. Bütün

bunlar, doğrudan da, kompleks həll olunmalı işlərdir. Mədənlərin özünə də baxmaq, bəlkə bəzi hissələri saxlamaq lazımdır. Digər məsələlərə də ayrıca baxmaq lazımdır.

Diqqətinizə görə çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Elə ona görə istədim ki, biz bunlara bu gün kompleks şəkildə baxaq, bütün düzgün qərarları qəbul edək. Bütün bu işlərə gərək, necə deyərlər, mütərəqqi nöqteyi-nəzərdən yanaşaq. Hansı məsələ həll olunmalıdır, bunun yolu nədir, hansı qərarlar verilməlidir.

İndi Neft Şirkətinin imkanları artır. Əlbəttə, bir neçə il bundan əvvəl, misal üçün, mən Neft Şirkətinə heç deməzdim ki, gəlin pul qoyun, bu yerləri təmizləyin. Amma siz o sahəni dediniz, mən orada olmuşam. Xarici şirkətlər tərəfindən 30 milyon dollar xərclənibdir. Düzdür, təkcə təmizlənməyə yox, orada böyük tikinti aparılır. Eynilə həmin Bibiheybətin ərazisinin içində. Deməli, bunu etmək, hesab edirəm ki, mümkündür. Azərbaycan Dövlət Neft Şirkəti indi beynəlxalq şirkətlərin səviyyəsinə çıxmalıdır. Gələcəkdə ola bilsin ki, Azərbaycan Dövlət Neft Şirkəti başqa ölkələrdə işləyə, vəsait, sərmayə qoya bilər.

Bilirsiniz ki, beynəlxalq normalar da çox ciddidir. Ekoloji məsələlər birinci yerdə durur. Budur müasir yanaşma. Biz də buna getməliyik. İndi işlər belə gedir ki, imkanlarımız var, Neft Şirkətinin öz imkanları artır, dövlətin imkanları artır, Neft Fondunun imkanları artır. Biz diqqətimizi ilk növbədə gərək bu məsələlərə yönəldək.

Mədənlərdə olan bəzi xoşagəlməz vəziyyətə gəldikdə, mən də onları görmüşəm. Mədənin içində binalar, evlər tikilir. Axı orada yaşayanlar öz sağlamlıqlarını zərbə altında qoyurlar. Mədənin içində yaşayan, faktiki olaraq, zəhərlənir. Hər gün ciddi təftiş aparılmalıdır, orada onlara ev tikməyə kim icazə verib? O evləri orada necə tikiblər?

Mən bu yaxınlarda Goradil qəsəbəsinə getmişdim. Orada Müdafiə Nazirliyinin istirahət zonasının açılışında iştirak edirdim. Bütün bölgədən, mədənlərdən keçdim. Dəhşətli bir mənzərədir. Yaxud da biz Zabrat yolunu gedəndə, mədənlər düz yolun üstündədir, o tərəfdə insanlar yaşayır, bu tərəfdə neft hasil edilir. Siz qeyd etdiniz. Mən başa düşdüm nəyi nəzərdə tutursunuz. Baxın, bəlkə biz bəzi köhnə mədənləri artıq bağlayaq? Gəlin hesablayaq, onların səmərəliliyi nədir, gəliri nədir? Şəhərin ərazisində onları işlətməyə dəyərmi?

Biz indi gələcəyə gedirik. Yenə də deyirəm, ölkəmizin hər bir sahəsi yeniləşir, müasirləşir. Belə olan halda, təmizlik, abadlıq, quruculuq, ekologiya məsələlərinə böyük diqqət göstərməliyik.

Bəlkə daha kiminsə sözü, təklifi var.

**N a t i q Ə l i y e v** (*Sənaye və Energetika naziri*): Cənab Prezident, yəqin Xoşbəxt müəllimin də yadındadır, o vaxt, hələ sovet dövründə böyük bir plan qoyulmuşdu, rentabelliyi olmayan quyuların hamısı silinsin, ləğv olunsun. Silinmə prosesinin özü də çox mürəkkəb idi, yəni biz silinməyə bir neçə yüz quyu verirdik. Onun da mürəkkəb prosesi var. Bunu bir az yüngülləşdirmək lazımdır. Oradan çoxlu kommunikasiyalar keçir, bu gün onlar lazımsızdır. Vaxtilə oradan bir neçə məqsəd üçün bir-birinin üstündən boru xətləri, elektrik xətləri çəkilmişdir. Hesab edirəm, bunları da aradan götürmək lazımdır. Bu, ikinci məsələdir.

Xoşbəxt müəllim dedi, üçüncü məsələ ondan ibarətdir ki, neftlə çirklənmiş torpaqları təmizləmək işinə başlanılıb və müəssisə yaradılıbdır. Təklif edərdim ki, Bakı Şəhər İcra Hakimiyyəti yanında xüsusi bir şirkət, yaxud fond yaradılsın və yığılan bütün cərimələr və ayrılacaq vəsait orada toplansın və bütün işlər mərkəzləşdirilmiş qaydada görülsün. Çünki pərakəndəlik olacaqsa, bu heç bir səmərə verməyəcəkdir.

Mən hesab edirəm, böyük təbliğat işi aparmaq lazımdır. Biz Bakıətrafı qəsəbələrə baxırıq, çox gözəl evlər tikilir. Ancaq zibilləri oraya atırlar. Bir tərəfdən gözəl hasardır, amma gördüyünüz, bildiyiniz kimi, ətraf zibillikdir. Məsuliyyəti artırmaq lazımdır. Əgər

Bakı şəhərində mağaza, ofis, restoran varsa, onlara bir sahə verməliyik. Qoy onlar məsuliyyət daşısınlar. Xaricdə Siz çox olmusunuz, hamı olub, görmüşük, səhər saat 6-da hər kəs durub öz mağazalarını təmizləməyə başlayır. Təkcə öz mağazalarının şüşələrini deyil, ətraf sahəni də təmizləyirlər. Ona görə ki, onları məcbur edirlər. Bəlkə bizdə də bu cür məsuliyyəti artırmaq lazımdır.

İstərdik bizə vaxt verəsiniz, bu fikirlərin hamısını cəmləşdirək və Sizə təqdim edək.

Sağ olun.

## YEKUN NİTQİ

Bir də deyirəm, məsələlərə kompleks şəkildə yanaşmalıyıq. Əlbəttə, indi baxmalıyıq ki, hansı tədbirlər görüləcək, Neft Şirkəti özü hansı işləri görəcək, neftlə çirklənmiş torpaqları özü təmizləməlidir. Amma burada böyük əlaqələndirmə işləri də aparılmalıdır. Yəni pərakəndəlik olmamalıdır. Natiq Əliyev düz deyir. Hansısa bir qurum, yaxud da bir komissiya yaratmaq olar. Bütün aidiyyəti orqanlar orada təmsil olunsun və bütün bu məsələlər vahid proqram çərçivəsində həll edilməlidir. Torpaqların təmizlənməsi, Xəzər dənizinin təmizlənməsi, kanalizasiya sisteminin faktiki olaraq yenidən qurulması, təmizlik, abadlıq işlərinin görülməsi – bütün bunlar kompleks şəkildə aparılmalıdır. Ancaq bu təqdirdə biz istədiyimizə nail olacağıq.

Bir də demək istəyirəm ki, indi ölkənin maddi imkanları artır. İlk növbədə biz bundan istifadə edib onu insanlarımızın daha da yaxşı yaşamasına yönəltməliyik. İnsanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır. Biz bütün inkişaf etmiş ölkələrin təcrübəsini bilirik və görürük ki, o ölkələrdə bu məsələyə böyük diqqət göstərilir.

Hesab edirəm ki, qısa müddət ərzində tədbirlər planı hazırlanmalıdır, orada bütün sahələr öz əksini tapmalıdır: ekoloji vəziyyət, Xəzər dənizi, ətraf mühitə zərbə vuran təşkilatlar, onların fəaliyyəti, şəhər təsərrüfatının təkmilləşməsi və rolu, eyni zamanda, şirkətlərin fəaliyyəti. Ekologiya və Təbii Sərvətlər Nazirliyi, əlbəttə, burada aparıcı rol oynamalıdır. Eyni zamanda, hökumətə də tapşırıq verirəm ki, əlaqələndirmə işlərini ciddi aparsın.

Çox geniş proqram qəbul olunmalıdır.

Qeyd etdiyim kimi, proqramda bütün aspektlər öz əksini tapmalıdır. Maksimum proqram bu məsələləri əhatə etməlidir. Biz, əlbəttə, bunu tədricən, mərhələ-mərhələ həll edəcəyik. Ancaq istərdim ki, proqramda bütün məsələlər öz əksini tapsın. Maddi imkanlarımız bizə nəyə imkan verərsə, onu da biz edərik.

Hesab edirəm ki, biz artıq bu ildən başlamalıyıq. Gələn ili gözləməməliyik. Bu ilin sonuna hansı işlər görülə bilər? Buna da biz gərək maliyyə imkanlarını səfərbər edək. Bütün bu işləri qısa müddət ərzində görməliyik. Əminəm ki, bütün bu işlər görüləndən sonra gözəl şəhərimiz, Bakımız daha da gözəlləşəcək və insanlarımız daha da rahat, yaxşı yaşayacaqlar. Sağ olun.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**18-ci kitab: iyun 2006 - avqust 2006. - Bakı: Azərnəşr, 2014. – S. 165-201.**

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*(15 noyabr 2006-cı il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Prezident sarayında Almaniya Federativ Respublikasının nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, Almaniya nümayəndə heyətinin bu səfəri ölkələrimiz arasında inkişaf edən münasibətlərə yeni təkan verəcəkdir.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan–Almaniya əlaqələri siyasi, iqtisadi və digər sahələrdə sürətlə inkişaf edir. Almaniyaya iki il əvvəlki rəsmi səfərini məmnunluqla xatırladan prezident İlham Əliyev o vaxtdan keçən dövr ərzində ikitərəfli əlaqələrin, xüsusilə iqtisadi əməkdaşlığın inkişafı sahəsində böyük işlər görüldüyünü söylədi.

Dövlətimizin başçısı dedi ki, münasibətlərimiz həm ikitərəfli müstəvidə, həm də Azərbaycan–Avropa İttifaqı əlaqələri çərçivəsində uğurla inkişaf edir. Hazırkı mərhələdə Azərbaycan Avropa İttifaqı ilə yeni anlaşmalar imzalayır və əminəm ki, bu sahədə gələcək əməkdaşlığımız uğurlu olacaqdır.

Prezident İlham Əliyev vurğuladı ki, ətraf mühitin qorunması sahəsində də Azərbaycanın böyük planları və proqramları var. Azərbaycan rəhbərliyi ekologiya məsələlərinə çox böyük əhəmiyyət verir. Dövlətimizin başçısı bildirdi ki, Almaniya nümayəndə heyətinin bu səfəri həm ikitərəfli münasibətlərin inkişafı, həm də ətraf mühitin qorunması sahəsində əməkdaşlıq baxımından faydalı olacaqdır.

Nümayəndə heyətinin adından çıxış edən Almaniyanın Ətraf Mühit, Təbiəti Mühafizə və Nüvə Reaktorlarının Təhlükəsizliyi Nazirliyinin Dövlət katibi, parlamentin deputatı xanım Astrid Kluq dedi ki, artıq iki gündür Azərbaycandayıq və özümüz üçün çox maraqlı olan bir ölkəni kəşf etdik. Azərbaycan və Almaniyanı birləşdirən təkcə səmimi dostluq münasibətləri deyil, həm də müxtəlif istiqamətlərdə əməkdaşlıq, o cümlədən ətraf mühitin qorunması sahəsində geniş əlaqələr birləşdirir. İndiki səfərimiz də bu əməkdaşlığın təzahürüdür. Nümayəndə heyətimizə Bundestaqın deputatları, ekologiya sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının təmsilçiləri daxildir. Xanım Astrid Kluq xatırlatdı ki, Almaniyanın ekologiya ilə məşğul olan təşkilatları Azərbaycanla uğurlu əməkdaşlıq edir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**21-ci kitab: noyabr 2006 - dekabr 2006. - Bakı: Azərnəşr, 2015. – S. 47-48.**

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVƏ DÜNYADA ÇOX BÖYÜK NÜFUZA MALİK MİXAEL ZUKKOV FONDUNUN ALİ MÜKAFATI TƏQDİM OLUNMUŞDUR

***(15 noyabr 2006-cı il)***

Azərbaycanda təbiəti mühafizə sahəsində həyata keçirdiyi uğurlu siyasətə görə Prezident İlham Əliyevə Almaniyanın dünyada çox böyük nüfuza malik Mixael Zukkov Fondunun ali mükafatı təqdim olunmuşdur.

Bu münasibətlə noyabrın 15-də “Hyatt-Regensy” hotelinin “Quba” zalında keçirilən təqdimat mərasimində fondun idarə heyətinin üzvü Martin Oppenbrinq çıxış edərək təşkilatın fəaliyyəti, onun yaradıcısı və sədri Mixael Zukkov barədə məlumat verdi. O dedi ki, Mixael Zukkov 35 ildir həyatını və ömrünü təbiətə, insanlara həsr edir. 1997-ci ildə xidmətlərinə görə İsveç parlamenti onu alternativ Nobel mükafatına layiq görmüşdür. Qonaq bildirdi ki, Azərbaycan biomüxtəlifliyə görə dünyanın ən nadir bölgələrindən biridir və bu fondun maraq göstərdiyi ölkələrdəndir.

Mərasimdə çıxış edən fondun sədri Mixael Zukkov ilk dəfə 30 il bundan əvvəl Azərbaycana gəldiyini söylədi, Qobustan qayaları ilə tanışlıq zamanı respublikamızı qədim insan məskəni və əsrarəngiz təbiəti olan bir diyar kimi tanıdığını bildirdi. Azərbaycan müstəqillik qazandıqdan sonra 1990-cı illərin ortalarında ölkəmizə yenidən gəldiyini vurğulayan Zukkov ümummilli lider ilə görüşdüyünü və Prezident Heydər Əliyevdə ətraf mühitin mühafizəsi ilə bağlı son dərəcə maraqlı fikirlərin olduğunu diqqətə çatdırdı. O, ulu öndər Heydər Əliyevin sərəncamı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılmasını Azərbaycanda bu sahədə atılan ən mühüm addım kimi dəyərləndirdi və dedi ki, məhz Heydər Əliyevin müdrik və düzgün siyasəti nəticəsində Azərbaycanda milli parkların və qoruqların yaradılması istiqamətində ciddi nailiyyətlər əldə edilmişdir. Keçid dövrü yaşayan ölkələrin heç birində Azərbaycandakı qədər uğurlar qazanılmadığını xatırladan natiq dedi: demək olar ki, bu sahədə Azərbaycan liderdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlərə toxunan Mixael Zukkov son üç ildə qəbul olunan proqramların ekologiya və ətraf mühit üçün son dərəcə əhəmiyyətli olduğunu söylədi. O dedi ki, əgər 2003-cü ilə qədər xüsusi mühafizə olunan ərazilər 5 faiz təşkil edirdisə, Prezident İlham Əliyevin qətiyyətli səyləri nəticəsində Azərbaycanda xüsusi mühafizə olunan obyektlərin sahəsi ölkə ərazisinin 8 faizinə çatmışdır. Ölkənin müxtəlif regionlarında 6 milli park yaradılmışdır. Yaxın gələcəkdə yaradılacaq yeni milli parkları nəzərə alsaq, onda Azərbaycan ərazisinin 12 faizi təbii irs kimi qorunub saxlanacaqdır. Bu, çox böyük göstəricidir.

Sonra “Azərbaycanın mühafizə olunan təbiəti” adlı film nümayiş etdirildi.

Fondun prezidenti Mixael Zukkov ətraf mühitin mühafizəsi ilə bağlı göstərdiyi xidmətlərə görə fondun ali mükafatını Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Zukkov!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar, əziz qonaqlar!

Bu gün mənim həyatımda çox əlamətdar bir gündür. Mixael Zukkov Fondu tərəfindən mənə verilmiş bu yüksək mükafat, əminəm ki, Azərbaycanda son illər ərzində görülən işlərə verilən mükafatdır. Bu mükafat mənim üçün çox əzizdir, çox qiymətlidir.

Zukkov Fondu dünyada çox böyük hörməti olan qeyri-hökumət təşkilatıdır. Dünyanın müxtəlif ölkələrində çox böyük işlər görür və təbiətin qorunması işində bu fondun çox böyük xidmətləri vardır. O cümlədən Azərbaycanda biz Zukkov Fondunun fəaliyyətini çox yüksək qiymətləndiririk. Ona görə Zukkov Fondu kimi mötəbər beynəlxalq təşkilatın mükafatını almaq, əlbəttə ki, böyük şərəfdir. Eyni zamanda, - yəqin cənab Zukkovun çıxışından da bunu gördünüz, - Mixael Zukkov Azərbaycanın böyük dostudur, Azərbaycanı sevən bir insandır. Onun Azərbaycan cəmiyyətini belə gözəl bilməsi, kağıza baxmadan bütün milli parkların adlarını sadalaması, nəinki sadalaması, o milli parklardakı mövcud vəziyyətlə tanışlığı, əlbəttə, bizim hamımızı çox sevindirir. Ancaq təbiətin dostu, ancaq insanların dostu, ancaq xeyirxah insanlar bu yüksək keyfiyyətlərə malikdirlər. Ona görə, bu baxımdan da Fondun mükafatı mənim üçün çox əziz və qiymətlidir. Sizi əmin etmək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşması, ətraf mühitin qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm.

Azərbaycan indi inkişaf mərhələsindədir. Bizim iqtisadi inkişafımız çox sürətlidir. Azərbaycanda bütün sahələrdə böyük işlər görülür. Bu yaxınlarda Avropa Yenidənqurma və İnkişaf Bankının hesabatında Azərbaycan iqtisadi artım sürətinə görə dünyada birinci ölkə kimi qeyd olundu. Biz ümumi daxili məhsulun artımına görə dünyada lider dövlətik. Əlbəttə, biz bunu çox böyük qürur hissi ilə deyirik. Çünki dünyada hansısa sahədə birinci olmaq böyük nailiyyətdir. Xüsusilə iqtisadiyyatın əsas göstəricisi olan ümumi daxili məhsulun artımına görə. Bu onu göstərir ki, ölkənin həm bugünkü iqtisadi durumu müsbətdir, eyni zamanda, böyük perspektivləri var. Nəzərə alsaq ki, biz yüksək iqtisadi inkişaf sürətini gələcəkdə də saxlamaq niyyətindəyik, əlbəttə, qısa müddət ərzində, növbəti bir neçə il ərzində Azərbaycan hərtərəfli inkişaf edəcəkdir.

Sənaye istehsalının artımı, məncə, Azərbaycan bu göstəriciyə görə də dünyada lider dövlətdir. Bu il sənaye istehsalı təxminən 40 faiz artıbdır. Ancaq bununla bərabər, - təbii ki, müsbət tərəflər ilə yanaşı, müəyyən narahatlıq doğuran cəhətlər də var. Çünki hər bir sürətli inkişaf istər-istəməz ətraf mühitin qorunmasına mənfi təsir göstərə bilər. Sənayeləşmə prosesi gedəndə, əlbəttə ki, yeni müəssisələr fəaliyyətə başlayır, yeni iş yerləri açılır. Bunlar bizim üçün çox vacib məsələlərdir. Ancaq eyni zamanda, gərək elə edək ki, bizim təbiətimizə minimum zərbə dəysin. Məhz buna görə biz çalışırıq ki, öz ekoloji tədbirlərimizi geniş kontekstdə həyata keçirək.

Azərbaycanın böyük ehtiyacları var. Biz insanların həyat səviyyəsini yaxşılaşdırmaq üçün müxtəlif tədbirlər görürük - iqtisadi islahatlar, infrastruktur layihələrinin həyata keçirilməsi, yeni iş yerlərinin açılması və digər məsələlər. Ancaq bununla bərabər, ekoloji məsələlərə çox böyük diqqət göstərilir. Yeni milli parkların, qoruqların, yasaqlıqların yaradılması bu məqsədi güdür. Bu yaxınlarda Azərbaycanda çox böyük və konkret ekoloji proqram qəbul edilibdir və mən xüsusi Sərəncam imzalamışam. Proqramda müəyyən olunan bütün tədbirlər Azərbaycanda ətraf mühitin qorunmasına xidmət göstərir.

Bir daha demək istəyirəm ki, proqram çox konkretdir, çox dəqiqdir, icrası üçün maliyyə mənbələri də müəyyən olunubdur. Azərbaycanın dövlət büdcəsindən bu işlərə maliyyə vəsaiti ayrılacaq və Azərbaycanda ən böyük narahatlıq doğuran ekoloji məsələlər qısa müddət ərzində öz həllini tapmalıdır.

Nəzərə alsaq ki, Azərbaycan dünyada neft-qaz hasil edən ölkə kimi tanınır və dünyada sənaye üsulu ilə ilk neft hasilatı məhz Azərbaycanda başlanmışdır, o cümlədən dünyada dənizdə mövcud olan yataqlarda ilk quyular Azərbaycanda, Xəzər dənizində qazılmışdır, təsəvvür etmək çətin deyil ki, bu, ekoloji vəziyyətə çox mənfi təsir göstərmişdir. Sovet İttifaqı zamanı neft-qaz hasilatında, təbii ki, ekoloji məsələlərə o qədər də böyük

diqqət göstərilmirdi. Ona görə bizim qarşımızda çox böyük vəzifələr durur. Biz, ilk növbədə, neftlə çirklənmiş əraziləri, xüsusilə Abşeron yarımadasında yerləşən köhnə mədənləri təmizləməliyik. Neft gölməçələrini təmizləməliyik. Xəzər dənizinin ekoloji vəziyyətini normallaşdırmalıyıq. Düzdür, bu, təkcə bizdən asılı deyil, çünki Xəzər dənizinin sahillərində beş ölkə yerləşir. Amma əgər hər bir ölkə öz üzərinə düşən vəzifəni ləyaqətlə icra etsə, Xəzər dənizinin ekoloji vəziyyəti xeyli dərəcədə yaxşılaşacaqdır.

Bakı buxtasını təmizləməliyik. Yəni bizim qarşımızda çox böyük vəzifələr dayanır, bunları həyata keçirmək üçün böyük maliyyə vəsaiti lazımdır. Biz də artıq bunu ayırırıq və əminəm ki, Azərbaycanı, ölkəmizi, insanlarımızı narahat edən ekoloji məsələlər çox qısa müddət ərzində, beş il ərzində öz həllini tapacaqdır. Bu, çox böyük proqramdır. Çox ciddi vəzifələr qoyulubdur. Ancaq mən şübhə etmirəm ki, biz buna nail olacağıq. Bunu etmək üçün bütün vasitələr var. İlk növbədə, siyasi iradə var və bu iradə bizim qərarlarımızda, qəbul edilmiş proqramlarda öz əksini tapıbdır. Digər tərəfdən, Azərbaycanın maliyyə vəziyyəti, maddi imkanları yaxşılaşdıqca, əlbəttə, bu işlərə böyük həcmdə maliyyə vəsaitinin cəlb olunması məsələsi həll ediləcəkdir.

Mən bu gün Almaniyadan gəlmiş nümayəndə heyətinin üzvləri ilə görüşmüşəm və geniş fikir mübadiləsi olmuşdur. Qeyd etdim ki, biz uzun illər ərzində ekoloji məsələlərin həlli üçün lazım olan vəsaitin ayrılmasına dair beynəlxalq təşkilatlarla danışıqlar aparmışdıq. Bəzi hallarda danışıqlar həddindən artıq çox çəkmişdir. Xüsusilə nəzərə alsaq ki, neft-qaz sahəsində görülən işlərə Azərbaycan milyardlarla dollar kreditlər almışdır və bu kreditlərin alınmasında heç bir problem, çətinlik olmamışdır. Lakin ekoloji məsələlərə ayrılan vəsaitə böyük ehtiyatla yanaşılır. Çünki ekoloji məsələlərə qoyulan vəsait qısa müddət ərzində xeyir gətirmir. Ona görə biz qərara gəldik ki, bu məsələləri daxili imkanlarımız hesabına həll edək və proqram da qəbul olundu. Proqram qəbul olunandan demək olar ki, dərhal sonra beynəlxalq maliyyə təşkilatları - Dünya Bankının nümayəndələri, digər beynəlxalq təşkilatlar Azərbaycana gəlmişlər. Bir tərəfdən, proqramın qəbul olunmasını alqışlamışlar, digər tərəfdən, bizimlə bərabər bu işlərdə iştirak etmək arzularını bildirmişlər.

Bu, bizim üçün çox önəmlidir. Bu gün Almaniyadan gələn dostlarımızla fikir mübadiləsi əsnasında mən bunu qeyd etdim. Çünki indi bizə müasir ekspertiza, Almaniyanın, dünyanın, Avropanın inkişaf etmiş ölkələrinin təcrübəsi lazımdır, məsləhətlər lazımdır. Biz ayrılan vəsaitdən maksimum dərəcədə səmərəli istifadə etməliyik ki, bu məsələlər məqsədyönlü şəkildə öz həllini tapsın. Çox şadam ki, bizim təşəbbüslərimizə çox böyük dəstək var. Almaniyadan böyük nümayəndə heyətinin, Zukkov Fondunun rəhbərinin Azərbaycana gəlməsi və bu yüksək mükafatı Azərbaycan Prezidentinə təqdim etməsi - bunlar hamısı bir-biri ilə bağlıdır.

Bir daha demək istəyirəm ki, Zukkov Fondu dünyada çox böyük nüfuza malik olan təşkilatdır və onun verdiyi mükafatlar, bir tərəfdən, görülmüş işlərə verilən qiymətdir, digər tərəfdən isə, gələcək fəaliyyətə verilən avansdır. Mən əminəm ki, biz gələcəkdə birlikdə çalışaraq, Azərbaycanda ətraf mühitin qorunması sahəsində çox böyük işlər görəcəyik.

Azərbaycanın böyük təbii sərvətləri var və bu təbii sərvətlər hesabına, onların səmərəli işlənilməsi hesabına indi ölkəmiz dünyada analoqu olmayan sürətlə inkişaf edir. Ancaq bizim təbii sərvətlərimiz təkcə neft-qaz deyildir. Bizim təbiətimiz, çaylarımız, Xəzər dənizimiz, dağlarımız, havamız bizim təbii sərvətimizdir. Bu amillər ölkəyə özünəməxsus imic gətirir, insanların sağlamlığına müsbət təsir göstərir. Ekologiya, sağlamlıq, sosial məsələlər – bütün bunlar bir-biri ilə sıx bağlıdır. Biz bu məsələlərə yanaşanda çalışırıq ki, bunları kompleks şəkildə həll edək.

Azərbaycanın böyük imkanları var və daha da böyük olacaqdır. Ən böyük sərvət insanların sağlamlığıdır, insanların normal həyat səviyyəsidir, normal şəraitidir. Bu məqsədlə indi Azərbaycanda müxtəlif bölgələrdə 10 müasir diaqnostika və müalicə mərkəzləri

tikilir, ən yeni avadanlıqla təchiz olunur. Bu məqsədlə Azərbaycanda son üç il ərzində 700-dən çox məktəb tikilib ki, bizim uşaqlarımız kiçik yaşlarından normal şəraitdə oxusunlar, böyüsünlər, tərbiyə alsınlar. Bu məqsədlə Azərbaycanın şimal-qərbindən Bakıya və ətraf rayonlara böyük su kəməri çəkilir. Bu da rəmzi xarakter daşıyır.

Biz uzun illər üzərində çalışdığımız Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə nail olduq. Bu, həm böyük iqtisadi, həm siyasi, həm də regional məna daşıyan böyük layihədir, dünyada analoqu olmayan layihədir. Bu kəmərin fəaliyyəti nəticəsində əldə olunan və olunacaq gəlirləri biz insan kapitalına çeviririk. Biz ilk növbədə hansı layihələri həyata keçirməyə başladıq?! Bakıya su kəmərinin çəkilməsi, xəstəxanaların tikintisi, müasir infrastrukturun yaradılması, ən çətin vəziyyətdə yaşayan soydaşlarımızın, yəni qaçqınlar və məcburi köçkünlərin problemlərinin həlli. İndi onlar üçün böyük işlər görülür, ən yüksək səviyyəyə uyğun şəkildə yeni şəhərciklər, qəsəbələr salınır.

Biz bu gün öz siyasətimizi çox açıq şəkildə həm bəyan edirik, həm də aparırıq. Bizim sözümüzlə əməlimiz arasında heç bir ziddiyyət yoxdur. Hər şey insanlar üçün, hər şey ölkənin güclənməsi üçündür. Nə lazımdırsa, onu da edirik və edəcəyik.

Bu işlərdə, əlbəttə, ekoloji məsələlər ön planda olmalıdır. Təbii ki, ölkənin çox böyük sosial problemləri, iqtisadi çətinliklər olduğu zaman bəzən ekoloji məsələlərə böyük diqqət göstərilmir. Ancaq harada diqqət göstərilir? İnkişaf etmiş ölkələrdə. İnkişaf etmiş ölkələrlə az inkişaf etmiş, yaxud inkişaf etməmiş ölkələr arasında olan fərqlər müxtəlifdir. Bu da təbiidir. Ancaq bir fərq mütləqdir. O da ekoloji məsələlərə münasibətdir. İnkişaf etmiş ölkələrdə ekoloji məsələlərə münasibət ən yüksək səviyyədədir. Bu, ölkələrin səviyyəsini, siyasətini, mədəniyyətini əks etdirir. Azərbaycan öz qarşısında vəzifə qoyub ki, biz də inkişaf etmiş ölkəyə çevrilməliyik. Bunu etmək üçün bütün imkanlar var və bu barədə çox danışmaq istəmirəm. Bunu edəcəyik.

Ekoloji məsələlərə diqqət, münasibət, eyni zamanda, ölkənin ümumi siyasətinin, ümumi mədəniyyətinin təzahürüdür. Son nəticədə ən önəmli sahə budur. Neft-qaz tükənən sərvətlərdir. Onların müvəqqəti önəmi var. Ancaq təbiət, ətraf mühit - bu, daimi sərvətdir. Əsrlər boyu, minilliklər boyu təbiət olub, kainat olub, dünya olubdur. Bizim vəzifəmiz ondan ibarətdir ki, bunu qoruyaq. Özümüz üçün, gələcək nəsillər üçün, ölkəmizin yaşaması üçün qoruyaq. Ona görə biz bu məsələlərə çox böyük önəm veririk. Çalışırıq ki, ekoloji proqramların icrasında Azərbaycan qabaqcıl yerlərdə olsun.

Eyni zamanda, bizi narahat edən məsələlər də kifayət qədərdir. Onlardan ən başlıcası Azərbaycanın böyük ərazisinin işğal altında olmasıdır. Ərazimizin 20 faizi Ermənistanın işğalı altındadır və uzun illər ərzində o ərazilərdə ekoloji vəziyyət çox acınacaqlıdır. O torpaqları zəbt edən işğalçı qüvvələr orada nəinki bizim tarixi, mədəni, dini abidələrimizi darmadağın, yerlə-yeksan ediblər, onlar bizim təbiətimizə də qəsd ediblər. Orada bizim ağaclarımız kəsilir, torpağımız qəsdən yandırılır və bunu sübut edən kifayət qədər dəlillər var.

Bir müddət bundan əvvəl ATƏT-in faktaraşdırıcı missiyası monitorinq aparmaq üçün Azərbaycanın işğal olunmuş torpaqlarına gəlmişdir. Onların məruzəsi çox dəhşətli bir məruzə idi. Hər şey - bütün evlər, binalar, bizim tarixi abidələrimiz dağılıbdır. Eyni zamanda, qiymətli ağaclar kəsilir və məhz bu ağacların qırılması hesabına işğal olunmuş ərazilərdə bir neçə böyük mebel fabriki tikilibdir. O fabriklər ki, onlar məhz Azərbaycanın, bizim təbiətimizin, kəsilən ağacların hesabına fəaliyyət göstərir. Onlardan əldə olunan gəlir heç vaxt heç kimə xeyir gətirməyəcəkdir. Çünki o, Azərbaycanın qanı hesabına, təbiətimizə qəsd hesabına əldə olunur. Vəhşi qəsbkarlar təbiətimizə də təcavüz ediblər. Son müddət ərzində Ermənistan tərəfindən törədilən yanğınlar onların iç üzünü bir daha bütün dünyaya göstərdi. Onlar bilirlər ki, gec-tez o torpaqlardan çıxacaqlar, anlayırlar ki, artıq o vaxt uzaqda deyildir. Bizim oradakı bütün binalarımızı söküb-dağıtdıqları azmış kimi, torpağımızı

da yandırırlar. İndi bir neçə illər lazım olacaq ki, biz o torpaqları bərpa edək. Ona görə Azərbaycan bu məsələni beynəlxalq təşkilatlarda qaldırıbdır. Birləşmiş Millətlər Təşkilatında biz bu məsələni qaldırırıq və rica edirik ki, bütün təşkilatlar, qeyri-hökumət təşkilatları da buna çox böyük diqqət göstərsinlər. Çünki bu, dözülməz bir faktdır. Bu, XXI əsrdə yaşayan insanlara xas olan əməllər sayıla bilməz!

Əziz dostlar, bir daha qeyd etmək istəyirəm ki, mənim üçün çox əlamətdar gündür. Mən bu mükafatı çox yüksək qiymətləndirirəm. Əminəm ki, Zukkov Fondu ilə uzun illər davam edən əməkdaşlığımız daha da möhkəmlənəcəkdir. Avropa ölkələri ilə bütün sahələrdə, o cümlədən ekologiya, ətraf mühitin qorunması sahəsində əməkdaşlığımız daha da möhkəmlənəcəkdir. Biz artıq dünəndən Avropaya qonşu olmuşuq. Dünən Brüsseldə Avropa İttifaqı ilə Azərbaycan arasında qonşuluq siyasətinə dair tədbirlər planı imzalanıbdır. Biz siyasi cəhətdən qonşuyuq və gələn ilin əvvəlindən Bolqarıstan Avropa İttifaqına üzv olandan sonra, demək olar ki, coğrafi cəhətdən də qonşu olacağıq.

Mənim bu yaxınlarda, keçən həftə Avropa İttifaqında çox uğurlu görüşlərim olubdur. Bu, qarşımızda yeni imkanlar, yeni üfüqlər açır. Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlıq çoxşaxəlidir. Ümid edirəm ki, ekoloji məsələlər bu əməkdaşlığın önəmli hissəsini təşkil edəcəkdir.

Mənim fəaliyyətimi belə yüksək qiymətləndirdiyinizə görə sizə bir daha öz təşəkkürümü bildirirəm və hamınıza uğurlar arzulayıram. Azərbaycana tez-tez gəlin. Siz Azərbaycanın dostlarısınız və bu dostluq bundan sonra da davam edəcəkdir.

Cənab Zukkov mükafatla bərabər mənə çek də təqdim etdi. Burada 15 min avro məbləğində pul mükafatı da nəzərdə tutulubdur. Mən də bu məbləği Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşmasına yönəldirəm. Sağ olun, təşəkkür edirəm.

(Dövlətimizin başçısının nitqi böyük diqqətlə dinlənildi və alqışlarla qarşılandı).

* * * *

**Sonra Azərbaycan Prezidenti İlham Əliyev görüş iştirakçılarının çoxsaylı suallarına cavab verdi.**

ANDREAS ŞOPENHOFF (aparıcı): Cənab Prezident, çox sağ olun. Mən hesab edirəm ki, Sizin nitqiniz fəal diplomatiyanın mühüm bir təzahürü oldu. Biz hamımız bilirik ki, Azərbaycanın nə qədər strateji əhəmiyyəti var və Siz bunu olduqca gözəl bir formada, özünüzə əminliklə və təvazökarlıqla təsvir etdiniz. Siz ölkənizdə nəinki iqtisadi baxımdan işlərin aparılmasına sadiqsiniz, eyni zamanda, istəyirsiniz ki, Azərbaycanda Avropa İttifaqının etibarlı tərəfdaşı nüfuzu yaransın. Cənab Prezident, bir daha çox sağ olun.

Hörmətli cənab Prezident sizin suallarınıza cavab verməyə hazırdır. Sizin şərhləriniz ola bilər. Burada mikrofonlar qurulubdur. Buyurun, ilk sualı verin.

- Əslində, ilk sualı mən vermək istəmirdim. Ancaq Azərbaycan elə bir ölkədir ki, hamımızı çox maraqlandırır və həmin ölkə ilə sıx əlaqələrimiz var. Məni ən çox maraqlandıran odur ki, Siz Azərbaycanın inkişafını ümumi Qafqaz məkanında necə görürsünüz? Bizim üçün xüsusilə maraqlıdır ki, Şimali Qafqazın gələcək inkişafı haqqında nə deyə bilərsiniz, çünki həmin region olduqca həssas regiondur. Xüsusən də Çeçenistan. Bunlar, mənim kiçik suallarımdır.

- Cənab Prezident, Siz qeyd etdiniz ki, Dağlıq Qarabağ problemi ölkəniz üçün bir nömrəli problemdir. Mən Qafqazdakı digər iki münaqişə üzrə işləmişəm. Abxaziya və Cənubi Osetiya münaqişələri haqqında eşitmişəm və bilirəm ki, hansı mövcud çətinliklər var.

Həll məsələsinə gəldikdə, hamımız bilirik və Siz də deyirsiniz ki, Azərbaycanın uğurlu inkişafını davam etdirmək üçün biz Dağlıq Qarabağ üzrə güzəştə getməliyik. Bu yaxınlarda biz oxşar bir məsələ ilə bağlı Balkanlarda güzəşt variantını gördük. Bu, Kosovo regionunda, sadəcə, bir neçə gün bundan əvvəl baş verdi. Siz Kosovo həll variantı ilə bağlı öz rəyinizi bildirə bilərsinizmi ki, bu da Azərbaycanın ümidverici qaydada Dağlıq Qarabağ probleminin həllinə imkan yarada bilər? Sağ olun.

- Hörmətli cənab Prezident, Siz burada Azərbaycandakı vəziyyəti hərtərəfli təsvir etdiniz. Mən bu yaxınlarda Bakıda olmuşam. Orada narahatlıq doğuran ekoloji problemlərin olduğu bildirilir. Siz ekoloji sahədəki siyasət haqqında nə söyləyə bilərsiniz?

- Mən azad jurnalistəm və Cənubi Qafqazda işləmişəm, Gürcüstanda və Azərbaycanda olmuşam. Mən bilmək istərdim, Siz Azərbaycanın Şərqdəki qonşuları ilə münasibətlərini və onların inkişafını necə görürsünüz? Sağ olun.

ANDREAS ŞOPENHOFF (aparıcı): Cənab Prezident, məncə, biz Sizə imkan verməliyik ki, suallara cavab verəsiniz.

İLHAM ƏLİYEV: Suallarınıza görə sağ olun. Qafqazdakı vəziyyətə gəldikdə onu deməliyəm ki, Qafqaz bir orqanizmdir. Şimali və cənubi Qafqazda qonşularımız var. Şimali Qafqaz Rusiyada yerləşir və digər istiqamətlərdə də ölkələr var. Təbii ki, mədəni münasibətlər var və bir ölkə kimi Azərbaycanın Cənubi Qafqazla, Şimali Qafqazla hüdudları var və bu əlaqələrdən bəhrələnir. Bir çox azərbaycanlı Şimali Qafqazda, Rusiyanın ərazisində yaşayır və orada bir çox dostlarımız var. Eyni zamanda, Rusiya ilə ikitərəfli münasibətlərimizlə müxtəlif istiqamətlərdə öz töhfəmizi veririk. İşlərimizin elementlərindən biri təhlükəsizlik və sabitlikdir. Lakin tarixi şəraiti nəzərə alaraq, istər Cənubi, istərsə də Şimali Qafqazda sabitliyin hər hansı şəkildə pozulmasının bütün Qafqaza mənfi təsiri olacaqdır. Əfsuslar olsun ki, dünyanın bu çox kiçik bir guşəsində daim müharibələr baş verib, münaqişələr müşahidə olunubdur. İstər şimalda, istərsə də cənubda. Bu, əsrlər boyu belə olub və həmin torpaqlara, regiona əsrlər boyu sülh gəlməyibdir. Bu regionun özü də gözəldir. Azərbaycan, öz növbəsində, sülhün bərpasına töhfə verir. Region sülh və tərəqqi şəraitində yaşamalıdır ki, müharibədən, hər hansı bir təcavüzdən əziyyət çəkməsin.

O ki qaldı Dağlıq Qarabağ məsələsinin həllinə, hansı model olmasına gəldikdə, bilirsiniz, hər hansı bir münaqişə öz xüsusiyyətinə və həll yoluna malikdir. Bu baxımdan mən hesab edirəm, o qədər də yaxşı bir ideya olmaz ki, bir potensial həll yolunu digər münaqişəyə şamil edək. Çünki münaqişənin mahiyyəti müəyyən mənada aydındır və bu, separatizmdir. Tarixi baxımdan bu fərqlər ola bilər.

Dağlıq Qarabağ məsələsinin mümkün həllinə və Azərbaycanın nəyə razılıq verəcəyinə gəldikdə, ən birincisi, Dağlıq Qarabağ müstəqil ola bilməz və əminəm ki, bu, belə də olacaqdır. Çünki əgər beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın zəif və qeyri-sabit bir vaxtında tanımadısa, bundan sonra da tanımayacaqdır. Ermənilər artıq öz müqəddəratını təyin ediblər. İndi isə onlar çalışırlar ki, bu iki prinsipi - ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsiplərini bir-biri ilə ziddiyyətə gətirsinlər. Erməni xalqı öz müqəddəratını artıq təyin edibdir, Ermənistan dövləti var. Əgər bu baxımdan, bu məntiqdən yanaşsaq, yəni onların məntiqini götürsək, onda dünyada nə qədər erməni dövlətləri yaranmalıdır? Çünki onlar bir çox ölkələrdə yaşayırlar. Əgər Dağlıq Qarabağda digər erməni dövləti yaratsalar, onda sabah onlar istəyəcəklər ki, Gürcüstanda da belə bir dövlət yaransın. Hətta deyim ki, Dağlıq Qarabağda yaşayan ermənilərin sayı Gürcüstanda yaşayan ermənilərin sayından 4 dəfə azdır. Dağlıq Qarabağ müstəqil ola, yaxud Ermənistana birləşə bilməz. Azərbaycanın əraziləri Ermənistanın işğalından azad edilməlidir. Bizim qaçqınlarımız, məcburi köçkünlərimiz öz torpaqlarına qayıtmalıdırlar. Eyni zamanda, Dağlıq Qarabağdan olan, xüsusən də qədim Azərbaycan şəhəri Şuşadan olan məcburi köçkünlər öz yerlərinə qayıtmalıdırlar.

Eyni zamanda, beynəlxalq sülhyaratma əməliyyatları olmalıdır və biz buna razıyıq. Dağlıq Qarabağın gələcək statusu məsələsi iki tərəf arasında müzakirə olunacaq və Dağlıq Qarabağa dünyada mövcud olan, - yaxud mövcud olmayan, biz bu haqda düşünməliyik, - muxtariyyət statusu verilə bilər. Bu, maksimumdur, konstruktiv bir mövqedir.

Bundan əlavə, əgər Dağlıq Qarabağ Azərbaycana qaytarılsa, təbii ki, regionun iqtisadi inkişafı da daha sürətlə gedər. Onlar bu işğal siyasəti ilə nəyə nail oldular? Mən sizə deyə bilərəm, bunun nəticəsi necə oldu. Yəni, Ermənistan əhalisinin yarısı ölkəni tərk edibdir. Dağlıq Qarabağın əhalisinin yarısı da həmin ərazilərdən gedibdir. Onların gələcək üçün, öz tələbatlarını ödəmək imkanı üçün bir perspektivi yoxdur. Onlar diasporun köməyi, yaxud da digər ölkələrin yardımı ilə yaşamalıdırlar. Ona görə əgər ermənilər istəyirlərsə ki, Dağlıq Qarabağ məsələsi həll olunsun, onlar buna razılaşmalıdırlar. Bizim təklif etdiyimiz mövqe konstruktivdir. Bu, ATƏT-in Minsk qrupu tərəfindən dəstəklənir, onlar bu məsələ ilə məşğul olur və bu, regiona sülh gətirə bilər.

Ətraf mühitlə bağlı vəziyyətə gəldikdə, biz bunun üzərində işləyirik. Bilirsiniz, bizə Sovet İttifaqından çox mənfi bir miras qalmışdır. Ümumiyyətlə, o vaxt dünyada ekologiya haqqında olan anlayış, belə bir məfhum bizdə yox idi. Biz sadəcə, təbii resurslardan istifadə edirdik. Məqsəd o idi ki, dayanmadan istehsal edək. Heç kim diqqət yetirmirdi ki, təbiətin vəziyyəti necədir. İndi Bakıda, Abşeron yarımadasında neftlə çirklənmiş bir çox göllər var. Azərbaycanın digər yerlərində ətraf mühitlə bağlı vəziyyət çox yaxşıdır. Göllərimiz, çaylarımız və dağlarımız yaxşı vəziyyətdədir.

O ki qaldı Bakının özünün rayonları, onlar neft hasilatı ilə əlaqədar çətin vəziyyətə düşübdür. Ona görə bizim ekoloji proqramımız qəbul edilibdir. Bu, mənim tərəfimdən, Prezident Sərəncamı əsasında qəbul olunmuşdur. Biz bu proqram çərçivəsində gələn 5-10 il ərzində yüz milyonlarla dollar sərf edərək, Bakı ətrafında və digər yerlərdə neftlə çirklənmiş gölləri tamamilə təmizləyəcəyik və öz təbiətimizə onun gözəlliyini qaytaracağıq. Bu proqramı başladıqdan dərhal sonra Dünya Bankı bizimlə birgə işləməyə gəldi. Biz öz iradəmizi nümayiş etdirdik ki, vəsaitlərimizdən istifadə edəcəyik. Bizim digər yardıma ehtiyacımız yoxdur. Bu, bizim əhalimiz üçün, həyatın yaxşılaşması üçün vacibdir. Biz ekoloji təşkilatlarla da işləyirik. Xüsusən, biz Zukkov Fondu ilə çalışırıq. Mən bu gün Mixael Zukkovla görüşdüm. Onlar ölkəmizə, iqtisadi inkişafa böyük töhfə verirlər.

Sonuncu sual Xəzərdən Şərqdəki ölkələr ilə münasibətlərə aid idi. Bizim Qazaxıstanla çox yaxşı əlaqələrimiz var. Hökumətlərarası saziş imzalamışıq ki, Azərbaycan ərazisi ilə Qazaxıstan neftini Aralıq dənizinə daşıyaq. Digər ümumi layihələrimiz də var. Biz indi artıq Azərbaycanda olduqca müasir boru kəməri infrastrukturu yaratmışıq. Bunun vasitəsilə Xəzərin Şərqindən böyük miqdarda neft daşına bilər. Bilirəm ki, Qazaxıstan artıq liman qurğularının genişləndirilməsinə sərmayə qoyur. Eyni işlər Azərbaycanda da aparılır və ola bilsin ki, 2-3 il ərzində, bəlkə də bundan əvvəl, Qazaxıstan nefti bizim ərazimizlə daşınacaqdır. Bizim boru kəməri gündə 1 milyon barrel neftin daşınması üçün nəzərdə tutulubdur. Amma biz onun gücünü artırmağa nail ola bilərik ki, bu da gündə 1,8 milyon barrel neftin daşınmasına imkan yaradar.

ANDREAS ŞOPENHOFF (aparıcı): Çox sağ olun cənab Prezident. İndi isə biz yenə suallara keçəcəyik. Dörd sual var:

-Hörmətli cənab Prezident, mən bir sual vermək istəyirəm, Siz burada qeyd etdiniz ki, Azərbaycan bir sıra strateji qlobal enerji layihələrini həyata keçirir. Bu, Xəzər regionuna və onun ətrafına aiddir. “Nabukko” layihəsi barədə nə deyə bilərsiniz? Bu layihə ilə bağlı Sizin mülahizələriniz necədir? Çox sağ olun.

-Cənab Prezident, mənim adım İvansdır, həkiməm, klinikada çalışıram. Mən bir neçə dəfə Bakıda olmuşam. Çox sağ olun ki, Siz Azərbaycandakı vəziyyəti gözəl təsvir etdiniz. Biz bilirik ki, Siz səhiyyə sistemini də inkişaf etdirmək istəyirsiniz. Bu istiqamətdə ideyalarınız necədir? Bəzi şərhlərinizi eşitmək istərdik ki, Siz təkcə Bakıda deyil, həm də ölkənin digər bölgələrində səhiyyə sisteminə hansı şəkildə dəstək verirsiniz? Sağ olun.

-Cənab Prezident, mənim adım Konerusdur, Fondu təmsil edirəm. Siz, ümumiyyətlə, öz çıxışınızda Rusiyanı qeyd etmədiniz. Bu ölkəyə aid strategiyanız haqqında nə deyə bilərsiniz? Xüsusən də Prezident Vladimir Putin bu yaxınlarda aydın, lakin qeyri-diplomatik çıxış etmişdir. Bu, Rusiyanın gələn illər ərzində planları ilə bağlı idi. Sağ olun.

-Mənim adım Fariz Qasımlıdır, Berlin Universitetinin tələbəsiyəm. Hörmətli cənab Prezident, geniş çıxışınıza görə çox sağ olun. Mənim sualım Azərbaycanın bu yaxınlarda yeni regional Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi sahəsində əldə etdiyi uğurla bağlıdır. Bu, Azərbaycan diplomatiyasının böyük qələbəsi idi. Sizin fikrinizcə, bu layihə yaxın perspektivdə Dağlıq Qarabağ münaqişəsinin mümkün həllinə necə təsir göstərə bilər? Siz bəzi erməni dairələrinin bu layihəyə müqavimət göstərilməsi barədə fikirlərinə necə yanaşırsınız?

-Biz enerji inkişafımızın başlanğıc mərhələsində olan zaman, xüsusən də neft və qaz nəqli əməliyyatlarından söhbət getdikdə, Avropada qaz bazarının tamamilə başqa vəziyyətdə olduğunu anlayırdıq. Təbii ki, əsas diqqətimizi məhz öz ölkəmizin qaza olan tələbatının ödənilməsinə yönəltmişdik və Gürcüstan, Türkiyəyə də qaz göndərməyi planlaşdırırdıq. Yəni bu işə başlayanda bizim təbii qazımızın üç bazarı var idi. İşlərimizi bu günə qədər davam etdirirdik. İndi isə Avropada əlavə qaz mənbələrinə ehtiyac duyulduğunu hiss etdik. Belə bir halda, özümüzü bu yeni vəziyyətə uyğunlaşdırmaq məcburiyyəti qarşısında olduq. İndi biz hasil etdiyimiz həcmi daha da artırmalıyıq. Çünki neft bazarından fərqli olaraq, qaz bazarında ilk növbədə, istehlakçı olmalıdır. Siz sadəcə, qazı tankerə vurub bazara çıxara bilməzsiniz. Lazımdır ki, istehlakçı olsun. Biz bu prosesi başladıq.

Qaz kəmərinə başlayanda Türkiyədən o tərəfə istehlakçılar yox idi. İndi isə biz görürük ki, tələbat artır və hətta hasilat həcmimizlə müqayisədə tələbat daha çoxdur. Əgər xarici şirkətlər mart ayında qaz hasilatını artıracaqsa, Azərbaycanın Dövlət Neft Şirkəti də ilyarım ərzində öz hasilatını iki dəfə artıracaqdır. Çünki tələbat da artır. “Nabukko” kimi layihələr uzun illər ərzində yaxşı bir layihə kimi müzakirə olunurdu. Amma indi həyata keçirilə bilər. Azərbaycan qazı üçün, eyni zamanda, digər ölkələr tərəfindən təchizat üçün yaxşı bir variant ola bilər. Biz artıq kifayət qədər qaz infrastrukturu yaratmışıq və bu da prosesin gedişində rol oynayacaqdır. Biz öz infrastrukturumuzu digər ölkələrin də istifadəsinə verməyə hazırıq. Azərbaycan Enerji Xartiyasını imzalamışdır və bizim daşınma sistemi istifadədə ola bilər.

Azərbaycanın tibb sahəsi təkmilləşir. Bu, ən təcili sahələrdən biridir ki, biz burada gözəçarpan, sürətli inkişafa nail olmalıyıq. Biz, əsasən, rayonlarımızda tibb müəssisələrinin sayını artırırıq, bir çox tibb mərkəzləri açırıq. İki şəhərdə - Naxçıvan və Lənkəranda artıq açılmışdır. Orada artıq açıq ürək üzərində cərrahiyyə əməliyyatı da aparılmışdır. Bu əməliyyat Azərbaycan vətəndaşı üzərində aparılmışdı. Bu tibb mərkəzlərinin sayı 2007-ci il ərzində də artacaqdır. Azərbaycanda onlarca yeni xəstəxana tikiləcəkdir. Biz bu sahəyə çox sərmayə yatırırıq. Eyni zamanda, təlim kursları təşkil edirik ki, həkimlər daha yaxşı imkanlara, biliklərə malik olsunlar. Tibbi xidmətlərin keyfiyyətini də artırırıq. Təcili tibbi yardıma da sərmayəni artırırıq ki, bizim vətəndaşlarımıza dərhal tibbi yardım göstərilsin. Ümid edirəm ki, gələn üç-beş il ərzində Azərbaycanda əsas tibbi xidmətlər məsələsi öz həllini tapacaqdır.

Rusiya məsələsinə gəldikdə, - mən ötən il Bertelsmann Forumunda çıxış edəndə də eyni sualı vermişdilər ki, nəyə görə Rusiyanı qeyd etmədim, - bəlkə, bu ona görədir ki, mən

Azərbaycanın Prezidentiyəm. Ona görə Azərbaycan haqqında danışıram. Lakin Rusiya ilə ikitərəfli münasibətlərə gəldikdə, onlar müsbətdir. Biz müxtəlif sahələrdə işləyirik, qonşuyuq və birgə iqtisadi maraqlarımız vardır. Bizim qonşuluq əlaqələrimiz çox yaxşı ruhda inkişaf edir və keçmişdə gərginlik mənbəyi olan məsələlərin hamısı öz həllini tapıbdır. Məsələn, Xəzər dənizinin sektorlara bölünməsi məsələsi. Rusiya ilə müxtəlif sahələrdə, enerji sahəsində, hərbi sahədə əməkdaşlıq aparılır. Ona görə Rusiya ilə ikitərəfli əlaqələrimiz normaldır və bu, çox yaxşıdır. Bizim, adətən, bütün qonşularımızla yaxşı əlaqələrimiz var, bu, müsbət amildir. Bunun hamısı əvvəlcədən razılaşdırıla bilən, normal əlaqələr üçün vacibdir və eyni zamanda, qarşılıqlı maraqlara xidmət edir, qarşılıqlı hörmətə əsaslanır. Təbii ki, bir-birinin işlərinə müdaxilə etməmək prinsipinə arxalanır. Bunlar çox müsbətdir.

Ola bilsin ki, 1990-cı illərdə, keçmiş Sovet İttifaqı dağıldıqdan sonra ikitərəfli əlaqələrimiz daha pis idi. İndi isə, 2007-ci ildə mən bunu deməzəm. Çünki mən deyə bilərəm ki, bütün məsələləri həll etdik. İndi biz yaxşı ruhda əməkdaşlıq edirik.

Bakı-Tbilisi-Qars çox yaxşı nəqliyyat layihəsidir və bu, Asiya ilə Avropanı birləşdirə bilər. Azərbaycan dəmir yolu vasitəsilə Türkiyəyə çıxış əldə edəcəkdir. Bunu nəzərə alsaq ki, hazırda Türkiyə də Bosfor boğazının altından tunelin çəkilməsi ilə məşğuldur, bu, Avropaya birbaşa çıxış deməkdir. Bu, bizim üçün Xəzər dənizi vasitəsilə Qazaxıstan və Çinə də yeni çıxışı təmin edir. Bu, yeni dəhlizdir və Azərbaycan da bu layihənin sponsoru kimi çıxış edir. Biz artıq Gürcüstana çox güzəştli kredit verdik. Bu, illik cəmi bir faizlə 25 il müddətinə nəzərdə tutulur. Söhbət 200 milyon ABŞ dollarından gedir ki, Gürcüstan öz ərazisində bu işləri maliyyələşdirsin.

Ermənistan lobbisi tərəfindən Birləşmiş Ştatlarda bəzi səylər göstərilirdi və ermənipərəst konqresmenlər də belə bir addım atdılar ki, layihəyə Amerikanın birbaşa yardımı dayandırılsın. Amma bəxtimizdən, biz bu gün elə bir inkişaf mərhələsindəyik ki, heç bir köməyə ehtiyacımız yoxdur. Əksinə, biz Gürcüstana öz yardımımızı göstəririk. Lakin, eyni zamanda, hamı onu anlamalıdır ki, Ermənistan artıq sonuncu qatarı əldən buraxdı. Onlar Bakı-Tbilisi-Ceyhandan məhrum oldular, Cənubi Qafqaz boru kəmərindən kənarda qaldılar. İndi isə dəmir yolu xəttindən kənarda qalırlar.

Bir sözlə, onlar tam mənada bütün regional əməkdaşlıqdan kənarda qaldılar. Regional əməkdaşlıq isə möhkəmlənir, Gürcüstan, Türkiyə, Azərbaycan, Mərkəzi Asiya, Avropa enerji və nəqliyyat dəhlizlərinə malikdirlər. Əlbəttə, bu, bütün münaqişələrin həllində müsbət rol oynayacaqdır. Çünki biz gücləndikcə, yəni siz güclü olanda daha çox uğurlar əldə edə biləcəksiniz.

Bu, sonuncu suala cavab idi. Sağ olun.

ANDREAS ŞOPENHOFF: Üzr istəyirəm, biz bütün suallara vaxt ayıra bilməyəcəyik. Ona görə əlavə dörd sual verilə bilər.

-Sizin ölkənizin çox böyük iqtisadi gücü var. Ölkənizə xaricdən gələn qaçqınlara, milli azlıqlara yardım edirsinizmi? Mən öz yerlərindən didərgin düşmüş mesxeti, axıska türklərini, krım tatarlarını nəzərdə tuturam. Sualım belədir, Siz onların problemlərinə necə yanaşırsınız?

-Mənim adım Hanno Masnerdir, Hagen Universitetinin tələbəsiyəm. Ölkəniz İranla qonşuluqda yerləşir. Şimal-qərbi İranda çox sayda azərbaycanlı yaşayır. Məni onların mədəni, siyasi və dil məsələləri maraqlandırır. Bu baxımdan Sizin ölkə həmin məsələlərin həlli üçün nə edə bilər? Məsələn, sərhədlərdən sərbəst keçid və iqtisadi, siyasi, mədəni hüquqlar. Çox sağ olun.

-Cənab Prezident, mənim adım Kones Yaardır. Siz öz iqtisadi və enerji qüdrətiniz sayəsində artıq dünyada böyük potensiala maliksiniz. Mən bilmək istəyirəm, Siz bu gücdən

Dağlıq Qarabağ probleminin həlli üçün niyə istifadə etmirsiniz? Xahiş edirik, bu haqda bizə bir az məlumat verəsiniz.

-Cənab Prezident, dəqiq və gözəl çıxışınıza görə təşəkkür edirəm. Siz Azərbaycandakı inkişaf və nailiyyətlərdən söhbət açdınız. İnkişaf və tərəqqi yolu ilə gedən ölkədə güclü müxalifətin olması da vacibdir. Sizin fikrinizcə, güclü müxalifətin formalaşması üçün nə etmək lazımdır? Siz bu müxalifəti necə görürsünüz? Əgər mümkündürsə, Sizdən bu məsələyə dair öz şərhlərinizi bildirməyi xahiş edirik. Çox sağ olun.

İLHAM ƏLİYEV: Biz keçmişdə beynəlxalq təşkilatlardan bir çox yardım almışdıq ki, öz qaçqınlarımız və məcburi köçkünlərimizə dəstək verək. Hesab edirik, indi, biz maliyyə baxımından daha da gücləndikdə, Azərbaycan bu məsələdə hətta donora çevrilə bilər və özü maliyyə yardımı göstərə bilər.

O ki qaldı azlıqlara, siz burada suallarınızda onu qeyd etdiniz, bilirsiniz, siyasətimizin ən vacib elementi ondan ibarətdir ki, biz digər ölkələrin daxili işlərinə qarışmırıq. Hər bir ölkənin özünün problemləri var. Əgər bizdən xahiş etsələr, məsləhət verə bilərik. Əgər bizdən soruşmurlarsa, digər ölkələrin daxili vəziyyətinə müdaxilə etmirik. Bu, olduqca vacibdir. Ümumiyyətlə, bütün dünyada digərlərinin işlərinə heç bir müdaxilə addımları olmasa, hesab edirəm, onda dünya daha təhlükəsiz şəraitdə yaşaya bilər.

O ki qaldı İranda böyük sayda azərbaycanlının yaşamasına, onu sizə deyə bilərəm ki, onlar bu gün İran cəmiyyətinun bütün sahələrində təmsil edilmişlər. Mədəniyyət, siyasi sahələrdə çalışırlar, parlament üzvləri var, rəsmilər arasında Azərbaycan mənşəli şəxslər var. İranda yaşayan azərbaycanlılarla çox güclü mədəni əlaqələr mövcuddur. Biz vahid bir millətik, hamımız azərbaycanlıyıq, eyni dildə danışırıq və biz qardaşıq. Ona görə onların gələcəyi, təbii ki, bizi maraqlandırır. Bizim çox güclü münasibətlərimiz var, oraya səfərlər edirik, hər iki tərəfdə qohumlar var, bir-birimizi görürük. Ümumiyyətlə, bu, İranla ikitərəfli münasibətlərimizin vacib elementidir.

Burada, eyni zamanda, belə sual oldu, dediniz ki, Azərbaycan öz qüdrətindən nəyə görə Dağlıq Qarabağ probleminin həlli üçün istifadə etmir? Səmimi deyim ki, mən bunu, belə bir sualı Avropada eşidəcəyimi gözləmirdim. Çünki Avropada biz, adətən, başqa yanaşmaları eşidirik ki, biz məsələni sülh yolu ilə həll edək. Amma mən bu sualı anlaya bilərəm. Mənim özüm və Azərbaycanda bir çoxları hər zaman özümüz-özümüzdən soruşuruq, bu problemin həllini nə qədər gözləməliyik, bu ədalətsizliyə nə qədər dözməliyik, Azərbaycan xalqı işğal altında nə qədər yaşayacaq? Bilirsiniz, bu suala cavab hər zaman eynidir. Biz daimi gözləyə bilmərik. Biz əlavə on il gözləyə bilmərik. Sadəcə, Ermənistan rəhbərliyinin müdrikliyinə bel bağlaya bilmərik. Əgər onlar Ermənistan xalqının gələcəyi haqqında düşünmək istəmirlərsə, gələcəkdə nəyin baş verəcəyi haqqında düşünmürlərsə və əgər münaqişənin yenidən başlanması təhlükəsi haqqında düşünmürlərsə, onda məsuliyyət tamamilə onların üzərinə düşəcəkdir. Biz səbrimizi çox nümayiş etdirdik, konsrtuktiv mövqeyimizi nümayiş etdirdik.

Biz yenə də çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək. Ancaq nə vaxt hesab etsək ki, sülh imkanları tükənib, biz siyasətimizi dərhal dəyişəcəyik. Biz diplomatik səyləri göstərmişik. Birləşmiş Millətlər Təşkilatında bu prosesi başlamışıq. Orada GUAM ölkələri tərəfindən keçmiş Sovet İttifaqı məkanında dondurulmuş münaqişələr məsələsi müzakirəyə çıxarıldı. İndi bu, Birləşmiş Millətlər Təşkilatının gündəliyindədir.

Biz bu məsələni Avropa Şurasında qaldırdıq. Artıq qeyd etdim ki, 2005-ci ildə Avropa Şurası qətnamə qəbul etdi və orada Ermənistanı təcavüzkar kimi pislədi. 1990-cı illərin əvvəllərində Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası dörd qətnamə qəbul edibdir. Eyni zamanda, biz ATƏT-in Minsk qrupu ilə işləyirik ki, məsələni dinc yolla həll

edək. İndi Avropa İttifaqının Cənubi Qafqazda xüsusi nümayəndəsi var, onunla da işləyirik. Yəni bu, bizim müzakirələrimizin əsas mövzusudur. Bir sözlə, bütün mümkün vasitələrdən istifadə etmək istəyirik. Sonda isə biz öz qarşımızda üzüağ olmaq istəyirik. Bəli, demək istəyirik ki, biz məsələnin dinc yolla həlli üçün hər şeyi etdik, lakin bu, baş vermədi.

Lakin, eyni zamanda, biz hərbi potensialımızı möhkəmləndiririk. Bu sirr deyil, cəmiyyətə bildirilir. Biz son 3-4 il ərzində öz hərbi büdcəmizi təxminən 10 dəfə artırmışıq. Bu gün Azərbaycanın hərbi büdcəsinin həcmi 1 milyard ABŞ dollarıdır. Bu da bütün Ermənistanın büdcəsinə bərabərdir. Biz bunu gələcəkdə daha da artıracağıq, yenə də artıracağıq. Biz Müdafiə Sənayesi Nazirliyi yaratmışıq. Gələcəkdə ölkəmiz üçün, Azərbaycana tələb olunan malları istehsal edə biləcəyik.

Burada güclü müxalifətin olması ilə bağlı sual verildi. Mən bununla razıyam, bizim sözün əsl mənasında güclü müxalifətə ehtiyacımız var. Amma bizim günahımız deyil ki, bu sahədə bəxtimiz gətirməyibdir. Mən bu məsələdə kömək edə bilmərəm. Bu, mənim imkanlarımdan kənardadır. Prezidentlər bir çox işləri görə bilər, lakin müxalifəti gücləndirmək, bu, prezidentlərin səlahiyyətlərindən kənardadır.

Amma ciddi danışsaq, mən hesab edirəm ki, müxalifətin daha da güclənməsi üçün, onların siyasi işlərdə rolunun artması üçün dəyişikliklər lazımdır. Çünki cəmiyyət dəyişir, insanlar dəyişir, biz də dəyişirik. Azərbaycanda yeni prezident seçilibdir və üç ildir fəaliyyət göstərir. Lakin siz görərsiniz ki, həmin insanlar, müxalifətçilər arasında 15 il bundan əvvəlki eyni şəxslər dayanır.

Onlar eyni məsələlər haqqında düşünürlər. Bütün seçkiləri - 1993-cü ildə, 1998-ci ildə, 2003-cü ildə prezident seçkilərini, 1995-ci ildə, 2000-ci ildə və 2005-ci ildə parlament seçkilərini uduzdular, böyük fərqlə uduzdular. Həmin seçkilərdə siyasi partiyaların rəhbərləri uğursuzluğa düçar oldular. Belə olan halda rəhbərlər istefa verməli, yeni nəsil üçün yollar açmalıdırlar. Azərbaycan cəmiyyətində bir çox istedadlı şəxslər var ki, onlar mütləq şəkildə hökumətin fikrini bölüşmürlər. Amma onlar həmin ənənəvi müxalifətçilər tərəfindən hər hansı imkandan məhrumdurlar, onlara dəstək verilmir.

Ona görə mən də müxalifətə məsləhət görərdim ki, əgər güclənmək istəyirsə, dəyişsin, xüsusən də rəhbərləri dəyişsin. Siyasi baxımdan mənim üçün daha asandır ki, növbəti seçkilərdə bir siyasətçi kimi elə mövcud müxalifət liderləri ilə rəqabətə çıxım. Amma bir dövlət xadimi, Prezident kimi istərdim ki, Azərbaycanda normal siyasi sistem olsun. Səmimi desək, normal siyasi sistem hələ yoxdur. Amma bu, bizim günahımız deyildir. Bəzi sahələr var ki, onlar yüz faiz bizdən asılıdır. Siyasi, iqtisadi, xarici işlər, sosial məsələlər, Avratlantik strukturlara inteqrasiya - bunlarda hökumət yüz faizlik uğur əldə edibdir. Lakin siyasi sistem məsələsinə gəldikdə, nisbət əlli-əlliyədir.

Yeri gəlmişkən, sizə maraqlı bir məsələni söyləyim, o, bu suala cavabdır. Bir neçə ay bundan əvvəl hesab edirdik ki, müxalifət tamamilə ruhdan düşüb və artıq yoxa çıxmaq üzrədir. Mən bir görüş zamanı ictimaiyyətin qarşısında müraciət etdim ki, hökumətlə müxalifət arasında dialoq təşkil olunsun. Mən bunu bilərəkdən etmək fikrində deyildim. Çünki hətta cəmiyyətin özünün də yadından çıxmışdır ki, müxalifət var, ya yox. Lakin mən hesab edirdim, onlara şans verilməsi vacib idi ki, oyansınlar. Bilirsiniz nə baş verdi? Bəziləri, hansılar ki, deyirdilər gəlin hökumətlə, Prezidentlə dialoqa başlayaq, dərhal onların "keçmiş qvardiyası" tərəfindən satqın kimi təsvir olundular. Onlara deyildi ki, əgər siz hökumətlə danışsanız, müxalifətin satqınısınız, onun ideyalarının satqınısınız. Mən bilmirəm, ümumiyyətlə, müxalifətin hansı ideyaları var. Çünki bizim siyasi-iqtisadi gündəliyimiz ölkənin bütün tələbatlarını əhatə edir. Real vəziyyət bundan ibarətdir. Ona görə biz müxalifət

məsələsində bir şey edə bilmərik. Amma sizə vəd edirəm ki, mən qayıdandan sonra çalışacağam ki, onları daha da stimullaşdırım.

ANDREAS ŞOPENHOFF: Cənab Prezident, təşəkkür edirəm.

Görüş zamanı səsləndirilmiş suallar onu göstərir ki, Almaniyada Azərbaycana böyük maraq var. İcazə verin, ölkənizi özünəməxsus formada təsvir etdiyinizə görə Sizə öz minnətdarlığımızı bildirək. Çıxışınız olduqca praqmatik oldu. Bu, işbirliyimizin, əməkdaşlığımızın genişləndirilməsinə və intensivləşdirilməsinə bir təkan idi. Söhbət, təkcə iqtisadi əməkdaşlıqdan getmir. Cənab Vilhelm Ştaudaxer giriş nitqində qeyd etdi ki, Konrad Adenauer Fondu öz fəaliyyətini regionda, xüsusilə də Sizin ölkənizdə intensivləşdirəcəkdir. Mənə elə gəlir, bu çox perspektivli bir siyasi fəaliyyət olacaqdır. Ölkənizin iqtisadi potensialı göstərir ki, Siz bizim çox etibarlı siyasi tərəfdaşımızsınız. Bizimlə qonşu olduğunuzu bir daha deməyə ehtiyac yoxdur. Çünki bu, artıq hamıya bəllidir.

Cənab Prezident, bir daha çox sağ olun.

Vilhelm Ştaudaxerin xahişi ilə Sizi Konrad Adenauer Fondu adından təşkil olunan qəbulda fikir mübadiləsini davam etdirməyə dəvət edirik.

Cənab Prezident, Siz artıq ikinci dəfədir ki, Almaniyaya rəsmi səfər edirsiniz. Arzu edirik ki, bu cür görüşlərimiz gələcəkdə daha da çox olsun.

* * * *

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra fikir mübadiləsi səmimi süfrə başında davam etdirildi.

Azərbaycan Prezidenti İlham Əliyevin əhatəli və dolğun çıxışından təsirlənən, Azərbaycan reallıqları barədə ətraflı məlumat alan tədbir iştirakçıları böyük həvəslə dövlətimizin başçısı ilə söhbət edir, xalqımıza, Vətənimizə dərin rəğbətlərini ifadə edirdilər.

Ümumiyyətlə, bu tədbir Almaniyada Azərbaycana nə qədər böyük marağın olmasının daha bir əyani təzahürü idi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**21-ci kitab: noyabr 2006 - dekabr 2006. - Bakı: Azərnəşr, 2015. – S. 50-59.**

## HEYDƏR ƏLİYEV SU ANBARINDA ELEKTRİK STANSİYASI TİKİLMİŞDİR

*(20 dekabr 2006-cı il)*

Dekabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyev Su Anbarına gələrək, burada tikilmiş elektrik stansiyası ilə tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verildi ki, su anbarında tikilmiş 4,5 meqavat gücündə elektrik stansiyasında 17 nəfər daimi işlə təmin edilmişdir. Şahbuz rayonunun elektrik enerjisi ilə təminatında bu stansiya əsas rol oynayacaqdır.

Prezident İlham Əliyev operator otağında stansiyanı işə saldı.

Burada quraşdırılan avadanlıq Almaniyanın məşhur "Siemens" şirkətindən alınmış, turbinlər isə Fransadan gətirilmişdir. Tikinti-quraşdırma işlərini yerli və türkiyəli mütəxəssislər görmüşlər. Heydər Əliyev Su Anbarı Babək rayonunda Pircivar düzənliyində min hektarlarla torpağı suvarmağa imkan verəcəkdir. Bu payız mövsümündə ilk dəfə olaraq 100 hektar sahədə taxıl səpilmişdir.

Dövlətimizin başçısı inşaatçılara və mütəxəssislərə təşəkkürünü bildirdi, ölkəmizin potensial imkanlarının böyük olduğunu və görülən hər bir işin Azərbaycanın inkişafına xidmət etdiyini söylədi.

**AZƏRTAC**
**2006, 20 dekabr**

## ALMANİYANIN MİXAEL ZUKKOV FONDUNUN PREZİDENTİ İLƏ GÖRÜŞ

*(15 fevral 2007-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda Almaniyanın Mixael Zukkov Fondunun prezidenti Mixael Zukkov ilə görüşmüşdür.

Azərbaycanda ekologiya sahəsində dövlət siyasətinin yüksək səviyyədə aparıldığını və prezident İlham Əliyev tərəfindən bu sahəyə xüsusi diqqət göstərildiyini vurğulayan Mixael Zukkov ölkəmizdə Fondun iştirakı ilə ekologiyanın və təbiətin qorunması ilə əlaqədar həyata keçirilən layihələr haqqında danışdı.

Azərbaycan Prezidenti İlham Əliyev ekologiya məsələlərində yaxından əməkdaşlığına görə Fondun rəhbərliyinə təşəkkürünü bildirdi. Fondun Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirən dövlətimizin başçısı dedi ki, biz ekoloji problemlərə xüsusi fikir veririk. Bakıda və Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair hökumət siyasəti həyata keçirilir və xalqımızın rifahı, genefondunun qorunması, gələcək nəsillərin sağlamlığının təmin olunması üçün konkret layihələr hazırlanır və bu işə daim diqqət göstəriləcəkdir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**22-ci kitab: dekabr 2006 - fevral 2007. - Bakı: Azərnəşr, 2015. – S. 234.**

## TÜRKİYƏNİN ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ VƏ MEŞƏ TƏSƏRRÜFATI NAZİRİ OSMAN PEPEN İLƏ GÖRÜŞ

*(6 aprel 2007-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Prezident sarayında Türkiyənin Ətraf Mühitin Mühafizəsi və Meşə Təsərrüfatı naziri Osman Pepeni qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycanla Türkiyə arasında münasibətlərin yüksək səviyyədə olduğunu vurğuladı. Bu yaxınlarda Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfərinə toxunan prezident İlham Əliyev dedi ki, vaxtaşırı olaraq Türkiyədən Azərbaycana müxtəlif qurumların nümayəndələri gəlir və bu səfərlər qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar açır. Azərbaycan prezidenti ölkəmizdə ekologiya sahəsində genişmiqyaslı proqramların həyata keçirildiyini bildirdi və bu sahədə Azərbaycanla Türkiyənin müvafiq qurumlarının əməkdaşlığının əhəmiyyətini vurğuladı.

Nazir Osman Pepen Azərbaycan–Türkiyə münasibətlərinin bütün sahələrdə inkişaf etdiyini bildirdi. O qeyd etdi ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dostluq, qardaşlıq və əməkdaşlıq münasibətləri Azərbaycan prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Qonaq ətraf mühitin qorunması sahəsində ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın həyata keçirildiyini bildirdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev. 23-cü kitab: mart 2007 - aprel 2007. - Bakı: Azərnəşr, 2015. – S. 195.**

## XƏZƏRİN DƏNİZ MÜHİTİNİN MÜHAFİZƏSİNƏ HƏSR OLUNMUŞ BİRİNCİ BAKI KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – Xəzərin dəniz mühitinin mühafizəsinə həsr olunmuş Birinci Bakı Konfransının iştirakçılarını səmimi-qəlbdən salamlayır, hər birinizə cansağlığı, xoşbəxtlik və işlərinizdə uğurlar arzulayıram.

Xəzər dənizi geostrateji mövqeyinə görə Azərbaycan və bütövlükdə region üçün mühüm əhəmiyyət kəsb edir. Böyük neft-qaz yataqlarına malik Xəzər regiondakı ölkələrin iqtisadi dirçəlişində xüsusi rol oynayır. Karbohidrogen ehtiyatlarının intensiv işlənməsi şəraitində dənizin flora və fauna zənginliyinin qorunması, ekoloji vəziyyətinin yaxşılaşdırılması bizim daim diqqətimizdədir.

Konfransın gündəliyinə daxil olan problemlərin aktuallığı və ciddiliyi onların həlli üçün region ölkələri arasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsini tələb edir. Məhz bu səbəbdən Azərbaycan Respublikasında ətraf mühitin mühafizəsi, biomüxtəlifliyin qorunub saxlanılması və təbii ehtiyatlardan səmərəli istifadə olunması məqsədi ilə Xəzəryanı dövlətlər və beynəlxalq təşkilatlarla əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir.

Xəzərin dəniz mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyasının bütün Xəzəryanı dövlətlər tərəfindən imzalanması onların Xəzər dənizinin mühafizəsi istiqamətində birgə fəaliyyət göstərməyə hazır olduqlarını nümayiş etdirir.

Ümidvaram ki, konfransınız qarşıda duran məsələlərin həlli naminə Xəzəryanı dövlətlərin öz səy və imkanlarını birləşdirmələri üçün yeni təkan verəcək, dəniz mühitinin mühafizəsində maraqlı olan bütün tərəflər arasında əməkdaşlığın gücləndirilməsi və region ölkələri xalqlarının qarşılıqlı münasibətlərinin daha da dərinləşdirilməsinə xidmət edəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 24 may 2007-ci il

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**24-cü kitab: aprel 2007 - iyun 2007. - Bakı: Azərnəşr, 2015. – S. 223-224.**

## İRANIN EKOLOGİYA KOMİTƏSİNİN SƏDRİ, İRAN PREZİDENTİNİN EKOLOGİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DOKTOR VAEZ CAVADİ İLƏ GÖRÜŞ

*(25 may 2007-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Bakıda keçirilən Xəzərin dəniz mühitinin mühafizəsinə həsr olunmuş Birinci Bakı Konfransında iştirak edən İran İslam Respublikasının Ekologiya Komitəsinin sədri, İran prezidentinin ekologiya məsələləri üzrə müavini xanım doktor Vaez Cavadini qəbul etmişdir.

Görüşdə ətraf mühitin mühafizəsi sahəsində Xəzəryanı dövlətlərin əməkdaşlığının vacibliyi qeyd olunmuşdur. Xəzərin dəniz mühitinin mühafizəsinə həsr olunmuş Birinci Bakı Konfransının əlaqələrin daha da inkişaf etməsində böyük rol oynadığı vurğulanmış, eyni zamanda, Azərbaycan-İran ikitərəfli münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirilmişdir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**24-cü kitab: aprel 2007 - iyun 2007. - Bakı: Azərnəşr, 2015. – S. 225.**

## «XƏZƏR DƏNİZİNİN DAVAMLI İNKİŞAFI ÜÇÜN STRATEGİYALAR» MÖVZUSUNA HƏSR OLUNMUŞ KONFRANSIN İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi, «Xəzər dənizinin davamlı inkişafıüçün strategiyalar» mövzusuna həsr olunmuş konfransın iştirakçılarını səmimiqəlbdən salamlayır, hər birinizə cansağlığı, işlərinizdə uğurlar arzulayıram.

Xəzər dənizi geostrateji mövqeyinə görə Azərbaycan və bütövlükdə region üçün mühüm əhəmiyyət kəsb edir. Regiondakıölkələrin iqtisadi dirçəlişində böyük neft-qaz yataqlarına malik olan Xəzər xüsusi rol oynayır. Karbohidrogen ehtiyatlarının intensiv işlənilməsi şəraitində dənizin biomüxtəlifliyinin qorunması, ekoloji vəziyyətinin yaxşılaşdırılması daim bizim diqqətimizdədir.

Qeyd etmək lazımdır ki, Xəzər dənizinin ətraf mühitinin vəziyyəti ilə bağlı problemlər regionun davamlı inkişafına təsir göstərən əsas amillərdəndir. Bu baxımdan Azərbaycan Xəzər dənizi regionunda ekoloji problemlərin ciddiliyini və onların sosial-iqtisadi inkişafa təsirini nəzərə alaraq, bu problemlərin daha geniş miqyasda həlli üçün ümumi yanaşma prinsipləri əsasında qarşılıqlıəməkdaşlığın genişləndirilməsinə böyük əhəmiyyət verir.

«Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası»nın bütün Xəzəryanı dövlətlər tərəfindən imzalanması da öz növbəsində bu dövlətlərin Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi istiqamətində birgə fəaliyyətə hazır olduğunu göstərir.

Məmnuniyyətlə qeyd etmək istərdim ki, hazırda Azərbaycanda Xəzər dənizinə antropogen təsiri azaltmaq məqsədi ilə dəniz sularının çirklənməsinə qarşı mühafizə sistemi yaradılır və artıq bu işin ilk mərhələsi həyata keçirilməkdədir.

Ümidvaram ki, konfransınız qarşıda duran məsələlərin həlli naminə bütün səy və imkanların birləşdirilməsinə yeni təkan verəcək, dəniz mühitinin mühafizəsində maraqlı olan bütün tərəflər arasında əməkdaşlığın daha da gücləndirilməsinə xidmət edəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 4 oktyabr 2007-ci il

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev. 26-cı kitab: avqust 2007 - oktyabr 2007. - Bakı: Azərnəşr, 2015. – S. 252-253.**

**DƏVƏÇİ RAYONUNDA TAXTAKÖRPÜ SU ANBARININ VƏ SU ELEKTRİK STANSİYASININ TƏMƏLİ QOYULMUŞDUR AZƏRBAYCAN PREZİDENTI İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR**

*(8 noyabr 2007-ci il)*

Noyabrın 8-də Dəvəçi rayonu ərazisində Taxtakörpü su anbarının və su elektrik stansiyasının təməlqoyma mərasimi keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. Buraya toplaşan inşaatçılar dövlətimizin başçısını hörmətlə qarşıladılar. Prezident İlham Əliyev Samur-Abşeron kanalı sistemi üzrə uzunmüddətli strategiya və texnikiiqtisadi əsaslandırmada təklif olunan sxemə əsasən, Taxtakörpü su anbarının su elektrik stansiyası ilə birgə tikintisi və Taxtakörpü-Ceyranbatan, Vəlvələçay-Taxtakörpü kanallarının tikintisi layihələrinin texnikiiqtisadi göstəriciləri ilə tanış oldu.

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə dövlətimizin başçısına məlumat verərək bildirdi ki, Taxtakörpü su anbarının inşası SamurAbşeron suvarma sisteminin yenidən qurulması kompleksinə daxil olan obyektdir. Samur-Abşeron kanalının uzunluğu 180 kilometrdir. Yenidənqurma işlərinə kanalın baş qurğusunun yeniləşdirilməsi, 50 kilometrlik hissəsinin təmir olunması, Taxtakörpü su anbarının, Taxtakörpü-Ceyranbatan və Vəlvələçay– Taxtakörpü kanalının tikintisi daxildir. Taxtakörpü anbarı Samur-Abşeron kanalının suyu ilə doldurulacaqdır. Həcmi 268 milyon kubmetr olacaq ki, bu da Bakı, Sumqayıt şəhərlərinin, ümumən Abşeron yarımadasının içməli su, suvarma suyu və texniki su təminatını 2 dəfə yaxşılaşdıracaqdır.

Bildirildi ki, ümumilikdə, layihələrə 392 milyon manat vəsait xərclənəcəkdir. Azərbaycan Respublikasının Dövlət Neft Fondundan ayrılmış həmin vəsait hesabına bu ərazidən keçən şimal qaz xəttinin 10 kilometrlik, Bakı-Novorossiysk neft kəmərinin 10 kilometrlik hissələri, avtomobil yolları da köçürülmüşdür. Su anbarı su elektrik stansiyası ilə eyni vaxtda tikiləcəkdir.

Türkiyənin "Təməlsu" şirkətinin məsləhətçi olduğu konsorsiuma daxil olan "Azərsu", "Azərkörpü" və "Azərenerjitikintiquraşdırma" təşkilatlarının yerinə yetirəcəkləri tikinti işləri 2010-cu ildə başa çatdırılacaqdır. Burada 26 milyon kubmetr torpaq, 60 min kubmetrdən çox beton işləri görüləcəkdir. Bəndin hündürlüyü 142,5 metr, eni 10-15 metr olan su anbarında 8,5 milyon kubmetr qazma işləri yerinə yetiriləcəkdir. Ə.Əhmədzadə daha sonra bildirdi ki, Taxtakörpü və Ceyranbatan su anbarları arasında uzunluğu 110,33 kilometr, dərinliyi 3,8 metr, suburaxma qabiliyyəti saniyədə 40 kubmetr, Vəlvələçay ilə Taxtakörpü su anbarı arasında uzunluğu 31,45 kilometr, dərinliyi 3,8 metr, suburaxma qabiliyyəti saniyədə 75 kubmetr olan kanallar çəkiləcəkdir. Bu kanallar üzərində 512 qurğu, o cümlədən 13 akveduk, 35 düker, 1 tunel, 99 avtomobil və piyada körpüsü, 255 selötürücü və 129 leysan keçidləri tikiləcəkdir. Bu kanallar vasitəsilə əlavə 49,174 hektar əkin sahəsi suvarılacaqdır.

Prezident İlham Əliyev su anbarının və torpaq bəndin baş planına baxdı, içərisində yazı olan gilizi təmələ qoydu və düyməni basaraq betontökən maşını işə saldı. Azərbaycan Prezidenti İlham Əliyev su anbarının yuxarı hissəsində inşa olunacaq 24-27 meqavat gücündə su elektrik stansiyasının layihəsi ilə də tanış oldu. Bildirildi ki, su anbarı ilə birlikdə bu enerji obyektinin istifadəyə verilməsi nəticəsində ildə 15 milyon manatlıq elektrik enerjisinə qənaət olunacaqdır. Çünki Sitalçay və Ceyranbatan nasos stansiyaları ləğv ediləcəkdir. Ümumilikdə

isə, su elektrik stansiyasının istismarından hər il 40-50 milyon manat gəlir əldə olunacaq ki, bu da su anbarının və SES-in tikintisinə çəkilən xərcin 7 ilə ödənilməsi deməkdir.

Aparılacaq tikinti işlərində əksəriyyəti Dəvəçi rayonundan və qonşu rayonlardan olan 450 nəfər çalışacaqdır. Əmək haqqı iş həcmindən asılı olaraq 300 manatdan 1000 manatadəkdir. Dövlətimizin başçısı su elektrik stansiyasının təməlinə də giliz ataraq, tikintiyə start verdi.

**Prezident İLHAM ƏLİYEV inşaatçıları təbrik edərək dedi:** -Artıq təcrübəniz var, burada da yaxşı işləyəcəksiniz. Azərbaycan üçün çox lazım olan həm su anbarını, həm də elektrik stansiyasını tikəcəksiniz. İndi Azərbaycanda o qədər işlər görülür ki, sizin üçün hələ uzun illər iş olacaqdır. Özü də sevindirici haldır ki, bu işləri yerli şirkətlər görürlər. Bu, həm iş yeridir, həm də əmək haqqı yaxşıdır. Dörd ildən sonra da işlər çox olacaqdır. Əvvəlki illərdə belə böyük layihələri, adətən, xarici şirkətlər icra edirdilər. Bizim şirkətlərin təcrübəsi o qədər də yox idi. Amma indi bizim xarici şirkətə ehtiyacımız yoxdur, ancaq Azərbaycan şirkətləri işləyir, özü də keyfiyyətlə. Gələcəkdə həm Azərbaycanda, həm də başqa ölkələrdə işləyəcəksiniz.

Sizə uğurlar arzulayıram. Sağ olun.

Sonra Prezident İlham Əliyev yüksəkliyə qalxaraq, ətraf mənzərəni və tikintinin aparıldığı sahəni seyr etdi. Dövlətimizin başçısı daha sonra Azərbaycanda meliorasiya və su təsərrüfatının inkişafına dair sənədli filmə baxdı, ölkəmiz üçün əhəmiyyətli olan su anbarının və elektrik stansiyasının vaxtında, keyfiyyətlə başa çatdırılması barədə müvafiq tapşırıqlarını verdi.

**AZƏRTAC**
**2007, 8 noyabr**

# FÜZULİ SU ELEKTRİK STANSİYASININ TƏMƏLİ QOYULMUŞDUR

*(18 aprel 2008-ci il)*

Prezident İlham Əliyev aprelin 18-də Füzuli rayonunda su elektrik stansiyasının təməlinin qoyulması mərasimində iştirak etmişdir.

Prezident İlham Əliyevin tapşırığı əsasında tikiləcək stansiyanın gücü 50 meqavat olacaqdır. Füzuli və Beyləqan rayonlarına elektrik enerjisi xeyli uzaqda verilir. Bu isə təchizatın etibarlılığını aşağı salır, itkilərə səbəb olur. Bu baxımdan yeni stansiyanın tikilməsinin əhəmiyyəti böyükdür. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin sədri Etibar Pirverdiyev dövlətimizin başçısına məlumat verdi ki, burada hər birinin gücü 10 meqavat olan 4 ədəd və hər biri 5 meqavatlıq 2 ədəd turbin quraşdırılacaqdır. Layihədə 110 kilovoltuq elektrikötürmə xəttinin tikintisi də nəzərdə tutulmuşdur. Böyük Haramı və Xələc yardımçı stansiyalarını birləşdirən xəttin yenidən qurulması ilə stansiya vahid enerji sisteminə qoşulacaqdır.

"AZENKO" stansiyanı xeyli tez, 2-2,5 il ərzində tikib istifadəyə verməyi nəzərdə tutur. O, işə salındıqdan sonra 120 nəfər daimi iş yeri ilə təmin olunacaqdır. Dövlətimizin başçısının tövsiyəsi ilə inşaat işlərinə yerli sakinlər də cəlb edilir.

Prezident İlham Əliyev tikinti sahəsinə, layihə sxemlərinə baxdı.

Tikintinin aparılacağı yerdəki lövhənin üzərinə "Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev Füzuli su elektrik stansiyasının təməlini qoymuşdur. 18 aprel 2008-ci il" sözləri yazılmışdı.

Dövlətimizin başçısı stansiyanın təməlinə gilizi qoydu və beton qarışığı tökdü.

**AZƏRTAC**
**2008, 19 aprel**

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ÖLKƏMİZDƏ SU TƏCHİZATI SİSTEMLƏRİNİN İNKİŞAFI İLƏ BAĞLI LAYİHƏLƏRƏ DAİR İCLASDA GİRİŞ NİTQİ

*(29 aprel 2008-ci il)*

Ölkəmizdə aparılan əsaslı iqtisadi islahatlar nəticəsində, liberal iqtisadi siyasət nəticəsində Azərbaycanda son illər ərzində iqtisadi inkişaf çox sürətlə gedir. Son dörd il ərzində biz iqtisadi potensialımızı iki dəfə artırmışıq. Bu da öz növbəsində, ölkədə bütün sahələrdə islahatların davam etdirilməsi üçün gözəl şərait yaradır.

Biz iqtisadi müstəqilliyimizi, enerji təhlükəsizliyimizi təmin edə bilmişik və əminəm ki, bundan sonra Azərbaycanın qarşısında duran bütün iqtisadi və sosial məsələlər daha da sürətlə öz həllini tapacaqdır.

İqtisadi islahatlar aparmaqla bir neçə məqsədə çatmış oluruq. İlk növbədə, ölkəmizin iqtisadi gücü artır, büdcə artır. Son dörd il ərzində büdcə xərcləri on dəfə artmışdır. Bildiyiniz kimi, bu yaxınlarda Milli Məclisə yeni təkliflər göndəriləcək və dürüstləşdirmə zamanı büdcəmiz yenə də kifayət qədər böyük dərəcədə artacaqdır. Bütün bunlar imkan verir ki, ölkəmizdə həm sosial məsələlər, həm də ölkə qarşısında duran vəzifələr tezliklə öz həllini tapsın, nəhəng infrastruktur layihələri icra olunsun. Bir sözlə, biz müasir güclü dövlət yaradırıq və bu işdə böyük uğurlar qazanmışıq.

Bununla bərabər, əlbəttə ki, həll olunmamış məsələlər, problemlər də var. Onların bəziləri obyektiv xarakter daşıyır, bəziləri isə bizdən daha da ciddi yanaşma tələb edir. Hesab edirəm ki, son illər ərzində aparılan islahatlar və konkret proqramların icrası nəticəsində bir neçə istiqamətdə çox böyük, nəzərəçarpan dəyişikliklər baş vermişdir. İlk növbədə enerji təhlükəsizliyimizi təmin edə bilmişik. Özü də təkcə neft-qaz layihələrinin icrası ilə deyil, həmçinin Azərbaycanda son illər ərzində bir neçə yeni elektrik stansiyası tikilmişdir və bu bizə imkan verir ki, öz tələbatımızı tam şəkildə ödəyək. Yeni stansiyalar yüksək dünya standartlarına cavab verir, bu stansiyalardakı yeni texnologiyalara görə enerji daşıyıcılarına xeyli dərəcədə qənaət edilir. Biz bu qənaətdən səmərəli istifadə edərək, öz ixrac potensialımızı artırırıq. İndi deyə bilərəm ki, Azərbaycandakı elektrik stansiyalarına bir qram da mazut göndərilmir. Biz artıq mazut rejimindən tamamilə qaz rejiminə keçdik. Bunun həm böyük iqtisadi səmərəsi var, həm imkan verir ki, mazutu daha çox ixrac edək, əlavə vəsait qazanaq, həm də ki, bu, ekoloji vəziyyətin yaxşılaşmasına xidmət göstərir. Növbəti illərdə bu siyasət davam etdiriləcək, artıq istismarda olan və bu yaxınlarda təməlini qoyduğumuz böyük elektrik stansiyalarının, o cümlədən su elektrik stansiyalarının tikilməsi, işə düşməsi Azərbaycanda uzun illər bundan sonrakı dövr üçün çox güclü enerji potensialı yaradır və gələcəkdə elektrik enerjisinin ixracı da mümkün olacaqdır.

Bildiyiniz kimi, ölkəmizdə qazlaşdırma prosesi sürətlə gedir. İndi ölkə əhalisinin 80 faizi qazla təmin olunur. Başqa bölgədə yerləşən ölkələrlə müqayisədə bu çox böyük rəqəmdir. Ancaq biz çalışırıq və çalışmalıyıq ki, bu sahədə daha da böyük işlər görək. Qazlaşdırmanı daha da genişləndirək ki, maksimum dərəcədə bütün yaşayış məntəqələri qazla təmin olunsun. Yeni xətlər çəkilir və Azərbaycanda qaz hasilatı artır. Bizim neft şirkəti ilə bərabər həm xarici şirkətlər qaz hasilatını artırırlar, həm də ki, köhnə yataqlardan qaz hasilatının artımı mövcuddur. Bu da həm ölkəmiz, həm də tərəfdaşlarımız üçün çox vacib və önəmli bir məsələdir.

Enerji təhlükəsizliyi bu gün bölgədəki və xaricdən qaz alan ölkələrin inkişafı üçün başlıca rol oynayır. Biz isə həm öz tələbatımızı maksimum dərəcədə təmin etməliyik, həm də əlbəttə ki, gələcəkdə ixrac imkanlarımızı artırmalıyıq.

Azərbaycanda infrastruktur layihələri həyata keçirilir. Bu layihələr ölkəmizi müasirləşdirir, yeni imkanlar yaradır, biznes mühitini yaxşılaşdırır. Həmin infrastruktur layihələri içərisində yol tikintisi xüsusi yer tutur. Bildiyiniz kimi, indi Azərbaycanda həm magistral

yollar, həm də şəhərlərarası, şəhərdaxili yollar, kənd yolları çəkilir. Demək olar ki, Azərbaycanda bütün yol infrastrukturu yenilәşir. Bu məqsədlər üçün dövlət büdcəsindən böyük investisiyalar nəzərdə tutulub və biz bu vəsaiti ayırırıq. Növbəti illərdə investisiyaları davam etdirəcəyik. Bu həm iqtisadi, həm də sosial məsələdir. Bütövlükdə ölkənin səviyyəsini, onun imkanlarını göstərən amillərdən biri də yol infrastrukturudur. Bizdə isə yol tikintisi çox sürətlə gedir. Hər bir yaşayış məntəqəsinə çəkilən yeni yol, öz növbəsində, biznes mühitini də yaxşılaşdırır, turizm imkanlarını genişləndirir. Bir sözlə, bu, aydın məsələdir ki, yol olan yerdə canlanma da, inkişaf da var. Bütün bu sahələr üzrə konkret proqramlar var, büdcə vəsaiti var və növbəti illərdə bu vaxta qədər əldə edilmiş uğurlar, əlbəttə ki, daha da artırılmalıdır.

Bütün bu mühüm sahələr içərisində su təchizatı xüsusi yer tutur. Azərbaycan bütün dövrlərdə müəyyən dərəcədə bu sahədə özünü tam şəkildə təmin edə bilməmişdi. Çünki bizim su mənbələrimiz məhduddur. Ancaq keçmişdə və bu gün böyük işlər görülmüşdür. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında 1971-ci ildə su kəməri tikilmiş, Kür çayının suyu Bakıya çatdırılmışdır. Onun təşəbbüsü ilə Kür çayının suyunu Bakıya gətirən ikinci kəmər də tikilməyə başlanmış və 1988-ci ildə başa çatdırılmışdı. Ancaq şəhərimiz böyüyür, ölkənin əhalisi artır və nəinki Bakıda, bütün şəhər və rayonlarda su problemi mövcuddur. Bu problem həmişə olub, su və kanalizasiya problemləri bütün dövrlərdə bizə əziyyət veribdir.

Hazırda məndə olan məlumata görə, indi Bakı şəhərinin təxminən 40 faizi suyu fasilələrlə alır. Bu, müasir şəhər üçün dözülməz bir vəziyyətdir. Yenə də deyirəm ki, bunun obyektiv və tarixi səbəbləri var. Ancaq biz indiki şəraitdə, əlbəttə ki, bu vəziyyətlə barışa bilmərik. Biz əsas infrastruktur layihələrimizin uğurla başa çatdığı bir dövrdə bu məsələyə çox ciddi diqqət yetirməliyik.

Vəziyyəti yaxşılaşdırmaq, əsaslı şəkildə böyük dönüşə nail olmaq üçün bu vaxtadək kifayət qədər işlər görmüşük. Müxtəlif tədbirlər nəticəsində su təchizatı həm Bakıda, həm də rayonlarda yaxşılaşır. Ancaq istədiyimiz dərəcədə deyildir.

Bugünkü iclas bu məsələlərlə bağlı problemlərin təhlili üçün əhəmiyyətlidir. Bu vaxta qədər görülən işlər haqqında məlumatlar səslənəcəkdir. Ən önəmlisi isə bundan sonrakı dövrdə hansı işlərin görülməsidir. Mən hesab edirəm ki, bu vaxta qədər görülən bütün işlər təqdirəlayiqdir. Ancaq bundan sonra daha böyük işlər görülməlidir. Görüləcək işlər Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair yeni proqramda öz əksini tapmalıdır – 2009–2013-cü illəri əhatə edən proqrama daxil olunmalıdır. Bununla bərabər, su təchizatı və meliorasiya məsələləri üzrə xüsusi tədbirlər planı hazırlanmalıdır. Biz birinci dəfə deyil ki, bu məsələlərlə bağlı müşavirə keçiririk. Bu vaxta qədər görülən işlər məhz bizim keçirdiyimiz müşavirələrdən, qəbul edilmiş qərarlardan sonra baş vermişdir. Biz indi Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisini uğurla icra edirik. Tarixi bir nailiyyətdir. Bu, uzun illər, onilliklər ərzində – həm sovet vaxtında, həm də müstəqilliyimizin ilk illərində müzakirə olunan məsələdir. Hamımız bilirdik ki, orada təmiz su mənbələri var, o mənbələr ki, ölkəmiz üçün lazımdır. Amma o vaxt mərkəzi sovet hökuməti bu məsələyə pul ayırmırdı, müstəqilliyimizin ilk illərində də bizim buna imkanlarımız çatmırdı. Belə olan halda, əlbəttə ki, bu məsələ sadəcə olaraq, bir layihə kimi qalırdı. Biz onu canlandırdıq, konkret tədbirlər planını hazırladıq və bu gün Oğuz–Qəbələ–Bakı su kəməri uğurla tikilir. Mən tikintidə olmuşam, işlərin gedişi ilə yaxından tanış olmuşam. Mənə mütəmadi qaydada məlumatlar verilir və əminəm ki, bu su kəməri tikiləndən sonra Bakı sakinləri mütləq və mütləq onun nəticələrini görəcək, bundan bəhrələnəcəklər.

Biz bu məqsədlər üçün Dövlət Neft Fondundan vəsait nəzərdə tutmuşuq. Bu da çox böyük əhəmiyyət daşıyır. Neft kəmərinin istifadəsindən, Azərbaycanın neft yataqlarından çıxan neftin satışından əldə olunan gəlirləri biz su kəmərinin tikintisinə, insanların sağlamlığına, sosial məsələlərin həllinə sərf edirik, yönəldirik.

Bu kəmər, bir daha demək istəyirəm ki, tarixi əhəmiyyət daşıyır və tikiləndən sonra uzun illər Azərbaycan xalqına xidmət edəcəkdir.

Bununla bərabər, digər böyük və bundan az əhəmiyyət daşımayan layihə Samur–Abşeron kanalının və «Taxtakörpü» su anbarının tikintisi layihəsidir. Tutumuna görə «Taxtakörpü» su anbarı Azərbaycanda bu vaxta qədər yaradılmış su anbarlarından ən böyüyüdür. Bu da qlobal strateji əhəmiyyət daşıyan layihədir və icra olunmağa başlanmışdır. Mən «Taxtakörpü» su anbarının təməlinin qoyulmasında iştirak etmişdim. Orada həm su anbarı, həm də su elektrik stansiyası tikilir. Gələcəkdə bu layihənin əhəmiyyəti daha da artacaqdır. Çünki indi dünyanın müxtəlif yerlərində su qıtlığı yaranır. Suyun nə dərəcədə əhəmiyyətli olduğunu artıq bütün dünya bilir, görür və biz də bu sahədə vaxt itirməməliyik. Biz vaxtı qabaqlamalıyıq, gördüyümüz işləri elə qurmalıyıq ki, ölkəmiz üçün, əhali üçün lazım olan bütün infrastrukturu yaradaq. Bu gün biz Samur–Abşeron kanalının və «Taxtakörpü» su anbarının tikintisi haqqında da məruzəni dinləyəcəyik.

Eyni zamanda, bu yaxınlarda Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə daha bir layihə icra olunmağa başlamışdır. Buna xüsusi vəsait ayrılmışdır və mən bu məsələyə özüm şəxsən nəzarət edirəm. Bu, su təchizatı baxımından ən problemli olan kəndlərdə modul təmizləyici qurğuların quraşdırılması və əhalinin təmiz su ilə təmin olunması layihəsidir. Bu çox böyük əhəmiyyət daşıyan layihədir. Bunun üstünlüyü ondadır ki, çox qısa müddət ərzində biz vəziyyəti yaxşılaşdıra bilmişik. Artıq 50 kənddə bu qurğular quraşdırılmışdır və indi o kəndlərdə yaşayan insanlar təmiz su içirlər. İndi televiziyada bu barədə xəbər verilir və göstərilir ki, bu vaxta qədər onlar hansı suyu içirdilər. İnsanlar əziyyət çəkirdilər, təmizlənməmiş, çirklənmiş suyu dədə-baba üsulu ilə duruldurdular.

Bu həm əziyyətdir, həm də insanın sağlamlığına böyük təhlükədir. Su həyat deməkdir, insanın sağlamlığı xeyli dərəcədə suyun keyfiyyətindən asılıdır. Qısa müddət ərzində 50 kənddə qurğuların quraşdırılması ilə biz, demək olar ki, həmin kəndlərdə bu məsələni həll etmişik.

İndi növbəti mərhələ gəlir. Mən vəzifə qoymuşam – çalışmaq lazımdır ki, bu ilin sonuna qədər əlavə 50 kənddə bunu təmin edək. Növbəti illərdə biz bu prosesi daha da böyük, geniş miqyasda davam etdirməliyik. Mənə nazirlik tərəfindən verilən məlumata görə, bu yolla biz təxminən 700 min əhalini təmiz su ilə təmin etmək iqtidarında olacağıq.

Bizim aidiyyəti qurumlarımız bu sahədə müəyyən işlər görüblər. Mən bu işləri qiymətləndirirəm. Çalışmalıyıq maksimum dərəcədə səylər qoyaq ki, qısa müddət ərzində bu sahədə vəziyyəti əsaslı şəkildə yaxşılaşdıraq.

Azərbaycan hökuməti beynəlxalq maliyyə qurumları ilə bu məsələnin həlli üçün uğurlu danışıqlar aparmışdır. Demək olar ki, şəhər və rayonlarımızın hamısı o proqrama daxildir. İndi baxmalıyıq, təhlil etməliyik. Əgər hansı sahə o kreditlərlə əhatə olunmursa, biz əlavə tədbirlər görməliyik, özümüz dövlət xətti ilə əlavə vəsait ayırmalıyıq. Necə ki, Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisində öz pulumuzdan istifadə etmişik.

Bütün bu məsələlər həm iqtisadi təhlükəsizliyimizi, həm də ərzaq təhlükəsizliyimizi təmin edəcəkdir. İndi genişmiqyaslı meliorasiya proqramı hazırlanır, mənə onun ilkin variantı təqdim edilmişdir. Mən də müvafiq göstəriş vermişəm ki, tam şəkildə hazırlansın və biz bu proqramı qəbul edək. 2008–2015-ci illəri əhatə edən genişmiqyaslı meliorasiya və irriqasiya proqramı qəbul ediləcək və icra olunacaqdır. Mən proqrama şəxsən baxmışam. Nəzərdə tutulan bütün tədbirlər çox dəyərlidir və çox konkret proqramdır. Orada hər bir rayon, kənd, hər bir məsələ öz əksini tapır. İndi gərək bunun maliyyə tərəfinə daha dəqiq baxaq. Nə qədər vəsait lazım olacaq, ilk növbədə hansı məsələləri, prioritet əhəmiyyət kəsb edən məsələləri görməliyik. Əlbəttə, 2009-cu ilin dövlət büdcəsində vəsait nəzərdə tutulmalıdır. Həm bu proqramın həyata keçirilməsi üçün, həm də ki, bütövlükdə dediyim qlobal şəkildə su təminatının yaxşılaşması üçün.

Meliorasiya tədbirləri nəticəsində əkin sahələri də genişlənəcəkdir. Bu, birbaşa ərzaq təhlükəsizliyi məsələləri ilə bağlıdır. Bu barədə artıq mən bir neçə dəfə demişəm, biz çalışmalıyıq ki, maksimum dərəcədə özümüzü əsas ərzaq məhsulları ilə təmin edək.

İndiyə qədər bu belə olmayıb və bunun da tarixi səbəbləri var. Sovet İttifaqı zamanı hər bir müttəfiq respublika hansısa bir sahə üzrə ixtisaslaşdırılırdı.

Amma bu gün biz ərzaq təhlükəsizliyimizi özümüz təmin etməliyik. Bizim tərəfimizdən irəli sürülmüş təşəbbüs – hər hektara görə fermerlərə 40 manat subsidiya verilməsi artıq özünü doğruldur. Əkin sahələri böyük dərəcədə genişləndirilmişdir. Nə qədər yeni əkin sahələri yaradılıb?

**İsmət Abasov** (*Kənd Təsərrüfatı naziri*): Hər hektara görə 40 manat verilirdi. Lakin Sizin təkrar göstərişiniz oldu və buğda istehsalçılarına əlavə daha 40 manat verildi. Bundan sonra təxminən 120 min hektardan bir az çox sahə əkildi. Bu isə təxminən 300–350 min ton əlavə buğda istehsalı deməkdir.

**İlham Əliyev:** Yəni, bütün bu məsələlər bir-biri ilə bağlıdır. Mən bir daha qeyd etmək istəyirəm ki, bu məsələyə biz, bax bu nöqteyi-nəzərdən, qlobal nöqteyi-nəzərdən yanaşırıq: bu, ölkəmizin təhlükəsizliyidir, insanların sağlamlığıdır, iqtisadi məsələlərin həllidir, sosial məsələlərin həlli deməkdir.

## YEKUN NİTQİ

Çıxışlarda bu vaxta qədər görülən işlər haqqında məlumat verildi və ən önəmlisi, gələcəkdə bizi nələr gözləyir, hansı işləri görməliyik – bu barədə də kifayət qədər geniş məlumatlar səsləndi. Bu çox vacibdir, çünki biz hər bir sahədə vəziyyəti yaxşılaşdırmaq üçün ilk növbədə mövcud olan problemi həll etməliyik, özü də kompleks şəkildə və maksimum həcmdə. Bu problemlər maksimum təhlil olunandan sonra, əlbəttə ki, bunların həlli yolları müzakirə olunur və müvafiq proqramlar qəbul edilir. Görülən işlər deməyə əsas verir ki, gələcəkdə bu sahə ilə bağlı bütün problemlərin həlli üçün bizim imkanlarımız var. Texniki imkanlarımız var, artıq təcrübəmiz var – böyük, nəhəng layihələrin icrası üçün lazım olan təcrübə – texnika, mütəxəssislər, yəni bütün lazımi tədbirləri görmək üçün imkanlar var. Maliyyə imkanlarımız da var və bu gün burada nümayiş etdirilən layihələrin bir çoxu Azərbaycanın dövlət büdcəsinin hesabına, Neft fondunun vəsaiti hesabına həyata keçirilir. Beynəlxalq maliyyə qurumları ilə artıq çox gözəl işgüzar əlaqələrimiz var. Bu vaxta qədər bizə ayrılan kreditlərdən istifadə edib müəyyən işləri gördük və əsas böyük işlər isə bundan sonra görüləcəkdir. Burada səslənən rəqəmlər də göstərir ki, nə qədər böyük işlər görüləcəkdir. 1 milyard dollardan çox vəsaitin qoyuluşu nəzərdə tutulur. İndi Azərbaycanın iqtisadi imkanları bizim kredit reytinqimizə də müsbət təsir göstərmişdir. Bu gün xarici bazarlardan maliyyə resursları almaq artıq bizim üçün problem deyildir. Düzdür, son müddət ərzində bu sahədə dünyada müəyyən problemlər yarandı, maliyyə resurslarının həcmi məhdudlaşdı. Amma buna baxmayaraq, Azərbaycanın kredit reytinqi kifayət qədər yüksəkdir. Bizim etibarlı tərəfdaş olmağımız artıq bütün dünya biznes, maliyyə aləmi üçün bəlli bir məsələdir. Yəni biz həm xarici maliyyə təşkilatlarının imkanlarından, həm də öz imkanlarımızdan istifadə etməliyik. Beləliklə, bütün bu imkanları maksimum dərəcədə səfərbər etməliyik.

Maksimum proqram tərtib olunandan sonra, əlbəttə ki, proqram daxilində ardıcıllığı da təmin edəcəyik. Hansı məsələlər prioritet əhəmiyyət daşıyırsa, onlar ilk növbədə görülməlidir. Ancaq bütövlükdə mən tam əminəm ki, biz qlobal kontekstdə də bu məsələlərlə bağlı uğurlara nail olacağıq. Bütün işlər çox yüksək səviyyədə, keyfiyyətlə görülməlidir, keyfiyyət birinci yerdə olmalıdır. Həm texniki cəhətdən, həm də ki, veriləcək suyun keyfiyyəti də yüksək olmalıdır. Ona görə bütün texniki tədbirlər buna yönəldilməlidir. Təmizləyici qurğular, əlbəttə ki, bu keyfiyyəti təmin edir. Kəmər də müasir borularla çəkilir və onu da qeyd etmək

istəyirəm ki, Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi nəticəsində Azərbaycanda, Sumqayıtda böyük bir sənaye kompleksi yaranmışdır. Böyük diametrli borular istehsal olunur. Hansı ki, əvvəllər bu istehsal bizdə yox idi. Çoxlu iş yerləri açılmışdır və gələcəkdə bu kompleks həm Azərbaycan üçün səmərəli işləyəcək – çünki bizim başqa layihələrimiz də var – həm də öz məhsulunu yüksək keyfiyyətli olduğu üçün xaricə ixrac edə biləcək.

Biz paylayıcı şəbəkəyə böyük diqqət göstərməliyik. İndi bu kəmər tikilir. Ancaq o, Bakıya daxil olandan sonra mövcud sistemə qoşulacaqdır. Burada isə deyildi ki, infrastruktur artıq köhnəlibdir. Biz bunu gərək yeniləşdirək, o, müasir səviyyəyə cavab verməlidir və itkilər də azalmalıdır. İtkilər isə kifayət qədərdir. 20 faizdən çoxdur. Bunun da təbii səbəbləri var. Çünki borular artıq köhnəlib, paslanıbdır. Əlbəttə, paylayıcı şəbəkənin yeniləşdirilməsi bu məqsədi də güdür.

Bakının su problemi artıq həll olunmaqdadır. Həlli yolları bəllidir və əminəm ki, görüləcək işlər vəziyyəti xeyli yaxşılaşdıracaqdır. Qəsəbələrin su təchizatı Bakıətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı proqramında öz əksini tapıbdır. İşlərin böyük hissəsi görülüb, ümid edirəm ki, ilin sonuna qədər bütövlükdə bu proqram, o cümlədən onun suya aid olan hissəsi icra ediləcəkdir.

Rayonlarda görüləcək işlər artıq bəllidir. Bütün rayonlar proqramlarla əhatə olunubdur. Dünya Bankı və digər banklar tərəfindən verilən kreditlər Azərbaycanın bütün rayonlarını əhatə edir. Həm su təminatını, həm də kanalizasiya sisteminin quraşdırılmasını – əksər rayonlarda, ümumiyyətlə, kanalizasiya sistemi yoxdur. Yəni bunlar böyük işlərdir, nəhəng infrastruktur layihələridir, bunlar çox böyük peşəkarlıq və keyfiyyət tələb edir. Biz buna böyük vəsait ayırırıq.

Onu da qeyd etmək istəyirəm ki, bu məsələlərin həlli, ilk növbədə, sosial xarakter daşıyır. Əlbəttə, bunun iqtisadiyyata da, xüsusilə də kənd təsərrüfatına müsbət təsiri olacaqdır. Amma birinci yerdə sosial məsələlərin həlli – insanların təmiz və keyfiyyətli su ilə təmin olunması və insanların sağlamlığına zərər verə biləcək amillərin azaldılması məsələsi dayanır. Bu bir daha onu göstərir ki, Azərbaycan dövləti öz siyasətini xalqın maraqları üzərində qurur.

Biz kreditlərlə birlikdə bir neçə milyard dollara başa gələcək nəhəng layihələr icra edirik. Biz öz maddi, maliyyə imkanlarımızı səmərəli şəkildə, ilk növbədə insanların həyat səviyyəsinin yaxşılaşması, sağlamlığının möhkəmlənməsi və sosial problemlərin həlli üçün istifadə edirik.

Bununla yanaşı, ekoloji məsələlər də öz həllini tapır və burada göstərilən slaydlarda gördük ki, Xəzər dənizinin akvatoriyası, Bakı buxtası təmizlənəcəkdir. Keçən ilə nisbətən bu il çimərliklərdə böyük irəliləyiş var. Hər dəfə yay yaxınlaşdıqca biz eşidəndə ki, o çimərlik, bu çimərlik bağlanmalıdır, orada vəziyyət pisdir, insanların ürəyi ağrıyır. Nə üçün bizim gözəl Xəzər dənizimiz belə çirklənməlidir? Biz elə etməliyik ki, yeni görülən işlər nəticəsində bu çimərlik mövsümünə Xəzər dənizinin ekologiya məsələlərini tam şəkildə həll edək. Təmizləyici qurğular tikilibdir. Hansılar ki, indi tikilməlidir, onlar da tikiləcəkdir. Ümid etmək istəyirəm ki, bu yay insanlarımız dənizdən daha da çox istifadə edəcəklər.

Bir sözlə, görüləcək bütün işlər su təminatının, ekoloji vəziyyətin yaxşılaşmasına, meliorasiya məsələlərinin həllinə və nəticədə sosial-iqtisadi inkişafa da böyük təkan verəcəkdir. Bunlar doğrudan da böyük qlobal layihələrdir, böyük tarixi əhəmiyyət daşıyan layihələrdir. Bu vaxta qədər görülən bütün işlər, xüsusilə 1970–80-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə görülən işlər bu gün bizə imkan verir ki, bu nəticələrdən istifadə edək. Ancaq biz daha da irəliyə getməliyik. Ölkənin əhalisi artır, iqtisadiyyat artır, yeni tələblər, yeni məsələlər ortaya çıxır. Biz bunlara hazır olmalıyıq və bir də demək istəyirəm ki, vaxtı qabaqlamalıyıq. Ümid edirəm ki, bu gün burada göstərilən bütün layihələr vaxtlı-vaxtında uğurla icra olunacaqdır. Mən də həmişə olduğu kimi, bu işlərə nəzarət edəcək və vaxtaşırı sizdən hesabat alacağam.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**30-cu kitab: aprel 2008 - iyun 2008. - Bakı: Azərnəşr, 2016. – S. 38-48.**

## QLOBAL EKOLOGİYA FONDUNUN İCRAÇI DİREKTORU XANIM MONİK BARBÜ İLƏ GÖRÜŞ

*(30 iyun 2008-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Qlobal Ekologiya Fondunun icraçı direktoru xanım Monik Barbünü qəbul etmişdir.

Dövlətimizin başçısı ölkəmizdə ekologiya sahəsində irimiqyaslı proqramların uğurla icra olunduğunu bildirdi, ekologiya ilə bağlı məsələlərin kompleks şəkildə həlli istiqamətində gələcəkdə geniş planların həyata keçiriləcəyini qeyd etdi. Prezident İlham Əliyev Qlobal Ekologiya Fondu ilə ölkəmizin müvafiq strukturları arasında əməkdaşlığın uğurla inkişaf etdiyini dedi, bu baxımdan fondun icraçı direktoru xanım Monik Barbünün səfərinin əhəmiyyətini vurğuladı.

Qlobal Ekologiya Fondunun icraçı direktoru xanım Monik Barbü ölkəmizdə böyük iqtisadi inkişafa şahid olduğunu vurğuladı. O, Azərbaycanda ekologiya sahəsində görülən işlərə toxunaraq, bu istiqamətdə həyata keçirilən tədbirlərin əhəmiyyətini qeyd etdi. Xanım Monik Barbü ümidvar olduğunu bildirdi ki, birgə layihələrin həyata keçirilməsi əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə xidmət edəcəkdir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**31-ci kitab: iyun 2008 - avqust 2008. - Bakı: Azərnəşr, 2016. – S. 99.**

## ALTIAĞAC MİLLI PARKINDA

*(22 avqust 2008-ci il)*

Azərbaycan prezidenti İlham Əliyev avqustun 22-də Altıağac Milli Parkında olmuşdur.

Buraya toplaşan meşə təsərrüfatı işçiləri dövlətimizin başçısını səmimiyyətlə qarşıladılar.

Bu park prezident İlham Əliyevin sərəncamı ilə 2004-cü il avqustun 31-də Xızı və Siyəzən rayonlarının ərazilərində – Altıağac Dövlət Təbiət Qoruğu və ona həmsərhəd olan Dövlət Meşə Fondu torpaqlarının bazasında yaradılmışdır. Ərazinin 90,5 faizini palıd, fıstıq və vələs ağaclarının üstünlük təşkil etdiyi, zəngin flora və faunası olan dağ meşələri təşkil edir.

Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi, fotostendlərə baxdı.

Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov dövlətimizin başçısına məlumat verdi ki, parkın ərazisi 11 min 35 hektardır. Parkda MDB məkanında, o cümlədən Qafqaz regionunda yeganə olan Vəhşi Təbiətin Bərpası Mərkəzi və Reabilitasiyası Klinikası da fəaliyyət göstərir. Burada müasir laboratoriya, lazımi avadanlıq vardır. Əsas məqsəd Böyük Qafqazın cənub-şərq yamaclarının təbii landşaftının, flora və faunasının qorunub saxlanması, bərpası, təbii komplekslərinin mühafizəsinin gücləndirilməsi, ekoloji monitorinqin həyata keçirilməsi, həmçinin tədqiqatlar, turizm və istirahət üçün şəraitin yaradılması və əhalinin ekoloji cəhətdən maarifləndirilməsinin təşkilidir.

Prezident İlham Əliyev Altıağac Milli Parkının ekoturizm və informasiya mərkəzi, inzibati binası, turist ləvazimatlarının kirayəsi və satışı şöbəsi ilə tanış oldu, parkda saxlanılan meşə heyvanlarına tamaşa etdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**32-ci kitab: avqust 2008 - sentyabr 2008. - Bakı: Azərnəşr, 2016. – S. 44-45.**

## «AZƏRBAYCAN VƏ TÜRKMƏNİSTANIN NEFT VƏ QAZ POTENSIALI: ENERGETİKA, İQTİSADİYYAT, EKOLOGİYA. ƏMƏKDAŞLIĞIN STRATEGİYASI» BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!

Sizi – «Azərbaycan və Türkmənistanın neft və qaz potensialı: energetika, iqtisadiyyat, ekologiya. Əməkdaşlığın strategiyası» beynəlxalq konfransının iştirakçılarını səmimi-qəlbdən salamlayır və konfransın işinə uğurlar diləyirəm.

Ümidvaram ki, belə bir mötəbər konfrans hər iki dövlətin enerji sahəsində malik olduğu zəngin potensialın nümayiş etdirilməsinə, toplanmış böyük təcrübənin öyrənilməsinə və əməkdaşlığın yeni mərhələyə qədəm qoymasına təkan verəcəkdir. Bu forumda dünyanın bir çox ölkəsindən olan nümayəndələrin iştirakı ona beynəlxalq səviyyədə göstərilən böyük diqqətin nəticəsidir.

1994-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi»ni imzalayaraq ölkəmizin tarixində yeni inkişaf və tərəqqi dövrünün əsasını qoydu. Bu gün də Azərbaycanın çoxvariantlı ixrac strategiyası məhz həmin siyasətin ardıcıl davamıdır.

Azərbaycan ənənəvi olaraq neft-qaz sənayesinin bütün sahələri üzrə dərin bilik və bacarığa yiyələnmiş yüksək səviyyəli mütəxəssislərə, böyük elmi potensiala malikdir. Eyni zamanda, hazırda Azərbaycanda dünya standartlarına uyğun geniş infrastruktur yaranmışdır və biz bütün bu imkanları qarşılıqlı maraq doğuran tərəfdaşlıq üçün təqdim etməyə tam hazırıq.

Türkmənistan prezidenti cənab Qurbanqulu Berdıməhəmmədovun cari ilin may ayında Azərbaycana rəsmi səfəri ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinə etibarlı zəmin yaratmışdır. Bu işgüzar tədbirin keçirilməsi barədə razılığın əldə olunması da həmin səmərəli dialoqun nəticəsidir.

Xəzər regionunda neft-qaz sahəsində irimiqyaslı beynəlxalq investisiya layihələrinin nəzərdən keçirilməsi, yeni texnika və texnologiyalardan istifadə olunması, elm və ekologiya sahələrində işlərin əlaqəli aparılması, habelə əməkdaşlıq imkanlarının hərtərəfli öyrənilməsi üçün belə bir konfransın keçirilməsi çox böyük əhəmiyyət kəsb edir.

Əminəm ki, bugünkü görüş qardaş, qonşu xalqlarımızın rifahına və tərəqqisinə öz dəyərli töhfəsini verəcəkdir. Bir daha konfransın işinə müvəffəqiyyətlər, sizin hər birinizə xoşbəxtlik arzulayıram.

Hörmətlə,

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 8 sentyabr 2008-ci il

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**32-ci kitab: avqust 2008 - sentyabr 2008. - Bakı: Azərnəşr, 2016. – S. 146-147.**

## BALAKƏN ŞƏHƏRİNƏ YENİ SU XƏTTİ ÇƏKİLMİŞDİR
*(19 sentyabr 2008-ci il)*

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 19-da Balakən rayon mərkəzinə çəkilmiş su xəttinin açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı su xəttinin açılışını bildirən düyməni basaraq xətti işə saldı.

Tikintisinə 2006-cı ilin mayında başlanmış su xəttinin uzunluğu 13,6 kilometrdir. Siltik çayından 319 millimetrlik polad borularla çəkilən su xəttinin üstündə təmizləyici qurğu, hər birinin tutumu 1000 kubmetr olan 12 su anbarı, tikilmişdir. Dövlət Neft Şirkətinin vəsaiti ilə çəkilmiş su xətti yeni tikilməkdə olan xəstəxana kompleksini, şəhərin yeni yaşayış massivini içməli su ilə təchiz edəcəkdir. Tikintiyə 4 milyon manat vəsait xərclənmişdir.

Prezident İlham Əliyev burada rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü, xatirə şəkli çəkdirdi.

Prezident İlham Əliyev bu əlamətdar hadisə münasibətilə balakənliləri təbrik etdi.

Rayon ağsaqqalı XƏLİFƏ MİRƏLİYEV dövlətimizin başçısına müraciətlə dedi:

-Hörmətli cənab Prezident,

Balakən rayonunun ağsaqqalları, ziyalıları, camaatı adından Sizə "Xoş gəlmisiniz!" deyirik. Qədəmləriniz mübarək olsun, uğurlu, düşərli olsun. Cənab Prezident, Siz bu gəlişinizlə Balakən camaatına su verdiniz. Su aydınlıq rəmzidir. Yüzlərlə ailə, bütün camaatımız buna sevinir.

Bu, Sizin rayonumuza ikinci gəlişinizdır. Hər gəlişiniz bizim üçün bayram olmuşdur. Birinci gəlişiniz zamanı Balakən rayonunun girişində çox möhtəşəm bir xəstəxananın təməlini qoydunuz və o, tezliklə istifadəyə veriləcəkdir. Camaatımız xəstələrini yüz kilometrlərlə uzaq məsafəyə - Şəkiyə, Bakıya aparmalı olurdu. Gözəl bir diaqnostika mərkəzi – xəstəxana istifadəyə veriləcəkdir. Bu, Sizin təşəbbüsünüzlə olmuşdur, buna görə bütün Balakən camaatı Sizə minnətdardır.

O səfərinizdən az vaxt keçməsinə baxmayaraq, rayonumuz görkəmini dəyişmişdir. Hər yer gülçiçəyə bürünmüşdür. Kəndlərimiz də dəyişmiş, yenidənqurma işləri görülmüşdür.

Bu gün burada ulu öndərimizin adını daşıyan parkdayıq. Gələcəkdə bura yeni ailə quran gənclərimizin andiçmə yerinə çevriləcəkdir. Bütün bunlara görə Sizə təşəkkür edirik, minnətdarıq. Demək istədiyim başqa sözlər də var.

Əgər tarixə nəzər salsaq, ulu öndərimiz, - Allah onun qəbrini nurla doldursun, - Balakən rayonunu heç vaxt yaddan çıxarmamışdır. Yevlax-Balakən dəmir yolu xəttinin çəkilməsi ulu öndərin Balakən camaatına töhfəsi idi. Yevlax-Balakən şose yolunun çəkilməsi də ulu öndərin böyük diqqətinin nəticəsi idi. Eyni zamanda, Balakən şəhərinin girəcəyindəki böyük konserv zavodunun təməlinin də qoyulması ulu öndərimizin bizə göstərdiyi qayğının nəticəsi idi. Onun siyasətini Siz uğurla davam etdirirsiniz. Siz bu rayonun gözəl bir diyara çevrilməsini istəyirsiniz.

Cənab Prezident, buna görə Sizi alqışlayırıq. Bütün Azərbaycan xalqı kimi, Balakən camaatı da Sizə xanımınızla birlikdə uzun ömür, cansağlığı arzulayırıq. Allah Sizi pis gözdən, bəd nəzərdən qorusun. Bir arzumuz da var – imkan olarsa, Balakənə tez-tez gəlin, bizim rayonumuz qonaqpərvərdir.

**Prezident İLHAM ƏLİYEV təşəkkür edərək dedi:**

- Çox sağ olun, təşəkkür edirəm. Əlbəttə, bundan sonra da gələcəyəm. Mən çox şadam ki, Balakən belə qısa müddət ərzində gözəlləşdi, abadlaşdı. Burada çox böyük quruculuq, abadlıq işləri gedir. Siz bunu yaxşı bilirsiniz, siz burada yaşayırsınız.

Siz qeyd etdiyiniz kimi, bütün dövrlərdə Balakənə çox böyük diqqət göstərilmişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci illərdə böyük işlər görülmüşdür. Dəmir yolu, avtomobil yolu çəkilmişdir. Ondan sonrakı dövrlərdə də işlər görülmüşdür. Məsələn, iki il bundan əvvəl böyük xəstəxananın təməlini bərabər qoyduq. Amma indi mən gələndə gördüm ki, demək olar, hazırdır, tamamlanma işləri aparılır. O, nəinki bu zonada, bütövlükdə Azərbaycanda son illər ərzində tikilən ən böyük xəstəxanalardan biridir. Həm müalicə, həm diaqnostika, həm də müayinədən keçmək üçün bütün lazımi avadanlıq quraşdırılacaqdır. Balakənlilər artıq başqa yerlərə getməyəcəklər, başqa rayonlardan müalicə üçün Balakənə gələcəklər. Bu, insanların sağlamlığı üçündür.

Bura su xətti çəkilibdir. İnsanlar təmiz içməli su ilə təmin olunur. Nə qədər məktəb tikilibdir. 16 məktəb tikilibdir. Gözəl park, kanat yolu tikilib, idman kompleksi tikilir. İndi biz Bakı-Balakən avtomobil yolunu yenidən tikirik. Ən gözəl, müasir standartlara cavab verəcək və gediş-gəliş daha da rahat olacaqdır.

Görülən bütün bu işlərlə bərabər, iqtisadi və sənaye potensialının möhkəmlənməsi, yeni zavodlar, fabriklər, - bu gün mən onların bəzilərinə baş çəkəcəyəm, – həm iş yerləridir, həm də rayonun inkişafına böyük töhfədir. Rayon həm də turizm üçün çox yararlı bölgədir. Siz bunu yaxşı bilirsininz. Çox gözəl təbiəti var. Amma turizm nə vaxt inkişaf edir?! Yeni infrastruktur lazımdır, turist gəlib, necə deyərlər, imkan olmayan yerdə nə edəcəkdir?! Amma indi mehmanxana tikilir, Zaqatala aeroportu bu gün açılacaqdır, avtomobil yolu yeniləşir, abadlıq, gözəllik işləri görülür. Əlbəttə, mən çox istəyirəm ki, Azərbaycanın bütün bölgələri inkişaf etsin və ən müasir səviyyəyə çatsın. O cümlədən, Balakən, xüsusilə paytaxtdan uzaqda yerləşən rayonlar. Demək olar ki, Balakən ən ucqar rayonlardan biridir, sərhəd rayonudur. Ona görə buraya xüsusi diqqət göstərilməlidir. Yəqin ki, siz bu xüsusi diqqəti görürsünüz. Çox qısa bir müddət ərzində bu qədər böyük işlər görülübdür.

Çox sevinirəm və çox şadam ki, mənim tərəfimdən təyin olunmuş icra hakimiyyətinin başçısı da yaxşı işləyir. Onun da böyük əməyi var. Mən Dövlət Neft Şirkətinə göstəriş vermişdim ki, öz imkanları hesabına burada işlər görsün. Onlar da çox səmərəli işləyirlər. Balakənin inkişafı üçün, abadlıq-quruculuq işlərinin davam etdirilməsi üçün və insanların daha da yaxşı yaşaması üçün gələcəkdə başqa planlarımız da var. İnsanların yaxşı yaşaması üçün əsas bir neçə amil olmalıdır - təhlükəsizlik, sabitlik. Bu da bizdə var. Azərbaycan bu bölgədə bir sabitlik adasıdır, təhlükəsizlik adasıdır. Hara baxsaq görərik ki, orada çaxnaşma, münaqişə, gərginlik var, qan tökülür. Amma biz Azərbaycanda çox əmniyyətli şəraitdə yaşayırıq və insanlar bunu görürlər, qiymətləndirirlər. Bu, hər bir ölkənin inkişafı üçün əsasdır.

İkincisi insanların yaşayış səviyyəsi, həyat səviyyəsidir. Bu nədən ibarətdir: səhiyyə sisteminin təkmilləşdirilməsi, müasir xəstəxanaların tikilməsi, insanlar vaxtlı-vaxtında müayinədən keçsinlər, xəstəlik aşkar olunarsa, yerindəcə əməliyyat keçirilsin, yaxud da başqa müalicə aparılsın. Təhsil məsələləri, məktəblər – bu, bizim gələcəyimizdir. Uşaqlarımız gözəl təhsil almalıdırlar. Onlar Azərbaycanı gələcəkdə idarə edəcəklər. Həm şərait yaxşı olmalıdır, həm də təhsilin keyfiyyəti. Yollar olmalıdır, infrastruktur layihələri, yeni müəssisələr, istehsal sahələri. Yəni bütün bunlar hər bir ölkənin inkişafını və insanların daha yaxşı yaşamasını təmin edən əsas amillərdir. Bunların hamısı Balakəndə var.

Mən əminəm ki, növbəti illərdə atılacaq yeni addımlar hesabına daha da böyük işlər görüləcəkdir. Bu gün deyə bilərəm ki, Balakən Azərbaycanın ən inkişaf etmiş rayonlarından biridir. Əminəm ki, siz bu yüksək səviyyəni saxlayacaqsınız. Azərbaycan Respublikasının Prezidenti kimi mən bundan sonra da rayonun inkişafı üçün lazımi tədbirləri görəcəyəm.

Gələn ilin əvvəlində regionların sosial-iqtisadi inkişafı Dövlət proqramının ikinci hissəsi qəbul olunacaqdır. Proqramda da hər bir rayon, kənd üzrə bütün lazımi tədbirlər nəzərdə tutulur ki, mövcud olan bütün problemlər tezliklə həll olunsun. Balakən və bütün Azərbaycan çiçəklənsin, inkişaf etsin, insanlar daha da yaxşı yaşasınlar və biz irəliyə gedək.

Sağ olun, mənim salamlarımı bütün balakənlilərə çatdırın.

**AZƏRTAC**
**2008, 19 sentyabr**

## BULAQ KOMPLEKSİNİN AÇILIŞI
*(27 sentyabr 2008-ci il)*

Prezident İlham Əliyev sentyabrın 27-də Qusar şəhərində əhalini içməli su ilə təchiz etmək üçün çəkilmiş yeni su xətlərini birləşdirən Bulaq kompleksinin rəmzi açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı şəhərdə su təchizatı sisteminin yenidən qurulması layihəsi ilə tanış oldu. Bildirildi ki, 205 millimetrlik borularla çəkiləcək ana su xəttinin uzunluğu 1525 metr olacaqdır. Həmin xətdən su şəhərin müxtəlif küçələrinə paylanılacaqdır. Prezident İlham Əliyev düyməni basdı və bulaq kompleksini işə saldı.

Dövlətimizin başçısına məlumat verildi ki, Qusar şəhərinin əhalisini çoxdan narahat edən içməli su probleminin aradan qaldırılması məqsədi ilə son 6 ay ərzində əməli tədbirlər görülmüş, 13 min metrədək müxtəlif diametrli su xətləri çəkilmişdir.

**AZƏRTAC**
**2008, 27 sentyabr**

## HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNA ÇƏKILMIŞ YOLUN KƏNARINDA VƏ ZIĞ-GÜNƏŞLİ YAMACINDA GÖRÜLƏN YAŞILLAŞDIRMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*(8 noyabr 2008-ci il)*

Azərbaycan prezidenti İlham Əliyev noyabrın 8-də Heydər Əliyev BeynəlxalqAeroportuna çəkilmiş yeni avtomobil yolunun kənarında və Zığ–Günəşli yamacında görülən yaşıllaşdırma işləri ilə tanış olmuşdur.

Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov dövlətimizin başçısına layihə əsasında görülən işlər barədə məlumat verdi. Bildirildi ki, iyul ayından başlanmış hazırlıq işləri əsasən qurtarmışdır. 11 kilometrdən çox məsafədə 240 min ədəd müxtəlif növ ağac əkiləcəkdir. Bunlardan 35 mini sərv və şam, 90 mini zeytun, qalanları isə akasiya, nar və digər ağac növləri olacaqdır. Layihəyə uyğun olaraq, burada suvarma sistemi də quraşdırılmışdır. Oktyabr ayının 25-dən həmişəyaşıl ağacların əkilməsinə başlanılmışdır. İndiyə qədər 40 mindən artıq ağac əkilmişdir. İndi təşkil olunmuş iməcilikdə nazirliyin müxtəlif idarə və təşkilatlarının 500-dən artıq əməkdaşı iştirak etmiş, 6 hektar ərazidə körpə ağaclar basdırılmışdır.

Prezident İlham Əliyev ərazinin yaşıllaşdırılması layihəsi ilə tanışlıqdan sonra özü də ağac əkdi və ona su verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**34-cü kitab: noyabr 2008 - fevral 2009. - Bakı: Azərnəşr, 2016. – S. 10.**

## DAVOS İQTISADI FORUMUNUN «ENERJİ OUTLOOK–2009» MÖVZUSUNDA İCLASI

*(29 yanvar 2009-cu il)*

*Yanvarın 29-da Davosda Dünya İqtisadi Forumunun «Enerji Outlook–2009» mövzusunda iclası keçirilmişdir.*

*Böyük əhəmiyyətə malik iclasda Azərbaycan prezidenti İlham Əliyev iştirak etmişdir.*

*Forumun əsas tədbirlərindən olan «Enerji Outlook–2009» iclasını açan «CNN İnternational» televiziya kanalının aparıcısı Con Defterios prezident İlham Əliyevi və digər qonaqları salamladı, bu iclasda qlobal iqtisadiyyatla bağlı ən aktual məsələlərin müzakirə olunacağını bildirdi. Son vaxtlar neftin qiymətinin aşağı düşdüyünü xatırladan Con Defterios bildirdi ki, bir il öncə dünya bazarında neftin 1 barrelinin dəyəri 100 dollardan yuxarı olanda ilin sonuna qədər «qara qızıl»ın qiymətinin 200 dollara çatması proqnozlaşdırılırdı. İndi isə neftin 1 barrelinin qiyməti 40 dollara bərabərdir. Bu baxımdan da iclasın əsas müzakirə mövzuları dünyada enerji təhlükəsizliyi, neftin qiymətinin hansı səbəbdən aşağı düşməsi və sabitləşməsi məsələləri olacaqdır.*

*Con Defterios ilk sözü Azərbaycan prezidentinə vermək istədiyini bildirərək dedi ki, OPEK-in Əlcəzairdə keçirilən son iclasında Azərbaycan quruma üzv olmayan hasilatçı ölkə kimi, gündəlik hasilatı 300 min barrel aşağı salmağı, yəni son 2 ildə hasilatı ən aşağı həddə endirməyi təklif etmişdir. Bu iclas 2002-ci ildən bəri OPEK üzvü olan və üzvü olmayan ölkələrin bir araya gəldiyi ən böyük toplantıdır.*

*İclasın aparıcısı prezident İlham Əliyevdən «2009-cu ilin proqnozuna dair deyilənlər nəzərə alınarsa, OPEK ölkələri, habelə Azərbaycan indi neft hasilatını kifayət qədər azaldıbmı, yoxsa bundan da az neft çıxarılmalıdır?» sualına cavab verməyi xahiş etdi.*

**İlham Əliyev**: Hesab edirəm ki, neft hasilatında elan edilmiş və hazırda həyata keçirilən azaldılma tədbirləri qiymətin sabit səviyyədə saxlanılması üçün kifayət edəcəkdir. Əlbəttə ki, hər şey tələbatdan, hasilatdan və öhdəliklərin hansı şəkildə yerinə yetirilməsindən asılı olacaqdır.

Azərbaycana gəldikdə isə hasilatın həcmi hələ ki, o qədər yüksək deyildir. Lakin biz ümumi işə öz töhfəmizi verməyə çalışırıq. Biz də müxtəlif vasitələrlə qiymətin tarazlaşdırılmasına və enerji təhlükəsizliyində öz rolumuzu oynamağa çalışırıq. Hər iki məsələ bir-biri ilə əlaqəlidir və vacibdir. 5-6 il bundan əvvəl enerji təhlükəsizliyi məsələləri heç müzakirə edilmirdi. İndi isə bu, nəinki istehlakçılar, o cümlədən hasilatçılar üçün böyük bir problemə çevrilibdir. Hasilatçı ölkə kimi, Azərbaycan öz enerji təhlükəsizliyinin təmin edilməsi üçün dünya bazarlarına müxtəlif çıxış marşrutlarının olmasında maraqlıdır.

Hesab edirəm ki, neft hasil edən ölkələrin birgə səyləri, eləcə də enerji siyasətinin bütün iştirakçıları – hasilatçılar, tranzit ölkələr və istehlakçılar arasında qarşılıqlı anlaşma hamımız üçün daha yaxşı şərait yaradacaqdır.

*Sonra iclasın aparıcısı Con Defterios bildirdi ki, Nabukko kəməri layihəsi 2003-cü ildən bəri dəfələrlə müzakirə olunubdur. Lakin Rusiya ilə Ukrayna arasındakı mübahisə bu layihənin reallaşmasına, belə demək olarsa, təkan vermişdir. Azərbaycan prezidentinə ünvanlanan növbəti sual belə oldu: «İndi Azərbaycandan və Xəzər regionundan həmin kəmər üçün hasilatı əldə etməyin vaxtıdırmı?»*

**İlham Əliyev**: Bizim üçün potensial bazarları dəqiq bilməyimiz çox vacibdir. Bu vaxta qədər Azərbaycan öz qazını qonşu ölkələrə ixrac edib. Hazırda Azərbaycanın qaz hasilatı mövcud infrastruktur və bazarlarla əhatə olunur. Lakin biz daha böyük miqdarda qaz hasil etmək ərəfəsindəyik. Növbəti 5 il ərzində biz bu həcmi 2 dəfə artırmağı planlaşdırırıq. Məhz bu səbəbdən mövcud bazarlar kifayət deyildir.

Nabukko layihəsinin bir çox problemləri var idi: siyasi dəstək, siyasi iradə, maliyyə öhdəliyi və tranzit məsələləri. Bu layihəyə bir çox iştirakçılar cəlb olunmuşdur. Hesab edirəm ki, bütün iştirakçıların birgə səyi və güclü maliyyə dəstəyi bu layihənin irəlilədilməsinə yardımçı ola bilər. Biz öz təcrübəmizdən bilirik ki, ehtiyatlar olmadan boru kəmərini tikmək necə çətindir. Lakin biz öz tərəfdaşlarımızla – *bp* və digər şirkətlərlə bunu etdik. Biz neftin qiyməti təxminən 30 dollar olan vaxtda Bakı–Tbilisi–Ceyhan neft kəmərini tikdik. O zaman Azərbaycanın gündəlik neft hasilatı 200 min barrelə bərabər idi. Biz gündəlik həcmi 1 milyon barrel olan boru kəmərinə sərmayə qoymağa başladıq.

Bu səbəbdən hesab edirəm ki, Nabukko ölkələri və bu layihəni dəstəkləyən təşkilatlar daha cəsarətli olmalı, onlar bu layihəyə təkcə gəlir mənbəyi kimi baxmalı deyillər. Bu, enerji təhlükəsizliyidir. Enerji təhlükəsizliyi ümumi təhlükəsizliyə və uzunmüddətli müstəqilliyə aparır. Bu səbəbdən hesab edirəm ki, daha güclü siyasi iradə, daha aydın maliyyə dəstəyi olmalıdır. Azərbaycan həm tranzit, həm də təchizatçı ölkə rolunu oynayaraq, bu layihəyə dəstək vermək üçün əlindən gələni etməyə hazırdır.

*İclasın aparıcısı dəyərli fikirlərinə görə Azərbaycan prezidentinə təşəkkür etdi və bu məsələyə yenidən qayıdılacağını bildirdi.*

*Con Defterios OPEK-in Baş katibinə müraciət edərək, 2008-ci ilin dördüncü rübündə dünya bazarında hasilatın azalmasının təşkilatda hansı narahatlıq yaratdığını və neftin qiymətini 40 dollar həddində saxlamaq üçün nə etməyin lazım olduğunu soruşdu.*

**Abdullah Səlim əl-Bədri** (*OPEK-in Baş katibi*): Neft istehsal edən ölkələrin mövqeyi ondan ibarətdir ki, «qara qızıl»ın indiki qiyməti çox aşağıdır və hasilatçı ölkələri təmin etmir. Neft hasil edən ölkələr enerji sahəsi ilə yanaşı, infrastruktura da sərmayə qoyur. Bizi hətta neftin barrelinin 50 dollar olması da qane etmir. Ötən əsrin 80-ci illərində baş verən hadisələrin təkrarlanmasını istəmirik. O zaman biz yüksək peşəkar işçiləri ixtisar edirdik və yeni sərmayələr qoymurduq.

*«Biz artan tələbata hazır olmalıyıq» deyən OPEK-in Baş katibi bildirdi ki, məqsəd neftin qiymətini 60–80 dollar səviyyəsində saxlamaqdır. Neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, hasilatı genişləndirmək üçün əlavə infrastruktura sərmayə qoymaq vacibdir, çünki tələbat artdığı halda, istehsalçı ölkələr buna hazır olmalıdır.*

*OPEK-in Baş katibi onu da bildirdi ki, hazırda təşkilatın neft ehtiyatları mövcud nəql marşrutlarının ixrac edəcəyi həcmdən qat-qat çoxdur.*

**Toni Heyvord** (*bp şirkətinin prezidenti*): Bunu proqnozlaşdırmaq çox çətindir, çünki gələcəkdə baş verə biləcək hadisələr qlobal iqtisadiyyatdan asılıdır. Hazırda dünya ölkələrində iqtisadi artım, demək olar ki, dayanmışdır. Bu səbəbdən də «qara qızıla» tələbat o qədər də böyük deyil və bu, nəticə etibarilə neftin qiymətinin aşağı düşməsinə səbəb olmuşdur. Hesab edirəm ki, münasib qiymət 60–80 dollar arasında olmalıdır. Bu qiymət OPEK-ə üzv ölkələrə büdcələrini tarazlaşdırmağa, zəruri sosial proqramları maliyyələşdirməyə, habelə gələcək enerji ehtiyatlarının təminatçısına çevriləcək yeni yataqlara sərmayələr yatırmağa şərait yaradacaqdır.

*bp prezidenti iqtisadi dirçəliş bərpa olunduqdan sonra «qara qızıla» tələbatın yenidən artacağını da dedi.*

**Mukeş Ambani** (*Hindistanın «Reliance Industries» şirkətinin sədri*): *«Neftin qiymətinin aşağı düşməsi sizi hasilata sərmayə qoymaqdan çəkindirməyəcəkmi?» sualına cavab verdi:* Ölkəmiz neftin təxminən 80 faizini idxal edir. Buna baxmayaraq, bu il Hindistanda iqtisadi artım sürətinin ikirəqəmli olması proqnozlaşdırılır. Ölkənin şərq hissəsində yataqlar var və hazırda bu yataqların işlənilməsi prosesi gedir. Növbəti aylarda biz neft hasilatını nəzərdə tuturuq və əlverişli qiymətə satacağıq.

Dünyanın bundan sonrakı 100 il üçün neft ehtiyatı var. Bu baxımdan bütün ölkələr ekoloji cəhətdən təmiz dünyaya körpü salmalıdırlar. İnkişaf etmiş ölkələr isə bu körpünün yaradılması ilə bağlı dünyaya təqdim oluna biləcək platformalar hazırlaya bilər.

**Pyer Qadeniya** (*Fransanın EDF enerji şirkətinin prezidenti): «Avropanın nüvə enerjisi ilə bağlı növbəti 10 il ərzində hədəfi nə olmalıdır?» sualına cavab verdi. O, «iqtisadi dirçəliş bərpa olunduqdan sonra «qara qızıla» olan tələbat yenidən artacaq» fikri ilə razı olduğunu bildirdi.*

İndi neft və qaza alternativ olan sahələrə, o cümlədən rəhbərlik etdiyim şirkətin də cəlb olunduğu nüvə enerjisi sahəsinə sərmayə qoymağın vaxtıdır. Enerji sektorunun uzunmüddətli perspektivinin hazırda yaşadığımız iqtisadi böhranla heç bir əlaqəsi yoxdur. Bildiyiniz kimi, dünya iqtisadiyyatı yenidən öz inkişaf xəttinə qayıdacaqdır. Bunun neçə aylar, yoxsa illər sonra baş verəcəyini heç kim deyə bilməz. Lakin biz bilirik ki, bu, baş verəcəkdir.

*EDF şirkətinin prezidenti lazım olan enerjinin nüvə sahəsində də mövcud olduğunu, bu sahəyə sərmayə yatırmağın zəruriliyini diqqətə çatdırdı. O, təmsil etdiyi şirkətin Fransa, Böyük Britaniya, Çin və Amerikada nüvə enerjisi sahəsinin yeniləşdirilməsində əsas rol oynamağa hazır olduğunu dedi.*

*Pyer Qadeniya onu da etiraf etdi ki, nüvə enerjisi istehsalçılarının üzləşdiyi ən böyük maneə ictimaiyyətin bu sahənin təhlükəsiz və ekoloji cəhətdən əlverişli olmasına dair şübhələridir.*

**Alberto Vayzer** (*«Bunge Limited» şirkətinin sədri*): *O, bioyanacağın da neft və qaza alternativ olduğunu bildirdi və onun faydası ilə bağlı fikirlərini bölüşdü.* Bioyanacağın istehsalı üçün tələb olunan ərazi ondan alınan faydanı üstələyə bilər. Bioyanacaq üçün zəruri olan kənd təsərrüfatı məhsullarını daha çox müxtəlifləşdirmək lazımdır. Hazırda dünyada kənd təsərrüfatı və ümumiyyətlə, ərzaq və qida məhsullarına artan tələbata baxmayaraq, bu növ yanacağın müəyyən töhfə verəcəyinə ümidvarıq

*Növbəti sual yenə Azərbaycan prezidenti İlham Əliyevə ünvanlandı. Aparıcı dövlətimizin başçısına müraciətlə bildirdi ki, son iki ildə hasilatçı və tranzit ölkələr arasında yaranan müəyyən mübahisələrdən ən çox istehlakçılar əziyyət çəkir. Əgər son iki ildə siyasi səbəblərdən ehtiyatlar bağlı saxlanılırsa, o zaman beynəlxalq əməkdaşlıq necə olmalıdır?*

**İlham Əliyev:** Bu münasibətlər davranış, enerji siyasəti və belə demək olarsa, enerji fəlsəfəsi məsələsidir. Azərbaycana gəldikdə biz artıq sübut etmişik ki, ölkəmiz etibarlı tərəfdaşdır. Biz öz istehlakçılarımız qarşısında bütün öhdəliklərimizi yerinə yetirmişik və regionumuzda hasilatçı, tranzit və istehlakçı ölkələr arasında çox səmərəli əməkdaşlıq var.

Şübhəsiz ki, biz öz enerji ehtiyatlarımıza ilk növbədə milli maraqlar və davamlı inkişaf nöqteyi-nəzərindən baxırıq. Biz ehtiyatlarımızdan əməkdaşlığı daha da gücləndirmək və bu sahədə bizdən asılı olan dostlarımıza və ölkələrə dəstək məqsədi ilə istifadə etməyə çalışırıq. Bu halda o ölkələr nəzərdə tutulur ki, hazırda onlar qazın bazar qiymətləri ilə ayaqlaşa bilmir. Biz realist olmalıyıq. Bu səbəbdən də ədalətli qiymət və uzunmüddətli maraqlar arasında tarazlığı tapmaq çox vacibdir.

Düşünürəm ki, bu yaxınlarda baş verənlərin müxtəlif səbəbləri ola bilər. Lakin əsas fərq yanaşmadadır. Əgər siz öz enerji ehtiyatlarınız vasitəsilə daha çox şey əldə etməyə və ya ərazinizdən istifadə edərək, daha ucuz qiymət əldə etməyə çalışırsınızsa, onda bu cür böhranlar qaçılmazdır. Əgər enerji bazarının bütün iştirakçılarının maraqlarını nəzərə alırsınızsa, onda uğur əldə etmək olar. Zənnimcə, bu mənada bizim təcrübəmiz nümunə ola bilər. Biz bu təcrübəni bölüşə və sübut edə bilərik ki, enerji ehtiyatları münaqişə və ya ayrı-seçkilik aləti kimi deyil, dostluq aləti kimi istifadə oluna bilər.

*Sonra «Enerji təhlükəsizliyi və təchizatı, o cümlədən münasib qiymətlə bağlı beynəlxalq əməkdaşlıq necə olmalıdır» mövzusunda müzakirələr başlandı.*

**A b d u l l a h   S ə l i m   ə l - B ə d r i** (*OPEK-in Baş katibi*): 2008-ci ildə neftin 1 barrelinin qiyməti 147–150 dollar olanda məlum idi ki, bu, tələbatdan yox, möhtəkirlik yolu ilə yaranmışdır. Tələbata zərbə vuran bu cür bazar möhtəkirliyinin gələcəkdə qarşısını almaq üçün beynəlxalq qaydalar hazırlanmalıdır. Biz sui-istifadə hallarının qarşısını tam ala bilmərik, bu, daim olacaqdır. Lakin hesab edirəm ki, bu prosesə qarşı müəyyən qaydalar tətbiq olunmalıdır. Bu mənada istehlakçı və təchizatçı tərəflərin əməkdaşlığı və dialoqu vacibdir.

*Daha sonra iclas iştirakçılarının diqqətinə 2000-ci ildən bəri neftin qiymətində müşahidə edilən dəyişikliklər təqdim olundu. Bildirildi ki, son 9 ildə neftin 1 barrelinin qiyməti orta hesabla 50 dollar 12 sent təşkil etmişdir.*

*İclasın aparıcısı dedi ki, Səudiyyə Ərəbistanında keçirilən toplantıda neft nazirləri bildirmişlər ki, növbəti 10–20 ildə «qara qızılın» hasilatını planlaşdırmaq üçün neftin bir barrelinin qiyməti 75 dollar olmalıdır.*

*«Qlobal iqtisadiyyata ziyan vurmadan və sərmayə yatırımlarını həvəsləndirmək üçün neftin münasib qiyməti nə qədər olmalıdır» sualı səsləndi.*

**T o n i   H e y v o r d** (*bp şirkətinin prezidenti*)**:** Növbəti 20 ildə qlobal enerji sənayesinə ildə 25-26 trilyon dollar həcmində sərmayə qoyulmalıdır ki, dünyada tələbat təmin olunsun. Neftin qiyməti isə sərmayə qoyulmasına sövq edəcəkdir. Bir sözlə, hasilatçı ölkələrin sosialyönümlü sahələri maliyyələşdirməsi və enerji sahəsinə yeni investisiyalar yatırması üçün neftin bir barrelinin qiyməti 60-80 dollar arasında olmalıdır.

*Fransanın EDF şirkətinin sədri* ***Pyer Qadeniya*** *isə bildirdi ki, neftin bir barrelinin qiymətinin 60-80 dollar civarında saxlanılması üçün hökumətlər səylər göstərməlidir. Amma nüvə enerjisi bu qiymətdən daha əlverişlidir və bu növ enerjini istehsal etməyə imkan var, ondan da istifadə olunmalıdır. Buna nail olmaq və bu növ enerjinin təhlükəsiz olduğuna inandırmaq üçün ictimai rəy də formalaşmalıdır.*

**M u k e ş   A m b a n i** (*«Reliance Industries» şirkətinin sədri*): 60–80 dollar arasındakı qiymət həm hasilatçılar, həm də istehlakçılar üçün münasibdir. Bununla belə, tərəflər arasında şəffaflıq amilinin və neftin qiymətinin tarazlaşdırılması üçün müəyyən mexanizmin olması vacibdir.

*Daha sonra «Enerji Outlook–2009» iclasının iştirakçılarına suallar verildi.*

*Londonda yerləşən Beynəlxalq Strateji Araşdırmalar İnstitutunun Baş icraçı direktoru* ***Con Çip*** *Azərbaycan prezidenti İlham Əliyevə sualla müraciət etdi:*

**– Sualım prezident İlham Əliyevə və *bp*-nin prezidenti Toni Heyvordadır.**

**Dünən Rusiya hökumətinin sədri Vladimir Putin Şərqdən Qərbə gedən boru kəmərlərinin şaxələndirilməsindən danışdı. Zənnimcə, o, Rusiyadan və ona dost münasibətdə olan ölkələrin ərazisindən keçən boru kəmərlərini nəzərdə tuturdu. Lakin Nabukkonu xüsusi olaraq tariflədiyini eşitmədim.**

**Dünən Almaniya kansleri Angela Merkel də Avropa İttifaqı ilə Rusiya arasında uzunmüddətli və etibarlı münasibətlərin əsas meyarı kimi, enerjidaşıyıcıları kəmərlərinin müxtəlif marşrutlarının olması zərurətini vurğuladı. Sualım hər iki natiqədir. Rusiya ilə Avropa İttifaqı arasında bu cür enerji durumu baxımından siz hansı məsləhətləri verərdiniz? Avropa İttifaqı–Rusiya enerji təhlükəsizliyi paketinə salına biləcək hansı məsələləri siz istənilməz hesab edərsiniz? Buyurun, prezident Əliyev və Toni Heyvord.**

**İ l h a m   Ə l i y e v**: Azərbaycana gəldikdə, onu deyim ki, planlaşdırdığımız bütün layihələri vaxtında və yüksək səmərə ilə başa çatdırmışıq. Bu gün bizim şaxələndirmə ilə bağlı heç bir problemimiz yoxdur. Əksinə, bizim karbohidrogen ehtiyatlarımızı müxtəlif istiqamətlərə nəql edə biləcək 7 neft və qaz kəmərimiz var. Biz təkcə bir marşrutdan və bir bazardan asılı deyilik.

Ətrafımızda yerləşən ölkələr bizim ehtiyatlarımıza ehtiyac duyur. Bu bir az qəribə görünə bilər, hətta bizdən daha çox neft, qaz hasil edən ölkələr də bizim neft və qazı almaq üçün təkliflər irəli sürmüşlər. Bu səbəbdən də növbəti illər ərzində biz şaxələndirmə ilə bağlı yaranan çətinliklərdən əziyyət çəkməyəcəyik.

Biz hazırda yeni bazarların necə tapılması və istədiyimiz qədər neft çıxara bilmək üçün mövcud boru kəmərlərini necə genişləndirmək haqqında düşünürük. Bunu etmək üçün bizə yeni bazarlar lazımdır. Yeni bazarlar hazırdır. Onlar Qərbdə, Mərkəzi Avropada yerləşir və yeni bazarlar Nabukko kəməri, Türkiyə, Yunanıstan, İtaliya, Transadriatik kəməri və digərləri ola bilər.

Beləliklə, hazırda bizim ehtiyatlara tələbat mövcud infrastruktur vasitəsilə təchiz oluna biləcək miqdardan qat-qat artıqdır. Beləliklə, biz növbəti illər ərzində qonşuluğumuzda bəzən o qədər də xoşa gəlməyən hadisələrin inkişafını izləyəcəyik. Şübhəsiz ki, biz regionda daha sıx əməkdaşlıq görmək istəyirik, çünki bu və ya digər halda bu gərginliklər öz mənfi təsirini göstərir. Bu da öz növbəsində, qlobal enerji sektorunda əlavə gərginlik yaradır. Biz bunu görmək istəmirik. Biz gözlənilən və davamlı təchizat marşrutlarını və bütün iştirakçılar arasında qarşılıqlı anlaşmanı görmək istəyirik.

**Toni Heyvord** (*bp şirkətinin prezidenti):* Azərbaycan bu mənada nümunə ölkə kimi göstərilə bilər və bütün bunlar *bp* və onun tərəfdaşlarını son on ildə 25 milyard dollar sərmayə qoymağa sövq etmişdir. Bu isə Azərbaycan prezidentinin də dediyi kimi, enerji infrastrukturunun yaradılmasına imkan vermişdir.

Biz Azərbaycanla çox uğurlu tərəfdaşlıqdan məmnunuq. Çünki Azərbaycan açıq, azad, şəffaf və yaxşı idarə olunan enerji bazarı qaydalarına riayət etmişdir, sabit fiskal və tənzimləyici rejimlər isə bizə Azərbaycanda müxtəlif istiqamətlərə infrastruktur qurmağa imkan yaratmışdır ki, bu da öz növbəsində çoxsaylı istehlakçı deməkdir.

*Toni Heyvord bunun Azərbaycana böyük fayda gətirdiyini, xüsusilə də siyasi müstəqillik, enerji və maliyyə sahəsində müstəqillik verdiyini diqqətə çatdırdı.*

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**34-cü kitab: noyabr 2008 - fevral 2009. - Bakı: Azərnəşr, 2016. – S. 298-307.**

## LATVİYANIN ƏTRAF MÜHİT NAZİRİ RAYMONDS VEYONİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*(25 iyun 2009-cu il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də Latviyanın Ətraf Mühit naziri Raymonds Veyonisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Səfərinin uğurla keçdiyini vurğulayan nazir Raymonds Veyonis bu gün səhər Latviya hökuməti ilə Azərbaycan hökuməti arasında ətraf mühitlə bağlı əməkdaşlığa dair razılaşma imzaladıqlarını dedi. Razılaşmanın əhəmiyyətinə toxunan qonaq bildirdi ki, əgər indiyə kimi Latviya və Azərbaycan maliyyə, iqtisadi və digər sahələrdə əməkdaşlıq edirdisə, bu razılaşmadan sonra iki ölkə arasında əlaqələr daha da genişlənir

Dövlətimizin başçısı Azərbaycan ilə Latviya arasında ikitərəfli münasibətlərin təkcə iqtisadi və siyasi istiqamətlərdə deyil, yeni sahələri əhatə etməklə genişləndiyinin əhəmiyyətini vurğuladı. Ətraf mühitin mühafizəsi məsələsinin ölkəmiz üçün prioritet məsələ olduğunu deyən prezident İlham Əliyev bildirdi ki, neft və qaz hasil olunan Abşeron yarımadasında Xəzər dənizi zonası ekoloji təhlükəsizlik baxımından xüsusi yanaşma tələb edir. Azərbaycanın digər ərazilərində isə bu cür təhlükələrin olmadığını, əksinə, yaxşı iqlimin və təbii şəraitin mövcudluğunu qeyd edən dövlətimizin başçısı bildirdi ki, Bakı və Abşeron yarımadasında 200 ilə yaxın bir müddət ərzində neft hasil olunsa da, ekoloji məsələlərə uzun illər əhəmiyyət verilməyib. Azərbaycan dövləti bu istiqamətdə çoxlu işlərin görülməsini planlaşdırır.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**36-cı kitab: aprel 2009 – iyul 2009. - Bakı: Azərnəşr, 2016. – S. 248.**

## BAKI BƏRK MƏİŞƏT TULLANTILARININ YANDIRILMASI ZAVODUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*(3 noyabr 2009-cu il)*

Noyabrın 3-də paytaxtın Sabunçu rayonu Balaxanı qəsəbəsinin yaxınlığında Bakı bərk məişət tullantılarının yandırılması zavodunun təməlqoyma mərasimi keçirilmişdir.

Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.

Mərasim iştirakçıları dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Məlumat verildi ki, dövlətimizin başçısının müvafiq sərəncam və göstərişlərinə əsasən ölkə ərazisində ətraf mühitin sağlamlaşdırılması ilə bağlı ekoloji tədbirlər davam etdirilir. Prezident İlham Əliyevin 2006-cı il 28 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006–2010-cu illər üçün kompleks Tədbirlər Planı»na əsasən ölkə ərazisinin qısa vaxt ərzində ekoloji cəhətdən təmiz məkana çevrilməsi məqsədi ilə müvafiq tədbirlər görülür. Bu məqsədlə dövlət başçımızın 2008-ci il 6 avqust tarixli Sərəncamı ilə Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Kommunal Təsərrüfatı Departamentinin bazasında yaradılan «Təmiz şəhər» ASC məişət tullantılarının toplanması və emalı üzrə müasir standartlara uyğun vahid sistemin yaradılması prosesini həyata keçirir. Artıq ölkə ərazisində məişət tullantılarını emal edəcək zavodların inşasına start verilmişdir. Bu emal zavodlarından biri də Balaxanı qəsəbəsində inşa olunacaq Bakı bərk məişət tullantılarının yandırılması zavodudur. Sonra yeni zavodun təməli qoyuldu. Dövlətimizin başçısı gilizi təmələ atdı, özülə beton qarışığı tökən qurğunun düyməsini basdı.

Prezident İlham Əliyev inşaatçıları salamladı.

**İlham Əliyev:** Bu gün Bakıda çox əlamətdar hadisə baş verir. Azərbaycanda məişət tullantıları zavodunun tikintisi başlayır. Çox önəmli və əlamətdar hadisədir. Bu zavodun istifadəyə verilməsi nəticəsində Bakının və Abşeron yarımadasının ekoloji vəziyyətinin böyük dərəcədə yaxşılaşması nəzərdə tutulur.

Azərbaycan dövləti ekologiya məsələlərinin həllinə çox böyük diqqət göstərir. Üç il bundan əvvəl geniş ekoloji proqram qəbul edilibdir və uğurla icra olunur. Gələn il Azərbaycanda «Ekologiya ili» elan edilibdir və müxtəlif tədbirlər görüləcəkdir. Kompleks tədbirlər nəticəsində qısa müddətdə Bakı və Abşeron yarımadası çox təmiz bölgəyə çevriləcəkdir. Bu zavodun inşası, bölgələrdə, çaylarda təmizləyici qurğuların tikintisi, ağacların əkilməsi, Bakının kanalizasiya sisteminin yeniləşməsi və başqa tədbirlər ölkə üçün mühüm vəzifəni icra etməyə imkan yaradacaqdır. Azərbaycan inkişaf edir. Biz bu gün böyük layihələr icra edirik. Bu layihə maliyyə resursları baxımından çox nəhəng layihədir və Azərbaycanın dövlət büdcəsinin vəsaiti hesabına icra ediləcəkdir.

Mən çox şadam ki, məşhur Fransa şirkəti bu zavodun tikintisində əsas podratçı kimi iştirak edəcəkdir. Bu şirkət müxtəlif inkişaf etmiş ölkələrdə bir neçə belə böyük zavod tikib, onların bu işdə təcrübələri vardır. Əminəm ki, bu zavod vaxtında və keyfiyyətlə tikiləcəkdir. Zavodun tikintisi və istismarı zamanı çox sayda iş yerləri açılacaqdır.

Bir sözlə, zavodun tikintisi Azərbaycan üçün əlamətdar və yeni bir hadisədir. Ekologiya, insanların sağlamlığı, təmiz su, təmiz hava – bunlar hər bir inkişaf etmiş ölkəni fərqləndirən əlamətlərdir. Mən bu zavodun təməl daşının qoyulması münasibətilə sizi ürəkdən təbrik edirəm və inşaatçılara bu zavodun tikintisində çox keyfiyyətli iş görməyi arzulayıram. Bizim fransalı tərəfdaşlarımızı da bir daha salamlayıram. Deyə bilərəm ki, bu zavodun tikintisi, eyni zamanda, Fransa–Azərbaycan iqtisadi əlaqələrinin inkişafına mühüm töhfə verəcəkdir. Bu əlaqələr yüksək səviyyədədir. Fransa şirkətləri Azərbaycanda

böyük investisiyalar qoyur, eyni zamanda, Azərbaycanda dövlət tərəfindən icra edilən layihələrdə də podratçı kimi fəal iştirak edirlər. Sizi bir daha təbrik edirəm. Sizə uğurlar arzulayıram.

Sonra dövlətimizin başçısı zavodun tikintisi ilə bağlı bir daha tapşırıq və tövsiyələrini verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**38-ci kitab: sentyabr 2009 – noyabr 2009. - Bakı: Azərnəşr, 2017. – S. 199-201.**

## SUMQAYIT ELEKTRİK STANSİYASI İSTİFADƏYƏ VERİLMİŞDİR PREZİDENT İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

*(19 noyabr 2009-ci il)*

Noyabrın 19-da Sumqayıt Elektrik Stansiyasının açılışı olmuşdur.

Mərasimdə iştirak etmək üçün Sumqayıta gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoydu.

Sumqayıt Elektrik Stansiyasında dövlətimizin başçısını inşaatçılar, energetiklər və şəhər ictimaiyyətinin nümayəndələri hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev üzərində "Sumqayıt Buxar-Qaz Qurğusunun təməl daşı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulmuşdur. 12 avqust 2005-ci il" sözləri yazılmış təməl daşına baxdı. "Azərenerji" ASC-nin prezidenti Etibar Pirverdiyev məlumat verdi ki, 2005-ci il avqustun 12-də təməli

Prezident İlham Əliyev tərəfindən qoyulmuş 525 meqavatlıq Sumqayıt Elektrik Stansiyası istismara hazırdır. Yeni stansiya şəhərin sosial-iqtisadi inkişafının perspektivi nəzərə alınmaqla 1 nömrəli Sumqayıt Elektrik Mərkəzinin ərazisində inşa edilmişdir. Stansiyanın ərazisi 22 hektardır. Sahəsi 360 kvadratmetr olan yeni inzibati binada səmərəli fəaliyyət üçün hər cür şərait yaradılmışdır. Prezident İlham Əliyev inzibati binadakı muzeylə tanış oldu. Buradakı fotoguşələrdə Azərbaycan elektroenergetikasının sürətli inkişafında müstəsna əməyi olan ulu öndər Heydər Əliyevin xalqımız və Vətənimiz qarşısında xidmətlərindən, energetiklərlə görüşlərindən və müxtəlif tədbirlərdə iştirakından bəhs edən eksponatlar vardır. Bundan başqa, Prezident İlham Əliyevin respublikamızın energetika potensialının möhkəmləndirilməsi və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində reallaşdırdığı ardıcıl və fundamental tədbirlər də buradakı fotoşəkillərdə dolğun əksini tapmışdır.

Sonra dövlətimizin başçısı avtobusla elektrik stansiyasının ərazisini gəzərək görülmüş işlərlə tanış oldu. Məlumat verildi ki, 10 min kvadratmetr sahəyə asfalt örtük döşənmişdir. Ərazidə 10 mindən çox dekorativ ağac və gül kolu əkilmiş, abadlıq işləri aparılmışdır. Qeyd olundu ki, Sumqayıt Elektrik Stansiyası müasirliyinə və ən son elmi-texniki yeniliklərin tətbiqinə görə inkişaf etmiş ölkələrdəki oxşar energetika qurğuları ilə eyni səviyyədədir. Stansiyanın güc və elektrik avadanlığı Almaniyanın "Siemens", istilik avadanlığı isə Belçikanın "CMİ" şirkətlərinə məxsusdur. Tikinti-quraşdırma işlərini, əsasən, yerli mütəxəssislər həyata keçirmişlər.

Prezident İlham Əliyevə məlumat verildi ki, turbinlərdə işlənən buxarı soyutmaq üçün Xəzər dənizindən 1200 metrlik su xətti çəkilmiş, suqəbuledici kəmər, açıq suaxıdıcı kanal və nasos stansiyası tikilmişdir. Su xəttinin çəkilişində yüksək fiziki və kimyəvi xarakteristikaya malik borular xüsusi şüşə lifli plastik materialdan hazırlanmışdır. Qeyd olundu ki, belə borulardan respublikamızda ilk dəfə bu stansiyada istifadə edilmişdir. Stansiyanın təbii qazla təchizatı üçün 29 kilometr uzunluğunda kəmər çəkilmiş, qazpaylayıcı stansiya tikilmişdir.

Dövlətimizin başçısına məlumat verildi ki, tikinti-quraşdırma işlərini Böyük Britaniyanın "Tayko", Avstriyanın "Terpo", Türkiyənin "Erpo" və Azərbaycanın "Azenko" şirkətləri yerinə yetirmişlər. Tikintinin texniki məsləhətçisi isə Finlandiyanın "AF Enprima" şirkətidir. Stansiyada 525 meqavat güc iki qaz və bir buxar turbini vasitəsilə alınır. Buxar turbinini buxarla təmin etmək üçün hər birinin məhsuldarlığı saatda 300 ton olan iki buxar qazanı inşa olunmuşdur. Bu energetika qurğusunda ən müasir avadanlıq quraşdırıldığından 1 kilovat-saat elektrik enerjisinin istehsalı üçün 0,2 kubmetr təbii qaz və ya 235 qram şərti

yanacaqdan istifadə edilir. Stansiyanın faydalı iş əmsalı 52,8 faizdir. Bu, müasir elektro-energetikada ən yüksək göstəricidir və nəticədə əvvəlki nəsil stansiyalarla müqayisədə xeyli təbii qaza qənaət olunur. Stansiyanın işləməsi üçün qazın 26 bar təzyiqdə verilməsi kifayətdir. Həmin qurğuda ildə 4 milyard kilovatsaatdan çox elektrik enerjisi istehsal etmək mümkündür. Bildirildi ki, Sumqayıt Elektrik Stansiyası şəhərin 60 illik yubileyinə mühüm töhfə olmaqla bərabər, Sumqayıt və Abşeron yarımadasının enerji təhlükəsizliyində önəmli rol oynayacaqdır.

Prezident İlham Əliyevə məlumat verildi ki, tikintidə çalışmış min nəfərdən çox işçinin əksəriyyətini yerli əhali təşkil etmişdir. Təxminən 250 nəfər isə stansiyada daimi işlə təmin olunacaqdır. Dövlətimizin başçısı stansiyanın 220 və 110 kilovoltluq yarımstansiyaları, həmçinin idarəetmə sistemi ilə tanış oldu. Qeyd edildi ki, stansiyada istehsal olunacaq elektrik enerjisini şəbəkəyə ötürmək üçün hər birinin uzunluğu 6,5 kilometrə çatan və 300 meqavat yük daşıya bilən 220 kilovoltluq "Sənaye qovşağı" və "Yaşma" hava xətləri ilə yanaşı, 110 kilovoltluq 7 elektrik xətti də çəkilmişdir. Bu qurğu tam avtomatlaşdırılmış T-3000 sistemi vasitəsilə idarə olunacaqdır. Bu stansiyanın mükəmməlliyini "Azərenerji"nin Dispetçer Mərkəzindən birbaşa idarə edilməsinin mümkünlüyü də təsdiq edir. Qeyd olundu ki, istismar və xidmət heyəti yerli kadrlardan ibarətdir və Almaniyada müvafiq təcrübə keçmişlər.

Prezident İlham Əliyev stansiyanın idarəetmə mərkəzindən bu energetika qurğusunu işə saldı. Stansiyanın iş rejimi və avadanlığı ilə tanış olan

**Prezident İlham ƏLİYEV** mərasimdə iştirak edən inşaatçılar, energetiklər və şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü, onları təbrik edərək dedi:

- Əziz sumqayıtlılar, əziz dostlar. Mən sizi bu gün bu gözəl hadisə münasibətilə - Sumqayıt Elektrik Stansiyasının istifadəyə verilməsi münasibətilə ürəkdən təbrik edirəm. Bu günlərdə Sumqayıt şəhərinin 60 illik yubileyi qeyd edilir.

Bu gözəl yubiley münasibətilə sizi ürəkdən təbrik edirəm. Sumqayıt şəhəri çox uğurla inkişaf edir. Sumqayıtda gedən quruculuq, abadlıq işləri məni çox sevindirir. Bildiyiniz kimi, mən tez-tez Sumqayıta gəlirəm, vəziyyətlə tanış oluram. Şəhərin gələcək inkişafı üçün bütün lazımi tədbirlər görülür və addımlar atılır. Sumqayıt gözəlləşir, cavanlaşır, yeni yollar, parklar salınır, yeni binalar tikilir, köhnə binalar bərpa olunur. Eyni zamanda, Sumqayıtın müasir sənaye mərkəzinə çevrilməsi üçün bizim böyük planlarımız vardır.

Əslində siz bunu yaxşı bilirsiniz ki, Sumqayıt sənaye şəhəri kimi yaradılmışdır. Ancaq bu gün biz daha da qabağa baxmalıyıq. Biz Sumqayıtda ən müasir sənaye texnologiyalarını tətbiq etməliyik. Şəhərdə yaradılan yeni müəssisələr, zavodlar, fabriklər, texnoparklar Sumqayıtı ən müasir və ən qabaqcıl sənaye mərkəzinə çevirəcəkdir. Bunu etmək üçün əlbəttə ki, elektrik gücünün yaradılması, Azərbaycanın elektrik enerjisi potensialının gücləndirilməsi çox vacib məsələdir.

Mən çox şadam ki, dörd il əvvəl burada sizinlə bərabər təməl daşını qoyduğumuz stansiya bu gün istifadəyə verilir. Bu, əslində nəhəng infrastruktur mərkəzidir. Stansiya ən qabaqcıl texnologiyalara malikdir, burada ən müasir avadanlıq quraşdırılıbdır. Əvvəlki illərdə tikilmiş Sumqayıt stansiyasının resursu artıq tükənmişdi. Əslində Sumqayıtın tələbatını ödəyə bilmirdi. Bununla bərabər, əvvəlki stansiyada şərti yanacağın sərfiyyatı 900 qram təşkil edirdi, indiki stansiyada bu, 235 qramdır. Yəni böyük bir qənaətdir, bizə imkan verəcək ki, öz enerji potensialımızı daha da səmərəli yollarla işə salaq. Son illər ərzində Azərbaycanın enerji potensialının gücləndirilməsi işində çox böyük addımlar atılıb. 2006-2009-cu illərdə, son dörd ildə Azərbaycanda on yeni elektrik stansiyası tikilmişdir. Azərbaycanda ümumi stansiyaların sayı isə on doqquzdur. Onlardan onu son dörd il ərzində tikilibdir. Tikilmiş on stansiyanın enerji potensialı 2100 meqavatdır. Azərbaycanın ümumi

enerji potensialı isə 6400 meqavatdır. Yəni biz son dörd il ərzində Azərbaycanın enerji potensialını 30-40 faiz artıra bilmişik və bu proses davam edir. Gələcəkdə yeni stansiyaların tikintisi nəzərdə tutulub. Beləliklə, biz Azərbaycanı bundan sonra uzun illər ərzində dayanıqlı enerji mənbələri ilə təmin edəcəyik. Buna böyük ehtiyac vardır. Bizim iqtisadiyyatımız artır, ölkəmizin sənaye potensialı artır.

Son altı il ərzində Azərbaycan dünyada ən yüksək templərlə inkişaf edən ölkə olmuşdur. Hətta 2009-cu ildə, böhranlı ildə də bizim sənaye potensialımız artır və iqtisadiyyat artır. Hər yerdə yeni müəssisələr, yeni zavodlar, fabriklər tikilir, əhalinin sayı artır. Bütün bunlar əlbəttə ki, yeni enerji mənbələrini tələb edir. Məhz bu məqsədlə biz artıq nail ola bilmişik ki, Azərbaycan öz enerji təhlükəsizliyini tam şəkildə təmin edir və bizdə ixrac üçün əlavə potensial da yaranmışdır. Bu gün Azərbaycan qonşu ölkələrə nəinki öz neftini, qazını, neft məhsullarını, eyni zamanda elektrik enerjisini də ixrac edir. Beləliklə, biz həm əlavə mənfəət əldə edirik, eyni zamanda, Azərbaycanın bu bölgədə önəmi, əhəmiyyəti böyük dərəcədə artmaqdadır.

Görülən bütün bu işlər onu göstərir ki, Azərbaycan dövlətinin çox düşünülmüş inkişaf strategiyası vardır. İnkişaf strategiyamızın icrası enerji mənbələri olmadan mümkün deyildir. Biz hər şeyi düşünülmüş, planlı şəkildə edirik. Biz növbəti illərdə həm ənənəvi stansiyaların tikintisi, eyni zamanda, alternativ enerji mənbələrinin yaradılması işində çox ciddi çalışmalıyıq. Bu məqsədlə lazımi tədbirlər görülür. Alternativ və bərpa olunan enerji mənbələrinin yaradılması üçün bütün lazımi tədbirlər görülür. Gələn ildən başlayaraq Azərbaycan Dövlət Neft Fondunun hesabına və dövlət büdcəsi hesabına Azərbaycanda kütləvi şəkildə alternativ və bərpa olunan enerji mənbələri yaradılacaqdır. Bununla bərabər, biz bütün - həm xarici, həm daxili, yerli investorları bu sahəyə investisiya qoymağa dəvət edirik. Çünki bu, çox gəlirli və Azərbaycan üçün çox lazımlı sahədir. Bu, həm bizə böyük üstünlük verəcəkdir, eyni zamanda, neftimiz, qazımız daha da böyük həcmdə ixrac ediləcəkdir.

Bu, eyni zamanda, Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına xidmət göstərəcəkdir. Eyni zamanda, biz bütün resurslarımızdan səmərəli istifadə edəcəyik. Bu gün artıq Azərbaycanın su resurslarının xəritəsi hazırdır. Biz gələn ildən kiçik çaylarda kiçikhəcmli elektrik stansiyaları tikməyə başlayacağıq. Azərbaycanda ilin böyük əksəriyyətində günəşli hava şəraiti müşahidə olunur. Eyni zamanda, külək də bizim üçün ənənəvi bir təbii mənzərədir. Baxmayaraq, bəzi hallarda külək bizə əziyyət verir, xüsusilə bu gün. Biz sizinlə bu küləkli havada görüşürük. Amma bununla bərabər, külək enerjisindən istifadə etmək də bizim üçün çox sərfəli olacaqdır. Bir sözlə, Azərbaycanın enerji potensialının yeniləşməsi, yaradılması işində çox vacib addımlar atılıb. Görülən bu işlər bizi tam qane edir. Qısa müddət ərzində biz nəinki öz daxili tələbatımızı ödəyə bildik, eyni zamanda, qeyd etdiyim kimi, başqa ölkələrə elektrik enerjisini ixrac edirik.

Hamımız yaxşı xatırlayırıq ki, əvvəlki illərdə bəzən elektrik enerjisi ilə təchizat bizi qane etmirdi, bəzi yerlərdə fasilələr olurdu. Bəzi yerlərdə, ucqar rayonlarda ümumiyyətlə, enerji tələbatı ödənilmirdi. Ancaq bu gün biz öz tələbatımızı tam şəkildə ödəyirik. Bu, hər bir ölkənin iqtisadiyyatı üçün başlıca şərtdir. Biz buna nail ola bilmişik. Bundan sonra Azərbaycanın iqtisadiyyatı əminəm ki, yüksək templərlə inkişaf etməkdə davam edəcəkdir. Ola bilsin ki, gələcəkdə bu ərazidə yeni stansiyanın tikintisi də reallaşacaqdır. Çünki bu gün bizim enerji potensialımız tələbatdan haradasa, min meqavat çoxdur. Biz bunu ixrac edirik və edəcəyik. Ancaq Azərbaycan inkişaf edir. Sənaye potensialı artır. Yeni müəssisələr yaradılır. Əhalimiz artır və tələbat, əlbəttə ki, artacaqdır.

Bax, bu gözəl stansiyanın tikintisi bir də onu göstərir ki, bizim bütün planlarımız həyata keçirilir. Dörd il bundan əvvəl Azərbaycan öz enerji potensialını tam şəkildə realizə

edə bilmirdi. Bu stansiyanın tikintisinin başlanması bütün başqa sahələrə böyük təkan verdi. Bu stansiya inşa olunan zaman, qeyd etdiyim kimi, Azərbaycanda, ölkəmizin bütün bölgələrində müxtəlif həcmli doqquz stansiya tikilmişdi. Biz bir daha gördük ki, qəbul edilmiş bütün qərarlar icra edilir. Azərbaycanın iqtisadiyyatı inkişaf edir. Belə böyük, nəhəng layihələrin icrası çox gözəl göstəricidir.

Eyni zamanda, bu stansiyanın tikintisi Azərbaycanın beynəlxalq şirkətlərlə əməkdaşlığının da əlamətidir. Bu əməkdaşlıq da çox uğurludur. Azərbaycan xarici şirkətlər üçün həm investisiya qoyuluşu, həm iş görmək üçün cəlbedici ölkədir. Bu stansiyanın tikintisində "Siemens" şirkətinin fəaliyyətini mən xüsusilə qeyd etmək istəyirəm. Bu şirkətin müxtəlif sahələrdə böyük təcrübəsi vardır. Bu əməkdaşlıq qarşılıqlı faydalı əməkdaşlıqdır. Əminəm ki, bu əməkdaşlıq gələcəkdə davam edəcək, başqa sahələrə öz təsirini göstərəcək və həmişə olduğu kimi, Azərbaycan xarici şirkətlər üçün, investisiya qoyuluşu üçün cəlbedici ölkə kimi qalacaqdır. Azərbaycanın artan imkanları xarici şirkətlərlə müxtəlif sahələrdə uğurlu əməkdaşlığı təmin edəcəkdir.

Mən bir daha sizi, əziz dostlar, bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu stansiyanın istifadəyə verilməsi Sumqayıta və sumqayıtlılara yubiley hədiyyəsidir. Sizə yeni uğurlar, Sumqayıt şəhərinə inkişaf arzulayıram.

Sağ olun.

* * * *

Ulu öndər Heydər Əliyevin ölkənin energetika sisteminin inkişafındakı müstəsna xidmətlərini xüsusi vurğulayan "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar PİRVERDİYEV Sumqayıt Elektrik Stansiyasının üstünlüklərini ətraflı xarakterizə etdi. O, son 6 ildə Azərbaycan elektroenergetikasının köklü inkişaf yolu keçdiyini bildirərək dedi:

- Möhtərəm cənab Prezident! Sizin bilavasitə təşəbbüsünüz və rəhbərliyiniz altında son 6 il ərzində 2000 MVt-dan çox yeni generasiya gücləri işə salınmışdır. O cümlədən, Astara, Şəki, Xaçmaz, Naxçıvan bölgələrində, Bakıda yeni elektrik stansiyaları inşa edilmişdir. 2008-2009-cu illərdə bütün dünyada maliyyə böhranı yaşanmasına baxmayaraq, Sizin düzgün siyasətiniz nəticəsində 2008-ci ildə 300 MVt gücündə "Səngəçal" və iki ay bundan əvvəl 105 MVt gücündə "Şahdağ" elektrik stansiyaları işə salınmışdır.

Bu gün isə 525 MVt gücündə Sumqayıt Elektrik Stansiyası Sizin tərəfinizdən işə salınmışdır. Yeni elektrik stansiyalarının tikintisi zamanı müasirlik və ekologiya məsələlərinə xüsusi diqqət yetirildiyini söyləyən E.Pirverdiyev bildirdi:

- Möhtərəm cənab Prezident! Sizin göstəriş və tələblərinizi əldə rəhbər tutaraq, elektrik stansiyalarının tikintisində həmişə ən müasir texnologiyalardan istifadə olunmasına, etibarlılıq və ekoloji cəhətdən təmizlik prinsiplərinə üstünlük verilmişdir. Sumqayıt Elektrik Stansiyası da bu tələblərə cavab verən stansiyalardan biridir. Bu stansiyanın işə salınması nəticəsində parnik effekti yaradan karbon qazlarının havaya tullantısı ildə 700 min ton azalacaqdır.

Möhtərəm cənab Prezident! Sumqayıt Elektrik Stansiyasının inşa edilib istismara verilməsi Sizin apardığınız uğurlu xarici və daxili siyasətin parlaq təzahürüdür. "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti respublikamızın energetika sisteminin daha da inkişaf etdirilməsi üçün dövlətimizin başçısının tapşırıqlarına uyğun həyata keçirilən digər tədbirləri də diqqətə çatdırdı.

* * * *

"Siemens" şirkətinin enerji məsələləri üzrə icraçı direktoru Rayner HAUNŞİLD yeni stansiyanın ən müasir tələblərə cavab verdiyini bildirdi. O, Azərbaycan-Almaniya əlaqələrinin inkişafında ulu öndər Heydər Əliyevin mühüm rol oynadığını və Prezident İlham Əliyevin iki ölkə arasında əməkdaşlığın daha da inkişafına təkan verdiyini vurğulayaraq dedi:

- 1998-ci ildə “Siemens” bir daha sadiqliyini nümayiş etdirdi və nümayəndəliyini Bakıda açdı. Həmin vaxtdan etibarən biz enerji, sənaye və səhiyyə sektorlarında bir sıra layihələri həyata keçirdik. Həmin layihələrin və bizim ölkənizlə münasibətlərimizin əsaslarını ulu öndər, ümummilli lider zati-aliləri Heydər Əliyev qoydu və biz bu gün, cənab Prezident, Sizə olduqca minnətdarıq ki, bu münasibətlərimizi daha da möhkəmləndirib inkişaf etdirirsiniz.

* * * *

Sumqayıtın ölkəmizin ən inkişaf etmiş şəhərlərindən birinə çevrilməsi üçün ulu öndər Heydər Əliyevin xidmətlərini məmnunluqla xatırladan “Neftqazavtomat” Elm-İstehsalat Müəssisəsinin direktoru Əli ƏMİROV şəhərin daha da inkişafına göstərdiyi hərtərəfli qayğıya görə Prezident İlham Əliyevə sumqayıtlılar adından dərin təşəkkürünü bildirərək dedi:

- Bu gün Sumqayıtda ən yeni sənaye müəssisələri inşa edilir. Sumqayıt tarixən neft-kimya, metallurgiya şəhəri kimi tanınsa da, bu gün Sizin sayənizdə şəhərimizin siması dəyişir və o, artıq müasir texnologiyalarla təchiz edilmiş çoxprofilli istehsal kompleksinə malik müasir sənaye mərkəzinə çevrilmişdir. Sizin Sumqayıta gəlişiniz şəhərimizin tarixində çox önəmli bir hadisədir. Əminik ki, bu səfərlə sumqayıtlıların həyatında yeni bir səhifə açılacaqdır. Sizin müdrik daxili siyasətiniz bu gün yeniləşən Sumqayıta yeni nəfəs verir.

Bu günlər şəhərimiz 60 illik yubileyi ilə əlaqədar bayram əhval-ruhiyyəsi içərisində yaşayır. Sizin səfəriniz isə bu bayram ovqatını birə on artırmış, bizə böyük qürur hissi bəxş etmişdir. Bunun üçün bütün sumqayıtlılar adından Sizə dərin minnətdarlığımızı bildirirəm.

**Xalq qəzeti.-2009.- 20 noyabr .- № 260.- S.1-2.**

## KEÇMIŞ «BİNƏ» TİCARƏT MƏRKƏZİNİN YERİNDƏ APARILAN YAŞILLAŞDIRMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*(24 dekabr 2009-cu il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də paytaxtın Suraxanı rayonundakı keçmiş «Binə» ticarət mərkəzinin yerləşdiyi ərazidə aparılan yaşıllaşdırma işləri ilə tanış olmuşlar.

Azərbaycanı yaşıl diyara çevirmək, Bakı və Abşeronda, eləcə də respublikamızın bütün bölgələrində ekoloji tarazlığı bərpa etmək, xüsusilə neftlə çirklənmiş ərazilərdə ətraf mühitin təhlükəsizliyini təmin etmək, insanların təmiz suya və təmiz havaya olan ehtiyacını ödəmək baxımından dövlətimizin başçısının göstərişi ilə bir sıra ardıcıl tədbirlər həyata keçirilir. Təsadüfi deyildir ki, ətraf mühitin mühafizəsinə xüsusi önəm verən prezident İlham Əliyev 2010-cu ili ölkəmizdə «Ekologiya ili» elan etmişdir.

Dövlətimizin başçısı və xanımı yaşıllaşdırma işləri ilə yaxından tanış olmaq üçün əraziyə gəldilər.

Prezidentlə xanımına gül dəstəsi təqdim olundu.

Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov dövlətimizin başçısına layihə əsasında görülən işlər barədə məlumat verdi. Bildirildi ki, 85 hektar ərazidə bütövlükdə 95 min müxtəlif növ ağac əkiləcəkdir. İndiyədək 22 mindən çox ağac əkil-mişdir. 35 hektar sahədə isə müasir suvarma sistemi quraşdırılmışdır. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ərazinin yaşıllaşdırılması layihəsi ilə tanış olduqdan sonra ağac əkdilər.

Dövlətimizin başçısı işçiləri salamladı.

**İlham Əliyev:** Sizi xoş gördük. Bildiyiniz kimi, gələn il Azərbaycanda «Ekologiya ili» elan edilibdir. Bu onu göstərir ki, biz ekoloji məsələlərin həllinə çox böyük əhəmiyyət veririk. Uzun illər bundan sonra da Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində böyük işlər görüləcəkdir. Gələn il üçün konkret proqram hazırlanıb, maliyyə resursları təşkil edilib, bütün texniki məsələlər həll olunubdur. Biz bu məsələləri artıq kütləvi şəkildə icra etməyə başlamışıq. Çünki Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılması üçün hələ çox böyük işlər görülməlidir. Həm neftlə çirklənmiş əraziləri təmizləmək, həm də insanları təmiz içməli su ilə təmin etmək lazımdır. Məişət tullantıları zavodunun tikintisi də bu istiqamətdə atılan mühüm addımdır.

Abşeronda ağac əkilməsi çox böyük əhəmiyyətə malik olan məsələdir. Əfsuslar olsun ki, uzun illər ərzində bu ərazidə ticarət obyektləri antisanitariya şəraitində fəaliyyət göstərib. Onlar buradan yığışdırıldı. İş adamları üçün şərait yaradıldı. İndi mədəni, sivil qaydada ticarətlə məşğuldurlar. Kömək də edildi, kreditlər də verildi, torpaq da ayrıldı və artıq yeni, müasir səviyyədə ticarət mərkəzləri yaradıldı. Bu ərazi isə tamamilə təmizləndi və ondan sonra mən qərar qəbul etdim ki, burada böyük ağac massivləri salınsın.

Abşeronda birinci mərhələdə 3 milyon ağac əkiləcəkdir. Ancaq bu, işin başlanğıcıdır. Gələcəkdə biz daha da böyük sayda ağac əkməliyik. Hər yerdə ağac əkilməlidir. Bu həm yaraşıq, həm gözəllik, həm sağlamlıqdır, həm də havanı təmizləyir. Gələcək nəsillər bundan faydalanacaqlar. Şəhərlərimiz abadlaşır, gözəlləşir, ekoloji vəziyyət yaxşılaşır. Mən şübhə etmirəm ki, yaxın zamanlarda görülən ekoloji tədbirlər nəticəsində Azərbaycanda, xüsusilə Bakıda və Bakının ətrafında ekoloji vəziyyət xeyli yaxşılaşacaqdır.

Bir neçə gündən sonra Bakıda böyük ekoloji layihə icra ediləcəkdir. O da Bakının kanalizasiya sisteminin tamamilə yenidən qurulmasını nəzərdə tutur. Hövsanda çox böyük aerasiya stansiyası tikilib, hazırdır. Məişət tullantıları zavodunun tikintisi başlanıbdır. Balaxanı zibilxanasında yaranan tüstülər azalıbdır. Orada artıq işlər başlanıbdır. Zavod işə

düşəndən sonra tamamilə o sahə ekoloji vəziyyətə mənfi təsir göstərməyəcəkdir. Ağacların əkilməsi, əhalinin təmiz içməli su ilə təmin edilməsi və bütün başqa ekoloji tədbirlər davam etdirilir.

200 ilə yaxındır ki, Abşeron yarımadasında neft hasil edilir. Deyə bilərəm ki, ekoloji tədbirlərə o qədər də böyük əhəmiyyət verilməyib. Çünki Sovet İttifaqı zamanında daha çox hasilata üstünlük verilib. İndi biz neftlə çirklənmiş bütün mədənləri təmizləməliyik. Artıq işlər başlanıb, Bibiheybətdə böyük işlər görülüb, buruqların ətrafında təmizlik işləri aparılır, parklar salınır. Hər tərəf meşəlik olmalıdır, parklar olmalıdır, gözəl təbiət olmalıdır.

Mən Ekologiya və Təbii Sərvətlər Nazirliyində çalışan bütün insanlara bu işlərdə uğurlar arzulayıram. Əminəm ki, Azərbaycan vətəndaşları bu gözəl, nəcib işə qoşulacaqlar. Bu ağacəkmə kampaniyası əslində davamlı bir prosesə çevrilməlidir. Sağ olun.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**39-cu kitab: noyabr 2009 – fevral 2010. - Bakı: Azərnəşr, 2017. – S. 112-114.**

## HÖVSAN AERASİYA STANSİYASININ ƏSASLI YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*(25 dekabr 2009-cu il)*

Dekabrın 25-də əsaslı şəkildə yenidən qurulmuş Hövsan aerasiya stansiyasının açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Baş nazirin müavini Abid Şərifov dövlətimizin başçısına məlumat verdi ki, Bakının çirkab sularının 60 faizi Hövsan aerasiya stansiyasında təmizlənərək dənizə axıdılır. Uzun illər istismarda olan avadanlığın köhnəlməsi və Xəzərin ekoloji təmizliyinə diqqətin artırılması stansiyanın yenidən qurulması zərurətini yaratmışdır. Dövlətimizin başçısının tapşırığına əsasən 2007-ci ilin sonlarından stansiyanın tamamilə yenidən qurulması prosesinə başlanılmışdır. Stansiyanın ərazisində yeni qurğular tikilmiş, avadanlıq tamamilə təzələnmişdir. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən yenidən qurulan bu stansiya nəhəng infrastruktur layihələrindən biridir.

Dövlətimizin başçısı stansiyanın idarəetmə mərkəzi ilə tanış oldu.

Prezident İlham Əliyev əvvəlcə Zığ nasos və Hövsan aerasiya stansiyalarındakı avadanlığın əvvəlki və indiki vəziyyətini əks etdirən fotostendə baxdı, Abşeron yarımadasının kanalizasiya sistemi qurğularının yerləşməsi sxemi ilə tanış oldu.

«Azərsu» ASC-nin prezidenti Nizaməddin Rzayev dövlətimizin başçısına Hövsan aerasiya stansiyasının təmizləmə prosesinin texnoloji sxemi barədə məlumat verdi.

Qeyd olundu ki, stansiya tam avtomatlaşdırılmışdır. Prezident İlham Əliyevə stansiyada yeni tikilmiş və yenidən qurulmuş, həmçinin tikintisi nəzərdə tutulan təmizləyici qurğular və nasos stansiyaları barədə də məlumat verildi.

Dövlətimizin başçısı stansiyanın baş planı ilə tanış oldu. Bildirildi ki, stansiya mərkəzləşdirilmiş idarəetmə sistemi ilə işləyir və çirkab suyunun mexaniki, bioloji və kimyəvi zərərsizləşdirilməsi proseslərinə tam nəzarət olunur. Hər hansı bir nasazlıq monitorda dərhal qeydə alınır.

Prezident İlham Əliyevə Abşeron yarımadasındakı süni göllərin ekoloji durumunun yaxşılaşdırılması və çirkab sularının, həmçinin sahil boyu dənizə zərərli axıntıların qarşısının alınması və təmizlənməsi üçün lokal sutəmizləyici qurğuların tikilməsi, Bakı kəndlərinin kanalizasiya sisteminin yaradılması haqqında da ətraflı məlumat verildi.

Prezident İlham Əliyev idarəetmə mərkəzindən yeni stansiyanı işə saldı.

Sonra dövlətimizin başçısı stansiyada aparılmış yenidənqurma işləri ilə tanış oldu. Məlumat verildi ki, paxtaxtın kanalizasiya suları stansiyaya giriş kamerasından daxil olur, sonra barmaqlıqlar sexinə ötürülür.

Suyu irihəcmli yad cisimlərdən təmizləyən bu sex ən müasir texnologiya əsasında tamamilə təzələnmiş, köhnə avadanlıq yenisi ilə əvəz olunmuşdur. Sexi elektrik enerjisi ilə qidalandıran ayrıca məntəqə yaradılmışdır. Çirkab suları buradan qumdan təmizləmə sexinə ötürülür. Quraşdırılmış yeni texnologiya çirkab sularının ən xırda mikroorqanizmlərə qədər təmizlənməsinə imkan verir.

Dövlətimizin başçısına məlumat verildi ki, stansiyada suyun bioloji təmizlənməsini təmin etmək üçün hər birinin 36 min kubmetr tutumu olan iki çən quraşdırılmışdır. Sonrakı mərhələdə su dearatorlarda qazdan təmizlənir və təkrar dövretmə prosesi həyata keçirilir.

Prezident İlham Əliyev durulducu hovuzlara da baxdı. Dövlətimizin başçısına məlumat verildi ki, suyun durulduculara ötürülməsi üçün xüsusi kanal çəkilmişdir. Durulducu 126 hovuzlarda lilin və suyun üzündəki maddələrin təmizlənməsi üçün xüsusi nasoslar quraşdırılmışdır.

Stansiyaya lilqurutma sexi və kompressor binası da daxildir. Stansiyanın ayrı-ayrı qurğuları ilə tanışlıq zamanı dövlətimizin başçısına məlumat verildi ki, yenidənqurma işləri zamanı 2 saylı Zığ nasos stansiyasından Hövsan aerasiya stansiyasına uzunluğu 5 min metrdən çox olan şüşə lifli yüksək təzyiqli boru xətti çəkilmişdir.

Tikinti işləri ilə yanaşı, stansiyanın ərazisinin abadlaşdırılmasına da xüsusi diqqət yetirilmiş, geniş sahədə asfaltbeton işləri görülmüş, yeni yaşıllıq zolaqları salınmışdır. Stansiyanın işıqlandırma sistemi tamamilə yeniləşdirilmişdir. Əsaslı yenidənqurma işləri başa çatdıqdan sonra stansiyanın sutkalıq gücü 480 min kubmetrdən 640 min kubmetrə çatmışdır.

Hövsan aerasiya stansiyasının işçiləri və inşaatçılarla görüşən prezident İlham Əliyev kompleksdə aparılan yenidənqurma işlərindən razılığını bildirdi.

İlham Əliyev: Çox yaxşı yaratmısınız. Gərək yaxşı da istismar edəsiniz ki, Bakı şəhərinin bütün ekoloji problemləri həllini tapsın. Dünən ağacəkmə prosesinə başladıq, bu gün Hövsan aerasiya stansiyasının işə salınmasında iştirak edirik. Bütün bunlar onu göstərir ki, ekologiya məsələlərinə çox böyük diqqət yetirilir. Vaxtilə icrasına başlanılmış bu böyük layihə artıq başa çatdı. Beləliklə, Bakının bütün kanalizasiya məsələləri yaxın zamanlarda həll olunacaqdır. Çox işlər görülüb, hələ çox işlər də görülməlidir. Növbəti 2-3 ildə ətraf qəsəbələr daxil olmaqla, bütün şəhərin su-kanalizasiya məsələləri tamamilə həll olunacaqdır. Təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Sağ olun.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**39-cu kitab: noyabr 2009 – fevral 2010. - Bakı: Azərnəşr, 2017. – S. 124-126.**

## AĞDAŞ RAYONUNDA YENİ SU XƏTTİNİN AÇILIŞI MƏRASİMİ
*(12 fevral 2010-cu il)*

Azərbaycan prezidenti İlham Əliyev fevralın 12-də Ağdaş şəhərində yeni su xəttinin açılışında iştirak etmişdir.

Dövlətimizin başçısına məlumat verildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq Ağdaş şəhərinin su təchizatı probleminin həlli məsələsi Asiya İnkişaf Bankının «Azərbaycan Respublikasında kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi»nə daxil edilmişdir.

Prezident İlham Əliyev Ağdaş şəhərində suqəbuledici qurğular kompleksi, suyığıcı və təzyiqli su xətləri, şəhərin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasını əks etdirən stendlərlə tanış oldu.

«Azərsu» ASC-nin prezidenti Nizaməddin Rzayev məlumat verdi ki, Ağdaş şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üçün texniki-iqtisadi əsaslandırma işləri aparılmışdır. Qəbul edilmiş texniki-iqtisadi əsaslandırmaya əsasən Qolqəti kəndinin ərazisində 5 artezian quyusu qazılaraq, içməli su burada inşa ediləcək anbarlara vurulacaqdır. Anbarlarda xlorlanmış suyu nasos stansiyası iki xətlə şəhərə nəql edəcəkdir.

Layihəyə əsasən şəhərin su və kanalizasiya sistemləri yenidən qurulacaqdır. Qaradağlı kəndi ərazisində çirkab sularını təmizləyən qurğu inşa ediləcəkdir. Texniki-iqtisadi əsaslandırmaya görə bu iş üçün xərclərin 75 faizini Asiya İnkişaf Bankı, qalan 25 faizini isə Azərbaycan hökuməti kredit şəklində ödəyəcəkdir. Əhalini yüksək keyfiyyətli içməli su ilə təmin edəcək layihənin 24 ay ərzində reallaşdırılması nəzərdə tutulur. Layihənin birinci mərhələsinin başa çatdırılması nəticəsində 35 min adam içməli su ilə təmin ediləcəkdir. Prezident İlham Əliyev yeni su xəttinin açılışını bildirən düyməni basdı.

Akademik Bəkir Nəbiyev diqqət və qayğıya görə ağdaşlıların minnətdarlığını dövlətimizin başçısına çatdırdı.

**Bəkir Nəbiyev:** Möhtərəm cənab Prezident, Siz bu gün Ağdaşın tarixində ən əlamətdar bir hadisəyə başlanğıc verdiniz. Bizim Ağdaşın girəcəyi Qəbələdən gələndə Türyançayın ağzındakı Dəhnə kəndindən başlayır. «Dəhnə» qədim Azərbaycan dilində subölünən yer deməkdir. Ağdaşa gələn su elə oradan da bölünür.

Rəmzi olaraq üstünə barmağınızı qoyduğunuz bu düymənin vasitəsilə Ağdaş elə bil ki, yenidən canlandı. Bu münasibətlə köhnə bir ağdaşlı kimi, mən Sizə öz minnətdarlığımı bildirirəm. Çox sağ olun.

**İlham Əliyev:** Çox sağ olun, Bəkir müəllim. Mən bütün ağdaşlıları təbrik edirəm. Bu gün Ağdaşın həyatında tarixi hadisə baş verir. Yeni su mənbələrinin müəyyən edilməsi və şəhərə çəkilməsi istiqamətində uğurlu işlər görülür. Su həyatdır. Susuz nə insan yaşaya bilər, nə də müəssisə çalışar. Bu məqsədlə ölkə üzrə böyük işlər görülür və müxtəlif layihələr icra olunur. Kür–Araz çayları boyunca yaşayan insanların su ilə təmin edilməsi istiqamətində ayrıca layihələr icra edilir. Orada təmizləyici qurğular tikilir ki, çay suları təmizlənsin və insanlara keyfiyyətli su verilsin. Artıq haradasa 200 mindən çox vətəndaş bu layihənin həyata keçirilməsi nəticəsində təmiz su ilə təmin edilib. Layihə tam başa çatandan sonra bu vaxta qədər çay sularından istifadə edən 800 minə qədər insan təmiz suya malik olacaqlar.

Bu layihələr kimi, artezian quyularının qazılması və yeni müasir sistemin quraşdırılması su və kanalizasiya sistemlərinin yenidən qurulması məqsədini daşıyır. Birinci mərhələ bu gün reallaşıb, ikinci mərhələnin icrası nəticəsində kanalizasiya sistemi də yenidən qurulacaq və beləliklə, Ağdaşın su, kanalizasiya problemləri birdəfəlik həll olunacaqdır. Təmiz ekoloji normalara tam riayət olunacaq və insanlar bundan faydalanacaqlar.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**39-cu kitab: noyabr 2009 – fevral 2010. - Bakı: Azərnəşr, 2017. – S. 295-296.**

## GÖYÇAY ŞƏHƏRİNİN SU TƏCHİZATİ VƏ KANALİZASİYA SİSTEMİNİN YENİDƏN QURULMASI LAYİHƏSİ İLƏ TANIŞLIQ

*(12 fevral 2010-cu il)*

Prezident İlham Əliyev fevralın 12-də Göyçay şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi ilə tanış olmuşdur.

Dövlətimizin başçısını inşaatçılar hərarətlə qarşıladılar.

Bildirildi ki, Göyçay şəhərinin su təchizatı probleminin həlli Asiya İnkişaf Bankının "Azərbaycan Respublikasında kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi"nə daxil edilmişdir. Layihənin həyata keçirilməsi nəticəsində şəhər əhalisi keyfiyyətli içməli su ilə təmin ediləcək, bütün ərazi kanalizasiya şəbəkəsi ilə əhatə olunacaqdır.

Prezident İlham Əliyev Göyçay şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsinə, həmçinin su təchizatı sisteminin mənbəyinə və baş sxeminə baxdı.

"Azərsu" ASC-nin prezidenti Nizaməddin Rzayev dövlətimizin başçısına məlumat verdi ki, Potu kəndinin ərazisində 7 artezian quyusu qazılacaqdır. Çıxarılan içməli su bu ərazidə inşa edilən anbarlara yığılaraq, nasos stansiyasından şəhər ərazisindən keçən iki xətlə yüksəkliklərdə tikilən və hər birinin 2 min ton tutumu olan anbarlara vurulacaqdır. Sonra içməli su xlorlanaraq, öz axarı ilə şəhərin bütün ərazisinə paylanacaqdır.

Layihəyə əsasən şəhər kanalizasiya şəbəkəsi də əsaslı surətdə yenidən qurulacaqdır. Kanalizasiya şəbəkəsi olmayan ərazilərə yeni xətlər çəkiləcəkdir. Çirkab sularını təmizləmək üçün isə Şəhadət kəndinin ərazisində qurğu inşa ediləcəkdir. Bu günə qədər 3 artezian quyusu qazılmış, 4 min metr daşıyıcı su kəməri çəkilmiş, iki su anbarı, istehsalat bazası, inzibati bina, nasos stansiyası, xlorlayıcı qurğu inşa edilmişdir.

Prezident İlham Əliyev artezian quyulardan çıxarılaraq şəhərin şimal hissəsindəki yüksəkliklərdə yerləşən anbara vurulacaq içməli su kəmərini işə saldı.

**AZƏRTAC**
**2010, 12 fevral**

## “GÖYÇAY-1” SU ELEKTRİK STANSİYASININ TƏMƏLİ QOYULMUŞDUR

*(12 fevral 2010-cu il)*

Prezident İlham Əliyev fevralın 12-də “Göyçay-1” Su Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.

Son illər ölkəmizin enerjiyə olan tələbatının tam şəkildə ödənilməsi istiqamətində atılan mühüm addımlardan biri də bölgələrdə, rayon və kəndlərdə yeni elektrik stansiyalarının tikilməsidir. Bu baxımdan rayon və kəndlərdə inşa olunan kiçik su elektrik stansiyaları mühüm əhəmiyyət kəsb edir. Bu stansiyalardan biri də Göyçay rayonunun Bığır kəndinin ərazisindən keçən Yuxarı Şirvan kanalı üzərində tikiləcək müasir tipli su elektrik stansiyasıdır.

Prezident İlham Əliyev Bığır kəndindəki “Göyçay-1” Su Elektrik Stansiyasının tikiləcəyi əraziyə gəldi. İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.

“Azərenerji” ASC-nin prezidenti Etibar Pirverdiyev məlumat verdi ki, inşa olunacaq “Göyçay-1” Su Elektrik Stansiyasının ərazisi 4 hektardır. Üç meqavat/amper gücündə ola caq stansiyada birmərtəbəli inzibati bina və üç turbindən ibarət maşın zalı inşa ediləcəkdir. Hər turbinin gücü 1 MVA yaxın olacaqdır. Stansiyanın ərazisi abadlaşdırılmış, ətrafı hasarlanmış və burada 2 minə yaxın ağac əkilmişdir. Ərazidə işıqlandırma sistemi quraşdırılmışdır. Stansiyanın tikintisində 50 nəfərə yaxın inşaatçı çalışacaqdır. Müəssisənin bu ilin sonlarınadək istifadəyə verilməsi nəzərdə tutulur.

Dövlətimizin başçısı stansiyanın prinsipial sxeminə və yaxın gələcəkdə tikilməsi planlaşdırılan kiçik su elektrik stansiyalarının yerləşmə xəritəsinə baxdı.

Prezident İlham Əliyevə məlumat verildi ki, ümumilikdə ölkə ərazisində 7 zona üzrə 235 kiçik su elektrik stansiyasının inşası nəzərdə tutulmuşdur. Bu da ölkədə elektrik enerjisi ilə bağlı vəziyyətin daha da yaxşılaşdırılmasına imkan verəcəkdir.

Prezident İlham Əliyev gilizi özülə buraxdı, beton qarışığını tökdü. Bununla da dövlətimizin başçısının Göyçay rayonuna səfəri başa çatdı.

**AZƏRTAC**
**2010, 12 fevral**

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN EKOLOJİ PROBLEMLƏRƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQİ

*(18 fevral 2010-ci il)*

2010-cu il fevralın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında ekoloji problemlərə həsr olunmuş müşavirə keçirilmişdir. Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açmışdır.

### Prezident İlham Əliyevin giriş nitqi

-Bu il Azərbaycanda "Ekologiya ili" elan edilib. Biz bütün il ərzində və ondan sonrakı illərdə ekoloji məsələlərin həllinə böyük diqqət göstərməliyik. Artıq uzun illərdir ki, Azərbaycanda bu istiqamətdə işlər görülür. Bir müddət bundan əvvəl geniş ekoloji proqram qəbul edilmişdir. Proqram çoxşaxəlidir, çox müfəssəl proqramdır. Proqramda həllini gözləyən, vacib olan bütün məsələlər öz əksini tapıb, eyni zamanda, konkret icra mexanizmləri də müəyyən edilibdir. Maliyyə resursları haqqında orada kifayət qədər istiqamətlər vardır. Bir sözlə, biz ekoloji vəziyyətin sağlamlaşdırılması istiqamətində daha da ciddi addımlar atmalıyıq.

Ümumiyyətlə, Azərbaycan iqtisadiyyatı son illər ərzində dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatdır. Bunu həm iqtisadi göstəricilər əyani şəkildə sübut edir, eyni zamanda, Azərbaycanda görülən işlər göz qabağındadır. Bizim iqtisadiyyat 6 il ərzində təxminən 3 dəfə artıbdır. Bu, dünyada analoqu olmayan inkişafdır. Hətta bütün dünya üçün ağır olan 2009-cu ildə bizim iqtisadiyyatımız 9,3 faiz artıb. Ümumi daxili məhsulun artması onu göstərir ki, Azərbaycan iqtisadiyyatı dayanıqlıdır, çoxşaxəlidir və uğurludur.

Bütün bu işlərin təməlində apardığımız islahatlar, ölkəmizin hərtərəfli inkişafı, regionların sosial-iqtisadi inkişafının icrası ilə bağlı görülən tədbirlər, regional proqramın birinci mərhələsinin uğurla başa çatdırılması və Azərbaycanda gözəl investisiya iqliminin yaradılması dayanır. Bu gün Azərbaycanda investisiyalar həm xaricdən daxil edilir, həm də ancaq son bir neçə il ərzində daxili investisiyalar xarici investisiyaları üstələyir. Bu onu göstərir ki, artıq Azərbaycan dövləti və Azərbaycan şirkətləri öz ölkəsinə böyük sərmayə qoyulması istiqamətində önəmli addımlar atırlar.

Azərbaycanda investisiya iqlimi gələcəkdə də müsbət olacaqdır. 2009-cu ildə həm beynəlxalq maliyyə qurumları, həm kommersiya bankları, yəni dünyada fəaliyyət göstərən kommersiya bankları müəyyən dərəcədə maliyyə sıxıntıları içində idilər. Buna baxmayaraq, Azərbaycana ayrılan kreditlər, onların məbləği artır. Xarici şirkətlər hətta 2009-cu ildə Azərbaycan iqtisadiyyatına böyük sərmayənin qoyulması istiqamətində vacib addımlar atmışlar. 2009-cu ildə ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün çox vacib sənaye obyektlərinin açılışında iştirak etmişik, eyni zamanda, çox vacib müəssisələrin təməl daşı qoyulmuşdur.

Görülən bütün bu işlər, yenə də deyirəm ki, çox konseptual xarakter daşıyır. Biz çox ciddi proqram üzərində işləyirik. Proqram çoxşaxəlidir. Proqramın əsas vəzifəsi Azərbaycan iqtisadiyyatını gücləndirmək, şaxələndirmək, Azərbaycanın bütün problemlərini həll etmək, insanların sosial problemlərinin həlli üçün vacib addımlar atmaq və beləliklə, ölkəmizin müstəqilliyini, iqtisadi azadlığını, iqtisadi müstəqilliyini gücləndirməkdir. Azərbaycanda sahibkarlığın inkişafı üçün çox gözəl şəraitin yaradılması, əlbəttə, həmişə olduğu kimi, prioritet məsələlərdən biridir.

Əlbəttə ki, son illərdə ölkə qarşısında duran əsas vəzifələr diqqət mərkəzindədir. Çünki biz çalışırdıq və çalışırıq ki, ölkəmiz uğurla inkişaf etsin. İlk növbədə ölkə üçün ən vacib problemlərin həllinə diqqət göstərilmişdir. İnfrastruktur layihələri, iqtisadi islahatlar,

investisiyalar, sosial məsələlərin həlli. Energetika sektorunda böyük sərmayələr qoyulubdur. Həm neft-qaz istehsalı bir neçə dəfə artıbdır, eyni zamanda, Azərbaycan öz ixrac imkanlarını böyük dərəcədə genişləndirə bilibdir. Bizim neft-qaz sahəsindəki uğurlar bütün dünya tərəfindən tanınır. Azərbaycan özünü etibarlı tərəfdaş kimi artıq dünyada təsdiq edibdir. Bu gün çoxşaxəli ixrac marşrutlarımız imkan verir ki, təkcə bir marşrutdan asılı olmayaq. Beləliklə, həm iqtisadi, həm siyasi imkanlarımız daha da genişlənir.

Elektrik enerjisinin istehsalı üçün əlavə güclərin yaradılması istiqamətində də çox vacib, konkret addımlar atılmışdır. Bu gün Azərbaycan öz enerji təhlükəsizliyini tam şəkildə təmin edir. Bununla bərabər, ərzaq təhlükəsizliyinin təmin edilməsi işində vacib addımlar atılmışdır, böyük investisiyalar qoyulmuşdur. Bu gün biz özümüzü əsas ərzaq məhsulları ilə demək olar ki, təmin edirik. Çalışmalıyıq ki, yerli istehsalı daha da artıraq və kənd təsərrüfatı məhsullarının ixracı ilə bağlı bütün məsələləri həll edək, yeni bazarlar əldə edək. Beləliklə, kənd təsərrüfatının inkişafını da gələcəkdə təmin etmək üçün lazımi tədbirlər görüləcəkdir.

Mən bütün bu məsələləri ona görə deyirəm ki, ölkə qarşısında duran əsas iqtisadi və sosial məsələlər öz həllini tapmalı idi, onların böyük əksəriyyəti öz həllini tapıbdır. Gələcək illərdə, xüsusilə regionların və ümumiyyətlə, ölkəmizin sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci mərhələsinin uğurla başa çatdırılması üçün 2013-cü ilə qədər bütün əsas məsələlər öz həllini tapmalıdır.

Ekologiya məsələlərinə gəldikdə, sirr deyil ki, əsrlər boyu bizim regionda bu məsələlərə ciddi diqqət verilmirdi. Ekoloji tarazlığın bərpa edilməsi, ekoloji tədbirlərin görülməsi, ətraf mühitin qorunması sanki beşinci, onuncu dərəcəli məsələ kimi gündəlikdə dayanırdı. Yəni, hətta ekologiya sözü, əvvəlki illərdə o qədər də çox işlədilmirdi. Beləliklə, Abşeron yarımadasının torpaqlarının müəyyən hissəsi çirklənibdir. Neft tullantıları ilə çirklənmiş gölməçələr bu gün də bizi narahat edir. Məişət tullantılarının utilizasiyası məsələləri ilə demək olar ki, ciddi məşğul olmamışıq. Azərbaycanda içməli su problemi həmişə, bütün dövrlərdə ən ciddi, ən böyük problemlərdən biri idi. Bu gün də bu problem deyə bilərəm ki, həllini gözləyən əsas problemlərdən biridir. Yəni ki, bütövlükdə ekologiya məsələlərinə bir az ögey münasibət bəslənilirdi. Deyə bilərəm ki, bütün sovet məkanında, postsovet məkanında, Sovet İttifaqı zamanında daha çox planın icrası məsələləri nəzərdə tutulurdu. Ancaq ekoloji tədbirlər ya yarımçıq görülürdü, ya görülmürdü.

Sovet İttifaqına xas olan bütün bu ümumi meyillərə baxmayaraq, Azərbaycanda ekoloji məsələlərin həlli işinə 1970-80-ci illərdə böyük diqqət göstərilirdi. Bu gün Bakının ətrafında gördüyümüz ağaclar, meşəliklər, yaşıllıq zolaqları ulu öndər Heydər Əliyevin təşəbbüsü, onun şəxsi iştirakı ilə salınmışdır. O illərdə Bakının kanalizasiya probleminin həlli istiqamətində vacib addımlar atılmışdır. Yəni, bütün bu məsələlər o vaxt imkan daxilində görülürdü. Ancaq əlbəttə ki, Azərbaycan müstəqil dövlət deyildi və bu sahədə müstəqil siyasət apara bilmirdi.

Bu gün ekoloji məsələlərin həlli vacib məsələlərdən biridir. Ona görə yox ki, bütün dünyada bu məsələlərə böyük diqqət göstərilir. Ona görə ki, bu gün Azərbaycan qarşısında həllini gözləyən əsas məsələlərdən biri ekoloji vəziyyətin yaxşılaşdırılmasıdır. Qeyd etdiyim kimi, bu istiqamətdə vacib addımlar atılıbdır, konkret proqram qəbul edilibdir. Bu gün isə mən hesab edirəm ki, biz əlavə tədbirlər haqqında danışmalıyıq. Təsadüfi deyil ki, mənim təşəbbüsümlə 2010-cu il Azərbaycanda "Ekologiya ili" elan edilmişdir. Artıq bütün cəmiyyətdə bu təşəbbüs müsbət qarşılanır və görülən tədbirlər əhali tərəfindən, ictimaiyyət tərəfindən dəstəklənir, ağacəkmə kampaniyası və digər vacib məsələlər xalqın iştirakı ilə həyata keçirilir.

Mən hesab edirəm ki, ekologiya tədbirlərinin görülməsi ancaq 2010-cu illə məhdudlaşmamalıdır. Biz bundan sonrakı illərdə bu məsələlərə ciddi diqqət göstərməliyik. Həllini

gözləyən əsas məsələlər aydındır. Bu gün biz bu barədə danışacağıq. Ətraf mühitin qorunması, əhalinin içməli su ilə təmin edilməsi - bu istiqamətdə də kompleks tədbirlər görülür. Hansısa bir istiqamətdən söhbət getmir. Burada həm də Oğuz-Qəbələ-Bakı su kəmərinin tikintisi nəzərdə tutulur. Ümid edirəm ki, bu il bu su kəməri - Bakıya hava-su kimi lazım olan bu kəmər istifadəyə veriləcək və beləliklə, Bakı əhalisi təmiz içməli su ilə təmin ediləcəkdir. Samur-Abşeron kanalının tikintisi, - bu da çox böyük vəsait tələb edən layihədir, - uğurla davam edir. Artıq 122 kənddə kiçik təmizləyici modul qurğular quraşdırılıbdır və 220 mindən çox vətəndaş - əvvəllər çay sularından, bulanıq sulardan istifadə edən vətəndaşlar bu gün təmiz içməli su ilə təmin edilir. Hazırda 60-dan yuxarı kənddə işlər gedir və hesab edirəm ki, bu il, ümumiyyətlə, bu proqram çərçivəsində 350 mindən çox vətəndaş təmiz içməli su ilə təmin ediləcəkdir. Bu proqram bundan sonrakı illərdə davam etdirilməlidir.

İçməli su ilə bərabər, əlbəttə ki, biz həm Bakının, həm ölkəmizin bütün şəhər və rayonlarının kanalizasiya məsələlərini həll etməliyik. Keçən ilin sonunda biz Bakıda Hövsan aerasiya stansiyasının açılışında iştirak etmişik. Bu, çox vacib layihədir. Bu, demək olar ki, Bakının kanalizasiya problemlərinin böyük hissəsini həll edir. Ancaq tam həll etmir. Əlavə tədbirlər planı vardır. Biz bu il və gələn illərdə bu məsələlərə böyük diqqət göstərməliyik ki, Bakının bütün kanalizasiya sistemi yeniləşsin, müasirləşsin, ən yüksək standartlara cavab versin. Beləliklə, şəhərimiz üçün bütün dövrlərdə çox ciddi olan bu problem öz həllini tapacaqdır.

Bu gün Azərbaycanda yaşıllaşdırma istiqamətində vacib addımlar atılır, ağacəkmə kampaniyası uğurla davam edir. Qeyd etdiyim kimi, Azərbaycan vətəndaşları bu gözəl təşəbbüsə çox fəal şəkildə qoşulmuşlar. Qarşıya vəzifə qoyulmuşdu ki, qısa müddət ərzində Bakıda və Abşeron yarımadasında ən azı 3 milyon ağac əkilsin, bütün suvarma işləri təmin edilsin və bu istiqamətdə vacib addımlar atılır. Biz artıq nəticələri görürük. Bakının müxtəlif yerlərində artıq bu çox gözəl mənzərə göz qabağındadır. Əvvəlki illərdə antisanitariya mənbəyi olan aeroport yarmarkası köçürüldü və o boşalan ərazidə böyük meşə zolaqları yaradılır. Yəni, bu istiqamətdə işlər görülür və biz bu gün bu barədə eşidəcəyik.

Havanın çirklənməsi məsələlərinə böyük diqqət göstərilməlidir. Mən bir müddət bundan əvvəl müvafiq göstərişlər vermişəm ki, biz Azərbaycanda bu istiqamətdə bütün məsələləri Avropa standartlarına uyğunlaşdırmalıyıq. Mənə verilən məlumata görə, havanın çirklənməsinin 70 faizi avtonəqliyyatın payına düşür. Hesab edirəm ki, nəzərdə tutulmuş tədbirlərin icrası nəticəsində biz bu sahədə də Avropa standartlarına çatacağıq.

Əlbəttə ki, bu, asan proses deyildir. Çox böyük tədbirlərin görülməsi nəzərdə tutulur. Ancaq biz bunu etməliyik.

Bir sözlə, ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində çox işlər görülməlidir. Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan dövlətinin bu işlərin görülməsi üçün ciddi və güclü iradəsi vardır. Konkret fəaliyyət proqramı tərtib edilibdir. Bu gün biz bir daha bütün bu məsələləri təhlil edib, əlavə tədbirlərin görülməsi haqqında qərarlar verəcəyik ki, 2010-cu ildə və ondan sonrakı illərdə bu istiqamətdə ən ciddi addımlar atılsın.

Mən şübhə etmirəm ki, görülən və görüləcək tədbirlər nəticəsində bir neçə ildən sonra görəcəyik ki, Azərbaycan vətəndaşlarının sağlamlığı daha da möhkəmlənib. Çünki insan sağlamlığına ən ciddi zərbə vuran amil ekoloji vəziyyətin lazımi səviyyədə olmamasıdır. Hava, su, ətraf mühit - bütün bu amillər insanın sağlamlığına ən böyük təsir edən amillərdir. Əgər biz bu istiqamətdə işlərimizi ən qabaqcıl Avropa ölkələrinin standartlarına uyğunlaşdırsaq, görəcəyik ki, müəyyən müddətdən sonra həm insanların sağlamlığı, həm onların fiziki qabiliyyəti, həm ümumiyyətlə, Azərbaycanda yaşamaq üçün ən lazımi şərait yaradılmışdır. Bu istiqamətdə görülmüş işlər sayəsində xalqımız daha da yaxşı yaşayacaq, sağlam olacaq və Azərbaycan hərtərəfli inkişafını bundan sonra daha da uğurla irəliyə aparacaqdır.

## YEKUN NİTQİ

-Mən hesab edirəm ki, müşavirədə iştirak edən bütün vəzifəli şəxslər öz sahələrində ekoloji tədbirlərin gücləndirilməsi işində praktiki addımlar atacaqlar. Bu gün məruzə edilən məsələlər öz həllini gözləyir. Əlbəttə ki, görülən işlər haqqında bu gün danışıldı və bu da çox vacibdir. Çünki bu, onu göstərir ki, Azərbaycanda bu istiqamətdə çox ciddi işlər aparılır və çox ciddi yanaşma vardır. Ancaq görülən işlərlə bərabər, biz diqqəti daha da çox həllini gözləyən işlərə yönəltməliyik. Konkret addımların atılması nəticəsində, əminəm ki, bu gün burada səslənən və səslənməyən digər vacib məsələlər öz həllini tapacaqdır.

Hesab edirəm ki, ekoloji tarazlığın bərpası istiqamətində, bütün istiqamətlərdə vacib addımların atılması nəzərdə tutulur. Onların bəziləri artıq öz həllini tapıb və biz gələcəkdə bu istiqamətlər üzrə daha da böyük işlər görəcəyik. Onu demək istəyirəm ki, elə bir sahə yoxdur ki, o sahə konkret təkliflərlə təmin edilməsin. Konkret icra mexanizmləri vardır və biz onları daha da dəqiqləşdirməliyik.

Ağacların əkilməsi və yaşıllıqların yaradılması istiqamətində əlavə tədbirlər görüləcəkdir. 2010-cu ildə həm büdcə vəsaiti nəzərdə tutulub, eyni zamanda, digər mənbələrdən istifadə edilməlidir. Mən giriş sözümdə qeyd etdim ki, ictimaiyyət geniş mənada bu işlərə çox fəal qoşulmuşdur. Qarşıda qoyulan vəzifə - Bakıda və Abşeronda üç milyon ağacın əkilməsi proqramı əminəm ki, tezliklə öz həllini tapacaqdır. Mən çox şadam ki, bütün ölkədə, bütün şəhər və rayonlarımızda bu işlər geniş vüsət alıb və insanlar çox böyük fəallıq göstərirlər.

Bu gün burada qeyd edildi ki, kanalizasiya sularından təkrar istifadə layihəsi işlənilməlidir. Yaxın Şərq ölkələrində və digər ölkələrdə bu təcrübə vardır. Biz bütün imkanlardan daha da səmərəli şəkildə istifadə etməliyik. Biz damcılı suvarma sisteminə keçməliyik. Çünki bizim işimiz ağacların əkilməsi ilə bitmir. Əsas məsələ ağaclara qulluq etmək, onları vaxtlı-vaxtında suvarmaq və onlara xidmət göstərməkdir. Mən istəmirəm ki, bu ağacəkmə məsələləri ancaq ağacların əkilməsi ilə məhdudlaşsın və ondan sonra ağacların gələcək taleyi diqqətdən kənarda qalsın. Yox, bir halda ki, bu ağaclar əkilir, ağaclara qulluq edilməlidir və bütün lazımi tədbirlər görülməlidir.

Əhalini içməli su ilə təmin etmək üçün qeyd olunduğu kimi, kompleks tədbirlər görülür. Oğuz-Qəbələ-Bakı su kəmərinin tikintisi daha da sürətlə getməlidir. Qeyd etdiyim kimi, bu il kəmər istifadəyə verilməlidir. Modul təmizləyici qurğular nəinki Kür-Araz boyu yerləşən kəndlərdə, digər çaylar üzərində yerləşən kəndlərdə də quraşdırılmalıdır. Bu proses gedir və biz modul qurğuların quraşdırılması ilə böyük sosial məsələnin həllini təşkil edəcəyik. Burada da əsas məsələ ondan ibarətdir ki, bu qurğular istifadəyə veriləndən sonra onlara xidmət göstərilsin. Bu iş hazırda bələdiyyələrə həvalə edilibdir. Mən bütün bələdiyyələrdən tələb edirəm ki, bu işlərə ciddi yanaşsınlar, bu qurğular diqqətsiz qalmasın və onların istismarında bütün lazımi tədbirlər görülsün. Çünki əgər, bu qurğulara lazımi xidmət göstərilməsə, onda bir müddətdən sonra onlar sıradan çıxacaqdır.

Kanalizasiya sisteminin yeniləşməsi və yaradılması istiqamətində vacib addımlar atılır. Hövsan aerasiya stansiyası qeyd olunduğu kimi, istismara verilmişdir. Bakının kanalizasiya sistemi tam şəkildə yenidən qurulmalıdır. Bununla bərabər, bu işlər digər şəhər və rayonlarımızda getməlidir. Bu işlər böyük bir proqram çərçivəsində aparılır. Azərbaycan bu istiqamətdə beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq edir və biz artıq ilkin layihələrin icrasını da görürük. Bu yaxınlarda Göyçay və Ağdaş rayonlarında olarkan, orada həm içməli suyun verilməsini qeyd etdik, eyni zamanda, rayonların, rayon mərkəzlərinin içməli su və kanalizasiya sistemi ilə tam şəkildə təmin edilməsi haqqında mənə təqdimat göstərilmişdir. Yəni, demək olar ki, bütün şəhər və rayonlarımız bu proqramla əhatə olunur. Çalışmalıyıq ki, bu məsələlər tezliklə öz həllini tapsın. Çünki bu gün qeyd etdiyim kimi, əsas ciddi problemimiz içməli su və kanalizasiya problemidir. Əvvəlki illərdə elektrik enerjisi

və qazla təminat ən ciddi problemlər sayılırdı. Bu istiqamətdə çox vacib addımlar atılıb. Demək olar ki, problemlərin əsas hissəsi öz həllini tapıb. Bu gün içməli su, kanalizasiya problemləri öz həllini gözləyən problemlərdən biridir.

Kanalizasiya sisteminin quraşdırılması Xəzər dənizinin ekoloji vəziyyətinin sağlamlaşdırılmasına xidmət göstərəcəkdir. Bu istiqamətdə vacib addımlar atılıb. Artıq iki ildir ki, çimərliklərimiz vətəndaşlar üçün açıqdır. Əvvəlki illərdə Səhiyyə Nazirliyi hər il bahar-yay mövsümlərində açıqlamalar verirdi ki, o çimərlikdən istifadə edilməməlidir, bu çimərlikdə ekoloji vəziyyət bərbaddır. Beləliklə, Bakının demək olar ki, bütün çimərliklərindən insanlarımız istifadə edə bilmirdilər, yaxud da ki, istifadə edirdilər, ancaq bunun ciddi mənfi nəticələri ola bilərdi. Son iki il ərzində demək olar ki, şəhərimizin əsas çimərliklərində ekoloji vəziyyət yaxşıdır, suyun tərkibi yaxşıdır, təmizdir. Bu proses davam etdirilməlidir ki, bu günə qədər kanalizasiya və təmizləmə sistemləri ilə təmin edilməyən bölgələrdə də tezliklə bu sistemlər quraşdırılsın.

Bakı buxtasının təmizlənməsi bizim ümumi işimizdir. Bakı buxtası Bakının gözəlliyidir, Bakının tarixidir. Biz bu gözəl sərvəti qorumalıyıq. Əfsuslar olsun ki, hazırda Bakı buxtasında suyun təmizliyi bizi heç cür qane edə bilməz. Ciddi tədbirlərin görülməsi üçün mənim tərəfimdən müvafiq göstərişlər verilmişdir. Ümid edirəm ki, yaxın zamanlarda kompleks tədbirlərin görülməsi nəticəsində Bakı buxtasında suyun təmizliyi lazımi səviyyədə olacaqdır. Bu çox ağır məsələdir. Bu asan məsələ deyildir. Onilliklər, əsrlər boyu Bakı buxtası çirkləndirilibdir. Nəinki kanalizasiya axınları Bakı buxtasının ekoloji vəziyyətini ağırlaşdırırdı, eyni zamanda, neft-qaz əməliyyatları nəticəsində Bakı buxtası neft tullantıları ilə böyük dərəcədə çirklənmişdir.

Ancaq lazımi tədbirlər görülərsə, biz bu məsələnin həllinə də nail ola biləcəyik. Hesab edirəm ki, vacib olan məsələlərdən biri Azərbaycanda heç vaxt sınaqdan keçməmişdir. Ancaq biz nə vaxtsa buna başlamalıyıq və Xəzər suyunun şirinləşdirilməsi, bu sudan suvarma üçün və gələcəkdə içməli su kimi istifadə edilməsi üçün lazımi tədbirlər görülməlidir. Mən hesab edirəm ki, 2010-cu ildə pilot layihəsi icra edilməlidir. Bu təcrübə başqa ölkələrdə vardır. Yaxın Şərq ölkələrində bu təcrübədən geniş şəkildə istifadə edilir. Biz bu gözəl təcrübəni tətbiq etməliyik. Bizim böyük su mənbəyimiz vardır. Sirr deyil ki, bizi qidalandıran çayların böyük əksəriyyəti ölkəmizdən kənarda formalaşır və biz ekoloji təhlükəsizliyin, su təhlükəsizliyinin təmin edilməsi üçün əlbəttə ki, Xəzər dənizinin suyundan dediyim məqsədlər üçün də istifadə etməliyik. Mən əminəm ki, pilot layihəsi uğurlu olacaqdır. Çünki burada yenə də deyirəm ki, heç bir yenilik yoxdur, müxtəlif ölkələrdə bu təcrübədən istifadə edilir. Düzdür, bu, bahalı bir layihədir. Ancaq insanların sağlamlığı, ekoloji və su təhlükəsizliyinin təmin edilməsi üçün biz, hesab edirəm ki, maliyyə problemlərinə baxmamalıyıq, biz bunu təmin etməliyik. 2010-cu ildə, hesab edirəm ki, biz ilkin layihəni görməliyik.

Meşələrin qorunması məsələləri çox böyük əhəmiyyət daşıyır. Bu gün bu barədə deyilmədi, ancaq bu məsələyə də çox ciddi diqqət göstərilməlidir. Meşələri qıranlar cəzalandırılmalıdırlar, onlara qarşı ciddi tədbirlər görülməlidir. Eyni zamanda, Azərbaycanda qazlaşdırılma prosesi daha da sürətlə getməlidir. Bu gün Azərbaycanda qazlaşdırılma demək olar ki, 85 faizdir. Ancaq bu 85 faiz o demək deyil ki, hər bir yaşayış məntəqəsində əhalinin 85 faizi qazla təmin edilir. Bu 85 faizin böyük əksəriyyəti Bakı, Sumqayıt və böyük şəhərlər hesabına formalaşır. Biz elə etməliyik ki, bütün rayonlarda, əlbəttə ki, indi bütün rayon mərkəzlərinə qazın verilməsi təmin edilir, rayon mərkəzlərinə yaxın olan kəndlərə də qaz xətləri çəkilməlidir. Biz çalışmalıyıq ki, Azərbaycanda qazlaşdırılmanı ən azı 90 faizə qaldıraq. Beləliklə biz meşələrin qırılmasına da sədd qoymuş olarıq.

Bakıda məişət tullantıları zavodunun tikintisi başlamışdır. Bu böyük maliyyə vəsaiti tələb edən layihədir. Ancaq Bakının ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün əvəzolunmaz

rol oynayacaq layihədir. Balaxanı poliqonunda işlər gedir, “Təmiz şəhər” qurumu yaradılmışdır. Növbəti illərdə Balaxanı məişət tullantıları zavodunun istismara verilməsi nəticəsində Bakının havası böyük dərəcədə təmizlənəcəkdir. Biz artıq bunu görürük, artıq əvvəlki illərdə olduğu kimi, o yerdən tüstü də gəlmir, orada çeşidlənmə aparılır və bütün lazımi tədbirlər görülür ki, biz bu məsələni birdəfəlik həll edək. Ondan sonra və onu da deyə bilərəm ki, biz bununla paralel olaraq başqa şəhərlərdə də məişət tullantılarının utilizasiyası məsələləri ilə ciddi məşğul olmalıyıq.

Neftlə çirklənmiş ərazilərdə təmizlənmə işləri geniş xarakter daşımalıdır. Bibiheybət buxtasının təmizlənməsi birinci mərhələ idi. Çünki deyə bilərəm ki, ən acınacaqlı vəziyyət məhz orada idi, şəhərin elə bil ki, mərkəzidir, şəhərə girişdir. Bu gün göstərilən fotoşəkillər onu göstərir ki, hər şeyi etmək mümkündür. Bibiheybət buxtasında neftlə çirklənmiş ərazilərdə görülən işlər başqa sahələrdə də tətbiq edilməlidir. Beləliklə, biz Abşeron yarımadasını neftlə çirklənmiş yerlərdən, gölməçələrdən təmizləyəcəyik.

Torpaqların və göllərin bərpası məsələləri də öz həllini tapmalıdır. Abşeronda, Bakı ətrafında mövcud olan bəzi göllər qurudulmalıdır. Ancaq, eyni zamanda, bəzi göllər abadlaşdırılmalıdır, onların suyu təmizlənməlidir və biz insanların istirahəti üçün bu gölləri yaxşı vəziyyətə gətirməliyik. Böyükşor gölü, Zığ gölü, Bülbülə, Hacıhəsən, Qırmızı göl, Masazır, Mirzələvi, Çuxurdərə, Zabrat, Qala, Puta, Daşgil gölləri abadlaşdırılmalıdır. Bu göllərin abadlaşdırılması üçün konkret təkliflər vardır. İndi biz gərək maliyyə mənbələri müəyyən edək ki, bu işləri də aparaq. Beləliklə, biz bu gün Bakının ətrafında, yəni, çox bərbad mənzərə yaradan, müxtəlif məişət tullantıları ilə, neft tullantıları ilə, digər zəhərli maddələrlə çirklənmiş bu gölləri təmizləyəcəyik.

Atmosfer havasının mühafizəsi üçün ciddi tədbirlər görülür. Verilən məlumata görə, 2000-2008-ci illər ərzində avtomaşınların sayı 423 mindən 823 minə qədər artmışdır. Bu, özlüyündə əlbəttə ki, havanın çirklənməsi üçün əsas amillərdən biridir. Biz Avrostandartlara keçməliyik. Bu ildən bu istiqamətdə göstəriş verilib. Biz “Avro-2” və ondan sonra “Avro-3”, “Avro-4”, “Avro-5” səviyyəsinə çatmalıyıq. Biz bu sahədə ölkədəki vəziyyəti tam şəkildə Avropa standartlarına uyğunlaşdırmalıyıq.

Bərpa olunan enerji növlərinin yaradılması işində ciddi addımlar atılır və bu istiqamətdə artıq ilkin layihələr müzakirə olunur. Azərbaycanda su, günəş, külək enerji növlərinin yaradılması işləri aparılmalıdır, müxtəlif xəritələr var, bütün su mənbələrimiz artıq bəllidir. Bu yaxınlarda Göyçayda kiçik su elektrik stansiyasının təməl daşı qoyulmuşdur və bu proses uğurla davam etdiriləcəkdir. Beləliklə, biz Azərbaycanda ekoloji cəhətdən təmiz enerji növlərinin yaradılmasına nail olacağıq. Onu da deyə bilərəm ki, biz son illər ərzində Azərbaycanda bu sahədə, enerji istehsalı sahəsində aparılan islahatlar nəticəsində artıq mazutdan istifadə etmirik, mazut yandırmırıq. Bizim bütün elektrik stansiyalarımız qazla işləyir və bu, həm iqtisadi səmərəliliyi artırır, eyni zamanda, ekoloji vəziyyəti daha da yaxşılaşdırır. Ancaq, əlbəttə, çalışmalıyıq ki, bərpa olunan enerji növlərindən istifadə edərək, həm ucuz enerji əldə edək, eyni zamanda, ekologiyamızı daha da yaxşı qoruyaq.

Əlavə tədbirlərin görülməsi üçün konkret təkliflər vardır. Bu təkliflər bir daha təhlil edilməlidir. Bütün aidiyyəti qurumlar, nazirliklər, dövlət qurumları bir daha bu məsələləri təhlil etməlidir və əlavə tədbirlərin görülməsi üçün konkret plan hazırlanmalıdır, onun maliyyə mənbələri müəyyən edilməlidir. 2010-cu ilin dövlət büdcəsində bu məqsədləri təmin etmək üçün maliyyə resursları vardır. Əgər onlar kifayət etməsə, biz baxmalıyıq, hansı mənbələrdən bu məqsədlər üçün maliyyə dəstəyini artıraq. Texniki imkanlar kifayət qədər vardır. Azərbaycanda son illər ərzində böyük sayda müxtəlif texnikalar alınmışdır. Əgər əlavə texnikaların alınması üçün ehtiyac olarsa, biz bunu da həll etməliyik. Hər bir layihə

üzrə konkret müddət və icra mexanizmləri nəzərdə tutulmalıdır. Bizim bütün proqramlarımız konkret xarakter daşıyır, bütün proqramlarımız icra olunur. Bu vaxta qədər bütün istiqamətlərdə işlər konkret proqramlar əsasında görülmüşdür. Bizim siyasətimiz şüar naminə aparılmır. Biz konkret məsələni aşkar edirik, təhlil edirik və o məsələnin həlli üçün konkret addımların görülməsi nəzərdə tutulur və tutulmalıdır. Mən şübhə etmirəm ki, görülən və görüləcək tədbirlər nəticəsində yaxın zamanlarda Bakı və Abşeron yarımadasında və ölkəmizin digər yerlərində ekoloji vəziyyət böyük dərəcədə yaxşılaşdırılacaq. Azərbaycan vətəndaşları təmiz ekoloji şəraitdə yaşayacaqlar.

Mən artıq bu gün burada səslənən fikirlər və məruzələr əsasında konkret təkliflər gözləyirəm ki, biz onları tezliklə reallaşdıraq. Beləliklə, 2010-cu il Azərbaycan tarixində nəinki "Ekologiya ili" kimi qalacaq və Azərbaycan tarixinə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dönüş ili kimi yazılacaqdır. Sağ olun.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**39-cu kitab: noyabr 2009 – fevral 2010. - Bakı: Azərnəşr, 2017. – S. 318-328.**

## NAXÇIVAN ŞƏHƏRİNİ İÇMƏLİ SU İLƏ TƏMİN EDƏCƏK SU TƏCHİZATI SİSTEMLƏRİNİN BİRLƏŞDİYİ PAYLAYICI QURĞU İSTİFADƏYƏ VERİLMİŞDİR

*(5 may 2010-cu il)*

Xəbər verdiyimiz kimi, oktyabrın 5-də Prezident İlham Əliyev Naxçıvan şəhərini içməli su ilə təmin edəcək su təchizatı sistemlərinin birləşdiyi paylayıcı qurğunun istifadəyə verilməsi mərasimində iştirak etmişdir.

Şəhər ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Məlumat verildi ki, son illərdə Naxçıvanda həyata keçirilən infrastruktur layihələri arasında əhalinin içməli suya olan tələbatının ödənilməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Hökuməti ilə Asiya İnkişaf Bankı arasında bağlanan kredit müqaviləsinə əsasən, Naxçıvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması məqsədi ilə tikilən supaylayıcı şəbəkə vasitəsilə əhalinin içməli suya olan ehtiyacı tam şəkildə ödəniləcəkdir. İçməli su şəhərə 17 kilometr məsafədən xüsusi boru xətləri ilə gətirilir, təmizləndikdən sonra supaylayıcı qurğu vasitəsilə əhaliyə verilir. Qurğunun suötürmə gücü saniyədə 600 litrdir.

Hazırda Naxçıvan şəhərinin daxili su və kanalizasiya sisteminin yenidən qurulması layihəsi həyata keçirilir. Layihə çərçivəsində 21 min 500 metr içməli su və 18 min 300 metr kanalizasiya xətti yenidən qurulmuşdur. Supaylayıcı qurğunun yerləşdiyi ərazi şəhərin ümumi planına uyğun olaraq abadlaşdırılmış və yaşıllaşdırılmışdır. Dövlətimizin başçısı Naxçıvan şəhərdaxili su və kanalizasiya şəbəkələrinin, şəhəri içməli su ilə təmin edəcək sistemlərin baş planlarına baxdı.

Məlumat verildi ki, Naxçıvan çayı yatağının yaxınlığındakı yeraltı su mənbələrindən çəkilən yeni boru kəmərləri şəhərin içməli suya olan tələbatını ödəməklə yanaşı, gələcəkdə su qıtlığının yaranmasının da qarşısını alacaqdır. Sonra dövlətimizin başçısı içməli su sisteminin tikintisində istifadə olunan boruların nümunələrinə baxdı.

Prezident İlham Əliyev Naxçıvan şəhərini içməli su ilə təmin edən qurğunu işə saldı.

Şəhər ictimaiyyətinin nümayəndələrini təbrik edən **Prezident İlham ƏLİYEV dedi:** - Bu layihənin birinci mərhələsi başa çatıbdır və indi artıq su gəlir. Yəqin ki, bir-iki ilə şəhərin bütün su problemi öz həllini tapacaqdır. Böyük əhəmiyyətə malik olan bir layihədir və uğurla icra olunur. Su həyat deməkdir. Biz elə etməliyik ki, hər bir yerdə insanlar içməli su ilə təmin olunsunlar. Şəhərlərdə, kəndlərdə indi müxtəlif tədbirlər görülür. Azərbaycanın müxtəlif bölgələrində ayrı-ayrı layihələr icra olunmağa başlamışdır ki, bütün şəhərlərdə içməli su, kanalizasiya problemi həllini tapsın. O cümlədən Naxçıvan Muxtar Respublikasında bu məsələyə çox böyük diqqət göstərilir və işlər artıq icra olunur. Bu gün biz sizinlə bərabər layihənin birinci mərhələsini qeyd edirik. Sizi təbrik edirəm və ümid edirəm ki, yaxın zamanlarda layihənin başa çatmasını sizinlə bərabər qeyd edəcəyik. Şəhər sakini

Əli NOVRUZOV dövlətimizin başçısına ictimaiyyət adından təşəkkürünü bildirdi.

**AZƏRTAC**
**2010, 5 oktyabr**

## "BALAKƏN-1" SU ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ

*(8 iyul 2010-cu il)*

İyulun 8-də Prezident İlham Əliyev "Balakən-1" kiçik su elektrik stansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.

"Azərenerji" ASC-nin prezidenti Etibar Pirverdiyev inşa ediləcək bu energetika qurğusu barədə ətraflı məlumat verdi. Qeyd edildi ki, dövlətimizin başçısının 2009-cu il 16 noyabr tarixli Sərəncamı ilə respublikamızda külək və su elektrik stansiyalarının inşasının genişləndirilməsi məqsədi ilə potensial imkanların öyrənilməsi və xüsusi proqramların hazırlanması "Azərenerji" ASC-yə tapşırılmışdır. Mütəxəssislərin ilkin araşdırmalarına görə, respublikamızın müxtəlif bölgələrində dağ çayları və suvarma kanalları üzərində yüzlərlə kiçik su elektrik stansiyası tikmək mümkündür. Kiçik su elektrik stansiyalarının inşası elektrik enerjisi istehsalında yanacağa qənaət etməklə yanaşı, ətraf mühitin qorunmasında da mühüm rol oynayır.

"Balakən-1" su elektrik stansiyasında ildə 10 milyon kilovat/saat enerji istehsal ediləcəkdir. Bu, rayonun elektrik enerjisinə tələbatının 25 faizini təşkil edir. Yerli "AZENKO" şirkətinin inşa edəcəyi su elektrik stansiyasında hər birinin gücü 0,5 meqavata çatan 3 hidroturbin və hidrogenerator, eləcə də 10 kilovoltluq yarımstansiya quraşdırılacaq, elektrik xətləri çəkiləcəkdir.

Bildirildi ki, stansiyanın tikintisini 2011-ci ilin ikinci yarısında başa çatdırmaq nəzərdə tutulmuşdur. Prezident İlham Əliyev su elektrik stansiyasının təməlini qoydu.

**AZƏRTAC**
**2020, 8 iyul**

## «QUSAR-1» KİÇİK SU ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ

*(12 avqust 2010-cu il)*

Prezident İlham Əliyev avqustun 12-də «Qusar-1» kiçik su elektrik stansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.

İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.

«Azərenerji» ASC-nin sədri Etibar Pirverdiyev prezident İlham Əliyevə məlumat verərək bildirdi ki, dövlətimizin başçısı respublikada 2010-cu ili alternativ enerji mənbələrinin istifadəsi və ekologiyanın yaxşılaşdırılmasında kəskin dönüş ili elan etmişdir. Prezident İlham Əliyevin 2009-cu il 16 noyabr tarixli Sərəncamı ilə kiçik su elektrik stansiyalarının respublikada geniş tətbiq edilməsi məqsədi ilə xüsusi proqramların hazırlanması «Azərenerji» ASC-yə tapşırılmışdır.

Kiçik su elektrik stansiyalarının tikintisi bir tərəfdən, elektrik enerjisinin istehsalında yanacağa qənaət edilməsinə, digər tərəfdən isə ətraf mühitin sağlamlaşdırılmasına imkan verir. Tikintinin 2011-ci ilin ikinci yarısında başa çatdırılması nəzərdə tutulur.

Layihənin icrası nəticəsində Qusar rayonunun Urva kəndi yaxınlığında inşa edilən su elektrik stansiyasında ildə 7 milyon kilovat/saat elektrik enerjisi istehsal olunacaqdır. Prezident İlham Əliyev «Qusar-1» kiçik su elektrik stansiyasının təməlini qoydu.

Dövlətimizin başçısına inşası nəzərdə tutulan bənd tipli iki su elektrik stansiyası barədə də məlumat verildi. Prezident İlham Əliyev inşaatçıları və energetikləri təbrik etdi, onlara tapşırıq və tövsiyələrini verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**42-ci kitab: iyul 2010 – oktyabr 2010. - Bakı: Azərnəşr, 2017. – S. 41.**

## ŞƏMKİR ŞƏHƏRİNƏ İÇMƏLİ SU VERİLMİŞDİR
*(10 sentyabr 2013-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Şəmkir şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısı əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Rayon ictimaiyyətinin nümayəndələrini salamlayan **Prezident İlham ƏLİYEV dedi:**

- Bu gün Şəmkir rayonunda bir neçə tədbir keçirilir. Onların içərisində içməli suyun verilməsi əlbəttə ki, xüsusi yer tutur. Bu layihənin icrası böyük əhəmiyyət kəsb edir. İçməli su insanlar üçün əsas məsələdir. Mən çox şadam ki, artıq Şəmkirdə də bu vacib infrastruktur layihəsi uğurla icra edilir. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

İçməli su layihələri, kanalizasiya xətlərinin çəkilişi ölkəmizdə geniş vüsət almışdır. Ölkəmizin müxtəlif yerlərində, demək olar ki, hər yerdə, hər şəhərdə bu layihələr icra edilir. Bəzi yerlərdə biz artıq açılışlarda iştirak etmişik, bəzi yerlərdə isə işlər hələ ki, davam etdirilir. Ancaq qarşıya vəzifə qoyulmuşdur ki, 2015-ci ilin sonuna qədər, bəlkə ondan da tez bütün şəhərlərdə və əksər kəndlərdə təmiz içməli su təminatı təşkil edilsin. Bu layihələr təbii ki, böyük vəsait, böyük zəhmət tələb edir. Azərbaycan dövləti bu gün güclü dövlətdir. Ulu Öndərin dediyi kimi, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Bu gün Azərbaycan reallıqları bunu bir daha sübut edir.

İçməli su problemi ölkəmiz üçün həmişə böyük məsələ idi, həmişə insanları narahat edən böyük bir məsələ idi. Bildiyiniz kimi, bizim əsas su mənbələrimiz ölkəmizin kənarında formalaşır. Su xətləri çəkilməli idi və çəkilib, su anbarları tikilməli idi və tikilib. Onlardan biri - Şəmkirdə Şəmkirçay dəryaçasının tikintisi davam edir. Bu dəryaçanın böyük əhəmiyyəti vardır. Çünki həm Şəmkiri və qonşu şəhərləri içməli su ilə təmin edəcək, eyni zamanda, 75 min hektar torpaq sahəsi suvarılacaqdır. Əlbəttə ki, Azərbaycanda su ilə bağlı məsələlər bütün dövrlərdə çox ciddi problem olaraq qalmışdır. 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin göstərişi ilə su xətləri çəkilmişdir. Ancaq bu gün biz bu məsələlərin tam şəkildə həllinə nail oluruq və nail olacağıq. İnsanların sağlamlığı üçün əsas məsələ olan təmiz içməli su artıq hər bir şəhərə veriləcəkdir. Şəmkirdə də biz bu gün bunu qeyd edirik. Artıq sakinlərin bir hissəsi içməli suyu 24 saat ərzində alır. Yaxın zamanlarda şəhər su ilə tam təmin ediləcəkdir. Bununla bərabər, Şəmkirdə digər infrastruktur layihələri icra edilir. Qazlaşdırma məsələlərinə xüsusi diqqət göstərilir və bildiyimə görə, qazlaşdırma təxminən 90 faiz səviyyəsindədir. İndi kəndlərdə - bu günə qədər qazlaşdırılmamış kəndlərdə qazlaşdırma gedir. Şəmkirin bütün yaşayış məntəqələri təbii qazla təmin edilməlidir. Biz bu məsələni də həll edəcəyik. Demək olar ki, məsələnin əsas hissəsi öz həllini tapmışdır. Hər bir rayonda olduğu kimi, digər sosial infrastruktur layihələrinin icrası böyük əhəmiyyət kəsb edir.

Əvvəllər Şəmkirdə olarkən bir neçə açılışda iştirak etmişəm. Bu gün də bir neçə açılışda iştirakım nəzərdə tutulur. Bütün bunlar rayonun dinamik inkişafını göstərir. Burada tarixi abidələr, binalar bərpa edilir, küçələr salınır, abadlıq işləri gedir, gözəl mehmanxana tikilmişdir. Şəmkir tamamilə yeni bir görkəm alır. Şəhər doğrudan da ölkəmizin ən gözəl şəhərlərindən birinə çevrilmişdir. Şəmkir ölkəmizdə ən sürətlə inkişaf edən rayonlardan biridir. Bu, məni çox sevindirir. Çünki hər dəfə yenilikləri, abadlıq-quruculuq işlərini görəndə mən də sizin qədər sevinirəm. Şəmkirdə bütün bu işlər böyük zövqlə və rayona olan böyük məhəbbətlə icra edilir.

Mən artıq dördüncü dəfədir ki Şəmkirdəyəm. Son dəfə dörd il bundan əvvəl gəlmişəm. Deyə bilərəm ki, şəhəri tanımaq çox çətindir. Şəhər tamamilə yeniləşir, gözəlləşir, əlbəttə ki, öz tarixi simasını saxlamaqla ən müasir şəhərə çevrilir. Əldə edilmiş bütün bu uğurlar münasibətilə sizi ürəkdən təbrik edirəm.

Şəmkir doğrudan da sürətlə inkişaf edir. Şəmkir rayonunun inkişafı Azərbaycanda ümumi dinamik inkişafın təzahürüdür. Sizin rayonunuzun sürətli inkişafı onu göstərir ki, vaxtilə qəbul edilmiş və uğurla icra olunan regional inkişaf proqramları çox böyük əhəmiyyətə malik olan təşəbbüs idi. Çünki əgər biz o proqramları 2004-cü ildə qəbul etməsəydik və 2009-cu ildə ikinci proqram qəbul edilməsəydi, bütün bu işlərin görülməsi mümkün olmazdı. Məhz proqramların mövcudluğu və orada nəzərdə tutulan məsələlərin həlli bugünkü reallığı təmin edir. Bütün bu işlər düşünülmüş, ardıcıl şəkildə görülmüşdür. İnfrastruktur, qaz, işıq, su, yollar. İnvestorlar cəlb edilmişdir, bölgələrə dövlət vəsaiti ayrılmışdır. Regional inkişaf proqramı hər il yüz milyonlarla manat vəsaitin qoyuluşu deməkdir. Son 10 il ərzində isə bütövlükdə ölkə iqtisadiyyatına 150 milyard dollar vəsait qoyulmuşdur. Yəni, əgər illərə bölsək hər il orta hesabla 15 milyard dollar. Yəni, Azərbaycan kimi ölkə üçün bu, çox böyük bir rəqəmdir. Bütün bu vəsaiti biz düşünülmüş siyasət və ardıcıl, məqsədyönlü fəaliyyət nəticəsində əldə etmişik. Azərbaycan xalqının zəhməti, istedadı hesabına və düzgün siyasət hesabına biz buna nail ola bilmişik. Bu gün Azərbaycanda olan dinamik inkişaf heç bir yerdə yoxdur. Mən bunu tam əminliklə və qətiyyətlə deyirəm. Ona görə yox ki, biz burada özümüzü tərifləyək. Amma bu, reallıqdır. Heç bir ölkə son 10 il ərzində Azərbaycan qədər inkişaf etməyib və inkişaf etmir. Bu ildə dinamik inkişaf təmin edilib. Altı ayın yekunları da onu göstərir. Qeyri-neft sektoru sürətlə inkişaf edir, iş yerləri açılır, yoxsulluq azalır və abadlaşan şəhərlərimiz dediyim sözlərin ən gözəl təsdiqidir. Bir daha demək istəyirəm ki, bu reallıq özünü Şəmkir rayonunun timsalında çox gözəl şəkildə göstərir. Ancaq bu, o demək deyil ki, bütün məsələlər həllini tapıb. Yox, hələ ki, həllini gözləyən məsələlər var, o cümlədən Şəmkirdə. Onların içində xüsusilə rayon Mərkəzi Xəstəxanasının vəziyyətini xüsusi qeyd etmək istərdim. Mənə verilən məlumata görə, xəstəxananın vəziyyəti o qədər də yaxşı deyildir. Hesab edirəm ki, biz yaxın zamanlarda yeni xəstəxananın tikintisinə başlamalıyıq. Bu, çox vacib məsələdir. İnsanların sağlamlığı üçün içməli su, tibbi xidmət, gözəl təbiət, təmiz hava - biz buna nail olacağıq.

Son vaxtlar mən müxtəlif şəhərlərdə gözəl xəstəxanaların açılışlarında iştirak etmişəm. Bu gün Yevlaxda, bundan bir həftə əvvəl Cəlilabadda, ondan bir həftə əvvəl Ağcabədidə. Yəni, bu gün Azərbaycanın əksər şəhərlərində müasir tibbi xidmət vardır. Şəmkir kimi böyük rayonda mütləq müasir, böyük xəstəxana tikilməlidir. Biz bunu da edəcəyik. Lazım olan digər tədbirlər mütləq görüləcəkdir. Bir daha demək istəyirəm ki, bu tədbirlərin görülməsi üçün həm iqtisadi gücümüz, həm siyasi iradə vardır. Artıq görülən işlər ictimaiyyəti daha da ruhlandırır, böyük işlərə sövq edir ki, biz ölkəmizi daha da gücləndirək, daha da zənginləşdirək, insanlar rifah, sülh, təhlükəsizlik içərisində daha da yaxşı yaşasınlar və bundan sonra da dinamik inkişaf təmin edilsin. Bir daha sizi bu gözəl hadisə münasibətilə və bütövlükdə Şəmkir rayonunda görülən işlərlə bağlı ürəkdən təbrik etmək istəyirəm. Bu işlərdə əməyi olan hər bir insana öz minnətdarlığımı bildirmək istəyirəm. Sizi bir daha əmin etmək istəyirəm ki, rayonun inkişafı daim diqqət mərkəzində olacaqdır.

* * * *

Şəmkirin inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlığını çatdıran Rayon Ağsaqqallar Şurasının sədri Məmməd ƏMİROV dedi:

- Möhtərəm Prezident, Sizi şəmkirlilər adından, xüsusən ağsaqqallar adından səmimi salamlayıram. Qədim Şəmkir diyarına xoş gəlmisiniz!

Bu gün respublikada gedən tikinti-quruculuq işləri bizi çox sevindirir. Bu obyektiv gerçəklikdir. Bunu görməyənlərin görmə qabiliyyətində yəqin ki qüsur vardır. Bunu hər

kəs görməlidir, normal adamlar bunu mütləq görməlidir. Bu gün açılışında iştirak etdiyiniz bir neçə obyekt vardır, o cümlədən yəqin parkın açılışını edəcəksiniz. O parkı dünən bir az gəzdik və bir daha şahidi olduq ki, belə şeylər mümkün imiş. Həm gözəl dizayn, həm gözəl arxitektura, həm gözəl keyfiyyət vardır, hər şey öz yerində. Bir şeyi nəzərinizə çatdırmaq istəyirəm, özünün ixtiyar çağını yaşayan ahıllar, ağsaqqallar üçün belə parkdan dəyərli heç nə yoxdur. İndi onların asudə vaxtlarını keçirmələri üçün tam şərait yaradılmışdır. O parkda hər şey zövq oxşayır. Ahılların, ağsaqqalların o parkda istirahəti onların gümrahlığına da təsir edəcək, ömürləri də artacaqdır. Bunun üçün Sizə sadəcə təşəkkür etmək, ya minnətdarlıq bildirmək həqiqətən çox azdır.

**Prezident İlham ƏLİYEV: Sağ olun.**

Rayon poliklinikasının həkimi Nüşabə SEYİDOVA dedi:

- Cənab Prezident, Şəmkir rayonuna xoş gəlmisiniz. Biz Sizi həmişə sevmişik, indi də çox sevirik. Bu gün şəmkirlilərin sevincinin həddi-hüdudu yoxdur. Siz öz sərəncamınızla qurulan bu təmiz içməli su xəttinin və kanalizasiya sisteminin açılışında iştirak edirsiniz. Uzun müddət idi ki, şəmkirlilər içməli sudan əziyyət çəkirdilər. Çox sağ olun. Şəmkirlilər üçün belə bir şərait yaratmısınız. Təşəkkür edirik. Ömrünüz uzun olsun. Ömrünüz həmişə su kimi aydın olsun. Canınız sağ olsun. Biz həmişə Sizinləyik. Təşəkkür edirik.

Düyərli kənd 2 nömrəli orta məktəbin müəllimi İlhamə İBRAHİMOVA dedi:

- Cənab Prezident, mən də Şəmkirin bütün təhsil işçiləri adından Sizi salamlayıram. Şəmkir torpağına “Xoş gəlmisiniz!” deyirəm. “Təhsil millətin gələcəyidir”, - deyən ulu öndər Heydər Əliyevin davamçısı kimi Siz də hər zaman Azərbaycan təhsilinə diqqət və qayğı göstərmisiniz. Son illər bütün Azərbaycanda olduğu kimi, Şəmkirdə də çoxlu yeni məktəb binaları tikilib istifadəyə verilib. Yeni təhsil ocaqları, Oksford məktəbi, uşaq bağçası tikilib. Bu, bizi, bir müəllim kimi məni şəxsən çox sevindirir.

Cənab Prezident, bu gün bu yenilikləri, bu inkişafı gördükdə və Sizin gəlişinizlə bütün şəmkirlilər kimi, mənim də ürəyim qürurla döyünür. Bu qüruru bizə yaşatdığınıza görə çox sağ olun.

Prezident İlham ƏLİYEV: Bu məsələlər çox böyük əhəmiyyət daşıyır, xüsusilə təhsillə bağlı olan məsələlər. Bilirəm ki, Şəmkir rayonunda məktəb tikintisi sürətlə gedir. Demək olar ki, məktəblərin əksəriyyəti yaxşı vəziyyətdədir. Hələ təmirə ehtiyacı olan məktəblər vardır. Onlar da təmir olunacaqdır. Yaxın zamanlarda bir dənə də təmirsiz məktəb qalmayacaqdır.

Təhsil, əlbəttə ki, hər şeyin təməlində dayanır. Çünki biz gəncləri necə yetişdirəcəyik, onlar hansı ruhda böyüyəcəklər, hansı biliklərə malik olacaqlar - ölkəmizin gələcəyi bundan asılı olacaqdır. Ona görə təhsil, səhiyyə məsələlərinə xüsusi diqqət göstərilir. Bu, bir daha onu göstərir ki, Azərbaycan sosial dövlətdir. Bu statusa malik olmaq o qədər də asan məsələ deyildir, xüsusilə, hələ də davam edən iqtisadi və maliyyə böhranı illərində. Çünki bu böhran istər-istəməz əksər ölkələrə təsir etmişdir. Ancaq Azərbaycanda aparılan düşünülmüş siyasət, iqtisadi islahatlar və ölçülüb-biçilmiş addımlar bizi bu böhrandan böyük dərəcədə sığortalaya bilib. Bizim investisiyalarımız - infrastruktura, bölgələrin inkişafına, qeyri-neft sektoruna qoyulan investisiyalar bu gün imkan verir ki, biz artıq neft amilindən az asılı olaq. Ümumi daxili məhsulumuzun əksər hissəsi qeyri-neft sektorunda formalaşır. Ona görə, biz gəncləri elə yetişdirməliyik ki, onlar bu dinamikanı saxlaya, gələcəkdə Azərbaycanı qoruya, müstəqilliyi daha da möhkəmləndirə bilsinlər. Bunu etmək üçün bilik və vətənpərvərlik hissləri çox güclü olmalıdır. Vətənpərvərlik hisslərini gücləndirmək üçün ən gözəl amil görülən işlərdir. Çünki əminəm ki, gənclər, yaşlı nəsil, biz hamımız fəxr edirik ki, bu gün müstəqil, inkişafda olan dövlətdə yaşayırıq, öz hesabımıza

yaşayırıq və nəhayət, taleyimiz öz əlimizdədir. Bugünkü reallıq, bugünkü müstəqil Azərbaycan bir daha onu göstərir ki, müstəqilliyin üstünlükləri nə qədər əhəmiyyətlidir. Çünki biz buna ancaq müstəqillik dövründə nail ola bilmişik. Ancaq taleyimiz öz əlimizdə olduğu halda biz bu inkişafa nail ola bilmişik.

Tam qətiyyətlə deyə bilərəm ki, bundan sonra Azərbaycan yalnız inkişaf yolu ilə gedəcəkdir. Heç bir böhran, dünyada yaşanan heç bir digər xoşagəlməz məsələ bizi bu yoldan döndərə bilməz. Çünki bu, quruculuq, inkişaf, haqq-ədalət yoludur. Belə gözəl layihələrin icrası həm dövlətimizin gücünü, həm dövlət siyasətini göstərir. Bir də onu göstərir ki, dövlət siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. Ona görə sizi bir daha bu gözəl hadisə münasibətilə təbrik edirəm, Sizə cansağlığı arzulayıram.

“Ataholdinq” ASC-nin qərb filialının əməkdaşı Hidayət MƏMMƏDOV dedi:

- Cənab Prezident, mən də bütün şəmkirlilər adından Sizi salamlayıram. Tamamilə yeniləşən Şəmkirə “Xoş gəlmisiniz!” deyirəm. Sizin rəhbərliyiniz altında son illərdə Şəmkir rayonu Azərbaycanın bütün bölgələri kimi çox böyük, sürətli inkişaf yolu keçib. Gördüyünüz bu ağacların arxası, böyük ərazilər bu yaxınlara qədər boz torpaqlar idi. Son illərdə yüksək inkişaf nəticəsində Ulu Öndərimizin adını daşıyan mərkəzə, Abidələr parkına, göz oxşayan parklara baxdıqca fəxr edirik. Dünən biz bu parkda gəzərkən bir daha fəxr etdik ki, belə bir möcüzəli yerdə yaşayırıq. Buna görə şəmkirlilər Sizə çox minnətdardır. Siz özünüz demişkən qarşıda çox böyük işlər vardır. Bu işlərin də Sizin rəhbərliyiniz altında davam etməsini sidq-ürəkdən arzu edirəm.

* * * *

Sonra Prezident İlham Əliyev “Şəmkir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsini əks etdirən stendlərə baxdı.

“Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynov məlumat verdi ki, Şəmkir şəhərinin su təchizatı sistemi 1960-cı illərdə yaradılmışdır. Şəhər içməli su ilə Cəyir çayı yatağında yaradılmış drenaj sistemi, subartezian quyuları və kəhrizlər vasitəsilə təmin olunsa da, bu, mövcud tələbatı ödəmirdi. Şəhərdə 2,2 min kubmetr tutuma malik 2 su anbarı mövcud olmuşdur. Magistral və paylayıcı su xətləri istismara yararsız vəziyyətə düşmüşdü. Şəmkir şəhərinin 37 min əhalisinin 12 mini mərkəzləşmiş qaydada 2-3 saatlıq cədvəl əsasında içməli su alırdı. Şəhərdə kanalizasiya sistemi mövcud olmamışdır. “Şəmkir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi” 2035-ci il perspektiv inkişaf nəzərə alınmaqla 47 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanmışdır. Layihəyə uyğun olaraq Cəyir çayının hövzəsində yeni drenaj sistemi yaradılmış, magistral, anbarlararası su xətləri çəkilmişdir. İçməli suyun şəhərə özüaxımlı rejimdə verilməsi üçün relyef baxımından yüksək nöqtələrdə ümumi həcmi 7 min kubmetr olan 4 su anbarı inşa edilmiş, eyni zamanda, mövcud iki anbar əsaslı təmir olunmuşdur. Layihə çərçivəsində yeni xlorlayıcı qurğu və laboratoriya binası tikilmişdir. Yeni layihəyə əsasən, şəhərə saniyədə 200 litr su veriləcəkdir ki, bu da isthelakçıların tələbatını tam ödəyəcəkdir. Layihə üzrə aparılan işlərin podratçısı “Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası” ASC-dir.

Dövlətimizin başçısı layihə ilə bağlı görülən işləri əks etdirən videoçarxa və Şəmkir rayonunun çirkab sutəmizləyici qurğusunun maketinə baxdı.

Qeyd edildi ki, Şəmkir şəhərində inşası nəzərdə tutulmuş 235 kilometr uzunluğundakı şəhərdaxili su şəbəkəsinin 100 kilometrlik hissəsinin tikintisi yekunlaşmış, 6900 ünvandan 2800-ü şəbəkəyə qoşulmuş, smart-kart tipli 2500 sayğac quraşdırılmışdır. Şəhərdaxili şəbəkənin hazır olan hissəsinə yeni mənbədən içməli suyun verilməsinə başlanılmışdır.

Şəmkir şəhərində inşası nəzərdə tutulan 203 kilometr kanalizasiya şəbəkəsinin 115 kilometrlik hissəsində işlər başa çatmışdır. Tullantı suları şəhərin kənarında inşa edilən təmizləyici qurğuya ötürüləcəkdir. İcrasına 2011-ci ilin oktyabrında başlanılan layihə 2014-cü ildə başa çatdırılacaqdır.

Layihələrlə tanışlıqdan sonra Prezident İlham Əliyev Şəmkir şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.

Sonra xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**
**2013, 10 sentyabr**

## «AZƏRBAYCAN YAŞIL DÜNYA NAMİNƏ» DEVİZİ ALTINDA KEÇİRİLƏN BEYNƏLXALQ EKOLOGİYA SƏRGİSİ İLƏ TANIŞLIQ

*(17 sentyabr 2010-cu il)*

Prezident İlham Əliyev sentyabrın 17-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində «Azərbaycan yaşıl dünya naminə» devizi altında keçirilən beynəlxalq ekologiya sərgisi ilə tanış olmuşdur.

Dövlətimizin başçısı ətraf mühitin mühafizəsini və sağlam ekoloji mühitin yaradılmasını prioritet məsələlərdən biri kimi qarşıya məqsəd qoymuşdur. Təsadüfi deyildir ki, prezident İlham Əliyev 2010-cu ili Azərbaycanda «Ekologiya ili» elan etmişdir. «Azərbaycan yaşıl dünya naminə» devizi altında keçirilən beynəlxalq ekologiya sərgisi də «Ekologiya ili» çərçivəsində reallaşan tədbirlərdən biridir.

Ticarət və Sənaye Palatasının təşkilatçılığı, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi dəstəyi ilə keçirilən sərginin məqsədi respublikamızda və xarici ölkələrdə ətraf mühitin sağlamlaşdırılması istiqamətində reallaşdırılan qabaqcıl təcrübənin geniş auditoriyaya təqdim olunması, təcrübə mübadiləsi aparılması və əməkdaşlıq əlaqələrinin qurulmasıdır.

Sərgidə ekoloji problemlərin həlli sahəsində fəaliyyət göstərən 30-dək yerli və xarici şirkət, eləcə də dövlət qurumları və qeyri-hökumət təşkilatları təmsil olunmuşdur. Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov prezident İlham Əliyevə sərgi barədə ətraflı məlumat verdi. Qeyd olundu ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ətraf mühitin sağlamlaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirir. Son 15 ildə Azərbaycanda meşələrin ərazisi xeyli artırılmışdır. Cari «Ekologiya ili»ndə Azərbaycanda 8 milyon 191 200 min ağac və kol bitkisi əkilmişdir. Bunun 1 milyon 540 mini Bakıətrafı ərazilərin payına düşür. Nazirliyin Kompleks Hidrometeoroloji və Ekoloji Tədqiqat Elm Mərkəzinin 3 min metrə qədər yüksəkliklərdə yerləşən 3 avtomatlaşdırılmış meteoroloji stansiyası fəaliyyət göstərir. Cənubi Qafqazda Vəhşi təbiətin bərpası və reabilitasiyası mərkəzi də ilk dəfə Azərbaycanda yaradılmışdır.

Bu ildən fəaliyyətə başlayan Alternativ və Bərpa olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin pavilyonu ilə tanışlıq zamanı bildirildi ki, agentlik günəş, külək, kiçik çaylar, bioqaz və sair mənbələrdən elektrik və istilik enerjisinin alınması üçün silsilə tədbirlər reallaşdırır. Tezliklə Sumqayıtda Günəş texnologiyalari zavodunun təməlinin qoyulması gözlənilir. Enerji səmərəliliyi məsələləri də agentliyin diqqət mərkəzindədir.

Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin ekoloji mühitin sağlamlaşdırılması üzrə çoxşaxəli fəaliyyətini əks etdirən stendlə tanış oldu. Qeyd edildi ki, dövlətimizin başçısının sərəncam və tapşırıqlarına əsasən müasir AVRO-2 ölçü məntəqəsi inşa olunmuşdur, neftlə çirklənmiş ərazilərin təmizlənməsi və alternativ enerji mənbələrindən istifadə tədbirləri genişləndirilir, platformalarda təmizləyici qurğular quraşdırılır və digər silsilə layihələr həyata keçirilir.

bp şirkəti də ətraf mühitin sağlamlaşdırılması ilə bağlı bir sıra yeni layihələr üzrə iş aparır. Azərbaycanın AİMROC şirkəti isə Daşkəsənin qızıl yataqlarında və Balakəndə Filizçay yatağında işlər görür. Aparılan araşdırmalar nəticəsində Balakəndəki yatağın dünyada ən zəngin mis və sink ehtiyatlarına malik olduğu aşkarlanmışdır.

Dövlətimizin başçısı respublikamızda ekologiya sahəsində istifadə olunan maşın və mexanizmlərə baxdı. Sərgi ilə yaxından tanış olan prezident İlham Əliyev təşkilatçılara və iştirakçılara uğurlar arzuladı.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**42-ci kitab: iyul 2010 – oktyabr 2010. - Bakı: Azərnəşr, 2017. – S. 190-191.**

## ORDUBADDA BİLƏV SU ELEKTRİK STANSİYASININ AÇILIŞI

*(5 oktyabr 2010-cu il)*

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində oktyabrın 5-də Ordubad rayonundakı Biləv Su Elektrik Stansiyasının açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı əvvəlcə tənzimləyici bəndə və su anbarına baxdı.

Məlumat verildi ki, stansiyanın inşasına 2009-cu ilin martında başlanılmışdır. İnşaat işlərinin yüksək keyfiyyətlə və qısa müddətdə yerinə yetirilməsi üçün maksimum səy göstərilmişdir.

Stansiya ilin bütün fəsillərində bol suyu olan Gilançaydan qidalanır. Su əvvəlcə tənzimləyici bəndə yığılır. Burada suyun toplanması üçün sahəsi 5,15 hektar olan süni göl yaradılmışdır. Göldəki bəndlərin eni 159 metrdir, hündürlüyü isə 7,3 metrlə 9,5 metr arasında dəyişir. Gölün su tutumu 250 min kubmetrdir. Buradan su açıq və qapalı kanallarla sutəmizləyici anbara ötürülür. Üçsıralı anbar 8200 kubmetr su tutur. Burada su bərk cisimlərdən təmizlənir və anbara ötürülür. Anbarın su tutumu 34 min kubmetrdir.

Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, bu anbardan su poladdan hazırlanan təzyiq borusu ilə stansiyaya verilir. Suyun təzyiqi 24 atmosferə bərabərdir. Burada hər birinin diametri 2,4 metr olan 2 sifon quraşdırılmışdır. Bu sifonlardakı suyun təzyiqi 3,2 və 6,4 atmosfer təşkil edir.

Sonra Prezident İlham Əliyev stansiya binasının olduğu əraziyə gəldi. Muxtar respublika ictimaiyyətinin nümayəndələri, energetiklər və inşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev stansiyanın maketinə və şəkillərinə baxdı. Diqqətə çatdırıldı ki, stansiya binası bütün zəruri avadanlıqla təchiz edilmişdir. Burada Avstriya şirkətinin hazırladığı iki turbin və iki generator quraşdırılmışdır. Stansiyanın nominal gücü 20 meqavat, maksimal gücü isə 22 meqavatdır. Stansiyada istehsal edilən enerji yarımstansiyaya ötürülür. Gərginliyi 110/35/10 kilovolt olan yarımstansiyada hər birinin gücü 25 meqavolt-amper olan iki transformator quraşdırılmışdır. Burada şəbəkəyə iki qoşulma xətti vardır. Onların hər birinin uzunluğu 8,5 kilometr, gərginliyi isə 110 kilovoltdur. Biləv Su Elektrik Stansiyasında nəzərdə tutulan orta illik enerji istehsalı 80 milyon kilovatsaatdır. Stansiyanın həyətində də geniş abadlıq işləri görülmüş, yaşıllıq zolağı salınmışdır. Ərazidə əsaslı bəndbərkitmə işləri də aparılmışdır. Stansiyanın tikinti işləri zamanı Biləv kəndinə gedən 20 kilometrlik yol da əsaslı şəkildə yenidən qurulmuşdur.

Dövlətimizin başçısı stansiyanı işə saldı.

* * * *

### Prezident İlham Əliyevin çıxışı

-Əziz dostar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün, doğrudan da, Naxçıvan Muxtar Respublikasında çox əlamətdar bir gündür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov qeyd etdi ki, biz bu gün Naxçıvanda bir neçə iqtisadi, sənaye, sosial yönümlü obyektin açılışını qeyd etmişik, hələ bir neçə müəssisənin açılışı gözlənilir. Bu, onu göstərir ki, Naxçıvan çox sürətlə və hərtərəfli inkişaf edir. Bir gündə Naxçıvanda 3 məktəb, xəstəxana, magistral avtomobil yolu, elektrik stansiyası, digər zavodlar, fabriklər, içməli su – demək olar ki, bütün sahələri əhatə edən müəssisələr açılır. Ancaq bu işlər bir

gündə həll olunan məsələlər deyildir. Bu məsələləri həll etmək üçün düşünülmüş siyasət və məqsədyönlü addımlar lazımdır. Bu addımlar atılır.

Bu gün Naxçıvanda və demək olar ki, bütün ölkəmizdə, bütün bölgələrdə aparılan siyasət bir məqsədi güdür ki, Azərbaycan daha da güclənsin, vətəndaşlarımız daha da yaxşı yaşasınlar. Bu siyasətin təməlini ulu öndər Heydər Əliyev qoymuşdur. Onun yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan 1990-cı illərin əvvəllərində yaşanan böhranlı anları geridə qoyub, öz inkişaf strategiyasını ortaya qoyub və bu strategiya bu gün də uğurla icra edilir. Heydər Əliyev siyasəti Azərbaycanın bütün bölgələrində özünü büruzə verir. Hər bir yerdə, hər bir şəhərdə, hər bir rayonda quruculuq, abadlıq işləri aparılır. Böyük investisiyalar qoyulur. İqtisadi və sosial məsələlər öz həllini tapır. Baxın, son bir neçə il ərzində Azərbaycanda yoxsulluğun səviyyəsi 49 faizdən 11 faizə düşmüşdür. Ölkədə son illərdə 800 mindən artıq yeni iş yerləri açılmışdır ki, onların mütləq əksəriyyəti daimi iş yerləridir. Kənd təsərrüfatının inkişafı, ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün praktiki tədbirlər görülüb. Demək olar ki, Azərbaycan indi öz daxili tələbatını, ərzağa olan tələbatının böyük hissəsini özü təmin edir. Biz çalışmalıyıq ki, görüləcək işlər nəticəsində özümüzü ərzaq məhsulları ilə yüz faiz təmin edək. Mən şübhə etmirəm ki, biz buna nail olacağıq.

Enerji təhlükəsizliyi məsələlərinin həlli işində ölkədə əsaslı tədbirlər görülüb. Bütün bunlar Heydər Əliyev neft strategiyasının icrası nəticəsində mümkün olmuşdur. Əgər 1994-cü ildə ulu öndərin qətiyyəti və müdrikliyi sayəsində Azərbaycanın yeni neft strategiyası başlanmasaydı, bu gün biz bu uğurlardan danışa bilməzdik. Məhz Azərbaycan iqtisadiyyatına xaricdən gətirilmiş milyardlarla dollarla ölçülən investisiyalar hesabına biz ölkəmizi hərtərəfli inkişaf etdirməyə nail ola bilmişik. Bu gün Azərbaycan enerji təhlükəsizliyi məsələlərində nəinki bölgədə, eyni zamanda, qitədə öz rolunu oynayır. Bu rol artır və getdikcə imkanlarımız daha da genişlənəcəkdir. Biz artıq ölkə daxilində enerji təhlükəsizliyi məsələlərini yüz faiz həll etmişik. Bu gün Azərbaycan təbii qazı, nefti, neft məhsullarını, elektrik enerjisini qonşu ölkələrə ixrac edir. Bu ixrac ildən-ilə daha da şaxələnir. İxracın coğrafiyası genişlənir və həcmi artır. Bu, çox vacib məsələdir ki, biz enerji təhlükəsizliyimizi təmin edəndən sonra başqa ölkələrin enerji təhlükəsizliyini təmin etmək üçün töhfəmizi veririk.

Mən çox şadam ki, Naxçıvanda nəzərdə tutduğumuz bütün məsələlər bu gün öz həllini tapır. Muxtar respublika uğurla inkişaf edir, burada quruculuq-abadlıq işləri çox sürətlə gedir, bütün sosial məsələlər həllini tapır, yeni müəssisələr, fabriklər açılır, yollar çəkilir.

Bu gün Biləv Su Elektrik Stansiyasının açılışı, sadəcə olaraq görülən işlərin yeni mərhələsidir. Bu stansiyanın çox böyük əhəmiyyəti vardır. Düzdür, Naxçıvanın enerji təhlükəsizliyi tam şəkildə təmin edilibdir. Vasif Talıbov qeyd etdi ki, bu gün Naxçıvanda enerji potensialının həcmi tələbatdan bir neçə dəfə artıqdır. Ancaq su elektrik stansiyalarının öz xüsusiyyətləri vardır. O, təbiətdən qaynaqlanan bir enerjidir, gücdür. Su mənbələrimizdən səmərəli istifadə etmək üçün Azərbaycanda çoxlu tədbirlər görülüb və bu tədbirlər ardıcıl şəkildə həllini tapır.

Bu gün Naxçıvanda elektrik enerjisi və qazla təminat ən yüksək səviyyədədir. Naxçıvanda qazlaşdırma siyasəti uğurla başa çatıbdır və hətta sovet dövründə qazlaşdırılmayan kəndlər, məntəqələr bu gün hamısı qazlaşdırılıbdır. Yəni, bu, böyük bir proqramın icrası nəticəsində mümkün ola bilmişdir. Naxçıvanda modul tipli elektrik stansiyasının işə düşməsi, uzun fasilədən sonra Naxçıvana təbii qazın verilməsi demək olar ki, muxtar respublikada ciddi bir dönüş yaratdı. Çünki iqtisadi potensial enerji mənbəyi olmadan inkişaf edə bilməz. Biz nə qədər vəsait qoysaq, nə qədər kreditlər ayrılsa, nə qədər müəssisələr yaradılsa, əgər enerji mənbələri yoxdursa, onların heç biri işləməyəcək və heç kim o vəsaiti qoymayacaqdır.

Naxçıvanın xüsusiyyəti ondan ibarətdir ki, coğrafi baxımdan Azərbaycanın əsas hissəsi ilə bağlantısı yoxdur. Vaxtilə Azərbaycanın qədim torpağı olan Zəngəzur diyarının

Ermənistana verilməsi demək olar ki, Naxçıvanı coğrafi baxımdan Azərbaycandan ayırıbdır. Naxçıvan uzun illərdir ki, blokada şəraitində yaşayır və bu blokadanı Ermənistan tətbiq edir. Ancaq buna baxmayaraq, Naxçıvanın bütün imkanları səfərbər olunub və əlavə tədbirlər görülür, proqramlar icra olunur. Bu gün Naxçıvan uğurla və sürətlə inkişaf edən diyardır, respublikadır. Bütün şəhərlər abadlaşır, gözəlləşir, yeni mehmanxanalar, sənaye müəssisələri yaradılır. Enerji təhlükəsizliyi əsas məsələdir və bu gün bu, Naxçıvanda öz həllini tapır. Əminəm ki, gələcəkdə bu sahədə əlavə tədbirlərin görülməsi nəticəsində Naxçıvandan qonşu ölkələrə daha da böyük həcmdə elektrik enerjisinin ixracı mümkün olacaqdır. Hər halda biz buna nail olmaq üçün bütün tədbirləri görürük.

Eyni zamanda, Azərbaycanın zəngin neft-qaz potensialı bizə imkan verir ki, özümüzü çox rahat hiss edək. Çünki enerji təhlükəsizliyi, enerjidən asılılıq çox ciddi məsələdir. Bəzi ölkələr xarici mənbələrdən asılı olduqlarına görə istər-istəməz xarici amili də nəzərə almalıdırlar. Azərbaycan o ölkələrdəndir ki, nəinki enerji potensialını işə salıb və enerji təhlükəsizliyini təmin edib, eyni zamanda, başqa ölkələrin enerji təhlükəsizliyinə də öz töhfəsini verir. Bu gün Azərbaycanda elektrik stansiyalarının tikintisi nəticəsində min meqavatdan artıq enerji gücü vardır ki, biz ondan səmərəli istifadə edərək başqa ölkələrə ixrac edəcəyik. Azərbaycanda tikilən yeni elektrik stansiyalar bu gücü iki dəfə artıracaqdır. Ancaq bununla bərabər, biz bu yaxınlarda qəbul edilmiş proqramlar əsasında bərpa olunan enerji növlərinə xüsusi diqqət veririk. Biz su, günəş, külək enerji mənbələrini yaratmalıyıq. Çünki bütün bu təbii şərait Azərbaycanda vardır və konkret proqram nəzərdə tutulub. Proqramın icrası nəticəsində Azərbaycanın bütün su mənbələrində, çaylarda kiçikhəcmli su elektrik stansiyalarının tikintisi nəzərdə tutulur. Təkcə bu il 3 rayonda kiçikhəcmli stansiyaların təməl daşı qoyulubdur. Ancaq onların arasında ən böyüyü, əlbəttə ki, Biləv Su Elektrik Stansiyasıdır.

Bu günə qədər görülmüş işlər və bu nəticələr onu göstərir ki, nəzərdə tutulmuş bütün proqramlar vaxtında icra olunur və şübhə etmirəm ki, bu gün planlaşdırdığımız bütün məsələlər gələcəkdə öz həllini tapacaqdır.

Naxçıvanda iqtisadi inkişaf sürətlə gedir. Keçən il ümumi daxili məhsul artmışdır, bu il də artır, templər yüksəkdir. Bütün bu gözəl nəticələri biz Naxçıvanın dəyişən, gözəlləşən simasında görürük. Naxçıvan qədim Azərbaycan diyarıdır, qədim tarixə, mədəniyyətə malik olan diyardır, eyni zamanda, müasir şəhərdir, müasir respublikadır. Mən əminəm ki, gələcəkdə Naxçıvan daha da gözəlləşəcək, inkişaf edəcək və bütün işlər burada həmişə olduğu kimi, yüksək səviyyədə təşkil olunacaqdır. Bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, sizə uğurlar və cansağlığı arzulayıram. Sağ olun.

* * * *

İctimaiyyətin nümayəndələri və energetiklərlə söhbətində Prezident İlham Əliyev bir daha Biləv Su Elektrik Stansiyasının açılışını əlamətdar hadisə adlandıraraq bildirdi ki, gələcəkdə çaylar üzərində bu tipli stansiyaların tikintisi davam etdiriləcəkdir. Bu gün nəinki Naxçıvanın enerji tələbatı tam şəkildə təmin olunur, hətta qonşu İran və Türkiyəyə də enerji nəqlinə imkanlar açılmışdır. Naxçıvan artıq elektrik enerjisi ixrac edən diyara çevrilmişdir.

Prezident İlham Əliyev enerji mərkəzinə çevrilən Naxçıvanın günəşli diyar olduğunu vurğulayaraq, gələcəkdə burada günəş enerjisi istehsalının mümkünlüyünü və bu istiqamətdə müəyyən tapşırıqların verildiyini də diqqətə çatdırdı. Prezident İlham Əliyev energetiklərə uğurlar arzuladı.

Sonra xatirə şəkli çəkdirildi.

**Xalq qəzeti.- 2010.- 7 oktyabr .- № 219.- S.1-2.**

## MİNGƏÇEVİR SU ELEKTRİK STANSİYASINDA APARILAN YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*(14 oktyabr 2010-cu il)*

Oktyabrın 14-də Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Mingəçevir su anbarının və Su Elektrik Stansiyasının yerləşdiyi əraziyə gəldilər.

Dövlətimizin başçısına Su Elektrik Stansiyasında aparılan yenidənqurma işləri barədə məlumat verildi. Bildirildi ki, stansiyadakı 6 maşın qurğusunun hər birinin gücü 70 meqavata çatdırılmaqla stansiyanın ümumi gücü 320 meqavatdan 420 meqavata qaldırılacaqdır. Bu artım su sərfi dəyişmədən mümkün olacaqdır. Avadanlıq Fransanın "Areva" şirkətindən alınır, tikinti-quraşdırma işlərini isə yerli "Azenko" şirkəti aparır. Layihə çərçivəsində stansiyanın yarımstansiyası tamamilə yenidən qurulacaq, idarəetmə məntəqəsinin yeri dəyişdiriləcək və tam avtomatlaşdırılacaqdır.

Prezident İlham Əliyev yenidənqurma işlərinin vaxtında və keyfiyyətlə görülməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

**AZƏRTAC**
**2010, 14 oktyabr**

## QOBUSTAN–CƏNGİÇAY DÖVLƏT TƏBİƏT YASAQLIĞININ ƏRAZİSİNƏ İLK CEYRAN SÜRÜSÜNÜN BURAXILMASI MƏRASİMİ

*(24 dekabr 2010-cu il)*

Dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Abşeron rayonunun Pirəkəşkül qəsəbəsinin yaxınlığında Qobustan–Cəngiçay Dövlət Təbiət Yasaqlığının ərazisinə ilk ceyran sürüsünün buraxılması prosesini izləmişlər.

Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov məlumat verdi ki, Heydər Əliyev Fondu ekologiyanın və təbii mühitin tarazlığının qorunması, ekoloji tarixin və ölkə ərazisindəki bioloji müxtəlifliyin mühafizəsində müstəsna əhəmiyyət daşıyan «Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası» layihəsinə dəstəyi davam etdirir. Abşeron rayonunun inzibati ərazisinə aid olan və Qobustan–Cəngiçay Dövlət Təbiət Yasaqlığındakı bu arealda ceyranların sayının artırılması məqsədilə 2010–2011-ci illəri əhatə edən «Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası» layihəsi icra olunur. Acınohur–Sarıca düzləri, Bozdağ silsiləsi, Mil düzü və Qobustan–Cəngiçay ərazilərini əhatə edən layihəyə əsasən, həmin ərazilərə daha çox ceyran köçürülməsi məqsədilə Şirvan Milli Parkından bu areallara ceyranlar gətirilir. Qobustan– Cəngiçay ərazisi ceyranların yaşaması üçün həm də zəngin bitki örtüyünə malikdir. Ərazidə tarixən böyük ceyran populyasiyası mövcud olmuşdur. Hazırda ceyranların burada məskunlaşması və yaşaması üçün bütün müvafiq tədbirlər həyata keçirilir.

Prezident İlham Əliyev ölkə ərazisində ceyranların yaşadıqları tarixi arealları əks etdirən stendlərə baxdı. Bildirildi ki, ümummilli lider Heydər Əliyevin 2003-cü il 5 iyul tarixli Sərəncamı ilə yaradılan Şirvan Milli Parkı ceyranların sayının davamlı artırılmasına şərait yaratmışdır. Şirvan Milli Parkında ekoturizm mərkəzi, ekoturizm şəhərciyi və muzey yaradılmış, ən müasir avadanlıqlarla təchiz olunmuşdur. Ceyranların bəslənmə və artırılma bazası sayılan Şirvan Milli Parkının yaradılması və həyata keçirilən mühafizə tədbirləri nəticəsində bu nadir heyvanların sayı sürətlə artırılaraq 9 minə çatmışdır. Bu isə ceyranların tarixi ərazilərdə reintroduksiyası üçün zəmin yaratmışdır. Bu səbəbdən də Ekologiya və Təbii Sərvətlər Nazirliyi Heydər Əliyev Fondunun dəstəyi ilə «Azərbaycan Respublikası ərazisində ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası» layihəsini həyata keçirir.

Dövlətimizin başçısı ceyranların keçmiş və indiki məskunlaşma areallları, miqrasiya dəhlizləri haqqında məlumatlarla tanış oldu. Bildirildi ki, ceyranların mühafizəsi, reintroduksiyası və tarixi areallarının yenidən bərpası layihəsinə əsasən Qobustan–Cəngiçay ərazisi ilə yanaşı, Şirvan Milli Parkında da müvafiq işlər görülür. 65 min hektardan artıq əraziyə malik parkda 9 min başa qədər ceyran saxlanılır. Bu da Avropa məkanında ən böyük ceyran populyasiyasıdır. Beyləqan rayonunda 18 min hektar ərazisi olan Ağgöl Milli Parkında da ceyranların reintroduksiyası uğurla davam etdirilir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva üzərində peyk vasitəsilə məlumat toplayan xüsusi siqnalötürücü xaltası olan ceyranı Qobustan–Cəngiçay ərazisinə buraxdılar. Dövlətimizin başçısı layihənin icrası zamanı istifadə edilən müxtəlif avadanlıq və digər vasitələrlə tanış oldu. Bildirildi ki, yol kənarlarında, areallların yaxınlığında qoyulan xüsusi informasiya lövhələrində ceyran ovunun qadağan edilməsi barədə məlumat verilir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**43-cü kitab: oktyabr 2010 – dekabr 2010. - Bakı: Azərnəşr, 2017. – S. 216-217.**

## OĞUZ–QƏBƏLƏ–BAKI SU KƏMƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*(28 dekabr 2010-cu il)*

Dekabrın 28-də Azərbaycanda ən böyük infrastruktur layihələrindən biri – Oğuz–Qəbələ–Bakı su kəmərinin istifadəyə verilməsi mərasimi keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Oğuz–Qəbələ–Bakı su kəmərinin Abşeron qurğular kompleksinə gələn dövlətimizin başçısını mərasim iştirakçıları hərarətlə qarşıladılar.

«Azərsu» Səhmdar Cəmiyyətinin sədri Nizaməddin Rzayev məlumat verdi ki, Oğuz və Qəbələ rayonlarından yüksək keyfiyyətli içməli suyun Bakıya gətirilməsi təşəbbüsünün müəllifi ümummilli lider Heydər Əliyevdir. Ulu öndərin layiqli davamçısı, dövlətimizin başçısı İlham Əliyev isə Azərbaycanın ən nəhəng infrastruktur layihələrindən olan bu ideyanın reallaşması istiqamətində mühüm addımlar atmışdır. 2007-ci ilin martında Oğuz rayonunun Sincan kəndində bu layihənin təməli qoyulmuş və tikinti işlərinə başlanılmışdır. Uzunluğu 262 kilometrdən çox olan kəməri su ilə təmin etmək üçün çoxlu artezian quyusu qazılmış, yarımstansiya quraşdırılmışdır. Oğuz rayonu ərazisində dəniz səviyyəsindən 417 metr yüksəklikdə baş suqəbuledici qurğular kompleksi tikilmiş, suyun tənzimlənməsi üçün kəmər üzərində çoxsaylı nizamlayıcı qurğular inşa olunmuşdur.

İdarəetmə məntəqəsində prezident İlham Əliyevə təqdim olunan marşrut maketi əsasında boruların diametri, kəmərin uzunluğu, su sərfi, çay, şose və dəmiryol keçidləri, axına nəzarət, təzyiqqırıcı və təzyiqnizamlayıcı kameralar barədə, su kəmərinin təhlükəsizliyini təmin edən SCADA sistemi barədə də məlumat verildi. Bildirildi ki, bu sistem kəmərdə baş verə biləcək bütün qəzalar və sızmalar haqqında məlumatı dərhal mərkəzi aparata ötürmək imkanına malikdir.

Prezident İlham Əliyev Oğuz–Qəbələ–Bakı su kəməri ilə içməli suyun paytaxta verilməsini bildirən qurğunu işə saldı. Dövlətimizin başçısı kompleksdə yaradılmış Heydər Əliyev Muzeyi ilə tanış oldu. Muzeydə ulu öndərin rəhbərliyi ilə ölkənin su təminatının yaxşılaşdırılması istiqamətində müxtəlif dövrlərdə həyata keçirilən tədbirləri əks etdirən fotolar və videomateriallar toplanmışdır. Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ötən əsrin 70-ci illərində Kür suyunun paytaxta verilməsi üçün görülən işləri əks etdirən sənədli videogörüntülərə baxdı.

Muzeyin digər guşəsində prezident İlham Əliyevin bu missiyanı uğurla davam etdirməsini əks etdirən fotoşəkillər vardır. Burada Oğuz–Qəbələ–Bakı su kəmərinin çəkilməsini əks etdirən fotolar da nümayiş olunur. Prezident İlham Əliyev kompleksin inzibati binasında yaradılmış şəraitlə tanış oldu. Dövlətimizin başçısı burada suyun fiziki və kimyəvi analizinin aparıldığı laboratoriyaya baxdı. Bildirildi ki, suyun tərkibinə daim nəzarət etmək üçün burada ən müasir avadanlıq və cihazlar quraşdırılmışdır.

Prezident İlham Əliyev Oğuz–Qəbələ–Bakı su kəməri ilə paytaxta gətirilən sudan içdi və kəmərdən suyun qəbuledici kameraya daxil olması prosesini izlədi. Bildirildi ki, kəmərdən qəbul edilən su burada öz axarı ilə şəhərdəki mövcud anbarlara ötürülür, oradan isə paytaxtın müxtəlif istiqamətlərinə paylanılır.

Oğuz–Qəbələ–Bakı su kəmərinin sonuncu nöqtəsi olan və dəniz səviyyəsindən 190 metr yüksəklikdə yaradılan Abşeron qurğular kompleksi paytaxtın 17-ci kilometrliyində yerləşir. Komplekslə tanışlıqdan sonra prezident İlham Əliyev mərasimdə çıxış etdi.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar, bu gün biz çox gözəl və əlamətdar hadisəni qeyd edirik. Oğuz–Qəbələ–Bakı su kəməri istismara verilir. Bu gözəl hadisə münasibətilə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu doğrudan da böyük və tarixi hadisədir. Bildiyiniz kimi, Oğuz–Qəbələ zonasında təmiz su mənbələrinin mövcudluğu haqqında hələ bir neçə onillik bundan əvvəl məsələ qaldırılmış və o bölgədən Bakıya suyun gətirilməsi üçün təkliflər irəli sürülmüşdü. Ancaq o illərdə bu layihəni reallaşdırmaq mümkün olmamışdı. Biz bu gün müstəqil Azərbaycanda şəhərimiz, ölkəmiz üçün çox böyük əhəmiyyət kəsb edən bu layihəni həyata keçirdik. Bu, böyük nailiyyətdir, böyük qələbədir. Bu onu göstərir ki, Azərbaycan dövləti, müstəqil Azərbaycan hər şeyə qadirdir. Biz ölkəmizi gücləndirmək, ölkəmizdə iqtisadi islahatların uğurla aparılması üçün bütün tədbirləri görürük, insanların sağlamlığı, rifah halının yaxşılaşdırılması üçün əlimizdən gələni edirik.

5 il əvvəl Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi ilə bağlı təşəbbüs irəli sürüldü. 2005-ci ildə mənim təşəbbüsümlə geniş müşavirə keçirildi. Müşavirədə layihənin müxtəlif parametrləri müzakirə edildi. O vaxt biz, əlbəttə, təsəvvür edə bilməzdik ki, bu nə dərəcədə böyük və mürəkkəb layihə olacaqdır. Ancaq iradəmiz və istəyimiz bizə bu layihənin həyata keçirilməsinə imkan yaratdı. 2007-ci ildə Oğuz–Qəbələ–Bakı su kəmərinin təməl daşı qoyuldu, ondan sonra tikintisi başladı və bu gün biz artıq bu kəmərin istifadəyə verilməsini bərabər qeyd edirik.

Bu kəmərin Bakı sakinləri üçün çox böyük əhəmiyyəti olacaqdır. Bildiyiniz kimi, Bakı şəhərində əhalinin 60 faizi içməli suyu fasilələrlə alır. Əlbəttə ki, müasir şəhər üçün bu, dözülməz bir vəziyyətdir. Bakıda su problemi əsrlər boyu mövcud idi. Bütün dövrlərdə Bakının içməli su ilə təmin edilməsi üçün müxtəlif tədbirlər görülürdü. Ancaq paytaxtımızın böyüməsi, şəhərdə əhalinin artması nəticəsində görülən tədbirlər lazımi səmərə vermirdi. Ona görə yeni mənbədən təmiz, keyfiyyətli suyun Bakıya gətirilməsi qarşımızda duran əsas məsələlərdən biri idi. Mən çox şadam ki, biz buna nail olduq. Mənə verilən məlumata görə, Oğuz–Qəbələ–Bakı su kəmərinin fəaliyyəti nəticəsində Bakı şəhərinin əhalisinin 75 faizi fasiləsiz təmiz, keyfiyyətli, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun su ilə təmin ediləcəkdir.

Biz bundan sonra da çalışmalıyıq ki, Bakı şəhərinin su probleminin əsaslı şəkildə həll edilməsinə nail olaq. Bu məqsədlə əlavə tədbirlər görüləcəkdir. Taxtakörpü su anbarının tikintisi, Samur–Abşeron su kanalının istifadəyə verilməsi nəticəsində Bakıda suyun həcmi daha da artacaqdır. Bu vaxta qədər bu layihə – Oğuz–Qəbələ–Bakı su kəməri layihəsi və nəzərdə tutulmuş digər layihələr çərçivəsində böyük işlər görülmüşdür. Bakıda su anbarları, paylayıcı xətlər tikilmişdir. Bu infrastrukturu tamamilə yeniləşdirməliyik və elə etməliyik ki, Bakıda su təchizatı ilə bağlı vəziyyət dünyanın aparıcı şəhərlərində olan vəziyyətdən geri qalmasın, ondan daha da yaxşı olsun.

Buna nail olmaq üçün bizdə bütün imkanlar vardır. İlk növbədə güclü iradə, düşünülmüş siyasət vardır. Biz bu kəmərin tikintisinə böyük maliyyə vəsaiti ayırdıq və bilirik ki, bu vəsait geri qayıtmayacaqdır. Bu layihə kommersiya xarakteri daşımır, sırf sosialyönümlü layihədir və böyük vəsaitin ayrılması onu göstərir ki, Azərbaycan dövləti öz əhalisinin yaxşı, keyfiyyətli içməli su ilə təmin edilməsi üçün hər şeyə qadirdir.

Əgər iqtisadi imkanlarımız olmasaydı, bu layihəni həyata keçirə bilməzdik. İnanmıram ki, hansısa beynəlxalq maliyyə qurumu bu layihəyə kredit ayıra bilərdi. Adətən, daha çox kommersiya xarakterli layihələrə vəsait ayrılır. Digər tərəfdən, əgər Azərbaycanın bu

gün güclü maliyyə resursları olmasaydı, ümumiyyətlə, xaricdən kredit almaq məsələsi gündəlikdə qalmazdı. Bizim uğurlu iqtisadi siyasətimiz, Azərbaycanın ulu öndəri Heydər Əliyevin təşəbbüsü ilə başlanmış və bu gün uğurla icra edilən neft strategiyası bütün bu reallıqları mümkün etmişdir. Bu gün xarici maliyyə bazarlarından Azərbaycana vəsait cəlb etmək üçün bütün imkanlarımız vardır. Ancaq bu layihəni özümüz öz hesabımıza, kredit almadan həyata keçirdik.

Bu layihə Azərbaycan Dövlət Neft Fondunun vəsaiti hesabına həyata keçirilmişdir. Bilirsiniz ki, Dövlət Neft Fondunun həyata keçirdiyi layihələr ölkənin inkişafı üçün prioritet məna daşıyır. Hər bir layihənin Dövlət Neft Fondunun investisiya portfelinə daxil edilməsi geniş müzakirə olunur və lazımi qərarlar qəbul edilir. Neft fondunun xətti ilə icra edilmiş layihələr bizim üçün prioritet layihələrdir və Oğuz–Qəbələ–Bakı su kəmərinin bu layihələr sırasına salınması bizim niyyətimizi göstərir. Bu layihənin Dövlət Neft Fondunun vəsaiti ilə həyata keçirilməsi digər tərəfdən, rəmzi xarakter daşıyır. Neft hasilatından, Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismarından əldə edilmiş gəlirlər Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisinə yönəldilmişdir. Bu doğrudan da çox rəmzi xarakter daşıyan bir məsələdir, bir daha Azərbaycanın uğurlu siyasətini göstərir. Bizim təbii sərvətlərimiz, güclü iqtisadiyyatımız vardır. Ancaq ölkəmizi gücləndirən, gələcəyə aparan və ölkəmizdə bütün prosesləri müsbət istiqamətdə inkişaf etdirən Azərbaycan vətəndaşlarıdır.

Biz bu uğurlara vətəndaşlarımızın zəhməti hesabına nail ola bilmişik. Biz bundan sonra da çalışacağıq ki, ölkə qarşısında duran bütün vəzifələri uğurla icra edək. Oğuz–Qəbələ–Bakı su kəməri bunu çox açıq-aydın göstərir. İndiyədək bu ölçüdə, bu həcmdə su kəmərləri tikməmişdik. Ancaq bu gün biz bunu uğurla həyata keçirə bilmişik. Əsas məsələ ondan ibarətdir ki, bütün başqa sahələrdə də nəzərdə tutulan buna bənzər tədbirlər görülsün. Bizim konkret proqramlarımız – regional inkişaf proqramı, ölkəmizin gələcək inkişaf proqramı vardır.

Ölkəmiz gələcəyə uğurla gedir. Bu gün həyata keçirilən infrastruktur layihələri – elektrik xətləri, qazlaşdırma, yolların çəkilməsi, sosial infrastrukturun yaradılması, su kəmərlərinin tikintisi ölkəmizin bundan sonra uzun müddət ərzində, onilliklər ərzində uğurlu inkişafına xidmət göstərəcəkdir. İndi isə Oğuz– Qəbələ–Bakı su kəməri içməli su layihələri arasında ən böyük layihədir. Azərbaycanın bütün bölgələrində içməli su və kanalizasiya problemlərinin həlli üçün praktiki işlər, yaxud da ki, bu işlərin görülməsi üçün hazırlıq tədbirləri aparılır. Bütün rayonlarda bu ağır və çətin, bizim üçün həmişə, əfsuslar ki, ənənəvi olan bu problem öz həllini tapacaqdır. Bununla bərabər, hazırda çaylar boyu yerləşən kəndlərdə sutəmizləyici qurğuların quraşdırılması nəticəsində 300 mindən artıq Azərbaycan vətəndaşı Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin edilir. Bu proses davam etdirilir. Onlar vaxtilə keyfiyyətsiz çay sularından istifadə edirdilər.

Yəni bu gün qarşımızda duran əsas məsələlərdən biri içməli su, kanalizasiya layihələrinin həyata keçirilməsidir. Biz çalışırıq ki, bu məsələ də Azərbaycanda dünya səviyyəsində həll olunsun. Ümid edirəm ki, yaxın zamanlarda, bir neçə ildən sonra bu problem ölkə miqyasında bütövlükdə həllini tapacaqdır. Bir daha demək istəyirəm ki, bunu etmək üçün bizdə bütün imkanlar, güclü siyasi iradə, düşünülmüş siyasət, konkret proqramlar, artıq peşəkar kadrlar, güclü yerli şirkətlər vardır. Xarici şirkətlərlə əməkdaşlığımız uğurludur və bu layihənin icrasında xarici şirkətlər iştirak etmişlər. Bizdə artıq güclü maliyyə bazası vardır, daxili imkanlar çox böyükdür. İstənilən layihəni öz gücümüzlə həll edə bilərik və edirik.

Bu gün tarixdə qalacaqdır. Bu kəmər insanlara rahatlıq, sağlamlıq gətirəcək, su sağlamlıq deməkdir. Təmiz içməli su insanın sağlamlığına verilən ən böyük töhfədir. Təmiz su, təmiz hava – biz bütün bunlara nail olmalıyıq. Bu gün Bakıda və başqa bölgələrdə görülən işlər – ekoloji vəziyyətin yaxşılaşdırılmasına yönəldilmiş işlər bu məqsədi daşıyır.

Bu gün Bakıda böyük Məişət Tullantıları Emalı zavodu tikilir, artıq Balaxanı zibilxanası təmizlənibdir və oradan tüstülər daha qalxmır, şəhəri bürümür. Bu, təmiz hava deməkdir. Biz «Avro-2» standartlarına keçmişik. İndi «Avro-3» standartlarına, ondan sonra «Avro-4» və s. daha da yüksək ekoloji standartlara keçməliyik. Bu nəyə gətirib çıxaracaqdır?! Ona gətirib çıxaracaqdır ki, hava daha da təmiz olacaqdır.

Azərbaycanda böyük tikinti-quruculuq işləri aparılır. Əlbəttə ki, istər-istəməz bu, havanı çirkləndirir. İnsanların yaşayış səviyyəsi yüksəlir,, hər il Bakıya on minlərlə avtomobil gətirilir. Bu da, əlbəttə, havanın çirklənməsinə ən böyük zərbə vuran amildir. Biz havanı təmizləməliyik, içməli su da keyfiyyətli olmalıdır ki, Azərbaycan vətəndaşları sağlam olsunlar. İdmanla məşğul olmaq – bu da sağlamlıqdır. Yeni xəstəxanaların, diaqnostika komplekslərinin tikintisi – bu da sağlamlığı qoruyan amillərdir. Təmiz içməli su, təmiz hava, təmiz ekologiya – bunlar sağlamlıqdır. Elə etməliyik ki, dünyada mövcud olan ən qabaqcıl meyarlar Azərbaycanda bütün sahələrdə, o cümlədən insanın sağlamlığı üçün əsas olan içməli su məsələlərində tətbiq edilsin.

Mən sizi, Bakı sakinlərini, bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Azərbaycan vətəndaşlarını əmin etmək istəyirəm ki, bundan sonra da biz öz fəaliyyətimizdə ölkəmizin inkişafı, Azərbaycanda sosial problemlərin həlli üçün əlimizdən gələni edəcəyik və ölkəmizi irəliyə uğurla aparacağıq. Əziz dostlar, fürsətdən istifadə edərək qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il bayramı münasibətilə sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**43-cü kitab: oktyabr 2010 – dekabr 2010. - Bakı: Azərnəşr, 2017. – S. 325-331.**

## «ASTARA-1» KİÇİK SU ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ

*(15 aprel 2011-ci il)*

Aprelin 15-də Azərbaycan prezidenti İlham Əliyev Astara rayonunda İstisu çayı üzərində inşa olunacaq «Astara-1» kiçik su elektrik stansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.

«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına ölkəmizdə energetikanın inkişafı və kiçik su elektrik stansiyalarının tikintisi barədə məlumat verdi. Bildirildi ki, Azərbaycanın elektroenergetika sistemi son bir neçə ildə həyata keçirilən kompleks tədbirlər nəticəsində özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Hazırda respublikamızda ümumi generasiya gücləri 6500 meqavatı üstələyir və artıq ölkəmiz bir neçə ildir ki, elektrik enerjisi ixrac edir.

Vurğulandı ki, prezident İlham Əliyevin 2009-cu il 16 noyabr tarixli müvafiq Sərəncamı ilə külək və su elektrik stansiyalarının inşasının da respublikamızda geniş tətbiqi məqsədilə potensial imkanların öyrənilməsi və xüsusi proqramların hazırlanması barədə «Azərenerji» ASC-yə tapşırıq verilmişdir. Prezident İlham Əliyev 2010-cu ili respublikamızda alternativ enerji mənbələrinin istifadəsi və ekologiyanın yaxşılaşdırılması istiqamətində kəskin dönüş ili elan etdikdən sonra ölkəmizdə bu istiqamətdə tədbirlər daha da genişləndirilmişdir.

Dövlətimizin başçısına sxemlər əsasında Astara rayonunun Züngüləş kəndi yaxınlığında İstisu çayı üzərində inşa ediləcək kiçik su elektrik stansiyası barədə ətraflı məlumat verildi. Bildirildi ki, mütəxəssislərin ilkin araşdırmalarına görə, respublikamızın müxtəlif bölgələrində dağ çayları və suvarma kanalları üzərində yüzlərlə kiçik su elektrik stansiyası tikmək mümkündür. Kiçik su elektrik stansiyalarının inşası elektrik enerjisi istehsalında yanacağa qənaət etməklə yanaşı, ətraf mühitin qorunması baxımından da mühüm rol oynayır.

Prezident İlham Əliyevə məlumat verildi ki, respublikamızın alternativ və bərpa olunan enerji mənbələrinin inkişaf perspektivi mütəxəssislərin hərtərəfli müzakirəsi əsasında hazırlanan xüsusi proqram üzrə aparılacaqdır.

Dövlətimizin başçısı su elektrik stansiyasının təməlini qoydu, gilizi bünövrəyə buraxdı və beton qarışığı tökən qurğunu işə saldı.

Dövlətimizin başçısı energetiklərə və inşaatçılara uğurlar arzuladı, tövsiyə və tapşırıqlarını verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**45-ci kitab: mart 2011 – may 2011. - Bakı: Azərnəşr, 2017. – S. 142-143.**

## VƏLVƏLƏÇAY–TAXTAKÖRPÜ KANALI İLƏ TANIŞLIQ
*(15 avqust 2011-ci il)*

Avqustun 15-də prezident İlham Əliyev Şabran rayonunda 10,7 kilometrlik birinci mərhələsi istismara verilən Vəlvələçay–Taxtakörpü kanalı ilə tanış olmuşdur.

«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə və tikinti işlərini həyata keçirən «Azərkörpü» Açıq Səhmdar Cəmiyyətinin rəhbəri Əfəndi İsmiyev dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdilər.

Qeyd edildi ki, 14 il ərzində 4 mərhələdə həyata keçiriləcək Samur–Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində hazırda beynəlxalq səviyyəli Taxtakörpü Su Anbarı, Vəlvələçay–Taxtakörpü kanalı və Taxtakörpü– Ceyranbatan kanalının tikintisi davam edir. Ən son elmi-texniki yeniliklərə əsaslanan bu cür hidrotexniki qurğular yalnız inkişaf etmiş ölkələrdə inşa edilir. Kanal öz başlanğıcını Samur– Abşeron kanalının Vəlvələçayın sonrakı hissəsində tikilmiş baş sugötürücü qurğudan götürməklə Şabran çayından ikixətli dükerlə keçərək sona çatır.

Dövlətimizin başçısına kanalın Dövlət Neft Fondunun vəsaiti hesabına tikilən 20,75 kilometrlik ikinci hissəsi barədə də məlumat verildi. Bu obyektdə tikinti işləri 2012-ci ildə yekunlaşdırılmalıdır. Həmin layihənin həyata keçirilməsi nəticəsində ümumilikdə 19 min hektardan çox sahədə əkin sahəsinin suvarma suyu ilə təchizatı yaxşılaşacaq, Şabran rayonunda 8866 hektar yeni suvarılan sahələr istifadəyə veriləcəkdir.

Prezident İlham Əliyev melioratorları və inşaatçıları Vəlvələçay–Taxtakörpü kanalının birinci mərhələsinin istifadəyə verilməsi münasibətilə təbrik etdi.

**İlham Əliyev:** Yaxşı iş görmüsünüz. Sizi təbrik edirəm. Çox nəhəng bir layihədir. Mən çox şadam ki, bu böyük layihəni Azərbaycan şirkəti icra edir. Əvvəlki dövrdə biz daha çox xarici şirkətlərə müraciət edirdik. Amma indi özümüzdə yaxşı şirkətlər yaradılıb. Müasir səviyyədə istənilən layihəni icra edə bilərlər. Taxtakörpü Su Anbarı və Samur–Abşeron kanalı layihəsi ölkəmizdə, demək olar ki, həm əhəmiyyətinə, həm də buraya qoyulan maliyyə resurslarına görə ən böyük infrastruktur layihələrindən biridir, bəlkə də birincisidir. Çox şadam ki, bu layihə icra edilir. Biz hələ gedib anbara da baxacağıq. Oranın da təməli 4 il əvvəl qoyulubdur. Budur Azərbaycanın reallıqları. Su inkişaf gətirəcək, həyat verəcəkdir. Fermerlər ondan faydalanacaqlar. Təkcə bu rayonda 5 min hektar, Qubada da min hektar əlavə torpaqlar suvarılacaqdır. Bütövlükdə isə 150 min hektar torpaqlara su verilməsi daha da yaxşılaşacaqdır. Hazırda suvarılmayan 9 min hektar yeni torpaga su, həyat verilir. Ulu öndərin Azərbaycanın inkişafı ilə bağlı olan bütün ideyaları, arzuları yüksək səviyyədə reallaşır.

Sizə minnətdaram ki, bu işləri yaxşı səviyyədə görürsünüz. Belə işlər çox olacaqdır. Azərbaycanda görüləsi işlər çoxdur. Amma bundan sonra bu böyüklükdə kanalın tikilməsinə ehtiyac olmayacaqdır. Ancaq ölkəmiz inkişaf edir, layihələr çox olacaqdır. Əsas odur ki, bunu etmək üçün həm siyasi iradə, həm maliyyə imkanlarımız və artıq peşəkar icraçılar vardır. Sizi təbrik edirəm. Sizə uğurlar arzulayıram.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**47-ci kitab: iyul 2011 – sentyabr 2011. - Bakı: Azərnəşr, 2017. – S. 152-153.**

## TAXTAKÖRPÜ SU ANBARININ SU-ELEKTRİK STANSIYASI İLƏ BİRLİKDƏ İNŞA EDİLDİYİİ ƏRAZİ İLƏ TANIŞLIQ

*(15 avqust 2011-ci il)*

Avqustun 15-də Vəlvələçay–Taxtakörpü kanalının istismara verilən birinci mərhələsi ilə tanışlıqdan sonra prezident İlham Əliyev Taxtakörpü Su Anbarının su-elektrik stansiyası ilə birlikdə inşa edildiyi ərazidə olmuşdur.

Bildirildi ki, dövlətimizin başçısının 2007-ci ildə təməlqoyma mərasimində iştirak etdiyi bu hidrotexniki qurğu Azərbaycanda reallaşdırılan layihələrin müasirliyinin və mükəmməlliyinin təsdiqinə sübutdur. Bəndin uzunluğu 1180, hündürlüyü 142,5 metrdir. Sahəsi 8,7 km2 çatan gölün ümumi su tutumu 268,4 milyon kubmetr, faydalı həcmi isə 218,9 milyon kubmetrdir.

Qeyd olundu ki, ümumilikdə Samur–Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin həyata keçirilməsi Bakı, Sumqayıt şəhərlərinin və Abşeron yarımadasının yaşayış məntəqələrinin içməli suya olan tələbatını yaxşılaşdırmaqla, saniyədə 18 m 3 suyun verilməsinə imkan yaradacaq, eləcə də ölkəmizin şimal bölgəsində ekoloji tarazlığın yaranmasında mühüm rol oynayacaqdır.

Bəndin tunel hissəsi ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, bənddə qapısız sutullayıcı və suqəbuledici qurğuları, enerji tuneli, su-elektrik stansiyasının tikintisi və burada ümumi gücü 25 meqavat təşkil edəcək 3 turbinin quraşdırılması nəzərdə tutulmuşdur. Tuneldə giriş və çıxış başlıqlarının tikintisi, enerji tunelində qazma işləri başa çatdırılmış, betonlama, qəza sutullayıcısında və su-elektrik stansiyasının binasında isə inşaat işləri davam edir.

Sonra dövlətimizin başçısı Taxtakörpü–Ceyranbatan kanalının tikintisində işlərin gedişi ilə tanış oldu. Məlumat verildi ki, bu kanalın tikintisində məqsəd mövcud nasos stansiyalarını ləğv etməklə, saniyədə 40 kubmetr suyu öz axını ilə Ceyranbatan Su Anbarına çatdırmaqdır. Beton üzlüklü hidrotexniki qurğunun ümumi uzunluğu 110 kilometr 330 metr olacaqdır. Kanalın dibdən eni 2 metr, dərinliyi isə 4 metrdir. Bildirildi ki, ötən müddətdə 87 kilometrlik açıq kanalın 37 kilometrlik hissəsində beton üzlük qoyulmuş, ümumi uzunluğu 9,2 kilometrə çatan 10 dükerdən 9-nun tikintisi başa çatdırılmış, bir akvedukun inşası tamamlanmışdır və qazma işləri başa çatdırılan tuneldə betonlama aparılır. İndiyədək kanalın 12,1 kilometrlik qapalı hissəsinin 9,6 kilometri tikilmişdir. Hazırda kanalın üzərindəki digər hidrotexniki qurğularda tikinti işləri davam edir. Bu obyektin inşasının da 2013-cü ilin birinci yarısında başa çatdırılması nəzərdə tutulmuşdur.

«Samur–Abşeron suvarma sisteminin yenidən qurulması» layihəsi çərçivəsində həyata keçirilmiş kompleks işlərlə tanış olan prezident İlham Əliyev tapşırıqlarını verdi, melioratorlara və inşaatçılara uğurlar arzuladı.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**47-ci kitab: iyul 2011 – sentyabr 2011. - Bakı: Azərnəşr, 2017. – S. 153-155.**

## QALA QƏSƏBƏSİNDƏKİ ARXEOLOJİ ETNOQRAFİK MUZEY KOMPLEKSİNİN ƏRAZİSİNDƏ APARILMIŞ TİKİNTİQURUCULUQ İŞLƏRİ İLƏ TANIŞLIQ VƏ ƏNTİQ ƏŞYALAR MUZEYİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*(7 sentyabr 2011-ci il)*

Sentyabrın 7-də prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Xəzər rayonundakı Qala ArxeolojiEtnoqrafik Muzey Kompleksinin ərazisində aparılmış tikintiquruculuq işləri ilə tanış olmuş, Əntiq Əşyalar Muzeyinin açılışında iştirak etmişlər.

Dövlətimizin başçısına və xanımı Mehriban Əliyevaya məlumat verildi ki, Heydər Əliyev Fondunun dəstəyi ilə 2008-ci ildə Abşeronun ən qədim insan məskənlərindən olan Qala qəsəbəsində Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində Arxeoloji-Etnoqrafik Muzey Kompleksinin yaradılması tarixi keçmişimizi qoruyub saxlamağa, ölkəmizi turizm mərkəzlərindən birinə çevirməyə xidmət edir. Azərbaycan tarixinin, mədəniyyətinin, xalqımızın adət-ənənələrinin yaşadılmasında, gələcək nəsillərə ötürülməsində mühüm rolu olan qoruğun ərazisində son vaxtlarda aparılmış tikinti-quruculuq işləri bu məkanın əhəmiyyətini daha da artırmışdır.

Qeyd olundu ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə «Təmiz Şəhər» ASC tərəfindən pilot ərazi kimi, Qala qəsəbəsində «Təmiz Qala» layihəsinin icrasına başlanılıb. Layihənin məqsədi qəsəbə ərazisində tullantıların kompleks idarə olunmasını – yığılması, daşınması və təkrar emalı proseslərini müasir standartlara uyğun təşkil etməkdir. Əraziyə su xətti çəkilmiş, 15 bulaq istifadəyə verilmişdir.

Prezident İlham Əliyev və Mehriban xanım Əliyeva əvvəlcə Qala İnformasiya Mərkəzi ilə tanış oldular. Məlumat verildi ki, Mərkəz vasitəsilə turistlər, qonaqlar qoruq ərazisindəki muzeylər barədə ətraflı məlumat əldə edə, elektroavtobuslar və velosipedlər icarəyə götürə bilərlər. Qoruğun ətrafı abadlaşdırılmış, ərazidə 170 min ağac və bəzək kolu əkilmişdir.

Sonra dövlətimizin başçısı və Azərbaycanın birinci xanımı elektroavtobusla Qala parkının ərazisini gəzdilər, görülmüş işlərlə tanış oldular, parkın əvvəlki görünüşünü əks etdirən stendə baxdılar.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Qala parkında ağac əkdilər.

Bildirildi ki, buradakı göl və ətrafındakı 24,2 hektar ərazi tullantılardan təmizlənərək abadlaşdırılmışdır. Ərazidə torpaq üç metr dərinliyində qazılaraq mazutdan təmizlənmiş, yeni torpaq örtüyü ilə əvəzlənmişdir ki, nəticədə ərazinin ekoloji vəziyyətində mühüm dəyişikliyə nail olunmuşdur. Ərazinin işıqlandırılmasında günəş batareyalarından geniş istifadə edilmişdir. Parkda yaşıllaşdırma işləri aparılmış, 80 mindən çox ağac və bəzək bitkiləri əkilmiş, yaşıllıq zolağı suvarma sistemi ilə təchiz olunmuşdur. Parkın ərazisində uşaqların maraqlı istirahəti üçün əyləncə meydançası istifadəyə verilmişdir.

Sonra dövlətimizin başçısı və Heydər Əliyev Fondunun prezidenti XII–XIV əsrə aid Qum hamamı ilə tanış oldular. Bu, xalqımızın məişət mədəniyyətinin qədim və yüksək olduğunun göstəricisidir.

Etno-Ekoloji Mərkəzlə tanışlıq zamanı bildirildi ki, əsasən uşaqlar və gənclər üçün nəzərdə tutulmuş Mərkəzdə hər cür şərait yaradılmışdır. Qeyd olundu ki, Heydər Əliyev Fondunun dəstəyi ilə ötən il keçirilmiş Qala festivalına Bakının müxtəlif orta və internat məktəblərindən, uşaq evlərindən 2500 uşaq qatılmışdı. Festivalda toxuculuq, dulusçuluq, dəmirçilik ənənələrini yaşadan sənətkarların əl işləri nümayiş etdirilmişdi. Festival çərçivəsində uşaqlar üçün ustad dərsləri təşkil olunmuş, gənc nəslin nümayəndələrinə qədim məişət və et- 196 noqrafik ənənələrimizlə yaxından tanış olmaq imkanı yaradılmışdı. Festivalın çox maraqla qarşılanması, layihəyə göstərilən diqqət Qalada Etno-Ekoloji Mərkəzin yaradılması ideyasına təkan vermişdir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva qoruq ərazisində X–XIV əsrlərə aid Qala Abidə Kompleksi ilə də tanış oldular. Bildirildi ki, elmi, tarixi, bədii əhəmiyyət daşıyan bütün tarixi və mədəniyyət abidələrinin qorunması, eləcə də Abşeron yarımadasında aşkar edilən digər arxeoloji tapıntılar hesabına qoruğun daha da zənginləşdirilməsi məqsədilə Qala qəsəbəsində son illərdə genişmiqyaslı layihə həyata keçirilmişdir. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun «Abşeron» arxeoloji ekspedisiyası 2010–2011-ci illərdə burada qazıntı işləri aparmışdır.

Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə qoruq ərazisində Qala Əntiq Əşyalar Muzeyi yaradılmışdır. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva muzeyin rəmzi açılışını bildirən lenti kəsdilər. Bildirildi ki, muzeyin təməli ötən ilin iyununda Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə qoyulmuşdur. Fondun təşəbbüsü və dəstəyi ilə inşa olunan muzey Şahid Həbibullayevin şəxsi kolleksiyası əsasında yaradılmışdır. Uzun illər ərzində yığılan zəngin kolleksiya hazırda 3 minədək maddi mədəniyyət nümunəsini əhatə edir. Dövlətimizin başçısı və Heydər Əliyev Fondunun prezidenti burada nümayiş etdirilən mis məişət əşyaları ilə tanış oldular. Bildirildi ki, muzeyin ekspozisiyasını tutumu yarım litrdən 90 litrə qədər olan 156 samovar zənginləşdirir. Əksəriyyəti Rusiyanın Tula, Moskva, Sankt-Peterburq, Ural və digər şəhər və bölgələrindən gətirilən, XVIII–XIX əsrlərə aid samovarların bir qismi Polşa, İran, Avstriya, Amerika Birləşmiş Ştatları və başqa ölkələrdə istehsal olunmuşdur.

Məlumat verildi ki, burada Azərbaycan samovarları da nümayiş etdirilir. Yaşı 3 min 700 il olan ən qədim Azərbaycan samovarı Şəkidə tapılmışdır. Bu, 2000 il yaşı olan Misir samovarından daha qədimdir. Ekspozisiyada qədim kişi və qadın kəmərləri, sinəbənd və bilərziklər, silahlar, o cümlədən təbərzinlər və xəncərlər yer almışdır. Muzeyin diqqəti cəlb edən eksponatlarından olan fayton Lüdviq Nobelin maşınqayırma zavodunda yığılmış, Şəki şəhərində qorunub saxlanmışdır. Burada həmçinin Şəki və Şirvan xanlıqları dövrünə aid pullar nümayiş etdirilir.

Binanın birinci mərtəbəsində konfrans zalı, inzibati otaqlar, suvenirlər bölməsi və təmir-bərpa emalatxanası fəaliyyət göstərir. Aşkar olunan qədim əşyalar məhz bu emalatxanada bərpa edilir.

Prezident İlham Əliyev muzeyin Xatirə kitabına ürək sözlərini yazdı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Xatirə kitabını imzaladı. Sonra dövlətimizin başçısı və Azərbaycanın birinci xanımı orijinal üslubda inşa edilmiş karvansara-restoran ilə tanış oldular. Bildirildi ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə inşa edilmiş karvansararestoranda turistlər Azərbaycan mətbəxinin ləziz nemətləri ilə tanış olacaqlar. Çoxsaylı turist axını nəzərə alınaraq inşa edilmiş restoranın birinci mərtəbəsi kafe, ikinci mərtəbəsi isə restoran kimi fəaliyyət göstərəcəkdir.

Məlumat verildi ki, qoruq ərazisində fiziki imkanları məhdud insanların hərəkəti üçün də bütün tədbirlər görülüb. Qoruqda mühafizə kameraları quraşdırılıb. Buradakı quyu və ovdanlar bərpa olunub, 35 min kvadratmetr sahədə avtomobil dayanacağı, elektromobillər üçün qaraj tikilib. Qəsəbədaxili əsas yollara 50 min kvadratmetr asfalt örtüyü salınıb, işıqlandırma dirəkləri quraşdırılıb, qaz və su təchizatını yaxşılaşdırmaq məqsədilə borular çəkilib, kompleksin ətrafındakı meydan yenidən qurulub.

Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, tövsiyə və tapşırıqlarını verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**47-ci kitab: iyul 2011 – sentyabr 2011. - Bakı: Azərnəşr, 2017. – S. 194-197.**

## CEYRANBATAN ULTRASÜZGƏCLİ SUTƏMİZLƏYİCİ QURĞUNUN TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK

*(8 sentyabr 2011-ci il)*

Sentyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abşeron rayonunda «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin (ASC) Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğusunun təməlqoyma mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısı əvvəlcə ərazi ilə yaxından tanış oldu. Məlumat verildi ki, keçən əsrin 50-ci illərində Abşeronda içməli və texniki suya tələbatın artması ilə əlaqədar Samur–Dəvəçi kanalının Abşerona qədər uzadılması, Ceyranbatan anbarında şirin su ehtiyatının yaradılması və anbarın sahilində sutəmizləyici qurğular kompleksinin inşasına qərar verilmişdir. 1957-ci ildə Ceyranbatan su anbarının şirin su ilə doldurulmasına başlanılmışdır. Anbarın doldurulması ilə yanaşı, hövzənin sahilində sutəmizləyici qurğular kompleksi də tikilmişdir. 1961-ci ildə məhsuldarlığı saniyədə 2,64 kubmetr olan sutəmizləyici qurğular kompleksinin birinci qurğusu istismara verilmişdir. Eyni keyfiyyətə malik ikinci qurğu 1966-cı ildə işə salınmışdır. Ceyranbatan sutəmizləyici qurğular kompleksinin üçüncü növbəsi isə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 1978-ci ildə tikilərək istifadəyə verilmişdir.

«Azərsu» ASC-nin kollektivinin nümayəndələri və inşaatçılar prezident İlham Əliyevi hərarətlə qarşıladılar.

Dövlətimizin başçısına yeni tikiləcək qurğunun texniki göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, hazırda dünya təcrübəsində azbulanıqlı suların təmizlənməsi üçün iqtisadi cəhətdən səmərəli və avtomatik idarə olunan yeni ultrasüzgəcli qurğulardan istifadə olunmağa başlanılmışdır. Ənənəvi qum süzgəclərindən fərqli olaraq, bu tip ultrasüzgəclər suyun tərkibindəki 0,01 mikron ölçüdən böyük hissəciklərlə yanaşı, suda olan bütün zərərli mikrobları tutaraq saxlayır. Bununla da suyun təbii duz tərkibi saxlanılmaqla, daha yaxşı təmizlənməsi, xoşagəlməz iy və dadların aradan qaldırılması təmin edilir. Ultrasüzgəcdən keçən su içməyə tam yararlı olur və emal zamanı onun xlordan istifadə etməklə zərərsizləşdirilməsinə ehtiyac qalmır.

Prezident İlham Əliyev Bakı şəhəri və ətraf qəsəbələrin su təchizatının perspektiv planı ilə də tanış oldu. Qeyd edildi ki, «2011–2013-cü illərdə Bakı şəhərinin və qəsəbələrinin sosialiqtisadi inkişafına dair Dövlət Proqramı»na əsasən yeni qurğunun inşası ilə yanaşı, burada təmizlənəcək suyu istehlakçılara çatdırmaq üçün yeni magistral kəmərlər, paylayıcı şəbəkə və anbarların tikilməsi nəzərdə tutulur. Dövlət Proqramına uyğun olaraq, Masazır, Binəqədi, Balaxanı, Ramana və Dübəndi qəsəbələrində yeni su anbarları kompleksinin inşası planlaşdırılır. Bu anbarlardan istifadə etməklə Bakıətrafı qəsəbə və kəndlərin su təchizatını əsasən özüaxımlı rejimdə təmin etmək mümkündür. Hazırda su təchizatı şəbəkəsinə qoşulmayan Türkan, Zirə, Qala, Dübəndi, Gürgan və Pirallahı qəsəbələrini su ilə təmin etmək üçün Ramana anbarı kompleksindən uzunluğu 65 kilometr olan yeni kəmərin çəkilişi nəzərdə tutulur.

Sonra dövlətimizin başçısı metal gilizi bünövrəyə buraxdı və beton qarışığı tökən qurğunu işə saldı.

**İlham Əliyev:** Əziz dostlar! Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl və əlamətdar bir gündür. Düz 50 il bundan əvvəl – 1961-ci il sentyabrın 8-də burada birinci sutəmizləyici qurğu istismara verilmişdir. Bu gün, bu gözəl gündə biz yeni, ən müasir standartlara cavab verən qurğunun tikintisinin başlanmasını qeyd edirik. Bu özlüyündə çox əlamətdar hadisədir və onu göstərir ki, müasir dövrdə müstəqil Azərbaycanda hər bir insan üçün vacib olan su təchizatı məsələləri uğurla icra edilir. 50 il əvvəl başlanan bu

proses və ondan sonrakı dövrdə tikilmiş yeni qurğular, əlbəttə ki, o dövrün tələblərinə cavab verirdi. XX əsrin 90-cı illərinin sonunda mövcud olan bu qurğularda təmir işləri aparılmışdır. Ancaq biz yenə də çalışırıq və çalışmalıyıq ki, Azərbaycana dünyanın ən qabaqcıl texnologiyalarını gətirək, bütün sahələrdə tətbiq edək. Bir daha demək istəyirəm ki, insan sağlamlığı üçün əsas olan su təchizatı məsələlərində biz bu yüksək səviyyəni təmin etməliyik.

Bu layihə böyük vəsait tələb edəcəkdir. Təqribən 100 milyon manata qədər vəsait xərclənməlidir. Ancaq Azərbaycan dövləti bu xərcləri edir və edəcəkdir. Bu, insanların sağlamlığına qoyulan investisiyalardır. Azərbaycanda insan sağlamlığı üçün müxtəlif tədbirlər görülür. Əlbəttə ki, birinci şərt təmiz içməli suyun mövcudluğudur. Biz bu məsələlərlə məşğuluq. Bu gün təməl daşını qoyduğumuz müasir qurğu da bu məqsədi nəzərdə tutur. Ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində çox vacib addımlar atılır. Keçən il Azərbaycanda «Ekologiya ili» elan edilmişdi. Mən tam əminəm ki, ekoloji tədbirlərin gücləndirilməsinin insanların sağlamlığına çox müsbət təsiri olacaqdır. Təmiz su, təmiz hava, keyfiyyətli qida məhsulları, ekoloji vəziyyət, tibb xidməti, idman – bax, bu amillər insanların sağlamlığını şərtləndirən əsas amillərdir.

Sadaladığım bütün məsələlərlə əlaqədar Azərbaycanda çox düşünülmüş proqram və konsepsiya vardır. Azərbaycanda olimpiya idman kompleksləri, idman meydançaları tikilir, idmanla məşğul olmaq üçün şərait yaradılır. Bütün bölgələrdə müasir müalicə-diaqnostika mərkəzləri tikilir, rayon xəstəxanaları təmir edilir, müasir avadanlıqlarla təchiz olunur. Ekoloji tədbirlər görülür. Təkcə son il yarım ərzində ölkəmizdə 10 milyona qədər ağac əkilmişdir. Kür–Araz çayları boyu yerləşən kəndlərdə modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır.

Ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılması üçün də çox vacib işlər görülür. Bakıda – Balaxanıda məişət tullantılarının emalı zavodu tikilir. Hamımız yaxşı xatırlayırıq ki, Balaxanı zibilxanasının əvvəlki vəziyyəti necə idi. Oradan qalxan tüstü şəhəri bürüyürdü. İndi orada təmiz bir meydan yaradılıbdır. Ağaclar əkilir, yaşıllıqlar salınır və dünyanın ən yüksək texnologiyalarına malik olan müasir məişət tullantılarının emalı zavodu tikilir.

Su təchizatı ilə bağlı digər vacib layihələr icra edilmişdir və icra edilməkdədir. Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi, hesab edirəm ki, tarixi hadisədir. Çünki bilirsiniz ki, uzun illər ərzində bu layihə ilə bağlı müxtəlif fikirlər səslənirdi, təkliflər irəli sürülürdü. Oğuz–Qəbələ–Bakı su kəmərinin istismara verilməsi və tədricən işə başlaması nəticəsində Bakı şəhərinin bir neçə rayonunda su təminatı daha da yaxşılaşdırılmışdır. Qarşıya qoyulmuş əsas vəzifə ondan ibarətdir ki, hər bir məntəqədə, hər bir qəsəbədə, Bakı şəhərinin hər bir rayonunda 24 saat fasiləsiz suyun təminatı təşkil edilsin. Bu gün «Azərsu» şirkəti nəinki Bakıda, respublikamızın bütün bölgələrində su layihələrini icra edir. Konkret proqram tərtib edilmişdir. Bu il büdcəyə əlavələr edilmiş və əlavə vəsait nəzərdə tutulmuşdur ki, biz vaxtı itirməyək. Biz elə etməliyik ki, qısa müddət ərzində ölkəmiz üçün ənənəvi olan və həmişə bizi incidən su qıtlığı problemi öz həllini tapsın.

Mən əminəm ki, «Azərsu» şirkətinin yeni tərkibi və işə yeni yanaşması nəticəsində bütün bu məsələlər öz həllini tapacaqdır. Mən indi görürəm ki, şirkət inkişaf edir, şirkətdə müasir metodologiya, müasir yanaşma tətbiq edilir və belə də olmalıdır. Azərbaycanın bütün şirkətləri, xüsusilə dövlət şirkətləri ən yüksək menecment keyfiyyətlərinə malik olmalıdır. Müasir yanaşma, işin düzgün qurulması, düzgün təhlil, proqramların düzgün tərtib edilməsi və icra mexanizmləri dünya səviyyəsində olmalıdır. Bizə indi yaraşmaz ki, bu qədər inkişaf edən ölkəmizdə hansısa dövlət qurumu primitiv üsulla idarə olunsun. Müasirlik, qabaqcıl texnologiyaların tətbiqi, məsuliyyət və vicdan – bax, hər bir dövlət qurumuna tövsiyəm bundan ibarətdir. «Azərsu» şirkətinin rəhbərliyinin gücləndirilməsi nəticəsində əminəm ki, bu şirkətdə də işlər dünya səviyyəsində aparılacaqdır. Qısa müddət ərzində görülən işlər düzgün istiqamətdə aparılır.

Oğuz–Qəbələ–Bakı su kəməri böyük və çox mürəkkəb bir layihə idi. Təbii ki, layihənin icrası zamanı müəyyən qüsurlar, çatışmazlıqlar olmuşdur. Bunun səbəbidir ki, kəmərin açılışından sonra biz bir qədər gözləməli olduq ki, vəziyyəti daha da normallaşdıraq və tikinti zamanı edilən səhvləri düzəldək. Bununla bərabər, Oğuz–Qəbələ–Bakı su kəməri layihəsi tarixi hadisədir. Əminəm ki, bu kəmərin tikintisi və fəaliyyətə başlaması, Azərbaycan vətəndaşlarına yüksək səviyyədə xidmət göstərilməsi həqiqətən də tarixi məsələdir. Çünki bu, daxili mənbədir. Oradan gələn su Azərbaycan ərazisində formalaşır. Siz – bu işlərlə məşğul olanlar yaxşı bilirsiniz ki, bizim əsas su mənbələrimiz, Bakını qidalandıran su xətləri Azərbaycanın hüdudlarından kənarda formalaşan mənbələr hesabına mümkün olur. Oğuz–Qəbələ–Bakı o layihədir ki, Azərbaycan ərazisində formalaşan təmiz içməli suyu Bakıya gətirir. Bu çox böyük layihədir. Çünki bu işlər biriki şəhərdə deyil, bütün rayon mərkəzlərində görülür və görülməlidir. Ona görə «Azərsu» şirkətinin işçilərindən çox şey asılıdır. Əsas məsələlər 2013-cü ilin sonuna qədər həllini tapmalıdır. Qarşıya bu hədəfləri qoyanda həm də realist olmalıyıq, çalışmalıyıq ki, bu məsələlər maksimum qısa müddət ərzində həllini tapsın. Su həyat deməkdir. Təmiz su isə sağlam həyat deməkdir. Biz istəyirik ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, gənc nəsil sağlam olsun. Bu gün güclənən Azərbaycanda görülən bütün işlər, bir daha demək istəyirəm ki, dünyanın ən yüksək standartlarına cavab verməlidir.

Mən əminəm ki, «Azərsu» şirkətinin əməkdaşları onların üzərinə düşən bu vacib vəzifələri yaxşı başa düşürlər. Nəinki bu qurğuların tikintisi, su, kanalizasiya xətlərinin çəkilişi, bu təsərrüfatın istismarı məsələləri də çox vacibdir. Xətlər, gözəl qurğular tikilə bilər və tikiləcəkdir. Ancaq ondan sonra gündəlik həyatda insanları, Bakı sakinlərini, respublika sakinlərini davamlı içməli su ilə təmin etmək sizin üçün ən başlıca vəzifə olmalıdır. Əminəm ki, bu məsələlərə diqqətlə yanaşacaqsınız, verdiyim bütün göstərişləri şərəflə yerinə yetirəcəksiniz. Bu gün gözəl və tarixi bir gündür. Bir daha demək istəyirəm ki, 50 il bundan əvvəl Bakının içməli su ilə təminatında tarixi hadisə baş vermişdir. Birinci sutəmizləyici qurğu tikilmişdir.

Bu gün də tarixi gündür. Çünki 18 aydan sonra Bakı sakinləri Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin ediləcəklər. Bütün bu işlərdə sizə uğurlar arzulayıram. Əminəm ki, il yarımdan sonra biz burada müasir, gözəl, yeni qurğunun açılışında bərabər iştirak edəcəyik. Sağ olun.

**Yazgül Rüstəmova** (Ceyranbatan Su Kəmərləri İdarəsinin əməkdaşı): Möhtərəm cənab Prezident! Ceyranbatan Su Kəmərləri İdarəsinin kollektivi adından Sizi salamlayıram, «Xoş gəlmisiniz!» – deyirəm. Ceyranbatan Su Kəmərləri İdarəsinin 50 illik yubileyi ərəfəsində sərəncamınızla bir qrup əməkdaşımız, o cümlədən mən «Tərəqqi» medalı ilə təltif olunmuşuq. 36 ildir ki, bu müəssisədə çalışıram. Bu mükafata, əməyimizə verdiyiniz qiymətə, bizə göstərdiyiniz qayğıya görə Sizə dərin təşəkkürümüzü bildiririk.

Cənab Prezident, yeni qurğunun təməlini qoymaqla idarəmizin tarixində yeni səhifə açmış oldunuz. Söz veririk ki, Sizin bu diqqət və qayğınızı əməli işimizlə doğruldacağıq. Bunun üçün əlimizdən gələni əsirgəməyəcək, var qüvvəmizlə çalışacağıq. Bir daha kollektivimiz adından Sizə dərin təşəkkürümüzü bildirirəm

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**47-ci kitab: iyul 2011 – sentyabr 2011. - Bakı: Azərnəşr, 2017. – S. 207-212.**

## QOBUSTAN TİNGLİK MƏRKƏZİ İLƏ TANIŞLIQ
*(13 sentyabr 2011-ci il)*

Sentyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qobustan rayonuna səfəri çərçivəsində “Kafur-pas” MMC-nin tinglik mərkəzi ilə tanış olmuşdur.

Dövlətimizin başçısına məlumat verildi ki, adətən Azərbaycanın müxtəlif ərazilərində əkilən ağac və bəzək kolları xarici ölkələrdən idxal olunur. Qobustanda yaradılan tinglik mərkəzi isə bu məsələnin daha sərfəli yolla həllinə şərait yaradır. Ağac, kol bitkilərinin reabilitasiyasının təşkili və dekorativ bitkilərin becərilməsi üçün seçilən bu ərazi bütün lazımi şəraitlə təmin edilmişdir. Tinglik mərkəzinə üç kilometr məsafədən su xətti çəkilmişdir. Suvarma sistemi avtomatlaşdırılmışdır. Mərkəzdə su deposu yaradılmışdır. Açıq su deposunun üzərində dördmərtəbəli hotel tikilir. Ərazidə inzibati bina ilə yanaşı, istirahət guşələri, üç meydança, müxtəlif attraksion qurğuları yaradılmışdır. Buradakı iki süni göldə balıq saxlanılır. Zövqlə əkilmiş gözoxşayan ağac və gül kolları burada istirahət edənlərdə xoş təəssürat yaradır. Hazırda mərkəzin ərazisində 70 adda 20 mindən çox ağac və bəzək kolu əkilmişdir.

Dövlətimizin başçısı elektromobillə mərkəzin ərazisini gəzdi.

Qeyd olundu ki, gələcəkdə burada botanika, zoologiya və idman dərnəklərinin təşkili də nəzərdə tutulmuşdur. 53 nəfərin çalışdığı tinglik mərkəzində Qırğızıstandan gətirilən dəvə yunundan qırğız yurtları da qurulmuşdur. Mərkəzə gələn şəxslər burada da istirahət edə bilərlər. Mərkəzə gələnlər müxtəlif növ ağaclar sifariş verməklə yanaşı, burada ailəvi istirahət edə biləcəklər.

Sonra mərkəzin bitki sərgisi ilə tanış olan dövlət başçısı görülmüş işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.

**AZƏRTAC**
**2011, 13 sentyabr**

## UCARDA SU-KANALİZASİYA SİSTEMLƏRİ KOMPLEKSİNİN TƏMƏLİ QOYULMUŞDUR

*(30 oktyabr 2011-ci il)*

Oktyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ucar şəhərinin sukanalizasiya sistemləri kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir. İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyevə məlumat verildi ki, Ucar şəhərində mərkəzləşdirilmiş içməli su sistemi 1970-ci illərdə tikilmiş, Göyçay rayonunun Potu kəndi ərazisində qazılmış subartezian quyulardan və suvarma kanallarından mənbə kimi istifadə olunmuşdur. Yeni layihəyə əsasən, Ağsu rayonu ərazisində yerləşən Külüllü su mənbəyi seçilmişdir. Külüllüdə drenaj tipli suqəbuledici qurğunun tikintisi, buradan Ucar şəhərinədək 400 millimetr diametrli 60 kilometr uzunluğunda özüaxımlı magistral su kəmərinin çəkilməsi planlaşdırılır. Layihədə, eyni zamanda, magistral kəmər boyunca yerləşən 15 kəndin də su təchizatı təmin olunacaqdır.

Bildirildi ki, şəhərdə ümumi uzunluğu 108 kilometr olan yeni supaylayıcı şəbəkənin, iki min kubmetr həcmində yeni su anbarının tikilməsi nəzərdə tutulur. Layihəyə əsasən, Ucar şəhərində 90 kilometr uzunluğunda kanalizasiya xətləri çəkiləcək, 15 kanalizasiya nasos stansiyası tikiləcəkdir. Çirkab sularının təmizlənməsi üçün məhsuldarlığı sutkada dörd min kubmetr olan müasir qurğu inşa ediləcəkdir. Layihənin yerinə yetirilməsi ilə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla Ucar şəhərində 20 min, 15 kənddə isə 32 min nəfərin su təchizatı və kanalizasiya xətlərindən istifadəsi əsaslı şəkildə yaxşılaşdırılacaqdır. Dövlət büdcəsi vəsaiti hesabına həyata keçiriləcək "Ucar şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi"nin 20 aya başa çatdırılması nəzərdə tutulmuşdur.

Sonra Ucar şəhərinin yeni su-kanalizasiya sistemləri kompleksinin təməli qoyuldu. Dövlətimizin başçısı metal gilizi bünövrəyə buraxdı, beton qarışığı tökən qurğunun düyməsini basdı.

**AZƏRTAC**
**2011, 30 oktyabr**

## «BAKI AĞ ŞƏHƏR»İN TƏMƏL DAŞININ QOYULMASI MƏRASİMİNDƏ İŞTİRAK

*(24 dekabr 2011-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də yeni salınacaq «Bakı Ağ şəhər»in təməl daşının qoyulması mərasimində iştirak etmişlər.

Dövlətimizin başçısı İlham Əliyev ailə üzvləri ilə birlikdə yeni salınacaq «Ağ şəhər»in təməl daşının qoyulması mərasimində iştirak etmək üçün Bakının Xətai rayonuna gəldilər. «Bakı Ağ şəhər» layihəsi üzrə görülən və görüləcək işlər barədə prezident İlham Əliyevə məlumat verildi. Bildirildi ki, Bakının ekoloji cəhətdən ən yararsız, neft və neft tullantıları ilə çirklənmiş ərazilərində yeni inkişaf layihəsinə uyğun olaraq ən müasir və böyük yaşayış mərkəzi yaradılacaqdır. Həmçinin inzibati binalar, müxtəlif ticarət mərkəzləri tikiləcək, istirahət parkları və yeni yaşayış mərkəzini dənizlə birləşdirəcək bulvar Salınacaqdır.

«Bakı Ağ şəhər»də sosial infrastruktur ən müasir tələblər səviyyəsində qurulacaqdır.

Layihənin planı ilə tanışlıqdan sonra dövlətimizin başçısı təmizlənmiş ərazilərə baxdı, burada görülmüş işlərlə yerində tanış oldu. Qeyd edildi ki, Bakı buxtasının mərkəzində yerləşən və 221 hektar sahəni əhatə edən bu ərazi vaxtilə «Qara şəhər» kimi tanınırdı və ekoloji baxımdan tamamilə yararsız vəziyyətdə idi. «Bakı Ağ şəhər» layihəsi Azərbaycan prezidenti İlham Əliyevin xüsusi fərmanı ilə təsdiq olunmuşdur. Layihənin hazırlanmasında yerli mütəxəssislərlə yanaşı, xarici şirkətlərin əməkdaşları da iştirak etmişlər.

Ərazi ilə yaxından tanış olan dövlətimizin başçısı «Ağ şəhər»in rəmzi təməl daşının üzərindən örtüyü götürdü. Sonra Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ərazidə ağac əkdilər. Dövlətimizin başçısı mərasim iştirakçılarını salamladı.

**İlham Əliyev:** Sizi təbrik edirəm. Bakı şəhərində çox gözəl layihə başlayır. Şəhər içində şəhər yaradacağıq. «Ağ şəhər» layihəsi bundan sonra icra edilməyə başlayır. Bu, ölkəmiz, şəhərimiz üçün çox əlamətdar hadisədir. Bu şəhərin adı da gözəldir, memarlığı, quruluşu da.

Bu şəhərin Bakıda yaradılması rəmzi məna daşıyır. Çünki «Qara şəhər» ərazisində «Ağ şəhər» yaradılır. Bakının, Azərbaycanın zəngin neft yataqlarından müxtəlif insanlar istifadə etmişlər. Öz maddi imkanlarını yaxşılaşdırmışlar. Ancaq şəhərimizin ekoloji vəziyyətinə çox böyük zərbələr vurmuşdular. Ekoloji normalara riayət etmədən neft əməliyyatlarının aparılması nəticəsində bura «Qara şəhər»ə çevrildi. İndi bu ərazini təmizləmək üçün böyük səylər göstərilir. Bir neçə metr dərinlikdən neft tullantıları çıxarıldı, ekoloji tədbirlər görüldü. Ümumiyyətlə, bu ərazinin təmizlənməsi Bakının ekologiyası üçün əvəzsiz məsələdir. Bu şəhər tikiləcək. Şəhər içində «Ağ şəhər»də on minlərlə insan yaşayacaq. Gözəl ofislər, yaşayış binaları tikiləcək, ictimai yerlər, dənizkənarı yeni bulvar salınacaqdır. Planlarımız çoxdur. İndi Bakının gözəlləşməsi ilə bağlı çox böyük tədbirlər görülür. Bakı bulvarı hazırda 4 kilometrdir. Bir neçə aydan sonra biz yeni bulvarın açılışını qeyd edəcəyik. Yeni bulvar Dövlət Bayrağı Meydanı ilə birlikdə 10 kilometrdən daha da böyük məsafəni əhatə edəcəkdir. Həm şəhər sakinləri üçün, gəzinti üçün, istirahət etmək üçün yeni imkanlar yaradılır, həm də şəhərin bu tərəfini abadlaşdıracağıq. Burada da yeni bulvarlar salınacaqdır. Beləliklə, sahilboyu bəlkə də 10 kilometrlərlə ölçülən yeni ictimai yerlər yaradılacaqdır.

Əminəm ki, bu şəhərin tikintisində həm yerli, həm xarici investorlar iştirak edəcəklər. Bu layihə çox böyük peşəkarlıqla işlənilib. Bu layihə artıq mötəbər beynəlxalq tədbirlərdə,

konfranslarda təqdim edilib və ən yüksək mükafatlar alıb. Dünya miqyasında ən gözəl memarlıq layihələrinin birinə çevrilibdir. Bu layihənin hazırlanmasında yerli şirkətlər, yerli memarlar, mütəxəssislər iştirak etmişlər. Eyni zamanda, dünyanın ən qabaqcıl memarlıq, dizayn və inşaat şirkətləri də bu layihənin hazırlanmasında öz səylərini göstərmişlər. Beləliklə, gün gəldi ki, biz «Ağ şəhər»in təməl daşını qoyduq. Bir müddət bundan əvvəl bütün hazırlıq işləri təşkil edilmişdir. Mənim tərəfimdən müvafiq sərəncam verilmişdir. Mən ümid edirəm ki, yaxın zamanlarda bu ərazilərdə gözəl binalar tikiləcək, ucaldılacaqdır. Hər bir bina memarlıq abidəsi olmalıdır, zövqlə, səliqə ilə, peşəkarlıqla tikilməlidir ki, bizim gözəl şəhərimiz daha da gözəlləşsin. Bu layihənin hazırlanmasında və icrasında iştirak etmiş bütün insanları salamlayıram, onlara minnətdarlığımı bildirmək istəyirəm.

Bu layihənin bu il icrası ona görə əlamətdardır ki, dünyada indi iqtisadi-maliyyə böhranı hökm sürür. Bəzi mütəxəssislər deyirlər ki, böhranın yeni dalğası gözlənilir, bəlkə də başlamışdır. Azərbaycanda isə biz böyük milyardlarla dollar həcmində ölçülən layihənin təməlini qoyuruq. Biz bilirik ki, investorlar gələcəklər. Çünki şəhəri tikən özəl sektor olacaqdır. Dövlət burada yalnız infrastruktur layihələrini icra edir. Metro stansiyası da tikiləcəkdir. Bütün xətlər, kommunal xidmətlər dövlət tərəfindən icra ediləcəkdir.

Sizə bu işlərdə uğurlar arzulayıram, xüsusilə inşaatçılara. Bütün işlər yüksək səviyyədə olmalıdır ki, şəhərimiz daha da gözəlləşsin. Qarşıdan gələn Dünya Azərbaycanlıların Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə sizi və bütün Azərbaycan xalqını təbrik edirəm. Sağ olun.

**Ruslan Sadıqov** («Ağ şəhər» layihəsinin baş direktoru): Cənab Prezident, biz də Sizin və ailənizin Yeni ilini təbrik edirik. Belə bir təməlqoyma mərasiminin Sizin məhz ad gününüzdə olması hamımız üçün böyük şərəfdir. Təbrik edirik! Sizə ailə səadəti arzulayırıq və təməlini qoyduğunuz bütün işlərdə müvəffəqiyyət arzulayırıq.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**49-cu kitab: noyabr 2011 – fevral 2012. - Bakı: Azərnəşr, 2017. – S. 106-108.**

## TƏHLÜKƏSIZLİK KONFRANSININ «ENERJİ, EHTİYATLAR VƏ ƏTRAF MÜHİT: YENİ TƏHLÜKƏSİZLİK PARAMETRLƏRİ» MÖVZUSU MÜZAKİRƏLƏRİNDƏ İŞTİRAK

*(4 fevral 2012-ci il)*

*Almaniyada işgüzar səfərdə olan Azərbaycan Prezidenti İlham Əliyev fevralın 4-də 48-ci Münhen Təhlükəsizlik Konfransının əsas tədbirlərindən olan «Enerji, ehtiyatlar və ətraf mühit: yeni təhlükəsizlik parametrləri» mövzusunda müzakirələrdə iştirak etmişdir.*

*Tədbirin aparıcısı İsveç Krallığının Xarici İşlər naziri Karl Bildt Azərbaycan Prezidenti İlham Əliyevə və digər qonaqlara bu konfransda iştirak etdiklərinə görə minnətdarlığını bildirdi.*

*Aparıcı Karl Bildt prezident İlham Əliyevi müzakirələrin əsas məruzəçisi kimi təqdim etdi.*

**K a r l B i l d t** *(İsveç Krallığının Xarici İşlər naziri):* Çıxış etmək üçün möhtərəm iştirakçılarımız vardır. Burada Azərbaycan prezidenti İlham Əliyev iştirak edir. O, 2003-cü ildən Azərbaycanın Prezidentidir. Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Günter Ottinger, «Alyans»ın sədri Maykl Dikman, «Qreenpeace» Beynəlxalq təşkilatının icraçı direktoru Kumi Naidu, Ukrayna prezidenti Viktor Yanukoviç də tədbirdə iştirak edirlər. Qısa təqdimatdan sonra sözü Azərbaycan prezidenti İlham Əliyevə veririk.

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Çox sağ olun, təşəkkür edirəm. Hər şeydən əvvəl Münhen Təhlükəsizlik Konfransının təşkilatçılarına dəvətə görə minnətdarlıq etmək istərdim. Yenidən buraya gəldiyimə və bu cür əhəmiyyətli məsələ ilə bağlı çıxış etdiyimə görə çox şadam. Bilirsiniz ki, Azərbaycan neft istehsal edən ən qədim ölkələrdəndir. Azərbaycanda sənaye üsulu ilə ilk neft XIX əsrin ortalarında istehsal edilib. O vaxtdan bəri çox şeylər dəyişib. Müstəqillik bərpa ediləndən sonra xalq öz sərvətlərinin sahibi oldu, 20 il ərzində enerji ehtiyatlarının səmərəli istifadəsi sayəsində iqtisadiyyatı şaxələndirilmiş ölkəyə çevrildi. Keçən əsrin 90-cı illərinin ortalarında ölkəmizin təşəbbüsü ilə həyata keçirilən layihələr Qafqaz və Xəzər regionlarının enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişdi və Avropanın da enerji xəritəsini dəyişməkdədir.

Xəzər dənizindən Aralıq dənizinə neft nəql edən böyük boru kəməri kimi inşa edilən enerji dəhlizi Azərbaycan və tərəfdaşları üçün faydalı olmaqla yanaşı, gələcək layihələrimiz üçün də çox səmərəlidir. Azərbaycan həm də nəhəng qaz ehtiyatlarına malik ölkə kimi tanınır. 1 trilyon kubmetrdən çox qaz ehtiyatı olan «Şahdəniz» dünyada ən böyük qaz yataqlarından biridir. 2010-cu ildə və ötən il kəşf edilən yeni yataqlar qaz ehtiyatlarının 2,5 trilyon kubmetrdən çox olduğunu sübut edib. Bu ehtiyatlar həm bizim, həm də tərəfdaşlarımız və istehlakçılarımız üçün yetərincə olacaqdır.

Hazırda daha geniş enerji dəhlizinin yaradılması üzərində işləyirik – təkcə neft sahəsini deyil, qaz sahəsini də əhatə edəcək. İndi regionumuzun enerji təhlükəsizliyinə əhəmiyyətli dərəcədə təsir göstərəcək mühüm qərarların qəbul edildiyi enerji layihələrimizin çox vacib və çətin mərhələsindəyik. Ancaq bazarlar olmadan layihələrimizi tam şəkildə həyata keçirə bilməyəcəyik. Azərbaycanın açıq dənizə birbaşa çıxışı yoxdur. Şaxələndirilmiş boru kəməri şəbəkəsi bizə neft və qazımızı müxtəlif istiqamətlərə nəql etməyə imkan verir. Buna görə də şaxələndirmə istehsalçı ölkə kimi, bizim üçün çox böyük əhəmiyyətə malikdir. Bu, istehlakçılar üçün də əhəmiyyət kəsb edir. Biz istehlakçılar arasında enerji təhlükəsizliyi məsələsində düzgün balans tapmalıyıq və düşünürəm ki, tapırıq. Tranzit ölkələrin də maraqlarını unutmaq olmaz. Buna görə də maraqların balansı və tərəfdaşlarımızın maraqlarına adekvat yanaşma layihələrimizin uğurla reallaşması üçün əsas səbəbdir.

Bu gün – 2012-ci ilin əvvəlində bu konfransda çıxış edərək mən «Cənub Qaz Dəhlizi»nin gələcəyi ilə bağlı daha nikbinəm. Nikbinliyi artıran bir neçə səbəb vardır. Birincisi, yeni qaz yataqlarının kəşfi, artıq mövcud olan nəqletmə infrastrukturu, baxmayaraq ki, bunun sayı elə də çox deyildir. İkincisi, Avropada bizim enerji ehtiyatlarımıza artan tələbat, o cümlədən Avropa institutları və Azərbaycan arasındakı olduqca məhsuldar əməkdaşlıq son bir neçə ildə əsl tərəfdaşlıq münasibətlərinə çevrilib. Avropa Komissiyası prezidentinin 2011-ci ildə Azərbaycana səfəri və «Cənub Qaz Dəhlizi» ilə bağlı bəyannamənin imzalanması və hörmətli Ottingerin həmsədrlik etdiyi işçi qrupunun yaradılması. Bu amillər gələcək planlarımızla bağlı çox müsbət mənzərə yaradır. Keçən il baş verən əhəmiyyətli hadisələrdən biri Azərbaycanın qaz ehtiyatlarının Avropa bazarına çıxması üçün böyük qapı olacaq Azərbaycan və Türkiyə arasında qaz tranzitinə dair Anlaşma sazişinin imzalanması idi. Biz indi çox nadir bir vəziyyətdəyik. Avropa bazarına ehtiyacımız vardır. Bu, böyük bazardır və bu bazar qanunvericilik və qanun normaları ilə tənzimlənir. Avropa bazarının da təchizatla bağlı alternativ mənbələrə ehtiyacı vardır.

Biz şaxələndirmə və enerji təhlükəsizliyi ilə bağlı çox danışırıq. Bu iki məsələ bir-biri ilə birbaşa bağlıdır. Amma avropalı istehlakçılar üçün şaxələndirmə və enerji təhlükəsizliyindən bəhs edəndə, ilk növbədə eyni mənbəli marşrutların şaxələndirilməsindən daha çox mənbələrin şaxələndirilməsindən danışmalıyıq. Baxmayaraq ki, marşrutların şaxələndirilməsi də əhəmiyyətlidir. Belə ki, Azərbaycan avropalı istehlakçılar üçün yeni mənbədir, yaxındır, dostdur. Əgər güclü «Cənub Dəhlizi»nin inşasında planlarımızın həyata keçirilməsinə müvəffəq olsaq, gələcək onilliklərdə enerji sahəsində çox məhsuldar və qarşılıqlı faydalı əməkdaşlıq mərhələsinə daxil olacağıq.

Enerji təhlükəsizliyi və proqnozlaşdırma olmadan heç bir ölkə gələcək inkişafı ilə bağlı planlar qura bilməz. Biz Fukusimadakı elektrik stansiyasında baş verən faciədən sonra müxtəlif enerji mənbələrinə münasibətdə dəyişikliklər və yanaşmalar haqqında bilirik.

Mən təkcə ehtiyatlara malik, istehsalçı, nəql edən və potensial tranzit bir ölkə kimi deyil, həm də öz təbii resursları və təbiətinə qayğı ilə yanaşan bir ölkə kimi, öhdəliyimizlə bağlı da bir neçə kəlmə demək istərdim. Bir əsrdən artıqdır ki, Azərbaycanın neft ehtiyatları ətraf mühitin mühafizəsinə heç bir hörmət qoyulmadan işlənilib. Bizim keçmişimizdə «ətraf mühit» anlayışı faktiki olaraq bir o qədər də lazımınca qiymətləndirilməyib. Bu gün öhdəliyimiz onilliklər boyunca suda və quruda neft istehsalından qalan o «miras»ı təmizləmək və həmçinin qlobal ətraf mühitin mühafizəsi işinə töhfəmizi verməkdir. Buna görə də baxmayaraq ki, neftimiz, qazımız və bazarlarımız var, biz indi bərpa olunan enerji sahələrinə sərmayə yatırırıq. Düşünürük ki, bu, öhdəliyimizin bir hissəsidir. Su enerjisinə sərmayə yatırırıq. Keçən ildən başlayaraq, günəş və külək enerjisinə sərmayə qoymağa başlamışıq. Ona görə yox ki, alternativ mənbələrə ehtiyacımız var, ona görə ki, biz keçmiş və gələcək nəsillərimiz qarşısında öhdəlik kimi yanaşdıq. Bu gün ekoloji mühafizə ilə bağlı məsələlərlə yanaşı, enerji təhlükəsizliyi, enerji ehtiyatlarını birlikdə müzakirə edirik. Azərbaycan öz rolunu oynamağa, enerji təhlükəsizliyini təmin etməyə, şaxələndirməyə və təbiətimizi mühafizə etməyə hazırdır.

* * *

*Daha sonra mövzu ilə bağlı fikir mübadiləsi davam etdirildi və suallar verildi.*

**S u a l: Bizim sərmayə yatıra biləcəyimiz ölkələrdə siyasi vəziyyət və coğrafi dəhlizlə bağlı çox danışırıq. Buna görə də sualımı cənab Dikmana ünvanlayıram. Çünki gələcək biznes risklərini müəyyən etmək və onun üzərində işləmək Sizin səlahiyyətiniz çərçivəsindədir. Bir il əvvəl Misir və Tunisdə baş verən iğtişaşların şahidi**

**olduq. Sizin bir il ərzində enerji ilə zəngin ölkələrdə siyasi vəziyyətlə bağlı risklərin qiymətləndirilməsindəki fəaliyyətinizdə dəyişiklik varmı? Misir kimi ölkələrin təcrübəsindən misal gətirərək – burada Azərbaycan prezidenti də iştirak edir – öz siyasi strukturuna görə Mübarəkin devrilməsindən əvvəlki Misirə çox bənzəyən Azərbaycan kimi ölkəyə sərmayə yatıracaqsınızmı?**

**İlham Əliyev:** Mən faktiki olaraq, Azərbaycandakı vəziyyəti Misirdəki vəziyyət kimi təqdim etməyə cəhd olunan suala şərh vermək istərdim. Bu qəribə suala ən yaxşı cavab iştirakçıların reaksiyası oldu. Bayaqkı şəxsin savadından irəli gələrək bilmədiyi bir neçə göstəricini diqqətə çatdırmaq istəyirəm. Mənim 8 illik prezidentlik dövrümdə Azərbaycanda ümumi daxili məhsul 3 dəfə – 300 faiz artıb. Yoxsulluğun səviyyəsi 50 faizdən 7,6 faizə enib. İnflyasiyanın səviyyəsi 5,4 faiz təşkil edir. Son 8 ildə 1 milyondan artıq iş yeri yaradılıb. Xarici borc bizim ümumi daxili məhsulumuzun 6 faizini təşkil edir. İqtisadiyyatın şaxələnməsi sabitdir. Siyasi vəziyyət sabitdir, çoxpartiyalı sistemimiz var. Parlamentdə təmsil olunan 10-dan çox partiyamız, azad mətbuatımız vardır. Bizdə söz, din azadlığı vardır. Nəhayət, bizdə azad internet vardır. Qeyd etmək istərdim ki, bizim regionda heç də bütün ölkələrdə azad internet yoxdur. Azərbaycanda internet istifadəçilərinin sayı 50 faizdən artıqdır və bu rəqəm artmaqdadır.

Azərbaycanda müasir, sabit cəmiyyət vardır. Kimsə Azərbaycanda Misirdə baş verən hadisələr kimi nə isə görmək istəyirsə, sizi əmin edirəm ki, nəyisə arzu edib-etməməyinizdən asılı olmayaraq bunu görməyəcəksiniz.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**49-cu kitab: noyabr 2011 – fevral 2012. - Bakı: Azərnəşr, 2017. – S. 309-314.**

## NİDERLAND KRALLIĞININ İNFRASTRUKTUR VƏ ƏTRAF MÜHİT NAZİRİ XANIM MELANI ŞULTZ VAN HAEGENIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*(7 mart 2012-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Niderland Krallığının İnfrastruktur və Ətraf Mühit naziri xanım Melani Şultz van Haegenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Xanım Melani Şultz van Haegen Niderlandın Baş nazirinin salamlarını dövlətimizin başçısına çatdırdı. Niderlandlı nazir ölkəsinin Bakıda, Azərbaycanın isə Haaqada səfirliyinin fəaliyyət göstərməsinin əlaqələrimizin genişləndirilməsi baxımından önəmini qeyd etdi.

Dövlətimizin başçısı Niderland Krallığının infrastruktur və ətraf mühit nazirinin iş adamlarından ibarət böyük nümayəndə heyəti ilə Azərbaycana səfərindən məmnunluğunu ifadə etdi və səfərin ölkəmizi yaxından tanımaq üçün qonaqlara yaxşı fürsət yaradacağını dedi. Dövlətimizin başçısı səfirliklərin fəaliyyətə başlamasından sonra ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı.

Görüşdə Azərbaycan ilə Niderland Krallığı arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən su təsərrüfatı, infrastruktur, ekologiya, nəqliyyat və digər sahələrdə inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Niderland Krallığı Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Baş nazirə çatdırmağı xahiş etdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.
50-ci kitab: fevral 2012 – aprel 2012. - Bakı: Azərnəşr, 2017. – S. 98.**

## AZGÜNTEX ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*(24 aprel 2012-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi tərəfindən Sumqayıtda inşa olunmuş Azgüntex zavodunun açılışında iştirak etmişdir.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin direktoru Akim Bədəlov prezident İlham Əliyevə məlumat verdi ki, Azgüntex zavodunda iki istehsal xətti – Günəş modulları və LED lampaları xətləri fəaliyyət göstərəcəkdir. İnşasına ötən ilin yanvarından başlanılan və Avropa ölkələrinin aparıcı şirkətlərinin ən müasir texnologiyaları əsasında yaradılan Günəş modulları xətti istifadəyə tam hazırdır.

Dövlətimizin başçısı zavodun rəmzi açılışını bildirən lenti kəsdi və müəssisənin altımərtəbəli inzibati binası ilə tanış oldu.

Bildirildi ki, inzibati bina bütün lazımi avadanlıq və inventarlarla təchiz olunmuşdur. Burada işçilərin səmərəli fəaliyyəti üçün hər cür imkan vardır. Zavod tam kompüterləşdirilmiş, «Wi-Fi» şəbəkəsi yaradılmışdır. İşçilərin istirahəti üçün ayrıca sağlamlıq zalı da fəaliyyət göstərir.

Prezident İlham Əliyev inzibati binada ölkəmizdə alternativ və bərpa olunan enerji siyasətindən bəhs edən filmi izlədi.

Dövlətimizin başçısı binanın foyesində Azgüntex zavodunda hazırlanan günəş panellərinin nümunələrinə baxdı. Bildirildi ki, müəssisədə hər birinin gücü 42 vatdan 250 vata qədər olan və 60 fotoelementlə təchiz edilən bu panellər beynəlxalq standartlar səviyyəsində hazırlanacaq və sabit enerji verəcəkdir. Yaşayış binalarının, küçələrin, meydanların, müxtəlif iaşə və sosial obyektlərin daha səmərəli işıqlandırılması və enerji təminatının yaxşılaşdırılması üçün zavodda LED yüksək texnologiyalı lampaların istehsalı da nəzərdə tutulmuşdur.

Prezident İlham Əliyevə «min ev – min elektrostansiya» layihəsi barədə də məlumat verildi. Qeyd olundu ki, əsasən yaşayış binaları üçün nəzərdə tutulan bu layihə hər bir evin müstəqil şəkildə günəş enerjisini elektrik enerjisinə çevirən, ekoloji cəhətdən təmiz və təhlükəsiz kiçik elektrik stansiyası ilə təchizinə yönəlmişdir. Bu elektrostansiyalardakı günəş panelləri vasitəsilə əldə olunan sabit enerji dəyişən enerjiyə çevrilərək istehlakçıların istifadəsinə veriləcəkdir. Artıq qalan enerji şəbəkəyə ötürüləcək, gecə saatlarında isə şəbəkədən alınacaqdır. İlk mərhələdə yığcam şəkildə salınan qəsəbələr üçün nəzərdə tutulan bu layihənin gələcəkdə daha da genişləndirilməsi imkanları böyükdür. Körpülərin, ticarət obyektlərinin üzərində günəş panellərinin qurulması, enerjidoldurma məntəqələrinin inşası da mühüm əhəmiyyət kəsb edən layihələrdəndir.

Dövlətimizin başçısı inzibati binadan Sumqayıt Yüksək Texnologiyalar Parkının yaradılacağı ərazini seyr etdi.

Sonra prezident İlham Əliyev zavodun Günəş modulları istehsalı xətti ilə tanış oldu. Bildirildi ki, hazırda müəssisədə bir növbədə 33 nəfər işləyir. Üçnövbəli iş rejiminə keçdikdən sonra işçilərin sayı 130 nəfərə çatdırılacaqdır. Alternativ və bərpa olunan enerji sahəsində dünyanın məşhur şirkətlərinin istehsal etdikləri ən müasir texnologiyalarla təmin olunan zavodda ekoloji normalara ciddi əməl edilir. Burada işçilərin sağlam və təhlükəsiz fəaliyyəti üçün yüksək şərait yaradılmışdır.

Azərbaycan prezidenti zavodu işə saldı və istehsal prosesini izlədi.

Sonra prezident İlham Əliyev Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin Sumqayıtda yaradılacaq Yüksək Texnologiyalar Parkının layihəsi ilə

tanış oldu. Məlumat verildi ki, ümumilikdə parkın ərazisində alternativ və bərpa olunan enerji və enerjidən səmərəli istifadə texnologiyasına əsaslanan 15 zavodun inşası planlaşdırılır. Parkın ərazisində yaradılacaq optik linzalar, şüşə və bazalt liflər, akkumulyator istehsalı və digər zavodlar alternativ enerjinin əldə edilməsində və istifadəsində lazım olan avadanlığın ölkəmizdə istehsalına şərait yaradacaqdır. Bu həm tələb olunan avadanlığın daha ucuz başa gəlməsinə, həm də onların tətbiqinin xeyli asanlaşmasına imkan verəcəkdir. Alternativ enerjinin tətbiqi zamanı istifadə olunan əsas materiallardan biri də LED lampalarıdır. Hazırda sürətlə yayılan və yeni nəsil işıqlandırma sistemi hesab olunan LED lampaları enerjiyə qənaəti və uzun müddət istifadəyə yararlılığı ilə seçilir. Bu məqsədlə parkın ərazisində lampa zavodunun inşası da nəzərdə tutulur.

Dövlətimizin başçısına Sumqayıt Məişət Tullantıları Emalı zavodunun layihəsi barədə məlumat verildi. Bildirildi ki, zavodun illik emal gücü 146 min ton olacaqdır.

Prezident İlham Əliyev Azgüntex zavodunun kollektivinə uğurlar arzuladı.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**51-ci kitab: aprel 2012 – iyul 2012. - Bakı: Azərnəşr, 2017. – S. 27-29.**

**HEYDƏR ƏLİYEV PROSPEKTİNİN SURAXANI RAYONU ƏRAZİSİNDƏN KEÇƏN HİSSƏSİNDƏ YENİ SALINMIŞ PARKIN AÇILIŞI MƏRASİMİ**

*(11 may 2012-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 11-də Heydər Əliyev prospektinin Suraxanı rayonu ərazisindən keçən hissəsində yeni salınmış parkın açılışında iştirak etmişdir. Dövlətimizin başçısı ərazinin əvvəlki və hazırkı görkəmini əks etdirən fotolara baxdı.

Parkın ərazisi əvvəllər ekoloji cəhətdən yararsız vəziyyətdə olmuşdur. Qrunt sularının səthə çıxması nəticəsində bataqlıq əmələ gəlmişdi. 2006-cı ildə prezident İlham Əliyev həmin əraziyə gələrək gölün qurudulması barədə tapşırıq vermişdi. Göl qurudulduqdan sonra dövlət başçısının tapşırıqlarına əsasən, bu ərazidə park salınmışdır. İndi bu ərazi nəinki Suraxanı rayonunun, eləcə də paytaxtımızın ən gözəl parklarından biridir. Bülbülə qəsəbəsi ərazisində salınmış bu istirahət guşəsində sakinlərin və qonaqların istirahəti üçün bütün lazımi şərait yaradılmışdır.

Prezident İlham Əliyevin imzaladığı «Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın icrası nəticəsində bu gün paytaxtımızın görkəmi dəyişir və bütün işlər yüksək keyfiyyətlə aparılır. Heydər Əliyev prospektinin Suraxanı rayonu ərazisindən keçən hissəsində salınmış yeni park Bakının simasını daha da gözəlləşdirməklə bərabər, əhalinin istirahəti üçün sevimli məkanlardan biri olacaqdır.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. Əliyev.**
**51-ci kitab: aprel 2012 – iyul 2012. - Bakı: Azərnəşr, 2017. – S. 117.**

## HACIQABUL RAYONUNDA ŞİRVAN-MUĞAN QRUP SU KƏMƏRİNİN TƏMƏLİİ QOYULMUŞDUR PREZİDENTI İLHAM ƏLİYEV MƏRASİMDƏ İŞTİRAK ETMİŞDİR

*(16 iyul 2012-ci il)*

İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Hacıqabulda Şirvan-Muğan qrup su kəmərinin təməlqoyma mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısı Şirvan-Muğan qrup su kəmərinin planını və texniki göstəricilərini əks etdirən stendlərə baxdı.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov Prezident İlham Əliyevə məlumat verdi ki, Kür-Bakı su kəmərlərindən biri ilə nəql edilən su Hacıqabul, Şirvan, Salyan, Neftçala və Biləsuvar şəhərlərinin, həmçinin Salyanda 41, Neftçalada 44, Biləsuvarda 23, Sabirabadda 13 – ümumilikdə 121 kəndin tələbatının ödənilməsinə yönəldiləcəkdir. Ümumilikdə, Şirvan-Muğan qrup su kəmərinin istismara verilməsi ilə 470 min insan keyfiyyətli və fasiləsiz su ilə təmin olunacaqdır. Magistral kəmərin çəkilişi ilə yanaşı, hər bir şəhərdə içməli su və kanalizasiya şəbəkəsi müasir standartlara uyğun yenidən qurulacaq, çirkab sularını təmizləyən qurğu inşa ediləcəkdir. Layihəyə uyğun olaraq Şirvan-Muğan qrup su kəmərinin inşası 2013-cü ilin sonuna qədər yekunlaşacaqdır.

Bildirildi ki, hazırda Kür çayından götürülən içməli su SSRİ dövründə inşa olunmuş qurğuda təmizlənərək Şirvan şəhərinə günün bütün saatlarında, Salyan şəhərinə sutka ərzində 5-7 saat, Neftçala şəhərinə isə sutka ərzində 10 saat verilir. Biləsuvar şəhərinin sakinləri isə Əzizbəyov adına kanaldan götürülən su ilə sutkada cəmi 6 saat təmin edilirlər. Hacıqabul şəhərinə içməli su Kür Sutəmizləyici Qurğular Kompleksindən verilir və istehlakçılar sutkada 14 saat su ilə təchiz olunurlar. Sonra Azərbaycan Prezidenti Şirvan-Muğan qrup su kəmərinin təməlini qoydu.

Dövlətimizin başçısı su kəmərinin tikintisində istifadə olunacaq inşaat materiallarına və avadanlığa baxdı.

Diqqətə çatdırıldı ki, bu layihə çərçivəsində 600-1200 millimetr diametrli borulardan 170 kilometr uzunluğunda magistral xəttin inşası planlaşdırılır. Layihəyə uyğun olaraq, magistral kəmərin Salyan şəhərinə qədər olan hissəsi polad borulardan, buradan Neftçala və Biləsuvara qədər olan hissəsi isə polietilen borulardan çəkiləcəkdir. Həmin ərazilərin fasiləsiz su təchizatını təmin etmək üçün Şirvan və Salyan şəhərlərinin yaxınlığında anbar komplekslərinin inşası da nəzərdə tutulur. Azərbaycan Prezidenti mərasimdə çıxış etdi.

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Əziz dostlar! Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün biz yeni böyük su layihəsinin təməl daşını qoyduq. Bu münasibətlə mən sizin hamınızı ürəkdən təbrik edirəm. Bu layihənin çox böyük əhəmiyyəti vardır. Bildiyiniz kimi, son illər ərzində ölkəmizdə su və kanalizasiya layihələri icra edilir, bu proses geniş vüsət almışdır. Vəzifə qoyulmuşdur ki, bir neçə ildən sonra Azərbaycanın bütün su və kanalizasiya layihələri başa çatsın. Buna böyük ehtiyac var idi. Çünki bildiyiniz kimi, bölgələrdə ümumiyyətlə su qıtlığı daim hökm sürürdü, kanalizasiya layihələri ümumiyyətlə yox idi. Ancaq görülmüş tədbirlər nəticəsində və qəbul edilmiş proqramlar çərçivəsində bu layihələrin icrası nəzərdə tutulur.

Şirvan-Muğan su kəməri də bu böyük proqramın tərkib hissəsidir. Bu gün təməl daşını qoyduğumuz layihə əminəm ki, gələn ilin sonuna qədər başa çatacaq və beləliklə, altı rayonun su problemi demək olar ki, həll olunacaqdır. Bu layihə Hacıqabul, Şirvan, Biləsuvar, Neftçala, Salyan və Sabirabad rayonlarının 121 kəndini və beş şəhərini əhatə edəcəkdir. Beləliklə, bu layihənin və digər bölgələrdə su layihələrinin icra edilməsi nəticəsində uzun

illər problem olaraq qalan su məsələsi öz həllini tapacaqdır. Beləliklə, Azərbaycan yeni mərhələyə qədəm qoyacaqdır. Çünki ölkəmizdə gedən geniş quruculuq, abadlıq işləri bütün sahələri əhatə edir. Bu işlərin içərisində infrastruktur layihələri birinci yerdədir və son illərdə bu istiqamətdə böyük işlər görülmüşdür. Demək olar ki, bizim indi enerji potensialımız xeyli dərəcədə artmışdır və biz nəinki özümüzü təmin edirik, eyni zamanda, elektrik enerjisini ixrac edirik. Bizdə yaranan enerji gücləri imkan verir ki, öz enerji təhlükəsizliyimizi tam şəkildə təmin edək və gələcəkdə daha böyük həcmdə enerji ixrac edək. Hazırda Şirvan şəhərində tikilməkdə olan "Cənub" elektrik stansiyasının bu il işə düşməsindən sonra enerji potensialımızın artırılmasına yeni təkan veriləcəkdir. Biz indi yeni elektrik xətlərinin çəkilişi ilə gələcəkdə elektrik enerjisini ixrac etmək üçün yeni imkanlara malik olacağıq.

Ölkəmizdə qazlaşdırma layihələri icra edilir. Vəzifə qoyulmuşdur ki, gələn ilin sonuna qədər Azərbaycanda qazlaşdırma 95 faizə çatsın. Ucqar dağ kəndləri istisna olmaqla bütün qalan kəndlərə təbii qazın verilməsi nəzərdə tutulur. Bu altı rayonda 100 faiz qazlaşdırma gələn ilin sonuna qədər başa çatmalıdır. Kənd yollarının tikintisi ilə bağlı ciddi tədbirlər görülür. Prezidentin Ehtiyat Fondundan ən çox ayrılan vəsait məhz kənd yollarının tikintisinə yönəldilir. Bu da təbiidir. Çünki kəndlərdə yollar, onların vəziyyəti bizi qane edə bilməz və biz yeni müasir asfalt yolların tikilməsi ilə bu böyük problemi də həll etmiş oluruq. Yenə də bu məsələnin həlli üçün konkret tapşırıqlar verilmişdir, müddət müəyyən edilmişdir və əminəm ki, gələn ilin sonuna qədər əksər kəndlərdə yeni yollar çəkiləcək və bu proses bundan sonra da davam edəcəkdir. Elə etməliyik ki, Azərbaycanda bütün kəndlərdə yaxşı yollar olsun. Yəni, bu böyük layihələr əslində Azərbaycanda mövcud olan infrastrukturun yeniləşdirilməsi məqsədini daşıyır. Bunların içində su və kanalizasiya problemləri xüsusi əhəmiyyət kəsb edir. Çünki su həyat, inkişaf deməkdir, kənd təsərrüfatının inkişafı, insanların sağlamlığı deməkdir.

Həm Bakıda, həm bölgələrdə müasir standartlara cavab verən yeni su xətləri insanların sağlamlığına da böyük dəstək olacaqdır. Azərbaycan əhalisinə verilən və veriləcək su Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun olmalıdır. Bakını içməli su ilə təmin etmək üçün Oğuz-Qəbələ-Bakı su kəməri artıq istismara verilmişdir və bu kəmərin fəaliyyəti nəticəsində su ilə təchizat xeyli dərəcədə yaxşılaşdırılmışdır.

Bakı qəsəbələrində bu layihə icra edilir və bəzi qəsəbələrdə artıq 24 saat fasiləsiz su verilir. Eyni yanaşma bölgələrdə də tətbiq edilir. Mən istəyirəm ki, hər bir yerdə, hər bir şəhərdə, hər bir kənddə 24 saat fasiləsiz su verilsin. Bu gün başladığımız layihə bu bölgənin su ilə təminatını xeyli dərəcədə yaxşılaşdıracaqdır. Bu yeni imkanlardan istifadə edəcək insanların sayı 470 mindir. Nəzərə alsaq ki, Kür-Araz boyu yerləşən çaylarda modul tipli təmizləyici qurğular quraşdırılır və artıq 200-dən çox kənddə bu qurğular quraşdırılıbdır, 400 mindən artıq əhali artıq təmiz, içməli su ilə təmin edilir, bu layihələrin nə qədər böyük əhəmiyyəti olduğunu görmək mümkündür. Mən şübhə etmirəm ki, qarşımıza qoyduğumuz bütün vəzifələr vaxtında və keyfiyyətlə icra ediləcəkdir. Bunu demək üçün əsas vardır. Çünki ölkəmiz yeniləşir, müasirləşir. Ölkəmizdə dövlət xətti ilə həyata keçirilən bütün layihələr ekspertizadan keçirilir. Onların müasir standartlara cavab verməsi üçün lazımi tədbirlər görülür.

Bizim valyuta ehtiyatlarımız artır, maddi imkanlarımız genişlənir. Texniki imkanlar da genişlənir. Bu da çox vacibdir. Mən çox şadam ki, Azərbaycanda infrastruktur layihələrində iştirak edən şirkətlərin mütləq əksəriyyəti yerli şirkətlərdir. Hələ bir neçə il bundan əvvəl biz daha çox xarici şirkətlərə müraciət edirdik. Onların dəstəyinə ehtiyac var idi. Ancaq yeni kadrların hazırlanması, bu sahədə dövlət siyasətinin aparılması nəticəsində yeni şirkətlər, yəni Azərbaycan şirkətləri artıq bu işləri görür. Bunun çox böyük mənası vardır. Çünki birincisi, iş yerləri yaradılır, ikincisi, yerli şirkətlər böyüyür, daha çox vəsait əldə edir, vergilər ödəyir.

Dövlət xətti ilə icra edilən layihələrə Azərbaycan şirkətlərinin cəlb edilməsi bu prosesi daha da stimullaşdırır. Dövlət tərəfindən özəl sektora göstərilən dəstək, eyni zamanda, maddi dəstək, yerli şirkətlərin Azərbaycanda icra edilən layihələrə cəlb edilməsi prosesi bütün bu yeni reallıqları təmin edir. Yəni, bizim texniki imkanlarımız, peşəkar kadrlarımız vardır. Dövlət şirkətlərində yeni, müasir standartlara keçid mərhələsi də çox uğurla gedir. Çünki bu da çox vacibdir. Bizim şirkətlərimiz, xüsusilə dövlət şirkətlərimiz dünya standartlarına cavab verməlidir.

Hazırda biz bunu görürük və əminəm ki, bu layihənin icrası da uğurlu olacaq və uzun illər bundan sonra bu altı rayon və digər rayonlar davamlı, dayanıqlı içməli su ilə təmin ediləcəklər. Onu da qeyd etməliyəm ki, bu layihə ehtiyatla icra edilir. Çünki əhalinin artımı nəzərə alınmaqla suyun verilmə həcmi 2035-ci ilə hesablanıbdır. Yeni xətlərin çəkilməsi, yeni texniki tədbirlərin görülməsi nəticəsində 2035-ci ildən sonra da bütün bu bölgələr su ilə təmin ediləcəkdir. Azərbaycanın inkişafı bu istiqamətdə uğurla gedir, hər bir istiqamətdə uğurla gedir. Bizim gördüyümüz işlərin təməlində Azərbaycan vətəndaşının zəhməti dayanır və biz bütün bu uğurları öz hesabımıza əldə edə bilmişik. Biz iqtisadi islahatlar, uğurlu enerji siyasəti aparmaqla müstəqil siyasətimizi təmin edə bilmişik. İqtisadi sahədə müstəqillik siyasi sahədə müstəqilliyi şərtləndirir və bu gün Azərbaycanın iqtisadi vəziyyəti çox müsbətdir. Bizim valyuta ehtiyatlarımız artır, dövlət büdcəsindən maliyyələşən layihələr, o cümlədən infrastruktur layihələri ölkəmizi irəliyə aparır. İqtisadi sahədə gördüyümüz işlər özəl sektorun inkişafına səbəb olur və hazırda ölkə iqtisadiyyatının 83 faizi özəl sektorda formalaşır. Sosial siyasət çox fəal aparılır. Bu layihə, eyni zamanda, Azərbaycan dövləti tərəfindən aparılan sosial siyasətin təzahürüdür. Çünki bu layihə böyük vəsait tələb edir və bu vəsait heç vaxt suyun tarifləri ilə tam şəkildə geri qayıtmayacaqdır. Yəni bu layihənin iqtisadi səmərəsi çox aşağıdır. Biz buna bu prizmadan yanaşmırıq. Çünki bu layihə sırf sosial məna, sosial xarakter daşıyır - insanları təmiz içməli su ilə təmin edək və beləliklə, bu ciddi problemi həll edək. Sosial siyasət bizim siyasətimizin ayrılmaz hissəsidir.

Mən dəfələrlə demişəm ki, biz bazar iqtisadiyyatı prinsiplərinə sadiqik və Azərbaycanın uğurları bunun əyani sübutudur. Ancaq bununla bərabər, biz güclü sosial siyasət aparılmadan inkişaf edə bilmərik. Çünki bizim bütün işimizin mərkəzində, təməlində Azərbaycan vətəndaşı dayanır və Azərbaycan vətəndaşının rahat, rifah içində yaşaması bizim başlıca borcumuzdur. Ona görə sosial siyasətin aparılması müxtəlif istiqamətlərdə özünü büruzə verir – bu layihələrin icra edilməsində, kənd yollarının tikintisində, qazlaşdırma layihələrinin həyata keçirilməsində, sosial ödəmələrin, əmək haqqının, pensiyaların artırılmasında, sovet dövründən qalmış əmanətlərə kompensasiya verilməsində, ünvanlı sosial proqramın icra edilməsində. Bu siyahını davam etdirmək olar. Azərbaycan o nadir ölkələrdəndir ki, hətta böhranlı illərdə sosial proqramları ixtisar etməmiş, əksinə onları artırmışdır.

İndi Avropada hökm sürən və hələ sonu çatmayan iqtisadi və maliyyə böhranı davam edir. Bu böhranın ikinci dalğası başlanmışdır. Artıq böyük ölkələr də bu çətinliklərlə üzləşirlər - sosial ödəmələr, iş yerləri, büdcə xərcləri ixtisar edilir. Ancaq biz Azərbaycanda bunun tam əksini görürük. Bu böhranlı illərdə biz sovet dövründən qalan əmanətlərin kompensasiyasına başlamışıq. Yəni, bu, böyük layihədir, böyük iqtisadi və maliyyə resursları tələb edən layihədir. Bu böhranlı illərdə infrastruktur layihələrinə daha da böyük diqqət göstərilir. Dövlət büdcəsinin xərcləri daha da artırılır. Bizim ümumi xərclərimiz artır. Yəni, bu gün Azərbaycan reallıqları bundan ibarətdir. İndiki reallıqlarımızın başlıca səbəbi odur ki, biz öz hesabımıza yaşamışıq, borc almamışıq.

Bizim dövlət borcumuz ümumi daxili məhsulda cəmi yeddi faiz təşkil edir. İnkişaf etmiş ölkələrdə bu, hətta 100 faizi də keçir, 80 faiz olan yerlərdə hesab olunur ki, orada dövlət borcu yaxşı səviyyədədir. Bizdə isə yeddi faizdir. Biz ayağımızı yorğana görə uzatmışıq və

bu yanaşma hər yerdə olmalıdır – ailədə, siyasətdə, iqtisadi islahatların aparılmasında. Ona görə biz özümüzü tam əmin və rahat hiss edirik. Valyuta ehtiyatlarımız ildən-ilə artır, enerji layihələrimiz bizə imkan verir ki, bundan onilliklər sonra da Azərbaycanı inkişaf yolu ilə irəliyə aparaq. Güclü sosial layihələrin icrası imkan verir ki, insanları ən çox narahat edən məsələlər həllini tapsın. Onların içərisində su layihəsi birinci yerdədir. Odur ki, bu gün toplaşdığımız mərasimdə başlanan layihəyə çox böyük önəm verilir və ona görə də biz bu gün təməl daşını böyük təntənə ilə qoyuruq. Çünki bu layihə doğrudan da ölkəmizdə gedən proseslərin əyani təzahürüdür. İnkişaf, sosial siyasətin aparılması, iqtisadi islahatların davam etdirilməsi və öz hesabımıza yaşamağımız bu gün Azərbaycan reallıqlarıdır. Mən tam əminəm ki, qarşıda duran bütün vəzifələr uğurla icra ediləcəkdir. Bu yaxınlarda bu ilin birinci altı ayının sosial-iqtisadi inkişafının yekunları müzakirə edildi. Bütün statistik göstəricilər yüksək səviyyədədir. İlin sonuna qədər bütün proqramlar və infrastruktur layihələri həllini tapacaqdır. Beləliklə, biz bundan sonra da yalnız və yalnız inkişaf yolu ilə gedəcəyik.

2004-cü ildə bizim tərəfimizdən irəli sürülmüş, bu gün uğurla icra edilən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu icrası Azərbaycanı hərtərəfli inkişaf etdirmək üçün əsas alət idi və bölgələrin inkişafı, bölgələrdə yeni iş yerlərinin, yeni müəssisələrin yaradılması artıq bir ənənəyə çevrilibdir. Elə həftə keçmir ki, hansısa yeni müəssisə, yeni istehsal sahələri yaradılmasın, yeni iş yeri açılmasın. Budur, Azərbaycan reallıqları. Bir daha demək istəyirəm ki, bu reallıqları biz təmin etmişik, Azərbaycan xalqı öz zəhməti ilə və Azərbaycan dövləti öz müstəqil siyasəti ilə.

Mən bu gün sizi bir daha ürəkdən salamlamaq istəyirəm. Bu gün burada altı rayonun nümayəndələri toplaşmışlar. Xahiş edirəm, mənim səmimi salamlarımı yaşadığınız rayonların sakinlərinə çatdırasınız. Əminəm ki, gələn ilin sonuna qədər bütün altı rayonda gözəl mərasimlər keçiriləcəkdir və bu altı rayona təmiz içməli suyun verilməsi mərasimində sizinlə birlikdə iştirak edəcəyik. Bir daha sizi təbrik edirəm.

* * * *

“Azərsu” ASC-nin sədri Qorxmaz HÜSEYNOV təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan sosial-iqtisadi inkişaf proqramının bu gün uğurla davam etdirildiyini bildirdi. O, ümummilli lider Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə Azərbaycanda içməli su məsələsini daim diqqətdə saxladığını və su təchizatı sektoruna əvəzsiz töhfələr verdiyini vurğulayaraq dedi:

- Bu gün təməlini qoyduğunuz Şirvan-Muğan layihəsinin su mənbəyi olan Kür su kəmərləri sisteminin tikintisi məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, Azərbaycana rəhbər təyin olunandan sonra ümummilli liderin təşəbbüsü ilə Kür su kəmərləri sisteminin inşası “xalq tikintisi”nə çevrilmiş və işlər qısa müddətdə başa çatdırılmışdır. Su kəmərləri sisteminin birinci növbəsinin açılışı ulu öndərin iştirakı ilə 1970-ci il sentyabrın 27-də olmuşdur. Onun ikinci növbəsi isə 1984-cü ildə işə salınmışdır.

Cənab Prezident, ulu öndər müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrlərdə də içməli su sektoruna daim diqqət və qayğı göstərmişdir. Köhnəlmiş Kür və Ceyranbatan Sutəmizləyici Qurğular Kompleksi onun bilavasitə rəhbərliyi ilə 1998-2002-ci illərdə yenidən qurulmuşdur. Azərbaycanda icra olunmuş ən böyük infrastruktur layihəsi – Oğuz-Qəbələ-Bakı su kəmərinin ideya müəllifi də ümummilli lider Heydər Əliyev olmuşdur. Qorxmaz Hüseynov bildirdi ki, Kürətrafı ərazilərdə içməli su probleminin həllinə xüsusi diqqətlə yanaşan Prezident İlham Əliyevin tapşırıqlarına əsasən qısa müddətdə bu zonada su təchizatının vəziyyəti, perspektiv inkişaf və əhalinin sayı təhlil edilmişdir. Məlum olmuşdur ki,

Kürətrafı şəhərlərin bəzilərində sovet dövründə sutəmizləyici qurğular tikilsə də onlar müasir tələblərə cavab vermir. Əksər kəndlərin sakinləri isə Kür çayının və kanalların suyunu durultmaqla istifadə edirlər.

Məsələnin kompleks həlli üçün içməli su mənbələrinin imkanlarının bir daha araşdırıldığını bildirən Q.Hüseynov dedi:

- Ötən il sentyabrın 8-də təməlini qoyduğunuz Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğu istismara veriləndən sonra Abşerona saniyədə altı kubmetr içməli su veriləcəkdir. Nəzərə alsaq ki, hazırda Oğuz-Qəbələ-Bakı kəməri ilə saniyədə beş kubmetr su alırıq, onda Abşeron yarımadasında saniyədə əlavə 11 kubmetr su ehtiyatı yaranacaqdır. Bunları əsas götürərək Bakını təmin edən Kür Sutəmizləyici Qurğular Kompleksinin imkanlarından istifadə etməklə Kürətrafı şəhər və kəndlərin su təchizatının aparılması qərara alınmışdır. Beləliklə, Sizin tapşırığınızın icrası olaraq regionlarda həyata keçirdiyimiz ən böyük layihənin

- Şirvan-Muğan qrup su kəmərinin tikintisinə başlayırıq. Şirvan-Muğan qrup su kəməri layihəsi çərçivəsində 170 kilometr uzunluğunda magistral xəttin inşası nəzərdə tutulur.

Yeni kəmər istismara veriləndən sonra Hacıqabul, Şirvan, Salyan, Neftçala və Biləsuvar şəhərləri, Salyan rayonunun 41, Neftçalanın 44, Biləsuvarın 23 və Sabirabadın 13 kəndi su ilə təchiz ediləcəkdir. Ümumilikdə, Şirvan-Muğan qrup su kəmərinin istismara verilməsi ilə 470 min insan, o cümlədən beş şəhərin 240 min, 121 kəndin 230 min əhalisi keyfiyyətli su ilə təmin olunacaqdır. Layihəyə uyğun olaraq, Şirvan-Muğan qrup su kəmərinin inşası 2013-cü ilin sonuna qədər yekunlaşacaqdır. Magistral kəmərin çəkilişi ilə yanaşı, hər bir şəhərdə içməli su və kanalizasiya şəbəkəsi yenidən qurulacaq, çirkab sutəmizləyici qurğular tikiləcəkdir. "Azərsu" ASC-nin sədri əhalinin keyfiyyətli və fasiləsiz içməli su ilə təmin olunması istiqamətində görülən digər işlərdən də danışdı. O, "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosialiqtisadi inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq 62 qəsəbənin su təchizatı və kanalizasiya sistemlərinin müasir standartlar səviyyəsində yenidən qurulduğunu vurğuladı.

Qeyd etdi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq hazırda 35 şəhər və rayon mərkəzinin, onların ətrafında yerləşən 182 kəndin içməli su təchizatı layihələri uğurla icra olunur. Q.Hüseynov ilin sonuna qədər daha 15 rayonda işlərə başlanmasının nəzərdə tutulduğunu diqqətə çatdıraraq bildirdi:

- Cənab Prezident!

Məruzə etmək istəyirəm ki, təkcə son bir ildə həyata keçirilən layihələr çərçivəsində paytaxtın və ətraf qəsəbələrin 600 min sakininin fasiləsiz su təchizatına nail olunmuşdur. Su təchizatı yaxşılaşdırılmış əhalinin sayı isə 690 min nəfərdir. İçməli su təchizatının yaxşılaşdırılmasının əsas mənbəyi Sizin rəhbərliyinizlə reallaşdırılmış Oğuz-Qəbələ-Bakı su kəməri olmuşdur.

Möhtərəm cənab Prezident!

Azərbaycan əhalisinin fasiləsiz və keyfiyyətli su ilə təmin olunması barədə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti qarşısında həlli vacib tapşırıqlar qoymusunuz. Verdiyiniz tapşırıqlara və təsdiq etdiyiniz Dövlət proqramlarına uyğun olaraq, bütün ölkə ərazisində su təchizatı və kanalizasiya sistemlərinin müasir standartlar səviyyəsində yenidən qurulması, əhalinin fasiləsiz içməli su ilə təminatına nail olunması üçün "Azərsu" Açıq Səhmdar Cəmiyyəti bütün qüvvələrini səfərbər edəcək, etimadınızı doğrultmaq üçün kollektivimiz daha səylə çalışacaqdır.

* * * *

Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd MUXTAROV bu kəmərin çəkilməsinin bütün bölgə üçün əlamətdar hadisə olduğunu qeyd etdi. O, layihənin insanların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addım olduğunu vurğulayaraq dedi:

- Şirvan-Muğan qrup su kəmərinin əhatə edəcəyi bölgənin sakinləri illər boyu içməli sudan korluq çəkmiş, Kür çayının fiziki, kimyəvi və bioloji cəhətdən çirklənmiş suyundan istifadə etməyə məcbur olmuşlar. Təkcə Hacıqabul rayonunun 68 min əhalisindən ancaq 31 min nəfəri, yəni, 45 faizi təmiz içməli su ilə təmin olunub. Qalan sakinlər isə hələ də çirkli və zərərli kanal sularından istifadə edirlər.

Şirvan-Muğan qrup su kəmərinin çəkilişi başa çatdıqdan sonra bölgəmizin yüzdən artıq yaşayış məntəqəsinə ekoloji cəhətdən təmiz içməli su veriləcək, 450 mindən çox sakinin illərlə davam edən içməli su probleminə birdəfəlik son qoyulacaqdır. Hər bir sakinin evinə yeni su xətti çəkiləcəkdir və onlar insan həyatı və sağlamlığı üçün əvəzsiz olan içməli su ilə təmin ediləcəklər. Bu da gələcəkdə Azərbaycan xalqının genofondunun sağlam saxlanılmasına xidmət edəcəkdir.

Əhməd Muxtarov 2010-cu ilin mayında Kür çayının daşması nəticəsində baş verən təbii fəlakətin nəticələrinin aradan qaldırılması zamanı Prezident İlham Əliyevin rəhbərliyi altında görülən təxirəsalınmaz tədbirlərdən danışdı, ziyan çəkən bütün insanların dövlət qayğısı ilə əhatə olunduğunu bildirərək dedi: - Sadə insanlar o çətin günlərdə dövlətin gücünü, onun rəhbərinin qayğısını gördülər. Belə təbii fəlakətlərdən sığortalanmaq mümkün deyildir. Dünyanın bir çox ölkələrində bu cür hadisələr baş verir. Lakin heç də bütün dövlətlər insanların üzləşdiyi fəlakətlərdən qurtula bilmirlər.

Sizin tapşırığınızla bütün dövlət orqanları səfərbər olunaraq fəaliyyətlərini təbii fəlakətin fəsadlarının aradan qaldırılmasına yönəltdilər. Görülən tədbirlər nəticəsində qısa müddətdə təbii fəlakətə məruz qalmış ərazilərdə yüzlərlə yeni ev inşa edildi. Zərər çəkmiş insanlara maddi kömək göstərildi. Təkcə rayonumuzun Meyniman kəndində bütün sosial şəraiti olan 63 ev tikilərək sakinlərin istifadəsinə verilmişdir. İnsanlarımız bir daha gördülər ki, Azərbaycan dövləti, onun rəhbəri insanların həyatına, onların təhlükəsizliyinə necə böyük önəm verir.

Artıq rayonumuzun bütün əhalisi üçün vacib olan digər problemlər həllini tapmaqdadır. Sizin tapşırığınızla əhalinin elektrik enerjisi, təbii qaz və içməli su ilə təminatı, yol infrastrukturunun yenidən qurulması istiqamətində də böyük layihələr həyata keçirilir. Şəhər və kəndlərimizdə elektrik təsərrüfatının tam yeniləşməsinə başlanmışdır. İlin sonuna kimi Hacıqabulun bütün yaşayış məntəqələrinə, o cümlədən heç vaxt qaz olmayan kəndlərinə də təbii qazın verilməsi ilə bağlı müvafiq işlər görülür. Hacıqabul şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin tikintisi uğurla icra edilir. Əhalinin ekoloji cəhətdən təmiz içməli suya olan tələbatını ödəmək məqsədi ilə Kür çayı boyu kəndlərimizdə sutəmizləyici qurğular quraşdırılır.

* * * *

Şirvan-Muğan qrup su kəmərinin çəkilməsi ilə yüz minlərlə insanın, o cümlədən Şirvan şəhərinin sakinlərinin təmiz içməli su ilə təmin olunacağını bildirən Şirvan şəhər sakini Aynurə RZAYEVA dedi:

- Bildirmək istəyirəm ki, Şirvan şəhərinin əhalisi yarandığı gündən indiyədək üç dəfə artmışdır. Suyun fasilələrlə verilməsi, bəzi məhəllələrə maşınlarla daşınması, çoxmərtəbəli binaların yuxarı mərtəbələrinə çatdırılmaması həmişə problem olaraq qalırdı və böyüməkdə olan şəhərin əhalisini narahat edirdi. Bu problem yay aylarında özünü daha qabarıq şəkildə büruzə verirdi. İnanırıq ki, bu layihə başa çatdırıldıqdan sonra sakinlərimizin həmin sahədəki problemləri də həllini tapacaqdır. Möhtərəm cənab Prezident, Sizin diqqət və qayğınızla Şirvan şəhərində mövcud olan problemlər son səkkiz il ərzində ardıcıllıqla aradan qaldırılmışdır. Bu gün şəhər həyatı üçün vacib olan dayanıqlı elektrik enerjisi ilə təmin olunuruq. Şəhər və qəsəbələrimizin təbii qazla təminatının yaxşılaşdırılması üçün əsaslı işlər görülür. Eyni zamanda, şəhərimiz də gündən-günə gözəlləşir, inkişaf edir. Küçə və

meydanlarımız abadlaşır, parklar və xiyabanlar, nümunəvi məhəllələr salınır, avtomobil yolları yenidən qurulur. Bir sözlə, şəhərimizin görünüşü ağlasığmaz dərəcədə dəyişir. Sakinlərimizin rahatlığı, istirahəti üçün hər cür şərait yaradılır.

Aynurə Rzayeva son illərdə ölkədə gedən inkişaf proseslərinin Şirvanı da əhatə etdiyini vurğuladı. O, son vaxtlarda Şirvanda istifadəyə verilən sosial infrastruktur layihələrinin şəhərin simasını dəyişdirdiyini və bu prosesin indi də davam etdiyini bildirdi.

* * * *

Salyan rayon Qızılağac bələdiyyəsinin sədri Bünyad YOLÇUYEV bildirdi ki, bu gün təməli qoyulan bu layihə Salyan sakinləri üçün də vacib əhəmiyyət daşıyır. Bu layihənin həyata keçirilməsi nəticəsində Salyanın bütün yaşayış məntəqələrində içməli su probleminin birdəfəlik həll olunacağını qeyd edən Bünyad Yolçuyev dedi:

- Bələdiyyə sədri kimi deyə bilərəm ki, rayonumuzun bələdiyyələri əhalini narahat edən problemləri müəyyən edir, onların sosial sifarişlərini öyrənir və həlli istiqamətində tədbirlər görməyə çalışırlar. Son illərdə bələdiyyələrimiz ərazilərin abadlaşdırılması və yaşıllaşdırılması, yerli əhəmiyyətli yolların və su xətlərinin, təhsil, səhiyyə, mədəniyyət müəssisələrinin binalarının saxlanması, idman meydançalarının inşası, məişət tullantılarının yığılması və daşınması kimi digər yerli əhəmiyyətli məsələlərin həlli ilə məşğul olurlar.

Bununla belə rayonumuzda əhalinin içməli su ilə təmin olunması əsas problemlərdən biri olaraq qalmışdır. Problemin həlli bələdiyyələrimizin imkanları xaricində olduğu üçün biz bu barədə aidiyyəti orqanlara müraciət etmişik. Bildirmək istəyirəm ki, respublikamızın ən böyük çayı olan Kür çayının 60 kilometrdən çox hissəsi Salyan rayonunun ərazisindən keçir. Salyan rayonunun bir çox yaşayış məntəqələri, o cümlədən Qızılağac bələdiyyəsi ərazisinə daxil olan dörd kəndin əhalisi bu günədək içməli su kimi Kür çayının suyundan istifadə edir. Su isə ilin çox vaxtı bulanıq axdığına və digər tullantılarla çirkləndiyinə görə ondan içməli su kimi lazımınca istifadə etmək mümkün olmur. Bu da əhalinin həyat şəraitinə, sağlamlığına mənfi təsir göstərir.

Möhtərəm cənab Prezident, Siz bir neçə il öncə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsinə həsr olunmuş iclasların birində demişdiniz: "Ölkənin bütün əhalisi yaxın vaxtlarda içməli su ilə təmin olunacaqdır". Bu istiqamətdə həyata keçirdiyiniz tədbirlər nəticəsində respublikanın, o cümlədən Salyan rayonu əhalisinin bir hissəsi keyfiyyətli içməli su ilə təmin edilmişdir. Sizin tapşırığınızla rayonumuzun Kür çayı boyunca yerləşən 22 kəndində quraşdırılmış modul tipli içməli su qurğuları bu problemi qismən də olsa aradan qaldırmışdır. Bildirmək istəyirəm ki, biz yerli özünüidarəetmə orqanlarının nümayəndələri kimi insanlarla daim bir yerdəyik. Onların Sizə olan inamını və etibarını çox yaxşı görürük. Sakinlərimiz Salyan-Muğan su kəməri layihəsinin həyata keçirilməsini böyük sevinclə qarşılayır, əsrlər boyu həllini tapmamış içməli su probleminin aradan qaldırılmasını Sizin onlara göstərdiyiniz yüksək diqqət və qayğı kimi qəbul edirlər. İcazə verin, insanlarımızın həyatı üçün mühüm əhəmiyyət kəsb edən belə bir nəhəng layihəni reallaşdırdığınıza görə Sizə rayon sakinlərinin minnətdarlığını çatdırım.

* * * *

Mərasimin sonunda Prezident İlham Əliyev Şirvan-Muğan qrup su kəməri layihəsinin əhatə etdiyi 6 rayonun sakinlərini bir daha təbrik etdi və ən xoş arzularını çatdırdı.

**AZƏRTAC**
**2012, 16 iyul**

## KÜLLÜLÜ-ZƏRDAB MAGİSTRAL SU KƏMƏRİNİN AÇILIŞINDA İŞTİRAK

*(7 oktyabr 2012-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Küllülü-Zərdab magistral su kəmərinin açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı su kəmərinin planı və tikintisi prosesini əks etdirən stendlə tanış oldu. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov Küllülü su mənbəyinin və xəttin texniki göstəriciləri barədə məlumat verdi. Bildirildi ki, ASC-nin sifarişi ilə kəmərin tikinti işlərinə cari ilin sentyabrında başlanılmışdır.

Bütövlükdə bu kəmərin suyundan Ağsu, Kürdəmir, Ucar və Zərdab rayonlarının müxtəlif yaşayış məntəqələrinin 157 min sakini istifadə edəcəkdir. Qeyd olundu ki, kəmərin Zərdab rayonunun ərazisindən keçən hissəsinin uzunluğu 72 kilometrdir. Zərdabın 36 min nəfər əhalisi bu su kəmərindən istifadə edəcəkdir. Küllülüdə 5 min kubmetrlik bir, Zərdabda isə hər biri 2 min kubmetrlik iki su anbarı tikilir. Suyun şəhərə, Bəyimli qəsəbəsinə və rayonun 14 kəndinə verilməsi nəzərdə tutulmuşdur. Hazırda Heydər Əliyev parkında tikilən şəlalə rəmzi olaraq suyun artıq Zərdaba gəlib çatmasını bildirir. Dövlətimizin başçısı suyun şəhərə rəmzi olaraq verilməsini təmin edən qurğunu işə salan düyməni basdı.

Diqqətə çatdırıldı ki, Zərdab şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasının ilkin layihəsində içməli su mənbəyi kimi Kür çayı qəbul edilsə də, aparılan araşdırmalardan və texniki iqtisadi əsaslandırmadan sonra rayon mərkəzi ilə yanaşı, kəndlərin də içməli su ilə təmin olunması üçün keyfiyyətli və bol ehtiyatlara malik Küllülü mənbəyinə üstünlük verilmişdir. Layihəyə uyğun olaraq Girdmançayın Ağsu rayonu ərazisindən keçən hissəsinin yaxınlığındakı Küllülüdə sugötürücü drenaj sistemi tikilmiş və buradan Zərdab şəhərinə magistral su kəməri çəkilmişdir. Küllülü mənbəyindən götürülən su rayon mərkəzinə nasoslardan istifadə olunmadan özüaxımlı rejimdə verilir. Hazırda Zərdab şəhərinə verilən suyun yeni şəbəkə hazır olana qədər mövcud şəbəkəyə birləşdirilməsi istiqamətində tədbirlər görülür.

* * * *

Rayon ictimaiyyətinin nümayəndələri və kəmərin çəkilməsində iştirak edən inşaatçılarla görüşən **Prezident İlham ƏLİYEV dedi:**

- Əziz dostlar, əziz zərdablılar! Bu gün Zərdab rayonunun tarixində çox əlamətdar bir gündür. Bu gün Zərdabda böyük su layihəsinin başlamasını qeyd edirik. Bu layihənin icrası imkan verəcək ki, zərdablılar təmiz içməli su ilə təmin olunsunlar. Əlbəttə, bu, rayonun inkişafı, insanların sağlamlığı üçün çox böyük məna daşıyır. İçməli su həyat deməkdir. Təmiz içməli su isə sağlam həyat deməkdir. Bir neçə gündən sonra 72 kilometr uzunluğunda kəmər vasitəsilə verilən su daxili şəbəkəyə birləşdiriləcək və beləliklə, su evlərə paylanacaqdır.

Hazırda zərdablılar suyu fasilələrlə alırlar. Şəhərin yarısı demək olar ki, bu problemlə üzləşir və su qıtlığı müşahidə olunur. Bu layihə başa çatandan sonra artıq Zərdabda vətəndaşlar 24 saat içməli su alacaqlar.

Bu, doğrudan da böyük tarixi layihədir. Çünki uzun illər ərzində, onilliklər ərzində su problemi demək olar ki, bütün rayonlar üçün xas idi. Hazırda bütün rayonlarda su-kanalizasiya layihələri icra edilir və çalışırıq ki, gələn ilin sonuna qədər bütün rayonlarda, rayon mərkəzlərində içməli su layihələri başa çatsın. Bu layihə çox böyük maliyyə vəsaiti tələb edir və

Azərbaycan dövləti maliyyə yükünün əsas hissəsini öz üzərinə götürmüşdür. Bəzi rayonlarda bəzi layihələr xarici maliyyə qurumlarının kreditləri ilə icra edilir. Ancaq əsas yük Azərbaycan dövlətinin üzərinə düşür. Bu, belə də olmalıdır. Çünki bizim sosial siyasətimiz insanların rahatlığını təmin etmək üçün aparılır. Bizim siyasətimizin təməlində Azərbaycan vətəndaşıdır və Azərbaycan vətəndaşının rahat, firavan yaşaması bizim əsas məqsədimizdir. Bütün infrastruktur layihələrinin içərisində içməli su layihəsi xüsusi məna daşıyır. Düzdür, son illər ərzində bütün bölgələrdə digər vacib infrastruktur layihələri həyata keçirilmişdir, magistral yollar, kənd yolları çəkilir, o cümlədən Zərdab rayonunda bir neçə kəndi birləşdirən yeni yollar çəkilmişdir, elektrik enerjisinin verilməsi böyük dərəcədə yaxşılaşdırılmışdır.

Demək olar ki, ölkə üzrə bu ciddi problem artıq aradan götürülüb. Əlbəttə, təkmilləşdirmə işləri aparılmalıdır və aparılır. Amma biz bu problemi köklü şəkildə həll etmişik. Qazlaşdırma prosesi gedir. Zərdab şəhərinin qazla təminatı artıq reallaşıb və ətraf kəndlərə də qaz xətləri çəkilir. Bu layihələrin içində içməli su layihəsi xüsusi məna daşıyır. Çünki insan susuz yaşaya bilməz. Keyfiyyətsiz su insanın sağlamlığına birbaşa ziyan vurur. Biz çalışmalıyıq və çalışırıq ki, bütün bölgələrdə əhaliyə verilən içməli su Dünya Səhiyyə Təşkilatının standartlarına cavab versin. Əminəm ki, buna nail olacağıq. Zərdab rayonuna verilən içməli su çox gözəl, təmiz mənbədən gələn sudur, keyfiyyətli sudur və bir neçə gündən sonra zərdablılar bunu görəcəklər.

Bu layihənin böyük mənası, böyük əhəmiyyəti vardır. Çünki bir daha demək istəyirəm ki, bizdə içməli su problemi həmişə, bütün dövrlərdə olub. Tədricən bu məsələ öz həllini tapmaqdadır və hər bir bölgə üçün konkret investisiya proqramı, konkret proqramlar, planlar vardır. Bu işlər plan üzrə gedir və qarşıya məqsəd qoyulmuşdur ki, gələn ilin sonuna qədər əksər layihələr icra edilsin. Yəni, biz bütün rayon mərkəzlərini gələn ilin sonuna qədər içməli su ilə təmin etməliyik. Bununla paralel olaraq, ətraf kəndlərə də təmiz içməli su verilməlidir. Ondan sonrakı mərhələdə daha da geniş miqyasda bu layihələr icra ediləcəkdir. Eyni zamanda, kanalizasiya layihələri də icra ediləcəkdir. Biz bu məsələni həll etdikdən sonra demək olar ki, infrastruktur layihələri arasında həllini gözləyən məsələ qalmayacaqdır. Bu məsələ ilə bağlı bir neçə il bundan əvvəl konkret tapşırıqlar verilmişdir.

Dövlət İnvestisiya Proqramında su layihələri nəzərdə tutulur. Bu, bir daha Azərbaycan hökumətinin, dövlətinin siyasətini əks etdirir. Biz bazar iqtisadiyyatı prinsiplərinə sadiqik və indi ölkə iqtisadiyyatı uğurla inkişaf edir. Bu, bizə imkan verir ki, sosial məsələlərin həllinə lazımi səviyyədə maliyyə vəsaiti ayıraq və bunu edirik. Su layihəsi sırf sosialyönümlü layihədir. Çünki bu layihənin dövlət üçün heç bir kommersiya önəmi yoxdur. Azərbaycanda su tarifləri çox aşağıdır və bu layihələrə qoyulan vəsait heç vaxt, yəni, su tariflərinin ödənilməsi hesabına qaytarıla bilməz. Bu, bir daha Azərbaycan dövlətinin nə qədər güclü sosial siyasət apardığını göstərir.

Bu, belə də olmalıdır. Çünki ölkəmiz inkişaf edir, ölkəmizin bütün bölgələri inkişaf edir və biz çalışırıq, çalışmalıyıq ki, Azərbaycan vətəndaşları üçün daha da yaxşı şərait yaradaq. Hər bir vətəndaş üçün yaşadığı yerdən asılı olmayaraq, gözəl şərait yaradılmalıdır. İnsanlar işlə təmin olunmalıdır, təhlükəsizlik təmin edilməlidir, səhiyyə, təhsil ocaqları tikilməlidir. İnfrastruktur layihələrinin icrası, əlbəttə ki, ümumi işlərdə mühüm yer tutur. Son illər ərzində ölkəmizdə həyata keçirilən infrastruktur layihələri, artıq öz gözəl nəticəsini verir.

Bu gün həm Zərdab, həm də ümumiyyətlə ölkə üçün çox əlamətdar bir gündür. Çünki qeyd etdiyim kimi, bütün bölgələrdə içməli su layihələri artıq icra edilir, yaxud da ki, onların icrasına hazırlıq işləri aparılır. Onların içində birinci layihə məhz Zərdabda reallaşır. Ona görə bu gün tarixdə qalacaqdır. Bu gün yeni layihələr əsasında Azərbaycan bölgələrinə verilən suyun ilkin mərhələsidir. Təsadüfi deyildir ki, birinci layihə Zərdabda reallaşır. Zərdabın

inkişafına böyük diqqət göstərilir. Əvvəlki dövrdə rayonun inkişafı üçün Prezidentin ehtiyat fondundan vəsait ayrılmışdır. Zərdabda quruculuq, abadlıq işləri aparılır. Eyni zamanda, əvvəlki dövrlərdə Kür boyu yerləşən kəndlərdə modul tipli sutəmizləyici qurğular da quraşdırılıb və insanlar təmiz sudan istifadə edirlər. Digər layihələrin icrası, əminəm ki, Zərdabın gələcək inkişafını təmin edəcəkdir.

Ümumiyyətlə, ölkə miqyasında işlər çox müsbət istiqamətdə gedir. Artıq bir neçə gündən sonra biz üçüncü rübün yekunlarını müzakirə edəcəyik. Birinci altı ayın yekunları çox müsbət olmuşdur – iqtisadiyyat, qeyri-neft iqtisadiyyatı artır, sosial məsələlər həll olunur, sovet dövründən qalan əmanətlərin qaytarılması prosesi başlamışdır və deyə bilərəm ki, MDB məkanında ən qısa müddət ərzində qaytarılacaq vəsait məhz Azərbaycanda olacaqdır. Azərbaycanda bu vəsaitlər ən yüksək əmsalla insanlara veriləcəkdir. Digər sosial layihələr icra edilir. Yəni, ölkənin ümumi inkişaf dinamikası onu göstərir ki, seçdiyimiz yol düzgün yoldur. Biz bu yolla gedirik, gedəcəyik və elə etməliyik ki, hər bir vətəndaş, hər bir vəzifəli şəxs öz vətəndaşlıq borcunu dərk etsin və ümumi işimizə töhfəsini versin.

Mən əminəm ki, ilin sonuna qədər iqtisadi və sosial göstəricilərimiz müsbət olacaq və 2012-ci ili də biz uğurla başa vuracağıq. Ondan sonrakı dövr üçün də bizim konkret proqramlarımız vardır. 2004-cü ildə birinci regionların sosial-iqtisadi inkişafı proqramının icrası nəticəsində böyük işlər görülmüşdür. Artıq ikinci proqram icra edilir, o da gələn ilin sonuna qədər başa çatacaqdır. Bu proqramın icrası nəticəsində əsas infrastruktur, sosial məsələlər öz həllini tapacaqdır. Ondan sonrakı dövr üçün də bizim konkret konsepsiyamız, baxışlarımız vardır. “Azərbaycan-2020” strateji inkişaf planımız vardır. 2020-ci ilə qədər görüləsi işlər haqqında bizdə çox dəqiq təəssürat vardır və bu proqram üzərində işlər gedir. Biz öz işimizi planlaşdırırıq, proqnozlaşdırırıq. Hər şey plan üzrə gedir – istər xarici siyasətlə, istər daxili siyasətlə bağlı. İqtisadi və infrastruktur layihələrinin icrası bizim işimizin mühüm hissəsidir. Mən bir daha sizi ürəkdən təbrik edirəm. Biz sizinlə keçən il görüşmüşdük. O vaxt Heydər Əliyev Mərkəzində tamamlanma işləri gedirdi, çox səmimi görüş idi.

Mən o vaxt da dedim ki, Zərdabda gedən proseslər daim diqqət mərkəzində olacaqdır. Bir il keçdi, gözəl hadisə münasibətilə yenə də görüşürük. Yenə də deyirəm, bu gün tarixdə qalacaqdır. Onilliklər, bəlkə də yüzilliklər ərzində ilk dəfə olaraq Zərdaba 24 saat təmiz içməli su veriləcəkdir. Əminəm ki, siz hamınız bu gün eyni hissləri keçirirsiniz. Mən də bu hissləri keçirirəm, mən çox sevinirəm, sizi ürəkdən salamlayıram, təbrik edirəm və sizə cansağlığı, yeni uğurlar arzulayıram. Sağ olun.

* * * *

“Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz HÜSEYNOV hazırda Bakıda və regionlarda su xətlərinin çəkilişi və kanalizasiya sistemlərinin təkmilləşdirilməsi ilə bağlı görülən işlər barədə məlumat verərək dedi:

- Möhtərəm Prezident, hörmətli tədbir iştirakçıları. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf strategiyası Sizin rəhbərliyinizlə uğurla davam edir. Ölkəmizin sosial-iqtisadi həyatında inkişaf daha da sürətlənmiş və infrastruktur layihələrinin icrasında böyük uğurlar əldə olunmuşdur. Sizin qayğı və diqqətinizin nəticəsidir ki, içməli su təchizatı sektorunda həyata keçirilən layihələr artıq bütün ölkəni əhatə edir və əsas diqqət Azərbaycan vətəndaşlarının sosial rifahının yaxşılaşmasına yönəldilmişdir.

Möhtərəm cənab Prezident, bu gün açılışına toplaşdığımız Küllülü-Zərdab magistral su kəməri Sizin “Azərbaycan əhalisi 24 saat keyfiyyətli su almalıdır” tapşırığınızın icrası istiqamətində atılmış növbəti uğurlu addımdır.

Cənab Prezident, diqqətinizə çatdırmaq istəyirəm ki, Zərdab şəhərində mərkəzləşdirilmiş içməli su sistemi 1980-ci illərin əvvəllərində yaradılmışdır. Şəhərin təxminən yarısını əhatə edən şəbəkə artıq istismar müddətini başa vurmuşdur. Mərkəzləşdirilmiş şəbəkə olmadığından Zərdab şəhərinin əhalisinin yarısı suya olan tələbatını fərdi qaydada ödəyir. Şəhərdə kanalizasiya şəbəkəsi, ümumiyyətlə, yoxdur.

Möhtərəm cənab Prezident, diqqətinizə çatdırım ki, Zərdab şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi üzrə tikinti işlərinə təxminən bir il əvvəl başlanılmışdır. Layihə çərçivəsində Küllülü mənbəyində sugötürücü qurğu tikilmiş və buradan Zərdab şəhərinə 72 kilometr uzunluğunda özüaxımlı magistral su kəməri çəkilmişdir. Bu müddətdə magistral kəmərlə yanaşı, şəhərdaxili şəbəkənin tikintisi də aparılmışdır. İndiyə qədər Zərdab şəhərində 28 kilometr su xətləri, 12 kilometr kanalizasiya xətləri tikilmişdir. Layihənin icrası nəticəsində Zərdab şəhəri və rayonun 15 kəndində yaşayan 36 min əhalinin içməli su problemi birdəfəlik həll olunacaqdır.

Qeyd edim ki, ilkin layihədə çirkab sularının kənarlaşdırılması üçün 7 nasos stansiyasının inşası nəzərdə tutulmuşdu. İntensiv yağıntılar zamanı nasosxanalar şəbəkəyə toplanan suları kənarlaşdıra bilmir və nəticədə kanalizasiya sisteminin işi pozula bilərdi. Bu amilləri nəzərə alaraq çirkab, yağış və yeraltı suların birgə idarə olunması əsas götürülməklə layihəyə dəyişikliklər edilmişdir. Zərdab şəhərinin kanalizasiya şəbəkəsi layihəsində nasos stansiyaları ləğv edilmiş, əvəzində özüaxımlı mikrotunellərin tikintisi variantına üstünlük verilmişdir. Bu sistem çirkab suların optimal idarəolunması ilə yanaşı, gələcəkdə yağış və drenaj şəbəkəsinin tikintisi üçün də etibarlı kommunikasiya rolunu oynayacaqdır.

Möhtərəm cənab Prezident, icazənizlə, paytaxt Bakıda və Abşeron yarımadasında, eləcə də regionlarda həyata keçirdiyimiz digər layihələr haqında qısaca məlumat verim. 2011-ci ilin may ayında təsdiqlədiyiniz “2011-2013-cü illərdə Bakı şəhəri və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq, Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğusunun, Ceyranbatan-BalaxanıRamana-Zirə magistral su kəmərinin, anbar komplekslərinin inşası uğurla davam etdirilir. Qəsəbə və kəndlərin içməli su və kanalizasiya şəbəkəsinin tikintisinə başlanılmışdır.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində isə 35 rayon mərkəzinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tikinti işləri sürətlə davam etdirilir. Bu layihələr çərçivəsində 250-dən artıq kəndə də suyun verilməsi nəzərdə tutulur. Bir faktı xüsusi qeyd etmək istəyirəm ki, “Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sifarişi ilə 22 rayonda həyata keçirilən layihələr çərçivəsində bu ilin 9 ayı ərzində 140 kilometr magistral su kəməri, 430 kilometr su şəbəkəsi, 55 kilometr kanalizasiya kollektoru və 230 kilometr kanalizasiya xətti tikilmişdir.

Cənab Prezident, “Azərsu” Açıq Səhmdar Cəmiyyəti tərəfindən ölkə ərazisində qeyri-bərabər paylanmış su ehtiyatlarından səmərəli istifadə, içməli su, kanalizasiya xidmətləri və yağış sularının idarəolunmasını özündə əks etdirən layihələr hazırlanır. Bakı şəhəri və Abşeron yarımadası üzrə “Master plan” yekunlaşmaq üzrədir. Bu konsepsiyanın davamı olaraq bütün ölkə ərazisini əhatə edəcək “Master plan”ın işlənməsinə hazırlıq görülür. Bu “Master plan”da qlobal iqlim dəyişikliyi nəzərə alınmaqla respublika ərazisindəki yeraltı və yerüstü su ehtiyatları yenidən qiymətləndiriləcəkdir. Layihədə bu ehtiyatlardan əhalinin su təchizatında optimal istifadə variantları da öz əksini tapacaqdır. Artıq bununla bağlı müəyyən tədqiqatlar aparılmış və ilkin təkliflər hazırlanmışdır. Hazırlanmış təkliflər yaxın vaxtlarda Sizə təqdim olunacaqdır.

Möhtərəm cənab Prezident, "Azərsu" Açıq Səhmdar Cəmiyyəti ölkə əhalisini fasiləsiz keyfiyyətli içməli su ilə təmin etmək, kanalizasiya xidmətlərinin yaxşılaşdırılması barədə tapşırıqlarınızı, eləcə də təsdiq etdiyiniz Dövlət proqramlarını vaxtında və keyfiyyətlə icra etmək üçün bütün qüvvələrini səfərbər etmişdir. Daim Sizin diqqət və qayğınızı hiss edən çoxminli kollektivimiz etimadınızı doğrultmaq üçün bundan sonra da səylə çalışacaqdır. Diqqətinizə görə təşəkkür edirəm.

* * * *

Zərdab şəhər 1 nömrəli məktəb-liseyin müəllimi, "Tərəqqi" medalı ilə təltif olunmuş Firuzə QOCAYEVA respublikanın bütün regionları kimi, Zərdaba da göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına zərdablıların adından minnətdarlıq edərək dedi:

- Möhtərəm cənab Prezident, bu gün biz zərdablılar üçün çox sevimli bir gündür. Siz bu gün zərdablılara insan həyatı üçün əvəzsiz olan bir nemət – təmiz su bəxş edirsiniz. İcazə verin rayonumuzun bütün sakinlərinin dərin minnətdarlığını və səmimi təşəkkürlərini Sizə çatdırım.

Həyatımızda təmiz suyun necə böyük əhəmiyyət kəsb etdiyini hamımız yaxşı bilirik. Biz zərdablılar həmişə təmiz sudan korluq çəkmişik. Daim Kür çayının bulanıq və çirkli suyundan istifadə etməyə məcbur olmuşuq. Bu da bizim sağlamlığımıza, həyat şəraitimizə öz mənfi təsirini göstərirdi. Uzun illər idi ki, biz təmiz su həsrəti ilə yaşayırdıq. Bu gün isə Siz bizi çoxdan gözlədiyimiz arzumuza çatdırmısınız. Tapşırığınızla qısa müddətdə Ağsu rayonundan, uzaq məsafədən Zərdaba bulaq suyu çəkilmişdir. Bu, zərdablılar üçün son 100 ildə ən böyük bir hadisədir. İndi təmiz sudan rayon əhalisinin yarısından çoxu istifadə edəcəkdir. Yeni çəkilmiş bu su xətti Sizin zərdablılara verdiyiniz böyük bir töhfədir. Bu Sizin sakinlərimizin sağlam yaşamasına, ümumiyyətlə, insan amilinə necə yüksək diqqət yetirməyinizin və önəm verməyinizin bariz bir nümunəsidir.

Möhtərəm cənab Prezident, Siz həmişə insanların qayğıları ilə yaşayırsınız. Harada bir problem, çətinlik görürsünüzsə, həmin anda onu aradan qaldırırsınız. Sizin həyata keçirdiyiniz bütün tədbirlər bizim yaxşı, firavan yaşamağımıza, rifah halımızın yüksəlməsinə xidmət edir. Siz həm də bizim təhlükəsizliyimizin qarantısınız. Bütün Azərbaycan xalqı kimi, biz zərdablılar da bunu hər zaman hiss edir və daim Sizə arxalanırıq.

Mən şahidi olduğum bir məsələni demək istəyirəm ki, 1978-ci ildə ulu öndərimiz Heydər Əliyev, 2010-cu ildə isə Siz Zərdabı və zərdablıları Kür çayının daşması nəticəsində baş vermiş təbii fəlakətdən xilas etmisiniz. Sakinlərimiz o çətin günlərdə dövlətin gücünü və onun rəhbərinin qayğısını bir daha gördülər. Sizin bir çağırışınızla bütün ölkə ayağa qalxmışdı. Doğrudan da heç bir neçə ay keçmədi ki, bütün fəlakət bölgəsində olduğu kimi, Zərdabda da zərər çəkmiş ailələr üçün yeni qəsəbə salındı, sosial obyektlər inşa edildi, insanlara maddi kömək göstərildi. Zərdablılar bütün bunlara görə bir daha Sizə öz dərin minnətdarlıqlarını bildirirlər.

Möhtərəm cənab Prezident, Sizin diqqət və qayğınız sayəsində bu gün Zərdab rayonunda çoxlu işlər görülür, insanları narahat edən problemlər aradan qaldırılır. Şəhərimiz tamamilə qazlaşdırılıb, kəndlərimizə yeni qaz xətləri çəkilir, yollarımız asfaltlanır, yeni təhsil obyektləri tikilib istifadəyə verilir. Yeri gəlmişkən, mən burada bir məsələni də qeyd etmək istərdim ki, son illərdə təhsilimizə göstərdiyiniz qayğı xüsusilə yaddaqalandır. Rayonumuzda təkcə son 3 ildə 13 məktəb binası tikilib istifadəyə verilmiş, 3 məktəb binası hazırda inşa edilməkdədir. Məlumat üçün bildirmək istəyirəm ki, ötən əsrin 80-ci illərindən son dövrlərə qədər isə cəmi 3 məktəb binası tikilmişdi.

Cənab Prezident, şəhərimiz də gündən-günə gözəlləşir, hər tərəfdə geniş abadlıq-quruculuq işləri aparılır, sakinlərimizin istirahəti üçün hər cür şərait yaradılır. Bu gün açılışını etdiyiniz Heydər Əliyev və Gənclər mərkəzləri isə bütün rayon sakinlərinə, xüsusən də gənclərimizə ən böyük hədiyyədir. Bütün bunlar Sizin və Sizinlə çiyin-çiyinə çalışan çox hörmətli Mehriban xanım Əliyevanın rayonumuza, biz zərdablılara göstərdiyiniz yüksək diqqət nəticəsində həyata keçirilən çoxsaylı tədbirlərdəndir.

Cənab Prezident, bizim yaxşı və firavan yaşayışımız üçün gördüyünüz bütün bu həyati əhəmiyyətli işlərə görə Sizə bir daha bütün Zərdab sakinlərinin dərin minnətdarlığını bildirir, Sizə və ailənizə cansağlığı, xoşbəxtlik arzulayıram. Ömrünüz su qədər uzun olsun. Allah Sizi qorusun. Diqqətinizə görə çox sağ olun. Sonda xatirə şəkli çəkdirildi.

* * * *

Sonra dövlətimizin başçısı veteranlarla görüşdü.

VETERAN: Cənab Prezident, Zərdaba xoş gəlmisiniz! Siz həm bizim Prezidentimiz, həm də zərdablısınız. Mən bunu səmimi deyirəm.

Mən yaxşı xatırlayıram, vaxtilə bura şoran torpaq idi, burada heç nə yox idi. Allah ulu öndərimiz Heydər Əliyevə qəni-qəni rəhmət etsin! Onun qarşısında baş əyirəm. 1978-ci ildə mən ulu öndərimizlə görüşmüşəm. Mənim əməyimi o, mükafatlandırdı.

Mən xoşbəxtəm. Beşinci dəfədir Sizinlə görüşürəm. Axırıncı dəfə “Bibiheybət” məscidinin açılışında görüşmüşük. Bu yaxınlarda Mərdəkana getmişdim. Siz oraya açılışa gəlmişdiniz. Nələr yaradılıb orada?! Biz Sizə minnətdarlığımızı bildiririk. Sizə uzun ömür, cansağlığı arzulayırıq. Siz bizim gözəl, sadə Prezidentimizsiniz. Allah Sizi qorusun!

Prezident İlham ƏLİYEV: Çox sağ olun.

VETERAN: Keçən il mayın 6-da Sizin buraya gəlişiniz bizim üçün çox uğurlu, gözəl gün oldu. İnanın, biz Sizi görəndə elə bilirik ki, bütün dünyanı bizə bəxş edirsiniz.

Sizin 155 dövlət tərəfindən dəstək almağınız, cənab Prezident, Sizin şəxsinizdə bütün Azərbaycan xalqına verilən qiymətdir. Keçən il öz əllərinizlə mənə verdiyiniz “Tərəqqi” medalına görə Sizə minnətdarlıq edirəm.

Mən əzizimiz Mehriban xanıma, Leyla xanıma da Allahdan cansağlığı arzulayıram. Çünki onlar da Azərbaycanın bütün dünyada tanıdılmasında böyük işlər görürlər. Veteranlara təşəkkür edən Prezident İlham Əliyev onlarla xatirə şəkli çəkdirdi.

**AZƏRTAC**
**2012, 7 oktyabr**

## FÜZULİ SU ELEKTRİK STANSİYASI İSTİSMARA VERİLMİŞDİR

*(15 dekabr 2012-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Füzuli Su Elektrik Stansiyasının açılışında iştirak etmişdir.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına məlumat verdi ki, Füzuli Su Elektrik Stansiyası Baş Mil kanalı üzərində 14 hektar ərazidə inşa olunmuşdur. Stansiyanın ümumi gücü 25,2 meqavatdır. Su elektrik stansiyası Füzuli rayonundakı 110 kilovoltluq "Haramı" yarımstansiyası vasitəsilə respublikanın enerji sisteminə birləşdiriləcək və sistemlə paralel rejimdə işləyəcəkdir.

Diqqətə çatdırıldı ki, Füzuli Su Elektrik Stansiyasının tikintisi Azərbaycan Prezidentinin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na 2007-ci il 31 oktyabr tarixli Əlavəyə əsasən həyata keçirilmişdir. Stansiyanın təməlini 2008-ci ildə Füzuliyə səfəri çərçivəsində Prezident İlham Əliyev qoymuşdur. Tikinti işləri yerli "Azenco" şirkəti tərəfindən həyata keçirilmişdir.

Elektrik stansiyasının suqəbuledici qurğusuna baxan dövlətimizin başçısına məlumat verildi ki, qurğu üçün Baş Mil kanalı üzərində 40 min ton tutumu olan su anbarı yaradılmışdır. Anbara toplanan su dörd hidroturbin vasitəsilə generatora ötürülür. Hər bir hidroturbin avtomatlaşdırılmış qapılarla açılıb-bağlanır. Stansiyanın işləməsi üçün nəzərdə tutulan su müəyyən həcmdən artıq olduqda digər xətt vasitəsilə Baş Mil kanalına ötürülür. Lazım olan su isə hər birinin uzunluğu 250 metr, diametri isə 3 metr olan 4 boru vasitəsilə generator və digər mexaniki avadanlığın yerləşdiyi SES binasına ötürülür. Stansiyada texnoloji avadanlıq kompyuterlərlə idarə olunur. Bütün emal prosesi avtomatlaşdırılmış şəkildə həyata keçirilir. Bu məqsədlə binada ayrıca idarəetmə mərkəzi yaradılmışdır. Mərkəz həm elektrik enerjisinin istehsalı prosesini idarə edir, həm də baş verə biləcək nasazlıqları əvvəlcədən qeydə alaraq müvafiq tədbirlərin görülməsi üçün xəbərdarlıq edir.

İdarəetmə mərkəzinə gələn Prezident İlham Əliyev Füzuli Su Elektrik Stansiyasını işə saldı.

Bildirildi ki, ərazidə iki körpü və kabel estakadası qurulmuşdur. Stansiyanın ərazisində 110 kilovoltluq yeni yarımstansiya tikilmiş və onunla əlaqəli digər yarımstansiyalar yenidən qurulmuşdur. Ərazidə geniş abadlıq-quruculuq və yaşıllaşdırma işləri aparılmışdır. Stansiyanın ərazisində bütün lazımi avadanlıqla təchiz olunmuş ikimərtəbəli inzibati bina inşa edilmişdir. Su Elektrik Stansiyasının inşasında 400 nəfər işçi çalışmışdır. İlkin mərhələdə 35 nəfərin işləyəcəyi stansiya Aran bölgəsinin enerji təhlükəsizliyinin və dayanıqlılığının təmin olunmasında mühüm rol oynayacaqdır. Stansiyada ildə 100 milyon kilovat/saata yaxın elektrik enerjisi istehsal olunacaqdır.

Stansiyada görülən işlərdən razılığını bildirən Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri və energetiklərlə görüşdü.

**Prezident İlham ƏLİYEV** rayon ictimaiyyətinin nümayəndələrini və energetikləri salamlayaraq dedi:

- Əziz dostlar, əziz füzulililər!

Bu gün sizinlə bərabər olmaq mənim üçün çox xoşdur. Dördüncü dəfədir ki, Prezident kimi Füzuli rayonuna səfər edirəm. Bu dəfə gözəl obyektlərin açılışında iştirak etmişəm. Onların içində əlbəttə ki, ən böyük obyekt Füzuli Su Elektrik Stansiyasıdır.

Dörd il bundan əvvəl sizinlə bərabər bu stansiyanın təməl daşını qoyduq. Çox şadam ki, artıq stansiya istifadəyə verilmişdir. Son illər ərzində Azərbaycanda tikilən ən böyük su

elektrik stansiyasıdır. Gücü 25 meqavatdır və Füzuli rayonunun enerjiyə olan tələbatının bir hissəsini ödəyəcəkdir. Stansiyanın əhəmiyyəti ondan ibarətdir ki, bu, su elektrik stansiyasıdır. Burada istehsal olunan enerjinin qiyməti də aşağıdır. Eyni zamanda, bu stansiya vaxtilə işğal edilmiş ərazidə yaradılmışdır. Bu da stansiyanın əhəmiyyətini böyük dərəcədə artırır. Erməni işğalçı qüvvələri Füzuli rayonunu işğal etmişlər. Ancaq ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu rayonun bir hissəsini işğalçılardan azad etmişdir. Artıq bu ərazilərdə böyük quruculuq-abadlıq işləri aparılır, evlər tikilir, binalar bərpa edilir, sənaye müəssisələri yaradılır.

Bu gün mən Füzulidə bir neçə obyektin açılışında iştirak etmişəm. Gənclər Mərkəzinin, Heydər Əliyev Mərkəzinin, Heydər Parkının, məktəbin və digər obyektlərin açılışlarında iştirak etmişəm. Əvvəlki dövrdə Muğam Mərkəzi, Olimpiya İdman Kompleksi, Diaqnostika Mərkəzi tikilmişdir. Yəni, Füzuli rayonunun inkişafı üçün bütün lazımi tədbirlər görülür. Beş il bundan əvvəl Horadiz qəsəbəsinə şəhər statusu verilmişdir və bu gün Horadiz uğurla inkişaf edir.

Növbəti illərdə Füzuli rayonunun inkişafı ilə bağlı əlavə tədbirlər görüləcəkdir. Erməni vəhşiləri tərəfindən dağılmış evlərin bərpası məsələsi də vardır. Bu gün bu barədə məsələ qaldırıldı. Bu məsələ də öz həllini tapacaqdır. Rayonun sosial-iqtisadi inkişafının sürətləndirilməsi üçün əlavə tədbirlər görüləcəkdir.

Yeni stansiyanın işə salınması əslində Azərbaycanda bu sahədə görülən işlərin təzahürüdür. Çünki son illər ərzində ölkəmizdə elektrik enerjisi ilə bağlı bütün məsələlər yüksək səviyyədə öz həllini tapmışdır. 1500 meqavat yeni güclər yaradılmış və beləliklə, Azərbaycan öz enerji təhlükəsizliyi məsələlərini tam şəkildə həll etmişdir.

Əvvəllər biz elektrik enerjisini idxal edirdik. İndi isə biz qonşu ölkələrə - Türkiyəyə, Gürcüstana, İrana, Rusiyaya elektrik enerjisini ixrac edirik. Yəni, biz bu sahədə ciddi dönüş yarada bilmişik. Bu gün bütün bölgələrdə elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Yeni tikilən və tikilməkdə olan stansiyalar bizə imkan verəcək ki, bu sahədə əldə edilmiş uğurları artıraq.

Hazırda ölkəmizin cənubunda "Cənub" elektrik stansiyasının tikintisi davam edir. Bakıda "Şimal-2" elektrik stansiyasının tikintisi davam edir. Bu iki stansiyanın toplam gücü 1200 meqavatdan artıqdır. Yəni, biz bütün bu planları elə qururuq ki, gələcəkdə də Azərbaycan enerji təhlükəsizliyi məsələlərində daim öz sözünü dünyada deyə bilsin. Bu gün Azərbaycanda bu sahədəki icra edilən layihələr nəinki ölkəmiz, regionumuz üçün, eyni zamanda, Avropa üçün də çox böyük əhəmiyyət daşıyır. Bütün sahələrdə olduğu kimi, iqtisadiyyat və sosial məsələlərin həlli üçün vacib olan enerji təhlükəsizliyi məsələləri də yüksək səviyyədə həll edilir. Bu stansiya bunun gözəl nümunəsidir.

Bu stansiya ekoloji cəhətdən də çox sərfəlidir. Bildiyiniz kimi, son illər ərzində Azərbaycanda bütün stansiyalar ya qaz ilə, ya da su mənbəyi hesabına fəaliyyət göstərir. Biz artıq mazutdan istifadə etmirik və beləliklə, ölkəmizin ekoloji vəziyyətini də yaxşılaşdırırıq. Ancaq iqtisadiyyat artır, tələbat artır, əhalinin sayı artır. Beləliklə, elektrik enerjisinə olan tələbat artacaq və yenə qeyd etmək istəyirəm ki, biz yeni stansiyaların tikintisi ilə məşğuluq. Hazırda bərpa olunan elektrik enerjisinin yaradılması ön plandadır və bu sahədə su, külək, günəş stansiyalarının tikintisi nəzərdə tutulur.

İqtisadi artım, əlbəttə, tələb edir ki, biz iqtisadiyyatı sürətləndirmək üçün əlavə tədbirlər görək. Çünki Azərbaycanda son illər ərzində əldə edilmiş iqtisadi uğurlar, yeni yaranmış müəssisələr, infrastruktur layihələrinin həyata keçirilməsi, əlbəttə ki, ölkəmizi böyük dərəcədə qabağa aparmışdır. İqtisadi sahədə əldə edilmiş uğurlar bizə imkan verir ki, sosial məsələləri də uğurla həll edək. Çünki bu iki məsələ bir-biri ilə sıx bağlıdır.

Bütün beynəlxalq kredit reytinqləri böhranlı illərdə Azərbaycanın iqtisadi göstəricilərini yüksək qiymətləndirirlər, iqtisadiyyatımız rəqabət qabiliyyətli, dayanıqlı iqtisadiyyatdır. Biz iqtisadi siyasətdə ancaq daxili imkanlara arxalanırıq. Bizi bəzi başqa ölkələrdən fərqləndirən cəhət məhz ondan ibarətdir ki, xarici dövlət borcumuz çox aşağı səviyyədədir. Biz yalnız Azərbaycanın daxili imkanlarını səfərbər edərək öz iqtisadi gələcəyimizi qururuq. Bu sahədə, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılmış addımlar bizə imkan verir ki, bu gün iqtisadiyyat enerji sektorundan daha az asılı olsun. Artıq 2012-ci il başa çatır. Bu ilin yekunları da bunu göstərir ki, qeyri-neft iqtisadiyyatımız təxminən 10 faizə yaxın artıb. Bu da dünya miqyasında, xüsusilə, böhranlı illərdə çox yüksək göstəricidir.

Növbəti illərdə bu gün icra edilən layihələrin başa çatması və yeni layihələrin icra edilməsi nəticəsində Azərbaycan inkişaf etmiş ölkələrin sırasına daxil ediləcəkdir. Mən bu məsələ ilə bağlı artıq əvvəlki dövrlərdə fikirlərimi kifayət qədər geniş şəkildə bildirmişəm. İqtisadi cəhətdən inkişaf etmiş ölkəyə çevrilmək üçün, əlbəttə ki, bölgələrin inkişafı lazımdır. Biz son illər ərzində regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində bu istiqamətdə də böyük nailiyyətlərə çata bilmişik. İşsizlik azalıb. Yoxsulluq böyük dərəcədə - beş dəfə azalmışdır. Bu gün Azərbaycana xaricdən işləmək üçün gələnlərin sayı artır və bu məqsədlə vaxtilə Miqrasiya Xidmətini yaratdıq ki, əmək resurslarının səmərəli şəkildə tənzimlənməsi üçün bizdə işlək mexanizm olsun.

Növbəti illərdə Azərbaycanın uğurlu inkişafı heç kimdə şübhə doğurmur - nə ölkə əhalisində, nə beynəlxalq maliyyə qurumlarında. Bizim bütün iqtisadi proqnozlarımız çox müsbət və çox təsirlidir. Əlbəttə, hər birimiz çalışmalıyıq ki, ölkəmizi daha da inkişaf etdirək, gözəlləşdirək. Xüsusilə, bölgələrdə abadlıq-quruculuq işləri daha da sürətlə getməlidir. Biz bu inkişafı Füzuli rayonunun timsalında görürük. Mən çox şadam ki, son iki il ərzində rayonda böyük dəyişikliklər baş vermişdir. Mən yenə qeyd etmək istəyirəm ki, Prezident kimi dördüncü dəfədir Füzuliyə səfər edirəm. Son səfərimdən sonra keçən dövr, doğrudan da Füzuli rayonu üçün çox böyük uğurlarla zəngin olan bir dövr olmuşdur. Qısa müddət ərzində böyük işlər görülmüş, parklar salınmış, yeni sənaye müəssisələri yaradılmışdır. Abadlıq işləri görülür və bu, məni çox sevindirir. Çünki Füzuli rayonu ölkəmiz üçün çox böyük əhəmiyyətə malik olan bir diyardır. Füzulililər bütün dövrlərdə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində öz rolunu oynamışlar. Müharibə dövründə böyük qəhrəmanlıq göstərmişlər.

Ulu öndər Heydər Əliyev Füzuliyə daim böyük diqqət göstərmişdir - həm 1970-ci illərdə Azərbaycanda rəhbərlik edəndə, eyni zamanda, müstəqillik dövründə. Məhz onun rəhbərliyi ilə Füzulinin 22 kəndi işğalçılardan azad edilmişdir. Bu gün bu ərazilərdə həyat qaynayır, inkişaf edir. Füzulinin bərpası, işğaldan azad edilmiş torpaqların inkişafı, burada görülən işlər Azərbaycan dövlətinin gücünü göstərir. Onu göstərir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəndən sonra hazırda işğal altında olan bütün ərazilər də belə gözəl, abad yerlərə çevriləcəkdir. Bütün yaşayış məntəqələri, bütün kəndlər, o cümlədən Şuşa və Xankəndi şəhərləri Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra qurulacaq, yenidən tikiləcək və Azərbaycan vətəndaşları orada yaşayacaqlar. Hər birimiz öz işimizlə o tarixi günü yaxınlaşdırırıq. Çünki ölkəmizin artan qüdrəti, beynəlxalq nüfuzu, ölkədə gedən müsbət proseslər bizim gücümüzü artırır.

Bu gün Azərbaycan beynəlxalq müstəvidə söz sahibidir, böyük hörmətə malik olan ölkədir. Təsadüfi deyil ki, 155 ölkə Azərbaycanın namizədliyini dəstəkləmişdir və bu gün biz dünyanın ən mötəbər qurumunun - BMT Təhlükəsizlik Şurasının üzvüyük, bu təşkilatda çox fəal və uğurla fəaliyyət göstəririk.

Bu yaxınlarda biz Qoşulmama Hərəkatına üzv olduq və dərhal bu təşkilatın birinci zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı çox dəyərli qətnamə qəbul edildi. Orada göstərilir ki, bu məsələ yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Yəni, bizim beynəlxalq nüfuzumuz, iqtisadi gücümüz artır, hərbi potensialımız da artır.

Ermənistana gəldikdə isə, onların işğalçı siyasəti özlərini ağır vəziyyətə salmışdır. Onların rəsmi statistik məlumatlarına görə, hər il yüz mindən artıq vətəndaş bu ölkəni tərk edir. Ümidsizlik, özbaşınalıq, səfalət və iqtisadi tənəzzül - bunlardır Ermənistanı başqa ölkələrdən fərqləndirən əlamətlər. Azərbaycan isə inkişaf edir və bizdə olan inkişaf uzunmüddətlidir, dayanıqlıdır. Bir daha demək istəyirəm ki, görülən tədbirlər nəticəsində bu gün Azərbaycan bölgənin aparıcı ölkəsinə çevrilibdir. İllər keçdikcə Ermənistan ilə Azərbaycan arasındakı fərq dərinləşəcək - həm iqtisadi, həm hərbi və həm də demoqrafik sahədə. Bizim əhalinin sayı artır, Ermənistanda isə əhali azalır.

Mən heç şübhə etmirəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Bunu deməyə bir neçə əsas amil var - iqtisadi imkanlar, beynəlxalq mövqeyimiz, beynəlxalq hüquq normaları və Azərbaycan Ordusunun qüdrəti. Mən əminəm və bir daha demək istəyirəm ki, işğala son qoyulandan sonra hazırda işğal altında olan bütün torpaqlar gözəlləşəcək, orada abadlıq işləri aparılacaq, yeni müəssisələr yaradılacaqdır. Biz öz tarixi və dini abidələrimizi bərpa edəcəyik. Erməni faşizminin, erməni vəhşiliyinin törətdiyi cinayətlərin fəsadlarını aradan qaldıracağıq. Ölkəmiz uğurla inkişaf edəcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir. Bunu etmək üçün biz bütün sahələrdə daha da fəal olmalıyıq. İlk növbədə ölkə daxilində proseslər müsbət istiqamətdə gedir və getməlidir.

Mən bir daha bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik etmək istəyirəm. Füzulidə son illər ərzində görülən işlərlə bağlı sizi təbrik etmək istəyirəm. Sizi əmin etmək istəyirəm ki, mən Prezident kimi bundan sonra da Füzuli rayonunun inkişafı ilə bağlı səylərimi göstərəcəyəm. Daim bu məsələ diqqət mərkəzində olacaqdır. Biz hələ çox-çox görüşəcəyik, çünki Füzulidə gələcəkdə böyük işlər görüləcək, böyük açılışlar olacaqdır. Bir daha sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

* * * *

Füzuli rayon ictimaiyyəti adından çıxış edən Tural NƏBİYEV rayonun inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına təşəkkür edərək dedi:

- Möhtərəm cənab Prezident!

İcazə verin Sizi bütün füzulililər adından salamlayım və "Xoş gəlmisiniz!" deyim.

Hazırda məskunlaşdığımız bu ərazilər 1994-cü ildə ulu öndərimizin qətiyyətli addımları nəticəsində düşmən tapdağından azad edilmişdir. Biz çox sevinirik ki, Sizin rəhbərliyiniz və qayğınız sayəsində bu ərazilər indi abadlaşır, inkişaf edir, gülüstana çevrilir. Qısa müddət ərzində burada yeni qəsəbələr salındı. Minlərlə ailə, on minlərlə insan öz yurd-yuvalarına qayıtdı, yeni salınmış qəsəbələrdə məskunlaşdı. İşğaldan azad olunmuş ərazilərdə həyat qaynadı. Təhsil, səhiyyə, mədəniyyət obyektləri tikildi. Yeni yollar inşa edildi. Qaz, elektrik xətləri çəkildi. Biz başa düşürük ki, düşmənlə təmas xəttinə yaxın ərazidə istifadəyə verilən hər bir obyektin ayrıca siyasi və mənəvi dəyəri vardır. Bu işlər bizim hər birimizdə qələbəyə, xoşbəxt gələcəyimizə inamı daha da artırır.

Möhtərəm cənab Prezident, qürur hissi ilə qeyd etmək istəyirəm ki, Sizin qətiyyətinizdən ruhlanan füzulililər atəşkəsin tez-tez pozulduğu bir şəraitdə düşmənlə üzbəüz dayanaraq bu gün heç bir qorxu hiss etmədən yaşayıb yaradırlar. İşğal dövründə dağıdılmış

Horadiz Sizin qayğınızla bütün əhalimizin gözü qarşısında öz görkəmini tamamilə dəyişərək müasir bir şəhərə çevrilmişdir. Burada Muğam Mərkəzi, İdman Kompleksi, Diaqnostika Mərkəzi inşa edilmiş, yeni park və xiyabanlar salınmış, küçələrimiz müasir üslubda yenidən qurulmuşdur.

Bu gün isə bizim üçün bu nəhəng su elektrik stansiyasını istifadəyə verirsiniz. Bununla da Siz füzulililərə böyük həyat, gözlərinə işıq bəxş edirsiniz. Hər evə, hər bir sakinimizə nur verirsiniz. Biz bununla fəxr edir, göstərdiyiniz qayğıya görə Sizə və cəmiyyətimizin həyatının çox mühüm sahələrinin inkişafına öz töhfələrini verən, xalqımızın sevimli qızı Mehriban xanım Əliyevaya bütün füzulililərin minnətdarlığını çatdırıram.

Bütün bunlar onu göstərir ki, Füzuli torpaqlarının 55 faizi işğal altında olsa da, rayonumuz bu gün yaşayır və inkişaf edir. Artıq əhalimizin 60 faizi, yəni 70 min nəfər öz torpaqlarına qayıtmışdır. Bunu düşmənlərimiz də görür. Sizin son müşavirələrin birində dediyiniz sözlər bizim yaddaşımıza həkk olunub: “Bizim hər bir qələbəmiz Ermənistanın faciəsidir. Hər bir uğurumuz onların məyusluğudur. Bizim uğurlarımız hələ qabaqdadır. Ən böyük uğur o vaxt olacaqdır ki, Azərbaycan bayrağı Şuşada və Xankəndidə dalğalanacaqdır. Mən buna əminəm və buna şübhə etmirəm”. Bəli, cənab Prezident, o gün uzaqda deyildir. Biz hamımız əminik ki, gün gələcək torpaqlarımız düşmən tapdağından azad olunacaqdır. Mən bütün Füzuli gəncləri adından deyirəm, cənab Prezident, biz Sizin əmrinizi gözləyirik. Əgər torpaqlarımız sülh yolu ilə azad olunmasa Sizin bir çağırışınız və rəhbərliyinizlə biz gənclər müsəlləh əsgərə çevrilib Qarabağımızı yağı düşməndən azad etməyə qadirik. Siz buna əmin ola bilərsiniz.

Siz biz gənclər üçün bir nümunəsiniz, cənab Prezident. Ən böyük azərbaycanlı kimi Vətənini, xalqını sevmək nümunəsi. Siz öz fəaliyyətinizlə bizə Vətənə sədaqətli olmağı, onun yolunda qəhrəmanlığa və fədakarlığa hər an hazır olmağı öyrədirsiniz. Biz gənclər Sizinlə fəxr edir, daim Sizə arxalanırıq. Bu gün Siz Azərbaycanda gördüyünüz işlərlə dövlətimizi dünya müstəvisində yüksəklərə qaldırmısınız. Sizin əzmkarlığınızın, Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə çatdırılması istiqamətində apardığınız siyasətin nəticəsidir ki, bu gün ölkəmiz bütün dünyanı heyran qoyan mötəbər beynəlxalq siyasi, mədəni tədbirlərin keçirildiyi bir məkana çevrilmişdir. Bu, dünya birliyi tərəfindən ölkəmizə, Sizin şəxsinizdə bütün xalqımızın uğuruna verilən yüksək qiymətdir. 2015-ci ildə birinci Avropa Olimpiya Oyunlarının Azərbaycanda keçirilməsi barədə qərar da bunun yeni bariz nümunəsidir. Biz yaxşı başa düşürük ki, ölkəmizə gələn hər bir qonaq burada haqq sözünü eşidir, əsl həqiqəti görür və özü ilə aparıb bütün dünyaya yayır. Bu, Sizin Qarabağımızın azad olunması istiqamətində apardığınız titanik işlərin yalnız bir hissəsidir.

Möhtərəm cənab Prezident, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, dövlətimizin daha da qüdrətlənməsi, torpaqlarımızın azad olunması istiqamətində apardığınız işlərdə biz füzulililər hər zaman Sizinləyik və xoşbəxt gələcəyimizi yalnız və yalnız Sizinlə bağlayırıq. Siz bizim əbədi, daimi Prezidentimizsiniz.

Çox sağ olun!

* * * *

Bununla da Prezident İlham Əliyevin Füzuli rayonuna səfəri başa çatdı.

**AZƏRTAC**
**2012, 15 dekabr**

## BEYLƏQAN ŞƏHƏRİNİN SU VƏ KANALİZASİYA SİSTEMLƏRİ KOMPLEKSİNİN TƏMƏLİ QOYULMUŞDUR

*(28 oktyabr 2012-ci il)*

Oktyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqan şəhərinin su və kanalizasiya sistemləri kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir. İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Prezident İlham Əliyev kompleksin idarəetmə mərkəzi, şəhərin su və kanalizasiya sisteminin yenidən qurulması və situasiya planı layihələrini əks etdirən stendlərə baxdı.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov bildirdi ki, təmsil etdiyi qurum yalnız Beyləqan şəhərinin bir hissəsinə xidmət göstərir. Hazırda Beyləqan şəhərində yaşayan 15,5 min sakinin 7,6 mini və ya 49 faizi mərkəzləşdirilmiş şəbəkədən su alır. Qalan əhali isə öz tələbatını fərdi qaydada ödəyir. Şəhərdə mərkəzləşdirilmiş içməli su şəbəkəsi 1981-ci ildə yaradılmışdır. Mənbə kimi on subartezian quyusundan istifadə olunur. Şəhərin bir hissəsində 50 kilometr uzunluğunda su şəbəkəsi, 11,4 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi, tutumu iki min kubmetr olan iki su anbarı və iki nasos stansiyası mövcuddur. Şəhərin çirkab suları təmizlənmədən rayon mərkəzinin kənarındakı şor kollektora axıdılır. Beyləqan şəhərində mövcud su və kanalizasiya şəbəkəsi istismara yararsızdır.

Diqqətə çatdırıldı ki, Beyləqan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə reallaşdırılır. Layihə çərçivəsində rayon mərkəzinin su və kanalizasiya şəbəkəsi tamamilə yenidən qurulacaq, şəhərin yaxınlığındakı Şəfəq və Əlinəzərli kəndlərinə içməli su veriləcəkdir.

Dövlətimizin başçısı kompleksin təməlini qoydu. Prezident İlham Əliyev inşaatçılara uğurlar arzuladı.

**AZƏRTAC**
**2012, 28 oktyabr**

## İMİŞLİ ŞƏHƏR SU ANBARLARI KOMPLEKSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*(28 oktyabr 2012-ci il)*

Oktyabrın 28-də Prezident İlham Əliyev İmişli şəhər su anbarları kompleksinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.

İmişli rayon ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Azərbaycan Prezidenti İmişli şəhərinin su və kanalizasiya sisteminin yenidən qurulması layihəsinin situasiya planını və İmişli şəhər su anbarları kompleksinin baş planını əks etdirən stendlərə baxdı.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov Prezident İlham Əliyevə məlumat verdi ki, "Regionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq bölgələrdə su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir. Belə bir böyük layihə İmişli rayonunda da həyata keçirilir. Şəhərdə mərkəzləşdirilmiş içməli su şəbəkəsi 1978-ci ildə yaradılmışdır. Mənbə kimi Bəhrəmtəpə qəsəbəsinin yaxınlığında qazılan 4 subartezian quyusundan istifadə olunur. Uzun müddətdir istismar olunan bu mənbənin su ehtiyatlarının keyfiyyətinin getdikcə aşağı düşməsi və qrunt sularının qarışması ilə duzlaşma ehtimalının artması şəhərin içməli su təsərrüfatının yenidən qurulması zərurətini yaratmışdır. Buna görə də İmişlidə yeni su anbarları kompleksi yaradılmışdır.

Su mənbəyinin texniki göstəriciləri barədə məlumat verilərkən Azərbaycan Prezidentinin diqqətinə çatdırıldı ki, İmişlinin su təchizatı və kanalizasiya sistemi şəbəkəsi tamamilə yenidən qurulacaqdır. Həmçinin rayon mərkəzi və magistral kəmərin keçdiyi ərazidə yerləşən 6 kəndə su veriləcəkdir.

Layihəyə uyğun olaraq istehlakçıların dayanıqlı və keyfiyyətli su ilə təmin edilməsi üçün mənbə olaraq Beyləqan rayonu ərazisindəki yeraltı sular seçilmişdir. Burada üç əsas subartezian quyusunda işlər başa çatdırılmış, iki ehtiyat quyunun qazılmasına isə hazırlıq görülür. Quyu zonasından İmişli şəhərinə 31 kilometr uzunluğunda magistral su xətti çəkilmişdir. Layihəyə uyğun olaraq, İmişli şəhərinə verilən suyun keyfiyyət göstəricilərini daim nəzarətdə saxlamaq üçün müasir standartlara cavab verən laboratoriya və avtomatik idarə olunmanı təmin edən SCADA sistemi yaradılacaqdır. Dövlətimizin başçısı rəmzi olaraq suyun şəhərə verilməsini təmin edən qurğunu işə salan düyməni basdı.

Sonra Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

**Prezident İlham ƏLİYEV mərasim iştirakçılarını salamlayaraq dedi:**

- Əziz dostlar, əziz imişlililər! Mən sizin hamınızı ürəkdən salamlayıram.

Bu gün biz sizinlə bərabər bu tarixi günü bir yerdə qeyd edirik. Bir il bundan əvvəl İmişlinin su təchizatının yaxşılaşdırılması üçün çox önəmli hadisə baş vermişdir.

Bu böyük su layihəsinin təməl daşını qoyduq. Çox şadam ki, bir ildən sonra artıq İmişliyə içməli suyun gətirilməsini biz bərabər qeyd edirik. Yaxın həftələrdə bu su mövcud şəbəkəyə qoşulacaqdır. Bununla paralel olaraq yeni, müasir supaylayıcı şəbəkə qurulur. Beləliklə, İmişli şəhərinin içməli su problemi birdəfəlik həllini tapacaqdır.

Bu, doğrudan da böyük və tarixi hadisədir. Çünki uzun illərdir ki, İmişli sakinləri təmiz, dayanıqlı içməli, suya möhtac idilər. Bu problem var idi. Mən bunu bilirdim və çalışırdıq ki, bu məsələni tezliklə həll edək. Çox şadam ki, nəhayət biz bu məsələni həll edirik və bu layihə, eyni zamanda, böyük ehtiyatla nəzərdə tutulmuşdur. Şəhərin inkişafını, əhalinin sayının artmasını nəzərə alır və 2035-ci ilə qədər bu layihə öz imkanlarını İmişli sakinlərinə təqdim edəcəkdir.

Bu, çox böyük tarixi layihədir. Çünki içməli su insan sağlamlığı üçün ən əsas məsələlərdən biridir. İnsan sağlamlığı isə bizim üçün, yəni dövlət üçün ən əsas məsələdir. Ümumiyyətlə, səhiyyə sisteminin təkmilləşdirilməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması, əhalinin təmiz içməli su ilə təmin edilməsi məsələləri diqqət mərkəzindədir. Bu gün İmişlidə yenicə əsaslı təmirdən çıxmış Mərkəzi Rayon Xəstəxanasının açılışını qeyd etdik. Bu xəstəxana ən yüksək standartlara cavab verir. Bu gün, eyni zamanda, içməli su layihəsinin açılışını qeyd edirik. Mən əminəm ki, bu layihələr, görülən işlər mütləq öz müsbət təsirini insanların sağlamlığında göstərəcəkdir. Çünki insan amili bizim üçün əsas sosial məsələdir. Bu gün bölgə sahibkarları ilə görüşdə də bu məsələyə toxundum. Çünki biz, əlbəttə, iqtisadi islahatları uğurla icra edirik, bölgələr inkişaf edir, gözəlləşir, abadlaşır, yeni iş yerləri açılır. Ancaq bütün bu işlərin təməlində və mərkəzində vətəndaşı dayanır. Azərbaycan vətəndaşı sağlam olmalıdır. Azərbaycan vətəndaşı yaxşı şəraitdə gözəl şəhərlərdə yaşamalıdır. Bütün infrastruktur layihələri icra edilməlidir ki, biz dünyanın inkişaf etmiş ölkələrinin səviyyəsindən geri qalmayaq. Biz bunu edirik, edəcəyik. Ölkəmizdə gedən quruculuq, abadlıq işləri hər bir rayonda öz bəhrəsini verir.

Xüsusilə İmişli rayonunun son bir neçə ay ərzində uğurlu inkişafı məni ürəkdən sevindirir. Mən dəfələrlə İmişlidə olmuşam. Keçən il də olmuşam. İmişlinin inkişafı üçün lazımi tədbirlər görülmüşdür. Kənd yollarının tikintisinə vəsait ayrılmışdır. Ancaq mən bilirdim və siz də bilirdiniz ki, işlər daha da sürətlə gedə bilər. Son bir neçə ayın təcrübəsi mənim sözlərimi təsdiqləyir. Əminəm ki, bu reallıqları sizdən yaxşı bilən heç kim tapılmaz. Ancaq mən də, yəni, keçən il burada olduğuma görə öz təəssüratlarımı sizinlə bölüşmək istəyirəm.

Doğrudan da, son bir neçə ay ərzində İmişli rayonunun inkişafı üçün çox böyük, tarixi işlər görülmüşdür. İmişlini tanımaq mümkün deyil. Buraya gələrkən çox təəccüb edirdim ki, mən indi İmişlidəyəm, yoxsa hansısa başqa şəhərdəyəm. Doğrudan da, tarixi dəyişikliklər baş vermişdir. Gözəllik, abadlıq, yeni meydan, Bayraq meydanı, yeni parklar, Heydər Əliyev Mərkəzi, Gənclər Mərkəzinin tikintisi, binaların bərpası, küçələrin salınması, yeni işıq dirəklərinin qurulması. Görülən bütün işləri sadalamaq üçün yəqin ki, çox vaxt lazım olacaq, ancaq bir sözlə, siz İmişli sakinləri bunu yaxşı bilirsiniz və bütün bu quruculuq, abadlıq işlərində fəal iştirak edirsiniz. Bu, sizin ümumi zəhmətinizin bəhrəsidir.

Bu dəyişikliklər əlbəttə ki, məni ürəkdən sevindirir. Əminəm ki, sizi də sevindirir. Ancaq eyni zamanda, bir vacib məsələni üzə çıxarır ki, istək, siyasi iradə və öz xalqına qayğı olan yerdə hər şey etmək mümkündür. Bir neçə ay bundan əvvəl İmişli rayonuna yeni icra başçısı təyin edilmişdir. O, təyin edilərkən mən ona çox önəmli tövsiyələr, göstərişlər verdim və dedim ki, İmişli rayonu geridə qalmamalıdır, əksinə ölkəmizin ən qabaqcıl rayonlarının birinə çevrilməlidir. Son neçə ayın təcrübəsi göstərir ki, siz bu yolda uğurla irəliləyirsiniz. Əminəm ki, gələn səfərdə yeni gözəl binaları, yeni açılan obyektləri görəcəyəm və beləliklə, İmişlinin uzunmüddətli inkişafı təmin ediləcəkdir.

Dövlət isə öz tərəfindən siyasətini davam etdirəcəkdir. Ölkəmizin bütün yerlərində infrastruktur layihələri icra edilir, yollar çəkilir, sürətlə qazlaşdırma gedir, o cümlədən İmişlidə də qazlaşdırma gedir və qarşıya məqsəd qoyulmuşdur ki, İmişlidə qazlaşdırma yüz faiz səviyyəsində olmalıdır. Bütün kəndlər qazlaşdırılmalıdır. Əminəm ki, gələn ilin sonuna qədər biz bu məqsədə çatacağıq.

İçməli su layihəsinin başlamasını biz artıq qeyd edirik. Çəkilən su xətti bir ay ərzində ümumi şəbəkəyə qoşulacaq və imişlililər təmiz, dayanıqlı içməli suya malik olacaqlar. Eyni zamanda, kanalizasiya sisteminin yaradılması prosesi başlayıb, kənd yollarının tikintisi gedir. Sağlamlığı bərpa etmək üçün gözəl xəstəxana vardır. İstirahət etmək üçün gözəl parklar, küçələr, xiyabanlar salınır, məktəblər tikilir. Əgər imişlililər bu yüksək templəri saxlaya

bilsələr, - mən əminəm ki, saxlayacaqlar, - çox qısa müddət ərzində İmişli ölkəmizin ən qabaqcıl rayonuna çevriləcəkdir.

Eyni zamanda, bu gün mən yeni sənaye müəssisələrinin açılışında da iştirak etmişəm. Bu da məni çox sevindirir. Özəl sektor tərəfindən yaradılan ən böyük taxıl anbarı İmişlidə açılmışdır. Eyni zamanda, ən böyük damazlıq yumurta fabriki açılmışdır.

Bu, həm ölkə iqtisadiyyatına verilən bir töhfədir, eyni zamanda, yeni iş yerlərinin açılışı deməkdir, insanların rifah halının yaxşılaşdırılması üçün atılan çox vacib addımdır. Bir daha deyirəm ki, iqtisadi siyasətimizin bir daha qayıdıram həmin bu məsələyə təməlində Azərbaycan vətəndaşı dayanır. İqtisadi islahatları aparmaq olar. Bəzi ölkələrdə bu, daha uğurlu olur, bəzi ölkələrdə o qədər də böyük uğur gətirmir. Ancaq vacib olan məsələ ondan ibarətdir ki, islahatları apararkən sosial məsələlər yaddan çıxmasın. Çünki transformasiya dövrünü yaşayan ölkələrdə iqtisadi islahatlar bəzi hallarda çox acı nəticələrə gətirib çıxarır. İnsanların yaşayış səviyyəsi aşağı düşür. İslahatlar insanların maddi rifahına mənfi təsir göstərir. Bax, gözümüzün qabağında Avropanın bəzi ölkələrində gedən proseslər dayanmışdır və biz bunu müşahidə edirik. Orada indi köklü islahatlar aparılır.

Dövlət xərcləri ixtisar edilir. Bu islahatlar istər-istəməz insanların yaşayış səviyyəsinə çox mənfi təsir göstərir. Bizim islahatların üstünlüyü ondan ibarət idi ki, bu islahatlar sosialyönümlüdür. İslahatlar nəticəsində əldə edilən əlavə gəlirlər insanların rifah halının yaxşılaşdırılmasına sərf edilmişdir, ədalətli şəkildə. Ona görə biz gələcəyə də böyük ümidlərlə baxırıq. Çünki iqtisadi sahədə növbəti illərdə ancaq və ancaq inkişaf gözlənilir, xüsusilə qeyri-neft sektoru sahəsində. Bölgə sakinləri də bu inkişafdan bəhrələnirlər və əminəm ki, uğurlar daha da böyük olacaqdır. Azərbaycan regionda siyasi sahədə söz sahibidir, çox güclü mövqelərə malikdir, dünya miqyasında tədbirlərdə də çox fəal iştirak edir. Biz dünyanın ən aparıcı, ən böyük qurumu olan BMT Təhlükəsizlik Şurasının üzvüyük. Biz dünya məsələlərinin həllində öz sözümüzü deyirik və gələcək illərdə bizim təsir imkanlarımız yalnız artacaqdır.

Sosial sferada nəzərdə tutulmuş bütün layihələr icra edilir. Bu layihələrin icrası insanların ildən-ilə artan maddi rifahında özünü göstərir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci hissəsi artıq başa çatmaq üzrədir, gələn il başa çatacaqdır. Artıq növbəti 10 illik üçün yeni proqram hazırlanır və vaxt gələndə proqram ictimaiyyətə təqdim ediləcəkdir. Bütün infrastruktur layihələri icra edilir. Bir sözlə, biz qurur hissi ilə deyə bilərik ki, Azərbaycan dövləti müstəqillik dövründə özünü dünya xəritəsində təsdiq edib. İqtisadi və siyasi cəhətdən müstəqil Azərbaycan dövləti uğurla inkişaf edir. Uğurumuzun dayanıqlı, davamlı olması üçün bütün bölgələr sürətlə inkişaf etməlidir. Bir daha demək istəyirəm ki, İmişli rayonunda gedən inkişaf çox müsbətdir, uğurludur.

Mən sizi əldə edilmiş bu uğurlar münasibətilə təbrik edirəm. Bütün İmişli sakinlərinə cansağlığı və yeni uğurlar arzu edirəm. Sağ olun.

* * * *

Rayon sakini Validə ZÜLFÜQAROVA İmişlinin inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına təşəkkür edərək dedi:

- Möhtərəm cənab Prezident!

Bu gün biz imişlilələr üçün çox sevimli gündür. Ona görə ki, biz Sizinlə Muğanın barlı-bərəkətli mərkəzi olan İmişli torpağında yenidən görüşürük. Bu dəfə Siz bizə insan həyatı üçün əvəzsiz olan bir nemət, təmiz su bəxş edirsiniz. Təmiz içməli su rayonun inkişafı, insanların sağlamlığı üçün çox böyük məna daşıyır. İçməli su həyat deməkdir. Təmiz içməli su isə sağlam həyat deməkdir. Aran bölgəsində yaşayan sakinlər daha çox içməli

sudan korluq çəkirdilər. Uzun illər rayonumuzun ərazisindən keçən Araz və Kür çaylarının suyundan istifadə edirdik. Bu da təbii ki, insanların sağlamlığına mənfi təsir göstərirdi.

Əvvəlki illərdə Sizin Sərəncamınızla rayonumuzun 13 kəndində quraşdırılmış sutəmizləyici qurğular insanların təmiz suya olan tələbatını qismən ödəsə də, bütün rayon əhalisini tam təmin edə bilmirdi. Bu gün isə Siz bizi çoxdan gözlədiyimiz arzumuza çatdırmısınız. Yeni çəkilmiş su xəttindən İmişli şəhəri və ətraf kəndlərin hamısı istifadə edəcəkdir. Biz inanırıq ki, Sizin tapşırığınızla qısa müddətdə İmişli şəhərində kanalizasiya xətti də çəkiləcəkdir. Bütün bunlar Sizin bizə verdiyiniz böyük töhfə və göstərdiyiniz qayğının bariz nümunəsidir. İcazə verin, rayonumuzun sakinlərinin dərin minnətdarlığını və səmimi təşəkkürünü Sizə çatdırım.

Cənab Prezident!

Siz regionlara səfəriniz zamanı belə bir fikir ifadə etmişdiniz: "Mən görülən işləri, insanlara yaradılmış şəraiti öz gözlərimlə görmək üçün buradayam!" Siz həmişə insanların problemləri, çətinlikləri ilə maraqlanır, onların firavan yaşamasına, rifah halının yaxşılaşmasına xidmət edəcək tədbirlər həyata keçirirsiniz. Bütün Azərbaycan xalqı kimi, biz imişlililər də bunu hər zaman hiss edir və Sizə arxalanırıq.

2010-cu ildə baş vermiş təbii fəlakət nəticəsində İmişli rayonunun 3 kəndi tamamilə su altında qaldığı zaman bizi bu bəladan qurtaran məhz Siz oldunuz. Sizin tapşırığınıza əsasən görülən təcili tədbirlər nəticəsində insan tələfatı olmadı, insanlar böyük çətinliklə üz-üzə qalmadı.

Cənab Prezident!

Bu gün Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Bu inkişaf bölgələrdə də aydın şəkildə hiss olunur. Belə ki, İmişli şəhərində qazlaşdırma işləri artıq başa çatdırılmışdır. Rayonun kəndlərində isə qaz çəkilişi davam etdirilir. Yeni təhsil müəssisələri istifadəyə verilir, yollarımız abadlaşır. İmişli şəhərinin siması günbəgün yeniləşir, günbəgün gözəlləşir. Böyük abadlıq, quruculuq işləri aparılır. Sakinlərin normal istirahəti üçün şərait yaradılır. Rayonumuzdakı Mərkəzi Xəstəxana əsaslı təmir edilmiş və istifadəyə artıq hazırdır. Bu gün isə Siz insanların normal həyatı üçün müstəsna əhəmiyyəti olan içməli su xəttinin açılışında iştirak etməklə rayon sakinlərinə daha böyük bir sevinc bəxş etdiniz. Möhtərəm, cənab Prezident! Görülmüş bütün işlərə və biz imişlililərə göstərdiyiniz qayğıya görə, ilk növbədə Sizə minnətdarıq.

Sizi əmin edirik ki, rayonumuzun, o cümlədən respublikamızın daha da inkişafı və tərəqqisi üçün bundan sonra da əzmlə çalışacaq, Sizin doğma İmişlimizə olan diqqətinizi heç vaxt unutmayacağıq.

Ulu Tanrıdan Sizə və ailənizə səadət, xoşbəxtlik və əmin-amanlıq arzulayırıq!

**AZƏRTAC**
**2012, 28 oktyabr**

## «XƏZƏR: ƏTRAF MÜHİT ÜÇÜN TEXNOLOGİYALAR» BEYNƏLXALQ ƏTRAF MÜHİT SƏRGİSİNİN İŞTİRAKÇILARINA

Hörmətli sərgi iştirakçıları!

Sizi «Xəzər: ətraf mühit üçün texnologiyalar» Beynəlxalq Ətraf Mühit Sərgisinin açılışı münasibətilə salamlayır, sərginin işinə uğurlar arzulayıram.

Sevindirici haldır ki, ölkəmizdə ətraf mühitin mühafizəsi ilə bağlı belə sərgilərin keçirilməsi artıq ənənəyə çevrilib. Son illərdə qazanılan nailiyyətlər respublikamızın iqtisadi əsaslarını möhkəmləndirərək, qeyri-neft sektorunun, infrastruktur sahələrinin və regionların inkişafının sürətləndirilməsi, xüsusən ekoloji təhlükəsizliyin təmin olunması istiqamətində kompleks tədbirlərin gerçəkləşdirilməsi üçün geniş imkanlar yaratmışdır. Ətraf mühitin yaxşılaşdırılması, təbii sərvətlərin və biomüxtəlifliyin mühafizəsi sahəsində bu günədək bir sıra mühüm layihələr icra edilmişdir. Hazırda cəmiyyətin, yerli və beynəlxalq təşkilatların diqqəti ekologiya problemlərinin həllinə yönəlib və dövlətimizin müəyyənləşdirdiyi ekoloji siyasət uğurla həyata keçirilməkdədir.

Ətraf mühitin sağlamlaşdırılması və lazımınca qorunması məqsədi ilə bəzi pilot layihələrin icrası zamanı ekoloji tələblərə cavab verən yeni texnologiyalardan istifadə yüksək nəticələr əldə olunmasını təmin edib. Bunlar bir daha göstərir ki, Azərbaycanda sosial-iqtisadi həyatın bütün sahələri kimi, ekologiya məsələləri də daim diqqət mərkəzindədir. Vətəndaşlarımızın sağlam ətraf mühitdə yaşaması naminə biz ən müasir «yaşıl texnologiyalar»ın tətbiqindən maksimum faydalanmağı bacarmalıyıq.

İnanıram ki, «Xəzər: ətraf mühit üçün texnologiyalar» Beynəlxalq Ətraf Mühit Sərgisi qarşıya qoyulan məqsədlərə çatmaq baxımından səmərəli olacaqdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 noyabr 2012-ci il*

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**54-cü kitab: noyabr 2012 - fevral 2013. - Bakı: Azərnəşr, 2018, S. 77.**

## BALAXANIDA BAKI BƏRK MƏİŞƏT TULLANTILARININ YANDIRILMASI ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*(19 dekabr 2012-ci il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Balaxanıda Bakı Bərk məişət tullantılarının yandırılması zavodunun açılışında iştirak etmişdir.*

*İqtisadi İnkişaf naziri Şahin Mustafayev dövlətimizin başçısına məlumat verdi ki, müəssisənin tikintisi ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair kompleks tədbirlər planı çərçivəsində həyata keçirilib. Zavod 2008-ci ildə İqtisadi İnkişaf Nazirliyi ilə Fransanın «CNİM» şirkəti arasında imzalanan müqaviləyə əsasən inşa edilmişdir. Bu sahədə dünyanın ən aparıcı şirkətlərindən biri olan və 50 illik təcrübəyə malik «CNİM» bir çox ölkələrdə, xüsusilə də Avropada 120-dən çox bu tipli zavod tikib. Müəssisənin təməli 2009-cu il noyabrın 3-də prezident İlham Əliyev tərəfindən qoyulmuşdur.*

*Bildirildi ki, 20 hektar ərazidə inşa olunan və illik emal gücü 500 min ton məişət tullantısı və 10 min ton tibbi tullantı təşkil edən bu zavodun 20 illik istismarı da «CNİM» tərəfindən həyata keçiriləcəkdir.*

*Prezident İlham Əliyev müəssisəni işə saldı.*

*Məlumat verildi ki, zavod 2 xətdən və elektrik enerjisi istehsal edən turbindən ibarətdir. İstismar zamanı tullantıların həcmi 10 dəfə, kütləsi isə 3 dəfədən çox azalacaqdır. Tullantıların yandırılması prosesi nəticəsində alternativ enerji kimi əldə ediləcək elektrik enerjisinin miqdarı ildə 231,5 milyon kilovat/saat olacaqdır. Zavodun fəaliyyəti nəticəsində illik 60 milyon kubmetrdən artıq təbii qaz həcmində enerjiyə qənaət ediləcəkdir. Əldə edilən elektrik enerjisi 100 min evin enerji ilə təmin olunmasına imkan yaradacaqdır.*

*Məlumat verildi ki, bərk məişət tullantılarının yandırılması zavodu istehsal gücünə görə Şərqi Avropada və MDB məkanında bu tipli ən iri müəssisədir. Dördüncü nəsil «4G» texnologiyasının tətbiqi ilə qurulan zavod Avropa İttifaqının ətraf mühitin mühafizəsi sahəsində ən sərt normativlərinə tam cavab verəcəkdir. Yanma zamanı əmələ gələn qurum xüsusi süzgəclərlə tutulacaqdır. Daha ağır və zərərsiz olan dib külündən isə yol tikintisində istifadə edilə bilər. Tullantı hədlərinin monitorinqinin gündəlik aparılacağı zavod ətraf mühitin idarə edilməsi üzrə «ISO 14001» standartlarına tam cavab verir. Zavodun fəaliyyəti nəticəsində illik 100 min tona yaxın karbon dioksin-CO2 qazı ekvivalentində istilik effekti yaradan qazların atmosferə atılmasının qarşısı alınacaq. Sonra dövlətimizin başçısı məişət tullantılarının idarə olunması sahəsində görülən işlərdən bəhs edən filmə baxdı.*

**İlham Əliyev:** Əziz dostlar!

Hörmətli xanımlar və cənablar! Mən sizi Balaxanıda tikilmiş bərk məişət tullantılarının yandırılması zavodunun açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu, gözəl hadisədir. Bu kiçik filmdə zavodun tikilməsi ilə bağlı bəzi məqamlar göstərilib. 3 il bundan əvvəl – 2009-cu ilin noyabr ayında bu yerdə zavodun təməl daşı qoyuldu. Çox şadam ki, qısa müddət ərzində belə nəhəng sənaye müəssisəsi yaradıldı. Bu zavodun tikintisində iştirak etmiş bütün qurumlara, bütün şirkətlərə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Zavodun dəyəri, yəni qoyulan investisiyanın həcmi 365 milyon avrodur. Onun bir hissəsi İslam İnkişaf Bankı tərəfindən kredit şəklində verilmişdir. Qalan hissə isə Azərbaycanın dövlət büdcəsi hesabına formalaşdırılıb.

Zavodun tikintisində Fransanın böyük təcrübəyə malik olan «CNİM» şirkətinə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Onu da qeyd etmək istəyirəm ki, bu şirkətlə əməkdaşlığımız bundan sonra da davam edəcəkdir. Çünki 20 il ərzində zavodun idarə edilməsi «CNİM» şirkətinə həvalə edilmişdir. Mən çox şadam ki, Fransanın böyük şirkəti olan

«CNİM» ilə Azərbaycan arasında belə işgüzar münasibətlər qurulub. Mən bu ilin sentyabr ayında Fransanın aparıcı şirkətləri ilə MEDEF-də görüşdə bir daha gördüm ki, Azərbaycan ilə əməkdaşlıq etmək, biznes əlaqələrini genişləndirmək üçün hər 2 tərəfdə böyük maraq vardır və böyük imkanlar açılır. Fransa şirkətləri uzun illərdir ki, Azərbaycanda uğurla fəaliyyət göstərirlər. İstər energetika, istərsə də qeyri-neft, tikinti, nəqliyyat sektorlarında, kosmik sənaye müəssisələrinin inkişafında bizə kömək göstərirlər. Bu böyük investisiyatutumlu müəssisənin yaradılması da Fransa şirkəti tərəfindən icra edilmişdir.

Zavodun tikintisinə böyük ehtiyac var idi. Çünki bu kiçik filmdə göstərildiyi kimi, bu ərazi ekoloji fəlakət zonası idi. Bakı sakinləri yaxşı bilirlər ki, uzun onilliklər ərzində bu bölgədə yığılan tullantılar faktiki olaraq şəhərimizin ekoloji vəziyyətinə çox böyük zərbə vurmuşdur. Məişət tullantılarının burada yığılması və bir çox hallarda yandırılması ekoloji vəziyyəti daha da gərginləşdirirdi. Bu ərazinin üzərində daim tüstü buludları var idi. Bu tüstü Bakını bürüyürdü, bunun insanların sağlamlığına, şəhərimizin ekoloji vəziyyətinə çox mənfi təsiri olmuşdur. Bir neçə il bundan əvvəl bütövlükdə Bakının və Abşeron yarımadasının ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün kompleks tədbirlər görülməyə başlanmış və onların içərisində bu zavodun tikintisi xüsusi yer tutmuşdur. Azərbaycan dövləti bu istiqamətdə öz siyasətini davam etdirir. Çünki bizim üçün insanların sağlamlığı hər şeydən üstündür.

İnsanların sağlamlığının təmin edilməsi üçün kompleks tədbirlər görülür. Son illər ərzində Azərbaycanda, xüsusilə Bakıda ağacəkmə kampaniyası geniş vüsət almışdır. Artıq bu, kampaniya deyildir. Bu, artıq dövlət siyasətidir. 10 milyondan çox ağac əkilmişdir.

Bakının və bütün şəhərlərin təmiz içməli su ilə təmin edilməsi üçün konkret layihələr icra edilir. Bu layihələrin əsas hissəsi, yəni mütləq əksəriyyəti gələn ilin sonuna qədər başa çatacaqdır. Beləliklə, hər bir şəhərdə, hər bir rayon mərkəzində əhali keyfiyyətli, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun olan içməli su ilə təmin ediləcəkdir ki, bu da tarixi nailiyyət olacaqdır. 2 il bundan əvvəl Oğuz–Qəbələ–Bakı su kəmərinin istismara verilməsi Bakı şəhərində içməli su ilə təminatı böyük dərəcədə yaxşılaşdırılmış və bu istiqamətdə əlavə tədbirlər görülür. Tədbirlər nəticəsində vəziyyət daha da yaxşılaşacaqdır. Yəni bu zavodun tikintisi böyük siyasi istiqamətin və eyni zamanda, sosial istiqamətin tərkib hissəsidir.

Zavodda Avropada mövcud olan ən sərt ekoloji normalar, meyarlar tətbiq edilir. Bu zavod ekoloji cəhətdən, demək olar ki, dünya miqyasında ən öncül yerlərdədir. Eyni zamanda, burada ən müasir texnoloji proses də yaradılıb. Texnoloji cəhətdən yüksək avadanlıq gətirilib, quraşdırılıb və bu proses, demək olar ki, tam şəkildə avtomatlaşdırılıb.

Zavodun istismara düşməsi və daha əvvəl tikilməsi nəticəsində müəssisənin ətrafında digər obyektlərin yaradılması üçün konkret tədbirlər görülmüşdür. Buraya gəlməzdən əvvəl mən yaxınlıqda yerləşən çeşidləmə zavodunun fəaliyyəti ilə tanış oldum. Məhz «CNİM» tərəfindən tikilmiş bu müəssisənin nəticəsi olan çeşidləmə zavodu da mühüm funksiya daşıyır. Eyni zamanda, zavodun tikintisi dövründə belə bir fikir yarandı, təşəbbüs irəli sürüldü ki, Balaxanıda Texnologiya parkı yaradılsın və bu gün o Texnologiya parkının təməl daşı qoyulacaqdır. Yəni gözəl bir təşəbbüsün görün nə qədər böyük təsiri vardır və burada yüzlərlə iş yeri açılmışdır. Burada işləyən işçilərin əksəriyyəti yerli vətəndaşlardır və getdikcə yerli kadrların sayı artacaqdır. Onlar yüksək maaş alırlar. Yəni bu zavodun tikintisi kompleks tədbirlərin görülməsində bizə kömək edir. Onu da qeyd etmək istəyirəm ki, zavodun tikintisi ilə bağlı Balaxanıda sosial layihə də həyata keçirilib. Balaxanı qəsəbəsinin içməli su ilə təchizatı üçün yeni layihə icra edilməyə başlanmış və yaxın zamanlarda başa çatacaqdır. Bu layihənin dəyəri təqribən 10 milyon manatdır. Bu layihə onu göstərir ki, biz məsələlərə kompleks şəkildə yanaşırıq, qarşıya qoyulan hədəfə uğurla çatırıq.

Mən əminəm ki, uzun illər bundan sonra zavod səmərəli şəkildə fəaliyyət göstərəcəkdir. Zavodun istehsal gücü 500 min tondur. Bakı şəhərində bəzi məlumatlara görə, daha çox məişət

tullantıları yığılır və istisna edilmir ki, gələcəkdə zavodun sahəsi genişlənə bilər. Buna imkan da vardır. Əsas məsələ bundan sonra ondan ibarətdir ki, məişət tullantılarının yığılması, çeşidlənməsi, yandırılması və təkrar emala verilməsi prosesini biz bir-biri ilə uzlaşdıraq. Hazırda biz məsələnin son mərhələsini həll etdik – çeşidləmə, yandırılma, təkrar emal. Amma bu prosesin ilkin mərhələsi hələ ki, bizim tələblərimizə cavab vermir. Ona görə mən həm İqtisadi İnkişaf Nazirliyinə, həm Bakı Şəhər İcra Hakimiyyətinə tapşırıq verirəm ki, yaxın zamanlarda təkliflər hazırlansın. Evdən çıxan tullantının idarə olunması, daşınması, yığılması və buraya gətirilməsi, yandırılması bir proses kimi təşkil edilməlidir ki, biz Bakıda bu məsələni birdəfəlik həll edək və bu təcrübə ondan sonra başqa şəhərlərdə də tətbiq edilməlidir.

Zavodda 37 meqavat gücündə elektrik stansiyası da fəaliyyət göstərir. Bu da çox gözəl hadisədir. Bir neçə meqavat zavodun fəaliyyəti üçün sərf olunacaq, qalan 33 meqavat isə şəhər şəbəkəsinə veriləcəkdir ki, bu da bizim enerji balansımızın bərpa olunan enerji ilə daha çox təmin edilməsi üçün vacibdir. Bilirsiniz ki, bizim zəngin neft-qaz yataqlarımız vardır. Bizim qazımız 100 il bundan sonrakı dövr üçün bizə və xarici istehlakçılara çatacaqdır. Buna baxmayaraq, biz bərpa olunan enerji növlərinin yaradılması ilə məşğuluq. Bu yaxınlarda Füzulidə 25 meqavat gücündə su-elektrik stansiyasının tikintisi başa çatdı. Bu elektrik stansiyasının tikintisi, əlbəttə ki, bərpa olunan enerji növlərinin yaradılması işində çox gözəl bir hadisədir. Bir daha demək istəyirəm ki, burada bütün beynəlxalq ekoloji normalar da nəzərdə tutulur. Beləliklə, bu zavodun istismara verilməsi nəticəsində Azərbaycan qlobal ekoloji məsələlərin həllinə kiçik də olsa öz töhfəsini vermiş olur. Bu gün Balaxanı Texnologiya parkının da təməl daşı qoyulacaqdır.

Bu istiqamətdə kompleks tədbirlər görülür. Texnologiya parklarının bundan sonrakı uğurlu fəaliyyəti üçün əlavə tədbirlər paketi hazırlanır. Bu məsələnin qanunvericilik bazası hazırlanır və yaxın zamanlarda dövlət texnoloji parkların daha səmərəli fəaliyyət göstərməsi üçün əlavə güzəştlər paketi təklif edəcəkdir. Beləliklə, bir neçə yerdə böyük sənaye kompleksləri yaradılacaqdır – Sumqayıtda, Balaxanıda, Qaradağ rayonunda və digər yerlərdə.

Texnologiya parklarının ixtisaslaşması prosesi də artıq müəyyən edilibdir – yüksək Texnologiya parkı, Kimya Texnologiya parkı və Balaxanı Texnologiya parkı. Hər biri öz sahəsini əhatə edir və bu parklarda yeni yaradılacaq müəssisələr ölkəmizin sənaye potensialının güclənməsinə xidmət göstərəcəkdir. Çünki bir neçə dəfə qeyd etdiyim kimi, əsas məqsədimiz sənaye istehsalını artırmaq, neft amilindən asılılığı azaltmaq və qeyri-neft sektorunu inkişaf etdirməkdir. Bu istiqamətdə böyük nailiyyətlər əldə edilibdir. Bu ilin yekunları onu göstərir. Hələ ki, dəqiq rəqəm yoxdur, ancaq ilkin rəqəm onu göstərir ki, qeyri-neft iqtisadiyyatımız təxminən 10 faiz artmışdır, qeyri-neft sənayemiz təqribən 7-8 faiz arta bilər. Bu, əvvəlki dövrdə sənayeləşmə istiqamətində görülmüş tədbirlər nəticəsində mümkün olmuşdur.

Bu zavodun və digər yeni böyük və kiçik müəssisələrin yaradılması nəticəsində biz uzunmüddətli dayanıqlı iqtisadi inkişafı təmin edəcəyik. Əlbəttə, enerji resursları bizə ilkin kapitalın yaradılmasında kömək etmişdir. Ancaq biz iqtisadi siyasətimizi elə aparmalıyıq ki, sanki bizdə neft, qaz yoxdur. Yalnız iqtisadi inkişaf, islahatlar, texnoloji prosesin təkmilləşməsi, müasir texnologiyaların gətirilməsi, investorlar üçün yaxşı investisiya şəraitinin yaradılması və xarici aparıcı şirkətlərlə uğurlu əməkdaşlığımız qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün bizə yardımçı olacaqdır.

Qeyd etmək istəyirəm ki, son illər ərzində mən bir çox açılışlarda iştirak etmişəm. Yüzlərlə, bəlkə daha da çox, indi onları saymaq üçün çox vaxt lazım olacaqdır. Ancaq onların içində bu zavodun fəaliyyətə başlaması xüsusi yer tutur. Çünki bu zavoda qoyulan vəsait qeyri-neft sektoruna dövlət tərəfindən qoyulan ən böyük investisiyalardan biridir. Bu zavodun fəaliyyəti nəticəsində Bakının ekoloji vəziyyəti böyük dərəcədə yaxşılaşdırılacaqdır. İnsanların sağlamlığına çox böyük töhfə olacaqdır. Xarici əməkdaşlıq baxımından da

bu zavod çox böyük əhəmiyyətə malikdir. Bir daha qeyd etmək istəyirəm ki, bu sahədə aparıcı şirkət olan «CNİM» şirkəti ilə biz uzunmüddətli əməkdaşlığa başlamışıq. Bu zavod Azərbaycan dövlətinin sosial siyasətini açıq-aydın göstərir. Bu sosial siyasəti bundan sonra da uğurla aparmaq üçün bizim iqtisadi gücümüz olmalıdır. Çünki mən qeyd etdim, İslam İnkişaf Bankı öz maliyyə dəstəyini, Dünya Bankı öz tövsiyələrini verdi, ancaq əsas maliyyə yükü Azərbaycan büdcəsinin üzərinə düşmüşdür. Yəni iqtisadi inkişaf elə olmalıdır ki, bundan sonrakı illərdə də biz sosial məsələlərin həllinə, bax, belə böyük dəstəyi verə bilək.

Mən bir daha, əziz dostlar, sizi və bütün Bakı sakinlərini bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Bu zavodun tikintisində iştirak etmiş bütün insanları təbrik etmək, onlara öz minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, xarici tərəfdaşlarla əməkdaşlığımız bundan sonra da uğurla davam etdiriləcəkdir.

Sağ olun.

**Nikolas Dmitrieff** *(Fransanın «CNİM» şirkətinin İdarə Heyətinin sədri)*: Cənab Prezident!

Cənab nazir, xanımlar və cənablar!

Bu gün açdığınız tullantıların emalı zavodunun 2009-cu ilin noyabrında keçirilmiş təməlqoyma mərasimində bizimlə olmaq şərəfini bizə verdiniz. Azərbaycanın ətraf mühitinin qorunmasına xidmət edən, müasir texnologiyalarla işləyən zavodun beton və poladdan ibarət möhtəşəm binası strateji baxış və rəhbərliyinizin sayəsində başa çatdırılmışdır. Onun istismarı üçün mühəndis-texniklər və sadə işçilərdən ibarət heyət yorulmadan çalışır. Bu zavodda olan hər bir künclük, hər bir detal, hər bir maşın və avadanlıq keyfiyyət və əməkdaşlıq gücünün təzahürüdür və beynəlxalq heyət ümumi məqsəd uğrunda çalışmışdır. Məqsəd Azərbaycanın, Sizin başladığınız davamlı inkişaf siyasətinə əlavə mühüm töhfə verməkdir.

Cənab Prezident, mən 2009-cu ilin noyabr ayını çox yaxşı xatırlayıram. Sizin tövsiyələrinizi, ekologiya ilə bağlı siyasətinizi də xatırlayıram. Siz bu işinizi ilbəil davam etdirdiniz. Sizin burada olmağınızın özü bu zavod üçün böyük rəmzi əhəmiyyət daşıyır. Qeyd etmək istəyirəm ki, əslində bizim şirkət 150 ildir ki, fəaliyyət göstərir. Lakin məhz belə yeni müəssisələrin yaradılması əsasən son 50 ildə baş tutmuşdur.

Cənab Prezident, biz bu zavod ilə həqiqətən, fəxr edə bilərik və bizə göstərdiyiniz etimada görə Sizə təşəkkürümü bildirirəm. Çox fərəhlənirəm ki, biz Sizin ölkənin davamlı inkişafına kömək edirik.

Çox sağ olun, cənab Prezident!

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**54-cü kitab: noyabr 2012 - fevral 2013. - Bakı: Azərnəşr, 2018, S. 174-181.**

## TÜRKİYƏ RESPUBLİKASININ MEŞƏ VƏ SU İŞLƏRI NAZİRİ VEYSƏL ƏROĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*(11 aprel 2013-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Türkiyə Respublikasının Meşə və Su İşləri naziri Veysəl Əroğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Nazir Veysəl Eroğlu Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Türkiyənin həmişə olduğu kimi, bu gün də Azərbaycanın yanında olduğunu vurğulayan Veysəl Əroğlu ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsinin önəmini qeyd etdi. Azərbaycanda çox böyük inkişafın şahidi olduğunu deyən türkiyəli nazir əldə edilən böyük uğurlar münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlərin bütün istiqamətlərdə uğurla inkişaf etdiyini vurğuladı, ölkələrimizin ayrı-ayrı nazirlikləri, o cümlədən ekologiya və ətraf mühitlə bağlı qurumlar arasında əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd etdi.

Dövlətimizin başçısı Azərbaycanda da son illər ekoloji məsələlərin həlli ilə bağlı böyük işlərin görüldüyünü bildirdi. Dövlətimizin başçısı prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Respublikasının Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**55-ci kitab: fevral 2013 - aprel 2013. - Bakı: Azərnəşr, 2018, S. 319.**

## ŞİRVAN-MUĞAN SU KƏMƏRİNDƏN HACIQABUL ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİ

*(16 aprel 2013-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 15-də Şirvan-Muğan su kəmərindən Hacıqabul şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısı Hacıqabul şəhərinin su təchizatının planını və Şirvan-Muğan su kəmərinin texniki göstəricilərini əks etdirən stendlərə baxdı.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov bildirdi ki, Hacıqabul şəhərinin günlük orta su sərfi 248 min litrdir. Ümumi su anbarının ehtiyatı 10 min kubmetrdir. Şirvan-Muğan su kəmərinin uzunluğu 170 kilometrdir. Bu kəmərdən istifadə edən əhalinin sayı isə 470 min nəfərdir. Layihəyə əsasən kəmər 121 kəndi, o cümlədən Sabirabadın 13 kəndini əhatə edəcəkdir. Sabirabad-Saatlı qrup su kəmərinin uzunluğu isə 40 kilometrdir. Layihəyə əsasən 37 kəndin 160 mindən çox sakini təmiz içməli sudan istifadə edəcəkdir. Məlumat verildi ki, "Hacıqabul şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi" əhali artımının 2035-ci ilə qədər inkişaf perspektivi nəzərə alınmaqla 30,4 min nəfər üçün hesablanmışdır və dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilir.

Hacıqabul şəhərinin sakinləri içməli su ilə - təməli 2012-ci il iyulun 16-da Prezident İlham Əliyev tərəfindən qoyulmuş Şirvan-Muğan qrup kəməri vasitəsilə təmin olunacaqdır. Hacıqabul şəhərində mərkəzləşdirilmiş içməli su sistemi 1970-ci illərdə yaradılmışdır. Hazırda şəbəkə istismara yararsızdır. Şəhərin su şəbəkəsinin uzunluğu 25,5 kilometr təşkil etmiş, kanalizasiya şəbəkəsi isə ümumiyyətlə olmamışdır. Rəsmi statistikaya əsasən, hazırda Hacıqabul şəhərinin əhalisinin sayı 24,8 min nəfərdir və onların 50 faizə yaxını mərkəzləşdirilmiş içməli su şəbəkəsi ilə təmin olunmamışdır. Əhali orta hesabla sutkada qrafiklə 8 saat su alır. Qalan əhali isə öz tələbatını fərdi qaydada ödəyir.

Yeni "Hacıqabul şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi" çərçivəsində şəhərin su təchizatının özüaxımlı rejimdə aparılması üçün 2,4 kilometr uzunluğunda magistral kəmər çəkilmişdir, relyef baxımından yüksək nöqtədə tutumu 5 min kubmetr olan anbar inşa edilir. Şəhərdə uzunluğu 115 kilometr olan müxtəlif diametrli paylayıcı su şəbəkəsi və ümumi uzunluğu 105 kilometr olan kanalizasiya şəbəkəsi yaradılacaqdır. İndiyədək 30 kilometr su xətti, 20 kilometr kanalizasiya xətti çəkilmişdir. 8,7 kilometr uzunluğunda layihələndirilmiş kanalizasiya kollektorunun 6,7 kilometrində işlər tamamlanmışdır. Ümumiyyətlə, 2014-cü ildə layihənin icrası başa çatdıqdan sonra bütün şəhər əhalisi fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunacaqdır. Layihəyə uyğun olaraq, Hacıqabul şəhərinin şərq hissəsində, relyef baxımından çökək ərazidə kanalizasiya-nasos stansiyasının tikintisi planlaşdırılır. Çirkab suları toplanaraq Şirvan-Kürdəmir avtomobil yolunun kənarında tikiləcək çirkab sutəmizləyici qurğuya ötürüləcəkdir və təmizləndikdən sonra yaxınlıqdan keçən Baş Şirvan kollektoruna axıdılacaqdır.

Azərbaycan Prezidenti suyun şəhərə rəmzi olaraq verilməsini təmin edən qurğunu işə salan düyməni basdı.

**Sonra Hacıqabul rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident İlham ƏLİYEV dedi:**

- Əziz dostlar, hörmətli hacıqabullular. Mən sizi ürəkdən salamlayıram.

Bu gün Hacıqabul rayonunun inkişafında çox əlamətdar bir gündür. Bu gün biz Hacıqabula içməli suyun verilməsini qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Son illər ərzində ölkəmizdə görülən işlər arasında içməli su layihələri xüsusi

yer tutur. Çünki bütün dövrlərdə vətəndaşlarımız içməli su ilə lazımi səviyyədə təmin olunmamışdılar. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında 1970-ci illərdə su problemlərinin böyük hissəsi öz həllini tapmışdır. Ancaq həyat davam edir, ölkəmiz inkişaf edir, əhali artır və əlbəttə, su təminatı ilə əlaqədar əlavə tədbirlər görülməli idi və görülür.

Hazırda demək olar ki, ölkəmizin bütün yerlərində içməli su və kanalizasiya layihələri icra edilir. Bu proses geniş vüsət almışdır. Əminəm ki, gələn illərdə Azərbaycanda hər bir yerdə təmiz içməli su olacaqdır. Hacıqabul rayonunun içməli su ilə təmin edilməsi üçün praktiki tədbirlər görülmüşdür. Keçən il biz Hacıqabulda Şirvan-Muğan su kəmərinin təməlini qoyduq. Bu kəmərin fəaliyyəti nəticəsində artıq Hacıqabula içməli su gəlir. Ondan sonrakı dövrdə yeni şəbəkələr qurulacaqdır. Artıq bu işlərə başlanılmışdır və biz hər bir evə içməli suyun verilməsinə nail olacağıq. Bu, doğrudan da böyük layihədir, deyə bilərəm ki, tarixi layihədir. Bu, onu göstərir ki, siyasi iradə olduğu zaman hər bir iş görülə bilər.

Azərbaycanda hər bir rayonda böyük infrastruktur layihələri icra edilir. İlk növbədə, əlbəttə ki, biz elektrik enerjisinin təchizatını yüksək səviyyəyə qaldırmalı idik. Artıq bu proses demək olar ki, başa çatır. Qazlaşdırma prosesi də uğurla gedir. Hacıqabul rayonunun bütün kəndlərində qazlaşdırma işləri aparılır, kəndlərin böyük əksəriyyətində artıq bu işlər başa çatmışdır. Yəqin ki, yaxın aylarda bütün yaşayış məntəqələrində 24 saat keyfiyyətli qazın verilməsi mümkün olacaqdır.

Biz kənd yollarının çəkilişi ilə ciddi məşğuluq. Bu gün biz Hacıqabulda kənd yollarının açılışını da qeyd etmişik. İki layihə icra edilir, biri artıq başa çatmışdır. İndi ikinci layihə davam etdirilir və əminəm ki, yaxın zamanlarda bütün kəndlərə gedən yollar yenidən tikilib istifadəyə veriləcəkdir. Beləliklə, hər bir rayon üçün lazım olan infrastruktur layihələri ardıcıllıqla və uğurla öz həllini tapır. Beləliklə, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci hissəsi də artıq uğurla icra edilir və ilin sonuna qədər başa çatdırılacaqdır. Ondan sonra 2014-2018-ci illəri əhatə edəcək yeni proqram qəbul ediləcəkdir. Ancaq bu ilin sonuna qədər hər bir yerdə əsas infrastruktur layihələri başa çatmalıdır. Bu layihələrin içində əlbəttə ki, içməli su layihəsi xüsusi yer tutur. Çünki su həyat deməkdir, təmiz içməli su isə sağlam həyat deməkdir. Bizim bütün siyasətimizin mərkəzində insan amili, Azərbaycan vətəndaşı dayanır.

Mən bunu dəfələrlə qeyd etmişəm. Bir daha demək istəyirəm, görülən bütün işlər, ölkəmizdə gedən quruculuq, abadlıq, müasirləşmə işləri bir məqsədi güdür ki, Azərbaycan vətəndaşı rahat yaşasın, işlə təmin olunsun, yaxşı maaş alsın və bütün infrastruktur layihələri ən yüksək standartlara cavab versin. Biz bunu edirik, buna nail oluruq. Azərbaycanda infrastruktur sahəsində görülən bütün işlər ən yüksək dünya standartlarına cavab verir, o cümlədən içməli su layihəsi. Veriləcək suyun keyfiyyəti də yüksək olacaqdır. Bu işlər Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun şəkildə görülür. Beləliklə, insan sağlamlığına çox böyük töhfə veriləcəkdir. Çünki təmiz içməli su bir daha demək istəyirəm ki, insan üçün ən vacib şərtdir. Mən əminəm ki, biz bütün başqa istiqamətlər üzrə də uğurlu siyasətimizi davam etdirəcəyik. Regionların inkişafı uğurla gedir, sosial siyasət uğurla aparılır.

Bizim iqtisadi imkanlarımız da genişlənir və birinci rübün sosial-iqtisadi yekunları artıq müzakirə edilmişdir və bir daha görürük ki, hər bir istiqamət üzrə Azərbaycan sürətlə inkişaf edir. Xüsusilə qeyri-neft sektorunun inkişafı bizim üçün prioritetdir və bu sahədə birinci rübdə 11 faizdən çox artım müşahidə olunub. Hesab edirəm ki, bu da dünya miqyasında ən yüksək göstəricidir. Dünyanın bir çox yerlərində hələ də maliyyə və iqtisadi böhranın hökm sürdüyünü nəzərə alsaq, Azərbaycanın uğurlu inkişafı bir daha onu göstərir ki, seçdiyimiz yol düzgün yoldur. Hər bir addım düzgün istiqamətdə atılır. Ölkəmiz böyük inkişaf yolu keçmişdir. Əminəm ki, bu inkişaf, görülmüş işlər gələcək inkişaf üçün də gözəl

şərait yaradacaqdır. Çünki biz bundan sonra da inkişaf yolu ilə getməliyik. Biz Azərbaycanda bütün işləri ardıcıllıqla görürük. Həm iqtisadi, həm siyasi sahədə, xarici siyasət məsələlərinin həllində, sosial sahədə. Yəni, ölkə hərtərəfli inkişaf edir. Bir daha demək istəyirəm, ən gözəl göstərici ondan ibarətdir ki, biz görülən bütün işlərin nəticələrini görürük.

Bir neçə il bundan əvvəl biz içməli su layihələrinin başlanmasını qeyd etmişik, ancaq artıq bu gün bunun gözəl nəticələrini görürük. Uğurlarımızın təməlində ilk növbədə, bizim islahatlarımızdır və ilk növbədə, Azərbaycanda Heydər Əliyev siyasətinin davam etdirilməsidir. Gələn ay biz Ulu Öndərin 90 illik yubileyini qeyd edəcəyik. Bu ərəfədə bir daha görülən bütün işlərə nəzər saldıqda görürük ki, son 10 il ərzində Azərbaycan Heydər Əliyev siyasətinə öz sadiqliyini göstərərək böyük uğurlara nail olmuşdur. On il bundan əvvəl mən bəyan etmişdim ki, əgər Azərbaycan xalqı mənə etimad göstərərsə, mən Heydər Əliyev siyasətini davam etdirəcəyəm. Çox şadam ki, bu gün, 10 il keçəndən sonra görülən bütün işlər, əldə edilmiş nəticələr, bu inkişaf, bu quruculuq bir daha Heydər Əliyev siyasətinin nə qədər düzgün olmasını təsdiqləyir.

Bu gün Hacıqabulda içməli su layihəsinin başa çatması, doğrudan da, əlamətdar və unudulmaz bir hadisədir. Əminəm ki, gələcəkdə belə gözəl açılışlar çox olacaqdır. Hacıqabulda gözəl abadlıqquruculuq işləri aparılır, parklar salınır, yeni sənaye müəssisələri yaradılır, küçələr abadlaşır. Bir sözlə, rayonun inkişafı əminəm ki, bundan sonra yalnız və yalnız sürətlə davam edəcəkdir. Beləliklə, ölkə iqtisadiyyatına hacıqabullular da öz dəyərli töhfələrini bundan sonra da verəcəklər. Əziz dostlar, bu gözəl hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Sağ olun.

* * * *

Bu xeyirxah təşəbbüsün reallaşmasına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına hacıqabullular adından minnətdarlığını çatdıran rayon sakini Hafiz BƏŞİROV dedi:

- Möhtərəm cənab Prezident! İcazə verin, Sizi bütün Hacıqabul ictimaiyyəti adından salamlayım, rayonumuza “Xoş gəlmisiniz!” deyim. Bu gün rayonumuzun həyatında əlamətdar bir gündür. Şəhərimizə içməli su verilir.

Məncə, cənab Prezident, insan həyatında suyun əhəmiyyəti haqqında danışmağa ehtiyac yoxdur. Atalarımız “su həyatdır” deyiblər. Su həmişə elimizə, obamıza bolluq, paklıq, sağlamlıq gətiribdir. Keçən əsrin 70-ci illərində ulu öndərimiz Heydər Əliyev Kür çayından Bakı şəhərinə və ətraf yaşayış məntəqələrinə kəmər çəkdirərək milyonlarla insanı sevindirdi. İndi bu nəcib missiyanı Siz davam etdirirsiniz, cənab Prezident. Keçən ilin iyulunda Hacıqabul rayonunda yeni su kəmərinin təməlqoyma mərasimində Siz demişdiniz: “Əminəm ki, gələn ilin sonuna qədər bütün 6 rayonda gözəl mərasimlər keçiriləcəkdir. Bu rayonlara təmiz içməli suyun verilməsi tədbirlərində sizinlə birlikdə iştirak edəcəyik”. Sizin iştirakınız və xeyir-duanızla bu gün şəhərimizə təmiz içməli su verildi. Hər bir sakinimiz insan həyatı və sağlamlığı üçün əvəzsiz olan içməli su ilə təmin olunacaqdır. Bu, Sizin təkcə hacıqabullulara deyil, ölkəmizdə insanlarımıza, ölkə vətəndaşlarına necə yüksək önəm verməyinizin bariz nümunəsidir. İcazə verin, bizə həyatımız üçün əvəzsiz bir nemət olan təmiz su bəxş etdiyinizə görə bütün hacıqabulluların dərin minnətdarlığını və səmimi təşəkkürlərini Sizə çatdırım.

Möhtərəm cənab Prezident!

Biz çox yaxşı bilirik ki, Sizin fəaliyyətinizin təməlində həmişə Azərbaycan vətəndaşı dayanır. Sizin həyata keçirdiyiniz bütün tədbirlər insanların yaxşı yaşamasına, onların həyatının, təhlükəsizliyinin, hüquqlarının qorunmasına yönəlibdir. 2010-cu ildə baş vermiş

təbii fəlakət, sel daşqınları zamanı biz bunun bir daha şahidi olduq. Sadə insanlar o çətin günlərdə dövlətin gücünü, onun rəhbərinin qayğısını bir daha hiss etdilər. Həmin günlərdə məhz Sizin rəhbərliyinizlə görülmüş tədbirlər nəticəsində insan tələfatına yol verilmədi. İnsanlar böyük çətinliklə üz-üzə qalmadı. Doğrudan da, bir neçə ay keçmədi ki, bütün fəlakət bölgəsində olduğu kimi, Hacıqabulda da sel suları basmış kəndlərimizdə zərərçəkmiş ailələr üçün yüzlərlə yeni evlər tikildi. İnsanlara maddi kömək göstərildi. Hacıqabullular bütün bunlara görə bir daha Sizə öz dərin minnətdarlığını bildirirlər.

Möhtərəm cənab Prezident!

Bu gün hər birimiz ölkəmizin uğurlarına görə böyük qurur hissi keçiririk. Çünki Azərbaycan son illər ərzində iqtisadİ inkişaf baxımından, sözün əsl mənasında, dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir. Bəli, cənab Prezident, bu, əsl həqiqətdir. Rayonumuzda vaxtilə mövcud olan problemlər bu gün Sizin yüksək diqqətiniz sayəsində ardıcıllıqla aradan qaldırılır. Rayonumuzda öz məhsulu ilə bütün ölkəni təmin etmək gücündə olan yüzlərlə hacıqabullunun işləyəcəyi tikinti materialları zavodu istifadəyə verilib. Bu müəssisə sakinlərimizin, xüsusən də gənclərimizin məşğulluq probleminin həllinə böyük töhfə olacaqdır. Böyük məmnunluq və razılıq hissi ilə bildirmək istəyirəm ki, bu gün hər bir hacıqabullunun evinə mavi yanacaq verilir.

Hər bir ev dayanıqlı elektrik enerjisi ilə təmin edilir. İndi rayonumuzun vaxtilə gediş-gəlişi həddindən artıq çətin olan ən ucqar kəndlərinə belə yeni yollar çəkilir. Bütün bunlarla yanaşı, ümumtəhsil məktəblərimizin hamısı yenidən qurulmuş, onların maddi-texniki bazası möhkəmləndirilmiş, rayonda uşaq tibb mərkəzi, 50 çarpayılıq xəstəxana-poliklinika tikilib istifadəyə verilmişdir. Sizin qayğınız sayəsində şəhərimiz də öz görkəmini tanınmaz dərəcədə dəyişib. Şəhərimizdə yeni xiyaban və parklar salınır. Müasir işıqlandırma sistemi qurulub. Bir sözlə, sakinlərimizin rahat yaşayışı üçün hər cür şərait yaradılır. Bütün bunlara görə, bizim firavan yaşamağımız üçün gördüyünüz həyatı əhəmiyyətli işlərə görə, cənab Prezident, Sizə və Heydər Əliyev Fondunun prezidenti, hörmətli Mehriban xanım Əliyevaya hacıqabulluların dərin minnətdarlığını çatdırıram.

Möhtərəm cənab Prezident! Xalqımızın Sizə olan inamı, etibarı möhkəm və tükənməzdir. Çünki Siz insanlarımızın kiçikdən böyüyə kimi hamısına dərin rəğbət və hörmətlə yanaşırsınız. Daim bizim sağlamlığımızın, təhlükəsizliyimizin qayğısına qalırsınız.

Biz əziz Prezidentimizlə fəxr edir və qürur duyuruq. Biz hacıqabullular həmişə Sizinləyik. Diqqətinizə görə çox sağ olun.

**AZƏRTAC**
**2013, 16 aprel**

# MİNGƏÇEVİR SU ANBARININ TƏHLÜKƏSİZLİK SİSTEMİ İLƏ TANIŞLIQ

*(17 aprel 2013-cü il)*

Prezident İlham Əliyev aprelin 16-da Mingəçevir Su Anbarının perimetr və aquatoriya sərhədlərində qurulan inteqrə olunmuş təhlükəsizlik sistemi ilə tanış olmuşdur.

Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov Ali Baş Komandan, Prezident İlham Əliyevə raport verdi.

Bildirildi ki, Azərbaycan Prezidentinin 2011-ci il fevralın 25-də imzaladığı Fərmana əsasən Fövqəladə Hallar Nazirliyinin nəzdində yaradılmış Su Ehtiyatları Dövlət Agentliyinin səlahiyyətlərinə dövlət əhəmiyyətli su anbarlarının etibarlı mühafizəsini təmin etmək, ölkədə qurğuların texniki vəziyyətinə müntəzəm nəzarəti həyata keçirən, yerüstü, yeraltı su ehtiyatlarının, su obyektlərinin, hidrotexniki qurğuların, su təchizatı sistemlərinin monitorinqlərini aparmaq daxil edilmişdir. Bu çərçivədə Mingəçevir Su Elektrik Stansiyasında təhlükəsizliyin təmin edilməsinin strateji məsələ olması diqqətdə saxlanılmış və 16 milyard kubmetr su ehtiyatına malik anbarın kənar müdaxilələrdən qorunması üçün müasir avadanlıqdan istifadə edilərək mükəmməl təhlükəsizlik sistemi qurulmuşdur. Bu təhlükəsizlik sistemi stansiyanın perimetrini, su bəndini və xüsusi əhəmiyyətli üç mühəndis qurğusunu kənar müdaxilələrdən qoruyur. Stansiyaya mükəmməl təhlükəsizlik cihazlarına malik dörd nəzarət-buraxılış məntəqəsindən girmək mümkündür. Bütün postlar və nəzarət binası texnologiyanın son nailiyyətləri olan təhlükəsizlik sistemləri ilə təchiz edilmişdir. Su Elektrik Stansiyasının perimetri boyunca 4350 metr xəbəredici və 3950 metr əsas elektron qoruyucu çəpər çəkilmişdir. Çəpər boyunca hər 50 metrdən bir qurulan dayaqlarda 240 statik videokamera vasitəsilə perimetrə nəzarət olunur. Həmin dayaqlarda 55 səsləndirmə sisteminin səsucaldanları quraşdırılmışdır ki, bunların köməyi ilə əraziyə xəbərdarlıq və ya həyəcan anonsları verilir. Bundan başqa, strateji nöqtələrdə qurulan 360 dərəcə fırlanan, yaxınlaşdıran sürətli-hərəkətli 20 video kameradan, 19 termal kameradan istifadə olunmuşdur ki, bunlarla da hər hansı hadisəni və obyekti tam analiz etmək mümkündür. Bu mühüm ərazidə ümumilikdə 852 kvadratmetr yeni tikinti işləri aparılmış, 300 kvadratmetrdən çox isə yenidənqurma işləri görülmüş, ərazi boyunca 11 min kvadratmetr yola asfalt örtüyü çəkilmişdir. Binalar yanğın siqnalizasiya və avtomatik qazla söndürmə sistemləri ilə təchiz olunmuşdur. Məqsəd obyektin ərazisində xüsusi rejim formalaşdırmaq və təhlükəsizliyin təmin edilməsidir. Vurğulandı ki, obyektin girişləri 8 şlaqbaum və 4 antitaran maneə ilə qorunur. Buraxılış məntəqəsinə yaxınlaşan avtomobilin nömrəsi və sürücünün sifətinin görüntüsü haqda məlumatlar bazada toplanır və identifikasiya edilir, şlaqbaumla antitaran maneə arasında avtomobil yoxlanılır. Xaricdə istehsal olunmuş antitaran maneə isə 50 tona qədər zərbənin qarşısını ala bilir. Obyektə daxil olan piyadaların sifətini identifikasiya etmək üçün isə nəzarət-buraxılış məntəqəsində xüsusi kamera quraşdırılmışdır. Buraxılış məntəqəsinə daxil olan şəxs feys-inspektor sistemindən keçir, sifətin identifikasiyası aparılır, xüsusi plastik kartı turniketə yaxınlaşdıraraq keçidə icazə alır. Təhlükəsizlik sisteminin bir özəlliyi də ondan ibarətdir ki, 4 nəzarət buraxılış məntəqəsinin hər biri vahid mərkəzdən idarə olunur.

Prezident İlham Əliyev Mingəçevir Su Anbarının mühafizə sisteminin sxeminə və maketinə baxdı. Dövlətimizin başçısı növbə rəisinin otağında Mingəçevir Su Anbarının perimetr və aquatoriya sərhədlərində qurulan inteqrə olunmuş təhlükəsizlik sistemi haqda filmə baxdı.

Bildirildi ki, növbə rəisinin otağından su anbarı da daxil olmaqla bütün obyekti monitor və ya canlı şəkildə - pəncərədən izləmək mümkündür.

Sonra Prezident İlham Əliyev əraziyə şərti müdaxiləyə qarşı əməliyyatı izlədi. Məlumat verildi ki, təhlükəsizlik sisteminin ən mühüm elementi çəpərlərdir. Bu çəpərlər xüsusi materialdan hazırlanmışdır. Stansiyanın qorunan ərazisi bir-birindən bəzi yerlərdə 2 metr, bəzi yerlərdə isə 15-20 metr məsafədə yerləşən ikiqat məftil çəpərlə əhatələnmişdir. Birinci çəpər tikanlı məftillə təchiz edilmişdir ki, onu keçmək və üstündən aşmaq mümkün olmasın. Bu çəpər qorunan əraziyə adamların və heyvanların təsadüfi keçidinin qarşısını almaq üçün nəzərdə tutulmuşdur. Birinci çəpərdə həyat üçün təhlükəli olan hər hansı elektrik cərəyanı və digər elementlər yoxdur. İkinci çəpərin üzərində yüksək həssaslığa malik, titrəyişlə işləyən mühafizə detektorları quraşdırılmışdır. Çəpərə hər hansı müdaxilə - toxunuş haqda məlumat bu detektorların köməyi ilə dərhal mərkəzə ötürülür və aşkar olunur. Bundan əlavə, birinci və ikinci çəpərlər arasındakı dəhlizdə radiodalğalı hərəkət detektorları quraşdırılmışdır.

Təhlükəsizlik sistemində ən mühüm elementlərdən biri də sərhəd boyunca hər 50 metrdən bir quraşdırılan 5 və ya 7 metr hündürlüyündəki dayaqlardır. Bu dayaqlarda quraşdırılan avadanlıq vasitəsilə tam qaranlıq şəraitdə bir kilometr məsafəni müşahidə etmək mümkündür. 360 dərəcə fırlanaraq müşahidə aparan kameranın 50 dərəcə soyuq və isti havada işləmək imkanı vardır. Görüntünü 43 dəfə yaxınlaşdıran bu cihaz və xüsusi futlyarda yerləşdirilmiş statik videokameralar gecə-gündüz müşahidə aparır. Dayaqlar üzərində perimetr boyunca yerləşdirilmiş işıqlandırma projektorları perimetrin daimi olaraq mühafizə çəpəri boyunca işıqlandırılmasına imkan verir. Belə yüksək həssaslıq qabiliyyətinə malik təhlükəsizlik sistemlərindəki əsas fəsadlardan biri təbii təsirlərin təhlükəli müdaxilələrdən fərqləndirilməsi sahəsindədir. Belə ki, bu cür fərqləndirmə mexanizmlərinin olmaması "aldadıcı həyəcan siqnalları"nın tez-tez baş verməsinə səbəb olur. Onların qarşısını almaq üçün 800 metrdən bir yerləşdirilmiş dayaqlarda meteostansiyalar quraşdırılmışdır. Bu meteostansiyanın köməyi sayəsində çəpər-mühafizə sistemini aldatmaq mümkün olmur. Hətta hava şəraiti haqqında bütün sinoptik məlumatlar qəbul edən stansiya bu informasiyanı mütəmadi olaraq mühafizə panelinə ötürür.

Bütün təhlükəsizlik sistemində ən mühüm element mini radiolokasiya stansiyasıdır. Bu sistem ən çətin və ən mürəkkəb hava şəraitində müşahidəyə imkan verir, axtarış-xilasetmə işlərində naviqasiyanın təhlükəsizliyini təmin edir. Dayaqlarda səsucaldan qurğular da yerləşdirilmişdir ki, bu avadanlıq xəbərdaretmə və təxliyələrin idarə olunması üçündür.

Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, Mingəçevir Su Elektrik Stansiyasının ən mühüm təhlükələrdən qorunması zəruri olan hissələri su səddi deyilən mühəndis qurğularıdır. Su Elektrik Stansiyasına su bu qurğular vasitəsilə ötürülür və onlar müşahidə cihazları ilə təchiz olunmuşdur. Bütün məlumatlar inteqrə olunmuş və mərkəzləşdirilmiş sistem sayəsində mərkəzi nəzarət binasının server otaqlarında toplanır. Ehtiyac olarsa, məlumatlar fiber-optik kabel vasitəsilə Fövqəladə Hallar Nazirliyinə ötürülə bilər.

Prezident İlham Əliyev mərkəzi mühafizə məntəqəsində istirahət üçün yaradılan şəraitlə də tanış oldu. Dövlətimizin başçısı görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.

**AZƏRTAC**
**2013, 17 aprel**

## ŞİRVANDA "CƏNUB" ELEKTRİK STANSİYASI İSTİSMARA VERİLMİŞDİR PREZİDENT İLHAM ƏLİYEV AÇILIŞDA İŞTİRAK ETMİŞDİR

*(1 iyul 2013-cü il)*

İyulun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şirvana səfəri çərçivəsində "Cənub" Elektrik Stansiyasının açılışında iştirak etmişdir.

Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad etdi, Ümummilli Liderin stansiyanın həyətindəki abidəsi önünə gül dəstəsi qoydu.

Prezident İlham Əliyev avtobusla stansiyanın ərazisini gəzdi.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına məlumat verdi ki, son illərdə Azərbaycanda elektroenergetika sisteminin inkişafı ilə bağlı mühüm tədbirlər icra olunmuşdur. Bu sahədə həyata keçirilən tədbirlər nəticəsində ölkəmizdə energetikanın maddi-texniki bazası möhkəmləndirilmiş, xeyli sayda modul tipli elektrik stansiyaları istifadəyə verilmişdir. Bununla da əhalinin elektrik enerjisi ilə təmin olunmasında ciddi nailiyyətlər qazanılmışdır. Bu sahədə beynəlxalq standartlara uyğun qanunvericilik bazası formalaşdırılmışdır ki, bu da ölkədə enerji sisteminin müasir tələblər səviyyəsində inkişafına təkan verir. Bütün bunlarla yanaşı, indi mövcud elektrik stansiyalarının modernləşdirilməsi prosesi vüsət almışdır. 2007-ci il dekabrın 24-də Prezident İlham Əliyevin iştirakı ilə təməli qoyulan "Cənub" Elektrik Stansiyasında həyata keçirilən işlər də bunun bariz nümunəsidir. Bütün tikinti-quraşdırma və sazlama işləri respublikada ilk dəfə olaraq layihənin baş podratçısı yerli "Azenco" şirkəti tərəfindən həyata keçirilmişdir. Stansiyanın ümumi ərazisi 20 hektardır. Tikintisində 800 nəfərin çalışdığı elektrik stansiyası fəaliyyətə başladıqdan sonra burada 215 nəfər daimi işlə təmin ediləcəkdir. Ərazidə olan köhnə yaşayış yerlərinin əvəzinə beşmərtəbəli 60 mənzilli bina, ikimərtəbəli mehmanxana, üçmərtəbəli qonaq evi, 14 fin evi və yeməkxana tikilmişdir. Stansiyanın ərazisində yaşıllaşdırma işləri aparılmış, 30 min ağac, 60 mindən çox müxtəlif gül kolu əkilmişdir. Ərazidə 61 min kvadratmetr sahədə beton yol salınmışdır.

Hazırda əhalinin tələbatı nəzərə alınaraq ötürücü və paylayıcı şəbəkələrin genişləndirilməsi istiqamətində atılan addımlara, bu məsələdə ekoloji təhlükəsizliyin diqqət mərkəzində saxlanmasına xüsusi əhəmiyyət verilir. Bu prinsip "Cənub" Elektrik Stansiyasının fəaliyyətində də başlıca meyara çevrilmişdir. Bu mühüm amili şərtləndirən digər məsələ indi Azərbaycanda bərpa olunan və alternativ enerji mənbələrinin yaradılmasına xüsusi diqqətin göstərilməsidir. Bununla bağlı artıq konkret tədbirlər həyata keçirilir və bu da ölkəmizin elektroenergetika infrastrukturunun daha da möhkəmləndirilməsinə xidmət edir.

"Cənub" Elektrik Stansiyası isə böyük regional infrastruktur layihəsi olmaqla ölkəmizin enerji təhlükəsizliyinə mühüm töhfə verəcəkdir. Ölkənin cənub bölgəsində 50 il əvvəl istismara verilmiş "Şirvan" Elektrik Stansiyası istismar müddətini iki dəfə başa vurduğuna görə Prezident İlham Əliyevin 2005-ci ildə imzaladığı Sərəncamla Şirvan şəhərində "Cənub" Elektrik Stansiyası inşa edilmişdir. Stansiyanın gücü 780 meqavatdır. Prezident İlham Əliyev "Sahil" nasos stansiyasında oldu. Bildirildi ki, nasos stansiyasında hər birinin məhsuldarlığı saatda 80 min kubmetr olan üç qaz kompressoru quraşdırılmış, Kür çayı üzərində diametri iki min millimetr olan iki kollektorlu 4 nasosdan ibarət 3 kilometr uzunluğunda su soyuducu sistem yaradılmışdır. Burada 2 köməkçi işəsalma və qızdırıcı qazan quraşdırılmışdır. Stansiyada hər birinin məhsuldarlığı saatda 100 ton olan iki qurğudan ibarət sutəmizləmə sistemi də fəaliyyət göstərir. "Sahil" nasos stansiyasında quraşdırılan avadanlıq ən müasir tələblərə cavab verir.

Dövlətimizin başçısı "GİS" tipli qapalı 330/220/110 kilovoltluq yarımstansiyanın fəaliyyəti ilə də maraqlandı. Burada xidmətə ehtiyacı olmayan qazla izolə edilmiş üç qapalı

yarımstansiyada hər birinin gücü 180 meqavolt amper olan 6 yüksəldici transformator, hər birinin gücü 250 meqavolt amper olan 4 sistem transformatoru və hər birinin gücü 25 meqavolt amper olan 4 xüsusi sərfiyyat transformatoru quraşdırılmışdır. Yarımstansiyada ümumi uzunluğu 50 kilometr olan 330, 220 və 110 kilovoltluq kabel və hava xətləri, həmçinin uzunluğu 130 kilometr olan 220 kilovoltluq iki dövrəli "Cənub Elektrik Stansiyası – Böyük Şor Yarımstansiyası" hava xətti çəkilmişdir. Qeyd edildi ki, 110 kilovoltluq xətlər Sumqayıt Texnologiyalar Parkının istehsalıdır. Ümumilikdə, stansiyada Sumqayıt Texnologiyalar Parkının istehsalı olan 150 kilometr uzunluğunda 6 və 0,4 kilovoltluq güc, həmçinin min kilometrdən çox siqnal və ölçü kabelləri çəkilmişdir.

Stansiyanın baş korpusunda ən müasir avadanlıq quraşdırılmışdır. Burada hər birinin gücü 128 meqavat olan 4 qaz turbini, hər birinin gücü 135 meqavat olan 2 buxar turbini, hər birinin məhsuldarlığı saatda 186 ton olan 4 qazan-utilizator və hər birinin gücü 160 meqavolt amper olan 6 generator və digər zəruri avadanlıq qoyulmuşdur. Baş korpusda 1,5 milyon kubmetrdən çox torpaq işləri görülmüşdür. Burada dəmir-beton məmulatın həcmi 82 min kubmetrdir. "Cənub" Elektrik Stansiyasının faydalı iş əmsalı 52 faiz, bir kilovat/saat elektrik enerjisinin istehsalına sərf olunan şərti yanacağın miqdarı isə 237 qramdır. Müqayisə üçün deyək ki, əvvəlki "Şirvan" Elektrik Stansiyasında bu göstəricilər müvafiq olaraq 26 faiz və 460 qram təşkil edirdi. Digər analoji stansiyalardan fərqli olaraq burada üç yanacaq növündən - qaz, mazut və dizel yanacağından istifadə etmək imkanı vardır. Stansiyanın fəaliyyəti yüksək keyfiyyətli olmaqla yanaşı, həm də qənaətcilliyi ilə seçilir. Bu nəhəng infrastruktur qurğusunun fəaliyyətə başlaması ilə ildə 780 milyon kubmetr qaza və 650 min ton mazuta qənaət etmək mümkündür. Stansiya ildə 6 milyard kilovat/saat elektrik enerjisi istehsal etməyə imkan verəcəkdir. Mütəxəssislərin hesablamalarına görə, stansiya öz dəyərini maksimum 4 ilə tam ödəyəcəkdir.

Azərbaycan Prezidentinə məlumat verildi ki, sutəmizləyici stansiya da ən müasir avadanlıqla təchiz edilmişdir. Stansiyanın Kür çayından götürülən xam su məhsuldarlığı saatda 430 kubmetrdir. Bildirildi ki, stansiyaya lazım olan əsas avadanlıq dünyanın 70-ə yaxın aparıcı şirkətindən alınmışdır. Bununla yanaşı, bir çox zəruri avadanlıq, o cümlədən metal konstruksiyalar, körpülü kranlar, borular, mazut çənləri və digər avadanlıq yerli "Azenco" şirkəti tərəfindən hazırlanmışdır. Prezident İlham Əliyev stansiyanın idarəetmə mərkəzində yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, bu mərkəzdə stansiyanın idarə olunması, müşahidə kameraları ilə qurğunun ərazisinə nəzarət həyata keçirilir. Stansiyanın bütün avadanlığının qoşulub-açılması da buradan idarə olunur. Dövlətimizin başçısı "Cənub" Elektrik Stansiyasını işə saldı.

Sonra Prezident İlham Əliyev şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Əziz dostlar!

Bu gün çox gözəl və əlamətdar bir gündür. Şirvan şəhərində "Cənub" Elektrik Stansiyası işə başlayır. Bu əlamətdar hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm.

Bu stansiyanın tikintisində iştirak etmiş bütün vətəndaşları salamlayıram, onlara minnətdarlığımı bildirirəm. Bu stansiya müstəqillik dövründə tikilmiş ən böyük elektrik stansiyasıdır. 780 meqavat gücündə olan stansiya Azərbaycanın enerji potensialını gücləndirəcək, imkan verəcəkdir ki, ölkə iqtisadiyyatı bundan sonra da uğurla inkişaf etsin. Çünki elektrik stansiyalarının fəaliyyəti ümumi inkişafa təkan verir. Son 10 il ərzində Azərbaycanda 14 elektrik stansiyası tikilmişdir. Ümumi stansiyaların sayı isə 23- dür. On il ərzində

təxminən üç min meqavat gücündə stansiyalar tikilmişdir və hazırda ümumi generasiya gücümüz 6 min meqavatdır. Bu stansiyada ən son texnologiyalar tətbiq edilmişdir, ən müasir standartlara cavab verir. Deyə bilərəm ki, bu, bölgənin ən müasir stansiyasıdır və burada quraşdırılmış bütün avadanlıq ən yüksək səviyyədədir. Sevindirici hal ondan ibarətdir ki, stansiyanın tikintisində Azərbaycan mütəxəssisləri işləmişlər, Azərbaycan şirkətləri bu stansiyanı tikmişlər. Bu da zəmanənin əlamətidir. İlk illərdə biz daha çox xarici şirkətlərə üz tuturduq, onları bu işlərə cəlb edirdik. Amma indi Azərbaycan şirkətləri belə nəhəng obyektləri tikə bilirlər və tikirlər də.

Əminəm ki, bu stansiyanın fəaliyyəti nəticəsində bölgə qarşısında, ölkə qarşısında duran bütün vəzifələr icra ediləcəkdir. Çünki Azərbaycanda gedən uğurlu inkişaf, sənayeləşmə prosesi diktə edir ki, bizdə generasiya gücləri yaradılsın. Əgər son 10 il ərzində 14 elektrik stansiyası tikilməsə idi, biz bu gün indiki iqtisadi inkişafa nail ola bilməzdik. Çünki Azərbaycanda hər il çoxlu sayda yeni müəssisə tikilir, yeni zavodlar, fabriklər açılır və beləliklə, ölkənin sürətli inkişafı təmin edilir. Generasiya gücləri, əlbəttə ki, bütün bu inkişafın təməlində durmalıdır və Azərbaycanda istehsal edilən enerji tələbatdan həmişə artıq olmalıdır. Bu gün bu, belədir. Bu gün bizdə hələ ehtiyat vardır ki, sənayenin inkişafı davam etsin. Eyni zamanda, yeni stansiyaların tikintisi də nəzərdə tutulur. Gələn illərdə 2 min meqavat gücündə olan yeni stansiyalar tikilməlidir.

Eyni zamanda, biz bərpa olunan elektrik enerjisinin yaradılması ilə ciddi məşğuluq. Su elektrik stansiyaları tikilir, günəş elektrik stansiyalarının tikintisi nəzərdə tutulur və beləliklə, Azərbaycanda enerji sektorunda bütün məsələlər uğurla inkişaf edir və uğurla öz həllini tapır. Azərbaycanın inkişafı dünya miqyasında artıq bir reallıqdır. Bu inkişaf son 10 il ərzində özünü daha da çox göstərmişdir. Bu ilin 5 ayında qeyri-neft sektorumuz daha çox sənaye müəssisələrinin fəaliyyəti hesabına 11 faiz artmışdır. Əlbəttə, generasiya güclərinin yaradılması və inkişafı ümumi inkişafımıza xidmət göstərir. Bununla bərabər, Azərbaycan hazırda elektrik enerjisini qonşu ölkələrə də ixrac edir və əlbəttə, bu da bizim iqtisadi gücümüzü artırır. Energetika hər bir ölkənin əsas sahəsidir.

Energetika inkişaf etmədən heç bir ölkə inkişaf edə bilməz. İnkişaf üçün mütləq generasiya gücləri lazımdır. Biz bu gücləri yaradırıq və yaradacağıq. Bununla bərabər, hazırda biz daha çox ötürücü xətlərə, paylayıcı şəbəkələrə diqqət yetiririk. Çünki generasiya gücləri yarandıqdan sonra əlbəttə ki, diqqət bu istiqamətə yönəldilməlidir. Biz bunu edirik ki, enerji məsələləri tam şəkildə həllini tapsın. Ümumiyyətlə, Azərbaycanda enerji təhlükəsizliyi məsələləri uğurla icra edilir. Biz bütün vəzifələri ardıcıllıqla icra edirik. Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, enerji təhlükəsizliyini özü 100 faiz təmin edir. Bu, təbii resursların işlənməsi sahəsində özünü büruzə verir, eyni zamanda, generasiya güclərinin yaradılması da bu istiqamətdə bizə kömək göstərir. Enerji təhlükəsizliyi məsələləri hər bir ölkə üçün böyük əhəmiyyət daşıyır. Hər bir ölkə çalışmalıdır ki, enerji təhlükəsizliyini təmin etsin. Bunsuz inkişaf mümkün deyildir. Bunsuz müstəqil inkişaf mümkün deyildir. Azərbaycan nəinki öz enerji təhlükəsizliyini təmin edib, eyni zamanda, digər ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində də öz rolunu oynayır. Bu yaxınlarda qəbul edilmiş qərarlar Azərbaycanı dünya miqyasında, qlobal müstəvidə çox ciddi tərəfdaşa çevirir. Azərbaycan öz enerji resurslarını artıq neçə ildir ki, dünya bazarlarına çıxarır. Gələcəkdə təbii ehtiyatlarımızın dünya bazarlarına çıxarılması üçün əlavə imkanlar yaranır. Bu, o deməkdir ki, Azərbaycan bundan sonra uzun illər ərzində öz iqtisadi gələcəyini təmin edir. Azərbaycanın uzunmüddətli və dayanıqlı inkişafı üçün şərait yaradılır. Azərbaycanın dünyadakı rolu artır və yeri möhkəmlənir.

Bu, ölkəmizin gücünü artıracaqdır. Çünki biz enerji siyasətimizi uğurla aparırıq və bu siyasət bəhrəsini verməkdədir. Biz bu siyasətdən əldə edilmiş gəlirləri bütün başqa sahələrə yönəldirik. Bu stansiyanın tikilməsi də enerji siyasətimizin təzahürüdür. Düzdür, bu stansiyanın tikilməsində xarici banklar və fondlar bizə dəstək olmuşlar. Ancaq əgər Azərbaycanın güclü maliyyə və iqtisadi imkanları olmasaydı, biz bu kreditləri ala bilməzdik. Amma bununla bərabər, indi biz özümüz kreditlər veririk və Azərbaycanın maliyyə vəziyyəti çox möhkəmdir. Biz bundan sonra da bütün işləri ardıcıllıqla görəcəyik. Azərbaycanın uğurlu inkişafı artıq reallıqdır, heç kimdə şübhə doğurmur. Azərbaycan hətta dünyanı bürümüş böhran illərində də öz inkişafını təmin etmişdir, inamla irəliyə getmişdir, insanların rifah halı yaxşılaşır, iqtisadiyyat artır. İqtisadiyyatın bütün sektorları inkişafdadır. Şaxələndirmə siyasəti öz nəticəsini verməkdədir. Beləliklə, uğurlu inkişaf üçün bütün imkanlar vardır. Sadəcə olaraq gələn illərdə də biz bu ardıcıl siyasəti aparmalıyıq. Biz bütün sahələrdə, o cümlədən enerji sahəsində yeni təşəbbüslər irəli sürəcəyik, yeni addımlar atacağıq ki, uzunmüddətli dayanıqlı inkişafı təmin edək.

Bu stansiyanın tikilməsi özlüyündə gözəl rəmzi xarakter daşıyır və onu göstərir ki, müstəqil Azərbaycan dövləti böyük işləri görməyə qadirdir. Bu stansiyanın işə salınması ilə biz demək olar ki, standartlara cavab verməyən bütün köhnə stansiyaları artıq dayandırırıq. Stansiyanın iqtisadi cəhətdən böyük səmərəsi vardır. Burada sərfiyyat əvvəlki stansiya ilə müqayisədə təxminən iki dəfə azdır və bu da ölkə iqtisadiyyatına böyük dəstək olacaqdır.

Mən bu gün bütün energetikləri xüsusi salamlamaq istəyirəm. Azərbaycanda energetika sahəsinə çox böyük diqqət göstərilir və mən Prezident kimi 2004-cü ildən başlayaraq bu sahəni daim diqqət mərkəzində saxlamışam. Bütün bölgələrdə modul tipli elektrik stansiyaları, böyük elektrik stansiyaları tikilmişdir. Əlbəttə, bu istiqamətdə dövlət siyasəti çox açıqdır, aydındır, birmənalıdır. Ancaq mən energetiklərin fəaliyyətini xüsusilə vurğulamaq istəyirəm. Çünki qısa müddət ərzində bu istiqamətdə çox böyük islahatlar aparılmışdır. Energetiklərin peşəkarlığı artmışdır. Azərbaycanda müasir texnologiyalar tətbiq edilir və bu texnologiyaları Azərbaycan mütəxəssisləri tətbiq edirlər. Stansiyaların işlədilməsində Azərbaycan mütəxəssisləri iştirak edirlər. Bu, kadr hazırlığı üçün də böyük dəstəkdir və bütün bu işləri görən energetiklər, inşaatçılar yüksək qiymətə layiqdirlər. Nəzərə alsaq ki, planlarımız çoxdur, Azərbaycanda texnoparklar tikilir, Bakıda, Sumqayıtda, Gəncədə və Mingəçevirdə böyük texnoparklar tikiləcəkdir, hələ energetiklər üçün işlər çox olacaqdır. Biz stansiyaları tikəcəyik, Azərbaycanın iqtisadi inkişafını təmin edəcəyik. Əminəm ki, bundan sonra da bu gözəl tədbirlərdə sizinlə bərabər iştirak edəcəyik. Eyni zamanda, bu gün Şirvan şəhərinin inkişafı ilə bağlı bir neçə kəlmə söz demək istərdim. Şirvan şəhərinin inkişafı təmin edilir.

Bu gün növbəti açılışlar olacaqdır. Mən dəfələrlə Şirvan şəhərində olmuşam. Əvvəllər də burada sosial obyektlər, zavodlar tikilmişdir. Bu gün də Şirvan üçün çox vacib olan içməli su layihəsi icra ediləcəkdir. Biz bunun açılışını qeyd edəcəyik. Böyük Olimpiya İdman Kompleksi, hərbi zavodlar açılır. Əvvəlki dövrlərdə Diaqnostika Mərkəzi açılmışdır. Yəni, Şirvan şəhərinin uğurlu inkişafı üçün hər şey edilir və əminəm ki, burada işlər bundan sonra da yaxşı gedəcəkdir.

Bir daha, əziz dostlar, bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

* * * *

Sonra "Azərenerji" ASC-nin prezidenti Etibar PİRVERDİYEV çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident! Hörmətli xanımlar və cənablar! Bu gün Azərbaycanın müstəqil elektrik enerjisi sisteminə malik olması vaxtilə ümummilli liderimiz Heydər Əliyevin həyata keçirdiyi siyasətin nəticəsidir. Məhz Ulu Öndərin rəhbərliyi altında həm sovet

dövründə, həm də müstəqillik illərində bir neçə iri elektrik stansiyasının, on minlərlə kilometr elektrik xətlərinin istifadəyə verilməsi bugünkü uğurların təməlini qoymuşdur.

Möhtərəm cənab Prezident!

Siz enerji müstəqilliyimizin daha da möhkəmləndirilməsini, ölkə əhalisinin və iqtisadiyyatının tələbatını tamamilə ödəməklə yanaşı, elektrik enerjisinin ixrac potensialının yaradılmasını energetiklər qarşısında vəzifə kimi qoymuşdunuz. Bunun nəticəsidir ki, 10 il əvvəl ölkədə mövcud olan enerji çatışmazlığı respublikanın müxtəlif bölgələrində rekord qısa müddətdə elektrik stansiyalarının inşası nəticəsində tamamilə aradan qaldırıldı. Sahibkarlığın, kiçik biznesin, ümumiyyətlə, bütün iqtisadiyyatın inkişafı üçün möhkəm zəmin yaradıldı.

Möhtərəm cənab Prezident!

Sizin Sərəncam və tapşırıqlarınız əsasında son 7 il ərzində Azərbaycanın elektrik enerjisi sistemində bu gün işə saldığımız "Cənub" Elektrik Stansiyası da daxil olmaqla 14 yeni elektrik stansiyası istismara verilmişdir. 2006-cı ildə Sizin tərəfinizdən Astarada yeni elektrik stansiyası işə salındıqdan sonrakı hər bir ildə iki yeni elektrik stansiyası tikilib istifadəyə verilmişdir.

Bu, Azərbaycanın elektrik energetikası tarixində rekord bir göstəricidir. Nəticədə 1500 meqavat, "Cənub" Elektrik Stansiyası ilə birlikdə isə 2300 meqavat yeni, tam yeni generasiya gücləri əldə edilmişdir. Möhtərəm cənab Prezident! Siz çıxışlarınızda dəfələrlə qeyd etmişdiniz ki, bütün sahələrdə yeni texnologiyaların tətbiqi müasir dövrün tələbidir. Sizin dəyərli tövsiyələrinizi nəzərə alaraq, yeni enerji obyektlərinin tikintisində ən müasir və qabaqcıl texnologiyalar tətbiq edilmişdir. Bunun nəticəsində respublikanın elektrik enerjisi sistemində təkcə kəmiyyət cəhətdən deyil, eyni zamanda, keyfiyyət cəhətdən də ciddi inkişafa nail olunmuşdur. Stansiyaların faydalı iş əmsalı artmış, ekoloji təmizlik prinsiplərinə əməl olunmuşdur. Belə ki, hər kilovat/saat elektrik enerjisinin istehsalına sərf olunan yanacağın miqdarı 415 qramdan sistem üzrə 315 qrama qədər, yəni 25 faiz azaldılmışdır. Bu isə hər il təqribən 2 milyon ton şərti yanacağa qənaət etməyə imkan vermişdir. Məlum olduğu kimi, 7 enerji blokundan ibarət "Şirvan" İstilik Elektrik Stansiyası 1962-ci ildə istismara verilmişdi. Əlli ildən artıq istismar olunan bu stansiya fiziki və mənəvi cəhətdən tam köhnəlmişdir. Bir kilovat elektrik enerjisinin istehsalına 450 qramdan artıq yanacaq istifadə olunur. Son illər stansiya qoyuluş gücünün 45-50 faizi həddində istismara imkan verirdi.

Möhtərəm cənab Prezident!

Sizin Sərəncamınızla inşa edilmiş və bu gün şəbəkəyə qoşduğumuz "Cənub" Elektrik Stansiyası haqqında qısa məlumat vermək istərdim. Stansiyanın ümumi gücü 780 meqavat təşkil edir. Burada dörd qaz turbini, iki buxar turbini, dörd qazan-utilizator, altı generator və digər avadanlıq quraşdırılmışdır. Stansiyaya lazım olan əsas avadanlıq dünyanın 70-ə yaxın aparıcı şirkətlərinin istehsalıdır.

Tikintidə istifadə olunan bir çox zəruri avadanlıq ilk dəfə olaraq respublikamızın zavodlarında istehsal edilmişdir. Bununla yanaşı, bütün tikinti-quraşdırma və sazlama işləri ilk dəfə olaraq mütəxəssisləri tərəfindən "açar təhvili" şərti ilə həyata keçirilmişdir. Stansiyanın tikintisində 1500-dək işçi və yüzlərlə texnika çalışmışdır. İstehsal olunan elektrik enerjisini şəbəkəyə ötürmək məqsədilə respublikada ilk dəfə olaraq 330 və 220 kilovoltluq tam qapalı yarımstansiyalar quraşdırılmış, müvafiq gərginlikdə kabel xətlərindən istifadə edilmişdir.

Möhtərəm cənab Prezident!

Stansiyanın iqtisadi səmərəliliyi haqqında da məlumat vermək istərdim. "Cənub" Elektrik Stansiyasının faydalı iş əmsalı 52 faiz, bir kilovat elektrik enerjisinin istehsalına sərf olunan şərti yanacağın miqdarı 237 qram təşkil edəcəkdir. Bu stansiyanın istismara verilməsi sayəsində ildə orta hesabla 700 milyon kubmetrdən çox qaza qənaət ediləcəkdir.

Mütəxəssislərin hesablamalarına görə, təbii qazın qənaəti hesabına təqribən 4-5 ilə stansiya öz dəyərini ödəyəcəkdir. “Cənub” Elektrik Stansiyası ildə 6 milyard kilovat/saat elektrik enerjisi istehsal etmək imkanındadır.

Elektrik stansiyasının ərazisində üçmərtəbəli 29 mənzilli qonaq evi, ikimərtəbəli 28 otaqlı mehmanxana tikilib istifadəyə verilmişdir. Eyni zamanda, mövcud stansiyanın ərazisində əvvəllər məskunlaşmış əhali üçün Şirvan şəhərinin mərkəzində beşmərtəbəli 60 mənzilli yaşayış binası da tikilərək istifadəyə verilmişdir.

Möhtərəm cənab Prezident! Siz bugünkü çıxışınızda energetiklər haqqında dediyiniz sözləri biz bir etimad kimi qəbul edirik və söz veririk ki, hazırda davam etdirilən digər enerji obyektləri də yüksək keyfiyyətlə inşa edilib istifadəyə veriləcəkdir. Sağ olun.

* * * *

Şəhər ictimaiyyətinin nümayəndələri adından çıxış edən Tofiq HÜSEYNOV Şirvanın inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına təşəkkür edərək dedi:

- Möhtərəm cənab Prezident!

Hər bir azərbaycanlı kimi biz də Sizin dəyərli fəaliyyətiniz, xalqımızın rifahı naminə gördüyünüz misilsiz işlər nəticəsində ölkəmizin əldə etdiyi nailiyyətlərə ürəkdən sevinirik. Sizin rəhbərliyiniz altında dövlətimiz artıq sübut etdi ki, müstəqil yaşamağa qadirdir. Siz ölkəmizin iqtisadi gücünü, hərbi qüdrətini bütün dünyaya hərbi paradda bir daha nümayiş etdirdiniz. Azərbaycanımızın bu inkişafına, bu qüdrətinə görə hər bir dünya azərbaycanlısı kimi mən də Sizə “Çox sağ olun!” deyirəm. Bu gün isə açılışında iştirak etdiyimiz bu nəhəng, valehedici layihə - “Cənub” Elektrik Stansiyası Azərbaycan dövlətinin qüdrətinin daha bir göstəricisidir.

Möhtərəm cənab Prezident!

Şirvan ulu öndərimiz Heydər Əliyevin diqqəti ilə bir şəhər kimi formalaşaraq respublikanın sənaye mərkəzlərindən birinə çevrilmişdir. Ulu Öndərin tapşırığı ilə burada məişət cihazları, dəmir-beton məmulatı, kərpic, süni dəri, saxsı boru, şirə, yeyinti konsentratları zavodları və digər istehsal müəssisələri inşa edilmişdir. İndi isə Sizin rəhbərliyinizlə Şirvan ən müasir şəhərlərdən birinə çevrilməkdədir. Sakinlərimizin layiqli həyat yaşamaları üçün bütün tələbatları ödənilmişdir. Şəhərimizdə göz oxşayan, bizə dinclik-rahatlıq gətirən tikililər, tibb ocaqları, məktəblər, yeni iri sənaye müəssisələri yaradılmış, park və xiyabanlar, nümunəvi məhəllələr salınmışdır. Bu barədə iftixar hissi ilə, şirvanlı qüruru ilə çox danışmaq olar. Eyni zamanda, şəhər infrastrukturunun inkişafı da diqqətinizdən yayınmamışdır. Şirvan Mərkəzi Xəstəxanası əsaslı təmir olunmuş, qabaqcıl avadanlıqla təchiz edilmiş, Diaqnostika Mərkəzi istifadəyə verilmişdir. Heç bir şirvanlı ağlına belə gətirə bilməzdi ki, burada ciddi cərrahiyyə əməliyyatları keçiriləcəkdir.

Cənab Prezident, yeganə arzum budur ki, kaş ki, burada şəfa tapan insanların alqışlarını və Sizə olan minnətdarlıq dualarını özünüz eşidəydiniz. İndiyədək şəhərimizin düz yarısı içməli sudan korluq çəkirdi. Bu gün şəhərimizi içməli su ilə təmin edirsiniz. Bu müqəddəs əməli həyata keçirməklə Siz şəhər sakinlərinə yeni sağlam və firavan həyat bəxş edirsiniz. Şirvan sakinləri şəhər həyatı üçün vacib olan fasiləsiz enerji və qazla da təmin olunmuşlar.

Möhtərəm cənab Prezident!

Bu gün şəhərimizin sənaye potensialı da inkişaf etməkdədir. Müasir sənaye müəssisələri yaradılır, yeni iş yerləri açılır. Xüsusi vurğulamaq istəyirəm ki, yüzlərlə gənc hərbi sənaye müəssisələrində çalışır, yeni peşələrə yiyələnirlər və bu sahədə əldə olunmuş nailiyyətlərə öz töhfələrini verirlər. Şəhərimizdə bu gün gənclərimizin sağlam ruhda böyüməlırinə xidmət edəcək möhtəşəm Olimpiya İdman Kompleksi də istifadəyə verilir. Bu müasir tikili də şəhərin görkəminə xüsusi gözəllik verir. Gənclərimizin müasir peşələrə maraqlarını, ictimai fəallığını artıracaq Gənclər Mərkəzinin tikintisi də başa çatmaq üzrədir. Bu, bir daha göstərir ki,

Siz Azərbaycanın gələcəyi olan gənc nəslin sağlam, təhsilli, ümumilikdə hərtərəfli inkişafını da daim düşünürsünüz.

Yaxşı xatirimizdədir. 2010-cu ildə Şirvana səfəriniz zamanı söyləmişdiniz ki, "Şirvan ölkəmiz üçün Bakıdan sonra çox vacib sahəni əhatə edən ikinci şəhər olacaqdır". Bütün bu nəhəng layihələrin şəhərimizdə həyata keçirilməsi Sizin bu fikirlərinizin reallığa çevrilməsini sübut edir. Beləliklə, Şirvan üçün bu əlamətdar gündə Siz sakinlərimizə nur, yeni həyat, sağlam ruh, rahat yaşayış bəxş edirsiniz. Bir sözlə, bu gün Şirvanda əsl şəhər həyatı yaşanır. Bunu bizə Siz verdiniz! Çox sağ olun, cənab Prezident! Biz şirvanlılara göstərdiyiniz bu diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildiririk. Əminliklə deyirik ki, cənab Prezident, Sizin gərgin əməyiniz və yorulmaz fəaliyyətiniz sayəsində digər bölgələrlə yanaşı, Şirvanda da həll olunmamış böyük problem qalmamışdır.

Möhtərəm cənab Prezident!

Siz bir nursunuz. Bir ziyalı kimi düşünürəm ki, indi Vətəninə, xalqına bağlı olan hər bir azərbaycanlı qəlbində bir istək yaşadır - Sizin işığınızla bu işlərin davam etdirilməsi istəyini. Harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı Sizin bayrağınız altında doğma Vətənimizin daha da gücləndirilməsi üçün öz töhfələrini vermək arzusundadır. Çünki Siz güclü Azərbaycanımızın qarantısınız. Biz Sizə inanır, Sizə güvənir və gələcəyimizi yalnız Sizinlə bağlayırıq! Qoy, Ulu Tanrı Sizi, ailənizi və xalqımızı qorusun.

* * * *

Sonda xatirə şəkli çəkdirildi.

**Xalq qəzeti.-2013.- 2 iyul.-№ 141.-S.1-2**

## ŞİRVAN-MUĞAN QRUP SU KƏMƏRİNDƏN ŞİRVAN ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİ

*(1 iyul 2013-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 1-də Şirvan-Muğan qrup su kəmərindən Şirvan şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısı Şirvan-Muğan qrup su kəmərinin texniki göstəricilərini və Şirvan şəhərinin su təchizatı sisteminin baş planını əks etdirən stendlərlə tanış oldu.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov Prezident İlham Əliyevə məlumat verdi ki, Şirvan şəhərinə içməli su 1952-ci ildə tikilmiş sutəmizləyici qurğudan verilir. Bu sistemin istismar müddəti çoxdan başa çatmışdır. Şəhər əhalisinin bir hissəsi Kür çayının qismən təmizlənmiş suyu ilə günaşırı olmaqla 12 saatlıq rejimlə təchiz edilir. Mövcud sutəmizləyici qurğunun məhsuldarlığı yeni salınan yaşayış massivini su ilə təchiz etməyə imkan vermir. Artan tələbatı ödəmək üçün yeni mənbə kimi ŞirvanMuğan qrup kəməri seçilmişdir. Rəsmi statistikaya əsasən, hazırda Şirvan şəhərinin əhalisinin sayı 79 min nəfərdir və onların 50 faizə yaxını mərkəzləşdirilmiş içməli su şəbəkəsi ilə təmin olunmuşdur. Qalan əhali isə öz tələbatını fərdi qaydada ödəyir. Şirvan şəhərinin mərkəzləşdirilmiş içməli su şəbəkəsinin uzunluğu 66, kanalizasiya şəbəkəsinin uzunluğu isə cəmi 22 kilometrdir. Şəhərdə çirkab sutəmizləyici qurğu yoxdur və tullantı suları təmizlənmədən Baş Şirvan kollektoruna axıdılır. Dövlətimizin başçısına yeni layihə barədə məlumat verildi.

Bildirildi ki, Şirvan-Muğan qrup su kəmərinin bir hissəsinin istismara verilməsi ilə Şirvan şəhərinin içməli sudan əziyyət çəkən Yeni Yaşayış Massivinin problemi həllini tapacaqdır. Yeni Yaşayış Massivini fasiləsiz rejimdə içməli su ilə təmin etmək üçün magistral kəmər çəkilmiş və daxili şəbəkənin qurulmasına başlanmışdır. Qısa müddətdə iki kilometrdən artıq magistral xəttin inşası, həmçinin 60 kilometr uzunluğunda şəbəkənin 35 kilometrlik hissəsinin tikintisi tamamlanmışdır. İşlərin ilkin nəticəsi olaraq artıq 15 mindən çox sakin Şirvan-Muğan qrup kəməri vasitəsilə 24 saat su ilə təchiz olunur. Daxili şəbəkənin qurulması başa çatdıqdan sonra bu layihədən faydalananların sayı 35 min nəfərə çatacaqdır. Layihəyə uyğun olaraq Yeni Yaşayış Massivində abonentlər əvvəlcədən ödənişli smart tipli sayğaclarla da təmin olunacaqlar.

Qeyd olundu ki, Şirvan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasının ilkin layihəsi hazırdır. Layihənin Azərbaycan Hökuməti ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi"nə uyğun olaraq reallaşdırılması nəzərdə tutulmuşdur. Oğuz-Qəbələ-Bakı kəməri ilə Abşeron yarımadasına saniyədə 5 kubmetr əlavə içməli suyun verilməsi, 2011-ci il sentyabrın 8-də Prezident İlham Əliyev tərəfindən təməli qoyulan və məhsuldarlığı saniyədə 6 kubmetr təşkil edəcək Ceyranbatan Ultrasüzgəcli sutəmizləyici qurğunun istismara verilməsi ilə Abşeron yarımadasında kifayət qədər içməli su ehtiyatı yaranacaqdır. Bu isə Kür su kəmərləri sisteminin imkanlarından istifadə etməklə Kürətrafı şəhər və kəndlərin əhalisinin təmiz və keyfiyyətli su ilə təchiz olunmasına imkan verəcəkdir.

Prezident İlham Əliyevə tikintisi davam edən Şirvan-Muğan qrup su kəməri layihəsi çərçivəsində görülən işlər barədə də məlumat verildi. Stendlərlə tanışlıqdan sonra dövlətimizin başçısı ötən il iyulun 16-da təməlini qoyduğu ŞirvanMuğan qrup su kəmərindən Şirvan şəhərinə içməli suyun verilməsini təmin edən qurğunu işə saldı.

Sonra Prezident İlham Əliyev kəmərin və şəhərin su şəbəkəsinin inşaatçıları ilə görüşdü, tapşırıq və tövsiyələrini verdi.

**AZƏRTAC**
**2013, 1 iyul**

# AĞSTAFA ŞƏHƏRİNİN SU TƏCHİZATI VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN YENİDƏNQURMADAN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*(5 iyul 2013-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Ağstafa şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimində iştirak etmişdir.

Rayon ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.

İctimaiyyətin nümayəndələri ilə görüşən **Prezident İlham ƏLİYEV dedi:**

- Biz bu gözəl layihənin istismara verilməsini qeyd edirik. Çox şadam ki, nəhayət, Ağstafanın su problemi həllini tapır.

Doğrudan da, çox böyük tarixi hadisədir. Çünki bilirəm ki, uzun illər su problemi insanlara əziyyət verirdi. Nəhayət, bu layihə də artıq başa çatır. Bundan sonra su ilə problem olmamalıdır. Çünki içməli su hər bir insan üçün çox əhəmiyyətlidir. İnsanların sağlamlığı üçün təmiz içməli su xüsusi əhəmiyyət daşıyır.

İndi ölkəmizin müxtəlif yerlərində bu layihələr icra edilir. Bu gün biz buna oxşar layihəni Tovuzda, həftənin əvvəlində Şirvan şəhərində istismara verdik. Demək olar ki, bu məsələlər, bu layihələr geniş vüsət alıbdır. Çünki bunların həlli çox lazımdır. Bütün infrastruktur layihələri lazımdır və biz bu layihələri ardıcıllıqla icra edirik. İndi Ağstafa rayonunda da qazlaşdırma prosesi gedir, kənd yolları tikilir, elektrik enerjisi ilə bağlı məsələlər həllini tapır. Əlbəttə, onların içində içməli su, kanalizasiya layihələri xüsusi yer tutur və biz də əlimizdən gələni edirik ki, bu məsələlər öz həllini tapsın.

Əlbəttə ki, bu layihələr böyük vəsait tələb edir. Dövlət bu maliyyə yükünü öz üzərinə götürübdür. Düzdür, bəzi layihələr xaricdən verilən kreditlər hesabına icra edilir, ancaq bu kreditlər onsuz da qaytarılacaqdır. Yəni, bütün maliyyə yükünü Azərbaycan dövləti öz üzərinə götürüb. Onu da qeyd etmək istəyirəm ki, bu layihələr sırf sosial xarakter daşıyır. Çünki Azərbaycanda su tarifləri çox aşağıdır. Yəni, bu layihələrə qoyulan vəsait bu tariflərin hesabına heç vaxt dövlətə qayıda bilməz. Bəlkə yüz ildən sonra. Ancaq qarşıya belə məqsəd də qoyulmamışdır. Əsas məqsəd insanları təmiz içməli su ilə təmin etməkdir. Biz bu məqsədə çatırıq. Bu ilin sonuna qədər bir çox rayonlarda buna oxşar layihələr istismara veriləcəkdir. Gələn il də bu proses davam edəcəkdir. Çalışmalıyıq ki, gələn ilin sonuna qədər əksər məsələlər öz həllini tapsın. Amma bu layihələr həm çox böyük maliyyə vəsaiti, həm də texniki vəsait tələb edir. Çünki bu, bir şəhər, bir kənd deyildir, Bakı daxil olmaq şərti ilə bu layihələr ölkə üzrə icra edilir.

Bu, tarixi bir layihələrdir. Çünki əfsuslar olsun ki, bütün dövrlərdə biz içməli si ilə lazımi səviyyədə təmin olunmamışıq. Bütün dövrlərdə bu problem kəskin olaraq qalmışdır. Ancaq bu gün müstəqil Azərbaycan dövləti bu problemi də həll edir. Bu layihələrin icrası əlbəttə ki, ilk növbədə insanlara xidmət göstərir, digər tərəfdən dövlətimizin gücünü, müstəqilliyimizin üstünlüyünü göstərir.

Bu gün müstəqil dövlətik və ölkəmiz üçün, xalqımız üçün nə lazımdırsa, onu edirik. Bax, müstəqilliyin üstünlükləri bu layihələrin icrasındadır. Azərbaycan nəinki müstəqildir, müstəqil siyasət aparır və güclü dövlətdir. Ancaq güclü dövlətlər belə nəhəng layihələri icra edə bilər.

Onu da əlavə etmək istəyirəm ki, buna bənzər layihələr bütün ölkə üzrə icra olunur. Qazlaşdırma layihələri. Bu ilin sonuna qədər biz çalışmalıyıq ki, qazlaşdırmanı təqribən 90

faizə çatdıraq. Bu, heç vaxt olmamışdır. Heç vaxt qazlaşdırılmayan kəndlərə mütəmadi qaydada qaz xətləri çəkilir, elektrik enerjisi layihələri icra edilir, yollar salınır. İndi magistral yollar göz oxşayır, rahat gedib-gəlmək olar. İndi Bakı-Gürcüstan dövlət sərhədi yolunun birinci mərhələsi başa çatıbdır. Ancaq biz bundan sonra, gələn il Gəncədən sərhədə qədər yolun genişlənməsi ilə məşğul olmağa başlayacağıq. Yəni, Bakıdan Gürcüstan sərhədinə qədər bütün yol dördzolaqlı olmalıdır. Bunu da biz edəcəyik. Dəmir yolunda bərpa işləri aparılır və qatarların sürəti artırılacaqdır. Bu da xüsusilə paytaxtdan uzaqda yerləşən bölgələr üçün çox əhəmiyyətlidir. Biz bu sürəti yeni dəmir yolu xətlərinin çəkilişi ilə 2-3 dəfə artıracağıq.

Yəni, buna bənzər layihələr çoxdur. Biz bütün bu layihələri ona görə edirik ki, insanlar daha da yaxşı, daha da rahat yaşasınlar, sağlam olsunlar. İnsanların sağlamlığı üçün içməli su birinci şərtdir. Hesab edirəm ki, biz bu layihələrin icrası ilə çox böyük tarixi işi görmüş oluruq.

Ağstafa şəhərində və rayonunda digər layihələr də icra edilir. Quruculuq, abadlıq işləri gedir, yeni təşəbbüslər irəli sürülür. Bu gün tarixi abidələr parkında görülmüş işlərlə tanış olmuşam. Bu da çox gözəl təşəbbüsdür. Azərbaycanın qədim tarixi abidələrini və yeni abidələri orada görmək olar. Hər bir yerdə inkişaf, hər bir yerdə irəliləyiş vardır və bu, ölkəmizin gələcək uğurlu inkişafını təmin edəcəkdir.

Görülən bütün bu işlərin təməlində düşünülmüş siyasət dayanır. 2004-cü ildə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı həlledici rol oynamışdır. Bu il ikinci proqram başa çatır, gələn ilin əvvəlində 2018-ci ilə qədərki dövr üçün üçüncü proqram da qəbul ediləcəkdir. Orada da bu günə həll edilməmiş bütün məsələlər əksini tapacaqdır.

Mən çox şadam ki, yenidən Ağstafadayam. Ağstafa rayonunda bir neçə dəfə olmuşam. Prezident kimi, yadımdadır, birinci dəfə 2004-cü ildə gəlmişdim. O vaxt vəziyyət tam başqa idi. İndi Ağstafa inkişaf edir, çiçəklənir, qabaqcıl rayona çevrilir.

SAKİNLƏR: Sizin sayənizdə cənab Prezident.

Prezident İlham ƏLİYEV: mən bunu görəndə çox sevinirəm. Sizi görülmüş işlər, əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm. Sağ olun.

* * * *

Rayon ictimaiyyəti adından çıxış edən Zəlimxan kənd orta məktəbinin direktoru Qalib CƏFƏROV dövlətimizin başçısına həmyerlilərinin ən xoş arzularını çatdıraraq dedi:

- Möhtərəm cənab Prezident!

Sizi Ağstafa ictimaiyyəti adından təbrik edirəm. Bizim rayonumuza, gözəl Ağstafamıza xoş gəlmisiniz. Bayaq özünüz qeyd etdiniz. Sizin Ağstafaya hər gəlişiniz bütün insanların ürəyincədir. Siz böyük Heydər Əliyevin yadigarısınız, hörmətli Prezident! Ulu öndər Heydər Əliyev də həmişə ağstafalılara xüsusi məhəbbət bəsləyib. Bu gün ağstafalılar xoşbəxtdirlər ki, onun yadigarı Ağstafaya gəlib. Buna görə mən Sizə öz minnətdarlığımı bildirirəm. Böyük Heydər Əliyev Azərbaycanı bütün təhlükələrdən xilas etdi. Heç insanın ağlına gəlməzdi ki, Azərbaycan, Ağstafa bu gün belə gözəl olacaqdır. İndi Ağstafa avropasayağı gözəl bir məkana çevrilib. Cənab Prezident, şəhərimizin, kəndlərimizin gözəlliyi insanı valeh edir.

Ağstafa yaxın illərdə bu dərəcədə gözəlləşib. Bunun hamısını, cənab Prezident, Siz edibsiniz. Buna görə biz ağstafalılar Sizə minnətdarıq. Sizin hər gəlişiniz Ağstafa üçün əlamətdar olur, bugünkü gəlişiniz də. Orada Ulu Öndərin müdrik kəlamı yazılıb: “Su həyat deməkdir”. Siz bu gün Ulu Öndərimizin müdrik sözlərini Ağstafada reallığa çevirmisiniz. Cənab Prezident, buna görə Sizə minnətdaram.

Mən böyük Heydər Əliyevi çox istəyirdim. Onun haqqında yazılar yazmışam. Mən müəlliməm. “Heydər Əliyev Azərbaycan məktəblilərinin gözü ilə” inşa müsabiqəsində bizim məktəbin şagirdi də qalib gəlib. Müsabiqəyə həsr olunmuş kitabda Ağstafanın da adı vardır. O yazının altında bizim məktəbin şagirdinin imzası gedir.

Budəfəki gəlişiniz zamanı, cənab Prezident, 40 mindən çox əhalisi olan rayonumuzun mərkəzi və yaxın kəndlər içməli su ilə təmin ediləcəkdir. Bu, çox xeyirxah məsələdir. Bizim rayonun ərazisindən Həsənsu çayı axır. Həsənsu çayının hövzəsindən həmişə ağstafalılar çirkablı, təmizlənməmiş sudan istifadə ediblər. Bu gün biz çox xoşbəxtik. Allah Ulu Öndərimizə rəhmət etsin. Onun müəyyənləşdirdiyi düzgün siyasət, onun layiqli davamçısı Prezident İlham Əliyevin apardığı sərrast siyasət bu gün Ağstafanı belə gülüstana çeviribdir. Təkcə Ağstafa belə deyildir, cənab Prezident, bütün Azərbaycan belədir.

Biz tez-tez Azərbaycanın başqa rayonlarına da gedirik. Bu yaxınlarda Bakıda olmuşam. İnanın, cənab Prezident, Bakını tanımaq olmur. Adam elə bilir Parisdədir. Bəlkə də Parisdən də gözəldir. Ona görə cənab Prezident Sizə minnətdaram. Sevinirəm ki, böyük Heydər Əliyevin ideyaları yaşayır. Siz onun yadigarısınız, Siz onun işlərini davam etdirirsiniz. Biz də bu işdə Sizə kömək etməliyik.

Ağstafada bundan əlavə gözəl bir Səməd Vurğun parkı yaradılıbdır. Mən o parka girəndə, Ağstafaya baxanda Səməd Vurğunun:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam doğma vətənimsən,
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan! - misraları yadıma düşür. Bu misraları parkdakı kitab abidəsinin üzərinə yazıblar. Onu Siz yazdırmısınız, cənab Prezident. Səməd Vurğunun səksən illiyində ulu öndər Heydər Əliyev bu şeiri dedi, özü də gözləri doldu. İnanın, cənab Prezident, mən uşaq kimi ağladım. Gör bu insan öz Vətənini nə qədər sevib. Bu gün Səməd Vurğunun ruhu şaddır. Onun misraları kitab abidəyə yazılıb. Bildiyimə görə Azərbaycanda belə bir abidə yoxdur, ancaq Ağstafadadır. Buna görə Sizə minnətdaram. Siz ötən dəfə Ağstafaya gələndə, - səhv etmirəmsə keçən il aprelin 12-si idi, - "Yazıçılar evi"ndə bizim yazıçılarla görüş keçirdiniz. Həmin binanı da bizim yazarların xahişi ilə Siz tikdirmisiniz. Ondan sonra çox böyük işlər görülüb. Əziz ağstafalılar, görün bir il ərzində Prezidentimiz nələr edib. Ona görə, cənab Prezident, biz Sizə minnətdarıq. Ağstafalılar adından Sizə təşəkkür edirəm. Ürəyimdə o qədər söz var ki, cənab Prezident, nə qədər danışsam da qurtaran deyildir. Şagirdlərimdən biri ulu öndər Heydər Əliyev haqqında inşasında belə bir şeir yazmışdır. Bu sözlər Sizə də aiddir, cənab Prezident:

İllər ağartdığı saçların kimi,
Ellərin yanında üzün də ağdır.
Xalqın ürəyinə yatan işlərin,
Nəsildən-nəslə yaşayacaqdır.

Cənab Prezident, Siz çıxışlarınızın birində dediniz ki, mən Bakını gəzəndə bir uşaq mənimlə görüşdü. Dediniz ki, uşaqdan soruşdum: Sən məni tanıyırsan? Cavab verdi ki, bəli tanıyıram, sən Heydər babanın oğlusan.

Cənab Prezident, biz sizinlə fəxr edirik. Siz ingiliscə, rusca danışanda övladlarıma deyirəm: Gör Azərbaycanın nə qədər böyük, dəyərli bir oğlu vardır. İstənilən milləti öz dilində danışdırır. İstənilən milləti öz dilində başa salır. Başa düşməyəni səmimi başa salır. Biz bununla fəxr edirik. Siz bizim fəxrimizsiniz, cənab Prezident. Allah Sizə cansağlığı versin.

Biz oktyabr ayında keçiriləcək prezident seçkilərində seçimimizi etmişik. Biz Sizi Azərbaycana əbədi prezident seçmişik. Biz Sizə səs verəcəyik. Siz böyük Heydər Əliyevdən Azərbaycan xalqına yadigar qalıbsınız. Ona görə də biz Sizinlə fəxr edirik.

Ağstafa gündən-günə gözəlləşir. Xahiş edirəm bir ildən sonra yenə Ağstafaya gəlin ki, rayonumuz ikiqat gözəlləşsin. Biz ağstafalılar Sizi çox istəyirik, cənab Prezident.

Prezident İlham ƏLİYEV: Sağ olun, çox sağ olun!

Qalib CƏFƏROV: Biz Sizin əsgərinizik. Torpaqlarımızı düşməndən azad etmək üçün əmrinizi gözləyirik. Tale elə gətirib ki, biz dünyaya özünü məzlum kimi göstərən bir dövlətlə qonşu olmuşuq. O dövlətin prezidenti ulu öndər Heydər Əliyevin də qabağından qaçırdı. Biz inanırıq ki, Prezident İlham Əliyevin də qabağından qaçacaqdır. Nəhayət, onlar Azərbaycan torpaqlarından da qaçacaqlar.

Bir daha, cənab Prezident, mən Sizə minnətdaram. Mənim çoxdankı arzum idi ki, Sizin qarşınızda çıxış edəm. Nəhayət, bu, mənə qismət oldu. Mən çıxışımı şagirdimin böyük Heydər Əliyevə yazdığı şeiri bir daha təkrarlamaqla bitirirəm:

İllər ağartdığı saçların kimi,
Ellərin yanında üzün də ağdır,
Xalqın ürəyinə yatan işlərin,
Cənab Prezident, nəsildən-nəslə yaşayacaqdır.

* * * *

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Səmimi sözlərə, mənim fəaliyyətimə verdiyiniz qiymətə görə sizə minnətdaram. Mən çalışıram ki, xalqa ləyaqətlə xidmət edim. 2003-cü ildə söz vermişdim ki, əgər xalq mənə etimad göstərərsə, mən xalq üçün yaşayacağam. İndi son 10 ilin təcrübəsinə nəzər saldıqda görürük ki, doğrudan da, az iş görülməyib 10 il ərzində.

Azərbaycan istənilən sahədə güclənib. Azərbaycan indi regional dövlətdir. Azərbaycan dünya miqyasında çox böyük nüfuza malik olan bir ölkədir. Beynəlxalq məsələlərin həllində biz o zirvələrə çatmışıq. O zirvədən yuxarı zirvə yoxdur. Yəni, biz BMT Təhlükəsizlik Şurasının üzvüyük. Ermənistan da bizimlə bərabər bu yarışa girmişdi, 4 ölkə var idi. Macarıstan, Sloveniya, Azərbaycan və Ermənistan. Ermənistan tərəfi biləndə ki, bizim qabağımızda aciz qalacaq, yarışdan çəkildi. Yəni, sakitcə, qorxaqcasına çəkildi, öz namizədliyini geri götürdü. O vaxt mən bir daha gördüm ki, Azərbaycanın gücü nə qədər böyükdür. Bir daha əmin oldum ki, bax, siyasi səhnədə bizdən qaçan kimi, döyüş meydanında da bizdən qaçacaqdır. Azərbaycanda ötən ay keçirilən hərbi parad bir daha bizim qüdrətimizi göstərdi. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Son il 10 ərzində biz hər bir istiqamət üzrə işləmişik ki, ölkəmizi gücləndirək. Əlbəttə, Azərbaycanın önəmi, resurslarımız, coğrafi vəziyyətimiz və ümumiyyətlə, strateji əhəmiyyətimiz diktə edir ki, biz təhlükəsizlik məsələlərinə xüsusi diqqət göstərək. Ordu quruculuğu, təhlükəsizlik tədbirləri ön planda olmalıdır.

Bu gün Azərbaycanın istənilən nöqtəsində hər bir vətəndaş rahat yaşayır, özünü çox rahat hiss edir. Təhlükəsizlik şəraitində yaşayır. Bu, böyük bir nəticədir, böyük bir nailiyyətdir. Çünki biz görürük dünyanın müxtəlif yerlərində hansı hadisələr baş verir. Qarşıdurmalar, toqquşmalar, vətəndaş müharibələri, qanlı qırğınlar, eyni zamanda, etiraz dalğası bəzi ölkələri bürüyübdür. İndi dünyada kütləvi etiraz hökm sürür. Yəni, bu görünür ki, zəmanənin əlamətidir. Elə dövr var ki, sakitçilik yaranır, amma elə dövr var ki, istənilən yerdə - Yaxın Şərqdə, Avropada, başqa yerlərdə bax bu kütləvi etiraz dalğası müxtəlif formalarla özünü büruzə verir. Biz görürük ki, Azərbaycanda vəziyyət tam başqadır. Azərbaycan elə bil ki, bu alovlanan qonşuluqda necə deyərlər, bir sabitlik adasıdır. Biz Azərbaycanı qoruyuruq və qorumalıyıq.

SAKİNLƏR: Sağ olun! Çox sağ olun! Var olun!

Prezident İlham ƏLİYEV: Mən də çalışıram ki, Azərbaycanı bütün bəlalardan, bütün təhlükələrdən qoruyum. Qorumaq lazımdır və qoruyuruq.

SAKİNLƏR: Sağ olun, cənab Prezident!
Prezident İlham ƏLİYEV: Bu gün məsəl üçün Bakıya gələn qonaqlar nəyi deyirlər? Əlbəttə ki, Bakının gözəlliyini vurğulayırlar.
SAKİNLƏR: Bakı gözəldir.
Prezident İlham ƏLİYEV: Siz deyirsiniz ki, Bakı indi Avropa paytaxtlarına oxşayır. Əlbəttə ki, bu yüksək qiymətdir. Ancaq mən hesab edirəm ki, Bakı bir çox meyarlar üzrə onları da arxada buraxıb.

Mənimlə görüşən xarici qonaqlar bir şeyi də vurğulayırlar ki, burada insanlar rahat gəzirlər, çıxırlar küçələrə, insanların üzü gülür, belə xoş ab-hava hökm sürür. Bu, onları təəccübləndirir. Çünki bir çox yerlərdə insanların əhval-ruhiyyəsi o qədər də yüksək səviyyədə deyildir. Haradasa müəyyən iqtisadi məsələlər, haradasa digər problemlər insanları incidir. Əlbəttə, Azərbaycan cəmiyyətində də problemlər vardır, hər bir ailədə problemlər vardır. Amma bütövlükdə götürəndə cəmiyyətdə çox gözəl ruh yüksəkliyi, nikbinlik vardır.

Bütün beynəlxalq sorğular da onu göstərir ki, Azərbaycan vətəndaşı gələcəyə çox böyük nikbinliklə baxır. Bu yaxınlarda bir mötəbər təşkilat ölkələrdə xoşbəxtlik indeksi üzrə sorğu keçirib. Azərbaycan ilk onluğa daxil edilib. Bu, müstəqil bir Avropa qurumudur, beynəlxalq qurumdur. Xoşbəxtlik indeksi nə deməkdir? Yəni, insanlar özlərini necə hiss edirlər. Ona görə bax bu müsbət ab-hava, dinamizm, quruculuq və nəticələr insanları daha da ruhlandırır.

Daxili siyasətlə bağlı Azərbaycanda vəziyyət çox sabitdir. İqtisadi sahə ilə bağlı son 10 il ərzində bizdə olan inkişaf heç bir başqa ölkədə olmayıb. Bunu hər kəs indi sadəcə olaraq statistik rəqəmlərə baxmaqla yəqin edə bilər. Heç bir başqa ölkədə son 10 il ərzində Azərbaycan qədər inkişaf olmamışdır. Yəni, mən çalışmışam ki, bütün bu istiqamətlər üzrə öz xidmətimi göstərim. Bu, mənim borcumdur. Mən öz borcumu belə başa düşürəm. Hesab edirəm ki, hər bir prezident öz vəzifə borcunu dərk etməlidir. Bəziləri üçün prezident kürsüsü bir imtiyazdır, bəziləri üçün bir imkandır. Mənim üçün bu, məsuliyyətdir və xalq tərəfindən göstərilən böyük inamdır. Mən bu inamı hər gün doğrultmağa çalışıram.

Belə layihələr məni sizin qədər sevindirir, bəlkə də sizdən də çox. Çünki mənim üçün ən başlıca amal odur ki, insanlar daha da yaxşı yaşasınlar. Hər tikilən bina, çəkilən yol, açılan müəssisə, yaxud ki, su kəməri mənim gücümü və inamımı daha da artırır. Şadam ki, bu müddət ərzində öz xalqıma xidmət edə bilmişəm. Azərbaycan xalqına minnətdaram ki, mənə bu imkanı yaradıbdır.
SAKİNLƏR: Sağ olun! Eşq olsun! Biz də Sizə minnətdarıq.
Prezident İlham ƏLİYEV: Deyirsiniz gələn il, gələn il də məmnuniyyətlə gələrəm.
SAKİNLƏR: İnşallah.
Prezident İlham ƏLİYEV: Mən hər il gəlirəm. Keçən il də olmuşam. Ondan əvvəlki il də.
SAKİNLƏR: Xahiş edirik. Siz hər gələndə Ağstafa inkişaf edir.
Allah Sizi saxlasın, Allah Sizi, ailənizi qorusun, balalarınızı qorusun, cənab Prezident!
Sizə cansağlığı arzulayırıq!
Sizdən çox razıyıq, sağ olun!

* * * *

Sonra Prezident İlham Əliyev yeni xətlə şəhərə suyun verilməsini bildirən düyməni basdı.
Dövlətimizin başçısı şəhərin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması sahəsində görülən işlərlə tanış oldu.
Ərazilərin Bərpası üzrə Dövlət Agentliyinin direktoru Əli Məmmədov məlumat verdi ki, Prezident İlham Əliyevin 2005-ci il oktyabrın 14-də imzaladığı Sərəncama əsasən,

Azərbaycanın bir sıra regionları ilə yanaşı, Ağstafa rayonunun da sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Planı təsdiq edilmişdir. Plana Ağstafa şəhərinə içməli su xəttinin çəkilişi də daxil idi. Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə Ağstafa və Tovuz şəhərlərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması layihələrinin icrası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyə tapşırılmışdır. Layihə-smeta sənədləri hazırlanaraq həmin ilin noyabrında "Akkord" Sənaye Tikinti İnvestisiya Korporasiyası ASC tərəfindən işlərin yerinə yetirilməsinə başlanılmış və layihənin ilk mərhələsi başa çatmışdır.

Diqqətə çatdırıldı ki, su təchizatı sistemlərinin yenidən qurulması layihəsinin potensialı Ağstafa şəhəri, Xətai qəsəbəsi, Qaçaq Kərəm, Yenigün, Aşağı Kəsəmən və Aşağı Göycəli kəndlərini əhatə edir. Hazırda tikintisi başa çatdırılmış su mənbəyinin potensialı 18 min şəhər və 22 min kənd əhalisinin suya tələbatını tam ödəyəcəkdir. Laboratoriya araşdırmaları indiki mərhələdə suyun keyfiyyətinin həm beynəlxalq, həm də yerli standartlara tam uyğunluğunu təsdiq etmişdir.

Bildirildi ki, layihənin icrası üç mərhələyə bölünmüşdür. Əvvəlcə magistral boru xətti, su anbarları, xlorvurma təsərrüfatı, laboratoriya və digər struktur obyektlərinin tikintisi başa çatdırılmışdır. Bu mərhələdə subartezian quyularından su anbarlarına müxtəlif diametrli polietilen borulardan ibarət xətt, su anbarlarından şəhər şəbəkəsinə qədər isə uzunluğu 4,27 kilometr olan magistral su xətləri çəkilmişdir. Suqəbuledici qurğular meydançasında keçid məntəqəsi, suqəbuledici kamera, nasos stansiyası, suya xlorvurma və laboratoriya binaları tikilmiş, 1000 kubmetrlik mövcud su anbarı təmir edilmiş, həcmi 1500 kubmetr olan yeni su anbarı inşa olunmuşdur.

Növbəti mərhələdə hidrogeoloji və mühəndis-axtarış işlərinin nəticəsinə əsasən su mənbəyi olaraq dəmir yolu boyunca Həsənsu və Vurğun kəndləri zonasında beş subartezian quyusu qazılmış, şəhərin su və kanalizasiya şəbəkələri, kanalizasiya kollektor xətti, yerli su-kanal idarəsi üçün inzibati bina və istehsalat bazası tikilmişdir.

Layihənin icrasının üçüncü mərhələsində çirkab su təmizləyici qurğular kompleksinin tikintisi və texnoloji sistemlərin quraşdırılması işləri aparılır. Kanalizasiya şəbəkələri sisteminin potensialı Ağstafa şəhərinin Xətai qəsəbəsi, Qaçaq Kərəm və Yenigün kəndlərini əhatə edir. Məhsuldarlığı gündə 5 min kubmetr olan çirkab təmizləyicisinə əlavə yaşayış məntəqələrinin də qoşulması mümkün olacaqdır.

Prezident İlham Əliyev layihənin icrasının uğurla davam etdirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

* * * *

Sonda xatirə çəkdirildi.

**AZƏRTAC**
**2013, 5 iyul**

## TOVUZ ŞƏHƏRİNİN SU TƏCHİZATI VƏ KANALİZASİYA SİSTEMİNİN YENİDƏN QURULMASI LAYİHƏSİ İLƏ TANIŞLIQ

*(5 iyul 2013-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Tovuz şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi ilə tanış olmuşdur.

Prezident İlham Əliyevin 2005-ci il oktyabrın 14-də imzaladığı Sərəncama əsasən Azərbaycan regionlarının, o cümlədən Şirvan şəhəri, Hacıqabul, Kürdəmir, Saatlı, Sabirabad, Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər planı təsdiq edilmişdir. Tədbirlər Planına uyğun olaraq Tovuz şəhərinə də içməli su xəttinin çəkilişi nəzərdə tutulurdu. Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə Ağstafa və Tovuz şəhərlərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması layihələrinin icrası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyə tapşırılmış və layihə-smeta sənədləri hazırlanaraq həmin ilin noyabr ayında "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC tərəfindən işlərin yerinə yetirilməsinə başlanmışdır. Layihələrin icrasına 2010-cu ilin dekabr ayında start verilmişdir. Tovuz şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi rayon mərkəzi, Abulbəyli, Bozalqanlı, Aşağı Öysüzlü, Düz Cırdaxan, Cəlilli və Qazqulu kəndlərinin su tələbatını ödəyəcəkdir. Layihənin tələblərinə əsasən 16 min şəhər və 28 min kənd əhalisinin sutka ərzində su tələbatı tam ödənilməlidir. Bütövlükdə tikintinin başa çatdırılması ilə 20 min şəhər və 30 min kənd əhalisinin suya olan tələbatı tam ödəniləcəkdir. Mənbədən alınan suyun keyfiyyəti mövcud içməli su standartlarına tam uyğundur. Gələcəkdə Tovuzçay dəryaçasının tikintisinin başa çatdırılması ilə əlaqədar quyuların məhsuldarlığının artması da gözlənilir.

Dövlətimizin başçısına məlumat verildi ki, Tovuz şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması işləri 3 mərhələdə aparılmışdır.

Birinci mərhələdə magistral boru xətti, su anbarları, xlorlama və digər struktur obyektlərinin tikintisi başa çatmışdır. Bu mərhələdə subartezian quyularından nasos stansiyasına qədər 1588 metr uzunluqda polietilen borulardan xətt, nasos stansiyasından su anbarları meydançasına qədər magistral su kəməri və su anbarlarından şəhər şəbəkəsinə qədər uzunluğu 3434 metr olan magistral su xətləri çəkilmişdir. Suqəbuledici qurğular meydançasında keçid məntəqəsi, suqəbuledici kamera, suya xlor vurma və laboratoriya binaları, hər birinin həcmi 2500 kubmetr olan yeni su anbarları tikilmişdir.

Azərbaycan Prezidentinə icra işlərinin ikinci mərhələsi barədə məlumat verildi. Bildirildi ki, bu mərhələdə hidrogeoloji və mühəndis-axtarış işlərinin nəticəsinə əsasən su mənbəyi olaraq Tovuzçayın məcrası boyunca Qazqulu kəndi zonasında 5 subartezian quyusu qazılmış, şəhərin su və kanalizasiya şəbəkələri, kanalizasiya kollektor xətti, yerli "Sukanal" İdarəsi üçün xidməti bina və istehsalat bazası tikilmişdir.

Layihənin icrasının üçüncü mərhələsində çirkab su təmizləyici qurğular kompleksinin tikintisi və texnoloji sistemlərin quraşdırılması işləri aparılır. Kanalizasiya şəbəkələri sisteminin potensialı Tovuz şəhərinin Əlimərdanlı, Abulbəyli və Bozalqanlı kəndlərini əhatə edir. Məhsuldarlığı gün ərzində 7 min kubmetr olan çirkabtəmizləyici qurğuya gələcəkdə əlavə yaşayış məntəqələrinin də qoşulması mümkün olacaqdır.

Prezident İlham Əliyev şəhərə çəkilmiş yeni su xəttinin açılışını bildirən düyməni basdı.

* * * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Qazax və Ağstafa rayonlarında da səfərdə olmuş, bir sıra istehsal və sosial obyektlərin açılışlarında da iştirak etmişdir.

**AZƏRTAC**
**2013, 5 iyul**

## SİYƏZƏN ŞƏHƏRİNDƏ İÇMƏLİ SU XƏTTİNİN VƏ KANALİZASİYA ŞƏBƏKƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*(18 iyul 2013-cü il)*

İyulun 18-də Siyəzən şəhərində içməli su xəttinin və kanalizasiya şəbəkəsinin istifadəyə verilməsi mərasimi olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir. “Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə Milli su təchizatı və kanalizasiya xidmətləri üzrə ikinci layihə barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, layihə Azərbaycan Hökuməti və Dünya Bankının vəsaiti hesabına həyata keçirilir.

Prezident İlham Əliyev Siyəzən şəhərinin su təchizatı şəbəkəsinin planı, su təchizatı və kanalizasiya qurğularının yerləşmə sxemi, kanalizasiya şəbəkəsinin planı, çirkab sutəmizləyici qurğunun sxemi ilə tanış oldu. Qeyd edildi ki, Siyəzən rayon mərkəzinin əhalisini içməli su ilə təmin etmək üçün layihədə su mənbəyi kimi ikinci Bakı su kəməri qəbul edilmişdir. Layihələrdə yeni qurğuların texniki parametrləri öz əksini tapmışdır.

Prezidentə məlumat verildi ki, Fransanın “SADE” və Azərbaycanın “RAMKO” şirkətləri arasında imzalanmış tikinti müqaviləsi əsasında Siyəzən şəhərinin su təchizatı və kanalizasiya şəbəkələrinin bərpası və tikintisinə başlanılmışdır. Şəhərin bütün evləri su və kanalizasiya şəbəkələrinə qoşulmuşdur. İkinci Bakı kəmərindən suyun götürülməsi və şəhərə paylanması üçün 100 kubmetrlik təmizləyici su anbarının, 1000 və 3000 kubmetrlik su anbarlarının tikintisi başa çatdırılmışdır. Çirkab sutəmizləyici qurğunun tikintisi davam etdirilir. Layihənin həyata keçirilməsi ilə Siyəzən şəhər əhalisini 24 saat ərzində içməli su ilə təmin etmək mümkün olacaqdır.

Prezident İlham Əliyev şəhərə suyun verilməsini bildirən düyməni basdı. Azərbaycan Prezidenti işlərin uğurla başa çatdırılması ilə əlaqədar tapşırıqlarını verdi.

**AZƏRTAC**
**2013, 18 iyul**

## VƏLVƏLƏÇAY–TAXTAKÖRPÜ ANBARININ SU İLƏ DOLDURULMAĞA BAŞLANMASI MƏRASİMİ
*(19 iyul 2013-cü il)*

İyulun 19-da Şabrana səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vəlvələçay–Taxtakörpü kanalının istifadəyə verilməsi və Taxtakörpü anbarının su ilə doldurulmağa başlanması mərasimində iştirak etmişdir.

Layihənin sifarişçisi «Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə və layihəni həyata keçirən Avropa–Asiya İnşaat Korporasiyası «Evraskon» ASC-nin Direktorlar Şurasının sədri Əfəndi İsmiyev dövlətimizin başçısına Taxtakörpü Su Anbarı, Vəlvələçay–Taxtakörpü və Taxtakörpü–Ceyranbatan kanallarının inşasının gedişi barədə məlumat verdilər. Bildirildi ki, uzunluğu 34 kilometrdən çox olan Vəlvələçay– Taxtakörpü kanalı vasitəsilə su Samur–Abşeron kanalının 50-ci kilometrindən götürülərək öz axını ilə Taxtakörpü anbarına veriləcəkdir. Bu məqsədlə 27 kilometrdən çox uzunluqda beton üzlüklü açıq kanal, onun üzərində baş qurğu, 2 min 547 metrlik 3 polad və 577 metrlik 2 dəmir-beton düker, 3 min 572 metr uzunluğunda tunel, 14 körpü, 28 selötürücü və 1 sutullayıcı qurğu tikilmişdir. Kanalın İslam İnkişaf Bankının vəsaiti hesabına maliyyələşdirilən 10,7 kilometr uzunluğunda birinci hissəsinin inşası 2011-ci ildə başa çatdırılmış və prezident İlham Əliyev açılış mərasimində iştirak etmişdir. Kanalın Dövlət Neft Fondunun vəsaiti hesabına inşa edilən 23,54 kilometr uzunluğunda ikinci hissəsinin və onun sutullayıcı qurğusunun tikintisi də artıq başa çatdırılıb. Bu da Samur çayından götürülən suyun Taxtakörpü anbarında toplanmasına imkan verir.

Bildirildi ki, Vəlvələçay–Taxtakörpü kanalının tikintisinin yekunlaşdırılması Şabran rayonunda 9 min 250 hektar və Quba rayonunda 918 hektar mövcud suvarılan torpaqların suvarma suyu ilə təchizatının yaxşılaşdırılmasına, həmçinin Şabran rayonunda 8 min 866 hektar yeni suvarılacaq sahələrin istifadəyə verilməsi hesabına suvarılan torpaq sahələrinin artırılmasına imkan yaradır. Dövlətimizin başçısının iştirakı ilə 2007-ci ilin payızında təməli qoyulan Taxtakörpü su anbarının gölünün sahəsi 8,7 kvadratkilometr, ümumi su tutumu 268,4 milyon kubmetr və faydalı həcmi 238,4 milyon kubmetrdir. Bənddə qapısız sutullayıcı və suqəbuledici qurğular, enerji tuneli, su-elektrik stansiyasının binası və ümumi gücü 25 meqavat təşkil edəcək 3 turbinin quraşdırılması nəzərdə tutulub.

Qeyd edildi ki, indiyə qədər su anbarı bəndinin gövdəsində tələb olunan 23,48 milyon kubmetr torpaq işlərindən 23,26 milyon kubmetri yerinə yetirilmiş və onun üzərindəki qurğularda, eləcə də su-elektrik stansiyasında son tamamlama işləri həyata keçirilir. Su anbarının su-elektrik stansiyası ilə birlikdə tikintisi 2013-cü ilin sentyabr ayında başa çatdırılacaqdır. Dövlətimizin başçısına Taxtakörpü–Ceyranbatan kanalının tikintisinin gedişi barədə də məlumat verildi. Diqqətə çatdırıldı ki, bu hidrotexniki qurğunun inşasında məqsəd Samur-Abşeron kanalı üzərində nasos stansiyalarını ləğv etməklə, saniyədə 40 kubmetr suyu öz axını ilə Ceyranbatan su anbarına çatdırmaqdır. Kanalda 9 düker, 2 akveduk, 1 tunel, 50 körpü, 231 selötürücü, 1 sutullayıcı qurğu inşa ediləcəkdir. Həmin hidrotexniki qurğunun da tikintisinin 2013-cü ilin sentyabrında başa çatdırılması nəzərdə tutulmuşdur.

Vurğulandı ki, ümumilikdə Samur–Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin həyata keçirilməsi ilə Bakı, Sumqayıt şəhərləri və Abşeron yarımadasının suya olan tələbatını yaxşılaşdırmaqla, saniyədə 18 kubmetr su veriləcək, eləcə də respublikanın şimal zonasında ekoloji tarazlıq təmin olunacaqdır. Bundan başqa, bu mükəmməl layihə

ölkənin şimal bölgəsi rayonlarında 150 min hektar sahədə torpaqların su təminatının yaxşılaşdırılmasına və 30 min hektara qədər yeni suvarılacaq sahələrin əkin dövriyyəsinə verilməsinə imkan yaradacaqdır.

Prezident İlham Əliyev düyməni basdı. Vəlvələçay–Taxtakörpü kanalı ilə Taxtakörpü anbarına suyun verilməsi başlandı.

Dövlətimizin başçısı «onlayn» rejimdə Vəlvələçay–Taxtakörpü kanalı ilə Taxtakörpü anbarına suyun verilməsini və Taxtakörpü anbarının bəndində son tamamlama işlərinin gedişini izlədi. Prezident İlham Əliyev bu nəhəng layihənin icrasının uğurla tamamlanması üçün tapşırıq və tövsiyələrini verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**57-ci kitab: may 2013 - iyul 2013. - Bakı: Azərnəşr, 2018, S. 322-324.**

## KÜRDƏMİR ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİ

*(7 avqust 2013-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Külüllü su mənbəyindən Kürdəmir şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısı əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Rayon ictimaiyyətinin nümayəndələrini salamlayan **Prezident İlham ƏLİYEV dedi:**

- İlk növbədə, mən sizi qarşıdan gələn Ramazan bayramı münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı, yeni uğurlar arzulamaq istəyirəm. Biz bayram ərəfəsində Kürdəmirdə gözəl layihənin istifadəyə verilməsini qeyd edirik. Kürdəmirə içməli suyun verilməsi artıq reallıqdır. Mənə verilən məlumata görə, artıq evlərə su verilir. Getdikcə bu layihə böyüyəcəkdir. Gələn ilin sonuna qədər Kürdəmirin su və kanalizasiya problemləri tamamilə öz həllini tapacaqdır. Bundan əvvəlki dövrdə biz çayboyu yerləşən kəndlərdə təmizləyici qurğular quraşdırmışıq. Otuza yaxın kəndə indi içməli suyun verilməsi təmin edilmişdir. İndi şəhərə suyun verilməsi layihəsi artıq başa çatır. Bir sözlə, Kürdəmirin su problemləri tamamilə öz həllini tapacaqdır.

Bu, böyük layihədir, tarixi nailiyyətdir. Çünki nəinki Kürdəmirdə, demək olar, Azərbaycanın bütün yaşayış yerlərində içməli su problemi uzun illərdir ki, insanları narahat edirdi. Bildiyimiz kimi, Azərbaycanda su ehtiyatları o qədər də böyük deyildir. Bizim əsas mənbəmiz ölkəmizdən kənarda formalaşır. Suyun idarə edilməsi, sudan səmərəli şəkildə istifadə olunması, əlbəttə ki, müasir şəbəkənin yaradılması layihələri xüsusi əhəmiyyət daşıyır. Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan dövləti bu problemi də həll edir. İnfrastruktur layihələri arasında içməli su və kanalizasiya problemləri əlbəttə ki, böyük əhəmiyyət daşıyır. Əvvəlki dövrlərdə digər infrastruktur layihələri uğurla icra edilmişdir. Onların böyük əksəriyyəti demək olar ki, başa çatmışdır, o cümlədən magistral yolların tikintisi.

İndi Hacıqabul-Kürdəmir avtomobil yolunun genişləndirilməsi prosesi gedir, dörd zolaqdan ibarət olacaqdır. Qazlaşdırma layihələri icra edilir. Kürdəmirdə də bu proses geniş vüsət almışdır. Təqribən 70 faiz səviyyəsində artıq qazlaşdırma təmin edilmişdir. Ancaq Kürdəmir rayonunda 100 faiz, yəni, bütün yaşayış məntəqələrində qazlaşdırma layihələri icra edilməlidir. Qazlaşdırma 100 faiz aparılacaqdır. Kənd yollarının tikintisi gedir. Həm dövlət büdcəsindən, eyni zamanda, Prezidentin ehtiyat fondundan vəsait ayrılır. İndi işlər gedir. Bir neçə kəndi birləşdirən yollar tikilməkdədir. Gələcəkdə bu layihələrə də əlavə vəsait ayrılacaqdır. Bu layihələrin arasında içməli su layihəsi əlbəttə ki, xüsusi əhəmiyyət daşıyır. Çünki su həyat deməkdir. Təmiz su sağlam həyat deməkdir. İnsanların sağlamlığı üçün Azərbaycan dövləti əlindən gələni edir. O cümlədən əvvəlki dövrlərdə Kürdəmirdə poliklinika, şəhər xəstəxanası təmir edilmişdir, Olimpiya Mərkəzi tikilmişdir. İndi isə su layihəsinin istismara verilməsini qeyd edirik.

İnsan amili Azərbaycanda prioritet məsələdir. Mən hələ 10 il bundan əvvəl demişdim ki, biz qara qızılı insan kapitalına çevirməliyik. Hesab edirəm ki, biz ötən illər ərzində bu istiqamətdə istədiyimizə nail ola bilmişik. İnsanların rifahı artır, sağlamlığı möhkəmlənir. Biz bunu statistik göstəricilərdə də görə bilərik. İnsanların ömrünün uzunluğu artır. Dünya Səhiyyə Təşkilatı, yəni, dünyada səhiyyə məsələləri ilə məşğul olan ən böyük təşkilat Azərbaycanda bu sahədə gedən islahatları dəstəkləyir və qiymətləndirir. Biz isə öz növbəmizdə insanların rahat yaşaması üçün əlimizdən gələni edirik və edəcəyik. Çünki bir daha demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində

Azərbaycan vətəndaşı dayanır. Azərbaycan əlbəttə ki, son 20 il ərzində bazar iqtisadiyyatı prinsipləri ilə idarə olunur. İqtisadiyyatımız tam bazar iqtisadiyyatı üzərində qurulubdur. Ancaq buna baxmayaraq, çox güclü sosial siyasət aparılır. Biz indi müxtəlif yerlərdə baş verən hadisələri izləyərkən görürük ki, sosial məsələlərə fikir verilmədiyi halda böyük problemlər yaşanır. Çünki bazar iqtisadiyyatı, əlbəttə ki, hər bir ölkənin iqtisadi inkişafı üçün əsas şərtdir. Ancaq bəzi hallarda islahatlar çətinliklərə də gətirib çıxarır. Bu çətinliklərin qarşısını almaq və islahatları daha da inamla aparmaq üçün güclü sosial siyasət olmalıdır. Bu sosial siyasət müxtəlif formalarda özünü göstərir - tikilən məktəblər, xəstəxanalar, yollar, sosial obyektlər, maaşların, pensiyaların qaldırılması, infrastruktur layihələrinin icra edilməsi, yəni, insanı narahat edən bütün problemlər aradan qaldırılmalıdır. Son illər ərzində bu istiqamətdə nailiyyətlər hesab edirəm ki, kifayət qədərdir. Gələcək illərdə biz bu işləri davam etdirəcəyik.

Çünki hələ görüləsi işlər çoxdur. Biz həm iqtisadi sahədə, sosial məsələlərin həllində bundan sonra da islahatlar aparacağıq. İslahatlara böyük ehtiyac vardır. Çünki burada söhbət təkcə investisiyalardan getmir, investisiya qoyuluşu Azərbaycanda yüksək səviyyədə həll olunur, eyni zamanda, sistem xarakterli islahatlar aparılmalıdır. Biz indi, əlbəttə ki, keçid dövrünü başa vurmuşuq. Azərbaycan bu gün tamamilə müasir əsaslar üzərində inkişaf edir - istər siyasi sahədə, istər iqtisadi sahədə, istərsə də sosial məsələlərin həllində. Ancaq biz bu sahədə, xüsusilə sosial məsələlərin həllində inkişaf etmiş ölkələrin təcrübəsinə, əlbəttə ki, baxmalıyıq. Bu təcrübədə həm müsbət, həm mənfi məqamlar vardır. Əlbəttə ki, biz müsbət məqamları seçməliyik və öz sosial siyasətimizi inkişaf etmiş ölkələrin meyarlarına yaxınlaşdırmalıyıq, ona uyğunlaşdırmalıyıq.

Biz bunu edirik və bu gün Azərbaycanda sosial sahədə aparılan işlər dünya miqyasında yüksək qiymətləndirilir. Hətta son bir neçə il ərzində dünyanı, xüsusilə Avropanı bürümüş iqtisadi-maliyyə böhranı zamanı Azərbaycanda, bir dənə də olsun, sosial layihə ixtisar edilmədi, əksinə, maaşlar, pensiyalar qaldırılır, sosialyönümlü investisiyalara vəsait ayrılır.

Bax, bu içməli su layihələrinin icrası böyük vəsait tələb edir. Bu vəsaitin əsas hissəsi dövlət büdcəsi hesabına təşkil edilir. Bu işlərin bir hissəsi kreditlər hesabına icra edilir, ancaq bu kreditləri də Azərbaycan dövləti qaytarmalıdır. Bir sözlə, bu layihələr sırf sosial məna daşıyır. Bu layihələrə qoyulan investisiyalar 100 milyonlarla, bəlkə milyardlarla ölçüləcəkdir. Çünki biz ölkəmizin bütün su təsərrüfatını yenidən qurmalıyıq və qururuq. Buraya qoyulan investisiyalar qayıdan investisiyalar deyildir. Çünki Azərbaycanda suya olan dövlət tarifləri çox aşağıdır və qoyulan investisiyaları əhalidən yığılan tariflər hesabına qaytarmaq mümkün olmayacaqdır. Bunu istəyirəm ki, hamı bilsin. Elə investisiyalar var ki, onlar kommersiya xarakteri daşıyır. Amma Azərbaycanda infrastruktur layihələrinə qoyulan vəsait sırf sosial xarakter daşıyır. Avtomobil yolları, qazlaşdırma, su layihələri, kənd yolları – bunları dövlət insanların rahat, normal yaşaması üçün edir.

Çox şadam ki, Kürdəmir şəhərində də bu layihə artıq istismara verilir. Kürdəmirin inkişafı daim diqqət mərkəzindədir. Bayaq qeyd etdiyim kimi, burada əvvəlki illərdə dövlət tərəfindən dəstək olmuşdur, layihələr icra edilmişdir, sosial obyektlər, gözəl Heydər Əliyev Mərkəzi tikilmişdir. Bu, doğrudan da mərkəzdir. Burada müxtəlif tədbirlər keçiriləcəkdir. Eyni zamanda, Kürdəmirdə iş yerlərinin açılması ilə bağlı işlər görülür. Bu gün südçülük, heyvandarlıq ferması ilə tanış olacağam. Yəni, rayonun hərtərəfli inkişafı artıq reallıqdır. Bu yüksək templəri biz gələcək illərdə saxlamalıyıq ki, Kürdəmir daha da sürətlə inkişaf etsin, insanlar daha da yaxşı yaşasınlar.

* * * *

Sonra Kürdəmir ictimaiyyəti adından rayon Ziyalılar Cəmiyyətinin sədri Sabir NOVRUZOV çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident. Sizi rayon ictimaiyyəti adından salamlayıram, Kürdəmirə xoş gəlmisiniz. Bu gün Siz müqəddəs bayram ərəfəsində Kürdəmirdə 22 min əhaliyə içməli təmiz bulaq suyu verirsiniz, insanlarımıza sağlam həyat bəxş edirsiniz.

Su saflıqdır, insan həyatı üçün əvəzolunmaz nemətdir. Lakin biz kürdəmirlilər uzun illərdir ki, bu nemətin həsrətində idik. Şükürlər olsun ki, Sizin diqqət və qayğınız sayəsində bu problemimiz həll olunub. Rayonumuzun 30-a yaxın kəndində

Sizin təşəbbüsünüzlə, Sizin tapşırığınızla yaradılmış sutəmizləyici qurğular fəaliyyət göstərir. İnsanlarımız bundan faydalanır, sağlam həyat keçirirlər. Ümumilikdə, rayonumuzun əksər yaşayış məntəqələri sutəmizləyici qurğularla, təmiz su ilə təmin olunmuşdur. Bu işlər hazırda da davam etdirilir. Bütün bunlara görə rayonumuzun uşaqdan böyüyə qədər bütün əhalisinin minnətdarlığını Sizə çatdırıram. Ölkəmizin bütün bölgələrində olduğu kimi, rayonumuz da gündən-günə inkişaf edir, gözəl əhvalruhiyyə hökm sürür. Şəhərimiz, kəndlərimiz, qəsəbələrimiz abadlaşır, yeni parklar, xiyabanlar, mərkəzlər açılır, küçələrimiz yenidən qurulur, yeni binalar tikilir, yeni istehsal sahələri yaradılır. Rahat yaşamağımız, firavanlığımız üçün hər şey edirsiniz.

Möhtərəm cənab Prezident, biz ziyalılar uzun illərdir ki, ölkəmizdə baş verən yenilikləri diqqətlə izləyirik. Son 10 ildə ölkəmiz gündən-günə inkişaf edir, dünya miqyasında şöhrətini, öz nüfuzunu, qüdrətini daha da artırır.

Bütün bunlar bir reallıqdır. Bu reallığa Siz özünüzün xalqa söykənən uğurlu siyasətinizlə, yenilməz iradənizlə nail olmusunuz. Hər bir Azərbaycan vətəndaşının rahat yaşaması, hüquqlarından maneəsiz istifadə etməsi üçün hər cür şərait yaratmısınız. Sizin tapşırığınızla yaradılmış "ASAN xidmət" qısa müddət ərzində geniş əhali kütləsinin rəğbətini qazanmışdır. Bu xidmət bir neçə gündür ki, rayonumuzda da fəaliyyət göstərir. İnsanlarımız bundan faydalanır, ən xırda problemlərini belə qısa vaxtda operativ, ən başlıcası şəffaf şəkildə həll edirlər.

Bütün bunlar bir reallıqdır. Bu reallığa Siz nail olmusunuz. Rayonumuzun hər yerində tikinti, abadlıq, quruculuq işləri görülür. Bütün bunlar bir daha sübut edir ki, Siz həmişə bizi düşünürsünüz, problemlərimizin həllinə çalışırsınız, rahat yaşamağımız, xoşbəxt gələcəyimiz üçün lazım olan hər şeyi edirsiniz. Biz kürdəmirlilər də bugünkü uğurlu inkişafımızın sabahını, gələcəyini istəyirik, rahat, sakit yaşamağımızı istəyirik. Özümüzün, balalarımızın, nəvələrimizin, bütün Azərbaycan xalqının xoşbəxt gələcəyini istəyirik. Bütün bunları Siz təmin edə bilərsiniz. Biz əminik ki, Siz bunu təmin edəcəksiniz. Siz güclü Azərbaycanımızın qarantısınız, rəmzisiniz. Biz də həmişə Sizinlə olacağıq, Sizə arxa-dayaq olacağıq, Sizi dəstəkləyəcəyik. Allah Sizi qorusun!

* * * *

**Prezident İlham ƏLİYEV:** Sağ olun! Biz hələ çox iş görməliyik. Gələcəkdə görüləsi işlər çoxdur. Ancaq son illər ərzində doğrudan da, böyük işlər görülmüşdür. Azərbaycan artıq dünya miqyasında güclü dövlət kimi tanınır, beynəlxalq əlaqələrimiz genişlənir, dostlarımızın sayı artır. Azərbaycan dünyanın ən mötəbər beynəlxalq təşkilatlarının üzvüdür. Bölgədə Azərbaycanın mövqeyindən çox şey asılıdır. Bütün bu qazanılmış uğurlar Azərbaycan xalqının istedadı, zəhməti hesabına qazanılıbdır. Çünki 20 il bundan əvvəl biz müstəqilliyimizin ilk illərində idik və hamımız o günləri yaxşı xatırlayırıq.

O vaxt Azərbaycanın ümumi inkişafı sual atında idi. Azərbaycan demək olar ki, parçalanırdı, vətəndaş müharibəsi baş vermişdi, iqtisadi sahədə heç bir islahat aparılmırdı, sənaye tamamilə iflic vəziyyətinə düşmüşdü. O vaxt həm dünyada, həm ölkə daxilində Azərbaycanın gələcəyi ilə bağlı çox bədbin fikirlər var idi. Ancaq güclü iradə, islahatlar və xalqla iqtidar arasında olan birlik Azərbaycanı bu bəlalardan xilas etdi. Bu gün açdığımız Heydər Əliyev Mərkəzində o illərin şəkilləri əks olunub. Doğrudan da, o illər, xüsusilə 1993-cü il həlledici il olmuşdur. O ildə Azərbaycanın taleyi həll olunurdu. Xoşbəxtlikdən Ulu Öndərin qətiyyəti, cəsarəti, müdrikliyi, xalqın ona olan inamı Azərbaycanı bu bəlalardan qurtardı və 20 il ərzində biz inkişaf yolu ilə gedirik.

Bu gün Azərbaycan dünya xəritəsində nadir ölkələrdəndir ki, həm beynəlxalq aləmdə, həm bölgədə, eyni zamanda, ölkə daxilində çox müsbət istiqamətdə inkişaf edir, irəliyə gedir. Azərbaycan xalqı təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşayır.

İyirmi ildir ki, Azərbaycanda sabitlik, ictimai asayiş qorunur, möhkəmlənir. Yəni, hər bir ölkənin inkişafı üçün əsas şərt sabitlikdir, əmin-amanlıqdır, təhlükəsizlikdir. Biz elə bir bölgədə yaşayırıq ki, ətrafımızda görürsünüz hansı problemlər cərəyan edir – toqquşmalar, qarşıdurmalar, müharibələr. Biz ölkəmizi güclü və müstəqil siyasətlə qorumalıyıq və qoruyuruq. Eyni zamanda, daxildə aparılan islahatlar istər siyasi sahədə, iqtisadi sahədə, sosial məsələlərin həllində ölkəmizi gücləndirir.

Bu gün Azərbaycan tam şəkildə müstəqil siyasət aparır. Bu siyasətin arxasında Azərbaycan iqtidarının iradəsi və güclü iqtisadiyyat dayanır. Güclü iqtisadiyyatı isə biz yaratmışıq, Azərbaycan xalqı yaratmışdır. Bu gün Azərbaycan dünya miqyasında ən yüksək reytinqlərə malikdir. Biz dünyanın aparıcı ölkələri sırasındayıq, iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə 46-cı yerdəyik. Bu, böyük nailiyyətdir.

Ölkədə quruculuq, abadlıq işləri çox gözəl bir ab-hava yaradıb. Yəni, mən bölgələrdə tez-tez oluram. Kürdəmir rayonunda da bir neçə dəfə olmuşam. Vəziyyətlə tanış oluram və görürəm ki, hər bir rayonda belə quruculuğa, inkişafa olan istək, meyil çox güclüdür. Elə bil ki, rayonlar bir-biri ilə yarışa çıxıblar və bu, sağlam rəqabətdir. Bu, məni çox sevindirir. Bölgələr, rayonlar, şəhərlər abadlaşır. İndi Kürdəmir əvvəlki kimi deyildir, inkişaf edib, gözəlləşib və daha da gözəl olacaqdır. Yəni ölkəmizin təcrübəsi hesab edirəm ki, keçid dövründə yaşayan ölkələr üçün də vacibdir.

İstənilən sahədə - iqtisadi-siyasi islahatlar, cəmiyyətdə gedən proseslər, birlik, həmrəylik, millidini tolerantlıq. Yəni, biz bir çox məsələlərlə bağlı nümunə göstəririk. Ancaq yenə də deyirəm ki, bizim əsas məqsədimiz ondan ibarət deyildir. Əsas məqsədimiz ölkəmizi gücləndirmək, insanların yaxşı, normal yaşamasını təmin etməkdir. Əlbəttə ki, bu layihələrin, məqsədlərin arasında bax, bu gün qeyd etdiyimiz layihə xüsusi yer tutur. Əminəm ki, Kürdəmirdə bundan sonra da böyük işlər görüləcəkdir. Biz hələ sizinlə görüşəcəyik, böyük açılışlar olacaqdır. Bütün işlər Azərbaycanda həmişə olduğu kimi, yaxşı olacaqdır.

* * * *

Sonra dövlətimizin başçısı "Kürdəmir şəhərinin su təchizatının planı"nı, "Külüllü-Kürdəmir-UcarZərdab su kəmərinin planı"nı və Külüllü su mənbəyində görülən işləri əks etdirən stendlərə baxdı.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov "Kürdəmir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi və Külüllü su mənbəyi haqqında Prezident İlham Əliyevə məlumat verdi.

Bildirildi ki, 2011-ci ilin oktyabrında icrasına başlanılan "Kürdəmir şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinə uyğun olaraq əhalini fasiləsiz və keyfiyyətli içməli su ilə təmin etmək üçün Ağsu rayonu ərazisində yerləşən Külüllü su mənbəyindən istifadə olunur. Bu məqsədlə Girdmançayın yatağında məhsuldarlığı saniyədə 450 litr olan drenaj tipli suqəbuledici qurğu tikilmişdir. Külüllü mənbəyindən Kürdəmir şəhərinə saniyədə 120 litr təmiz və keyfiyyətli içməli suyun verilməsi nəzərdə tutulmuşdur. Layihə 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Kürdəmir şəhərində 22,3 min nəfərin su təchizatı və kanalizasiya xidmətlərinin, həmçinin Kürdəmir rayonunun 14, Ağsu rayonunun 13 kəndində 48 min nəfərin su təchizatının yaxşılaşdırılmasına hesablanmışdır. Qeyd olundu ki, Külüllüdən Kürdəmir şəhərinə və ətraf kəndlərə suyun özaxımlı rejimdə verilməsi məqsədi ilə 27 kilometr uzunluğunda magistral xətt çəkilmiş, tutumu 7,5 min kubmetr olan anbar tikilmişdir. Layihə çərçivəsində tikintisi nəzərdə tutulan 131,5 kilometrlik su şəbəkəsinin 110 kilometrlik hissəsində işlər yekunlaşmışdır.

Diqqətə çatdırıldı ki, 6 min abunəçinin 1550-si xəttə qoşulmuş, "smart kart" tipli ön ödənişli sayğac quraşdırılmışdır. Kürdəmir şəhərində inşası nəzərdə tutulan 114,6 kilometrlik kanalizasiya şəbəkəsinin 22 kilometrlik hissəsi tikilmişdir. Eyni zamanda, şəhərdə toplanacaq tullantı sularının çirkab sutəmizləyici qurğuya özaxımlı rejimdə ötürülməsini təmin etmək üçün 6,3 kilometr uzunluğunda mikrotunel tipli kollektorun inşası və sutkalıq məhsuldarlığı 30 min kubmetr olacaq çirkab sutəmizləyici qurğunun tikintisi davam etdirilir. Dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilən layihənin icrasının 2014-cü ildə başa çatdırılması planlaşdırılır. Məlumat verildi ki, Külüllü mənbəyi Kürdəmir şəhəri ilə yanaşı, Zərdab və Ucar şəhərlərini, həmçinin ətraf kəndləri də içməli su ilə təmin edəcəkdir. Layihəyə uyğun olaraq Külüllüdən Kürdəmir şəhərinə 27, Zərdab şəhərinə 72, Ucar şəhərinə isə 57 kilometr uzunluğunda magistral su kəmərləri çəkilmişdir. Layihə tam yekunlaşdıqdan sonra Ucar rayonunun 22, Kürdəmir rayonunun 14, Zərdab rayonunun 15, Ağsu rayonunun 13 və Göyçay rayonunun 3 kəndi də su ilə təmin olunacaqdır. Ümumilikdə layihədən 170 mindən artıq insan faydalanacaqdır. Külüllü mənbəyindən 2 kilometr cənubda yerləşən suqəbuledici və paylayıcı anbarların SCADA sistemi ilə idarə edilməsi də nəzərdə tutulur.

Kürdəmirlilər ulu öndər Heydər Əliyevin bu rayona səfərlərini xatırladılar. Ümummilli Liderin ölkəmizin inkişafına xidmət edən siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirdilər.

Sonra dövlətimizin başçısı Kürdəmir şəhərinə suyun rəmzi olaraq verilməsini bildirən düyməni basdı. Azərbaycan Prezidenti işlərin uğurla başa çatdırılması ilə əlaqədar müvafiq tapşırıqlarını verdi. Sonda xatirə şəkilləri çəkdirildi.

**AZƏRTAC**
**2013, 7 avqust**

## «İSMAYILLI-1» SU-ELEKTRİK STANSIYASININ AÇILIŞI MƏRASİMİ

*(14 avqust 2013-cü il)*

Azərbaycan prezidenti İlham Əliyev avqustun 14-də İsmayıllı rayonunun Sumağallı kəndi yaxınlığında inşa edilən «İsmayıllı-1» Su-Elektrik Stansiyasının açılışında iştirak etmişdir.

«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına məlumat verdi ki, «İsmayıllı-1» Su-Elektrik Stansiyası alternativ enerji mənbələrindən səmərəli istifadə edilməsi proqramı çərçivəsində inşa olunan obyektlərdən biridir. Kiçik su-elektrik stansiyalarının tikintisi elektrik enerjisinin istehsalında yanacağa qənaət etməklə yanaşı, həm də ətraf mühitə heç bir zərər yetirmir.

Prezident İlham Əliyevə stansiyanın inşası, fəaliyyəti və layihənin əsas komponentləri barədə də məlumat verildi. Bildirildi ki, stansiyanın tikintisinə 2011-ci ildə başlanılıb. Əsas və köməkçi avadanlığın təchizatı, eləcə də bütün tikintiquraşdırma işləri «Azenco» şirkəti tərəfindən həyata keçirilib.

Stansiyanın tikintisində 100 nəfər çalışıb. Tikinti işləri zamanı burada suqəbuledici quraşdırılmış, hər birinin uzunluğu 2115 metr, diametri isə 800 millimetr olan 3 boru çəkilmiş, stansiya binası inşa edilmişdir. Stansiyanın binasının foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Azərbaycanda energetika sahəsinin inkişafına göstərdikləri diqqəti, həmçinin bu sferanın müasirləşdirilməsi istiqamətində həyata keçirdikləri layihələri əks etdirən fotolardan ibarət stend yaradılıb. Binada nəzarət, mühafizə və idarəetmə sistemləri quraşdırılıb.

Prezident İlham Əliyev idarəetmə mərkəzindən stansiyanı işə saldı.

Diqqətə çatdırıldı ki, bu stansiyanın ümumi layihə gücü 1600 kilovat olan 3 hidroturbin və 3 hidrogeneratordan ibarətdir. Burada 10 və 0,4 kilovoltluq yarımstansiya və elektrik ötürücü xətlər çəkilib. Stansiyanın aşağı byefindən çıxan təmizlənmiş su tikilməkdə olan «İsmayıllı-2» Su-Elektrik Stansiyasına daxil olacaqdır. Beləliklə, yekunda İsmayıllı Su-Elektrik Stansiyası ümumi gücü 3200 kilovat olan kiçik su-elektrik stansiyaları silsiləsini təşkil edəcəkdir.

Bu layihə olduqca səmərəli və əhəmiyyətlidir. Belə ki, İsmayıllı rayonunun Sumağallı kəndi yaxınlığında inşa edilən derivasiya tipli su-elektrik stansiyası ildə 8 milyon kilovat-saat ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsal etmək imkanına malikdir. Su-elektrik stansiyasında 12 nəfər daimi işlə təmin ediləcəkdir.

Stansiyanın ərazisində abadlıq-quruculuq işləri görülmüş, müasir işıqlandırma sistemi quraşdırılmışdır. Azərbaycan Prezidenti yaradılmış şəraitdən razılığını bildirdi, tapşırıqlarını verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 58-ci kitab: iyul 2013 - sentyabr 2013. - Bakı: Azərnəşr, 2018, S. 117-118.**

## OĞUZ ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*(14 avqust 2013-cü il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 14-də Oğuz şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.*

*Əvvəlcə dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Bu gün gözəl gündür. Gözəl tədbir keçirilir, bu gün Oğuz şəhərinin içməli su ilə təminatı həll olunur. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, bu layihə Oğuz əhalisinin rahat yaşaması üçün növbəti töhfə olacaqdır.

İçməli su, kanalizasiya layihələri ölkəmizdə müxtəlif yerlərdə icra edilir və son aylar ərzində bu iş daha da geniş vüsət almışdır. Biz keçən həftə Kürdəmirdə, bu gün isə İsmayıllıda içməli su layihələrinin açılışını qeyd etmişik, indi isə Oğuzda qeyd edirik. Bundan sonrakı aylarda hələ ki, içməli su ilə tam şəkildə təmin olunmayan başqa bölgələrdə də bu layihələr icra ediləcəkdir. Biz vətəndaşları içməli su ilə təmin edəcəyik. İnsanların sağlamlığı, rahat yaşaması üçün çox vacib layihələrdir. Bilirəm ki, Oğuz rayonunda içməli su, kanalizasiya problemi uzun illərdir insanları narahat edirdi. Biz bu məsələni birdəfəlik həll etmişik və bundan sonra Oğuzda içməli su problemi olmayacaqdır.

Kəndlərdə də su xətləri çəkilir. Mənə verilən məlumata görə, bir neçə kənddə artıq içməli su problemi həll edilmişdir. Gələcəkdə Azərbaycanda bu problem tamamilə aradan qaldırılmalıdır. Bu, böyük layihələrdir, böyük vəsait, texniki peşəkarlıq tələb edən layihələrdir. Ancaq Azərbaycan dövləti güclü dövlətdir. Bu layihələrin icra edilməsi onu göstərir ki, biz istənilən məsələni həll edə bilərik və regionların sosial-iqtisadi inkişafı artıq reallıqdır. Hər bir yerdə, hər bir bölgədə, hər bir şəhərdə infrastruktur layihələri icra edilir, insanların rahat yaşaması üçün işlər görülür, iş yerləri açılır.

Mən Oğuzda dəfələrlə olmuşam, bundan əvvəlki səfərlərimdə müxtəlif açılışlarda iştirak etmişəm. Yadımdadır, xəstəxananın, Olimpiya Kompleksinin açılışını bərabər qeyd etmişdik. Keçən dəfə burada olarkən böyük parkın açılışını qeyd etdik. Bu gün su layihəsi artıq istifadəyə verilir, Heydər Əliyev Mərkəzi tikilir, yaxın zamanlarda yəqin ki, bir daha görüşəcəyik. Yəni biz Oğuz rayonunun timsalında Azərbaycanın dinamik inkişafını görürük – sosial obyektlər tikilir, eyni zamanda, iş yerləri açılır. Səfərlərimin birində Qlükoza zavodunun açılışında da iştirak etmişdim və zavodun gələcək fəaliyyəti ilə bağlı göstərişlər də verilmişdir. Yəni Oğuzda sənaye, iş yerləri layihələri icra edilir, sosial obyektlər – indi uşaq bağçası açılacaqdır – su layihələri, qazlaşdırma artıq şəhərdə həll olunubdur, təbii qaz var, kəndlərdə də bu xətlər çəkilir. Bax, budur bizim yanaşmamız. Hər bir bölgədə bu layihələr icra edilir, icra ediləcəkdir. Elə etməliyik ki, insanları narahat edən bir dənə də olsun məsələ qalmasın. O cümlədən kənd yollarının, körpülərin tikintisi. Burada kənd yollarının tikintisinə vəsait ayrılmışdır, körpü tikilmişdir. İndi buraya gələrkən Qəbələ–Oğuz yolunun rəsmi açılışını qeyd etdik, artıq bu yol neçə vaxtdır ki, istifadədədir, çox rahat, gözəl yoldur. Ondan sonra Şəki–Qax yolu açılışa hazırdır. Bu yol da məsafəni təxminən 2 dəfə qısaldır və yol şimal–qərb sərhədimizə qədər uzanır. İnsanlar Bakıdan ta Balakənə qədər rahat yoldan istifadə edirlər, lazım olan yerlərdə yol genişlənib. Yəni onu demək istəyirəm ki, bütün infrastruktur layihələri icra edilir – su, kanalizasiya, elektrik enerjisi, qazlaşdırma, kənd yolları, məktəblər, xəstəxanalar, Olimpiya Kompleksi, mədəniyyət obyektləri. Bundan artıq nə ola bilər?! İş yerləri açılır. Dinamik inkişaf budur. Azərbaycanın reallıqları bundan ibarətdir. Biz bütün dövrlərdə, müstəqilliyin son 20 ili ərzində inamla irəliyə gedirik, öz gücümüzü artırırıq, iqtisadiyyatımızı gücləndiririk. Bizim çox ciddi sosial siyasətimiz vardır. Bax, bu layihə sosial siyasətin əlamətidir.

Bir daha sizi bu gözəl hadisə münasibətilə, deyə bilərəm ki, tarixi hadisə münasibətilə təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik və yeni uğurlar arzulayıram.

**İ r a d ə M ə m m ə d o v a** *(Mərkəzi Xəstəxananın həkimi):* Möhtərəm Prezident, Sizi oğuzlular adından salamlayıram. Oğuza xoş gəlmisiniz!

Bu gün bizim üçün çox əlamətdar bir gündür. Oğuzda yeni su xətti istifadəyə verilir. Suyun insan üçün necə əvəzedilməz bir nemət olduğunu biz hamımız yaxşı bilirik, bir həkim kimi, mən də bilirəm. Kanalizasiya sistemi şəhərimizdə heç olmamışdır. Amma açılışında bizə şərəf verərək, bizi qürurlandıraraq Sizin iştirak etdiyiniz bu su xətti vasitəsilə Oğuz və ona yaxın kəndlər təmiz içməli su ilə təmin ediləcəkdir. Kanalizasiya sisteminin yaradılması nəticəsində şəhərimiz daha müasir bir şəhərə çevriləcəkdir. Bunlar bizə Sizin töhfənizdir, Sizin hədiyyənizdir. Oğuzlular adından ürəkdən Sizə bir daha təşəkkürümü bildirirəm.

Möhtərəm cənab Prezident, respublikamızda gedən quruculuq, yaradıcılıq, abadlıq işləri hamımızın gözü qarşısındadır. Biz hər gün yeni-yeni obyektlərin, körpülərin, yolların, bir həkim kimi deyirəm, diaqnostika mərkəzlərinin, yeni-yeni məktəblərin, turizm mərkəzlərinin, idman komplekslərinin açılışının şahidi oluruq. Bu işlər Oğuzdan da yan keçməmişdir. Sizin qayğınız, xüsusi diqqətiniz nəticəsində qısa bir müddət ərzində Oğuz o qədər dəyişmişdir ki, təzə gələn qonaqlar buranı tanımırlar. Yollar abadlaşmış, işıqlanmış, yeni idman kompleksi, yeni xəstəxana kompleksi tikilib istifadəyə verilmişdir. Xəstəxanamız hər cür müasir avadanlıqla təmin edilmiş, məktəblər tikilmiş, parklar açılmış, yollarımız abadlaşmışdır.

Bu gün daha əlamətdar bir gündür. Bu gün Oğuzda yeni bağçanın da açılışı olacaqdır. Yəqin ki, möhtərəm Prezidentimiz bu açılışda iştirak etməklə, bizi bir daha şərəfləndirəcəkdir. Bizə göstərdiyiniz bu qayğıya görə Sizə, Sizin xanımınıza – Mehriban xanım Əliyevaya həm bir qadın, həm də bir həkim kimi, təşəkkür edirəm. O da bizim həmkarımızdır.

Möhtərəm Prezident, regionlarımız gündən-günə çiçəklənir, inkişaf edir. Məlumdur ki, iqtisadiyyatın ən gəlirli sahələrindən biri də turizmdir. Özünüz də gördüyünüz kimi, Allah-Taala bizə belə füsunkar təbiət verib. Ancaq yalnız təbiət kifayət deyil, Sizin qayğınız, diqqətiniz, bu abadlaşma nəticəsində Oğuz turizm sahəsində gözəl bir mərkəzə çevrilir. Təbii ki, bütün sahələrdə olduğu kimi, bu sahədə də mütəxəssislərə ehtiyac vardır.

Mən bu səadəti, ümumiyyətlə, ağlıma gətirməzdim, Sizinlə üzbəüz dayanmaq, öz arzumu bildirmək. Mən Sizə öz ailəm adından xüsusi təşəkkür etmək istəyirəm. Sizin gənclərə olan atalıq qayğınız nəticəsində mənim qızıma da Dövlət Proqramı çərçivəsində dövlət təqaüdü verilmiş və o, Böyük Britaniyada məhz turizm sahəsində magistratura keçərək ixtisaslı bir kadr kimi, respublikamıza qayıtmışdır. Bizim ailəmizin sevincini sözlə ifadə etmək çətindir. Mən buna görə Sizə ürəkdən təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Sağ olun.

**İ r a d ə M ə m m ə d o v a:** Möhtərəm cənab Prezident, məhz Sizin səyləriniz, gecə-gündüz işləməyiniz nəticəsində – televizorda da göstərmişlər ki, respublikamızda ən çox işləyən şəxs Prezidentimiz və onun xanımıdır – Azərbaycan qüdrətli dövlətə çevrilmişdir. Bölgədə isə 1-ci dövlətik. Bu Sizin xalqımıza olan töhfənizdir, bizim xoşbəxt, firavan gələcəyimiz üçün çalışmağınızın nəticəsidir. Sizə təşəkkür edirik, Sizinlə qürur duyuruq. Belə bir Prezidentimiz olduğu üçün çox xoşbəxtik. Oğuzlular həmişə Sizinlə olmuşdur və əmin ola bilərsiniz ki, həmişə Sizi dəstəkləyəcəklər. Azərbaycanımızın çiçəklənməsi yolunda Sizə böyük nailiyyətlər arzu edirik, yolunuz açıq olsun, Ulu Tanrı həmişə Sizi qorusun! Çox sağ olun!

**İ l h a m Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Oğuzda doğrudan da son illər ərzində əsaslı dəyişikliklər baş vermişdir. Mən ilk dəfə Oğuza 2005-ci ildə gələndə vəziyyət tam başqa idi. Oğuz rayonu çox böyük inkişaf yolu keçmişdir. Azərbaycanda, o cümlədən Oğuz

rayonunda bütün işlər ardıcıllıqla aparılır. Sürətli iqtisadi inkişafı təmin etmək üçün ilk növbədə, ilkin şərtlər lazımdır – infrastruktur, yol, işıq, qaz. Bunlar olmadan heç bir inkişafdan söhbət gedə bilməz və biz bütün bu problemləri ardıcıllıqla həll edə bilmişik. İndi bütün infrastruktur layihələri yüksək səviyyədə həll olunubdur.

Gələcəkdə Oğuz rayonunun potensialından maksimum dərəcədə istifadə etmək üçün buranın təbiətini və təbii şəraitini nəzərə almaqla, müxtəlif istiqamətlər üzrə inkişaf planı da icra edilməlidir. Çünki burada infrastruktur var, yollar çəkilib, qaz xətləri, işıq xətləri, içməli su, kanalizasiya, xəstəxana, Olimpiya Mərkəzi, digər ictimai yerlər, parklar salınır. Buranın gələcək inkişafı yəqin ki, turizmlə, kənd təsərrüfatının və sənayenin inkişafı ilə bağlı olmalıdır. Bax, bu 3 istiqamət üzrə burada bundan sonra da işlər gedəcəkdir. Əminəm ki, bütün bu əsas infrastruktur layihələri icra olunandan sonra buraya özəl sektordan da investisiyalar çox qoyulacaqdır.

Əvvəlki dövrlərdə mən burada hotelin açılışında da iştirak etmişdim. Bu imkanlar da var. İndi gözəl yol çəkilibdir, Bakıdan buraya çox rahat gəlmək olur. Qəbələdə bildiyiniz kimi, beynəlxalq aeroport fəaliyyət göstərir və beynəlxalq uçuşlar artıq icra edilir. Aeroportdan Oğuza qədər təqribən yarım saatlıq yoldur. Yəni hesab etmək olar ki, Oğuzun da beynəlxalq aeroportu var. Əminəm ki, gələcəkdə bu zonaya – Oğuza, Şamaxıya, Qəbələyə, Şəkiyə və digər rayonlara gələnlərin sayı artacaqdır.

Daxili turizm hazırda daha çox artır. Bu da çox gözəl göstəricidir. Çünki insanların imkanları artır ki, onlar öz ölkəsində gedib istirahət edirlər. Xarici turizm də artır, müxtəlif beynəlxalq tədbirlərin keçirilməsi, musiqi festivalları, siyasi tədbirlər, bax, sabahdan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü Qəbələdə keçiriləcəkdir. Bax, bu zonanı turizm mərkəzinə – nəinki Azərbaycanın, bölgənin və gələcəkdə dünyanın turizm mərkəzlərindən birinə çevirmək üçün bütün ilkin şərtlər vardır.

Əlbəttə ki, kənd təsərrüfatının inkişafını qeyd etmək olar. Burada bu inkişaf üçün gözəl potensial vardır. Digər sahələr də vardır ki, Oğuz rayonunun inkişafına xidmət göstərə bilər və uzunmüddətli gələcəyimizi təmin edə bilər. Dövlət investisiyaları da qoyulacaqdır. Çünki baxmayaraq ki, əsas infrastruktur layihələri başa çatıb, hələ görülləsi işlər çoxdur. Kənd yerlərində görüləsi işlər çoxdur, uşaq bağçaları çatışmır, hələ qəzalı vəziyyətdə olan məktəblər yəqin ki, Oğuz rayonunda da, başqa yerlərdə də vardır. Bu işlər də ardıcıllıqla öz həllini tapacaqdır. Beləliklə, ölkəmizin dinamik inkişafı bundan sonra da təmin ediləcəkdir. Gələn ilin əvvəlində regional inkişaf üzrə 3-cü Dövlət Proqramı qəbul olunmalıdır. Proqramda növbəti 5 il üçün konkret vəzifələr, konkret layihələr göstəriləcəkdir. Yəqin ki, Oğuz rayonundan da artıq İqtisadi İnkişaf Nazirliyinə və Prezident Administrasiyasına təkliflər verilmişdir. Bu təkliflər əsasında Oğuz rayonunun gələcək 5 il ərzindəki inkişafı ilə bağlı konkret, adbaad tədbirlər göstəriləcəkdir.

Mən əminəm ki, gələcəkdə Oğuza hələ çox səfər edəcəyəm. Çünki burada açılışa hazır olacaq obyektlər çoxalacaq – həm müəssisələr, həm gözəl Heydər Əliyev Mərkəzi, həm digər obyektlər. Sizinlə hələ çox görüşəcəyik. Bir daha sizi ürəkdən təbrik edirəm və Sizə cansağlığı arzulayıram.

* * * *

*Sonra prezident İlham Əliyev Oğuz şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sistemlərinin yaradılması layihəsinə, sxemlərə baxdı.*

*Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Agentliyinin direktoru Əli Məmmədov bildirdi ki, Azərbaycan Prezidentinin sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planına əsasən*

*Oğuz şəhərinə içməli su xəttinin çəkilməsi nəzərdə tutulub. Layihənin icrası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Agentliyinə tapşırılıb. Layihə üzrə işlərə 2010-cu ilin noyabrında başlanılıb. Yeni içməli su təchizatı sistemi Oğuz şəhərini, həmçinin Bayan, Kərimli, Qumlaq, Şirvanlı, Tayıflı və Xalxalqışlaq kəndlərini əhatə edəcəkdir. Layihəyə əsasən şəhərin 9 min, kəndlərin isə 11 minə qədər əhalisinin su ilə fasiləsiz təmin olunması nəzərdə tutulub. Su tələbatı saniyədə 47 litrdən bir qədər çox olmalı idi. Hazırda isə Sazur və Almalıq su mənbələri hesabına faktiki təchizat saniyədə 103 litrdir. Tikintisi başa çatdırılan su mənbələrinin potensialı 50 min insanın suya olan tələbatını tam ödəyəcəkdir. Bu isə 2031-ci ildə Oğuz rayonunun əhalisinin içməli su ilə tam təmin olunması deməkdir. Laboratoriya araşdırmaları indiki mərhələdə suyun keyfiyyətinin həm beynəlxalq, həm də yerli standartlara tam uyğunluğunu təsdiqləmişdir.*

*Bildirildi ki, Oğuz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı işlər 3 mərhələdə aparılır. Birinci mərhələdə Sazur və Almalıq su mənbələrindən magistral boru xətti, su anbarları, xlorlama təsərrüfatı, laboratoriya və digər struktur obyektlərinin tikintisi başa çatdırılıb. Suqəbuledici qurğular meydançasında tikilən keçid məntəqəsi, suqəbuledici kamera, xlorlama və laboratoriya binaları avadanlıqla təchiz edilib. Hər birinin həcmi 1000 kubmetr olan 2 yeni su anbarı tikilib. Bundan başqa, həcmi 200 kubmetr olan su anbarı bərpa edilib.*

*İkinci mərhələdə şəhərin 3 zonasında su anbarları sahəsi yaradılıb. Hər birinin həcmi 250 kubmetr olan 6 su anbarı, həmçinin şəhərin su və kanalizasiya şəbəkələri inşa olunub. Şəhərdə bütün abonentlərin su sayğacı ilə təmin edilməsi nəzərdə tutulub.*

*Üçüncü mərhələ çərçivəsində gün ərzində məhsuldarlığı 2500 kubmetr olacaq çirkab sutəmizləyici qurğular kompleksinin tikintisi və texnoloji sistemlərin quraşdırılması işləri aparılır. Kanalizasiya sisteminin potensialı Oğuz şəhərini və Bayan kəndini əhatə edir. Çirkab sutəmizləyici qurğular kompleksinin bu ilin sonunda istismara verilməsi planlaşdırılır.*

*Dövlətimizin başçısı mərasim iştirakçıları ilə söhbət etdi.*

*Görülən işlərlə tanış olan prezident İlham Əliyev şəhərə içməli suyun verilməsini bildirən düyməni basdı.*

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 58-ci kitab: iyul 2013 - sentyabr 2013. - Bakı: Azərnəşr, 2018, S. 133-140.**

## QAX ŞƏHƏRİNİN SU TƏCHİZATI VƏ KANALİZASİYA SİSTEMLƏRİ KOMPLEKSİ İSTİFADƏYƏ VERİLMİŞDİR

*(16 avqust 2013-cü il)*

Avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qax şəhərinin su təchizatı və kanalizasiya sistemləri kompleksinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısı Qax şəhərinin su təchizatı sistemlərinin baş planını və şəhərin 1 nömrəli su anbarının görüntülərini əks etdirən stendlərə baxdı.

"Qax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi barədə məlumat verən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov bildirdi ki, kompleksin təməli dövlətimizin başçısının iştirakı ilə 2011-ci il noyabrın 17-də qoyulmuşdur.

Qeyd edildi ki, Qax şəhərinin su təchizatı sistemi 1960-cı illərin sonlarında yaradılmışdır. Yeni layihənin icrasına qədər şəhər sakinləri Kürmük və Qumçay çaylarının, həmçinin subartezian quyularının sularından istifadə edirdilər. Mövcud 25 kilometr magistral və 52 kilometrlik paylayıcı su xətləri istismara yararsız vəziyyətdə olduğundan əhalinin içməli su təchizatında fasilələr yaranırdı. Qax şəhərinin 13 min sakininin 9 mini mərkəzləşmiş qaydada gün ərzində 4-6 saat olmaqla cədvəl əsasında içməli su ilə təchiz edilirdi. Mərkəzləşmiş su təchizatı sistemi olmayan yerlərdə isə əhali tələbatını fərdi qaydada ödəmək məcburiyyətində idi.

Layihəyə əsasən İlisu kəndinin yaxınlığındakı bulaqlardan Qax şəhərinə gətirilən su həm yeni qurulmuş, həm də mövcud şəbəkə vasitəsilə əhaliyə verilir. Bunun nəticəsidir ki, artıq şəhər yeni mənbədən 100 faiz fasiləsiz su ilə təmin olunur. Bulaq sularının toplanması məqsədilə ərazidə məhsuldarlığı saniyədə 80 litr olan suqəbuledici qurğu tikilmiş və buradan Qax şəhərinə qədər 6,7 kilometr uzunluğunda magistral su kəməri çəkilmişdir. Qax şəhərini fasiləsiz rejimdə içməli su ilə təmin etmək üçün hər birinin tutumu min kubmetr olan altı anbar tikilmişdir. İnşası nəzərdə tutulan 119 kilometrlik şəhərdaxili su şəbəkəsinin 90 kilometrlik hissəsində işlər yekunlaşmış, iki mindən artıq ünvan şəbəkəyə qoşulmuşdur. İçməli sudan istifadənin dəqiq uçotunun aparılması məqsədilə "smartkart" tipli sayğacların quraşdırılması da davam etdirilir və indiyədək 5,9 min abunəçinin 1500-ü sayğacla təmin olunmuşdur.

Diqqətə çatdırıldı ki, yeni layihə həyata keçirilənədək Qax şəhərində kanalizasiya şəbəkəsi, ümumiyyətlə, mövcud olmamışdır. Layihəyə uyğun olaraq Qax şəhərində ilk dəfə kanalizasiya sistemi yaradılır. Bu məqsədlə 17 kilometr uzunluğunda kanalizasiya kollektoru inşa edilmiş, 89,5 kilometrlik kanalizasiya şəbəkəsinin 35 kilometrlik hissəsində işlər başa çatdırılmışdır. Yaranacaq tullantı suları şəhərin kənarında tikiləcək və məhsuldarlığı sutkada 8 min kubmetr olacaq çirkab sutəmizləyici qurğuya ötürüləcəkdir.

Bildirildi ki, "Qax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi" 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla, Qax şəhərində 14 min nəfərin su təchizatı və kanalizasiya xidmətlərinin, Qaxbaş və Qaxingiloy kəndlərində isə 7,5 min nəfərin içməli su təchizatının yaxşılaşmasına hesablanmışdır.

Dövlətimizin başçısı Qax şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.

Sonra Prezident İlham Əliyev "Azərsu" ASC-nin əməkdaşları və inşaatçılarla görüşdü.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**
**2013, 16 avqust**

## OĞUZ ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİ

*(14 avqust 2013-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 14-də Oğuz şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.

Əvvəlcə dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Rayon ictimaiyyətinin nümayəndələrini salamlayan **Prezident İlham ƏLİYEV dedi:**

- Bu gün gözəl gündür. Gözəl tədbir keçirilir, bu gün Oğuz şəhərinin içməli su ilə təminatı həll olunur. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, bu layihə Oğuz əhalisinin rahat yaşaması üçün növbəti töhfə olacaqdır.

İçməli su-kanalizasiya layihələri ölkəmizdə müxtəlif yerlərdə icra edilir və son aylar ərzində bu iş daha da geniş vüsət almışdır. Biz keçən həftə Kürdəmirdə, bu gün isə İsmayıllıda içməli su layihələrinin açılışını qeyd etmişik, indi isə Oğuzda. Bundan sonrakı aylarda hələ ki, içməli su ilə tam şəkildə təmin olunmayan bütün başqa bölgələrdə də bu layihələr icra ediləcəkdir. Biz vətəndaşları içməli su ilə təmin edəcəyik. İnsanların sağlamlığı, rahat yaşaması üçün çox vacib layihələrdir. Bilirəm ki, Oğuz rayonunda içməli su-kanalizasiya problemi uzun illərdir insanları narahat edirdi. Biz bu məsələni birdəfəlik həll etmişik və bundan sonra Oğuzda içməli su problemi olmayacaqdır.

Eyni zamanda, kəndlərdə də su xətləri çəkilir. Mənə verilən məlumata görə, bir neçə kənddə artıq içməli su problemi həll edilmişdir. Gələcəkdə Azərbaycanda bu problem tamamilə aradan qaldırılmalıdır. Bu, böyük layihələrdir, böyük vəsait, texniki peşəkarlıq tələb edən layihələrdir. Ancaq Azərbaycan dövləti güclü dövlətdir. Bu layihələrin icra edilməsi onu göstərir ki, biz istənilən məsələni həll edə bilərik və regionların sosial-iqtisadi inkişafı artıq reallıqdır. Hər bir yerdə, hər bir bölgədə, hər bir şəhərdə infrastruktur layihələri icra edilir, insanların rahat yaşaması üçün işlər görülür, iş yerləri açılır.

Mən Oğuzda dəfələrlə olmuşam, bundan əvvəlki səfərlərimdə müxtəlif açılışlarda iştirak etmişəm. Yadımdadır, xəstəxananın, Olimpiya Kompleksinin açılışını bərabər qeyd etmişdik. Keçən dəfə burada olarkən böyük parkın açılışını qeyd etdik. Bu gün su layihəsi artıq istifadəyə verilir, Heydər Əliyev Mərkəzi tikilir, yaxın zamanlarda yəqin ki, bir daha görüşəcəyik. Yəni, biz Oğuz rayonunun timsalında Azərbaycanın dinamik inkişafını görürük - sosial obyektlər tikilir, eyni zamanda, iş yerləri açılır. Səfərlərimin birində qlükoza zavodunun açılışında da iştirak etmişdim və zavodun gələcək fəaliyyəti ilə bağlı göstərişlər də verilmişdir. Yəni, Oğuzda sənaye, iş yerləri layihələri icra edilir, sosial obyektlər, - indi uşaq bağçası açılacaqdır, - su layihələri, qazlaşdırma artıq şəhərdə həll olunubdur, təbii qaz var, kəndlərdə də bu xətlər çəkilir. Bax, budur bizim yanaşmamız. Hər bir bölgədə bu layihələr icra edilir, icra ediləcəkdir. Elə etməliyik ki, insanları narahat edən bir dənə də olsun məsələ qalmasın. O cümlədən kənd yollarının, körpülərin tikintisi. Burada kənd yollarının tikintisinə vəsait ayrılmışdır, körpü tikilmişdir. İndi buraya gələrkən Qəbələ-Oğuz yolunun rəsmi açılışını qeyd etmişik, artıq bu yol neçə vaxtdır ki, istifadədədir, çox rahat, gözəl yoldur. Ondan sonra Şəki-Qax yolu açılışa hazırdır. Bu yol da məsafəni təxminən 2 dəfə qısaldır və yol şimal-qərb sərhədimizə qədər uzanır. İnsanlar Bakıdan ta Balakənə qədər rahat yoldan istifadə edirlər, lazım olan yerlərdə yol genişlənib. Yəni, onu demək istəyirəm ki, bütün infrastruktur layihələri icra edilir – su, kanalizasiya, elektrik enerjisi, qazlaşdırma, kənd yolları, məktəblər, xəstəxanalar, Olimpiya Kompleksi, mədəniyyət obyektləri. Bundan artıq nə ola bilər?! İş yerləri açılır. Ona görə dinamik inkişaf budur. Azərbaycanın reallıqları bundan ibarətdir. Biz bütün dövrlərdə, müstəqilliyin son 20 ili ərzində inamla

irəliyə gedirik, öz gücümüzü artırırıq, iqtisadiyyatımızı gücləndiririk. Bizim çox ciddi sosial siyasətimiz vardır. Bax, bu layihə sosial siyasətin əlamətidir.

Bir daha sizi bu gözəl hadisə münasibətilə, deyə bilərəm ki, tarixi hadisə münasibətilə təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik və yeni uğurlar arzulayıram.

* * * *

Rayon ictimaiyyəti adından çıxış edən Mərkəzi Xəstəxananın həkimi İradə MƏMMƏDOVA dedi:

- Möhtərəm Prezident, Sizi oğuzlular adından salamlayıram. Oğuza xoş gəlmisiniz!

Bu gün bizim üçün çox əlamətdar bir gündür. Oğuzda yeni su xətti istifadəyə verilir. Suyun insan üçün necə əvəzedilməz bir nemət olduğunu biz hamımız yaxşı bilirik, bir həkim kimi mən də bilirəm. Kanalizasiya sistemi şəhərimizdə heç olmamışdır. Amma açılışında bizə şərəf verərək, bizi qürurlandıraraq Sizin iştirak etdiyiniz bu su xətti vasitəsilə Oğuz və ona yaxın kəndlər təmiz içməli su ilə təmin ediləcəkdir. Kanalizasiya sisteminin yaradılması nəticəsində şəhərimiz daha müasir bir şəhərə çevriləcəkdir. Bunlar bizə Sizin töhfənizdir, Sizin hədiyyənizdir. Oğuzlular adından ürəkdən Sizə bir daha təşəkkürümü bildirirəm.

Möhtərəm cənab Prezident, respublikamızda gedən quruculuq, yaradıcılıq, abadlıq işləri hamımızın gözü qarşısındadır. Biz hər gün, yeni-yeni obyektlərin, körpülərin, yolların, bir həkim kimi deyirəm, diaqnostika mərkəzlərinin, yeni-yeni məktəblərin, turizm mərkəzlərinin, idman komplekslərinin açılışının şahidi oluruq. Bu işlər Oğuzdan da yan keçməmişdir. Sizin qayğınız, xüsusi diqqətiniz nəticəsində qısa bir müddət ərzində Oğuz o qədər dəyişmişdir ki, təzə gələn qonaqlar buranı tanımırlar. Yollar abadlaşmış, işıqlanmış, yeni idman kompleksi, yeni xəstəxana kompleksi tikilib istifadəyə verilmişdir. Xəstəxanamız hər cür müasir avadanlıqla təmin edilmiş, məktəblər tikilmiş, parklar açılmış, yollarımız abadlaşmışdır.

Bu gün daha əlamətdar bir gündür. Bu gün Oğuzda yeni bağçanın da açılışı olacaqdır. Yəqin ki, möhtərəm Prezidentimiz bu açılışda iştirak etməklə, bizi bir daha şərəfləndirəcəkdir. Bizə göstərdiyiniz bu qayğıya görə Sizə, Sizin xanımınıza, Mehriban xanım Əliyevaya həm bir qadın, həm də bir həkim kimi təşəkkür edirəm. O da bizim həmkarımızdır.

Möhtərəm Prezident, regionlarımız gündən-günə çiçəklənir, inkişaf edir. Məlumdur ki, iqtisadiyyatın ən gəlirli sahələrindən biri də turizmdir. Özünüz də gördüyünüz kimi, Allah-təala bizə belə füsunkar təbiət verib. Ancaq yalnız təbiət kifayət deyil, Sizin qayğınız, diqqətiniz, bu abadlaşma nəticəsində Oğuz turizm sahəsində gözəl bir mərkəzə çevrilir. Təbii ki, bütün sahələrdə olduğu kimi, bu sahədə də mütəxəssislərə ehtiyac vardır.

Mən bu səadəti ümumiyyətlə ağlıma gətirməzdim, Sizinlə üzbəüz dayanmaq, öz arzumu bildirmək. Mən Sizə öz ailəm adından xüsusi təşəkkür etmək istəyirəm. Sizin gənclərə olan atalıq qayğınız nəticəsində mənim qızıma da Dövlət Proqramı çərçivəsində dövlət təqaüdü verilmiş və o, Böyük Britaniyada məhz turizm sahəsində magistratura keçərək ixtisaslı bir kadr kimi respublikamıza qayıtmışdır. Bizim ailəmizin sevincini sözlə ifadə etmək çətindir. Mən buna görə Sizə ürəkdən təşəkkür edirəm.

Prezident İlham ƏLİYEV: Sağ olun.

İradə MƏMMƏDOVA: Möhtərəm cənab Prezident, məhz Sizin səyləriniz, gecə-gündüz işləməyiniz nəticəsində, - televizorda da göstərmişlər ki, respublikamızda ən çox işləyən şəxs Prezidentimiz və onun xanımıdır, - Azərbaycan qüdrətli dövlətə çevrilmişdir. Bölgədə isə birinci dövlətik. Bu, Sizin xalqımıza olan töhfənizdir, bizim xoşbəxt, firavan gələcəyimiz üçün çalışmağınızın nəticəsidir. Sizə təşəkkür edirik, Sizinlə qürur duyuruq. Belə bir Prezidentimiz olduğu üçün çox xoşbəxtik. Oğuzlular həmişə Sizinlə olmuşdur və

əmin ola bilərsiniz ki, həmişə Sizi dəstəkləyəcəklər. Azərbaycanımızın çiçəklənməsi yolunda Sizə böyük nailiyyətlər arzu edirik, yolunuz açıq olsun, Ulu Tanrı həmişə Sizi qorusun! Çox sağ olun!

Prezident İlham ƏLİYEV: Sağ olun, təşəkkür edirəm. Oğuzda doğrudan da, son illər ərzində əsaslı dəyişikliklər baş vermişdir. Mən ilk dəfə Oğuza 2005-ci ildə gələndə vəziyyət tam başqa idi. Yəni, doğrudan da, Oğuz rayonu çox böyük inkişaf yolu keçmişdir. Azərbaycanda, o cümlədən Oğuz rayonunda bütün işlər ardıcıllıqla aparılır. Sürətli iqtisadi inkişafı təmin etmək üçün, ilk növbədə, necə deyərlər, ilkin şərtlər lazımdır – infrastruktur, yol, işıq, qaz. Bunlar olmadan heç bir inkişafdan söhbət gedə bilməz və biz bütün bu problemləri ardıcıllıqla həll edə bilmişik. İndi bütün infrastruktur layihələri yüksək səviyyədə həll olunubdur.

Gələcəkdə Oğuz rayonunun potensialından maksimum dərəcədə istifadə etmək üçün buranın təbiətini və təbii şəraitini nəzərə almaqla, müxtəlif istiqamətlər üzrə inkişaf planı da icra edilməlidir. Çünki burada infrastruktur var, yollar çəkilib, qaz xətləri, işıq xətləri, içməli su, kanalizasiya, xəstəxana, Olimpiya Mərkəzi, digər ictimai yerlər, parklar salınır. Buranın gələcək inkişafı yəqin ki, turizmlə, kənd təsərrüfatının və sənayenin inkişafı ilə bağlı olmalıdır. Bax, bu üç istiqamət üzrə burada bundan sonra da işlər gedəcəkdir. Əminəm ki, bütün bu əsas infrastruktur layihələri icra olunandan sonra buraya investisiyalar özəl sektordan da çox qoyulacaqdır.

Əvvəlki dövrlərdə mən burada otelin açılışında da iştirak etmişdim. Bu imkanlar da var. İndi gözəl yol çəkilibdir. İndi Bakıdan buraya çox rahat gəlmək olur. Eyni zamanda, Qəbələdə bildiyiniz kimi, beynəlxalq aeroport artıq fəaliyyət göstərir və beynəlxalq uçuşlar artıq icra edilir. Aeroportdan Oğuza qədər təqribən yarım saatlıq yoldur. Yəni, hesab etmək olar ki, Oğuzun da beynəlxalq aeroportu var əminəm ki, gələcəkdə bu zonaya – Oğuza, Şamaxıya, Qəbələyə, Şəkiyə və digər rayonlara gələnlərin sayı artacaqdır.

Daxili turizm hazırda daha çox artır. Bu da çox gözəl göstəricidir. Çünki insanların imkanları artır ki, onlar öz ölkəsində gedib istirahət edirlər. Xarici turizm də artır, müxtəlif beynəlxalq tədbirlərin keçirilməsi, musiqi festivalları, siyasi tədbirlər, bax, sabahdan Türkdilli Ölkələrin dövlət başçılarının zirvə görüşü Qəbələdə keçiriləcəkdir. Bax, bu zonanı turizm mərkəzinə - nəinki Azərbaycanın, bölgənin və gələcəkdə dünyanın turizm mərkəzlərindən birinə çevirmək üçün bütün ilkin şərtlər vardır.

Əlbəttə ki, kənd təsərrüfatının inkişafı. Burada bu inkişaf üçün gözəl potensial vardır. Digər sahələr də vardır ki, Oğuz rayonunun inkişafına xidmət göstərə bilər və uzunmüddətli gələcəyimizi təmin edə bilər. Eyni zamanda, dövlət investisiyaları da qoyulacaqdır. Çünki baxmayaraq ki, əsas infrastruktur layihələri başa çatıb, hələ görülləsi işlər çoxdur. Kənd yerlərində görüləsi işlər çoxdur, uşaq bağçaları çatışmır, hələ qəzalı vəziyyətdə olan məktəblər yəqin ki, Oğuz rayonunda da, başqa yerlərdə də vardır. Bu işlər də ardıcıllıqla öz həllini tapacaqdır. Beləliklə, ölkəmizin dinamik inkişafı bundan sonra da təmin ediləcəkdir. Gələn ilin əvvəlində regional inkişaf üzrə üçüncü Dövlət Proqramı qəbul olunmalıdır. Proqramda növbəti beş il üçün konkret vəzifələr, konkret layihələr göstəriləcəkdir. Yəqin ki, Oğuz rayonundan da artıq İqtisadi İnkişaf Nazirliyinə və Prezident Administrasiyasına təkliflər verilmişdir. Bu təkliflər əsasında Oğuz rayonunun gələcək beş il ərzindəki inkişafı ilə bağlı konkret, adbaad tədbirlər göstəriləcəkdir.

Mən əminəm ki, gələcəkdə Oğuza hələ çox səfər edəcəyəm. Çünki burada açılışa hazır olacaq obyektlər çoxalacaq, həm müəssisələr, gözəl Heydər Əliyev Mərkəzi, digər obyektlər. Sizinlə hələ çox görüşəcəyik. Bir daha sizi ürəkdən təbrik edirəm və Sizə cansağlığı arzulayıram.

* * * *

Sonra Prezident İlham Əliyev Oğuz şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sistemlərinin yaradılması layihəsinə, sxemlərə baxdı.

Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Agentliyinin direktoru Əli Məmmədov bildirdi ki, Azərbaycan Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş tədbirlər planına əsasən Oğuz şəhərinə içməli su xəttinin çəkilməsi nəzərdə tutulmuşdur. Layihənin icrası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Agentliyinə tapşırılmışdır. Layihə üzrə işlərə 2010-cu ilin noyabrında başlanılmışdır. Yeni içməli su təchizatı sistemi Oğuz şəhərini, həmçinin Bayan, Kərimli, Qumlaq, Şirvanlı, Tayıflı və Xalxalqışlaq kəndlərini əhatə edəcəkdir. Layihəyə əsasən şəhərin 9 min, kəndlərin isə 11 minə qədər əhalisinin su ilə fasiləsiz təmin olunması nəzərdə tutulmuşdur. Layihəyə əsasən su tələbatı saniyədə 47 litrdən bir qədər çox olmalı idi. Hazırda isə Sazur və Almalıq su mənbələri hesabına faktiki təchizat saniyədə 103 litrdir. Tikintisi başa çatdırılan su mənbələrinin potensialı 50 min insanın suya olan tələbatını tam ödəyəcəkdir. Bu isə 2031-ci ildə Oğuz rayonunun əhalisinin içməli su ilə tam təmin olunması deməkdir. Laboratoriya araşdırmaları indiki mərhələdə suyun keyfiyyətinin həm beynəlxalq, həm də yerli standartlara tam uyğunluğunu təsdiqləmişdir.

Bildirildi ki, Oğuz şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı işlər üç mərhələdə aparılır. Birinci mərhələdə Sazur və Almalıq su mənbələrindən magistral boru xətti, su anbarları, xlorlama təsərrüfatı, laboratoriya və digər struktur obyektlərinin tikintisi başa çatdırılmışdır. Suqəbuledici qurğular meydançasında tikilən keçid məntəqəsi, suqəbuledici kamera, xlorlama və laboratoriya binaları avadanlıqla təchiz edilmişdir. Hər birinin həcmi 1000 kubmetr olan iki yeni su anbarı tikilmişdir. Bundan başqa, həcmi 200 kubmetr olan su anbarı bərpa edilmişdir.

İkinci mərhələdə şəhərin üç zonasında su anbarları sahəsi yaradılmışdır. Hər birinin həcmi 250 kubmetr olan altı su anbarı, həmçinin şəhərin su və kanalizasiya şəbəkələri inşa olunmuşdur. Şəhərdə bütün abonentlərin su sayğacı ilə təmin edilməsi nəzərdə tutulmuşdur.

Üçüncü mərhələ çərçivəsində gün ərzində məhsuldarlığı 2500 kubmetr olacaq çirkab sutəmizləyici qurğular kompleksinin tikintisi və texnoloji sistemlərin quraşdırılması işləri aparılır. Kanalizasiya sisteminin potensialı Oğuz şəhərini və Bayan kəndini əhatə edir. Çirkab sutəmizləyici qurğular kompleksinin bu ilin sonunda istismara verilməsi planlaşdırılır.

Dövlətimizin başçısı mərasim iştirakçıları ilə söhbət etdi.

Görülən işlərlə tanış olan Prezident İlham Əliyev şəhərə içməli suyun verilməsini bildirən düyməni basdı.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**
**2013, 14 avqust**

## ZAQATALA ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİ

*(17 avqust 2013-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 17-də Zaqatala şəhərinə suyun verilməsi mərasimində iştirak etmişdir.

Azərbaycan dövləti regionlarda əhalinin güzəranı və rifah halının yaxşılaşdırılması, sahibkarlığın daha da inkişafı üçün yeni imkanların yaradılması baxımından sosial problemlərin həllinə diqqəti artırır. Bu baxımdan ötən illərdə həyata keçirilən mühüm tədbirlərdən biri də ölkəmizdə su və kanalizasiya sistemlərinin təkmilləşdirilməsi və ya yenidən inşası ilə bağlıdır.

Dövlətimizin başçısı əvvəlcə Zaqatala rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Əlamətdar hadisə münasibətilə onları təbrik edən **Prezident İlham ƏLİYEV dedi:**

- Bu gün biz Zaqatalanın su layihəsinin açılışını qeyd edirik. Təbrik edirəm sizi. Bununla da Zaqatalanın su problemləri tamamilə həll olunur. Mənə verilən məlumata görə artıq 24 saat təmiz içməli su verilməyə başlamışdır. Böyük layihədir, sosial məna daşıyır. Əlbəttə ki, bütün işlər insanların rahatlığı üçün görülür. Su layihələri indi ölkəmizin müxtəlif yerlərində icra edilir. Bu günlərdə biz bir neçə şəhərin su layihəsini istifadəyə vermişik. Proses davam edir. Növbə Zaqatalaya çatmışdır.

Bu layihənin icra edilməsi əlbəttə ki, sakinlər üçün bir hədiyyədir. Yəqin ki, başqa yerlərdəki kimi, burada da su fasilələrlə verilirdi. Gündə bəlkə də bir neçə saat. Özü də o qədər də keyfiyyətli deyildi. Amma indi 24 saat keyfiyyətli su verilir. İndi görülən işləri bizə təqdim edəcəklər. Çox gözəl hadisədir. Çox böyük məna daşıyır. Sosial məna daşıyır. Eyni zamanda, ölkəmizin ümumi inkişafını göstərir. Həmçinin mən bu gün Zaqatalanın yeni layihələri ilə də tanış oluram. Görürəm ki, quruculuq işləri aparılır. Binalar bərpa olunur. Binaların tarixi görkəmi qaytarılır. Bu park tamamilə yenidən qurulubdur. Gözəl istirahət zonasıdır.

Digər layihələr icra edilir. Şəhərin abadlaşdırılması prosesi gedir, tikinti gedir. Yəni, burada hər cür sosial infrastruktur mövcuddur. İçməli su layihəsinin icrasından sonra qazlaşdırma olacaqdır. Hələ ki, lazımi səviyyədə deyildir. Biz çalışmalıyıq ki, Zaqatalanın qazlaşdırılmasını təqribən 90-95 faiz təmin edək. Yəqin ki, növbəti bir il ərzində biz buna da nail ola biləcəyik. Kənd yollarının tikintisi gedir. Bu məqsədlər üçün vaxtaşırı vəsait ayrılır. Bundan sonra da ayıracağıq. Çünki bu layihələr hər bir şəhərdə, hər bir rayonda icra edilir. Ona görə də vəsait məsələsi vardır. Ancaq çalışırıq ki, hər bir rayonda heç olmasa bir-iki layihə tezliklə icra edilsin və sonra təbii ki, biz bu layihələrin geniş vüsət almasına nail olacağıq.

Zəlzələdən sonra burada bərpa işləri uğurla gedir, 20-yə yaxın məktəb yenidən tikilir. Bəziləri tikilib və yaxud da indi tikinti gedir. Binalar bərpa edilir. İndi mənə verilən məlumata görə, 3388 ev tikilibdir. Özü də bir il ərzində. İnanılmaz bir nailiyyətdir. Bir ildə demək olar ki, böyük bir qəsəbə, şəhər boyda işlər görülübdür bir rayonda. Özü də qonşu rayonlarda da bu işlər görülür - Balakəndə, Qaxda, Şəkidə. Düzdür, Zaqatala daha çox dağıntılara məruz qalmışdır. Ona görə də burada bu işlər gedir və əminəm ki, yaxın zamanlarda qalan evlər də ya təmir olunacaq, ya da yenidən tikiləcək ki, vətəndaşlar tezliklə yeni evlərə köçsünlər.

Əlbəttə ki, zəlzələ böyük təbii fəlakətdir. Xoşbəxtlikdən heç bir bədbəxt hadisə, heç bir faciə baş verməmişdir. Ancaq insanların evləri dağılmışdır və xatırlayıram, o vaxt burada olarkən demişdim ki, daha da gözəl evlər tikiləcək, geniş və möhkəm. Əvvəlki evlərin çoxu o qədər də keyfiyyətli olmayan materiallardan tikilmişdir. Amma indi möhkəm evlərdir, artıq Allah eləməsin, zəlzələ baş verərsə, o evlərə heç bir xətər dəyməz. Bu, Azərbaycan dövlətinin siyasətidir, öz vətəndaşına olan münasibətidir və bir daha göstərir ki, Azərbaycan sosial dövlətdir.

Sosial dövlət o deməkdir ki, dövlətin siyasətinin mərkəzində insan dayanır. Hər şey insanlar üçün, hər şey Azərbaycan vətəndaşları üçün olmalıdır və biz bunu Zaqatala rayonunun timsalında da görürük. Əvvəlki dövrlərdə buraya böyük investisiyalar qoyulmuşdur. Olimpiya Kompleksi, stadion, diaqnostika mərkəzi, digər layihələr. Bu gün Heydər Əliyev Mərkəzinin tikintisi ilə tanış oluram. Uşaq bağçası və nəhayət içməli su layihəsi də icra edilir.

İçməli su layihəsi deyə bilərəm ki, insanların rahat yaşaması üçün infrastruktur layihələri arasında bəlkə də birinci yerdədir. Çünki su həyat, sağlamlıq deməkdir. Keyfiyyətli içməli su sağlam həyat deməkdir. Artıq Zaqatalanın içməli su ilə təminatı həll olunub. Bir neçə kənd də əhatə olunur və gələcəkdə başqa kəndlərdə də fərdi qaydada bu layihələr icra edilməlidir.

Mən artıq altıncı dəfədir ki, Zaqataladayam. Hər dəfə burada olarkən hansısa bir yeniliyi görürəm. Keçən dəfə tarixi pilləkənin ətrafında gəzirdik və icra başçısı da məlumat vermişdi ki, planlar vardır. O vaxt bərpa işləri gedirdi. İndi artıq tamamlandı. Qala düzü kompleksi də tikilmişdir. Zaqatalanın tarixi binaları da bərpa olunacaqdır. Biz bu işlərə də diqqət verəcəyik. Çünki biz bu məsələlərə hərtərəfli yanaşırıq. Biz tariximizi, tarixi irsimizi qorumalıyıq.

Eyni zamanda, hər bir şəhər inkişaf etməlidir. Tarixi qorumaqla müasir şərait yaratmalıyıq və yaradırıq. Bakıda da belədir. Burada da belədir. Azərbaycanda bir çox şəhərlər var ki, orada çox zəngin tarixi irs və mədəniyyət vardır. Zaqatala da onların arasındadır. Ona görə də bax, bu ətrafda yerləşən binaların qədim tarixi vardır.

Biz öz tariximizi bilirik, bilməliyik. Gənclər də bilməlidir. İndi isə yeni tarix yazılır – müstəqillik tarixi. Bu, xalqımızın həyatında bütün dövrlərdə ən şanlı tarixdir. Əsrlər boyu heç vaxt Azərbaycan xalqı bu qədər rahat yaşamamışdır, Azərbaycan dövləti möhkəm olmamışdır. Bu müstəqillik əsl müstəqillikdir. Keçən əsrin əvvəllərində iki il Azərbaycan müstəqil ölkə kimi yaşadı. Ancaq biz hamımız bilirik ki, o müstəqillik tam deyildi və ona görə müstəqilliyin ömrü uzun olmadı. İki ildən sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Ondan əvvəlki dövrlərdə də, tariximizdə müxtəlif dövrlərdə dövlətçilik ənənələri olmuşdur. Onlar bizim üçün çox vacibdir. Amma bu qədər azad və müstəqil Azərbaycan heç vaxt olmamışdır. Bunu bilməliyik - biz də, gənc nəsil də bilməlidir. Bunu biz qorumalıyıq, möhkəmləndirməliyik. Hər bir şəhərin inkişafı, hər bir kəndin abadlaşdırılması, eyni zamanda, müstəqillik binamıza möhkəm bir daş, möhkəm bir təməldir. Bu layihələr əlbəttə ki, ancaq müstəqil Azərbaycanda reallaşa bilərdi. Çünki müstəqil Azərbaycan Azərbaycan xalqının dövlətidir və müstəqil Azərbaycanın siyasəti də insan amilinə hesablanıbdır. İnsan hər şeydən üstündür. Azərbaycan vətəndaşı, onun təhlükəsizliyi, rahat yaşaması, rifahı ön plandadır. Ona görə də bu gün doğrudan da çox əlamətdar bir gündür. Biz gözəl mərasimdə görüşürük. Amma mən əminəm ki, gələcəkdə belə açılışlar hələ çox olacaqdır. Biz hələ çox görüşəcəyik və bir yerdə bu gözəl yeniliklərə sevinəcəyik. Sizi təbrik edirəm.

SAKİNLƏR: Çox sağ olun!

* * * *

Zaqatalanın inkişafına göstərdiyi diqqət və qayğıya görə rayon ictimaiyyətinin minnətdarlığını çatdıran müəllim Vəfa SÜLEYMANOVA dedi:

- Möhtərəm cənab Prezident!

Sizi Zaqatalada salamlayır, bütün ictimaiyyətimiz adından Sizə “Xoş gəlmisiniz” deyirəm.

Bu gün rayonumuzda bayram sevinci, tarixi bir gün yaşanır. Tərəfinizdən şəhərimizə və ətraf səkkiz kəndimizə təmiz içməli su verilir. Hər zaman olduğu kimi, bu gün də Sizin yenə bizimlə birlikdə olmağınız sevincimizə bir daha sevinc qatır cənab Prezident!

Su həyatdır, su sağlamlıq deməkdir. Bu gün Siz 48 min sakinimizə yeni həyat bəxş edirsiniz, cənab Prezidentimiz! Bu, sadəcə rəqəm deyildir, cənab Prezident! Biz sevinirik. Bu gün bütün zaqatalalılar, bütün ictimaiyyət sevinir. Hər evə çəkilən su xətti və hər bir insan tərəfindən "Allah cənab Prezidentimizə su qədər ömür versin" alqışları Sizə olan sonsuz məhəbbətin təcəssümüdür.

Möhtərəm cənab Prezidentimiz! Bu gün bir ziyalı kimi deyə bilərəm ki, Siz onillik fəaliyyətiniz dövründə respublikamızda sayı-hesabı olmayan irimiqyaslı layihələr həyata keçirmisiniz. Ölkəmizin enerjiyə, qaza, suya olan tələbatlarını bu gün də Siz təmin edirsiniz. Bayaq Siz söylədiniz ki, Zaqatalanın qaza olan tələbatı, bundan sonrakı tələbatı ödəniləcəkdir. Bütün bunlar Sizin sayənizdə, Sizin rəhbərliyiniz altında həyata keçirilir, cənab Prezident!

Bu gün bir zaqatalalı kimi qəlbim qürur hissi ilə döyünür. Bu gün rayonumuzda aparılan abadlıq-quruculuq, tikinti işləri Zaqatalamızın simasını başdan-başa dəyişib bir cənnət məkanına çevirmişdir.

Möhtərəm cənab Prezident! Şəhərimizin tarixi mərkəzinin yenidən bərpası, küçələrimizin abadlaşması bizi çox sevindirir. Bu gün sakinlərimiz deyirlər ki, şəhərimizi, meydanımızı heç zaman belə gözəl, belə yaraşıqlı görməmişdik, cənab Prezident.

Möhtərəm cənab Prezident! Siz hər zaman bizimlə birlikdə, bizimlə bərabər olursunuz. Biz bunun şahidi olmuşuq. Ötən il zəlzələdən bir gün sonra - mayın 9-da rayonumuza gəldiniz, vəziyyətlə tanış oldunuz. Əhali ilə görüşüb ümidsiz insanlara ürək-dirək verdiniz. Onların arzu və istəklərini nəzərə alaraq tapşırıqlar verdiniz. Yenidən rayonumuza gəlib tapşırıqların icrası vəziyyəti ilə tanış oldunuz. O zaman Gözbarax kəndində uşaq bağçasının, beş yüz yerlik məktəbin açılışını etdiniz. Sakinlərə fərdi evlərin açarlarını təqdim etdiniz. O mənzillərdə yaradılmış şəraitlə tanış oldunuz, cənab Prezident!

Bütün bu işlər bu gün də sürətlə davam etdirilir. Bundan əlavə, minlərlə insana daha geniş, daha yaraşıqlı, daha möhkəm evlər, mənzillər bəxş etdiniz, cənab Prezident! O zaman zaqatalalıların gözündə qorxu, təlaş, sarsıntı duyulurdusa, bu gün o insanların üzlərində sevinc və təbəssüm, qəlblərində Sizə çox böyük məhəbbət hissi vardır, cənab Prezident. Biz bir daha əmin olduq ki, bu gün Azərbaycan xalqının arxasında qüdrətli bir dövlətimiz, Sizin kimi müdrik bir Prezidentimiz vardır. Bütün zaqatalalılar adından Sizə "Çox sağ olun!" deyirəm, cənab Prezident.

Möhtərəm cənab Prezidentimiz! Bu gün doğma Azərbaycanımız Sizin rəhbərliyiniz altında gündən-günə qüdrətlənir, inkişaf gedir. Siz bizim həmişəlik Prezidentimizsiniz. Biz açılan hər bir sabahımızı Sizinlə təsəvvür edirik, Sizinlə yaşayırıq, Sizinlə bağlayırıq, cənab Prezident!

Biz bundan sonrakı gələcəyimizi də bugünkü kimi firavan, xoşbəxt görürük, cənab Prezident!

Biz Sizə inanırıq, Sizə güvənirik, Tanrı Sizi qorusun, cənab Prezidentimiz!

Prezident İlham ƏLİYEV: Çox sağ olun!

* * * *

Sonra Prezident İlham Əliyev Zaqatala şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsini əks etdirən stendlərə baxdı.

Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Agentliyinin direktoru Əli Məmmədov Zaqatala şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması layihəsinin icrası barədə Prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, layihənin icrasına 2010-cu ilin noyabrında başlanmış, birinci mərhələ üzrə işlər yerinə yetirilmişdir. İkinci və üçüncü mərhələlər üzrə işlər davam etdirilir.

Qeyd edildi ki, layihə əhalinin 2031-ci ilə qədər olan artım proqnozu nəzərə alınaraq işlənmişdir. Rayonda icrada olan su təchizatı sisteminin yenidən qurulması nəticəsində Zaqatala şəhərinin 22 min, 7 kəndin isə 26 min nəfər əhalisinin gün ərzində suya olan tələbatı tam ödəniləcəkdir.

Bildirildi ki, tikintisi başa çatdırılan su mənbələrinin potensialı 75 min əhalinin suya olan tələbatını tam ödəyəcəkdir ki, bu da Zaqatala rayon əhalisinin 50 faizinin 2031-ci ildə içməli su ilə tam təmin edilməsi deməkdir. Laboratoriya araşdırmaları indiki mərhələdə suyun keyfiyyətinin həm beynəlxalq, həm də yerli standartlara tam uyğunluğunu təsdiq etmişdir.

Məlumat verildi ki, Zaqatala şəhərinin su təchizatının yenidən qurulması və kanalizasiya sisteminin yaradılması işləri üç mərhələdə aparılır. Birinci mərhələdə Talaçay su mənbəyinin, magistral boru xətti, su anbarları, xlorlama təsərrüfatı, laboratoriya və digər struktur obyektlərinin tikintisi başa çatdırılmışdır. Bu mərhələdə 6,65 kilometr uzunluğunda magistral su xətti çəkilmişdir. Suqəbuledici qurğular meydançasında keçid məntəqəsi, suqəbuledici kamera, xlorlama və laboratoriya binaları tikilərək avadanlıqla təchiz edilmişdir. Bundan başqa, bir yeni su anbarı tikilmiş, bir anbar isə bərpa olunmuşdur. İkinci mərhələdə Zilbançay su mənbəyi inşa edilmiş və beş kilometr uzunluğunda magistral su xətti çəkilmişdir. Şəhərin iki zonasında su anbarları sahəsi yaradılmışdır. Bu sahələrdəki su anbarları bərpa edilmiş, bir yeni su anbarı inşa olunmuşdur. Həmçinin şəhərin su və kanalizasiya şəbəkələri, kanalizasiya kollektor xətti, yerli Sukanal İdarəsinin istehsalat bazası tikilmişdir. Bütün abonentlər su sayğaçları ilə təmin ediləcəkdir.

Üçüncü mərhələdə çirkab sutəmizləyici qurğular kompleksinin tikintisi və texnoloji sistemlərin quraşdırılması işləri aparılır. Məhsuldarlığı gün ərzində 10 min kubmetrə çatan çirkab sutəmizləyici qurğular kompleksinin potensialı Zaqatala şəhərini və 7 kəndi əhatə edir.

Prezident İlham Əliyevin diqqətinə çatdırıldı ki, müasir texnologiyanın tətbiq olunduğu çirkab sutəmizləyici qurğular kompleksi 2014-cü ilin birinci rübündə istismara veriləcəkdir.

Stendlərlə tanışlıqdan sonra Prezident İlham Əliyev Zaqatala şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.

* * * *

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**
**2013, 17 avqust**

## BİLƏSUVAR ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*(4 sentyabr 2013-cü il)*

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 4-də Biləsuvar şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İlham Əliyev:** Sabahınız xeyir olsun! Sizi ürəkdən salamlayıram və bu gün burada açılacaq böyük layihənin icra edilməsi münasibətilə ürəkdən təbrik edirəm. Bu, böyük tarixi layihədir. Biləsuvar şəhərinin içməli su ilə təminatı artıq bundan sonra 100 faiz təşkil ediləcəkdir. Bu, böyük nailiyyətdir, böyük uğurumuzdur. Bilirəm ki, Biləsuvarda su problemi həmişə olmuşdur, insanları narahat edirdi. Ancaq bundan sonra görülən işlər nəticəsində bu problem tamamilə aradan qaldırılacaq, şəhər 100 faiz su ilə təmin ediləcək və 24 saat ərzində təmiz içməli su veriləcək. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bundan sonra kəndlərə də su xətləri çəkiləcəkdir və beləliklə, uzun illər qalmış bu problemi biz birdəfəlik həll edirik.

Bildiyiniz kimi, təmiz içməli su insanların sağlamlığını təmin edir. Biz isə istəyirik ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, xəstələnməsinlər və Azərbaycanda bütün sahələrdə ən yüksək standartlar tətbiq edilsin. Ona görə içməli su və kanalizasiya xətlərinin çəkilişi bu gün Azərbaycanda hər bir bölgədə icra edilir. Bu bəzi rayonlarda artıq istifadəyə verilmişdir, bəzi rayonlarda icra edilir, bəzi rayonlarda isə hazırlıq işləri gedir. Ancaq Azərbaycanda bir dənə də şəhər qalmayacaq ki, orada 24 saat ərzində içməli su olmasın. Bununla paralel olaraq bir çox kəndlərdə də içməli su layihələri təmin ediləcək, o cümlədən Biləsuvarda. Beləliklə, biz bu insanları həmişə narahat edən ən əsas problemi həll edəcəyik.

Bununla yanaşı, Biləsuvarda digər infrastruktur layihələri, o cümlədən qazlaşdırma layihəsi uğurla icra edilir. Mənə verilən məlumata görə, rayon təqribən 90 faiz qazlaşdırılıbdır. Bu ilin sonuna qədər bir neçə kəndin qazlaşdırılması nəzərdə tutulur. Biləsuvarda qazlaşdırma 100 faiz təmin ediləcəkdir. Yəni bunlar əsas infrastruktur layihələridir ki, Azərbaycan dövləti bunları uğurla, ardıcıllıqla icra edir. Bildiyiniz kimi, bu layihələr böyük maliyyə vəsaiti tələb edir. Bütün maliyyə vəsaiti isə Azərbaycan dövlət büdcəsi hesabına formalaşır və ildən-ilə artan maliyyə imkanlarımız imkan verir ki, biz belə gözəl layihələri icra edək.

Bütün uğurlarımızın təməlində güclü iqtisadiyyat, düşünülmüş iqtisadi siyasət, iqtisadi islahatlar dayanır. Ölkəmiz son 10 il ərzində iqtisadi sahədə dünya miqyasında ən sürətlə inkişaf edən ölkədir. Dünyada 200-dən çox ölkə vardır. Bütün beynəlxalq qurumların hesablamalarına, statistikaya görə, son 10 ildə iqtisadi sahədə Azərbaycan qədər inkişaf edən ikinci ölkə yoxdur. Bütün bunlar reallıqdır və bu reallığın arxasında düşünülmüş siyasət və xalqla iqtidar arasında olan birlik dayanır. Çünki bizim bütün təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir. Bütün təşəbbüslərimiz Azərbaycan xalqının daha da yaxşı yaşamasına yönəldilib. Bu layihələr, o cümlədən digər infrastruktur layihələri bir məqsədi güdür ki, Azərbaycan vətəndaşları rahat yaşasınlar, rifah içində yaşasınlar, bütün sosial problemlər öz həllini tapsın və bütün infrastruktur layihələri ən yüksək səviyyədə təşkil edilsin.

Hər bir şəhərdə, o cümlədən Biləsuvarda içməli su layihələri 2035-ci ilə qədər əhalinin təbii artımını nəzərə almaqla hesablanır. Bildiyimə görə, artıq suyun verilməsi başlanmışdır və yaxın zamanlarda bütün şəhəri əhatə edəcəkdir. Bir sözlə, bu layihə həm əhəmiyyətlidir, həm də böyük rəmzi məna daşıyır. Çünki ancaq müstəqil Azərbaycanda belə layihələr icra edilə bilər. Ancaq müstəqillik dövründə ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilə bilər. Çünki bizim taleyimiz öz əlimizdədir və bu gün Azərbaycan xalqı gündən-günə daha da yaxşı yaşayır, Azərbaycan dövləti daha da möhkəmlənir və regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası bölgələri də canlandırır.

Mən Biləsuvarda dəfələrlə olmuşam. Əvvəlki dövrlərdə də, prezidentlik dövrümdə də olmuşam. Bu mənim prezident kimi, 4-cü səfərimdir. Burada gedən abadlıq-quruculuq işləri məni sevindirir. Əminəm ki, sizi də sevindirir. İndiki Biləsuvar əvvəlki ilə müqayisəedilməz dərəcədə inkişaf edibdir. Gözəl şəhər yaradılıbdır. Gözəl binalar tikilir, küçələr abadlaşıb. Bax, bu meydan yox idi. Yeni tikilib. Yəni hər şey etmək mümkündür. Gözəl Heydər Əliyev Mərkəzi, icra hakimiyyətinin yeni binası, park. Yəni hər şey insanlar üçün edilir. Bizim şəhərlərimiz deyə bilərəm ki, sürətlə abadlaşır, yeni görkəm alır. İnsanların rahatlığı üçün işlər görülür. Əvvəlki dövrdə də Biləsuvarda müxtəlif layihələr icra edilmişdir. Olimpiya Mərkəzi, məktəblər tikilmişdir, zavodlar işə salınmışdır, iş yerləri açılmışdır. Kənd yolları tikilmişdir. 2 böyük kənd yolu layihəsi icra edilir.

Kənd yolları problemi Biləsuvarda tam şəkildə həll ediləcəkdir. Qazlaşdırma dediyim kimi, 90 faizdir, 100 faizə çatacaqdır. İçməli su şəhəri tam əhatə edəcəkdir, kəndlərə də çəkiləcəkdir. Budur bizim bugünkü reallıqlarımız. Biləsuvarın timsalında biz regionların inkişafını, dövlət siyasətinin nəticələrini görürük. Əlbəttə ki, bütün bu layihələrin içərisində insanların sağlamlığına xidmət edən layihə xüsusi yer tutur. Bax, bu layihə onların arasında bəlkə də ən önəmlisidir.

Bilirəm ki, Biləsuvarda Rayon Mərkəzi Xəstəxanasının vəziyyəti o qədər də yaxşı deyil. Biz xəstəxananın təmirini də təşkil edəcəyik. Azərbaycanda bir dənə də gözəl xəstəxanası olmayan şəhər olmamalıdır. İndi ətraf bölgələrdə də, rayonlarda da xəstəxanalar tikilib və təmir edilib. Biləsuvarda da bu iş görüləcəkdir.

Əlavə hər hansı bir təklifiniz, xahişiniz olarsa, siz mənə, əlbəttə ki, yerli icra orqanlarına çatdırın ki, biz növbəti investisiya proqramlarımızda bütün bunları nəzərə alaq. Çünki bizim vəzifəmiz insanlara xidmət etməkdir. Bu gün güclənən Azərbaycan bir daha demək istəyirəm ki, bütün görülən işlərin məntiqi nəticəsidir. Bir daha sizi salamlayıram və gözəl hadisə münasibətilə təbrik edirəm.

**X o ş b ə x t  A ğ a y e v a** *(Rayon Mərkəzi Xəstəxanasının həkimi):* Cənab Prezident, icazə verin, Sizi bütün Biləsuvar ictimaiyyəti adından salamlayım. Doğma Biləsuvarımıza xoş gəlmisiniz! Bu gün biləsuvarlıların həyatında möhtəşəm bir gündür. Bu gün Siz biləsuvarlılara təmiz içməli su verəcəksiniz. Su həyat, təmizlik, sağlamlıq deməkdir. Siz bununla minlərlə biləsuvarlılara həyat verəcəksiniz, sağlamlıq verəcəksiniz.

İcazə verin, bu böyük problemi həll etdiyinizə görə Sizə bütün biləsuvarlıların adından dərin minnətdarlığımı bildirim.

Mən onu qeyd etməliyəm ki, bu bir ənənə halını almışdır, Siz bölgələrimizə, regionlarımıza səfərlər edirsiniz. Bu cür açılışlarda vaxtınızın az olmağına baxmayaraq, şəxsən özünüz iştirak edirsiniz. Bu gün olduğu kimi, insanların sevincinə şərik olursunuz, onlarla bu sevinci bölüşürsünüz. Bu da onu göstərir ki, Siz xalqa nə qədər yaxınsınız və xalqın qayğısına nə qədər qalırsınız. Bu bizim insanlarda yüksək əhval-ruhiyyə yaradır.

Möhtərəm Prezidentimiz, bizə məlumdur ki, Biləsuvar son 10 ildə çox sürətlə inkişaf etmiş, simasını olduqca dəyişmiş, füsunkar bir bölgəyə çevrilmişdir. Bu gün Biləsuvarda yeni-yeni yollar çəkilir, abadlıq işləri gedir. Müasir üslubda salınan parklar, yaşayış məntəqələri insanlara xüsusi zövq, xüsusi rahatlıq verir. Bu inkişaf, bu tərəqqi son 10 ildə təkcə Biləsuvarda deyil, bütün Azərbaycanımızda getmişdir. Azərbaycan son 10 ildə simasını olduqca dəyişmiş, çox qüdrətli bir ölkəyə çevrilmişdir. Biz bu qüdrətli ölkənin vətəndaşları olmağımızdan qürur duyuruq. Bütün bunlar isə Sizin gərgin əməyinizin, yorulmaz fəaliyyətinizin nəticəsidir.

Cənab Prezident, bütün Azərbaycan xalqı kimi, biləsuvarlılar da, bax, bu əmin-amanlığın, bu sabitliyin, bu inkişafın, bu tərəqqinin davamını istəyirlər. Bunu bizə yalnız Siz verə bilərsiniz və verəcəksiniz də.

Mən isə biləsuvarlılar adından Sizi əmin edirəm ki, biz həmişə Sizinlə olmuşuq, bundan sonra da Sizinlə olacağıq. Ulu Tanrı Sizi qorusun!

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən burada köhnə dostumu da görürəm. Gərək onunla görüşəm. 2000-ci ildə parlament seçkiləri ərəfəsində, mən o vaxt seçki kampaniyasında Yeni Azərbaycan Partiyasının rəhbəri kimi iştirak edirdim, bölgələri gəzirdim. Yadımdadır, cənub zonasına gedirdim. Bu yoldaş durmuşdu yolda, məni salamlayırdı və mən də maşını saxladım, tanış olduq. O vaxtdan bu günə qədər, 10 ildən çoxdur ki, bizim dostluğumuz davam edir. Çoxdandır görməmişəm. Dəyərli, sədaqətli insandır. Şadam ki, həmişə olduğu kimi, fəalların içərisindəsən.

* * * *

*Sonra prezident İlham Əliyev Biləsuvar şəhərinin su təchizatı sisteminin, Şirvan–Muğan qrup su kəmərinin baş planları və texniki göstəricilərini əks etdirən stendlərə baxdı.*

*Layihə barədə məlumat verən «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov bildirdi ki, Biləsuvar şəhəri içməli su ilə Araz çayından çəkilən «Cənub» kanalından təmin olunurdu. Şəhərdə sutəmizləyici qurğu olmadığından kanal suyu çökdürülərək əhaliyə verilirdi. Şəhərin 21 min sakininin təxminən 50 faizinə yerli Sukanal İdarəsi tərəfindən xidmət göstərilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Şəhər əhalisinə içməli su həftənin 5 günü cədvəl üzrə 7-8 saat ərzində verilirdi. İstismarda olan su xətləri isə yararsız vəziyyətdə idi. Kanalizasiya sistemi, ümumiyyətlə, olmamışdır.*

*Sonra dövlətimizin başçısına «Biləsuvar şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi haqqında məlumat verildi. Qeyd olundu ki, layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla, 26 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanmışdır. Layihəyə əsasən Biləsuvar şəhərinə içməli su yeni mənbədən – Şirvan–Muğan qrup su kəmərindən verilir. Bu məqsədlə Salyan şəhəri yaxınlığındakı anbardan 57 kilometr uzunluğunda özüaxımlı magistral su kəməri çəkilmişdir. Biləsuvar şəhərini fasiləsiz rejimdə içməli su ilə təmin etmək üçün ümumi tutumu 10 min kubmetr olan 2 su anbarı tikilib. Yeni layihəyə əsasən şəhərə saniyədə 158 litr su veriləcəkdir ki, bu da istehlakçıların tələbatını tam ödəyəcəkdir. Biləsuvar şəhərində 89 kilometrlik paylayıcı su şəbəkəsində işlər tam yekunlaşıb, 4430 ünvanın hamısı yeni şəbəkəyə qoşulub. Layihəyə uyğun olaraq Biləsuvar şəhərində ilk dəfə kanalizasiya şəbəkəsi yaradılır. 88 kilometr kanalizasiya şəbəkəsinin 70 kilometrlik hissəsinin tikintisi başa çatmış, 3 kilometr uzunluğunda mikrotunel tipli kanalizasiya kollektorunun tikintisi davam etdirilir. Tullantı suları şəhərin kənarında tikiləcək çirkab sutəmizləyici qurğuya ötürüləcəkdir. İcrasına 2011-ci ilin oktyabrında başlanılan və dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilən layihə 2014-cü ildə tam başa çatdırılacaqdır. Biləsuvar şəhərini içməli su ilə təmin edən Şirvan–Muğan qrup su kəməri rayonun 24 kəndini də içməli su ilə təmin edəcəkdir.*

*Prezident İlham Əliyevə Şirvan–Muğan qrup su kəməri haqqında da məlumat verildi. Kəmərin təməli 2012-ci il iyulun 16-da prezident İlham Əliyev tərəfindən qoyulub. Kür və Bakı su kəmərləri ilə nəql edilən suyun bir hissəsi Şirvan–Muğan qrup su kəməri vasitəsilə Hacıqabul, Şirvan, Salyan, Neftçala və Biləsuvar şəhərlərinin, həmçinin həmin rayonların 121 kəndinin tələbatının ödənilməsinə imkan verəcəkdir. Kəmərin istismara verilməsi ilə 470 min əhali fasiləsiz keyfiyyətli içməli su ilə təmin olunacaqdır. Artıq 2013-cü ilin aprelindən Hacıqabul, iyulundan isə Şirvan şəhərinə bu kəmər vasitəsilə su verilir.*

*Layihələrlə tanışlıqdan sonra prezident İlham Əliyev Biləsuvar şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 58-ci kitab: iyul 2013 - sentyabr 2013. - Bakı: Azərnəşr, 2018, S. 304-309.**

## YARDIMLI ŞƏHƏRİNƏ İÇMƏLİ SU VERİLMİŞDİR
*(4 sentyabr 2013-cü il)*

Sentyabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yardımlı şəhərinə çəkilmiş yeni içməli su xəttinin açılışı münasibətilə Gənclər Parkında təşkil olunan mərasimdə iştirak etmişdir.

Əvvəlcə dövlətimizin başçısına parkda görülən işlərlə bağlı məlumat verildi. Qeyd olundu ki, bu ilin avqustunda parkda başlanmış tikinti işləri hazırda davam etdirilir. Parkın ümumi ərazisi yarım hektardır. Burada istirahət köşkləri tikilmiş, geniş yaşıllıq sahəsi yaradılmış, müasir fəvvarə tikilmişdir.

Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Mərasim iştirakçılarını salamlayan **Prezident İlham ƏLİYEV dedi:**

- Yenidən Yardımlıda olmağımdan çox şadam. Bu, Yardımlıya mənim prezident kimi artıq üçüncü səfərimdir. Buraya gələrkən birinci səfərimi xatırlayırdım. O vaxt - 2005-ci ildə biz Masallı-Yardımlı yolunun yenidən qurulmasını qeyd edirdik. O vaxt bu, böyük layihə idi. Çünki yol o qədər də yaxşı vəziyyətdə deyildi. Yeni yol çəkildi. Ondan sonra 2006-cı ildə Yardımlıya təbii qazın verilməsini qeyd etmişik. O da tarixi bir gün idi. Çünki heç sovet dövründə də buraya təbii qaz verilməmişdi. O vaxt xətlər çəkildi. Bu gün məndə olan məlumata görə, Yardımlı şəhərinin böyük hissəsi qazlaşdırılıbdır. Bir neçə kənddə də qaz xətləri çəkilibdir. Gələcəkdə əlbəttə ki, tam şəkildə qazlaşdırma aparılacaqdır. Bu gün isə biz növbəti vacib layihənin icrasını - Yardımlıya içməli suyun verilməsini qeyd edirik.

Yəni, baxın bu tarix özlüyündə bir göstəricidir. Yol, qaz və içməli su həyatdır. Təmiz içməli su isə sağlam həyat deməkdir. İndi verilən məlumata görə, bütün xətlər artıq bu ilin sonuna qədər qurulacaqdır. Gələn ildən başlayaraq Yardımlı şəhərinin içməli su problemi tam şəkildə öz həllini tapacaqdır. Bununla bərabər, yerli icra orqanları kənd yerlərində su xətlərinin çəkilişi ilə məşğuldurlar. Bu da çox gözəl bir təşəbbüsdür. Mən bunu dəstəkləyirəm, alqışlayıram. Elə etməliyik ki, əsas infrastruktur layihələri icra edilsin. Eyni zamanda, bu gün biz kənd yolunun açılışını qeyd edəcəyik. Yeni elektrik xətlərinin çəkilişi də başlamışdır. Çünki Yardımlıda bərk külək əsəndə köhnə dirəklər yıxılır, elektrik kəsilir. İndi yeni, möhkəm dayaqlar tikilir ki, artıq bu problem də olmayacaqdır.

Bütün bu əsas layihələr insanların rahat yaşaması üçün icra edilir. Bu təşəbbüslər əminəm ki, xalq tərəfindən də yüksək qiymətləndirilir. Çünki rayon qarşısında duran əsas infrastruktur məsələləri qısa müddət ərzində öz həllini tapır. Əlbəttə ki, gələcəkdə görüləsi işlər çoxdur. Biz bütün bu işləri davam etdirməliyik. Xüsusilə növbəti illərdə sahibkarlığın inkişafı ilə bağlı daha da böyük tədbirlər görülməlidir. Ölkə üzrə bütövlükdə sahibkarlıq sürətlə inkişaf edir. Yeni kənd təsərrüfatı müəssisələri yaradılır. Hesab edirəm ki, Yardımlı rayonunda da bu istiqamətdə əlavə tədbirlər görülməlidir. Kənd sakinlərinə maliyyə yardımı göstərilməlidir ki, onlar daha da böyük şəkildə və özləri üçün daha da səmərəli qaydada bizneslə məşğul ola bilsinlər.

İçməli su layihəsi isə rəmzi xarakter daşıyır. Çünki bu, ilk növbədə Azərbaycan dövlətinin gücünü göstərir. Digər tərəfdən, Azərbaycanın dövlət siyasətini göstərir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. İçməli su insan orqanizmi üçün əsas məsələdir. Ona görə, Yardımlıya təmiz içməli suyun çəkilməsi xüsusi əhəmiyyət daşıyır. Yardımlı dağlıq rayondur. Burada da başqa yerlərdə olduğu kimi bütün infrastruktur layihələri icra edilir və edilməlidir. Dediyim kimi, son yeddi-səkkiz ilin tarixi onu göstərir. Yol, işıq, qaz, su, əlbəttə ki, rayonun abadlığı. Bu istiqamətdə də işlər görülübdür. Yardımlı inkişaf edir. Gözəl binalar tikilir. Bu gün Heydər Əliyev Mərkəzinin açılışını qeyd etdik. Əvvəlki

səfərlərimdə məktəblər, uşaq bağçaları açılmışdır. İndi buna ehtiyac vardır. Gələcəkdə bu işlər də görüləcəkdir.

Mən bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı arzulayıram. Gələcəkdə bizim görüşlərimiz hələ çox olacaqdır. Çünki Yardımlıda başqa müxtəlif layihələr də icra ediləcəkdir. Bütün açılışlarda bərabər olacağıq.

SAKİNLƏR: İnşallah.

* * * *

Yardımlının inkişafına göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən rayon sakini Feyruz SULTANOV dedi:

- Hörmətli cənab Prezident, Yardımlıya xoş gəlmisiniz. Yardımlılar Sizi ürəkdən sevir, sizin fəaliyyətinizi bəyənir və Sizinlə birlikdədirlər. Sizin bugünkü gəlişiniz isə elə bir vacib məsələyə həsr olunub ki, bu, həm savabdır, həm də xalqın Sizə duası bəsdir. Bundan əvvəl qadınlar, uşaqlar, gənclər istifadə etmək üçün müxtəlif mənbələrdən mənşəyi bilinməyən su daşıyırdılar. Əhalimiz keyfiyyətsiz sudan istifadə etməyə məcbur idilər. İndi isə Siz bu gəlişinizlə yardımlılılara böyük töhfə verirsiniz – təmiz, saf suyun açılışını edirsiniz. Saf su isə insan orqanizmi üçün əvəzolunmaz bir nemətdir. Allah Sizi qorusun, Allah Sizə cansağlığı versin, işiniz avand olsun.

Hörmətli cənab Prezident! Yardımlı durmadan inkişaf edir. Yardımlı simasını dəyişib. Sizin sayənizdə yeni parklar, yeni küçələr, yeni evlər, yeni inzibati binalar tikilir. Ona görə bir daha təkrar edirəm ki, yardımlılılar Sizi çox sevirlər. Yardımlı inkişaf edib, gözəlləşib, tanınmaz dərəcədə dəyişib. Respublikamızın inkişafı göz qabağındadır. Bunu inkar etmək olmaz. Bunu artıq bizim xarici dostlarımız da, bizi istəməyən dövlətlər də qeyd edirlər. Azərbaycan sürətlə inkişaf edir. Biz bundan sonrakı, fəaliyyətimizdə balalarımızın, nəvələrimizin firavan yaşayışını da məhz Sizin rəhbərliyiniz altında görmək istəyirik. Bu belə də olacaqdır. Siz uzun illər bizim rəhbərimiz olacaqsınız və biz də Sizin ətrafınızda varıq. Yardımlıya xoş gəlmisiniz, Allah Sizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm, doğrudan da, böyük hadisədir. Bir daha demək istəyirəm ki, Yardımlıda görülən işlər məni çox sevindirir. Çünki vaxtilə burada başlanmış bu proqram uğurla icra edilir. Rayon inkişaf edir. Rayonun böyük potensialı vardır. Mən çox şadam ki, biz həm qazın, həm içməli suyun çəkilişinə nail olduq, elektrik xətləri çəkilibdir. Gələcəkdə Olimpiya İdman Mərkəzinin, digər sosial obyektlərin tikintisi nəzərdə tutulur. Hələ qəzalı vəziyyətdə olan məktəblər vardır. Onların hamısı əsaslı şəkildə təmir ediləcəkdir. Yəni, siz bilirsiniz ki, hər bir rayon üçün konkret proqram vardır. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının tərkibində Yardımlının inkişafı nəzərdə tutulub. Son on il ərzində bu proqram artıqlaması ilə icra edilibdir. Deyə bilərəm ki, iki dövlət proqramında nəzərdə tutulmuş bütün məsələlər həll olunur. Bunu Yardımlının timsalında görə bilərik.

Ancaq hələ həll olunmalı məsələlər vardır. Biz onları bilirik. Rayonlara, bölgələrə səfərlərimin səbəblərindən biri də ondan ibarətdir ki, biz bu problemləri aşkar edək, mən sizdən eşidim əlavə nə etmək lazımdır. Hansı məsələlər insanları narahat edir, növbəti illərdə onları da həll edək. Çünki biz indi uğurla inkişaf edirik. Belə güclü iqtisadiyyat yaratmışıq ki, biz istənilən məsələni həll edə bilək. Biz dağlara yollar, su və qaz xətləri çəkirik. Elə məsələ yoxdur ki, biz onu həll edə bilməyək. Çünki güclü iqtisadiyyat yarada bilmişik. Bu iqtisadiyyat imkan verir ki, biz sosial məsələlərin həllinə də vəsait ayıraq. Bax bütün bu layihələr böyük vəsait tələb edir. Bu dağlarda çəkilən su, qaz, elektrik xətləri,

yollar - bütün bunlar dövlət büdcəsi, yaxud da ki, Prezidentin ehtiyat fondu hesabına, - o da dövlət büdcəsinin bir hissəsidir - reallaşır. Güclü iqtisadiyyat olmasa, bu layihələr icra edilə bilməz. Bu gün Azərbaycan elə bir sürətlə inkişaf edir ki, istənilən məsələ öz həllini tapa bilər. Təki biz bilək ki, hansı məsələlər vardır və onlar necə həll edilməlidir. İnsanları narahat edən əsas məsələlər nədir ki, onlar öz həllini tapsın. Bax, indi hazırlanan üçüncü regional inkişaf proqramı da daha çox yerlərdən gələn təkliflər əsasında tərtib olunacaq və 2014-2018-ci illəri əhatə edəcəkdir. Çalışmaq lazımdır ki, qalan bütün sosial infrastruktur məsələlər növbəti beş il ərzində öz həllini tapsın.

Yardımlı rayonunda görüləcək işlər haqqında əlbəttə ki, siz daha yaxşı bilirsiniz. Hansı işlərin görülməsi barədə bizə vaxtaşırı məlumat verilir. Bundan sonra da veriləcəkdir. Növbəti proqramlarımızda bütün bu təkliflər nəzərə alınacaq ki, burada işlər daha da yaxşı getsin, insanlar rahat yaşasınlar. Bu layihə, siz də həkim kimi bir daha qeyd etdiniz, insan sağlamlığı üçün başlıca şərtdir. Burada insanın sağlamlığı üçün bütün imkanlar vardır. Gözəl təbiət, dağ havası, meşələr, təmiz ərzaq məhsulları, təkcə içməli su çatmırdı, bunu da biz bu gün həll etdik. Gələcəkdə də çox görüşəcəyik.

* * * *

Sonra Prezident İlham Əliyev Yardımlı rayonunun su təchizatının və kanalizasiya sisteminin yenidən qurulmasının texniki göstəriciləri, şəhərin su təchizatı sisteminin baş planını əks etdirən stendlərlə tanış oldu.

Dövlətimizin başçısına məlumat verən "Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə bildirdi ki, Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri üzrə İkinci Layihə çərçivəsində Yardımlı rayonunda su təchizatı və kanalizasiya şəbəkəsi, çirkab su təmizləyici qurğunun tikintisi və yenidənqurma işləri həyata keçirilir. Layihənin birinci mərhələsində rayon mərkəzini təchiz edən magistral içməli su xətti və diametri 300-400 millimetr olan kanalizasiya kollektorunun çəkilməsi, qalan digər işlərin isə 2014-cü ildə yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Əhalini içməli su ilə təmin etmək məqsədilə Yardımlı rayonu ərazisində yerləşən Viləşçayın məcraaltı sularından istifadə olunur. Həmin ərazidə yerləşən Avun kəndindəki mövcud sugötürücü qurğudan Yardımlı şəhərini təchiz edən 8630 metr uzunluğunda magistral su xəttinin tikintisi başa çatmışdır. Şəhərin mərkəzində 6520 metr uzunluğunda baş kanalizasiya kollektoru inşa edilmişdir. Layihəyə əsasən şəhərə 24 saat ərzində adambaşına 150 litr həcmində fasiləsiz içməli suyun verilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə, Yardımlı şəhərinin su təchizatı və kanalizasiya sisteminin tam olaraq yenidən qurulması işləri həyata keçirilir. Bunun üçün Yardımlı rayon mərkəzində 63,5 min metr su xəttinin çəkilməsi, yanğın hidrantlarının, içməli su ev birləşmələrinin quraşdırılması, 59,5 min metr kanalizasiya xəttinin çəkilməsi, 13 su anbarının tikilməsi və digər tədbirlər nəzərdə tutulmuşdur. Gücü 8500 əhali ekvivalentli olan çirkab su təmizləyici qurğunun daha müasir qurğu ilə əvəz olunması üçün müvafiq layihədə dəyişikliklər aparılmışdır və qurğunun tikintisi davam etdirilir.

Prezident İlham Əliyev Yardımlı rayonuna içməli suyun verilməsini bildirən düyməni basdı.

* * * *

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**
**2013, 4 sentyabr**

# NAFTALAN ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİ OLMUŞDUR

*(10 sentyabr 2013-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Naftalan şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısı əvvəlcə Naftalan şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Rayon ictimaiyyətinin nümayəndələrini təbrik edən **Prezident İlham ƏLİYEV dedi:**

- Sizi ürəkdən salamlayıram. Bu gün Naftalan şəhərində əlamətdar hadisə baş verir – içməli su layihəsinin açılışını qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Əminəm ki, bu layihə Naftalan sakinləri üçün çox önəmli olacaqdır.

Azərbaycanda hər bir yerdə içməli su layihələri icra edilir. Müxtəlif şəhərlərdə biz artıq içməli suyun verilməsinə nail ola bilmişik. Bəzi yerlərdə icra edilir, bəzi yerlərdə isə hazırlıq işləri gedir. Ancaq bu önəmli layihələrin icra edilməsi tam şəkildə təmin ediləcəkdir. İçməli su insanın sağlamlığı üçün əsas amildir. Dövlət hesabına icra edilən bu layihələr insanların sağlamlığına böyük bir töhfədir, güclü sosial siyasətin əlamətidir. Bildiyiniz kimi, mən son aylar, həftələr ərzində ölkəmizin müxtəlif yerlərində içməli su, kanalizasiya layihələrinin açılışlarında iştirak edirəm. Bu gün Naftalanda da bu gözəl hadisə baş verir. Əminəm ki, biz yaxın zamanlarda bütün şəhərlərimizdə təmiz içməli suyun verilməsinə nail olacağıq. Bir daha demək istəyirəm ki, bu, sırf insanların sağlamlığına verilən töhfədir. Ancaq yəqin bilirsiniz ki, bu layihələr böyük vəsait tələb edir. Azərbaycan dövləti dövlət büdcəsi hesabına bu vəsaiti ayırır ki, insanlar sağlam olsunlar, xəstələnməsinlər və təmiz içməli su ilə təmin edilsinlər. Standartlar da ən yüksək səviyyədədir. Bütün işlər Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun şəkildə görülür. Beləliklə, bu vacib infrastruktur layihəsi Naftalanda icra edilmiş olur.

Şəhərdə digər infrastruktur layihələri uğurla icra edilir - yollar çəkilir. Naftalanda qazlaşdırma 100 faiz təmin edilmişdir. Yəni, bir dənə də olsun qazlaşdırılmayan yer yoxdur. Bu da önəmli hadisədir. Növbəti illərdə şəhərin inkişafı üçün əlavə tədbirlərin görülməsi də nəzərdə tutulur.

Bu, mənim Naftalana üçüncü səfərimdir. Çox şadam ki, şəhərdə böyük abadlıq işləri aparılır. Bu meydan tamamilə yeni görkəm almışdır. Gözəl Heydər Əliyev Mərkəzi tikilmişdir. İndi onun açılışını edəcəyik. Şəhərin abadlaşması, küçələrin salınması, parkların yaradılması məni sevindirir, xüsusilə Naftalan kimi gözəl təbiəti olan bir yerdə. Vaxtilə burada şəhər planlaşdırılanda şəhərsalma işləri çox böyük məharətlə aparılmışdır. Ona görə, sadəcə olaraq indiki dövrdə biz vaxtilə yararsız vəziyyətə düşmüş binaları bərpa etməliyik. Bütün xiyabanları, yolları abadlaşdırmalıyıq və şəhəri dünya səviyyəli, ən müasir şəhərlər sırasına daxil etməliyik.

Vaxtilə, bildiyiniz kimi, Naftalan ümumittifaq kurortu olmuşdur. Burada fəaliyyət göstərən sanatoriyalar on minlərlə insana xidmət edirdi. Sovet İttifaqının müxtəlif yerlərindən buraya böyük bir axın var idi. Naftalan məhz buna görə vaxtilə şəhər statusu almışdı. Ondan sonra, bildiyiniz kimi, bu sahə bir qədər geridə qalmışdı. Erməni işğalından əziyyət çəkən köçkünlər buraya köçmüşlər. Bütün sanatoriyalarda onlar məskunlaşmışlar. Bu da təbiidir. Çünki ilk növbədə, ən ağır vəziyyətdə olan soydaşlarımızın problemləri həll olunmalı idi. Ancaq bu gün bu problem də həll olunmuşdur. Vaxtilə Naftalanda məskunlaşmış köçkünləri biz yeni evlərlə, mənzillərlə təmin etdik və boşaldılan sanatoriyalarda indi yeni otellər yaradılır.

Yeni istirahət mərkəzləri açılır. Keçən dəfə burada olarkən biz "Çinar" və "Qaşaltı" sanatoriyalarının açılışını qeyd etdik. Bu gün isə "Qarabağ" sanatoriyasının təmiri ilə tanış

olacağam. Çox şadam ki, mənim vaxtilə dediyim sözlər, təkliflər reallaşır. Mən demişdim ki, vaxtilə fəaliyyət göstərmiş bütün sanatoriyalar yenidən qurulmalıdır, bərpa edilməlidir. Harada bərpa işləri mümkün deyil, yenidən tikilməlidir və biz Naftalanı artıq dünya səviyyəli beynəlxalq kurort şəhərinə çevirməliyik. Buna tədricən nail oluruq. Çünki artıq "Qarabağ" sanatoriyası, daha doğrusu, yeni "Qarabağ" oteli işə düşəndən sonra burada artıq üç böyük istirahət mərkəzi olacaqdır ki, onların üçü də ən yüksək dünya standartlarına cavab verir. Beləliklə, biz Naftalanın keçmiş şöhrətini daha da yüksək səviyyədə, daha da müasir və keyfiyyətli səviyyədə bərpa edəcəyik. Bununla yanaşı, əlbəttə ki, şəhərin bütün başqa infrastruktur layihələri də öz həllini tapmalıdır və tapır. Dediyim kimi, qazlaşdırma 100 faiz, içməli su təmin edilir. Burada çoxlu yaşayış binası vardır. Onların hamısı təmir ediləcəkdir. Bir neçəsi artıq təmir edilib. Burada bir dənə də olsun təmirsiz bina olmayacaqdır.

Naftalan böyük şəhər deyildir. Əhalinin sayı təxminən 9 mindən çoxdur. Ona görə, burada bütün strategiyamız 100 faiz reallaşacaqdır və reallaşır, özü də qısa müddət ərzində. Burada sosial infrastrukturun yaradılması istiqamətində işlər görülür. Uşaq bağçası tikilmişdir. Məktəblər təmir olunmalıdır və eyni zamanda, şəhər xəstəxanasının da təmirinə ehtiyac vardır. Yəqin ki, bu məsələ də yaxın zamanlarda öz həllini tapacaqdır. Bir sözlə, şəhərin inkişafı üçün bundan sonra da bütün lazımi tədbirlər görüləcəkdir, dövlət vəsaiti ayrılacaqdır.

Bir daha demək istəyirəm ki, Naftalan Azərbaycanda artıq turizm mərkəzlərindən birinə çevrilir. Ümumiyyətlə, ölkəmizdə turizmin inkişafı üçün böyük potensial vardır. Ölkəmiz çox gözəl ölkədir, gözəl təbiəti, iqlimi vardır. Görməli yerlər çoxdur. Artıq Azərbaycanda bir neçə turizm mərkəzi formalaşır. Əlbəttə ki, birinci mərkəz Bakı şəhəridir. Bakı şəhərində son iki il ərzində beşulduzlu altı otel istifadəyə verilmişdir. Heç bir başqa şəhərdə iki il ərzində beşulduzlu altı otel açılmır. Naftalanda artıq üçüncü otel təmir edilir. "Şahdağ" kurort zonasında altı otel fəaliyyət göstərəcəkdir. Üç beşulduzlu otel bu mövsüm üçün hazır olacaqdır.

Qəbələ turizm mərkəzinə çevrilibdir. Şəki, Lənkəran, Qalaaltı - vaxtilə o da məşhur bir turizm yeri idi. Orada müalicəvi su böyük əhəmiyyətə malikdir. Ora da bərpa edilir. Yəni, ölkəmizin müxtəlif yerlərində istənilən müalicəni almaq üçün imkanlar vardır. Yeni infrastruktur yarandıqda əlbəttə ki, turistlərin sayı daha da artacaqdır.

Bildiyimə görə, fəaliyyət göstərən yeni otellərə artıq turistlərin gəlişi artır. Daha da artacaqdır. Yəni, burada daha çox reklam işi düzgün qurulmalıdır. Çünki indi dünyada turistləri cəlb etmək üçün ölkələr arasında rəqabət gedir. Yəni, turistlərin gəlişi, əlbəttə ki, hər bir ölkənin iqtisadiyyatına bir töhfə olur. Mən inanıram ki, yaxın gələcəkdə Naftalan haqqında dünyada çox geniş məlumat olacaqdır. Əlbəttə ki, burada xidmətin səviyyəsi yüksək və bütün infrastruktur gözəl olmalıdır. Hər şey gözəl olmalıdır. Müasir, yüksək səviyyədə, necə ki, Azərbaycanın hər bir yerində biz buna nail oluruq. Bu layihə isə bir daha demək istəyirəm ki, sırf sosial məna daşıyır, insanların sağlamlığı, rahatlığı və xoşbəxt gələcəyi üçün. Bir daha sizi ürəkdən salamlayıram. Bu gözəl hadisə münasibətilə təbrik edirəm.

* * * *

Prezident İlham Əliyevə şəhərin inkişafına göstərdiyi diqqətə görə minnətdarlığını çatdıran Naftalan Sanatoriya-Kurort Birliyinin baş həkimi Hatəm QOCAYEV dedi:

- Cənab Prezident, şəhərimizə xoş gəlmisiniz. Bizim şəhərə növbəti səfərinizdir. İnfrastrukturumuz nə qədər dəyişibdir.

Prezident İlham ƏLİYEV: Çox dəyişib. Bu meydanı tanımaq mümkün deyildir. Mən birinci dəfə gələndə tam başqa cür idi. Burada balaca bir muzey var idi. Bax, meydan bu cür deyildi. İndi ən gözəl meydanlardan biridir. O tərəfə də getmişdik. Orada küçələr o vaxt salınmışdı.

Hatəm QOCAYEV: Bəli. İndi şəhərdə hər şey dəyişib. Çox gözəldir. Yeni sanatoriyalar tikilib istifadəyə verilmişdir. Çox yaxşı haldır ki, biz bu gün ən mötəbər qonaqları qəbul edə bilirik, cənab Prezident. Müalicəyə gələnlərin sayı gündən-günə artır.

Prezident İlham ƏLİYEV: Daha çox haradan gəlirlər? Xaricdən, yoxsa Azərbaycandan?

Hatəm QOCAYEV: Xaricdən də gələnlər vardır. Keçən il altı ayda üç mindən çox adam müalicəyə gəlmişdi. Bu ilin altı ayında artıq altı mini keçib.

Prezident İlham ƏLİYEV: Altı ayda altı min.

Hatəm QOCAYEV: Bəli, bunların 1500 nəfərə yaxını xarici vətəndaşlardır.

Prezident İlham ƏLİYEV: Sovet dövründə təxminən 50-60 min nəfər gəlirdi.

Hatəm QOCAYEV: Bəli, 75 minə qədər gəlirdi.

Prezident İlham ƏLİYEV: O vaxt yollayışlar var idi. İnsanlar yollayışlara pul ödəmədən gəlirdilər. İndi gələnlər pul ödəyirlər.

Hatəm QOCAYEV: Pul ödəyirlər, əlbəttə. Bu, çox böyük işdir, cənab Prezident. Allah Sizə cansağlığı versin. Bunlar Sizin sayənizdə, Sizin göstərişinizlə olur. Yeni “Qarabağ” sanatoriyası da tikilir.

Prezident İlham ƏLİYEV: Bu, həm də burada yaşayanlar üçün iş yerləridir.

Hatəm QOCAYEV: Bəli. Əlbəttə iş yerləridir. İnsanların rifah halı artıb. Naftalanda demək olar ki, işsizlik yoxdur.

Prezident İlham ƏLİYEV: Mənim yadımdadır ki, birinci dəfə buraya gələndə vəziyyət o qədər də ürəkaçan deyildi. Şəhər yarıdağılmış vəziyyətdə idi. Bütün binalar, küçələr bərbad idi, işıq yox idi. Elə bil ki, dağılmış bir şəhərə gəlmişdim.

Hatəm QOCAYEV: İndi heç bir problemimiz yoxdur.

Prezident İlham ƏLİYEV: Amma indi gördüm ki, nə qədər gözəl şəhər olubdur. Necə düzgün planlaşdırılıbdır. Mən özüm də çıxışımda dedim ki, burada şəhərsalma düzgün aparılmışdır. Sadəcə olaraq, biz onları bərpa etməli, yeni infrastrukturla müasir səviyyəyə gətirməli idik. Bu gün hələ bir neçə bina vardır ki, şəhərin ümumi inkişafına uyğun gəlmir. Amma yəqin ki, investorlar bu binaları da təmir edəcəklər. Çünki burada bir dənə də yararsız bina olmamalıdır.

Hatəm QOCAYEV: Çox sağ olun, cənab Prezident. Sizə minnətdarıq. Sizin diqqətiniz sayəsində. Bu, göstərir ki, Siz xalqımıza nə qədər diqqət göstərirsiniz. Allah Sizə cansağlığı versin.

Prezident İlham ƏLİYEV: Çox sağ olun.

“Qaşaltı” sanatoriyasının həkimi Şahin BABAYEV Prezident İlham Əliyevə Naftalanın inkişafına göstərdiyi diqqət və qayğıya görə minnətdarlıq edərək dedi:

- Möhtərəm cənab Prezident. Bir az öncə söylədiyiniz kimi, bu gün gözəl bir layihə həyata keçirilir. Şəhərimiz hər zaman içməli sudan çox əziyyət çəkirdi. Gün ərzində 3-4 saat fasilələrlə içməli su verilirdi. Sizin diqqət və qayğınız nəticəsində çox qısa bir zamanda şəhərimizə içməli bulaq suyu çəkildi. Artıq şəhər əhalisi 24 saat ərzində daimi olaraq içməli su ilə təmin olunur.

Bir daha bütün naftalanlılar adından Sizə dərin təşəkkürümüzü bildirirəm.

Naftalan durmadan inkişaf edir, bütün bölgəmizdə gedən inkişaf kimi. Bu, bir reallıqdır, bizi sevindirir. Sevindirir ona görə ki, ölkəmizin taleyi Sizinlə bağlıdır. Bir daha Sizə təşəkkür edirik. Allah Sizi qorusun!

Prezident İlham ƏLİYEV: Çox sağ olun.

* * * *

Sonra Prezident İlham Əliyev “Naftalan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsini əks etdirən stendlərə baxdı.

“Azərsu” ASC-nin prezidenti Qorxmaz Hüseynov bildirdi ki, burada su təchizatı və kanalizasiya sistemləri 1970-ci illərdə yaradılmışdır. Şəhərə içməli su Çəkil kəhrizindən və subartezian quyulardan verilir. Naftalanda su şəbəkəsinin uzunluğu 47 kilometrdir. 16 kilometrlik kanalizasiya şəbəkəsi şəhərin kiçik bir hissəsini əhatə edir və istismara yararsızdır. Naftalan şəhəri əhalisinin sayı 9 min nəfərdir və onların 81 faizi mərkəzləşmiş qaydada içməli su ilə təmin olunur. Şəhər əhalisinə içməli su sutkada 4-5 saatlıq qrafik əsasında verilir. “Naftalan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi isə Azərbaycan hökuməti ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi “Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi” çərçivəsində həyata keçirilir.

Qeyd olundu ki, layihə 2035-ci ilə - perspektiv inkişaf nəzərə alınmaqla Naftalan şəhərində 9,8 min, Qasımbəyli və Qaşaltı-Qaraqoyunlu kəndlərində isə 3200 nəfər olmaqla, ümumilikdə 13 min sakinin su təchizatı və kanalizasiya xidmətlərinin əsaslı şəkildə yaxşılaşmasına hesablanmışdır. Layihəyə uyğun olaraq Naftalan şəhərinə və ətraf kəndlərə içməli su yeni mənbədən - Ballıqayadan verilir. Şəhərin dayanıqlı su təchizatı üçün Ballıqaya-Goranboy kəmərindən 8 kilometr uzunluğunda magistral su xətti çəkilmiş, hər birinin həcmi 3 min kubmetr olan iki anbar tikilmişdir. Layihəyə əsasən, şəhərə saniyədə 54 litr su gətirilir ki, bu da istehlakçıların tələbatını tam ödəməyə imkan verir. Şəhərdə toplanan çirkab suların axıdılması məqsədi ilə 33 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi də yaradılacaqdır. İndiyə qədər kanalizasiya şəbəkəsinin 10 kilometrlik hissəsində işlər başa çatdırılmışdır. Tullantı sularının təmizlənməsi məqsədilə məhsuldarlığı sutkada 10 min kubmetr olan çirkab su təmizləyici qurğu inşa olunacaqdır. Layihə üzrə işlərin 2015-ci ilin əvvəllərində başa çatdırılması nəzərdə tutulur.

Prezident İlham Əliyev Naftalan şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.

* * * *

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**
**2013, 10 sentyabr**

## QUBA ŞƏHƏRİNİN SU TƏCHİZATI VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN YENİDƏN QURULMASI LAYİHƏSİ BAŞA ÇATMIŞDIR

*(18 sentyabr 2013-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Quba şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin başa çatdırılması münasibətilə təşkil olunan mərasimdə iştirak etmişdir.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Qorxmaz Hüseynov dövlətimizin başçısına məlumat verdi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində bölgələrdə əhalinin içməli su təchizatının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Proqram çərçivəsində həyata keçirilən "Quba şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi də 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla Quba şəhəri və rayonun Qırmızı qəsəbə, Mirzəməmmədkənd və Timiryazev kəndlərində 46 min sakinin su təchizatı və kanalizasiya xidmətlərinin əsaslı şəkildə yaxşılaşdırılmasına hesablanmışdır. Layihə çərçivəsində Quba Sukanal İdarəsi üçün müasir tələblərə cavab verən yeni inzibati bina tikilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva idarənin binasında yaradılmış şəraitlə tanış oldular.

Məlumat verildi ki, ümumi sahəsi 1150 kvadratmetr olan binada müasir tələblərə cavab verən "SCADA" idarəetmə mərkəzi yaradılmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri də Coğrafi İnformasiya Sisteminin yaradılmasıdır. Quba şəhərində də tətbiq olunmuş bu sistem sayəsində gələcəkdə bütün şəbəkə infrastrukturu coğrafi məlumatlar bazasına əsaslanan rəqəmsal xəritələrin tətbiqi ilə idarə ediləcəkdir. Bu sistem dünyanın iki nüfuzlu müsabiqəsinin qalibi olmuşdur.

Diqqətə çatdırıldı ki, Quba şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi dövlət büdcəsi hesabına maliyyələşdirilmiş və işlər 22 ay müddətində başa çatdırılmışdır. Layihəyə əsasən, Quba şəhərini və ətraf yaşayış məntəqələrini fasiləsiz və keyfiyyətli içməli su ilə təmin etmək üçün su mənbəyi Qudyalçay seçilmişdir. Suyun özüaxmlı nəqli nəzərə alınaraq şəhərin şimal hissəsində Qudyalçayın məcrasında 2435 metr uzunluğunda drenaj tipli suqəbuledici qurğu tikilmişdir. Su mənbəyindən paylayıcı anbara qədər ümumi uzunluğu 6450 metr olan iki paralel magistral su xətti çəkilmişdir. Əhalini fasiləsiz su ilə təmin etmək üçün Quba şəhərində relyef baxımından ən yüksək ərazidə ümumi tutumu 14 min kubmetr olan dörd anbar tikilmişdir. Layihə çərçivəsində Quba şəhərində ümumi uzunluğu 190 kilometr olan paylayıcı su şəbəkəsi yaradılmış, 9525 ünvana ev birləşmələri verilmiş, 8900 abunəçi "smart-kart" sayğacı ilə təmin olunmuşdur. Layihəyə uyğun olaraq Quba şəhərində 216 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi yaradılmış və bütün ünvanlar şəbəkəyə qoşulmuşdur. Hazırda şəhərdə toplanan tullantı suları mövcud kollektorlar vasitəsilə axıdılır. Gələcəkdə tullantı suları Xaçmaz şəhəri yaxınlığında inşa ediləcək, sutəmizləyici qurğuya ötürüləcəkdir.

Prezident İlham Əliyevə "SCADA" sistemi barədə də məlumat verildi. Bildirildi ki, su təchizatı və kanalizasiya sistemlərinin vahid mərkəzdən idarə edilməsi üçün yaradılmış sistem vasitəsilə suyun mənbədən istehlakçıyadək ötürülməsi onlayn rejimdə tənzimlənir. Bu sistem vasitəsilə anbarlarda suyun həcmi, siyirtmələrin işçi vəziyyəti, anbar çıxışlarında və şəbəkədəki təzyiq, anbarlardakı ehtiyatın həcmi avtomatik idarə olunur. Eyni zamanda, xətlərdə baş verən qəza hallarının koordinatları qeydə alınır, problemin operativ aradan qaldırılması təmin edilir. Yeni sistem qəza aradan qaldırılan müddətdə su təchizatında fasilə verilən əraziləri də dərhal müəyyən edir. "Azərsu" ASC tərəfindən su təchizatı və kanalizasiya sistemlərinin istismarında ən müasir sistem tətbiq edilir. Bu sırada mühüm yer

tutan Coğrafi İnformasiya Sistemi coğrafi məlumat bazası rolunu oynayır. Bu sistem "Azərsu" ASC-də istifadə olunan Müştəri Məlumat, "SCADA", Elektron Kargüzarlıq, Mühafizə və Təhlükəsizlik Sistemləri kimi digər məlumat bazaları ilə inteqrasiya olunaraq abonentlərin xəritə üzərində təsviri, "qaynar xətt"ə daxil olan müraciətlərin operativ şəkildə idarə olunması, baş verən qəzalara dərhal müdaxilə edilməsi və aradan qaldırılmasına nəzarət, su və kanalizasiya infrastrukturunda olan hər bir obyekt haqqında ətraflı məlumatın əldə edilməsinə şərait yaradır.

Sonra Prezident İlham Əliyev şəbəkəyə suyun verilməsini bildirən düyməni basdı.

Bununla Quba şəhərinin 24 saat fasiləsiz su ilə təmin olunması prosesi uğurla yerinə yetirildi.

Diqqətə çatdırıldı ki, idarənin binasında müasir tipli yeni laboratoriya da qurulmuşdur. Burada içməli suyun vacib 14 parametri öyrəniləcəkdir. Daha geniş və dəqiq analizlərin aparılması zərurəti yarandıqda nümunələr xüsusi təyinatlı maşınlarda Bakıdakı Mərkəzi Laboratoriyaya göndəriləcəkdir. İdarənin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə 11 nəqliyyat vasitəsi və xüsusi texnika alınmışdır.

**AZƏRTAC**
**2013, 18 sentyabr**

## ŞABRAN RAYONU ƏRAZİSİNDƏ İNŞA OLUNAN TAXTAKÖRPÜ SU ANBARI, TAXTAKÖRPÜ SU-ELEKTRİK STANSİYASI VƏ TAXTAKÖRPÜ–CEYRANBATAN SU KANALININ AÇILIŞI MƏRASİMİ

*(28 sentyabr 2013-cü il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 28-də Samur–Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində Şabran rayonu ərazisində inşa edilən Taxtakörpü su anbarı, 25 meqavatlıq Taxtakörpü Su-Elektrik Stansiyası və Taxtakörpü–Ceyranbatan su kanalının açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycanın müstəqilliyinin ilk illərində meliorasiya və irriqasiya sistemi bərbad vəziyyətə düşmüşdü. Ulu öndər Heydər Əliyev ilk xarici sərmayəni bu sahəyə yönəltməklə həmin kompleksin beynəlxalq standartlar səviyyəsində yenidən qurulmasına start vermişdi. Samur–Abşeron suvarma sisteminin yenidən qurulmasına da kəskin ehtiyac duyulurdu. Tezliklə bu layihə çərçivəsində Azərbaycan–Rusiya sərhədində yerləşən, Samur çayı üzərindəki baş hidroqovşaq, baş suqəbuledici və Samur–Abşeron kanalının ilk 50 kilometrlik hissəsi əsaslı təmir edilmiş, həmçinin ən müasir standartlara cavab verən Xanarx kanalı, baş sudurulducu qurğu və 188 kilometr uzunluğunda təsərrüfatlararası beton kanallar inşa olunmuşdur.*

*2007-ci ildə isə Taxtakörpü su anbarı, Taxtakörpü Su- Elektrik Stansiyası, Vəlvələçay–Taxtakörpü və Taxtakörpü–Ceyranbatan kanallarının inşasına başlanılıb. «Meliorasiya və Su Təsərrüfatı» ASC-nin sifarişçisi olduğu həmin layihəni «Azərkörpü» – indi Avropa–Asiya İnşaat Korporasiyası «Evraskon» Açıq Səhmdar Cəmiyyəti adlanan iqtisadi qurumun rəhbərlik etdiyi konsorsium həyata keçirib. Cəmi bir neçə il ərzində Vəlvələçaydan Ceyranbatan gölünə qədər uzanan və mürəkkəb relyefi ilə seçilən ərazidə böyük həcmdə işlər görülüb. İlk növbədə, Vəlvələçay–Taxtakörpü kanalının təxminən 11 kilometrlik hissəsi istismara hazır olmuş, 2011-ci il avqustun 15-də rəsmi açılışı mərasimi keçirilmişdir. Vəlvələçay–Taxtakörpü kanalının tikintisinin ilk mərhələsi İslam İnkişaf Bankının vəsaiti hesabına aparılıb. Ən müasir inşaat işlərində olduğu kimi, burada da kanalın beton üzlüyü xüsusi betondöşəyən maşınlar vasitəsilə qoyulmuşdur.*

*2013-cü il iyulun 19-da isə 34 kilometr uzunluğunda Vəlvələçay–Taxtakörpü kanalının ikinci hissəsinin istismara buraxılması və Taxtakörpü su anbarına suyun verilməsinə başlanılması münasibətilə növbəti rəsmi mərasim keçirildi. Vəlvələçay–Taxtakörpü kanalının ikinci hissəsi və onun sutullayıcı qurğusu Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaiti hesabına inşa edilib. Olduqca çətin və mürəkkəb relyefli ərazilərdən keçən bu kanal üzərində 57 mükəmməl hidrotexniki qurğu quraşdırılıb. Samur çayından götürülən su öz axarı ilə Vəlvələçay–Taxtakörpü kanalı ilə Taxtakörpü su anbarına ötürülür.*

*«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə Azərbaycan Prezidentinə və xanımına bu irimiqyaslı layihə üzrə aparılan işlər və mühüm hidrotexniki qurğular barədə ətraflı məlumat verdi.*

*Qeyd edildi ki, dövlətimizin başçısının tapşırığına uyğun olaraq su anbarı və su-elektrik stansiyası Azərbaycan Respublikası Dövlət Neft Fondundan ayrılan vəsait hesabına tikilib. Taxtakörpü su anbarının sahəsi 8,71 kvadratkilometrdir. Bu qurğunun ümumi su tutumu isə 270 milyon kubmetrdir. Gölün faydalı su həcmi 238,4 milyon kubmetrdir. Gil nüvəli torpaq bənd olan bu hidrotexniki qurğunun dibdən eni 754, hündürlüyü 142,5 metrdir. Bu nəinki regionda, o cümlədən Avropada ən hündür torpaq bəndlərdən biridir. Buradakı qəza sutullayıcının uzunluğu 891, suqəbuledici qurğunun uzunluğu 43,6, enerji tunelinin uzunluğu isə 543 metrdir. Qapı şaxtası 56 metr dərinlikdədir. Burada müasir işıqlandırma sistemi quraşdırılıb, ərazidəki yollara asfalt döşənilib. Bakı–Rusiya Federasiyası*

*dövlət sərhədi magistral avtomobil yolundan Taxtakörpü su anbarına ayrılan yol boyunca, həmçinin bütün ərazidə böyük həcmdə abadlıq və yaşıllaşdırma işləri həyata keçirilib. Təkcə Taxtakörpü su anbarının bəndinin gövdəsində 23 milyon kubmetrdən çox torpaq işi görülüb. Ümumilikdə Taxtakörpü su anbarı, Vəlvələçay–Taxtakörpü və Taxtakörpü–Ceyranbatan kanallarının inşasında 86 milyon kubmetrdən çox torpaq, 817 min kubmetr dəmir-beton, eləcə də 62,7 min ton metal və armatur işləri yerinə yetirilib. Tikintinin gur vaxtında burada 1000-dən çox fəhlə və mütəxəssis çalışmışdır.*

*Bildirildi ki, Samur–Abşeron suvarma sistemi üzrə nəzərdə tutulan digər tədbirlərin də reallaşdırılması nəticəsində şimal bölgəsi rayonlarında 150 min hektara qədər torpaq sahəsinin su təminatı yaxşılaşdırılacaq və 31 min hektar sahədə yeni suvarılan torpaqlar istismara veriləcəkdir. Bu layihə respublikanın şimal zonasında ekoloji tarazlığın təmin edilməsinə də böyük töhfədir. Bütövlükdə Samur–Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi 14 il ərzində 4 mərhələdə reallaşdırılacaqdır.*

*Taxtakörpü su anbarında görülən işlərlə tanışlıqdan sonra dövlətimizin başçısı və xanımı Taxtakörpü Su-Elektrik Stansiyası və Taxtakörpü–Ceyranbatan su kanalının açılışında iştirak etdilər.*

*Taxtakörpü Su-Elektrik Stansiyasının da ərazisində geniş abadlıq və yaşıllaşdırma işləri aparılıb.*

*Dövlətimizin başçısı İlham Əliyevə energetika qurğusu barədə məlumat verildi. Qeyd olundu ki, ən müasir standartlara cavab verən su-elektrik stansiyasında ümumi gücü 25 meqavat olan 3 hidroaqreqat quraşdırılıb. Stansiyada sərfiyyata nəzarət hovuzu yaradılıb. Buraya su xüsusi ötürücü vasitəsilə verilir. Hovuzdakı 4 qapıdan 3-ü elektrik enerjisinin alınması məqsədilə suyun turbinlərə verilməsinə xidmət edir. Həmin hovuzdan dəryaçaya sutullayıcı inşa edilib. Taxtakörpü–Ceyranbatan kanalında gələcəkdə təmir aparılmasına ehtiyac olarsa və ya digər zəruri hallar yaranarsa, hovuzdakı normadan artıq su sutullayıcı vasitəsilə dəryaçaya yönəldiləcəkdir. Su-elektrik stansiyası və açıq paylayıcı qurğuda əsasən Almaniya, Çexiya və digər xarici ölkələrdən gətirilən avadanlıqlar quraşdırılıb. Tikinti-quraşdırma işlərini əsasən yerli mütəxəssislər yerinə yetirib. Bu prosesin reallaşmasına Almaniya, Çexiya və Türkiyədən dəvət olunan mütəxəssis və quraşdırıcılar da cəlb edilib. Stansiyanın generasiya zalının sahəsi 923 kvadratmetrdir. Dispetçer otağında son elmi-texniki yeniliklərə əsaslanan avadanlıq quraşdırılıb. Stansiyanın daxili sərfiyyatı xüsusi otaqdan qidalanacaqdır. Qapalı paylayıcı qurğu, qəza dizel generatoru, digər qurğu və avadanlıqlar da inkişaf etmiş ölkələrin energetika obyektlərindəki standartlara uyğundur. 110 kilovoltluq açıq paylayıcı qurğu da mükəmməlliyi ilə seçilir. Burada Almaniyanın «Siemens» şirkətinin avadanlığı quraşdırılıb. 3 transformator, ifrat gərginlik boşaldıcısı, gərginlik və cərəyan transformatorları, eleqaz açarları, şin ayırıcıları, 110 kilovoltluq şinlərarası eleqaz açarı ən müasir avadanlıqlardır. Açıq paylayıcı qurğudan elektrik enerjisi 110 kilovoltluq hava xətləri vasitəsilə 110 kilovoltluq 1-ci Xaçmaz hava xəttinə və 110 kilovoltluq 4-cü Siyəzən hava xəttinə ötürülür.*

*Prezident İlham Əliyev su-elektrik stansiyasını işə saldı.*

*Bununla da Taxtakörpü–Ceyranbatan kanalına suyun verilməsinə başlanıldı.*

*Dövlətimizin başçısı Taxtakörpü Su-Elektrik Stansiyasının dispetçer otağı ilə tanış oldu. Stansiyanın iş rejimi barədə məlumat verilərək bildirildi ki, bu energetika qurğusu şimal bölgəsi rayonlarının elektrik enerjisi ilə təchizatında mühüm rol oynayacaqdır.*

*Bildirildi ki, Taxtakörpü su anbarında toplanan sudan elektrik enerjisinin alınması ilə yanaşı, içməli, texniki və suvarma suyu kimi də istifadə olunur. Taxtakörpü Su-Elektrik Stansiyasından su Taxtakörpü–Ceyranbatan kanalı ilə Ceyranbatan gölünə verilir. Taxtakörpü–Ceyranbatan kanalının 1,3 kilometrlik hissəsindən sonra su 5,1 kilometr məsafədə təzyiqli*

*boru vasitəsilə ötürülür. Taxtakörpü–Ceyranbatan kanalının uzunluğu 110 kilometr, dərinliyi 4, dibdən eni 2,1 metrdir.*

*Taxtakörpü–Ceyranbatan kanalı da Vəlvələçay–Taxtakörpü kanalı kimi, olduqca çətin relyefə məxsus ərazidən keçir. Bu kanalların orijinallığı ondan ibarətdir ki, Samur–Abşeron kanalından götürülən su Ceyranbatan gölünə qədər dağlar boyunca yalnız öz axını ilə hərəkət edir. Bu da hər il orta hesabla 167 milyon kilovat/saat elektrik enerjisinə və ya 13–15 milyon dollar məbləğində vəsaitə qənaət olunması deməkdir. Taxtakörpü–Ceyranbatan kanalı üzərində mürəkkəbliyinə görə bir-birini üstələyən 238 hidrotexniki qurğu inşa olunub. Dəmir-beton üzlüklü açıq kanalların uzunluğu 84 kilometrdən çoxdur. Dərinliyi 35–45 metrə çatan dərələr və çaylarda dəmir və dəmir-beton dükerlər quraşdırılıb. Dağın altından keçən tunelin hündürlüyü 70, uzunluğu 1454 metrdir. Taxtakörpü–Ceyranbatan kanalı Bakı və ətraf qəsəbələrin sosial-iqtisadi inkişafı çərçivəsində yenidən qurulan Abşeron kanalı ilə paytaxtın qəsəbələrinə suvarma suyunun verilməsinə də imkan yaradır. Ümumilikdə, Samur–Abşeron suvarma sisteminin yenidən qurulması və belə yüksək səviyyəli digər layihələr ölkəmizin durmadan artan iqtisadi qüdrətinin və Azərbaycan insanının intellektual potensialının tükənməzliyinin əyani nümunələridir.*

*Sonra prezident İlham Əliyev melioratorlar, Abşeron, Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran və Xızı rayonları ictimaiyyətinin nümayəndələri və bu bölgəni təmsil edən sahibkarlarla görüşdü.*

*Dövlətimizin başçısı mərasimdə nitq söylədi.*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Əziz dostlar, bu gün ölkəmizin tarixində çox əlamətdar bir gündür, deyə bilərəm ki, tarixi bir gündür. Çünki Azərbaycanda çox böyük infrastruktur layihəsi icra edilir. Taxtakörpü su anbarının istifadəyə verilməsi və Samur–Abşeron suvarma sisteminin yenidən qurulması tarixi nailiyyətdir.

Bildiyiniz kimi, Samur–Abşeron suvarma sistemi ötən əsrin 40-cı illərindən fəaliyyətdədir. Keçən əsrin 50-ci illərində Ceyranbatan su anbarına qədər kanal çəkilmişdir. Ancaq təbii ki, vaxt keçdikcə bu infrastruktur köhnəlmiş və Samur–Abşeron suvarma sisteminin yenidən qurulmasına böyük ehtiyac yaranmışdı. Təsadüfi deyil ki, XX əsrin 90-cı illərində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Samur–Abşeron suvarma sisteminin yenidən qurulması üçün əməli addımlar atılmağa və bu sistemin əsasında yeni sxem hazırlanmağa başlanılmışdı. 2000-ci illərdə isə biz artıq praktiki işlərə başladıq. 2006-cı ildə Xanarx kanalının tikintisi ilə, demək olar ki, bu sistemin bir komponenti istismara verilmişdir. Ondan sonra, 2007-ci ildə Taxtakörpü su anbarının təməli qoyulmuşdur. Mən o günü yaxşı xatırlayıram. Bax, buralarda tam başqa bir mənzərə var idi. Bu gün yuxarıdan, bənddən gölə baxarkən bir daha görürəm ki, iradə, peşəkarlıq olan yerdə biz istənilən layihəni yarada bilərik. Bu layihə bir möcüzədir. Bu dağlar arasında bir göl yaranmışdır. O göl ki, bu gün su tutumuna görə Ceyranbatan gölündən, demək olar ki, 2 dəfə böyükdür. Bu, Azərbaycanın böyük su anbarıdır. Burada 270 milyon kubmetr su yığılır ki, bu sudan Azərbaycan vətəndaşları və sahibkarlar istifadə edəcəklər.

2007-ci ildə bu böyük layihənin təməli qoyuldu və çox şadam ki, bu layihənin icrası üçün lazım olan bütün məsələlər öz həllini tapmışdır. Bildiyiniz kimi, bu layihə bir neçə komponentdən ibarətdir. Xanarx kanalı, Vəlvələçay–Taxtakörpü kanalı ki, suyun yığılmasına yönəlmiş bir layihə idi, Taxtakörpü su anbarı və Taxtakörpü–Ceyranbatan kanalının tikintisi də bu layihənin tərkib hissəsidir. Beləliklə, son illərdə tikilmiş kanalların uzunluğu 150 kilometrdir.

Qeyd etdiyim kimi, böyük su anbarı və eyni zamanda, bax, bu gün istifadəyə verdiyimiz su-elektrik stansiyası da tikilmişdir. Bu da çox vacib məsələdir. Çünki baxmayaraq ki, Azərbaycan öz enerji təhlükəsizliyini tam şəkildə təmin etmişdir və bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayır, biz alternativ enerji mənbələrinin yaradılması ilə bağlı çalışırıq və su-elektrik stansiyalarının tikintisi bu istiqamətdə çox vacib addımlardır. Keçən dövrdə bir neçə su-elektrik stansiyası tikilmişdir – Füzulidə 25 meqavat gücündə, Ordubadda Biləv elektrik stansiyası, təxminən o da o həcmdədir, Arpaçay su-elektrik stansiyasının yenidən qurulması, demək olar ki, başa çatmışdır. Taxtakörpü Su-Elektrik Stansiyasının tikintisi də böyük su-elektrik stansiyaları arasında, əlbəttə ki, önəmli bir addımdır. Kiçik çaylarda 1 meqavat, 4 meqavat, 5 meqavat gücündə su-elektrik stansiyaları tikilir. Hazırda Şəmkirçay su anbarında da – Taxtakörpüdən sonra ikinci böyük su anbarı olacaqdır – 25 meqavat gücündə su-elektrik stansiyası tikilir.

Beləliklə, bu böyük layihəni icra edərkən, biz bununla bərabər, enerji təhlükəsizliyimizi daha da böyük həcmdə təmin edəcəyik. Sadəcə onu demək kifayətdir ki, biz bu stansiyanın gücü ilə bütün şimal zonasını ucuz elektrik enerjisi ilə təmin edə bilərik. Nəzərə alsaq ki, bir neçə il bundan əvvəl «Şahdağ» elektrik stansiyası tikilmişdir, bu bölgənin gələcək inkişafı ilə bağlı daim güclü enerji təminatı da olacaqdır.

Bu zonanın inkişafı da çox sürətlidir. Şimal zonasının turizm potensialı çox böyükdür. Burada yeni turizm infrastrukturu yaradılır. Qusar rayonunda ölkəmizin ən müasir istirahət və idman infrastrukturu yaradılır. Şahdağ xizək kurortu keçən il istismara verilmişdir və artıq minlərlə insan bu imkanlardan istifadə edir. Hazırda orada bir neçə beşulduzlu hotel tikilir. Bu ay Qubada olarkən orada da beşulduzlu hotelin tikintisi ilə tanış oldum. Yəni bu zonanın turizm, kənd təsərrüfatı imkanları kifayət qədər genişdir. Beləliklə, elektrik stansiyalarının tikintisi də lazımdır və biz, demək olar ki, bu məsələni artıq həll etmişik.

O ki qaldı suvarma sisteminin yenidən qurulmasına, bu qeyd etdiyim kimi, tarixi layihədir. Taxtakörpü su anbarının və Vəlvələçay–Taxtakörpü, Taxtakörpü–Ceyranbatan su kanallarının fəaliyyətə başlaması nəticəsində 150 min hektar torpaqda suvarma yaxşılaşdırılacaq, 30 min hektar isə yenidən əkin üçün yararlı olacaq. Bu torpaqların böyük hissəsi, təqribən 11 min hektarı Şabran rayonunun ərazisinə düşür. Yəni kənd təsərrüfatının inkişafı üçün çox gözəl imkanlar yaradılır.

Şəmkirçay su anbarının tikintisi də paralel olaraq davam etdirilir və ümid edirəm ki, bu nəhəng layihə gələn ilin sonuna qədər də icra ediləcəkdir və orada yeni torpaq sahələrinin dövriyyəyə buraxılması, içməli su ilə təminatı nəticəsində həm sosial, həm iqtisadi məsələlər öz həllini tapacaqdır. Şəmkirçay su anbarının fəaliyyəti nəticəsində 75 min hektar torpaq sahəsində suvarma təmin ediləcəkdir.

Yəni bu layihələr tarixi layihələrdir. Bu layihələr bundan sonra əbədiyyətə qədər Azərbaycan xalqına, Azərbaycan dövlətinə xidmət göstərəcəkdir. Biz Azərbaycan xəritəsində yeni süni göllərin yaradılmasına nail ola bilmişik. Taxtakörpü gölünün uzunluğu təxminən 9 kilometrdir. Bu, Azərbaycan xalqının zəhməti, istedadı hesabına mümkün olan hadisələrdir. Bu bir möcüzədir. Beləliklə, bu layihələrin icrası nəticəsində biz bir neçə əsas məqsədi güdürük. İlk növbədə, Azərbaycanda müasir, ən yüksək standartlara cavab verən yeni infrastruktur yaradılır. Azərbaycan alternativ enerji mənbələrinin yaradılması istiqamətində çox ciddi addım atır. Bir neçə il bundan əvvəl mənim göstərişimlə Azərbaycanın bütün potensial su mənbələri aşkarlanmışdır. Onların xəritəsi tərtib edilmişdir. Bu elektrik stansiyasının yaradılması da, bax, o prosesin tərkib hissəsidir. Azərbaycanda kənd təsərrüfatının inkişafı üçün yeni imkanlar yaradılır. Çünki suvarılan torpaqları fermerlər, sahibkarlar əkəcəklər, becərəcəklər və beləliklə, ölkəmizin ərzaq təhlükəsizliyi tam şəkildə təmin ediləcəkdir.

Bilirsiniz ki, biz bu məsələlərlə bağlı ciddi addımlar atırıq və artıq pilot layihələr də icra edilir. Beyləqan, Ağcabədi rayonlarında 5 min hektara qədər yeni əkin sahələri dövriyyəyə buraxılmışdır. Bütün texniki şərtlər, suvarma təmin edilmişdir və bu ilin nəticəsi onu göstərir ki, bu çox səmərəli, uğurlu bir yoldur. Əgər ölkə üzrə hər hektardan taxıl istehsalında məhsuldarlıq 26 sentnerdirsə, yeni sahələrdə bu, 55 sentnerə çatmışdır. Yəni əgər yeni texnologiyalar, aqrotexniki xidmət göstərilərsə və əlbəttə ki, texnika lazımi səviyyədə təşkil edilərsə, biz 2 dəfədən çox məhsul götürə bilərik. Yeni əkin sahələrinin dövriyyəyə buraxılması fermerlərə böyük imkanlar verəcəkdir, kənd təsərrüfatımız inkişaf edəcəkdir.

Kənd təsərrüfatının inkişafı böyük dərəcədə infrastruktur layihələrindən asılıdır və əlbəttə, Azərbaycan gələcək illərdə ərzaq məhsullarına olan tələbatı tam şəkildə özü təmin edəcəkdir. Biz artıq buna yaxınlaşmışıq. Bu da tarixi nailiyyət olacaqdır və ondan sonra biz daha çox ixrac haqqında düşünməliyik. Artıq biz düşünürük, yeni bazarlara çıxmaq üçün addımlar atılır və beləliklə, kənd təsərrüfatı Azərbaycanda sürətlə inkişaf edəcəkdir.

Beləliklə, Taxtakörpü su anbarının, Şəmkirçay su anbarının və suvarma sisteminin yaradılması nəticəsində biz 2 ildən sonra 250 min hektar yeni torpaq sahələri əldə edəcəyik. Bu, tarixi bir nailiyyət olacaqdır. Bu layihələrin icrası eyni zamanda, ölkəmizin su təhlükəsizliyini də təmin edir. Bu məsələlərə də biz daim diqqət göstəririk. Çünki ölkəmizi qidalandıran əsas su mənbələri Azərbaycanın hüdudlarından kənarda formalaşır. Ona görə su ehtiyatlarından səmərəli şəkildə istifadə etmək, yeni layihələri icra etmək, yeni kanalları inşa etmək və su anbarlarını yaratmaq strateji əhəmiyyətli bir məsələdir. Taxtakörpü su anbarının yaradılması ilə biz bu strateji hədəfə çatırıq. Bizim sularımız Kür çayından, Araz çayından, Samur çayından gəlir ki, bu çaylar öz mənbəyini başqa ölkələrdən başlayır. Beləliklə, su təhlükəsizliyi bizim üçün strateji əhəmiyyətli məsələdir və gələcəkdə hər bir ölkə üçün su ehtiyatları strateji dəyər olacaqdır.

Bu gün dünyada daha çox neft-qaz resursları uğrunda mübarizə aparılır və xoşbəxtlikdən Azərbaycan bu resurslardan xalqın rifahı, ölkənin inkişafı naminə səmərəli şəkildə istifadə edir. Amma vaxt gələcək, su resursları uğrunda mübarizə daha da kəskinləşəcəkdir. Biz artıq bu mübarizənin təzahürlərini görməkdəyik. Belə olan halda su təhlükəsizliyi Azərbaycanda tam şəkildə təmin edilməlidir. Taxtakörpü su anbarı və Samur–Abşeron suvarma sistemi, Şəmkirçay su anbarı, ölkədə icra edilən su layihələri bu məqsədə xidmət edir.

İndi hər bir şəhərdə içməli su layihələri icra edilir. Bəzi şəhərlərdə istismara verilmişdir, bəzi şəhərlərdə davam etdirilir. Subartezian quyularının qazılması prosesi gedir. Bir neçə ay bundan əvvəl mənim sərəncamımla bu məqsədlə 6 milyon manat vəsait ayrılmışdır ki, 104 kənd artıq bu layihə ilə əhatə ediləcəkdir. Mənim sərəncamımda kəndlər adbaad göstərilmişdir ki, o kəndlərdə yaşayan soydaşlarımız bilsinlər, onların kəndində bu quyu qazılacaq və beləliklə, onların su problemləri həll ediləcəkdir. Azərbaycanda modul tipli təmizləyici qurğular quraşdırılır. Təxminən 400-ə yaxın kənddə bu qurğular yerləşdirilibdir. O kəndlər ki, çaylar boyu yerləşən kəndlərdir. Yəni su təhlükəsizliyi strateji əhəmiyyətli məsələdir və bu layihənin icrası, o cümlədən bu məsələlərin həllində də bizə kömək göstərir.

Bu layihənin həyata keçirilməsi üçün böyük investisiyalar cəlb edilmişdir. Azərbaycanda investisiya iqlimi çox müsbətdir. Xarici investisiyalar, onların axını davam etdirilir. Ancaq son illərdə yerli investisiyalar xarici investisiyaları üstələyir. Təqribən faiz nisbəti 70/30 daxili investisiyaların xeyrinədir. Bu da çox müsbət haldır. Hələ ki, daxili investisiyaların əsas hissəsi dövlət investisiyaları hesabına formalaşır. Bu da təbiidir. Çünki dövlət bütün iqtisadi və sosial layihələrə güclü təkan verməli idi və verir. İnfrastruktura qoyulan investisiyalar bu gün yeni inkişaf dövrümüzü şərtləndirir. Keçən 10 il ərzində iqtisadiyyatımız 3,4 dəfə artmışdır. Bu da dünyada misli görünməmiş nəticədir. Son 10 il ərzində sosial məsələlər öz həllini tapmışdır – 500-ə yaxın xəstəxana, 3 minə qədər məktəb, 9 dəfə artan pensiya, 6 dəfə artan orta əməkhaqqı, infrastruktur layihələri, investisiyalar. Demək

olar ki, ölkəmiz xeyli dərəcədə qabağa getmişdir və güclənmişdir. Ancaq növbəti 10 il ərzində biz öz inkişafımızı daha çox qeyri-neft sektorunun hesabına təmin edəcəyik. Belə olan halda, son illərdə infrastruktura qoyulan xərclər, dövlət investisiyaları gözəl bir şərait yaradır və növbəti illərdə daxili investisiyalar xarici investisiyalardan daha artıq olacaqdır. Ancaq çox istərdim ki, özəl sektordan gələn investisiyalar üstünlük təşkil etsin. Əminəm ki, biz buna da nail olacağıq. Ancaq dövlət bundan sonra da öz investisiya siyasətini davam etdirəcək, ölkəmiz, xalqımız üçün lazım olan bütün layihələr icra ediləcəkdir. Azərbaycan xalqı yaxşı bilir ki, hətta dünyanı bürümüş maliyyə və iqtisadi böhran bizim investisiya və sosial layihələrimizə heç bir təsir etməmişdir – maaşlar ildən-ilə artırılır, sosial ödəmələr artırılır, investisiya layihələri də icra edilir.

Bu layihəyə qoyulan sərmayə Dövlət Neft Fondunun xətti ilə icra edilmişdir. Bu da hesab edirəm ki, çox gözəl və əlamətdar hadisədir, rəmzi məna daşıyır. Çünki Dövlət Neft Fondunun xətti ilə ölkəmiz üçün yalnız ən prioritet məna daşıyan önəmli layihələr icra edilir. Onların içində köçkünlərin yerləşdirilməsi layihələri əsasdır. Hər il 300 milyon manat ancaq köçkünlər üçün tikilən evlərə sərf olunur və beləliklə, biz hər il 20 min köçkünü yeni evlərlə, mənzillərlə təmin edirik. Demək olar ki, hər il Azərbaycanda köçkünlər üçün bir şəhər tikilir və bu proses davam etdirilir. Dövlət Neft Fondunun xətti ilə təhsil məsələləri, Azərbaycan tələbələrinin xaricdə oxuması məsələləri öz həllini tapır və ölkəmiz üçün strateji layihələr Fondun xətti ilə maliyyələşdirilir.

Belə olan halda, əlbəttə ki, iqtisadi inkişaf daha sürətli olacaq. Çünki düşünülmüş siyasət əsasında qurulan iqtisadi konsepsiyamız öz səmərəsini verir. Son 10 il ərzində Azərbaycanda görülən işlər dediyim sözlərin ən yaxşı göstəricisidir. Son 10 ildə ölkəmiz böyük, şərəfli yol keçmişdir, insanların rifah halı yaxşılaşmışdır, nəhəng investisiya layihələri icra edilmişdir, sosial proqramlar tam şəkildə təmin edilmişdir. Əminəm ki, bu müsbət meyillər növbəti illərdə davam etdiriləcəkdir.

Əlbəttə ki, Taxtakörpü su anbarının yaradılması, Samur–Abşeron suvarma sisteminin yenidən qurulması özəl sektora yeni təkan verəcəkdir. Özəl sektor Azərbaycan iqtisadiyyatında təxminən 85 faiz təşkil edir. Bu da onu göstərir ki, bazar iqtisadiyyatı prinsipləri Azərbaycanda tam şəkildə tətbiq olunubdur. Bu ilin 8 ayında qeyri-neft sektorumuz 10,3 faiz artmışdır. Bu da dünya miqyasında ən yüksək göstəricidir. Əminəm ki, biz bu yüksək templəri saxlayacağıq və «Azərbaycan–2020: gələcəyə baxış» inkişaf konsepsiyasının bütün müddəalarını təmin edəcəyik.

Necə ki, son 10 il ərzində Azərbaycanda 2 regional inkişaf proqramı artıqlaması ilə icra edilmişdir. 3-cü proqramın qəbul edilməsi gələn ilin əvvəlində nəzərdə tutulur. «Azərbaycan–2020» və növbəti «Azərbaycan–2014–2018» inkişaf proqramları icra ediləcəkdir.

Bu layihənin icrası bir məsələyə də diqqəti çəkir. Belə nəhəng layihələr ancaq müstəqillik dövründə icra edilə bilər, ancaq bizim taleyimiz öz əlimizdə olan bir zamanda biz bu layihələri icra edə bilərik. Bu layihə və ölkəmizdə son illərdə görülən bütün işlər bir daha müstəqilliyimizin üstünlüklərini əks etdirir. Müstəqillik bizim böyük dəyərimizdir, ən böyük sərvətimizdir. Bu gün Azərbaycan xalqının gələcəyi onun öz əlindədir. Bu gün Azərbaycan dünya miqyasında ən sürətlə və uğurla inkişaf edən ölkələrin sırasındadır. Əminəm ki, növbəti illərdə biz öz inkişaf dinamikamızı saxlayacağıq, ölkəmizin uğurlu gələcəyini təmin edəcəyik.

Mən bütün Azərbaycan xalqını bu gözəl layihələrin istismara verilməsi münasibətilə təbrik etmək istəyirəm. Taxtakörpü su anbarında və Samur–Abşeron suvarma sisteminin yenidən qurulmasında iştirak etmiş bütün vətəndaşları salamlayıram, onlara öz təşəkkürümü bildirirəm. Deyə bilərəm ki, gələcəkdə belə böyük infrastruktur layihələri Azərbaycanda icra ediləcəkdir. Artıq gözəl təcrübə də toplanıb. Çox şadam ki, bu layihənin icrasında Azərbaycan şirkətləri iştirak etmişdir. Bir daha sizi ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Sağ olun!

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**59-cu kitab: sentyabr 2013 - oktyabr 2013. - Bakı: Azərnəşr, 2018, S. 211-222.**

## BÖYÜKŞOR GÖLÜNÜN VƏ ƏTRAF ƏRAZİLƏRİN EKOLOJİ VƏZİYYƏTİNİ YAXŞILAŞDIRMAQ ÜÇÜN KOMPLEKS TƏDBİRLƏRİN HƏYATA KEÇİRİLMƏSİ İSTİQAMƏTİNDƏ GÖRÜLƏN İŞLƏRİN GEDİŞİ İLƏ TANIŞLIQ

*(28 fevral 2014-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpası ilə bağlı görülən işlərlə tanış olmuşdur.

2015-ci ilin iyununda tarixdə ilk dəfə reallaşacaq Avropa oyunlarının Azərbaycanda keçirilməsi ilə əlaqədar Bakıda bir sıra mühüm infrastruktur layihələri icra ediləcək. Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpası da bu qəbildən olan tədbirlərdəndir. İlk Avropa oyunlarına aid əksər tədbirlər Böyükşor gölünün şərq sahilində, hazırda tikilməkdə olan Bakı Olimpiya stadionu kompleksində keçiriləcək. Bu ərazi çoxsaylı qonaqları, idmançıları və turistləri qəbul edəcək. Bu baxımdan Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpasının mühüm əhəmiyyəti vardır. Bununla bağlı birinci mərhələnin bu tədbirlərdən öncə yekunlaşdırılması planlaşdırılır.

İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev görüləcək işlərlə bağlı dövlətimizin başçısına məlumat verərək bildirdi ki, Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması və mühafizəsinin «2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nın Abşeron yarımadasının 9 gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması ilə bağlı tədbirlər planı çərçivəsində həyata keçirilməsi nəzərdə tutulur. Gölün ekoloji bərpası ilə əlaqədar layihə 2 mərhələdə olacaqdır. 2014–2015-ci illəri əhatə edəcək birinci mərhələdə gölün, Olimpiya stadionunun inşa edildiyi yerin yaxınlığında yerləşən 300 hektara yaxın ərazisi bərpa olunacaq. Birinci mərhələdə gölün şimal hissəsinin tarixən neftlə çirklənmiş sahəsinin bənd vasitəsilə sahil xəttindən ayrılaraq təcrid olunması nəzərdə tutulur. Ərazinin qərb sərhədini müəyyən edən altıxətli magistral şose şəklində layihələndirilmiş bənd isə bir tərəfdən Ziya Bünyadov prospekti, digər tərəfdən isə Balaxanı–Binəqədi şosesi ilə birləşdiriləcək. Bu da öz növbəsində şəhər yol infrastrukturuna düşən yükü azaldacaqdır. Göl hissəsindəki yolun ümumi uzunluğu 1570 metr təşkil edəcək. Gölə axıdılan çirklənmiş suların qarşısı alınacaq və dövriyyə zamanı çirklənmiş su Hövsan Aerasiya Stansiyasına istiqamətləndiriləcəkdir. Göldən çirklənmiş çöküntülərin çıxarılması və zərərsizləşdirilməsi, həmçinin gölün ətrafında hazırda mövcud olan qeyri-qanuni tullantı sahələrinin ləğv edilməsi planlaşdırılır. Gölün stadion istiqamətində çirklənmənin qarşısını almaq məqsədilə çirkab su kollektoru inşa olunacaq. Sahil xətti boyunca gəzinti bulvarının inşası və buradan stadion ərazisinə keçid nəzərdə tutulur.

Böyükşor gölünün tam bərpası üzrə ikinci mərhələ 2015–2020-ci illəri əhatə edəcək. Bununla da göl öz təbii tarixi məcrasına qaytarılacaq, su səviyyəsi tənzimlənəcək və ekosistem bərpa olunacaq. Beynəlxalq ekspertlərin qiymətləndirmələrinə əsasən Böyükşor gölü dünyada ən mürəkkəb çirklənmiş göllərdən hesab edilir. «2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»nda göllərin bərpası üzrə tədbirlər planının olması vətəndaşların sağlamlığı, onların sosial məsələlərinin həlli və ekoloji durumun yaxşılaşdırılması istiqamətində görülən işlərin ardıcıl xarakter daşımasının təsdiqidir.

Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpasını tarixi layihə adlandıran prezident İlham Əliyev onun ekoloji əhəmiyyətini yüksək qiymətləndirdi, müvafiq tapşırıq və tövsiyələrini verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**61-ci kitab: dekabr 2013 - aprel 2014. - Bakı: Azərnəşr, 2018, S. 276-277.**

## SU ANBARI VƏ SUTƏMİZLƏYİCİ QURĞULAR KOMPLEKSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*(7 aprel 2014-cü il)*

Azərbaycan prezidenti İlham Əliyev aprelin 7-də Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.

Prezident İlham Əliyev tərəfindən imzalanan regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu icrası iqtisadiyyatın bütün sahələrinin inkişafına səbəb oldu. Dövlət Proqramına uyğun olaraq, ölkəmizdə su və kanalizasiya sistemləri də yenidən qurulur. Bu işlər Azərbaycan dövlətinin vətəndaşlarına göstərdiyi qayğının daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən sosial siyasətin mərkəzində insan amili dayanır. Hər hansı sahə üzrə infrastruktur yaradılarkən, ilk növbədə əhalinin rahat yaşayışının təminatı ön planda saxlanılır. Son illər şəhər və rayon 22 mərkəzlərində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulmasını buna misal göstərmək olar. Mövcud hidroresurslardan istifadə olunaraq əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı içməli su ilə təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Hazırda Naxçıvan şəhərində və rayon mərkəzlərində istehlakçıların tələbatına uyğun içməli su və kanalizasiya sistemləri qurulur, bu sahədə müasir infrastruktur yaradılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq, Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına kompleks barədə ətraflı məlumat verdi.

Bildirildi ki, Naxçıvan şəhərinin mövcud içməli su sistemi ötən əsrin 60–70-ci illərində qurulub. O dövrün tələblərinə uyğun qurulan və uzun müddət istismar edilən sistem bu gün Naxçıvan şəhərində əhalinin keyfiyyətli içməli suya olan tələbatını ödəmirdi. Yeni istifadəyə verilən müasir kompleks Naxçıvan şəhərində 90 minə yaxın əhalini və sənaye obyektini perspektiv nəzərə alınmaqla, fasiləsiz olaraq ekoloji cəhətdən təmiz su ilə təmin edəcəkdir. 2009-cu ildən etibarən muxtar respublikanın paytaxtı Naxçıvanda və rayon mərkəzlərində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulmasına başlanıldı. Artıq Naxçıvan şəhərində və rayon mərkəzlərində tikinti işlərinin əsas hissəsi başa çatdırılıb. Diqqətə çatdırıldı ki, ümumiyyətlə, son illər muxtar respublika iqtisadiyyatının müasirləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər meliorasiya və su təsərrüfatı sistemini də əhatə edərək, bu sahənin maddi-texniki bazasını gücləndirdi. Bu baxımdan muxtar respublikada son illər içməli su təminatının yaxşılaşdırılması məqsədilə görülən işlər mühüm əhəmiyyətə malikdir. İstifadəyə verilən kompleks də Naxçıvan şəhərinin içməli su sisteminin yenidən qurulması tədbirləri çərçivəsində inşa edilib.

Qeyd edildi ki, kompleksdə ən müasir avadanlıqlar quraşdırılıb. Təmizləmə prosesində xammal kimi ozon və duzdan istifadə olunması isə suyun insan sağlamlığı üçün yararlılığına tam zəmanət verir. Sutəmizləyici qurğuda bütün iş prosesinin avtomatik olaraq tənzimlənməsi sistemin etibarlılığını və davamlılığını təmin edəcəkdir.

Sonra dövlətimizin başçısı sutəmizləyici qurğunu işə saldı. Azərbaycan Prezidentinə burada quraşdırılan nanosüzgəcli qurğu barədə məlumat verildi. Qeyd edildi ki, iqtisadi cəhətdən səmərəli olan yeni nanosüzgəcli qurğu ənənəvi qum süzgəclərindən fərqli olaraq, sudakı bütün zərərli mikrobları tutaraq saxlayır. Bununla da su təbii mineral tərkibi saxlanılmaqla təmizlənir. Nanosüzgəcdən keçən su içməyə tam yararlı olur və emal zamanı onun xlordan istifadə etməklə zərərsizləşdirilməsinə ehtiyac qalmır. Suyun sərfinə, təzyiqinə,

elektrik keçiriciliyinə və bulanıqlığına idarəetmə mərkəzində quraşdırılan kompüterlə nəzarət olunur və iş prosesi avtomatik idarə edilir. Kompleksdə ümumi tutumu 25 min kubmetr olan 3 su anbarı tikilib. Su anbarlarının inşası zamanı hündürlük fərqinin nəzərə alınması şəhərin su təchizatının özüaxımlı rejimdə təmin olunmasına imkan verəcəkdir.

Komplekslə tanışlıqdan sonra prezident İlham Əliyev Naxçıvan şəhərinin içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması tədbirləri çərçivəsində görülən işlərin gedişi ilə maraqlandı. Məlumat verildi ki, Naxçıvan şəhərində bu günə qədər 218 kilometr içməli su və 200 kilometr kanalizasiya xətti çəkilib, 19 minə yaxın mənzilə su verilib.

Tikinti işləri aparılarkən keyfiyyət amilinə xüsusi diqqət yetirilir. Naxçıvan şəhərində su və kanalizasiya sistemlərinin yenidən qurulması tədbirlərinin 2014-cü ildə tam başa çatdırılması nəzərdə tutulub.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**62-ci kitab: aprel 2014 - may 2014. - Bakı: Azərnəşr, 2018, S. 22-23.**

**«ARPAÇAY-1» VƏ «ARPAÇAY-2» SU-ELEKTRİK STANSİYALARININ İŞƏ SALINMASI MƏRASİMİ**

*(7 aprel 2014-cü il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində «Arpaçay-1» və «Arpaçay-2» su-elektrik stansiyalarının işə salınması mərasimində iştirak etmişdir.*

*Son illərdə ölkəmizin elektroenergetika sektoru üzrə enerji təchizatının dayanıqlılığı, səmərəliliyi və təhlükəsizliyi prinsiplərini nəzərə alan mühüm dövlət proqramları qəbul olunub. Proqramlara əsasən, Naxçıvan Muxtar Respublikasında da olduqca əhəmiyyətli işlər görülüb. 20,5 meqavat gücündə «Arpaçay-1» və 1,4 meqavat gücündə «Arpaçay-2» su-elektrik stansiyalarının işə salınması bu qəbildən olan tədbirlərin ardıcıl xarakter aldığını nümayiş etdirir.*

*Naxçıvanda həyata keçirilən bu layihələr muxtar respublikanın elektrik enerjisi ilə təminatında mühüm rol oynayaraq, ümumilikdə, ölkəmizin enerji təhlükəsizliyinə töhfə verir. Belə stansiyaların fəaliyyətə başlaması Naxçıvanın iqtisadi inkişafının təmin edilməsində də müstəsna rol oynayır. Bundan başqa, bu cür layihələr sosial məsələlərin həlli üçün nəzərdə tutulan işlərin uğurla, həm də qısa müddətdə reallaşmasına yardım edir. Bütün bunlar prezident İlham Əliyevin belə vacib və strateji əhəmiyyət kəsb edən layihələrin icrasına daim diqqətlə yanaşdığını bir daha təsdiqləyir. Təsadüfi deyildir ki, dövlətimizin başçısının diqqət və qayğısı sayəsində hələ 2006-cı ildə Naxçıvanın enerji təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən və ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası işə salınıb. Turbinlərin qazla işləmə rejiminə keçirilməsi nəticəsində Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasının gücü artaraq 60 meqavat olub. Sonradan müxtəlif dövrlərdə bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə Ordubadda Biləv Su-Elektrik Stansiyası fəaliyyətə başlayıb, Şərur rayonunda «Arpaçay» Su-Elektrik Stansiyasının işə salınması istiqamətində mühüm işlər görülüb.*

*Əvvəlcə «Arpaçay-2» Su-Elektrik Stansiyasının fəaliyyəti ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, 1,4 meqavat gücündə olan stansiyanın anbarının ümumi su tutumu 3 milyon kubmetrdir. Əsasən paylayıcı funksiyanı yerinə yetirən stansiyada son vaxtlar görülən işlər əhalinin elektrik enerjisi ilə fasiləsiz təmin olunmasına və daha geniş ərazidə əkin sahələrinin suvarılmasına əlverişli imkanlar yaradır.*

*Dövlətimizin başçısı «Arpaçay-2» Su-Elektrik Stansiyasını işə saldı.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov prezident İlham Əliyevə məlumat verdi ki, aparılan yenidənqurma işləri zamanı müasir texnika və avadanlığın quraşdırılması diqqət mərkəzində saxlanılıb. Bu işlər prezident İlham Əliyevin 2014-cü il martın 14-də «Naxçıvan Muxtar Respublikasında «Arpaçay-2» Su-Elektrik Stansiyasının tikintisinin maliyyələşdirilməsi haqqında» imzaladığı sərəncam əsasında aparılıb. Sərəncama əsasən, «Arpaçay-2» Su- Elektrik Stansiyasının tikintisini başa çatdırmaq məqsədilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 4 milyon manat ayrılıb.*

*Sonra prezident İlham Əliyev «Arpaçay-1» Su-Elektrik Stansiyasının işə salınması mərasimində iştirak etdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, gücü 20,5 meqavat olan su-elektrik stansiyası suqəbuledici qurğu, stansiya binası, tunel və transformator yarımstansiyasından ibarətdir. Suqəbuledici saniyədə 37 kubmetr su buraxmaq gücünə malikdir. Tuneldən suyu turbinlərə ötürmək üçün yüksəktəzyiqli boru xətti çəkilib, havaboşaldıcı inşa edilib. Buradakı anbarın su tutumu 150 milyon kubmetrdir. Anbardan götürülən su ilə 17 min 370 hektar əkin sahəsi suvarılacaqdır.*

*Stansiya binasında müasir iş otaqları və idarəetmə mərkəzi yaradılıb. Burada stansiyanı idarəetmə və nəzarət-mühafizə sistemləri quraşdırılıb. Bu da stansiyanın iş rejimini daimi nəzarətdə saxlamağa imkan verir. Stansiya binasında 8 meqavat gücündə 2, 4,5 meqavat gücündə 1 turbin quraşdırılıb. Bu energetika qurğusunda bütün emal prosesi avtomatlaşdırılıb. İstehsal olunmuş elektrik enerjisini şəbəkəyə ötürmək üçün ərazidə transformator yarımstansiyası qurulub, 11 kilometr uzunluğunda 110 kilovoltluq elektrik xətləri çəkilib.*

*Prezident İlham Əliyev «Arpaçay-1» Su-Elektrik Stansiyasını işə saldı.*

*Azərbaycan Prezidentinə məlumat verildi ki, iqtisadi səmərəlilik və enerji potensialının gücləndirilməsi baxımından böyük əhəmiyyətə malik olan stansiyanın işə salınması ilə muxtar respublikanın elektrik enerjisinə olan tələbatının böyük hissəsi su-elektrik stansiyaları hesabına ödəniləcəkdir. Bu prosesə hazırda Şərur rayonu ilə yanaşı, Ordubadda 36 meqavat gücündə inşa olunan yeni elektrik stansiyasının tikintisi də əsaslı töhfə verəcəkdir. Sovet hakimiyyəti illərində cəmi 1 elektrik stansiyası olan muxtar respublikada hazırda 7 elektrik stansiyası fəaliyyət göstərir. Nəticədə blokada şəraitində yaşamasına baxmayaraq, Naxçıvan Muxtar Respublikasının elektrik enerjisinə olan tələbatı daxili imkanlar hesabına tam ödənilir. Bundan başqa, muxtar respublikanın elektrik enerjisi ixrac etmək imkanları da ilbəil genişlənir.*

*Sonra dövlətimizin başçısı Naxçıvan Muxtar Respublikası ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İlham Əliyev:** Bu gün Naxçıvanda əlamətdar bir gündür. Biz «Arpaçay-1» və «Arpaçay-2» su-elektrik stansiyalarının açılışını qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu hadisə bir daha onu göstərir ki, bu gün Naxçıvan inamla, uğurla inkişaf edir. Naxçıvanda böyük infrastruktur layihələri icra edilir. Respublika çox dinamik inkişaf dövrünü yaşayır.

Bu gün səhər mən Naxçıvanda müxtəlif obyektlərin açılışında iştirak etmişəm. Bütün bu açılışlar ölkəmizin gücünü göstərir və Naxçıvanda görülən işlər ən yüksək səviyyədədir. Bu münasibətlə bütün Naxçıvan sakinlərini, Naxçıvan Muxtar Respublikasının rəhbərliyini ürəkdən təbrik edirəm.

Naxçıvan şəhəri gözəlləşir, abadlaşır, sosial proqramlar icra edilir, sosial infrastruktur layihələri uğurla həyata keçirilir. Əlbəttə ki, Naxçıvanın enerji təminatı məsələləri ön plandadır. Biz hamımız yaxşı xatırlayırıq ki, vaxtilə Naxçıvanı elektrik enerjisi ilə təmin etmək üçün çox böyük problemlər mövcud idi. Ulu öndərin rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyi məsələlərinin həllinə start verildi və bu gün biz bu siyasəti uğurla davam etdiririk. Son illərdə Naxçıvanda 5 elektrik stansiyası tikilib. Demək olar ki, Naxçıvanda enerji təhlükəsizliyi məsələləri tam şəkildə öz həllini tapıb. Son illərdə biz «Vayxır», «Biləv» su-elektrik stansiyalarının açılışlarını qeyd etmişik və bu gün Naxçıvanın enerji ilə təminatı su-elektrik stansiyalarının xətti ilə icra edilir. Bu da Naxçıvanı dünya miqyasında çox nadir bir respublika kimi təqdim edir. Çünki dünyada çox nadir hallarda daxili tələbat bərpa olunan enerji növləri hesabına təmin edilir. Bu gün Naxçıvanın reallıqları belədir ki, su-elektrik stansiyalarının fəaliyyəti sayəsində Naxçıvanın tam enerji təminatı həll edilib. Bu gün Naxçıvanın enerji potensialı 220 meqavata yaxındır və bu da imkan verir ki, eyni zamanda, Naxçıvanın ixrac potensialı da artsın.

Bu gün Azərbaycan reallıqları bundan ibarətdir. Vaxtilə başqa ölkələrdən elektrik enerjisini almaq üçün səylər göstərmiş Azərbaycan bu gün Naxçıvandan Türkiyəyə elektrik enerjisi ixrac edir. Bu ixrac getdikcə artır, daha da artacaqdır. Çünki gələcəkdə Naxçıvanın enerji potensialının artırılması üçün əlavə tədbirlərin görülməsi də nəzərdə tutulur. Buna ehtiyac var, çünki əhali artır. Naxçıvan əhalisi artıq 430 mindən çoxdur. Naxçıvanın sənaye istehsalı artır, yeni müəssisələr işə salınır, sosial məsələlər öz həllini tapır. Beləliklə, biz gələcəkdə Naxçıvanın dinamik inkişafını təmin etmək üçün yeni enerji güclərini yaratmalıyıq.

Bu gün Naxçıvan Muxtar Respublikası, demək olar ki, tam qazlaşdırılıbdır, qazlaşdırılma 100 faizə yaxındır. Elektrik enerjisi ilə təminat yüksək səviyyədə təşkil edilibdir. Yəni muxtar respublikanın enerji təhlükəsizliyi məsələləri tamamilə öz həllini tapıbdır. Bu gün dünyada enerji təhlükəsizliyi məsələləri, ümumiyyətlə, ön plana çıxır. Biz görürük ki, enerji təhlükəsizliyi məsələləri ölkələrin ümumi təhlükəsizlik məsələləri ilə sıx uzlaşır. Yəni özünü enerji təhlükəsizliyi baxımından rahat hiss etməyən ölkələr böyük problemlərlə üzləşirlər. Orada asılılıq yaranır. Azərbaycan öz enerji siyasətini ulu öndərin siyasəti sayəsində elə qurub ki, bu gün Azərbaycan tam enerji təhlükəsizliyini təmin edib, başqa ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində də öz rolunu oynayır və bu rol getdikcə artacaqdır.

Əlbəttə, Naxçıvanın enerji potensialının yaradılması və inkişafı həmişə gündəlikdə duran məsələ olubdur. Bu məsələ artıq həll edilib və deyə bilərəm ki, bu, tarixi hadisədir. «Arpaçay» su-elektrik stansiyalarının tikintisi də bu gün dövlətimizin gücünü göstərir. Çünki bu layihə texniki cəhətdən çox çətin bir layihədir. Bu layihəni Azərbaycan mütəxəssisləri, fəhlələri icra ediblər. Bu dağlar arasında tunel tikilibdir, qurğular yaradılıbdır. Layihənin icrası dövründə yeni bir təşəbbüs Naxçıvan Muxtar Respublikası rəhbərliyi tərəfindən irəli sürülmüşdür və «Arpaçay-2» stansiyasının tikintisi də artıq reallaşıbdır. Yəni budur bugünkü müasir yanaşma və budur Naxçıvanın inamlı inkişafı.

Qeyd etdiyim kimi, burada sosial, iqtisadi məsələlər uğurla həll edilir, Naxçıvanın hərbi gücü lazımi səviyyədədir. Bu gün Naxçıvana gətirilmiş yeni texnikanın nümunələri ilə tanış olmuşam. Respublikanın inkişafı üçün bütün işlər görülür, işsizlik, demək olar ki, aradan götürülübdür, yeni iş yerləri açılır. Yəni dinamik inkişaf təmin edilir.

Hər bir ölkənin, respublikanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının inamlı inkişafı üçün elektrik enerjisi birinci şərtdir. Siz energetiklər bunu yaxşı bilirsiniz. Enerji hər bir inkişafın təməlində dayanan ən vacib amildir və bu gün Azərbaycan və onun ayrılmaz hissəsi olan Naxçıvan bu məsələni tam şəkildə həll edibdir. Bu, böyük hadisədir, tarixi nailiyyətdir. Bu hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm, sizə yeni uğurlar, cansağlığı arzulayıram.

Sağ olun.

* * * *

*Sonda prezident İlham Əliyev tutumu 150 milyon kubmetr olan su anbarına baxdı.*

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**62-ci kitab: aprel 2014 - may 2014. - Bakı: Azərnəşr, 2018, S. 21-36.**

## SURAXANI GÜNƏŞ ELEKTRİK STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*(16 iyul 2014-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin «Azalternativenerji» Məhdud Məsuliyyətli Cəmiyyətinin Suraxanı Günəş Elektrik Stansiyasının açılışında iştirak etmişdir.

Son illər ölkəmizin həyatının bütün sahələrində irimiqyaslı layihələr uğurla icra edilir. Həyata keçirilən islahatlar nəticəsində iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən energetika sektorunda sürətli inkişafa nail olunub. Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin «Azalternativenerji» Məhdud Məsuliyyətli Cəmiyyətinin Suraxanı Günəş Elektrik Stansiyasının yaradılması da bu istiqamətdə görülən işlərin ardıcıl xarakter almasını bir daha sübut edir. Müasir avadanlıqlarla təchiz olunan stansiyada elektrik enerjisinin istehlakçıya itkisiz çatdırılması üçün bütün imkanlar yaradılıb.

«Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə müasirlikdir, yenilikdir, ekoloji cəhətdən təmiz texnologiyadır. Bu bizim gələcəyə baxışımızdır» – deyən prezident İlham Əliyev bu sahənin yaradılmasında tarixi işlər görüb.

Qeyd edək ki, ölkədə alternativ və bərpa olunan enerji sahəsində idarəetmə sisteminin təkmilləşdirilməsi məqsədilə dövlətimizin başçısının fərmanına əsasən 2013-cü ildə Azərbaycan Respublikasının Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi yaradılıb və bu sahənin inkişafını nəzərdə tutan bir sıra sənədlər imzalanıb, proqramlar qəbul olunub.

Son dövrdə alternativ və bərpa olunan enerjidən səmərəli istifadə, bu sahədə müasir infrastrukturun yaradılması baxımından mühüm işlər görülüb. Bütün bu işlər iqtisadiyyatda və sosial sahələrdə alternativ və bərpa olunan energetikanın tətbiqini genişləndirməyə imkan verib, bu cür enerjinin istehsalı, istehlakı və səmərəliliyi ilə bağlı tədbirlərin həyata keçirilməsinə hərtərəfli şərait yaradıb.

Azərbaycan bərpa olunan və alternativ enerji potensialı ilə zəngin ölkədir. Bərpa olunan və alternativ enerji mənbələrinin payını 2020-ci ilə qədər ümumi enerji istehsalının 20 faizinə çatdırmaq qarşıya məqsəd qoyulub.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlov burada görülən işlər barədə prezident İlham Əliyevə məlumat verdi.

Qeyd edildi ki, stansiyada təlim məntəqəsi fəaliyyət göstərir. Məntəqədə bu ixtisas üzrə təhsil alan tələbələr, həmçinin bu sahənin mütəxəssisləri üçün müxtəlif təlim kurslarının keçirilməsi nəzərdə tutulub. 6 hektar sahədə yaradılan stansiyada 8 min günəş paneli quraşdırılıb. Bu panellər gündə təqribən 12 min kilovat-saat elektrik enerjisi istehsal etmək iqtidarındadır. Gələcəkdə burada daha 4 min belə panelin quraşdırılması nəzərdə tutulur. Bu isə stansiyanın daha səmərəli fəaliyyət göstərməsi üçün geniş imkanlar açacaq.

İnşasına 2014-cü ilin martından başlanılan stansiya mayın 22-dən test rejimində çalışır. Bu müddət ərzində stansiyanın müəyyən qurğuları və onun müxtəlif rejimlərdə, o cümlədən qəza rejimində fəaliyyəti yoxlanılıb.

Dövlət başçısı stansiyanın idarəetmə mərkəzində oldu.

Mərkəzdən Qobustan Hibrid Elektrik Stansiyası, Suraxanı Günəş Elektrik Stansiyası, Biləsuvar qaçqın şəhərciyi, Masallı İdman Kompleksi, həmçinin Bakı şəhərində 5 məktəb və 2 poliklinikanın üzərində quraşdırılan günəş panellərinin fəaliyyətinə nəzarət etmək mümkündür. Yaxın gələcəkdə Sumqayıt, Samux, Səngəçal və Pirallahıda günəş elektrik stansiyalarının istifadəyə verilməsi nəzərdə tutulur. Mövcud stansiyaların fəaliyyəti nəticəsində 4 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunub, 1 milyon 300 min kubmetrə yaxın təbii qaza qənaət edilib.

Prezident İlham Əliyevə Suraxanı Günəş Elektrik Stansiyasının göstəriciləri barədə məlumat verildi.

Bildirildi ki, yaradılmasında əsasən yerli xammal və avadanlıqdan istifadə olunan stansiyanın layihə gücü 2800, stansiyada illik elektrik enerjisi istehsalı 4 milyon kilovatdır. Stansiya layihə gücü ilə tam işləyəndə il ərzində 1,5 milyon kubmetr qaza qənaət olunacaq.

Sonra dövlətimizin başçısına Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin səyyar laboratoriyasının fəaliyyəti barədə məlumat verildi.

Bu laboratoriya alternativ və bərpa olunan enerji mənbələrinin potensialını müəyyənləşdirmək üçün yaradılıb. Laboratoriya ən müasir və xüsusi avadanlıq, həmçinin avtonom enerji mənbəyi ilə təchiz olunub. Respublikanın müxtəlif yerlərinə aparılan laboratoriyanın köməyi ilə həmin ərazidə günəş, su, külək elektrik stansiyalarının quraşdırılmasının səmərəliliyi yoxlanılır. Dövlət Agentliyinin istehsalı olan səyyar günəş generatorları xüsusi əhəmiyyətə malikdir. Günəş panelləri ilə təchiz olunan bu avadanlıq əvəzsiz qurğudur. Avadanlıq günəşdən enerji alaraq onu saxlamaq imkanına malikdir. Agentlik hidrogen generatoru da istehsal edir. Bu qurğu ilə yüksək temperatur əldə etmək və qaz-qaynaq işləri aparmaq olur. Generatoru digərlərindən fərqləndirən onun ekoloji cəhətdən təmiz olmasıdır. Bu cihaz qaynaq işləri zamanı 3500 selsi temperaturla işləyir.

Prezident İlham Əliyev 2020-ci ilədək Azərbaycan Respublikasının alternativ və bərpa olunan enerji mənbələri üzrə inkişaf xəritəsinə baxdı. 2020-ci ilədək Azərbaycanın hər bir şəhər və rayonunda hibrid tipli elektrik stansiyalarının yaradılması qarşıya məqsəd qoyulub. Hazırda hansı bölgədə neçə stansiyanın quraşdırılması ilə əlaqədar araşdırmalar aparılır. Belə stansiyaların yaşayış yerlərinə yaxın yaradılması ilk növbədə, elektrik enerjisi itkisinin qarşısını alacaq və enerjinin istehlakçıya daha ucuz qiymətə çatdırılmasına imkan verəcək. Ümumilikdə, alternativ və bərpa olunan enerji mənbələrinin inkişafını təmin etmək məqsədilə 2020-ci ilədək qoyuluş gücü 2500 meqavat olan elektrik stansiyalarının hesabına ildə 11 milyard kilovat-saat elektrik enerjisi istehsalı nəzərdə tutulur ki, bu da il ərzində 3 milyard kubmetrə yaxın qaza qənaət etmək deməkdir. Araşdırmalar göstərir ki, alternativ və bərpa olunan enerji mənbələri sahəsinə yatırılan investisiyalar 7-8 il ərzində geri qayıdır.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin 2015-ci ilədək inkişaf layihələri ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, respublikanın müxtəlif bölgələrində ümumi qoyuluş gücü 300 meqavat olan elektrik stansiyalarının inşası nəzərdə tutulub.

Buzovna «Eko-kənd» layihəsi də mühüm əhəmiyyət kəsb edir. Layihənin reallaşması nəticəsində ərazinin elektrik enerjisi ilə təchizatı günəş panelləri hesabına təmin ediləcək. Bu isə elektrik enerjisinin istehsalı zamanı heç bir ekoloji problem yaratmayacaq. «Qobustan–2020» layihəsini isə pilot layihə hesab etmək olar. Layihə «Ağıllı şəbəkə» adlanan sistem vasitəsilə reallaşacaq. «Ağıllı şəbəkə» enerji itkisini azaltmaqla yanaşı, həm də istehlakçıya daha keyfiyyətli elektrik enerjisi ötürməyə imkan verəcək. Bu sistem Qobustanda hansısa bir ərazidə qəza baş verərsə, bütün rayonun deyil, məhz həmin ərazinin elektrik enerjisi ilə təchizatını dayandıracaq. Layihənin həyata keçməsi ilə Qobustan rayonu üzrə 212 kilometr elektrikötürücü xətlərinin qənaətinə imkan yaradılacaq və 94 komplekt transformator məntəqəsi ixtisara düşəcək. Layihə həm də müxtəlif ölçülü 11 su anbarının yaradılmasını nəzərdə tutur. Qobustanda günəş elektrik stansiyaları hesabına boru su kəmərləri vasitəsilə suvarılan torpaqların sahəsinin 5 min hektardan 50 min hektara çatdırılması nəzərdə tutulur. Layihə çərçivəsində burada bir sıra iqtisadi, kənd təsərrüfatı və sənaye obyektlərinin inşası planlaşdırılır.

Prezident İlham Əliyevə yolların və yaşayış binalarının işıqlandırılması ilə bağlı avtomatik idarəetmə sistemi barədə məlumat verildi. Bu sistemi reallaşdırmaqda məqsəd günün saatından asılı olaraq yolların və yaşayış binalarının müxtəlif rejimlərdə işıqlandırılmasıdır.

Belə ki, sistem yolları avtomobillərin intensivliyinə görə də işıqlandıra bilir. Bunun hesabına isə həm elektrik enerjisinə qənaət olunur, həm də yol istismar xərcləri aşağı düşür. Sistemin özəlliyi ondan ibarətdir ki, onun bütün intellektual proqramları Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyində hazırlanıb.

Görülən işlərlə tanış olan prezident İlham Əliyev kollektivlə xatirə şəkli çəkdirdi və müvafiq tapşırıq və göstərişlərini verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**64-cü kitab: iyul 2014 - sentyabr 2014. - Bakı: Azərnəşr, 2018, S. 23-27.**

## BÖYÜKŞOR GÖLÜNÜN VƏ ƏTRAF ƏRAZİLƏRİN EKOLOJİ VƏZİYYƏTİNİN KOMPLEKS BƏRPASI İŞLƏRİ İLƏ TANIŞLIQ

*(24 iyul 2014-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 24-də Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpası ilə bağlı görülən işlərlə tanış olmuşdur.

İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev görülən işlər barədə dövlət başçısına ətraflı məlumat verdi.

Bu layihə Prezidentin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»na və «Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və istifadəsi sahəsində əlavə tədbirlər haqqında» fərmanına uyğun olaraq həyata keçirilir. İlk Avropa oyunlarına aid tədbirlərin böyük əksəriyyəti Böyükşor gölünün şərq sahilində, hazırda tikilməkdə olan Bakı Olimpiya Stadionu Kompleksində keçiriləcək. Burada çoxsaylı qonaqların, idmançıların və turistlərin qəbul edilməsi gözlənilir. Bu baxımdan gölün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpası və Böyükşor bulvarının yaradılması xüsusi əhəmiyyət kəsb edir.

Qeyd edildi ki, gölün ekoloji bərpası layihəsi 2 mərhələdə həyata keçiriləcək. 2014–2015-ci illəri əhatə edən birinci mərhələdə işlər uğurla davam etdirilir. Gölün Olimpiya stadionunun yaxınlığında yerləşən 300 hektara yaxın ərazisi bərpa olunur. Bu mərhələdə gölün şimal hissəsinin tarixən neftlə çirklənmiş sahəsinin bənd vasitəsilə sahil xəttindən ayrılması nəzərdə tutulurdu. Artıq bəndləmə işləri yekunlaşıb. Bununla da neftin, çirklənmiş suyun və üzən tullantıların axınının qarşısı alınıb.

Göl üzərində ərazinin qərb sərhədini müəyyən edən 8 xətli magistral şose şəklində layihələndirilmiş bənd bir tərəfdən Ziya Bünyadov prospekti, digər tərəfdən Balaxanı–Binəqədi yolu ilə birləşdiriləcək. Bu da öz növbəsində, şəhərin yol infrastrukturuna düşən yükü azaldacaq. Torpaq bəndin inşası cədvəl üzrə davam etdirilir və işlərin növbəti ilin ilk rübündə başa çatdırılması planlaşdırılır. Eyni zamanda, 100 ildən artıq müddətdə göl dibinə yığılmış çirkli çöküntülərin çıxarılması və zərərsizləşdirilməsi işləri görülür. Layihə üzrə ilkin mərhələdə 2,8 milyon kubmetr həcmində çöküntünün 100 min kubmetrdən çoxu təmizlənib. Gölün mühafizə zonası da daxil olmaqla, ciddi mühafizə işi təşkil edilib, göl və sahil xətlərinin məişət və tikinti tullantıları ilə çirklənməsinin qarşısı tamamilə alınıb. Böyükşor gölünün cənub sahilində geniş abadlıq-quruculuq işləri aparılır, 16 hektara yaxın ərazidə park və yaşıllıq salınır. Gələn ilin birinci yarısında şərq sahil xətti boyunca Böyükşor bulvarının 1 kilometrədək hissəsi salınacaq və buradan stadion ərazisinə keçid təmin olunacaq.

Bildirildi ki, Böyükşor gölünün tam bərpası üzrə ikinci mərhələ 2015–2020-ci illəri əhatə edəcək. Bununla da göl öz təbii tarixi məcrasına qaytarılacaq, su səviyyəsi tənzimlənəcək və ekosistem bərpa olunacaq. Beynəlxalq ekspertlərin qiymətləndirmələrinə əsasən Böyükşor gölü dünyada çirklənmiş ən mürəkkəb göllərdən hesab edilir. Qısa müddətdə görülmüş işlər nəticəsində suyun keyfiyyət göstəricilərinin dinamikası müsbətə doğru dəyişib.

Prezident İlham Əliyev layihənin ekoloji əhəmiyyətini yüksək qiymətləndirdi, müvafiq tapşırıq və tövsiyələrini verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**64-cü kitab: iyul 2014 - sentyabr 2014. - Bakı: Azərnəşr, 2018, S. 82-83.**

## FÜZULİDƏ MİL-MUĞAN HİDROQOVŞAĞININ FƏALİYYƏTİ İLƏ TANIŞLIQ

*(28 avqust 2014-cü il)*

Prezident İlham Əliyev avqustun 28-də Füzuliyə səfəri çərçivəsində Mil-Muğan hidroqovşağının fəaliyyəti ilə tanış olub.

"Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə Prezident İlham Əliyevə Mil-Muğan hidroqovşağı barədə məlumat verdi. Qeyd olundu ki, keçmiş SSRİ və İran dövləti arasında 1963-cü ildə imzalanmış "Texniki iqtisadi sahədə əməkdaşlıq haqqında" Sazişə əsasən Füzuli rayonunun Horadiz qəsəbəsi yaxınlığında Araz sərhəd çayının üzərində inşa olunmuş Mil-Muğan hidroqovşağı 1972-ci ildə istismara verilib. Hidroqovşağın tikilməsində məqsəd Araz çayının nizamlanmış axınından Azərbaycan və İran tərəflərinin birgə istifadəsi ilə 200 min hektar, o cümlədən Azərbaycanda 120 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin etmək olub. Sazişə əsasən Mil-Muğan hidroqovşağından 921 milyon kubmetr su götürülməsi və ekoloji vəziyyətin qorunması üçün 1 milyard kubmetr suyun çaya buraxılması nəzərdə tutulmuşdu.

Bildirildi ki, burada bəndin su tənzimləyən hissəsinin uzunluğu 136 metrdir. Onun üzərində eni 12 metr olan 6 suburaxıcı, eləcə də hər iki tərəfə su vermək üçün eni 5 metr, hündürlüyü 3,5 metr olan 4 suqəbuledici qapı layihələndirilib. Hidroqovşağın Azərbaycan tərəfində uzunluğu 1850 metr olan torpaq bəndləri tikilib. Hidroqovşaq sel vaxtı saniyədə 2700 kubmetr su buraxmaq qabiliyyətinə malikdir. MilMuğan hidroqovşağından götürülən suyun Baş Mil kanalı ilə Yuxarı Mil, Yeni Xanqızı və digər kanallara ötürülməsi, beləliklə də Füzuli, Beyləqan, Ağcabədi və İmişli rayonlarında 120 min hektara yaxın əkin sahəsinin su ilə təmin edilməsi nəzərdə tutulub. Baş Mil kanalından su götürən Yuxarı Mil kanalının tikintisi "Meliorasiya və Su Təsərrüfatı" ASC tərəfindən davam etdirilib və 2012-ci ildə onun 11 kilometrə yaxın hissəsi istifadəyə verilib. Bu da Beyləqan və Ağcabədi rayonlarının inzibati ərazilərində 4800 hektar sahədə pilot taxılçılıq təsərrüfatının yaradılmasına imkan verib. Taxılçılıq təsərrüfatının inkişafı məqsədilə ötən il kanalın daha 5 kilometrə yaxın hissəsi və onun üzərində Füzuli rayonunun ərazisində nasos stansiyası tikilib, bununla da 4 min hektar torpaq sahəsinə suvarma suyunun çatdırılması mümkün olub. Kanalın tikintisinin davam etdirilməsi nəticəsində 20 min hektara yaxın, o cümlədən Ağcabədi rayonunun 7637 hektar torpaq sahələri suvarma suyu ilə təmin ediləcək. Yuxarı Mil kanalı üzərində inşa olunan ikinci nasos stansiyası vasitəsilə bu il daha 1725 hektar əkin sahəsi suvarma suyu ilə təmin ediləcək.

Prezident İlham Əliyevə Füzuli və Beyləqan rayonlarının əkin sahələrinin su təminatı barədə də məlumat verildi. Qeyd olundu ki, Füzuli rayonunda hazırda 31.305 hektar suvarılan sahələr mövcuddur. Bu sahələrin 6300 hektarında meliorasiya tədbirləri həyata keçirilib. Əkin sahələrinin su təminatı 1378 kilometr suvarma kanalları, 87 subartezian quyusu və 56 nasos stansiyası vasitəsilə həyata keçirilir. Kollektor-drenaj şəbəkəsinin uzunluğu 259 kilometrdir. Artıq rayonun Qayıdış və Örənqala qəsəbələrində məskunlaşmış məcburi köçkün ailələrinə ayrılmış pay torpaqları suvarma suyu ilə təmin edilib. Ötən il Füzulidə 10, o cümlədən dövlətimizin başçısının müvafiq Sərəncamına əsasən 7 subartezian quyusu istismara verilib. Bu il isə rayon ərazisində 12 subartezian quyusunun qazılması başa çatdırılıb. Beyləqan rayonunda isə hazırda 50497 hektar suvarılan sahələr mövcuddur. Bu sahələrin 36548 hektarında meliorasiya tədbirləri həyata keçirilib. Əkin sahələrinin su təminatı 1268 kilometr suvarma kanalları, 88 subartezian quyusu, 7 nasos stansiyası vasitəsilə həyata keçirilir. Kollektor-drenaj şəbəkəsinin uzunluğu 1277 kilometrdir. Ötən il rayonda 4, bu il isə 6 subartezian quyusunun qazılması başa çatdırılıb.

**AZƏRTAC**
**2014, 29 avqust**

## ŞƏMKİRÇAY SU ANBARININ AÇILIŞI MƏRASİMİ

*(15 noyabr 2014-cü il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Şəmkir rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Şəmkir şəhərinin mərkəzindəki abidəsi önünə gül dəstəsi qoydu.*

*Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov son vaxtlar rayonda görülən işlər barədə prezident İlham Əliyevə məlumat verdi.*

* * * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də su-elektrik stansiyası ilə birgə Şəmkirçay su anbarının açılışı mərasimində iştirak etmişdir.*

*«Azərbaycan Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə dövlətimizin başçısına Şəmkirçay su anbarının planı, Şəmkirçay magistral suvarma kanallarının sxemi, Şəmkirçay üzərində dəryaçanın tikintisinin əsas göstəriciləri, bəndin baş planı və digər qurğular barədə ətraflı məlumat verdi.*

*Prezident İlham Əliyevə Azərbaycandakı mövcud su anbarlarının xəritəsi nümayiş etdirildi.*

*Dövlətimizin başçısı su-elektrik stansiyası ilə birgə Şəmkirçay su anbarının açılışını bildirən düyməni basdı.*

*Prezident İlham Əliyevə su-elektrik stansiyası barədə məlumat verildi. Qeyd edildi ki, stansiyanın gücü 25 meqavat olacaq. Stansiyada ildə 56 milyon kilovat elektrik enerjisinin istehsalı nəzərdə tutulur.*

*Sonra dövlətimizin başçısına Şəmkirçay su anbarı, əsas hidrotexniki qurğular, o cümlədən magistral kanallar barədə məlumat verildi. Zəngin təbiəti ilə seçilən bu ərazidə 2008-ci ildən bəri peşəkarcasına və beynəlxalq standartlara uyğun olaraq böyük həcmdə iş aparılıb.*

*Bildirildi ki, gil nüvəli mərkəzi bəndin daha möhkəm və etibarlı olması üçün daş-qaya materialından istifadə edilib. Şəmkirçay su anbarının ümumi su tutumu 164,5 milyon kubmetr, faydalı həcmi isə 156,3 milyon kubmetrdir. Şəmkirçay su anbarı bəndinin nüvə hissəsindən hündürlüyü 196 metrdir. Layihəyə əsasən orta illik su ehtiyatı 265,2 milyon kubmetr olan Şəmkirçayın sularını bu anbarda nizamlamaqla, ildə 207,9 milyon kubmetr sudan istifadə olunacaq. Layihəyə uyğun olaraq su anbarında nəqledici, qəza sutullayıcı və təzyiqli enerji tunelləri tikilib.*

*Diqqətə çatdırıldı ki, Şəmkirçay su anbarında yığılan suyu əkin sahələrinə nəql edəcək əsas magistral kanal, sağ və sol sahil magistral kanalları, həmçinin maşın kanalı üçün qidalandırıcı kanal inşa olunub. Ən müasir standartlara cavab verən həmin kanallar açıq dəmirbeton üzlüklüdür. Dövlətimizin başçısının tapşırığına əsasən aparılan dəqiqləşdirmə nəticəsində Şəmkir, Göygöl, Samux və Goranboy rayonlarında su təminatı yaxşılaşdırılacaq 54 248 hektar və yeni suvarılacaq 17 147 hektar torpaq sahələrinin olduğu müəyyənləşdirilib. Şəmkirçay su anbarından Gəncə və Şəmkir şəhərlərinə, Samux rayonunun Nəbiağalı qəsəbəsinə saniyədə 1,6 kubmetr su verməklə, əhalinin içməli su təchizatı və layihənin əhatə etdiyi ərazidə ekoloji vəziyyət əsaslı şəkildə yaxşılaşacaq. Ümumilikdə Şəmkirçay su anbarı regionların sosial-iqtisadi inkişafına olduqca vacib töhfədir və müstəqillik illərində reallaşdırılan ən mühüm layihələrdən biri kimi, Azərbaycanın müasir tarixində mühüm yer tutacaq.*

*Sonra dövlətimizin başçısı Şəmkirçay su anbarının istifadəyə verilməsi münasibətilə keçirilən mərasimin iştirakçılarını təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Biz bu gün Şəmkirçay su anbarının açılışını qeyd edirik. Bu münasibətlə sizin hamınızı ürəkdən təbrik edirəm. 5 il əvvəl biz burada bu nəhəng infrastruktur obyektinin təməl daşını qoyduq. 5 il ərzində çox gərgin iş aparılıb və bu işin nəticəsində biz bu gün bu gözəl infrastruktur obyektinin açılışını qeyd edirik. Bu işin icrasında iştirak etmiş bütün insanlara – inşaatçılara, mühəndislərə minnətdarlığımı bildirirəm. Bu, Azərbaycanın gələcək inkişafı, iqtisadi inkişafımız üçün əvəzolunmaz bir infrastruktur obyektidir.

Şəmkirçay su anbarı, su-elektrik stansiyası, su kanalları vahid bir kompleks təşkil edir. Bu infrastruktur obyektinin fəaliyyəti nəticəsində ölkə iqtisadiyyatına, kənd təsərrüfatına, sahibkarlığın inkişafına çox böyük dəstək veriləcək. Bu su anbarının fəaliyyəti nəticəsində 54 min hektar torpaqda suvarma yaxşılaşdırılacaq, 17 min hektar torpaq isə yenidən suvarılacaq. Yəni bu, kənd təsərrüfatının inkişafı üçün çox böyük əhəmiyyət daşıyan obyektdir. Fermerlər bundan səmərəli şəkildə istifadə etməlidirlər. Əminəm ki, belə də olacaq. Yeni suvarılacaq sahələrdə bəri başdan düzgün planlaşdırma işləri aparılmalıdır ki, orada hansı məhsullar yetişdiriləcək, o məhsullar hansı bazarlara ixrac olunacaq. Hesab edirəm ki, biz bu məsələlərə indidən kompleks şəkildə yanaşmalıyıq və əslində artıq müəyyən işlər görülmüşdür. Bu gün Şəmkir rayonunda böyük aqroparkın təməli də qoyulacaq və əgər bu su anbarı tikilməsəydi, o aqropark da tikilməzdi. Çünki oraya da çox böyük həcmdə investisiya qoyulacaq və əsas şərt suvarılan ərazilərdir.

Bu çox böyük investisiyatutumlu layihədir. 700 milyon manatdan çox dövlət vəsaiti qoyulmuşdur və Taxtakörpü su anbarından sonra qeyri-neft sektoruna qoyulan ikinci böyük investisiyadır. Biz keçən ilin sonunda Taxtakörpü su anbarının və kanalların açılışını qeyd etdik. O, 1 milyard manat dəyərində olan layihədir. Bu gün isə biz Şəmkirçay su anbarının açılışını qeyd edirik. Bu iki mühüm layihə, əlbəttə ki, bugünkü Azərbaycanın gücünü və bizim siyasətimizin istiqamətini göstərir. Çünki bu gün kənd təsərrüfatını, sahibkarlığı inkişaf etdirmək üçün dövlət tərəfindən böyük vəsait qoyulur, böyük işlər görülür. Dövlət qeyri-neft sektorunun inkişafına böyük investisiyalar qoyur. Sahibkarlığın inkişafı üçün hər il güzəştli şərtlərlə kreditlər verilir. Son illərdə iqtisadiyyatın real sektoruna kredit şəklində 200 milyon manatdan çox vəsait qoyulub.

Sahibkarlığı inkişaf etdirmək üçün hər il mənim rəhbərliyimlə geniş müşavirə keçirilir, həm siyasi dəstək verilir, həm iqtisadi məsələlər öz həllini tapır. İnfrastruktur layihələri – elektrik stansiyaları, kənd yolları, içməli su layihələri – bütün bu layihələr ölkəmizin çoxşaxəli inkişafını təmin edir və regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının tərkib hissəsidir.

Bildiyiniz kimi, birinci proqram 2004-cü ildə qəbul edilmişdir. Hazırda üçüncü proqram icra edilir. 2018-ci ilə qədər ölkəmizdə üçüncü proqramın icrası nəticəsində əsas infrastruktur və sosial məsələlər həllini tapacaqdır.

Kənd təsərrüfatının, sahibkarlığın inkişafı isə bizim üçün prioritet istiqamətlərdir. Biz ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin etməliyik. Bu istiqamətdə çox önəmli addımlar atılır. Özümüzü əsas ərzaq məhsulları ilə 100 faiz təmin etmək üçün biz artıq bu hədəfə yaxınlaşırıq. Ərzaq təhlükəsizliyimizin tam şəkildə təmin edilməsi, ixrac potensialımızın artırılması gələcəkdə həm iş yerlərinin yaradılmasına, həm də insanların rifah halının yaxşılaşmasına xidmət edəcəkdir.

Hazırda biz yeni ixrac bazarlarına çıxmaq üçün çalışırıq. Yeni imkanlar var və biz bu imkanlardan səmərəli şəkildə istifadə etməliyik. Əlbəttə ki, kənd təsərrüfatı məhsullarımızı ixrac bazarlarının mümkün olan və gələcəkdə mümkün olacaq potensialına da uyğunlaşdırmalıyıq. Bütün işlər planlı şəkildə aparılır. İlk növbədə, daxili tələbat 100 faiz daxili istehsal hesabına təmin edilməlidir. Bununla paralel olaraq biz yeni bazarlara və ənənəvi bazarlara daha böyük həcmdə məhsulla çıxmalıyıq. Beləliklə, növbəti illərdə kənd təsərrüfatının inkişafı dinamik olacaq, bölgələrdə iş yerləri açılacaq, işsizlik daim çox aşağı səviyyədə olacaq. Görülən tədbirlər və xüsusilə regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində

bu gün Azərbaycanda işsizlik 5 faiz səviyyəsindədir. Son 10 il ərzində 1 milyon 300 min yeni iş yeri açılmışdır ki, bu da özlüyündə ölkəmiz üçün böyük imkanlar yaradır.

Sahibkarlığın inkişafı diqqət mərkəzindədir. Hesab edirəm ki, sahibkarlar da bu gözəl imkanlardan istifadə edəcəklər. Biz bu gün paralel olaraq su-elektrik stansiyasının açılışını qeyd etdik. Bu da çox gözəl layihədir. Azərbaycan öz enerji təhlükəsizliyini tam şəkildə təmin etmişdir və bu gün başqa ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasında fəal iştirak edir, böyük rol oynayır. Bu rol getdikcə artacaq, ancaq eyni zamanda, biz çalışmalıyıq ki, öz enerji güclərimizi artıraq, o cümlədən bərpa olunan enerji növləri hesabına. Bu istiqamətdə də böyük işlər görülür. Su-elektrik stansiyaları tikilir. Artıq kiçik olsalar da, günəş elektrik stansiyaları tikilməkdədir. Ancaq bərpa olunan enerji növləri arasında, əlbəttə ki, hidroenergetika prioritet təşkil edir. Son illərdə bir neçə gözəl layihə icra edilmişdir. Taxtakörpü su anbarında 25 meqavat gücündə elektrik stansiyası fəaliyyətə başlamışdır. Füzuli rayonunda 25 meqavat gücündə stansiya tikilmişdir. Naxçıvanda, Ordubad rayonunda böyük stansiya tikilmişdir. Naxçıvan Muxtar Respublikasını, demək olar ki, 100 faiz bərpa olunan enerji növləri ilə təmin etmək üçün böyük işlər görülmüşdür. Biz artıq bu məqsədə də çox yaxınıq. Bu gün burada, Şəmkirdə 25 meqavat gücündə su-elektrik stansiyası fəaliyyətə başlayır. Yeni stansiyaların tikintisi də mümkündür və biz bu məsələlərə də baxacağıq. Biz burada bu obyektin enerji potensialını bəlkə də 45 meqavata çatdıra bilərik. Bu, əlbəttə ki, ekoloji cəhətdən ən təmiz, eyni zamanda, ən ucuz enerji növüdür. Bu bizə imkan verəcək ki, neft-qaz resurslarımızı xarici bazarlara daha da böyük həcmdə ixrac edək.

Bax, Azərbaycan dövlətinin bu işlərə yanaşması bundan ibarətdir. Biz enerji, nəqliyyat təhlükəsizliyimizi təmin etmişik. Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri Azərbaycanın üzərindən keçir. Böyük infrastruktur layihələrini icra etmişik.

Yeni dəniz ticarət limanı – onun birinci hissəsi artıq fəaliyyətə başlamışdır. Yeni gəmilər alınır. Dəmir yoluna, hava nəqliyyatına böyük investisiyalar qoyulur. Yeni aeroportlar tikilir, ən müasir təyyarələr alınır, yeni marşrutlar açılır. Bakı–Tbilisi–Qars dəmir yolu – bu da tarixi layihədir, artıq reallaşır, onun başa çatmasına az qalıb. Yəni nəqliyyat infrastrukturu bundan ibarətdir.

Coğrafi vəziyyətimiz elədir ki, biz nəinki regionda, dünya miqyasında nəqliyyat mərkəzi olmalıyıq. Bu yaxınlarda Şimal–Cənub nəqliyyat dəhlizinin reallaşması və Şərq–Qərb qədim İpək yolunun bərpası üçün önəmli qərarlar verilmişdir. Bununla yanaşı, ərzaq, enerji və nəqliyyat təhlükəsizliyi bizim əsas məsələlərimizdir. Bu məsələlərin həlli, həmçinin regional əməkdaşlığa da böyük təkan verəcək.

Azərbaycan regional əməkdaşlıq məsələlərində lider rolunu oynayır. Burada nəqliyyat, energetika, təbii qaz layihələri, əlbəttə ki, üstünlük təşkil edir və bütün bu məsələlər nəticədə regional təhlükəsizliyin möhkəmlənməsinə xidmət göstərir. Bir daha demək istəyirəm ki, Azərbaycanda bütün bu işlərə dövlət dəstəyi verilir. Bütün bu layihələr planlı şəkildə icra edilir. Şəmkirçay su anbarının, su-elektrik stansiyasının və su kanallarının tikintisi ilə bağlı hələ 2005-ci ildə mən sərəncam imzalamışdım. Ondan sonra işlər başlanmış, texniki-iqtisadi əsaslandırma hazırlanmışdır. Xarici podratçı kontraktorlar seçilmişdir və işlər başlanmışdır.

Ancaq uzunmüddətli strategiyanı düzgün müəyyən etdikdə biz gözəl nəticələrə çata bilərik. Çünki bu nəhəng infrastruktur layihələri çox vaxt aparır. Ona görə 2005-ci ildə sərəncam imzalandı, 2009-cu ildə işlər başlandı, 2014-cü ildə isə biz artıq bu layihənin başa çatmasını qeyd edirik. Bu, yüzilliklər ərzində Azərbaycana xeyir gətirəcək, iqtisadi potensialımızı möhkəmləndirəcək. Əlbəttə ki, su kanallarının tikintisi bundan sonra da davam etdirilməlidir. Hazırda tikilən kanallar dediyim həcmdə yeni torpaq sahələrini əhatə edəcək. Ancaq yeni, gələcək planlar var və biz suvarılan torpaqların həcmini daha da artıra bilərik.

Kanalların tikintisi nəticəsində təqribən 20, bəlkə də 30 min hektar əlavə torpaq sahəsi suvarıla bilər. Bu layihə 4 rayonun sahəsini əhatə edir – Şəmkir, Göygöl, Samux, Goranboy. Bu rayonlarda kənd təsərrüfatının inkişafı, əlbəttə ki, bu layihənin icrası nəticəsində daha da sürətlə gedəcək. Bir məqamı da qeyd etmək istəyirəm, eyni zamanda, bu layihədən insanlar da içməli su kimi istifadə edəcəklər. Şəmkir və Gəncə şəhərlərinə, o cümlədən Samux rayonunun bir neçə yaşayış məntəqəsinə içməli su veriləcək. Bu, təmiz içməli sudur, keyfiyyətlidir, təbiidir və bu layihə də böyük Şəmkirçay kompleksinin tərkib hissəsidir.

Suvarma, meliorasiya, kənd təsərrüfatı, sahibkarlıq, enerji təhlükəsizliyi, içməli su, insanların sağlamlığı və inkişaf – bax, budur bir layihədə cəmləşən amillər. Bir daha onu demək istəyirəm ki, ancaq Azərbaycan dövlətinin güclü iradəsi, düşünülmüş, planlı şəkildə apardığı siyasət nəticəsində bu layihələrin icrası mümkün olmuşdur. Dünyada maliyyə və iqtisadi böhran davam edir. İnvestisiya qoyuluşu xeyli dərəcədə aşağı düşüb. Bəzi ölkələrdə maliyyə böhranı kəskinləşir. Neft-qaz ilə zəngin olan ölkələr də yəqin ki, neftin qiymətinin kəskin şəkildə düşməsindən narahatdırlar, bu da təbiidir.

Ancaq buna baxmayaraq, Azərbaycan böyük infrastruktur, investisiya layihələrini icra edir. Nə üçün? Çünki bizim xalqımıza, dövlətimizə lazımdır. Dövlətimiz daha da güclü olmalıdır. İqtisadiyyat daha da çoxşaxəli olmalıdır. Neft-qaz amilindən asılılıq daha da azalmalıdır. Biz bu layihələrin icrası ilə bir daha göstəririk ki, ancaq müstəqillik dövründə Azərbaycan sürətlə inkişaf edə bilər. 250 ilə yaxındır ki, Azərbaycan nefti dünyada tanınır. Hasilatın əvvəlində dünya üzrə neftin bəlkə də 70 faizi Azərbaycanın payına düşürdü. İkinci dünya müharibəsi zamanı Azərbaycan nefti sovet enerji potensialının 70–80 faizini təşkil edirdi.

Ancaq Azərbaycan müstəqilliyə qovuşanda bizim vəziyyətimiz necə idi?! Neft sənayesi dağılmış vəziyyətdə idi. Köhnə yataqlarda iş getmirdi. Hər tərəf ekoloji fəlakətə bənzəyirdi. Bakının ətrafını yada salaq. Bibiheybət mədənləri ekoloji bir fəlakət idi. «Qara şəhər», Böyükşor gölü, digər Balaxanı mədənləri nə gündə idi?! Bizə, müstəqil dövlətə bu qaldı. Neftin hasilatı kəskin şəkildə aşağı düşmüşdü. Biz özümüzü təbii qazla təmin edə bilmirdik. Baxmayaraq ki, sovet vaxtında Azərbaycandan təbii qaz həm Ermənistana, həm Gürcüstana ötürülürdü, biz isə təbii qazı xaricdən almağa başlamışdıq. Bu idi müstəqilliyimizin əvvəlində müşahidə olunan mənzərə. Ona görə bir daha demək istəyirəm ki, biz buna ancaq müstəqillik dövründə nail ola bilmişik. Çünki bizim taleyimiz öz əlimizdədir.

Azərbaycan xalqı söz sahibidir. Azərbaycan xalqın iradəsi ilə idarə olunur. Azərbaycan dövləti lazım olan belə nəhəng layihələri xalqımız, dövlətimiz üçün icra edir və bundan sonra da edəcək. Çünki biz güclü dövlətik. Biz son illərdə iqtisadi və siyasi islahatlar nəticəsində dünya miqyasında böyük hörmət qazanmışıq. Davos İqtisadi Forumunun hesablamalarına görə biz rəqabətqabliyyətlilik üzrə dünya miqyasında 38-ci yerdəyik. Biz beynəlxalq nüfuz qazanmışıq və 2 il dünyanın ən mötəbər qurumu – BMT Təhlükəsizlik Şurasının üzvü kimi fəaliyyət göstərmişik və prinsipial ədalətə, beynəlxalq hüquqa söykənən mövqemizi orada ifadə etmişik. Budur müstəqilliyin nəticələri və Azərbaycan xalqı bunu görür, bilir, qiymətləndirir.

Biz xalq üçün, dövlətimizin möhkəmləndirilməsi üçün çalışırıq və bundan sonra da çalışacağıq. Əminəm ki, gələcəkdə belə böyük layihələrin sayı artacaq. Bizim böyük planlarımız var. Gələcəyə baxışlarımız çox nikbindir. Azərbaycanın inamlı, sürətli inkişafı davam edəcək və biz bütün məqsədlərə çatacağıq.

Mən bu gözəl gündə bu nəhəng infrastruktur obyektinin tikintisində iştirak etmiş bütün dostlara, yoldaşlara bir daha minnətdarlığımı bildirirəm. Bütün Azərbaycan xalqını Şəmkirçay su anbarı kompleksinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Sağ olun.

**Əhməd Əhmədzadə** *(«Azərbaycan Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri):* Möhtərəm cənab Prezident!

Hörmətli tədbir iştirakçıları!

Bu gün doğrudan da müstəqil Azərbaycanın tarixində yeni bir səhifə yazılır. Azərbaycanın coğrafiyasını çox gözəlləşdirəcək, dəyişdirəcək 2 böyük obyekt bu gün cənab Prezidentin iştirakı ilə istifadəyə verilir.

Cənab Prezidentin çıxışından sonra danışmaq çox çətindir. Çünki cənab Prezident bu məsələləri o qədər ətraflı şərh etdi ki, ondan sonra layihə və görülən işlər haqqında nə isə demək çətindir. Şəmkirçay su anbarının tikilməsi ideyası ulu öndərimiz Heydər Əliyev tərəfindən irəli sürülmüşdü. Hələ o vaxt – 1981-ci ildə bunun texniki-iqtisadi əsaslandırılması yaranmışdı.

Uzun müddət – sovetlər dövründə də, sonrakı dövrdə də ölkənin imkanı olmadığı üçün tikintiyə başlamaq mümkün olmamışdır. Amma cənab Prezident bu layihənin həm müəllifi, həm də icra edilib başa çatdırılmasının təşkilatçısı oldu. Ona görə də bu layihəni bizdən daha yaxşı bilir. Biz ona layihə haqqında məlumat verəndə çox çətinlik çəkirik. Uzun müddət bu sahədə işləyən, təcrübəsi olan bir adam kimi, mən çətinlik çəkirəm. Çünki elə suallar verir ki, fikirləşirsən, yəqin cənab Prezident hidrotexnik təhsili alıb, ona görə də hidrotexnikanı bu dərəcədə bilir.

Bu kompleksin özülü qoyulandan bu günədək, layihənin müzakirəsindən tutmuş, tikintinin başa çatmasınadək bütün işləri nəzarətdə saxlayıb və bu gün gəlib burada bu açılışı etməyi, işçilərin əməyini yüksək qiymətləndirməyi bizi çox fərəhləndirir. Cənab Prezident, biz hamımız Sizə minnətdarıq ki, Siz Azərbaycan xalqı üçün bu qədər böyükmiqyaslı işlər görürsünüz. Sözün açığı, Taxtakörpü su anbarı, Samur–Abşeron suvarma sisteminin yenidən qurulması layihələri həyata keçiriləndən sonra fikirləşmirdim ki, bunlarla paralel ikinci böyük tikintiyə başlamaq olar. Bu tikintiyə ancaq güclü dövlətin gücü çata bilər, bunu ancaq cəsarətli və güclü rəhbərin iradəsi edə bilər. Biz Sizə minnətdarıq, cənab Prezident!

Bütün sahələrdə olduğu kimi, cənab Prezident, burada da təxminən 10 il əvvəl Sizin söylədiyiniz bir fikir bizim üçün örnək olub. Biz o fikri yadınıza salırıq. Siz o vaxt bir layihənin müzakirəsi zamanı dediniz ki, bizim əvvəllər tikmək imkanımız yox idi, amma indi imkanımız var, tikməməyə və pis tikməyə ixtiyarımız yoxdur. Biz həmin devizi həmişə yadda saxlamağa çalışmışıq və çalışırıq ki, tikək, Sizin tapşırıqları vaxtında yerinə yetirək, özü də keyfiyyətlə yerinə yetirək. Siz doğrudan da Azərbaycan üçün möcüzələr yaradırsınız. Biz çalışmışıq ki, Siz bu gün belə bir tikintiyə baxasınız, sevinəsiniz. Biz ona çalışmışıq, bilmirəm nə dərəcədə nail olmuşuq, amma verdiyiniz qiymətə görə bir daha Sizə minnətdarıq.

Təkcə bu sahə deyil, başqa sahələrdə də çoxlu meliorasiya tədbirləri görülür – istər taxılçılıq təsərrüfatlarının yaradılması, istər köhnə hidrotexniki qurğuların bərpa olunması sahəsində. Mən burada bir sirri deyim ki, qoy Azərbaycan xalqı bilsin. 2013-cü ildə mən cənab Prezidentdən xahiş etdim ki, əgər icazə versəniz, 50 kənddə quyu qazarıq. Soruşdu ki, nə üçün 100 yox, 50? Dedim ki, Siz icazə versəniz sayını artırarıq. Cənab Prezident 50 əvəzinə 107 quyu qazmağı tapşırdı. Biz bu tapşırığı 2013-cü ildə yerinə yetirdik. Bu ilin yanvarında yenə söhbətimiz olanda daha 100 quyunun qazılmasına icazə verilməsini xahiş etdim. Cənab Prezident dedi ki, niyə 100, niyə 250 yox? Və 250 quyunun qazılmasına sərəncam verdi. Mən, cənab Prezident, Sizə məruzə edirəm ki, həmin 250 quyu dekabr ayında tam qazılıb istifadəyə veriləcək. 250 quyu 250 kəndin, yaşayış məntəqəsinin sevincidir. Bu, Azərbaycanın bütün bölgələrini, rayonlarını əhatə edən bir layihədir. Biz ona görə də Sizə çox minnətdarıq.

Sizin tapşırığınızla biz böyük meliorasiya tədbirləri barədə plan hazırlayıb Nazirlər Kabinetinə təqdim etmişik. Tapşırığınız ondan ibarətdir ki, Azərbaycanda kənd təsərrüfatının intensiv və ekstensiv üsulla inkişafı təmin edilsin, Azərbaycan iqtisadiyyatının inkişafı təmin olunsun. Bu da həm mövcud meliorasiya potensialından istifadə olunmasını, həm də ekstensiv inkişaf yolu ilə yeni sahələrin artırılması məsələsini əhatə edir. Biz layihəni hazırlayıb

Nazirlər Kabinetinə təqdim edəndən sonra özümüz də fikirləşdik ki, işin həcmi böyükdür. Amma bir məsələni qeyd edim ki, 11 il bundan qabaq ulu öndərimiz xalqımıza müraciətində demişdir: «Mən İlham Əliyevə özümə inandığım qədər inanıram». O inam artıq 11 ildir tam sübuta yetirilib. Siz o inamla Azərbaycan xalqının özünəinamını, özünə güvənini artırdınız. Xalqımız əldə olunmuş uğurlara görə Sizə minnətdarlığını bildirir.

Biz bu böyük dünyada yaşayırıq. Bu dünyada böyüklü-kiçikli dövlətlər çoxdur. Onların əksəriyyətinin rəhbərlərinin reytinqi seçiləndən bəri 2 dəfə aşağı düşüb. Amma mən xalqın qarşısında deyirəm ki, Sizin reytinqiniz yüzə-yüz artıb. Görülən bu işlərə görə xalq Sizi sevir. Biz də o inamla o layihəni təqdim etmişik ki, gələcəkdə Siz bunları bizə tapşıracaqsınız və biz də onları dövlətimizin dəstəyi ilə həyata keçirəcəyik.

Biz Sizə minnətdarıq. Melioratorlarımız, inşaatçılarımız Sizin rəhbərliyiniz altında işləməkdən çox zövq alırlar. Sizin tapşırıqlarınızı yerinə yetirmək üçün həmişə hazırıq.

Diqqətinizə görə sağ olun.

**Azər Əmiraslanov** *(«Vətən-Az» Məhdud Məsuliyyətli Cəmiyyətin direktoru):* Möhtərəm cənab Prezident!

Hörmətli mərasim iştirakçıları!

Bu gün biz ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edən böyük bir hadisənin şahidi olduq. Siz bu gün Azərbaycanımızın növbəti tarixi nailiyyətinə imza atdınız. Nəhəng Şəmkirçay su anbarını, su-elektrik stansiyasını, magistral su kanalını istifadəyə verdiniz. Bu layihənin reallığa çevrilməsi Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsinə və inkişaf etdirilməsinə, ölkədə ərzaq bolluğunun yaradılmasına fundamental yanaşmanın bir nümunəsidir. Gələcək fəaliyyətimizə ciddi təkan verəcək bu layihəyə görə Sizə bütün sahibkarlarımızın, fermerlərimizin adından minnətdarlığımızı bildiririk. Həyata keçirdiyiniz mühüm tədbirlər nəticəsində iqtisadiyyatımızda qeyri-neft sektorunun xüsusi çəkisi ildən-ilə artmaqdadır. Bu sahəyə böyük sərmayələr qoyulur, konkret proqramlar icra olunur. Son zamanlar istifadəyə verilən və tikintisi davam etdirilən dəryaçalar, su anbarları və həyata keçirilən digər infrastruktur layihələri bundan sonra da yüz illərlə xalqımıza, dövlətimizə xidmət göstərəcək, onları gələcəkdə yarana biləcək problemlərdən qoruyacaqdır. Hamıya məlumdur ki, vacib infrastruktur yaratmadan kənd təsərrüfatını inkişaf etdirmək mümkün deyildir.

Şəmkirçay su anbarı kompleksinin istifadəyə verilməsi bölgəmizin kənd təsərrüfatının inkişafı üçün yeni imkanlar yaradacaqdır. Fermerlərimiz, sahibkarlarımız suvarılan torpaqları əkəcəklər, becərəcəklər, yeni emal müəssisələri yaradacaqlar və ölkəmizdə ərzaq təhlükəsizliyinin tam təmin olunmasına öz töhfələrini verəcəklər. Bu il təbiət, sözün həqiqi mənasında, insanlarımızı, xüsusən də kənd təsərrüfatı məhsulları istehsalçılarını sınağa çəkdi. Suvarma suyunun çatışmaması məhsuldarlığın azalmasına, bəzi hallarda əkinlərin məhv olmasına, çəkilən əziyyətin hədər getməsinə səbəb oldu. Bu bir daha göstərir ki, ölkəmizin su təhlükəsizliyinin təmin edilməsi, su ehtiyatlarından səmərəli istifadə, yeni kanalların inşası, su anbarlarının yaradılması strateji əhəmiyyətli bir məsələdir.

Cənab Prezident, əmin ola bilərsiniz ki, bu şəraitdən istifadə edərək, insanlarımız daha çox çalışacaqlar. Heç şübhə yoxdur ki, susuzluqdan istifadəsiz qalan və ərazisi 10 min hektarlarla ölçülən boş torpaq sahələrini zəmilər, bostanlar, meyvə bağları əvəz edəcəkdir. Bu layihələr ölkədə məhsul bolluğunun yaradılmasına, əhalinin ekoloji cəhətdən təmiz ərzaq məhsullarına tələbatının ödənilməsinə, insanların həyat şəraitinin, maddi rifah halının daha da yaxşılaşmasına, məhsullarımızın xarici ölkələrə ixracının genişlənməsinə səbəb olacaqdır. Eyni zamanda, bu su anbarı bölgənin içməli suya olan tələbatını da ödəyəcək. Mən bir sahibkar kimi, kənd təsərrüfatının inkişafı ilə bağlı dövlətimiz tərəfindən həyata keçirilən tədbirləri də izləyirəm. Son 10 ildə rayonumuzda kənd təsərrüfatı sahəsində güzəştli kredit almış sahibkarların sayı çoxalmış, əldə edilən gəlirlər dəfələrlə artmışdır. Kənd

təsərrüfatı məhsulları istehsalçılarının vergidən azad edilməsi, onlara dövlət tərəfindən subsidiyaların verilməsi və bu cür infrastruktur layihələrinin həyata keçirilməsini görən xarici biznes tərəfdaşlarımız belə, bizə həsəd aparırlar.

Mənim 4 hektar istilikxanam və 10 hektar çiyələk tarlam var. İldə 120 ton xiyar, 150 ton pomidor, 200 ton çiyələk istehsal edirəm. Müəssisəmdə 115 nəfər rayon sakini daimi işlə təmin olunub. Şəmkirçay su anbarı kompleksinin işə düşməsi mənə əlavə imkan verəcəkdir ki, öz fəaliyyətimi əsaslı surətdə genişləndirim. Bu da əlavə iş yeri və əlavə gəlir deməkdir. Ümumiyyətlə, ölkəmizdə gedən yüksək inkişaf prosesləri Şəmkirin də simasını tamamilə dəyişmişdir. Rayonumuz gündən-günə gözəlləşir, abad bir diyara çevrilir. Bütün bölgələrimizdə olduğu kimi, ümumi sosial-iqtisadi inkişaf nəticəsində rayonumuzda da varlı insanlarımızın sayı on dəfələrlə artmışdır. Bizi yaşadan da, varlandıran da elə torpaqdır. Torpağı əkib-becərmək üçün bizə lazım olan bütün şəraiti Siz yaradırsınız.

Möhtərəm cənab Prezident, çıxışımın sonunda bölgə sahibkarları adından Sizi əmin etmək istəyirəm ki, bizə yaratdığınız bu şəraitdən səmərəli istifadə edəcəyik, ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsinə öz töhfəmizi verəcəyik. Vətənimizin iqtisadi baxımdan daha da güclü olması naminə fədakarlıqla çalışacağıq. Çox sağ olun, cənab Prezident!

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**66-cı kitab: noyabr 2014 - yanvar 2015. - Bakı: Azərnəşr, 2018, S. 34-46.**

## SABİRABAD ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİ

*(16 dekabr 2014-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sabirabad şəhərinə içməli suyun verilməsi mərasimində iştirak edib.

Sabirabad şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması Azərbaycan hökuməti və Dünya Bankı tərəfindən birgə maliyyələşdirilən "Milli su təchizatı və kanalizasiya xidmətləri" layihəsi çərçivəsində həyata keçirilir. Layihə 2030-cu ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Sabirabad şəhəri, Qalaqayın, Suqovuşan, Kürkənd, Əsədli, Bulaqlı, Balakənd kəndlərində 50 min nəfərdən artıq insanın su təchizatının yaxşılaşmasına hesablanıb. Sabirabad və Saatlı şəhərlərində istehlakçıların keyfiyyətli və dayanıqlı su təchizatının təmin edilməsi məqsədilə Hacıqabul rayonu ərazisində yerləşən və Abşeron yarımadasını içməli su ilə təmin edən Kür sutəmizləyici qurğularından 62 kilometr uzunluğunda magistral su kəməri tikilib.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına məlumat verdi ki, "Sabirabad şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin icrasına başlanandan indiyə qədər şəhərdə layihələşdirilmiş 151 kilometr uzunluğunda daxili su şəbəkəsinin 130 kilometrlik hissəsi tikilib, 3640 ünvana ev birləşmələri verilib. İçməli su və kanalizasiya xidmətlərindən istifadənin dəqiq uçotunun aparılması məqsədilə hər bir abunəçinin "smart-kart" tipli sayğacla təmin edilməsi nəzərdə tutulur. Hazırda paylayıcı su şəbəkəsinin və hər birinin tutumu 5 min kubmetr olan 2 su anbarının inşası davam etdirilir. Layihənin davamı olaraq Sabirabad şəhərində 135 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi inşa olunacaq. Tullantı suların təmizlənib zərərsizləşdirilməsi məqsədilə Sabirabad şəhərinin kənarında məhsuldarlığı sutkada 80 min kubmetr olan çirkab sutəmizləyici qurğu tikiləcək. Gələcəkdə Saatlı şəhərinin tullantı suları da burada təmizlənib zərərsizləşdiriləcək. Layihənin icrası 2017-ci ildə başa çatdırılacaq.

Layihənin icrasına qədər olan vəziyyət barədə məlumat verilərkən bildirildi ki, Sabirabad şəhərinin mərkəzləşdirilmiş içməli su təchizatı sistemi 1970-ci illərdə yaradılıb. "Azərsu" ASC hazırda şəhərin 28500 sakinindən 11 mininə və ya təqribən 39 faizinə xidmət göstərir və onlar Kür çayının suyundan istifadə edir. Mərkəzləşdirilmiş qaydada su alan əhaliyə hər gün qrafik üzrə 4-5 saat su verilir. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyir. Şəhərin kiçik bir hissəsi kanalizasiya şəbəkəsi ilə təmin olunub. Şəbəkənin uzunluğu təqribən 15 kilometrdir.

Qeyd edildi ki, Kür sutəmizləyici qurğuları, Sabirabad-Saatlı magistral su kəməri 2030-cu ilə perspektiv inkişaf nəzərə alınmaqla Sabirabad şəhəri və rayonun 28 kəndinin 100 min, Saatlı şəhəri və rayonun 12 kəndinin 47 min, Hacıqabul rayonunun 4 kəndinin 10 min əhalisinin içməli suya olan tələbatını ödəyəcək. Sabirabad və Saatlı şəhərlərinin dayanıqlı su təchizatına nail olmaq üçün magistral kəmərin üzərində ümumi tutumu 20 min kubmetr olan 4 anbarın inşası davam etdirilir.

Sonra dövlətimizin başçısı Sabirabad rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

* * * *

Mərasimdə çıxış edən **Prezident İlham ƏLİYEV dedi:**

- Sizi ürəkdən salamlayıram. Bu gün gözəl bir gündür. Sabirabad rayonunda içməli su layihəsi artıq başa çatıb, istifadəyə verilir. Biz artıq həm Sabirabad, həm Saatlı şəhərlərini təmiz içməli su ilə təmin edəcəyik.

SAKİN: Sizə minnətdarıq, cənab Prezident.

Prezident İlham ƏLİYEV: Eyni zamanda, iki rayonun 40 kəndinə də bu sudan veriləcək və beləliklə, biz böyük bir sosial məsələni həll etmiş oluruq. Tamamilə yeni bir layihədir. İçməli su bu bölgədə və bütövlükdə Azərbaycanın müxtəlif bölgələrində ən ciddi məsələlərdən biridir. Biz bunu da tədricən həll edirik. Azərbaycanda içməli su layihələri geniş vüsət almışdır və o cümlədən bu zonanın problemləri də öz həllini tapır.

Bilirəm, bu problem uzun illərdir ki, insanları incidirdi. İnsanlar haqlı olaraq istəyirdilər ki, keyfiyyətli içməli su verilsin. Stendlərdə göstərildiyi kimi, indi burada təmizləyici qurğular, süzgəclər, hər şey yüksək səviyyədədir və bu, beynəlxalq səviyyəyə uyğun içməli sudur.

İçməli su, bildiyiniz kimi, insan orqanizmi üçün başlıca amildir. Təmiz, keyfiyyətli içməli su insanın sağlamlığı üçün böyük əhəmiyyətə malikdir. Beləliklə, bu böyük sosial məsələnin həlli artıq reallaşır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

SAKİNLƏR: Çox sağ olun.

Prezident İlham ƏLİYEV: Yenidən Sabirabadda olmağımdan çox məmnunam. Sabirabad rayonunda dəfələrlə olmuşam.

SAKİN: Arzu edirik ki, tez-tez olasınız, inşallah.

Prezident İlham ƏLİYEV: Bəli, tez-tez oluram. Demək olar ki, hər il gəlirəm.

SAKİN: Allah Sizi qorusun, cənab Prezident.

Prezident İlham ƏLİYEV: Burada çox böyük işlər görülür. Bu gün bir neçə obyektin açılışında iştirak etmişəm. O cümlədən kənd yolları tikilir. Artıq bu gün açılan yol bir neçə kəndi birləşdirir. Minlərlə insan o yoldan istifadə edəcək. Gündəlikdə yenə də yol layihələri var. Biz onları da tədricən həll edəcəyik. Çünki kənd yolları indi bizim üçün içməli su kimi vacib olan məsələlərdəndir. İnsanların rahatlığı, eyni zamanda, hər bir rayonun inkişafı üçün kənd yolları böyük əhəmiyyət daşıyır. Kənd yolları yaxşı olanda inkişaf da gedir, biznes imkanları da artır. Biz bunu insanların rahatlığı üçün edirik və edəcəyik. Artıq bir çox məsələlər həllini tapıb. Ancaq hələ yaxşı vəziyyətdə olmayan kənd yolları var ki, biz gələcək illərdə onları da həll edəcəyik.

SAKİNLƏR: İnşallah.

Prezident İlham ƏLİYEV: Yadımdadır, keçən dəfə biz körpünün açılışını qeyd etdik. O da Sabirabad sakinləri tərəfindən irəli sürülmüş bir təklif idi. Yəni, biz çalışırıq ki, sizin bütün təkliflərinizi yerinə yetirək. Çünki bu, bizim iş prinsipimizdir. Azərbaycan xalqı daha da yaxşı yaşamalıdır. Hər bir bölgədə quruculuq, inkişaf daha da sürətlə getməlidir. Sosial məsələlərin həlli də bizim üçün prioritetdir və bu, sosial məsələdir. Bu gün açılışını etdiyimiz kənd yolu, uşaq bağçası, tikilən məktəb binası da sosial məsələdir.

Ancaq əlbəttə ki, hələ görüləsi işlər çoxdur, o cümlədən Sabirabad rayonunda. Qəzalı vəziyyətdə məktəblər var. Onların da təmiri, digər infrastruktur layihələrinin həyata keçirilməsi nəzərdə tutulur. Qazlaşdırma aparılır. Şəhər tamamilə qazlaşdırılıb, bir neçə kənddə qazlaşdırma işləri başa çatdırılıb və bu iş davam etdirilir. Bu gün şəhərin içməli su problemi həll olunur. Kənd yolları tikilir, şəhər gözəlləşir. Vaxtı ilə Ulu Öndər tərəfindən irəli sürülmüş təşəbbüs əsasında tikilmiş Mədəniyyət Evi əsaslı təmirdən sonra yenidən açılıb. Gözəl park yaradılıb. Keçən dəfə Heydər Əliyev Mərkəzinin açılışını birlikdə qeyd etmişik.

Çox şadam ki, rayonda işlər yaxşı gedir. Çalışacağam ki, bundan sonra da Sabirabad rayonunun inkişafı üçün öz dəstəyimi verim. Siz yaxşı bilirsiniz ki, ulu öndər Heydər Əliyev Sabirabada xüsusi münasibət göstərmişdir.

SAKİNLƏR: Sabirabadda 14 dəfə olub.

Prezident İlham ƏLİYEV: Mən hər dəfə burada olanda yerli sakinlər bunu xatırladırlar. Gələcəkdə də biz tez-tez görüşəcəyik. Əlbəttə, belə olacaq. Çünki burada görüləsi işlər çoxdur, açılışlar hələ çox olacaq və hər açılışda mən sizinlə bərabər olmaq istəyirəm.

Sabirabad üçün çətin anlar da olub. Xüsusilə o daşqın, sel zamanı. Amma sabirabadlılar öz vətəndaşlıq missiyasını şərəflə yerinə yetiriblər. Böyük əziyyətlərə baxmayaraq özlərini ləyaqətlə aparıblar. Azərbaycan dövlətinə sabirabadlıların inamı çox yüksək səviyyədədir. Mən də o vaxt burada olanda söz vermişdim ki, qısa müddət ərzində bütün evlər tikiləcək, bərpa ediləcək və buna da biz nail olduq. Dövlət hesabına minlərlə ev tikildi.

SAKİNLƏR: Minnətdarıq.

Prezident İlham ƏLİYEV: Əlbəttə ki, təbiət bizi bəzi hallarda sınaqlara çəkir. Ancaq biz hər bir sınağa hazırıq, hər bir sınaqdan bu günə qədər üzüağ, şərəflə çıxmışıq. Azərbaycan vətəndaşları üçün nə lazımdırsa, biz onu edirik və edəcəyik.

SAKİNLƏR: Allah Sizi qorusun.

Prezident İlham ƏLİYEV: Sizi bu gözəl hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm.

SAKİNLƏR: Çox sağ olun.

* * * *

Daha sonra dövlətimizin başçısı suyun verilməsini bildirən düyməni basdı.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**
**2014, 16 dekabr**

## «BAKI AĞ ŞƏHƏR»İN İNŞASI BAŞA ÇATAN OFİS BİNASI İLƏ TANIŞLIQ

*(24 dekabr 2014-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də «Bakı Ağ şəhər»in inşası başa çatan ofis binası və «Bakı Ağ şəhər» layihəsi çərçivəsində görülən digər işlərlə tanış olmuşlar.

Müstəqilliyin ilk illərində bütün sahələr üzrə gələcək inkişafın təməlini qoyan xalqımızın ümummilli lideri Heydər Əliyev «Qara şəhər» kimi tanınan bu ərazinin paytaxtın ən gözəl guşələrindən birinə çevrilməsini prioritet vəzifələrdən biri kimi müəyyənləşdirdi. 2011-ci il dekabrın 24-də «Bakı Ağ şəhər»in təməli qoyuldu. Ötən 3 il ərzində layihə çərçivəsində xeyli iş görülüb.

«Bakı Ağ şəhər» layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına layihə çərçivəsində həyata keçirilən işlər barədə ətraflı məlumat verdi. Qeyd olundu ki, «Bakı Ağ şəhər»in ilk landmarkı və giriş qapısı sayılan yüksək səviyyəli ofis binası artıq istifadəyə hazırdır. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri aparılıb. Layihə çərçivəsində yol və kommunikasiya infrastrukturları da inşa olunmaqdadır. Tikintisi gedən 45 metr enində Xəqani Rüstəmov küçəsi Neftçilər prospektini Nobel və Babək prospektləri ilə birləşdirəcək. Metropolitenin «Ağ şəhər»in ərazisindən keçəcək xəttinin tikintisinə də başlanılıb. Layihədə nəzərdə tutulan 6 yeraltı piyada keçidindən 3-nün inşası davam edir. Ofis binasının yanında 360-dan çox avtomobil üçün ən müasir standartlara cavab verən parkinq də inşa olunub. «Bakı Ağ şəhər» ofis binasının cazibədar, estetik xətləri müasir memarlığın mükəmməl nümunələrindəndir.

Prezident İlham Əliyevə xəritə, maket və digər əyani vasitələr əsasında layihə çərçivəsində reallaşdırılan silsilə tədbirlər barədə məlumat verildi. Qeyd edək ki, yeni yaradılan «Mənzilim» monitorinq xidməti vasitəsilə əmlakın alınmasına dair müqavilələrin bağlanması və digər məsələlər operativ qaydada həllini tapacaq. Layihənin reallaşması zamanı prezident İlham Əliyevin müvafiq tapşırıq və tövsiyələri, həmçinin «2006–2010-cu illərdə Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılması üzrə kompleks tədbirlər planı» da əsas götürülüb. Layihənin həyata keçirilməsində əsas məqsəd çirklənmiş torpaqların təmizlənməsi, ərazidə beynəlxalq standartlara uyğun sosial infrastrukturun formalaşdırılması, paytaxt sakinləri və qonaqlar üçün yeni yaşayış, iş və istirahət məkanlarının yaradılmasıdır. Müxtəlif memarlıq üslublarını, ekoloji məsələləri və «Ağ şəhər»in paytaxtın digər hissələri ilə üzvi şəkildə qovuşmasını özündə ehtiva edən layihənin reallaşması sırf peşəkarlara etibar edilib. Yerli şirkətlərlə yanaşı, «Atkins», «Un studio», «Foster and Partners», «F and A Architects» və digər dünya şöhrətli şirkətlər bu layihəyə cəlb edilib. «Bakı Ağ şəhər» layihəsi nəinki respublikamızda, eləcə də beynəlxalq səviyyədə tanınan layihədir. Ötən müddətdə bu layihə «Cityscayp Global», «MİPİM Asia» və digər nüfuzlu beynəlxalq sərgilərdə «Ən yaxşı şəhərsalma layihəsi» və «Mərkəzi və Qərbi Asiyanın ən yaxşı gələcək layihəsi» nominasiyalarında mükafatlara layiq görülüb. «Bakı Ağ şəhər»də müxtəlif xidmət, ticarət və əyləncə növlərini özündə birləşdirəcək Ticarət-Əyləncə Mərkəzi də nadirliyi ilə yanaşı, eyni zamanda, regionda sahəcə ən böyük belə obyekt olacaq və respublikamızda turizmin daha da genişlənməsinə əlavə imkanlar yaradacaq.

Sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ofisdə iş adamları üçün yaradılan şəraitlə tanış oldular. Qeyd edildi ki, ən müasir beynəlxalq standartlara cavab verən yeni ofis binasını Britaniyanın məşhur «Atkins» şirkəti layihələndirib. Bina yerli və beynəlxalq mütəxəssislər tərəfindən inşa olunub. Tikinti dövründə ofis binası «BREEAM» beynəlxalq ekoloji sertifikatına layiq görülüb. Xatırladaq ki, «Bakı Ağ şəhər» ofis binası respublikamızda və regionda «BREEAM» sertifikatına layiq görülən ilk və yeganə binadır. Binada

ən son elmi-texniki yeniliklərə əsaslanan arxiv otağı da yaradılıb. Ofisdə yerləşəcək iqtisadi qurumların səmərəli fəaliyyəti üçün burada hərtərəfli şərait var.

Prezident İlham Əliyevə məlumat verildi ki, «Ağ şəhər»in 10 rayonundan 6-sının ərazisi tamamilə təmizlənib və inşaat işləri gedir. Layihənin icra müddətində «Ağ şəhər»in neft məhsulları ilə çirklənmiş ərazisinin böyük hissəsi təmizlənib və yararlı vəziyyətə gətirilib. Hazırda bu işləri Dövlət Neft Şirkəti həyata keçirir. «Bakı Ağ şəhər»in «Yaşıl ada» rayonunda aparılan tikinti-quraşdırma işləri ildən-ilə vüsət götürür. Burada fransız üslubunda inşa olunan 7 mərtəbəli yaşayış binaları paytaxt sakinlərinin rahatlıq üçün üstünlük verdikləri məkanlardan biri olacaq. Hazırda buradakı yaşayış komplekslərinin bəzilərində tikinti işləri son mərhələdədir və onlar tezliklə hazır olacaq. Ümumi sahəsi 24 hektara çatan «Park» rayonunda da inşaatçılar səylə çalışırlar. Burada 20 mərtəbəli hündür yaşayış binaları tikilir. Sahənin relyefinə uyğun olaraq amfiteatr üslubundakı «Park» rayonundan bulvara və Bayraq Meydanına gözəl mənzərə açılır. Nizami parkının yaxınlıqda yerləşməsi də buranın gələcək sakinlərinin istirahətlərini mənalı keçirmələrinə əlavə imkanlar yaradacaq. Ofis binasındakı səliqə-sahman və müasirlik diqqəti çəkir.

Prezident İlham Əliyev «Ağ şəhər»in sahil boyunca yerləşən hissəsindəki tikililəri və «Ağ şəhər» bulvarını seyr etdi. 2011-ci ilin payızında «Bakı Ağ şəhər»də təməli qoyulan və 2014-cü il sentyabrın 12-də açılışı olan Fransız liseyinin tikintisi də yüksək səviyyədə aparılıb. Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan və respublikamızın nümunəvi təhsil ocaqlarından biri sayılan Fransız liseyində şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılıb. 2013-cü il mayın 25-də prezident İlham Əliyevin təməlini qoyduğu «Bakı Ağ şəhər» bulvarı da dünyadakı ən qabaqcıl təcrübə əsasında yaradılır. Tikintisi dövlətimizin başçısı tərəfindən mütəmadi olaraq diqqət mərkəzində saxlanılan həmin bulvarın uzunluğu 5 kilometr olacaq. «Ağ şəhər»də beynəlxalq səviyyəli hotellərin tikintisi də aparılır. Artıq «Bakı Ağ şəhər» hotelinin inşası başa çatmaq üzrədir. Ümumi sahəsi 52 min kvadratmetr olacaq həmin hoteldə 818 otaq var. Bu obyekt 2015-ci ildə Bakıda keçiriləcək ilk Avropa oyunlarının qonaqlarını qəbul etməyə hazır olacaq. Hotelin yaxınlığında 90 min kvadratmetr sahəsi olacaq «Ağ şəhər Mall»un inşasına da başlanılıb.

Prezident İlham Əliyevə inşası davam edən və tikintisi nəzərdə tutulan layihələr barədə xəritə və eskizlər əsasında məlumat verildi. Artıq «Ağ şəhər»də müasir və klassik üslublu 7 mərtəbəli yaşayış komplekslərinin tikintisinə başlanılıb. «Ağ şəhər»in ərazisini qərb və şərq hissələrinə ayıran, mərkəzi prospektin ortasında yerləşən meydan da füsunkar görkəmi ilə fərqlənəcək. «Ağ şəhər»in mərkəzi rayonu sayılan Fəvvarələr meydanında da inşaat işlərinin miqyası artmaqdadır. Burada müasir üslublu yaşayış binalarının tikintisinə başlanılıb. Fəvvarələr meydanının mərkəzində 1 hektar ərazini əhatə edəcək park sakinlərin sevimli istirahət guşəsinə çevriləcək.

Dövlətimizin başçısına Nobel prospekti boyunca və sahil rayonunda görüləcək işlər barədə də məlumat verildi, prezident İlham Əliyev layihə ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

Dövlətimizin başçısı ofis binasının arxa hissəsində salınan yaşıllıq və memarlıq nümunələri ilə də tanış oldu. Dünyadakı müasir şəhərsalma meyilini maksimum ehtiva edən və bitkinliyi ilə seçilən «Bakı Ağ şəhər» layihəsi tezliklə reallığa çevriləcək və paytaxtımızın gözəlliyini daha da artıracaq.

Sonda xatirə şəkli çəkdirildi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**66-cı kitab: noyabr 2014 - yanvar 2015. - Bakı: Azərnəşr, 2018, S. 227-230.**

## I AVROPA OYUNLARI ÜÇÜN YARADILAN AVTOBUS DEPOSU VƏ TƏLİM MƏRKƏZİNDƏ GÖRÜLƏN İŞLƏRLƏ, ZIĞ GÖLÜNÜN KOMPLEKS BƏRPASI LAYİHƏSİ İLƏ TANIŞLIQ

*(3 fevral 2015-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, «Bakı–2015» I Avropa oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva fevralın 3-də «BakuBus» Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) ilk Avropa oyunları üçün yaradılan avtobus deposu və təlim mərkəzində görülən işlərlə tanış olmuşlar.

Maliyyə naziri Samir Şərifov dövlətimizin başçısına burada aparılan işlər barədə məlumat verdi.

Əvvəllər bu ərazidən neftlə çirklənmiş torpaqların və məişət tullantılarının atılma məntəqəsi kimi istifadə olunub. Ötən ilin sentyabrından 16 hektar ərazidə abadlıq və yenidənqurma işləri aparılıb, torpaq qatı təmizlənib. Ərazinin 6 hektarında sürücülər üçün təlim mərkəzi yaradılıb. Burada praktiki təlimlər üçün beynəlxalq standartlara cavab verən yollar salınıb. Bu yollarda xüsusi döngələr və maneələrin yaradılması, müxtəlif yol şəraitini imitasiya edən avadanlığın quraşdırılması nəzərdə tutulur. Mərkəzdə minik və yük avtomobilləri, iritutumlu avtobuslar və motosiklet sürücüləri üçün peşəkar mütəxəssislər tərəfindən təlimlərin keçirilməsi planlaşdırılır. Yol hərəkəti təhlükəsizliyi üzrə təlim-tədris mərkəzi sürücülər üçün fərdi uyğunlaşdırılmış təlim proqramı təklif edir. Bunun da nəticəsində yolda hərəkət zamanı sürücülərin məsuliyyəti, diqqəti və təcrübələri artır. Bu məqsədlə tədris zamanı 5 təlim modulundan istifadə olunur. Burada 9 hektar ərazidə 1 inzibati və 4 xidməti bina inşa edilir. İnzibati binada ümumi idarəetmə, mühasibatlıq, nəqliyyatın idarəetmə mərkəzi, treninq sinifləri, yeməkxana və digər inzibati otaqlar olacaq. Mərkəzdə, həmçinin sürücülərin tibbi yoxlama otağının, daxili dispetçer xidmətinin, işdən sonra avtobusları qəbuletmə və yoxlama məntəqəsinin yaradılması da nəzərdə tutulur. Layihəyə uyğun olaraq inşa edilən yanacaqdoldurma məntəqəsi, həmçinin təmir və texniki baxış binası da müasir səviyyədə qurulur. Burada bütün növ təmir və texniki baxışın həyata keçirilməsi mümkün olacaq. Binada 12 avtobusa eyni zamanda təmir və xidmət göstəriləcək. Burada işləyəcək ustalara avtobus istehsalçıları tərəfindən xüsusi treninqlər və peşəartırma kursları təşkil ediləcək. Binada növbəli iş rejimində çalışan usta və əməkdaşlar üçün istirahət otaqları da yaradılacaq. Ekoloji məsələlərə xüsusi diqqət yetiriləcək. Avtoyuma məntəqəsində işlənmiş suyun və ümumilikdə, ərazidə yağış sularının 85 faizi xüsusi qurğuda təmizlənərək təkrar istifadə ediləcək. Layihə fevralın sonunadək yekunlaşdırılacaq.

Ümumilikdə, «BakuBus» MMC-də 900-ə yaxın iş yerinin açılması nəzərdə tutulur. İşçilərin 650 nəfərini sürücülər təşkil edəcək. Avtobus parkı fəaliyyətini beynəlxalq təcrübəyə əsasən quracaq. Sürücülərə xüsusi geyim formaları veriləcək, avtobuslar şəhərə çıxmazdan əvvəl texniki baxışdan keçiriləcək.

Sonra İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev prezident İlham Əliyevə Zığ gölünün kompleks bərpası layihəsi çərçivəsində görülən işlər barədə məlumat verdi.

Layihə dövlətimizin başçısının «Zığ gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və ondan istifadə sahəsində əlavə tədbirlər haqqında» 2014-cü ildə imzaladığı sərəncama əsasən həyata keçirilir. Burada işlərin görülməsi İqtisadiyyat və Sənaye Nazirliyinə həvalə edilib. Qısa müddətdə gölün mühafizəsi təmin olunub, buraya məişət tullantılarının atılmasının qarşısı alınıb. Layihə çərçivəsində çirklənmə mənbələrinin, istismara yararsız neft quyularının və digər qurğuların ləğv edilməsi, gölün səviyyəsini saxlamaq üçün çirkab suların təmizlənərək buraya axıdılması, dib çöküntülərinin zərərsizləşdirilməsi

işlərinin aparılması nəzərdə tutulur. Beləliklə, gölün ərazisi təbii məcrasına uyğunlaşdırılacaq. Hazırda gölün müfəssəl layihəsinin hazırlanması üçün beynəlxalq məsləhətçi şirkətlərin işə cəlb olunması ilə bağlı tədbirlər görülür. Gölün istifadəsi və mühafizəsi sahəsində idarəetmənin həyata keçirilməsi ilə əlaqədar təşkilati-təsərrüfat işlərinin görülməsi, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi «Təmiz Şəhər» ASC-yə həvalə edilib.

Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ilk Avropa oyunlarında iştirak edəcək yüksək səviyyəli qonaqların daşınması üçün alınan «Mercedes» markalı mikroavtobuslara baxdılar.

Avtobuslarda sərnişinlərin rahatlığını təmin etmək üçün hərtərəfli şərait var.

Prezident İlham Əliyevə «BakuBus» MMC-nin «İVECO» markalı yeni avtobusları barədə də məlumat verildi. İlkin mərhələdə Fransa istehsalı olan 302 avtobus alınıb. Yeni avtobuslarda gedişhaqqı kartla ödəniləcək. Bu kartdan həm də metroda istifadə olunacaq. Avtobuslardakı bütün materiallar yanğına, donmaya və buxarlanmaya davamlıdır. Təhlükəsizliyin təmin edilməsi məqsədi ilə avtobusların salonlarında kameralar quraşdırılıb, qapılar xüsusi sistemlə təchiz edilib. Bu nəqliyyat vasitələrində uşaq və əlillər üçün xüsusi oturacaqlar qoyulub. Avtobusların daha bir üstünlüyü isə onların sıxılmış təbii qazla işləməsidir. Bu da ekoloji baxımdan əhəmiyyətlidir.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı müvafiq tapşırıq və göstərişlərini verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**67-ci kitab: yanvar 2015 - mart 2015. - Bakı: Azərnəşr, 2018, S. 80-82.**

## BAKI «AĞ ŞƏHƏR» BULVARINDA HƏYATA KEÇİRİLƏN İNŞAAT İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*(30 mart 2015-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Bakı «Ağ şəhər» bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə tanış olmuşdur.

Dövlətimizin başçısına layihə çərçivəsində görülən işlər barədə məlumat verildi.

Bakı «Ağ şəhər» bulvarı prezident İlham Əliyevin tapşırığı ilə əvvəllər paytaxtın «Qara şəhər» kimi tanındığı və bir çox sənaye müəssisələrinin yerləşdiyi ərazidə ən müasir standartlara uyğun şəkildə salınır. 2013-cü ilin mayında prezident İlham Əliyev tərəfindən təməli qoyulan yeni bulvarın inşası ekologiyası bərpa edilən sənaye zonasında həyata keçirilən və dünyanın ən iri müasir layihələrindən biri olacaq «Bakı Ağ şəhər» layihəsini tamamlamaqla, paytaxtımızın simasını daha da gözəlləşdirəcək. Prezident İlham Əliyev təməli qoyulduğu ilk gündən başlayaraq «Ağ şəhər» bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə mütəmadi olaraq maraqlanır, vaxtaşırı tikinti meydançalarını gəzir, layihənin yüksək zövqlə icra olunmasına şəxsən nəzarət edir.

Burada dənizkənarı piyada yolları çəkiləcək, xüsusi yaşıllıq zonaları yaradılacaq, müxtəlif sahilbərkitmə işləri həyata keçiriləcək. Həmçinin bulvarda hərəkətin təhlükəsizliyini təmin etmək üçün piyada keçidləri də inşa ediləcək. Bakı sakinlərinin və şəhərimizin qonaqlarının istirahəti üçün «Ağ şəhər» bulvarında infrastruktur ən müasir tələblər səviyyəsində olacaq, müasir iaşə və xidmət obyektləri yaradılacaq.

Bu nəhəng istirahət guşəsi sürətlə böyüyən və inkişaf edən Bakının görməli və gəzməli yerlərinə yeni bir ünvan da artıracaq. Bakı «Ağ şəhər» bulvarı «Ağ şəhər»dən Xəzərə açılan mənzərəni xüsusi bir yaraşıqla daha da cazibədar edəcək.

Dövlətimizin başçısı yeni bulvarın müxtəlif yerlərində aparılan inşaat işlərinin gedişi ilə maraqlandı və müvafiq tapşırıqlarını verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 68-ci kitab: mart 2015 - may 2015. - Bakı: Azərnəşr, 2018, S. 17-18.**

## «AĞ ŞƏHƏR» BULVARINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*(15 may 2015-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 15-də Bakı «Ağ şəhər» bulvarında yaradılan şəraitlə tanış olmuşlar.

Bakı «Ağ şəhər» bulvarında layihə çərçivəsində işlər yüksək səviyyədə həyata keçirilib. Bu bulvar əvvəllər paytaxtın «Qara şəhər» kimi tanınan və bir çox sənaye müəssisələrinin yerləşdiyi ərazisində prezident İlham Əliyevin tapşırığı ilə ən müasir standartlara uyğun şəkildə salınıb. Dövlətimizin başçısı tərəfindən 2013-cü ilin mayında təməli qoyulan yeni bulvarın inşası ekologiyası bərpa edilən sənaye zonasında həyata keçirilən və dünyanın ən iri müasir layihələrindən biri olacaq «Bakı Ağ şəhər» layihəsini tamamlamaqla, paytaxtımızın simasını daha da gözəlləşdirir.

Prezident İlham Əliyev təməli qoyulduğu ilk gündən başlayaraq «Ağ şəhər» bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə mütəmadi maraqlanıb, layihənin yüksək keyfiyyətlə icra olunmasına şəxsən nəzarət edib. Bakı sakinlərinin və şəhərimizin qonaqlarının istirahəti üçün «Ağ şəhər» bulvarında infrastruktur ən müasir tələblər səviyyəsində yaradılıb. Bulvarda hərəkətin təhlükəsizliyini təmin etmək üçün piyada keçidləri də inşa edilib. Bu gözəl istirahət məkanı sürətlə böyüyən və inkişaf edən Bakının görməli və gəzməli yerlərinə yeni bir ünvan da artırır. Bakı «Ağ şəhər» bulvarı «Ağ şəhər»dən Xəzərə açılan mənzərəni daha da cazibədar edir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 68-ci kitab: mart 2015 - may 2015. - Bakı: Azərnəşr, 2018, S. 305.**

## BÖYÜKŞOR BULVARININ VƏ PARKININ AÇILIŞI MƏRASİMİ

*(22 may 2015-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mayın 22-də Böyükşor bulvarının və parkının açılışında iştirak etmiş və Böyükşor gölünün bərpası layihəsinin birinci mərhələsi çərçivəsində görülmüş işlərlə tanış olmuşlar.

İqtisadiyyat və Sənaye naziri Şahin Mustafayev Böyükşor gölünün bərpasının birinci mərhələsi çərçivəsində görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi,

Sonra prezident İlham Əliyev Böyükşor bulvarının və parkının rəmzi açılışını bildirən lenti kəsdi.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva elektromobil və avtobusla Böyükşor bulvarının və parkının ərazisini gəzdilər.

Bu layihə prezident İlham Əliyevin 2014-cü il 17 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş «2014–2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı»na və «Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və istifadəsi sahəsində əlavə tədbirlər haqqında» 2013-cü il 26 dekabr tarixli Fərmanına uyğun olaraq həyata keçirilir.

Layihə ilk növbədə, böyük sosial əhəmiyyəti ilə diqqət çəkir. Vaxtilə sürətlə inkişaf edən paytaxtın tələblərinə uyğun gəlməyən, ekoloji tarazlığı pozan bu ərazidə çox qısa zamanda bu cür nəhəng infrastruktur layihəsinin reallaşdırılması prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin uğurlarının əyani təsdiqidir. I Avropa oyunlarına daxil olan tədbirlərin böyük əksəriyyətinin Böyükşor gölünün şərq sahilində yerləşən Bakı Olimpiya stadionunda və digər infrastruktur komplekslərində keçirilməsi isə bu layihənin əhəmiyyətini daha da artırır. Layihənin birinci mərhələsi çərçivəsində həyata keçirilən tikinti işləri zamanı gölün şərq və cənub sahilində bulvar və park salınıb. Ümumi abadlıq işlərinin sahəsi 15 hektardan çoxdur. Bu ərazidə neftlə çirklənmiş torpaqlar təmizlənib. Həmçinin çirklənmiş yeraltı suların gölə daxil olmasının qarşısı tamamilə alınıb və drenaj sistemi qurulub.

Bildirildi ki, sahilboyu gəzinti zolağının uzunluğu 2,5 kilometr, bulvar sahəsinin ümumi eni isə 94 metrdir. Burada idman və uşaq oyun meydançaları qurulub, ayrıca qaçış və velosiped zolaqları salınıb, minlərlə ağac və bəzək kolu əkilib. Gölün içində quraşdırılmış fəvvarələr kompleksi şəhərimizin qonaqlarının zövqünü oxşamaqla yanaşı, həm də gölün suyunun keyfiyyətinin yaxşılaşdırılması üçün onu oksigenlə zənginləşdirir. Gölün idarə edilməsi, su keyfiyyətinin yaxşılaşdırılması və monitoringi üçün günəş enerjisi ilə qidalanan xüsusi qurğulardan istifadə edilir.

Bakı Olimpiya stadionuna yaxın olan Böyükşor gölünün sahilində həyata keçirilən abadlıq-quruculuq tədbirləri şəhərimizin daha da gözəlləşməsinə, insanların rahatlığına xidmət edəcək və paytaxtımızın sakinlərində və qonaqlarında xoş təəssüratlar, dərin məmnunluq hissi yaradacaq. Bir vaxtlar burada mövcud olan ekoloji fəlakətin aradan qaldırılması indi bu ərazini geniş yaşıllıq zolaqlarının, təbii landşaftın olduğu məkana çevirib. Burada iaşə və əyləncə məkanlarının yaradılması isə onun paytaxtın arxitekturasına xüsusi yaraşıq verəcəyini bir daha təsdiqləyir.

Qeyd edildi ki, beynəlxalq ekspertlərin qiymətləndirmələrinə əsasən, Böyükşor gölü dünyada ən çox çirklənmiş sututarlardan hesab olunurdu. Qısa müddətdə görülmüş işlər nəticəsində gölün ekoloji göstəricilərinin dinamikası müsbətə doğru əhəmiyyətli dərəcədə dəyişib. Uzun illər Böyükşor gölünə axıdılan sənaye və məişət tullantı sularının və neft qalıqlarının qarşısı xeyli alınıb. Belə ki, layihənin icrasına başlamazdan əvvəl gölə 76 mənbədən sənaye və məişət tullantı suları axıdılırdı. Layihə ərazisində bu mənbələr tamamilə ləğv edilib, qalan sahədə isə 20-yə endirilib və bu göstərici azalmaqdadır. Gölün dibinin təmizlənmiş

ərazilərində neftlə çirklənmənin səviyyəsi 121 min mq/kiloqramdan 86-ya enib ki, bu da gölün dibinin artıq ekoloji normalar çərçivəsində olması deməkdir. Layihə ərazisinin cənub sahili boyunca kanalizasiya xətti çəkilib və bu hissədə çirklənmə mənbələrinin qarşısı tamamilə alınıb. Gölə axıdılan bütün mənbələrin qarşısının alınması suyun keyfiyyətini yaxşılaşdırır. Neftlə çirklənmiş əsas ərazi layihə ərazisinin Balaxanı qəsəbəsi tərəfindədir. Gölün şimal hissəsi sovet dövründə, əsasən də İkinci dünya müharibəsi zamanı xam neft üçün açıq anbar ərazisi kimi istifadə edilib və bu, gölü həddindən artıq çirkləndirib. Qədim Balaxanı neft yataqlarından gölün bu hissəsini çirkləndirən neft tullantılarının qarşısının alınması üçün 1850 metr uzunluğunda xüsusi bənd inşa edilib. Bu bənd Balaxanı qəsəbəsi tərəfdən gölün tarixi məcrasının sərhədləri boyunca tikilib. Eyni zamanda, 100 ildən artıq müddətdə göl dibinə yığılmış çirkli çöküntülərin çıxarılması və zərərsizləşdirilməsi işləri görülür.

Layihənin ilkin mərhələsində gölün dibindən 2,8 milyon kubmetr həcmində çöküntü çıxarılaraq gələcəkdə zərərsizləşdirilməsi üçün müvəqqəti təcrid edilmiş anbar ərazisinə toplanılıb, dib çöküntülərinin zərərsizləşdirilməsi üçün isə 100 hektar ərazidə müvəqqəti saxlanc anbarı inşa edilib. Gölün mühafizə zonası da daxil olmaqla, ciddi mühafizə işi təşkil edilib, göl və sahil xətlərinin məişət və tikinti tullantıları ilə çirklənməsinin qarşısı tamamilə alınıb. Bundan əlavə, burada su səviyyəsini tənzimləyən 3 su keçid hidrotexniki qurğusu inşa edilib. Suyun səviyyəsinin və keyfiyyətinin idarə edilməsi üçün avtomatlaşdırılmış nəzarət-monitorinq sistemi quraşdırılıb.

Gölün Bakı Olimpiya stadionu tərəfində ümumi uzunluğu 7200 metr olan 2 neft, 2 qaz və 2 su borusu yeraltı dəhlizə köçürülüb. Gölün mühafizə zonasında 11 mühafizə məntəqəsi quraşdırılıb və bərk tullantıların atılmasının və əraziyə kənar müdaxilələrin qarşısı tam alınıb. Birinci mərhələnin icrası və layihə ərazisinin təcrid edilməsi məqsədilə burada 1570 metr uzunluğunda bənd çəkilərək, Böyükşor gölü 2 hissəyə ayrılıb. Gölün digər tərəfinin təmizlənməsi işləri layihənin növbəti mərhələsində həyata keçiriləcək. Bu bənd gələcəkdə Ziya Bünyadov prospekti ilə Balaxanı şosesini birləşdirəcək 8 zolaqlı magistral yolun özülü olacaq. Buradan da görünür ki, Böyükşor gölünün 300 hektara yaxın hissəsində icra olunan birinci mərhələ üzrə işlər uğurla həyata keçirilib.

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən gölün tam bərpasını nəzərdə tutan növbəti mərhələdə göl öz təbii tarixi məcrasına qaytarılacaq, su səviyyəsi tənzimlənəcək və ekosistem bərpa olunacaqdır.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**69-cu kitab: may 2015 - iyul 2015. - Bakı: Azərnəşr, 2018, S. 8-11.**

## BAKI «AĞ ŞƏHƏR» BULVARININ AÇILIŞI MƏRASİMİ

*1 iyun 2015-ci il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Arzu Əliyeva iyunun 1-də Bakı «Ağ şəhər» bulvarının açılışında iştirak etmişlər.

Yeni «Ağ şəhər» bulvarı layihəsi çərçivəsində işlər yüksək səviyyədə həyata keçirilib. Bu bulvar əvvəllər «Qara şəhər» kimi tanınan və bir çox sənaye müəssisələrinin yerləşdiyi ərazidə prezident İlham Əliyevin tapşırığı ilə ən müasir standartlara uyğun şəkildə salınıb.

Prezident İlham Əliyev bulvarın rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısının sərəncamı ilə inşa olunan Bakı «Ağ şəhər» bulvarının uzunluğu 2,7 kilometr, sahəsi 33 hektardır. Burada gələcəkdə Uşaq kinoteatrının inşası da nəzərdə tutulub. Yeni bulvarda basketbol, voleybol və 2 futbol meydançası, ümumilikdə 4 yeni meydança inşa edilib. Bundan başqa, açıq havada yaradılan trenajor sahəsi də istirahətə gələnlərin ixtiyarına veriləcək.

Prezident İlham Əliyev təməli qoyulduğu ilk gündən başlayaraq «Ağ şəhər» bulvarında həyata keçirilən inşaat işlərinin gedişi ilə mütəmadi maraqlanıb, layihənin yüksək keyfiyyətlə icra olunmasına şəxsən nəzarət edib.

Prezident İlham Əliyev bulvarda istirahət edən sakinləri salamladı.

**İ l h a m  Ə l i y e v:** Necəsiniz? Necə istirahət edirsiniz?

**S a k i n l ə r:** Çox sağ olun. «Son zəng»lə əlaqədar gəzintiyə çıxmışıq.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı. Burada yeni yol açılıb, köhnə bulvar «Ağ şəhər» bulvarı ilə birləşib.

**S a k i n l ə r:** Bəli, çox sağ olun.

Azərbaycan Prezidenti və xanımı sakinlərlə xatirə şəkli çəkdirdilər.

Yeni bulvarın inşası ekologiyası bərpa edilən sənaye zonasında həyata keçirilən və dünyanın ən iri müasir layihələrindən biri olacaq «Bakı Ağ şəhər» layihəsini tamamlayır. Bundan başqa, bu layihənin reallaşması paytaxtımızın simasını daha da gözəlləşdirir. Bu bulvardakı «Boulevard» hoteldən Bayıl bulvarındakı Bakı Su İdmanı Sarayının qarşısınadək xüsusi qatarlar hərəkət edəcək. Qatarların bulvar boyu bir neçə yerdə dayanacağı olacaq.

«Ağ şəhər» bulvarında infrastruktur ən müasir tələblər səviyyəsində yaradılıb. Bu nəhəng istirahət guşəsi sürətlə böyüyən və inkişaf edən Bakının görməli və gəzməli yerlərinə yeni bir ünvan da artırdı.

Bakı «Ağ şəhər» bulvarı «Ağ şəhər»dən Xəzərə açılan mənzərəni xüsusi bir yaraşıqla daha da cazibədar edir. Belə müasir istirahət məkanının dünyanın diqqət mərkəzində olan I Avropa oyunları ərəfəsində istifadəyə verilməsi şəhərimizə gələn turistlərin istirahətini yüksək səviyyədə təmin etmək üçün şərait yaradır. Bu layihə bir daha onu göstərir ki, Bakının inkişafı ilə bağlı qarşıya qoyulan bütün məqsədlərə vaxtında və keyfiyyətlə nail olunur.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**69-cu kitab: may 2015 - iyul 2015. - Bakı: Azərnəşr, 2018, S. 60-61.**

## «MİLAN EXPO 2015» ÜMUMDÜNYA SƏRGİSİNDƏ İŞTİRAK

*(9 iyul 2015-ci il)*

*Milanda keçirilən «Milan Expo 2015» Ümumdünya sərgisindəki Azərbaycan pavilyonunda iyulun 9-da «Milli gün» təşkil olunmuşdur. «Milli gün» çərçivəsində Azərbaycan pavilyonunun rəsmi təqdimat mərasimi keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Tədbirə, həmçinin İtaliya hökumətinin nümayəndələri, ictimai xadimlər, bu ölkədəki diplomatik korpusun təmsilçiləri və digər nüfuzlu qonaqlar da qatılıblar.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva «Milan Expo 2015» sərgisinin ərazisinə gəldilər.*

*«Milan Expo 2015»də Azərbaycan milli pavilyonunun təməli 2014-cü ilin iyulunda qoyulub. Ümumilikdə pavilyonda hazırlıq və tikinti işləri 18 ay ərzində davam edib. Azərbaycan milli pavilyonu üzrə təşkilati işlər Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzi tərəfindən aparılıb. Ümumi sahəsi 1800 kvadratmetr olan dördmərtəbəli milli pavilyon sərginin builki devizinə uyğun olaraq Azərbaycanın tarixi və mədəni irsini, zəngin ekoloji potensialını, flora və faunasının zənginliyini, nadir biomüxtəlifliyini tərənnüm edir. Bu layihənin hazırlanması üçün 300-dək yerli və xarici mütəxəssisin cəlb olunduğu işçi qrup yaradılmışdı.*

*Milli pavilyonumuzda iştirakçı ölkələr arasında yeniliyə imza atılaraq «Mirroring Baku» – Bakı ilə birbaşa əlaqə yaradılıb. Belə ki, milli pavilyonun girişində güzgü formasında, insan ölçüsündə dalğavarı oturacaqla tamamlanmış monitor quraşdırılıb. Belə bir monitor Bakıda – Heydər Əliyev Mərkəzinin qarşısında da var. Bu monitorların hər ikisi vəhdət təşkil edərək, bir-biri ilə əlaqədə olur. Pavilyonla tanış olan şəxslər monitorun qarşısında durmaqla, Bakıda monitor quraşdırılan məkanı görür, buradakı insanlarla əlaqə saxlayırlar. Həmçinin paytaxt Bakının sakinləri, şəhərimizin qonaqları da Azərbaycan pavilyonu və onun ziyarətçiləri ilə tanış olmaq imkanı qazanırlar. «Mirroring Baku» adlı bu layihə Şərq ilə Qərb arasında körpü rolunu oynayan Azərbaycanın paytaxtı Bakı ilə sərginin minlərlə iştirakçısının əlaqəsinə şərait yaradır.*

*Azərbaycan pavilyonunda əvvəlcə Bakı ilə videoəlaqə yaradıldı. Heydər Əliyev Mərkəzinin əməkdaşı Məhəbbət Mehdiyeva prezident İlham Əliyevi salamladı.*

*Xüsusi konsepsiyada dizayn edilmiş pavilyonda 6 ay ərzində müxtəlif təqdimatların keçirilməsi nəzərdə tutulur. «Milan Expo 2015» başa çatdıqdan sonra Azərbaycan pavilyonunun sökülərək yenidən Bakıda qurulması və ziyarətçilərin istifadəsinə verilməsi nəzərdə tutulur.*

*Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya Azərbaycan milli pavilyonunun konsepsiyası barədə məlumat verildi.*

*Pavilyonda qurulmuş 3 biosfer ətraf mühitini və qədim mədəniyyətini daim harmoniyada saxlamağı və qorumağı bacaran Azərbaycanı təcəssüm etdirir. Pavilyonun dalğavarı taxta divarları Azərbaycana xas olan küləyin, həmişə burada dövr edən mədəni və yaradıcı axının rəmzidir. «Milan Expo 2015» üçün yaradılmış «Azərbaycan. Biomüxtəliflik xəzinəsi» pavilyonu Şimal və Cənub, Şərq və Qərb arasında körpü rolunu oynayan bu diyarın bənzərsiz təbii və mədəni xəzinəsini əks etdirir. «Mədəniyyətlərin kəsişməsi» biosferi ziyarətçiləri ölkənin ən mühüm tarixi və mədəni məkanlarına səyahətə aparır. İkinci biosfer – «Biomüxtəliflik» ölkənin təbii biomüxtəlifliyinə və mədəni irsinə həsr olunub. Bu biosferin mərkəzindəki konstruksiya Azərbaycanın zənginlik rəmzi olan nar ağacını təcəssüm etdirir. Növbəti biosfer «İnnovasiya və ənənə» adlanır. Burada kökləri səmaya istiqamətlənmiş ağac fiquru var. Bu, rəmzi olaraq Azərbaycan xalqının ənənəyə sadiqliyini, eyni zamanda, gələcəyə yönələn innovativ ölkə olduğunu göstərir.*

*Pavilyonun birinci mərtəbəsi «Səslər simfoniyası» adlanır. Burada Azərbaycanın tarixi, mədəniyyəti, coğrafiyası barədə məlumatlar təqdim olunur. İkinci mərtəbədə – «Rənglər simfoniyası»nda iqlim, landşaft və bioloji müxtəliflik məlumatları çatdırılır. «Dadlar simfoniyası» adlanan üçüncü mərtəbədə milli mətbəx və orqanik qida məhsulları barədə məlumat və nümunələr təqdim edilir. Bu mərtəbədə, həmçinin «Bakını kəşf et» və «Azərbaycan simaları» bölmələrində fotolar, xəritələr, müxtəlif sahələri təmsil edən azərbaycanlıların portretləri vasitəsilə ölkəmiz və insanlarımızla interaktiv tanış olmaq mümkündür. Eyni zamanda, Azərbaycanda 9 iqlim qurşağının mövcud olması, ölkəmizin beynəlxalq qurumlar tərəfindən dünyanın 25 biomüxtəliflik məkanından biri kimi göstərilməsi də milli pavilyonumuzda əksini tapıb. Bundan əlavə, pavilyondakı monitorlarda Azərbaycanın musiqi və kinematoqrafiya inciləri, adət və ənənələrinə, incəsənətinə dair müxtəlif materiallar nümayiş etdirilir. Pavilyonun 4-cü mərtəbəsində – terrasda restoran fəaliyyət göstərir. Burada milli mətbəx və müxtəlif konsert proqramları təqdim olunur.*

*Milli pavilyonun həyətində yaradılan IDEA – Biomüxtəliflik parkında IDEA (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin fəaliyyətinə dair məlumatlar, müxtəlif ekoloji layihələr təqdim olunur və əyləncəli proqramlar təşkil edilir.*

*Azərbaycanda biomüxtəlifliyin qorunması və ekoloji problemlərin həlli, milli təbii sərvətlərin bərpasının təmin edilməsi və mühafizəsi, yerli və beynəlxalq ekoloji layihələrin həyata keçirilməsi istiqamətlərində görülmüş işlər də pavilyonumuzun daxili tərtibatında əks olunub. Qeyd olunan istiqamətlər üzrə qısametrajlı videoçarxların çəkilməsi üçün bu günədək müxtəlif ssenarilər hazırlanıb. Ssenarilər əsasən qida, kənd təsərrüfatı, ekoloji resurslar, təbii landşaft, sosial inkişaf, ixrac və infrastruktur, mədəniyyət, incəsənət, ətraf mühitin qorunması və geni modifikasiya olunmuş (GMO) məhsulların yayılmasının qarşısının alınması istiqamətlərində aparılan işləri əhatə edir. Bu videomateriallar sərgi davam etdiyi müddətdə milli pavilyonumuzda təqdim olunacaq və ziyarətçilərin ölkəmizlə vizual tanışlığını təmin edəcək.*

*«Milan Expo 2015»ə hazırlıq ərəfəsində Azərbaycanın müxtəlif regionlarında mövcud olan zəngin biomüxtəlifliyin, nadir landşaftların, təbii ehtiyatların və fərqli bölgələrdə yerləşən tarixi abidələrin foto və video çəkilişləri aparılıb. Bu məqsədlə 2014-cü ilin aprelindən bu ilin fevralınadək Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Yardımlı, Şəmkir, Şəki, Qəbələ, Şabran, Quba, Xızı, Siyəzən, Şirvan, Abşeron və digər şəhər və rayonlara dəfələrlə səfərlər təşkil edilib.*

*Sonra xatirə şəkli çəkdirildi.*

*«Milan Expo 2015» Təşkilat Komitəsinin rəyinə görə, Azərbaycan hazırlıq və quraşdırma prosesində ilkin mərhələdə iştirakçı dövlətlər qarşısında qoyulan tələbləri, pavilyonun məzmun və tərtibatı ilə bağlı təqdimatları ən tez yerinə yetirən ölkələr sırasındadır. Eyni zamanda, xarici mətbuat və İtaliyanın aparıcı kütləvi informasiya vasitələri milli pavilyonumuzun tikinti və dizayn işlərinin yekunlaşdırılmasına görə Azərbaycanın lider olduğunu bildiriblər. Müxtəlif ölkələrin rəsmi nümayəndə heyətləri və sərginin rəhbərliyi Azərbaycan pavilyonunun dizaynına görə digərlərindən çox fərqləndiyini, seçilmiş mövzuya tam uyğun olduğunu qeyd ediblər. Ölkəmizin bu uğurları səbəbindən Ermənistan «Milan Expo 2015»də iştirakdan imtina edib.*

*Daha sonra prezident İlham Əliyev «Milan Expo 2015» Beynəlxalq sərgisində dövlət bayraqlarının qaldırılması mərasimində iştirak etdi.*

*İtaliyanın və Azərbaycanın dövlət himnləri səsləndirildi və dövlət bayraqları qaldırıldı.*

**Bruno Antonio Pasquino** *(«Milan Expo 2015» sərgisinin baş direktoru):* Cənab Prezident, Sizin burada olmağınız nəinki Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlığa verdiyi dəyəri, o cümlədən ölkələrimizi bağlayan qarşılıqlı hörmət və böyük ehtirama əsaslanan münasibətləri nümayiş etdirir.

Milana, burada müzakirə olunan mövzulara verdiyiniz əhəmiyyətlə yanaşı, xatırlatmaq kifayətdir ki, Azərbaycan «Expo»ya üçüncü olaraq qoşulmuş ilk ölkələr sırasındadır və sərgiyə hazırlıq mərhələsində ən fəal iştirakçılardan biri olub.

«Milan Expo 2015»in çoxsaylı qonaqları Sizin pavilyon sayəsində Azərbaycanı tanımaq imkanı əldə etdilər. Onlar gələcəyə açıq və inanan, zəngin tarixə, mədəniyyətə, sürətli inkişafa, beynəlxalq aləmdə yüksək nüfuza malik, ənənə və texnoloji innovasiyaya bağlı olan bir ölkəni və xalqı tanıdılar.

Cənab Prezident, Sizin pavilyon qonaqları öz görünüşü ilə də cəlb edir. Həmçinin ölkələrimiz arasında yaxınlığın, Sizin məhz Milandakı bu sərgidə iştirakınızın rəmzi olacaq, unudulmaz xatirəyə çevriləcək pavilyonunuz 6 aydan sonra Bakıya köçürülərək, orada onu seyr etmək imkanı yaradacaq.

Pavilyonda Azərbaycanın iqlimi, təbiəti, gözəl adət-ənənələri, mətbəxinizin ləziz yeməkləri əks olunur. Bununla yanaşı, Azərbaycan xalqının çox səmimi və ənənəvi qonaqpərvərliyi hərtərəfli şəkildə nümayiş etdirilir. Öz quruluşu və mənasına görə yüksək dəyərləndirilən pavilyonunuz iştirakınız üçün əvvəlcədən seçilmiş «Azərbaycan biomüxtəliflik xəzinəsi» mövzusu ilə tamamlanır. Bu mövzu məhz «Expo»nun dərin mənasını, ərzaq təhlükəsizliyi məsələlərinin həllinin vacibliyini xüsusi olaraq qeyd edir.

Cənab Prezident, «Milan Expo 2015» kənd təsərrüfatı sahəsində davamlı inkişaf, aclığa qarşı mübarizə, insanlar, dinlər və mədəniyyətlər arasında dialoqun rolu kimi vacib mövzulara diqqəti cəlb etmək üçün xüsusi fürsətdir. Beləliklə, buraya gələn hər kəs fərdi seçimlərlə qlobal proseslər arasında böyük əlaqəni görə biləcək. Həmçinin sərginin «Planetimizi qidalandıraq, həyat üçün enerji qazanaq» devizi ölkəniz üçün sadə deviz deyil. Çünki ölkənizin gələcək inkişaf istiqaməti məhz ondan ibarətdir. Məhz Sizin iqtisadi və siyasi inkişafınız böyük vüsət almışdır.

Cənab Prezident, çıxışımın sonunda bildirmək istəyirəm ki, «Bakı–2015» ilk Avropa oyunları uğurla keçmişdir. Bu münasibətlə Sizi təbrik edirik. Hesab edirik ki, «Milan Expo 2015» sərgisi, həmçinin ölkələrimiz üçün münasibətlərini daha da dərinləşdirmək və idman sahəsində bölüşdüyümüz dəyərləri nümayiş etdirmək fürsətidir.

Cənab Prezident, biz bilirik ki, bir neçə dəqiqədən sonra Siz buradan növbəti vacib siyasi səfərə – Romaya gedəcəksiniz. Bu da ikitərəfli münasibətlərimiz baxımından çox vacibdir.

Cənab Prezident!

Hörmətli iştirakçılar!

Xanımlar və cənablar!

Bu mərasimdə iştirak etdiyinizə görə təşəkkürümüzü bildiririk. Hesab edirik ki, burada iştirakınız bizim hamımızı bir-birimizə bağlayan əlaqələrin bir daha gözəl təcəssümü oldu. Bir daha minnətdaram.

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram!

Bu gün «Milan Expo»da Azərbaycan milli günüdür. Bu gün bizimlə bərabər olduğunuza görə sizə minnətdaram. Fürsətdən istifadə edərək, İtaliya hökumətini «Milan Expo»nu yüksək səviyyədə təşkil etdiyinə görə ürəkdən təbrik edirəm.

Qeyd etməliyəm ki, Azərbaycan bu sərgidə 2000-ci ildən iştirak edir. Ancaq bu il ilk dəfədir ki, biz sərgidə milli pavilyonumuzla təmsil olunuruq. Bir qədər bundan əvvəl pavilyonla tanış oldum. Burada deyildiyi kimi, pavilyon həm memarlıq, daxili dizayn, tərtibat

baxımından zövq oxşayır, yüksək səviyyədədir, həm də ölkəmizlə tanış olmaq üçün çox gözəl imkanlar yaradır.

Pavilyonda Azərbaycanın zəngin tarixi, mədəniyyəti, incəsənəti, musiqisi, xalçaçılıq sənəti, ölkəmizə dair kitablar nümayiş etdirilir və bunlar qonaqlarda Azərbaycan haqqında dolğun təsəvvür yaradır.

Azərbaycan qədim diyardır. Çox zəngin mədəniyyətə, tarixə, memarlıq abidələrinə malikdir. Ancaq müstəqil ölkə kimi, bizim cəmi 24 yaşımız var. Ona görə ölkəmizi dünyada, Avropada tanıtmaq üçün müxtəlif tədbirlər keçirilir. Onların içərisində «Milan Expo 2015», əlbəttə ki, xüsusi yer tutur. Eyni zamanda, bizim pavilyonumuzda bugünkü Azərbaycan reallıqları da əksini tapıb.

Azərbaycan dinamik sürətlə inkişaf edən, dünyaya açıq olan ölkədir, Şərq ilə Qərb arasında yerləşir. Həm coğrafi, həm siyasi, həm mədəni baxımdan Şərq ilə Qərb arasındakı bir körpüdür. Əsrlərboyu Azərbaycanda müxtəlif dinlərin, millətlərin nümayəndələri bir ailə kimi, sülh, əmin-amanlıq şəraitində yaşamışlar. Bu gün multikulturalizm Azərbaycanda dövlət siyasətidir və eyni zamanda, həyat tərzidir. «Milan Expo»nun mövzularından biri də məhz multikulturalizmdir.

Digər mövzular da böyük əhəmiyyət daşıyır. Onların içərisində ərzaq təhlükəsizliyi bu gün dünya gündəliyinin əsas məsələlərindən biridir. Deyə bilərəm ki, Azərbaycan bu istiqamətdə çox önəmli addımlar atmışdır. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının hesabatında Azərbaycanın əldə etdiyi uğurlar qiymətləndirilir. Azərbaycan o ölkələrdəndir ki, artıq aclıq tamamilə aradan qaldırılıb. FAO-nun hesabatına görə, dünyada 29 ölkədən biri də Azərbaycandır ki, aclığın səviyyəsi 2 dəfədən çox aşağı düşüb. Bu böyük bəla Azərbaycanda aradan qaldırılıb.

Bizim beynəlxalq mövqelərimiz kifayət qədər möhkəmdir. Bir neçə il bundan əvvəl biz 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Bu bizim ölkəmizin beynəlxalq nüfuzunu göstərir. Ölkəmizdə aparılan iqtisadi islahatlar bu gün imkan verir ki, biz çoxşaxəli iqtisadiyyata malik olaq. Son illər ərzində aparılan işlər nəticəsində işsizliyin, yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşüb. Bu gün işsizlik və yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. Son 10 il ərzində 1 milyondan çox yeni iş yeri açılıb. Maliyyə vəziyyətimiz kifayət qədər möhkəmdir. Dövlət xarici borcumuz ümumi daxili məhsulun cəmi 10 faizini təşkil edir. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən ölkələrin iqtisadi cəhətdən rəqabətqabliyyətliliyinə görə Azərbaycan dünya miqyasında 38-ci yerdədir. Yəni bu, gənc müstəqil dövlət üçün böyük göstəricidir.

Əlbəttə ki, ölkə qarşısında duran məsələlər var. Biz onları həll edirik. Ancaq son illərdə atdığımız addımlar və əldə edilən nailiyyətlər deməyə əsas verir ki, qarşıda duran məsələlər də uğurla icra ediləcək. Bir sözlə, bu gün Azərbaycan dünyaya açıq, müasir, dinamik inkişaf edən, iqtisadi cəhətdən möhkəm dayaqları olan bir ölkədir.

Bu gün İtaliyada olmuşkən İtaliya–Azərbaycan əlaqələri haqqında bir neçə kəlmə demək istəyirəm. Bu əlaqələr bu gün ən yüksək səviyyədədir. İtaliya bizim üçün yaxın dost, tərəfdaş ölkədir. İtaliya–Azərbaycan əlaqələrinin müxtəlif aspektləri inkişaf edir, ilk növbədə, siyasi əlaqələr. Düz 1 il bundan əvvəl iyul ayında mən İtaliyada rəsmi səfərdə olarkən iki ölkə arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə qəbul edildi. Yəni strateji tərəfdaşlıq iki ölkə arasındakı əlaqələrin ən yüksək zirvəsidir. Bu gün biz bu əlaqələri belə görürük və siyasi əlaqələr möhkəmlənir.

Mən bu gün buradan Romaya yola düşürəm. Romada İtaliya rəhbərləri ilə mənim görüşlərim olacaq. Siyasi əlaqələr, əlbəttə ki, bütün başqa sahələrə də müsbət təsir göstərir. Onu da qeyd etməliyəm ki, İtaliya Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır. Bu da çox

əlamətdar haldır. Bu bizi sevindirir. Çünki İtaliya bizim üçün çox yaxın ölkədir və Azərbaycan əhalisi İtaliyaya çox böyük sevgi ilə, rəğbətlə yanaşır. Azərbaycanda işləyən, yaxud da turist kimi gələn italyanlar, əlbəttə ki, bunu hiss edirlər.

Bizim iqtisadi əməkdaşlığımız dərinləşir. Bu gün Azərbaycanda 60-dan çox İtaliya şirkəti fəaliyyət göstərir. Əlbəttə, bizim iqtisadi əlaqələrimizin böyük hissəsi enerji siyasəti ilə bağlıdır. Bu gün Azərbaycan və İtaliya ölkələrimiz, bölgələrimiz və Avropa üçün çox önəmli olan «Cənub Qaz Dəhlizi»nin icrası ilə birgə məşğuldur. «Cənub Qaz Dəhlizi» Bakıdan, Azərbaycandan başlayır və İtaliyada başa çatır. 3 min kilometrdən çox uzunluğu olan bu qaz kəməri gələcəkdə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında öz müsbət rolunu oynayacaq. Bu gün İtaliya ilə Azərbaycan arasındakı əlaqələrin yüksək səviyyədə olması bizə «Cənub Qaz Dəhlizi»ni vaxtında icra etməyə imkan verir. Beləliklə, bundan sonra uzun illər, onilliklər ərzində İtaliya və Azərbaycan, o cümlədən enerji siyasəti ilə bir-birinə daha da sıx bağlı olacaq. Bir sözlə, bizim ikitərəfli əlaqələrimiz sürətlə inkişaf edir. Bu əlaqələrin inkişafı üçün çox gözəl imkanlar var.

2 ay ərzində artıq 1 milyondan çox qonaq Azərbaycan pavilyonunda ölkəmizlə tanış olmuşdur. Bu özlüyündə bir göstəricidir. Bu onu göstərir ki, ölkəmizə çox böyük maraq var və bu maraq qarşılıqlıdır.

Burada qeyd edildi ki, Azərbaycanda keçirilən ilk Avropa oyunları bir neçə gün bundan əvvəl başa çatmışdır. Başqa qitələrdən fərqli olaraq, Avropa oyunları heç vaxt keçirilməmişdi. Onu da qeyd etməliyəm ki, bu oyunların keçirilməsi haqqında qərar məhz İtaliyada verilmişdir. 2012-ci ilin dekabr ayında Romada Avropa Olimpiya Komitəsi bu qərarı verdi və bu şərəfli missiya bizim üzərimizə düşdü. Azərbaycan bu oyunları ən yüksək səviyyədə təşkil etdi və keçirdi. Bu doğrudan da böyük idman və dostluq bayramı oldu. İtaliya komandası yarışlarda çox böyük nəticələr əldə etmişdir. Mən bu qələbələr münasibətilə sizi ürəkdən təbrik etmək istəyirəm.

Onu da qeyd etməliyəm ki, 2 ildən sonra Bakıda İslam Həmrəyliyi oyunları keçiriləcək və bu bir daha mənim sözümü təsdiqləyir. Çünki Azərbaycan həm Avropaya yaxın olan bir ölkədir, Avropa təşkilatlarının üzvüdür və bu təşkilatlarda çalışır, eyni zamanda, müsəlman aləminin tərkib hissəsidir. Biz öz siyasətimizlə çalışırıq ki, sivilizasiyalararası, dinlərarası, mədəniyyətlərarası dialoqu gücləndirək. Hesab edirəm ki, İtaliyanın və Azərbaycanın bu sahədə gördüyü işlər təqdirəlayiqdir və biz öz səylərimizi bundan sonra da gücləndirəcəyik.

Bu sərgidə Azərbaycan çalışdı ki, öz imkanlarını ortaya qoysun. Dediyim kimi, 1 milyondan çox insan artıq pavilyonumuzla tanış olmuşdur. Amma ən yaxşı tanışlıq, əlbəttə ki, Azərbaycanı görməkdir. Mən sizi, bizim dostlarımızı Azərbaycana dəvət edirəm. Ölkəmizə gəlin və siz görəcəksiniz ki, Azərbaycanda italiyalılara çox böyük rəğbət var.

Əziz dostlar, bizimlə bərabər olduğunuza görə sizə bir daha minnətdaram. İtaliya xalqına yeni uğurlar, qələbələr və xoşbəxtlik arzu edirəm. Sağ olun.

* * *

*Çıxışlardan sonra dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva sərgidəki İtaliya milli pavilyonu ilə tanış olmuşlar.*

*İtaliyanın milli pavilyonunun əsas konsepsiyası cəmiyyətin rifahının yüksəldilməsi, torpağın münbitliyinin artırılması üçün insanların istedadından səmərəli istifadəni, ətraf mühitin mühafizəsini ehtiva edir. Burada ziyarətçilər ölkənin zəngin mədəni irsi ilə tanışlıq və incəsənətinə daha yaxından bələd olmaq imkanı əldə edirlər. Pavilyonda, həmçinin İtaliyanın füsunkar təbiəti və möhtəşəm memarlıq abidələri ziyarətçilərin marağına səbəb olur.*

*«Milan Expo 2015» Beynəlxalq sərgisi mayın 1-dən fəaliyyət göstərir. «Planetimizi qidalandıraq, həyat üçün enerji qazanaq» (Feeding the Planet, Energy for Life) devizi ilə keçirilən builki sərgidə 145 ölkə iştirak edir. Bu ölkələrdən yalnız 54-ü, o cümlədən Azərbaycan milli pavilyonla təmsil olunur. Digər ölkələr isə sərgidə yalnız stendlərlə iştirak edir. Sərgi oktyabrın 31-dək davam edəcək.*

*«Expo» Ümumdünya sərgisi, həmçinin izləyici sayına, miqyasına görə məşhurdur. Bu il Milanda təşkil olunan sərgi hələ fəaliyyətə başlayana qədər – mayın 1-dək 11 milyondan çox bilet satılıb. Azərbaycan milli pavilyonuna mayın 1-dən etibarən 1 milyondan çox ziyarətçi gəlib.*

*Prezident İlham Əliyev İtaliya milli pavilyonunun Xatirə kitabına ürək sözlərini yazdı.*

*Xatırladaq ki, «Expo» Ümumdünya sərgisi 1851-ci ildən etibarən keçirilir. Bu sərgi dünyanın müxtəlif ölkələrindən gələn ziyarətçi sayına görə Olimpiya oyunları və futbol üzrə dünya çempionatlarından sonra 3-cü böyük beynəlxalq tədbir hesab olunur.*

* * *

*İtaliya Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Milandan paytaxt Romaya gəlmişdir.*

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**69-cu kitab: may 2015 - iyul 2015. - Bakı: Azərnəşr, 2018, S. 269-279.**

# AĞSUYA İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİ

*(17 sentyabr 2015-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Ağsuya içməli suyun verilməsi mərasimində iştirak edib.

Dövlətimizin başçısı "milli su təchizati və kanalizasiya xidmətləri üzrə ikinci layihə" çərçivəsində həyata keçirilən Ağsu rayonunda su təchizatı, çirkab su sistemləri və çirkab su təmizləyici qurğunun tikintisi" layihəsi ilə tanış oldu.

Prezident İlham Əliyevə məlumat verən "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə bildirdi ki, Ağsu şəhərinin içməli suya tələbatını təmin etmək üçün suyun Külüllü ərazisində Girdimançayın məcrası altından və Ağsuçayın yuxarı hissəsində mövcud olan quzey bulaqlarından götürülməsi nəzərdə tutulub. Külüllü ərazisində dəniz səviyyəsindən 175 metr yüksəklikdə yerləşən mövcud su qəbuledici qurğudan içməli suyun borularla qəbul edilərək Ağsu şəhərinə və rayonun 8 kəndinə ötürülməsi məqsədi ilə həmin ərazidə məhsuldarlığı 52,5 litr/saniyə olan nasos stansiyası və magistral boru kəməri, o cümlədən nasos stansiyasından təzyiq tənzimləyici anbarına qədər magistral təzyiqli boru kəməri tikilib. Bundan başqa Ağsu rayonunun Padar, Gursulu, Kalağaylı, Yenilik, Pirhəsənli və Elabad kəndlərinin 5260 nəfər əhalisini içməli su ilə təmin etmək üçün magistral boru kəmərindən su çıxışı verilib. Eyni zamanda, su şəbəkəsindən rayonun Təklə və Muradlı kəndlərinin 1080 nəfər əhalisini içməli su ilə təmin etmək üçün su çıxışı da hazırdır.

Bildirildi ki, Ağsuçayın yuxarı hissəsində yerləşən quzey bulaqlarından Ağsu şəhərinə 2010-cu ildə Prezidentin ehtiyat fondundan ayrılan vəsait hesabına magistral su ötürücü xətti rayon icra hakimiyyəti tərəfindən inşa edilib. Quzey bulaqlarından həmin boru xətti ilə nəql edilən içməli su layihə çərçivəsində əsaslı təmir edilərək müasir avadanlıqla təchiz olunan 500 kubmetrlik su anbarına nəql olunur və buradan əhaliyə paylanır. Bundan əlavə, layihə üzrə təzyiq tənzimləyici və paylayıcı anbarlar inşa olunub, Ağsu şəhərindəki daha bir su anbarı əsaslı təmirdən sonra müasir standartlara cavab verən yeni avadanlıqla təchiz edilib.

Dövlətimizin başçısına məlumat verildi ki, artıq layihə üzrə müxtəlif diametrli içməli və magistral su xətləri, o cümlədən şəbəkə su xətti çəkilib və bunun üzərində 5493 ev birləşməsi və 481 yanğın hidrantı quraşdırılaraq nəzərdə tutulan işlər yekunlaşıb. Abonentləri içməli su ilə təmin etmək üçün 5020 sayğacın quraşdırılması başa çatdırılıb. Bundan əlavə, müxtəlif diametrli kanalizasiya xətləri, o cümlədən kollektor xətti çəkilib. Kanalizasiya şəbəkə xətləri üzərində 5301 ev birləşməsi və 3136 baxış quyusu quraşdırılıb. Çirkab su təmizləyici qurğunun tikintisi üçün Muradlı kəndinin ərazisində torpaq sahəsi ayrılıb və hazırlıq işlərinə başlanılıb. Çirkab su təmizləyici qurğusundan çıxan təmizlənmiş suyun mövcud Ağsu kollektoruna axıdılması nəzərdə tutulub.

Sonra Prezident İlham Əliyev Ağsu ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Rayon ictimaiyyətinin nümayəndələrini salamlayan Prezident **İlham ƏLİYEV dedi:**

- Bu gün biz çox əlamətdar hadisəni birlikdə qeyd edirik. Ağsu rayonunun içməli su layihəsi artıq başa çatır və nəhayət, bu problem öz həllini tapır. Artıq şəhərə təmiz, gözəl mənbədən içməli su verilir və hesab edirəm ki, bu, çox böyük nailiyyətdir. Çünki siz də yaxşı bilirsiniz, mən də bilirəm ki, Ağsunun içməli su problemi həmişə çox ciddi problem kimi qalmışdı. Yadımdadır, birinci dəfə Prezident kimi Ağsuya gələndə vətəndaşlar bu məsələni qaldırmışdılar ki, içməli suyun keyfiyyəti çox aşağıdır və insanların sağlamlığına mənfi təsir göstərir. O vaxt müəyyən tədbirlər görüldü. Ancaq bu gün Ağsu şəhərinin içməli su problemi əsaslı şəkildə tam həll olunur. Təmiz mənbədən keyfiyyətli içməli su verilir.

Kanalizasiya layihəsi də başa çatmaq üzrədir. Mənə verilən məlumata görə, gələn il bu layihə də başa çatacaq.

Eyni zamanda, bu içməli su layihəsi çərçivəsində bir neçə kəndə də suyun verilməsi nəzərdə tutulur. Gələcəkdə əlbəttə ki, başqa kəndlərə də içməli suyun verilməsi nəzərdə tutulmalıdır. İçməli su insanların sağlamlığı üçün əsas şərtdir və əminəm, indi yaradılan bu şərait imkan verəcək ki, insanlar daha da sağlam olsunlar. Xüsusilə, gənclər, yetişən gənc nəsil sağlam böyüyəcək. Çünki içməli su, təmiz hava, keyfiyyətli ərzaq məhsulları, tibbi xidmət, fiziki hərəkət və əlbəttə ki, sağlam həyat tərzi insanların sağlamlığı üçün əsas amillərdir. Onların da demək olar ki, hamısı indi Ağsuda var. Yalnız xəstəxana çatışmır. Keçən dəfə mən burada olanda stadion açıldı. Bu gün isə idman mərkəzi açılıb, şəhərə içməli su verilir. Mən artıq buradan Səhiyyə Nazirliyinə tapşırıq verirəm ki, xəstəxananın tikintisini sürətləndirsinlər. Tezliklə o da sizin sərəncamınıza veriləcək.

Ağsu sakini **Akif MİRZƏYEV** dedi: Çox sağ olun, cənab Prezident. Allah Sizdən razı olsun. Bu gün Siz suyun verilməsi mərasimində iştirak edirsiniz. Ömrünüz su qədər uzun olsun. Minnətdarıq. Allah Sizi qorusun.

**Prezident İlham ƏLİYEV**: Sağ olun.

Ağsu rayonunun inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıq edən **Şəfəq BALIYEVA** dedi: Möhtərəm cənab Prezident, icazə verin bir-iki kəlmə də mən öz ürək sözümü bildirim. Bu gün dünya çox çətin dövr yaşayır. İstər təbii fəlakətlər, istər hərbi münaqişələr. Mən bütün Azərbaycan xalqı adından cəsarət edib çox xoşbəxt olduğumuzu bildirmək istəyirəm ki, bizim Sizin kimi sipərimiz, Prezidentimiz var və biz arxayın, aramla öz zəhmətkeş həyatımızı sürdürürük. Allah Sizi qorusun ki, Siz də bizi qoruyasınız.

**Prezident İlham ƏLİYEV**: Çox sağ olun. Ağsu rayonunun uğurlu inkişafı məni çox sevindirir. Çünki mən artıq dördüncü dəfədir ki, Prezident kimi rayona səfər edirəm və görürəm çox böyük inkişaf var. Abadlıq, quruculuq işləri, sosial məsələlər öz həllini tapır, müəssisələr yaradılır. Burada böyük bir şirə zavodu istifadəyə verilmişdir, indi müxtəlif ölkələrə öz məhsullarını ixrac edir. Kənd təsərrüfatı inkişaf edir. Son vaxtlar yaratdığımız iri fermer təsərrüfatları arasında Ağsu rayonunda olan təsərrüfat məhsuldarlığa görə birinci yerdədir, rekord göstəricidir. Sizi təbrik edirəm.

**SAKİNLƏR**: Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Taxılçılıqda orta məhsuldarlıq bu gün Azərbaycanda ilk dəfə olaraq 30 sentnerdən yuxarıdır. Ağsuda təqribən 35 sentnerdir. Amma iri fermer təsərrüfatında bu, 50 sentnerdir. Bu, görünməmiş nailiyyətdir, yüksək nəticədir. Biz bu təcrübəni gərək başqa təsərrüfatlarda da tətbiq edək ki, daha da bol məhsul yetişdirək. Çünki insanların məşğulluğu, ərzaq təhlükəsizliyi, ümumiyyətlə, iqtisadi inkişaf üçün kənd təsərrüfatı xüsusi yer tutur.

Biz neft siyasətində bütün lazımi işləri gördük. Bu gün ölkəmiz, xalqımız üçün onilliklər bundan sonra imkan yaradan "Cənub" qaz dəhlizi layihəsini icra edirik. İnfrastruktur layihələri demək olar ki, başa çatır. Bax, bugünkü layihə bunun bariz nümunəsidir. Kənd yolları tikilir. Mən bu gün Kürdəmir-Ağsu yolunu açmışam, o yolla gəlmişəm. Bakı-Şamaxı-Ağsu yolu. Bu da həll olunub. "Azərişıq" burada elektrik təsərrüfatının yenilənməsi ilə məşğuldur. Qazlaşdırma gedir. Mənə söz veriblər ki, Ağsuda qazlaşdırma ilin sonuna qədər 90 faizə çatacaq. Bu da tarixi nailiyyətdir. Bundan sonra yerli istehsal, kənd təsərrüfatı və sənaye məhsullarının istehsalı bizim üçün prioritet olmalıdır. Çünki bizim üstünlüyümüz ondadır ki, bizdə əhali artır. Demək olar ki, qonşu ölkələrin bir neçəsində demoqrafik tənəzzül yaşanır, xüsusilə Ermənistanda. Artıq orada yaşayanların sayı kəskin

şəkildə aşağı düşüb. Ona görə ki, böyük köç var, orada insanlar artıq o şəraitə dözmürlər. Digər tərəfdən, təbii artım yoxdur. Ancaq bizdə əhali artır. Bu, bizim üstünlüyümüzdür və çox böyük üstünlükdür. Amma bununla bərabər, bizim iqtisadiyyatımız da buna uyğun şəkildə artmalıdır. Hər il Azərbaycanda əhalinin sayı təqribən 100 min nəfər artır, bəlkə də çox. Gələcəkdə daha da çox artacaq. Ona görə, bizim iqtisadiyyatımız buna uyğun şəkildə inkişaf etməlidir. Son illərdə 1 milyondan artıq yeni iş yeri yaradılıb. Ancaq bu, daimi proses olmalıdır. Ona görə, yeni əkin sahələrinin dövriyyəyə buraxılması, Taxtakörpü, Şəmkirçay kimi böyük su anbarlarının tikintisi, digər kiçik anbarların inşası kənd təsərrüfatının inkişafına dəstək olacaq. Çünki məşğulluq artmalıdır, işsizlik tam aradan qaldırılmalıdır və insanlar daha da yaxşı yaşamalıdırlar.

Gələcəkdə elə məhsul istehsal olunmalıdır ki, biz o məhsulu istənilən xarici bazara ixrac edə biləк. Sizin Ağsudakı zavodun məhsulları kimi. Belə zavodlar çox olmalıdır. Azərbaycan dünyaya özünü böyük həcmdə ərzaq istehsal və ixrac edən ölkə kimi də təqdim edəcək. Bu halda iqtisadi inkişaf dayanıqlı olacaq. Bizim iqtisadiyyatımız neftin qiymətindən daha da az asılı olacaq. Çünki indi dünyada gedən maliyyə-iqtisadi böhranı istər-istəməz bizə də təsir edir. Neftin qiyməti iki dəfədən çox aşağı düşüb, gəlirlərimiz azalıb. Amma biz bütün sosial layihələri icra edirik, biri də dayanmayıb. Bu gün göstəriş vermişəm ki, xəstəxana da tezliklə tikilib istifadəyə verilsin.

İnfrastruktur layihələri icra edilir, ölkəyə investisiyalar qoyulur. Azərbaycan dünyada yaşanan bu çətin dövrdə də nümunə göstərir. Ona görə də təsadüfi deyil ki, bu gün Azərbaycanın uğurlu inkişaf modeli haqqında məqalələr yazılır. Əminəm ki, yaxın gələcəkdə elmi əsərlər yazılacaq, dissertasiyalar müdafiə ediləcək. Azərbaycan möcüzəsi, doğrudan da möcüzədir. Belə bir geosiyasi vəziyyətdə inkişaf etmək, sabitliyi möhkəmləndirmək, ölkəni qabağa aparmaq doğrudan da Azərbaycan xalqının böyük qəhrəmanlığıdır.

Görün bu gün dünyanın müxtəlif yerlərində nələr baş verir. Bir il bundan əvvəl bunların heç biri yox idi. Qanlı toqquşmaların sayı artır, coğrafiyası genişlənir. Bu qarşıdurmaya, müharibələrə yeni ölkələr qoşulur. Avropada böhran yaşanır. Mən artıq demişəm, bu, daha çox mənəvi böhrandır. Qaçqınlara münasibətdə bu ayrı-seçkilik, bu pis rəftar heç bir çərçivəyə sığmır. Özləri prinsiplər, dəyərlər bəyan ediblər. Başqa ölkələrin daxili işlərinə qarışmaq üçün bunu bayraq edib hər yerdə bəyan edirlər. Onda bu prinsipləri öz ölkənizdə də göstərin. Qadınları, uşaqları, qocaları döyürlər, onlara işgəncə verirlər. Bu insanların nə günahı var?! Ayrı-seçkilik göstərirlər, deyirlər ki, müsəlman qaçqınları buraxmayacağıq, bu nə deməkdir?! Bu faşizmdir, irqçilikdir, ksenofobiyadır. Yenə də Avropada faşizm baş qaldırır?! Axı faşizm bir bəla kimi müsəlman aləmində yaranmayıb. Biz yaxşı bilirik ki, harada yaranıb. Yəni, bunu unutdurmaq istəyirlər. İkinci Dünya müharibəsi haqqında Qərbdə qəsdən təhrif edilmiş informasiyalar gedir. Sovet xalqının, o cümlədən Azərbaycan xalqının iştirak etdiyi o müharibədə sovet ordusunun qəhrəmanlığını aşağılamaq istəyirlər. Televiziyada, internetdə gördüyümüz bu mənzərə yenə də o günləri bizə xatırladır. Yenə də faşizm baş qaldırır? Yenə də insanları təbəqələrə, millətlərə, dinlərə bölürlər? Ona görə islamofobiya çox böyük təhlükədir. Bu, bizim üçün təhlükədir. Çünki biz müsəlmanıq. Onlar üçün də təhlükədir.

Bu qarşıdurma həm ideoloji qarşıdurmadır, həm təbii resurslar uğrunda gedən mübarizədir, müharibədir və təsir imkanlarını genişləndirmək üçün qarşıdurmadır. Ona görə, biz buna hazır olmalıyıq və hazırıq. Biz bütün tədbirləri vaxtında gördük. Qoymadıq ki, yad qüvvələr, bizim inkişafımızı istəməyən qüvvələr Azərbaycanda kök salsın. O kökü biz kəsdik. Kəsdiyimiz üçün də bizə qarşı indi olmazın iftiraları uydurulur. Amma biz buna

hazırıq. Əsas odur ki, Azərbaycan inkişaf etsin, insanlar sülh, əmin-amanlıq, sabitlik şəraitində yaxşı yaşasınlar. Azərbaycan burada həm iqtisadi, həm siyasi, həm mənəvi cəhətdən bütün dünyaya nümunə göstərir. Axı Azərbaycan çoxmillətli ölkədir. Azərbaycanda bütün millətlər bir ailə kimi yaşayır, heç bir ayrı-seçkilik yoxdur. Müxtəlif dinlərin nümayəndələri qardaşlıq şəraitində yaşayırlar.

Mən dəfələrlə demişəm, bizim aramızda heç bir ayrı-seçkilik ola bilməz. Dinindən, millətindən asılı olmayaraq hamımız Azərbaycan vətəndaşlarıyıq, hamımızın eyni, bərabər hüquqları var. Budur normal həyat tərzi. Əslində, bizim yaşadığımız bu mühit normal həyat tərzidir. Ancaq görün indi başqa yerlərdə nələr baş verir. Ona görə, mən əminəm ki, Azərbaycan modeli öyrəniləcək və nümunə kimi göstəriləcək. Biz əlbəttə, öz işimizi ona görə qurmamışıq ki, kiminsə xoşuna gələk, yaxud da kimsə bizdən örnək götürsün. Biz bunu özümüz üçün edirik. Biz istəmirik kimsə bizim işimizə qarışsın. Yəni, kənardan oturub Azərbaycana mühazirə oxumaq istəyən məgər bizi bizdən daha çox istəyir? Təbii ki, yox. İstəyir ki, burada təsir imkanları genişlənsin, Azərbaycanı müxtəlif təxribatlara sövq etsin, cəlb etsin, təhrik etsin.

Biz bu təxribatlara getmirik. Getməyəndə də onlar üçün pis oluruq. Eybi yoxdur, qoy onlar üçün pis olaq. Əgər onlar bizi tənqid edirlərsə, deməli, biz düzgün yoldayıq. Bu da var. Azərbaycan xalqı güclü xalqdır, bütün təzyiqlərə dözür, dözəcək, öz sözünü deyir, heç bir yalanı cavabsız qoymur, qoymayacaqdır və bütün dünyaya sübut edir ki, bizimlə ancaq dostluq münasibətləri qurmaq olar. Biz buna hazırıq. Əgər onlar hazırdırlarsa, biz də hazırıq. Əgər yox, onda, necə deyərlər, səninki səndə, mənimki məndə.

* * * *

Daha sonra xatirə şəkli çəkdirildi.

Sonda Prezident İlham Əliyev Ağsu şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.

**AZƏRTAC**
**2015, 17 sentyabr**

## “GÖYÇAY” SU ELEKTRİK STANSİYASININ AÇILIŞINDA İŞTİRAK

*(6 oktyabr 2015-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da “Göyçay” Su Elektrik Stansiyasının açılışında iştirak edib.

Prezident İlham Əliyevin 2009-cu il 16 noyabr tarixli Sərəncamı ilə kiçik su elektrik stansiyalarının respublikada geniş tətbiq edilməsi məqsədilə xüsusi proqramlar hazırlanıb. Mütəxəssislərin araşdırmalarına görə, respublikanın müxtəlif bölgələrində dağ çayları və suvarma kanalları üzərində yüzlərlə kiçik su elektrik stansiyasının tikintisini həyata keçirmək mümkündür. Bu stansiyalardan istifadə bir tərəfdən elektrik enerjisinin istehsalında yanacağa qənaət edilməsinə imkan verir, digər tərəfdən isə ətraf mühitə heç bir zərər yetirmir. Dövlətimizin başçısının Sərəncamına uyğun olaraq, respublikanın bir sıra bölgələrində kiçik su elektrik stansiyalarının tikintisi davam etdirilir. Gücü 3,1 meqavat olan “Göyçay” kiçik su elektrik stansiyası isə artıq istismara hazırdır.

“Azərenerji” ASC-nin prezidenti Etibar Pirverdiyev 2010-cu ilin fevralında Prezident İlham Əliyev tərəfindən təməli qoyulan bu stansiyanın əsas komponentləri barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyev stansiyanı işə saldı.

Şirvan kanalının Göyçay rayonunun Bığır kəndi ərazisindən keçən hissəsində tikilmiş stansiya ildə 20 milyon kilovat-saat elektrik enerjisi istehsal etməyə imkan verəcək. Bu isə Göyçay rayonunun tələbatının 25 faizini təşkil edir. Stansiyanın ərazisi 5 hektardır, burada geniş yaşıllaşdırma və abadlıq işləri aparılıb, köməkçi tikililər inşa edilib. Burada hər birinin gücü 1,03 meqavat olan üç hidroaqreqat, suqəbuledici və tutumu 4500 kubmetr olan təzyiq hovuzu, hər birinin uzunluğu 28,4 metr olan üç dəmirbeton təzyiq qurğusu quraşdırılıb. Burada, həmçinin turbin zalı və su nəqledici kanal yaradılıb, 10 kilovoltluq yarımstansiya və elektrikverici xətlər çəkilib.

**AZƏRTAC**
**2015, 6 oktyabr**

## UCAR ŞƏHƏRİNİN SU TƏCHİZATI SİSTEMİ YENİDƏNQURMADAN SONRA İSTİFADƏYƏ VERİLİB

*(6 oktyabr 2015-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ucar şəhərinin su təchizatı sisteminin yenidən qurulması layihəsinin başa çatdırılması münasibətilə təşkil olunan mərasimdə iştirak edib.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Qorxmaz Hüseynov dövlətimizin başçısına məlumat verdi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində bölgələrdə əhalinin içməli su təchizatının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Proqram çərçivəsində həyata keçirilən "Ucar şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi" 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla rayon mərkəzində 22 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində 37 min nəfər əhalinin yaşadığı 15 kəndə də içməli suyun verilməsi nəzərdə tutulur. Ümumilikdə bu layihədən 59 min nəfər faydalanacaq. Layihə çərçivəsində Ucar Sukanal İdarəsi üçün müasir tələblərə cavab verən yeni inzibati bina tikilib.

Prezident İlham Əliyev idarənin binasında yaradılmış şəraitlə tanış oldu.

Məlumat verildi ki, ümumi sahəsi 720 kvadratmetr olan binada müasir tələblərə cavab verən "SCADA" idarəetmə mərkəzi yaradılıb. Onun vasitəsilə suyun mənbədən istehlakçıyadək ötürülməsi onlayn rejimdə tənzimlənəcək. Bu istiqamətdə həyata keçirilən tədbirlərdən biri də Coğrafi İnformasiya Sisteminin yaradılmasıdır. Ucar şəhərində də tətbiq olunmuş bu sistem sayəsində gələcəkdə bütün şəbəkə infrastrukturu coğrafi məlumatlar bazasına əsaslanan rəqəmsal xəritələrin tətbiqi ilə idarə ediləcək. Bu sistem dünyanın iki nüfuzlu müsabiqəsinin qalibi olub.

Diqqətə çatdırıldı ki, 2011-ci ilin oktyabrında icrasına başlanılan "Ucar şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilir. Ucar şəhərini və ətraf kəndləri içməli su ilə təmin etmək üçün Ağsu rayonu ərazisində Girdimançayın yatağında yerləşən Külüllü su mənbəyi seçilib. Burada sugötürücü qurğu, mənbənin yaxınlığında Ucar şəhərini təmin etmək üçün hər birinin tutumu 3750 kubmetr olan 2 su anbarı tikilib. Anbarlardan Ucar şəhərinə 57 kilometr özüaxımlı magistral su kəməri çəkilib. Artıq bu kəmərdən Ucar şəhərinin yaxınlığındakı Gəraybəyli və Qarabörk kəndlərinə içməli su verilib. Ucar şəhərində inşası nəzərdə tutulan 120 kilometr içməli su şəbəkəsinin inşası tam yekunlaşıb, 4891 ünvana birləşmə verilib və smart sayğaclar quraşdırılıb. İçməli su təchizatının dayanıqlığını təmin etmək üçün şəhərdə hər birinin tutumu 1500 kubmetr olan 2 su anbarı tikilib. Hazırda Ucar şəhərinin bütün abonentləri fasiləsiz içməli su ilə təmin olunur.

Bildirildi ki, şəhər üzrə layihələndirilən 88 kilometrlik kanalizasiya şəbəkəsinin 20 kilometrlik hissəsi də hazırdır. Şəhərdə yaranacaq tullantı suları gələcəkdə inşa ediləcək və məhsuldarlığı sutkada 10 min kubmetr olacaq təmizləyici qurğuda zərərsizləşdiriləcək.

Həmçinin qeyd olundu ki, Ucar şəhərində mərkəzləşdirilmiş su təchizatı sistemləri 1970-ci illərin sonlarında yaradılıb. Şəhərə içməli su Göyçay rayonunun Potu kəndi ərazisində yerləşən subartezian quyulardan verilirdi və "Azərsu" ASC şəhər sakinlərinin 55 faizinə xidmət göstərirdi. Əhalinin qalan hissəsi tələbatını kanal və arx sularından istifadə etməklə ödəyirdi. Kanalizasiya sistemi indiyə qədər mövcud olmayıb.

Sonra Prezident İlham Əliyev şəbəkəyə suyun verilməsini bildirən düyməni basdı.

Bununla Ucar şəhərinin 24 saat fasiləsiz su ilə təmin olunması prosesi uğurla yerinə yetirildi.

Diqqətə çatdırıldı ki, idarənin binasında müasir tipli yeni laboratoriya da qurulub. Burada içməli suyun vacib 14 parametri öyrəniləcək. Daha geniş və dəqiq analizlərin aparılması zərurəti yarandıqda nümunələr xüsusi təyinatlı maşınlarda Bakıdakı mərkəzi laboratoriyaya göndərilir. İdarənin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə nəqliyyat vasitələri və xüsusi texnikalar alınıb.

Daha sonra Ucar ictimaiyyətinin nümayəndələri ilə görüşən dövlətimizin başçısı İlham ƏLİYEV dedi:

- Ucar rayonunda olmağımdan çox məmnunam. Şadam ki, Ucar rayonu uğurla, sürətlə inkişaf edir. Bir neçə il bundan əvvəl burada bir sıra açılışda iştirak etmişəm, o cümlədən Heydər Əliyev Mərkəzinin açılışında. O vaxtdan bu günə qədər rayon çox sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır, binalar tikilir, parklar salınır. Bu, məni çox sevindirir. Çünki mən çox istəyirəm ki, Azərbaycanın hər bir rayonu abad, gözəl olsun, şəhərlər gözəlləşsin, insanlar üçün bütün lazımi şərait yaradılsın. Şadam ki, Ucar rayonunun siması sürətlə dəyişir və gözəlləşir.

Eyni zamanda, rayonun bütün sosial və infrastruktur layihələri də uğurla icra edilir. Onların arasında, əlbəttə, içməli su layihəsi birinci yerdədir. Çünki təmiz içməli su insan sağlamlığı üçün əsas şərtdir. Bildiyiniz kimi, içməli su və kanalizasiya layihələrinin icrası ölkəmizdə çox geniş vüsət almışdır. Bir neçə il bundan əvvəl qarşıya vəzifə qoyulmuşdur ki, hər bir şəhərimizin içməli su və kanalizasiya problemi həll olunsun. Artıq bir müddətdir ki, Ucar şəhərinin içməli su problemi öz həllini tapıb. Gözəl, təmiz su mənbəyindən su verilir. Mənə verilən məlumata görə, bütün evlərin su təminatı artıq təşkil edilibdir. Bu, böyük tarixi nailiyyətdir. Çünki Azərbaycanda bütün dövrlərdə içməli su problemi çox ciddi problem olaraq qalmışdır. Sovet dövründə müəyyən işlər görülmüşdür. Ancaq biz bu məsələni tam şəkildə həll edə bilməmişdik. Siz də yaxşı bilirsiniz ki, vaxtilə fasilələrlə, sutkada bir neçə saat su verilirdi, ya verilmirdi. İndi isə bu problem aradan götürülüb. Əminəm ki, 2-3 il ərzində bütün başqa rayonlarda da bu məsələ öz həllini tapacaq. Çünki bir çox rayonlarda artıq bu, həll olunubdur. Ucar rayonunda təkcə şəhərə deyil, eyni zamanda, 15 yaşayış məntəqəsinə də, kəndlərə də su verilir. Kanalizasiya layihəsi isə 2017-ci ildə başa çatacaq və beləliklə, bu məsələ tamamilə aradan götürüləcəkdir.

Digər infrastruktur layihələri icra edilir. Bu ilin sonuna qədər qazlaşdırma tam şəkildə təmin ediləcəkdir, təxminən 90 faizə çatacaqdır. Bu da böyük nailiyyətdir. Çünki əvvəlki illərdə qazlaşdırma çox aşağı səviyyədə idi, hətta rayon mərkəzinin özü qazsız qalmışdı. Bu gün isə demək olar ki, bütün kəndlərə qaz xətləri çəkilir və bu da böyük nailiyyətdir. Çünki bu, həm insanlara rahatlıq verir, həm də qazdan istifadə etmək iqtisadi cəhətdən daha səmərəlidir.

Elektrik enerjisi layihələri, xüsusilə "Azərişıq" təşkil olunandan sonra daha da sürətlə aparılır. Kənd yolları tikilir. İndi Bakı-Ucar magistral yolu tikilir, az hissəsi - Kürdəmir-Ucar hissəsi qalıb ki, o da yaxın zamanlarda başa çatacaq. Göyçay-Ucar avtomobil yolu bu gün istifadəyə veriləcək.

Ucar rayonunda sosial obyektlər yaradılır, Gənclər Mərkəzi tikilib, parklar salınır. Yəni, Azərbaycan belə inkişaf etməlidir, hər bir yerdə quruculuq, abadlıq aparılmalı və sosial inkişaf olmalıdır. Sosial sahə insanları ən çox maraqlandıran və bəzi hallarda narahat edən bir sahədir. Bu gün yeni Rayon Mərkəzi Xəstəxanasının açılışını da qeyd etdik. Xəstəxana göz oxşayır, ən yüksək dünya standartlarına cavab verir. Burada şərait də, avadanlıq da ən yüksək səviyyədədir.

Bax, bizim yanaşmamız bundan ibarətdir. Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşı üçün nə lazımdırsa, o da olmalıdır. Amma buna nail olmaq üçün əlbəttə ki, iqtisadiyyatımız daha da güclü olmalıdır, daha da sürətlə inkişaf

etməlidir. Regionların inkişaf proqramının məqsədi məhz bundan ibarətdir ki, bölgələrdə, kəndlərdə, qəsəbələrdə, rayon mərkəzlərində lazımi şərait yaradılsın, insanlar rahat yaşasınlar, iş yerləri açılsın, yaxşı məvacib alsınlar, biznes imkanları genişlənsin. Deyə bilərəm ki, bizim bu əsas prioritet istiqamətlər Ucar rayonunun timsalında öz əksini tapır.

Bu gün quşçuluq fabriki ilə tanış oldum. Çox müasir bir sənaye müəssisəsidir. Həm iş yerlərinin yaradılması, həm yerli istehsalın gücləndirilməsi və ən əsası odur ki, biz indi özümüzü ərzaq məhsulları ilə tam şəkildə təmin etməliyik. Bu fabrik işə düşəndən sonra biz özümüzü quş əti ilə 100 faiz təmin edirik. Amma 10 il bundan əvvəl heç özümüzü 50 faiz də təmin etmirdik. Xaricdən asılı idi, idxaldan asılı idi, xaricə pul ödənilirdi. İndi pul Azərbaycanda qalır, yerli sahibkarlar işləyir, pul qazanır, işçilərə əmək haqqı verirlər. Özü də bu fabrikdə işləyənlərin əksəriyyəti qadınlardır. Bu da qadınlar üçün iş yerləridir. Bax, düşünülmüş siyasət olan yerdə inkişaf da var. Azərbaycanda düşünülmüş siyasət aparılır. Məhz buna görə biz bütün bölgədə, dünyada yaşanan böhranlı şəraitdən, sınaqdan şərəflə çıxırıq. Həmişə demişəm, Azərbaycan sabitlik, təhlükəsizlik məkanıdır. Azərbaycan vətəndaşı təhlükəsizlik şəraitində yaşayır və yaşamalıdır, sabitlik şəraitində yaşayır və yaşamalıdır. Ancaq ölkə bu təqdirdə inkişaf edə bilər. Harada ki, təhlükəsizlik, sabitlik pozulur, orada ölkə dağılır, iqtisadiyyat çökür, sosial problemlər yaşanır və başqa xoşagəlməz hallar üzə çıxır.

Biz Azərbaycanda elə siyasət aparırıq ki, bütün mümkün olan risklərdən özümüzü qoruyaq, sığortalayaq və buna nail oluruq. Nəyə görə? Çünki xalqla iqtidar arasındakı birlik bunu şərtləndirir. Ona görə ki, Azərbaycan iqtisadi sahədə, beynəlxalq aləmdə müstəqil, düşünülmüş siyasət aparır. Bizi ancaq Azərbaycan xalqının maraqları maraqlandırır. Azərbaycan xalqının marağında nə varsa, o da olacaq. Əgər maraqlarımızın kənarlarında hər hansı bir təşəbbüs göstərilirsə, biz o təşəbbüsə qoşulmuruq. Ona görə, bəzi hallarda təzyiqlərə də məruz qalırıq. Ancaq biz əsas məqsədi təmin edirik - Azərbaycanın təhlükəsizliyi, inkişafı, insanların rifahı və xoşbəxtliyi.

Bu gün dünyada, bölgədə yaşanan xoşagəlməz mənzərə bir daha Azərbaycanın uğurlu inkişaf modelini ortaya qoyur. Bizim ölkə nümunədir. Mən ona görə demirəm ki, özümüzü tərifləyək, qüsurlar da çoxdur. Ancaq indi dünyada gedən ümumi proseslərə baxdıqda görürük ki, Azərbaycanda həm ictimai proseslər, həm də iqtisadi inkişaf düzgün məcrada gedir. Baxmayaraq ki, neftin qiyməti iki dəfədən çox aşağı düşüb, gəlirlərimiz azalıb Azərbaycan vətəndaşı bunu hiss etməməlidir. Maaşlar, pensiyalar vaxtında verilir, islahatlar aparılır, beynəlxalq imicimiz gündən-günə güclənir. Çünki bu uğurlu inkişaf modelinin təməlində əlbəttə ki, düşünülmüş siyasət dayanır. Biz həmişə çalışmışıq və çalışırıq ki, daxili resurslara arxalanaq. Ona görə, heç kimdən asılı deyilik. Ona görə, özümüz öz həyatımızı qurmuşuq və yaxşı həyat qururuq.

Bununla bərabər, hamımız yaxşı bilirik ki, hələ görüləsi işlər çoxdur, həm mərkəzdə - Bakıda, həm bütün bölgələrdə quruculuq, abadlıq, inkişaf, islahat və sosial ədalət - bütün bu məsələlər daim diqqət mərkəzindədir. Mənim bölgələrə mütəmadi səfərlərimin məqsədlərindən biri də odur ki, vəziyyətlə tanış olum, soruşum işlər necədir, hansı məsələlər insanları narahat edir, incidir ki, biz onları həll edək. Bax, biz bu yolla gedirik və əminəm ki, yaxın bir neçə il ərzində ölkə qarşısında duran bütün əsas infrastruktur və sosial məsələlər öz həllini tapacaq.

Bax, Ucar rayonunda içməli su problemi həll olundu. Qazlaşdırma bu ilin sonuna qədər demək olar ki, tam həll olunacaqdır. Kənd yolları tikilibdir. Ancaq hələ ki, ehtiyac var, yenə də tikiləcək. Çoxmənzilli binaların təmiri əlbəttə ki, təşkil edilməlidir. Biz bu məqsədlə əlavə tədbirlər görəcəyik. Sahibkarlığın inkişafı daha da sürətlə getməlidir. Yeni müəssisələr yaradılmalıdır. İnfrastruktur layihələri başa çatandan sonra bizim diqqət mərkəzində olan əsas məsələlər kənd təsərrüfatı, sənaye istehsalıdır.

Bu gün quşçuluq fabriki ilə tanış olarkən mənə, ümumiyyətlə, Aran iqtisadi rayonunda və Ucar rayonunda gedən proseslər, ayrılmış kreditlər haqqında məlumat verildi. Dövlət öz tərəfindən sahibkarları dəstəkləyir, güzəştli kreditlər verir, texnika, gübrə ilə təmin edir, şərait yaradır, siyasi dəstək də var. Sahibkar da gərək işləsin. Yerli icra orqanları da kömək etsin, mane olmasın. Onda sahibkarlıq daha da sürətlə inkişaf edəcək. Mən demişəm, bir daha demək istəyirəm, iqtisadiyyatımız elə işləməlidir ki, biz neftin qiymətindən asılı olmayaq. Hələ ki, asılıyıq. Bax, neftin qiyməti iki dəfədən çox düşüb, gəlirlərimiz azalıb. Ancaq biz qeyri-neft sektorumuzu daha da sürətlə inkişaf etdirsək, onda neftin qiyməti düşdü, ya qalxdı o qədər də əhəmiyyət daşımayacaq. Bax, bu, əsas istiqamətlərdir və bu istiqamətlər prioritet təşkil edir.

Əminəm ki, Ucar rayonu bundan sonra daha da gözəlləşəcək. Çünki siz burada belə gözəl şərait yaratmısınız. Mən buna çox sevinirəm. Mən son dəfə burada 2011-ci ildə olmuşam, çox böyük dəyişikliklər var. Dəyişikliklər münasibətilə sizi təbrik edirəm və yeni uğurlar arzulayıram.

* * * *

Rayon ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısına göstərdiyi diqqət və qayğıya görə minnətdarlıq etdilər.

SAKİN: Xoş gəlmisiniz, cənab Prezident. Bu gün xalqımız üçün çox böyük xeyirxah işlər görürsünüz. Onların biri də bu gün rayonumuza çəkilən yeni su xəttidir. Ona görə bütün ucarlılar adından Sizə təşəkkür edirəm. Allah Sizi qorusun.

Prezident İlham ƏLİYEV: Sağ olun. Bu gün Gənclər Mərkəzi də açılıb. Çox gözəl, funksional mərkəzdir, gənclər istifadə etməlidir. Orada həm intellektual, həm əyləncə yerləri var, stolüstü oyunlar, müxtəlif tədbirlər keçirilə bilər. İndi hər bir şəhərdə gənclər mərkəzləri yaradılır. Bu da mənim göstərişimlə həll olunan məsələdir. Çünki indi gənclərin bir mərkəzi olmalıdır ki, orada yığışsınlar, danışsınlar, asudə vaxtlarını mənalı keçirsinlər. İndi Ucarda da Gənclər Mərkəzi var.

SAKİN: Biz Sizin qayğınızı daim üzərimizdə hiss edirik. Buna görə çox sağ olun.

Prezident İlham ƏLİYEV: Sağ olun.

SAKİN: Cənab Prezident, işığımız, suyumuz, qazımız, asfalt döşənmiş küçələrimiz var. Hər cür şəraitimiz var. Mən deyə bilərəm ki, bəlkə də dünyada ən yaxşı yaşayan xalqlardan biri bizik. Bunu mən cəsarətlə deyirəm. Allaha şükür, Sizin sayənizdə hər şey var. Bax, burada dayanan sadə insanlar Sizinlə görüşürlər. Bu sadə insanların adından deyirəm ki, Allah Sizi qorusun. Bizim əmin-amanlığımızın təminatçısı Sizsiniz. Bu əmin-amanlığı qoruyun. Biz Sizdən bunu xahiş edirik. Sizin arxanızda dağ kimi xalq dayanıb. Siz buna 100 faiz əmin ola bilərsiniz. Çox sağ olun.

Prezident İlham ƏLİYEV: Sağ olun.

* * * *

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**
**2015, 6 oktyabr**

## CEYRANBATAN ULTRASÜZGƏCLİ SUTƏMİZLƏYİCİ QURĞULAR KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*(28 oktyabr 2015-ci il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışı mərasimində iştirak etmişdir.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına layihə üzrə görülən işlərlə bağlı məlumat verdi. Bildirildi ki, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi Ceyranbatan gölündən suyun götürülməsi məqsədilə tikilən hidrotexniki qurğular, sutəmizləyici qurğunun özü və onun köməkçi infrastrukturu, emal olunan suyun optimal paylanması məqsədilə relyef baxımından hündürlükdə yerləşən anbarlardan və qurğudan anbara qədər magistral kəmərdən ibarətdir.*

*Qeyd olundu ki, əhalinin daha keyfiyyətli içməli su ilə təmin edilməsi, Bakıətrafı qəsəbə və yeni yaşayış massivlərinin içməli suya tələbatının ödənilməsi, Kür sutəmizləyici qurğusunda emal olunan suyun bir hissəsinin Aran və Muğan bölgəsinə yönəldilməsi, eyni zamanda, Ceyranbatan sutəmizləyici qurğusunun üçüncü növbəsinin köhnəlməsi yeni qurğunun inşasını zəruri edirdi. Bununla yanaşı, Taxtakörpü su anbarının və Taxtakörpü–Ceyranbatan su kanalının tikintisi nəticəsində Ceyranbatan gölündə kifayət həcmdə su ehtiyatının yaranması yeni qurğunun xam su ilə təminatına imkan verirdi. Bu məsələ «Abşeron yarımadasının içməli su təchizatı, kanalizasiya və yağış suları sisteminin Master Planı» layihəsində əsas vəzifə kimi qarşıya qoyulmuşdu. Master Planda 1-ci və 2-ci Bakı, Kür, Ceyranbatan, Oğuz–Qəbələ–Bakı su kəmərlərinin qidalandırdığı ərazilərin şəbəkə sistemlərini əlaqələndirəcək və yeni texnologiyaya əsaslanacaq qurğunun tikilməsi də əksini tapmışdı. Kompleks layihələndirilərkən onun mövcud mənbələrlə əlaqələndirilməsi, hazırda istismar olunan magistral xətlərin təmiri və ya qəzalar zamanı su təchizatında dayanıqlığın təmin edilməsi əsas götürüldü. Mütəxəssislərin apardığı layihə-axtarış və texniki-iqtisadi əsaslandırmalar nəticəsində Ceyranbatan gölünün ehtiyatlarından istifadə etməklə, ən son – ultrasüzgəc texnologiyasına əsaslanan təmizləyici qurğunun tikintisi qərara alındı. Layihə-axtarış işləri çərçivəsində Ceyranbatan gölünün bütün göstəriciləri ətraflı təhlil edilərək, gölün dibinin batimetriyası işlənib hazırlandı. 2011-ci il sentyabrın 8-də isə prezident İlham Əliyevin iştirakı ilə Ceyranbatan su təchizatı idarəsinin ərazisində məhsuldarlığı saniyədə 6,6 kubmetr və ya sutkada 570 min kubmetr olan ultrasüzgəcli sutəmizləyici qurğunun təməli qoyuldu. Bu da onu göstərir ki, ölkədə su təchizatı infrastrukturunun yaradılması istiqamətində ulu öndər Heydər Əliyevin başlatdığı işlər prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Hazırda dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, Bakı şəhəri və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Abşeron yarımadasının hər bir yaşayış massivinin fasiləsiz su ilə təmin olunması istiqamətində mühüm tədbirlər görülür.*

*Kompleksin ən mürəkkəb hissələrindən biri Ceyranbatan gölündən suyun götürülməsini təmin edən suqəbuledici qurğuların tikintisi olub. Layihəyə əsasən sugötürücü qurğu və boru xətlərinin bir hissəsi gölün dibində quraşdırılmalı idi. Gölün dibində suyun bulanıqlığının qarşısının alınması üçün xüsusi layihə hazırlandı və sugötürücü boruların qapalı, yəni mikrotunel üsulu ilə quraşdırılmasına qərar verildi. Tikinti-quraşdırma işlərinin etibarlı və təhlükəsiz aparılmasını təmin etmək üçün gölə 400 tonluq xüsusi təyinatlı, həmçinin yedəkçi gəmiləri buraxıldı. Xüsusi təyinatlı gəmi vasitəsilə suyun altında mürəkkəb hidrotexniki qurğuların qısa müddətdə və keyfiyyətlə quraşdırılması təmin edildi. Layihədə göldən lazımi həcmdə suyun götürülməsini təmin edəcək 3 iri diametrli kəmər, sugötürücü başlıqlar və bölüşdürücü kamera inşa olundu. Gölün içərisinə doğru hər birinin uzunluğu 454 metr*

*olan 3 kəmər çəkildi. Mikrotunel üsulu ilə quraşdırılan xətlərin tikintisində dəmir-beton borulardan istifadə edildi. Sonra əraziyə hazır dəmir-beton özül piltə yerləşdirilərək suqəbuledici başlıqlar onun üzərində quraşdırıldı. Suqəbuledici başlıqlar göldə hər hansı lillənmə baş vermədən quraşdırılıb və keçən əsrin 60-cı illərində tikilən mövcud sugötürücü qurğunun işinə heç bir maneə yaranmayıb. Burada tikilən subölüşdürücü kamerada toplanan su ultrasüzgəcli qurğuya hər birinin uzunluğu 913 metr olan 4 kəmərlə ötürülür. Bu xətlərin 245 metrlik hissəsi Ceyranbatan gölünü qidalandıran kanalın və mövcud boru xətlərinin altından keçməklə inşa edilib.*

*Təmizləyici qurğuya ötürülən suyun ilkin təmizlənməsi və onun həcminin müəyyən edilməsi mexaniki süzgəc binasında aparılır. Burada quraşdırılan avtomatik yuyulan torşəkilli süzgəclər suyun tərkibindəki iri hissəcikləri tutmaqla, ilkin təmizləmə prosesini həyata keçirir. Subölüşdürücü kameradan təmizləyici qurğuya çəkilən kəmərlərin hər birinin üzərində ultrasəs prinsipinə əsaslanan sayğaclar quraşdırılıb və onlar emala yönəldilən xam suyun həcmini dəqiq ölçməyə imkan verir. Mexaniki süzgəclərdə ilkin təmizləmədən keçən su 10 min kubmetr tutumu olan xam su anbarına toplanır. Burada quraşdırılmış səviyyəölçən və siyirtmələr daxil olan, eləcə də emala ötürülən suyun həcmini onlayn rejimdə tənzimləyir.*

*Yeni kompleksin əsas obyekti ultrasüzgəcli sutəmizləyici qurğudur. 5,6 hektar ərazidə yerləşən bu qurğu mürəkkəb geoloji ərazidə inşa olunub. Qruntun xarakteri nəzərə alınaraq, burada əvvəlcə bərkitmə işləri aparılıb, sonra dəmir-beton və metal konstruksiyadan ibarət əsas bina inşa edilib.*

*Dövlətimizin başçısı kompleksdə yaradılan şəraitlə tanış oldu. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin Azərbaycanın su təchizatı sistemlərinin yaxşılaşdırılması istiqamətində gördükləri işləri əks etdirən fotoguşələr yaradılıb.*

*Məlumat verildi ki, xam su anbarından suyun süzgəclərə sabit təzyiqlə ötürülməsini 16 nasos təmin edir. Emal prosesinə verilən su əvvəlcə 200 mikronluq süzgəclərdən keçir, sonra qurğunun əsas təmizləyici modullarında süzülür. Süzgəclərə 4,5 atmosfer təzyiqlə ötürülən su modullarının içərisində quraşdırılan 0,02 mikronluq xüsusi süzgəclərdən keçməklə, cəmi 20 saniyədə təmizlənir. Hazırda dünyada azbulanıqlı suların emalı üçün ən səmərəli texnologiya məhz ultrasüzgəcli qurğular sayılır. Membran texnologiyasına əsaslanan belə qurğularda su heç bir kimyəvi təmizlənmə aparılmadan mexaniki üsulla emal olunur. Belə qurğuların ən böyük üstünlüyü suyun təbii mineral tərkibini saxlamaqla, onu asılı hissəciklərdən – bakteriya, virus, bəzi həll olunmamış duzlar və ağır metallardan təmizləməsi, bulanıqlıq, xoşagəlməz iy və dadın aradan qaldırılmasıdır. Tam qapalı, avtomatik rejimdə təmizlənən suda bulanıqlıq həddi bir litrdə maksimum 0,03 milliqram təşkil edir. Beləliklə, ultrasüzgəclərdə emal edilən su Dünya Səhiyyə Təşkilatının, digər beynəlxalq qurumların qəbul etdiyi standartlara tam cavab verir.*

*Qurğuda emal prosesinin fasiləsizliyini təmin etmək üçün süzgəclər müəyyən müddətdən bir yuyularaq asılı maddələr və lildən təmizlənir. Süzgəclərin təmizlənməsi geriyuma və kimyəvi dozalama nasoslarının köməyi ilə həyata keçirilir. Proses növbəli rejimdə aparılır, yəni qurğunun bir hissəsində geriyuma və kimyəvi dozalama aparılarkən, digər hissələrdə suyun emalı davam edir. Bu da öz növbəsində, emal prosesinin fasiləsizliyini təmin edir. Qurğuda quraşdırılan 5280 modulun məhsuldarlığı saniyədə 6,6 kubmetrdir. Gələcəkdə əlavə modulların quraşdırılması, eləcə də elektromexaniki sistemin köməyi ilə emal gücünün artırılaraq saniyədə 7,5 kubmetrə çatdırılması mümkündür. Süzgəclərdən çıxan içməli suyun keyfiyyətinə onlayn rejimdə nəzarət olunur. Bu məqsədlə xüsusi analiz panelləri quraşdırılıb ki, onlar suyun keyfiyyət parametrləri barədə siqnalları birbaşa SCADA otağına ötürür. Bununla yanaşı, burada yaradılmış laboratoriyada istər xam suyun, istərsə də emal olunmuş təmiz suyun vacib parametrləri daha dəqiq şəkildə öyrənilir və keyfiyyət göstəriciləri tam nəzarətdə saxlanılır.*

*Qeyd olundu ki, kompleksdə qurğunu idarə edəcək personal üçün işçi otaqları, tədbirlərin keçirilməsi üçün konfrans zalı da yaradılıb.*

*SCADA otağında yaradılan şəraitlə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, qurğuda bütün texnoloji proseslər – suyun həcmi, təzyiqi, emalı, hər bir mərhələdə keyfiyyət göstəricilərinin nəzarətdə saxlanılması tam avtomatlaşdırılıb və bütövlükdə proses kiçik işçi heyəti ilə SCADA idarəetmə mərkəzindən idarə olunur.*

*Ultrasüzgəcli təmizləyici qurğuda emal olunan təmiz suyun nisbətən hündürlükdə yerləşən anbara qaldırılması üçün nasos stansiyası tikilib. Suyun optimal paylanması və elektrik enerjisindən asılılığın aradan qaldırılması məqsədilə dəniz səviyyəsindən 118 metr hündürlükdə 50 min kubmetr həcmində anbar kompleksi inşa olunub. Qurğudan anbara qədər 11 kilometr uzunluğunda kəmər çəkilib. Anbar layihələndirilərkən onun Oğuz–Qəbələ–Bakı su kəmərinin bölüşdürücü kamerası ilə əlaqəsinin yaradılması üçün yeni qaldırıcı nasos stansiyası quraşdırılıb. Bu işlər Ceyranbatan və Oğuz–Qəbələ–Bakı su mənbələrinin alternativ istismarına şərait yaratmaqla, Abşeron yarımadasının içməli su təchizatında etibarlılığın təmin olunmasını şərtləndirib.*

*Kompleksdə emal olunan su istehlakçılara Ceyranbatan–Zirə magistral kəməri ilə ötürülür. Kəmərin 61 kilometrlik Ceyranbatan–Balaxanı–Ramana–Qala hissəsinin tikintisi 2013-cü ildə, 22,5 kilometrlik Qala–Zirə hissəsinin tikintisi isə 2014-cü ildə başa çatdırılıb. Əsasən Abşeron yarımadasının qəsəbə və kəndlərinin su təchizatına hesablanan Ceyranbatan–Balaxanı–Ramana–Qala–Zirə kəməri ilə ötürülən suyun səmərəli paylanması, bu ərazilərdə əhalinin fasiləsiz su təminatına nail olunması üçün kəmərin marşrutu boyunca tutumu 90 min kubmetr olan Saray, Balaxanı, Ramana, Qala və Zirə anbarları tikilib. Gələcəkdə Masazır və Binəqədidə yeni anbarların tikilməsi, eləcə də mövcud anbarların genişləndirilməsi nəzərdə tutulur ki, bunun nəticəsində 200 min kubmetrdən artıq su ehtiyatı yaradılacaq. Bu da magistral kəmərdə və paylayıcı şəbəkələrdə sabit, dayanıqlı hidravlik rejimin təmin olunmasına, həmçinin qəza və planlı dayanmalar zamanı fasiləsiz su təchizatının aparılmasına imkan verəcək.*

*Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi və Ceyranbatan–Zirə magistral su kəməri layihəsi Pirallahı qəsəbəsi də daxil olmaqla, Bakı şəhəri və Abşeron yarımadasının digər yaşayış məntəqələrini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin edəcək.*

*Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin yaradılması layihəsi çərçivəsində, ümumilikdə 30 kilometr uzunluğunda müxtəlif diametrli boru, 116 nasos, 6 transformator quraşdırılıb, ərazidə yaşıllaşdırma işləri görülüb, 150 minə yaxın ağac və kol əkilib. Kompleksin ayrı-ayrı hissələrinin tikintisi və quraşdırılmasına dünyanın bu sahədə məşhur ixtisaslaşmış şirkətləri, həmçinin 30-dək yerli podratçı təşkilat cəlb olunub.*

*Prezident İlham Əliyev Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksini işə saldı.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gün şəhərimizin həyatında çox əlamətdar və tarixi bir gündür. Biz Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin açılışını qeyd edirik. Bu doğrudan da böyük və tarixi hadisədir. Bundan sonra Bakı şəhərinin, Abşeron rayonunun sakinlərinə veriləcək su Dünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verəcək.

Mən xatırlayıram ki, 4 il bundan əvvəl biz burada bu kompleksin təməl daşını qoyduq. Şadam ki, artıq bu nəhəng infrastruktur obyekti istismara verilir.

Bu Sutəmizləyici Qurğular Kompleksi dünyanın ən böyük təmizləyici infrastruktur obyektidir. Biz fəxr edirik ki, bu, Azərbaycanda, Bakıda yaradılıb. Bu kompleksin tikintisi üçün böyük həcmdə dövlət vəsaiti ayrılıb. Əlbəttə, bu günə qədər infrastruktur layihələrinin icrası da

bu kompleksin işinə öz dəstəyini verir. İlk növbədə, Taxtakörpü su anbarı, Taxtakörpü–Ceyranbatan su kəmərinin tikintisi bu kompleksin fəaliyyətinə çox müsbət təsir göstərir.

Burada ən müasir texnologiyalar tətbiq olunur. Dünyanın aparıcı şirkətləri burada öz təcrübəsini bizimlə bölüşüb. Kompleksin istismarı işində də əminəm ki, heç bir problem olmayacaq və beləliklə, biz bu böyük sosial layihəni artıq başa çatdırırıq.

Ümumiyyətlə, Azərbaycanda infrastruktur layihələrinin icrası prioritet məsələdir. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının əsas məqsədi də Bakıda və bütün bölgələrdə müasir infrastrukturun yaradılmasıdır. Bu istiqamətdə son illər ərzində çox böyük işlər görülmüşdür. Demək olar ki, elektrik enerjisi ilə bağlı bütün problemlər öz həllini tapmışdır. Biz əvvəlki illərdə xaricdən elektrik enerjisi alırdıqsa, bu gün nəinki öz tələbatımızı ödəyirik, eyni zamanda, xaricə də ixrac edirik. Vaxt var idi ki, biz qaz idxalı ilə məşğul idik, bizə qaz çatmırdı. Hazırda görülən işlər nəticəsində Azərbaycan nəinki regionda, dünyada qaz ixrac edən ölkəyə çevrilir. Biz bütün bunları son illər ərzində əldə etmişik. Kənd yollarının tikintisi, sosial infrastrukturun yaradılması həm Bakıda, həm bölgələrdə geniş vüsət almışdır.

Bu infrastruktur layihələrinin içində, əlbəttə ki, içməli su layihələri xüsusi əhəmiyyət daşıyır. Çünki içməli su insanların həyatına birbaşa təsir edən amildir. Şadam ki, bu gün Bakıda və bütün bölgələrdə içməli su layihələri icra edilir. Biz artıq bir çox şəhərlərimizdə mənim iştirakımla bu layihələrin açılışlarını etmişik. Hələ ki, bəzi rayonlarda işlər davam edir və qarşıya məqsəd qoyulmuşdur ki, Azərbaycanın bütün şəhərlərində təmiz içməli su fasiləsiz və bütün əhaliyə verilsin.

Biz bu məqsədə çatmaq üçün artıq çox önəmli addımlar atırıq. Bununla bərabər, hər il mənim sərəncamımla Prezidentin ehtiyat fondundan vəsait ayrılır və ən azı 300 subartezian quyusunun qazılması təmin edilir. Çaylar boyu yerləşən kəndlərdə modul tipli təmizləyici qurğular quraşdırılır. Yəni biz bu məsələlərə kompleks şəkildə yanaşırıq və əlbəttə ki, burada əsas rolu «Azərsu» icra edir. Şadam ki, son illər ərzində bu sahədə görülən işlər əhali tərəfindən də yüksək qiymətləndirilir. Eyni zamanda, biz görürük ki, məsələlər öz həllini tapmaqdadır.

Əsrlərboyu Azərbaycan və xüsusilə Bakı şəhəri içməli su problemi ilə üz-üzə qalmışdır. Bunun təbii səbəbləri vardır. Əlbəttə, sovet dövründə böyük işlər görülmüşdür, Kür su kəməri çəkilmişdir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə böyük infrastruktur layihələri icra edilmişdir. Ancaq müstəqillik illərinin ağır şəraiti, xüsusilə keçən əsrin 90-cı illərinin əvvəllərində yaranmış çox ağır sosial, iqtisadi və siyasi vəziyyət imkan vermirdi ki, biz müasir texnologiyaları Azərbaycana cəlb edək.

Bu məqsədlə çox böyük işlər görülmüşdür. Bəzi layihələr xaricdən götürülmüş kreditlər hesabına icra edilmişdir. Ancaq iqtisadi gücümüz artdıqca, biz bu vəsaiti ilk növbədə insanları ən çox narahat edən problemlərin həllinə yönəldə bilmişik və bu gün belə gözəl, nəhəng qurğuların istismara verilməsini qeyd edirik. Bir daha demək istəyirəm ki, bu kompleksdə ən müasir texnologiyalar tətbiq edilir, dünyanın ən böyük sutəmizləyici kompleksidir və Bakı şəhərinin, Abşeron rayonunun sakinlərinə xidmət edəcək. Bax, bu gün xəritədəki mənzərə onu göstərir ki, uzun illər içməli sudan korluq çəkən Bakı qəsəbələri bundan sonra bu təmiz suyu alacaq. Bir daha qeyd etmək istəyirəm ki, bu, Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli sudur.

Əlbəttə, Bakı şəhərinin su təsərrüfatı daha da sürətlə yeniləşməlidir. Şəbəkə sistemi hələ ki, bizim standartlarımıza tam uyğun deyil. Ancaq bu istiqamətdə də işlər aparılır və əlbəttə, biz hamımız istəyirik ki, tezliklə bütün şəhərimizdə hər bir vətəndaş kranı açıb oradan suyu birbaşa içə bilsin. Artıq biz buna yaxınlaşırıq və bu qurğunun xüsusi əhəmiyyəti ondan ibarətdir ki, bizə bu imkanı yaradacaq.

Son illər ərzində görülmüş işlər nəticəsində Bakıda fasiləsiz içməli suyun verilməsi təxminən 80 faizə çatmışdır. Bu, əvvəlki dövrlə müqayisədə çox böyük nailiyyətdir, ancaq bu bizi tam qane edə bilməz. Bakı kimi müasir, gözəl, inkişafda olan şəhərdə əhalinin 100 faizi 24 saat fasiləsiz təmiz içməli su ilə təmin edilməlidir. Əminəm ki, biz buna da nail olacağıq. Buna nail olmaq üçün isə iqtisadi potensial lazımdır və biz son illər ərzində apardığımız iqtisadi islahatlar, düşünülmüş siyasət nəticəsində iqtisadi imkanlarımızı böyük dərəcədə artıra bilmişik. Bu gün Azərbaycan iqtisadiyyatı dünya miqyasında bir nümunə kimi göstərilir, hətta böhranlı illərdə bizim iqtisadiyyatımız artır, bu il də artacaqdır. Bizim kifayət qədər böyük maliyyə resurslarımız vardır, onlardan qənaətlə istifadə edirik, ölkəyə, xalqa lazım olan bu kimi layihələrə yönəldirik. Əlbəttə, iqtisadi inkişaf gələcəkdə də bizə imkan verəcək ki, bu günə qədər həllini tapmamış layihələr icra edilsin. Onların içində ilk növbədə, içməli su layihələridir. Çünki qeyd etdiyim kimi, elektrik enerjisi ilə bağlı problemlər, demək olar ki, həll olunub. Generasiya gücümüz tələbatdan artıqdır. İndi şəbəkələrdə işlər gedir, yeni qurğular quraşdırılır. Bakıda, bütün şəhərlərdə qazlaşdırma 100 faizdir. İndi kəndlərdə də – kəndlərin haradasa 50 faizi qazlaşdırılıb – bu istiqamətdə hələ işlər görüləcək. Azərbaycanda ümumi qazlaşdırma 90 faizə yaxınlaşır.

Belə olan halda növbəti illərdə içməli su, kanalizasiya layihələrinin davam etdirilməsi, başa çatdırılması əsas prioritet məsələ olacaqdır və gələn ilin investisiya proqramında da bu məqsədlər üçün kifayət qədər böyük vəsait nəzərdə tutulmalıdır. Çünki nəinki Bakıda və böyük şəhərlərdə, hər bir yaşayış məntəqəsində təmiz içməli su olmalıdır. Təmiz içməli su sağlam həyat deməkdir.

Bizim siyasətimizin təməlində Azərbaycan vətəndaşı dayanır. Azərbaycanın çox güclü düşünülmüş sosial siyasəti vardır və insan amili bu siyasətin mərkəzində dayanır.

İnsan sağlamlığı üçün əsas şərt təmiz içməli sudur. Biz bunu həll edirik. İkinci əsas şərt təmiz havadır. Bunu da həll edirik. Bakıda görülmüş işlər nəticəsində ekoloji vəziyyət böyük dərəcədə yaxşılaşıb. Vaxtilə Balaxanı zibilxanasından qalxan tüstü şəhərin böyük hissəsini əhatə edirdi. İndi nəhəng, müasir Zibilyandırma zavodunun inşasından sonra artıq bu problem aradan götürülüb. Artıq Balaxanı zibilxanası adlı yer yoxdur. Orada indi texnopark yaradılır, ərazi abadlaşdırılır, bu ərazidəki kimi ağaclar əkilir. 4 il əvvəl mən burada olanda heç bir ağac yox idi. İndi böyük bir meşə salınıb. Böyükşor gölü ekoloji təhlükə mənbəyi idi. Onun yanında dayanmaq mümkün deyildi. Adam üfunətdən boğulurdu. İkinci dünya müharibəsi zamanı hətta ondan açıq neft anbarı kimi istifadə edirdilər. Ondan sonra lay, kanalizasiya suları, bütün axıntılar oraya tökülürdü. Böyükşor gölünün reabilitasiyası, abadlaşdırılması layihəsinin birinci hissəsini biz cəmi 1 il ərzində həll etdik. Gölün 300 hektarı indi tam təmizlənib, 1 kilometrdən də çox uzunluğu olan böyük bulvar salınıb, bənd tikilib və işlər davam etdirilir. Bir daha demək istəyirəm, vaxtilə onun yanında dayanmaq mümkün deyildi. İndi isə gölün üzərinə köçəri quşlar qonur. Bax, budur bizim yanaşmamız. Biz bunu nə üçün edirik, niyə bu qədər vəsait xərcləyirik? Ona görə ki, Bakıda ekoloji vəziyyət yaxşılaşsın, insanlar daha da rahat yaşasınlar, çoxlu ictimai yerlər yaradılsın, ekoloji problem yaradan yaranı sağalda bilək.

Böyükşor gölünün reabilitasiyasının ikinci mərhələsi həyata keçiriləcək və beləliklə, Bakıda çox gözəl, böyük, haradasa 700–800 hektar sahədə göl yaradılacaqdır. Gələcəkdə o gölün ətrafında yaşayış yerləri, yeni parklar da salınacaq. Ölü bir yeri insanlar üçün diriltdik və dirildirik. Zığ gölü də yaxın zamanlarda təmizlənəcək. O ərazini də tamamilə yaşıllaşdıracağıq və əhalinin sərəncamına verəcəyik. Bir daha deyirəm, biz bunları ona görə edirik ki, buna ehtiyac var. Bizim böyük problemlərimiz ondan ibarətdir ki, 100 ildən artıqdır Bakıda neft sənayesinin yaratdığı fəsadları aradan götürməliyik. Bibiheybət neft mədənləri – o bir ekoloji fəlakət mənzərəsi idi. Adam ona baxanda dəhşətə gəlirdi. İndi ora

baxanda adam gözəl, abad mənzərə, ağaclar, parklar görür. Orada Su İdmanı Sarayı tikilib, I Avropa oyunlarının yarışlarının bir hissəsi orada keçirilib, bulvar, qazonlar, parklar salınıb. Hətta indi buruqlara o qədər gözəl xidmət göstərirlər ki, onlar da artıq gözəl mənzərənin bir elementlərinə çevrilib.

Bakıda vaxtilə fəaliyyət göstərən Yod zavodu böyük bir təhlükə mənbəyi idi. Artıq bu zavod oradan köçürüldü, bütün lazımi tədbirlər görüldü və bu təhlükə mənbəyindən də insanların canını qurtara bildik. Ona görə içməli su layihəsi bu istiqamətdə görülən işlərin tərkib hissəsidir və bilavasitə insanların sağlamlığına təsir göstərən amildir.

Yenə də deyirəm, Azərbaycanda son vaxtlar ərzində güclü sosial siyasət sayəsində insanların ömrü uzanıb. Bu, gözəl göstəricidir. Diaqnostika aparılır, hər il dispanserizasiya keçirilir, milyonlarla insan bütün ölkə üzrə pulsuz müayinədən keçir və müalicə edilir. İçməli su, təmiz hava, sağlam ərzaq məhsulları, sağlam qida – bizim prioritetlərimiz, bax, bunlardır. Bu çox böyük sosial layihədir, çox böyük infrastruktur layihəsidir və biz bunu icra edirik. Mən çox şadam ki, bu gün Azərbaycan bu istiqamətdə də dünyada birincidir.

Son illər ərzində iqtisadi inkişaf templərinə görə dünyada bizə bərabər ölkələr azdır. Vaxtilə paxıllar, bəzi dairələr, bizim işimizə kölgə salmaq istəyənlər uğurlarımızı neftlə bağlayırdılar. İndi neftin qiyməti 2 dəfədən də aşağı düşüb, amma biz yenə də inkişaf edirik, yenə də nümunə göstəririk. Bu ilin 9 ayında Azərbaycanda qeyri-neft sənayesi 10 faizdən çox artmışdır. Ümumi daxili məhsul təxminən 4 faiz, qeyri-neft sektoru isə 6 faiz artmışdır. Bu qurğunun istifadəyə verilməsində də biz liderlik göstərmişik. Heç bir başqa ölkədə bu böyüklükdə və bu səviyyədə təmizləyici qurğu yoxdur. Bunu ancaq müstəqil Azərbaycan edə bilər və edir. Gələcəkdə bütün lazım olan infrastruktur layihələrini icra edəcəyik və əminəm ki, 2018-ci ildə başa çatması gözlənilən üçüncü regional inkişaf proqramının icrası nəticəsində Azərbaycanda bütün əsas infrastruktur layihələri icra ediləcəkdir. İnsanlar daha yaxşı, daha rahat, təhlükəsizlik, əmin-amanlıq, rifah içində yaşayacaqlar.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. «Azərsu»nun işçilərini təbrik etmək, öz minnətdarlığımı bildirmək istəyirəm ki, onlar bu böyük işləri görürlər. Bakının və Abşeron rayonunun bütün sakinlərini təbrik edirəm ki, nəhayət, bu məsələ də öz həllini tapdı. Sizi bir daha təbrik edirəm, yeni uğurlar arzulayıram.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**71-ci kitab: oktyabr 2015 - dekabr 2015. - Bakı: Azərnəşr, 2018, S. 37-47.**

## NAXÇIVAN GÜNƏŞ ELEKTRİK STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*(1 dekabr 2015-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Naxçıvan Günəş Elektrik Stansiyasının açılışında iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlətimizin başçısına məlumat verdi ki, muxtar respublikada da alternativ və bərpa olunan enerji mənbələri ilə bağlı mühüm layihələr həyata keçirilir. Belə layihələrdən biri də Babək rayonunun Xalxal kəndi yaxınlığında tikintisinə cari ildə başlanılan yeni Günəş Elektrik Stansiyasıdır. Bu energetika qurğusu üçün 35 hektar torpaq sahəsi ayrılıb.

Qeyd edildi ki, 20 meqavat gücə malik stansiyada işlər Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi ilə Belçika Krallığının «Soltech» şirkəti arasında bağlanmış müqavilə əsasında həyata keçirilir. Stansiyada 78 min 684 ədəd ən müasir «şüşə-şüşə» tipli günəş panelləri, onlar üçün dayaqlar və 11 elektrik yarımstansiyası quraşdırılıb. Panellərlə transformator yarımstansiyaları, transformator yarımstansiyaları ilə birləşdirici məntəqə arasında kabel və yüksəkgərginlikli elektrik ötürücü, həmçinin yaxınlıqdakı «Xalxal» yarımstansiyasına qədər 35 kilovoltluq kabel xətləri çəkilib. Tikinti-quraşdırma işlərinin vaxtında başa çatdırılması üçün əraziyə 30-dan çox müxtəlif təyinatlı texnika və 400 nəfərdən çox işçi cəlb olunub. Stansiyanın 5 ayrı-ayrı ərazilərdə yerləşən qurğuları hasara alınıb, burada siqnalizasiya və videomüşahidə qurğuları quraşdırılıb. Naxçıvan Günəş Elektrik Stansiyasında il ərzində 30 milyon kilovat-saatdan çox elektrik enerjisi istehsal olunacaq.

Azərbaycan Prezidenti Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyinin əməkdaşları və Belçikanın «Soltech» şirkətinin nümayəndələri ilə görüşdü.

Prezident İlham Əliyev stansiyanın açılışını bildirən düyməni basdı.

Qeyd edək ki, bu iri layihə alternativ enerji mənbəyi kimi, gələcəkdə Naxçıvanın enerji təminatının tamamilə yerli ehtiyatlar hesabına ödənilməsində mühüm rol oynayacaq.

Dövlətimizin başçısı muxtar respublikanın energetika kompleksinin daha da inkişafı, eləcə də bərpa olunan və alternativ enerji mənbələrindən geniş istifadə ilə əlaqədar tapşırıqlarını verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**71-ci kitab: oktyabr 2015 - dekabr 2015. - Bakı: Azərnəşr, 2018, S. 293-294.**

# ZİRƏ MƏDƏNİYYƏT MƏRKƏZİNİN VƏ EKO-PARKIN AÇILIŞ MƏRASİMİ
## *(30 dekabr 2015-ci il)*

Dekabrın 30-da Heydər Əliyev Fondunun yeni layihəsi olan Zirə Mədəniyyət Mərkəzinin və eko-parkın açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva açılış mərasimində iştirak ediblər.

Prezident İlham Əliyev binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızları Leyla Əliyeva Zirə Mədəniyyət Mərkəzində yaradılmış şəraitlə tanış oldular.

Bildirildi ki, Heydər Əliyev Fondunun Bakının Zirə qəsəbəsində həyata keçirdiyi bu layihə möhtəşəmliyi ilə diqqəti cəlb edir və son illərdə ölkədə icra olunan ən orijinal layihələrdən biridir. Bu nadir məkanın qəsəbədə yaradılması isə onun əhəmiyyətini daha da artırır. Belə ki, yerli sakinlər, xüsusilə də gənclər üçün cəlbedici olan bu yer qəsəbənin sosial-mədəni inkişafında mühüm rol oynayacaq. Digər tərəfdən, bu layihə Heydər Əliyev Fondunun regional inkişaf konsepsiyasında önəmli yer tutur.

Xüsusi layihə əsasında tikilmiş Zirə Mədəniyyət Mərkəzinin ümumi sahəsi 6 min kvadratmetrdir. İkimərtəbəli binanın girişində ümummilli lider Heydər Əliyevin büstü qoyulub. Burada Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ictimai-siyasi fəaliyyətlərini əks etdirən fotostend qurulub. Qalereyada yaşıllıq sahəsi salınıb, müxtəlif növ ekzotik bitkilər, gül və ağaclar əkilib, köşklər qurulub, su-kanal sistemi yaradılıb. Mərkəzin xarici dil kabinetində ingilis, rus və fransız dillərinin öyrənilməsi üçün bütün dərs vəsaitləri var. Kabinetdə elektron lövhə qurulub, hər bir şagird masası son elektron texnologiyalı kompyuterlərlə təchiz olunub. Zirə Mədəniyyət Mərkəzindəki IDEA resurs mərkəzi ölkə üzrə fəaliyyət göstərən analoji mərkəzlərdən biridir və Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq Təşkilatının ideyası ilə yaradılıb. Burada qlobal iqlim, flora və fauna dəyişikliyi problemləri, kimyəvi tullantılar, ekoloji tarazlığın pozulması ilə bağlı görüşlərin, “dəyirmi masa”ların keçirilməsi planlaşdırılır. Mərkəzdə yaşıllaşdırma, landşaft dizaynı və bağçılıqla bağlı treninqlər də keçiriləcək. Xatırladaq ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təsis etdiyi IDEA kampaniyası nəsli kəsilməkdə olan heyvanların - xüsusilə də Qafqaz faunasının nəsli kəsilməkdə olan beş növünün populyasiyasının qorunub saxlanılmasına və qoruqların mühafizəsinə həsr olunub.

Şahmat sinfində bu qədim oyunun sirlərini öyrənmək istəyənlərin məntiqi düşüncələrinin düzgün formalaşdırılması üçün ən üstün elektron texnologiya qurulub. Kabinet elektron şahmat lövhələri ilə təmin edilib. Oyunlar eyni vaxtda internet vasitəsilə monitorda nümayiş olunur.

Moda studiyası da müasir tikiş avadanlıqları ilə təmin olunub. Bura dərzilik kursu, tikiş dərsləri ilə yanaşı, geyimlərin sifarişi, həm də nümayiş xarakterli bir məkandır. Paltarların biçimi və tikişi kursu fərdi və qrup xarakteri daşıyır.

Muzey formatında yaradılan Zirə Xalça Muzeyi də Mədəniyyət Mərkəzində yerləşir. Muzeydə 150 ildən çox yaşı olan Azərbaycan xalçaçılıq məktəbinin nadir nümunələri qorunur. Burada xovlu və xovsuz xalçalar, kilim, palaz nümunələri nümayiş olunur. Xüsusi elektron tanıtım sistemi ilə təchiz edilən muzeydə hər bir xalça haqqında Azərbaycan və ingilis dillərində geniş məlumat verilir. Xalça Muzeyinin nəzdində Xalçaçılıq Tədris Mərkəzi də fəaliyyət göstərir. Burada xalçalarımız haqqında praktik və nəzəri dərslər keçirilir.

Bu dərslərdə müxtəlif yaş qruplarına aid insanlar iştirak edir. Tədris mərkəzi xalçaçılıqda istifadə olunan ləvazimatlarla və hanalarla təchiz olunub. Dərslərin səmərəli keçirilməsi üçün mərkəz Azərbaycan xalçaçılığından bəhs edən audio və video materiallar, kitablar, kataloq və jurnallarla təmin olunub. Mərkəzdə tədris zamanı istifadə olunan xalça eskizlərinin və çeşnilərin hazırlanması üçün rəssamlıq otağı da yaradılıb. Burada 30-dan artıq şagirdə xalçaçılığın sirləri öyrədiləcək. Perspektivdə xalça fabrikinin yaradılması nəzərdə tutulur.

Mərkəzdə 300 nəfərlik 3D kinozalı da fəaliyyət göstərir. “Nizami” Kino Mərkəzində nümayiş olunan filmlərin müasir texnologiya ilə təchiz olunan bu kinozalda da yayımlanması nəzərdə tutulub. Burada xüsusi akustik sistem, lisenziyalı proyektor, işıq və havalandırma sistemləri qurulub. Zalda konsert, musiqili gecələr, iclas, toplantı və təqdimatların keçirilməsi də mümkündür.

Nikah evində nikahların qeydiyyatı aparılacaq və bununla əlaqədar tədbirlər keçiriləcək. Yeni evlənənlərin tibbi müayinəsi və onlara tibbi arayışın verilməsi, yeni doğulmuş körpələrin qeydiyyatı da burada aparılacaq. Mədəniyyət Mərkəzində yeni evlənənlər üçün müxtəlif mərasimlərin və əyləncələrin təşkili ilə bağlı geniş imkanlar var.

Mərkəzdə idman və bədii gimnastika təlimləri üçün nəzərdə tutulan gimnastika zalı da yaradılıb və zal Gimnastika Federasiyası tərəfindən müvafiq avadanlıqlarla təchiz olunub. Art-studiya isə rəngkarlığın sirlərini öyrənmək istəyən müxtəlif yaş qruplarına aid istedadlı gənclərin cəlb olunması üçün nəzərdə tutulub. Studiya zəruri avadanlıq və rəngkarlıq vasitələri ilə təchiz edilib. Burada gələcəkdə tanınmış rəssamların ustad dərslərinin təşkili planlaşdırılır.

Elektron kitabxana mərkəzləşdirilmiş sistemlə təchiz olunub və üç mindən çox elektron vəsait bazaya yüklənib. Kitabxana xüsusi dizaynla tərtib olunub. İstifadəçilərin rahatlığı üçün kitablar sərbəst istifadəyə verilib.

Foto-video studiya da rəqəmsal texnologiyanın ən son avadanlıqları ilə təchiz edilib. Burada müasir fotostudiya - xüsusi fon pərdələri, işıq sistemi, kompyuterləşmiş fotoavadanlığı qurulub. Studiyada peşəkar çəkiliş və xidmətlə yanaşı, foto-video-montaj dərslərinin keçirilməsi, mərasimlərin işıqlandırılması nəzərdə tutulub.

Zirə Mədəniyyət Mərkəzində seçicilər, qəsəbə sakinləri ilə qəbul və görüşlərin keçirilməsi üçün də hər cür şərait yaradılıb. Seminar, treninq, iclas, təqdimat və yığıncaqların təşkili üçün zəruri avadanlıqla təchiz olunan 60 nəfərlik konfrans zalı qurulub.

Mərkəzin özəlliyini artıran mühüm amillərdən biri də burada Orxideya Evinin yaradılmasıdır. Ölkədə ilk dəfə yaradılan bu məkanda 150 nəfərlik qonaq qəbulu və müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait var. Zalın tərtibatında müxtəlif ekzotik gül və ağac kompozisiyalarından, rəngarəng orxideya növlərindən istifadə olunub.

Sonra Prezident İlham Əliyev və ailə üzvləri Xəzər rayonunun və Zirə qəsəbəsinin bir qrup sakini ilə görüşdülər.

**Prezident İlham ƏLİYEV dedi:**

-Bu gün çox əlamətdar bir gündür. Zirədə belə gözəl Mədəniyyət Mərkəzi və eko-park açılır. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu, doğrudan da nadir layihədir. Deyə bilərəm ki, bu, nəinki ölkəmizdə, dünya miqyasında seçilən layihələrdən biridir. Burada həm böyük park yaradılıbdır, 10 hektar ərazidə, eyni zamanda, bu Mədəniyyət Mərkəzində müxtəlif dərnəklər, studiyalar fəaliyyət göstərir, xalça muzeyi, kinozal, kitabxana, konfranslar üçün müxtəlif otaqlar var. Yəni, bu, doğrudan da müasir, çox gözəl mərkəzdir və şadam ki, bu mərkəz Zirə qəsəbəsində yaradılıbdır.

Son vaxtlar ölkəmizin hər bir yerində, o cümlədən Bakı şəhərində ictimai yerlər yaradılır, parklar salınır. Misal üçün bizim ən böyük parkımız bulvardır. Əvvəlki uzunluğu 3

kilometr idisə, indi 16 kilometrə çatıb və ən yüksək səviyyədə qurulubdur. Həmçinin yeni parklar salınıbdır. Məsələn, Mərkəzi Park – Heydər Əliyev Sarayının arxasında yerləşən park yeni yaradılıbdır. Yasamal parkı – bu da yeni yaradılıb, şəhərimizin ən böyük parklarından biridir, Dədə Qorqud parkı və digər parklar. Şəhərdə indi ekoloji layihələr icra edilir. Böyükşor gölünün bir hissəsi təmizlənib, orada da gözəl bulvar salınıb, böyük park yaradılıbdır. Heydər Əliyev Mərkəzinin qarşısında təqribən 7-8 hektar ərazidə park yaradılıbdır. Şadam ki, nəinki şəhərin mərkəzində, eyni zamanda, qəsəbələrdə də gözəl parklar salınır. Bu imkanlardan həm qəsəbə sakinləri, həm də qonşu qəsəbələrdən gələn qonaqlar istifadə edəcəklər. Eyni zamanda, hesab edirəm ki, buraya mütləq şəhərimizin sakinləri və xarici qonaqlar da gələcəklər. Çünki mehmanxanalarımızda bu parkla bağlı kitabçalar təqdim ediləcək və xarici qonaqlar gəlib görəcəklər ki, Azərbaycanda belə gözəl əsərlər yaradılır.

Zirə qəsəbəsinin inkişafı uğurla gedir və burada xüsusilə sizin deputatınızın fəaliyyətini qeyd etmək istəyirəm.

**Sakinlər:** Allah cansağlığı versin.

**Prezident İlham ƏLİYEV:** Mehriban artıq 10 ildir ki, sizin deputatınızdır. Zirə qəsəbəsində və digər qəsəbələrdə inkişaf Mehribanın adı ilə bağlıdır. Bu layihə də Heydər Əliyev Fondu tərəfindən icra edilibdir. Şadam ki, bu layihənin ekoloji komponentinin müəllifi mənim qızım Leyladır.

**Sakinlər:** Allah saxlasın, xoşbəxt olsun.

**Prezident İlham ƏLİYEV:** O da çalışır ki, ölkəmizin ümumi inkişafına töhfə versin, xüsusilə ətraf mühitin, nadir heyvanların qorunması istiqamətində çox böyük işlər görür. Azərbaycanda ekoloji vəziyyətlə bağlı görülən işlər artıq beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Bu yaxınlarda Parisdə iqlim dəyişikliyi ilə bağlı dünya əhəmiyyətli beynəlxalq konfrans keçirilmişdir. Azərbaycanın təqdim etdiyi nailiyyətlər orada xüsusilə qeyd edilmişdir. Çünki ətraf mühitin qorunması işində biz doğrudan da böyük uğurlara nail ola bilmişik. Xüsusilə Bakıda, Abşeronda, əfsuslar olsun ki, on illiklər ərzində neft hasilatı nəticəsində böyük ərazilər çirklənmişdir. İndi o ərazilərin təmizlənməsi işi gedir və o cümlədən dediyim kimi Böyükşor gölünün, Bibiheybət buxtasının təmizlənməsi artıq reallıqdır.

Son illər Zirə qəsəbəsində müxtəlif sosial layihələr icra edilmiş, səhiyyə, təhsil ocaqları yaradılmışdır. Əminəm ki, bu gözəl yeni layihə Zirə sakinlərinin sərəncamına veriləndən sonra buraya insanlar gələcəklər, istirahət edəcəklər. Uşaqlar burada müxtəlif dərnəklərdə təlim alacaqlar. Yəni, Zirə qəsəbəsinin son illərdəki inkişafı doğrudan da çox müsbətdir, uğurludur. Əminəm ki, Heydər Əliyev Fondu gələcəkdə bu qəsəbədə və bütün başqa yerlərdə öz fəaliyyətini uğurla davam etdirəcəkdir.

İnfrastruktur layihələri icra edilir və yollar salınır. İndi bu gözəl aeroport yolundan ta Pirallahıya qədər yeni yol artıq salınır, genişləndirilir, onun bir hissəsi istifadəyə verilmişdir. Pirallahıya gedən yol əsaslı şəkildə təmir olunur, yenidən qurulur, körpü tikilir. O körpünün də çox böyük ekoloji mənası var. Çünki bu günə qədər bu bənd sanki dənizi bölür və imkan vermir ki, su təmizlənsin. İmkan vermir ki, ekoloji vəziyyət normallaşsın. İndi bəndin əvəzinə körpü salınır və bunun çox böyük müsbət ekoloji təsiri olacaqdır.

Ümumiyyətlə, son illər ərzində Bakı qəsəbələrində gedən işlər demək olar ki, mövcud problemlərin böyük hissəsini həll edibdir. Çünki hər bir qəsəbədə yollar salınır, içməli su xətləri çəkilir, qazlaşdırma demək olar ki, başa çatmışdır, elektrik enerjisi təchizatı normallaşıb, iş yerlərinin yaradılması istiqamətində addımlar atılıbdır, o cümlədən Zirə qəsəbəsində.

Bildiyiniz kimi, bütün bu işlər Bakı və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramının nəticəsində mümkün olmuşdur. Proqram davam edir, gələn il də bir çox layihələr icra ediləcəkdir. Qarşıya vəzifə qoyulmuşdur ki, Bakıətrafı qəsəbələrdə bütün

infrastruktur, sosial məsələlər öz həllini tapsın. Yaxşı yollar salınsın, məktəblər, uşaq bağçaları, tibb ocaqları, idman obyektləri tikilsin, iş yerləri yaradılsın. Biz bu istiqamətdə ardıcıl şəkildə bütün işləri görürük və əminəm ki, yaxın gələcəkdə qəsəbələrdə bütün problemlər öz həllini tapacaq.

Mən xüsusilə içməli su layihələrini qeyd etmək istəyirəm. Bu yaxınlarda Ceyranbatan su anbarında yeni, dünyanın ən böyük sutəmizləyici qurğusu istifadəyə verilmişdir. Bu qurğu hesabına Bakı sakinlərinə Dünya Səhiyyə Təşkilatının səviyyəsinə uyğun 24 saat ərzində içməli su verilməlidir. Artıq bu proqram da başlanıbdır.

Biz sizinlə bu gün Yeni il, Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində görüşürük. 2015-ci ildə mənim bir çox ölkələrə rəsmi və işgüzar səfərlərim olmuşdur. Mən xaricdə 20 beynəlxalq tədbirdə iştirak etmişəm. Ölkə üzrə də təqribən 20-dən çox rayonda olmuşam. Amma ili mən burada, Zirədə ailəmlə, sizinlə bərabər başa vururam və sizi bir daha salamlayıram. Xahiş edirəm ki, mənim salamlarımı bütün Zirə sakinlərinə çatdırasınız. 2016-cı ildə sizə, bütün Azərbaycan xalqına xoşbəxtlik, uğurlar, əmin-amanlıq arzulayıram.

2015-ci il sınaq ili olmuşdur. Dünyada gedən proseslər istər-istəməz bizə də təsir etmişdir. Ancaq 2015-ci ildə Azərbaycanda ictimai sabitlik təmin edildi, xalqımız sülh, əmin-amanlıq şəraitində yaşayır və yaşamalıdır. Baxmayaraq ki, indi ətraf bölgələrdə müşahidə olunan mənzərə çox acınacaqlıdır. Əfsuslar olsun ki, 2015-ci ildə həm dünyada, həm bölgədə qanlı toqquşmalar, müharibələr, ayrı-seçkilik və anlaşılmazlıq özünü daha qabarıq şəkildə büruzə verir. Azərbaycanda isə bütün işlər normal məcrada davam edir, xalqımızın təhlükəsizlik şəraitində yaşaması təmin edilir, milli birlik, həmrəylik hökm sürür. Əlbəttə, biz diqqəti xüsusən gələcək iqtisadi inkişafımıza yönəltməliyik. Son illər ərzində bu istiqamətdə böyük uğurlar əldə edilmişdir. Şəhərlərimizin siması dəyişdi, Bakı dünyanın ən gözəl şəhərinə çevrildi. Ancaq görüləsi işlər çoxdur. Gələn il xüsusilə idarəetmə sahəsində çox ciddi islahatlar davam etdiriləcək. Bu islahatlar daim aparılır. Ancaq gələn il daha da ciddi struktur islahatları aparılacaq. Biz xüsusilə idarəetmə sahəsində artıq yeni formatda daha böyük səmərə ilə işləməliyik. Bütün sahələrdə tam şəffaflıq təmin edilməlidir ki, dövlət büdcəmizin gəlirləri ilə bağlı heç bir problem olmasın. Biz elə işləməliyik ki, neftin qiymətindən asılılığı aradan götürək. Mən bunu dəfələrlə bəyan etmişəm və son illərdə qeyri-neft sektorunun inkişafı, bax, bu məqsədi güdür. Əgər biz bu islahatları aparmasaydıq, bu gün çox ağır vəziyyətdə ola bilərdik.

Ancaq neftdən asılılıq hələ ki, davam edir və davam edəcək. Bu asılılığı ən aşağı səviyyəyə endirmək üçün həm iqtisadi islahatlar, həm idarəetmə sahəsində çox ciddi islahatlar aparılmalıdır. İlk növbədə, bütün sahələrdə şəffaflıq tam təmin edilməlidir. İcra orqanlarının, vergi-gömrük orqanlarının fəaliyyəti, ümumiyyətlə, bizim bütün maliyyə sistemimiz şəffaf olmalıdır. Biz dünyanın inkişaf etmiş ölkələrinin praktikasını tam şəkildə tətbiq etməliyik. Gəlirlərə, xərclərə nəzarət gücləndirilməlidir, xüsusilə ictimai nəzarət. Mən bu barədə də dəfələrlə demişəm ki, ictimaiyyət daha da fəal olsun.

Əhaliyə göstərilən xidmətlərdə çox ciddi islahatlar aparılmışdır. "ASAN xidmət" artıq iki ildir fəaliyyət göstərir, 7 milyondan çox insan bu xidmətin imkanlarından istifadə edib və əvvəlki illərdə olan pozuntular, nöqsanlar artıq yoxdur. Yəni, bunu etmək mümkündür. Hər bir sahədə şəffaflıq olmalıdır, yerli və mərkəzi icra orqanları, ilk növbədə, insanlara xidmət göstərməlidirlər, anlamalıdırlar ki, onlar insanlar üçün çalışırlar. Xalq tərəfindən onlara verilən qiymət, yəni, münasibət əsas meyardır. Mən onların fəaliyyətinə qiymət verəndə, ilk növbədə, bu amili nəzərə alıram və alacağam.

Əlbəttə ki, 2016-cı il iqtisadi cəhətdən asan il olmayacaq. Biz bunu bilməliyik. Ancaq elə işləməliyik ki, mənfi tərəfləri minimum səviyyəsinə endirək. Mən əminəm ki, 2016-

cı ildə Azərbaycan iqtisadiyyatı inkişaf edəcək, heç bir sosial proqramın icrası ilə bağlı heç bir problem olmayacaq. Biz daha da ciddi sosial siyasət aparacağıq və çalışacağıq ki, daha çox xarici sərmayəni cəlb edək, israfçılığa yol verməyək. Qeyd etdiyim kimi, idarəetmə sistemində xoşagəlməz halların aradan qaldırılması işində daha da fəal işləyəcəyik.

Mən bir daha sizi qarşıdan gələn bayramlar münasibətilə təbrik etmək istəyirəm. Azərbaycan inamla inkişaf edəcək. Biz inkişaf yolu ilə, müstəqillik yolu ilə gedirik, müstəqil siyasət aparırıq. Ona görə bəzi hallarda əsassız təzyiqlərə məruz qalırıq. Ancaq biz ləyaqətli siyasət aparırıq. Azərbaycan xalqının maraqları mənim üçün hər şeydən üstündür və mən bundan sonra da bu maraqları müdafiə edəcəyəm. Mən xalqın dəstəyini hiss edərək bu işləri daha da inamla aparıram. Bir daha sizi təbrik edirəm, bayramlarınızı təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun, Allah Sizə cansağlığı versin.

**Zirə qəsəbəsinin sakini:** Bu gün çox sevindirici haldır. Siz ailənizlə üçüncü dəfədir Zirə kəndinə təşrif buyurursunuz. Bu, sevindirici haldır. Mən öz adımdan, Zirə kəndinin əhalisi, ziyalıları, ağsaqqalları adından Sizə təşəkkür edirəm. Demək istəyirəm ki, Zirə qəsəbəsində bütün yollar qısa zamanda asfaltlaşdırılıb. Az vaxt ərzində Heydər Parkı, xəstəxana, idman kompleksi, bu mərkəz və eko-park yaradılıb. Kimin təşəbbüsü ilə? Hamısı bizim hörmətli Prezidentimiz və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə! Yəni, demək istəyirəm ki, bu kiçik qəsəbədə bu qədər işlər görülübsə, baxın, Azərbaycanın rayonlarında, qəsəbələrində nə qədər böyük işlər görülüb. Bu işlərin hamısı Sizin təşəbbüsünüzlə, göstərişinizlə görülüb. Ona görə də qəsəbəmizin, Bakıətrafı kəndlərin əhalisi adından Sizə öz təşəkkürümüzü bildiririk. Bir neçə gün bundan əvvəl Sizin ad gününüz olub. Camaatımız, ağsaqqallarımız, ziyalılarımız adından Sizi təbrik edirik, Sizə uzun ömür, cansağlığı arzu edirik. Allah-Təaladan arzu edirik ki, Sizə, ailənizə ən gözəl nemət olan cansağlığı versin. Allah-Təala Sizi yerin, göyün bəlalarından hifz etsin. Allah-Təala Sizin kimi Prezidenti biz Azərbaycan xalqına çox görməsin. Allah Sizi hifz etsin.

**Türkan qəsəbəsinin sakini:** Bu gün Zirədəyik, Zirə qəsəbəsindən danışırıq. Amma bu, o demək deyil ki, təkcə elə Zirə qəsəbəsi abadlaşır. Mən Türkan qəsəbəsinin ağsaqqalı kimi deyə bilərəm ki, Türkanda illər boyu qazla bağlı çətinlik olub. Biz sovet vaxtı da orada qaz görməmişik. Bu gün heç kimin qazla bağlı problemi yoxdur. Bu da ölkə rəhbərinin təşəbbüsü ilə mümkün olub. İşıqla bağlı qəti problem yoxdur. Su haqqında danışdınız, çox sağ olun, o vaxt Siz Ağsuda çıxış edəndə mən televizorda baxırdım. Siz dediniz ki, su bizim həyatımızdır. Su gələcəyimiz, balalarımızın sağlam həyatı üçün vacibdir. Artıq iki aydır ki, biz də sudan fasiləsiz istifadə edirik. Gecə-gündüz Sizə də, Mehriban xanıma da, Leyla xanıma da dua edirik. Televizora baxanda görürük ki, dünyanın bir çox yerində uşaqlar, qocalar üçün binalar tikilir. Həqiqəti deyirəm, adam sevincdən kövrəlir. Ona görə biz əgər başqa ölkələrdə də xeyirxah işlər görmüşüksə, özümüzü, ölkəmizi Sizin timsalınızda tanıtdırmışıqsa, bu, bizim üçün fəxrdir.

Mehriban xanımın təşəbbüsü ilə Türkanda məktəb tikilib, internat məktəbi təmir olunub. Gözəl Mədəniyyət Evi var. Əvvəl Mədəniyyət Evi yox idi. Bu gün gözəl ikimərtəbəli, geniş, 200 nəfərlik mədəniyyət evimiz var. Uşaq bağçası tikildi. Keçən il poliklinika çox yüksək səviyyədə inşa olundu. Məktəblərimiz var, asfalt yol da ki öz yerində. Mən də Türkan camaatı adından Sizə təşəkkür edirəm. Bu gün burada bildik ki, Mehriban xanımın təşəbbüsü var. Prezidentimizə və ona cansağlığı arzu edirik. Biz arzu edirik ki, Prezidentimizlə, deputatımız Mehriban xanımla həmişə belə xoş işlərdə görüşək, Sizin rəhbərliyinizlə ölkəmiz, şəhərlərimiz, qəsəbələrimiz, kəndlərimiz gündən-günə abadlaşsın. Allah Sizə cansağlığı versin. Mən türkanlılar adından Sizə bir daha təşəkkür edirəm. Çox sağ olun.

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban ƏLİYEVA çıxış edərək dedi:

-Çox minnətdaram. Bu fürsətdən istifadə edərək, seçkilər zamanı mənə göstərdiyiniz yüksək dəstəyə, inama görə sizə dərin minnətdarlığımı bildirirəm. Artıq biz illərdir ki, bərabər çalışırıq və bütün bu işləri, əlbəttə, Heydər Əliyev Fondu sizin dəstəyinizlə həyata keçirir. Əminəm ki, qalan bütün problemləri də gələcək illərdə birgə həll edəcəyik və belə gözəl açılışlarda daha çox iştirak edəcəyik. Mən sizi təbrik edirəm, sizə cansağlığı arzu edirəm.

**Sakinlər:** Çox sağ olun. Biz də sizə cansağlığı arzu edirik.

**Prezident İlham ƏLİYEV dedi**:

-Son illərdə Xəzər rayonunun demək olar ki, bütün qəsəbələrində doğrudan da çox böyük quruculuq işləri aparılır. Bu, çox böyük təqdirəlayiq bir haldır. İnfrastruktur yaradılır, sosial obyektlər, məktəblər, poliklinikalar, tibb mərkəzləri tikilir. Mən dəfələrlə demişəm ki, əgər hər bir qəsəbənin, kəndin problemi həll olunarsa, onda ölkədə bütün problemlər həll olunacaq. Ancaq bilirsiniz, vaxtilə tikilmiş binalar artıq yararsız vəziyyətə düşmüşdür. Son 10 il ərzində 3 mindən çox məktəb tikildi, təmir edildi. Təsəvvür edin, Azərbaycanda təxminən 5 minə yaxın məktəb var. Onun 3 mini yenidən tikildi, bərpa edildi. Ancaq hələ ki, qəzalı məktəblər var. Mən rayonlarda olarkən hər dəfə arayış alıb baxıram ki, neçə məktəb qəzalıdır. Yəni, bütün bunları etmək üçün vəsait, büdcə vəsaiti, gəlirlər lazımdır.

Biz neftin qiymətinin yuxarı səviyyədə olduğu dövrdə imkandan istifadə etdik ki, insanları narahat edən əsas problemləri tezliklə həll edək. Bu problemlər nə idi? İşıq yox idi, heç Bakıda yox idi. Gecə vaxtı kəsilirdi. Yaxud qazlaşdırma. İndi Bakı yüz faiz qazlaşdırılıb. İndi bölgələr də buna yaxındır, ölkə üzrə təxminən 90 faizə yaxınlaşır. İçməli su maşınlarla daşınırdı. Biz də vaxt olub Bakıda evimiz olmayanda qəsəbələrdə qalmışıq. Biz də bilirik bu nədir! Ona görə də hər bir yerdə, hər qəsəbədə içməli su olmalıdır. Xətlər çəkilib, Oğuz-Qəbələ xətti istifadəyə verilib, Ceyranbatan sutəmizləyici qurğusu yaradılıb ki, təmiz su gəlsin. Hələ ki, bunu tam təmin edə bilməmişik. On il bundan əvvəl Bakı əhalisinin təxminən 45-46 faizi 24 saat su alırdı, indi bu rəqəm 78 faizdir, amma qalan 22 faiz almır. Bu, problemdir. O da həll olunmalıdır, ona da vəsait lazımdır. Bax, biz bu işlərlə məşğul olmuşuq – elektrik stansiyalarının tikintisi, qaz xətləri, içməli su üstəgəl sosial obyektlər.

Son 10 ildə Bakıda, bütün bölgələrdə 500-dən çox səhiyyə müəssisəsi yaradılıb. İndi elə bir rayon yoxdur ki, orada müasir səhiyyə ocağı olmasın. Uşaq bağçalarına böyük ehtiyac var. İndi bizdə əhali artır, bu da çox müsbət haldır. Hər il təxminən 130-140 min körpə dünyaya göz açır. Yəni, uşaq bağçaları problemdir. Çünki yerlər çatmır. Təminat aşağı səviyyədədir. Yeni bağçalar tikilməlidir, ərazi ayrılmalıdır. Yenə də vəsait lazımdır. Ona görə də sosial məsələlərin həlli daim diqqət mərkəzindədir. Ancaq bu məsələləri həll etmək üçün iqtisadi imkan olmalıdır. Əgər sənin imkanın, gəlirin yoxdursa, sən bunu nəyin hesabına edə bilərsən? Bizim indi gəlirlərimiz çox ciddi şəkildə azalıb. 2015-ci ildə heç kim gözləyə bilməzdi ki, neftin qiyməti 3 dəfə aşağı düşəcək. Yəni, bu, o deməkdir ki, bizim gəlirlərimiz 3 dəfə azalıb. Ona görə, indiki şəraitdə biz ancaq və ancaq çox düşünülmüş siyasət, səmərəli iş, yenə də deyirəm, idarəetmə sahəsində aparılan və aparılacaq islahatlar hesabına öz iqtisadi inkişafımızı təmin edə bilərik. Bu, iqtisadiyyat üçün bir stress idi. Əlbəttə, bunun çox böyük mənfi fəsadları var. Amma digər tərəfdən bu, bizim hamımızı daha da səmərəli işə sövq etməlidir. İndi cəmiyyəti, insanları narahat edən xoşagəlməz hallara son qoyulmalıdır. Burada əlbəttə ki, insanlardan çox şey asılıdır. Dövlət siyasəti də aparılır, aparılacaqdır. Elə tədbirlər görülməlidir ki, xoşagəlməz halların meydanı, necə deyərlər, daralsın. Sistem xarakterli islahatlar aparılmalıdır. Məsələn, “ASAN xidmət”, orada 30-a yaxın xidmət göstərilir və heç bir problemsiz, bürokratiyasız, rüşvətsiz. Bir arayışı almaq üçün hansı əzablardan çıxırdıq. İndi yoxdur. Yəni, mümkündür. Hər yerdə, hər sahədə, bütün icra orqanlarında, yerli, mərkəzi, dövlət strukturlarında belə olmalıdır. Dövlət məmurları vicdanla

işləməlidirlər. Onların, necə deyərlər, vicdanı imkan verməməlidir ki, ayrı yolla getsinlər. Amma, eyni zamanda, ictimai nəzarət də güclü olmalıdır. Xalq da siqnal verməlidir, deməlidir, məlumat ötürməlidir ki, bax filan yerdə bu və ya digər çatışmazlıq var. Belə olan halda heç bir problem bizim qarşımızı kəsə bilməz.

Yenə də deyirəm, 2016-cı il iqtisadi cəhətdən asan il olmayacaq. Ancaq mən tam əminəm ki, Azərbaycan inkişaf edəcək, biz bütün sosial proqramları icra edəcəyik. Bununla bərabər, investisiyalar üçün də bizdə kifayət qədər vəsait olacaqdır. Hesab edirəm ki, gələn ilin əvvəlində biz dövlət büdcəmizə yenidən baxmalıyıq. Dürüstləşmə aparılmalıdır və orada həm insanların sosial təminat məsələləri öz həllini tapacaq, həm investisiya məsələləri ki, biz 2016-cı ildə uğurla inkişaf edək. Bax, bizim vəzifəmiz bundan ibarətdir.

**Sakin:** Möhtərəm Prezidentimiz, bu gün mənim üçün bəlkə də burada oturanlardan daha uğurlu bir gündür. Bəlkə də 2015-ci il daha uğurlu ildir. Sizin dekabr ayında imzaladığınız Sərəncama əsasən mənim işlədiyim təhsil müəssisəsi ilin ən yaxşı ümumtəhsil müsabiqəsinin qalibi olub.

**Prezident İlham ƏLİYEV**: Təbrik edirəm.

**Sakin:** Çox sağ olun. Mən buna görə şəxsən heç inanmazdım ki, üzbəüz gəlib Sizə bu barədə öz təşəkkürümü bildirərəm. Biz Sizin gördüyünüz o uğurlu işləri dəstəkləyirik. Deyirsiniz ki, birlik lazımdır. Əlbəttə, biz Sizinlə birlikdəyik. Əgər xalq öz rəhbəri, lideri ilə birləşməsə heç bir uğur əldə etmək olmaz. Amma bu gün Sizinlə xalqın arasında olan bu gözəl münasibət bunun bariz nümunəsidir ki, biz uğurla addımlayırıq. Sizə dəstək olan gözəl xanımınız, bizim rayonumuzun deputatı Mehriban xanımla həmişə qürur duyuruq. Mehriban xanım, Sizə bildirirəm ki, inşalarımızda mən bu birliyi həmişə şagirdlərimizə nümunə çəkmişəm. Sizin ailəniz bizə nümunə olub. Bu gün Sizin tərbiyə etdiyiniz bu gözəl Leyla balamız bizim gənclərimizə nümunədir.

Hörmətli cənab Prezident, Sizin 148 nömrəli məktəbdə etdiyiniz çıxışdan irəli gələn vəzifələr bu gün bizim fəaliyyət planımızda ən prioritet sahə kimi qarşımızda qoyulan istiqamətlərdəndir. Siz bu çıxışınızda milli mənəvi dəyərlərimizə, azərbaycançılıq məfkurəsinə böyük qiymət vermişiniz, milli ruhumuzun, milli şüurumuzun formalaşmasına böyük diqqət yetirmisiniz. Çünki uğurumuzun rəhni yalnız budur. Biz də öz işimizlə Sizin bu uğurlarınıza, əlbəttə, dəstək olmalıyıq. Gözəl adət-ənələrimizdən biri də qeyd olunur ki, sələflərimizin xələflərinə verdikləri adlardır. Bu gün həmin adı, Ulu Öndərimizin adını daşıyan bir balamız var. Biz inşamızda da yenə bildirirəm ki, bunu qeyd etmişik. Ulu Heydər Əliyevin adını daşıyan kiçik Heydər Əliyevimiz. O da bizim gənclərimizə nümunədir. Biz onun bu gün nümunəvi davranışını Azərbaycan gənclərinə nümunə göstəririk. Arzumuz budur ki, gələcəkdə bu adın məsuliyyətini Sizə layiq şəkildə davam etdirsin, inşallah.

Bir daha Sizi bu həmrəylik günü münasibətilə təbrik edirik. Bizimlə görüşməyinizi bir xəyal hesab edirdik. Bayaq orada "dəyirmi masa"da ağsaqqallarımızla bir yerdə əyləşmişdik. Deyirdik Allahın bizə lütfüdür ki, biz bu gün Sizinlə yeni təqvim ilimizi, 2016-cı ili qarşılayırıq. Allah-Təala həmrəyliyimizi bizə çox görməsin. Mən əminəm ki, bu xalq həmişə Sizin arxanızda olacaq, bu tandemin arxasında olacaq.

Sosial rifahımızın yüksəlməsi üçün əlinizdən gələni edirsiniz. Ölkəmizdə, bölgələrimizdə, rayonlarımızda, kəndlərimizdə hətta hər xırda problemi belə hamıdan gözəl bilirsiniz. Allah-Təala Sizə o qədər cansağlığı versin ki, bu məqsədlərinizə çatmağa nail olasınız, inşallah. Allah balalarınızı xoşbəxt etsin. Sağ olun.

**Prezident İlham ƏLİYEV**: Çox sağ olun.

Sonda xatirə şəkli çəkdirildi.

* * * *

Daha sonra Prezident İlham Əliyev və ailə üzvləri Zirə Mədəniyyət Mərkəzinin ətrafında salınan eko-parkda yaradılan şəraitlə tanış oldular. Burada müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva olan "Ürək" əsərinin 3 metrlik abidəsi də ucaldılıb. On hektar ərazidə salınan eko-park xüsusi landşaft dizaynı ilə layihələndirilib. Burada geniş yaşıllaşdırma işləri görülüb, minlərlə müxtəlif növ nadir dekorativ və meyvə ağacları, bəzək kolları və güllər əkilib. Parkda müxtəlif növ attraksionlardan ibarət uşaq meydançası yaradılıb, idman trenajor qurğuları quraşdırılıb. Elektromobillər və velosipedlər üçün xüsusi yollar salınıb. Parkın özəlliyini artıran mühüm cəhətlərdən biri də burada 25 adda 150-dək ekzotik quşların saxlanmasıdır. Onların saxlanması və artırılması üçün burada quş parkı yaradılıb. Bundan əlavə, parkda kiçik süni su hövzələri - gölməçələr də var. Ərazinin suvarılması xüsusi sistemlə həyata keçirilir və avtomatik idarə olunur.

Parkda asudə vaxtın səmərəli keçirilməsi üçün istirahət zonaları da yaradılıb, köşklər qurulub. Fəvvarələr meydançası əraziyə xüsusi yaraşıq verir. Pilləli formada yaradılan meydançada rəngarəng işıqlandırma sistemi də qurulub.

Qeyd edək ki, 2005-ci ildən başlayaraq Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın başçılığı ilə bütün ölkədə olduğu kimi, Xəzər rayonunda da çoxsaylı layihələr həyata keçirilib. İndiyə qədər Zirə qəsəbəsində Böyük Vətən müharibəsi iştirakçılarının xatirəsinin əbədiləşdirildiyi Xatirə bağı yenidən qurulub, müasir Müalicə-Diaqnostika Mərkəzi tikilib, qəsəbə sakinlərinin asudə vaxtının səmərəli təşkili üçün salınan parkda Mədəniyyət Evi, Zirə İdman Kompleksi, stadion və digər sosial obyektlər istifadəyə verilib, təhsil müəssisələri inşa olunub, yollar salınıb. Qəsəbə sakinlərinin məşğulluğunun təmin olunması məqsədilə mühüm tədbirlər həyata keçirilib. Təsadüfi deyil ki, Zirə Mədəniyyət Mərkəzinin və eko-parkın fəaliyyətə başlaması ilə burada 60-a yaxın yerli sakin daimi işlə təmin olunub.

Ərazi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev və ailə üzvləri eko-parkda ağac əkdilər.

Qeyd edək ki, Zirə Mədəniyyət Mərkəzi xüsusi xidməti avtobuslarla təchiz olunub. Bundan əlavə, qəsəbə sakinlərinin rahatlığının təmin olunması üçün Zirə bələdiyyəsinə sərnişin avtobusları da verilib. Onu da deyək ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Zirə Mədəniyyət Mərkəzinin yaxınlığında Suraxanı rayonu 2 saylı uşaq evi üçün 140 yerlik yay düşərgəsinin inşası başa çatmaq üzrədir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**72-ci kitab: dekabr 2015 - fevral 2016. - Bakı: Azərnəşr, 2018, S. 56-69.**

## PREZİDENT İLHAM ƏLİYEV MÜNXEN TƏHLÜKƏSİZLİK KONFRANSİ ÇƏRÇİVƏSİNDƏ İQLİM VƏ ENERJİ TƏHLÜKƏSİZLİYİ MÖVZUSUNDA PANEL-MÜZAKİRƏDƏ İŞTİRAK EDİB

***(13 fevral 2016-cı il)***

Xəbər verdiyimiz kimi, fevralın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "İqlim və enerji təhlükəsizliyi. İstiləşmə hələ də davam edirmi?" mövzusunda keçirilən panel-müzakirədə iştirak edib.

Tədbirdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva da iştirak ediblər.

Panel-müzakirənin aparıcısı Melinda Kreyn tədbirin mövzusunun dünyada iqlim və enerji təhlükəsizliyinə həsr olunduğunu dedi. Daha sonra o, bu tədbirdə Azərbaycan Prezidenti İlham Əliyevin, bir çox mötəbər qonaqların iştirak etdiyini bildirdi və sözü dövlətimizin başçısına verərək dedi:

**-Cənab Prezident, sualıma Sizdən başlamaq istəyirəm. Azərbaycanda səhralaşma, daşqınlar, quraqlıq müşahidə edilir. Uzun müddətdir sərhədyanı münaqişəniz olan Ermənistan ilə əhəmiyyətli su resurslarını paylaşırsınız. Sizcə, iqlim təzyiqi Qafqazda geosiyasi gərginlikləri daha da kəskinləşdirəcəkmi?**

**Prezident İlham ƏLİYEV:** Əlbəttə ki, bu, hamımızın üzləşdiyi bir təhlükədir. Azərbaycana gəlincə, müstəqilliyimizin son 25 ilində atmosferə qaz tullantılarını azalda bilmişik. 1990-cı ildə tullantılar 70 milyon tondan çox təşkil edirdi, indi isə təqribən 50 milyon tondan çoxdur və bu, iqtisadiyyatımızın həmin müddətdə kəskin şəkildə artmasına baxmayaraq, baş verirdi.

Lakin, əlbəttə, çağırışlar və təhlükələr mövcuddur. Bizim üçün əsas təhlükə ondan ibarətdir ki, bizi su ilə təchiz edən əsas çaylarımız mənbəyini qonşu ölkələrdən götürür və xüsusilə Ermənistanda Araz çayının çox ciddi çirklənməsi müşahidə olunur. Bu da bizim hamımız üçün təhlükədir. Çayın çirklənməsinin dayandırılması ilə bağlı etdiyimiz bütün müraciətlərimizə baxmayaraq, əfsuslar olsun ki, Ermənistan bu siyasəti davam etdirir. Sizin də qeyd etdiyiniz kimi, biz iyirmi ildən artıqdır ki, təcavüz və işğaldan əziyyət çəkirik. Ərazilərimizin 20 faizi işğal altındadır. İnsanların əziyyət çəkməsindən savayı, təbiətimiz də əziyyət çəkir. Çünki hər hansı beynəlxalq nəzarət altında olmayan bu ərazilərdə çoxlu qeyri-qanuni fəaliyyətlər, xüsusilə meşələrin qırılması baş verir. Çünki bu ərazilər öz qədim ağac və meşələri ilə çox məşhurdur. İndi isə bu meşələr kommersiya məqsədləri üçün kəsilir.

Biz ağac əkirik. Biz hər il milyonlarla ağac əkirik. Biz qazlaşdırma siyasətini davam etdiririk. Bu gün biz elektrik enerjisinin generasiyası üçün əsasən sudan və qazdan istifadə edirik. Baxmayaraq ki, Azərbaycanın Kioto protokoluna əsasən heç bir öhdəliyi yoxdur, bu, bizim bu işə töhfəmizdir. Biz bu məsələyə çox sadiqiq və müstəqillik illərində fəaliyyətimiz də bu prosesdə etibarlı tərəfdaş olduğumuzu nümayiş etdirir.

**Aparıcı: Sualımı qısaca davam etdirmək istəyirəm. Vacib sayılan Kür-Araz hövzəsində su çatışmazlığı perspektivi ilə üzləşmə Azərbaycanı Ermənistan ilə bu resursların müştərək paylaşmasının idarə olunmasında daha da sıx əməkdaşlığa vadar edirmi?**

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, biz işğalı davam etdirən ölkə ilə daha da böyük anlaşmaya malik olmaq istəyirik. Sizə deyə bilərəm ki, bu yaxınlarda - yanvar ayında Avropa Şurasının Parlament Assambleyası qonşu regionlara suyun təchizatında problem törətməsinə görə Ermənistanı pisləyən qətnamə qəbul etmişdir. Parlament Assambleyasında əksəriyyət tərəfindən qəbul edilmiş bu qətnamədə əziyyət çəkən insanlara iztirab verməyə

son qoymağa çağırış edilir. Əfsuslar ki, onlar Dağlıq Qarabağ Azərbaycanın hələ de-fakto hissəsi olanda tikilmiş su anbarından mülki əhaliyə problemlər törətmək üçün istifadə edirlər.

Əlbəttə ki, Kür və Araz çaylarından götürülən su bizim üçün çox vacibdir. Buna baxmayaraq, biz dağlarımızdan Bakı şəhərinə su nəql edən boru kəməri tikmişik və regiondan nisbətən az asılıyıq. Lakin yenə də bu, bizim üçün ciddi problemdir. Buna baxmayaraq, bizim Xəzər dənizi kimi böyük su hövzəmiz var. Biz dəniz suyunun irriqasiya məqsədləri və sonradan içməli su kimi istifadə edilməsi üçün onun duzsuzlaşdırılması prosesinə başlamışıq.

**Aparıcı: Cənab Prezident, Paris razılaşmasında qeyd edildiyi kimi, Sizin üzərinizə götürdüyünüz iqlim öhdəliklərində enerji sektorunun müasirləşdirilməsi üçün bir neçə amil sadalanmışdı. Əgər ölkəniz Paris razılaşmasının öhdəliklərini həqiqətən də ciddi qəbul edirsə, onda enerji əsaslı iqtisadiyyatı şaxələndirmək üçün hazırda etdiyinizdən daha da çox səylər göstərilməməlidirmi? Zənnimcə, enerji ölkənizin gəlirinin 70 faizini təşkil edir.**

**Prezident İlham ƏLİYEV:** Biz bu məsələnin üzərində işləyirik. Lakin bir məsələni unutmamalıyıq, Azərbaycan müstəqilliyini bərpa edəndə iqtisadiyyat tamamilə məhv edilmişdi, yoxsulluq və durğunluq geniş vüsət almışdı. Odur ki, dünya xəritəsində yerimizi müəyyənləşdirməyin yeganə yolu ölkəmizin inkişafı üçün enerji ehtiyatlarımızdan istifadə etmək idi. Buna görə də müstəqilliyimizi bərpa etdikdən sonra üç ildən daha da az müddətdə - 1994-cü ildə biz dünyanın əsas enerji şirkətlərini Azərbaycana gəlməyə və sərmayə yatırmağa dəvət etdik. O zaman Xəzər dənizi ilk dəfə Amerika və Avropa neft şirkətlərinin birbaşa cəlb edildiyi ərazi olmuşdu. O zaman bizim üçün enerji təhlükəsizliyi və enerji siyasəti müasirləşmək, şaxələnmək və infrastruktura sərmayə yatırmaq yolu idi. Çünki neft satışından əldə etdiyimiz vəsait suveren rifah fondunda saxlanılırdı və eyni zamanda, neftdən asılılığı azaltmaq üçün infrastruktura sərmayə kimi yatırılırdı.

Bu şaxələndirmə siyasətinin nəticəsində indi ümumi daxili məhsulumuzun 70 faizindən çoxu artıq qeyri-neft sektorunun payına düşür. Əlbəttə ki, biz ixrac əməliyyatlarında neft qiymətlərindən asılıyıq. İxracımızın 90 faizini neft və qaz təşkil edir.

İndi isə biz özəlləşdirmə, iqtisadiyyatımızın şaxələndirilməsi və biznes mühitinin yaxşılaşdırılması da daxil olmaqla, neft və qazdan asılılığı azaltmaq üçün irimiqyaslı islahatlar həyata keçiririk. Yeri gəlmişkən, neftin qiymətinin kəskin şəkildə - dörd dəfə ucuzlaşması bizim üçün daha çox texnologiyaya, qeyri-neft iqtisadiyyatına, kənd təsərrüfatına, informasiya-kommunikasiya texnologiyalarına sərmayə yatırmaq baxımından fürsət idi. Növbəti illərdə bütün planlarımızı uğurla həyata keçirə bilsək, qəti əminəm ki, Azərbaycan neftdən asılılığı tamamilə aradan götürəcək.

Qeyd etdiyim kimi, bu yaxınlarda neftin qiymətinin aşağı düşməsi səbəbindən Azərbaycan üçün neftdən sonrakı dövr artıq başlamışdır və biz dünya bazarında təkcə neft və qaz ixrac edən ölkə kimi yox, digər məhsulları ixrac edən ölkə kimi yerimizi tapmalıyıq.

**Aparıcı: Maraqlısı odur ki, Sizin iqlim öhdəliklərinizdə tərəfinizdən bəyan olunan məqsədlərə çatmaq üçün əngəl törədəcək əsas potensial məhdudiyyət kimi neftin qiymətinin ucuzlaşması göstərilir.**

**Prezident İlham ƏLİYEV:** Əlbəttə ki, bu, bizim gəlirlərimizə təsir edəcək. Lakin, eyni zamanda, düşünürəm ki, bu, bizi islahatların aparılmasına daha da ciddi sövq edəcək və Azərbaycanın gələcək inkişafı neftin qiymətindən, yaxud da hasilatın həcmindən asılı olmayacaq. Eyni zamanda, biz minlərlə, on minlərlə iş yeri yaradacaq və Avropaya şaxələnmək imkanını verəcək "Cənub" qaz dəhlizi layihəsini həyata keçiririk. Yeri gəlmişkən, Avropa əlavə həcmdə təbii qaz əldə edəcək və həm də istixana effektini yaradan karbon

qazının atmosferə tullantısını azaldacaq. Bu enerji təhlükəsizliyi təkcə marşrutların deyil, həm də mənbələrin şaxələndirilməsi layihəsidir və biz istehsalçılara, tranzit və istehlakçı ölkələrə fayda verəcək bir layihədir.

**Aparıcı: Uyğunlaşma üzərinə əsas diqqəti cəmləyərək yenə də sualımı Prezident Əliyevə vermək istəyirəm. Ekologiyaya mənfi təsirin aradan qaldırılmasına böyük vəsait yönəldilir. Lakin Azərbaycan kimi ölkələrə kömək etmək üçün uyğunlaşmaya kifayət qədər vəsait ayrılırmı? Fikrimcə, ölkəniz uyğunlaşma üçün tələb olunan xərclərin ən azı 3 milyard avro təşkil etdiyini təxmin edir. Əgər bu rəqəm bundan da artıq deyilsə, Siz sizə lazım olan köməyi əldə edirsiniz?**

**Prezident İlham Əliyev:** Əslində, Azərbaycanın, ümumiyyətlə, siyasəti ondan ibarətdir ki, biz qazandığımızdan daha az xərcləməliyik. Əsas investisiya layihələri, o cümlədən enerji sahəsinə sərmayələr əsasən özümüzün və tərəfdaşlarımızın maliyyə resurslarından qaynaqlanırdı. Buna görə də biz heç bir əsaslı maliyyə dəstəyini gözləmirik.

Son zamanlar Azərbaycanın əsaslı dərəcədə maliyyə resurslarını topladığını nəzərə alaraq hətta neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi bizim iqtisadi inkişafımıza təsir edə bilməmişdi. Ötən il ümumi daxili məhsulumuz 1 faizdən çox artmışdı və qeyri-neft sektorunda 8 faizdən çox artım qeydə alınmışdı. Bu da əsasən şaxələndirmə və qeyri-neft infrastrukturuna investisiyaların yatırılması siyasəti sayəsində mümkün olmuşdur. Ona görə də bu, bizim üçün, əlbəttə ki, regionda ümumi vəziyyət üçün çox vacibdir. Dayanıqlı inkişaf bizim məqsədimiz və hədəfimizdir. İqlim dəyişikliyi məsələsinə gəldikdə isə əvvəldə dediyim kimi, Kioto protokoluna əsasən heç bir öhdəliyimizin olmamasına baxmayaraq, bizim iqtisadi siyasətimiz, bərpa olunan enerji mənbələrinə yatırdığımız investisiyalar, 10-dan çox su elektrik stansiyasının tikilməsi, bütün bunlar bizim verdiyimiz töhfədir.

Yenə də qeyd edirəm ki, əgər tərəfdaşlarımızla birlikdə, məsələn, neft-qaz sahəsinə sərmayə yatırmasaydıq, bu gün bizim elektrik stansiyalarımız Sovet İttifaqı vaxtındakı kimi istismar edilərək maye yanacaqla işləyərdi. Bu gün bütün elektrik stansiyalarımız ya təbii qazla, ya da su ilə işləyir. Beləliklə, bunlar enerji sektoruna yatırılan investisiyalardır və onlar da öz növbəsində atmosferə karbon tullantılarının azalmasına müsbət təsir edir. Bütün bu məsələlər bir-biri ilə bağlıdır və əlbəttə ki, biz bu risklərin idarə edilməsində vacib rol oynamaqda davam edəcəyik.

* * * *

Avropa Komissiyasının enerji birliyi üzrə sədr müavini Maroş Şefçoviç, ABŞ Senatının ətraf mühit və ictimai işlər komitəsinin üzvü Şeldon Uaythaus, “Allianze SE” şirkətinin baş icraçı direktoru, Münxen Təhlükəsizlik Konfransının Məşvərət Şurasının üzvü Oliver Bate, “Green Peace International” təşkilatının sabiq icraçı direktoru Kumi Naydoo iqlim dəyişikliyi ilə bağlı ictimai rəyin yaradılması istiqamətində işlərin görülməsinin vacibliyini bildirdilər. Qeyd olundu ki, iqlim dəyişikliyi təbii sərvətlərə, insanların həyat tərzinə təsir göstərir, belə olan halda insanlar iqlim mühacirlərinə çevrilirlər. Bundan əlavə, dünyada suyun səviyyəsinin artması baxımından insanların təhlükəli ərazilərdə məskunlaşmasının qarşısının alınması ilə bağlı daha çox işlər görülməlidir.

Çıxış edənlər enerji təhlükəsizliyi ilə bağlı fikirlərini bölüşdülər. Sonra müzakirələr aparıldı.

**Ermənistanın Xarici İşlər Nazirliyinin əməkdaşı: Mən Ermənistan Xarici İşlər Nazirliyindənəm və sualım Prezident Əliyevədir. Cənab Prezident, Siz Ermənistanı suyun çirkləndirilməsinə və digər ciddi siyasi məsələlərə görə günahlandırırsınız və**

**bununla bağlı bizim Ermənistanda fərqli mövqeyimiz var. Azərbaycanda baş verən hər bir mənfi hala görə Azərbaycanın Ermənistanı günahlandırmasını necə izah edə bilərsiniz? Məsələn, beynəlxalq ictimaiyyət Azərbaycanı insan hüquqları sahəsində vəziyyətə görə tənqid etdikdə Azərbaycan Ermənistanı günahlandırır. Avropa Şurasının Parlament Assambleyası və Avropa Parlamenti Azərbaycanla bağlı ciddi qətnamələr qəbul etdikdə Azərbaycan yenə də Ermənistanı və erməni lobbisini tənqid edir. Hətta Azərbaycanda neft istehsalı azaldıqda "British Petroleum" şirkəti Ermənistanla əlbir olmasına görə tənqid edilmişdi. Cənab Prezident, bütün bu çətin suallara bir cavabın verilməsi daha asan deyilmi?**

**Prezident İlham ƏLİYEV:** Əvvəla, qeyd etmək istəyirəm ki, sizin sualınızda ifadə olunan fikirlər tamamilə səhvdir. Biz Ermənistanı sizin qeyd etdiyiniz səbəblər üzündən günahlandırmırıq. Əvvəla, təkcə Azərbaycan deyil, Ermənistan da Avropa Şurası, Avropa Parlamenti tərəfindən insan hüquqlarının kobud şəkildə pozulmasına, prezident və parlament seçkilərinin saxtalaşdırılmasına və hökumətinizin törətdiyi bir çox digər işlərə görə tənqid edilir.

Biz Ermənistanı işğala görə günahlandırırıq və bunu təkcə biz etmirik. Bunu ən ali beynəlxalq qurum olan BMT Təhlükəsizlik Şurası da edir. BMT Təhlükəsizlik Şurası erməni qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Biz Ermənistan xalqını yox, Ermənistan hökumətini yalnız azərbaycanlı olduqlarına görə günahsız insanların erməni vandalları tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımına görə günahlandırırıq və bu soyqırımı 10-dan artıq ölkə tərəfindən tanınır. Biz Ermənistanı öz doğma torpaqlarında qaçqına çevrilmiş bir milyon qaçqın və məcburi köçkünlərimizin iztirabına görə günahlandırırıq. Onların 40 mini Dağlıq Qarabağdandır, 750 mini Azərbaycanın digər işğal olunmuş rayonlarındandır, 200 mini isə Ermənistandan qovulmuşdur və etnik təmizləməyə məruz qalmışdır.

Bütün bunlar sizin işğalınızın nəticəsidir. Bu, sizin qonşu ölkəyə qarşı yürütdüyünüz siyasətin nəticəsidir və işğala son qoyulmalıdır. Regionda sülhə nail olmaq üçün birinci şərt Azərbaycan torpaqlarının işğaldan azad edilməsidir.

**Aparıcı: Prezident Əliyev, icazə verin müzakirəmizin əvvəlində verdiyim sualın digər tərəfini Sizə ünvanlayım. Bəziləri hesab edir ki, su sahəsində konkret əməkdaşlıq üzərində işin aparılması tərəflərin bir-birinə qarşı etimadını artıra bilər və bəzi digər məsələlərdə daha böyük əməkdaşlığın aparılması istiqamətində atılmış bir addım ola bilər. Sizcə, bu, doğrudurmu?**

**Prezident İlham ƏLİYEV:** Əlbəttə ki, bir aydan da az müddət öncə Strasburqda Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul edilən qətnamədə bu məsələ üzrə çox vacib elementə diqqət yönəldilir və xüsusilə su resurslarının idarə edilməsi ilə bağlı törətdiyi problemlərə görə Ermənistanın üzərinə məsuliyyət qoyulur. Buna görə, Ermənistan və Azərbaycan arasında əməkdaşlığın qurulması üçün torpaqların işğaldan azad edilməsi prosesinə başlanılmalıdır. Etimadın artırılması üçün ən yaxşı yol torpaqların işğaldan azad olunmasına başlamaqdır. Çünki təkcə tarixən əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağ yox, 7 ətraf rayon da tamamilə məhv edilib. İşğal 20 ildən artıqdır ki, davam edir.

Ermənistan status-kvonun dəyişilməz olaraq qalmasını istəyir. Biz isə status-kvonu dəyişmək istəyirik. Beləliklə, birinci addım torpaqların işğaldan azad edilməsidir, sonra isə biz əməkdaşlığa başlayacağıq.

**Aparıcı: Çox sağ olun.**

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**72-ci kitab: dekabr 2015 - fevral 2016. - Bakı: Azərnəşr, 2018, S. 254-260.**

## TOVUZÇAY SU ANBARININ AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*(16 fevral 2016-cı il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Tovuzçay su anbarının açılışında iştirak etmişdir.*

*Ölkəmizdə meliorasiya sahəsində də mühüm layihələr reallaşdırılır, yeni infrastruktur obyektləri tikilib istifadəyə verilir. Əsasını ulu öndər Heydər Əliyevin qoyduğu bu siyasət prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkənin su və meliorasiya təsərrüfatının daha da möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Bu da ondan irəli gəlir ki, meliorasiya və su təsərrüfatı həmişə olduğu kimi, bu gün də ölkəmizin iqtisadiyyatında aparıcı rolunu qoruyub saxlayır və bu sahə regionların sosial-iqtisadi inkişafında mühüm əhəmiyyətə malikdir. Meliorasiya və su təsərrüfatının daha da təkmilləşməsi ərzaq təhlükəsizliyinin təmin olunmasında da həlledici rol oynayır. Prezident İlham Əliyevin bu sahənin inkişafına yetirdiyi diqqətin nəticəsidir ki, Azərbaycanda nəhəng Şəmkir, Taxtakörpü su anbarları, Samur–Abşeron kanalı tikilib istismara verilib və digər iri layihələr icra edilib. Bu layihələrin tam icrası nəticəsində on minlərlə hektar torpaq dövriyyəyə buraxılacaq və minlərlə fermer bundan bəhrələnəcək. Həmçinin regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində də ölkədə meliorasiya və su təsərrüfatının yenilənməsi sahəsində ciddi nailiyyətlər qazanılıb. Tovuzçay su anbarının istifadəyə verilməsi də bu sahənin inkişafına dövlət qayğısının göstəricisidir.*

*«Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə dövlətimizin başçısına həyata keçirilən işlər barədə ətraflı məlumat verdi. Bildirildi ki, Tovuzçay su anbarı respublikanın qərbində, Tovuzçay və Axıncaçay çaylarının birləşdiyi ərazidə, Tovuz şəhərinin yaxınlığında yerləşir. Anbarın tikintisinə 1982-ci ildə «Azərdövlətsulayihə» İnstitutu tərəfindən hazırlanan layihə əsasında 1986-cı ildə başlanılıb. Layihəyə uyğun olaraq, bəndin nüvəsinə gil, onun sol sahilinin bir hissəsinə torpaq tökülüb, qülləli suburaxıcı tikilib. Lakin vəsait çatışmazlığı üzündən tikinti işləri 1992-ci ildən dayandırılıb. İnşası yarımçıq qalan Tovuzçay su anbarının tikintisinin davam etdirilməsi Azərbaycan Prezidentinin 2004-cü il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilən və 2004–2008-ci illəri əhatə edən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına və 2005-ci il 14 oktyabr tarixli Sərəncamı ilə təsdiq olunan «Tədbirlər Planı»na daxil edilib. 2006-cı ildə isə tikinti işlərinə başlanılıb. Ümumi su tutumu 20 milyon kubmetr, faydalı həcmi 18 milyon kubmetr olan Tovuzçay su anbarının gil nüvəli torpaq bəndinin hündürlüyü 45 metr, üstdən eni 10 metr, uzunluğu isə 1340 metrdir. Anbarın su hövzəsinin sahəsi 160 hektar, uzunluğu 2,6 kilometrdir. Layihəyə uyğun olaraq, anbarda suburaxma qabiliyyəti saniyədə 250 kubmetr və uzunluğu 731 metr olan qəza sutullayıcısı, maksimum suburaxma qabiliyyəti saniyədə 125 kubmetr olan dəmir-beton borulu qülləli suburaxıcı, saniyədə 6 kubmetr suvarma suyunun verilməsi üçün uzunluğu 468,8 metr olan nov-kanal inşa olunub. Su anbarının inşası zamanı tarixi abidələrin mühafizəsi, köçürülməsi, avtomobil yolunun və körpülərin tikintisi, eləcə də digər tədbirlər həyata keçirilib. Belə ki, Qazqulu qəbiristanlığı, Şərif Sultan və Məhəmməd-Hüseyn Sultan türbələri köçürülüb. XVII əsr memarlıq abidəsi olan Sultan körpüsünün mühafizəsi üçün uzunluğu 344 metr olan torpaq damba tikilib. Həmçinin Vahidli kənd qəbiristanlığının mühafizəsi məqsədilə suyığıcı kanalın və mühafizə dambasının tikintisi həyata keçirilib. Bundan başqa, layihənin icrası zamanı Tovuzçay çayı üzərində 8 aşırımlı avtomobil körpüsü tikilib, bəndə və ətraf kəndlərə gedən, ümumi uzunluğu 6800 metr olan avtomobil yolu yenidən qurulub. Uzunluğu 86 metrdən çox olan Axıncaçay çayı üzərində körpünün tikintisi də başa çatdırılıb.*

*Görülən mühüm işlərdən biri də Tovuz və Şəmkir rayonlarının mövcud əkin sahələrinin su təminatının yaxşılaşdırılması məqsədilə bu sahələri suvarma suyu ilə təmin edən Ağstafaçay sağ sahil kanalına əlavə su verilməsi üçün sərfi saniyədə 1,5 kubmetr, uzunluğu 7004 metr olan polad boru kəmərinin tikintisidir.*

*Sonra dövlətimizin başçısı Tovuz rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m  Ə l i y e v:** Mən sizi ürəkdən salamlayıram. Tovuz rayonunda yenidən olmağımdan çox məmnunam. Artıq neçə dəfədir ki, Tovuza səfər edirəm. Hər səfər zamanı biz önəmli açılışlarda görüşürük, açılışları qeyd edirik.

Tovuz rayonu uğurla inkişaf edir. Rayonun sosial-iqtisadi inkişafı çox sürətlidir. Bir çox sosial obyektlər istismara verilibdir – Olimpiya Kompleksi, Diaqnostika Mərkəzi, Mərkəzi Xəstəxana. Gözəl parklar, istirahət zonaları salınır, hotellər tikilir, şəhər gözəlləşir, abadlaşır.

Tovuz rayonunda kənd təsərrüfatının inkişafı da bizi sevindirir. Kənd təsərrüfatının inkişafı üçün bugünkü mərasim xüsusi əhəmiyyət kəsb edir. Çünki Tovuzçay su anbarının istismara verilməsindən sonra əminəm ki, kənd təsərrüfatının inkişafı daha da sürətlə gedəcək.

Bildiyiniz kimi, bu su anbarının layihəsi hələ sovet dövründə işlənmiş, ancaq müəyyən səbəblərə görə icra edilməmişdi. 1992-ci ildə layihənin icrası dayandırılmışdı. Ancaq indiki dövrdə biz bu layihəni icra edə bildik. Layihənin icrası üçün xüsusi sərəncam imzalandı, dövlət büdcəsindən vəsait ayrıldı. Artıq bu layihə istifadəyə verilir. Beləliklə, 20 min hektar torpaq sahəsində suvarma yaxşılaşacaq və 300 hektar yeni suvarılan torpaqlar dövriyyəyə buraxılacaqdır.

Əlbəttə, su olan yerdə kənd təsərrüfatı da inkişaf edəcək. Bizim əsas arzumuz ondan ibarətdir ki, bütün bölgələrdə kənd təsərrüfatı daha da sürətlə inkişaf etsin. Çünki kənd təsərrüfatının inkişafı iş yerlərinin açılması, yerli istehsalın yaradılması deməkdir. Eyni zamanda, hesab edirəm ki, kənd təsərrüfatı neft və qazdan sonra bizim əsas ixrac məhsulumuz olmalıdır və olacaqdır.

Kənd təsərrüfatının inkişafı üçün buna oxşar 2 layihə icra edilib – Taxtakörpü və Şəmkirçay su anbarları. Şəmkirçay su anbarı yaxınlıqda yerləşir. Artıq həmin layihələrin ətrafında yeni inkişaf layihələri icra edilir. Şəmkir Aqroparkı, Şabran, Xızı, Siyəzən rayonlarında yeni kənd təsərrüfatı layihələrinin icrası gözlənilir və tezliklə icra ediləcək. Beləliklə, dövlət bu sahəyə investisiya qoymaqla, bir neçə məqsədi güdür. İlk növbədə, bunlar su ehtiyatlarımızdan səmərəli istifadə etmək üçün çox önəmli layihələrdir. Su təhlükəsizliyi məsələləri burada öz həllini tapır. Bu da Azərbaycan kimi, xarici su mənbələrindən daha çox asılı olan ölkə üçün xüsusi əhəmiyyət kəsb edir. Biz su ehtiyatlarımızdan maksimum səmərə ilə istifadə etməliyik. Kənd təsərrüfatının sürətli inkişafı bundan sonra da təmin olunacaqdır.

Keçən il kənd təsərrüfatı 6 faizdən çox artıb və ümid edirəm ki, bu il də sürətlə artacaq. Bütün bölgələrdə ixtisaslaşma aparılmalıdır. Tovuz rayonunun ənənəvi kənd təsərrüfatı məhsulları vardır. Onların inkişafı, yeni əkin sahələrinin yaradılması, xüsusilə üzümçülüyün inkişafı mühüm əhəmiyyət daşıyır. İnsanların yaşayış səviyyəsi yaxşılaşacaq. Biz öz ərzaq təhlükəsizliyimizi təmin edəcəyik. Bizim əsas vəzifəmiz nəinki özümüzü bütün ərzaq məhsulları ilə təmin etməkdir, eləcə də xarici bazarlara keyfiyyətli məhsulla çıxmaqdır. Bu istiqamətdə önəmli addımlar atılır. Tovuzçay su anbarının istismara verilməsi onların arasında xüsusi yer tutur.

Əminəm ki, 2016-cı il Azərbaycanda sosial-iqtisadi inkişaf baxımından uğurlu il olacaqdır. Dünya iqtisadiyyatı böhran içindədir, böhran davam edir. Bu ilin əvvəlində iştirak etdiyim beynəlxalq iqtisadi və təhlükəsizlik forumlarında mənim əldə etdiyim nəticə ondan ibarətdir ki, bu böhranın sonu hələ görünmür. Bölgəmizdə iqtisadi böhran, bəzi hallarda

hərbi və siyasi böhran yaşanır. Azərbaycan isə sabitlik məkanıdır, inkişaf ölkəsidir. Baxmayaraq ki, gəlirlərimiz əhəmiyyətli dərəcədə azalıb, ancaq biz daha da səmərəli işləməliyik. Əminəm ki, biz xüsusilə aqrar, emal, sənaye sektorlarının inkişafı hesabına iqtisadi yüksəlişə nail olacağıq. Əminəm ki, 2016-cı il ölkəmiz üçün uğurlu olacaq. Büdcəyə dəyişiklik olunacaq və biz neftin qiymətinin minimum səviyyəsi – 25 dollar səviyyəsi ilə lazım olan bütün sosial və investisiya layihələrini icra edəcəyik.

Neftin qiyməti 4 dəfə düşüb. Bu, neft hasil edən ölkələr üçün böyük sınaqdır. Ancaq təbii resurslara malik olmayan ölkələr də çətinlik çəkir. Çünki onlar üçün ənənəvi bazarlar indi onların məhsulunu əvvəlki illərdəki kimi ala bilmir. Əlbəttə ki, neftin qiymətinin düşməsi təbii resurslarla zəngin olmayan ölkələri də narahat edir. Ona görə mən hesab edirəm ki, biz artıq öz iqtisadi inkişafımızı ancaq qeyri-neft sektorunun əsasında qurmalıyıq və qururuq.

Belə olan halda, biz istənilən böhrandan üzüağ çıxacağıq və ölkəmizin uğurlu, dayanıqlı inkişafı təmin ediləcəkdir. Ona görə indiki dövrdə xüsusilə sahibkarlığın inkişafı, əsaslı islahatların dərinləşməsi prioritet məsələlərdir. Keçən ilin sonundan və bu ilin əvvəlindən müəyyən edilmiş yeni islahatlar əminəm ki, yaxın zamanlarda öz sözünü deyəcək.

Azərbaycanda bütün maliyyə, iqtisadi mexanizmlər dünyanın aparıcı ölkələrinin təcrübəsinə əsaslanmalıdır. Maliyyə və iqtisadi sektorun inkişafı imkan verəcək ki, biz neftin qiymətindən asılı olmayaq. Bizim əsas vəzifəmiz bundan ibarətdir.

Regionların inkişafı, əlbəttə ki, burada əsas rol oynayır. 2004-cü ildə birinci regional inkişaf proqramı qəbul olunanda mən demişdim ki, ölkəmizin inkişafı qeyri-neft sektorundan asılı olmalıdır. Həmin vaxtdan bu günədək bütün bölgələrdə, o cümlədən qərb bölgəsində bir çox önəmli layihələr icra edilib. Əgər biz regional inkişaf proqramlarını qəbul etməsəydik, bu gün vəziyyətimiz çox ağır ola bilərdi. Ona görə mən əminəm ki, 2016-cı ili biz uğurla başa vurmalıyıq. Buna nail olmaq üçün bütün imkanlar var. Azərbaycanda hökm sürən ictimai-siyasi sabitlik, xalq–iqtidar birliyi, düşünülmüş iqtisadi siyasət və dərinləşən islahatlar əminəm, imkan verəcək ki, biz bu ili də uğurla başa vuraq.

Qarşıya vəzifə qoyulub ki, biz bir neçə ildən sonra neft amilindən asılılığı tamamilə aradan qaldırmalıyıq. Əminəm ki, buna nail olacağıq.

Mən Tovuz ictimaiyyətini bir daha salamlayıram, əldə olunmuş bütün uğurlara görə təbrik edirəm. Şadam ki, rayon uğurla inkişaf edir, gözəl layihələr icra edilir. Sizə yeni uğurlar arzulayıram. Sağ olun.

**Zirəddin Əhmədov** (*Tovuz rayon ictimaiyyətinin nümayəndəsi*): Möhtərəm cənab Prezident, Tovuza xoş gəlmisiniz!

Siz tovuzluları həmişə diqqətdə saxlamısınız, onlara qayğı göstərmisiniz. Bu gün Tovuz rayonu abadlaşıb, gözəlləşib, iqtisadi cəhətdən daha da möhkəmlənib. Bu gün açılışını etdiyiniz Tovuzçay su anbarı tovuzlular üçün böyük töhfədir. Bu ruzidir, bərəkətdir, bolluqdur. Hesab edirəm ki, tovuzlular bu fürsətdən tam yararlanacaqlar. Onlar Tovuzda ərzaq istehsalını daha da artıracaqlar, öz maddi imkanlarını gücləndirəcəklər, eyni zamanda, respublikamızın ərzaq təminatına öz töhfələrini verəcəklər. Siz buna tam əmin ola bilərsiniz.

Cənab Prezident, biz çox xoşbəxt insanlarıq. Bizim xalq xoşbəxt xalqdır. Biz dünyada gedən qlobal məsələləri çox gözəl görürük. Bizim respublikada isə sabitlikdir, əmin-amanlıqdır. İnsanlar özlərini çox rahat hiss edirlər. Çünki onların xalqa daim qayğı göstərən, onları diqqət mərkəzində saxlayan Sizin kimi prezidenti var. Çox sağ olun. Sizə öz minnətdarlığımızı bildiririk. İnanırıq ki, bundan sonra da Azərbaycan xalqı naminə, ölkəmiz naminə əlinizdən gələn bütün işləri görəcəksiniz. Biz Sizin arxanızda möhkəm dayanmışıq. Sağ olun. Sizə uğurlar olsun.

**İlham Əliyev:** Sağ olun.

**Ə h m ə d  M u r a d o v** (*gənc sahibkar*): Cənab Prezident, mən də Sizi rayonumuzun gənc sahibkarları adından salamlayıram. Rayonumuza xoş gəlmisiniz!

Siz sahibkarlara elə diqqətlə yanaşırsınız ki, biz yeni ruhla, həvəslə işləməyə başlamışıq. Hər yerə yolumuz açıqdır. Bunun üçün rayon sahibkarları adından Sizə minnətdarlığımızı bildirirəm.

Biz kənd təsərrüfatı məhsulu istehsalı ilə məşğuluq. Təsərrüfatımız – 3,5 hektar sahədə istixanamız var, 4 hektar meyvə bağı salmışıq. Burada 35 daimi işçi çalışır. Orta aylıq əməkhaqqı 300 manatdan yuxarıdır. Biz daxili bazarla yanaşı, xarici bazara da məhsul çıxara bilirik. Keçən il Rusiya bazarlarına 300 tona yaxın xiyar, 500 ton pomidor göndərmişik.

Möhtərəm cənab Prezident, Sizi rayon sahibkarları adından əmin edirəm ki, biz yaradılan çox əlverişli imkanlardan səmərəli istifadə edəcəyik. Çox sağ olun, cənab Prezident.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mən fikir verdim ki, yol boyunca çoxlu istixanalar var. Hamısı da son vaxtlar yaradılıb. Bəlkə də yüzlərlə istixana. Bu onu göstərir ki, sürətli inkişaf var. Şəmkir rayonundan başlayaraq Tovuz rayonuna qədər yolun sağı, solu da istixanalardır. Çox yaxşı, sevindirici haldır. Çünki bu onu göstərir ki, insanlar işləyir, iş yerləri açılır, məhsul yetişdirilir. Əlbəttə, biz məhsulu həm daxili, həm də xarici bazarlara çıxarmalıyıq. Mən sahibkarları həmişə dəstəkləmişəm. Şadam ki, gənclər də sahibkarlığa həvəslə qoşulurlar. Sahibkarlığın inkişafı üçün Azərbaycanda bütün şərait var. Dövlət isə öz tərəfindən əlavə tədbirlər görəcəkdir. Xüsusilə xaricə ixrac edilən məhsullara təşviq sistemi tətbiq olunacaq. Məhsulu xaricə satan sahibkar dövlət tərəfindən vəsait alacaqdır ki, bu işə daha da həvəs göstərsin, daha da keyfiyyətli məhsul yetişdirsin və ölkəmizə valyuta gəlsin. Çünki bizim əsas valyuta mənbəmiz neft və qazdır, bu da azalıbdır. Ona görə biz gərək qeyri-neft sektoru hesabına ölkəmizə valyuta axınını təmin edək və bu sahədə, əlbəttə ki, kənd təsərrüfatı birinci yerdədir. Mən sizə yeni uğurlar arzulayıram. Sağ olun.

* * * *

*Dövlətimizin başçısı su anbarını işə saldı.*

*Bildirildi ki, «Tovuzçay su anbarının tikintisinin davam etdirilməsi» layihəsində nəzərdə tutulan tədbirlərin tam başa çatdırılması nəticəsində Tovuzda 16886 hektar, Şəmkirdə isə 2939 hektar olmaqla, ümumilikdə 19825 hektar mövcud torpaq sahələrinin su təminatı yaxşılaşdırılacaq. Eyni zamanda, Tovuz rayonunda 300 hektar yeni suvarılan torpaq suvarma suyu ilə təmin olunacaq. Bu da həmin ərazidə becərilən kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasına müsbət təsir göstərəcək. Qeyd olundu ki, sululuğunun əsas hissəsi yaz dövrünə düşən Tovuzçay çayının axını tənzimlənmədiyindən bu sulardan səmərəli istifadə etmək mümkün olmur və Kür çayına axır. Kənd təsərrüfatı bitkilərinin suya ehtiyacı çox olan ilin isti aylarında isə Tovuzçay çayının su ehtiyatları kəskin azalır və tamamilə quruyur. Su anbarının tikintisi isə Tovuzçay çayının su ehtiyatlarının nizamlanması nəticəsində onun ehtiyatlarından səmərəli istifadə etməklə, Tovuz və Şəmkir rayonlarının əkin sahələrinin su təminatının yaxşılaşdırılması mümkün olacaq. Layihədə anbarda yığılan suyun, Tovuz və Şəmkir rayonlarının əkin sahələrinin təminatının yaxşılaşdırılması üçün bu sahələri suvarma suyu ilə təmin edən Ağstafaçay sağ sahil kanalına öz axını ilə və Xunamarx kanalına isə su verilməsi nəzərdə tutulub ki, bu işlər də tam başa çatdırılıb.*

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**72-ci kitab: dekabr 2015 - fevral 2016. - Bakı: Azərnəşr, 2018, S. 264-270.**

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜNƏ HƏSR OLUNMUŞ AĞAC ƏKMƏ KAMPANİYASINDA İŞTİRAK

*(10 may 2016-cı il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva mayın 10-da Zığ – Heydər Əliyev Beynəlxalq Aeroportu magistral avtomobil yolunun 29–30-cu kilometrliyində salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağac əkmə kampaniyasında iştirak etmişlər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində görülən işlərlə bağlı məlumatları əks etdirən stendlərlə tanış oldular.

Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov prezident İlham Əliyevə nazirlik tərəfindən 2008–2016-cı illər ərzində salınmış və damcılı suvarma sistemi ilə təchiz edilmiş yaşıllıqlar barədə məlumat verdi. Bildirildi ki, həmin müddətdə Bakı–Şamaxı magistral avtomobil yolunun ətrafında 622 mindən, Bayıl yamacında 463 mindən artıq, Bakı–Qazax magistral avtomobil yolunun Ələt–Hacıqabul hissəsində 1 milyon 600 minə yaxın, Bakı–Quba magistral avtomobil yolunun ətrafında 680 mindən çox, Bakı–Astara magistral avtomobil yolunun Ələt–Salyan hissəsində 500 minə yaxın ağac əkilib. Beləliklə, 2008–2016-cı illərdə respublika ərazisində nazirlik tərəfindən sahəsi 3776 hektar, uzunluğu isə 190 kilometr olan ərazidə ümumilikdə 4 milyon 826 mindən çox ağac əkilərək, onlara zəruri aqrotexniki qulluq göstərilib.

Qeyd olundu ki, yaşıllıqlar salınarkən zeytun ağaclarına daha çox üstünlük verilib. Buna görə də hazırda bu ağacların əkildiyi sahələr son 100 ildə Azərbaycanda salınmış zeytun bağlarının sahəsindən 3 dəfə çoxdur. Əkilmiş zeytun ağaclarının sayı isə artıq 1 milyon 268 mini keçib. Son 8 ildə nazirlik tərəfindən yaşıllıq sahələrinə 11 min kilometr uzunluğunda damcılı suvarma xətləri çəkilib.

Dövlətimizin başçısına məlumat verildi ki, indiyədək Zığ–Heydər Əliyev Beynəlxalq Aeroportu magistral avtomobil yolunun ətrafında ümumi sahəsi 969 hektar, uzunluğu 20 kilometr olan ərazidə 58 növdə 1 milyondan artıq ağac əkilib. Onların arasında zeytun, Eldar şamı, sərv, tuya, oleandr, Arizona sərvi, akasiya, göyrüş, lələk, tut, nar, badam, sarağan, meliya və digər ağac növləri var.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva ərazidə ağac əkdilər.

Dövlətimizin başçısı və xanımı ağac əkmə kampaniyasının iştirakçıları ilə xatirə şəkilləri çəkdirdilər.

Ərazisi 12 hektar olan bu yaşıllıq sahəsində mayın 10-da ümumilikdə 10 minə yaxın zeytun, Eldar şamı, sərv, Arizona sərvi, mavi küknar, limon sərvi, leylandi ağacları əkildi.

Qeyd edək ki, hazırda ölkə ərazisində ətraf mühitin sağlamlaşdırılması ilə bağlı ekoloji tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyevin Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair imzaladığı sənədlər bu sahədə mühüm nailiyyətlər əldə etmək üçün hərtərəfli şərait yaradıb. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətində də ölkəmizdə yaşıllıqların artırılmasına, mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirilir. Bu məsələdə Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**74-cü kitab: may 2016 – iyul 2016. - Bakı: Azərnəşr, 2018, S. 47-48.**

## «İSMAYILLI-2» SU-ELEKTRİK STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*(10 avqust 2016-cı il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 10-da «İsmayıllı-2» Su-Elektrik Stansiyasının açılışında iştirak etmişdir.

«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına məlumat verdi ki, ümumi layihə gücü 1,6 meqavat olan stansiyanın əsas komponentləri suqəbuledici, hər birinin uzunluğu 2115 metr, diametri 800 millimetr olan 3 boru, stansiyanın binası, nəzarət, mühafizə, idarəetmə və uçot sistemləri, ümumi layihə gücü 1,6 meqavatlıq 3 hidroturbin və 3 hidrogenerator, 10 və 0,4 kilovoltluq yarımstansiya və elektrik verilişi xətlərindən ibarətdir.

Diqqətə çatdırıldı ki, «İsmayıllı-1» Su-Elektrik Stansiyasının aşağı byefindən çıxan təmizlənmiş su «İsmayıllı-2» Su-Elektrik Stansiyasına daxil olacaq. Beləliklə, İsmayıllı Su-Elektrik Stansiyası ümumi gücü 3,2 meqavat olan su-elektrik stansiyaları silsiləsini təşkil edəcək. Rayonun Sumağallı kəndi yaxınlığında inşa edilən derivasiya tipli su-elektrik stansiyası ildə 8 milyon kilovat-saat ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsal etmək imkanına malikdir.

Prezident İlham Əliyev su-elektrik stansiyasını işə saldı.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**75-ci kitab: iyul 2015 - sentyabr 2015. - Bakı: Azərnəşr, 2018, S. 115.**

## QUSARIN İÇMƏLİ SU TƏCHİZATI VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN YENİDƏN QURULMASI LAYİHƏSİNİN BAŞA ÇATMASI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*(8 sentyabr 2016-cı il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 8-də Qusar şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin başa çatması münasibətilə keçirilən mərasimdə iştirak etmişdir.*

*Respublikanın hər yerində əhalinin sosial məsələlərinin həlli istiqamətində mühüm layihələr icra olunur. Görülən işlər arasında su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması əsas yer tutur. Bu baxımdan Qusar şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi də mühüm əhəmiyyətə malikdir. Qusar rayonunda içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işləri ilə yanaşı, dövlət büdcəsi vəsaiti hesabına Qusar–Quba kanalizasiya kollektorunun tikintisi də tamamlanıb. «Şahdağ» qış-yay turizm kompleksinin və Qusar şəhərinin tullantı sularının Quba–Xaçmaz kollektoruna ötürülməsi məqsədilə 27,2 kilometr uzunluğunda kanalizasiya kollektoru qısa müddətdə tikilərək istismara verilib. Kollektorun 7,6 kilometrlik hissəsi 1000, 19,6 kilometrlik hissəsi isə 800 millimetrlik borulardan inşa olunub. Bu layihələrin icrası Qusar sakinlərinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsini yaxşılaşdırmaqla yanaşı, ətraf mühitin ekoloji tarazlığının qorunmasına imkan verib.*

*«Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına layihə barədə məlumat verdi. Qeyd olundu ki, layihə çərçivəsində Qusar Sukanal İdarəsi üçün 472 kvadratmetr sahəsi olan yeni inzibati bina tikilib. Binada xidməti otaqlar, iclas zalı, anbar, informasiya texnologiyaları otağı, digər xidməti və yardımçı otaqlar yaradılıb.*

*Bildirildi ki, bu layihə Azərbaycan hökuməti ilə Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi «Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi» çərçivəsində həyata keçirilib. Layihə 2030-cu ilə perspektiv inkişaf nəzərə alınmaqla, Qusar şəhərində 19 600 nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Eyni zamanda, layihə çərçivəsində Qusar rayonunun 7 və Quba rayonunun 3 kəndinə içməli suyun verilməsi nəzərdə tutulub. Ümumilikdə, layihədən bu kəndlərin 12 min sakini faydalanacaq.*

*Qusar şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrasına 2012-ci ildə başlanılıb. Layihənin birinci mərhələsində Qusar şəhərini və 10 kəndi keyfiyyətli içməli su ilə təmin etmək üçün Qusarçayın məcrasında məhsuldarlığı saniyədə 102 litr və ya sutkada 8800 kubmetr olan drenaj tipli suqəbuledici qurğu tikilib, su mənbəyindən şəhərə qədər 17,4 kilometr uzunluğunda magistral kəmər çəkilib. Şəhərin dayanıqlı su təchizatını təmin etmək məqsədilə ümumi tutumu 3000 kubmetr olan 3 su anbarı tikilib və bu anbarlar arasında 2,8 kilometr uzunluğunda su xətləri çəkilib, yeni xlorator binası inşa olunub. Layihənin ikinci mərhələsində isə Qusar şəhərində içməli su və kanalizasiya şəbəkələrinin yenidən qurulması işləri həyata keçirilib. Bu işlər çərçivəsində 106 kilometr içməli su şəbəkəsi yaradılıb, abonentlərə ev birləşmələri verilib, yanğın hidrantları quraşdırılıb. İçməli su şəbəkəsi ilə paralel olaraq, şəhərin kanalizasiya sistemləri də müasir standartlar səviyyəsində yenidən qurulub, 105 kilometr uzunluğunda şəhərdaxili şəbəkə qurulub. Şəhərdə yaranacaq tullantı suları Xaçmaz rayonu ərazisində inşa ediləcək və məhsuldarlığı sutkada 70 min kubmetr layihələndiriləntullantı sutəmizləyici qurğuda təmizlənib zərərsizləşdiriləcək. Bu qurğuda, həmçinin Quba və Xaçmaz şəhərlərinin də tullantı suları emal olunacaq.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Azərbaycan hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi «Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi» çərçivəsində ölkəmizin 5 şəhərində – Qusar, Xaçmaz, Xızı, Qobustan və Naftalanda içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması nəzərdə tutulub. Artıq Naftalan şəhərində su və kanalizasiya şəbəkələrinin tikintisi tam başa çatıb, hazırda tullantı sutəmizləyici qurğunun inşasına hazırlıq işləri görülür. Qobustan, Xaçmaz və Xızı şəhərlərində isə içməli su və kanalizasiya sistemlərinin inşası təsdiqlənmiş qrafikə uyğun davam etdirilir.*

*Sonra prezident İlham Əliyev layihənin işə salınmasını bildirən düyməni basdı.*

*Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Azərbaycan Prezidenti görüşdə çıxış etdi.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Bu gün Qusar rayonunda çox əlamətdar bir gündür. Qusar şəhərinin su problemi artıq öz həllini tapıb. Bu gün biz bu layihənin başa çatmasını qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Bu doğrudan da çox əlamətdar hadisədir. Çünki əvvəlki illərdə Qusarda su problemi çox kəskin problem kimi qalmışdı. Bizim, demək olar ki, bütün rayonlarımızda oxşar problemlər var idi və onlar tədricən öz həllini tapır.

Bu gün biz artıq bu layihəni başa çatdırdıq. Artıq Qusar şəhərinə keyfiyyətli, təmiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına tam uyğun su verilir. Bununla bərabər, Qusar rayonunun 7 və Quba rayonunun 3 kəndinə də bu mənbədən su veriləcək. Bu problem Qusarda artıq tarixdə qaldı. Digər problemlər və qarşıda duran bütün vəzifələr də icra edilir.

Qusar rayonunun sosial-iqtisadi inkişafı sürətlə gedir. Mən bu məsələləri daim diqqət mərkəzində saxlayıram. Bugünkü səfər mənim Qusara sayca 12-ci səfərimdir. Demək olar ki, son 13 il ərzində hər il Qusara gəlirəm, vəziyyətlə tanış oluram və buradakı problemlərin həlli üçün göstərişlər verilir.

Bu gün Qusar–İmamqulukənd–Quxuroba yolunun açılışını qeyd etdik. Bu, Qusar rayonunda icra edilən sayca dördüncü böyük kənd yolu layihəsidir. Bu layihələr artıq kəndlərin əksəriyyətini əhatə edir. Mənə verilən məlumata görə, Qusarda uzunluğu 98 kilometr olan kənd yolu layihələri icra edilib. Bu da, əlbəttə, həm insanların rahatlığına, həm də rayonun inkişafına xidmət göstərir. Çünki yol olmasa, inkişafdan söhbət belə, gedə bilməz.

Gələcəkdə yəqin ki, kənd yolları ilə bağlı yeni layihələr icra ediləcək. Bununla bərabər, qazlaşdırma prosesi gedir. Ev təsərrüfatlarının 68 faizi qazlaşdırılıb. Elektrik enerjisi məsələləri həll olunur. Burada 2 elektrik stansiyası fəaliyyət göstərir. «Şahdağ» stansiyası Qusar və Quba rayonlarının sərhədində yerləşir. «Xaçmaz» elektrik stansiyası bütün bu zonanın enerji təminatını təşkil edir.

İndi də içməli su layihəsi həllini tapıb. Beləliklə, əsas infrastruktur layihələrinə gəldikdə, onların, demək olar ki, hamısı öz həllini tapıb: elektrik enerjisi, qazlaşdırma, içməli su, kənd yolları, sosial layihələr icra edilib. Bu gün Hil kəndində böyük məktəbin açılışını qeyd etdik. Bu, yüksək standartlara cavab verən bir məktəbdir. Əvvəlki səfərlərimin birində biz Mərkəzi Rayon Xəstəxanasının açılışını qeyd etmişdik. Çünki burada, ümumiyyətlə, rayon xəstəxanası mövcud deyildi və o, tam yeni bir layihə idi.

Gələcək planlarımız da, əlbəttə, ona yönəlib ki, Qusar rayonunun və ümumiyyətlə, şimal zonasının inkişafı təmin edilsin, dayanıqlı olsun. Burada kənd təsərrüfatı layihələri icra edilir və gələcəkdə daha çox layihələr icra olunmalıdır. Müvafiq göstərişlər verilib. Həm daxili tələbatı ödəmək, həm də xaricə məhsullarımızı satmaq üçün bu layihələr çox böyük əhəmiyyət daşıyır.

Əlbəttə ki, Qusar rayonunun böyük turizm potensialı var. Bu barədə mən hələ ilk səfərlərimdə öz fikirlərimi bildirmişdim. Qeyd etmişdim ki, biz Qusarı həm də beynəlxalq turizm mərkəzinə çevirməliyik – nəinki ölkə miqyasında, həm də beynəlxalq miqyasda. Biz artıq buna nail oluruq. «Şahdağ» Turizm Kompleksi bu gün dünya miqyasında öz gözəlliyi, rahatlığı, yaradılmış şəraiti ilə fərqlənir.

Yadımdadır, ilk dəfə o yerlərdə olanda, orada heç nə yox idi – heç bir infrastruktur, yol, işıq, qaz, su – çılpaq dağlar idi. İndi isə dünya səviyyəli beynəlxalq kurort yaradılıb, 5 hotel fəaliyyət göstərir, minlərlə rayon sakini işlə təmin edilib və hər il buraya on minlərlə turist gəlir, həm ölkə daxilindən, həm də xaricdən. İnsanlara şərait yaratmışıq. Azərbaycanda, ümumiyyətlə, heç vaxt dağ xizəyi kurortu olmamışdı. Biz bunu yaratmışıq və bu gün vəzifə ondan ibarətdir ki, bu kurort zonası yay mövsümündə də tam gücü ilə işləsin. Mənə verilən məlumata görə, bu ilin yayında Qusara gələn turistlərin sayı artıb və əslində bu mərkəz ilboyu fəaliyyət göstərməlidir. Çünki Azərbaycana gələnlərin sayı getdikcə artır. Ölkə vətəndaşları daha çox Azərbaycanda dincəlməyə üstünlük verirlər. Çünki indi bizdə gözəl imkanlar – gözəl hotellər, istirahət zonaları, yollar var. Biz bu gün Qusar–İmamqulukənd–Quxuroba yolunun açılışını etdik. Bu sadəcə olaraq, kəndləri birləşdirən layihə deyil. Bu, ümumiyyətlə, magistral yola çıxış deməkdir. Bakıya gedən yolun məsafəsi qısalır, Xaçmazla çox gözəl əlaqə yaranır. Biz bu məsələlərə belə yanaşırıq. İlk növbədə, inkişaf üçün lazım olan infrastruktur layihələrini icra edirik. Şimal zonasında bu layihələrə milyardlarla manat vəsait ayrılıb. Bu layihələrin böyük əksəriyyəti sosial xarakter daşıyır. İçməli su layihəsi sırf sosial məna daşıyan bir layihədir. Bizdə su tarifləri çox aşağı səviyyədədir və oradan gələn gəlirlə qoyulmuş vəsaiti qaytarmaq mümkün deyil. Bəlkə də 50 il lazım olacaqdır.

Qazlaşdırma da həmçinin. Bizdə qazın daxildəki qiyməti dünya qiyməti ilə müqayisədə təqribən 8–10 dəfə aşağıdır. Qonşu ölkələrlə, Cənubi Qafqazda yerləşən digər ölkələrlə müqayisədə 5 dəfə aşağıdır. Yəni qazlaşdırma layihələri də sosial xarakter daşıyır.

Kənd yollarının tikintisinə yatırılan vəsait də qayıdan vəsait deyil. O, müəssisəyə yatırılan vəsait deyil. Bunu nəyə görə edirik? İnsanlar üçün, inkişaf üçün. Əsas vəzifələr bunlardır – regional inkişaf, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması. Son illərdə Qusar rayonunda görülən işlər onu bir daha göstərir ki, biz düzgün yoldayıq. Çünki siz, Qusar rayonunun sakinləri bunu hamıdan yaxşı bilirsiniz, əvvəlki vəziyyəti də xatırlayırsınız, bugünkü vəziyyət də göz qabağındadır. Qusar inkişaf edən, gözəl, abad rayona çevrilib. Yeni iş yerləri açılır, yeni imkanlar yaranır. Həm sosial layihələrə, həm də infrastruktur layihələrinə dövlət xətti ilə investisiya qoyuluşu davam etdiriləcək. Biz indi özəl sektordan daha böyük fəallıq gözləyirik. Çünki özəl sektorda çalışan həm yerli, həm də başqa ölkələrdən gələn iş adamları gərək daha da fəal işləsinlər. Onlar yaradılan bu şəraitdən maksimum dərəcədə səmərəli istifadə etməlidirlər. Çünki bizdəki şərait deyə bilərəm ki, az ölkələrdə müşahidə olunur. Bizdə olan sabitlik inkişaf üçün, biznes üçün əsas şərtdir. İnfrastruktur layihələri, biznesə dövlət dəstəyi! Bu gün mən Yalamada birinci aqroparkın açılışını etmişəm. Oranın sahəsi 500 hektardan çoxdur. Orada artıq 100 baş iribuynuzlu mal-qara saxlanılır. Onların sayı 3000-ə çatacaq. Müasir suvarma texnologiyaları yaradılıb. Orada birinci mərhələdə 150, ikinci mərhələdə 300 nəfər işləyəcək. Dövlət də, özəl sektor da kredit ayırıb.

Qusar rayonunda da ona oxşar aqrokompleks yaradılmalıdır. Çünki burada iqlim şəraiti eynidir. Biz özümüzü ərzaq məhsulları ilə təmin edəcəyik, ixrac da edəcəyik. İndi qarşımızda bu iki əsas vəzifə dayanır. Yerli icra orqanları da çalışmalıdırlar ki, investorları cəlb etsinlər. Çünki həm Azərbaycanda kifayət qədər böyük firmalar var ki, vəsait qoymağa hazırdırlar, həm də xaricdən gətirməliyik. Biz bu istiqamətdə daha da fəal olmalıyıq. Ona

görə ki, gələcək bu inkişafdan asılıdır. Sahibkarlıq, kənd təsərrüfatı, sənaye potensialı, turizm imkanları həm valyuta gətirən, həm də məşğulluq üçün çox önəmli sahələrdir.

Bugünkü tədbir isə xüsusi önəm daşıyır. Çünki Qusar şəhərinə təmiz, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su verilir. Mən gəlmişəm ki, bu hadisəni birlikdə qeyd edək. Bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik edirəm.

* * *

**Zöhrab Mirzəməmmədov** *(Qusar sakini):* Çox hörmətli Prezidentimiz, Sizi doğma Azərbaycanımızın ən gözəl guşələrindən birində – Qusar rayonunda bütün qusarlılar adından səmimi-qəlbdən salamlayır, Sizə «Xoş gəlmisiniz!» – deyirəm.

Çox hörmətli Prezidentimiz, böyük minnətdarlıq hissi ilə qeyd etmək istəyirəm ki, Siz bu gün qusarlılar üçün, şəhərimiz üçün son dərəcə vacib olan xeyirxahlıq missiyasını həyata keçirdiniz. Siz bu gün Qusar şəhər sakinləri üçün inşa edilmiş daimi su qovşağının açılışını etdiniz. Həm də Siz bu gün Qusar şəhər sakinlərinə daimi sudan istifadə etmək xoşbəxtliyini bəxş etdiniz. Siz həmçinin bu gün Qusar şəhər sakinlərinə bayram şənliyi bəxş etdiniz. Odur ki, onların hamısı Sizə hədsiz dərəcədə minnətdardırlar, çox hörmətli Prezidentimiz.

Su hər bir insanın həyatında ən mühüm amillərdən biridir. Su həyat, sağlamlıq, təmizlik, rahatlıq deməkdir. Cənab Prezident, Siz bu gün bütün bu nemətləri qusarlılara əvəzsiz olaraq bəxş etdiniz. Bütün bunlar Sizin xalqımıza olan böyük sevginizin, sayğınızın, diqqət və qayğınızın bariz ifadəsidir. Bütün Qusar rayon ictimaiyyəti adından mən Sizə, çox hörmətli Mehriban xanım Əliyevaya öz dərin minnətdarlığımızı və təşəkkürümüzü bildirirəm. Cənab Prezident, mən Sizə həyatın ən gözəl neməti olan möhkəm cansağlığı arzu edirəm. Bir daha «Çox sağ olun» –deyirəm.

**İlham Əliyev:** Sağ olun, mən də sizə cansağlığı arzu edirəm. Sizi təbrik edirəm, çox sağ olun.

**Stella Əmirbəyova** *(Qusar sakini):* Cənab Prezident, mənim də Sizə sözüm var. Siz bizim üçün nələr etməmisiniz?! İşığımız, qazımız, rahat yollarımız, müasir məktəblərimiz var. Bu gün də bizə su verdiniz, su ilə bərabər, həyat verdiniz. Bütün bunlara görə Sizə camaatımızın adından dərin minnətdarlığımızı, təşəkkürümüzü bildirirəm. Sizə cansağlığı, uzun ömür arzu edirəm. Çox sağ olun, cənab Prezident!

**İlham Əliyev:** Təşəkkür edirəm, sağ olun. Doğrudan da çox gözəl, əlamətdar bir gündür və bu günü bərabər qeyd edirik. Bir neçə ildir ki, «Azərsu» çalışıb, bu işləri görüb. Şadam ki, nəhayət, evlər də şəbəkəyə qoşulur. Bu proses yəqin ki, bir ay davam edəcək. Bir aydan sonra bütün evlərə su veriləcək. Amma mənə deyirlər ki, artıq bəzi evlərə su verilir. Necə sudur?

**Sakin:** Yaxşıdır, təmizdir, çox sağ olun, minnətdarlığımızı bildiririk.

**Sakin:** Cənab Prezident, biz xoşbəxtik. Çünki xalqımızın çox parlaq və işıqlı gələcəyi var. Biz Sizinlə fəxr edirik.

**İlham Əliyev:** Qusar rayonunun inkişafı göz qabağındadır. Biz ardıcıl siyasət apararaq, bütün məsələləri həll etmişik. Bir daha demək istəyirəm, bundan sonra əsas vəzifə investisiya qoyuluşu, kənd təsərrüfatının, turizmin inkişafı, sənaye zonalarının yaradılmasıdır ki, insanlar işlə təmin olunsunlar, yaxşı maaş alsınlar.

**Sakin:** Çox hörmətli Prezidentimiz, xalqımızın ən böyük xoşbəxtliyi ondadır ki, dahi Heydər Əliyevdən sonra respublikamızın idarəetmə sükanı məhz Sizin etibarlı əllərinizdədir. Odur ki, doğma Azərbaycanımız gündən-günə inkişaf edəcək.

**İlham Əliyev:** Sağ olun.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**75-ci kitab: iyul 2016 - sentyabr 2016. - Bakı: Azərnəşr, 2018, S. 266-273.**

## YENİ BİTUM İSTEHSALI QURĞUSUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*(19 sentyabr 2016-cı il)*

Sentyabrın 19-da Bakıda Heydər Əliyev adına neft emalı zavodunun yenidən qurulması layihəsi çərçivəsində yeni bitum istehsalı qurğusunun təməlqoyma mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Prezident İlham Əliyev Heydər Əliyev adına neft emalı zavodunun yenidən qurulması layihəsi çərçivəsində yeni bitum istehsalı qurğusunun təməlini qoydu.

Zavodun kollektivi ilə görüşən **Prezident İlham ƏLİYEV dedi:**

-Neftçilərin peşə bayramı ərəfəsində gözəl bir hadisə baş verir, bitum qurğusunun təməlini qoyuruq. Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm.

Heydər Əliyev adına neft emalı zavodunun yenidən qurulması layihəsinə bu gün start verilir. Gələcəkdə görüləcək işlər, əlbəttə, ona gətirib çıxaracaq ki, bu zavod dünya səviyyəli bir zavoda çevriləcək. Bu zavodun böyük tarixi var. Ancaq həyat yerində durmur, yeni texnologiyalar tətbiq olunmalıdır və bu neftayırma zavodu dünyanın ən yüksək standartlarına cavab verməlidir. Bu zavodun yenidən qurulması təqribən 2-3 il çəkəcək. Ondan sonra ən yüksək səviyyəli yanacaq istehsal olunacaq – dizel yanacağı, benzin, aerokerosin. Burada ən yüksək ekoloji standartlar təmin ediləcək, neftayıranların iş şəraiti yaxşılaşacaq. Ölkəmizin inkişafı üçün bu zavodun xüsusi əhəmiyyəti var.

Hazırda bizdə yanacağın mütləq əksəriyyəti demək olar ki, bu zavodda istehsal olunur. Bu, bizim inkişafımız, təhlükəsizliyimiz üçün çox böyük məna daşıyan bir müəssisədir. Çünki bizim böyük neft ehtiyatlarımız var və neft sənayesinin bütün zənciri Azərbaycanda mövcuddur - hasilat, daşıma, emal, satış, ixrac, həm neft məhsulları, həm xam neft. İndi son vaxtlar qaz ixracı ilə məşğul olmağa başlamışıq. Orada da çox böyük potensial var. Yəni, bu zavodun yenidən qurulması ölkəmizin inkişafına veriləcək çox böyük töhfə olacaq. Eyni zamanda, Bakının ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün də bunun çox böyük əhəmiyyəti var. Bu ərazidə külək əsəndə bəzi hallarda hiss olunan iylər aradan qalxacaq, dəniz kənarında yerləşən neftayırma zavodu köçürüləcək, onun yerində gözəl ictimai yerlər salınacaq. Necə ki, indi yeni bulvar və "Ağ şəhər" bulvarı yaradılıbdır.

İndi "Ağ şəhər" bulvarı gəlib neft emalı zavoduna çatıb. Bu yenidənqurmadan sonra o zavod oradan köçürüləcək və beləliklə, Bakı sakinləri üçün əlavə bir neçə kilometr gözəl ictimai istirahət zonası da yaradılacaq.

Yəni, bu işlər bir-biri ilə bağlıdır - ekoloji təmizlik, iqtisadi inkişaf, enerji təhlükəsizliyi, şəhərimizin gözəlləşdirilməsi. Bu işlərin bir məqsədi var – Azərbaycanın inkişafı və daha da güclü ölkəyə çevrilməsi. Ona görə, bu gün - Neftçilər günü ərəfəsində gəldim ki, sizinlə bərabər bu təməlqoyma mərasimində iştirak edim. Bir daha qeyd etmək istəyirəm ki, bu gün Heydər Əliyev adına neft emalı zavodunun əsaslı modernləşdirilməsinin birinci günüdür. Sizi təbrik edirəm və bütün Azərbaycan neftçilərinə uğurlar, cansağlığı arzulayıram. Sağ olun.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**75-ci kitab: iyul 2016 - sentyabr 2016. - Bakı: Azərnəşr, 2018, S. 334-335.**

## TƏRTƏR ŞƏHƏRİNİN İÇMƏLİ SU TƏCHİZATI VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN YENİDƏN QURULMASI BAŞA ÇATIB

*(3 dekabr 2016-cı il)*

Dekabrın 3-də "Tərtər şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin başa çatması münasibətilə tədbir keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına və xanımına layihə haqqında məlumat verdi.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində icra edilən bu layihə Azərbaycan Hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən "Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı" layihəsi çərçivəsində həyata keçirilib. Layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla Tərtər şəhərində 26 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Gələcəkdə rayonun 21 min sakinin yaşadığı 11 kəndinə də içməli suyun verilməsi nəzərdə tutulub. Ümumilikdə, bu layihədən 47 min sakin faydalanacaq.

Qeyd olundu ki, layihənin icrasına 2015-ci ilin mayında başlanılıb. Şəhəri və ətraf kəndləri içməli su ilə təmin etmək üçün ümumi məhsuldarlığı saniyədə 200 litr olan 9 subartezian quyusu qazılıb, 3,6 kilometr uzunluğunda quyulararası xətt inşa edilib. Şəhərin dayanıqlı su təchizatını təmin etmək üçün hər birinin həcmi 5 min kubmetr olan 2 su anbarı, nasos stansiyası və 2,4 kilometr uzunluğunda magistral su kəməri inşa edilib. Layihəyə əsasən, Tərtər şəhərində 91 kilometr paylayıcı su şəbəkəsi yaradılıb, 4700 ünvana birləşmə verilib və bu ünvanlar sayğacla təmin edilib. Yanğın təhlükəsizliyi məqsədilə şəhərin müxtəlif yerlərində 360 yanğın hidrantı, suyun optimal idarə edilməsi üçün 185 siyirtmə quraşdırılıb. Yeni yaradılmış su təchizatı sistemləri vasitəsilə şəhərə 24 saat fasiləsiz içməli suyun verilməsi təmin edilib.

Diqqətə çatdırıldı ki, layihə çərçivəsində Tərtər şəhərində ilk dəfə kanalizasiya sistemi də yaradılıb. Bu məqsədlə 75 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi, 3,5 kilometrlik kollektor inşa edilib. Şəbəkəyə 4700 ünvanın qoşulması təmin olunub. Beləliklə, Tərtər şəhərinin içməli su və kanalizasiya şəbəkələrinin tikintisi başa çatdırılıb. Layihənin növbəti mərhələsində şəhərdə yaranacaq tullantı suların zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 7500 kubmetr olan təmizləyici qurğunun inşası nəzərdə tutulur. Eyni zamanda, Tərtər Sukanal İdarəsi üçün müasir standartlara cavab verən yeni inzibati binanın tikintisi də layihələndirilib və bu mərhələdə icra olunacaq. Tullantı sutəmizləyici qurğu və inzibati bina da nəzərə alınmaqla layihə üzrə tikinti işləri 2018-ci ildə tam yekunlaşacaq.

Tərtər şəhərinin mərkəzləşdirilmiş içməli su təchizatı sistemləri 1960-cı illərdə yaradılıb. Həcmi 500 kubmetr olan iki su anbarı və 47 kilometr uzunluğunda şəhərdaxili şəbəkə istismara yararsız vəziyyətdə olub. Tərtər şəhərində kanalizasiya sistemi isə ümumiyyətlə mövcud olmayıb. Yeni layihənin icrasına qədər "Azərsu" ASC 20 min şəhər sakinindən 11 mininə və ya təqribən 55 faizinə xidmət göstərib və şəhərə su qrafik üzrə verilib.

Azərbaycan Hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən "Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı" layihəsi çərçivəsində Tərtər şəhəri ilə yanaşı, Gədəbəy, Daşkəsən və Astara şəhərlərində də su və kanalizasiya şəbəkəsinin yenidən qurulmasına başlanılıb. 2017-ci ildə Gədəbəy və Daşkəsən şəhərlərində su və kanalizasiya şəbəkələrinin tikintisi yekunlaşacaq, Qazax şəhərində isə layihənin icrasına başlanacaq.

Sonra dövlətimizin başçısı və xanımı Tərtər rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdülər.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

-Mən sizi salamlayıram, yenidən Tərtərdə olmağımdan çox məmnunam. Bu gün Tərtər rayonunun həyatında çox əlamətdar bir gündür. Tərtər şəhərinin su və kanalizasiya problemi artıq həll olunur. Çox gözəl, böyük layihədir. Bilirəm ki, əvvəlki illərdə su problemi insanları narahat edirdi. Artıq bu məsələ öz həllini tapıb. Tərtər şəhərinin sakinlərinə təmiz içməli su veriləcək və eyni zamanda, kanalizasiya xətləri də tam istismara hazırdır. Gələcək mərhələdə ətraf kəndlərə də içməli su veriləcək.

Bu, böyük infrastruktur və sosial layihədir. Bu layihənin icrası üçün biz xarici kreditlərdən istifadə etdik, eyni zamanda, Azərbaycan dövləti də büdcə vəsaiti ayırdı. Çünki su layihələrinin icrası böyük vəsait tələb edir. Ancaq bu vəsaitin büdcəyə qayıtması məsələsi uzun illər çəkir. Yəni, bu layihənin icrası sırf sosial məna daşıyır ki, Tərtərə keyfiyyətli su verilsin, insanlar təmiz içməli su ilə təmin olunsunlar. Su insanın sağlamlığı üçün başlıca amildir.

Tərtər rayonunun uğurlu inkişafı məni çox sevindirir. Şəhərin abadlaşması, şəhərdə və rayonda infrastruktur layihələrinin icrası göstərir ki, Azərbaycanın bütün bölgələri uğurla inkişaf edir və bizim vaxtilə qəbul etdiyimiz regionların sosial-iqtisadi inkişafı proqramı həyatda öz əksini tapır. Biz son illər ərzində bunu Tərtər rayonunun timsalında görürük. Tərtər şəhəri abadlaşıb, gözəlləşib. Mən 10 il bundan əvvəl Prezident kimi birinci dəfə Tərtər rayonunda olmuşam, bu yerdə vətəndaşlarla görüşmüşəm. O vaxt Tərtərin siması tam başqa idi. Bu gün Tərtər müasir, abad şəhərdir, rayon inkişaf edir, vətəndaşlar daha da yaxşı yaşayırlar. Magistral yolların, kənd yollarının çəkilişi, qazlaşdırma ilə bağlı böyük infrastruktur layihələri icra edilir. Tərtər rayonunda qazlaşdırma 90 faizdən çoxdur, 100 faizə çatmalıdır. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Bu gün içməli su məsələsi də öz həllini tapır. Yəni, əsas infrastruktur məsələləri bunlardır. Bu, birinci mərhələdə görüləsi işlər idi.

Bununla bərabər rayonun sosial-iqtisadi inkişafına da böyük diqqət göstərilmişdir. Burada çoxlu məktəblər, uşaq bağçaları, sosial obyektlər tikilmişdir. Yəni, rayonun iqtisadiyyatına və sosial inkişafına dövlət tərəfindən çox böyük vəsait ayrılmışdır.

Növbəti mərhələdə iş yerlərinin yaradılması istiqamətində əlavə tədbirlər görüləcək. Xüsusilə kənd təsərrüfatının inkişafı ilə bağlı bizim böyük planlarımız var. Bizim kənd təsərrüfatı ilə bağlı son təşəbbüslərimiz üzrə Tərtərdə görülən işlər buradakı təqdimatda əksini tapıb.

Baramaçılıq, pambıqçılıq inkişaf edir. Gələn il 3 min hektarda pambıq əkiləcək, minlərlə insan bu işlərə cəlb olunacaq. Baramaçılığın da həm dövlətə, həm də insanlara çox böyük xeyri var. Yəni, qısa müddətdə - 30-40 gün ərzində insanlar yaxşı pul qazanırlar. Xüsusilə nəzərə alınmalıdır ki, dövlət bu sahəyə öz dəstəyini əsirgəmir. İndi xaricdən tinglər gətirilir, təsərrüfatlara verilir.

Kənd təsərrüfatının daha sürətlə inkişaf etdirilməsi üçün digər tədbirlər də görülür. Siz yaxşı bilirsiniz ki, subsidiyalar, yanacağa, gübrəyə dotasiyalar, güzəştli şərtlərlə texnika verilir. Bütün bunları dövlət öz üzərinə götürüb ki, insanlara daha da yaxşı şərait yaratsın. Fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azaddırlar. Hesab edirəm ki, Azərbaycan bu istiqamətdə də dünya miqyasında nümunəvi ölkədir. Çünki mən öz fermerlərinə bu qədər diqqət göstərən ikinci ölkə tanımıram və bunun nəticəsində, - baxmayaraq ki, indi dünyada və bizim bölgəmizdə böhran yaşanır, - Azərbaycanda kənd təsərrüfatı inkişaf edir. Bu il də artım var, gələn ildə də artım olacaq. Bir sözlə, qarşıdakı mərhələdə sahibkarlığın inkişafı, investisiyaların cəlb edilməsi ilə bağlı növbəti addımlar atılacaq.

Tərtər rayonunda işlər düzgün qurulub. Mən rayonda dəfələrlə olmuşam. Xüsusilə son vaxtlar burada gedən quruculuq-abadlıq işləri məni çox sevindirir. Əminəm ki, sizi də sevindirir. Keçən dəfə biz may ayında görüşmüşdük. O vaxt mən dağılmış evlərə baş çəkdim və bir daha əmin oldum ki, Tərtər sakinləri qəhrəmandırlar. Onlar burada - döyüş bölgəsində, düşmənlə üz-üzə möhkəm dayanıblar və atılan, evlərinə dəyən mərmilər onların iradəsinə zərrə qədər təsir etməmişdir.

Aprel döyüşləri ümumiyyətlə bizim şanlı tariximizdir. Azərbaycan Ordusu da, Azərbaycan vətəndaşı da qəhrəmanlıq göstərmişdir. Ordumuz düşmənin hücumuna cavab olaraq hərbi qələbə qazanmışdır. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı keçirərək həm bu istiqamətdə, həm keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində - indiki Ağdərə rayonunda, eyni zamanda, Cəbrayıl, Füzuli istiqamətlərində böyük ərazini işğalçılardan azad etmişdir. Ermənilərin uzun illər öz ordusu haqqında yaydıqları mif darmadağın edildi. Azərbaycan əsgəri, zabiti göstərdi ki, kim nəyə qadirdir. Ermənilər əlverişli mövqelərini tərk edərək, qorxudan qaçıb gizlənmişdilər. Onların kəndlərində yaşayan insanların sayı getdikcə azalır. Ancaq Tərtərdə, Ağdamda bir nəfər belə yerindən tərpənmədi. Bu, böyük qəhrəmanlıqdır. Bu, bir daha xalqımızın ucalığını göstərir. Xüsusilə Tərtər sakinlərinin belə davranışı, hərəkəti, hər bir vətəndaş üçün nümunə olmalıdır. İndi siz burada, düşmənlə üz-üzə, ön cəbhədə nəinki yaşayırsınız, yaradırsınız, qurursunuz və əminsiniz ki, Azərbaycan dövləti və Azərbaycan Ordusu sizin təhlükəsizliyinizi təmin edir.

Bir daha demək istəyirəm ki, aprel döyüşləri tarixi hadisədir. Azərbaycan bu döyüşlərdə nəinki öz gücünü göstərdi, düşmənə və dünyaya bir daha sübut etdi ki, biz indiki vəziyyətlə heç vaxt barışmayacağıq. Dağlıq Qarabağ bizim tarixi torpağımızdır. Şuşa da, Xankəndi də, hələ ki, işğal altında qalan digər bütün torpaqlar da. Bizim tarixi coğrafiyamız çox geniş olub. Tarixçilər son vaxtlar bu barədə yaxşı elmi əsərlər, kitablar yazırlar. Onu da qeyd etməliyəm ki, bu məsələlər mənim tövsiyəmlə öz həllini tapır. Misal üçün, İrəvan xanlığı haqqında çox böyük elmi əsər yaradılmışdır. Bu əsər bir neçə dilə tərcümə edilmişdir ki, həm Azərbaycan vətəndaşları bunu bir daha bilsinlər və dünya da bilsin ki, İrəvan bizim tarixi torpağımızdır. XIX əsrin əvvəllərində İrəvanın əhalisinin 70 faizi azərbaycanlılar idi. Göyçə, Zəngəzur bizim tarixi torpaqlarımızdır.

Bunu artıq XX əsrin tarixi də göstərir. Azərbaycan Xalq Cümhuriyyətinin demək olar ki, birinci qərarı, - əfsuslar olsun ki, belə bir qərar verildi, - ondan ibarət idi ki, İrəvanı Ermənistana hədiyyə edək. Bu, çox böyük səhv, böyük cinayət idi. Bilirsiniz, Xalq Cümhuriyyətinin mövcudluğu bizim qürur mənbəyimizdir. Müsəlman aləmində ilk dəfə demokratik respublika yaranmışdır və yaxşı da işlər görülmüşdür. Amma biz gərək tarixi olduğu kimi bilək və insanlar da bilsinlər. İrəvanı Ermənistana vermək tarixi cinayət idi. Çünki öz doğma torpağını verdilər.

Bu gün bizim indiki Ermənistan Respublikasının torpağında gözümüz yoxdur. Biz nə İrəvanı, nə Mehrini, nə Gorusu hərbi yolla qaytarmaq fikrində deyilik. Amma mən əminəm ki, vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq. Biz bunu ardıcıl siyasətlə, sülh yolu ilə edəcəyik. Bütün obyektiv səbəblər onu göstərir ki, o gün gələcək. Sadəcə olaraq bizim hər birimiz o günü yaxınlaşdırmalıyıq. Necə yaxınlaşdırmalıyıq? Daha da güclü olmalıyıq. Bu gün dünyada artıq beynəlxalq hüquq anlayışı demək olar ki, iflasa uğrayıb. İndi güc əsas amildir. Bu, belədir. Biz də real dünyada yaşayırıq. Ona görə daha da güclü olmalıyıq, daha güclü ordu qurmalıyıq. İqtisadiyyat daha da güclü olmalıdır, inkişaf daha da sürətlə getməlidir. Baxın, hətta böhranlı illərdə ölkə əhalisinin sayı getdikcə artır və artacaq. İndi bir-iki ilə Azərbaycan əhalisi on milyona çatacaq. Bu meyil davam edir. İndi əhali nə qədər çox artırsa, sonrakı illərdə də artım daha yüksək olacaq.

Ermənistanda isə əhali azalır. Bu, həm təbii səbəblər, həm miqrasiya, həm də ümidsizlik, çarəsizlik, özbaşınalıq üzündən baş verir. Ermənistanın indiki faşist rejimi faktiki olaraq ölkədə dözülməz şərait yaradıb. Ona görə də orada əhali daha da azalacaq, çıxıb gedəcək, necə ki, indi çıxıb gedir. Biz torpaqlarımıza qayıdacağıq. Qayıtmaq üçün düşünülmüş strategiya, konsepsiya olmalıdır. Bu, var. Strateji xəttimiz müəyyən olunub və biz hər il taktiki addımları atacağıq. Birincisi, bu, tarixi məsələdir. İkincisi isə bu, ədalətli məsələdir. Biz ədalətin tərəfdarıyıq və ərazi bütövlüyümüzü bərpa etməliyik. Heç vaxt imkan verə bilmərik ki, torpağımızda ikinci erməni dövləti yaradılsın. Əksinə çalışmalıyıq və çalışacağıq ki, ölkəmizin gücünü artıraq, möhkəmləndirək və istəyimizə nail olaq.

Cəmiyyətdə bu məsələ ilə və bütün başqa məsələlərlə bağlı birlik, həmrəylik var. Bizim uğurlu inkişafımız reallıqdır. Hətta böhranlı illərdə də bu inkişafa nail oluruq. Bizim inkişafımız bölgələrin inkişafından asılıdır. Biz bu inkişafı Tərtər rayonunun timsalında görürük. Bu gözəl nəticələr münasibətilə sizi təbrik edirəm və sizə yeni uğurlar arzulayıram. Sağ olun.

* * * *

Ən çətin anlarda tərtərlilərlə birgə olduqlarına görə dövlətimizin başçısına və xanımına minnətdarlıq edən rayon sakini Gülarə ƏKBƏROVA dedi:

-Möhtərəm cənab Prezident.

Hörmətli Mehriban xanım.

Tərtərə xoş gəlmisiniz. Su həyatdır, su sağlamlıqdır. Biz tərtərlilər bu günü çoxdan gözləyirdik. Siz bu layihəni təsdiq etməklə, həyata keçirməklə Tərtərə fasiləsiz içməli su, sağlam həyat bəxş etdiniz.

Möhtərəm cənab Prezident, Sizinlə bərabər, fədakarcasına çalışan xanımınızla may ayında Tərtərdə, cəbhə xəttinin 200 metrliyində yerləşən Qapanlı kəndində oldunuz. Siz həyatınızı, xanımınızın həyatını riskə ataraq orada yaşayan insanlarla görüşdünüz, onlara ürək-dirək verdiniz, yeni həyat bəxş etdiniz. Siz bu gün də Tərtərdəsiniz, şəhərə suyun verilməsi mərasimində iştirak edirsiniz. Su həyatdır.

Cənab Prezident, mən bu münasibətlə bütün tərtərlilər adından Sizə təşəkkürümü, minnətdarlığımı bildirirəm. Onu demək istəyirəm ki, Tərtər cəbhə bölgəsi olmasına baxmayaraq, biz heç nədən qorxmuruq. Biz həmişə, hətta aprel döyüşlərində də öz ev-eşiyimizdə olduq, evlərimizi tərk etmədik. İnsanlar heç yerə getmirdilər. Tərtərdə həyat qaynayırdı, abadlıq-quruculuq işləri davam edirdi. Bütün bunlarla Tərtər camaatı öz Vətənini, torpaqlarını necə sevdiklərini, dövlətə sədaqətlərini nümayiş etdirdilər. Biz bilirdik ki, arxamızda Sizin kimi Prezidentimiz, güclü Ordumuz var.

Cənab Prezident, baxmayaraq ki, biz cəbhə bölgəsində yaşayırıq, çox rahat yaşayırıq, güzəranımız yaxşıdır. Bütün bunları bizə Siz bəxş etmisiniz. Sizə təşəkkürümüzü, dərin minnətdarlığımızı bildiririk.

Ataların gözəl bir misalı var: deyərlər ki, ömrünüz su qədər uzun olsun. Həyatınız, yolunuz, işiniz, bax, bu su kimi aydın olsun, cənab Prezident. Allah Sizləri qorusun. Xoş gəlmisiniz.

* * * *

Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət nəticəsində Azərbaycanın bütün regionları kimi, Tərtərin də bugünkü hərtərəfli inkişafından danışan təqaüdçü Rauf HƏSƏNZADƏ dedi:

-Möhtərəm cənab Prezident.

Mən də Sizi salamlayıram. Tərtərə xoş gəlmisiniz.

Cənab Prezident, mənim bir fikrim var, onu demək istəyirəm. 1970-ci illərdə ulu öndərimiz Heydər Əliyevin səyi ilə Tərtərdə elektromexanika zavodu yaradıldı. Mən o zaman həmin zavoda direktor təyin olunmuşdum. Ulu Öndər həmin zavodu burada yaradanda irəlini çox gözəl görürdü ki, gələcəkdə o zavod bizə çox lazım olacaq. Çünki 1990-cı illərin əvvəllərində qonşularımız Azərbaycan torpaqlarına hücum edəndə biz həmin zavodda silah və sursat istehsalına başladıq. Həmin silah-sursatı biz döyüşən bütün bölgələrə göndərirdik.

Sizin bilavasitə rəhbərliyinizlə yaradılan qüdrətli və rəşadətli Azərbaycan Ordusu aprel döyüşlərində qısa müddət ərzində erməni qoşunlarını darmadağın etdi. Onların yüzlərlə canlı qüvvəsini və texnikasını sıradan çıxardı. Bizim ürəyimizdə olan sözləri Siz deyirsiniz, cənab Prezident. Biz öz torpağımızdayıq, biz Azərbaycandayıq. Lələtəpə də Azərbaycandır, Şuşa da Azərbaycandır, Xankəndi də Azərbaycandır. Bunu inkar etmək qeyri-mümkündür. Biz tərtərlilər inanırıq ki, Siz torpaqlarımızı işğaldan azad edəcəksiniz, cənab Prezident. Sizi əmin edirik ki, bütün Azərbaycan xalqı kimi, tərtərlilər də Sizinlədir. Çox sağ olun, cənab Prezident. Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Sağ olun.

* * * *

Azərbaycan Prezidenti Tərtər şəhərinə suyun rəmzi olaraq verilməsini bildirən düyməni basdı.

Sonda xatirə şəkli çəkdirildi.

**Xalq qəzeti.-2016.- 4 dekabr.-№ 269.- S.1-2.**

## ORDUBAD SU-ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ

*(11 yanvar 2017-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda su-elektrik stansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısına məlumat verildi ki, inşa ediləcək su-elektrik stansiyasının gücü 36 meqavat olacaq. Derivasiya tipli stansiya Araz çayı üzərində yerləşəcək. Stansiya üçün tutumu 1,5 milyon kubmetr olan su anbarı inşa olunacaq. Hidroqovşağın əsas qurğularının tərkibinə elektrik stansiyası, tənzimləyici bənd, suqəbuledici qurğu, çökəltmə hovuzu, derivasiya kanalı, yükləmə hovuzu daxildir. Bundan başqa, burada metal boru xətti, aparıcı kanal, sutullayıcı və balıqaxıdan qurğular da yaradılacaq. Stansiyada hər birinin gücü 12 meqavat olan 3 aqreqat quraşdırılacaq. Tənzimləyici dəmir-beton bəndin uzunluğu 235, hündürlüyü 12 metrdir. Derivasiya tipli kanalın uzunluğu 12738 metr olmaqla, maksimum su sərfi saniyədə 126,6 kubmetr təşkil edəcək.

Dövlətimizin başçısı yeni stansiyanın təməlini qoydu.

Belə stansiyaların istifadəyə verilməsi Azərbaycanda, o cümlədən Naxçıvanda həyata keçirilən sosial-iqtisadi siyasətin uğurla davam etdiyini bir daha nümayiş etdirir. Belə layihələrin icrası həm də respublikada dövlət başçımızın tapşırığı ilə alternativ və bərpaolunan enerjidən istifadənin geniş tətbiqi üçün hərtərəfli imkanlar açır.

Sonda xatirə şəkli çəkdirildi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 78-ci kitab: dekabr 2016 - mart 2017. - Bakı: Azərnəşr, 2019, S. 62.**

## CULFA RAYONUNUN MƏRKƏZİ VƏ ƏTRAF KƏNDLƏRİNDƏ IÇMƏLİ SUYUN VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*(11 yanvar 2017-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun mərkəzi və ətraf kəndlərində içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısına «Culfa rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi üzrə görülən işlərlə bağlı məlumat verildi. Bildirildi ki, tikinti işlərinin icrasına 2012-ci ildə başlanılıb. Layihəyə əsasən Culfa şəhərində və Gülüstan kəndində su şəbəkəsi, Culfa şəhərində eləcə də kanalizasiya şəbəkəsinin tikintisi aparılıb, evlərə qoşulub, sayğaclar quraşdırılıb.

Layihə çərçivəsində Əlincəçay yatağında 2088 metr müxtəlif diametrli borularla kaptaj və onu sel sularından qorumaq üçün uzunluğu 1500 metr olan selyönəldici bənd tikilib. Sutəmizləyici qurğu 2045-ci ilə qədər əhalini və sənaye sahəsini gün ərzində 24 saat ekoloji cəhətdən təmiz su ilə təchiz edəcək. Qurğu gün ərzində 10800 kubmetr və ya saniyədə 125 litr sutəmizləmə gücünə malikdir.

Hər birinin tutumu 5000 kubmetr olan 2 təmiz su anbarı tikilib.

Sutəmizləyici qurğuda istifadə olunan nasoslar İtaliya, mexaniki süzgəc və ozonlaşdırma qurğusu İsveç, kartric süzgəclər Türkiyə, membranlar isə Amerika istehsalıdır.

Su anbarlarından təmizlənmiş su öz axını ilə Culfa şəhərinin və Gülüstan kəndinin əhalisinə fasiləsiz olaraq verilir. Anbarlardan Culfa şəhərinə qədər çəkilmiş boru xətti daxil olmaqla, layihə ərazisində diametri 400 millimetrdən 63 millimetrə qədər borularla 59,7 kilometr daxili su şəbəkəsi çəkilib, 3438 evə su verilərək, sayğac quraşdırılıb. Su şəbəkəsi üzərində 1 təzyiq azaldıcı, 23 yanğın hidrantı tikilib. Yerin relyefindən asılı olaraq, mənzillərə 2–5 bar arasında təzyiqlə su verilir.

Culfa şəhərində diametri 500 millimetrdən 200 millimetrə qədər borularla 34,5 kilometr daxili kanalizasiya şəbəkəsi çəkilib.

Bununla da Culfa şəhəri və Gülüstan kəndində 25700 nəfər təmiz, dayanıqlı, ekoloji cəhətdən tam yararlı və Ümumdünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə davamlı olaraq, sutkada 24 saat təmin edilib.

Prezident İlham Əliyev sutəmizləyici qurğuda istifadə edilən avadanlığa baxdı.

Sonra dövlətimizin başçısı Culfa rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı sisteminin istifadəyə verilməsini bildirən düyməni basdı.

Sonda xatirə şəkli çəkdirildi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 78-ci kitab: dekabr 2016 - mart 2017. - Bakı: Azərnəşr, 2019, S. 63-64.**

## ŞAHBUZ RAYONUNUN MƏRKƏZİ VƏ ƏTRAF KƏNDLƏRİNDƏ İÇMƏLİ SUYUN VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*(11 yanvar 2017-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 11-də Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun mərkəzi və ətraf kəndlərində içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısına «Şahbuz rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi barədə məlumat verildi.

Bildirildi ki, layihə üzrə tikinti işlərinin icrasına 2012-ci ildə başlanılıb. Layihəyə əsasən Şahbuz şəhərinə, Kiçikoba və Daylaqlı kəndlərinə su şəbəkəsi, Şahbuz şəhərinə kanalizasiya şəbəkəsi çəkilib və evlərə qoşulub. Sutəmizləyici qurğu 2045-ci ilə qədər əhalini və sənaye sahəsini gün ərzində 24 saat ekoloji cəhətdən təmiz su ilə təchiz edəcək. Qurğu gün ərzində 6600 kubmetr və ya saniyədə 76 litr sutəmizləmə gücünə malikdir. Hər birinin tutumu 2500 kubmetr olan 2 təmiz su anbarı inşa olunub. Sutəmizləyici qurğuda istifadə olunan nasoslar İtaliya, mexaniki süzgəc və ozonlaşdırma qurğusu İsveç, kartric süzgəclər isə Türkiyə istehsalıdır.

Prezident İlham Əliyev sutəmizləyici qurğuda istifadə edilən avadanlığa baxdı.

Su anbarlarından təmizlənmiş su öz axını ilə əhaliyə fasiləsiz olaraq verilir. Anbarlardan Şahbuz şəhərinə qədər diametri 315 və 280 millimetr olan 2,7 kilometr uzunluğunda plastik boru xətti quraşdırılıb. Layihə ərazisində diametri 280 millimetrdən 63 millimetrədək borularla 64,3 kilometr içməli su xətti çəkilib. Su şəbəkəsində 31 yanğın hidrantı və 4 təzyiq azaldıcı inşa olunub. Yerin relyefindən asılı olaraq, mənzillərə 2–5 bar arasında təzyiqlə su verilir. Layihənin həyata keçirilməsi nəticəsində Şahbuz şəhəri, Kiçikoba və Daylaqlı kəndlərində 15300 nəfər sutkada 24 saat daimi su ilə təmin ediləcək. Bundan başqa, əhaliyə verilən su ekoloji cəhətdən də yararlı və təmizdir. Bu su Ümumdünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verir.

Bildirildi ki, Şahbuz şəhərində diametri 400 millimetrdən 200 millimetrə qədər borularla 40,1 kilometr kanalizasiya xətti çəkilib.

Dövlətimizin başçısı Şahbuz rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı sisteminin istifadəyə verilməsini bildirən düyməni basdı.

Sonda xatirə şəkli çəkdirildi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 78-ci kitab: dekabr 2016 - mart 2017. - Bakı: Azərnəşr, 2019, S. 65-66.**

## VARVARA SU-ELEKTRİK STANSİYASININ YENİDƏN QURULMASINDAN SONRA AÇILIŞI MƏRASİMİ

*(16 aprel 2017-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Varvara Su-Elektrik Stansiyasının yenidən qurulmasından sonra açılışında iştirak etmişdir.

Dövlətimizin başçısının rəhbərliyi ilə son illərdə elektroenergetika sahəsində mühüm işlər görülüb. Bu işlərin nəticəsində ölkə iqtisadiyyatının bütün sahələri kimi, elektroenergetika sistemində də köklü dəyişikliklər aparılır, əsaslı islahatlar həyata keçirilir. Bu istiqamətdə görülən işlərin sırasında yeni su-elektrik stansiyalarının inşasına, mövcud olanların isə əsaslı şəkildə yenidən qurulmasına xüsusi diqqət yetirilir. Yevlaxda Varvara Su-Elektrik Stansiyasının yenidən qurulması da bu qəbildən olan tədbirlərdəndir. Bu layihələrin icrası həm bölgələrin enerji təminatının gücləndirilməsində mühüm rol oynayır, həm də regionların inkişafına və əlavə iş yerlərinin açılmasına zəmin yaradır.

Qoyuluş gücü 16,5 MVt olan Varvara Su-Elektrik Stansiyası 1954–1957-ci illərdə inşa olunub. Ümumilikdə 3 hidroaqreqatdan ibarət olan bu stansiyanın 1-ci hidroaqreqatı 1956-cı ildə, digər 2 hidroaqreqatı isə 1957-ci ildə istismara verilib. Həmin vaxtdan ötən 60 ildə stansiyanın avadanlıqları fiziki cəhətdən köhnəlib, gücü nəzərəçarpacaq dərəcədə aşağı düşüb. 1990-cı ildən sonra isə stansiya cəmi 2-3 MVt güclə işləyib. Buna görə də 2010-cu ildən başlayaraq, Mingəçevir Su-Elektrik stansiyaları silsiləsinin yenidən qu-rulması layihəsi çərçivəsində Varvara Su-Elektrik Stansiyasında da yenidən qurulma işləri həyata keçirilib və uğurla başa çatdırılıb.

«Azərenerji» Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına Varvara Su-Elektrik Stansiyasında görülən yenidən qurulma işləri barədə məlumat verdi. Bildirildi ki, yenidən qurulma işləri çərçivəsində stansiyanın bütün hidrogeneratorları və hidroturbinləri yeniləri ilə əvəzlənib. Bunun nəticəsində isə stansiyanın gücü artaraq, 18 MVt-a çatıb. Stansiyanın binası müasir tələblər nəzərə alınmaqla, yenidən qurulub. Bundan başqa, 35 kilovoltluq qapalı paylayıcı qurğu və müvafiq ötürücü şəbəkə tam yenilənib, idarəetmə və tənzimləmə sistemi texnologiyanın son nailiyyətlərindən istifadə edilməklə müasirləşdirilib, bütün köməkçi avadanlıqlar təzələnib. Yenidən qurulma zamanı sunəqledici kanalın sağ və sol sahillərində bərkitmə işləri görülüb, güc və xüsusi sərfiyyat transformatorları daha güclüləri və yeniləri ilə əvəz edilib.

Prezident İlham Əliyev Varvara Su-Elektrik Stansiyasını işə saldı.

Diqqətə çatdırıldı ki, Varvara Su-Elektrik Stansiyası Mingəçevir SES-in su sərfiyyatını tənzimləməklə yanaşı, ildə orta hesabla 100 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal etməyə imkan verəcək.

Avadanlıqların təchizatı, eləcə də tikinti-quraşdırma işləri «Azərenerji» ASC-nin sifarişi ilə yerli «Azenco» şirkəti tərəfindən həyata keçirilib. İşlərin keyfiyyətlə və vaxtında icra edilməsi üçün bütün qüvvələr səfərbər olunub. Yenidən qurulma işlərinə 150 nəfərdən çox yerli mütəxəssis cəlb edilib. Stansiyanın ərazisində geniş abadlıq-quruculuq işləri aparılıb, müasir işıqlandırma sistemi yaradılıb, ətraf mühitin mühafizəsi gücləndirilib və yeni yaşıllıq zolağı salınıb.

Qeyd edək ki, Varvara Su-Elektrik Stansiyasının yenidən qurulması ilə yanaşı, son vaxtlar 12 su-elektrik stansiyası işə salınıb. Bu il daha bir neçə su-elektrik stansiyasının istifadəyə verilməsi nəzərdə tutulur. Bundan başqa, 2017-ci ildə Mingə-çevir Su-Elektrik Stansiyasının yenidən qurulmasının başa çatdırılması da planlaşdırılır.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**79-cu kitab: mart 2017 - may 2017. - Bakı: Azərnəşr, 2019, S. 262-264.**

# VARVARA BALIQARTIRMA MÜƏSSİSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*(16 aprel 2017-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 16-da Varvara balıqartırma müəssisəsinin açılışında iştirak etmişdir.

Bu gün ölkəmizdə qeyri-neft sektorunun şaxələndirilməsi və bir çox sahələri əhatə etməsi müşahidə olunur. Bu sırada Azərbaycanda balıqçılıq sənayesinin inkişaf etdirilməsi də xüsusi əhəmiyyətə malikdir. Ölkəmizdə qədim ənənələri olan balıqçılıq sənayesində yeni texnologiyaların tətbiq olunması, dünya standartlarına cavab verən ixrac məhsullarının hazırlanması indi qarşıda duran prioritet məsələlərdən biridir. Digər tərəfdən, bu sənaye sahələrinin regionlarda inkişaf etdirilməsi ilə bağlı qarşıya qoyulan məqsədlərin reallaşdırılması bölgələrdə başlanan inkişaf proseslərinin daha güclü xarakter almasına imkan verir. Belə müəssisələrdən biri də Varvara balıqartırma müəssisəsidir. İstehsal gücünə, perspektiv inkişaf imkanlarına görə nəinki MDB məkanında, eləcə də Avropa ölkələrində analoqu olmayan müəssisə 3 sahədən – Mingəçevir Su Anbarındakı müxtəlif tutumlu 87 balıqsaxlama və böyütmə qəfəsindən, müxtəlif tutumlu 91 hovuzdan ibarət inkubasiya sahəsi və ümumi sahəsi 60 hektara yaxın olan Varvara balıqartırma və yetişdirmə sahəsindən ibarətdir. Müəssisənin Mingəçevir Su Anbarındakı qəfəslərində 20 min ədədə yaxın nərə növündən olan balıq bəslənilir. Bu balıq növləri müəssisənin inkubasiya sahəsində yetişdirilərək, müəyyən mərhələyə çatdıqdan sonra xüsusi şəraitdə qəfəslərə köçürülür. Gün ərzində xüsusi rejimdə və təbii yemlərlə bəslənən balıqlar bəlli çəkiyə çatandan sonra Varvara balıqartırma və yetişdirmə sahəsinə köçürülür. Qəfəslərə müəssisənin ayrıca təlim görmüş 24 əməkdaşı qulluq edir. Ümumi sahəsi 9066 kvadratmetr olan qəfəslərin istehsal gücü 317 ton 312 kiloqramdır. 91 vannadan ibarət olan və  474 kvadratmetr sahəni əhatə edən inkubasiya sexində müxtəlif növ balıq kürülərindən inkubasiya yolu ilə körpə balıqlar alınır. Körpə balıqlar nəzərdə tutulan çəkini alana qədər burada yemlənir. Sonra isə növbəti mərhələyə start verilir. İnkubasiya sexinin ümumi istehsal gücü 2,5 tondur. Bu ərazidə eyni zamanda, ümumi tutumu 150 ton olan 5 soyuducu anbar, o cümlədən şoklama soyuducusu inşa olunub. Bununla belə, bu sahədə regionun ən böyük hisləmə sexi və yem anbarı yerləşir. Müəssisənin əsas hədəfi istehsal etdiyi kürü və balıq məhsullarını «Made in Azerbaijan» brendi altında çoxsaylı xarici ölkələrə ixrac etməkdir. Gələcək illərdə müəssisədə istehsal imkanlarının genişləndirilməsi hesabına əlavə 1500 yeni iş yerinin açılması nəzərdə tutulub.

Varvara balıqartırma müəssisəsinin direktoru Məhəmməd Allahverdiyev dövlətimizin başçısına burada görülən işlər barədə məlumat verdi. Bildirildi ki, müəssisənin yaradılmasına 2008-ci ildən başlanılıb. Müəssisənin ümumi sahəsi 750 min kvadratmetr, su sahəsi isə 85 min kvadratmetrdir. Burada nərə cinsli balıqlar üçün 17, axçalı balıqlar üçün isə 11 nohur yaradılıb. Müəssisədə ilkin mərhələdə ildə 15 min kiloqram qara kürü, 112 min kiloqram axçalı balıqlar, yəni sazan, ağamur, enlialın, 200 min kiloqram nərə cinsli balıqlar, 28 milyon nərə cinsli balıq körpəsi istehsal ediləcək. 2020–2023-cü illərdə nərə cinsli balıq körpələrinin sayını 50 milyona çatdırmaqla, qara kürü və balıq əti istehsalının artırılması nəzərdə tutulub.

Prezident İlham Əliyev müəssisənin fəaliyyətini və inkişaf istiqamətini əks etdirən stendlərə baxdı.

Dövlətimizin başçısına müəssisənin inkişaf planı, ərazidəki tikililər və Mingəçevir su hövzəsinin balıqartırma sahəsi barədə məlumat verildi. Bildirildi ki, Mingəçevir su hövzəsinin balıqartırma sahəsində tor yumaq üçün üzən qurğu və üzən qaldırıcı kran vardır.

Mingəçevir Balıq zavodunda isə inkubasiya sexi, beton hovuzlar, soyuducu və yem anbarları, helikopter meydançası, yeməkxana, ofis binası, qazanxana inşa olunub. Məlumat verildi ki, Varvara balıqartırma müəssisəsində istehsal ediləcək nərə cinsli körpələrin bir qismi müəssisədə saxlanılacaq, bir qismi isə IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə Kür çayına buraxılaraq, Xəzər dənizinin bioresurslarının bərpasına yönəldiləcək. Hazırda müəssisədə müxtəlif yaşda və çəkidə 93665 ədəd, o cümlədən 1762 ədəd kələmo, 4964 ədəd hibrid, 16689 ədəd nərə, 15524 ədəd uzunburun və 54726 ədəd bölgə balıqları vardır.

Müəssisədə quraşdırılan xüsusi ultrasəs müayinəsi aparatı ilə balıqlarda kürünün hansı səviyyədə olması yoxlanılır. Bu isə kürüalmada daha səmərəli üsullardan hesab olunur. Balıqlar tam təbii yemlərlə qidalanır. Nərə cinsli balıqların körpələri Rusiyanın Həştərxan vilayətindən gətirilib, Xıllı Nərə Balıqartırma zavodundan alınıb, bəziləri isə müəssisədə inkubasiya edilib.

Müəssisənin kürü emalı sahəsində olan dövlətimizin başçısına məlumat verildi ki, bu sahə müasir tələblər səviyyəsində qurulub.

Prezident İlham Əliyevə kürünün konservləşdirilməsi prosesi nümayiş etdirildi.

Körpə balıqların yemlənməsi üçün müəssisədə təbii yem və qara kürü sahələri yaradılıb, soyuducular, ehtiyat elektrik generatorları, transformator və videomüşahidə sistemi qurulub, optik internet xətti çəkilib və 29 nəqliyyat vasitəsi alınıb. Burada müasir laboratoriyalar və hər saatdan bir suyun temperaturunu, tərkibini və oksigenini ölçmək üçün cihazlar qurulub.

Bildirildi ki, istehsal edilən məhsulların bir hissəsinin yerli bazarlara çıxarılması, bir hissəsinin isə ixrac edilməsi nəzərdə tutulur. Hazırda müəssisədə 247 nəfər daimi iş yeri ilə təmin olunub. Burada orta əməkhaqqı 500 manatdır.

Onu da qeyd edək ki, Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Elmi-Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutu ilə birgə balıqşünas, ixtioloq, ixtiopatoloq, bioloq ixtisasları üzrə mütəxəssislərin hazırlanması istiqamətində tədbirlər həyata keçirilir.

Müəssisənin ərazisində helikopter meydançası, anbarlar və digər zəruri tikililər inşa edilib. Müəssisənin ofis binası da müasirliyi ilə diqqət çəkir. Burada inzibati otaqlar, iclas və konfrans zalları işçilərin ixtiyarına veriləcək. Ofis binasında xüsusi qonaqlar üçün istirahət otaqları, yeməkxana və digər otaqlar yaradılıb.

Müəssisə ilə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**79-cu kitab: mart 2017 - may 2017. - Bakı: Azərnəşr, 2019, S. 264-267.**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜNƏ HƏSR OLUNMUŞ AĞAC ƏKMƏ KAMPANİYASINDA İŞTİRAK

*(10 may 2017-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Qala–Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağac əkmə kampaniyasında iştirak etmişlər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə Azərbaycanda ekoloji vəziyyətin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərlə bağlı məlumatları əks etdirən stendlərlə tanış oldular. Ekologiya və Təbii Sərvətlər naziri Hüseyn Bağırov prezident İlham Əliyevə 2008–2017-ci illərdə salınmış yaşıllıqlar barədə məlumat verdi. Bildirildi ki, dövlət başçımızın tapşırıqlarına və tövsiyələrinə uyğun olaraq, bu illərdə ölkədə ümumilikdə 5 milyon 200 minə yaxın ağac əkilib. Həmin ağacların əkildiyi sahələr damcılı suvarma sistemi ilə təchiz edilib. Əsasən zeytun, badam, nar, innab, püstə, qoz və fındıq ağaclarının əkilməsinə daha çox üstünlük verilib. Təkcə bu ilin ötən dövründə ölkədə aqrobağların yaradılması məqsədilə 1 milyondan çox aqrar əhəmiyyətli ağaclar əkilib.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkdi-lər.

Mayın 10-da Qala–Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq massivində 9000-ə yaxın aqrar əhəmiyyətli və digər növ ağac əkildi.

Dövlətimizin başçısı və xanımı ağac əkmə kampaniyasının iştirakçıları ilə xatirə şəkli çəkdirdilər.

Bütün bunlar bir daha təsdiqləyir ki, ümummilli lider Heydər Əliyevin ölkəmizdə ekologiyanın qorunması ilə bağlı əsasını qoyduğu ənənə bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təsadüfi deyil ki, ölkəmizdə reallaşdırılan milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri də ətraf mühitin mühafizəsini və insanların sağlam təbii mühitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Bunun bariz nümunəsi prezident İlham Əliyevin 2010-cu ili ölkədə «Ekologiya ili» elan etməsi oldu. Dövlətimizin başçısı neftlə və digər istehsalat tullantıları ilə çirklənmiş torpaqların, lay suları altında qalan ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşır. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı əməli işlər görülüb, ölkədə milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıbdır. Bir vaxtlar neft tullantıları ilə çirklənmiş indiki «Ağ şəhər» və digər ərazilərdə görülən işlərin nəticəsində neft çöküntüləri təmizlənib. Bu ərazilər paytaxtın müasir yaşayış və mədəniyyət komplekslərinə, prezident İlham Əliyevin qeyd etdiyi kimi, müasir ekoloji layihələrə çevrilibdir. Bütün bunlar ətraf mühitin qorunmasına, xüsusilə də vətəndaşların sağlam mühitdə yaşamasına xidmət edir. Ekoloji vəziyyətin yaxşılaşdırılması üçün tədbirlərin görülməsinin, həmçinin qanunsuz ağac kəsilməsinə qarşı dövlət başçımızın nümayiş etdirdiyi qətiyyətli mövqenin təməlində isə yalnız bir amal dayanıb – insanların sağlamlığının qorunması.

Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yaşıllıqların artırılmasına, mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Fondun vitse-prezidenti, «İDEA» İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu vardır.

Müxtəlif vaxtlarda həyata keçirilən ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə edir. Bu gün vətəndaşların ağac əkmə aksiyalarında, yaşıllıqlar salınmasında, şəhər və rayonlarımızda təmizlik işlərində fəal iştirakı bunun əyani göstəricisidir. Ekspertlərin

fikrincə, Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunə ola bilər.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 80-ci kitab: may 2017 - iyun 2017. - Bakı: Azərnəşr, 2019, S. 55-56.**

## YASAMAL RAYONUNDA YENİ SALINMIŞ PARKLA TANIŞLIQ
*(15 iyul 2017-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 15-də paytaxtın Yasamal rayonunun Mətbuat prospektində yeni salınmış parkla tanış olmuşdur.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov parkda görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, antisanitariya mənbəyinə çevrilən ərazi tam təmizlənərək, müasir layihə əsasında yüksək səviyyədə abadlaşdırılıb. Burada çoxillik ağaclar əkilib, yaşıllıqlar salınıb. Parkda müasir standartlara uyğun işıqlandırma sistemi quraşdırılıb. Ətrafdakı yaşayış binaları ilə əlaqə qurulması, eləcə də insanların buraya rahat gediş-gəlişini təmin etmək üçün parkın yuxarı hissəsində yeni pilləkənlər tikilib və əlil arabaları üçün xüsusi yol salınıb. Əhalinin mədəni istirahətini təmin etmək məqsədilə çoxlu sayda oturacaq və parkın ərazisinin bir hissəsində idman qurğuları quraşdırılıb. Bundan əlavə, avtonəqliyyat vasitəsilə istirahət parkına gələn əhalinin rahatlığı üçün yeni parklanma sahəsi yaradılıb. Beləliklə, yeni parkın salınması ərazinin simasını tamamilə dəyişib və paytaxt sakinlərinin istirahəti üçün müasir tələblərə cavab verən daha bir istirahət guşəsi yaradılıbdır.

Xatırladaq ki, bundan əvvəl parkın yerləşdiyi ərazidə «Böyük Plaza» yaşayış və ticarət mərkəzinin inşası aparılırdı. Lakin tikintini həyata keçirən şirkət qanunları pozaraq, ərazidəki 54 ağacı və yaşıllıqları tamamilə məhv etmişdi. Bu məsələyə prezident İlham Əliyev dərhal və kəskin reaksiya verdi. Dövlət başçımızın göstərişi ilə «Ovçular evi» ərazisində inşa olunan həmin binanın tikintisi dayandırıldı, məsələ nəzarətə götürülərək, araşdırılmağa başlandı. Əraziyə baxış keçirən Ekologiya və Təbii Sərvətlər Nazirliyi ağacların məhv edilməsi barədə akt tərtib edərək, tikintini həyata keçirən şirkəti 130 min manat məbləğində cərimələdi və fakt üzrə cinayət işi açıldı.

Prezident İlham Əliyev ağacların qanunsuz kəsilməsinin yolverilməz olduğunu dəfələrlə bildirib, belə hallara qarşı daim ciddi tədbirlərin görülməsini, buna yol verən şəxslərin məsuliyyətə cəlb edilməsini tapşırıb. Azərbaycanı yaşıl diyara çevirməyi, paytaxtda və bölgələrdə ekoloji tarazlığı qorumağı daim diqqətdə saxlayan dövlət başçımızın bu sahəyə göstərdiyi qayğının nəticəsidir ki, 2010-cu il ölkəmizdə «Ekologiya ili» elan edilmişdi. Bu sahədə vəziyyətin daim nəzarətdə saxlanması istiqamətində prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar, dövlət proqramları xüsusi rol oynayıb. Odur ki, Yasamal rayonunun «Ovçular evi» adlanan ərazisində yaşayış binasının tikintisi zamanı ağacların qanunsuz kəsilməsi və yaşıllıqların tamamilə məhv edilməsi faktına prezident İlham Əliyevin dərhal və kəskin reaksiyası bir daha təsdiqlədi ki, ətraf mühitin mühafizəsi və ekoloji durumun yaxşılaşdırılması hər zaman onun diqqətindədir. Dövlət başçımızın tapşırıqlarına əsasən ərazidə salınan yeni park bunu bir daha təsdiq edir.

Parkla tanışlıqdan sonra prezident İlham Əliyev Bakı Dövlət Universitetinin professor və müəllim heyəti üçün tikilən binanın və ətrafdakı evlərin sakinləri ilə görüşdü.

**İ l h a m  Ə l i y e v:** Bu gün şəhərimizdə yeni park açılır. Bu, gözəl hadisədir və burada yaşayan insanlar üçün gözəl hədiyyədir. Son illər ərzində Bakı şəhərində bir çox parklar, ictimai yerlər, istirahət guşələri yaradılıbdır. İndi Bakı parklar, bağlar şəhəridir. Həm şəhərin mərkəzində, həm də digər ərazilərdə yeni ictimai yerlər yaradılır.

Bu parkın da xüsusi tarixçəsi vardır. Bu ərazidə heç vaxt park olmamışdır. Burada bir çox hündürmərtəbəli binanın tikintisi nəzərdə tutulurdu. Əfsuslar olsun ki, bu işləri görən insanlar buradakı ağacları da kəsiblər. Mən bütün dövlət məmurlarına, özəl qurumlara dəfələrlə xəbərdarlıq etmişəm ki, ağaclar kəsilməməlidir, ağacları kəsmək olmaz. Ancaq

bir şərtlə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi rəy versin və əgər hansısa dövlət əhəmiyyətli bir layihə üçün ağaclar götürülməlidirsə, onların yeri dəyişdirilməli və yeni ağaclar əkilməlidir. Ona görə mən bu məsələdən xəbər tutan kimi, dərhal göstəriş verdim, şəhər icra hakimiyyətinin başçısını bura göndərdim və nəticədə belə bir gözəl ictimai yer yaradıldı. Yeni park bu binalarda yaşayan vətəndaşlar üçün istirahət yeridir. Əlbəttə ki, burada hündürmərtəbəli böyük binalar tikilsəydi, bu, ətrafda yaşayan insanlar üçün də problem yaradardı. Ona görə şəhərimizin bu ərazisində yeni park salınıb və hesab edirəm ki, bu çox əlamətdar hadisədir. Bir daha demək istəyirəm, bu parkın xüsusi tarixçəsi vardır və bütün qurumlara da, şirkətlərə də, iş adamlarına da dərs olacaq ki, əgər ağacı kəsirsənsə, cəzan cərimə ilə bitməyəcəkdir.

Qaldı ki, şəhərimizin abadlaşmasına, görülən bütün işlər göz qabağındadır. Mən bir daha qeyd etmək istəyirəm ki, indi Bakı gözəl parklar şəhərinə çevrilibdir. Bizim mövcud parklarımızın, demək olar ki, hamısı son illər ərzində əsaslı şəkildə bərpa edilib, yeni istirahət zonaları yaradılıbdır. Bizim ən böyük parkımız Dənizkənarı bulvardır. Onun uzunluğu 3 kilometrdən 16 kilometrə çatdırılıb, burada idman, incəsənət şəhərcikləri, ictimai yerlər yaradılıbdır. Diqqət çəkən digər layihələr arasında Heydər Əliyev sarayının arxasındakı yeri də qeyd edərdim. Orada gözəl park yaradılıb. Dövlət Dram Teatrının arxasında da yeni park salınır. «Sovetski» adlanan ərazidə həm yol infrastrukturu, həm ictimai yerlər, gözəl yaşıllıqlar salınacaqdır. İndi işlər o qədər sürətlə gedir ki, bəzən əvvəlki görüntülər yaddan çıxır. Misal üçün, siz yaxşı xatırlayırsınız ki, aeroportun ətrafında yarmarka var idi. Bu səliqəsiz antisanitariya mərkəzinin mənzərəsi hamımızı incidirdi. O yarmarka başqa əraziyə köçürülüb, yerində meşəlik salınıbdır. İndi o yerdən keçəndə bəziləri unudur ki, burada əvvəllər mənzərə necə idi.

Böyükşor gölünün bir hissəsi təmizlənib, onun ətrafı abadlaşdırılıb, 1 kilometr uzunluğunda yeni bulvar salınıb. Bibiheybət ərazisində indi gözəl park salınır. Yəni görülən bütün bu işlər bir daha onu göstərir ki, vətəndaşların rahat istirahəti üçün şəhərimizdə çox böyük tədbirlər görülür. Yeni parkların salınması baxımından hesab edirəm ki, Bakı şəhəri bu gün dünyada 1-ci yerdədir. Bunu siz də yaxşı bilirsiniz, şəhərimizin digər vətəndaşları da görürlər, əgər harada söküntü gedirsə, o yerdə mütləq ictimai guşələr, parklar yaradılır, yeni geniş yollar salınır ki, tıxaclar azalsın. Növbəti böyük park Yusif Səfərov küçəsində salınır, ümid edirəm ki, yaxın aylarda istifadəyə veriləcək. Onun yanında olan park artıq fəaliyyətdədir, Heydər Əliyev Mərkəzinin ətrafında böyük park xidmət göstərir, gənclər, uşaqlar hər həftə orada müxtəlif tədbirlər keçirirlər. Bakı Konqres Mərkəzinin ətrafında yeni park salınıb. Keçmiş Səttarxan adına zavodun ərazisi olan bu yer ekoloji fəlakət zonası idi. Balaxanı zibilxanası təmizlənib, orada abadlıq işləri aparılıb, şəhərimizin vətəndaşlarına problem yaradan tüstünün qarşısı alınıb. Mən bu sahəyə xüsusi diqqət yetirirəm. Çünki istəyirəm ki, Bakı daha da gözəlləşsin və şəhərimizin ekoloji vəziyyəti daha da yaxşılaşsın. Biz artıq buna nail ola bilmişik. Havanın, suyun keyfiyyəti yaxşılaşıb. Bu, insan sağlamlığı üçün əsas amillərdir.

Bilirəm ki, bu binalarda ziyalılar, alimlər yaşayır. Sizin üçün burada gözəl park salınıb ki, ailə üzvlərinizlə birlikdə istirahət edəsiniz. Bu münasibətlə sizi – burada yaşayan vətəndaşları təbrik edirəm.

**C a h a n g i r  M ə m m ə d l i** (Bakı Dövlət Universitetinin professoru): Cənab Prezident, bu gün burada Sizinlə görüşmək bizdə qürur hissi doğurur. Bakı Dövlət Universitetinin 22 min nəfərlik kollektivi Sizi alqışlayır. Bu gün çox rəmzi bir gündür – ulu öndərin hakimiyyətə gəldiyi günün səhərisidir, özü də səhər çağıdır.

Mən o günü gözəl xatırlayıram. Ulu öndər hakimiyyətə gəldiyi ildə Bakı Dövlət Universitetinin heç vaxt qeyd olunmayan yubileyini – 50 illik yubileyini keçirdi. Sonrakı illərdə də universitetə çox böyük məhəbbətlə yanaşdı. O, mükəmməl idarəçilik məktəbi yaratdı. Allaha çox şükür ki, bu gün bu məktəb etibarlı əllərdədir. Biz bununla qürur duyuruq.

İndi Siz Bakıdan danışdınız. Amma biz bu gün Azərbaycandan danışa bilərik. Mən ömrüm boyu Parisin tağlı giriş qapısına həsəd aparmışam. İndi biz, misal üçün, Qubaya daxil olarkən görürük ki, Parisin tağlı qapısından da qəşəng bir giriş qapısı düzəldilib. Bütün rayonlarımızda belədir.

Ulu öndərimizin universitetin 50 illik yubileyində söylədiyi qiymətli fikirlər həmişə yadımızdadır. Deyib ki, mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam. Son ra qeyd edib ki, Bakı Dövlət Universiteti Azərbaycan xalqının milli sərvətidir. Biz müəllimlər də Bakı Dövlət Universitetini bitirməyi ilə fəxr edən ulu öndərimizin adına layiq işləməyə çalışırıq.

Cənab Prezident, Siz də Bakı Dövlət Universitetinə Azərbaycan xalqının milli sərvəti kimi yanaşırsınız. Yadımızdadır, universitetin 90 illik yubileyi yaxınlaşanda Siz bizim ali məktəbə gəlmişdiniz. O vaxt universitet üçün 10 mərtəbəli yeni tədris korpusu tikilirdi. Ancaq binanın inşası ləngiyirdi. Siz ertəsi gün sərəncam verdiniz, vəsait ayırdınız və o bina tezliklə tikilib istifadəyə verildi. İndi o gözəl bina universitetimizin loqosudur. O binaya daxil olanda, dəhlizlərdən keçəndə, auditoriyalara girəndə həmişə Siz yadımıza düşürsünüz. Allah Sizi qorusun.

Bu binalar universitetimizdə çalışan müəllimlər üçün Bakıda ən ucuz qiymətə tikilmiş kooperativ evlərdir. Kvadratmetri 260 manata inşa olunub. Mənzillər ona görə ucuz başa gəlib ki, Sizin tapşırığınızla torpaq sahəsi üçün rüsum tutulmayıb. Sizə təşəkkür edirik. Biz Sizi çox istəyirik. Azərbaycan məhz Sizin rəhbərliyinizlə belə inkişafa nail olub. Tanrı Sizi qorusun!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Sizə təşəkkür edirəm.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**81-ci kitab: iyun 2017 - avqust 2017. - Bakı: Azərnəşr, 2019, S. 83-88.**

## PİRALLAHI RAYONUNUN İÇMƏLİ SU TƏCHİZATI LAYİHƏSİNİN AÇILIŞI MƏRASİMİ

*(21 iyul 2017-ci il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Bakının Pirallahı rayonunun içməli su təchizatı layihəsinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**S a k i n l ə r:** Cənab Prezident, Pirallahı rayonuna xoş gəlmisiniz!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, sizi görməyimə şadam. Bu gün Pirallahı rayonunun həyatında çox əlamətdar bir gündür, içməli su layihəsi istifadəyə verilir. İndi həm Pirallahı qəsəbəsinə, həm Gürgan qəsəbəsinə təmiz içməli su veriləcəkdir. Bu çox böyük hadisədir. Siz yaxşı bilirsiniz ki, həmişə burada su problemi insanları çox narahat edib, incidib. İndi isə vətəndaşlara sutka ərzində 24 saat təmiz, bütün ekoloji standartlara uyğun, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su veriləcəkdir.

Bu çox böyük layihədir, böyük vəsait tələb edən və sırf sosial xarakter daşıyan layihədir. Vətəndaşlara təmiz içməli suyun verilməsi çox önəmlidir, çünki su insan həyatında əsas amillərdən biridir. Su sağlamlıqdır, təmizlikdir və təmiz içməli su hər bir insanın həyatında xüsusi yer tutur.

Son illərdə həm Bakıda, həm də, demək olar ki, bütün bölgələrdə içməli su layihələri uğurla icra edilir. Bakı şəhərinin içməli su ilə təminatı yaxşılaşır. Hələ gələcəkdə görüləcək çoxlu işlər var. Buraya çəkilən 80 kilometr uzunluğunda su xətti, əlbəttə ki, böyük vəsait tələb edən layihədir. Çünki Ceyranbatandan Pirallahıya, Gürgana, eyni zamanda, Xəzər rayonunun Zirə, Türkan qəsəbələrinə su xətti çəkilib. Bir neçə il bundan əvvəl Ceyranbatan su anbarında böyük təmizləyici qurğular kompleksi istifadəyə verilmişdir. Bu da dünya miqyasında ən böyük təmizləyici qurğudur. Pirallahıya da içməli suyun gətirilməsi doğrudan da böyük layihədir – həm texniki, həm maliyyə cəhətdən böyük zəhmət və vəsait tələb edən layihədir. Ancaq bu layihə artıq reallaşıb. Biz bunu etmişik və burada yaşayan vətəndaşlar üçün bu çox gözəl hədiyyədir.

Bununla bərabər, biz Pirallahı rayonunun inkişafı ilə bağlı bütün digər məsələlərə kompleks şəkildə yanaşdıq. Burada bütün infrastruktur məsələləri həll olunur. Gözəl körpü tikilib. Həmin körpünün tikilməsi də bu bölgənin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına hesablanıb. İndi Xəzər dənizinin təbii axını təmin olunub. Əvvəllər burada, dənizdə müəyyən durğunluq var idi. İndi isə bu körpünün altından dəniz suları axır və gələcəkdə gəmilərlə, yaxtalarla Bakıdan buraya gəlmək mümkün olacaqdır. Körpü də nəhəng bir infrastruktur layihəsidir, uzunluğu 700 metrdən çoxdur. Aeroport yolundan Pirallahıya dördzolaqlı geniş, gözəl yol salınıb. Bu da ən yüksək standartlara cavab verir. İndi bu yolla gəldim, adamın gözünü oxşayır. Əvvəlki yol nə vəziyyətdə idi, siz hamıdan yaxşı bilirsiniz.

Ona görə bu əsas infrastruktur layihələrinin icrası, əlbəttə ki, yeni imkanlar yaradır. Qazlaşdırma tam təmin olunub, elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Bu gün biz yeni Günəş Elektrik Stansiyasının açılışını qeyd edəcəyik. Sosial infrastruktur yaradılır, 85 yerlik xəstəxana, bir neçə məktəb, istilik təchizatı, 70-dən çox yaşayış binası təmir olunub, parklar salınır, yeni müəssisələr yaradılır.

Azərbaycanda əvvəllər də, elə bu gün də dərman istehsalı fabrikləri, demək olar ki, yoxdur. Biz birinci fabrikləri buraya saldıq. İki fabrikin tikintisi gedir. Oraya qoyulacaq sərmayənin həcmi təqribən 100 milyon dollara bərabərdir. Burada iş yerləri, yeni istehsal sahələri yaradılacaq. İndi balıqyetişdirmə müəssisəsinin təməli qoyulacaq, balıq bazarı tikilib. Baxın, bu günə qədər Bakı şəhərində balıq bazarı olmayıb. Bu, böyük çatışmazlıqdır. Çünki

dəniz kənarında yerləşən şəhərlərin əksəriyyətində balıq bazarları var. Bu balıq bazarları həm vətəndaşlara xidmət edir, eyni zamanda, bir növ, turizm zonasına çevrilir. İndi burada gözəl kiçik bir bulvar salınıb, balıq bazarı var, balıqyetişdirmə müəssisəsi yaradılır. Turizmin inkişafı bundan sonra sürətlə gedəcək. Gürgan qəsəbəsində böyük turizm layihəsi vardır. İndi Pirallahı da gözəl bir cənnət yerə çevrilibdir. Burada həm Pirallahı, həm bütün Bakı sakinləri, həm də Azərbaycan vətəndaşları və qonaqlar üçün çox gözəl şərait yaradılıbdır.

Bütün bu gözəl hadisələr münasibətilə sizi təbrik edirəm. Pirallahı gənc rayondur, 5 ildir ki, yaradılıb. Yaranan gündən burada quruculuq-abadlıq işləri aparılıb. Sizi bir daha təbrik edirəm və sizə yeni uğurlar arzulayıram.

**Ü l k ə r Ş i r i n o v a** *(rayon sakini):* Cənab Prezident, Pirallahı rayonuna xoş gəlmisiniz! Böyük qürur hissi ilə demək istəyirəm ki, şəxsən Sizin təşəbbüsünüzlə yaradılmış Pirallahı rayonu bu gün doğma Bakımızın hər gün çiçəklənən rayonlarından birinə çevrilməkdədir. Qeyd etmək istəyirəm ki, 150 ildən artıq yaşayış olan adada içməli suyun yoxluğu, Zirədən gələn, son zamanlar tamamilə şoranlaşmış texniki suyun gün ərzində cəmi 1 saat verilməsi, içməli suyun isə maşınlardan alınması biz rayon sakinləri üçün çox ciddi problem idi. Şükürlər olsun ki, Sizin diqqət və qayğınız sayəsində rayonumuza içməli su xəttinin çəkilişi tam başa çatıb. Artıq hər bir Pirallahı sakininin mənzilinə sutkada 24 saat yüksəkkeyfiyyətli su veriləcəkdir. Bununla Siz bizim rayonumuza yeni həyat bəxş etdiniz. Möhtərəm Prezident, rayonumuzun hər bir sakini istərdi ki, hazırda mənim yerimdə dayanıb buna görə Sizə dərin təşəkkürünü bildirsin. Bu gün bu şərəf mənə nəsib olub, ona görə də mən bütün rayon sakinləri adından Sizə dərin təşəkkürümü bildirirəm.

Cənab Prezident, qeyd etmək istəyirəm ki, ötən əsrin 80-ci illərində ümummilli liderimiz Heydər Əliyevin Pirallahıya səfərindən sonra burada yeni məktəb, uşaq bağçası, musiqi məktəbi açılmış, neft sektorunun inkişafına yeni nəfəs verilmişdir. Lakin sonrakı dövrlərdə diqqətdən kənarda qalan Pirallahıda azacıq külək əsən kimi, işıqlarımız sönür, qazımız kəsilir, yağış yağanda küçələrimiz keçilməz olur, ada ilə şəhər arasında əlaqə tamamilə kəsilirdi. Sizin rayonumuza göstərdiyiniz diqqət və qayğı sayəsində isə Pirallahı başdan-başa yenidən qurulmağa başlandı. Magistral və qəsəbədaxili yollar yeniləndi, müasir dayanacaqlar, işıqlandırma sistemləri quruldu, işıq, qaz, elektrik sistemləri təchizatı tamamilə yeniləndi, ən başlıcası isə müasir tipli yeni körpü tikildi.

Möhtərəm Prezident, IDEA İctimai Birliyinin yaxından dəstəyi ilə rayonumuzda geniş yaşıllıq zolaqları salınıb, on minlərlə ağac və gül kolu əkilibdir.

Cənab Prezident, 35 ildən artıqdır ki, rayonumuza çörək Bakının digər rayonlarından gətirilirdi. Yenə də Sizin dəstəyiniz sayəsində artıq bir neçə gündür ki, qəsəbəmizdə Çörək zavodu işə düşübdür və biz yüksəkkeyfiyyətli müxtəlif çeşidli məhsulla təmin olunuruq. Bilirik ki, bu işlər də məhz Sizin qayğınız sayəsində öz həllini tapıbdır.

Fürsətdən istifadə edib, Mehriban xanıma da dərin minnətdarlığımı bildirirəm. Məhz Mehriban xanımın sayəsində rayonumuzun xəstəxanası, şəxsən mənim çalışdığım orta məktəb, eləcə də Mədəniyyət Mərkəzi əsaslı təmir olunub, uşaq bağçaları tikilibdir. Buna görə də bütün rayon sakinləri adından hamımızın sevimlisi Mehriban xanıma bir daha təşəkkürlərimi çatdırıram.

Cənab Prezident, Sizin çıxışlarınızda dəfələrlə qeyd etdiyiniz kimi, Pirallahı sənaye zonasına çevrilməklə yanaşı, turizmin inkişafı üçün də nadir coğrafi zonada yerləşir. İnanırıq ki, Siz bu sahəni də diqqətinizdə saxlayacaqsınız və yaxın zamanlarda Pirallahı doğma Bakımızın turizm mərkəzlərindən birinə çevriləcəkdir.

Hörmətli Prezident, Siz bizim rayonumuz üçün hər şey etmisiniz. Bu, göz qabağındadır. Sizin sayənizdə abad yolumuz, müasir körpümüz, təmirli binalarımız, geniş parklarımız, dadlı çörəyimiz və xüsusilə qeyd etmək istəyirəm ki, içməli suyumuz vardır. Buna

görə də biz Pirallahı sakini olmaqdan qürur hissi duyur, Sizə dərin hörmət və ehtiramımızı çatdırırıq. Tanrı Sizi qorusun!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

* * *

*Sonra Azərbaycan Prezidenti «Pirallahı qəsəbəsinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi üzrə görülən işlərin texniki-iqtisadi göstəricilərini əks etdirən stendlərlə tanış oldu.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov prezident İlham Əliyevə görülən işlər barədə ətraflı məlumat verdi.*

*Bildirildi ki, qəsəbənin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksinin və 84 kilometr uzunluğunda Ceyranbatan–Zirə magistral su kəmərinin istismara verilməsi Pirallahı qəsəbəsinin sakinlərini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etməyə imkan yaradıb. Pirallahı rayonunun Pirallahı, Gürgan və Xəzər rayonunun Zirə, Türkan qəsəbələrinin dayanıqlı su təchizatı üçün 10 min kubmetr tutumu olan Zirə su anbarı tikilib. Pirallahı qəsəbəsini Abşeron yarımadası ilə birləşdirən yeni yolötürücüsünün tikintisi ilə əlaqədar Zirə–Pirallahı magistral su xəttinin körpü ərazisinə düşən hissəsi yenidən qurulub. Gəmilərin maneəsiz hərəkəti üçün körpünün alt hissəsində hər bir istiqamət üzrə xüsusi konstruksiyalı keçid quraşdırılıb, yeni su və kanalizasiya xətləri onun üzərindən çəkilib. Layihə çərçivəsində Pirallahı qəsəbəsində 65 kilometr uzunluğunda yeni paylayıcı su şəbəkəsi inşa olunub, eyni zamanda, çoxmənzilli 35 yaşayış binasının daxili su təchizatı sistemləri yenidən qurulub. Zirə–Pirallahı xəttindən Gürgan qəsəbəsinin sakinləri də içməli su ilə təmin ediliblər. Hazırda Pirallahı və Gürgan qəsəbələrinin sakinləri sutkaboyu fasiləsiz, keyfiyyətli içməli su ilə təmin olunurlar. Qeyd edildi ki, Pirallahı qəsəbəsində mərkəzləşmiş su təchizatı sistemi ötən əsrin ortalarında yaradılıb. Bu layihənin icrasına qədər isə Zirə quyu zonasından qəsəbəyə həftədə cəmi 1 gün olmaqla, qrafik əsasında su verilirdi.*

*Prezident İlham Əliyev Pirallahı rayonuna təmiz içməli suyun verilməsini bildirən düyməni basdı.*

*Sonra xatirə şəkli çəkdirildi.*

*Sakinlər Pirallahı adasını sahillə birləşdirən yeni müasir körpünün inşasına görə dövlət başçısına bir daha minnətdarlıq etdilər.*

**V a s i f İ m a n o v** (*Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, buradakı damba üzərindən dəfələrlə maşınlar aşaraq dənizə düşüb. Damba 1946-cı ildə tikilmişdi.

**İ l h a m Ə l i y e v:** Çox təhlükəli idi, həm də ki, Xəzəri iki yerə bölürdü. Dənizdə həm durğunluq, həm də bataqlıq yaranırdı. İndi su tərtəmizdir.

**S a k i n:** Yeni körpü dəniz səviyyəsindən 11 metr yüksəklikdədir.

**İ l h a m Ə l i y e v:** Bəli, ona görə planlaşdırdıq ki, tam təhlükəsiz olsun.

**V a s i f İ m a n o v:** Siz tapşırıq verdiniz ki, körpünün altından gəmilər keçə bilsin. Hər bir şəraitə, görülən işlərə görə Sizə təşəkkür edirik.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.
81-ci kitab: iyun 2017 - avqust 2017. - Bakı: Azərnəşr, 2019, S. 153-158.**

## «PİRALLAHI» GÜNƏŞ ELEKTRİK STANSIYASININ AÇILIŞI MƏRASİMİ

*(21 iyul 2017-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də «Pirallahı» Günəş Elektrik Stansiyasının açılışında iştirak etmişdir.

Azərbaycan Prezidenti stansiyanı işə saldı.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin sədri Akim Bədəlov dövlətimizin başçısına «Pirallahı» Günəş Elektrik Stansiyası layihəsinin texniki-iqtisadi göstəriciləri haqqında ətraflı məlumat verdi.

Bildirildi ki, layihənin məqsədi Pirallahı rayonunda əhalinin və sosial obyektlərin yerli alternativ və bərpa olunan enerji mənbələri hesabına enerji ilə təminatından ibarətdir. Ümumi layihə gücü 12/8 MVt olan layihənin icra müddəti 2014–2020-ci illəri əhatə edir. Birinci mərhələdə 2,8 MVt gücündə «Pirallahı» Günəş Elektrik Stansiyası layihəsinin 1,1 MVt-lıq hissəsi üzrə Pirallahı rayonunun şimal-şərq hissəsində 2 hektar torpaq sahəsində tikinti-quraşdırma işləri başa çatdırılıb. Hazırda stansiya istismar təlimatına uyğun olaraq test rejimində fəaliyyət göstərir və bu il iyunun 1-i tarixinə 1,5 milyon kVt/s elektrik enerjisi istehsal edilib ki, bunun sayəsində 330 min kubmetr təbii qaza qənaət olunubdur.

Qeyd olundu ki, burada ümumilikdə 4400 günəş paneli quraşdırılıb. Layihə çərçivəsində «Bir ev–bir elektrik stansiyası» prinsipi əsasında Pirallahıda 235 saylı məktəbdə 25 kVt-lıq günəş elektrik stansiyası quraşdırılıb və Dövlət Agentliyi tərəfindən test rejimində istismar olunur. Növbəti illərdə bu stansiyanın məktəbin balansına verilməsi də nəzərdə tutulub. Bundan əlavə, ərazidə 85 metr hündürlüyündə stasionar və «KamAZ» avtomobilinin bazasında səyyar inteqrə olunmuş Ölçü-Müşahidə Nəzarət Kompleksi yaradılıb. Bu kompleksə günəş müşahidə stansiyası, mobil külək müşahidə stansiyası, küləyin sürətini və istiqamətini ultrasəs metodu ilə ölçən «Dopler SODAR» daxildir. Kompleks ölkə üzrə istənilən ərazidə stasionar rejimdə hər 20 metr məsafədə və 20–300 metr hündürlükdə bütün geofiziki-meteoroloji parametrləri ölçməyə və təhlil etməyə imkan verir.

Prezident İlham Əliyevə «Azgüntex» zavodunda istehsalı nəzərdə tutulan günəş və külək texnologiyaları əsasında hazırlanan qurğu və avadanlıqlar barədə məlumat verildi. Dövlət başçısına, həmçinin Dövlət Agentliyinin dəstəyi ilə ölkəmizdə ilk dəfə olaraq günəş texnologiyasına əsaslanan küçə və istirahət parkları üçün «Smart» işıqlandırma sistemləri haqqında məlumat və nümunələr təqdim olundu. Bildirildi ki, bu sistemlər stasionar xarakter daşımaqla, müstəqil rejimdə işləməyə qadirdir.

Alternativ və bərpa olunan enerji mənbələrinin geniş tətbiqi enerji təhlükəsizliyinin yüksəldilməsində, təbii qaza qənaət olunmasında, atmosferə atılan zərərli tullantıların azalmasında, ekoloji tarazlığın təmin olunması ilə innovativ inkişafın sürətlənməsində və yeni iş yerlərinin yaranmasında mühüm əhəmiyyətə malikdir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**81-ci kitab: iyun 2017 - avqust 2017. - Bakı: Azərnəşr, 2019, S. 159-160.**

## PİRALLAHI RAYONUNDA BALIQYETİŞDİRMƏ FERMALARININ TƏMƏLQOYMA MƏRASİMİ

*(21 iyul 2017-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 21-də Pirallahı rayonunda «Nərəkənd» layihəsi çərçivəsində yaradılacaq «CMS Properties» MMC-nin balıqyetişdirmə kompleksində qapalı və açıq tipli fermaların təməlqoyma mərasimində iştirak etmişdir.

Dövlət başçısına müəssisə barədə məlumat verildi. Bildirildi ki, qapalı tipli fermada ildə 75 ton rus nərəsinin və 25 ton çökə ətinin, habelə 4 ton kürünün istehsalı nəzərdə tutulub. Həmin fermada dənizdən nəql olunan su süzgəcdən keçirilərək duruldulacaq, duzluluğu müvafiq səviyyəyə çatdırılacaq və qapalı sistemdə təkrar istifadə ediləcəkdir. İlkin mərhələdə kompleksin fəaliyyətinin xaricdən alınacaq kürü hesabına, növbəti mərhələlərdə isə bu sistemdə cinsi yetkinliyə çatmış dişi nərə balıqlarından alınacaq kürü hesabına təmin olunması nəzərdə tutulub. Qapalı sistemdə yetişdirilən nərə balığı inkubasiya olunmuş yumurta mərhələsindən etibarən təxminən 2 il müddətinə 5 kiloqram əmtəə çəkisinə çatdı-rılacaq. Çökə balığından kürünün çıxarılması müddəti isə təxminən 3 il təşkil edəcək. Qapalı tipli ferma Avropa ölkələrində istehsal edilən ən son texnologiyalarla təchiz oluna-caqdır.

Açıq tipli fermada isə ildə 50 ton rus nərəsinin yetişdirilməsi nəzərdə tutulub. Balıqyetişdirmə fermalarının 9 aya işə salınması planlaşdırılır.

Prezident İlham Əliyev balıqyetişdirmə fermalarının təməlini qoydu.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**81-ci kitab: iyun 2017 - avqust 2017. - Bakı: Azərnəşr, 2019, S. 161.**

## BALAKƏN SU ELEKTRİK STANSİYASININ AÇILIŞINDA İŞTİRAK

*(3 avqust 2017-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Balakən Su Elektrik Stansiyasının açılışında iştirak edib.

Son illər ölkə iqtisadiyyatının bütün sahələri kimi elektroenergetika sistemi də ən müasir tələblər səviyyəsində yenidən qurulub, bu istiqamətdə köklü dəyişikliklər aparılıb. İcra edilən layihələr arasında yeni su elektrik stansiyalarının inşası, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması xüsusi əhəmiyyət daşıyır. Balakəndə yeni inşa edilən Su Elektrik Stansiyası da bu baxımdan böyük rol oynayır. Bu cür layihələrin icrası bölgələrin enerji təminatının gücləndirilməsində mühüm rol oynayır, eyni zamanda, regionların inkişafına təkan verməklə, əlavə iş yerlərinin açılmasına səbəb olur. Mütəxəssislərin araşdırmalarına görə, respublikanın müxtəlif bölgələrində dağ çayları və suvarma kanalları üzərində onlarla kiçik su elektrik stansiyasının tikintisini həyata keçirmək mümkündür. Kiçik su elektrik stansiyalarının tikintisi bir tərəfdən elektrik enerjisinin istehsalında yanacağa qənaət edilməsinə imkan verir, digər tərəfdən isə ətraf mühitə heç bir zərər yetirmədən istehlakçıları elektrik enerjisi ilə təmin edir.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına stansiya barədə məlumat verdi.

Bildirildi ki, Balakən çayı üzərində tikilmiş və ümumi gücü 1,5 meqavat olan bu stansiyanın təməlini Prezident İlham Əliyev 2010-cu ildə qoyub. Stansiya texniki göstəricilərinə görə olduqca səmərəli və müasirdir. Layihə çərçivəsində burada hündürlüyü 5,6 metr olan bənd tikilib. Bəndin maksimum eni 28, qaşının eni isə 4 metr təşkil edir. Burada saniyədə 63 kubmetr suburaxma qabiliyyəti olan sutullayıcı, saniyədə 23 kubmetr suburaxma qabiliyyəti olan suqəbuledici yaradılıb. Stansiyanın inşası zamanı uzunluğu 2 min metr, diametri isə 1550 millimetr olan boru, 10 və 0,4 kilovoltluq yarımstansiya və elektrik verilişi xətləri çəkilib, hər birinin gücü 0,5 meqavat olan üç hidroturbin və hidrogenerator quraşdırılıb. Bundan başqa, ərazidə turbin zalı və stansiyanın idarəetmə binası da inşa edilib.

Qeyd edildi ki, bu layihə olduqca əhəmiyyətlidir. İldə 10 milyon kilovat-saat elektrik enerjisi istehsalı gücünə malik stansiya rayonun tələbatının 15 faizini, Balakən şəhərinin tələbatının isə 25-30 faizini ödəyəcək. Dövlətimizin başçısı Balakən Su Elektrik Stansiyasını işə saldı. Azərbaycan Prezidentinin 2009-cu ildə imzaladığı Sərəncama əsasən, respublikada kiçik su elektrik stansiyalarının geniş tətbiq edilməsi məqsədilə xüsusi proqramlar hazırlanıb. Bu günədək ümumi gücü təqribən 150 meqavat olan 12 su elektrik stansiyası istifadəyə verilib. Hazırda isə ümumi gücü təqribən 18 meqavat olan beş stansiyanın inşası davam etdirilir.

Stansiyanın tikintisində 100 nəfər çalışıb. Ərazidə geniş abadlıq işləri aparılıb, müasir işıqlandırma sistemi quraşdırılıb, yaşıllıq zolaqları salınıb.

**AZƏRTAC**
**2017, 3 avqust**

## GÖYGÖLDƏ "ÇIÇƏKLİ" SU ELEKTRİK STANSİYASI ƏSASLI YENİDƏNQURMADAN SONRA İSTİSMARA VERİLİB

*(19 avqust 2017-ci il)*

Göygöl rayonunun Aşağı Zurnabad qəsəbəsi ərazisindəki 3 MVt-luq "Çiçəkli" Su Elektrik Stansiyası əsaslı yenidənqurmadan sonra avqustun 19-da istismara verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev stansiyanın yenidənqurmadan sonra açılışında iştirak edib.

"Azərenerji" ASC-nin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına stansiya barədə məlumat verdi.

Bildirildi ki, 1927-ci ildə inşa edilmiş bu su elektrik stansiyası 1997-ci ildə sel nəticəsində tamamilə dağılaraq istismara yararsız vəziyyətə düşmüşdü. Azərbaycan Respublikası Prezidentinin ölkə iqtisadiyyatına özəl investisiyaların cəlb edilməsi tapşırığına uyğun olaraq, stansiya hazırda investisiya müsabiqəsi vasitəsilə özəlləşdirilib. Burada əsaslı yenidənqurma işləri aparılıb, yeni avadanlıq quraşdırılıb.

Diqqətə çatdırıldı ki, stansiyanın turbin zalı, üçmərtəbəli idarəetmə və inzibati binası da müasir səviyyədə qurulub. Stansiyada hər birinin gücü 1 MVt olan 3 hidroturbin və 3 hidrogenerator quraşdırılıb. Yenidənqurma işləri çərçivəsində stansiyada 35/6/0,4 kV-luq yarımstansiyalar yaradılıb və elektrik verilişi xətləri çəkilib. Stansiyanın su hövzəsinin tutumu 153 min kubmetr, bəndinin hündürlüyü 10, uzunluğu 134, qaşının eni 5, dibinin eni isə 60 metrdir. Burada suburaxma qabiliyyəti saniyədə 65 kubmetr olan sutullayıcı, suburaxma qabiliyyəti saniyədə 10 kubmetr olan suqəbuledici quraşdırılıb. Stansiyanın derivasiya kanalının en kəsiyi 5 kvadratmetr, uzunluğu isə 3800 metrdir. Burada, həmçinin uzunluğu 500 metr, diametri 1600 millimetr olan boru quraşdırılıb.

Qeyd edildi ki, "Çiçəkli" Su Elektrik Stansiyası iqtisadi və sosial cəhətdən olduqca əhəmiyyətlidir. İldə 20 milyon kVt-saat elektrik enerjisi istehsal etmə gücünə malik olan bu stansiya Göygöl rayonunun tələbatının 15 faizini, Göygöl şəhərinin tələbatının isə 75 faizini ödəyəcək. Stansiyanın tikintisində 80 işçi çalışıb. Ərazidə müasir işıqlandırma sistemi quraşdırılıb, abadlıq işləri aparılıb və yaşıllıq zolaqları salınıb. Burada 20 yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda elektroenergetika sahəsində mühüm uğurlar əldə edilib. "Azərenerji" ASC bu istiqamətdə işləri uğurla davam etdirir. Bu günədək 14 su elektrik stansiyası istifadəyə verilib. Hazırda isə ümumi gücü təqribən 15 MVt olan dörd stansiya inşa olunur. Dövlətimizin başçısı "Çiçəkli" Su Elektrik Stansiyasını işə saldı.

**AZƏRTAC**
**2017, 19 avqust**

## İÇMƏLI SU TƏCHİZATI LAYİHƏSİNİN AÇILIŞI ZAMANI GƏDƏBƏY RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*(20 avqust 2017-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də Gədəbəy şəhərinin içməli su təchizatı layihəsinin açılışında iştirak etmişdir.

Dövlət başçısı əvvəlcə Gədəbəy rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Sabahınız xeyir, sizi ürəkdən salamlayıram. Bu gün Gədəbəy rayonunda çox əlamətdar bir gündür. Həm ulu öndərin adını daşıyan gözəl Mərkəz açılır, həm də Gədəbəy şəhərinin içməli su problemi həll olunur. Bu iki hadisə bir-biri ilə sıx bağlıdır. Çünki ulu öndərin fəaliyyəti nəticəsində bu gün Azərbaycan uğurla inkişaf edir. Məhz onun siyasəti nəticəsində Azərbaycan 1993-cü ildən bu günə qədər sürətli inkişaf dövrünü yaşayır. Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın banisidir, onun qurucusudur. Onun səyləri, fəaliyyəti nəticəsində 1993-cü ildə Azərbaycan inkişaf yoluna qədəm qoymuşdur. 2003-cü ildən isə bu siyasət davam etdirilir və bugünkü Azərbaycan əslində bu siyasətin gözəl nümunəsidir.

Ölkəmizdə bütün istiqamətlər üzrə sürətli inkişaf gedir, sosial-iqtisadi məsələlər öz həllini tapır. Azərbaycan beynəlxalq arenada çox ləyaqətli ölkə kimi tanınır. Ölkəmizin bütün regionlarında sürətli inkişaf gedir. Beləliklə, ölkəmizin bu günü və gələcəyi üçün heç bir problem görmürəm, heç bir risk, təhlükə yoxdur. Azərbaycan çox təhlükəsiz ölkədir, əhalimiz sülh, əmin-amanlıq şəraitində yaşayır və gələcək inkişaf üçün də yaxşı perspektivlər vardır.

Bu gün Gədəbəy şəhərinin su probleminin həlli də bu siyasətin bir təzahürüdür. Çünki siz – burada yaşayan insanlar yaxşı bilirsiniz ki, su həmişə insanları narahat edən bir problem olub. Əvvəlki illərdə şəhərin bir hissəsi, özü də gündə bir neçə saat ərzində su ilə təmin olunurdusa, bu gün bu problem əsaslı şəkildə öz həllini tapıb və Gədəbəyə təmiz içməli su gətirilibdir. Hesab edirəm ki, bu layihə tarixi layihədir. Çünki tarixdə bu günə qədər bu problem heç vaxt öz həllini tapmamışdı. Bu layihənin həyata keçirilməsi üçün, əlbəttə, böyük vəsait tələb olunurdu. Azərbaycan dövləti bu vəsaiti ayırdı ki, insanlar təmiz içməli su ilə təmin olunsunlar. Su həyat deməkdir. Təmiz su isə sağlam həyat deməkdir. İndi Azərbaycanda içməli su layihələrinin icrası geniş vüsət alıb. Bir çox rayonda bu layihələr artıq istifadəyə verilibdir. İndi icra edilməkdə olan layihələr kifayət qədər çoxdur. Bir sözlə, qarşıya vəzifə qoyulubdur ki, bu problem Azərbaycanın bütün bölgələrində öz həllini tapsın və Azərbaycan əhalisi Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin olunsun. Hesab edirəm ki, bu, infrastruktur layihələri arasında ən önəmli layihələrdən biridir.

Gədəbəy rayonunda ekoloji vəziyyət çox yaxşıdır. Təmiz hava, təmiz ekologiya. Bura əslində kurort zonasıdır. Gədəbəy təbii bulaqlarla zəngin bir rayondur. Bu gün biz Limonad zavodunun açılışını da qeyd etdik. Mənə deyildi ki, Gədəbəy rayonunda bir çox bulaqlar vardır. Belə olan halda, su xətləri çəkilməli, su şəbəkəsi yaradılmalı idi ki, əhali bu imkanlardan istifadə etsin. Biz buna nail olduq.

İnsanların sağlamlığı üçün, əlbəttə ki, ikinci mühüm amil tibb xidmətidir. Bu məsələ də Gədəbəydə həll olunubdur. Mənim bir neçə il bundan əvvəlki səfərimdə gözəl xəstəxana açılmışdır. İndi 120 çarpayılıq xəstəxana fəaliyyət göstərir.

Digər infrastruktur layihələri uğurla icra edilir. Bu gün elektrik yarımstansiyasının açılışını qeyd etdik. Bu problem də Gədəbəy şəhərində və rayonunda öz həllini tapır. Siz yaxşı bilirsiniz ki, əvvəlki dövrdə hava şəraitindən asılı olaraq işıqlar kəsilirdi, köhnə, çürümüş

taxta dirəklər sıradan çıxırdı – onların şəkilləri indi mənə təqdim olundu – əlbəttə, bu bizə yaraşmırdı. İndi həm yarımstansiya tikilib, həm yeni ötürücü xətlər çəkilib ki, Gədəbəy rayonunda enerji təminatı dayanıqlı olsun. Biz artıq buna nail olmuşuq.

Əvvəlki səfərlərimdə – bu mənim Gədəbəyə dördüncü səfərimdir – vətəndaşlar məsələ qaldırmışdılar ki, kənd yolları bərbad vəziyyətdədir. Biz bu məsələni də tədricən həll etdik. Gədəbəydə 3 kənd yolu layihəsi icra olunubdur və bu 3 layihə 100-dən çox kəndi əhatə edibdir. Əslində Gədəbəydə 100-dən bir qədər çox kənd vardır. Gədəbəydə bütün kənd yolları, demək olar ki, əsaslı təmir edilibdir. Hesab edirəm ki, bu da tarixi nailiyyətdir. Çünki yolların bərbad vəziyyətdə olması həm insanları narahat edirdi, gediş-gəliş çətinləşirdi, həm də bu, kənd təsərrüfatı üçün böyük problem idi. Gədəbəy rayonunun kənd təsərrüfatı, iqtisadi potensialı artır. Gözəl kənd yollarının mövcudluğu sizə imkan yaradacaq ki, öz məhsulunuzu bazarlara daha da tez bir zamanda çatdıra biləsiniz. Ümumiyyətlə, inkişaf üçün – turizmin, kənd təsərrüfatının inkişafı üçün yollar mühüm əhəmiyyət daşıyır.

Gədəbəy rayonunda qazlaşdırılma 52 faiz səviyyəsindədir. Bu da rayonun relyefi ilə bağlıdır. Amma tədricən qazlaşdırılma da artmalıdır. Beləliklə, rayonda bütün infrastruktur problemləri həll olunur. Eyni zamanda, sosial proqramlar da icra edilir, sənaye müəssisələri yaradılır. Mənə verilən məlumata görə, qızıl mədəni sahəsində 600-dən çox insan işlə təmin olunubdur. Gədəbəydə Mineral Sular zavodu çox yaxşı fəaliyyət göstərir. İndi yeni Limonad zavodu da istifadəyə verildi. Bu həm daxili bazarı təmin edir, həm də ixrac potensialı yaranır. Bu da rayonun iqtisadi inkişafına böyük dəstəkdir.

Gələcək illərdə emal sənayesinin, kənd təsərrüfatının inkişafı, əlbəttə ki, rayon üçün prioritet olaraq qalacaqdır. Biz hamımız – siz də, fermerlər də, sahibkarlar da növbəti illərdə bu istiqamətdə çalışmalıyıq ki, məhsuldarlığı artıra bilək. Mən yolla gələndə gördüm ki, fermerlər artıq dağların yamaclarında da əkin işlərinə başlamışlar. Yəni bu nəyi göstərir? Onu göstərir ki, artıq bütün yerlər əkilib. Bu da çox sevindirici haldır ki, indi fermerlər artıq dağlara da çıxıblar və orada da əkin işləri aparırlar. Biz gələcəkdə istehsalın artımına ancaq məhsuldarlığın artımı hesabına nail ola bilərik. Dünən Göygöl rayonunda açılan kənd təsərrüfatı laboratoriyasının fəaliyyəti nəticəsində biz buna nail ola bilərik. Bütün fermerlərə, kəndlilərə məsləhət görürəm ki, məhsuldarlığın artımına böyük diqqət göstərsinlər. Bu ilk növbədə, onlara və dövlətə lazımdır. Çünki biz özümüzü bütün ərzaq məhsulları ilə tam şəkildə təmin etməliyik. Biz onu da bilməliyik ki, Azərbaycan əhalisi hər il 100 min nəfər artır. Yəni bu çox gözəl göstəricidir. Bu onu göstərir ki, ölkəmizdə sürətli inkişaf vardır. Ancaq inkişaf olan ölkələrdə belə müsbət dinamika var. Çünki indi bəzi ölkələrdə əhali nəinki artır, hətta azalır. Həm təbii azalma, həm miqrasiya var. Bizdə nə miqrasiya, nə də təbii azalma var. Çünki ölkə iqtisadiyyatı sürətlə inkişaf edir, iş yerləri açılır, insanlar üçün şərait yaradılır, bax, belə gözəl infrastruktur obyektləri tikilir. Azərbaycan vətəndaşları öz torpağına çox bağlıdırlar. Ancaq biz bu amili mütləq həmişə yadda saxlamalıyıq ki, Azərbaycan əhalisi hər il 100 min nəfər artır. Əlbəttə, bu bizim qarşımıza yeni tələblər qoyur. Yeni məktəblər, uşaq bağçaları, xəstəxanalar tikilməlidir, infrastruktur yaradılmalıdır və əlbəttə ki, ərzaq məsələləri həllini tapmalıdır. Biz bu gün özümüzü ərzaq məhsulları ilə tam təmin etmək üçün böyük işlər görürük. Ancaq bizim torpaq fondumuz məhduddur. Ona görə bundan sonra kənd təsərrüfatı ancaq məhsuldarlığın artımı hesabına inkişaf etməlidir, o cümlədən Gədəbəy rayonunda.

Gədəbəydə bir gündə həm yarımstansiyanın, həm Limonad zavodunun, həm Heydər Əliyev Mərkəzinin açılışı, həm də içməli su layihəsinin istifadəyə verilməsi göstərir ki, ölkəmizdə işlər yaxşı gedir. Gədəbəy rayonunda sosial-iqtisadi məsələlər öz həllini tapır. Rayonun gələcək inkişafı ilə bağlı əlavə tədbirlər görüləcək, yeni sərəncam imzalanacaq

ki, bu günə qədər həll olunmamış məsələlər də öz həllini tapsın və rayonda işlər həmişə yaxşı getsin. Mən sizi bu gözəl hadisə – içməli su layihəsinin başa çatması münasibətilə ürəkdən təbrik edirəm.

* * *

**M ə l a h ə t Ə l i y e v a** (rayon sakini): Möhtərəm cənab Prezident, icazə verin, bütün gədəbəylilər adından Sizi salamlayım və Sizə «Xoş gəlmisiniz!» – deyim.

Cənab Prezident, bu gün gədəbəylilərin sevincinin həddi-hüdudu yoxdur. Sizin budəfəki səfəriniz şəhərimizin ən böyük probleminə son qoydu. Siz qeyd etdiyiniz kimi, uzun illər idi şəhər camaatı sudan çox böyük əziyyət çəkirdi. İnsanlarımız yollarda qalmışdı, müxtəlif vasitələrlə müxtəlif mənbələrdən su daşıyırdılar. Artıq bu problem Sizin qayğı və diqqətiniz nəticəsində öz həllini tapdı. Şəhərimizin sakinlərinin canı bu əzab-əziyyətdən birdəfəlik qurtardı. Bütün bunlara görə Sizə gədəbəylilər adından minnətdarlığımı bildirirəm. Sizə və ailənizə cansağlığı arzulayıram. Sağ olun.

**T o f i q M i r z ə y e v**(rayon sakini): Cənab Prezident, bütün bölgələrdə olduğu kimi, Gədəbəy rayonunda da sürətli inkişaf gedir. Gündən-günə gözəlləşən rayonumuzun siması tamamilə dəyişib. Bu gün açılışını etdiyiniz Heydər Əliyev Mərkəzi, Bayraq Meydanı, onun ətrafı gözəl Gədəbəyə xüsusi yaraşıq verir.

Cənab Prezident, rayonumuzda yollar əsaslı təmir olunur, infrastruktur dəyişir, yenilənir. Yeni məktəb binaları, səhiyyə, turizm, mədəniyyət sahələrində yeni obyektlər tikilir, parklar, istirahət zonaları salınır. Bir sözlə, Sizin diqqət və qayğınız nəticəsində Gədəbəydə yaşamaq, istirahət etmək, qurub-yaratmaq daha gözəldir. Bütün bunlara görə Sizə təşəkkür edirik. Sizə, ailənizə cansağlığı arzu edirik. Mənfur düşmənlə üz-üzə olan mərd, qədirbilən gədəbəylilər Sizə həmişə dəstəkdir, arxadır. Allah Sizi qorusun. Sağ olun.

**İ l h a m Ə l i y e v:** Mənim yadımdadır, birinci layihə Şəmkir–Gədəbəy yolunun təmiri idi. O vaxt biz bu işə başlayanda yol çox bərbad vəziyyətdə idi. O yolun çəkilişi əslində Gədəbəyin həm Şəmkirlə, həm ölkəmizin digər bölgələri ilə əlaqəsini daha möhkəm, daha rahat etdi. Ondan sonra, siz də qeyd etdiniz, bir çox məktəblər tikilib. Mənə verilən məlumata görə, Gədəbəy rayonunda 60-dan çox məktəb tikilib və əsaslı təmir edilibdir.

Dörd il bundan əvvəl mən burada olarkən biz Aşıqlar evinin açılışını etdik. Bu gün mənə məlumat verildi ki, orada 100-dən çox uşaq dərs alır. Biz aşıq sənətini yaşadırıq və bu bizim milli sərvətimizdir. Yəni Gədəbəydə hərtərəfli inkişaf vardır. Əminəm ki, bu, gələcək illərdə davam etdiriləcəkdir. Yenə də qeyd etməliyəm ki, bu günə qədər həll olunmamış məsələlər də öz həllini tapacaqdır.

**S a k i n l ə r:** Çox sağ olun.

* * *

Prezident İlham Əliyev «Gədəbəy şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsi üzrə görülən işlərin texniki-iqtisadi göstəricilərini əks etdirən stendlərlə tanış oldu.

«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, layihə Azərbaycan hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən «Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı» layihəsi çərçivəsində həyata keçirilir. Layihə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla, Gədəbəy şəhərində 12 min nəfər əhalinin içməli su və kanalizasiya xidmətlərindən

istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihəyə əsasən, Gədəbəy şəhərinin içməli su mənbəyi olaraq, bulaqlar seçilib və bir suqəbuledici qurğu tikilib. Şəhərin dayanıqlı su təchizatını təmin etmək üçün ümumi həcmi 5500 kubmetr olan 7 su anbarı, 14,8 kilometr uzunluğunda magistral su kəməri və digər köməkçi infrastruktur inşa edilibdir. Bundan başqa, Gədəbəy şəhərində inşası planlaşdırılan 81 kilometr uzunluğunda paylayıcı su şəbəkəsinin, şəbəkədaxili 2 nasos stansiyasının tikintisi başa çatıb, 2300 evə birləşmə verilib və sayğaclar quraşdırılıbdır. Yeni yaradılan su təchizatı sistemi ilə Gədəbəy şəhərinə fasiləsiz suyun verilməsi təmin edilibdir.

Dövlət başçısının diqqətinə çatdırıldı ki, Gədəbəy şəhərində ilk dəfə kanalizasiya sistemi yaradılıbdır. Layihəyə uyğun olaraq, 47,5 kilometr kanalizasiya şəbəkəsi və 1,5 kilometr kanalizasiya kollektoru tikilib. Şəhərdə yaranacaq tullantı sularının təmizlənərək kənarlaşdırılması üçün məhsuldarlığı gündə 3500 kubmetr olan təmizləyici qurğunun inşası nəzərdə tutulur. Hazırda tullantı sutəmizləyici qurğunun tikintisi üzrə tender prosedurları davam etdirilir. Bundan başqa, şəhərin su mənbələri və su təchizatı qurğuları rayonun 11 min nəfər əhalisinin yaşadığı Düzyurd, Arıqdam, Yenikənd, Söyüdlü və Qaradağ kəndlərinin su tələbatı nəzərə alınmaqla layihələndirilib. Ümumilikdə bu layihədən gələcəkdə 23 min nəfər faydalanacaqdır.

Layihənin icrasına qədər olan vəziyyət barədə məlumat verilərkən bildirildi ki, Gədəbəy şəhərinin mərkəzləşdirilmiş içməli su təchizatı sistemi ötən əsrin 60-cı illərində yaradılıb. «Azərsu» ASC hazırda şəhərin 10 min sakinindən 25 faizinə xidmət göstərir. Mərkəzləşdirilmiş qaydada su alan əhaliyə hər gün qrafik üzrə 4 saat su verilir. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyir. Gədəbəy şəhərində kanalizasiya sistemi isə indiyə qədər mövcud olmayıb.

Prezident İlham Əliyev Gədəbəy şəhərinə təmiz içməli suyun verilməsini bildirən düyməni basdı.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**81-ci kitab: iyun 2017 - avqust 2017. - Bakı: Azərnəşr, 2019, S. 305-316.**

# CƏLİLABADIN İÇMƏLİ SU TƏCHİZATI SİSTEMİNİN VƏ KANALİZASİYA ŞƏBƏKƏSİNİN AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*(2 sentyabr 2017-ci il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Cəlilabad şəhərinin içməli su təchizatı sisteminin və kanalizasiya şəbəkəsinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*«Azərbaycan Meliorasiya və Su Təsərrüfatı» Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə «Cəlilabad şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və kanalizasiya infrastrukturunun yaradılması» layihəsi barədə dövlət başçısına məlumat verdi.*

*Bildirildi ki, bu layihə «Meliorasiya və Su Təsərrüfatı» ASC-nin sifarişi əsasında Dünya Bankı ilə birgə maliyyələşdirilən «Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri Layihəsi» çərçivəsində həyata keçirilir. Layihə çərçivəsində Cəlilabad şəhərinin 2030-cu il üçün proqnozlaşdırılan 77 min nəfər əhalisini ekoloji təmiz içməli su ilə təmin etmək məqsədilə 11035 evin su təchizatı və kanalizasiya şəbəkəsinə qoşulması nəzərdə tutulub. Tikinti işlərinə 2012-ci ildə başlanılıb və 2018-ci ilin 1-ci rübünə tam başa çatdırılması planlaşdırılır. Masallı rayonu ərazisində inşa olunmuş su anbarından suyun Cəlilabad şəhərində hər birinin tutumu 5000 kubmetr olan 2 su anbarına öz axını ilə verilməsi üçün ümumi uzunluğu 30048 metr olan magistral boru xətti çəkilib, ümumi uzunluğu 230225 metr olan müxtəlif diametrli borulardan içməli su şəbəkəsi yaradılıb, evlər su sayğacları ilə təmin edilibdir.*

*Qeyd olundu ki, çirkab sularının nəqli üçün diametri 1000 millimetr və uzunluğu 6905 metr olan kanalizasiya kollektor xətti, uzunluğu 1734 metr olan müxtəlif diametrli təzyiqli çirkab su xətti və 186383 metr uzunluğunda çirkab su şəbəkəsi çəkilib. Kanalizasiya şəbəkəsi üzərində 4371 baxış quyusu inşa edilib, evlər bu şəbəkəyə qoşulub. Layihə üzrə 5 kanalizasiya nasos stansiyasının ikisində işlər tam yekunlaşdırılıb, üçündə isə inşaat işləri başa çatdırılaraq, mexaniki və elektromexaniki işlər davam etdirilir. Hazırda gündəlik gücü 11356 kubmetr olan çirkab sutəmizləyici qurğuda inşaat işləri davam etdirilir.*

*Cəlilabad şəhərinin su təchizatı və kanalizasiya sistemləri ötən əsrin 60-cı illərində yaradılıb. Yeni layihənin icrasınadək şəhərə içməli su subartezian quyularından verilirdi. Su şəbəkəsi şəhər əhalisinin yalnız 6,1 faizinə xidmət edirdi. İçməli su gün ərzində 2-4 saatlıq qrafik əsasında verilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Cəlilabad şəhərinin kanalizasiya sistemi də müasir tələblərə cavab vermirdi.*

*Sonra prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İlham Əliyev:** Xoş gördük. Sizi ilk növbədə, Qurban bayramı münasibətilə ürəkdən təbrik edirəm. Cəlilabad rayonunun bütün sakinlərinə uğurlar, xoşbəxtlik, cansağlığı arzulayıram.

Bu gözəl bayram günlərində Cəlilabad şəhərinin içməli su problemi də öz həllini tapır. Mən bilirəm ki, uzun illər ərzində su problemi Cəlilabad sakinlərini çox narahat edirdi, su fasilələrlə, gündə bir neçə saat verilirdi. Elə günlər var idi ki, su, ümumiyyətlə, olmurdu. İndi isə bu məsələ birdəfəlik öz həllini tapıbdır və Cəlilabad şəhərinə sutkada 24 saat keyfiyyətli, Ümumdünya Səhiyyə Təşkilatının standartlarına tam uyğun içməli su verilir. Bu çox böyük tarixi hadisədir. Mən bunu həmişə qeyd edirəm, bu layihənin icrası onu göstərir ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Çünki bu, sırf sosial layihədir. Bu layihə çox böyük vəsait tələb edirdi və Azərbaycan dövləti bu vəsaiti ayırdı ki, Cəlilabad sakinləri təmiz, keyfiyyətli içməli su ilə təmin olunsunlar. Bu layihənin

icrası ölkəmizin inkişafını göstərir. Göstərir ki, bu gün də Azərbaycan uğurla inkişaf edir, sosial-iqtisadi layihələrə böyük vəsait ayrılır. Bizim kifayət qədər böyük maliyyə imkanlarımız vardır. Azərbaycan o ölkələrdəndir ki, öz hesabına yaşayır və ölkə qarşısında duran bütün vəzifələrin icrası üçün ardıcıl siyasət aparılır.

İndi içməli su layihələrinin icrası ölkəmizdə geniş vüsət alıb. Qarşıya vəzifə qoyulubdur ki, hər bir şəhərin içməli su məsələsi öz həllini tapsın və biz bu məqsədə yaxınlaşırıq. Eyni zamanda, kəndlərdə də, qəsəbələrdə də bu məsələlər öz həllini tapır. Biz müxtəlif imkanlardan istifadə edirik. Həm çayboyu kəndlərdə təmizləyici qurğular quraşdırılır, eyni zamanda, magistral su xətləri çəkilir. Bir sözlə, içməli su problemi Azərbaycanda əsaslı şəkildə öz həllini tapır və tapacaqdır. Deyə bilərəm ki, bu da insan sağlamlığına ən çox müsbət təsir edən amildir. Çünki su həyatdır, təmiz su isə sağlam həyat deməkdir. Azərbaycan vətəndaşları sağlam olmalıdırlar. Azərbaycan dövləti bu məqsədə çatmaq üçün bir çox tədbirlər görür.

Siz yaxşı bilirsiniz ki, artıq neçə ildir ölkəmizdə tibbi müayinədən keçən insanların sayı 5 milyona çatıbdır. Biz bu xidməti pulsuz, dövlət hesabına təqdim edirik. Bu nəyə görə mümkün olub? Ona görə ki, indi hər bir yerdə müasir tibb ocaqları vardır, o cümlədən Cəlilabad rayonunda. Mən hər iki tibb müəssisəsinin – həm Müalicə-Diaqnostika Mərkəzinin, həm də Mərkəzi Rayon Xəstəxanasının açılışında iştirak etmişəm. Bu iki böyük tibb ocağı Cəlilabad rayon sakinlərinə çox yaxşı xidmət edir.

Ümumiyyətlə, Cəlilabad rayonunun inkişafına böyük diqqət göstərilir. Mən rayonda dəfələrlə olmuşam. Bu səfər prezident kimi, mənim 8-ci səfərimdir və hər dəfə də müxtəlif tədbirlərin açılışında iştirak etmişəm. Son illər ərzində rayonda bir çox sosial layihələr icra edilib. Qeyd etdiyim kimi, xəstəxana, Müalicə-Diaqnostika Mərkəzi, Olimpiya İdman Kompleksi, Şahmat məktəbi, Gənclər evi, 20-dən çox məktəb tikilib. 4 kənd yolu layihəsi icra edilib və bu layihələrin icrası imkan verib ki, 100 min əhali bu yollardan istifadə etsin. Çünki bu 4 layihənin əhatə dairəsi çox böyükdür. Bu, 60-dan çox kəndi əhatə edir.

Bu gün mən Cəlilabad–Masallı, Masallı–Lənkəran magistral avtomobil yolunun açılışını etdim. Bu da çox gözəl layihədir. İndi Bakıdan Astaraya qədər çox gözəl magistral yol salınır. Əlbəttə ki, bu istiqamətdə yerləşən bütün rayonların sakinləri bu imkanlardan istifadə edəcəklər. Cəlilabad şəhəri üçün bunun xüsusi əhəmiyyəti vardır. Çünki əvvəlki magistral yol şəhər mərkəzindən keçirdi və istər-istəməz bu, müəyyən problemlərə gətirib çıxarırdı, həm yük maşınları, həm də ki, böyük maşın axını insanları narahat edirdi. İndi isə yeni tras açılıbdır və beləliklə, bu məsələ də öz həllini tapır.

Cəlilabadda digər məsələlər də həll olunur, qazlaşdırılma prosesi gedir. Hələ ki, 70 faiz səviyyəsindədir, ancaq bu artacaq. Əvvəlki illərlə müqayisədə bu, böyük nailiyyətdir. Ancaq biz çalışmalıyıq ki, kəndlərimiz maksimum qazlaşdırılsın. Cəlilabad rayonunda 100-dən çox kənd var və çalışacağıq ki, kəndlərin əksəriyyətinə qaz xətləri çəkilsin. İçməli su məsələsi bu gün öz həllini tapıbdır. Elektrik enerjisi ilə təminat hesab edirəm ki, problem yaratmır. Əlbəttə ki, sosial və iqtisadi məsələlər gündəlikdədir.

Cəlilabadda kənd təsərrüfatının inkişafı sürətlə gedir. Xüsusilə son vaxtlar kənd təsərrüfatının bütün sahələrinə böyük diqqət göstərilir. Cəlilabadda da vətəndaşlar, sahibkarlar buna çox müsbət reaksiya verirlər və kənd təsərrüfatının istehsalı artır. Mənə verilən məlumata görə, indi Cəlilabadda yetişdirilən kənd təsərrüfatı məhsulları xarici bazarlara çıxarılır. Bu, insanların dolanışığı üçün də yaxşıdır, ölkəmiz üçün də yaxşıdır, ölkəmizə valyuta gəlir. Biz, əlbəttə, növbəti illərdə bu sahəyə daha da böyük diqqət göstərəcəyik. Yeni suvarılan torpaqların dövriyyəyə cəlb edilməsi istiqamətində işlər gedəcək. Buna böyük ehtiyac vardır. İndi ölkəmizdə on minlərlə hektar sahədə yeni suvarma layihələri icra edilir. Bu il indiyə qədər suvarılmayan 100 min hektardan çox torpağa su veriləcək, gələn

il də həmçinin. Cəlilabad rayonunda isə suvarılan torpaqların həcmi o qədər də böyük deyil. Mənə məlumat verilib ki, indi torpaqların təqribən 10 faizi suvarılır. Biz əlavə tədbirlər görməliyik, vəsait ayrılmalıdır ki, suvarılan torpaqların sahəsi böyüsün. Belə olan halda, məhsuldarlıq daha da yaxşı olacaq. Əminəm ki, kənd təsərrüfatının, sahibkarlığın inkişafı, emal müəssisələrinin yaradılması növbəti illərdə Cəlilabad rayonu üçün əsas istiqamət olacaqdır.

O ki qaldı infrastruktur layihələrinə, onların, demək olar ki, hamısı icra edilib və edilir – içməli su, elektrik, qazlaşdırılma, kənd yolları, magistral yollar, sosial obyektlər, xəstəxana, Diaqnostika Mərkəzi, məktəblər. Yəni bütün sosial kompleks yenilənib. Şəhər də abadlaşır, gözəlləşir. Mən prezident kimi, ilk dəfə Cəlilabada 2004-cü ildə gəlmişdim. 13 il ərzində Cəlilabad böyük yol keçib, şəhər gözəlləşib, abadlaşıb və yeni imkanlar yaranıbdır.

Bugünkü hadisə çox əlamətdar hadisədir, müqəddəs Qurban bayramına təsadüf edir. Ancaq bu, təsadüfi deyil. Hesab edirəm ki, bu bayram günündə bu layihə Cəlilabad şəhəri üçün gözəl hədiyyədir. Sizi bir daha bu münasibətlə təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

* * *

**Q ə r ə n f i l  Ə h m ə d o v a** *(Əməkdar müəllim)*: Möhtərəm cənab Prezident, rayonumuza xoş gəlmisiniz! Bu müqəddəs Qurban bayramı günündə rayonumuza səfərinizlə biz cəlilabadlılara ikiqat sevinc bəxş etdiniz. Biz də fürsətdən istifadə edərək, Sizi, ailənizi bu bayram münasibətilə ürəkdən təbrik edirik, Sizə cansağlığı arzulayırıq. Uca Tanrıdan kəsdiyiniz qurbanların qəbul olunmasını diləyirik. İnanırıq ki, kəsdiyiniz hər bir qurbanda, etdiyiniz duada bizi nəzərə almısınız, həmişə bizə – Azərbaycan xalqına xoş gün-güzəran, əmin-amanlıq arzu etmisiniz.

Bu gün açılışına toplaşdığımız bu tədbirin əhəmiyyətini sözlə ifadə etmək çətindir. Suyun insan həyatı üçün nə dərəcədə əhəmiyyətli olduğunu hər kəs bilir. Su, yol çəkmək həmişə savab iş olub. Çox sevindirici haldır ki, bu gün rayonumuzda həm yeni su xətti, həm də yeni yol çəkilibdir.

Möhtərəm Prezident, bu müqəddəs gündə belə savab işlərə görə cəlilabadlıların Sizə etdiyi dualar həmişə köməyiniz olsun. Biz cəlilabadlılar uzun zaman idi içməli su sarıdan çox əziyyət çəkirdik. Hərə bir yolla, müxtəlif çətinliklərlə evinə su gətirirdi. Biz bu gün Allaha çox şükür edir, Sizə dərin təşəkkürümüzü bildiririk ki, məhz Sizin tapşırığınızla bu problem öz həllini tapdı. İcazə verin, gördüyünüz savab işə görə bu müqəddəs gündə Sizə bütün cəlilabadlılar adından dərin minnətdarlığımı bildirim, «Çox sağ olun!» – deyim. Su həyatdır, su aydınlıqdır, su şəffaflıqdır. Yolunuz həmişə aydın, işıqlı, şəffaf olsun, cənab Prezident! Allah Sizi qorusun!

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun.

* * * *

*Azərbaycan prezidenti İlham Əliyev Cəlilabad şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**82-ci kitab: avqust 2017 - oktyabr 2017. - Bakı: Azərnəşr, 2019, S. 24-29.**

## XIDIRLI KƏNDİNDƏ DƏNİZ SUYUNUN DUZSUZLAŞDIRILMASI KOMPLEKSİNİN FƏALİYYƏTİ İLƏ TANIŞLIQ

*(24 sentyabr 2017-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Salyan rayonunun Xıdırlı kəndində dəniz suyunun duzsuzlaşdırılması kompleksinin fəaliyyəti ilə tanış olmuşdur.

Son illər ölkəmizdə su ehtiyatlarından istifadənin yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu tədbirlər sırasında Salyan rayonunun Xıdırlı kəndində dəniz suyunu içməli su səviyyəsinə qədər təmizləməyə imkan verən kompleksin yaradılması mühüm əhəmiyyət daşıyır.

Kompleks barədə dövlət başçısına məlumat verildi. Bildirildi ki, Xəzər dənizinin suyunun duzsuzlaşdırılması kompleksi 2013-cü ildə istifadəyə verilib. 2016-cı ildə kompleksdə əlavə tikinti işləri aparılmadan ikinci xətt quraşdırılıb. Hər xəttin istehsal gücü 1000 kubmetrə bərabərdir. Yəni gün ərzində dənizdən qəbul edilən 2500 kubmetrə yaxın duzlu su müəssisəyə daxil olur və həmin sudan 2000 kubmetr içməyə yararlı su istehsal edilir. Aparılan tikinti və yenidənqurma işləri nəticəsində dənizdən suyun götürülməsi üçün uzunluğu 200 metr olan damba inşa edilib. Müəssisədə əks-osmos membranları ilə təchiz olunmuş yüksək texnoloji avadanlıq və elektron idarəetmə sistemi qurulub. Həcmi 500 və 200 kubmetr olan xüsusi örtüklə izolyasiya edilmiş 3 metal su çəni quraşdırılıb, tutumu 500 və 2500 kubmetr olan yeraltı su anbarları inşa edilibdir.

Bildirildi ki, müəssisədə istehsal olunan su içməli su göstəricilərinə tam uyğundur. Hazırda istehsal olunan suyun böyük əksəriyyəti, təqribən 90 faizi ətraf ərazilərdə salınan 700 hektara yaxın yaşıllıqların suvarılmasında, qalan hissəsi isə məişətdə istifadə edilir. Bu pilot layihə yalnız dəniz suyunun duzsuzlaşdırılması ilə kifayətlənməyib, eyni zamanda, Şirvan kollektorunun suyunun duzdan təmizlənməsini həyata keçirir. Bu çərçivədə kollektorda 2013-cü ildə birinci, ötən il isə gün ərzində 2500 kubmetr suyu duzsuzlaşdıran ikinci xətt istismara verilib. Ümumiyyətlə isə Şirvan kollektoru üzərində quraşdırılan qurğular gündə 5000 kubmetr suyu içməli su həddinə kimi duzsuzlaşdırır. Sutka ərzində duzsuzlaşdırılan 7000 kubmetr su 1750 hektar ərazidə yaşıllıqların suvarılmasına kifayət edir.

Onu da deyək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin «Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu» Açıq Səhmdar Cəmiyyəti kompleksin ərazisində qapalı şəraitdə tinglər yetişdirir. Buradakı 1 milyon 600 minə yaxın tingin suvarılmasında duzsuzlaşdırılmış sudan istifadə olunur. Dövlət başçısının meşə massivlərinin yaradılması ilə bağlı tapşırıq və tövsiyələrinin icrasına mühüm töhfə olan bu layihə çərçivəsində əsasən zeytun, tut, badam, innab, nar, həmçinin müxtəlif həmişəyaşıl ağac növlərinin yetişdirilməsi həyata keçirilir. Hazırda tinglik sahələrində 350 min ədəd zeytun, 110 min nar, 1 milyondan çox tut, 100 minə yaxın badam və başqa ting növləri yetişdirilir. Bu tinglər təhkim olunmuş ərazilərdə yeni aqrobağların və yaşıl-lıqların salınmasında istifadə edilir. Ehtiyac olduğu təqdirdə onlardan müəyyən edilmiş qaydalar çərçivəsində aidiyyəti üzrə istifadəçilərə əvəzsiz verilə bilər.

Prezident İlham Əliyev ting sahələrinə baxdı.

Kompleksin fəaliyyəti ilə tanış olan dövlət başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**82-ci kitab: avqust 2017 - oktyabr 2017. - Bakı: Azərnəşr, 2019, S. 241-242.**

# YENİ YARADILAN ŞAMAXI SAFARİ PARKI İLƏ TANIŞLIQ
*(2 oktyabr 2017-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 2-də yeni yaradılan Şamaxı Safari parkı ilə tanış olmuşlar.

Müasir dövrdə ekoturizmin geniş yayılmış növlərindən biri də Safari turizmidir. Turizmin bu növü ilk olaraq zəngin təbiəti ilə seçilən Afrikada yaranıb. «Safari» sözü də Afrika xalqlarından olan tanzaniyalıların dilindən götürülüb, səyahət etmək, yolçuluq, gəzinti mənasını verir. Belə turlar Afrikanın bir sıra ölkələrində Qərbi Avropadan və Amerikadan gələn imkanlı turistlərin maraqlarını yerli vəhşi fauna nümunələri ilə cəlb etmək üçün həyata keçirilib. Bu gün Safari turizmi ovçuluq və ya fotoovçuluq, balıq tutmaq, açıq məkanda təbii halda heyvanları müşahidə etmək məqsədilə təşkil olunan turizm növü kimi məşhurdur. Ənənəvi safarilər heyvanları nəsli kəsilmək təhlükəsi ilə üz-üzə qoyduğu üçün son dövrlərdə təşkilatçılar ov məqsədli turlardan imtina edərək, sırf fotosafarilərə istiqamətləniblər. Fotosafariləri bədii dillə «sakit ov» da adlandırırlar. Azərbaycanda da fotosafari turlarının həyata keçirilməsi üçün geniş imkanlar vardır. Ölkəmizin müxtəlif guşələrində xüsusi mühafizə olunan təbiət əraziləri – milli parklar, qoruqlar xarici turistlərin belə turlara cəlb edilməsində mühüm rol oynaya bilər.

Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi»ndə də bununla bağlı məsələlər yer alıb. Strateji Yol Xəritəsində qeyd edilib ki, Mədəniyyət və Turizm Nazirliyi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə Azərbaycanın ekoloji turizm imkanlarının tədqiqini həyata keçirərək, bunun əsasında milli parklarda müxtəlif turizm fəaliyyətlərinin təşkili ilə bağlı tədbirlər planı hazırlayacaqdır. Yaradılacaq marşrutlar üzrə əlverişli fəaliyyət cədvəli tərtib ediləcəkdir. Buraya milli parklarda potensial turizm kampinq yerlərinin müəyyən edilməsi və işlənib hazırlanması üzrə də təkliflərin irəli sürülməsi daxildir. Təhlil nəticəsində məqsədəuyğun hesab edilərsə, bu kampinq yerlərinin işlədilməsi özəl operatorlara da həvalə oluna bilər. Qeyd edək ki, sənəddə Şamaxı Safari parkının yaradılacağı da qeyd olunmuşdu. Artıq Şamaxı Safari parkı hazırdır.

Parkla tanışlıq zamanı dövlət başçısına və xanımına məlumat verildi ki, Azərbaycanda elmi əsaslarla ov ekologiyasının yaranması, vəhşi populyasiyada olan heyvan növlərinin Azərbaycan təbiətinə adaptasiyası məqsədilə 2014-cü ildə yaradılan «Azər Ekov» MMC qısa müddətdə bu istiqamətdə zəruri olan işləri görməyə başlayıb. «Azər Ekov» MMC ilk olaraq vəhşi dırnaqlılar və maral fermerlərinin Beynəlxalq Assosiasiyasına – IDUBA-ya üzv olub. Bununla da «Azər Ekov» MMC bu assosiasiyanın Cənubi Qafqazda təmsilçilik hüququnu əldə edib və bu quruma Ermənistanın üzv olmasının qarşısını alıb. IDUBA-nın təşkil etdiyi görüşlər sayəsində üzvlər müəyyən vaxt ərzində yığıncaqlar təşkil edib heyvan yetişdirilməsi, ovların təşkili, buynuz ticarəti, yem və yem əlavələrinin istehsalı və s. ilə bağlı fikirlərini bölüşürlər. Bu assosiasiyanın tədbirlərində bərabərhüquqlu üzv kimi iştirak edərkən «Azər Ekov» MMC qarşısına beynəlxalq təcrübəni mənimsəmək, xarici mütəxəssislərin Azərbaycan təbiətinə marağını cəlb etmək kimi hədəflər qoyubdur.

Bildirildi ki, «Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi»ndəki tapşırıqlara uyğun olaraq vəhşi heyvanlar üçün ekoloji qoruğun yaradılması məqsədilə Şamaxı rayonunun ərazisində olan Pirqulu adlanan dağ-meşə sahəsində 620 hektar ərazinin hüdudları içərisində 480 hektar ərazi beynəlxalq standartlara uyğun formada çəpərlənib. Buraya Latviya, Polşa, Slovakiya, Çexiya və Macarıstan təsərrüfatlarından 3 növdən ibarət 420 baş nəcib maral, lan və muflon adlı genetik qiymətli heyvanın

gətirilərək, xüsusi mühafizə olunan əraziyə buraxılması təmin edilibdir. Görülən seleksiya və baytarlıq tədbirləri nəticəsində bu heyvanların sayı 2 dəfəyə yaxın artıbdır. Belə ki, hazırda parkda 790 heyvan, o cümlədən 260 baş nəcib maral, 250 baş muflon və maral cinsinə daxil olan 280 baş lan vardır.

Ekoloji parkın daxili infrastrukturunun yaradılması istiqamətində də mühüm işlər görülüb. Belə ki, 36 kilometr uzunluğunda enli yol çəkilib. Bundan başqa, heyvanlar üçün çox sayda təbii daldalanacaqlar düzəldilib. Maral, lan və muflonları kənar təsirlərdən və yoluxucu xəstəliklərdən qorumaq üçün beynəlxalq standartlara uyğun dəmir-beton dayaqlara hörülmüş 52 kilometr uzunluğunda çəpər çəkilib. Bundan başqa, parkın ərazisində inzibati bina və Qonaq evi də inşa olunub. İnzibati bina və Qonaq evinin ərazisində geniş abadlıq işləri aparılıbdır.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**82-ci kitab: avqust 2017 - oktyabr 2017. - Bakı: Azərnəşr, 2019, S. 313-115.**

## QOBUSTAN ŞƏHƏRİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK

*(2 oktyabr 2017-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də "Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin yekunlaşması ilə bağlı təşkil olunan mərasimdə iştirak edib.

Son dövrlərdə ölkəmizdə sosial sahədə həyata keçirilən siyasətin tərkib hissəsi kimi əhalinin dayanıqlı və təmiz içməli su ilə təminatı, həmçinin kanalizasiya şəbəkələrinin yenilənməsi istiqamətində icra edilən layihələrin də həcmi artır. Bu baxımdan "Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi də mühüm əhəmiyyət daşıyır. Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması Azərbaycan hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin birgə maliyyələşdirdiyi "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi" çərçivəsində həyata keçirilib. Layihə 2030-cu ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Qobustan şəhərində 11700 nəfərin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində rayonun Təsi, Bədəlli, Sədəfli, Dərəkənd, Cəmcəmli, Ərəbqədim və Göydərə kəndlərinə suyun verilməsi təmin edilib. İcrasına 2015-ci ildə başlanan layihə çərçivəsində rayonun Təsi kəndinin yaxınlığında ümumi məhsuldarlığı saniyədə 87 litr olan 6 subartezian quyusu qazılıb, Daşarası və Nərimankənd kəndlərinin ərazisində 2 su anbarı inşa edilib. Eyni zamanda, 14,4 kilometr uzunluğunda magistral kəmər çəkilib, mürəkkəb relyef şəraiti nəzərə alınmaqla suyun şəhərə çatdırılması üçün üçpilləli nasos sistemi quraşdırılıb. Əhaliyə verilən içməli suyun keyfiyyət göstəricilərinin uzunmüddətli dövr üçün standartlara uyğunluğunu təmin etmək məqsədilə su mənbəyində məhsuldarlığı sutkada 3800 kubmetr olan əks osmos tipli təmizləyici qurğunun inşası yekunlaşmaq üzrədir. "Kiçik şəhərlərdə su təchizatı və kanalizasiya layihəsi" çərçivəsində Qobustan şəhəri ilə yanaşı, Qusar, Naftalan, Xaçmaz və Xızı şəhərlərinin də içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri həyata keçirilir. Qusar və Naftalan şəhərlərində su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi yekunlaşıb. Hazırda Xaçmaz və Xızıda içməli su və kanalizasiya şəbəkələrinin tikintisi davam etdirilir.

Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Rayon ictimaiyyətinin nümayəndələrini salamlayan dövlətimizin başçısı mərasimdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Yenidən Qobustan rayonunda olmağımdan çox məmnunam. Bu, mənim rayona dördüncü səfərimdir. Əlbəttə rayonda olanda önəmli tədbirlər, açılışlar nəzərdə tutulur.

Bu gün biz şəhərə içməli suyun verilməsini rəsmən qeyd edirik. Bir neçə aydır ki, bu layihə başa çatıb və Qobustan şəhərinin içməli su problemi artıq öz həllini tapıb. Bu, çox əlamətdar hadisədir, tarixi hadisədir. Çünki içməli su problemi həmişə burada insanları çox ciddi narahat edirdi. İndi isə bu problem birdəfəlik həll olunub. Artıq şəhər sakinləri və bir neçə kəndin əhalisi təmiz, keyfiyyətli, dayanıqlı içməli su ilə təmin olunurlar. Bu hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu, böyük layihədir, böyük sosial təşəbbüsdür, böyük vəsait tələb edən məsələdir. Biz bu vəsaiti təşkil etdik, dövlət büdcəsində vəsait nəzərdə tutuldu ki, bu məsələ də öz həllini tapsın. Çünki içməli su insanın sağlamlığına çox ciddi təsir edən amildir. Təmiz içməli su insanın sağlamlığını daha da yaxşılaşdırır.

İçməli su layihələri ölkəmizdə geniş vüsət alıb. İndi bir çox şəhərlərimizdə artıq bu layihələr başa çatıb, bəzi şəhərlərdə davam edir. Qarşıya məqsəd qoyulmuşdur ki, bütün şəhərlərimizdə və əksər kəndlərdə bu məsələ öz həllini tapsın və biz bu istiqamətdə çox ciddi addımlar atırıq.

İnsan sağlamlığı üçün digər vacib məsələlər də öz həllini tapır. Bildiyiniz kimi, ölkəmizdə ənənəvi olaraq müayinədən keçmə proqramı da icra edilir, hər il beş milyondan çox vətəndaş pulsuz tibbi müayinədən keçir. Qobustanda Mərkəzi Rayon Xəstəxanasının tikintisinə əlavə vəsait ayrılacaq, indi işlər daha da sürətlə getməlidir və müvafiq göstəriş veriləcək, çünki tikinti başlamışdır, amma bir az yavaş gedir. Biz onu gərək sürətləndirək ki, bu məsələ də Qobustan rayonunda öz həllini tapsın. İnfrastrukturla bağlı digər layihələr uğurla icra edilir, elektrik enerjisi ilə bağlı problemlər demək olar ki, öz həllini tapıbdır. Mənə verilən məlumata görə, qazlaşdırma 80 faizdən çoxdur və növbəti aylarda daha da geniş vüsət alacaq. Hesab edirəm ki, qazlaşdırma maksimum təmin edilməlidir. İçməli su ilə bağlı problem öz həllini tapır, kənd yollarının tikintisi davam edir. Biz bir layihəni icra etmişik. Bu layihə təqribən 13 minə yaxın əhalini əhatə edir. Bu gün isə növbəti kənd yolunun açılışını qeyd edəcəyik. Açılacaq bu yol da 15 min insanın işini yüngülləşdirəcəkdir. Yəni, bunlar əsas infrastruktur layihələridir ki, Qobustan rayonunda öz həllini tapır.

Onu da qeyd etməliyəm ki, səfərlərimin birində biz burada həm külək, həm də günəş alternativ enerji mərkəzinin açılışını etmişik. Bu, ölkəmiz üçün pilot layihə idi. İndi isə ölkəmizin bir çox yerlərində bu layihələr icra edilir.

Əlbəttə, bütün infrastruktur layihələri həyata keçiriləndən sonra, - onu da qeyd etməliyəm ki, Bakı-Şamaxı avtomobil yolunun da dörd zolağa genişləndirilməsi layihəsi də uğurla icra edilib, - gələcəkdə ancaq rayonun inkişafı ilə bağlı kənd təsərrüfatı və emal sənayesi layihələri icra edilməlidir. Əvvəlki dövrlərdə idman mərkəzi də tikilmişdir, əminəm ki, xəstəxana da yaxın vaxtlarda tikiləcək. Bir çox məktəblər tikilib, təmir edilib. Bu gün bir bağçanın açılışını da qeyd etdik. Növbəti illərdə qəzalı vəziyyətdə olan məktəblər təmir ediləcək, yeni məktəblər tikiləcək. Beləliklə, bundan sonra rayonun inkişafına çox böyük təkan veriləcək və insanlar rahat yaşayacaqlar. İş yerləri də yaradılır və ümumi iqtisadi inkişafımız çox müsbətdir. Əminəm ki, bu ili biz uğurla başa vuracağıq.

Gələn il isə sürətli iqtisadi inkişaf ili olacaqdır. İqtisadi sahədə əldə etdiyimiz nailiyyətlər həm bizim statistik göstəricilərdə, eyni zamanda, mötəbər beynəlxalq iqtisadi qurumların hesabatlarında da öz əksini tapır. Yəqin ki, siz eşitmisiniz, bu yaxınlarda Davos Ümumdünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görübdür. Biz iki pillə qabağa getdik, artıq 37-ci yerdən 35-ci yerə layiq görüldük. Bu da çox böyük nəticədir. Onu da qeyd etməliyəm ki, MDB məkanında biz birinci yerdəyik. Artıq neçə ildir ki, liderliyi saxlayırıq və bir çox inkişaf etmiş ölkələri də qabaqlamışıq. Nəzərə alsaq ki, keçən il və bu il neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar ölkəmizdə müəyyən çətinliklər, iqtisadi sahədə bəzi problemlər yaranmışdır, buna baxmayaraq, görün, biz nə qədər uğurla iş aparmışıq, nə qədər ciddi islahatlar həyata keçirmişik ki, bunu dünyanın birinci iqtisadi forumu olan Davos Forumu yüksək qiymətləndirir. Bu, bir daha onu təsdiqləyir ki, biz düzgün yoldayıq, bizim iqtisadi siyasətimiz Azərbaycan xalqının maraqlarına tam cavab verir, ölkəmiz güclənir. Onu da qeyd etməliyəm ki, bu il neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, biz valyuta ehtiyatlarımızı artıra bilmişik. Bu, onu deyir ki, biz hətta çətin illərdə də düzgün siyasət apararaq nəinki ehtiyatlarımızı xərcləməmişik, əksinə, biz əlavə pul qazanmışıq. Bu pul ölkəmizin, xalqımızın maraqlarına xidmət göstərir. Bu pulla biz məktəblər, xəstəxanalar tikirik, yollar, su xətləri çəkirik, ölkəmizin müdafiə qüdrətini gücləndiririk.

Bu gün Azərbaycan dünya miqyasında sabitlik, inkişaf, tərəqqi baxımından seçilən ölkələrdəndir. İndi siz dünyada gedən prosesləri izləyirsiniz. Həm iqtisadi, həm siyasi, həm hərbi sahədə bir çox yerlərdə çox böyük problemlər var. Risklər, təhdidlər artır, qan tökülür, münaqişələr, müharibələr alovlanır, sabitlik pozulur. Azərbaycan isə sabitlik, inkişaf adasıdır. Düşünülmüş siyasət, xalqla iqtidar arasındakı birlik və bizim xalqımıza xas olan vətənpərvərlik – bax, bu amillər uğurlarımızın əsasını təşkil edir.

Sizə bu gözəl hadisə münasibətilə uğurlar arzulayır, sizi təbrik edirəm. Əminəm ki, gələcəkdə Qobustan rayonunda hələ çox açılışlar olacaq, biz sizinlə tez-tez görüşəcəyik.

* * * *

Qobustanın inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına rayon ictimaiyyəti adından minnətdarlıq edən Ənvər QAYIBOV dedi:

\- Möhtərəm cənab Prezident.

İcazə verin, bütün qobustanlılar adından Sizi salamlayım, Sizə "Xoş gəlmisiniz!" deyim. Bu gün bizim sevincimizin həddi-hüdudu yoxdur. Bu sevincimizi sözlə ifadə etməyə çətinlik çəkirəm. Qobustana, eləcə də onun ətraf kəndlərinə suyun verilməsi, sözün həqiqi mənasında, bizim üçün bayramdır, təntənədir. Çünki biz uzun illər su sarıdan müəyyən çətinliklər çəkirdik. Belə ki, əvvəllər içməli suyu müxtəlif mənbələrdən maşınlarla gətirir, çənlərə doldurur, sonra ondan istifadə edirdik. Sözsüz, bu da bizim səhhətimizə, sağlamlığımıza, eləcə də büdcəmizə mənfi təsir göstərirdi. Siz bizim əsas problemimiz olan su problemini həll etdiniz. Bununla bizə böyük töhfələr bəxş etdiniz. Artıq biz qapımızda, həyatimizdə krantı açmaqla daimi olaraq içməli sudan istifadə edirik. Bu, Sizin bütün Azərbaycan vətəndaşlarına göstərdiyiniz qayğı və diqqətin nəticəsidir.

Möhtərəm Prezident, məlumdur ki, su aydınlıqdır, inkişafdır, tərəqqidir, mədəniyyətdir, nemətlər bolluğudur. Bir sözlə, su həyatdır. Həqiqətən bu həyatı bizə Siz bəxş etdiniz. Mən buna görə Sizə minnətdarlığımı bildirirəm.

Siz bizim təkcə su problemimizi həll etməmisiniz. Siz bizim Qobustanımızı da yenidən qurmusunuz. Qobustan kiçik bir qəsəbə idi. 2008-ci ildə Siz ona şəhər statusu verdiniz. Qobustan yenidən quruldu, inkişaf etdi, tərəqqi tapdı. Hazırda inkişaf etmiş, müasir bir şəhərə çevrilib.

Əlbəttə, mən bir faktı da qeyd etmək istəyirəm ki, - Siz də qeyd etdiniz, - suyumuz, qazımız, işığımız, bərəkətli torpaqlarımız, zəhmətkeş insanlarımız var. Mən inanıram ki, Qobustanın gələcəyi daha uğurlu olacaq, daha çox nailiyyətlər əldə edəcəyik. Bütün bu əmin-amanlığı, bu rahatlığı, bu gözəlliyi yaratdığınıza görə mən bütün qobustanlılar adından, xüsusən ağsaqqallar, ziyalılar adından Sizə minnətdarlığımı bildirirəm. Allah Sizi qorusun, sağ olun.

* * * *

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına layihə barədə məlumat verdi. Layihə çərçivəsində Qobustan şəhərində 68 kilometrlik içməli su şəbəkəsi yaradılıb, 1900 ünvana birləşmə verilib, bütün abunəçilər sayğacla təmin edilib. Artıq bütün şəhər əhalisi yeni şəbəkə vasitəsilə keyfiyyətli və dayanıqlı su ilə təmin olunur. Layihəyə uyğun olaraq Qobustan şəhərində ilk dəfə kanalizasiya şəbəkəsi yaradılıb, 42 kilometr uzunluğunda kanalizasiya xəttinin və 1160 baxış quyusunun inşası yekunlaşıb və hər bir evə birləşmə verilib. Şəhərdə yaranan tullantı sularının toplanıb təmizləyici qurğuya ötürülməsi üçün 7 kilometrlik kanalizasiya kollektoru da tikilib. Tullantı sularının

zərərsizləşdirilməsi üçün məhsuldarlığı sutkada 2500 kubmetr olan təmizləyici qurğunun inşası üzrə keçirilən tender prosedurları son mərhələdədir və qarşıdakı aylarda tikinti-quraşdırma işlərinə başlanılacaq.

Bildirildi ki, layihə çərçivəsində Qobustan Sukanal İdarəsi üçün yeni inzibati bina da inşa edilib. Burada işçi otaqları, informasiya-texnologiyaları otağı, iclas zalı yaradılıb. Bir sözlə, burada müştərilərə yüksək səviyyədə xidmət göstərmək üçün hərtərəfli şərait var. İnzibati binanın həyətində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Qeyd olundu ki, yeni layihənin icrasına qədər Qobustan şəhərində 1950-ci illərdə yaradılmış su təchizatı sistemlərindən istifadə olunurdu. Şəhərə içməli su Xaltava və Təsi kəndləri ərazisində yerləşən subartezian quyularından verilirdi. Əvvəllər mövcud olmuş 42 kilometrlik su şəbəkəsi şəhəri tam əhatə etmir və istismar tələblərinə cavab vermirdi. "Azərsu" ASC 8500 nəfər əhalisi olan Qobustan şəhərinin təqribən 20 faizinə xidmət göstərə bilirdi. İçməli su həftənin 3 günü olmaqla cəmi 1-2 saatlıq qrafiklə verilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Qobustan şəhərində kanalizasiya sistemi isə yeni layihə icra edilənədək ümumiyyətlə mövcud olmayıb.

Sonra Prezident İlham Əliyev Qobustan şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.

Sonda xatirə şəkli çəkdirildi.

**Xalq qəzeti.- 2017.- 3 oktyabr.- № 215.- S.2-3.**

## «AĞ ŞƏHƏR» DƏ GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*(24 dekabr 2017-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də Bakı «Ağ şəhər»də Xaqani Rüstəmov küçəsinin, bu küçənin üzərində yerləşən dairə və dördçıxışlı piyada keçidinin açılışında, yeni salınmış parkın, inşası və abadlığı başa çatan məhəllələrin təqdimat mərasimində iştirak etmişlər.

Ulu öndər Heydər Əliyevin xeyir-duası ilə paytaxtdakı «Qara şəhər» öz yerini əzəmətli Bakı «Ağ şəhər»ə verməkdədir. Prezident İlham Əliyevin diqqəti və qayğısı sayəsində bu mükəmməl layihə reallığa çevrilir, miqyası və keyfiyyətinə görə diqqəti cəlb edir. Bakı «Ağ şəhər»də böyük həcmdə tikinti-quraşdırma və abadlıq işləri görülüb, neft tullantıları ilə çirklənmiş sahələrin təmizlənməsi yekunlaşıbdır.

Müxtəlif memarlıq üslublarını, ekoloji məsələləri və Bakı «Ağ şəhər»in paytaxtın digər hissələri ilə üzvi şəkildə qovuşmasını ehtiva edən layihənin reallaşması sırf peşəkarlara etibar edilib. Burada mükəmməl infrastruktur yaradılır. Yeni yollar, səkilər salınarkən onların ən müasir standartlara maksimum cavab verməsi, əhalinin rahatlığı, təhlükəsizliyi xüsusi diqqət mərkəzində saxlanılır. Bakı «Ağ şəhər»in tikintisi və burada infrastrukturun yaradılması zamanı dövlət başçısının tapşırıqlarına əsasən kompleks iş aparılır, bütün mövcud tələblər və gələcək inkişaf nəzərə alınır. Yerli şirkətlərlə yanaşı, dünya şöhrətli iqtisadi qurumlar da bu layihəyə cəlb edilib. Bakı «Ağ şəhər» nəinki respublikamızda, eləcə də beynəlxalq səviyyədə tanınan layihədir. Ötən müddətdə bu layihə beynəlxalq səviyyədə bir sıra yüksək mükafatlara layiq görülüb. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Bakı «Ağ şəhər»də ekoloji problemlərin həlli ən başlıca prioritetlərdən biridir. Hazırda Bakı «Ağ şəhər» nəhəng tikinti meydançasını xatırladır. Burada milli memarlıq ənənələri ilə beynəlxalq təcrübənin yaradıcı şəkildə uzlaşdırılmasına da xüsusi fikir verilir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov və Bakı «Ağ şəhər» layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlət başçısına ərazidə görülən işlər barədə məlumat verdilər.

Bakının 2 əsas prospektini – Babək və Nobel prospektlərini və Mərkəzi Bulvar küçəsini birləşdirən, «Ağ şəhər» bulvarına qədər davam edən və uzunluğu 1050, eni 45 metr olmaqla, 6 zolaqlı Xaqani Rüstəmov küçəsinin yenidən qurulma işləri tamamlanıb. Bu küçədə avtomobillər üçün xüsusi parkinq yerləri də nəzərdə tutulub. Xaqani Rüstəmov küçəsi ilə Süleyman Vəzirov küçəsinin kəsişməsində diametri 66 metr olan yeni dairə inşa edilib. Bu dairə tam fərqli və orijinal dizaynda inşa olunub. Burada yaşıllaşdırma işləri aparılıb və ətraf dekorativ daşlarla bəzədilibdir.

Prezident İlham Əliyev Xaqani Rüstəmov küçəsi, bu küçənin üzərində yerləşən dairə və dördçıxışlı piyada keçidin rəmzi açılışını bildirən lenti kəsdi.

Xaqani Rüstəmov və Süleyman Vəzirov küçələrinin kəsişməsində uzunluğu 220 metr olan yeraltı piyada keçidində də tikinti işləri tamamlanıb, burada 8 eskalator, işıqlandırma sistemi və nəzarət kameraları quraşdırılıbdır. Müasir üslubda dizayn olunmuş piyada keçidində vətəndaşların rahatlığı üçün yol istiqamətləri qeyd edilib, divarlar Bakı «Ağ şəhər»in perspektiv görüntülərini əks etdirən vitrinlərlə bəzədilibdir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı «Ağ şəhər»in tikintisi və abadlığı başa çatmış Babək qərb kvartalında, Mərkəzi Bulvar və Süleyman Vəzirov küçələrinin kəsişməsində yeni salınmış parkla da tanış oldular.

Sahəsi 6800 kvadratmetr olan park üçün xüsusi işlənilmiş landşaft dizaynına uyğun olaraq müxtəlif ağaclar əkilib, uşaq oyun meydançası salınıbdır. Burada 2017-ci ilin sentyabrında Heydər Əliyev Fondu tərəfindən təşkil edilmiş «Daşın nəğməsi» ikinci Beynəlxalq heykəltəraşlıq simpoziumu çərçivəsində təqdim olunmuş çinli heykəltəraş Liu Yanqın əsəri olan «Xəzər dənizi» heykəli qoyulub. Parkda ictimai «wi-fi» və telefon köşkü qurulub. Burada «Qara şəhər»in tarixi barədə məlumat lövhəsi, müasir üslublu saat quraşdırılıb. Yer səthində tuncdan hazırlanmış xatirə-medalyonda Babək kvartalı ilə bağlı məlumatlar əksini tapır. Parkın qonşuluğundakı yaşayış binasının fasadında mozaika işləmələri bu məhəllənin özünəməxsus memarlıq üslubunu əks etdirir.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı «Ağ şəhər» ərazisində tikintisi və abadlığı başa çatmış məhəllələrlə tanış olmaq üçün avtobusla gəzintiyə çıxdılar.

Dövlət başçısına Babək qərb kvartalının «Paris evləri», məhəllədə aparılmış abadlıq və yaşıllıq, infrastruktur-kommunikasiya işləri barədə məlumat verildi. Burada sakinlərin rahatlığı və mənalı istirahətləri üçün hərtərəfli şərait vardır. Məhəllələrdə uşaqlar üçün oyun meydançası, yaşıllıq zonası, yerüstü və yeraltı avtodayanacaq mövcuddur. Binaların girişləri xüsusi döşəmə daşları, yaşayış komplekslərinin adlarını əks etdirən divar lövhələri və yaşıllaşdırma ilə fərqlənir. Məhəllələrin təhlükəsizliyi də sutka ərzində diqqətdə saxlanılır. «Paris evləri»ndə dayanıqlı elektrik enerjisi, su, qaz, kanalizasiya xətləri, internet və İP TV əlaqədar qurumlar tərəfindən Bakı «Ağ şəhər»in baş planına uyğun şəkildə və yüksək keyfiyyətlə çəkilib. Tikinti və yenidənqurma işləri çərçivəsində Süleyman Vəzirov, Mərkəzi Bulvar və Birinci Fəvvarələr küçələrində, həmçinin kəsişən 7 kiçik küçədə də təmir və asfaltlanma işləri başa çatıb. Ümumi uzunluğu 3,5 kilometr olan küçələrdə yağış suları ötürücüləri, işıqlandırma dirəkləri, yol nişanları, oturacaqlar, tullantılar üçün qablar quraşdırılıb və 2000-dən çox ağac əkilibdir. Tikinti ərazisinə düşən köhnə ağaclar yeni yerlərə köçürülüb. Küçələrin adları binaların üzərindəki lövhələrlə yanaşı, səkilərdə də daş nişanlarla qeyd edilib, vətəndaşları istiqamətləndirən yol göstəriciləri quraşdırılıb. Şəhərsalma prinsiplərinə uyğun olaraq piyadanın üstünlüyünü bildirən yüksəldilmiş keçidlər ilk dəfə inşa olunub, enişli-yoxuşlu ramplar qoyulub, həmçinin avtomobillər üçün xüsusi parkinq yerləri də nəzərdə tutulubdur.

Birinci Fəvvarələr küçəsində də tikinti işləri yekunlaşıb. Fəvvarələr Meydanında müasir üslubda inşa olunmuş ilk binanın fasad işləri də tamamlanıb. «Paris evləri»ndən fərqli olaraq, buradakı yaşayış binalarının müasir memarlıq üslubu Bakı «Ağ şəhər»in memarlıq üslublarının rəngarəngliyini təmin edəcəkdir. Mərkəzi Bulvar və Fəvvarələr küçələrinin kəsişməsində park salınıb, küçə saatı quraşdırılıb. Buradakı heykəllər və yaşı yüzillərlə ölçülən dekorativ zeytun ağacları küçəyə gözəllik verir. Eni 32 metr, uzunluğu 1 kilometrə qədər olan Fəvvarələr küçəsi «Ağ şəhər»in mərkəzindən Nobel prospektinə qədər və oradan da Sahilyanı kvartala qədər uzanacaqdır.

Avtobusla gəzinti zamanı Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya 2016-cı ildə sakinlərə təhvil verilmiş məhəllələr, Bakı «Ağ şəhər» layihəsi çərçivəsində 2017-ci il ərzində yerinə yetirilən və 2018-ci il üçün nəzərdə tutulmuş işlər barədə məlumat verildi. Bildirildi ki, Prezidentin müvafiq sərəncamlarına əsasən aidiyyəti qurumlar tərəfindən infrastruktur və yol işləri davam etdiriləcək. Mərkəzi Bulvar küçəsinin Nobel prospektinə qədər inşasının tamamlanması, Süleyman Vəzirov küçəsinin Babək prospektinə qədər yenidən qurulması, Babək prospektindən Bakı «Ağ şəhər»in mərkəzinə qədər uzanan, 37 metr eni olan yolların və yeraltı kommunikasiyaların inşası nəzərdə tutulubdur.

Təməli ötən il qoyulmuş Fəvvarələr Meydanı parkı, piyada keçidi və ictimai parkinq kompleksində tikinti işləri davam etdirilir. Müasir üslublu yeddimərtəbəli yaşayış binalarının əhatə etdiyi parkda 3 qrupdan ibarət fəvvarələr, məxsusi uşaq meydançası, xüsusi dizaynlı landşaft və 760 yerlik avtodayanacaq layihələndirilib. Bu kompleksin sahəsi 1 hektardan çox olan Fəvvarələr Meydanı parkının gələn il təhvil verilməsi planlaşdırılıb. Şəhərin ən iri parklarından biri olan Nizami parkının yaxınlığında yerləşən «Knightsbridge» kompleksində yaşayış binaları, biznes mərkəzi və məktəb layihələndirilib. Hazırda bu kompleksdə inşaat işləri davam etdirilir və artıq buradakı ilk binanın tikintisi başa çatmaq üzrədir. Binanın fərqli memarlıq üslubu və landşaft dizaynı Nobel prospektinə xüsusi yaraşıq verir.

Dövlət başçısına burada və digər məhəllələrdə nəzərdə tutulmuş orta məktəb layihələri və onlar üçün ayrılmış ərazilər barədə də məlumat verildi. Nobel prospekti boyunca tikiləcək və layihənin işgüzar kvartalı kimi nəzərdə tutulan fərqli memarlıq üslubuna malik binalar dünya səviyyəli tanınmış UN Studio memarlıq bürosu tərəfindən işlənilib. Binaların mərkəzində yerləşəcək Zaman Meydanı, «Knightsbridge» kompleksi və Nizami parkı istiqamətində metro çıxışları bu mərkəzin şəhərin digər rayonları ilə nəqliyyat bağlantısını təmin edəcək. Burada inşa ediləcək metro çıxışları eyni zamanda, Nobel prospektinin şimal və cənub hissələrini birləşdirən piyada keçidini də təmin edəcəkdir. Prospektin üzərindən salınacaq yüksək səviyyəli piyada körpüsü isə Bakı «Ağ şəhər»in şimalı ilə cənubunu birləşdirəcək və prospektin yeni rəmzinə çevriləcəkdir. Uzunluğu 237 metr olan körpü cənubda Sahilyanı kvartalda yerləşəcək ticarət mərkəzinə və şimalda Fəvvarələr Meydanından keçərək, Babək prospektinə qədər uzanacaqdır. Belə ki, piyadalar şimalda yerləşən Babək prospektindən Mərkəzi Park rayonu, Fəvvarələr Meydanı və körpü vasitəsilə «Ağ şəhər» bulvarına qədər 2 kilometrlik piyada gəzinti xiyabanından istifadə edəcəklər. Nobel prospekti boyunca eni 20 metrədək olan gəzinti və yaşıllıq zonası da mühüm əhəmiyyət kəsb edəcək və piyadaların rahatlığını təmin edəcəkdir. Bakı «Ağ şəhər»in paytaxtın yol-nəqliyyat şəbəkəsinə inteqrasiyası, layihənin qərbində yerləşən mövcud yaşayış massivləri və yol şəbəkəsi ilə uzlaşması, eləcə də müvafiq yolların şərq istiqamətində davam etdirilməsi və Bakı şəhərinin əsas nəqliyyat arteriyalarından sayılan Nobel, Babək və Heydər Əliyev prospektlərini və gələcəkdə yeni Bulvar yolunu birləşdirən 65 metr enində əlaqələndirici prospektin salınması bu ərazilərin dayanıqlı inkişafını təmin edəcəkdir.

Bakı «Ağ şəhər»də ötən müddətdə həyata keçirilən işlər və növbəti illərdə icrası nəzərdə tutulan tədbirlərlə tanış olan Prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**84-cü kitab: noyabr 2017 - yanvar 2018. - Bakı: Azərnəşr, 2019, S. 228-233.**

## MİNGƏÇEVİR SU ELEKTRİK STANSİYASI YENİDƏNQURMADAN SONRA İSTİSMARA VERİLİB

*(27 fevral 2018-ci il)*

Fevralın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 424 MVt gücündə Mingəçevir Su Elektrik Stansiyasının əsaslı yenidənqurmadan sonra istismara verilməsi mərasimində iştirak edib.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, son illər Azərbaycanda energetika sahəsində çox mühüm layihələr icra olunub. Bu istiqamətdə həyata keçirilən işlər müsbət nəticəsini verməkdədir. Energetika sahəsinin inkişafı ilə bağlı görülən işlər arasında müxtəlif gücə malik yeni elektrik stansiyalarının yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulmasını göstərmək olar. Bu sahədə aparılan islahatlar nəticəsində elektrik stansiyaları həm texniki, həm də görünüş baxımından müasirləşir, onların gücü artırılır. Son 14 ildə ölkədə 30 yeni elektrik stansiyası tikilərək istismara verilib, mövcud generasiya müəssisələri yenidən qurularaq modernləşdirilib. Elektrik enerjisinin istehsal potensialı ölkədaxili tələbatı tam ödəməklə yanaşı, ixrac imkanı da yaradıb.

Azərbaycanın enerji təminatında Mingəçevir Su Elektrik Stansiyasının xüsusi yeri və çəkisi var. Son dövrlərdə stansiyanın müasir tələblər səviyyəsinə çatdırılması və texniki cəhətdən müasirləşdirilməsi istiqamətində olduqca mühüm işlər görülüb. Mingəçevir Su Elektrik Stansiyası uzun illər Azərbaycan əhalisinin və ölkə iqtisadiyyatının elektrik enerjisinə tələbatının ödənilməsində mühüm rol oynayıb. Hələ 1941-ci ildə bu stansiyanın tikintisi və 1945-ci ildə birinci növbəsinin istismara verilməsi barədə qərar qəbul edilib. Lakin İkinci Dünya müharibəsinin başlanması tikinti işlərinin təxirə salınmasına səbəb olub. Nəhayət, 1945-ci ildə Mingəçevir su qovşağının və onun üzərində elektrik stansiyasının tikintisinə başlamaq mümkün olub. 1951-ci ildə burada ilk aqreqat istifadəyə verilib. Tikinti işləri isə 1955-ci ildə tamamlanıb. Beləliklə, Mingəçevir Su Elektrik Stansiyası 360 meqavat tam gücü ilə işə salınıb. Tənzimlənən su qovşağı illik orta su axını 12,5 milyard kubmetr olduqda ildə 1,4 milyard kilovat-saat elektrik enerjisi istehsal edilməsinə, 1,2 milyon hektar məhsuldar torpağın suvarılmasına və balıqçılığın inkişafına imkan verib. Su qovşağına yuyulma üsulu ilə yaradılan torpaq bənd, Su Elektrik Stansiyasının suqəbuledicisi, suburaxıcıları, baş bina, elektrotexniki qurğular, Yuxarı Qarabağ və Yuxarı Şirvan suvarma kanallarının suqəbulediciləri daxildir. Stansiyanın su anbarı öz tutumuna görə uzunmüddətli istifadə üçün kifayət qədər su ehtiyatına malikdir.

Diqqətə çatdırıldı ki, müstəqillik illərində Mingəçevir Su Elektrik Stansiyasında yenidənqurma işlərinin aparılmasına ulu öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə başlanılıb. Bu prosesin davamı olaraq, 2010-2017-ci illərdə burada əsaslı yenidənqurma işləri həyata keçirilib. Stansiyada maşın zalının aşağı səviyyəsində yerləşən və işçi heyətin təhlükəsizliyi baxımından standartlara uyğun olmayan idarəetmə mərkəzi müasir tələblərə tam cavab verən yeni idarəetmə mərkəzi ilə əvəz edilib. Mərkəzin binasında ulu öndər Heydər Əliyevin büstü qoyulub. Hidroaqreqatlarda və stansiyanın yarımstansiyalarında quraşdırılmış lokal idarəetmə sistemləri stansiyanın mərkəzi idarəetmə sistemi ilə inteqrasiya olunub və enerji sistemi mərkəzi idarəetmə sistemi ilə birbaşa əlaqələndirilib.

Dövlətimizin başçısı Mingəçevir Su Elektrik Stansiyasını əsaslı yenidənqurmadan sonra işə saldı. Bildirildi ki, istismara yararsız iki turbin və generator görülən işlər çərçivəsində gücü 71,5 meqavat olan turbin və generatorla əvəz edilib. 200 meqavat gücündə avtotransformator quraşdırılıb, gərginlikləri 330, 220 və 110 kV olan yarımstansiyalar yerli

idarəetmə sistemləri ilə birlikdə yenidən tikilib istismara verilib. Bu yarımstansiyaların dayanıqlı istismarını və onların bir-biri ilə, eyni zamanda, stansiya ilə əlaqələrini təmin etmək üçün 100 kilometrdən artıq güc, nəzarət və ölçü kabelləri çəkilib. Görülən işlər nəticəsində stansiyanın gücü 284 meqavatdan 424 meqavata çatdırılıb. Burada, həmçinin müasir tələblərə cavab verən yeni inzibati bina inşa edilib, aşağı gərginlikli paylayıcı qurğular və sabit cərəyan avadanlıqları tamamilə dəyişdirilib. Suqəbuledici qurğuda 6 dəst sipər və onların hidravlik qaldırıcıları bütün avadanlığı ilə birlikdə yeni avtomatik tənzimlənən hidravlik qaldırıcılarla əvəz olunub. Stansiyada 6 dəst işçi sipər, 4 dəst təmir sipəri və 3 xüsusi qaldırıcı kran əsaslı təmir edilib, 5300 millimetr diametrli 4 disk bağlayıcısı yeniləri ilə əvəzlənib. Stansiyanın maşın zalında əsaslı təmir-bərpa işləri aparılıb.

Mingəçevir Su Elektrik Stansiyası quraşdırılmış hidroaqreqatların manevr imkanlarına, tənzimlənmə diapazonuna və xarakteristikalarına görə tezliyin tənzimlənməsinin standartla müəyyən edilmiş normalar çərçivəsində aparılmasını təmin edən yeganə elektrik stansiyasıdır. Hazırda burada 130 işçi çalışır.

Ərazidə genişmiqyaslı abadlıq işləri həyata keçirilib, 5 mindən çox ağac əkilib, 15 min kvadratmetr sahəyə asfalt döşənib.

**AZƏRTAC**
**2018, 27 fevral**

## XIZI ŞƏHƏRİNƏ VƏ ALTIAĞAC QƏSƏBƏSİNƏ İÇMƏLİ SUYUN VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK

*(4 may 2018-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də "Xızı şəhərində və Altıağac qəsəbəsində içməli su təchizatı sistemlərinin yenidən qurulması və kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin yekunlaşması ilə bağlı keçirilən mərasimdə iştirak edib.

Azərbaycan Prezidenti əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

-Bu gün Xızı rayonunda çox əlamətdar bir gündür. Biz Xızı şəhərinə içməli suyun verilməsini qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Eyni zamanda, Altıağac qəsəbəsinin su problemi də həll olunub. Çox gözəl layihələrdir. Bu layihələr bir daha onu göstərir ki, bizim sosial siyasətimiz gözəl nəticələr verir və so-sialyönümlü addımlar bundan sonra da atılacaqdır.

Xızı şəhərində içməli su problemi həmişə insanları narahat edirdi. Artıq bu məsələ öz həllini tapıbdır. Xızıda içməli su layihəsinin başa çatması ilə biz demək olar ki, şimal zonasının bütün şəhərlərinin içməli su problemini həll etmiş oluruq. Əvvəlki dövrlərdə Qusar, Quba, Şabran, Siyəzən şəhərlərinin, bu gün isə biz Xaçmaz şəhərinin içməli su layihəsinin açılışını qeyd etdik. Yəni, şimal zonasının şəhərlərinin içməli su ilə bağlı problemləri öz həllini tapıbdır. Bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik etmək istəyirəm.

Ümumiyyətlə, bildirmək istəyirəm ki, ölkəmizdə bütün sosial layihələr uğurla icra edilir. Heç bir sosial layihədə heç bir yubanma yoxdur. Hətta bizim üçün o qədər də asan olmayan, əvvəlki böhranlı illərdə də sosial layihələr tam miqyasda icra edilmişdir, Xızıda da həmçinin. Mənim əvvəlki gəlişimdə burada mərkəzi rayon xəstəxanası açılmışdır, gözəl, müasir binadır. Rayonda 10-na yaxın məktəb tikilmişdir, infrastrukturla bağlı olan digər layihələr icra edilir, qazlaşdırma 90 faizdən çoxdur. Demək olar ki, artıq bütün yaşayış məntəqələri qazla təmin olunub. Əminəm ki, gələcək dövrdə Xızıda qazlaşdırma 100 faizə çatacaq. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur. Əksinə, indi Xızı rayonu bizim ümumi enerji sistemimizi böyük həcmdə elektrik enerjisi ilə təmin edəcək. Yeni Yaşma Külək Elektrik Stansiyası artıq fəaliyyətə başlayır, yoldan keçəndə də bunu görmək mümkündür. Kənd yolları salınır. Bu gün bir yolun açılışını qeyd edəcəyik. Mənə verilən məlumata görə, kənd yollarının 50 faizi yenidən qurulub və ya əsaslı təmir olunub.

Bir sözlə, Xızı rayonunun sosial-iqtisadi inkişafı uğurla gedir. Ümid edirəm ki, gələcək illərdə kənd təsərrüfatı sürətlə inkişaf edəcək. Çünki Taxtakörpü su anbarının tikintisi və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması nəticəsində bütövlükdə bu bölgədə 30 min hektar torpaq sahəsi su ilə təmin ediləcəkdir. Bunun 12 min hektarı Xızı rayonunun payına düşür - 9 min hektar yeni suvarılan sahələr olacaq, 3 min hektar isə su verilmiş, ancaq kifayət qədər olmamış sahələrdir. Son məlumata görə, bu 9 min hektar yeni suvarılacaq torpaqlardan 3 min hektarı artıq suvarma suyu ilə təmin edilib. Əlbəttə, biz gözləyirik ki, Xızı rayonunda kənd təsərrüfatı sürətlə inkişaf etsin. İndi yol ilə gələndə gördüm ki, müasir suvarma sistemləri də qurulur, sahələr pivot suvarma üsulu ilə suvarılır. Beləliklə, həm məhsuldarlıq artacaq, həm də yeni sahələrin dövriyyəyə cəlb edilməsi nəticəsində yeni iş yerləri yaradılacaq. Buna görə mən Xızı rayonunun gələcək inkişafını çox müsbət görürəm, böyük nikbinliklə baxıram. Rayonun inkişafı üçün bütün lazımi tədbirlər

görülüb. Yollar, elektrik enerjisi, qaz xətləri, indi içməli su, xəstəxana. Bildiyiniz kimi, bir neçə ildir ki, ölkəmizdə kütləvi müayinədən keçmə kampaniyası aparılır, hər il 5 milyondan çox insan dövlət hesabına müayinədən keçir və belə gözəl xəstəxanalarda bunu etmək mümkün olur.

Ölkəmizin ümumi sosial-iqtisadi inkişafı da çox müsbətdir. Üç ayın göstəriciləri bizi çox sevindirir. İndi bir neçə gündən sonra dörd ayın yekunları da veriləcək. Əminəm ki, biz dinamikanı nəinki saxlayacağıq, həm də artıracağıq. Ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir. Sosial məsələlərin həllinə gəldikdə, bu günə qədər bir çox sosialyönümlü layihələr həyata keçirilibdir. Bu layihələrin həyata keçirilməsi davam etdiriləcək, eyni zamanda, bütün sosial sahədə tam şəffaflıq yaradılmalıdır. Bu, yeni dövrün tələbidir. Əvvəlki dövrlərdə də mən qarşıya bu vəzifəni qoymuşam və bu gün bir daha çox ciddi tapşırıq verirəm ki, sosial sahədə maksimum şəffaflıq təmin edilməlidir. Əminəm ki, ediləcək və sosial ədalət tam bərqərar olmalıdır.

Azərbaycan dövləti möhkəm əsaslar üzərində qurulub. Biz iqtisadiyyatımızı bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdiririk. Ancaq bununla bərabər, sosial məsələlərin həllinə çox böyük diqqət göstəririk. Bunun nəticəsində ölkəmiz uğurla inkişaf edir. Bunun nəticəsində ölkəmizdə sabitlik, əmin-amanlıq hökm sürür, xalq-iqtidar birliyi gündən-günə möhkəmlənir. Bu gün Azərbaycan inkişaf, sabitlik, xalq-iqtidar birliyi baxımından dünya miqyasında nümunəvi ölkəyə çevrilibdir.

İndi dünyada, bölgədə, qonşuluqda baş verən hadisələri izləyərkən bir daha görürük ki, sosial sahədə pozuntular, bu sahəyə diqqətin göstərilməməsi və xoşagəlməz halların kütləvi xarakter alması böyük çətinliklərə, problemlərə, toqquşmalara gətirib çıxarır. Bizim siyasətimiz həmişə birmənalı olub: güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində biz uğurla inkişaf edirik. Bu gün Azərbaycanda ictimai-siyasi proseslər müsbət istiqamətdə gedir, iqtisadi inkişaf tam təmin edilir və bir çox sosial layihələr icra olunur. Vəzifə isə çox sadədir, onu biz bir neçə il əvvəl qarşımıza qoymuşuq ki, insanları narahat edən bir dənə də problem qalmasın. Məktəblərin, xəstəxanaların, sosial obyektlərin tikintisi, insanların maddi vəziyyətinin yaxşılaşdırılması və infrastrukturla bağlı olan layihələr. Hər bir yerdə, hər bir rayonda və hər bir kənddə bu məsələlərə xüsusi diqqət göstərilir. Əldə edilmiş nəticələr və bu ilin gözəl göstəriciləri tam deməyə əsas verir ki, biz bu düzgün yolla gedəcəyik və bu günə qədər həllini tapmayan məsələlər də yaxın gələcəkdə öz həllini tapacaq. Bu gözəl hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm.

* * * *

Rayon ictimaiyyəti adından Prezident İlham Əliyevə minnətdarlığını bildirən Könül FEYZİYEVA dedi:

-Bugünkü tədbir Xızı sakinləri üçün böyük əhəmiyyət kəsb edir. Bu, tarixi bir hadisədir. Kimin ağlına gələ bilərdi ki, Xızımızda mərkəzləşdirilmiş su və kanalizasiya sistemi yaradılacaq. İllərlə həsrətində olduğumuz içməli su veriləcək. Sakinlərimiz içməli su baxımından çox əziyyət çəkiblər. Onlar uzaq məsafələr qət edərək su daşımaq məcburiyyətində olublar. Artıq Xızı və dörd yaşayış məntəqəmiz içməli su ilə 24 saat müddətində təmin edilibdir. Bu da Sizin diqqətinizin və qayğınızın sayəsində mümkün olub.

Ümumiyyətlə, Sizin rəhbərliyinizlə həyata keçirilən bütün layihələr xalqımıza uğur, rifah gətirir. Mən bir Xızı sakini və xızılı həkim kimi deyə bilərəm ki, suyun insan həyatında rolu əvəzolunmazdır. Belə layihələriniz Sizə və Sizinlə bərabər çalışan çox hörmətli

Mehriban xanıma sevgimizi daha da artırır. Bu il keçirilən prezident seçkilərində xalqımız böyük sevgi ilə, coşqu ilə iştirak etdi, onlar Sizə səs verdi, öz Prezidentimizi seçdik. Xalqımız Sizə səs verməklə öz rifahına, təhlükəsizliyinə, xoş günlərinə səs vermiş oldu. Sizi bir daha bu münasibətlə ürəkdən təbrik edir, işlərinizdə müvəffəqiyyətlər arzulayırıq. Azərbaycanın uğurlarında Sizinlə bərabər çiyin-çiyinə çalışan sevimlimiz Mehriban xanıma da salamlarımızı çatdırmağı xahiş edirik. Tanrı Sizi və ailə üzvlərinizi qorusun.

* * * *

Sonra "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına layihə barədə məlumat verdi.

Azərbaycan Hökuməti və Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən birgə maliyyələşdirilən Xızı şəhəri və Altıağac qəsəbəsinin içməli su təchizatı sistemlərinin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması layihəsi 2030-cu ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla Xızı şəhərində 3300, Altıağac qəsəbəsində isə 1500 nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Rayonun 3 kəndi də daxil olmaqla layihədən cəmi 6,3 min nəfər faydalanacaq. Xızı rayonunda yüksək məhsuldarlığa malik su mənbələri olmadığından yaşayış məntəqələrinin su təchizatının müxtəlif mənbələr hesabına təmin olunması layihələndirilib. Layihəyə əsasən Xızı şəhərinin və Altıağac qəsəbəsinin əsas su mənbəyi sayılan Dahardibidə məhsuldarlığı gündə 864 kubmetr, Qarsda məhsuldarlığı gündə 430 kubmetr, Şəfada məhsuldarlığı gündə 240 kubmetr və Yeddibulaqda məhsuldarlığı gündə 40 kubmetr olan sugötürücü qurğular inşa olunub. Ümumi tutumu 1400 kubmetr olan 4 anbar tikilib, mənbələrdən götürülən suyun anbar kompleksinə nəqli məqsədilə, ümumilikdə, 18 kilometr magistral su xətti çəkilib. Layihə çərçivəsində Xızı şəhərində və Altıağac qəsəbəsində 52,4 kilometr içməli su və 32,4 kilometr kanalizasiya şəbəkələrinin, həmçinin şəbəkə üzərində 1513 baxış quyusunun inşası başa çatdırılıb, hər bir evin və obyektin kanalizasiya şəbəkəsinə qoşulması təmin edilib.

Layihənin icrası zamanı yeni yaradılmış infrastruktur, mənbədən tutmuş sonuncu istifadəçiyə qədər "Azərsu" ASC-nin Coğrafi İnformasiya Sisteminə işlənilib və bu məlumatlar rəqəmsal xəritədə öz əksini tapıb. Coğrafi İnformasiya Sisteminin bir elementi olan Bina-kimlik layihəsi isə abonent haqqında bütün məlumatların xəritə üzərindən alınmasına və çeşidli təhlillərin aparılmasına imkan verir. Buraya abonentin yaşadığı ünvan, əlaqə vasitələri, istifadə etdiyi suyun həcmi, ödənişləri və təhlil üçün lazım olan digər informasiyalar daxildir. Layihə baş vermiş qəza yerinə vaxtında müdaxilə etmək imkanı yaradır ki, bu da istismar prosesini asanlaşdırmaqla su itkilərinin minimuma endirilməsinə gətirib çıxarır. Eyni zamanda, baş verə biləcək fasilələr barədə abonentləri əvvəlcədən məlumatlandırmaq imkanları yaradır.

Hazırda Xızı şəhərində məhsuldarlığı sutkada 1500 kubmetr, Altıağac qəsəbəsində isə məhsuldarlığı sutkada 350 kubmetr olan tullantı sutəmizləyici qurğuların tikintisi üzrə tender prosesi yekunlaşmaq üzrədir. Yeni layihənin icrasına qədər Xızı şəhərində 1985-1991-ci illərdə yaradılmış su təchizatı sistemləri istismar edilirdi. Şəhərdə mövcud 29 kilometr su şəbəkəsi istismara yararsız vəziyyətə düşdüyündən su təchizatı normal həyata keçirilmirdi. Altıağac qəsəbəsində 1980-ci illərin əvvəllərində yaradılmış içməli su təchizatı sistemi də istismar tələblərinə cavab vermirdi. Qəsəbə sakinlərinin 60 faizi mərkəzləşdirilmiş qaydada içməli su ilə təchiz edilirdi. Xızı şəhərində və Altıağac qəsəbələrində kanalizasiya sistemləri isə, ümumiyyətlə, mövcud olmayıb.

Sonra Prezident İlham Əliyev Xızı şəhərinə və Altıağac qəsəbəsinə içməli suyun verilməsini bildirən düyməni basdı.

Layihə çərçivəsində Xızı Sukanal İdarəsi üçün müasir tipli inzibati bina inşa olunub. Binanın foyesində Ulu Öndərin büstü qoyulub. Burada müştəri xidmətləri və istehsalat şöbəsi fəaliyyət göstərəcək. Binada, həmçinin texnoloq, mühəndis, mühasibat otaqları, arxiv, anbar da yaradılıb. Binadakı iclas zalında qurumun fəaliyyəti ilə bağlı müxtəlif toplantılar keçirmək mümkündür.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**
**2018, 4 may**

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜNƏ HƏSR OLUNMUŞ AĞAC ƏKMƏ AKSİYASINDA İŞTİRAK

*(10 may 2018-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Qala–Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağac əkmə aksiyasında iştirak etmişlər.

Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev görülən işlərlə bağlı Prezident İlham Əliyevə məlumat verdi.

Dövlət başçısının tapşırıqlarına və tövsiyələrinə uyğun olaraq, 2008–2018-ci illərdə ölkənin əsas magistral avtomobil yolları boyunca 4443 hektar sahədə salınmış yaşıllıqlarda 5 milyon 436 min müxtəlif növ ağac və kol bitkiləri əkilib. Həmin ağacların əkildiyi sahələr damcılı suvarma sistemi ilə təchiz edilib. Əsasən zeytun, badam, nar, innab, püstə, qoz və fındıq ağaclarının əkilməsinə üstünlük verilibdir.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkdilər.

Ulu öndər Heydər Əliyevin doğum günündə Qala–Türkan magistral avtomobil yolunun ətrafında salınan yaşıllıq massivində Ekologiya və Təbii Sərvətlər Nazirliyi «Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu» Açıq Səhmdar Cəmiyyətinin tinglik sahələrində kökübağlı şəraitdə yetişdirilən 7000-ə yaxın ağac əkildi.

Qeyd edək ki, ekologiya və ətraf mühitin mühafizəsi Azərbaycan dövlətinin qarşısında duran əsas istiqamətlərdən biridir. Ölkəmizin zəngin flora və faunasının qorunması, Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən bütün dövrlərdə çox böyük işlər görülübdür. Ulu öndər tərəfindən əsası qoyulan ənənəni bu gün Prezident İlham Əliyev uğurla davam etdirir. Təsadüfi deyil ki, Azərbaycanda reallaşdırılan milli inkişaf strategiyasının prioritet sahələrindən biri də ətraf mühitin mühafizəsini və insanların sağlam təbii şəraitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Prezident İlham Əliyev tərəfindən 2010-cu ilin ölkədə «Ekologiya ili» elan edilməsi bunun bariz nümunəsidir.

Prezident İlham Əliyev neftlə və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılmasına da xüsusi diqqətlə yanaşır. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı ölkədə ciddi əməli işlər görülüb, milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıbdır. Bir vaxtlar neft tullantıları ilə çirklənmiş indiki «Ağ şəhər» və digər ərazilərdə həyata keçirilən mühüm layihələr nəticəsində neft çöküntüləri təmizlənib. Hazırda bu ərazilər paytaxtın yeni yaşayış və mədəniyyət komplekslərinə, Prezident İlham Əliyevin dediyi kimi, müasir ekoloji layihələrə çevrilib. Bütün bunlar ətraf mühitin qorunmasına, xüsusilə də vətəndaşların sağlam mühitdə yaşamasına xidmət edir. Ekoloji vəziyyətin yaxşılaşdırılması üçün tədbirlərin görülməsi, həmçinin qanunsuz ağac kəsilməsinə qarşı dövlət başçısının nümayiş etdirdiyi qətiyyətli mövqenin təməlində isə yalnız bir amal dayanıb: insanların sağlamlığının qorunması.

Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yeni yaşıllıqların salınmasına və mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu vardır.

Qeyd edək ki, müxtəlif vaxtlarda həyata keçirilən ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə edib. Bu gün vətəndaşların, xüsusilə gənclərin ağac əkmə aksiyalarında, yaşıllıqlar salınmasında, şəhər və rayonlarımızda təmizlik işlərində fəal iştirakı bunun əyani göstəricisidir. Ekspertlərin fikrincə, hazırda Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunə ola bilər.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**86-cı kitab: mart 2018 - may 2018. - Bakı: Azərnəşr, 2019, S. 321-323.**

## «ŞAMAXI SAFARİ» PARKI İLƏ TANIŞLIQ
*(26 avqust 2018-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 26-da «Şamaxı Safari» parkında olmuşlar.

«Azər Ekov» MMC-nin direktoru Tofiq Həsənov park haqqında məlumat verdi. Bildirildi ki, «Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi»ndəki tapşırıqlara uyğun olaraq, vəhşi heyvanlar üçün ekoloji qoruğun yaradılması məqsədilə Şamaxı rayonunda Pirqulu adlanan dağ-meşə massivində 620 hektar ərazinin hüdudları içərisində 480 hektarlıq sahə beynəlxalq standartlara uyğun formada çəpərlənib. İstifadəyə verildiyi vaxt parkda 790 baş heyvan – nəcib maral, lan və muflon kimi genetik qiymətli heyvanlar var idi. Görülən seleksiya və baytarlıq tədbirləri nəticəsində bu heyvanların sayı hazırda 1000-i ötübdür.

Məlumat verildi ki, Təhsil Nazirliyi ilə əldə olunan razılığa əsasən, sentyabrdan başlayaraq, hər həftəsonu məktəblilər üçün Safari parka turlar təşkil ediləcək. Ərazini gəzmək məktəblilər üçün ödənişsiz olacaq. Turist qəbulu üçün də hazırlıqlar tamamlanmaq üzrədir. Oktyabrdan etibarən turistlərin buraya səfərləri təşkil olunacaq. Həm məktəblilər, həm də turistlər parkda vəhşi heyvanları seyr edə, onların şəkillərini çəkə və ətraflı məlumat ala biləcəklər.

Ekoloji parkın daxili infrastrukturunun yaradılması istiqamətində də mühüm işlər görülüb. Heyvanlar üçün çoxsaylı təbii daldalanacaqlar düzəldilib. Onların qidalanmasına da diqqət yetirilir.

Qeyd edək ki, «Şamaxı Safari» parkı 2017-ci il oktyabrın 2-də yaradılıb. Həmin gün Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva parkda yaradılan şəraitlə yaxından tanış olmuşlar.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 88-ci kitab: iyun 2018 - avqust 2018. - Bakı: Azərnəşr, 2019, S. 292-293.**

## “ASTARA ŞƏHƏRİNİN İÇMƏLİ SU TƏCHİZATI SİSTEMLƏRİ” LAYİHƏSİNİN İCRASI BAŞA ÇATDIRILIB

*(15 sentyabr 2018-ci il)*

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Astara şəhərinin içməli su təchizatı sistemləri” layihəsinin başa çatması münasibətilə keçirilən mərasimdə iştirak edib.

“Azərsu” Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov dövlətimizin başçısına “Astara şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin tikintisi” layihəsi haqqında məlumat verdi.

Prezident İlham Əliyevin təsdiqlədiyi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində 2015-ci ildə “Astara şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi”nin icrasına başlanılıb. Layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla Astara şəhərində 28,5 min nəfərin içməli su və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihə çərçivəsində gələcəkdə rayonda 73 min nəfərin yaşadığı 27 kəndə də içməli suyun verilməsi nəzərdə tutulur. Ümumilikdə, bu layihədən 102 min sakin faydalanacaq. Astara, Lənkəran şəhərləri və ətraf kəndləri içməli su ilə təmin etmək üçün mənbə olaraq Xanbulan su anbarı seçilib. İstehlakçıların keyfiyyətli içməli su ilə təmin edilməsi üçün su anbarının yaxınlığında məhsuldarlığı sutkada 30 min kubmetr və ya saniyədə 347 litr olan müasir tipli qum süzgəcli təmizləyici qurğu tikilib. 2013-cü ildən etibarən bu mənbə hesabına Lənkəran şəhəri və 5 kənd, 2017-ci ildən isə magistral kəmər boyunca yerləşən 15 kənd keyfiyyətli və dayanıqlı içməli su ilə təmin olunur.

Sutəmizləyici qurğuda suyun təmizlənməsi heç bir kimyəvi reagentlərdən istifadə olunmadan aparılır və onun keyfiyyət göstəriciləri Dünya Səhiyyə Təşkilatının standartlarına tam cavab verir. Burada emal prosesi tam avtomatlaşdırılıb və SCADA sistemi ilə vahid mərkəzdən idarə olunur. Emal prosesindən keçən suyun anbarlara ötürülməsi məqsədilə məhsuldarlığı saatda 750 kubmetr olan nasos stansiyası quraşdırılıb. Suyun optimal idarə olunması və özüaxımlı rejimdə paylanması məqsədilə dəniz səviyyəsindən 38 metr yüksəklikdə ümumi tutumu 20 min kubmetr olan 3 su anbarı inşa edilib. On min kubmetr tutumu olan su anbarı Lənkəran şəhəri və ətraf kəndlər, hər birinin tutumu 5 min kubmetr olan iki su anbarı isə Astara şəhəri və ətraf kəndlər üçün nəzərdə tutulub. Anbarlara daxil olan və çıxan suyun miqdarı, anbarlarda toplanan su ehtiyatının həcmi, suyun təzyiqi, siyirtmələrin iş rejimi və işçi vəziyyəti, eləcə də suyun bulanıqlıq səviyyəsi və qalıq xlorun miqdarı onlayn rejimdə tənzimlənir. Suyun anbardan Astara şəhərinə nəqli məqsədilə diametri 710 millimetr olan polietilen borularla 29,2 kilometr uzunluğunda magistral su xətti inşa edilib. Gələcəkdə Astara rayonunun 27 kəndinin su təchizatının yaxşılaşdırılması məqsədilə magistral kəmərdən hər bir kəndə çıxışlar verilib.

Diqqətə çatdırıldı ki, istehlakçılara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə layihə çərçivəsində Astara müştəri xidmətləri sahəsi üçün müasir tipli inzibati bina tikilib. Ümumi sahəsi 220 kvadratmetr olan binada işçi otaqları, IT otağı, iclas zalı zəruri avadanlıqla təchiz edilib. İnzibati binanın həyətində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Dövlətimizin başçısı Astara şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin rəmzi açılışını bildirən düyməni basdı.

Bildirildi ki, layihə çərçivəsində Astara şəhərində 109 kilometr içməli su şəbəkəsinin inşası tam başa çatıb və bütün abunəçilərə ev birləşməsi verilərək 4300 su sayğacı quraşdırılıb. Suyun optimal idarə olunması məqsədilə şəbəkə üzərində 327 müxtəlif diametrli siyirtmə, yanğın təhlükəsizliyi məqsədilə 274 yanğın hidrantı quraşdırılıb. Astara şəhərində kanalizasi-

ya şəbəkəsinin yaradılması üçün uzunluğu 70,5 kilometr olan kanalizasiya şəbəkəsi, 8 kilometr tunel tipli kanalizasiya kollektoru, iki kanalizasiya nasos stansiyası və məhsuldarlığı sutkada 6 min kubmetr olan tullantı sutəmizləyici qurğunun inşası da layihələndirilib. Layihənin növbəti mərhələsində kanalizasiya infrastrukturunun yaradılması nəzərdə tutulur.

Qeyd edildi ki, layihənin icrasına qədər Astara şəhərində 1980-ci illərdə yaradılmış su təchizatı infrastrukturundan istifadə olunurdu. Şəhərə içməli su Astara rayonunun Qapıçıməhəllə kəndində yerləşən drenaj quyularından verilirdi. Şəhərdə mövcud olmuş 41 kilometr uzunluğunda paylayıcı şəbəkə istismara yararsız vəziyyətə düşmüşdü. "Azərsu" ASC şəhərin 15 min sakininin 30 faizinə xidmət göstərirdi və içməli su fasiləli rejimdə verilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Ümumilikdə, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarına uyğun olaraq, 50 şəhər və rayon mərkəzində içməli su təchizatı və kanalizasiya layihələri icra olunur. İndiyədək bu şəhərlərin 25-də su və kanalizasiya şəbəkələrinin, 11-də isə su şəbəkəsinin inşası yekunlaşıb. Bu ilin sonuna qədər daha 3 şəhərdə işlərin başa çatdırılması nəzərdə tutulur.

Sonra Prezident İlham Əliyev Astara rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

## Prezident İlham Əliyevin çıxışı

- Mən sizi salamlayıram. Bu gün Astara şəhərində çox gözəl, əlamətdar bir gündür. Biz Astara şəhərinə rəsmi olaraq içməli suyun verilməsini qeyd edirik. Mənə verilən məlumata görə, artıq iki aya yaxındır ki, evlərə təmiz içməli su verilir. Bu, çox gözəl hadisədir. Mən də bu gün gəlmişəm ki, bu gözəl hadisəni sizinlə birlikdə rəsmi qaydada qeyd edim.

İçməli su insan sağlamlığı üçün əsas şərtdir. Bunu hər kəs bilir. Astara şəhərində də bu problem öz həllini tapıb. Beləliklə, şəhər sakinlərinə Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su verilir. Növbəti mərhələdə artıq bir çox kəndlərə də suyun verilməsi nəzərdə tutulur. Əlbəttə, növbəti illərdə bu məqsədlə əlavə vəsait ayrılacaq ki, bu problem öz həllini tapsın. İçməli su layihələrinin icrası böyük maliyyə vəsaiti, çox böyük investisiyalar tələb edir. Biz bunu edirik ki, insanlar çox təmiz, keyfiyyətli su ilə təmin olunsunlar. Çünki bir daha demək istəyirəm ki, sağlamlıq üçün, normal həyat tərzi üçün içməli su əsas şərtdir.

Bir çox rayonlarımızda içməli su layihələri icra edilir. Artıq açılışlar da olub, növbəti illərdə də açılışlar olacaq. Qarşıya məqsəd qoyulubdur ki, Azərbaycanın bütün şəhərlərində 100 faiz tam standartlara uyğun içməli su layihələri icra edilsin və beləliklə, biz ölkə qarşısında duran əsas infrastruktur məsələlərini həll etmiş oluruq.

Digər layihələrə gəldikdə, Astara rayonunda infrastrukturun yaradılması sürətlə gedir, qazlaşdırma 83 faizdir, kənd yollarının tikintisi geniş vüsət alıb. Mənə verilən məlumata görə, Astara rayonunun kənd yollarının 92 faizi yenidən qurulub. Bu, çox gözəl göstəricidir. Gələn ilin Dövlət İnvestisiya Proqramında yeni, növbəti layihə nəzərdə tutulur. Beləliklə, hesab edirəm ki, bütün kəndlərin yolları çox gözəl səviyyəyə çatdırılacaqdır.

Eyni zamanda, keçən ay Bakı-Astara avtomobil yolunun açılışı olmuşdur. Bu, ən yüksək səviyyəli, çox rahat, təhlükəsiz yoldur. Bilirsiniz ki, yolun yeni istiqaməti müəyyən edilib, yeni tras çəkilib və yolun uzunluğu 40 kilometr qısalıb. Bu yol heç bir şəhərə girmədən düz Astaraya qədər gəlir. Beləliklə, yolboyu yaşayış məntəqələrinin rahatlığı təmin edilir. Əvvəllər bütün yolboyu yerləşən şəhərlərə yük maşınları girirdi və insanları narahat edirdi. İndi bütün yolboyu şəhərlərimiz - Lənkəran, Masallı, Cəlilabad, Biləsuvar, Salyan bu problemdən azad olunub. Bir qalıb ki, Astara şəhərinin problemi də həll olunsun, biz bunu da edəcəyik. Çünki bir hissə qalıb. Azərbaycan-İran sərhədinə qədər yeni yol çəkiləcək. Belə olan halda qonşu ölkəyə yük maşınları və vətəndaşlar Astara şəhərinə girmədən

birbaşa sərhədə gedəcəklər. Biz bu layihə üzərində işləyirik, müəyyən işlər görülüb, torpaq ayrılıb, hətta torpağın birinci layları da hamarlanıb. Həm bu il, həm gələn il əlavə vəsait ayrılacaq. Hesab edirəm ki, gələn ilin ortalarına qədər mövcud Bakı-Astara trasından Azərbaycan-İran sərhədinə qədər yeni tras çəkiləcək və heç bir tranzit yük maşını Astara şəhərinə girməyəcək. Biz bunu da edəcəyik ki, Astara sakinləri bu problemlərdən azad olsunlar.

Digər layihələrə gəldikdə, bildiyiniz kimi, 2005-ci ildə Astara şəhərində modul tipli elektrik stansiyası tikilmişdir. Bu stansiya həm rayona, həm də bütün bölgəyə xidmət edir. Beləliklə, elektrik enerjisi ilə təchizat məsələləri də həll olunub. Bu gün içməli su layihəsi, - qazlaşdırmanı dedim, - kənd yolları çəkilir. Yəni, Astarada əsas infrastruktur məsələləri demək olar ki, öz həllini tapmaqdadır.

Sosial infrastruktura gəldikdə, rayonda son illərdə 35 məktəb, Olimpiya İdman Kompleksi tikilib, mərkəzi rayon xəstəxanası əsaslı şəkildə təmir edilib, digər sosial obyektlər yaradılır. Astara rayonunun çox böyük turizm potensialı var. Bakı-Astara yolu istifadəyə veriləndən sonra əlbəttə ki, turistlərin sayı da artmalıdır və artacaq. Xarici turistlər Astaraya üz tuturlar. Burada turizm infrastrukturu, eyni zamanda, istirahət zonaları, o cümlədən bulvar kompleksi yaradılır. Astara sakinləri üçün bulvar kompleksinin yaradılmasına əlavə vəsait ayrılmışdır ki, bu istirahət zonası daha da böyük ərazini əhatə etsin.

Bilirsiniz ki, keçən il Lənkəranda bu zonanın inkişafına təkan verəcək çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə müşavirə keçirilmişdir. Müşavirədən sonra dövlət proqramları qəbul edilmişdir və bu sahədə də irəliləyiş var. Ona görə kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafı gündəlikdə duran əsas məsələlərdən biridir. Turizm infrastrukturunun yaradılması öz həllini tapır. Yeni iş yerlərinin yaradılması prosesi də gedir. Çünki kənd təsərrüfatına verilən böyük dəstək, əlbəttə ki, məşğulluğu artırır, insanlar daha da yaxşı imkanlar əldə edirlər, öz rifah halını yaxşılaşdırırlar və bu gözəl diyarda işlər daha da yaxşı gedəcək.

Artıq qeyd etdiyim kimi, gələcəkdə Bakı-Astara avtomobil yolunun İran sərhədinə çatdırılması layihəsi icra olunacaq. Eyni zamanda, burada kommunal evlərdə yaşayan insanlar üçün 48 mənzildən ibarət yeni yaşayış binası tikiləcək. Gələn ilin investisiya proqramında yeni kənd yollarının layihəsi nəzərdə tutulur. Hesab edirəm ki, bu məsələlər həll ediləndən sonra biz əsas infrastruktur layihələrini yerinə yetirmiş oluruq. Gələcəkdə, sadəcə olaraq, bu imkanlardan istifadə edilməlidir ki, rayonun potensialı daha da böyüsün. Sahibkarlığın, qeyri-neft sektorunun, kənd təsərrüfatının inkişafı, burada yeni emal müəssisələrinin yaradılması nəzərdə tutulur. Ənənəvi kənd təsərrüfatı sahələri daha da sürətlə inkişaf etməlidir. Bu məqsədlə lazımi tədbirlər görülür, dövlət tərəfindən kifayət qədər böyük diqqət göstərilir.

Astara rayonunda və qonşu rayonlarda son illər ərzində görülmüş işlər çox böyük maliyyə vəsaiti tələb edən işlərdir. Həm elektrik, həm qaz, həm də yol təsərrüfatlarının, Lənkəran beynəlxalq aeroportunun yaradılması, su layihələrinin icrası, magistral yolların çəkilişi, kənd təsərrüfatına verilən dəstək böyük maliyyə vəsaiti tələb edir. Biz bunu da edirik və etməliyik. Çünki regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı bunu tələb edir. Bu proqramı da biz qəbul etmişik və bu ilin sonunda üçüncü Dövlət Proqramı başa çatır. Demək olar ki, biz proqramı artıqlaması ilə icra etmişik, o cümlədən proqramda Astara rayonuna aid olan bütün məsələlər artıqlaması ilə öz həllini tapıbdır.

Deyə bilərəm ki, sonuncu böyük layihə, bax, bu gün rəsmi qaydada istifadəyə verilir. Bu gözəl hadisə münasibətilə sizi bir daha təbrik edirəm.

* * * *

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**
**2018, 15 oktyabr**

## MİLLİ PARKIN ƏRAZİSİNDƏ YENİDƏN QURULMUŞ «MİLAN EKSPO–2015» SƏRGİSİNDƏ AZƏRBAYCAN PAVİLYONU İLƏ TANIŞLIQ

*(8 oktyabr 2018-ci il)*

Azərbaycanın «Milan Ekspo–2015» Ümumdünya sərgisində milli pavilyonu sökü-lərək, Bakıya gətirilib və Dənizkənarı Milli Parkın ərazisində yenidən qurulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 8-də pavilyonla tanış oldular.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov yenidən qurulan pavilyon barədə Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya məlumat verdi.

Qeyd edək ki, bu bina Dənizkənarı Milli Parkın ərazisində bütün fəsillərdə daimi istifadəyə uyğunlaşdırılıb. Burada Azərbaycan mətbəxini, musiqisini və mədəniyyətini təbliğ edən instalyasiyalar quraşdırılıb, müxtəlif iaşə xidməti göstərmək üçün binada müvafiq şərait yaradılıb, terras qurulubdur.

Heydər Əliyev Fondunun və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Azərbaycan ilk dəfə «Milan Ekspo–2015» Ümumdünya sərgisində milli pavilyonla iştirak edib. Bu layihə Azərbaycan tarixinin və mədəni irsinin, ölkənin zəngin ekoloji, enerji potensialı və nadir biomüxtəlifliyinin beynəlxalq miqyasda tanıdılması istiqamətində böyük rol oynayıb. 2015-ci il mayın 31-dən oktyabrın 31-dək davam edən «Milan Ekspo–2015» sərgisini 23 milyondan çox insan ziyarət edib. Bu müddətdə Azərbaycanın milli pavilyonunda isə 3 milyon 250 mindən çox izləyici olub. «Azərbaycan: biomüxtəlifliyin xəzinəsi» adlandırılan dördmərtəbəli milli pavilyon Milanda 1800 kvadratmetr ərazidə təşkil olunmuşdur. Azərbaycan «Milan Ekspo–2015» Ümumdünya sərgisinin bütün mərhələlərində seçilən dövlətlər sırasında olub. Xarici mətbuat, o cümlədən İtaliyanın aparıcı kütləvi informasiya vasitələri milli pavilyonun tikinti və dizayn işlərinin yekunlaşdırılmasına görə Azərbaycanın lider olduğunu qeyd ediblər və milli pavilyonumuz «Milan Ekspo» sərgisinin incisi adlandırılıb. Milli pavilyonun əsas özəlliyindən biri onun 3 biosferdən təşkil olunması idi. Diametri 10 metr olan xüsusi şüşə konstruksiyalardan hazırlanmış biosferlər ətraf mühiti və qədim mədəniyyəti daim harmoniyada saxlamağı və qorumağı bacaran Azərbaycanı təcəssüm etdiribdir.

Sərgi müddətində pavilyonun 4-cü mərtəbəsində restoran fəaliyyət göstərib. Burada Azərbaycan milli mətbəxinin nümunələri və konsert proqramları təqdim olunub. Pavilyondakı monitorlarda Azərbaycanın musiqi və kinematoqrafiya incilərinə, adət və ənənələrinə, incəsənətinə dair müxtəlif materiallar nümayiş etdirilib. Ziyarətçilər, həmçinin Azərbaycanın müxtəlif regionlarında mövcud olan zəngin biomüxtəlifliyi, nadir landşaftları, təbii ehtiyat və tarixi abidələri əks etdirən videoçarxları izləyiblər. Sərginin keçirildiyi müddətdə Azərbaycanın milli pavilyonu «Milan Ekspo–2015» Təşkilat Komitəsi tərəfindən «Dizayn və materiallar» nominasiyası üzrə qalib elan olunub. Təşkilat Komitəsi Azərbaycan pavilyonunun tərtibatında günəş şüalarını azaldan şüşə, metal və taxta sistemlərin innovativ qaydada işlənilməsinin ekoloji baxımdan əhəmiyyətli olduğunu və dizayn elementlərinin seçildiyini qeyd edib. Bir sözlə, pavilyonumuz ekoloji təmiz, asan emal edilən materiallardan inşa olunubdur.

Burada «Dubay Ekspo–2020» sərgisində qurulacaq Azərbaycan milli pavilyonunun layihəsi Prezident İlham Əliyevə təqdim olundu. Layihə ilə tanış olan dövlət başçısı «Dubay Ekspo–2020» sərgisində milli pavilyonun tikintisinə başlanılmasına dair müvafiq tapşırıqlar verdi. Eyni zamanda, dövlət başçısı «Dubay Ekspo–2020» sərgisində milli pavilyonun da sərgidən sonra sökülərək, ölkəmizə gətirilməsi məsələsinə baxılmasına dair tapşırıq verdi.

«Milan Ekspo–2015» Ümumdünya sərgisindən sonra sökülərək, Dənizkənarı Milli Parkın ərazisində yenidən qurulan milli pavilyonumuzun inzibati binası 4 mərtəbədən ibarətdir və 6000 kvadratmetr ərazisi vardır. Burada sakinlər, eləcə də şəhərimizin qonaqlarının istirahəti üçün əlavə olaraq 4000 kvadratmetrə yaxın ərazidə müxtəlif ağac və bitki növlərindən ibarət yaşıllıq zolaqları salınıb, istirahət üçün sahələr yaradılıbdır. Ərazidə torpaq münbitləşdirilib, müasir işıqlandırma sistemi quraşdırılıb, meydançalar yaradılıb, avtomobil və velosipedlərin parklanması üçün dayanacaq sahəsi ayrılıbdır. Pavilyon sakinlərin və şəhərimizin qonaqlarının rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir.

«Milan Ekspo–2015» Ümumdünya sərgisində Azərbaycanın milli pavilyonu şimal və cənub, şərq və qərb arasında körpü rolunu oynayan, qədim tarixi, zəngin mədəniyyəti ilə seçilən ölkəmizin bənzərsiz təbii və mədəni xəzinəsini əks etdirib. Onun yaradılmasında hər bir detala xüsusi diqqət yetirilib. Pavilyonun dalğavarı taxta divarları Azərbaycana xas olan küləyi, həmişə burada dövr edən mədəni və yaradıcı axını simvolizə edibdir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**89-cu kitab: avqust 2018 - oktyabr 2018. - Bakı: Azərnəşr, 2019, S. 238-240.**

## XIZI RAYONUNDA «YENİ YAŞMA» KÜLƏK ELEKTRİK PARKININ AÇILIŞI MƏRASİMİ

*(11 oktyabr 2018-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 11-də Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrinin ərazisindəki 50 MVt-lıq «Yeni Yaşma» külək elektrik parkının açılışında iştirak etmişlər.

Dövlət başçısı və xanımı külək elektrik parkının rəmzi açılışını bildirən lenti kəsdilər.

«Azərenerji» ASC-nin prezidenti Baba Rzayev məlumat verdi ki, «Yeni Yaşma» külək elektrik parkı bu il yenidən qurulub. Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrində yerləşən külək elektrik stansiyasında yenidənqurma işlərini Almaniyanın «Berlin Vind» şirkəti aparıb. Yanvar ayında ilk turbin işə salınmaqla, ay üzrə cəmi 200 min kVt/saat elektrik enerjisi istehsal olunurdusa, hazırda 20 külək turbini tam gücü ilə işləyir və elektrik enerjisinin istehsalı ay üzrə 9 milyon kVt/saata yaxındır. Parkın ərazisində inzibati bina inşa edilib, burada idarəetmə mərkəzi, işçi heyəti üçün xidməti otaqlar, habelə elektrik avadanlığının–yuvaların quraşdırılması üçün 20 kV-luq bölmə və təlim-tədris mərkəzi yaradılıbdır. İdarəetmə mərkəzində turbinlərin iş rejimləri, istismar vəziyyəti, texniki parametrləri, küləyin sürəti, növbəti günlər üçün külək proqnozu və enerji istehsalı onlayn izlənilir. Stansiyanın səmərəli fəaliyyətini təmin etmək üçün müasirtipli «rele» mühafizəsi, avtomatika və SCADA sistemi yaradılıb. İstehsal olunan elektrik enerjisinin ümumi enerji sisteminə ötürülməsi üçün «Yaşma» hava xəttinə qoşulmaqla, «Sitalçay» yarımstansiyasına 110 kV-luq hava xətti çəkilib. Bir sıra xarici şirkətlər tərəfindən yerli mütəxəssislər üçün treninqlər təşkil edilib, həmçinin xarici ölkələrdə keçirilən müxtəlif sertifikatlaşdırılmış kurslarda yerli mütəxəssislərin iştirakı təmin olunubdur.

Hazırda stansiyanın idarə edilməsi, servis və istismar işləri tamamilə yerli mütəxəssislər tərəfindən icra olunur. Parkda alternativ və bərpaolunan enerji mənbələri üzrə kadr hazırlığı məqsədilə xüsusi təlim-tədris mərkəzi fəaliyyət göstərir. Parkın ümumi ərazisi 540 hektardır. Burada 9800 poqonmetr uzunluğunda qəfəsli çəpər çəkilib, ümumi sahəsi 571 kvadratmetr olan anbar binası tikilib, gübrə və yağ depoları, zəhərli maddələrin saxlanılması üçün xüsusi otaq və xidməti bölmələr yaradılıbdır. Ərazidən səmərəli istifadə olunması üçün torpaq nümunələri İtaliyada laborator müayinədən keçirilib və nəticələrə əsasən, 450 hektar sahədə zeytun və badam bağları salınıbdır. Bağların suvarılması məqsədilə Taxtakörpü–Ceyranbatan su kanalının 72-ci kilometrliyində suqəbuledici baş qurğu tikilib, 23 kilometrlik su xətti çəkilib, su anbarı və nasos stansiyası inşa edilibdir. Bakı–Quba–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 55-ci kilometrliyindən 1,8 kilometrlik yeni avtomobil yolu çəkilibdir.

«Yeni Yaşma» külək elektrik parkı Cənubi Qafqazın ən böyük külək elektrik parkıdır. Stansiyanın istismara verilməsi nəticəsində Azərbaycanda alternativ enerjinin ümumi istehsalda payı 0,7 faizdən 1,8 faizədək artacaqdır.

Dövlət başçısına 3,6 MVt gücündə «Yaşma Bağları» külək elektrik parkı və 1,7 MVt gücündə «Şurabad» külək elektrik parkı barədə də məlumat verildi. Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, Bakı–Quba yolunun digər tərəfində yerləşən Yaşma Bağları ərazisindəki 4 turbin təmir olunaraq, istismara hazır vəziyyətə gətirilib. Elektrik enerjisinin şəbəkəyə ötürülməsi üçün 35 kV-luq yarımstansiya inşa edilib və 3,8 kilometr uzunluğunda hava xətti çəkilibdir. «Şurabad» külək elektrik parkında da 1,7 MVt gücündə 2 turbinlə bağlı təftiş işləri aparılıb, stansiyaya məxsus 35 kV-luq yarımstansiya elektrik enerjisinin

şəbəkəyə ötürülməsi üçün yenidən qurularaq, istismara verilib. Turbinlərin idarə edilməsi SCADA sisteminə inteqrasiya olunubdur.

Sonda külək elektrik parkının kollektivi ilə xatirə şəkli çəkdirildi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**89-cu kitab: avqust 2018 - oktyabr 2018. - Bakı: Azərnəşr, 2019, S. 288-290.**

## "LERİK ŞƏHƏRİNİN İÇMƏLİ SU TƏCHİZATI SİSTEMİNİN YENİDƏN QURULMASI VƏ İLK DƏFƏ OLARAQ KANALİZASİYA ŞƏBƏKƏSİNİN YARADILMASI" LAYİHƏSİNİN İCRASI BAŞA ÇATIB

*(15 oktyabr 2018-ci il)*

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Lerik şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması və ilk dəfə olaraq kanalizasiya şəbəkəsinin yaradılması" layihəsinin icrasının yekunlaşması münasibətilə keçirilən mərasimdə iştirak edib.

Prezident İlham Əliyev əvvəlcə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Dövlətimizin başçısı görüşdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

-Bu gün yenidən Lerik rayonundayam, çox şadam ki, sizinlə görüşürəm. Bu, mənim Prezident kimi Lerik rayonuna dördüncü səfərimdir. Əvvəlki illərdə Lerik rayonunun inkişafı ilə bağlı bir çox önəmli qərarlar verildi. Bu qərarların icrası nəticəsində rayonun inkişafı sürətlə getməyə başladı. Əlbəttə, ilk növbədə, biz Lənkəran-Lerik yolunun çəkilişi ilə məşğul olduq. 2005-ci ildə müvafiq göstəriş verilmişdi və yol çəkildi. Əvvəllər də yol olub, amma çox bərbad vəziyyətdə idi və yolun çəkilişindən sonra Lerikdə inkişaf daha da sürətlə getməyə başladı. Bu ilin yayında mənə məlumat verildi ki, yol artıq sıradan çıxıb və Prezidentin ehtiyat fondundan 5 milyon manat vəsait ayrıldı və yol yenidən çəkilməyə başlanmışdır. Qalan vəsait də Dövlət İnvestisiya Proqramından ayrılacaq ki, Lənkəran-Lerik yolu ən yüksək standartlara cavab versin. Deyə bilərəm ki, yol bu gün də yaxşı vəziyyətdədir, ancaq daha yaxşı vəziyyətdə olacaq.

Bildiyiniz kimi, sovet vaxtında Lerikdə qazlaşdırma aparılmamışdı. Lerik şəhərinin təbii qazla təmin edilməsi üçün müvafiq göstəriş verildi və qaz xətti çəkildi. Bu gün mənə verilən məlumata görə, Lerik rayonunda qazlaşdırma 36 faiz səviyyəsindədir. Rayonun relyefini, dağlarını nəzərə alsaq, hesab edirəm ki, bu, yaxşı göstəricidir. İmkan daxilində Lerik rayonunun qazlaşdırılması ilə bağlı əlavə addımlar atılacaqdır.

Bu gün Lerikdə 16 meqavat gücündə yeni elektrik stansiyasının açılışı nəzərdə tutulur. Beləliklə, bu enerji ümumi sistemə verilərkən nəinki Lerik rayonunun tələbatını, eyni zamanda, bütün cənub zonasının enerji təsərrüfatının dayanıqlığını təmin edəcək. Əlbəttə ki, biz, ilk növbədə, Lerik rayonunu etibarlı enerji mənbəyi ilə təmin edəcəyik.

Bu gün biz artıq Lerik şəhərinin içməli su ilə təminatını qeyd edirik. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik etmək istəyirəm. Artıq bu layihə icra edildi. Onun icrası üçün çox böyük vəsait ayrıldı və biz buna nail ola bilmişik. İçməli su insan sağlamlığı üçün əsas şərtdir və bundan sonra vətəndaşlar təmiz, ən yüksək standartlara cavab verən içməli su ilə təmin olunacaqlar.

Lerik uzunömürlülər diyarıdır, burada insanlar çox sağlamdırlar. Dünya miqyasında Lerik haqqında kifayət qədər məlumat var. Lerikdə Uzunömürlülər Muzeyi də var. Mən səfərlərimin birində muzeylə tanış olmuşam. Ancaq içməli su layihəsi icra olunandan sonra insanların sağlamlığı daha da yaxşı olacaq.

Bu əsas infrastruktur məsələlərinin həlli göstərir ki, Azərbaycanın bütün bölgələrində, bütün rayonlarında sürətlə iş gedir. Lerik Azərbaycanın ən ucqar rayonlarından biridir. Həm dağlıq ərazidir, həm əsas magistral yollardan uzaqdır. Amma buna baxmayaraq, burada həyat qaynayır, inkişaf gedir, rayonun sosial-iqtisadi göstəriciləri də yaxşıdır. Burada

yaradılan müasir infrastruktur insanlara xidmət göstərir və rayonun gələcək iqtisadi, sosial inkişafını təmin edir.

Biz, eyni zamanda, Lerik rayonunda sosial məsələlərin həlli ilə ciddi məşğul olmuşuq. Rayonda 50-dən çox məktəb təmir olunub və ya yenidən tikilib. Mədəniyyət Mərkəzi yaradılıb, mərkəzi rayon xəstəxanası əsaslı şəkildə təmir olunub və müasir avadanlıqla təchiz edilib. Yəni, sosial infrastruktur, elektrik xətləri, qazlaşdırma, su xətləri, yollar – bütün bunlar reallıqdır. Bu gün mən buraya gələrkən yeni kənd yolunun açılışını etdik. Uzunluğu 20 kilometrdən çox olan, bir neçə kəndi birləşdirən, 11 min əhaliyə xidmət göstərən yeni kənd yolu açılıb. Kənd yollarının yenidən qurulması baxımından Lerik Azərbaycanda ən qabaqcıl yerlərdədir. Mənə verilən məlumata görə, son illərdə görülən işlər nəticəsində Lerik rayonunun kəndlərinin 88 faizi müasir yollarla əhatə edilib və yeni layihə, - o da təqribən uzunluğu 20 kilometrdən çox olan kənd yolu layihəsi, - gələn ilin Dövlət İnvestisiya Proqramında nəzərdə tutulub və gələn il biz o yolu da tikəcəyik, vətəndaşların sərəncamına verəcəyik.

Bütün bunları biz regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları çərçivəsində həll etmişik. Bildiyiniz kimi, bu il üçüncü Dövlət Proqramının icrası başa çatır. Proqram artıqlaması ilə icra edilib, biz bunu Lerik rayonunun timsalında görürük. Növbəti illər üçün yeni proqram hazırlanır və indi bölgələrdən təkliflər daxil olur. Mən Lerik ictimaiyyətindən də xahiş edirəm ki, onlar da təklifləri göndərsinlər. Hökumətdə bu proqrama baxılacaq, iqtisadi və sosial məsələlərin həlli növbəti illərdə təmin ediləcəkdir.

Bütövlükdə ölkəmizdə - bütün bölgələrdə, bütün rayonlarda inkişaf sürətlə gedir. Ölkəmizin bu uğurlu inkişafı əlbəttə ki, xalqımızı da sevindirir, Azərbaycanın beynəlxalq nüfuzu, bizim gücümüz artır və iqtisadi sahədə aparılmış düzgün siyasət öz bəhrəsini verir. Azərbaycan iqtisadiyyatı dayanıqlı iqtisadiyyatdır. Biz iqtisadi baxımdan heç kimdən asılı deyilik, biz özümüz öz taleyimizin sahibiyik. Güclü iqtisadiyyat, düşünülmüş iqtisadi siyasət, maliyyə imkanlarımızın genişləndirilməsi imkan verir ki, bütün bölgələrdə, ən ucqar yerlərdə gözəl layihələr icra edilsin. Bu gün Lerikdə açılacaq 16 meqavat gücündə yeni elektrik stansiyası özlüyündə böyük bir infrastruktur layihəsidir. İçməli su, qazlaşdırma – bütün bunları biz öz hesabımıza edirik. Heç kimdən yardım, heç kimdən kredit almadan. İndi kreditlərə də ehtiyac qalmır. Düzdür, biz indi bəzi kreditləri alırıq, ancaq o proses də demək olar ki, dayandırıldı. Biz özümüz bəzi xarici ölkələrə kreditlər veririk və bundan faiz qazanırıq. Yəni, bu gün Azərbaycan, sözün əsl mənasında, öz sürətli inkişaf dövrünü yaşayır və bu inkişaf bütün bölgələrdə özünü büruzə verir, o cümlədən Lerik rayonunda.

Qeyd etdiyim kimi, Lerikə dördüncü dəfə səfər edirəm və bundan sonra da səfərlər olacaq. Əminəm ki, bu gün verilən tapşırıqlar, qərarlar gələcəkdə gözəl nəticələrə gətirib çıxaracaqdır. Lerikin gələcək iqtisadi və sosial inkişafı ilə bağlı əlavə addımlar atılacaq, sərəncam imzalanacaq. Bilirəm, kənd yollarının tikintisi ilə bağlı layihələr hələ ki, gündəlikdədir. Eyni zamanda, məktəblərin tikintisi, ev təsərrüfatının yenidən qurulması ilə bağlı layihələr olacaq. Ona görə bir daha demək istəyirəm ki, sizi narahat edən məsələlər məruzə edilsin və müvafiq göstərişlər veriləcək. Bu günə qədər biz bu yolla getmişik və bu gün gözəl nəticələrə çatmışıq.

Sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

* * * *

Sonra “Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə Prezident İlham Əliyevə layihə haqqında məlumat verdi.

Bildirildi ki, bu layihə çərçivəsində Lerik şəhərində içməli su şəbəkəsinin və sutəmizləyici qurğunun, çirkab suların şəhər ərazisindən kənarlaşdırılması üçün kanalizasiya şəbəkəsinin və çirkab sutəmizləyici qurğunun tikintisi nəzərdə tutulub. Layihə çərçivəsində tikinti işlərinə 2011-ci ildən başlanılıb. Lerik şəhər əhalisinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə Zuvandçay çayı üzərində sugötürücü qurğu inşa edilib. Sugötürücü qurğudan suyun öz axımı ilə şəhər ərazisindəki sutəmizləyici qurğuya ötürülməsi üçün 17,49 kilometrlik magistral xətt çəkilib. Yay aylarında Zuvandçay çayında suyun azalması nəzərə alınaraq, əlavə olaraq Nisliçay çayı üzərində sugötürücü qurğu inşa edilib. Nisliçay çayından götürülən sular nasos stansiyası vasitəsilə uzunluğu 90 poqonmetr olan təzyiqli boru ilə Zuvandçay çayından Lerik şəhərindəki təmizləyici qurğuya çəkilən magistral su xəttinə ötürüləcək. Sugötürücü qurğulardan qəbul edilərək magistral su xətti ilə saniyədə ötürülən 20,2 litr suyun təmizlənməsi üçün şəhər ərazisində gündəlik gücü 2,6 min kubmetr olan içməli sutəmizləyici qurğu kompleksi inşa edilib. Lerik şəhəri ərazisində içməli suyun yığılması və paylanması məqsədilə tutumu 1500 kubmetr olan 4 su anbarı tikilib. Şəhərin yüksəklikdə yerləşən hissəsindəki evlərə içməli suyun nəqli üçün tutumu 500 kubmetr olan anbarda məhsuldarlığı saniyədə 1,54 litr olan iki nasos quraşdırılıb. Su anbarlarından Lerik şəhər əhalisinə içməli suyun verilməsi üçün uzunluğu 55 min 55 poqonmetr olan içməli su şəbəkəsi tikilib, 1821 ev su sayğacı ilə təmin edilərək bu şəbəkələrə qoşulub.

Diqqətə çatdırıldı ki, çirkab suların şəhər ərazisindən toplanaraq təmizləyici qurğuya ötürülməsi üçün uzunluğu 1579 poqonmetr olan kanalizasiya kollektor xətti, uzunluğu 1409 poqonmetr olan təzyiqli çirkab su xətti, eləcə də uzunluğu 41 min 289 poqonmetr olan çirkab su şəbəkəsi çəkilib. Kanalizasiya şəbəkəsi üzərində 1296 baxış quyusu və gündəlik gücü 1530 kubmetr olan təmizləyici qurğu inşa edilib.

Məlumat verildi ki, Lerik şəhərinin ilk su təchizatı sistemi 1968-ci ildə yaradılıb. Şəhərin yalnız 50 faizi mərkəzləşdirilmiş qaydada fasiləli rejimlə içməli su ilə təmin edilirdi. Ümumiyyətlə Lerikdə kanalizasiya şəbəkəsi olmayıb. Bu cür layihələrin icrası ölkəmizdə sosial siyasətin uğurla həyata keçirildiyinin əyani göstəricisidir. Bu işlər bir daha sübut edir ki, vətəndaşların sosial məsələlərinin həlli Azərbaycanda aparılan dövlət siyasətinin mərkəzində dayanır və bu istiqamətdə icra olunan layihələr davamlıdır.

Prezident İlham Əliyev Lerik şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.

Sonda xatirə şəkli çəkdirildi.

**AZƏRTAC**
**2018, 15 oktyabr**

## KİMYA SƏNAYE PARKININ REZİDENTİ OLAN «BAKU NON FERROUS AND FOUNDRY COMPANY» MMC-NİN ƏLVAN METALLAR VƏ FERROƏRİNTİLƏR ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*(16 noyabr 2018-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 16-da Sumqayıt Kimya Sənaye Parkının rezidenti olan «Baku Non Ferrous and Foundry Company» MMC-nin Əlvan Metallar və Ferroərintilər zavodunun açılışında iştirak etmişdir.

«Baku Steel Company» Məhdud Məsuliyyətli Cəmiyyətinin Müşahidə Şurasının sədri Rasim Məmmədov Prezident İlham Əliyevə əvvəlcə yaxın gələcəkdə inşası planlaşdırılan layihənin üçüncü fazası, yəni Fasonlu Tökmə zavodunun tikintisi barədə məlumat verdi.

Bildirildi ki, bu zavodda maşınqayırmada, kənd təsərrüfatında, dağ-mədən sənayesində istifadə olunan məhsullar istehsal ediləcək. Bu məhsullar arasında yayma valları, 3D printer vasitəsilə hazırlanan detallar, dəyirman kürələri, müxtəlif növ maşın avadanlıqları üçün detallar vardır. Zavodun illik istehsal gücünün 12000 ton olması nəzərdə tutulubdur.

Dövlət başçısına Daşkəsən rayonundakı dəmir-filiz yataqlarından istifadə edilməklə, Gəncədə böyük Metallurgiya zavodunun tikintisi ilə bağlı da məlumat verildi. Artıq tikinti ilə bağlı texniki işlər yekunlaşıb. Qeyd edildi ki, Daşkəsəndəki yataqlarda yeni geoloji işlər və ehtiyatların qiymətləndirilməsi aparılıbdır.

Prezident İlham Əliyev Əlvan Metallar və Ferroərintilər zavodunu işə saldı.

Zavodda İtaliya texnologiyası əsasında ildə 50 min ton ferrosilisium və 72 min ton ferrosilikomanqan istehsal ediləcək. Məhsullar daxili bazarın tələbatını tam ödəməklə yanaşı, xaricə də ixrac olunacaq. Bu zavodda Azərbaycan tarixində ilk dəfə olaraq ferrosilisium, ferrosilikomanqan və gələcəkdə ferroxrom da istehsal ediləcəkdir. Bu ferroərintilərin istehsalı yüksək temperaturda manqan filizindən və kvarsitdən karbon tərkibli maddələrin vasitəsilə müvafiq olaraq manqan və silisium elementinin bərpasına və onların dəmirlə birləşmə yarada-raq, kristallaşmasına əsaslanır. Ferroərintilərin istehsalı üçün lazım olan komponentlər elektrik qövslü sobada əridilərək, çalovlar vasitəsilə konveyerdə qəliblərə tökülür və müvafiq fraksiyalar şəklində hazır məhsul əldə edilir. İstehsal olunmuş məhsul avtomatik paketləmə maşınında 1 tonluq kisələrə qablaşdırılır.

Zavodda ekoloji tələblərə uyğun, mükəmməl konstruksiyalı qaz-toz təmizləyici qurğu işə salınıb. Qaz-toz tutucu qurğuda isə istehsal prosesi zamanı ayrılan uçucu maddələr və qazlar xüsusi filtrlər vasitəsilə tutularaq təmizlənir və bərk hissəciklər islatma üsulu ilə xüsusi konveyerlərdən keçirilərək, dənəvarı hala salınır. Bundan sonra həmin maddələr kisələrə yığılaraq qablaşdırılır. Bu məhsul həm satıla, həm də təkrar istehsal prosesinə qaytarıla bilər. Bütün bu maddələrdən təmizlənmiş hava kütləsi filtrlərdən keçdikdən sonra ekoloji normativ tələblərə uyğunlaşdırılır, daha sonra atmosferə buraxılır.

Burada istehsal olunan məhsulun keyfiyyəti bir çox beynəlxalq standartlara, o cümlədən QOST və İSO-ya uyğunlaşdırılıb. Zavodda sınaqlar quru və yaş, spektrometr vasitəsilə müxtəlif üsullarla yoxlanılır. Məhsulun keyfiyyəti spektral təhlil və kimyəvi üsulla analiz olunur. İnvestisiya dəyəri 51 milyon dollar olan zavodda 230 nəfər işlə təmin olunacaq. Zavod 2016-cı ilin fevralında rezident kimi qeydiyyata alınıb. Layihənin əsas təyinatı metallurgiya sənayesində son məhsulun istehsalı üçün tələb olunan ferroərintilərin lazımi səviyyədə təmin edilməsi və həmin sənaye sahəsinin idxaldan asılılığının nisbətən aradan qaldırılmasıdır.

Dövlət başçısı müəssisənin istehsal prosesi ilə tanış oldu.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 90-cı kitab: oktyabr 2018 - noyabr 2018. - Bakı: Azərnəşr, 2019, S. 301-303.**

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜNƏ HƏSR OLUNMUŞ AĞAC ƏKMƏ AKSİYASINDA İŞTİRAK

*(10 may 2019-cu il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri mayın 10-da Zığ dairəsi – Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunun 28-ci kilometrliyində salınmış yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunmuş ağac əkmə kampaniyasında iştirak etmişlər.

Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev «Keçmiş Yod-Brom zavodunun çirklənmiş ərazilərinin təmizlənməsi» və «Heydər Əliyev Beynəlxalq Aeroportunun yaxınlığındakı çirklənmiş ərazilərin təmizlənməsi» layihələri barədə Prezident İlham Əliyevə məlumat verdi.

Qeyd edək ki, dövlət başçısının tapşırığına əsasən, Suraxanı rayonunda keçmiş Yod-Brom zavodunun ərazisində lay suları, duz, yod və digər tullantılarla çirklənmiş 67 hektar sahənin təmizlənərək bərpa edilməsi, kollektor-drenaj sisteminin qurulması işləri uğurla icra olunub. Ümumilikdə indiyədək bu ərazidə yerli iqlim şəraitinə uyğun 50 mindən çox müxtəlif növ ağac əkilərək, böyük yaşıllıq zolağı salınıbdır.

Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri ərazidə ağac əkdilər.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə keçirilən ağac əkmə aksiyasında 4 hektar ərazidə ümumilikdə 3250 ağac əkildi. Ağaclar əraziyə çəkilmiş müasir, avtomatlaşdırılmış damcılı suvarma sistemi vasitəsilə suvarılır. Suvarma üçün su Hövsan Aerasiya Stansiyasından götürülür və təmizləyici qurğularda təmizləndikdən sonra suvarmaya ötürülür. Damcılı suvarma sisteminin elektrik enerjisi ilə təchizatı Suraxanı Günəş Elektrik Stansiyası hesabına təmin ediləcəkdir.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva aksiyada iştirak edən gənclərlə görüşdülər. Dövlət başçısı gənclərə ekoloji durumun yaxşılaşdırılması ilə bağlı gördüyü işlərə görə təşəkkürünü bildirdi. Azərbaycan gənclərinin çox önəmli sosial-ekoloji layi-hələr icra etdiyini söyləyən dövlət başçısı Bakının daha da gözəlləşdiyini, yaşıllaşdığını vurğuladı.

Azərbaycan dövləti ekologiyanın və ətraf mühitin mühafizəsi məsələsinə həmişə xüsusi diqqətlə yanaşır. Ölkəmizin zəngin flora və faunasının qorunması, ekoloji durumun daha da yaxşılaşdırılması, Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində ulu öndər Heydər Əliyev bütün dövrlərdə çox böyük işlər görüb. Ümummilli liderin əsasını qoyduğu ənənə bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir. Təsadüfi deyil ki, Azərbaycanda reallaşdırılan milli inkişaf strategiyasının prioritet sahələrindən biri də ətraf mühitin mühafizəsini, həmçinin insanların sağlam təbii şəraitdə yaşamasını ən yüksək səviyyədə təmin etməkdir. Dövlət başçısı tərəfindən 2010-cu ilin ölkədə «Ekologiya ili» elan edilməsi isə bunun bariz nümunəsi olmaqla yanaşı, bir daha sübut edir ki, Azərbaycanda ekoloji siyasətə xüsusi diqqət ayrılır.

Prezident İlham Əliyev neft və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılmasına xüsusi diqqətlə yanaşır. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı ölkədə ciddi əməli işlər görülüb, milyonlarla ağac əkilib, yeni park və xiyabanlar salınıb, yaşıllıqların miqyası isə ildən-ilə daha da artırılıbdır. Bütün bu məqsədyönlü layihələr ətraf mühitin qorunmasına, xüsusilə də vətəndaşların sağlam mühitdə yaşamasına xidmət edir.

Birinci vitse-prezident xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yeni yaşıllıqların salınmasına və mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA

İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu vardır.

Müxtəlif vaxtlarda icra olunmuş ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə etməklə, ümumilikdə ölkəmizin ekoloji vəziyyətinin sağlamlaşdırılmasına böyük töhfələr verir.

Bu gün Azərbaycanın hər yerində vətəndaşların iştirakı ilə ağac əkmə aksiyaları keçirilir. Bu işlərin görülməsində, yaşıllıqların salınmasında, şəhər və rayonlarımızın təmizlik işlərində hər bir sakin fəal iştirakı ilə seçilir. Təsadüfi deyil ki, hazırda Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunədir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**94-cü kitab: mart 2019 - may 2019. - Bakı: Azərnəşr, 2019, S. 274-277.**

## QƏTƏR DÖVLƏTİNİN BƏLƏDİYYƏ VƏ ƏTRAF MÜHİT NAZİRİ ABDULLAH BİN ƏBDÜLƏZİZ BİN TURKİ ƏL-SUBAİE İLƏ GÖRÜŞ

*(19 iyul 2019-cu il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Qətərin Bələdiyyə və Ətraf Mühit naziri Abdullah bin Əbdüləziz bin Turki əl-Subaieni qəbul etmişdir.

Nazir Abdullah bin Əbdüləziz bin Turki əl-Subaie Qətər Dövlətinin Əmiri şeyx Təmim bin Həməd əl-Taninin salamlarını dövlət başçısına çatdırdı. O, Azərbaycanda müvafiq qurumların rəhbərləri ilə müxtəlif istiqamətlərdə əməkdaşlığın perspektivləri barədə səmərəli müzakirələrin aparıldığını diqqətə çatdırdı.

Dövlətimizin başçısı Qətər Dövlətinin Əmiri şeyx Təmim bin Həməd əl-Taninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətər Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Qətərin Bələdiyyə və Ətraf Mühit nazirinin Azərbaycana səfərinin iki ölkə arasında əlaqələrin genişlənməsi işinə töhfə verəcəyinə əmin olduğunu bildirdi.

Söhbət zamanı ekologiya, kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**94-cü kitab: may 2019 - avqust 2019. - Bakı: Azərnəşr, 2019, S. 274-277.**

## İÇMƏLİ SU TƏCHİZATI VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİNDƏ AĞDAŞ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*(28 oktyabr 2019-cu il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı içməli su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü və çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Mən sizi ürəkdən salamlayıram. Yenidən Ağdaş rayonunda olmağımdan çox məmnunam. Bu, Prezident kimi, mənim Ağdaş rayonuna 5-ci səfərimdir. Hər səfərdə biz hansısa önəmli layihənin ya təməl daşını qoyuruq, ya da ki, açılışını qeyd edirik, o cümlədən bu gün. Artıq neçə vaxtdır ki, Ağdaş şəhərinə içməli suyun verilməsi təmin edilibdir. Bu gün isə bu gözəl layihənin rəsmi açılışını qeyd edirik. Bu doğrudan da çox böyük hadisədir. Həm içməli su, həm kanalizasiya layihəsi tam başa çatıb və şəhər əhalisi sutkaboyu təmiz içməli su ilə təmin olunur. Bu suyun keyfiyyəti də Ümumdünya Səhiyyə Təşkilatının bütün standartlarına cavab verir. İndi bu gözəl hadisəni biz birlikdə qeyd edirik.

Onu da bildirməliyəm ki, bu gün Qəbələ şəhərinin də içməli su layihəsi artıq icra edildi, açılışı oldu. Ancaq Qəbələ şəhərində 15 min əhali varsa, Ağdaş şəhərində bu, 35 mindir. Ona görə də burada gələcəkdə görüləcək işlər elə hesablanmalıdır ki, artan əhali də nəzərə alınsın. «Azərsu»ya göstəriş verilib ki, bu layihə təqribən gələcək 20–30 ili də ehtiva etsin və artan əhali bu imkandan istifadə edə bilsin.

Bildiyiniz kimi, içməli su insan orqanizmi üçün ən vacib amildir. İçməli su problemi bir sıra ölkələrdə çox ciddi problem kimi qalır. Bəzi ölkələrdə insan ömrünün uzunluğunun o qədər də böyük olmamasının səbəbi də içməli suya olan tələbatdır. Biz isə bütün şəhərlərdə bu layihəni icra edirik. İlk növbədə, Bakı şəhərində bunu icra etdik və çox müasir, dünya miqyasında ən böyük sutəmizləyici stansiya tikildi. İndi bütün şəhərlərdə bu layihələr ya icra edilib, ya da ki, icradadır. Cəmi 5 şəhər qalıb ki, hələ orada işlər başlanmayıb. Ancaq «Azərsu»ya göstəriş verilib ki, gələn ildən başlayaraq, qalan bu 5 şəhərin də içməli su problemi öz həllini tapsın.

Eyni zamanda, insan sağlamlığı üçün digər vacib amil keyfiyyətli qidadır. Bu məsələyə də diqqət yetirilir, Qida Təhlükəsizliyi Agentliyi yaradılıbdır. Agentlik həm idxala, həm də yerli istehsala nəzarət edir. Ekoloji vəziyyət çox böyük əhəmiyyət daşıyır, bu sahədə də yaxşı nəticələr vardır.

İdman, əlbəttə ki, hər bir insanın fiziki sağlamlığını möhkəmləndirir. Ağdaşda Olimpiya Kompleksi, Mərkəzi Rayon Xəstəxanası fəaliyyət göstərir. Xəstəxana tam şəkildə əsaslı təmir olunub və bütün avadanlıqlarla təchiz edilibdir. Bildiyiniz kimi, hər il Azərbaycanda 5 milyondan çox insan dövlət xətti ilə tibbi müayinədən keçir. Hesab edirəm ki, bu təşəbbüsə görə Azərbaycan dünyada liderdir. Çünki əksər ölkələrdə bu xidmət pulludur, ancaq Azərbaycanda pulsuzdur. İndi bütün bölgələrdə müasir tibb ocaqları vardır və hər bir vətəndaşa qan analizləri vermək, ultrasəs müayinədən, digər müayinələrdən keçmək tövsiyə olunur. İndi imkan da var, şərait də yaradılır.

Həmçinin Ağdaş rayonunda icra edilən layihələr rayonun potensialının inkişafına, ümumi inkişafımıza xidmət göstərir. Bu gün «Ağdaş» elektrik yarımstansiyası da fəaliyyətə başladı. Mən onu Qəbələdəki yarımstansiyadan düyməni basmaqla işə saldım. Elektrik

enerjisi ilə bağlı heç bir problem olmamalıdır, yoxdur və olmayacaqdır. İçməli su layihəsi icra edilib, qazlaşdırılma 80 faiz səviyyəsindədir. Mənə dedilər ki, cəmi 19 kənddə hələ qaz yoxdur. İndi Azərbaycan Dövlət Neft Şirkətinə tapşırıq verirəm ki, o 19 kəndə də qısa müddət ərzində qaz xətləri çəkilsin.

Avtomobil yollarının tikintisinə gəldikdə, son 2 il ərzində Ağdaşda 100 kilometrdən çox kənd yolları salınıb, birinin açılışını bu gün etdik. Yəni bu sosial infrastruktur layihələri öz həllini tapır. Modul tipli 28 sutəmizləyici qurğu fəaliyyət göstərir. İndi içməli su sistemini işə salacağıq. Beləliklə, rayonun hərtərəfli inkişafı üçün şərait yaradılır. Yeni müəssisələr yaradılır, o cümlədən Biyan Kökü İstehsalı və Emalı zavodu. O da çox böyük sənaye müəssisəsidir ki, burada işsizlik olmasın, vətəndaşlar işlə təmin edilsinlər. Həmçinin onlar yaxşı tibbi xidmət alsınlar, təmiz sudan içsinlər və sağlam olsunlar. Məqsədimiz budur. Sizi bir daha təbrik edirəm.

**Gülcənnət İsmayılova** (*rayon sakini*): Əziz Prezidentimiz İlham Əliyev, Ağdaşa xoş gəlmisiniz! Bizim ürəyimizdən gələnlərin hamısını Siz dediniz, artıq nəsə deməyə ehtiyac yoxdur. Allah Sizi qorusun, yardımçınız olsun. Biz Sizi çox sevirik, ona görə də biz işləyənə səs veririk, biz işləyənin arxasında dayanırıq. Bu qədər işləri görmək hər bir ölkəyə nəsib deyil. Bir xahişimiz də var, Ağdaş camaatının, xüsusən də ağdaşlı anaların salamlarını bizim Birinci vitse-prezidentimizə çatdırın. Bizdən ötrü, gələcəyimiz olan uşaqlarımızdan ötrü gördüyünüz bu işlərə görə Sizə ürəkdən «Sağ olun» – deyirik. Çox sağ olun, Sizə təşəkkür edirik, Allah Sizi qorusun.

**İlham Əliyev:** Çox sağ olun. Vətəndaşlara xidmət etmək bizim borcumuzdur. Prezident kimi, mənim əsas vəzifəm ölkə daxilində olan problemləri həll etməkdir. Ona görə də mən bölgələri gəzirəm, hər il bəlkə də 30–35 rayonda oluram. Elə rayonlar var ki, 10 dəfədən çox olmuşam. Amma 4-5 dəfədən az olduğum rayon yoxdur. Gəlirəm, vəziyyətlə tanış oluram, mövcud olan problemləri vətəndaşların dilindən eşitmək istəyirəm ki, o problemlər həll olunsun. Mənim işimin əsas hissəsini daxili məsələlər tutur və məhz buna görə Azərbaycan çox uğurla inkişaf edir. Bu yaxınlarda aparılmış yeni hesabatlarda yenə də Azərbaycanın uğurlu inkişafı öz əksini tapıb. Misal üçün, Dünya Bankının, Davos Dünya Forumunun hesabatlarında göstərilir ki, elektrik enerjisinə əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Baxın görün dünyada nə qədər inkişaf etmiş ölkələr vardır. Onların arasında, bütün dünya ölkələri arasında biz ikinci yerdəyik. Xalqın hökumətə inamına görə indi biz birinci onluqdayıq. Bu nəyi göstərir? Bunu biz demirik, bunu geniş təhlil aparan dünyanın ən mötəbər qurumları deyir və bu da həqiqətdir. Bizim gücümüzün də mənbəyi budur. Çünki xalq-iqtidar birliyi bizim inkişafımızı şərtləndirir və bu dəstək bizə güc verir ki, biz öz sözümüzü deyək, öz mövqemizi müdafiə edək.

Eyni zamanda, beynəlxalq gündəliyimiz də çox zəngindir. Təkcə bu ay ərzində Azərbaycan iki önəmli təşkilata sədrliyi öz üzərinə götürüb. Oktyabrın ortasında Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürüb və biz 1 il bu təşkilata rəhbərlik edəcəyik. Oktyabrın 25-də isə dünyanın ikinci böyük təşkilatı olan «Qoşulmama Hərəkatı»na sədrlik etməyə başladıq. «Qoşulmama Hərəkatı»ndan daha böyük təşkilat Birləşmiş Millətlər Təşkilatıdır ki, onun da sədri olmur. Orada Təhlükəsizlik Şurasının sədri olur, özü də rotasiya qaydasında. Ona görə biz bu gün işlək vəziyyətdə sədrliyi olan ən böyük beynəlxalq təşkilata sədrlik edirik və bu sədrliyi 119 ölkənin dəstəyi ilə əldə etmişik. Bu nəyi göstərir? Onu göstərir ki, dünya ictimaiyyəti bizi dəstəkləyir, bizə inanır, bizə rəğbətlə yanaşır və bizim mövqemizi müdafiə edir. İki gün əvvəl yekun Bəyannamədə bizim istədiyimiz bütün məsələlər öz əksini tapıb, o cümlədən ərazi bütövlüyü ilə, erməni işğalı ilə bağlı. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar bizim

mövqemizlə bağlı istədiyimiz bütün müddəalar orada öz əksini tapıb. Yəni bu, böyük nailiyyətdir. Mən tam səmimi deyirəm, bu təşkilatda yekdil dəstək almaq çox böyük qəhrəmanlıqdır. Çünki təşkilatın 120 üzv ölkəsi vardır. Bəzi ölkələr bir-biri ilə yola getmir, bəzi ölkələr arasında çox böyük ixtilaflar, hətta münaqişələr vardır. Buna baxmayaraq, onların hamısı bizi dəstəklədilər.

Bizim daxili siyasətimiz, bax, bu reallığı yaradır, xarici siyasətimiz də mövqemizi gücləndirir. Ona görə bizim gələcəkdə ancaq inkişaf yolu ilə getməyimiz üçün bütün şərtlər vardır. Mən tam əminəm ki, Azərbaycan bundan sonra da sabitlik, inkişaf və tərəqqi yolu ilə gedəcək, bu gün xalqı narahat edən bütün problemlər – sosial infrastruktur, sosial ədalətlə bağlı olan problemlər öz həllini tapacaqdır. Bir daha sizi təbrik edirəm.

**S a k i n l ə r:** Çox sağ olun. Hər şey Sizin sayənizdədir.

*Sonra «Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov dövlət başçısına layihə çərçivəsində görülən işlərlə bağlı məlumat verdi. Bildirildi ki, 2008-ci ildə «Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi»nin həyata keçirilməsinə başlanılıb və layihə mərhələlərlə icra olunubdur. Layihə 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla, Ağdaş şəhərində 47 min nəfərin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Eyni zamanda, 20 min sakinin yaşadığı 13 kəndə də içməli suyun verilməsi nəzərdə tutulub. Ümumilikdə bu layihədən 67 min nəfər sakin faydalanacaq. Rayon mərkəzini və ətraf kəndləri içməli su ilə təmin etmək üçün mənbə olaraq yeraltı sular seçilib. İlkin mərhələdə Türyançayın məcrasında 2 kəşfiyyat quyusu qazılıb. Mənbədə aparılan tədqiqatlar suyun keyfiyyətinin mövcud standartlara uyğunluğunu təsdiqləyib. Araşdırma zamanı məlum olub ki, mənbənin məhsuldarlığı da optimal səviyyədədir, şəhər mərkəzi və ətraf kəndləri davamlı olaraq su ilə təmin etməyə imkan verir. Bütün bunlar nəzərə alınaraq, ümumi məhsuldarlığı saniyədə 240 litr olan 8 subartezian quyusu qazılıb. Su mənbəyində yerləşən qurğuların Türyançayda baş verə biləcək sel və daşqınlardan mühafizəsi məqsədilə müvafiq tədbirlər görülüb. Subartezian quyularından qəbul olunan suyun toplanması və optimal paylanması üçün tutumu 10 min kubmetr olan 2 su anbarı inşa edilib. Əhaliyə verilən içməli suyun keyfiyyətinin standartlar səviyyəsində saxlanılması məqsədilə zərərsizləşdirici qurğu inşa edilib. Anbarlardan şəhər şəbəkəsinə və ətraf kəndlərə suyun nəqli məqsədilə ümumi uzunluğu 13 kilometr olan, 560 millimetr diametrli polad borulardan ibarət 2 magistral su xətti çəkilib. Layihə çərçivəsində Ağdaş şəhərində 183 kilometr içməli su şəbəkəsinin inşası tam başa çatıb, 7500 ev birləşməsi və su sayğacı quraşdırılıbdır. Şəhər əhalisi yeni tikilmiş şəbəkə vasitəsilə 24 saat keyfiyyətli içməli su ilə təmin olunacaq. Layihə çərçivəsində yeni yaradılmış infrastruktur hesabına şəhər mərkəzinə yaxın və magistral su xəttinin marşrutu boyu yerləşən 5 kəndə içməli su verilib. Hazırda Qaradağlı, Zeynəddin, Gürcüva, Nehrəxəlil kəndlərinin və Ləki qəsəbəsinin bir hissəsində 10 mindən çox sakinin içməli su təchizatı yaxşılaşdırılıbdır. Gələcəkdə daha 8 kəndə içməli suyun verilməsi nəzərdə tutulur. Bununla da həmin kəndlərdə 11 minədək sakinin keyfiyyətli içməli suya çıxışı təmin ediləcəkdir.*

*Bildirildi ki, layihə çərçivəsində Ağdaş şəhərində kanalizasiya infrastrukturu da tamamilə yenidən qurulub. Şəhər ərazisində 166 kilometr kanalizasiya şəbəkəsi tikilib. Hər bir evin və obyektin kanalizasiya şəbəkəsinə qoşulması təmin edilib. Şəhərdə yaranan tullantı sularının təmizləyici qurğuya ötürülməsi məqsədilə kanalizasiya nasos stansiyası və 9,6 kilometr uzunluğunda əsas daşıyıcı kollektor inşa edilib. Yaranan tullantı suların təmizlənib zərərsizləşdirilməsi məqsədilə şəhərin cənub hissəsində məhsuldarlığı sutkada 10 min kubmetr olan təmizləyici qurğunun tikintisi yekunlaşmaq üzrədir.*

*Qeyd edildi ki, yeni layihənin icrasına qədər şəhərə içməli su Türyançay çayının yatağında quraşdırılmış drenaj sistemi vasitəsilə verilirdi. Şəhərdə 32 kilometr paylayıcı şəbəkə mövcud idi və içməli su fasiləli rejimdə verilirdi. 24 min sakinin təxminən 50 faizinə xidmət göstərilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Şəhərdə mövcud olmuş 18 kilometr kanalizasiya şəbəkəsi kiçik bir hissəni əhatə edirdi və istismara yararsız vəziyyətə düşmüşdü.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ümumilikdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq 50 şəhər və rayon mərkəzində içməli su təchizatı və kanalizasiya layihələri icra olunur. İndiyədək bu şəhərlərin 30-da su və kanalizasiya, 11-də isə su layihələrinin icrası yekunlaşıbdır.*

*Dövlət başçısı Ağdaş şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**97-ci kitab: oktyabr 2019 - noyabr 2019. - Bakı: Azərnəşr, 2019, S. 185-193.**

## BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI İLƏ GÖRÜŞ

*(4 noyabr 2019-cu il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovu qəbul etmişdir.*

**İlham Əliyev:** Bilirsiniz ki, mən şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət edirəm, bir çox layihələrin təşəbbüskarı olmuşam. Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən mənim həmkarlarım həmişə paytaxtda gedən abadlıq-quruculuq işləri haqqında öz təəssüratlarını bölüşür və qeyd edirlər ki, Bakı doğrudan da dünyanın ən gözəl şəhərlərindən biridir.

Şəhərin ekoloji vəziyyəti yaxşılaşır, bir çox önəmli layihələr icra edilibdir. Əvvəlki illərdə şəhərin havasını çirkləndirən mənbələr aradan götürülüb. Onların arasında ilk növbədə, keçmiş Balaxanı zibilxanasını qeyd etməliyəm. Bu zibilxana elə bir tüstü buraxırdı ki, havanın keyfiyyəti çox aşağı düşmüşdü və insan sağlamlığına böyük zərər verirdi. İndi keçmiş Balaxanı zibilxanasının yerində müasir poliqon qurulub və zibilin çeşidlənməsi, bərk məişət tullantılarının yandırılması istiqamətində böyük addımlar atılıb, böyük investisiyalar qoyulub, Zibilyandırma zavodu inşa edilibdir. Biz bu ekoloji fəlakət mənbəyini aradan götürdük.

Digər ekoloji fəlakət mənbəyi Bibiheybət neft mədənləri idi. Oradakı vəziyyət, ümumiyyətlə, çox acınacaqlı idi – neftlə çirklənmiş yerlər, gölməçələr. Bunların hamısı aradan götürüldü. İndi orada gözəl park salınıb və vətəndaşların sərəncamına verilibdir. İdman şəhərciyi yaradılıb, müasir idman hovuzu, digər ictimai obyektlər tikilibdir.

Eyni zamanda, Böyükşor gölü də böyük təhlükə mənbəyi idi. Onilliklər ərzində Böyükşor gölünə axıdılan kanalizasiya, lay suları, neftlə çirklənmiş sular o bölgəni də ekoloji fəlakət zonasına çevirmişdi. Biz oranı da təmizlədik, Böyükşor gölünün bir hissəsi tam ekoloji standartlara cavab verir, köçəri quşlar oraya qonur. Göl üzərində yeni yol çəkilib və gölün ikinci hissəsinin təmizlənməsi istiqamətində işlər gedir. Olimpiya stadionu vaxtilə bataqlıq kimi tanınan yerdə tikilibdir.

Ağacların əkilməsi şəhərin ekoloji vəziyyətini yüksək dərəcədə yaxşılaşdırır. Milyonlarla ağac əkilibdir. Bu gün Bakı yaşıl parklar, bağlar şəhəridir. Parkların sayına görə, hesab edirəm ki, Bakı dünya miqyasında ən qabaqcıl yerlərdədir. Bizim ən böyük parkımız olan bulvarın məsafəsi 3 kilometrdən 15 kilometrə uzadılıb. Mərkəzi Park indi şəhərə yeni yaraşıq verir. «Sovetski» adlandırılan ərazidə 20 hektarda çox gözəl, abad park salınıbdır. Heydər Əliyev Mərkəzinin önündə, Konqres Mərkəzinin önündə – vaxtilə Səttarxan adına zavodun ərazisi olan bu yer də ekoloji təhlükə mənbəyi idi – 20 hektar ərazidə park salınıb və vətəndaşlar böyük həvəslə bu imkanlardan istifadə edirlər. Vaxtilə havanı çirkləndirən Lampa zavodu, Şifer zavodu və digər müəssisələr köçürülüb, onların yerində nəqliyyat infrastrukturu yaradılıbdır. Bir sözlə, bu gün Bakı həm ekoloji, həm də rahatlıq baxımından çox sürətlə inkişaf edən şəhərdir.

Eyni zamanda, şəhərin təsərrüfatı yenilənir və bu məqsədlə mənim tərəfimdən müvafiq sərəncamlar verilib, qərarlar qəbul edilibdir. Mən sizə dəfələrlə bu məsələlərlə bağlı öz tövsiyələrimi vermişəm və bu il şəhər təsərrüfatının müasirləşdirilməsi istiqamətində işlər aparılıb. Həm dövlət investisiya proqramı çərçivəsində, həm Prezidentin ehtiyat fondunun vəsaiti hesabına lift təsərrüfatı yenilənir, nümunəvi həyətlər qurulur. Heydər Əliyev Fondu bu sahədə çox böyük iş aparır. Dam örtüklərinin təzələnməsi üçün ehtiyat fondundan 10 milyon manat vəsait ayrılıbdır.

Bu üç istiqamət üzrə hansı işlər görülüb? Şəhərin abadlaşdırılması və inkişafı ilə bağlı daha hansı işlər görülüb? Bu barədə məlumat verin.

**E l d a r  Ə z i z o v** (*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident, qeyd etmək istərdim ki, son vaxtlar qonaqlar və Bakı sakinləri görülən bu işləri həqiqətən, yüksək qiymətləndirirlər. Birmənalı deyirlər ki, son 10 il ərzində Sizin səylərinizin nəticəsində Bakı keyfiyyətcə yeni bir səviyyəyə qalxıb. Bu, əhali və xarici qonaqlar tərəfindən qiymətləndirilir.

Bu gün Bakı Şəhər İcra Hakimiyyətinin və rayon icra hakimiyyətlərinin balansında 11 min yaşayış binası vardır. Onları şərti olaraq həyətləri olan və olmayanlara bölmək olar. Deməli, bu gün həyətləri olan binaların sayı 6331-dir. Sizin tapşırığınıza uyğun olaraq, 2018–2019-cu illərdə 273 nümunəvi məhəllə yaradılıbdır. Mən burada bir məsələyə də toxunmaq istərdim. İlk növbədə, Leyla xanım Əliyevanın və onun təsisçisi olduğu IDEA İctimai Birliyinin fəaliyyətini qeyd etməyə dəyər. Möhtərəm cənab Prezident, İctimai Birliyin səyləri nəticəsində bu gün Bakı şəhərində yeni bir format – məhəllələrarası parklar formatı tətbiq olunub və olunur. Bu ərazilərdəki onlarla binanın fasadları, dam örtükləri, blokları təmir olunub, su təchizatı sistemi yenilənib və bütün yaş kateqoriyaları üçün həm istirahət etmək, həm idmanla məşğul olmaq, həm də asudə vaxtı səmərəli keçirmək üçün şərait yaradılıbdır. Bu proses davam edir.

İlin axırınadək daha 15 yeni nümunəvi məhəllə istifadəyə veriləcəkdir. Bizim hesablamalarımıza görə, yaxın illərdə hələ 743 belə layihə icra etmək mümkündür. Bu proses davam edir. Bu gün biz bir daha Heydər Əliyev Fondunun rəhbərliyinə və ilk növbədə, Leyla xanım Əliyevaya minnətdarlığımızı bildiririk.

**İ l h a m  Ə l i y e v:** Bu çox vacib məsələdir. Çünki vətəndaşların gündəlik həyatda üzləşdikləri problemlərdir. Biz bilirik ki, bir çox binalarda, bloklarda vəziyyət ürəkaçan deyil, lift təsərrüfatı köhnəlibdir. Evlərarası həyətlər bəzi hallarda zəbt olunur və ictimai istifadə üçün yerlər yoxa çıxır. Ona görə nümunəvi həyətlərin qurulması çox böyük məna daşıyır. Biz bu sahəyə kompleks şəkildə yanaşmalıyıq. Əlbəttə, həyətlər ilk növbədə, vətəndaşlar üçün rahat, işıqlı olmalı, təhlükəsizlik baxımından tədbirlər görülməlidir. Bir çox inkişaf etmiş ölkələrin şəhərlərində həyətlərdə təhlükəsizlik kameraları qoyulur. İndi Bakı şəhərində bir çox yerlərdə təhlükəsizlik kameraları qoyulub və bu kameralar cinayətlərin aşkar edilməsi və cinayətkarların məsuliyyətə cəlb olunması üçün böyük rol oynayır. Hesab edirəm, həyətlərdə də təhlükəsizlik kameraları qoyulmalıdır ki, təhlükəsizlik tədbirləri daha yüksək səviyyədə təmin olunsun.

Lift təsərrüfatı da həmçinin. Bir neçə il bundan əvvəl yenə də mənim sərəncamımla bir çox binaların lift təsərrüfatı yeniləndi. Ancaq təəssüflər olsun ki, istismar dövründə liftlər sıradan çıxır. Ona görə lift təsərrüfatı tam yenilənməli və onların istismarı ilə bağlı təkliflər verilməlidir. Ümumiyyətlə, biz indi nümunəvi həyətlər yaradırıq. Ancaq bu həyətlər normal vəziyyətdə saxlanmazsa, əgər daim diqqət olmazsa, orada qurulan bütün işlər 1 il, 2 il, 5 ildən sonra sıradan çıxacaq. Ona görə siz fikirləşin, təkliflər verin, necə edək ki, yaradılmış yeni infrastruktur, o cümlədən abadlıqla bağlı işlər daim nəzarətdə olsun və təmirə ehtiyacı olan obyektlər vaxtaşırı təmir edilsin. İndi liftlərin quraşdırılması necə gedir?

**E l d a r  Ə z i z o v:** Möhtərəm cənab Prezident, Sizin sərəncamınızla Bakı şəhərinin lift təsərrüfatını inkişaf etdirmək üçün 32 milyon manat vəsait ayrılıbdır. Biz bu sahədə Almaniyanın tanınmış «Vittur» şirkəti ilə danışıqlar apardıq, müqavilə bağladıq və bu günədək 430 lift Bakıya gətirilibdir. Onlardan 130-u artıq istifadəyə verilib. Bu proses davam etdirilir. Həmin sərəncamda 542 liftin alınması nəzərdə tutulmuşdu. Biz büdcə vəsaitindən

səmərəli istifadə etmək barədə Sizin tövsiyələrinizə və tapşırıqlarınıza əsasən, şirkətlə danışıqlar apardıq və beləliklə, burada vəsaitə qənaət yarandı. Biz bu qənaət hesabına ilin axırınadək əlavə 39 lift almaq niyyətindəyik, danışıqlar gedir.

**İ l h a m Ə l i y e v:** Bütövlükdə, nə qədər yeni lift quraşdırılmalıdır?

**E l d a r Ə z i z o v:** İlin axırınadək 581 lift quraşdırılacaqdır. Amma yaxın illər üçün proqnozlarımız belədir ki, 2500-ə qədər lift mərhələ-mərhələ dəyişdirilməlidir.

**İ l h a m Ə l i y e v:** Onları da dəyişdirməliyik. İndi Dövlət İnvestisiya Proqramına baxılır, ona görə siz təkliflərinizi verin ki, Bakı şəhərinin lift təsərrüfatı tam yenilənsin və bütün liftlər həm təhlükəsizlik normalarına cavab versin, həm də işlək vəziyyətdə olsun.

**E l d a r Ə z i z o v:** Sizə məlumat verim ki, ilkin olaraq quraşdırılacaq 581 liftə Almaniya şirkəti tərəfindən xidmət göstərilməsi üçün Vahid Elektron İdarəetmə Mərkəzi yaradılır. Lift təsərrüfatında yaranan bütün problemlər dərhal həmin mərkəzə daxil olacaq və tədbir görüləcəkdir.

**İ l h a m Ə l i y e v:** Dam örtükləri ilə bağlı vəziyyət necədir? Qış yaxınlaşır. Bu məqsədlər üçün də ilkin olaraq Prezidentin ehtiyat fondundan 10 milyon manat vəsait ayrılıb. Əlbəttə ki, bütün dam örtüklərini bu vəsaitlə təmir etmək mümkün deyil. Ancaq mən sizə göstəriş vermişdim ki, bu işləri planlı şəkildə görməliyik, illərə bölməliyik və maksimum qısa müddət ərzində Bakı şəhərinin bütün binalarının dam örtükləri tamamilə standartlara cavab verməlidir. Hansı işlər görülüb və nə planlaşdırılır?

**E l d a r Ə z i z o v:** Sizin sərəncaminiza uyğun olaraq, bu proses artıq Bakı şəhərində fəal surətdə həyata keçirilir. Şəhərdə 380 binanın dam örtüyünü təmir etmək nəzərdə tutulubdur. Biz inşaat materiallarını mərkəzləşdirilmiş qaydada alandan sonra danışıqlar apardıq və burada da qənaət yaranıbdır. Biz artıq 380 deyil, 420 binanın dam örtüyünü təmir edə biləcəyik. Şirkətlərlə danışıqlar aparılıb, Sizin tələbiniz çatdırılıb ki, ən keyfiyyətli materiallardan istifadə etmək vacibdir. Biz öz tərəfimizdən sakinlərin istək və arzularını nəzərə alaraq, işin nəticələrini onların iştirakı ilə qəbul edəcəyik. Bu gün, demək olar ki, artıq 150 damda işlər tamamlanıb və proses gedir. Noyabrın ortalarına qədər bütün bu işləri qurtarmaq niyyətindəyik.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı, bütün bu işləri görmək lazımdır, çünki buna ehtiyac vardır. Biz elə etməliyik ki, Bakı şəhərinin hər bir yeri abad olsun və vətəndaşları narahat edən problemlər aradan qaldırılsın, o cümlədən tikintilərlə bağlı məsələlər. Mən bu barədə də müvafiq göstərişlər vermişəm. Bəzi hallarda tikinti üçün yerlər zəbt olunur, bəzi hallarda sərəncamlar qanunsuz olaraq verilir, ağaclar qırılır. Vətəndaşlar sağ olsunlar ki, bir çox hallarda belə vəziyyətlə üzləşdikdə müvafiq orqanlara məlumat verirlər. Yəni bu, ictimai nəzarətin mövcudluğu deməkdir. Bundan sonra Bakıda şəhərsalma qaydaları tam təmin edilməlidir. Bütün şəhərlərdə bina tikintisi üçün müvafiq əmsallar mövcuddur. Əfsuslar olsun ki, əvvəlki dövrlərdə bu əmsallar 10 dəfə, bəlkə də artıq götürülürdü. Yəni bütün şəhərsalma qaydaları pozulurdu. Mövcud binaların düz önündə yeni hündürmərtəbəli binalar tikilirdi və bəzi «sahibkar»lar köhnə binalarda yaşayan vətəndaşları günəş işığından məhrum edirdilər. Bir çox hallarda həyətlərdə evlərin tikintisi baş verirdi. Əvvəlki dövrdə hətta bəzi məktəblərin həyətlərində evlər tikilirdi. Sonra bu məsələyə son qoyuldu. Yəni şəhərsalma qaydaları tətbiq olunmalıdır, burada yerli icra orqanları və əlbəttə, Dövlət Arxitektura və Şəhərsalma Komitəsi öz işini yüksək səviyyədə qurmalıdır ki, bütün şəhərsalma normaları təmin edilsin. Əlbəttə ki, rayon icra hakimiyyətləri tərəfindən vətəndaşlara diqqət yüksək səviyyədə olmalıdır. Bəzi hallarda vətəndaşlar incidilir, onların problemlərinə reaksiya verilmir, qanunsuz olaraq müəyyən vəsait tələb edilir, rüşvətxorluq halları baş verir. Belə siqnallar bizə çatır və rayon icra hakimiyyətləri nəticə çıxarmalıdır. Xoşagəlməz

hallara yol verilməməli, vətəndaşlara maksimum diqqət göstərilməli, rayon icra hakimiyyətlərinin nümayəndələri kabinetdə oturub kağızlara baxmaq yox, bütün rayonlarda vətəndaşlarla görüşməlidirlər. Mənim göstərişimlə son vaxtlar bu proses bir qədər geniş vüsət alıb, amma lazımi səviyyədə deyil. Mənə verilən məlumata görə, bəzi hallarda formal xarakter daşıyır, bəzi hallarda vətəndaşları narahat edən problemlərə reaksiya verilmir. Ona görə biz çox diqqətli olmalıyıq. Əgər vətəndaşı nəsə narahat edirsə, buna reaksiya verilməlidir. Əlbəttə, bütün məsələlərə obyektiv şəkildə baxılmalıdır. Bəzi hallarda elə məsələlər qaldırılır ki, bunun heç bir əsası yoxdur, yaxud da sırf şəxsi xarakter daşıyır. Ancaq bir çox hallarda vətəndaşlar haqlı olaraq öz təkliflərini verir, onları narahat edən problemləri qaldırırlar. Bakı Şəhər İcra Hakimiyyəti və bütün rayon icra hakimiyyətləri vətəndaşlara böyük diqqətlə yanaşmalıdır. Beləliklə, Bakı şəhəri və Azərbaycanın bütün şəhərləri planlı şəkildə inkişaf etməlidir.

Bakı şəhərinin nadir, özünəməxsus, tarixi memarlıq siması vardır. Bu bizim böyük sərvətimizdir və hər bir tarixi binaya böyük diqqətlə yanaşılır. O binaların təmiri gərək elə aparılsın ki, onların tarixi görkəmi pozulmasın. Bəzi hallarda tarixi binaları sökürlər, onların yerində eybəcər hündürmərtəbəli binalar tikirlər. Buna yol vermək olmaz. Bakının memarlığı bizim milli sərvətimizdir. İçərişəhər UNESKO tərəfindən qorunur. Deyə bilərəm ki, dünyada o qədər də çox ölkə belə qədim İçərişəhər kimi şəhərlərlə öyünə bilməz. Eyni zamanda, şəhərin hər bir yeri abad olmalıdır. Bəzi yerlərdə, ümumiyyətlə, küçə işıqları yoxdur, qəsəbələrdə, bir çox yerlərdə torpaq yollar var. Mən artıq bu barədə «Azəravtoyol» Agentliyinə ciddi tapşırıq vermişəm, siz də nəzarət edin. Yəni şəhərin hər bir yeri bizim üçün əzizdir. Bakı şəhəri təkcə mərkəzdən ibarət deyil. Biz şəhərin infrastrukturunu ilk növbədə, vətəndaşlar, ondan sonra turistlər, xarici qonaqlar üçün yaradırıq. Onlar da özlərini Bakıda rahat hiss etməlidirlər. Ancaq biz ilk növbədə, şəhər sakinlərinin problemlərini həll etməliyik. Ona görə siz rayon icra hakimiyyətlərinin başçılarını yığın və həm abadlıqla, həm də təsərrüfat işləri ilə bağlı müşavirə keçirin. İlk növbədə, xoşagəlməz hallara son qoyulmalıdır. Süründürməçilik, rüşvətxorluq, vətəndaşlara biganə münasibət – bunlara son qoyulmalıdır. Əgər kim bu sahədə öz işinə düzəliş etməsə, biz o adamlarla vidalaşacağıq və bu onlar üçün hələ ən yüngül cəza olacaqdır. Biz şəhərimizi inkişaf etdirməliyik. Bir daha demək istəyirəm ki, Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən biridir və gələcəkdə də şəhərin inkişafı ilə bağlı əlavə addımlar atılacaqdır.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**97-ci kitab: oktyabr 2019 - noyabr 2019. - Bakı: Azərnəşr, 2019, S. 229-238.**

## HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN BAKININ XƏTAİ RAYONUNDA SALINAN YENİ «GƏNCLİK» PARKINDA «TƏBİƏT NAMİNƏ BİRLƏŞ, HƏYAT NAMİNƏ BİRLƏŞ!» LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ AĞAC ƏKMƏ AKSİYASINDA İŞTİRAK

*(11 noyabr 2019-cu il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 11-də Heydər Əliyev Fondu tərəfindən Bakının Xətai rayonunda salınan yeni «Gənclik» parkında «Təbiət naminə birləş, həyat naminə birləş!» layihəsi çərçivəsində ağac əkmə aksiyasında iştirak etmişlər.*

*Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov dövlət başçısına və xanımına Xətai rayonunda Heydər Əliyev Fondu tərəfindən salınacaq yeni park barədə məlumat verdi.*

**A n a r Ə l ə k b ə r o v:** Cənab Prezident, bura parkın ən hündür nöqtəsidir. Buradan bütün ərazi görünür. Parkın ərazisi 37,2 hektardır.

**İ l h a m Ə l i y e v:** Buradan gözəl mənzərə açılır.

**A n a r Ə l ə k b ə r o v:** Elədir. Mehriban xanımın tapşırığına əsasən biz buraları qoruyub saxlamışıq və çalışırıq ki, tezliklə bu parkı insanların istifadəsinə verək. Bu ərazinin yeni planı nəzərdə tutulub. Burada böyük, özü də sadə bir park olacaqdır.

**M e h r i b a n Ə l i y e v a:** Təbii park.

**İ l h a m Ə l i y e v:** Bəli, təbii.

**A n a r Ə l ə k b ə r o v:** İnsanların asudə vaxtlarının səmərəli təşkili üçün burada hər bir şərait yaradılacaqdır.

**İ l h a m Ə l i y e v:** İdman meydançaları da.

**A n a r Ə l ə k b ə r o v:** Əsasən idman meydançalarına, idman qurğularına üstünlük veriləcək. Burada insanların daha çox təbiət qoynunda idman etmələri üçün xüsusi zolaqlar, velosiped yolları, sadə pikniklər üçün yerlər olacaqdır. İnsanların vaxtlarını, bayramlarını burada keçirmələri üçün bütün imkanlar yaradılacaqdır.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Burada iaşə obyektləri də olmalıdır ki, vətəndaşlar gələndə onlardan istifadə edə bilsinlər.

**A n a r Ə l ə k b ə r o v:** Elədir, cənab Prezident.

**İ l h a m Ə l i y e v:** Amma bu təbii mənzərə qorunmalıdır. İndi burada yeni ağaclar əkilir.

**A n a r Ə l ə k b ə r o v:** Bu gün 30 minə yaxın ağac əkiləcək. Sizin dəstəyinizə böyük ehtiyacımız var ki, biz bu parkı salaq və insanların istifadəsinə verək.

**İ l h a m Ə l i y e v:** Hesab edirəm ki, park qısa müddət ərzində tamamilə abadlaşdırılacaq və vətəndaşlar üçün burada gözəl imkanlar yaradılacaqdır.

**M e h r i b a n Ə l i y e v a:** Suvarma sistemi necə olacaq?

**A n a r Ə l ə k b ə r o v:** Artıq onu həll edirik. Bu gün ağacları əkirik və Sizin göstərişinizlə suvarma sistemini də çəkirik. Amma təbii ki, burada əlavə işlər vardır. İşıqlandırma sistemlərinə yenidən baxılmalıdır. Xüsusi suvarma sistemləri qurulmalıdır. Onu təşkil edəcəyik.

**İ l h a m Ə l i y e v:** Burada zeytun ağacları da görürəm. Vaxtilə əkilib?

**A n a r Ə l ə k b ə r o v:** Bəli, vaxtilə burada çoxlu zeytun ağacı olub, məhsul da yığılıbdır.

**İ l h a m Ə l i y e v:** İndi də əkmək lazımdır, əsasən zeytun və şam ağacları.

**A n a r  Ə l ə k b ə r o v:** Biz burada Eldar şamına üstünlük veririk. Əvvəllər burada zeytun ağacları ilə bərabər, Eldar şamları da çox idi. Ona görə bu qaydada davam edəcəyik.

* * * *

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva parkda ağac əkdilər.*

*Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prezident İlham Əliyev Azərbaycan vətəndaşının sosial məsələlərinin həllini, onların sağlamlıqlarının qorunmasını prioritet məsələlərdən biri kimi müəyyənləşdirib. Bu istiqamətdə indiyədək çox sayda layihələr icra olunub. Bu layihələr sırasında əhalinin sağlam ekoloji mühitdə yaşaması məsələsinə də xüsusi diqqət yetirilir. Ölkəmizdə həyata keçirilən ekoloji siyasət nəticəsində yeni yaşıllıqların salınması, mövcudlarının qorunması ilə yanaşı, əvvəllər heç bir yaşıllıq olmayan sahələrdə də ağac əkmə aksiyalarının keçirilməsi Azərbaycanda ekoloji durumun yaxşılaşdırılmasına mühüm töhfələr verir, yaşıllıq zonalarının sahəsini artırır.*

*Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi diqqət yetirir. Ölkəmizdə yeni yaşıllıqların salınmasında və mövcud yaşıllıq sahələrinin qorunmasında Fondun töhfəsi olduqca böyükdür. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə ekoloji durumun daha da yaxşılaşdırılması, yeni yaşıllıqların salınması məqsədilə icra olunan layihələrin də mühüm rolu vardır. Bu baxımdan Heydər Əliyev Fondunun «Təbiət naminə birləş, həyat naminə birləş!» layihəsi xüsusi əhəmiyyət daşıyır.*

*Aksiyada gənclər, rayon sakinləri, Heydər Əliyev Fondunun «Regional İnkişaf» İctimai Birliyinin könüllüləri fəal iştirak etdilər.*

*Bakıda və respublikanın müxtəlif rayonlarında ağac əkmə aksiyalarının təşkilini nəzərdə tutan layihə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərin aradan qaldırılması istiqamətində mübarizədə birgə fəaliyyətə səsləyir. Layihənin məqsədi eyni zamanda, insanları nəcib təşəbbüslər ətrafında birləşdirməyə yönəlib. Dövlət Bayrağı bayramının qeyd edildiyi günlərdə və 12 noyabr – Konstitusiya Günü ərəfəsində təşkil olunmuş bu aksiya həm də vətəndaşların ölkə üçün vacib layihə ətrafında birləşməsi ilə yadda qaldı.*

*Dövlət başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva ağac əkmə aksiyasının iştirakçıları ilə görüşüb söhbət etdilər.*

*Ağac əkilən ərazidə əvvəlcə müvafiq iməcilik təşkil olunub, təmizlik işləri aparılıbdır.*

*Aksiya çərçivəsində ağacların əkilməsi, sulanması, ərazinin tullantılardan təmizlənməsi ilə yanaşı, burada mövcud ağaclarda quş yuvaları və yem qabları quraşdırılıbdır.*

*Tədbir çərçivəsində ərazidə müxtəlif əyləncəli və musiqili proqramlar, yarışlar təşkil olunubdur.*

*İştirakçılar aksiyaya qatılmaqdan məmnun qaldıqlarını bildirdilər.*

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**97-ci kitab: oktyabr 2019 - noyabr 2019. - Bakı: Azərnəşr, 2019, S. 243-247.**

## PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA ŞAMAXI RAYONUNDA AĞACƏKMƏ AKSİYASINDA İŞTİRAK EDİBLƏR

*(6 dekabr 2019-cu il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 6-da Azərbaycanın filosof şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə mütəfəkkirin anadan olduğu Şamaxı rayonunda keçirilən ağacəkmə aksiyasında iştirak ediblər.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən bu aksiya çərçivəsində bir gündə ölkəmizdə 650 min ağac əkilib.*

Dövlətimizin başçısına və birinci xanıma aksiya barədə məlumat verən Ekologiya və Təbii Sərvətlər naziri **Muxtar Babayev** dedi: Mehriban xanımın təşəbbüsünə əsasən bütün respublika üzrə bir gündə 650 min ağacın əkilməsi ilə bağlı böyük bir aksiyaya başlamışıq. Ağacların hamısı yerli tingliklərdə yetişdirilib və respublikanın bütün rayonlarının sifarişləri üzrə paylanılıbdır.

**Prezident İlham Əliyev:** Şamaxıda neçə min ağac əkilir?

**Muxtar Babayev:** Şamaxıda 50 min. Bakıda, Naxçıvanda, Sabirabad və Saatlı rayonlarının hər birində də 50 min ağac əkiləcək.

**Prezident İlham Əliyev:** Şamaxıda neçə yerdə ağac əkilir, ancaq burada?

**Muxtar Babayev:** Şamaxıda 10-12 yerdə əkilir. Bizim aksiyamızın keçirildiyi ərazi 5 hektardır.

**Prezident İlham Əliyev:** Hansı ağaclar əkilir?

**Muxtar Babayev:** Burada əsasən tuya və Eldar şamı. Amma, bütövlükdə 38 növ ağac paylanılıbdır. Əsasən meyvə ağaclarıdır ki, insanlar həm də meyvə götürsünlər.

**Prezident İlham Əliyev:** Ağaclar bölgələrin iqliminə uyğun olmalıdır.

**Muxtar Babayev:** Əlbəttə, nəzərə almışıq.

**Prezident İlham Əliyev:** Abşeronda yəqin ki, zeytun əkilir?

**Muxtar Babayev:** Abşeronda əsasən zeytundur, badamdır. Burada isə əsasən Eldar şamıdır. Əkilən ağaclar əsasən damcı üsulu ilə suvarılacaq. Bu sistem artıq Sabirabadda, Şamaxıda qurulur. Digərlərində ağaclar hələ ki ənənəvi üsulla suvarılacaq.

**Prezident İlham Əliyev:** Ancaq qulluq etmək lazımdır. Mən gələndə gördüm ki, yolboyu əkilmiş bəzi ağaclar quruyub.

**Muxtar Babayev:** Quruyan ağacların hamısı mütləq dəyişdiriləcək, onlara qulluq olunacaq. Ümumiyyətlə, aksiya səhər tezdən başlayıb. Bir neçə gündür hazırlıq işləri görülübdür. Bütün rayonlarda bu işlər çox böyük əhval-ruhiyyə ilə görülür və günün sonuna bizim hesabatımız olacaq.

**Prezident İlham Əliyev**: Çox yaxşı.

* * * *

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ağac əkdilər.

* * * *

**Mehriban Əliyeva:** Bu ərazidə ümumilikdə nə qədər ağac əkilir?

**Rayon icra hakimiyyətinin başçısı Tahir Məmmədov:** Yalnız bu ərazidə 5 min.

**Prezidentin köməkçisi Anar Ələkbərov:** Mehriban xanım, bu hissədə əkilən ağaclar ilə “Nəsimi 650” yazısı formalaşdırılacaq.

* * * *

Sonra dövlətimizin başçısı və birinci xanım aksiyada iştirak edən gənclərlə xatirə şəkilləri çəkdirdilər.

Qeyd edək ki, dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə respublikamızın bütün ərazisini əhatə edən ağacəkmə aksiyası çərçivəsində ümumilikdə 83 şəhər və rayonda 38 növdə 650 min ağac əkilib. Aksiya ilə əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyi ağacların əkiləcəyi ərazilərin elektron xəritəsini hazırlayıb. Şəhər və rayon icra hakimiyyətləri tərəfindən ərazilərdə müvafiq hazırlıq işləri görülüb. Əkiləcək ağacların becərilməsində damcılı suvarma sistemindən və suvarma kanallarından istifadə olunacaq.

Şamaxı rayonundakı ağacəkmə aksiyasında 50 minədək ağac əkilib. Şamaxı şəhərinin girişindəki ərazidə keçirilən aksiyada isə 5 min ağac əkilib. Bu ərazinin relyefinə uyğun olaraq burada əsasən tuya və Eldar şamı əkilib. Aksiyada 300-dək şamaxılı gənc və könüllü ilə yanaşı, IDEA İctimai Birliyinin və Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin üzvləri və könüllüləri də fəal iştirak ediblər.

**AZƏRTAC**
**2019, 6 dekabr**

## BİNƏQƏDİ RAYONUNDA APARILMIŞ YENİDƏN QURULMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*(30 dekabr 2019-cu il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 30-da Bakının Binəqədi rayonunda Səttar Bəhlulzadə küçəsi, Atatürk və Ziya Bünyadov prospektlərinin kəsişməsində yerləşən parkda aparılmış yenidən qurulma işləri ilə tanış olmuşdur.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov və Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev dövlət başçısına parkda həyata keçirilən yenidən qurulma işləri barədə məlumat verdilər.

Bildirildi ki, bu parkın ərazisi 1,1 hektardır. Abadlıq və yenidən qurulma işlərinin yüksək səviyyədə həyata keçirildiyi parkda sakinlərin, o cümlədən uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıbdır.

Qeyd edək ki, paytaxt Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş nəcib təşəbbüs Prezident İlham Əliyevin rəhbərliyi ilə ardıcıllıqla və kompleks şəkildə uğurla davam etdirilir. Dövlət başçısı Azərbaycanda reallaşdırılan milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri kimi, ətraf mühitin mühafizəsini və eyni zamanda, insanların sağlam təbii şəraitdə yaşamasını ən yüksək səviyyədə təmin etməyi qarşıya məqsəd qoyub. Ölkəmizdə bu istiqamətdə silsilə tədbirlər və genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilir.

Son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakıda abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığı və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınır, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulur. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Aparılan yaşıllaşdırma işlərinə və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük dəstək verir.

Parkda görülmüş işlərlə yaxından tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**99-cu kitab: dekabr 2019 - yanvar 2020. - Bakı: Azərnəşr, 2020, S. 204-205.**

## «ŞƏMKİRÇAY» SUTƏMİZLƏYİCİ QURĞULAR KOMPLEKSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*(3 mart 2020-ci il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də «Şəmkirçay» Sutəmizləyici Qurğular Kompleksinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Şəmkirçay su anbarının ehtiyatlarının daxili mənbələr hesabına formalaşması ölkəmizin su təhlükəsizliyi baxımından strateji əhəmiyyət daşıyır. 2014-cü ildə istismara verilmiş və ümumi tutumu 164 milyon kubmetr olan anbar əkin sahələrinin suvarılması ilə yanaşı, respublikanın qərb bölgəsində yaşayan əhalinin içməli su ilə təminatına da töhfələr verməkdədir. Burada toplanan suyun içməli su standartlarına uyğun olması, eyni zamanda, təbii durulmadan keçməsi nəzərə alınaraq, anbardan həm də içməli su mənbəyi kimi istifadəyə qərar verilibdir. Anbarın relyef baxımından Gəncə, Şəmkir, Samux şəhərlərindən yüksəklikdə yerləşməsi yaşayış məntəqələrinin özüaxımlı rejimdə dayanıqlı su təchizatına imkan yaradır. Bütün bunlar nəzərə alınaraq, «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sifarişi ilə su anbarının yaxınlığında məhsuldarlığı gündə 140 min kubmetr və ya saniyədə 1,6 kubmetr olan sutəmizləyici qurğular kompleksi inşa edilib. Bu kompleks məhsuldarlığına görə Azərbaycanın regionlarında tikilmiş ən böyük içməli sutəmizləyici qurğudur.*

*Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov rayonun aqrar sənaye kompleksində görülmüş işlər barədə dövlət başçısına məlumat verdi.*

*Sonra Prezident İlham Əliyev Şəmkirçay Sutəmizləyici Qurğular Kompleksinin açılışında iştirak etdi.*

*«Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov kompleksin texniki-iqtisadi göstəriciləri barədə dövlət başçısına məlumat verdi.*

*Bildirildi ki, kompleksin tikintisinə 2016-cı ildə başlanılıb. Bu məqsədlə Şəmkir rayonunun Aşağı Seyfəli kəndinin cənub hissəsində, Şəmkirçay su anbarının yaxınlığında 3,3 hektar ərazi ayrılıb. Ərazidə qazıntı və kipləşdirmə işləri aparıldıqdan sonra bina və qurğuların tikintisinə başlanılıb. Kompleksin əsas hissəsini təşkil edən süzgəclər binası, ümumi tutumu 7500 kubmetr olan 3 su anbarı, 2 idarəetmə və 6 siyirtmə kamerası, inzibati və yardımçı binalar inşa edilibdir.*

*Sutka ərzində qurğuda emal olunacaq 140 min kubmetr suyun 100 min kubmetri Gəncə, 16 min kubmetri Şəmkir, 8000 kubmetri Samux şəhərinin, qalan hissəsi isə magistral kəmərlərin marşrutu boyu yerləşən kəndlərin tələbatının ödənilməsinə yönəldiləcəkdir. Ümumilikdə kompleksin imkanlarından istifadə olunmaqla, perspektivdə 450 mindən artıq insan keyfiyyətli və fasiləsiz içməli su ilə təmin ediləcəkdir.*

*Qeyd olundu ki, Şəmkirdə su layihələri tam başa çatıb, ilin sonunadək kanalizasiya xətlərinin inşası da yekunlaşacaqdır. Ağstafa, Göygöl, Goranboy və Tovuz şəhərləri tamamilə layihələndirilib, Daşkəsən və Gədəbəydə isə şəbəkə işləri bitib, hazırda təmizləyici qurğuların inşası gedir.*

*Dövlət başçısı kompleksi işə saldı.*

*Sonra Prezident İlham Əliyev kompleksin kollektivi ilə görüşdə çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu gün açılışını etdiyimiz Şəmkirçay Sutəmizləyici Qurğular Kompleksinin ərsəyə gəlməsində Şəmkirçay su anbarının müstəsna rolu vardır. Əgər vaxtilə biz böyük vəsait sərf edərək, bu nəhəng layihəni icra etməsəydik, bu gün bu bölgənin insanlarının su ilə təchizatı

işində və suvarma işlərinin yüksək səviyyədə təşkilində böyük problemlər olardı. Çünki keçən il quraqlıq geniş vüsət almışdı. Əfsuslar olsun ki, bu ilin proqnozları da o qədər ürəkaçan deyil. Ona görə bu böyük layihələrin həyata keçirilməsi bizi böyük problemlərdən sığortaladı.

Eyni zamanda, Şəmkirçay su anbarı ilə bərabər, Taxtakörpü su anbarı da tikilib. Əgər Taxtakörpü su anbarı bir neçə il bundan əvvəl tikilməsəydi, keçən ilin yay aylarında Bakı şəhərində su qıtlığı yaranacaqdı. Çünki bizim əsas içməli su mənbəyimiz olan Ceyranbatan su anbarını qidalandıran Taxtakörpü su anbarıdır. Orada sular yığılır və eyni zamanda, təbii yollarla təmizlənir, sonra Ceyranbatana axıdılır. Ona görə bu böyük infrastruktur layihələrin çox böyük əhəmiyyəti, faydası vardır. Bu gün biz əkin sahələrimizi genişləndiririk, insanları içməli su ilə təmin edirik. Şəmkirçay su anbarından götürülən və burada təmizlənən su Gəncə, Samux və Şəmkir şəhərlərinin böyük hissəsini təmin edəcək. Bu gün Gəncə şəhərinin su təminatı əsasən, Göygöl gölündən təmin edilir. Ancaq 2022-ci ildə Gəncə şəhərinin böyük su təchizatı layihəsi başa çatandan sonra bu şəhər Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun sutkaboyu fasiləsiz təmiz içməli su ilə məhz Şəmkirçay anbarından götürülən su ilə təmin ediləcəkdir.

Bu layihələr bir daha göstərir ki, bizim bütün addımlarımız nəticəyə hesablanıb. Bütün addımlarımız vaxtında atılır. Hər iki böyük su anbarı Azərbaycanda tarixi layihələrdir. Çünki böyük maliyyə və əməktutumlu layihələrdir. Texniki cəhətdən də çox mürəkkəb layihələrdir. Hər iki layihənin təşəbbüskarı mən olmuşam, layihələrin icrası müddətində dəfələrlə bu işlərlə maraqlanmışam, müvafiq göstərişlər vermişəm, hər iki böyük layihənin açılışında şəxsən iştirak etmişəm.

Biz bu gün insanları içməli su ilə təmin edirik və edəcəyik. Ölkəmizin əksər şəhərlərinin içməli su problemləri həll olunub, o cümlədən Şəmkir şəhərinin. Verilən məlumata görə, şəhərin kanalizasiya məsələsi də bu ilin sonuna qədər başa çatdırılacaqdır. Samux şəhərinin də su problemi bu il həll olunacaqdır. Beləliklə, hələ də təmiz içməli su ilə təmin edilməyən şəhərlərin sayı təqribən 3–5 ətrafındadır. Onlar da maksimum 2 il ərzində içməli su ilə təmin ediləcəklər.

Eyni zamanda, müxtəlif qurumlarla kəndlərin su təminatı təşkil edilir – həm «Azərsu», həm də Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə təmizləyici qurğular hesabına. Bakı şəhərinin su problemi həllini tapır. Mənə verilən məlumata görə, Bakı əhalisinin 80 faizi bu gün təmiz içməli su ilə davamlı təmin edilir. Bu proses hələ davam etdiriləcək. Ona görə bu layihələrin çox böyük tarixi əhəmiyyəti vardır. Su həyatdır, təmizlikdir, sağlamlıqdır, inkişafdır. Eyni zamanda, kənd təsərrüfatının inkişafı üçün əsas rol oynayır.

Şəmkir maşın su kanalının ikinci növbəsi tamamlanır və bundan sonra təkcə Goranboy rayonunda bu günə qədər suvarılmayan 40 min hektar torpağa su veriləcəkdir. Bu özlüyündə yeni iş yerlərinin yaradılmasına gətirib çıxaracaq, insanlar daha yaxşı yaşayacaqlar, kənd təsərrüfatı inkişaf edəcək, məhsuldarlıq artacaq, ixrac imkanlarımız genişlənəcəkdir. Bütün bunlar regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında nəzərdə tutulmuş layihələrdir. Onların da hər biri uğurla icra edilir.

Şəmkir rayonunun inkişafı ilə bağlı müvafiq addımlar atılır. Mənim tərəfimdən bir çox göstərişlər verilib, sərəncamlar imzalanıbdır. Şəmkir rayonunun infrastruktur layihələri uğurla icra edilir, qazlaşdırılma 98 faizdir. İçməli su məsələsi həll olunub. Yolların çəkilişi davam etdirilir. Bu gün mənə məruzə edilən yeni layihələr həyata keçiriləndən sonra əsaslı təmirli, keyfiyyətli yolların faiz dərəcəsi təqribən 80-ə çatacaqdır. Bu gün hələ ki, 40 faiz səviyyəsindədir. Ona görə hələ bir çox layihələr icra edilməlidir.

Bu yaxınlarda Mərkəzi Rayon Xəstəxanası açılıbdır. Çox gözəl, yeni binadır. Bütün lazımi avadanlıqlarla təchiz edilib, 190 çarpayılıq gözəl tibb müəssisəsidir. Digər sosial

obyektlər inşa edilir, 37 məktəb tikilib və təmir edilibdir. Yəni biz buna kompleks şəklində yanaşırıq. O cümlədən yeni iş yerlərinin yaradılması ilə bağlı addımlar da atılır. Böyük aqroparklar salınıbdır. Minlərlə hektar torpağı əhatə edən bu aqroparklar Şəmkir rayonunun kənd təsərrüfatı və ixrac potensialını xeyli gücləndirir. Təsadüfi deyil ki, Şəmkir rayonundan xarici ölkələrə ixrac on milyonlarla dollar həcmindədir və bu daha da artacaqdır. Potensial böyükdür, torpaq münbitdir, su var, insanlar zəhmətkeşdir, infrastruktur təmin edilir. İlyarımdan sonra Gürcüstan sərhədinə qədər dördzolaqlı yol çəkiləcək. Bundan sonra həm rayon, həm də ölkəmiz ancaq inkişaf yolu ilə gedəcək. Belə maliyyə tutumlu sosial layihələrə çox böyük vəsait tələb olunur. Əlbəttə, aşağı səviyyədə olan su tarifləri ilə biz bu vəsaiti heç vaxt dövlətə qaytara bilməyəcəyik. Qarşıya belə məqsəd də qoyulmayıb. Məqsəd insanları təmiz su ilə təmin etməkdir ki, onlar sağlam olsunlar, kənd təsərrüfatını isə meliorativ tədbirlərlə dəstəkləməkdir. Biz bu məqsədə də çatırıq. Əminəm ki, həm rayon, həm ölkəmiz bundan sonra da uğurla inkişaf edəcək. «Azərsu» əməkdaşlarına isə gördükləri işlərə görə təşəkkürümü bildirirəm və yeni uğurlar arzulayıram.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**101-ci kitab: fevral 2020 - mart 2020. - Bakı: Azərnəşr, 2020, S. 182-188.**

## BAKININ SURAXANI RAYONUNDA KEÇMİŞ YOD-BROM ZAVODUNUN ƏRAZİSİNDƏ AĞACƏKMƏ MƏRASİMİ

*(10 may 2020-ci il)*

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin doğum günü münasibətilə Bakının Suraxanı rayonundakı keçmiş yod-brom zavodunun ərazisində ağac əkiblər.

Dövlətimizin başçısının tapşırığına əsasən, 2018-ci ildən başlayaraq bu ərazidə 167 hektar sahənin lay suları, neft, duz, yod və digər tullantılardan təmizlənərək bərpa edilməsinə başlanılıb.

Qeyd edək ki, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına, yeni yaşıllıq zolaqlarının, meşə massivlərinin salınmasına, mövcud yaşıllıqların sahəsinin daha da genişləndirilməsinə xüsusi diqqət göstərilir. Ölkəmizdə bu siyasətin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Lider Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ətraf mühitin mühafizəsinə, yaşıllığı az olan ərazilərin, o cümlədən də Bakının və Abşeron yarımadasının təbii landşaftının yaşıllıq zolaqları, meşə-parklarla zənginləşdirilməsinə, paytaxtımızın yaşıllıqlar şəhərinə çevrilməsinə çox böyük önəm verib. Hazırda ölkəmizdə həyata keçirilən dövlət siyasətində ekoloji məsələlərin həllinə xüsusi diqqət göstərilir, ekoloji mühitin dayanıqlı mühafizəsinə nail olmaq məqsədilə mühüm layihələr reallaşdırılır.

Azərbaycanda ekoloji durumun yaxşılaşdırılması istiqamətində həyata keçirilən işlərə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verib. Birinci xanımın təşəbbüsü ilə 2019-cu ildə mütəfəkkir şair İmadəddin Nəsiminin yubileyinə həsr olunan aksiyada ölkə üzrə bir gündə 650 min ağacın əkilməsi, ümumilikdə, Azərbaycanın ekoloji durumuna çox müsbət təsir göstərməklə, yaşıllıq zolaq-larının miqyasının artmasına səbəb olub. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə ekoloji mühitin sağlamlaşdırılmasına, yaşıllıqların artırılmasına hesablanan layihələr də əhəmiyyəti ilə seçilir.

Neft və digər istehsalat tullantıları ilə çirklənmiş ərazilərin, lay suları altında qalan torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılması məsələsinə dövlət səviyyəsində xüsusi diqqətlə yanaşılır. İndiyədək bu istiqamətdə çox uğurlu layihələr reallaşdırılıb. Abşeron yarımadasında ekoloji mühitin sağlamlaşdırılması istiqamətində həyata keçirilən layihələrdən biri də təhlükəli tullantılarla çirkləndirilmiş keçmiş yod-brom zavodunun Suraxanı rayonu ərazisindəki tullantı poliqonu idi. Bu ərazi əvvəllər ekoloji normalara və tələblərə uyğun gəlmirdi. Görülən işlər nəticəsində hazırda ərazinin ekoloji durumu normalara tam uyğunlaşdırılıb.

Burada icra olunan layihənin birinci mərhələsində - 2018-2019-cu illər ərzində 67 hektar ərazi yod-brom və digər neft tullantılarından təmizlənib, drenaj və suvarma sistemləri qurulub, əraziyə 52 mindən çox müxtəlif növ ağac-kol tingləri əkilməklə geniş meşə-park salınıb. Hazırda həmin ərazinin qalan 100 hektarlıq sahəsində layihənin ikinci mərhələsinin icrası prosesi davam etdirilir. 2020-ci il ərzində təmizlənmiş ərazilərdə Abşeronun iqliminə uyğunlaşdırılmış Eldar şamı, Avropa zeytunu, Həmişəyaşıl sərv, Arizona sərvi və digər həmişəyaşıl ağac kol növlərinə aid, ümumilikdə, 82 min tingin əkilməsi planlaşdırılır. Layihənin icrası Heydər Əliyev Beynəlxalq Aeroportundan Bakı şəhəri istiqamətində, Zığ şosesi boyu hər iki istiqamət yaşıllıq zolağı olacaq.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**103-cü kitab: may 2020 - iyun 2020. - Bakı: Azərnəşr, 2020, S. 58-60.**

## SU TƏSƏRRÜFATININ VƏZİYYƏTİNƏ HƏSR OLUNMUŞ VİDEOFORMATDA MÜŞAVİRƏ

*(23 iyul 2020-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iyulun 23-də ölkədə su təsərrüfatının vəziyyətinə həsr olunmuş müşavirə keçirilmişdir.

Dövlət başçısı müşavirəni giriş nitqi ilə açdı.

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

- Bu gün biz su təsərrüfatında mövcud olan problemləri müzakirə edəcəyik, görüləcək işlər haqqında danışacağıq. İnfrastruktur layihələri arasında su layihələrinin xüsusi yeri vardır. Biz ölkəmizdə bütün infrastruktur layihələrini ardıcıl şəkildə icra edirik. Bu layihələrin icrası nəticəsində ölkəmiz sürətlə inkişaf edib. Əgər biz bu layihələri icra etməsəydik, bu gün ölkəmizin dayanıqlı inkişafı mümkün ola bilməzdi. Təbii ki, infrastruktur layihələri arasında prioritetlər müəyyən edilməli idi və 2004-cü ildə regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramı qəbul olunanda bu prioritetlər çox açıq şəkildə ortaya qoyuldu.

O vaxt bizim infrastrukturla bağlı problemlər kifayət qədər ciddi idi. Ölkəmizdə enerji qıtlığı mövcud idi. Biz elektrik enerjisinin istehsalı ilə bağlı böyük problemlərlə üzüzə idik, idxaldan asılı idik. Əlbəttə ki, ilk növbədə, bu sahədə vəziyyət normallaşdırılmalı idi. Çünki əks təqdirdə hər hansı bir inkişafdan söhbət gedə bilməzdi. Son illərdə enerji sektoruna qoyulan vəsait, bu sahədə aparılan müasirləşmə imkan yaratdı ki, biz nəinki özümüzü artıq uzun müddət ərzində elektrik enerjisi ilə təmin edirik, eyni zamanda, bizim əlavə generasiya güclərimiz nəticəsində ixrac imkanlarımız da yaranmışdır. Bu ixrac artıq öz coğrafiyasını genişləndirir. Təbii ki, bu sahəyə çox böyük investisiyalar qoyulmalı idi və qoyuldu. Bu gün 30-dan çox elektrik stansiyamız enerji təhlükəsizliyini təmin edir.

Son vaxtlar bu sahədə daha böyük həcmli işlər görülüb və itirilmiş güclərin bərpası məsələləri öz həllini tapıb. Mövcud stansiyalarda təqribən 800 meqavatdan çox itirilmiş güclər bərpa edildi və bu proses davam etdirilir. Yəni, bütün enerji təsərrüfatı müasirləşir.

Əlbəttə ki, o vaxt ölkəmizdə qazlaşdırmanın səviyyəsi çox aşağı idi. Görülmüş işlər nəticəsində bu gün qazlaşdırma ölkəmizdə 96 faizə çatıb. Deyə bilərəm ki, bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir. Amma nəzərə alsaq ki, sənayemiz, əhalimiz artır, təbii qaza tələbat artır və bizim elektrik stansiyalarımız yalnız təmiz enerji resursları - təbii qaz və su əsasında fəaliyyət göstərir, əlbəttə, biz bu sahəni bundan sonra da prioritet olaraq diqqətimizdə saxlayacağıq.

Nəqliyyat infrastrukturu böyük dərəcədə müasirləşib. Bütün nəqliyyat layihələrini sadalamaq hesab edirəm ki, yersizdir. Çünki bu barədə dəfələrlə ictimaiyyətə məlumat verilib. Sadəcə olaraq, onu demək kifayətdir ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında bu sahədə görülmüş işlərə çox yüksək qiymət verilir. Hava nəqliyyatının səmərəliliyinə görə Azərbaycan dünyada 11-ci, dəmir yollarının səmərəliliyinə görə isə 12-ci yerdədir. Avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan 27-ci yerdədir. Bütövlükdə infrastrukturla bağlı olan vəziyyətə görə Azərbaycan dünya miqyasında 34-cü yerdədir.

Təbii ki, bu infrastruktur layihələri arasında içməli su və meliorasiya layihələri öz yerini tapıbdır. Son illərdə bu sahədə də böyük işlər görüldü. Bu sahə diqqətdən kənarda qalmadı. Sadəcə olaraq, bir neçə rəqəmi ictimaiyyətin diqqətinə çatdırmaq istərdim. Regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramının qəbul edildiyi 2004-cü ildə Azərbaycanda içməli su ilə təminat 40 faiz səviyyəsində idi. Bu gün isə bu rəqəm 70

faizə çatıbdır. Bakı şəhərində içməli suyu davamlı şəkildə alan əhalinin sayı 29 faiz idi. Bu gün bu rəqəm təxminən 82 faizə çatıbdır. Regionlarda isə əhalinin içməli su ilə əhatə dairəsi cəmi 9 faiz idi. Bu gün bu rəqəm 63 faizdir. Bu, doğrudan da tarixi nailiyyətdir. Biz bunu, ilk növbədə, insanların sağlamlığı, iqtisadiyyatın, kənd təsərrüfatının inkişafı üçün etmişik. Ancaq bununla bərabər, bu rəqəmlər onu göstərir ki, biz istədiyimizə tam nail ola bilməmişik. Buna görə bundan sonra içməli su layihələri, meliorasiya layihələri bizim gündəliyimizdə ən vacib məsələlər kimi duracaq. Bugünkü müşavirənin əsas məqsədi odur ki, bu sahədə buraxılmış səhvlər, mövcud çatışmazlıqlar bundan sonrakı illərdə aradan qaldırılsın, vahid idarəetmə mexanizmi işlənib təqdim edilsin və biz ardıcıl olaraq qısamüddətli, ortamüddətli və uzunmüddətli fəaliyyət planımızı icra edək. Bunun nəticəsində Azərbaycanda içməli su və suvarma suyu ilə təminat 100 faiz olmalıdır.

Suvarma suyu ilə bağlı görülmüş işlər də hesab edirəm ki, diqqətəlayiqdir. Əgər biz bu işləri görməsəydik, bu gün vəziyyətimiz çox ağır ola bilərdi. Bir neçə layihə, həm içməli su layihəsi, həm də suvarma suyu layihəsi kimi xidmət göstərir. Son illərdə Azərbaycanda həyata keçirilən nəhəng su layihələri vəziyyəti tamamilə müsbət tərəfə dəyişmişdir. Mən onların arasında Oğuz-Qəbələ-Bakı su kəmərini xüsusilə qeyd etmək istərdim. Bu kəmərin çox böyük əhəmiyyəti var. İlk növbədə, böyük həcmdə təmiz içməli su Bakı şəhərinə çatdırılır. Nəzərə alsaq ki, bizim su resurslarımızın böyük hissəsi xarici ölkələrdə formalaşır, Oğuz-Qəbələ-Bakı su kəməri sırf yerli mənbə üzərində inşa edilmiş böyük layihədir. Bu layihənin inşası demək olar ki, bizim ilk neft gəlirlərimiz əldə olunandan sonra başlamışdır. O vaxt mən demişdim ki, biz qara qızılı insan kapitalına çevirməliyik və Oğuz-Qəbələ-Bakı su kəməri bunun əyani sübutudur. Çünki bizim neft gəlirlərimiz 2006-cı ildən sonra ölkəyə gəlməyə başlamışdır. O vaxt Bakı-Tbilisi-Ceyhan neft kəməri istismara verildi. O zaman bizim gəlirlərimiz, əlbəttə ki, çox aşağı səviyyədə idi. Ancaq, ilk növbədə, biz bu gəlirləri məcburi köçkünlərin problemlərinin və su məsələlərinin həllinə yönəltdik.

İndi mütəxəssislər yaxşı bilirlər ki, əgər bu gün Oğuz-Qəbələ-Bakı su kəməri olmasaydı, Bakı şəhərinin su problemləri çox kəskinləşə bilərdi.

Bu, yeganə layihə deyil. Hesab edirəm ki, Taxtakörpü su anbarının tikintisi tarixi layihədir. Çünki bu anbarın su tutumu kifayət qədər böyükdür - 270 milyon kubmetr. Eyni zamanda, Taxtakörpü su anbarından Ceyranbatan su anbarına qədər yeni beton kanalı tikilibdir. Taxtakörpü su anbarının xüsusi əhəmiyyəti ondadır ki, Samur çayının suları orada yığılır, təbii yollarla təmizlənir və beləliklə yeni bir rezervuardan Ceyranbatan anbarına su gəlir. Çünki buna qədər Samur çayından birbaşa kanal vasitəsilə su Ceyranbatana gəlirdi. Əgər ortada bu böyük su hövzəsi olmasaydı, biz bu gün Bakını içməli su ilə təmin edə bilməzdik. Bu, birmənalıdır. Ona görə bu layihənin icrası və ümumiyyətlə Samur çayının sularının ədalətli bölüşdürülməsi üçün çox böyük işlər görülüb. Eyni zamanda, bu, Şabran, Siyəzən, Xızı rayonlarında suvarılan əkin sahələrini böyük dərəcədə artırıb, təqribən 30 min hektar suvarılmayan torpaqlara su verilir və indi o torpaqlarda geniş kənd təsərrüfatı işləri görülür.

Digər böyük layihə Ceyranbatan su anbarının yenidən qurulması və müasir təmizləyici qurğuların inşa edilməsidir. O vaxt layihə başa çatanda bu təmizləyici qurğu dünyanın ən böyük təmizləyici qurğusu hesab olunurdu. O vaxtdan bu günə qədər bəlkə də haradasa daha da böyük qurğular tikilib. Amma söhbət ondan getmir. Əsas məsələ odur ki, Bakı şəhərinə keyfiyyətli suyun verilməsi artıq mümkün olub.

Təbii ki, mən Şəmkirçay su anbarının əhəmiyyətini də qeyd etməliyəm. Bu gün Şəmkirçay su anbarı bizim su resurslarının yığılmasında və bölüşdürülməsində xüsusi rol oynayır. Bu anbarın su tutumu 165 milyon kubmetrdir və qərb zonasının bir neçə rayonu bu

imkanlardan faydalanır, orada əkin sahələri genişləndirilir. Beləliklə, Taxtakörpü şimal zonasının, Bakının, Şəmkirçay qərb bölgəsinin su ilə təminatında mühüm rol oynayır.

Bununla paralel olaraq, son illərdə cənub zonasında yerləşən Göytəpə və Tovuzçay su anbarları da inşa edilib. Son 15 il ərzində yaradılmış böyük su anbarlarının həcmi 470 milyon kubmetrdir. Mütəxəssislər bunu yaxşı bilir, bu, çox böyük rəqəmdir.

İçməli su layihələrinə gəldikdə, bu layihələrin xüsusi əhəmiyyəti var. Mənim təşəbbüsümlə bu layihələr ardıcıl olaraq icra edilir. Bu gün bizim əksər şəhərlərimizdə içməli su və kanalizasiya layihələri icra olunub. Cəmi bir neçə şəhərdə bu işlər hələ ki, tamamlanmayıb, amma iş gedir. Biz bu sahədə həm müsbət, həm mənfi təcrübəni təhlil etməliyik. Çünki mənə verilən məlumata görə, bəzi hallarda suyun mənbələri düzgün seçilməmişdir və təbiətin dəyişməsi, iqlim dəyişikliyi, o cümlədən son iki il ərzində yaşanan quraqlıq və bunun riskləri hesablanmamışdır. Ona görə içməli su layihələri başa çatan bəzi yerlərdə su qıtlığı yaranıb. Odur ki, bu məsələ çox ciddi araşdırılmalıdır. Əlbəttə, bayaq gətirdiyim rəqəmlər onu göstərir ki, biz böyük inkişafa nail olduq. Ancaq hələ ki, görüləsi işlər çoxdur.

Son vaxtlar mənə yerlərdən hər gün məktublar gəlir. Quraqlıq və bəzi hallarda aidiyyəti qurumların laqeyd münasibəti nəticəsində çox ciddi problemlər yaranıbdır. Daha çox fermerlər, sahibkarlar yazırlar, gündə təqribən 10-dan çox rayondan məktublar gəlir. Bu məktublara Prezident Administrasiyasında və Nazirlər Kabinetində baxılır. Bu siqnallar nəzarətdədir və bu məsələlər operativ qaydada həll olunur. Ancaq biz bu məsələləri kompleks şəkildə həll etməliyik ki, gələcəkdə təbii problemlərin yaratdığı xoşagəlməz mənzərəyə və çətinliklərə hazır olaq.

Ona görə qeyd etdiyim məsələlər birmənalı şəkildə göstərir ki, içməli su və meliorasiya problemləri nəinki diqqət mərkəzindədir, bu problemlərin həlli istiqamətində çox böyük işlər görülüb. Ancaq keçən il yaşanan quraqlıq onu göstərdi ki, biz bu böhranlı vəziyyətə hazır deyilik. Böhranlı vəziyyətdə nə etməyin lazım olduğunu aidiyyəti qurumlar düzgün müəyyən edə bilməyiblər. Ona görə keçən il biz vaxt itirmişik. Əgər aidiyyəti qurumlar keçən il fəal işləsəydilər, günahı bir-birinin üstünə yıxmasaydılar və təxirəsalınmaz tədbirlər görsəydilər, bu gün biz bu problemlərlə üzləşməyəcəkdik. Bu problemlər həm insanların sağlamlığına, həm də kənd təsərrüfatının inkişafına mənfi təsir göstərir. Çünki su həyat deməkdir. İlk növbədə, insanların sağlamlığı böyük dərəcədə təmiz içməli sudan asılıdır.

Eyni zamanda, su resursları ekoloji tarazlığa, kənd təsərrüfatının inkişafına çox böyük təsir göstərir. Biz kənd təsərrüfatımızı intensiv yollarla inkişaf etdirməliyik və buna nail olmaq üçün kifayət qədər su mənbələrimiz olmalıdır və bu, var. Sadəcə olaraq, əgər, dəhşətli dərəcədə bu itkilər olmasaydı, biz mövcud su resursları ilə özümüzü tam təmin edə bilərdik. İndi bu məsələ araşdırılır, bəzi hallarda itkilər 40 faizdir və 50 faizə çatır, bu, dözülməzdir. Biz suyu itiririk. Beləliklə, o, əkin sahəsinə, insanların evinə çatmır, əksinə, torpaqlara ziyan vurur. Bizim indi ən çox əməktutumlu sahələr taxılçılıq və pambıqçılıqdır. Pambıqçılıq, ümumiyyətlə, su olmadan inkişaf edə bilməz. Pambıqçılıqda təqribən 200-300 min adam işləyir, öz ailə büdcəsini təmin edir. Biz müasir texnologiyaların, o cümlədən müasir suvarma sistemlərinin mövcud olduğu taxılçılıq təsərrüfatlarında hər hektardan təqribən 70-80 sentner buğda alırıq. Bu, inkişaf etmiş ölkələrin səviyyəsindədir. Yəni, bu, dünyada ən yüksək səviyyədir, bundan yüksək səviyyə yoxdur. Əgər su olmasa, biz buna nail ola bilərikmi?

Biz indi taxılçılıqda müasir texnologiyaların tətbiq edilməsi ilə mövcud əkin sahələrində, bəlkə də bir qədər az əkin sahələrində daha çox məhsul istehsal edə bilərik, idxaldan daha az asılı ola bilərik. Su həm həyatdır, həm inkişafdır, həm təhlükəsizlikdir. Ona görə bu məsələlərə laqeyd yanaşmaq olmaz. Açıq deməliyəm, bu iş başlı-başına buraxılıb, heç

kim bu məsələ ilə məşğul olmayıb. Aidiyyəti qurumların hər biri öz işləri ilə məşğul idi, koordinasiya aparılmamışdır. Azərsu, meliorasiya qurumları, sadəcə olaraq, dövlət investisiya proqramı müzakirə olunarkən fəallaşırdılar ki, onlara nə qədər dövlət büdcəsindən pay düşəcək. Bəzi hallarda onların təklif etdikləri layihələr, ümumiyyətlə, diqqətəlayiq deyildi. Sadəcə olaraq görürdüm ki, burada məqsəd dövlət vəsaiti götürüb ondan istifadə etməkdir. Amma ondan sonra bu layihələrin səmərəliliyinə kimsə baxıb? Kimsə bunu təhlil edib? Yox. Ona görə bəzi böyük həcmdə investisiya qoyulmuş layihələr faktiki olaraq heç bir səmərə verməyib. Necə ola bilər ki, suyun mənbəyi düzgün təhlil edilmir? O qədər böyük xərc çəkilir, boru xətləri çəkilir, vətəndaşlar buna sevinir. Sonradan min dənə bəhanə gətirirlər ki, belə oldu, elə oldu, su çatmadı, yeni mənbə axtarmalıyıq, yenə vəsait verin, yeni mənbə axtaracağıq. Buna son qoyulmalıdır. Ona görə mən bütün bu işləri mütəşəkkil qaydada tənzimləyəcəyəm. Aidiyyəti qurumlara göstərişlər verilib. Ciddi nəzarət mexanizmi olmalıdır. İlk növbədə, xərclərə ciddi nəzarət mexanizmi olmalıdır. Yoxsa Azərsudan, "Meliorasiya və Su Təsərrüfatı" Səhmdar Cəmiyyətindən sifariş gəlir, mənə bu qədər pul lazımdır ki, bunu edim. Amma sonra baxıb görürlər ki, bunun texniki-iqtisadi əsaslandırması yoxdur. Bu rəqəmlər haradan götürülüb? Havadan.

İnvestisiya proqramına ciddi nəzarət yox idi, nəyi sifariş edirdilər, onu da verirdilər. Bəs sonra necə xərclənirdi? Buna son qoyulmalıdır. Ona görə bugünkü müşavirədə mən giriş sözümdə deyirəm hansı işlər görülüb. Amma bu işlərin görülməsi nəticəsində daha böyük səmərə əldə oluna bilərdi. Əfsuslar olsun ki, bu, belə deyil. Bundan sonra bu işlər yalnız koordinasiya şəklində aparılmalıdır. İndi mənə məlumat verilir ki, bizdə heç vaxt su balansı tərtib edilməmişdir. Necə ola bilər? Bizim enerji balansımız tərtib olunur. Buna görə biz bilirik ilboyu bu sahədə nə etmək lazımdır? Hansı quruma nə qədər yanacaq lazımdır? Məgər su balansını tərtib etməyi Prezidentmi deməlidir?! Bunu aidiyyəti qurumlar etməlidirlər. Bizim yeraltı, yerüstü su ehtiyatlarımız qiymətləndirilməyib. Son dəfə sovet vaxtında qiymətləndirilib, ondan sonra qiymətləndirilməyib. İndi artezian quyularının qazılması prosesi gedir. Amma baxmaq lazımdır, harada qazılmalıdır, necə qazılmalıdır? Yeraltı su mənbələrinə bunun təsiri necə olacaq? Düzgün yerlər seçilməlidir. Çünki mən deyirəm, burada əsas məqsədi bu qurumlar onda görürlər ki, pul ver artezian qazım, pul ver su çəkim, pul ver nə bilim bunu edim. Yaxşı, bunu veririk, amma sonra? Bir çox hallarda səmərəsiz olur. Xərclərə nəzarət çox aşağı səviyyədədir.

Dediyim kimi, indi mənə hər gün 10-dan çox məktub gəlir. Mən Prezident Administrasiyasına, Nazirlər Kabinetinə tapşırıq verirəm. Onlar baxırlar, operativ şəkildə həll edirlər. Axı, bu, onların demək olar ki, əsas işi deyil. Bunu aidiyyəti qurumlar etməlidirlər. Nə üçün bu məktublar mənə yazılır? Ona görə ki, aidiyyəti qurumlara yazılanda onlar əhəmiyyət vermirlər, başdan edirlər. Nə qədər belə faktlar var. Biz nə qədər buna dözməliyik?

Ona görə mən vəziyyəti tam təhlil edərkən bu il aprel ayında xüsusi komissiya yaratmışam. Artıq komissiya üç aydır ki, işləyir və bu müddət ərzində gördüyü işlər, mövcud problemlərlə bağlı müntəzəm olaraq mənə məlumat verib. Komissiyanın rəhbəri Baş Nazirin müavini Şahin Mustafayevdir. Komissiyanın tərkibində nazirlər, aidiyyəti qurumların rəhbərləri fəaliyyət göstərirlər. Əgər bütün aidiyyəti qurumlar öz işini düzgün qursaydılar, bu komissiyaya ehtiyac olmayacaqdı. Necə ola bilər ki, üç ay ərzində işləyən komissiya bəlkə də son 20 il ərzində görülən, təhlil və təklif baxımından daha dəyərli, əhəmiyyətli nəticə hasil edib? Deməli, bunu etmək mümkündür. Sadəcə olaraq, heç kimin vecinə deyildi, biri-birinin üstünə yıxırdı. Ortalıqda da nə - quraqlıq. Bu problem iki ildir var və gələn il də ola bilər. İndi iqlim dəyişikliyi elə məsələdir ki, bunu bütün dünya müzakirə edir. Bəzi hesablamalara görə, əgər operativ tədbirlər görülməsə, 2030-cu ildə ölkəmizdə

səhralaşma prosesi sürətlə gedəcək. Nədir, siz istəyirsiniz Azərbaycan səhraya dönsün? Ona görə bu münasibətə son qoyulmalıdır. Qüsurlara yol verən, bu məsələyə laqeyd yanaşan bütün vəzifəli şəxslər cəzalandırılmalıdır.

İndi isə Şahin Mustafayev görülmüş işlərlə bağlı məlumat və təkliflər versin.

Baş Nazirin müavini **Şahin Mustafayev** çıxış edərək dedi:

-Təşəkkür edirəm, cənab Prezident.

Möhtərəm cənab Prezident, cari ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə məruzə olunduğu kimi, su ehtiyatlarının az olması, iqlim dəyişməsi, orta temperaturun yüksəlməsi, əsasən qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatlarının, çaylarda sululuğun və yağıntıların əhəmiyyətli dərəcədə azalması, digər tərəfdən ölkə iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının inkişafı, əkin sahələrinin, suvarma və içməli su təchizatı üzrə şəbəkələrin genişləndirilməsi nəticəsində suya tələbatın artması son illərdə ölkədə su çatışmazlığını şərtləndirmişdir. Müşavirədə Sizin xüsusi vurğuladığınız kimi, bütün bunlar son nəticədə su təhlükəsizliyi məsələsini ən aktual mövzulardan birinə çevirmişdir. Bu baxımdan, xüsusilə cari ildə ölkənin su ehtiyatları sahəsində gərgin vəziyyət yaranmışdır. Hazırda əsas su anbarlarında 20,5 milyard kubmetr tutuma qarşı əvvəlki illərdən kəskin aşağı səviyyədə - cəmi 11,1 milyard kubmetr su mövcuddur ki, bunun da 8,6 milyard kubmetri ölü həcmdir. Müqayisə üçün qeyd edim ki, əsas su anbarlarında suyun həcmi 2019-cu ildə 12,9 milyard, 2018-ci ildə 14,1 milyard, 2017-ci ildə 14,2 milyard, 2016-cı ildə isə 16,5 milyard kubmetr olmuşdur. Eyni zamanda, strateji əhəmiyyət kəsb edən Mingəçevir Su Anbarında 15,7 milyard kubmetr tutuma qarşı 8,8 milyard kubmetr su mövcuddur ki, bunun da 7 milyard kubmetri ölü həcmdir. Halbuki həmin anbarda suyun həcmi 2019-cu ildə 9,7, 2018-ci ildə 10,9, 2017-ci ildə 11,6, 2016-cı ildə isə 13,6 milyard kubmetr təşkil etmişdir. Sizin rəhbərliyinizlə əvvəlki illərdə böyük həcmdə işlərin həyata keçirilməsinə, ehtiyat tədbirlərinin görülməsinə, məsələn, Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Göytəpə, Naxçıvanda Heydər Əliyev (Vayxır) su anbarlarının, Oğuz-Qəbələ-Bakı su kəmərinin və digər layihələrin reallaşdırılmasına baxmayaraq, hazırda kəskin su çatışmazlığı müşahidə edilir.

Möhtərəm cənab Prezident, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə müvafiq Sərəncamınızla komissiya yaradılmışdır. Su təsərrüfatı üzrə idarəetmədə sahələrarası koordinasiyanın zəif olması, sudan istifadədə itkilərin yüksək olması, sudan optimal bölgü əsasında və qənaətlə istifadə edilməməsi, suvarmada suya qənaət edən müasir texnologiyalardan istifadənin aşağı səviyyədə olması, nəzarətdənkənar qoşulmalar, uçot və nəzarət sisteminin zəifliyi kimi problemlərin həlli istiqamətində tədbirlərin görülməsi komissiyaya tapşırılmışdır. Komissiya ölkə ərazisində su anbarlarında yaranmış vəziyyəti, suvarma mövsümünün başlanmasını nəzərə alaraq operativ tədbirlərin görülməsi məqsədilə fəaliyyətini intensiv formada təşkil etmiş və bütün aidiyyəti qurumların koordinasiyası təmin olunmuşdur. Ötən müddət ərzində müxtəlif formatlarda müzakirələr aparılmış, kritik əhəmiyyət kəsb edən obyektlərə baxış keçirilmiş, onlayn müşavirə formasında komissiyanın tam tərkibdə üç iclası keçirilmiş, zəruri hallarda komissiyada təmsil olunmayan bir sıra digər dövlət qurumları cəlb edilmiş və təxirəsalınmaz tədbirlərin görülməsi təşkil edilmişdir.

Əhəmiyyəti baxımından aşağıdakı tədbirləri xüsusilə qeyd etmək istərdim: Su ehtiyatları barədə operativ məlumat sistemi qurulmuş, aidiyyəti qurumlardan alınan məlumatlar təhlil edilmiş, sudan səmərəli istifadə ilə bağlı verilmiş tapşırıqların icrasına gündəlik nəzarət təmin olunmuşdur. Operativ məlumat mexanizmi hazırda “Elektron su təsərrüfatı”

informasiya sisteminə inteqrasiya olunur. Xüsusi əhəmiyyətə malik Mingəçevir və Ceyranbatan su anbarları üzrə suvarma, içməli su təchizatı və energetika məqsədləri üçün sudan istifadə rejimi təsdiq olunmuş, hətta Mingəçevir su anbarında sudan istifadə üzrə hər on gündən bir yenilənən iş rejiminin tətbiqi qərara alınmışdır.

Məhdud su ehtiyatlarının ədalətli, optimal və proporsional bölgüsü prinsipi əsasında 580 mindən çox əkin sahəsi üzrə suvarma qrafikləri tərtib olunmuşdur. Suvarma qrafikləri bütün maraqlı tərəflər imzaladıqdan və rəsmi saytda dərc edildikdən sonra tətbiq edilir. Yaradılmış proqram təminatı sayəsində "Elektron kənd təsərrüfatı" informasiya sisteminə su modulu kimi inteqrasiya olunan sudan istifadə qrafikləri növbəti mərhələdə əkin sahələrini və subsidiyalaşmanı optimal şəkildə planlaşdırmaq imkanı verir. Belə ki, tərtib olunmuş qrafiklər suvarma dövrü başlamamışdan əvvəl kənd təsərrüfatı bitkilərinin suvarılması üçün tələb olunan suyun sifarişini formalaşdırmağa, beləliklə əkin siyasətinə uyğun daha təkmil suvarma təchizatının qurulmasına, digər tərəfdən isə məhdud su ehtiyatları və əkin növünün suya tələbatı nəzərə alınmaqla əkin sahələrinin optimal şəkildə planlaşdırılmasına şərait yaradır.

Suvarmaya dair problemlərin operativ həlli məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin 60 rayon üzrə Dövlət Aqrar İnkişaf mərkəzlərinə Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndələri cəlb edilməklə birgə fəaliyyəti əlaqələndirilmişdir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birlikdə Bakı Metropoliteni ərazisindəki qrunt sularından yaşıllıqların suvarılmasında istifadə istiqamətində layihə təklifləri hazırlanmışdır. Aparılan analizlər sərfi saatda 127 (sutkada 2500-3000) kubmetr olan suyun suvarmaya yararlı olduğunu göstərmişdir və artıq bu sudan istifadəyə başlanılmışdır.

Zəruri istiqamətlərdən biri də hidrotexniki qurğuların mühafizəsinin gücləndirilməsi və həmin qurğulara mümkün mənfi təsirlərin qarşısının alınması üçün qum-çınqıl karxanalarının fəaliyyətinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsidir və bu istiqamətdə müvafiq iş aparılır.

Möhtərəm cənab Prezident, bu gün su təsərrüfatı sahəsində uçot və nəzarət işinin təkmilləşdirilməsi həlli vacib məsələ kimi qarşımızda durur. Suyun mənbədən götürülməsindən son istehlakçıyadək bütün mərhələlər üzrə uçotun və dəqiq qiymətləndirmənin aparılması ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirilməlidir. Bu məqsədlə operativ tədbirlərlə yanaşı, ölkə üzrə ilk dəfə su təsərrüfatı balansı tərtib edilmişdir. Su təsərrüfatı balansının formalaşdırılması üçün su təsərrüfatı subyektlərinin məlumatlarının elektronlaşdırılması və hesabatın alınması ilə bağlı elektron su təsərrüfatı informasiya sistemi yaradılmışdır. Birinci mərhələdə su təsərrüfatı balansı sistemə ayrıca modul şəklində daxil edilmişdir. İkinci mərhələdə aidiyyəti dövlət qurumlarının informasiya sistemlərinin inteqrasiyası, üçüncü mərhələdə isə su obyektlərinə daxil olan, çıxan və obyektlərdə olan suyun həcmi ilə bağlı ölçmə cihazlarının və digər avadanlıqların məlumatlarının real vaxt rejimində ötürülməsi və dövri hesabatların əldə edilməsi təmin olunacaqdır. Eyni zamanda, əsas su və su təsərrüfatı obyektlərində müasir ölçmə cihazlarının quraşdırılması həyata keçirilir. Bu vaxta qədər xüsusi əhəmiyyətli obyektlərin su ehtiyatlarından müasir ölçmə cihazları tətbiq edilmədən və ya ümumiyyətlə ölçmə aparılmadan istifadə edilmişdir. Hazırda prioritet hesab edilən məntəqələr üzrə Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyi tərəfindən 12, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 25 müasir ölçmə cihazının quraşdırılaraq yaxın günlərdə tam funksional vəziyyətə gətirilməsi üzərində intensiv iş gedir. Artıq Mingəçevir su anbarında və çıxışlarında quraşdırılan müasir ölçmə cihazları tam işlək vəziyyətdədir.

Cənab Prezident, məruzə edim ki, artıq üç gündür biz real müasir ölçmə cihazları vasitəsilə əsas su anbarımızın həm çıxışlarını, həm su həcmini nəzarətə götürmüşük.

Möhtərəm cənab Prezident, cari ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə vurğuladığınız kimi, su təsərrüfatı sahəsində vahid idarəetmə və nəzarət sisteminin, effektiv koordinasiyanın olmaması su ehtiyatlarından səmərəsiz istifadəyə gətirib çıxarmışdır. Su və su təsərrüfatı obyektlərindən dəqiq uçot və optimal bölgü aparılmadan istifadə ilə yanaşı, aparılan monitorinqlər kütləvi şəkildə nəzarətdənkənar qoşulma hallarının da mövcud olduğunu ortaya çıxarmışdır. Su ehtiyatlarından istifadədə səmərəliliyin artırılması, əhalinin və iqtisadiyyatın artan tələbatına uyğun dayanıqlı su təchizatının təmin edilməsi, su təsərrüfatının idarə edilməsinin təkmilləşdirilməsi məqsədlərinə nail olmaq üçün görülməli tədbirləri ehtiva edən Milli Strategiyanın hazırlanması da məqsədəuyğundur.

Ölkə üzrə ilk dəfə tərtib olunan su təsərrüfatı balansına əsasən, cari ildə ölkənin su ehtiyatları ötən illə müqayisədə 2,8 milyard kubmetr az - 34,1 milyard kubmetr həcmində proqnozlaşdırılır. O cümlədən ilin əvvəlinə su anbarlarında qalıq 10,6 milyard kubmetr təşkil edib, il ərzində ölkə üzrə formalaşan su ehtiyatlarının 23,5 milyard kubmetr olacağı gözlənilir. Proqnoza əsasən, cari ildə ölkə üzrə formalaşan yerüstü su ehtiyatlarının 70 faizini qonşu ölkələrdən daxilolmalar, onun da təqribən yarısını təkcə Kür çayı təşkil edir. Qeyd olunanları nəzərə alaraq, Kür çayı hövzəsinin su ehtiyatlarının mühafizəsi və davamlı istifadəsi sahəsində ölkələrarası əməkdaşlığın gücləndirilməsi məqsədilə müvafiq saziş layihəsi hazırlanaraq aidiyyəti üzrə artıq təqdim olunmuşdur.

Möhtərəm cənab Prezident, qeyd edilənlərlə yanaşı, sudan istifadə zamanı itkilərin azaldılması da həlli vacib istiqamətlərdəndir. Həm suvarma, həm də içməli su təchizatı şəbəkələrinə nəzarətdənkənar qoşulmaların aradan qaldırılması, içməli su təchizatı sahəsində sayğaclaşmanın başa çatdırılması itkilərin azaldılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Suvarma sahəsində itkilərin əsas səbəblərindən biri də suvarma kanallarının əksəriyyətinin torpaq məcralardan olmasıdır. İtkilərin azaldılması və su ehtiyatlarının səmərəli istifadəsi məqsədilə suvarma kanallarının əsaslı təmiri və yenidən qurulması üzrə prioritet layihələrlə bağlı təkliflər hazırlanır. Eyni zamanda, ölkədə su ehtiyatlarının artırılması və bu istiqamətdə dağ çaylarının sularının yığılması üçün relyefə uyğun yaradılması nəzərdə tutulan sututarlar üzrə də prioritet layihələrə, habelə içməli su təchizatı üçün yeni mənbələrin müəyyən edilməsinə dair təkliflər hazırlanır.

Prioritet məsələlərdən biri də energetika sahəsində su ehtiyatlarından səmərəli istifadə ilə bağlıdır. Məlum olduğu kimi, suvarma dövrü əsasən beş aydır: may-sentyabr ayları. Xüsusi əhəmiyyətli su anbarlarında qeyri-suvarma dövründə, o cümlədən qış aylarında su ehtiyatlarının artırılması məqsədilə istilik elektrik stansiyalarının soyutma sistemlərinin müasirləşdirilməsi, bu stansiyalarda soyutma məqsədilə sudan qənaətli istifadənin təmin edilməsi, ölkə üzrə elektrik enerjisi tezliyinin daha optimal formada tənzimlənməsi imkanları araşdırılmalıdır.

Bunlarla yanaşı, aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri hesab edirik:

Kür-Araz ovalığında yerləşən və içməli su tələbatı Kür çayından təmin edilən yaşayış məntəqələrinin su təchizatının alternativ mənbələr hesabına təmin edilməsi ilə bağlı təkliflərin hazırlanması;

Qrunt sularından, təmizlənmiş tullantı sularından və Xəzər dənizinin suyundan istifadə imkanının araşdırılması;

Subartezian və artezian quyularının sifarişi, layihələndirilməsi, qazılması və istismarı qaydalarının hazırlanaraq təsdiq edilməsi;

Kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən suvarmada müasir texnologiyaların tətbiqinin təşviq olunması;

Suvarma suyundan güzəştli istifadə ilə bağlı yeni mexanizmin hazırlanması.

Möhtərəm cənab Prezident, bugünkü müşavirədə verəcəyiniz tapşırıqlar da daxil olmaqla, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı qarşımıza qoyduğumuz bütün vəzifələr yerinə yetiriləcək.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** İndi söz verilir Kənd Təsərrüfatı naziri İnam Kərimova.

Kənd Təsərrüfatı naziri **İnam Kərimov** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident, quraqlıq və su çatışmazlığının təsir etdiyi ən böyük sahələrdən biri də kənd təsərrüfatıdır. Ölkə üzrə su istehlakının 80 faizə yaxını məhz kənd təsərrüfatının payına düşür.

Bu ilin əvvəllərindən havaların quraq keçməsi, yağıntıların miqdarının azalması, əkin balansının əsas hissəsini təşkil edən taxılın becərilməsində problemlər yaradıb. Mart-aprel aylarında havaların yağıntılı olması vəziyyəti qismən xilas etsə də, bir sıra, xüsusilə aran rayonlarında 100 min hektar ərazidə taxıl sahələrinə ziyan dəymişdir. Suvarma problemi yaşanmayan digər rayonlarda məhsuldarlıq əvvəlki illə müqayisədə xeyli yüksək olsa da, quraqlıq keçmiş ərazilər səbəbindən bu il taxıl üzrə ümumi nəticə ötən ilə nisbətən 5,5 faiz az olmuşdur.

**Prezident İlham Əliyev:** Nə qədərdir bu gün?

**İnam Kərimov:** Cənab Prezident, bu il 90 faiz biçilib, 1 milyon 800 min ton buğda yığılıb və buğda istehsalı təxminən 1 milyon 900 min ton ətrafında gözlənilir.

**Prezident İlham Əliyev:** Məhsuldarlıq nə qədərdir?

**İnam Kərimov:** Bu günə faktiki yığılmış ərazilərdən məhsuldarlıq 31,3 sentner olub.

**Prezident İlham Əliyev:** Keçən il də təqribən 32 sentner idi?

**İnam Kərimov:** Bəli, 32, 31,7 sentner.

**Prezident İlham Əliyev:** Düşüb, amma bu tənəzzül o qədər də kritik deyil. Əgər su təminatı yaxşı olsaydı, daha çox məhsuldarlıq ola bilərdi.

**İnam Kərimov:** Cənab Prezident, bir məsələni qeyd edim ki, burada faktiki yığılan ərazilər götürülüb, yəni hansı ərazilərdə ki, məhsul yığılmayıb, bu statistikaya daxil edilməyib.

Quraqlıq və su çatışmazlığı pambıq bitkisinin becərilməsinə də öz təsirini göstərməkdədir. Cari ildə 100 min hektardan çox sahədə pambıq əkini həyata keçirilib. Pambıq əkinləri üzrə 7 min hektar sahədə birinci vegetasiya suvarması hələ də başa çatmayıb. Eyni zamanda, bu günə 49 min hektar sahədə ikinci vegetasiya suvarması həyata keçirilib ki, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 23 min hektar azdır.

Pambığın suvarılmasında ən kritik faza ikinci vegetasiya suvarmasıdır. Keçənilki dövrdə bugünkü tarixə biz 23 min hektar az ikinci suvarma həyata keçirmişik. Pambığın ikinci vegetasiya suvarması vaxtında aparılmasa, məhsuldarlığın 25-40 faiz aşağı düşməsi ilə üzləşə bilərik. Hazırda pambığın suvarılması üzrə əsas problemlər daha çox Saatlı, Sabirabad, Biləsuvar, Zərdab, Salyan və Neftçala rayonlarında müşahidə olunur.

Bundan əlavə, 35 rayon üzrə 50 min hektar sahədə təkrar qarğıdalı əkini nəzərdə tutulub. Bu günədək 36 min hektar sahədə səpin aparılıb. Hazırda suvarma problemi ilə əlaqədar bu işin həyata keçirilməsində çətinliklər yaşayırıq.

Su çatışmazlığı və quraqlıq səbəbindən suya daha çox tələbatı olan bəzi bitkilərin becərilməsi üzrə də məcburi azalmalar baş vermişdir. Belə ki, şəkər çuğunduru üzrə 7500 hektar əkin nəzərdə tutulurdusa, faktiki əkin 4800 hektarda aparılıb. Çəltik üzrə 4000 hektar proqnoza qarşı 3000 hektarda əkin aparılması mümkün olmuşdur.

Mövcud vəziyyət meyvə bağları üçün də risklər yaradır. Meyvə bağlarının əsasən çoxillik ağaclardan ibarət olduğunu nəzərə alsaq, su çatışmazlığının mənfi təsiri bu sahədə

daha çox ola bilər. Yaranmış vəziyyət yem bitkilərinə və təbii yem mənbələrinə də mənfi təsir göstərir. Suvarma kifayət qədər olmazsa, yem bitkiləri üzrə məhsuldarlıq xeyli dərəcədə azala bilər. Həmçinin yağıntının azalması səbəbindən otlaq sahələrində təbii ot örtüyünün zəif inkişafı müşahidə olunur. Bu da heyvandarlığın inkişafına maneələr yarada bilər.

Hazırda aqrar sektorda təsərrüfat fəaliyyətinin ən qızğın dövrüdür. Növbəti aylarda da su təminatı ilə bağlı çətinliklərin davam etməsi gözlənilir. Belə ki, əsas su kanallarına verilən suyun həcminin ötən ilin müvafiq dövrü ilə müqayisədə iyul ayının sonunadək 30 faizə qədər, avqust ayında isə 40-50 faiz düşməsi gözlənilir. Söhbət Yuxarı Şirvan və Yuxarı Qarabağ kanallarından gedir.

Su çatışmazlığı, o cümlədən izafi su itkisi torpaqların şoranlaşmasına, eyni zamanda, eroziya və səhralaşmaya səbəb olur. Sadalanan problemlər torpağın münbitlik göstəricilərinin pisləşməsinə, nəticədə məhsuldarlığın aşağı düşməsinə gətirib çıxarır.

Hazırda su çatışmazlığı fermerləri narahat edən ən aktual problemlərdəndir. İlin birinci yarısında bununla əlaqədar nazirliyə 2500-dən çox müraciət daxil olub. Müraciətlər əsasən suvarmada yaranmış çətinliklər, subartezian quyularının istismarı və qazılmasında yaranmış problemlər, irriqasiya sistemlərinin nasazlığı, suvarma qrafiklərinin pozulması ilə bağlı olub. Bu problemlərin həlli üçün Sizin Sərəncamınızla yaradılmış komissiyanın koordinasiyası ilə müvafiq tədbirlər görülür, qurumların fəaliyyəti əlaqələndirilir. Mövcud su ehtiyatlarının ədalətli bölünməsi üçün 53 rayon üzrə 580 mindən çox suvarma qrafiki tərtib olunub və nazirliyin saytında yerləşdirilib. Qrafiklərə əməl edilməsi ilə bağlı yerlərdə maarifləndirmə və nəzarət işləri həyata keçirilir. Daxil olan müraciətlər təhlil edilir və baxılması üçün Meliorasiya və Su Təsərrüfatı ASC-yə göndərilir. Müraciətlərin sayına görə Goranboy, Sabirabad, Ucar, İmişli, Kürdəmir, Xaçmaz, Ağcabədi, Beyləqan, Biləsuvar və Salyan rayonları üstünlük təşkil edir. Həmçinin fermerlərin müraciətləri ilə bağlı müvafiq komissiyaya hər gün operativ məlumatlar göndərilir və problemlərin aradan qaldırılması üçün yerlərdə Meliorasiya və Su Təsərrüfatı ASC və yerli icra hakimiyyəti orqanları ilə birgə fəaliyyət göstərilir.

Görülən tədbirlərin əsas məqsədi dəyər zəncirinin bütün mərhələlərində, yəni suyun sututarlarda toplanması, kanallarla nəqli və əkin sahələrinə paylanmasında effektivliyin təmin olunmasıdır. Habelə su balansının elektronlaşdırılması, dəqiq uçot sisteminin qurulması və suvarma məlumatlarının elektron kənd təsərrüfatı sisteminə inteqrasiya edilməsi sudan səmərəli və qənaətlə istifadəni özündə ehtiva edən subsidiya mexanizminin formalaşdırılması istiqamətində təkliflər hazırlanır.

Məhdud su resursları kontekstində suvarmanın səmərəliliyinin artırılması üçün suvarma zəncirinin bütün mərhələlərində, o cümlədən birbaşa suvarma fazasında innovasiyaların tətbiqi artıq zərurətə çevrilmişdir. Suvarma zəncirinin son mərhələsi olan birbaşa suvarmada fermerlərin pivot, damlama, yağış yağdırma və tamburlu suvarma sistemlərinə marağı yüksəkdir. Dövlət tərəfindən müasir suvarma sistemlərinin qurulması təşviq edilir. Belə ki, suvarma sistemləri dövlət tərəfindən subsidiyalaşdırılan avadanlıqlar siyahısına daxildir. Son iki il ərzində nazirlik xətti ilə 9,3 min hektar ərazidə suvarma sistemlərinin qurulmasına 28,8 milyon manat subsidiya verilib. Verilən güzəştlərlə iki il ərzində iqtisadiyyata əlavə 54 milyon manat investisiya qoyuluşu təşviq edilib.

Möhtərəm cənab Prezident, hazırda yazlıq əkinlər üzrə suvarılmanın aparıldığı aktiv dövrdür. Su çatışmazlığının əkinlərə mənfi təsirinin minimuma endirilməsi üçün nazirlik tərəfindən və müvafiq komissiyanın koordinasiyası ilə digər qurumlarla birlikdə tədbirlər görüləcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sizin məruzənizdə açıq-aydın göstərilir ki, suyun çatışmazlığı iqtisadiyyatımıza, kənd təsərrüfatının inkişafına, fermerlərin gəlirlərinə nə qədər

böyük ziyan vurur. Biz indi fermerləri, sahibkarları stimullaşdırmaq üçün çox böyük proqramlar icra edirik - subsidiyalar, güzəştli kreditlər, texnika ilə təminat, gübrə, yanacaqla təminat. Bütün bunları dövlət öz üzərinə götürüb ki, fermerlər daha yaxşı yaşasınlar. Biz onları torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad etmişik. Amma təkcə suyun çatışmazlığı görün bizə nə qədər böyük ziyan vurur. Taxılçılıqda məhsuldarlıq daha yüksək olmalı idi, pambıqçılıqda da həmçinin.

Bu il biz birinci dəfə təkrar əkinlə bağlı təcrübədən istifadə etdik. Mənə ilk verilən məlumat o idi ki, biz 100 min hektarda qarğıdalı əkək. Sonra suyun çatışmazlığı ilə əlaqədar bunun 50 min hektarını ixtisar etdik. Amma heç 50 min hektarda da əkə bilmədik. Misal üçün, biz 100 min hektarda bunu əkə bilsək, bu, bizə nə qədər xeyir verəcək, yem bazamız, nə qədər genişlənəcək və idxaldan asılılıq azalacaq, valyuta xaricə getməyəcək. Ona görə bütün bu məsələlər çox ciddi təhlil edilməlidir və edilir. Eyni zamanda, veriləcək tapşırıqlar və qəbul ediləcək proqram hərtərəfli olmalıdır. Biz nə mümkündürsə, bu il etməliyik. Əsas işləri, əlbəttə ki, gələn ilin əkin mövsümünə hazırlıq məqsədilə etməliyik.

Mənə göndərilən məktublarla bağlı. Mən bu məktubları Prezident Administrasiyasının şöbəsinə və Nazirlər Kabinetinə göndərirəm. Zeynal Nağdəliyev məlumat verin, məktublarda qaldırılmış məsələlərin araşdırılması və görülən tədbirlər nədən ibarətdir və bu məsələlərin təxminən neçə faizi öz həllini tapıb? Bundan sonra hansı addımların atılması gözlənilir?

Prezidentin köməkçisi **Zeynal Nağdəliyev**: Təşəkkür edirəm, cənab Prezident. İcazə verin, məruzə edim ki, təkcə iyulun 2-dən başlayaraq Siz tərəfdən bizə araşdırılmaq üçün 100 müraciət göndərilib. Araşdırılan müraciətlərin 10-u tam olaraq həllini tapmışdır və yüksək diqqətinizə məruzə edilmişdir. Hazırda təqribən 12-15 müraciət yerlərdə həllini tapmışdır və biz bununla bağlı məruzəyə hazırlaşırıq. Bunlar suyun çatışmazlığı ilə bağlı olan müraciətlərdir, söhbət ondan gedir. Eyni zamanda, suyun çatışmazlığı ilə bağlı 10 müraciətin Sizin tapşırığınız əsasında əlavə potensial imkanlardan istifadə etməklə həlli istiqamətində iş görülür. Sizin tapşırığınız müvafiq qurumlara çatdırılmışdır və indi o imkanlar araşdırılır. Ümumiyyətlə, yerlərdə suyun çatışmazlığında əsas məsələ, həqiqətən də suyun olmaması idi. Bəzi hallarda suyun verilməsinin, onun fermerlərə çatdırılmasının sistemliliyi pozulmuşdu. Tapşırığınıza uyğun olaraq Nazirlər Kabineti ilə birlikdə məsələyə müdaxilə etdikdən sonra nizamlanmış növbəlilik təmin edilmişdir. Arxlar təmizlənmiş, digər texniki çatışmazlıqlar aradan qaldırılmışdır. Cənab Prezident, hazırda bu istiqamətdə bütün tədbirlər görülməkdədir.

**Prezident İlham Əliyev:** Hər bir məktuba çox diqqətlə yanaşmaq lazımdır və həlli bilavasitə qısa müddət ərzində mümkün olan məsələlər dərhal həll olunmalıdır. Məktublarda elə məsələlər qaldırılır ki, onlar daha genişmiqyaslı iş tələb edir. Əlbəttə ki, biz onları nəzərə almalıyıq. Artıq İqtisadiyyat Nazirliyinə göstəriş verildi ki, bizim investisiya proqramımızın imkanları daxilində bu məqsədlər üçün əlavə vəsaitin ayrılması da nəzərdən keçirilsin və biz gələn ili gözləməyək, nə mümkündürsə, bu il edək. Maliyyə Nazirliyi və İqtisadiyyat Nazirliyi əlavə vəsaitin tapılması ilə əlaqədar birlikdə işləsinlər.

Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov, vəziyyətlə bağlı məruzə edin.

**Nazir Kəmaləddin Heydərov:** Çox sağ olun, möhtərəm cənab Prezident. Azərbaycan Respublikasının su ehtiyatlarının qiymətləndirilməsi layihəsi haqqında Sizin tapşırığınıza əsasən 2014-cü ildə Niderlandın "Deltares" şirkəti ilə müqavilə bağlanmışdır və ölkəmizin bütün su balansının çıxarılması, həm yeraltı ehtiyatların, həm də yerüstü çayların, göllərin təhlili prosesi başlanmışdı. Təəssüflər olsun ki, 2014-cü ildən sonra bu layihənin icrası müəyyən maliyyə çatışmazlıqları səbəbindən dayandırılmışdır.

Yüksək diqqətinizə məruzə edirəm ki, bu dövr ərzində Bakı və Abşeron yarımadasının bütün yeraltı, yerüstü suları və gölləri haqqında təhlil hazırlanmış və müvafiq orqanlara göndərilmişdir. Amma bizim ölkə üzrə digər çaylarımızın, göllərimizin tam təhlili əlavə vəsait tələb edir və qısa müddətdə başa çatdırıla bilər. 2017-ci ildən bu layihənin həyata keçirilməsi dayandırılmışdır.

Möhtərəm cənab Prezident, vaxtınızı çox almamaq üçün bir cümlə ilə qeyd edim ki, həm hidrotexniki qurğuların, həm göllərin və su anbarlarının vəziyyəti haqqında müvafiq qurumlara ünvanladığımız məktubların bir qismi öz həllini tapmışdır. Azərenerji tərəfindən Mingəçevir gölünün beton hissəsinin su-torpaq yuyulmasından qorunması üçün işlər tamamilə başa çatdırılmışdır. Yuxarı Qarabağ kanalının bütün layihə işləri hazırlanıb verilmişdir. Amma, möhtərəm cənab Prezident, bu, Sizin qeyd etdiyiniz kimi, köklü və əsaslı surətdə təmin olunmalıdır. Əgər biz həm suvarma suyunun, həm içməli suların tam nəzarətdə olması və səmərəli istifadə edilməsi, ədalətli bölünməsi üçün işlər görmək istəyiriksə, bir neçə təklifimiz var. İcazənizlə, onların bir-ikisini səsləndirim.

Suyun uçotunun təkmilləşdirilməsi üçün müasir ölçmə vasitələrinin tətbiq edilməsi. Bu prosesi Baş Nazirin müavininin dediyi kimi, biz başlamışıq, yəqin ki, qısa müddətdə başa çatdıracağıq. Əkin sahələrində suya qənaətedici müasir suvarma texnologiyasının tətbiqi üçün istehsalçılara dövlət dəstəyinin verilməsi. Kollektor-drenaj tullantı sularının təmizlənməsi, təkrar istifadəyə cəlb olunması istiqamətində tədbirlərin hazırlanması və həyata keçirilməsi. Dağ çaylarında relyefin imkan verdiyi yerlərdə sel sularının toplanması üçün kiçik su anbarlarının və yağış sularının toplanması məqsədilə sututarların tikintisi.

Möhtərəm cənab Prezident, Sizinlə müzakirə zamanı suvarma dövründən başqa dağ çaylarındakı suyun akkumulyasiya olunması üçün müvafiq yerlərin seçilməsi və oralarda qış dövründə, yəni suvarma olmayan dövrdə suların akkumulyasiya edilməsi haqqında mənə tapşırıq vermişdiniz. Biz Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutu ilə bu istiqamətdə bəzi yerlərdə araşdırma aparmışıq. Onun reallaşdırılması üçün xarici mütəxəssislərə ehtiyacımız var və yəqin ki, onları pandemiyadan sonra dəvət edəcəyik. Çünki təbii olaraq Kürün suyu artmağa doğru deyil, azalmağa doğru gedir. Bizim də əsas su ehtiyatlarımızı təmin edən Mingəçevir, Varvara, Şəmkirçay və digər anbarlardır. Ona görə də biz gələcək üçün mövcud anbarların faydalı həcmini artırmaqdan ötrü Varvara, Türyançay və Əliçay çaylarını təmizləməliyik.

Bir də, möhtərəm cənab Prezident, bildirməliyəm ki, dövlət əhəmiyyətli Şəmkir, Yenikənd, Mingəçevir, Varvara və Ceyranbatan hidroqovşaqlarının texniki təhlükəsizliyinin qiymətləndirilməsi məqsədilə Yaponiyanın "Kahişa" şirkəti ilə 2017-ci ildə bağlanmış müqavilənin həyata keçirilməsi üçün vəsaitin ayrılması lazımdır.

**Prezident İlham Əliyev**: Bəs nə üçün bu müqavilə icra edilməyib? 2017-ci ildə bağlanıb, üç il keçib, niyə icra olunmayıb?

**Kəmaləddin Heydərov:** Deməli, 9 milyon dollar vəsait çatışmadı. Ona görə də bu layihənin icrası dayandırıldı.

**Prezident İlham Əliyev:** Onda gərək bu məsələ çoxdan öz həllini tapaydı. Bir halda ki, müqavilə bağlanıb. Buyur, Maliyyə naziri, arayış ver.

**Maliyyə naziri Samir Şərifov:** Möhtərəm cənab Prezident. Məsələ ilə bağlı məruzə etmək istərdim ki, bu vəsaitin ayrılması ilə bağlı Nazirlər Kabinetinin xüsusi bir qərarı olub. Həmin qərara əsasən, bu vəsaitin bir qismi Fövqəladə Hallar Nazirliyi tərəfindən 2 milyon dollar məbləğində həll edilməli idi. Yerdə qalan hissəsi ilə "Azərenerji" Səhmdar Cəmiyyəti tərəfindən görülməli idi. Lakin naməlum səbəblərə görə bu məsələlər öz həllini tapmadı. Hər iki qurumun vəsaiti olub və 2014-cü ildə də "Deltares" şirkətinin apardığı texniki araşdırma

ilə bağlı da burada mən sözün açığı hər hansı bir əsas tapa bilmirəm, nəyə görə bu vəsait olmayıb. Amma icazə versəniz, biz bununla bağlı müvafiq arayış təqdim edə bilərik.

**Prezident İlham Əliyev:** Siz məsələni araşdırın. Çünki mən belə başa düşürəm ki, bu vəsait olub, ancaq Fövqəladə Hallar Nazirliyi və Azərenerji bundan istifadə etməyib. Elədir?

**Samir Şərifov:** Bəli. O zaman bu vəsaiti dövlət büdcəsindən istəyiblər. Cənab Prezident, amma hər iki qurum bilir ki, bu, büdcədə nəzərdə tutulmamışdı. Bununla bağlı həm Azərenerjidə bunun bir hissəsinin verilməsi nəzərdə tutulmuşdu, 2 milyonunu isə Fövqəladə Hallar Nazirliyi ayırmışdı.

**Prezident İlham Əliyev:** Bu, böyük vəsait deyil. Bunu indi yubatmaq olmaz. Neçə il keçib və əgər bu vaxtında olsaydı, bu qiymətləndirmə də aparılardı və bütün təmir-bərpa işləri görülərdi.

**Kəmaləddin Heydərov:** Möhtərəm cənab Prezident, bizim tərəfimizdən 2 milyon və xatirimdədirsə 3 milyon da Azərenerji tərəfindən ayrılmışdı və qalan hissəsini büdcə təmin etməli idi. Sonradan bu vəsait təmin olunmadığına görə layihə dayandırılmışdır.

**Prezident İlham Əliyev:** Gərək, məsələ qaldıraydınız. Vəsait təmin olunmayıb, siz də məsələ qaldırmamısınız. Mən bu gün bunu eşidirəm. İndi Baş Nazirə tapşırıq verirəm ki, tez bir zamanda bunu həll edin və builki investisiya proqramından vəsait ayırın ki, bu məsələ tezliklə həll olunsun. Siz də tərəf müqabilləri ilə əlaqə saxlayın və onları indi dəvət etmək lazımdır ki, gəlib bu qiymətləndirməni aparsınlar. Çünki bilirsiniz, əgər bu bürokrati-ya belə davam edərsə, bu, heç bir nəticəyə gəlib çatmayacaq. Çünki kontrakt imzalanıb, vəsait ayrılmayıb. Nəyə görə ayrılmayıb? Kimsə ya istəməyib, ya da ki, istəyib kimsə verməyib, ya sonra ixtisar olunub. Belə şeylərə son qoymaq lazımdır.

İndi isə Ekologiya və Təbii Sərvətlər naziri, məlumat verin.

Nazir **Muxtar Babayev:** Hörmətli cənab Prezident, bildiyiniz kimi, iqlim dəyişmələrinin təsiri nəticəsində su ehtiyatlarımız son onilliklərdə təqribən 15 faiz azalmışdır. Beynəlxalq iqlim modelləri göstərir ki, 2050-ci ilədək su resurslarımız təqribən daha 15 faizə qədər azala bilər. Əvvəlki dövrlərdə quraqlıq müddəti 2-3 il davam edirdisə, son 8 ildə davamlı quraqlıqlar müşahidə olunur. Aparılan araşdırmalar göstərir ki, dünya ölkələrində olduğu kimi, ölkəmizdə də yağıntıların zaman və məkan üzrə qeyri-bərabər şəkildə paylanması baş verir. İqlim dəyişmələri nəticəsində ölkəmizdə havanın temperaturu yüksəlir, bunun nəticəsi olaraq ölkənin dağlıq ərazilərində şaxtalı və qarlı günlərin sayının azalması qeydə alınır. İqlimin istiləşməsi ölkənin dağ çaylarını qidalandıran qar ehtiyatının və buzlaqların azalmasına da səbəb olur. Yağıntıların azalması Xəzərsahili rayonlar istisna olmaqla, ölkənin bütün regionlarını əhatə edir. Anomal hadisələrin sayı və sel-daşqın proseslərinin təkrarlanması artır. Kür və Qanıq çaylarında sululuq norma ilə müqayisədə 2019-cu ildə 29,2, son 6 ayda isə 45,8 faiz azalıb. Yağıntılar norma ilə müqayisədə 2019-cu ildə 17 faiz, 2020-ci ildə isə 25 faiz az olub. Əsas dağ çaylarımız formalaşan ərazilərdə son 10 ildə yağıntının miqdarı orta hesabla 8,7 dəfə azalmışdır. İqlimin inertliyini əsas götürsək, növbəti onillikdə iqlim norma ilə müqayisədə daha 8 faiz azalmanı ehtimal etmək olar. Hər il mütəmadi olaraq hidrometeoroloji xidmət çaylarda sululuq üzrə proqnozları hazırlayır və müvafiq qurumlara təqdim olunur. Bu proqnozlar həm də dağlarda qarölçmə işləri əsasında aparılır. Bu qədər, cənab Prezident.

**Prezident İlham Əliyev:** İndi söz verilir Prezident Administrasiyasının Dövlət nəzarəti şöbəsinin müdiri Kərəm Həsənova. Mənə geniş arayış hazırlayıb. Çox böyük təhlil işi aparılıb. Bu təhlil işini, bu arayışı mən komissiyaya göndərmişəm, komissiya da buna baxır. Siz, indi görülmüş işlərlə bağlı qısa məlumat verin və mövcud vəziyyəti necə qiymətləndirirsiniz?

**Kərəm Həsənov:** Təşəkkür edirəm, möhtərəm cənab Prezident. Sizin tapşırığınızla, əhalinin içməli su təminatı, suyun keyfiyyəti və bu sahədə olan vəziyyətlə, eyni zamanda, kənd təsərrüfatının suvarma sistemi ilə bağlı yaxın günlərdə tərəfimizdən monitorinq aparılmışdır. Həmçinin ölkənin mövcud su ehtiyatları, onlardan istifadə vəziyyəti ilə bağlı araşdırmalar aparılmış və hazırlanmış arayış ali diqqətinizə təqdim edilmişdir.

İcazənizlə, mövcud vəziyyətlə bağlı onu demək istərdim ki, tamamilə çox düzgün buyurursunuz, ölkəmizin su mənbələri üzrə ehtiyatları təxminən 35,6 milyard kubmetr qiymətləndirilir. Axırıncı dəfə ölkə üzrə yerüstü su ehtiyatlarımız 1970-ci ildə, yeraltı su ehtiyatlarımız isə 1980-ci illərdə qiymətləndirilmişdi. Biz hazırda su sistemi ilə bağlı məlumatları bu qiymətləndirmələrdən əldə edirik. Təxminən 40-50 il keçməsinə baxmayaraq, su ehtiyatlarımız yenidən qiymətləndirilməmişdir. Bayaq Fövqəladə Hallar naziri bu məsələ ilə bağlı qeyd etdi. Eyni zamanda, 35,6 milyard kubmetr su ehtiyatından il ərzində içməli su üçün təxminən orta hesabla 653 milyon kubmetr su götürülür. Bu da əvvəllər su ehtiyatlarımızın 1,8 faizini təşkil etmişdir. Hazırda isə 15 faiz su ehtiyatlarının azalması bu rəqəmlərə təsir etmişdir. Mövcud su ehtiyatlarına içməli su 2,2 faiz nisbətindədir. Amma buna baxmayaraq, bu rəqəmlər suyun təminatının azalmasına çox cüzi təsir edir.

Cənab Prezident, bir rəqəmi demək istərdim ki, sistem üzrə götürülən 653 milyon kubmetr suyun təxminən orta hesabla 57 milyon kubmetri, yəni 9 faizi sistemin texnoloji proseslərinə sərf edilir, 286 milyon kubmetr su isə müxtəlif sərflərə silinir. Yalnız təxminən 283 milyon kubmetr su – bu, şəbəkəyə daxil olan suyun 45 faizi, götürülmüş suyun isə 50 faizi deməkdir, istehlakçılara çatdırılmışdır. Çox düzgün qeyd etdiniz ki, su itkiyə məruz qalır və bu da təxminən istehlakçılara verilən su təchizatının 50 faizi həcmindədir. Yəni, istehlakçılara verilən su itkiyə gedən sudan azlıq təşkil edir. Bəli, bu rəqəmlər var. Eyni zamanda, çox düzgün qeyd etdiniz ki, su anbarlarımızda mövcud vəziyyətlə, yəni hidrotexniki qurğuların və avadanlıqların istismar müddəti ilə bağlı bəzi yerlərdə vaxtı keçmiş məsələlər var. Ona görə də çox doğru tapşırıq oldu ki, bu təhlükə mənbələrinin aradan götürülməsi üçün hidrotexniki qurğuların yenilənməsi ilə bağlı müvafiq iş aparılsın.

Digər məsələ isə, çox düzgün buyurdunuz ki, suya qoyulan investisiyaların sosial-iqtisadi səmərəliliyi düzgün hesablanmır. Yəni, həm əhalinin sayına görə, eyni zamanda, təchizat sistemində, yəni investisiyaların geri dönməsi, iqtisadi cəhətdən onların səmərəli olması heç də düzgün hesablanmır və sosial səmərəliliyinə baxılmır. Belə ki, bəzi ərazilərdə, məsələn Xaçmaz rayonunda biz bu məsələlərə baxmışıq. Xaçmaz rayonunda su təchizatı həll edilməmişdən öncə bir su mənbəyi müəyyən olunmuşdur. Sonradan isə bu mənbəyə də quraqlıq təsir etmişdir və bulaq qurumuşdur. Nəticədə bu gün 2 min fərdi ev, təxminən 10 minə yaxın əhali su təchizatından narazıdır. Bu narazılığı biz ali diqqətinizə çatdırmışıq və Siz göstəriş vermisiniz. Biz əməkdaşlarımızı Xaçmaz rayonuna dərhal ezam etdik və Zeynal Nağdəliyevin şöbəsinin əməkdaşları ilə birlikdə orada bu məsələlərlə məşğul olduq.

Eyni zamanda, şikayətlərlə bağlı isə onu demək istərdim ki, 12 rayondan su təchizatı ilə bağlı şikayətlər var idi. Bunu, əsasən, aran rayonları - Sabirabad, Saatlı, Kürdəmir, Ucar, İmişli, Biləsuvar rayonları təşkil edirdi. Sizin tapşırığınız əsasında onların su ilə təminatı məsələlərinə ciddi fikir verilmişdir və məsələlər araşdırılmışdır.

Suvarma sistemi ilə bağlı isə onu demək istərdim ki, orta hesabla ölkə üzrə illik 6,3 milyarddan 6,7 milyard kubmetrə qədər su təminatı mövcuddur. Ölkə üzrə orta hesabla 2017-2019-cu illərdə, əslində, il ərzində 3,2 dəfə suvarma olmalıdır. Bu, "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin verdiyi məlumatlardır. Əslində, faktiki vəziyyətdə isə bir qədər fərqli rəqəmlər görünür. Kənd Təsərrüfatı naziri də bu məsələni qeyd etdi. Yəni, 28 rayonda 671 min 264 hektar kənd təsərrüfatı torpaqlarının 50 faizində suvarma ortalama həddən aşağı olmuşdur. Məsələn, daha kritik vəziyyət Qobustan rayonunda

1,2 dəfə, Ağsuda 1,4 dəfə, Şamaxıda 1,6 dəfə və Füzuli rayonunda 1,8 dəfə suvarma işləri həyata keçirilmişdir. Bu da kənd təsərrüfatının, xüsusilə aqrar sektorun inkişafına çox ciddi mənfi təsir edən amillərdən biridir. Beləliklə, Sizin tapşırığınızla biz həm kənd təsərrüfatının suvarma sistemində, həm də əhalinin içməli su ilə təminatı sistemində bu məsələlərə fikir veririk və Sizin tapşırığınızla nəzarətə götürmüşük, baxırıq. Amma suda sanitar məsələləri də xüsusilə qeyd etmək istərdim. Cənab Prezident, ali diqqətinizə çatdırıram ki, suyun keyfiyyətinə, epidemioloji vəziyyətə aidiyyəti qurumlar tərəfindən fikir verilsə, daha yaxşı olar. Bu qədər. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Bilirsiniz bu, nəyi göstərir? Onu göstərir ki, uzun illər ərzində bu sahəyə dövlət nəzarəti olmamışdır, o cümlədən Prezident Administrasiyasından da olmamışdır. Mən Dövlət nəzarəti şöbəsinə göstəriş verəndən sonra onlar işə başladılar, geniş arayış hazırladılar. Kərəm Həsənov bütün məsələləri indi demədi, çünki vaxt baxımından imkan yoxdur. Amma bu arayışda hər şey göstərilib. Komissiya formalaşdı, işə başladı, üç ay ərzində təhlil apardı, demək olar ki, bütün qüsurlar üzə çıxdı. Yaxşı, bu qüsurları görən yox idimi? Aidiyyəti qurumlar bu məsələ ilə nə üçün məşğul olmurdular? Hesab edirdilər ki, orada boru çəkdim, burada kanalı betonladım. Bununla da iş bitir? Bununla iş bitmir. Gərək işi elə qurasan ki, fermerlər, vətəndaşlar razı olsunlar. Su qıtlığı ola bilər, təbii səbəblər var. Aydın məsələdir ki, keçən il, bu il heç tarixdə bəlkə də görünmədiyi səviyyədə quraqlıq var idi. Amma əgər düzgün işlər görülsəydi, vaxtında bu məsələlər üzə çıxsaydı, əlbəttə ki, biz bu vəziyyətdən daha az itkilərlə çıxardıq. Ona görə bugünkü müşavirədən sonra, əlbəttə, geniş tədbirlər planı hazırlanacaq. Bu gün səslənən təkliflər və eyni zamanda, aidiyyəti qurumlar tərəfindən aparılmış təhlil nəticəsində təkliflər, yerlərdən gələn təkliflər mütləq nəzərə alınmalıdır. Çünki regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramını və ondan sonrakı proqramları qəbul edərkən biz yerlərdən məlumat əsasında bir çox məsələləri o proqramlara daxil etdik. İnsanları nə narahat edir? Hansı rayonda hansı problem var? Bu ərizələr və təkliflər əsasında biz bu proqramları tərtib etdik. Eyni qaydada bu dəfə də bu, olmalıdır. Çünki bütün mövcud problemlər gərək bu proqramda öz əksini tapsın.

Su təsərrüfatı balansına gəldikdə, yaxşı ki, bu məsələ qısa müddət ərzində həll olundu. Təbii ki, bundan sonra müntəzəm olaraq su balansı hazırlanmalıdır. Bu, bizim üçün əsas "yol xəritəsi" olacaqdır. Su balansı tərtib olunmadan biz öz işimizi planlaşdıra bilmərik.

Bizim əsas su obyektlərində müasir ölçü cihazları quraşdırılmalıdır və bir neçə obyektdə artıq quraşdırılıb. Amma bu, çoxdan olmalı idi. Necə ola bilər ki, bizim əsas su anbarlarında ölçü cihazları yoxdur. Nə qədər su gəldi, nə qədər su çıxdı, dədə-baba üsulu ilə baxırlar, səviyyəyə baxırlar, orada xətlərə baxırlar, ondan da nəticə çıxarırlar. Ona görə indi mən Şahin Mustafayevdən soruşmaq istəyirəm ki, hansı obyektlərdə bu quraşdırıldı və bu məsələ nə vaxt tam təmin ediləcək?

**Şahin Mustafayev:** Cənab Prezident, 12 ədəd müasir ölçü cihazı Fövqəladə Hallar Nazirliyi tərəfindən əldə olunub və ondan 4-ü artıq quraşdırılıb. Biz, ilk növbədə, məsləhətləşdik, baxdıq ki, əsas suyumuz haradadır. Ona nəzarəti təmin etmək üçün Mingəçevir Su Anbarını götürdük. Mingəçevir Su Anbarına üç çıxış var - Yuxarı Qarabağ, Yuxarı Şirvan kanalları, bir də Mingəçevir SES-ə gedən Varvara Su Anbarına tökülən yerdə.

Biz, ilk növbədə, bu üç yerdə və bir də Mingəçevirin özünün su həcminin ölçülməsi üçün cihaz quraşdırdıq. Bu 4 cihaz artıq quraşdırılıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən də 25 cihaz əldə olunub. Mən düşünürəm ki, təxminən bir ay ərzində daha 33 cihaz quraşdıracağıq. Komissiyada baxmışıq ki, ilk növbədə, hansı nöqtələrdə bu cihazlar quraşdırılmalıdır. Bir neçə gün öncə biz komissiyada məsləhətləşdik, razılaşdırdıq ki, şimal

istiqamətində bir neçə ən önəmli su anbarında və kəmərlərdə, kanallarda da bu cihazları quraşdıraq. Düşünürəm ki, biz bu sahədə bütün işləri bu ilin sonunadək zəruri yolla, amma kritik olanları bir ay ərzində başa çatdıracağıq.

**Prezident İlham Əliyev:** Fövqəladə Hallar naziri əlavən var?

**Kəmaləddin Heydərov**: Möhtərəm cənab Prezident, əslində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nəzdində suölçmə cihazları artıq var idi. Amma onlar mənəvi və fiziki olaraq köhnəlmişdi. Sizin tapşırığınızdan sonra bu yeni cihazların əldə olunması və quraşdırılması prosesi gedir. Baş Nazirin müavininin dediyi kimi, qısa bir müddətdə ən vacib yerlərdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə bunları quraşdıracağıq. İkinci və üçüncü əhəmiyyətli yerlərdə də ilin axırına qədər bu proses qurtaracaq.

Qeyd etdiyiniz kimi, bizim su itkilərimizin 40, bəzi yerlərdə də 50 faizi beton və torpaq kanallarda baş verir. Biz Almaniya şirkətləri ilə danışıqlar aparmışıq. Suyu dayandırmadan, yeni üsullarla onu beton kanallarla deyil, digər materiallar var, onlarla üzlənmiş kanallarla nəql edib, su itkisini çox minimuma endirmək olar. Əgər icazə versəniz, biz bu barədə müvafiq qurumlarla danışaq, nəticələrini Nazirlər Kabinetinə təqdim edək. Yeni materiallar həm tez başa gəlir, həm ucuzdur, həm də quraşdırılan vaxt suyun qabağını dayandırmır. İcazə versəniz, bu işə başlayardıq.

**Prezident İlham Əliyev:** Bəli, mütləq məşğul olun. Mən bir dəfə bu haqda fikrimi demişəm. Demişəm ki, indi dünyada texnologiyalar inkişaf edir. Biz də gərək ən qabaqcıl texnologiyaları ölkəmizə gətirək. Biz həmişə hesab edirdik ki, əgər torpaq kanalı beton üzlüklə örtülərsə, itkilər azalacaq. Amma bu, həm böyük xərc, həm də vaxt tələb edir. Ona görə tezliklə dediyiniz o şirkətlə əlaqə saxlayın, onları dəvət edin. Qoy, bizə göstərsinlər və bir pilot layihə də icra etsinlər. İqtisadiyyat Nazirliyi aidiyyəti qurumlarla birlikdə vəsaitlə bağlı məsələləri həll etsinlər ki, biz vaxt itirmədən bu işə başlayaq. Bizim kanallarımızın 73 faizi torpaq kanallardır. Bu da, əlbəttə ki, itkilərin əsas səbəbidir.

Mingəçevir Su Anbarının Yuxarı Qarabağ kanalına çıxış hissəsi yenidən qurulmalıdır. Bu məsələ ilə bağlı qərar qəbul edildi, yoxsa yox?

**Şahin Mustafayev:** Cənab Prezident, komissiyanın bəzi üzvləri orada oldular, baxdılar. Yuxarı Qarabağ kanalının giriş hissəsində qapı var. O qapı faktiki işləmir və o qapının işləməməsi prinsip etibarilə çox ciddi təhlükə yarada bilər. Çünki bu qapı həm Yuxarı Qarabağ kanalına tunelin girişini qoruyur, həm də suyun həcmini tənzimləyir. Ona görə orada olduq, vəziyyət çox pisdir, ağırdır. Bu məsələyə təcili olaraq baxılmalıdır. Artıq Fövqəladə Hallar Nazirliyi Yaponiya şirkəti ilə müqavilə bağlayıb, araşdırmalar aparılıb, layihə-smeta sənədləri hazırdır.

Fövqəladə Hallar Nazirliyi komissiyaya müraciət edib, komissiyadan materiallar artıq İqtisadiyyat Nazirliyinə göndərilib. İqtisadiyyat Nazirliyi qısa müddətdə layihəyə baxıb, öz qiymətləndirməsini verəcək. Hesab edirəm ki, bu layihənin qısa müddətdə başa çatdırılması mümkündür və zəruridir.

**Prezident İlham Əliyev**: İcra müddəti təxminən nə qədər ola bilər?

**Şahin Mustafayev:** Yəqin söhbət aylardan gedəcək, cənab Prezident.

**Prezident İlham Əliyev:** Onda uzatmayın. Tezliklə baxın məsələyə. Əlbəttə ki, bu, müşavirənin yekunu olaraq imzalanacaq Sərəncamda da öz əksini tapmalıdır.

**Şahin Mustafayev:** Baş üstə.

**Prezident İlham Əliyev:** Elektron su təsərrüfatı informasiya sistemi haqqında artıq burada deyildi. Bildiyimə görə, indi əsasnamə hazırlanır. Bunu da tezləşdirin, tezliklə təqdim edilsin, imzalansın. Bu, elektron kənd təsərrüfatı informasiya sistemi ilə inteqrasiya şəklində artıq vahid bir informasiya sistemi kimi olacaq. Eləmi?

**Şahin Mustafayev:** Bəli, cənab Prezident. Elektron su təsərrüfatı informasiya sistemi bütün aidiyyəti dövlət qurumlarının informasiya sistemlərinə inteqrasiya olunacaq, o cümlədən kənd təsərrüfatı informasiya sisteminə.

**Prezident İlham Əliyev:** Eyni zamanda, biz peyk imkanlarımızdan da istifadə etməliyik. Mən bilirəm ki, "Azərkosmos" da bu işlərə cəlb edilib. Mütləq müntəzəm olaraq həm müşahidə aparılmalıdır, eyni zamanda, mövcud problemlər artıq peyk vasitəsilə müəyyən edilməlidir. Bu işlər də müntəzəm olaraq aparılmalıdır.

Əkin sahələrinin müasir texnologiyalar əsasında suvarılmasına böyük ehtiyac var. Xüsusilə nəzərə alsaq ki, indi biz suya qənaət etməliyik. Ona görə biz bu işlərə xarici mütəxəssisləri cəlb etməliyik. İndi komissiya bu məsələ ilə məşğul olsun və eyni zamanda, biz gərək sahibkarları da həvəsləndirək. Yəni, sahibkarlar üçün həvəsləndirici addımlar atılmalıdır ki, onlar bu müasir texnologiyalara daha da yaxından cəlb olunsunlar. Ola bilər güzəştli kreditlər, yaxud da ki, hansısa imtiyazlar xətti ilə ki, təkcə dövlət öz üzərinə götürməsin. Onsuz da biz lazımi infrastruktur məsələlərini həll edəcəyik. Amma bu, sahibkarların özləri üçün də bir motivasiya yaratsın ki, müasir texnologiyalardan istifadə etsinlər. Burada, əlbəttə, maarifləndirmə işi aparılmalı, təqdimatlar keçirilməlidir, sahibkarlar görsünlər ki, əgər bu texnologiyadan istifadə edəcəklərsə, onda dövlətin güzəştləri nə olacaq və deməli, məhsuldarlıq nə qədər artacaq.

Yeraltı və yerüstü su resurslarının qiymətləndirilməsi məsələsi, hesab edirəm ki, həll olunub. Çatışmayan vəsait tezliklə ayrılmalıdır və həmçinin hidrotexniki qurğuların təftişinə də mütləq xarici mütəxəssislər cəlb edilməlidir.

Əkin sahələrinin suvarılması üçün qrafiklərin tətbiq edilməsi prosesi başlamışdır. Hesab edirəm ki, bu, çox əhatəli bir proses olmalıdır. Ölkə üzrə hər yerdə qrafiklər tətbiq edilməlidir və çox ciddi nəzarət olmalıdır. Bu məsələ həll olunarkən, əlbəttə ki, "Elektron kənd təsərrüfatı" informasiya sistemi ilə də uzlaşdırılmalıdır və fermerlər də buna cəlb edilməlidir. Çünki suların bölüşdürülməsi ədalətli olmalıdır. Yerlərdən gələn bəzi məktublar da göstərir ki, müəyyən hallarda bu ədalət prinsipi pozulur. Kimin imkanı var, kimin təsiri var, kimin haradasa yüksək vəzifədə qohumu var, onun əkin sahəsinə su verilir, amma başqa fermer susuz qalır. Ona görə qrafiklər ədalətli olmalıdır və geniş ictimaiyyət bu işlərə cəlb edilməlidir. Əlbəttə ki, nəzarət mexanizmi olmalıdır. Mərkəzi və yerli icra orqanları birlikdə bu işlərlə məşğul olsunlar.

Mənə verilən məlumata görə, bir çox yerlərdə su xətlərinə qanunsuz qoşulmalar var və bu məsələyə heç kim cavabdehlik daşımır. Birincisi, bu qoşulmalar qanunsuzdur və buna yol vermək olmaz. İkincisi, mənə gələn məlumata görə, bəzi təsərrüfatlarda lazım olmayan qədər sudan istifadə edilir, ancaq digər təsərrüfatlara su çatmır. Ona görə burada da çox işlək nəzarət mexanizmi olmalıdır, həm viziual, həm elektron nəzarət mexanizmi. İndi xüsusi cihazlar var ki, onlar, misal üçün, borularda təzyiqin aşağı düşməsi nəticəsində dərhal siqnal verir. Ona görə burada da ən müasir sistemlər tətbiq edilməlidir ki, bu məsələ elektronlaşdırılsın və vahid informasiya portalında, informasiya sistemində öz əksini tapsın. Onda siz görəcəksiniz, əgər hansısa hissədə təzyiq aşağı düşübsə, deməli, orada qanunsuz qoşulmalar var. Buna qətiyyən yol vermək olmaz.

Bütün bu qanunsuz qoşulmalar tezliklə aradan qaldırılmalıdır. Yerli və mərkəzi icra orqanları, lazım gələrsə, hüquq-mühafizə orqanları bu işlərə cəlb edilməlidir ki, burada bu xaosa son qoyulsun. Ən dəhşətlisi odur ki, heç kim buna məsuliyyət daşımır. Qanunsuz qoşulmalara qarşı heç bir cəza mexanizmi, yaxud da ki, nəzarət mexanizmi yoxdur. Çünki bütün qurumlar hesab edir ki, bu, onun işi deyil. İndi əgər komissiya işləməsəydi, bu komissiyanı mən yaratmasaydım və bunu üzə çıxarmasaydım, belə də davam edəcəkdi. Ona görə mütləq bu məsələ tezliklə öz həllini tapmalıdır.

İtkilərlə bağlı. İtkilərin kəskin azaldılması ilə bağlı kompleks tədbirlər görülməlidir. Əlbəttə, itkilərin əsas mənbəyi torpaq kanallardır, amma təkcə torpaq kanallar deyil. Digər mərhələlərdə də itkilərə yol verilir. Bəzi hallarda bu itkilər süni şəkildə şişirdilir. Bəzi hallarda heç itki olmur, amma suyun həcmi itkilərə silinir. Mənə verilən məlumata görə, burada da xoşagəlməz hallar kifayət qədər geniş vüsət alıb. Ona görə, birincisi, biz bu itkiləri azaltmalıyıq. Çünki 40-50 faiz itki dözülməz səviyyədir. Mən yenə də deyirəm, əgər itkilər aradan qaldırılsa, bizim mövcud su mənbələrimiz və su resurslarımız kifayətdir.

İçməli su layihələrinə, meliorasiya layihələrinə böyük vəsait qoyulur. İndi müasir texnologiyalar var. Həmçinin boruların istismar müddətinin uzadılması üçün yeni texnologiyalar var, onlardan istifadə etmək lazımdır. Amma elə bil ki, bu itkilər kiməsə sərf edir. Çünki itkilər olan yerdə uçot olmur. Nəyi istəyirsənsə, itkilərə silmək olar. Ona görə ayrıca bir proqramın içində xüsusi bir istiqamət olmalıdır və qrafik tutulmalıdır ki, itkilərin azaldılması hansı templə gedəcək, hansı ildə hansı səviyyəyə düşəcək və əgər düşməyəcəksə, buna məsuliyyət daşıyan qurumların rəhbərləri cəzalandırılmalıdır. Yoxsa ildən-ilə mən bunu eşidirəm - itkilər, itkilər. Yaxşı, itkilər var, amma bunun qarşısını almağın yolu da var. Bu illər ərzində məgər bu yolu tapmaq mümkün deyildi?! Deməli, kimsə maraqlıdır ki, bu itkilər olsun. Hər kəs nəticə çıxarsın.

Dağ çaylarının sularının yığılması ilə bağlı təkliflər səsləndi. Mən bunu dəstəkləyirəm. Artıq bizim dağ çaylarımızda mövcud olan resursların geniş təhlili aparılıb. Ona görə sututarların, kiçik su anbarlarının tikilməsi və dağ çaylarının bizim əsas su xətlərinə birləşdirilməsi məsələlərinə də mütləq baxılmalıdır. Hesab edirəm ki, biz bu işi qısa müddət ərzində görə bilərik. Yenə də çox işlək bir nəzarət mexanizmi olmalıdır.

Bir məsələ də su ehtiyatlarının qiymətləndirilməsi ilə bağlıdır. Bu qiymətləndirmə aparılarkən, eyni zamanda, müəyyənləşdirilməlidir ki, bizim su ehtiyatlarımızın artırılması ehtimalı nə dərəcədə realdır, bu, mümkündür, yoxsa yox. Bəlkə də bizim bilmədiyimiz elə sahələr var ki, orada mənbələr var, sadəcə olaraq, işlər görülməyib, kəşfiyyat aparılmayıb. İndi burada mənə məlumat verilir ki, yeraltı və yerüstü su mənbələri sovet dövründə qiymətləndirilib. Görün, bunun üstündən nə qədər vaxt keçib. Üstəgəl yeni texnologiyalar. Bizim bəlkə də haradasa geniş su mənbələrimiz var, biz, sadəcə, onu bilmirik.

Oğuz-Qəbələ-Bakı su kəmərinin tikintisini də sovet vaxtında əldə olunmuş bilgilər əsasında icra etmişik. O vaxt bu məsələ ortaya çıxmışdı, təkliflər səsləndirilmişdi. Ancaq o vaxt biz mərkəzi ümumittifaq fondlardan asılı olduğumuz üçün bu sahəyə vəsait ayrılmamışdı, ona görə icra edilmədi. Ancaq layihə olmasa da, hər halda bütün bilgilər var idi ki, bu bölgədə geniş və çox gözəl, təmiz su mənbələri var. Ona görə bu qiymətləndirilmə aparılarkən su ehtiyatlarımızın artırılma ehtimalı da mütləq təhlil edilməlidir.

Torpaq kanalların yenidən qurulması ilə bağlı artıq təklif verildi. İndi qısamüddətli və uzunmüddətli proqram tutulmalıdır. Dediyim kimi, xarici mütəxəssislər, yeni texnologiyalar cəlb olunmalı, pilot layihələr icra edilməlidir. Siz o pilot layihələrin icrası üçün bir neçə yer seçin ki, biz bu işi bir neçə kanalda başlayaq və sonra bunu təqribən bir neçə ay, bəlkə bir il ərzində sınayaq. Əgər səmərəli olarsa, bu yeni texnologiyalardan istifadə edə bilərik.

Verilən təkliflər arasında ilkin mərhələdə 22 kanalın yenidən qurulması nəzərdə tutulur. Ona görə bu kanallar yenidən necə qurulacaq, bax, əsas məsələ bundadır. Əgər buna nail ola bilsək, biz təqribən 300 min hektara yaxın əkin sahəsinin su ilə təminatını tam həll edəcəyik.

Mil-Qarabağ kollektorunun yenidən qurulması məsələsi də gündəlikdədir. Bu sahədə hansı işlər görülüb və hansı təkliflər var? Şahin Mustafayev, siz məlumat verin.

**Şahin Mustafayev:** Cənab Prezident, qeyd etdiyiniz kimi, təkliflərin içərisində 22 kanalın yenidən qurulması və əsaslı təmiri təklifi verilmişdi. Artıq Siz qeyd etdiniz ki, bu kanallar təxminən 300 min hektara yaxın əkin sahəsinə xidmət edəcək. Bu kanallarda hazırda

təxminən 30-40 faiz ətrafında su itkisinə yol veririk. Biz bu kanalları təmir etsək, onda qarşısı alınan su itkiləri hesabına əkin sahələrinin suvarılmasını daha yaxşı təmin edə bilərik. Eyni zamanda, əkin sahələrini genişləndirmək də mümkün ola bilər. O ki qaldı, kollektorun əsaslı təmirinə, bu da çox vacib layihədir. Biz burada da ciddi problemlər görürük və ilk növbədə, bu kollektorun təmir olunması məqsədəuyğun hesab edilmişdir. Biz komissiyada buna baxmışıq. "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin təklifini əsas götürərək, ilk növbədə, bu kollektorun əsaslı təmiri məsələsini gündəmə gətirmişik.

Cənab Prezident, yanaşma belə oldu ki, biz, ilk növbədə, magistral kanalların, onlardan çıxan birinci dərəcəli və ikinci dərəcəli su kanallarının təmirini prioritet hesab etdik. Yəni, kompleks olaraq bir blok qurtarandan sonra, digər blokda işlərin başlanması nəzərdə tutulur. Beləliklə, kompleks şəkildə bir blok magistral kəmər, ondan çıxan birinci dərəcəli, ikinci dərəcəli kanallar və onlardan çıxan paylayıcı şəbəkələr birdəfəlik təmir olunsun. Yəni, biz işləri yarımçıq qoymayaq və blok-blok qurtaraq. Verilən təkliflər əsasən Araz çayından, bəzi hissəsi isə Kür çayından qidalanan və aran regionunu əhatə edən su kəmərləri ilə bağlıdır. Komissiyanın təklifi ondan ibarətdir ki, ilk növbədə, texniki-iqtisadi əsaslandırmalar, layihə-smeta sənədləri hazırlanmalıdır, ondan sonra prioritetlər üzrə yekun qərar qəbul olunmalıdır ki, maksimum səmərə təmin edilsin.

**Prezident İlham Əliyev:** Kollektorun uzunluğu təqribən 100 kilometrdən çoxdur. Bu, çox böyük layihədir. "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri bu barədə nə kimi məlumat verə bilər?

**Əhməd Əhmədzadə** dedi:

- Möhtərəm cənab Prezident, cəbhə bölgəsində yaranmış gərgin vəziyyətdə, pandemiyanın dünyada tüğyan etdiyi bir vaxtda su təsərrüfatı məsələləri, su itkilərinin qarşısının alınması ilə bağlı belə tədbirin keçirilməsinə görə, ilk növbədə, Sizə dərin minnətdarlığımı bildirirəm. Burada deyilənlərin hamısı çox düzgün, vaxtında qaldırılmış məsələlərdir. Bu məsələlərlə bağlı onu deyə bilərəm ki, 17 il ərzində Siz Azərbaycanda bu sahədə çox böyük işlər görmüsünüz. Əgər bu gün Taxtakörpü su anbarı, Şəmkirçay su anbarı olmasaydı, Bakı, Sumqayıt şəhərlərinin su təchizatında, şimal zonasının suvarma məsələlərində çox ciddi çətinliklər olardı. Bu gün həqiqətən quraqlıq şəraitində Bakıda su təchizatında, içməli su məsələsində təhlükəli vəziyyət yarana bilərdi. Amma gördüyünüz tədbirlər nəticəsində həm şimal zonasında, həm də Bakı və Sumqayıt şəhərlərində bunu heç kəs hiss etməyib. Hazırda Bakıya verilən suyun 70 faizi Ceyranbatan su anbarından götürülür. Bu da Taxtakörpü su anbarından götürülən suyun hesabınadır. Şəmkirçay su anbarının tikilməsi isə qərb bölgəsinin problemlərini çox yüksək səviyyədə həll edib. Bunun xeyrini həmin zonanın əhalisi də hiss edir.

Cənab Prezident, quraqlıq səbəbindən son 70 ildə Mingəçevir su anbarı istifadəyə veriləndən birinci dəfədir ki, indiki bu səviyyəyə düşüb. Sizin yaratdığınız komissiya çox fəal işləyir, çox yaxşı işlər görülür. Biz səhmdar cəmiyyət olaraq bu Sərəncamın icrası ilə bağlı 2020-2030-cu illər üçün proqram tərtib edib komissiyaya təqdim etmişik. Həmin proqramda Sizin qarşıya qoyduğunuz vəzifələrin hamısı, yəni su itkilərinin azaldılması, su ehtiyatlarından istifadə olunması, müasir texnologiyaların tətbiqi, suyun idarə edilməsi üçün institusional dəyişikliklərin aparılması öz əksini tapıb. Proqrama komissiyada baxırlar, yəqin ki, yaxın vaxtlarda Sizə təqdim olunacaq. Qeyd edilən 22 magistral kanalın, eyni zamanda, Mil-Qarabağ kollektorunun və bir neçə su anbarının tikintisinə başlanması, əsasən də bu işlərin görülməsi üçün layihə-smeta sənədlərinin hazırlanması, müasir texnologiyalara uyğun işlənməsi nəzərdə tutulub. İndi müasir texnologiyalar var, bu işlər də yəqin ki, layihələndiriləndə, icra olunanda bu texnologiyalara uyğun aparılacaq.

Cənab Prezident, Mil-Qarabağ kollektoru Baş Mil-Muğan kollektorunun davamıdır. Kollektorun tikintisi çoxdan layihələndirilib, İslam İnkişaf Bankının hesabına texniki-iqtisadi əsaslandırma aparılıb. Vəsaitlə bağlı olaraq həmin sahə hələ bir qədər sonraya saxlanıldı. Amma onun çəkilməsi çox vacibdir, çünki həmin zonada Sizin gördürdüyünüz böyük su təsərrüfatı işləri, Şəmkir sonasından başlayaraq Goranboy, Samux rayonlarında görülən işlər, ümumiyyətlə, çöl sularının atılması üçün həmin kollektorun yenidən qurulmasını tələb edir. O, kiçik iş deyil, gərək bir neçə il onun üzərində effektli işlənilsin.

Biz builki quraqlıqla bağlı bütün imkanları kənd təsərrüfatını su ilə təmin etmək, birinci növbədə isə içməli su məsələsini əsas götürmüşük. Şimal zonasında müəyyən əkinlərin aparılmasında təkliflərimiz ondan ibarət olub ki, bu zonanın suyu əsasən Bakının, Sumqayıtın içməli suyu ilə birgə gedir və onu kənd təsərrüfatı sahəsinə yönəltmək paytaxtın su təchizatında hər halda bir qədər çətinlik yarada bilər. Siz bilirsiniz, kəndlərimizin ək-səriyyətində indi su xətləri çəkilir. Çay sularından istifadə olunur. Mobil qurğular qurulub, o qurğulara gərək su verilsin, bu işlər görülsün. Yəni, biz alternativ su mənbələrindən də, kollektorların suyundan da istifadə edirik. İndi Kür çayının suyuna kollektorlardan saniyədə 48 kubmetr su qatırıq. Bu da bizim əlimizdən tutur ki, pambıq sahələrini suvara bilək. Qarabağ kanalına ümumi imkanın 70 faizi qədər su götürülür. Şirvan kanalına 60 faizə qədər su götürürük. Bu 60-70 faizlə, növbəliliyi artırmaqla Kənd Təsərrüfatı Nazirliyi, onun yerlərdəki idarələri, icra hakimiyyətləri ilə birlikdə qrafiklə 580 minə yaxın fermerlə müqavilə bağlanılıb. 580 min fermer bilir ki, onların suyu haradan gələcək və necə gedəcək. Kənd Təsərrüfatı Nazirliyinin sistemi vasitəsilə hər bir şəxs bilir ki, nə vaxt su ilə təmin olunacaq. Ümumiyyətlə, qısa müddətdə su təsərrüfatı sahəsində kadastrın hazırlanması təmin olunub. Kadastrda 200 min meliorasiya obyektinin adı var ki, bu gün onları tapmaq olur. Yəni, uçotu aparmaq üçün, Sizin qarşıya qoyduğunuz məsələlərin həlli üçün görülən işlər öz effektini verəcəkdir. Biz komissiyaya lazım olan materialları təqdim etmişik. Əgər tapşırıq versəniz, xarici mütəxəssislərin də dəvət olunması ilə bu işi Sizin tələbləriniz səviyyəsində görə biləcəyik.

Diqqətinizə görə minnətdaram.

**Prezident İlham Əliyev:** Biz sudan elektrik stansiyalarının fəaliyyətində də istifadə edirik və əlbəttə, həm su elektrik stansiyalarının, eyni zamanda, istilik elektrik stansiyalarının fəaliyyəti, əlbəttə ki, sudan asılıdır. Çünki bu soyutma işləri olmadan istilik elektrik stansiyaları fəaliyyət göstərə bilməz. İndi qeyd etdiyim kimi, biz son vaxtlar elektrik stansiyalarının reabilitasiyası, müasirləşdirilməsi ilə bağlı böyük işlər gördük, itirilmiş gücləri bərpa etdik, haradasa 800 meqavat səviyyəsində. Bu yaxınlarda Mingəçevir İstilik Elektrik Stansiyasının yenidənqurmadan sonra açılışı olmuşdur və stansiya 2400 meqavat elektrik enerjisi generasiya edir. Əlbəttə ki, bu sahədə soyutma məqsədilə sudan qənaətlə istifadə edilməlidir. Eyni zamanda, Xəzər dənizinin səviyyəsi aşağı düşüb. Bu, ilk növbədə, Sumqayıt İstilik Elektrik Stansiyasının fəaliyyətinə çox mənfi təsir göstərir, o da 525 meqavat gücündə olan stansiyadır. İstisna edilmir ki, “Şimal-1”, “Şimal-2” elektrik stansiyalarının soyutması ilə bağlı problemlər yarana bilər. Orada da ümumi generasiya gücü 800 meqavatdır. İndi Azərenerjinin sədri məlumat versin, Sumqayıt Elektrik Stansiyasının soyudulması üçün estakada tikilir və bu tikinti nə yerdədir və nə vaxt başa çatacaq? Ümumiyyətlə, Xəzərin suyunun aşağı düşməsi ilə bağlı hansı qabaqlayıcı tədbirlər görülür ki, biz özümüzü bu vəziyyətdən sığortalaya bilək.

“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti **Baba Rzayev** dedi:

- Təşəkkür edirəm, möhtərəm cənab Prezident.

Siz çox doğru qeyd etdiniz. Xəzərin səviyyəsinin son ildə bir metr yarımadək aşağı düşməsi nəticəsində sahilin “ləpədöyən” deyilən hissəsindən soyutma sistemi üçün dövrə

nasoslarının suyu gətirdiyi, qəbul etdiyi bir ərazi seçilmişdi ki, bu, doğru deyildi. Ona görə biz vəziyyəti Sizə məruzə etdik. Sizin göstərişinizlə bütün tədbirlər planı həyata keçirildi və dənizə doğru 750 metr estakadanın tikintisi artıq başa çatıb. Bu ayın sonunda 6 ədəd çox güclü nasos artıq Bakıda olacaq. Sizə söz verdiyim kimi, biz oktyabrın axırı, noyabrın əvvəllərində Sumqayıtda yaranan su probleminin həllinə nail olacağıq. O ki qaldı, dənizin səviyyəsinin düşməsindən itirdiyimiz elektrik enerjisinə, son həftənin reallığı odur ki, bu gün əgər havaların isti keçməsinə görə texniki göstərici olaraq biz qoyulmuş gücdən 8 faiz itiririksə, 8 faiz də səviyyənin aşağı düşməsindən itiririk. Hazırda Sumqayıt elektrik stansiyası 420-430 meqavat gücündə fəaliyyət göstərir. Yəni, bunun təsiri bu qədərdir. Bu, maya dəyərinə də çox ciddi təsir edir. Eyni problem, demək olar ki, "Şimal-1", "Şimal-2"də də var. Biz ancaq dərinləşdirici lilsovuran qurğulardan istifadə edərik. Hələlik orada da 8-10 faiz itki var. Cəmi 800 meqavatlıq elektrik stansiyası - 400 "Şimal-1" və 400 "Şimal-2". "Şimal-1"in rotorunun köhnə olması səbəbindən biz orada 30 meqavat itiririk, qalır 370. Amma havanın və dənizin təsirindən bu gün 320 meqavatla işləyir. Dənizin səviyyəsinin aşağı düşməsi nəticəsində biz "Şimal-2"də də təxminən 30 meqavat itiririk. Bu gün cəmi 670 meqavatla tam stabil gücdə çalışırıq.

**Prezident İlham Əliyev:** İndi Xəzər dənizinin suyunun səviyyəsinin dəyişməsi təbii səbəblərə bağlıdır. Bunu, bildiyimə görə, heç alimlər də bu günə qədər müəyyən edə bilmirlər, nə üçün bir müddət su gedir, ondan sonra suyun səviyyəsi qalxır. Bu, dövri xarakter daşıyır, ona görə biz istənilən vəziyyətə hazır olmalıyıq. Son illər ərzində hər il Xəzərin səviyyəsi aşağı gedir, ona görə bütün lazımi tədbirlər görülür, estakada yaxın aylarda istifadəyə veriləcəkdir. O ki qaldı, "Şimal-1", "Şimal-2", bu günə qədər hələ ki, suyun səviyyəsinin düşməsi o qədər də təsir etməyib. Amma əgər gələcəkdə bu proses davam edərsə, biz buna hazır olmalıyıq. Bütövlükdə bütün su təsərrüfatı məsələlərinin həllində, əlbəttə ki, energetika sektoru da fəal olmalıdır və koordinasiya tam olmalıdır və bu, mövsümi xarakter əsasında biz öz generasiya güclərimizi işə salmalıyıq. Bizim indi tələbatdan təxminən 1000 meqavat artıq generasiya gücümüz var, ona görə biz istənilən stansiyanı ya söndürə bilərik, ya da onun fəaliyyət əmsalını aşağı sala bilərik ki, bu işlər tam uzlaşma şəklində həll olunsun. İçməli su layihələri ilə bağlı Qorxmaz Hüseynov məlumat versin.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri **Qorxmaz Hüseynov** dedi:

- Möhtərəm cənab Prezident, təşəkkür edirəm. Siz bu gün içməli su təsərrüfatında olan həm uğurlardan, həm də nöqsanlardan geniş danışdınız. İcazə versəniz, mən də bununla bağlı bir neçə məsələyə toxunmaq istəyirəm. Son zamanlar iqlim dəyişikliyi ilə bağlı regionlarda, bir neçə rayonda suyun verilişində fasilələr yaranmışdır. Bu, əsasən Xızı, Altıağac rayonlarında su mənbələrində suyun azalması ilə bağlı olmuşdur. Eyni zamanda, Zaqatala şəhərində dağ çaylarında baş verən daşqınlar zamanı mənbədə bulanıqlıq artdığına görə şəhərə suyun verilişində fasilələr yaranır. Siz çox doğru qeyd etdiniz ki, alternativ su mənbələrinin tapılması mühüm məsələlərdir. Zamanında bu layihələr hazırlanarkən ehtiyatlar qiymətləndirilib, amma iqlim şəraitinin bu cür dəyişməsi ola bilsin ki, nəzərə alınmayıb. Lakin biz qabaqcadan bu dinamikaları nəzərə alaraq, həm suyun keyfiyyət parametrlərində, həm həcmində bir neçə rayonla bağlı məsələ qaldırdıq və Sizin Sərəncamınızla Lerik, Qobustan, Ağstafa, Gədəbəy, Şamaxı və Tovuz rayonlarında bu işlər həyata keçirildi. Şamaxı və Tovuz şəhərlərində hələ bu layihələr tam başa çatmasa da, birinci mərhələdən sonra şəhərə suyun verilişində problemlər nisbətən aradan qaldırıldı. Lakin digər rayonlarda isə həmin alternativ mənbələr hesabına suyun verilişində heç bir problem yaranmamışdır.

Uçqun bulağı Xaçmaz şəhərinin qədim su mənbəyidir. Həmin mənbədə suyun həcmi çox olduğundan onu Bakı xəttinə qoşmuşduq, hazırda yaranan vəziyyətdə iki məhəllədə

suyun verilişində fasilə, yəni, suyun həcmində azalma müşahidə ediləndə biz həmin suyu Xaçmaz şəhərinə birləşdirdik. Lakin cənab Prezident, təkcə Xaçmaz şəhəri deyil, bir çox şəhərlərdə - Şamaxı, Qax, Qəbələ və sair şəhərlərdə, xüsusilə beynəlxalq maliyyə qurumlarının vəsaiti ilə layihələndirilən rayonlarda layihələr 2009-2012-ci illərə əsasən hazırlanıb. Bu layihələr hazırlanarkən şəhərin mövcud ərazisi nəzərə alınmışdır. Amma sonradan bildiyiniz kimi, ölkəmizdə Abşeron yarımadasında, regionlarda şəhərlər sürətlə böyüyür və bu böyümə nəticəsində təkcə Şamaxıda min ev bu gün layihədən kənarda qalıb. Yəni, layihə zamanı bu evlər yox idi. Xaçmazda 1450, Qaxda 682, Qəbələdə 500 ev və sair. Belə hallar bir çox rayonlarda var və biz bununla bağlı yeni layihələr hazırlayırıq ki, gələcəkdə investisiya proqramı çərçivəsində bu kəndlərin problemi həll olunsun.

**Prezident İlham Əliyev:** Axı, hər dəfə mən açılışlarda olanda siz mənə məlumat verirdiniz ki, bu layihələr elə hazırlanıb ki, 2030-cu ilə qədər artan əhalini nəzərə alsın. İndi isə deyirsən ki, əhali artıb 1000 ev orada tikilib, ona görə su çatmır. Bəs necə ola bilər ki, 30-cu ilə qədər siz bunu planlaşdırırdınız ki, indi 600 ev tikilib və su çatmır?

**Qorxmaz Hüseynov:** Cənab Prezident, üzr istəyirəm, bizim suyun hesabatı 2030-cu il nəzərə alınmaqla, əhali artımı nəzərə alınmaqladır. Amma infrastruktura ayrılan vəsait mövcud ərazi üçün nəzərdə tutulduğundan yenidən maliyyələşib, yenidən qurulmalıdır, xüsusilə beynəlxalq maliyyə qurumları tərəfindən maliyyələşən rayonlarda. Çünki beynəlxalq maliyyə qurumları bu layihələrə əlavə vəsait ayırmayıb.

**Prezident İlham Əliyev:** Onlar ayırmayıb, onda müraciət edəydiniz hökumətə, biz dövlət investisiya proqramından vəsait ayırardıq. Onlar ayırmayıb, siz də oturmusunuz ki, onlar ayırmayıb, mən də otururam heç nə etmirəm. Bəs yaxşı heç kim bilmir ki, yeni evlər tikilir, Azərbaycanın əhalisi artır və artacaq? Hər dəfə mənə deyirdiniz ki, 2030-cu ilə qədər hər şey nəzərdə tutulub - mənbə də, infrastruktur da. İndi də deyirsən ki, yox 600 ev orada tikilib, 1000 ev burada tikilib, ona görə su çatmır.

Şahin Mustafayev, bu məsələ ilə bağlı nə kimi arayış verə bilərsən? Bu məsələ araşdırılıb, yoxsa yox?

**Şahin Mustafayev:** Cənab Prezident, biz hələlik bunu detallarla araşdırmamışıq, amma tapşırığınızla biz hər rayon üzrə xüsusilə yarımçıq qalan - Siz çıxışınızda qeyd etdiyiniz rayonlar üzrə, indidən araşdırmalıyıq ki, dediyiniz kimi 10 il, 15 il müddətində tam təmin olunsun.

**Prezident İlham Əliyev:** Həm yarımçıq qalan, həm də bitmiş hesab olunan layihələr. İndi sən demə belə çıxır ki, digər evlər nəzərə alınmayıb. Ya su mənbəyi düzgün seçilməyib, ya yoxdur, ya da ki, yeni evlər tikilib. Əlbəttə, yeni evlər tikiləcək. Azərbaycanın hər bir yerində yeni evlər tikilir, o demək deyil ki, o evlər tikiləndə onlar susuz qalmalıdır. Deməli, bu, bəri başdan nəzərə alınmalı idi, ona görə siz bu məsələləri təhlil edin. Xarici maliyyə qurumları tərəfindən maliyyələşən layihələrə əlavə vəsaitin ayrılmasına da baxın, yerlərdə də dəqiq hesablamalar aparılsın. Prezident Administrasiyasına da tapşırıram, bu rəqəmləri təhlil edin, hansı şəhərdə, o şəhərlərdə ki, içməli su layihələri başa çatıb, hansı şəhərlərdə və hansı evlərə su verilmir. Çünki mən açılışlarda olanda mənə məruzə edilir, cənab Prezident, bu şəhər 100 faiz su ilə tam təmin edilib, 24 saat fasiləsiz su verilir. Bu məlumatı mənə verirlər. İndi sən demə, mən açılışlarda iştirak etdiyim şəhərlərdə bəzi evlərdə su yoxdur. Belə şey olmaz, bu, nəzərə alınmalıdır. Mənə məlumat verilirdi, təqdimatlarda göstərilirdi ki, 2030-cu ilə qədər, hətta 2035-ci ilə qədər əhalinin artımı nəzərə alınıb. Sən demə, nəzərə alınmayıb. Bunu çox ciddi araşdırmaq lazımdır və mənə bir neçə mənbədən məlumat verilməlidir - həm komissiya tərəfindən, həm də yerli icra orqanları tərəfindən və "Azərsu"dan.

**Prezident İlham Əliyev**: Qorxmaz Hüseynov, davam et.

**Qorxmaz Hüseynov:** Cənab Prezident, Abşeron yarımadasına gəldikdə isə Siz də qeyd etdiyiniz kimi, biz 2011-ci ildə Sizin xüsusi tapşırığınızla yarımadada əhalinin artımını, inkişafı nəzərə alıb, baş plan hazırladıq. Hazırlanmış baş plana əsasən, işlərin icrasına 2012-ci ildən etibarən başlanıldı. Mən bir neçə rəqəmi demək istəyirəm, 2011-ci ildə Abşeron yarımadasına 598 milyon kubmetr su verilirdi. 2019-cu ildə isə 526 milyon, yəni 12 faiz az su verilmişdi. Lakin həmin vaxtda yarımadada abonent sayı 50 faiz artmışdır, yəni 684 min abonentə qarşı 1 milyon 17 min abonent olmuşdur.

Görünən odur ki, itirilən suyun həcmi 20 faiz azalmışdır. Yeni infrastruktur qurulmuş, yəni 2600 kilometrdən çox su şəbəkəsi çəkilmişdir. Bu, ümumi baş planın birinci mərhələsi üzrə görüləcək işin 34 faizi idi. 252 kilometr magistral xətdən cəmi 54 faiz icra olunmuşdur, 16 su anbarı tikilmişdir. Bu da tikiləcək ümumi anbarların 33 faizini təşkil edirdi.

Cənab Prezident, aparılan təhlillər göstərirdi ki, şəhərdə olan böyük su itkilərinin qarşısını almaq üçün bu infrastruktur layihələrinin tamamlanması vacib şərtdir. Şəhərin xüsusilə Binəqədi, Sabunçu, Suraxanı, Xəzər rayonlarının ərazisində çox böyük genişlənmə, tikinti işləri aparılmışdır və daha çox fərdi həyət evləri tikilmişdir. Burada həm əhalinin artımı, həm genişlənən ərazi, həm də ki, yaşıllıqların artırılması suya olan tələbatı artırmışdır. Amma mən bir daha qeyd etmək istəyirəm ki, Abşeron yarımadasına verilən su şəhərin su təminatına tam bəs edə bilər. Biz bu il keçən illə müqayisədə bir kubmetr/saniyə, yəni, təxminən gündə 85 min kubmetr az su qəbul edirik, şəhərə az su ötürürük. Bu da məlum səbəblərdən Ceyranbatan gölündə Taxtakörpünün su ehtiyatlarının balanslaşdırılması, bir də Kür çayında suyun verilişində çətinliklə bağlıdır. Lakin əgər biz infrastrukturu tamamlayarıqsa, artıq qalan itirilən suyu bərpa edib, əhaliyə verə bilərik. Çox böyük ərazilərdə magistral xətlər şəbəkə kimi istismar olunur. Həddən çox qanunsuz birləşmələr var, xüsusilə bağ massivlərində. Magistral xətlər üzərində vətəndaşlar tərəfindən xüsusi nasosxanalar quraşdırılır. Bu, bu günün, dünənin məsələsi deyil, bu, illərin məsələsidir. Ona görə də magistral xətlər, əslində, anbarları qidalandırmaq üçündür. Anbarlar isə qəza vaxtı suyun verilişini və pik saatlarda suyun təchizatını qarşılamaq üçündür. Bizim anbar, magistral xətt layihələrimiz başa çatdıqdan sonra bu tikinti normalarına cavab verməyənlər - hansı ki, bu 26 faizdir, amma görülən işlərdən əvvəl bu 56 faiz idi, biz bunu 26 faizə salmışıq. Yay ayları istisna olmaqla, əslində, digər mövsümdə su çatışmazlığı yoxdur. Bu, qapalı sistem deyil, bu gün özbaşına tikililər hamısı açıq sistem olduğu üçün suyun germetikliyi itir və sistemdə boşalma yaranır. Nəticə etibarilə həmin ərazilərdə suyun verilişində çətinliklər yaranır, eyni zamanda, daimi su alan ərazilərdə təzyiqlərin düşməsi ilə biz fasiləli rejimlərə keçmək məcburiyyətində qalırıq. Cənab Prezident, ona görə də fürsətdən istifadə edib, demək istəyirəm ki, bu layihələrin başa çatdırılması üçün xüsusi tapşırıqlar verməyiniz məqsədəuyğundur. Söz yox ki, dediyiniz məsələlərdə "Azərsu" ASC-nin, şəxsən mənim günahım var. Qanunsuz istifadələrə qarşı mübarizə yəqin ki, lazımi səviyyədə aparılmır. Qanunsuz qoşulmalara qarşı mübarizələri lazımi səviyyədə apara bilməmişik və bu səbəbdən də infrastrukturun yenilənməsi üçün tədbirlər görülməlidir.

Cənab Prezident, bir neçə kəlmə də suyun keyfiyyəti ilə bağlı demək istərdim. Mən Sizə məruzə etdim, Siz xüsusi tapşırıq verdiniz ki, Ceyranbatanda ən müasir qurğu tikilsin. Çünki həmin vaxt Ceyranbatanda 3 nöqtədən su birbaşa göldən götürülüb şəhərə verilirdi. Biz o qurğunu tikməklə, əslində, suyun həcmini artırmamışdıq, sadəcə, şəhərə verilən suyun keyfiyyətini ən yüksək standarta gətirmişdik. Su həmin göldən birbaşa götürülür, bütün şəbəkəyə qarışırdı. Ona görə də demək olar ki, bütün sularımızın keyfiyyət parametrləri aşağı idi. Bu gün Abşeron yarımadasına verilən bütün suyun keyfiyyət parametrləri həm

bulanıqlıq baxımından, həm bakterioloji çirklənmə baxımından tam standartlara uyğundur. Təbii ki, lokal çirklənmələr mövcuddur. Buna görə də biz həm mərkəzi laboratoriyalar yaratmışıq, həm də 9 regional laboratoriyamız fəaliyyət göstərir.

Cənab Prezident, itkilərlə bağlı bircə kəlmə deyim, hansı rayonlarda ki, layihələr tam başa çatıb, itkilər 14-22 faiz civarında dəyişir. Təbii ki, burada idarəetmədən də çox şey asılıdır. Amma harada ki, layihələr başa çatmayıb, itkilər bəzi yerlərdə 50 faizdən də çoxdur. Ona görə də bir daha demək istəyirəm ki, infrastrukturun yenilənməsi ilə biz buna nail ola bilərik.

**Prezident İlham Əliyev:** Sayğaclaşdırma ilə bağlı işi siz nə vaxt başa çatdı-racaqsınız?

**Qorxmaz Hüseynov:** Cənab Prezident, sayğaclaşdırma 89 faiz icra olunub, 227 min sayğacsız abonentimiz var, 128 min isə istismar müddətini bitirmiş sayğac.

**Prezident İlham Əliyev:** Amma bu, ölkə üzrədir, rayonlarda aşağı səviyyədədir.

**Qorxmaz Hüseynov:** Abşeron yarımadasında 89,5 faizdir, regionlarda bir az aşağıdır, təxminən 114 min. Amma regionda aşağı olmasının bir səbəbi də var, cənab Prezident. Balakəndə, Qazaxda, Yevlaxda, Neftçalada hələ layihələr icra olunmadığına görə həmin yerlərdə sayğaclaşma aparmağımızın elə də bir mənası yoxdur. Ona görə biz o layihələri kompleks icra edirik.

**Prezident İlham Əliyev**: Aydındır. Neftçala rayonunda vəziyyətlə bağlı nə deyə bilərsiniz?

**Qorxmaz Hüseynov:** Hazırda Neftçalada vəziyyət gərgindir, cənab Prezident. Orada baş verən məlum hadisə ilə bağlı Neftçala şəhəri və rayonun 38 kəndi içməli sudan məhrum olub. Fövqəladə Hallar Nazirliyi, rayon icra hakimiyyəti və bizim dəstəyimizlə orada həm maşınlarla və modul tipli qurğularla su daşınır. Çənlər quraşdırılıb, rayonda həyətlərə və həmin çənlərə suyu verməklə biz vətəndaşlara...

**Prezident İlham Əliyev:** İndi məsələ əsaslı şəkildə nə vaxt həll olunacaq?

**Qorxmaz Hüseynov:** Cənab Prezident, məsələnin həlli üçün Siz keçən il 5 milyon vəsait ayırmışdınız, bu il investisiya proqramında 5 milyon vəsait ayrılıb. Biz layihənin tikintisinə başlamışıq və daha etibarlı mənbə olaraq Sizin iştirakınızla təməlqoyması və bir neçə rayonda açılışı olan Şirvan-Muğan magistral xəttindən Salyan ərazisinə 44 kilometr magistral xəttin tikintisinə artıq başlanılıb. Bu ilin noyabrında başa çatması planlaşdırılır və eyni zamanda, bu xəttboyu bütün kəndlərə də biz gələcəkdə investisiya proqramı...

**Prezident İlham Əliyev:** Yəni, nə vaxt Neftçala şəhəri və o kəndlər, nə vaxt o məsələ həll olunacaq? Vətəndaşlar bunu eşitmək istəyir.

**Qorxmaz Hüseynov**: Cənab Prezident, noyabr ayında biz içməli suyu şəhərin özündə və şəhər şəbəkəsindən qidalanan qəsəbələrdə mövcud şəbəkəyə bağlayacağıq. Amma həmin kəndlərə xətlərin çəkilməsi üçün əlavə vəsait ayrılması üçün biz təklif hazırlayacağıq.

**Prezident İlham Əliyev:** Bəs, noyabr ayına qədər məsələ necə həll olunacaq?

**Qorxmaz Hüseynov:** Yalnız maşınlarla, indiki vəziyyətdə suyu biz qismən veririk ki, texniki məqsədlərə istifadə edilsin.

**Prezident İlham Əliyev:** Zeynal Nağdəliyev, məlumat verin, bu maşınlarla ki, deyir, suyu çatdırırıq, bu, kifayət edir şəhərə? Bu haqda məlumatınız var?

**Zeynal Nağdəliyev:** Cənab Prezident, ümumiyyətlə, məlumat belədir ki, su qıtlığı var.

**Prezident İlham Əliyev:** Mən bilirəm su qıtlığı var. Deyirəm, Qorxmaz Hüseynov deyir ki, maşınlarla çatdırırıq, su ilə təmin edirik. Mən soruşuram, doğrudan belədir, yoxsa yox?

**Zeynal Nağdəliyev:** Su verilir, amma icazə verin, cənab Prezident, araşdırım Sizə məruzə edim.

**Prezident İlham Əliyev:** Araşdır. Şahin Mustafayev, siz bu məsələyə komissiyada baxmısınız?

**Şahin Mustafayev:** Bəli, cənab Prezident, biz bu məsələyə baxmışıq. Neftçala şəhərində vəziyyət çox ağırdır, gərgindir, maşınlarla su daşınır. Məruzə olunduğu kimi, noyabr ayında bunu başa çatdıracaqlar. Qorxmaz Hüseynov məruzə etməlidir, orada investisiya problemləri də var. Biz sonuncu komissiyada İqtisadiyyat Nazirliyinə də məlumat verdik, tapşırıldı ki, onlar da baxsınlar, çatışmayan vəsait haqqında araşdırmalar aparsınlar ki, Sizə məruzə olunan müddətdə bu məsələ öz həllini tapsın.

Eyni zamanda, cənab Prezident, biz məsələyə bir qədər qlobal yanaşmaq istərdik. Çünki bir sıra bizim yaşayış məntəqələrimiz birbaşa Kür çayından su götürürlər, necə ki, Neftçala götürürdü. Bu, gələcəkdə, qeyd etdiyiniz kimi, bilmək olmaz suyun həcmi necə olacaq. Biz qış aylarında məcbur olacağıq ki, Mingəçevir su anbarında ehtiyatlarımızı yığaq. Belə olan halda, ola bilsin ki, gələcəkdə bizim məntəqələrdə - Kür çayından birbaşa su götürən məntəqələrdə su çatışmazlığı olsun. Ona görə də biz düşünürük ki, bu məsələnin üzərində də çalışmaq lazımdır. Alternativ imkanlar araşdırılmalıdır ki, Kür çayından birbaşa içməli su götürən yaşayış məntəqələrinin təchizatını davamlı və dayanıqlı edək.

**Prezident İlham Əliyev:** Mütləq çalışın, tezliklə bu məsələ öz həllini tapsın. O vaxta qədər indi maşınlarla su daşınır, mənə dəqiq məlumat verərsiniz, bu, vətəndaşları təmin edir, yoxsa yox? Əgər təmin etmirsə, onda əlavə imkanlar tapmaq lazımdır ki, maşınlarla vətəndaşları təmin edə biləcək səviyyədə su daşınıb, onlara çatdırılsın.

Bizim bir məsələmiz də narahatlıq doğurur. Bu da çaylarboyu yerləşən kəndlərdə modul tipli təmizləyici qurğuların vəziyyətidir. Çünki mənə yerlərdən məlumat gəlir ki, bəzi hallarda bu qurğular işləmir. Bu qurğular vaxtilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi xətti ilə quraşdırılmışdı. Səhv etmirəmsə haradasa 400-ə yaxındır, yaxud da 400-dən çox belə qurğu quraşdırılmışdır. Amma sonra bəzi məlumatlara görə, bunların istismar müddətində buraxılmış səhvlər, eyni zamanda, burada nəzarətsizlik nəticəsində bu qurğular ya sıradan çıxmışdır, ya da, onlar öz keyfiyyətini itirmişdir. Bir sözlə, bu məsələ ilə bağlı çox ciddi təhlil aparılmalıdır və mənə məruzə edilməlidir. Ekologiya və Təbii Sərvətlər naziri, bu məsələ ilə bağlı nə deyə bilərsiniz?

Nazir **Muxtar Babayev:** Hörmətli cənab Prezident. Sizin tapşırığınızla 2009-cu ildən başlayaraq 465 modul tipli təmizləyici qurğu quraşdırılmışdır. Bu qurğular uzun müddətdir ki, içməli suyu Kürboyu kəndlərinin istifadəsinə verirdi. 2018-ci ilə qədər bu qurğular Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən istismar edilirdi və onlara nəzarət olunurdu. 2018-ci ildən sonra artıq "Azərsu" tərəfindən istismar olunub. Sizin tapşırığınızla, xüsusən də Neftçalada olan su problemləri ilə bağlı birgə monitorinq aparıldı. Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi və "Azərsu" tərəfindən aparılan monitorinqlərə Prezident Administrasiyanın Dövlət nəzarəti şöbəsinin mütəxəssisləri cəlb olunmuşdu. Monitorinq aparıldı. Cənab Prezident, demək olar ki, əksər modul tipli qurğular işlək vəziyyətdədir və çalışır. Amma onların bəziləri 2009, 2010, 2011, 2012-ci illərə qədər tikilmişdir, onlar daha çox köhnəlib. Onların ya yenisi ilə əvəzlənməsi və ya o yerlərdə su ilə mərkəzləşdirilmiş qaydada təminat daha məqsədəuyğun olar.

Sizin verdiyiniz tapşırığınıza əsasən bu gün monitorinq işləri mütəmadi olaraq aparılır. Bütün Kürboyu bu modul stansiyalarla suyun həm keyfiyyəti, həm də tədarükü yoxlanılır. Buradakı əksər rayonlarda bu işlər hazırda "Azərsu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən aparılır. Bir neçə yerdə, xüsusən də Neftçala rayonunda bu problemlər mövcuddur. Amma Sizin tapşırığınızla orada içməli suyun daşınması mərkəzləşdirilmiş qaydada təmin ediləcəkdir və bu problemlər qismən həll olunacaqdır. Birbaşa Kürdən qidalanan kəndlərdə içməli su ilə bağlı daha bir neçə problem də var. Kür çayında və ondan çıxan kanallarda suyun səviyyəsinin aşağı düşməsi, istər-istəməz modul tipli qurğuların normal davamlı fəaliyyətinə də təsir göstərmişdir. Bir neqativ təsir bundan ibarətdir. Amma inanıram ki,

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti də sırf bu qurğuların və Kürboyu kəndlərin su təminatı üzrə uzunmüddətli proqram hazırlayıb. Həmin qurğuların istismar müddətləri bitdikcə, onlar ya yenisi ilə əvəz olunacaq, ya da orada mərkəzləşdirilmiş formada su verilməsi nəzərdə tutulur. Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Bu məsələ də mütləq komissiya tərəfindən araşdırılsın. Yəni, mənim bu məsələ ilə bağlı imzalayacağım Sərəncama da daxil edilsin. Bunun təşviqi və bundan sonrakı addımlar nədən ibarət olacaq? Çünki bu, çox önəmli bir infrastruktur layihəsi olub və biz mütləq bu modul qurğuları işlək vəziyyətdə saxlamalıyıq. Əlbəttə, dediyinizdə də həqiqət var. Kür çayının səviyyəsinin aşağı düşməsi ilə əlaqədar burada da bəzi problemlər yaranıb. Ona görə geniş təhlil aparılmalıdır və Prezident Administrasiyası bu məsələ ilə bağlı yerlərdən məlumat alıb mənə təqdim etməlidir.

"Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin sədri, artezian quyularının qazılması ilə əlaqədar məlumat verin, neçəsi qazılıbdır və ilin sonuna qədər hansı işlər görüləcək?

**Əhməd Əhmədzadə:** Möhtərəm cənab Prezident, bu il Siz artezian quyularının qazılması limitini bir qədər artırıb əlavə vəsait ayırmısınız. Hər il 300 quyu qazılırdısa, bu il artıq 400 quyu qazılacaq. Goranboy rayonu üçün də 43 quyu ayrıca nəzərdə tutulub – birlikdə 443 quyu. Onların qazılması üçün bayaq ortaya çıxan suallar var idi ki, bunun üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinin verdiyi rəqəmlərlə, ölçülərlə quyuların yeri yerli icra hakimiyyətləri ilə birlikdə müəyyənləşdirilib. Tender sənədləri hazırlanaraq bu işlərə başlanılıb. Artıq 200-ə yaxın quyuda işlər tamamlanıb, elektrik enerjisinə qoşulması məsələsi qalıb. Biz "Azərişıq"dan xahiş etmişik ki, bunları qoşsunlar, istifadəyə verək. Biz ilin axırınadək 443 quyunun hamısını qazıb istismara təhvil verəcəyik. Yəni, bu quyular çox vacibdir. Cənab Prezident, amma respublikada yeraltı suların səviyyəsinin aşağı düşməsi prosesi də gedir. Əvvəllər quyu saniyədə 40 litr su verirdi, indi 25 litr su verir. Köhnə quyuların suyu azalıb və eyni zamanda, enerji sərfiyyatı artıb. Bu il biz quraqlığa görə harada ki, su mənbəyi məlumdur, artezianlar və nasos stansiyaları var, orada tam sutka ərzində əhalini su ilə təmin edirik. Bizim artezian quyular içməli suyu, suvarma suyunu seçmir. Harada nə imkan var, eyni zamanda, mal-qara baxılması üçün su verilib. Sizin su təsərrüfatı ilə bağlı gördüyünüz işlərdən kəndlərdəki camaat da çox razıdır.

Cənab Prezident, indi içməli su ilə bağlı çox söhbətlər getdi. Mən bir mütəxəssis, uzun müddətdir bu sahədə çalışan şəxs kimi demək istəyirəm ki, Bakı şəhərinin su təchizatı məsələsində planlaşmada, ümumiyyətlə, işin aparılmasında müəyyən məsələlər nəzərə alınmayıb. Bakı şəhərinə su daxil olur, hamı deyir ki, içməli sudur. Biz içməli su da veririk. Amma bunun 50 faizdən azı içməli su kimi gedir. Yerdə qalanı texniki su kimi, sənaye müəssislərinə, başqa sahələrə, eyni zamanda, yaşıllıqların suvarılmasına sərf olunur. Sovet dönəmində Bakıya iki cür su girirdi - biri texniki su, biri içməli su. Şollar içməli su, Ceyranbatandan götürülən su isə texniki su idi. Bu məsələyə - Bakının texniki su məsələsinə baxılmalıdır, həm suvarma üçün, həm də sənaye müəssisələri üçün. İndi Sumqayıtın yaxınlığında böyük sənaye kompleksi yaradılıb. Bunların hamısı su ilə işləyir, susuz işləyən sənaye yoxdur. Bu məsələyə baxılmalıdır.

**Prezident İlham Əliyev:** Komissiya baxacaq, bu məsələyə də baxacaq. Elə komissiya ona görə yaradılıb ki, bu məsələyə və bütün başqa məsələlərə baxsın.

Müşavirənin yekunu olaraq, Prezidentin Sərəncamı hazırlanmalıdır. Bütün tapşırıqlar orada yer almalıdır, eyni zamanda, proqram artıq imzalamağa hazır olmalıdır. Hesab edirəm ki, bütün bu işlərdə aidiyyəti qurumlarla yanaşı, ictimaiyyət nümayəndələri də iştirak etməlidir. Komissiya öz işinə ictimaiyyət nümayəndələrini də cəlb etsin. İlk növbədə,

alımlər bu işlərdə fəal rol oynamalıdırlar. Su ehtiyatlarımızın qiymətləndirilməsində və su ehtiyatlarını artırma ehtimalının dəyərləndirilməsində və bütün digər işlərdə alimlər mütləq iştirak etməlidirlər. Bu işlərə Ekologiya üzrə mütəxəssisləri mütləq cəlb edin. Biz sudan elə istifadə etməliyik ki, bunun ekoloji tarazlığa mənfi təsiri olmasın. Çünki biz tarixdən bilirik ki, bəzi ölkələrdə böyük su layihələri icra edilirdi. Amma mənbələr və su ehtiyatları düzgün təhlil edilmirdi. Ona görə indi suvarma üçün bunun yaxşı təsiri olubdur, amma ekoloji vəziyyəti gərginləşdiribdir. Ona görə mütləq ekologiya üzrə mütəxəssislər cəlb edilməlidir. Qeyri-hökumət təşkilatlarını cəlb edin. Vətəndaş cəmiyyəti nümayəndələri də bu işlərdə fəal olsunlar. Sizin bəlkə də görə bilmədiyiniz məsələləri onlar diqqətə çatdıracaqlar. Media nümayəndələrini cəlb edin. Hesab edirəm ki, geniş mətbuat konfransı keçirilməlidir. Ümumiyyətlə, bütün dövlət qurumları mətbuatla çox sıx əlaqədə olmalıdır. Görülmüş işlər haqqında müntəzəm olaraq məlumat verməlidirlər.

Bizim bu müşavirəmiz də bir növ vətəndaşlara verilən hesabatdır. Eyni zamanda, vətəndaşlar bilsinlər ki, biz hansı işləri görməyi planlaşdırırıq, onlardan da təkliflər gözləyirik. Çünki əgər bu müşavirələri biz qapalı şəkildə keçirsək, heç kim bilməyəcək, onda yerlərdən təkliflər gəlməyəcək. Ona görə bu müşavirə də ictimaiyyət üçün açıq olacaq. Yerlərdən təkliflər, əlbəttə, hesab edirəm ki, işimizə kömək göstərəcək.

Təbii ki, bütün bu işlər böyük vəsait tələb edir. Ona görə hökumət və aidiyyəti qurumlar, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, digər qurumlar xərclər smetasına çox dəqiqliklə baxmalıdırlar. Qətiyyən imkan vermək olmaz ki, xərclər süni şəkildə şişirdilsin. Bütün icra ediləcək layihələr açıq tender əsasında görülməlidir. Çünki bəzi hallarda bizdə korporativ maraqlar üstünlük təşkil edir. Elə hallar var ki, bir və ya bir neçə şirkət bütün tenderlərdə qalib gəlir. Əlbəttə, elə layihələr var ki, bunu ancaq təcrübəsi olan və böyük layihələrdə iştirak edən şirkətlər icra edə bilər. Bu, təbiidir. Ancaq bu layihələrlə bağlı bir çox sahələrdə kiçik, orta həcmli, o qədər də böyük peşəkarlıq, kvalifikasiya tələb etməyən layihələr də olacaqdır, kontraktlar da olacaqdır. Ona görə yerli sahibkarlar da hazır olsunlar. Çünki biz doğrudan da böyük infrastruktur layihələrinin icrasını davam etdirəcəyik. Ona görə ictimai nəzarət təmin edilməlidir, smetalara, xərc smetalarına çox ciddi dövlət nəzarəti də olmalıdır.

Əlbəttə ki, bütün bu işləri səmərəli şəkildə davam etdirmək üçün vahid idarəetmə mexanizmi işlənməlidir. Bu tapşırığı da mən verirəm. Bunu da hazırlayın ki, bundan sonra bu işlər ancaq koordinasiyalı şəkildə görülsün - komissiya, aidiyyəti qurumlar. Bu gün su təsərrüfatında fəaliyyət göstərən dörd qurumumuz var - “Azərsu”, “Meliorasiya və Su Təsərrüfatı” Səhmdar Cəmiyyəti, Fövqəladə Hallar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Ona görə bu qurumlar bundan sonra geniş ictimaiyyət, alimlər, ekoloqlar, Prezident Administrasiyası, Nazirlər Kabineti ümumi rəhbərlik etməlidirlər, nəzarət etməlidirlər ki, bütün bu işlər planlı şəkildə həll olunsun, biz yaxın gələcəkdə su təhlükəsizliyimizlə olan problemləri də həll edək. Necə ki, enerji təhlükəsizliyi məsələləri həll olundu, nəqliyyat təhlükəsizliyi məsələləri həll olundu. İndi biz ərzaq təhlükəsizliyi məsələlərinin həllinə yaxınlaşırıq. Su təhlükəsizliyi məsələləri də öz həllini tapmalıdır. Sağ olun.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**104-cü kitab: iyun 2020 - iyul 2020. - Bakı: Azərnəşr, 2020, S. 285-351.**

## BAKININ YASAMAL RAYONUNDA SALINACAQ MEŞƏ TİPLİ YENİ PARKDA GÖRÜLƏCƏK İŞLƏRLƏ TANIŞLIQ

*(4 avqust 2020-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 4-də Bakının Yasamal rayonunda salınacaq meşə tipli yeni parkda görüləcək işlərlə tanış olmuşlar.

Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya meşə tipli yeni parkda yaradılacaq şərait barədə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov məlumat verdi.

**E l d a r Ə z i z o v:** Möhtərəm cənab Prezident! Çox hörmətli Mehriban xanım!

Cənab Prezident, Sizin tapşırığınıza uyğun olaraq, meşə tipli yeni parkın layihəsi hazırlanıb. Layihə Sizə bu gün təqdim olunur. Layihə 4 hektar ərazini əhatə edir. Cənab Prezident, vaxtilə bu ərazi bəzi adamlar tərəfindən zəbt olunmuşdu və onlar bunu hissə-hissə satmaq niyyətində idilər. Siz müdaxilə edəndən sonra bu proses dayandırıldı və bu torpaqlar dövlət fonduna qaytarıldı.

İcazənizlə, ilk növbədə, bu ərazidə yaşayan sakinlərin xahişlərinə əsasən onların adından Sizə dərin minnətdarlığımı bildirirəm.

Möhtərəm cənab Prezident, park şərti olaraq bir neçə zonaya bölünüb. Meşə zonası parkın ərazisinin, demək olar ki, 70 faizini əhatə edir. Bundan əlavə, uşaq meydançası, fitnes və kafe zonaları da vardır. Parka 6 giriş nəzərdə tutulub və əsas girişin qarşısında avtodayanacaq təşkil ediləcək. Burada hansı ağacların, bitkilərin əkilməsi barədə xüsusi proqram hazırlanır və Sizə təqdim olunacaqdır.

Eyni zamanda, parkın ərazisində kiçik memarlıq formalarından istifadə etmək üçün memarlar tərəfindən bəzi təkliflər hazırlanır.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı. Mən buraya bir müddət bundan əvvəl yerüstü keçidin açılışında iştirak etmək üçün gəlmişdim və o vaxt göstəriş verdim ki, burada yerləşən bu binalar əsaslı şəkildə təmir olunsun. Çünki gördüm ki, bu binalar artıq köhnəlib, həmçinin xarici görünüşü heç bir standarta uyğun gəlmir. Binaların içi də çox bərbad vəziyyətdədir. Ona görə binaların kompleks şəkildə təmir edilməsi ilə bağlı müvafiq göstəriş verdim. Eyni zamanda, o vaxt məlumat aldım ki, burada böyük bir sahə var, artıq hasarlanıb, hissələrə bölünüb və satışa çıxarılır.

Məlumat verdilər ki, bu kim tərəfindən zəbt olunub, bunun heç sənədləri də yoxdur. Ona görə dərhal göstəriş verdim ki, bu qanunsuzluqlara yol verənlər müəyyən edilsin, onlar məsuliyyətə cəlb olunsun, bütün hasarlar sökülsün və vətəndaşların sərəncamına gözəl bir park verilsin.

O vaxt şərtlərdən biri də o idi ki, bu parkda insanların asudə vaxtlarını keçirmələri üçün bütün şərait yaradılsın, park təbii olsun. Burada bir çox hündürmərtəbəli binalar var, minlərlə insan yaşayır və şəhər içində sanki kiçik bir meşə yaradılsın. Ona görə burada təbii landşafta maksimum üstünlük verilməlidir. Təbii ki, burada istirahət, fitnes, əyləncə zonaları, oturacaqlar olacaq. Ancaq yaşıllıqlar daha geniş ərazini əhatə etsin, ağaclar əkilsin və insanlar gəlib burada rahat istirahət edə bilsinlər, dincəlsinlər, bunun şəhərimizin ümumi inkişafına böyük töhfəsi olsun. Hesab edirəm ki, layihə də çox yaxşı tərtib olunub və burada daha çox yaşıllıqlara üstünlük verilir. Ona görə artıq bu gündən başlayaraq parkın qurulması ilə bağlı əməli işlər görülməlidir. Sizə təxminən nə qədər vaxt lazım olacaq?

**E l d a r Ə z i z o v:** Möhtərəm cənab Prezident, çalışarıq noyabrın sonuna kimi tamamlayaq.

**İ l h a m Ə l i y e v:** Əgər bu iş ilin sonuna qədər başa çatsa, bu park sakinlər üçün yaxşı Yeni il bayramı hədiyyəsi ola bilər.

* * * *

Yaxınlıqdakı çoxmərtəbəli binanın sakinləri mənzillərinin eyvanlarından dövlət başçısını və xanımını salamladılar.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni parkda görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdilər. Bu layihənin icrası sosial xarakter daşıyır və onun məqsədi paytaxtda aparılan abadlıq-quruculuq işlərinə töhfə verməkdir.

Bundan başqa, layihənin özəlliyini artıran daha bir mühüm məqam ərazidə meşə

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**105-ci kitab: iyul 2020 - sentyabr 2020. - Bakı: Azərnəşr, 2020, S. 90-94.**

## BALAXANI QƏSƏBƏSİNDƏ APARILMIŞ ABADLIQ İŞLƏRİ İLƏ TANIŞLIQ
*(23 sentyabr 2020-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 23-də Bakının Balaxanı qəsəbəsində aparılan abadlıq işləri ilə tanış olublar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Balaxanı qəsəbəsində aparılan abadlıq işləri barədə məlumat verildi.

Bildirildi ki, burada görülən işlər qəsəbənin qədim və XX əsrin əvvəllərinə aid olan hissəsini əhatə edir. Qəsəbədəki tarixi memarlıq abidələrinin bərpası, ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində çox böyük işlər görülüb. Qəsəbədəki Mirzə Ələkbər Sabir adına park da bərpa olunub.

Diqqətə çatdırıldı ki, Balaxanıdakı Şah Səfi karvansarayı 1635-1636-cı illərdə inşa olunub. Bu tarixi abidə yerli əhəng daşı materiallarından tikilib və əhali arasında Xacə Ruhulla imarəti kimi tanınıb.

Qeyd edək ki, Balaxanı Bakının ən qədim yaşayış yerlərindən biridir. XX əsrin əvvəllərindəki neft bumuna qədər Balaxanı Böyük İpək Yolunun üstündə yerləşdiyindən strateji mövqeyə sahib idi. Uzun əsrlər boyu bu yer Çindən İspaniyaya qədər uzanan karvan yolunun əsas məntəqələrindən biri olub.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya qəsəbədəki Hacı Şəhla Məscidi və Şakir ağa türbəsinin bərpası barədə də məlumat verildi. Bildirildi ki, Hacı Şəhla Məscidi XIV əsr memarlıq abidəsidir. Şakir ağa türbəsi Balaxanı abidələrinin ən qiymətlilərindən hesab olunur.

Qəsəbədəki Ovdan XIV əsrdə inşa olunub. Ovdanın mənbəyindən su götürmək üçün 40 pilləkən aşağı enmək lazımdır. Keçmişdə ovdan vasitəsilə Balaxanının içməli suya olan tələbatı ödənilib.

Balaxanının “Qum hamamı” bir-biri ilə əlaqəli 3 hissədən ibarətdir. Bu hamam da qəsəbənin tarixi tikililərindən hesab olunur. Onun inşası XIV əsrə təsadüf edir.

Məlumat verildi ki, Balaxanı qəsəbəsində vaxtilə 18 hamam olub. Demək olar ki, hər məhəllədə hamam inşa edilib və onlar həm adlarına, həm də memarlıq üslubuna görə bir-birindən fərqlənib.

Dövlətimizin başçısı və birinci xanım əncir dərdilər, göyərçinlərə tamaşa etdilər.

Bakının bu qədim qəsəbəsi artıq yeni turizm marşrutu kimi təsdiqlənib. Bu, qəsəbədə yeni sahibkarlıq subyektlərinin, xüsusilə sənətkarlıq, xidmət və ticarət istiqamətlərində biznesin qurulmasını təşviq edəcək. Son zamanlar çoxsaylı internet səhifələrində və sosial media platformalarında Balaxanı qəsəbəsi ilə bağlı yayılan fotolar İtaliyanın məşhur “Si Viaggia” səyahət portalının diqqətini cəlb edib. Portalda “Turistləri və bloggerləri heyran edən Azərbaycan qəsəbəsi” adlı yazı da dərc olunub.

Onu da deyək ki, abadlıq prosesi həm də yerli sakinlər üçün yeni iş yerləri deməkdir. Prosesdə iştirak edənlərin 70 faizi məhz yerli sakinlərdən ibarət olub.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Balaxanı sakinləri ilə görüşdülər.

Sakinləri salamlayan **Prezident İlham Əliyev** dedi:

-Balaxanı kəndinin yeni dövrü başlayır. Mən bu münasibətlə sizi təbrik edirəm. Bilirsiniz ki, Balaxanıya mənim xüsusi diqqətim var. Hələ bir neçə il bundan əvvəl məşhur Balaxanı zibilxanasının təmizlənməsi, aradan qaldırılması artıq burada görülən ekoloji işlərə start verdi. Çünki bu, həm Balaxanı sakinlərinə böyük əziyyət verirdi, həm də əlbəttə

ki, bütövlükdə Bakı şəhərinin sakinlərinə çox mənfi təsir edirdi. O zibilxanadan qalxan tüstülər faktiki olaraq havanı böyük dərəcədə çirkləndirirdi və insanların sağlamlığı üçün də bunun böyük ziyanı olmuşdur. Mən bu yaxınlarda həmin o layihə ilə bağlı televiziyalara müsahibəmdə öz sözlərimi dedim, təkrar etmək istəmirəm, vaxtilə zibilxana olmuş yer indi gözəl bir poliqona çevrilib və iş yerləri yaradılıb. Burada sənaye parkı, zibilyandırma zavodu fəaliyyət göstərir. Eyni zamanda, onun yanında yerləşən Böyükşor gölünün böyük hissəsi də artıq təmizlənib və gölün üzərindən yol da çəkilib. Ona görə indi gediş-gəliş üçün də yaxşı imkanlar yaradılıb.

O ki qaldı, işlərin bu mərhələsinə, o da göz qabağındadır. Bütün işlər böyük məhəbbətlə, zövqlə görülübdür. Həm infrastruktur layihələri, kanalizasiya, insanların rahatlığı üçün yaradılmış şərait, elektrik xətləri, binaların təmiri, dam örtükləri, yollar, küçələr, estetik görünüş - bütün bunlar bir məqsədlə edilir ki, burada yaşayan insanlar özlərini rahat hiss etsinlər, onlar üçün yaxşı şərait yaradılsın. Eyni zamanda, iş yerləri yaradılıbdır. Mənə verilən məlumata görə, burada yaşayan vətəndaşlar işlərə cəlb olunub. Onlar ağaclar, güllər, kollar yetişdirirlər və eyni zamanda, digər yerlərdən də gəlib burada işləyənlər var. Bütövlükdə bu abadlıq işlərində minə yaxın insan işlə təmin edilib.

Bu, işlərin birinci mərhələsidir. Hələ işlər başa çatmayıb. İşlərin böyük hissəsi başa çatıb. Ancaq hələ görüləsi işlər çoxdur və biz bunları da tədricən edəcəyik. Bir daha demək istəyirəm ki, əsas məqsəd Balaxanıda – bizim bu qədim yaşayış yerində, ölkəmizin qədim yaşayış məskənində insanlar rahat yaşasınlar, daha yaxşı yaşasınlar, işlə təmin olunsunlar, ekoloji vəziyyət yaxşı olsun, hava təmiz olsun, su təmiz olsun.

Əlbəttə ki, tarixi abidələrin bərpası və aşkarlanması da məqsədlərdən biri idi. Bu gün mənə göstərilən tarixi abidələrin bəziləri yerin altında idi. O cümlədən "Qum hamamı", digər abidələr, XIV əsrdə inşa edilmiş abidələr, sovet vaxtında tikilmiş abidələr - onlar da bizim milli sərvətimizdir. Bu abidələr bir daha onu göstərir ki, bu kəndin çox qədim tarixi, qədim mədəniyyəti var. Çünki ancaq yüksək mədəniyyətə sahib olan insanlar belə tikililər inşa edə bilərdilər. O cümlədən ovdan, hamam - bu, mədəniyyət deməkdir.

Əlbəttə ki, Balaxanının gələcək inkişafı ilə bağlı fikirlər var. Artıq həm Bakı, həm də digər şəhərlərin sakinləri buraya gəlirlər, istirahət edirlər, gəzirlər, şəkil çəkdirirlər. Mənə verilən məlumata görə, xarici mətbuatda Balaxanı ilə bağlı materiallar dərc edilir. Avropada, Rusiyada televiziya kanallarında, internet saytlarında buraya maraq böyükdür. Əlbəttə ki, turistlərin axını daha böyük olacaq. Bu da qəsəbə sakinləri üçün yeni imkanlar yaradacaqdır. Yaxşı olardı ki, qəsəbə sakinləri turizmlə bağlı məsələlərdə fəal olsunlar və bu imkanlardan istifadə etsinlər, turizm xidmətlərini qonaqlara təqdim edə bilsinlər. İndi inkişaf etmiş bir çox ölkələrin şəhərlərinin kiçik qəsəbələrində belə turizm, tarixi yerlərdə yerli sakinlər bütün ümumi işlərə qoşulurlar, həm pul qazanırlar, həm öz tarixi, mədəniyyəti haqqında məlumat verirlər, eyni zamanda, turistlər üçün də gözəl şərait yaradırlar. Ona görə bu, artıq insanların özlərindən asılı olacaq. Təbii ki, dövlət də lazımi kömək göstərəcək. Burada ictimai iaşə obyektləri, kafelər, çayxanalar turistləri cəlb edə biləcək digər obyektlər zövqlə yaradılsın ki, həyat fəal olsun, insanlar daha yaxşı yaşasınlar və xaricdən gələn qonaqlar bu gözəlliyi görə bilsinlər.

Mən bunu demişəm, siz Balaxanı sakinləri də bunu yaxşı bilirsiniz ki, Balaxanının çox böyük tarixi var. Ancaq bu tarix bir növ kənarda qalmışdı. Çünki burada həm ekoloji vəziyyətin pis olması, yolların bərbad vəziyyəti və digər problemlər imkan vermirdi ki, hətta Azərbaycan vətəndaşları da Balaxanı haqqında dolğun məlumata malik olsunlar. İndi isə Balaxanı, necə deyərlər, dünya mətbuatında özünə yer tapıb və bu, hələ başlanğıcdır. Mən demişdim ki, özüm gəlib baş çəkəcəyəm, görülən işlərlə tanış olacağam. Biz Mehriban

xanımla elə buna görə gəlmişik. İşlərin böyük hissəsi artıq görülüb. Görüləcək işlər Balaxanının inkişafına daha da böyük təkan verəcəkdir. Sizi bir daha təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident.

**Əlihəsən Vəliyev:** Cənab Prezident, hörmətli Mehriban xanım, qəsəbəmizə göstərdiyiniz qayğıya görə bir ağsaqqal kimi, sakinlərimiz adından Sizə dərin minnətdarlığımızı bildiririk. Sağ olun, var olun.

**Prezident İlham Əliyev**: Sağ olun.

**Birinci xanım Mehriban Əliyeva:** Çox sağ olun. Burada istedadlı rəssamlar var. Siz rəssamsınız?

**Emin Ələkbərov**: Bəli.

**Birinci xanım Mehriban Əliyeva:** Çox gözəl. Bəzi əl işlərinizə baxdım, çox gözəldir, böyük zövqlə yaradılıb.

**Emin Ələkbərov:** Çalışmışıq ki, bacardığımızı edək. Yerli sakin olaraq çoxdankı arzularımızı həyata keçirdik, çalışdıq ki, öz potensialımızı göstərək.

**Prezident İlham Əliyev:** Biz də o şəkillərin önündə şəkil çəkdirdik.

**Emin Ələkbərov:** Təşəkkür edirik, Sizinlə qürur duyuruq. Mən Balaxanıda olan bütün sənətkarlar, elm adamları, ziyalılar, incəsənət, mədəniyyət xadimləri adından Sizə təşəkkürümü bildirirəm ki, bu cür gözəllikləri yaratmaqda bizə dəstək olmusunuz. Bir daha təşəkkür edirəm.

**Prezident İlham Əliyev**: Əlbəttə ki, bizim planlarımızda digər qəsəbələrdə görüləcək işlər var, artıq müvafiq göstərişlər verilib. İlkin mərhələdə təqribən 7-8 qəsəbədə buna oxşar layihələr icra ediləcək. Ancaq əlbəttə ki, bunun yüz faiz surəti olmayacaq. Hər bir qəsəbənin özünəməxsus memarlıq üslubu var, tarixi var, tarixi görünüşü var. Ona görə hər bir qəsəbədə aparılan abadlıq işləri gərək yerli sakinlərlə də müzakirə olunsun. İlk növbədə, sakinləri narahat edən problemlər, necə ki, burada infrastruktur – kanalizasiya, dam örtükləri, binaların təmiri, elektrik xətləri, insanların gündəlik qarşılaşdığı digər məsələlər həll olunur. Eyni zamanda, təmir-bərpa işləri də mütləq yerli sakinlərin iştirakı və ağsaqqalların tövsiyəsi ilə aparılmalıdır. Çünki ağsaqqallar bu kəndlərin tarixini yaşadırlar, o tarixin canlı şahidləridir. Eyni zamanda, gənc nəsil də buna qoşulur ki, hər bir kəndin özünəxas görüntüsü olsun.

**Vüsalə Səlimova:** Çox sağ olun, cənab Prezident. Balaxanı kəndi dünya mətbuatında neftlə tanınırdı. Bundan sonra isə dünya mətbuatında bu gün Sizin köməyiniz, diqqətiniz nəticəsində aparılan bu gözəl abadlıq işləri ilə, məhz bu gözəlliklərlə tanınacaq. Buna görə də Sizə Balaxanı camaatı adından təşəkkürümüzü bildiririk.

**Elçin Rikabov:** Şahidi olduğumuz bütün bu gözəlliklərə görə mən də bir Balaxanı sakini kimi Sizə dərin təşəkkürümü bildirirəm.

**Prezident İlham Əliyev:** Balaxanının mer-meyvəsi də gözəldir. Əncirdən dərdik, dadına baxdıq.

**Birinci xanım Mehriban Əliyeva:** Mənim yadıma düşdü, uşaq olanda Pirşağıda bizim bağımız var idi. Əncir tam o əncirdəndir, yaşıl, amma şirin.

**Prezident İlham Əliyev:** Mən dedim, o meyvələri də gərək qoruyasınız. Abşeronun üzüm növləri – "Şanı", "Ağ şanı", "Qara şanı" - indi bunlar azalıb, bəzi hallarda yoxa çıxıb. Amma onlar bal kimi şirin idi, özü də salxımlar qumun üstünə sallanırdı. Gərək biz o növləri unutmayaq, itirməyək. Onlar Abşerona xas olan gözəl nemətlərdir. Ona görə bu da nəzərə alınmalıdır.

**Emin Ələkbərov:** Çalışırıq bütün bu deyilənləri yerinə yetirək. Sözsüz ki, burada olan sənətkarlar milli dəyərlərimizi, köklərimizi yaşatmalıdırlar. Siz bizim keramika nümunələrimizi gördünüz. Bizim xalçaçılıq müəssisələrimiz var, burada gənc nəsil iş yerləri

ilə təmin olunur. Yəni, gənc nəsil açılan bu yerlərdə artıq öz potensialını tətbiq edir və sözsüz ki, onlardan bəhrələnir.

**Prezident İlham Əliyev:** Elədir. Mən dəfələrlə demişəm, hələ Prezident kimi fəaliyyətə başlayanda ilk aylarda bunu demişdim ki, "qara qızılı" insan kapitalına çevirməliyik. Bax, budur, "qara qızıl" insan kapitalıdır. İnsanların rifah halı, sağlamlığı, rahatlığı, təhlükəsizliyi üçün biz neftdən gələn gəlirlərdən istifadə etdik. Deyə bilərəm ki, bu gün biz neftlə zəngin ölkələr sırasında bu siyasətə görə dünya miqyasında qabaqcıl yerlərdəyik. Aparıcı beynəlxalq maliyyə qurumları da qeyd edirlər ki, Azərbaycanda neft insanların rifah halının yaxşılaşmasına xidmət göstərir. Çünki indi yoxsulluğun, işsizliyin azaldılması bunun bariz nümunəsidir. Neftlə zəngin olan ölkələrdə bəzi hallarda işsizlik baş alıb gedir. Səfalət, sosial ədalətsizlik və digər problemlər o ölkələrin cəmiyyətlərində ciddi hal alır. Amma Azərbaycanda neft insanların rifahına, ölkəmizin inkişafına xidmət göstərir.

Balaxanı və Bibiheybət dünyanın ən qədim neft mərkəzidir. Dünyada neft hasilatı buradan başlayıb. İndi Bibiheybət qəsəbəsində də oxşar layihə icra edilir. Biz orada, ilk növbədə, Bibiheybət buxtasını təmizlədik. Yadınızdadır nə gündə idi? Adam baxanda dəhşətə gəlirdi - qapqara, bütün torpaq qara, dəniz qara, o buruqlar, o dirəklər hamısı qara və elə bil ki, ekoloji fəlakət zonası idi. Amma indi orada park salınıb. Biz Avropa Oyunlarının bəzi yarışlarını orada keçirdik. İndi marafon oradan başlayır. Orada incəsənət və idman şəhərcikləri, ölkəmizin ən böyük Su İdmanı Sarayı, bulvar yaradılıb. İkinci mərhələdə isə Bibiheybət qəsəbəsinin abadlaşdırılmasıdır. Orada da işlər gedir. Nə yerdərdir işlər?

"Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru **Bünyad Qasımov**: Cənab Prezident, Bibiheybət sözsüz ki, miqyas nöqteyi-nəzərdən buradan balacadır. Qəsəbənin yarısından çox hissəsi artıq abadlaşdırılıb. Hazırda bir küçəmiz qalıb. Orada da kanalizasiya işləri görülüb, bütün elektrik xətləri yerin altına salınıb.

**Prezident İlham Əliyev:** Ora da hazır olanda mənə deyin, gedib baxarıq. Bəli, Balaxanı və Bibiheybət dünyanın ən qədim neft mərkəzləridir. O vaxt Bibiheybətdə mən göstəriş verdim, dedim bütün dünya bilməlidir ki, birinci neft quyusu burada qazılıb. Amma bunu əks etdirən hər hansı bir abidə var, yoxdur? Ona görə təklif etdim ki, orada qədim əşyalardan, tikinti materiallarından abidə kimi neft buruğunun maketi yaradılsın. İndi xaricdən gələn qonaqlar görürlər ki, dünyanın ən qədim neft quyusu harada qazılmışdır, əlbəttə ki, bu yerdə. Mən bu yaxınlarda demişəm, əgər o vaxt Azərbaycan müstəqil olsaydı, əgər o vaxt o neft bizim xalqımıza çatsaydı, bu gün biz dünyanın ən zəngin ölkəsi ola bilərdik. Amma biz müstəqilliyimizi bərpa edəndə Balaxanı, Bibiheybət ekoloji fəlakət şəraitində idi və bizim xalqımıza nə verdi? Bu, artıq ritorik sualdır. Ona görə bu gün biz bu yerləri ekoloji fəlakət zonalarından ekoloji cənnət zonalarına çevirməliyik və bunu edirik.

Ağsaqqal, xahiş edirəm, mənim salamlarımı bütün ağsaqqallara çatdırın. Siz də bütün gənclərə, bütün qadınlara, Balaxanının bütün sakinlərinə salamlarımı çatdırın. Bir daha demək istəyirəm, şadam ki, bu işlər artıq başa çatmaq üzrədir. Sağ olun.

**Elçin Rikabov:** Səmimi qəlbdən Sizə minnətdarıq. Cəmiyyət arasına çıxırıq, balacasından böyüyünədək hamısı deyir ki, Allah Sizə cansağlığı versin. İnanın, hər biri bu sözləri özünə uyğun ləhcədə deyir, rəsmi yox.

**Birinci xanım Mehriban Əliyeva:** Bütün sakinlərə bizim dərin hörmətimizi və salamlarımızı çatdırın. Sağ olun.

**Sakinlər:** Sağ olun, minnətdarıq.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**106-ci kitab: sentyabr 2020 - oktyabr 2020. - Bakı: Azərnəşr, 2021, S. 7-16.**

## YASAMAL RAYONUNDA YENİ SALINMIŞ MEŞƏ TİPLİ PARKIN AÇILIŞI MƏRASİMİ

*(1 fevral 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 1-də paytaxtın Yasamal rayonunda yeni salınmış meşə tipli parkın açılışı mərasimində iştirak etmişlər.

Dövlət başçısı və xanımı parkda yaradılmış şəraitlə tanış oldular.

Dövlət başçısının tapşırığına əsasən salınmış bu parkın ümumi ərazisi 4 hektardır. Vaxtilə bu ərazi bəzi adamlar tərəfindən zəbt olunmuşdu və onlar bunu hissə-hissə satmaq niyyətində idilər. Məhz Prezident İlham Əliyevin müdaxiləsindən sonra bu proses dayandırıldı və bu torpaqlar dövlət fonduna qaytarıldı.

Yeni salınmış parkda yaşıllıq zonası ərazinin 70 faizindən çoxunu əhatə edir. Artıq yeni parkda ətraf ərazi sakinlərinin istirahəti üçün bütün şərait vardır. Yaxınlıqdakı çoxmərtəbəli binanın sakinləri mənzillərinin eyvanlarından dövlət başçısını və xanımını salamladılar.

Yeni istifadəyə verilmiş park şəhərsalma standartlarına və müasir tələblərə uyğun şəkildə qurulub. Ərazi yüksək səviyyəli infrastruktur əsasında abadlaşdırılıb. Park həm də şəhərin sosial-ekoloji vəziyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətlidir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**109-cu kitab: dekabr 2020 - fevral 2021. - Bakı: Azərnəşr, 2021, S. 306.**

## ZƏNGİLAN RAYONUNUN BƏSİTÇAY DÖVLƏT TƏBİƏT QORUĞUNUN ƏRAZİSİNDƏ ÇİNARƏKMƏ MƏRASİMİ

*(14 fevral 2021-ci il)*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva fevralın 14-də Zəngilan rayonunda Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisinə gəlmişlər. Erməni qəsbkarlar işğal altında saxladıqları dövrdə digər ərazilərdə olduğu kimi, Bəsitçay qoruğunda da ekoloji terror törədiblər. Mənfur düşmən qoruğun meşəlik ərazisinin, demək olar ki, yarısını məhv edib, ağacların kökünü, oduncağını yandırıbdır. Burada illərlə formalaşmış təbii ekosistemin tarazlığına erməni vandalizmi nəticəsində ciddi zərbə vurulubdur.*

*Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Bəsitçay qoruğunda çinar ağacları əkdilər. Sonra dövlət başçısı, xanımı və qızı Bəsitçaya balıq buraxdılar.*

**İ l h a m Ə l i y e v:** Bəsitçay Dövlət Təbiət Qoruğunda çinar ağacları əkdik. Bəsitçay qoruğu 1974-cü ildə ulu öndər Heydər Əliyevin tapşırığı ilə yaradılmışdır. Burada 100 hektardan çox sahədə nadir çinar ağacları dövlət tərəfindən qorunurdu. Bu, nadir çinar ağacları meşəsi idi. İşğaldan sonra mənfur düşmən çinarların böyük hissəsini kəsib, doğrayıb, talayıb və yandırıbdır. Bu, erməni vandalizminin növbəti əlamətidir. Bu gün Bəsitçay Dövlət Təbiət Qoruğunun bərpasına start verildi.

Biz bu qoruğu bərpa edəcəyik. Əlbəttə, burada kəsilmiş ağacların yaşı təqribən 200–300 ilə bərabər idi. Ancaq hər halda, öz borcumuzu yerinə yetirdik. Eyni zamanda, Bəsitçaya balıqlar da buraxdıq. Bəsitçay çox gözəl çaydır. Ümumiyyətlə, bu bölgə çaylarla zəngindir. Tərtər çayı, Xaçınçay, Bəsitçay, Bazarçay, Həkəri çayı və digər çaylar bundan sonra Azərbaycan xalqına xidmət edəcək. Mənfur düşmən işğal dövründə Tərtərçayın da suyunun qabağını kəsmişdi və bir neçə rayonumuzda 100 min hektardan çox torpaq susuz qalmışdı. Bizə qarşı ekoloji terror törədilmişdir.

* * * *

*Sonra dövlət başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Cəbrayıl rayonunun Soltanlı kəndinə yola düşdülər.*

**İ l h a m Ə l i y e v:** Tapşırıq verilib tədbirlər görülsün ki, bu günə qədər suvarılmayan 100 min hektar torpaq sahələrinə su verilsin. Beləliklə, 6-7 rayonun kənd təsərrüfatı sahəsi daha sürətlə inkişaf edəcək, məhsuldarlıq artacaq, fermerlər, kəndlilər daha çox pul qazanacaqlar. Evləri də, təbiəti də bərpa edəcəyik. Eyni zamanda, göstəriş vermişdim ki, vaxt itirmədən payızlıq əkin də aparılsın. Biz qısa müddət ərzində bütün imkanlarımızı, texnikanı, işçi qüvvəsini səfərbər etdik və 7000 hektarda əkin işləri aparıldı.

O əkin sahələrinə də baxacağam. Builki mövsümdə təqribən 20–25 min hektarda əkin işləri aparılacaq. Yəni vaxt itirmədən kənd təsərrüfatını dirçəldəcəyik. Azad edilmiş torpaqların kənd təsərrüfatı potensialı çox böyükdür. İşğalçılar bizim torpağımızdan da istifadə edib qanunsuz gəlir əldə edirdilər. İşğal dövründə ən azı 90 min hektarda taxıl əkilmişdi. Buna da son qoyuldu. Azad edilmiş torpaqlarda bitkiçilik, meyvəçilik, heyvandarlıq sürətlə inkişaf edəcəkdir.

* * * *

*Sonra Cəbrayıl rayonunun Soltanlı kəndinin ərazisinə gələn Prezident İlham Əliyevə işğaldan azad olunmuş torpaqlarda əkinlərlə bağlı görülmüş işlər barədə məlumat verildi.*

*Bildirildi ki, hazırda əkin sahələrinin monitorinqi davam etdirilir. Əlavə əkin sahələri müəyyən olunduqca yenilənmiş təkliflər verilir.*

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 110-cu kitab: fevral 2021 - mart 2021. - Bakı: Azərnəşr, 2021, S. 75-77.**

## ORDUBAD SU-ELEKTRİK STANSİYASININ TİKİNTİSİ İLƏ TANIŞLIQ

*(10 may 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ordubad Su-Elektrik Stansiyasının tikintisi ilə tanış olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlət başçısına layihə ilə bağlı görülmüş işlər barədə məlumat verdi.

Bildirildi ki, son illərdə yeni elektrik stansiyalarının tikilib istifadəyə verilməsi Naxçıvanın etibarlı enerji təminatına imkan yaradıb. Bunun nəticəsidir ki, muxtar respublikada enerji təhlükəsizliyi tam təmin edilib, 22 bir zamanlar yalnız idxal hesabına elektrik enerjisinə olan tələbatını ödəyən Naxçıvanda daxili istehsal hesabına ixrac potensialı yaranıb, bütün yaşayış məntəqələri fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təchiz edilibdir. Araz çayı üzərində tikilən Ordubad Su-Elektrik Stansiyasının gücü 36 meqavatdır. Stansiya üçün tutumu 1,5 milyon kubmetr olan su anbarı inşa olunub. Hidroqovşağın əsas qurğularının tərkibinə elektrik stansiyası, tənzimləyici bənd, suqəbuledici qurğu, çökdürmə və yükləmə hovuzları, derivasiya kanalı daxildir. Bəndin uzunluğu 235, hündürlüyü 12 metrdir. Derivasiya kanalının bir hissəsində işlər artıq tamamlanıb. Tənzimləyici bənddə isə ümumi işlərin 80 faizi yekunlaşıb. Su-elektrik stansiyasında ortaillik elektrik enerjisi istehsalı 190 milyon kilovat-saat nəzərdə tutulur.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**112-ci kitab: may 2021 - iyun 2021. - Bakı: Azərnəşr, 2021, S. 21-222.**

# PREZİDENT İLHAM ƏLİYEV AĞDAM ŞƏHƏR MEŞƏ-PARKINDA AĞAC ƏKİB

*(28 may 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdam şəhər meşə-parkında dağdağan ağaclarının əkilməsi mərasimində iştirak edib.

"Ağ şəhər" layihəsinin icraçı direktoru Ruslan Sadıqov dövlətimizin başçısına burada salınacaq meşə-park barədə məlumat verdi.

Bildirildi ki, burada ilkin olaraq şəhər sakinləri və qonaqları üçün 125 hektarlıq böyük meşə parkı salınacaq. Bərpa olunacaq Ağdam kanalı şəhərin içindən keçəcək və onun suyu burada yaradılacaq gölə töküləcək.

**Prezident İlham Əliyev:** Hansı tərəfdən? Ruslan Sadıqov: Bu göldür, bu isə kanaldır, hansı ki, bayraq qoymuşuq, o kanalın səviyyəsidir. Bu göl onun ətrafında olacaq və sonra kanal öz yoluna davam edəcək. Ətraf ərazilər abadlaşdırılacaq və burada gözəl meşə-park yaradılacaq. Parkda sakinlər və turistlər üçün gözəl istirahət guşələri təşkil olunacaq.

**Prezident İlham Əliyev:** Çox gözəl, yəni, şəhərə giriş böyük meşə massividir.

**Ruslan Sadıqov:** Bəli, böyük meşə massividir. Məlum olduğu kimi, erməni işğalçılar burada meşələrin, yaşıllıqların hamısını qırıblar. Deməк olar ki, heç bir yaşıllıq qalmayıb. Ona görə də burada Ekologiya və Təbii Sərvətlər Nazirliyi, IDEA İctimai Birliyi ilkin olaraq bu təşəbbüslə çıxış ediblər və əkinə də başlayıblar. Bu, dağdağan ağacıdır. O Azərbaycanın simvolik ağacıdır.

**Prezident İlham Əliyev:** Simvoludur. Ruslan Sadıqov: Ağdamda bu ağaclar bizi gözləyirdilər. Ona görə şərəf olardı ki, Siz ağacın birini əkəsiniz.

* * * *

Prezident İlham Əliyev ərazidə dağdağan ağacı əkdi.

**AZƏRTAC**
**2021, 28 may**

## AŞAĞI KÖNDƏLƏNÇAY SU ANBARINA BAXIŞ

*(14 iyun 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva iyunun 14-də Füzuli rayonundakı Aşağı Köndələnçay su anbarında olmuşlar.

Dövlət başçısına su anbarının texniki göstəriciləri barədə məlumat verildi.

Bildirildi ki, ümumi tutumu 9,5 milyon kubmetr olan bu su mənbəyi 6200 hektar sahəni suvarmağa imkan verirdi. 1993-cü ildə Füzuli rayonu erməni qəsbkarları tərəfindən işğal edildikdən sonra su anbarının Azərbaycan tərəfindən istismarı qeyri-mümkün oldu. İşğal zamanı torpaqlarımızda ekoloji terror törədən ermənilər təsərrüfat işlərində suya ciddi ehtiyac olduğu mövsümlərdə suyun qarşısını kəsir, daşqınlar zamanı, yaxud suya ehtiyac olmayan vaxtlarda isə anbarlardan suyu buraxaraq, ciddi problemlər yaradırdılar.

**İ l h a m Ə l i y e v:** Bura Köndələnçay su anbarıdır. Uzun illər düşmənin əlində idi. Uzun illər biz bu sudan məhrum idik. İkinci Qarabağ müharibəsindən sonra artıq bizim əlimizdədir və bundan sonra Azərbaycan xalqının maraqlarına xidmət edəcəkdir. Bu su anbarı ulu öndər Heydər Əliyevin göstərişi və təşəbbüsü ilə keçən əsrin 80-ci illərinin əvvəllərində inşa edilmişdir. Bunun əsas məqsədi Füzuli rayonunda kənd təsərrüfatının inkişafı idi və minlərlə hektar torpaq bu anbar vasitəsilə suvarılırdı. Vətən müharibəsindən sonra həm Suqovuşan su anbarı, həm də Köndələnçay su anbarı bizim əlimizdədir. Artıq bu anbarların gələcək istismarı ilə bağlı müvafiq göstərişlər verilibdir.

Azad edilmiş bütün torpaqların su mənbələrinin xəritəsi hazırlanır. Bizim bütün su ehtiyatlarımız, çaylarımız, göllərimiz, su anbarlarımız indi bizim əlimizdədir. Bu sudan səmərəli şəkildə istifadə etmək üçün yeni kanalların çəkilməsi və köhnə kanalların bərpası məqsədilə artıq vəsait də ayrılıb, müvafiq göstərişlər verilib və geniş proqram icra edilməyə başlanılıbdır.

Köndələnçay su anbarına mən bir müddət bundan əvvəl bir heyət göndərmişdim. Bu anbarın vəziyyəti araşdırıldı və həyat bu bölgəyə qayıdandan sonra, əlbəttə ki, biz bu sudan istifadə edəcəyik. İşğal dövründə 276 mənfur düşmən bizi sudan məhrum etmişdi. Sərsəng su anbarı, Suqovuşan su anbarı düşmənin əlində olduğuna görə 100 min hektar torpaq susuz qalmışdı və bir neçə rayonda su təminatını yaxşılaşdırmaq üçün yüzlərlə subartezian quyusu qazılmışdır. Ağdam, Tərtər, Bərdə, Yevlax, Goranboy və digər rayonlar Tərtərçayın suyun-dan məhrum edilmişdi. Mənə bu yaxınlarda verilən məlumata görə, Vətən müharibəsindən sonra 30 min hektardan çox sahəyə Suqovuşan su anbarından su verilməyə başlanmışdır. Eyni zamanda, Ağdam rayonunda Xaçınçay su anbarı da bizim nəzarətimiz-dədir, o su anbarı bu su anbarından həcm baxımından daha böyükdür. Bir daha demək istəyirəm ki, bizim bütün su ehtiyatlarımız araşdırılır, təhlil edilir və gələcəkdə bizə böyük üstünlük verəcəkdir. Biz doğma torpaqlarımıza qayıtmışıq, Füzuliyə qayıtmışıq, Köndələnçay su anbarı bizim əlimizdədir və əbədi bizim əlimizdə olacaqdır.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**112-ci kitab: may 2021 - iyun 2021. - Bakı: Azərnəşr, 2021, S. 274-276.**

## PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA BAKIDA YENİ YARADILAN "GƏNCLİK" PARKININ AÇILIŞINDA İŞTİRAK EDİBLƏR

*(26 avqust 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 26-da Bakının Xətai rayonu ərazisində yeni yaradılan "Gənclik" parkının açılışında iştirak ediblər.

Prezidentin köməkçisi Anar Ələkbərov burada yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi. Bir zamanlar baxımsız ərazi olan bu yerin indi həmin görkəmindən əsər-əlamət qalmayıb. Paytaxtın Xətai rayonunda yerləşən ərazi yenidən qurularaq Azərbaycanın meşə tipli füsunkar parklarından birinə çevrilib.

Hələ 2019-cu il noyabrın 11-də "Gənclik" parkı yeni salınarkən Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak edən dövlətimizin başçısı parkın abadlaşdırılması, təbii mənzərəsinin qorunub saxlanılması, burada əyləncə və idmanla məşğul olmaq üçün şəraitlə yanaşı, iaşə obyektlərinin qurulması, insanların asudə vaxtlarının səmərəli təşkili məqsədilə zəruri infrastrukturun yaradılmasına dair tapşırıqlar vermişdi. Üzərindən qısa zaman keçməsinə baxmayaraq, tapşırıqlar tam şəkildə icra olunub və nəticədə yeni istirahət mərkəzi paytaxtın ən gözəl məkanlarından birinə çevrilib.

Parkda şəhər sakinlərinin və qonaqların istirahəti üçün müxtəlif infrastruktur yaradılıb. Buraya üz tutanlar həm yay, həm də qış aylarında paytaxt Bakının, o cümlədən Xəzər dənizinin əsrarəngiz mənzərəsini də seyr edə bilərlər.

Gənclik parkı 43 hektar ərazini əhatə edir. Burada 300 minədək ağac və kol var. Həmçinin parkın ərazisində yaşıllıqlar salınıb. Bir sözlə, sakinlər və qonaqlar parkda asudə vaxtlarını səmərəli keçirə biləcəklər.

Yeni istirahət məkanında həm uşaqlar, həm də böyüklər üçün idman və əyləncə sahələri yaradılıb, attraksion quraşdırılıb. Həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən fiziki məhdudiyyətli şəxslər üçün idman və əyləncə sahəsi yaradılıb.

"Gənclik parkı"nın tərtibatı zamanı hər bir detal xüsusi zövqlə hazırlanıb. Burada təqdim olunan "Ürəklər" kompozisiyası paytaxtımıza, təbiətimizə, insanlarımıza olan sevgini tərənnüm edir.

Burada bağlı və açıq futbol meydançaları inşa olunub. Parkda ziyarətçilər üçün piknik məntəqələri də var. Qaçış üçün cığırlar, eləcə də velosiped yolları parkın idmansevərlərin də ən çox üz tutduqları məkana çevriləcəyindən xəbər verir.

Park ərazisinin genişliyi nəzərə alınaraq istirahət edən şəxslərin rahatlığı üçün müvafiq məlumatlandırıcı və istiqamətləndirici lövhələr quraşdırılıb. Ərazinin ən görməli yerlərindən biri də parkda yaradılan göldür.

Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi diqqət yetirir. Fond ölkəmizdə yeni yaşıllıqların salınması və mövcud ya-şıllıq sahələrinin qorunması üzrə layihələr icra edir. Bu sahədə Fondun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə ekoloji durumun daha da yaxşılaşdırılması, yeni yaşıllıqların salınması məqsədilə icra olunan layihələrin də mühüm rolu var.

Beləliklə, "Gənclik" parkı paytaxtda aparılan abadlıq-quruculuq işlərinə mühüm töhfə verməklə ölkənin sosial-ekoloji hədəflərinin reallaşdırılmasının davamlı xarakter aldığını bir daha təsdiqləyir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 113-cü kitab: iyun 2021 - avqust 2021. - Bakı: Azərnəşr, 2021, S. 277-279.**

**TƏRTƏRDƏ "SUQOVUŞAN-1" VƏ "SUQOVUŞAN-2" KİÇİK SU ELEKTRİK STANSİYALARININ YENİDƏNQURMADAN SONRA AÇILIŞI OLUB**

*(3 oktyabr 2021-ci il)*

Oktyabrın 3-də Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısına "Suqovuşan-1" stansiyasında görülən işlər barədə məlumat verdi. Bildirildi ki, "Suqovuşan-1" Kiçik Su Elektrik Stansiyasında ildə 13,8 milyon kVt/saat elektrik enerjisi istehsal olunacaq. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 2020-ci ilin oktyabrın 3-də işğaldan azad etdiyi Tərtər rayonunun Suqovuşan qəsəbəsindəki "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik Stansiyalarının ümumi gücü 7,8 meqavatdır. Erməni qəsbkarları döyüşlər zamanı 4,8 meqavat gücündə "Suqovuşan-1" və 3 meqavat gücündə "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yararlı ehtiyat hissələrini söküb daşıyıb, apara bilmədiklərini isə dağıdıblar. Həmçinin döyüşlər zamanı bu elektrik stansiyalarına ciddi ziyan dəyib və nəticədə onlar tamamilə yararsız vəziyyətə düşüb.

Prezident İlham Əliyev "Suqovuşan-2" Kiçik Su Elektrik Stansiyası ilə də tanış oldu.

Diqqətə çatdırılıb ki, hər iki stansiya əsaslı şəkildə yenidən qurulub, o cümlədən onların idarəetmə mərkəzinin binaları və avadanlıqları, stansiyalararası elektrik veriliş xətti tam yenilənib. "Suqovuşan-2" stansiyasında ildə 8,7 milyon kVt/saat elektrik enerjisinin istehsal olunması nəzərdə tutulub.

Dövlətimizin başçısı stansiyaları işə saldı. Qeyd edək ki, "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyaları işğaldan azad olunmuş ərazilərin, xüsusilə Suqovuşan və Talış qəsəbələrinin elektrik enerjisi ilə təmin olunmasında mühüm rol oynayacaq. Həmçinin burada istehsal olunan elektrik enerjisi paylayıcı şəbəkənin yeni çəkilən xətləri vasitəsilə digər istiqamətlərə də ötürüləcək.

Sonra Prezident İlham Əliyev Suqovuşan su anbarında görülən işlərlə tanış oldu.

**AZƏRTAC**
**2021, 4 oktyabr**

## BAKI ZOOLOJİ PARKININ YENİDƏN QURULMADAN SONRA AÇILIŞI MƏRASİMİ
*(7 oktyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva oktyabrın 7-də Bakı Zooloji parkının yenidən qurulmadan sonra açılışı mərasimində iştirak etmişlər.

Bakı Zooloji Parkı IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yenidən qurulub.

Xatırladaq ki, vaxtilə Bakıda ilk dəfə Heyvanat Parkı adlandırılan zoopark 1928-ci ildə Xətai rayonundakı Nizami parkının ərazisində açılıb. 1958-ci ildə isə Bayıl ərazisində yeni Heyvanat Parkı fəaliyyətə başlayıb. 1985-ci ildə torpaq sürüşməsindən sonra Zoopark Bayıldan indiki ərazisinə köçürülüb. Əvvəllər ərazinin təmirsiz olması ilə yanaşı, heyvanların saxlanıldığı yerlər də yararsız vəziyyətdə olub.

IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə burada genişmiqyaslı yenidənqurma işləri aparılıb. Təxminən 4 il davam edən əsaslı yenidənqurma işləri nəticəsində Bakı Zooloji Parkı ən müasir səviyyəyə çatdırılıb.

Prezident İlham Əliyevin ölkəmizin inkişafı ilə bağlı müəyyən etdiyi strategiyada Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində görülən işlərin miqyası ilbəil daha da artır. Son illərdə Bakıda sakinlərin və şəhərimizə gələn qonaqların rahatlığına xidmət edən çoxlu müasir sosial infrastruktur layihələri icra edilib, yeni park və xiyabanlar, istirahət guşələri yaradılıb. Şəhər həyatının müxtəlif layihələrlə zənginləşdirilməsi sırasında IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yenidən qurulan Bakı Zooloji Parkının xüsusi yeri var. Ümumilikdə, IDEA İctimai Birliyi paytaxtla yanaşı, bölgələrdə də ətraf mühitin mühafizəsi və ekoloji problemlərin həlli istiqamətində çox mühüm layihələr icra edib. Bakı Zooloji Parkı dünyada mövcud olan müasir zooparklar səviyyəsində yaradılıb. Təbii ki, bu layihə postpandemiya dövründə yenidən Bakıya səfər edəcək turistlərin ən çox üz tutacaqları məkanlardan biri olacaq. Yenidənqurmadan sonra Zooloji Parkın kompleksi ziyarətçilər üçün rahat və maraqlı məkana çevrilib, ümumi ərazisi demək olar ki, iki dəfə artırılaraq 4.25 hektara çatdırılıb.

Yenidənqurma işləri zamanı ərazidə mövcud olan ağac və kolların tam qorunub saxlanmasına xüsusi diqqət yetirilib. Ümumiyyətlə, abadlaşdırılan və yaşıllıq sahəsi artırılan zooparkda daha təbii mühit yaradılıb. Digər yeniliklər və müxtəlif əyləncə obyektləri ilə yanaşı, ərazidə uşaq meydançası, lektoriya və elektron bələdçi sistemi var. Zoopark hamının, o cümlədən fiziki qüsurlu şəxslərin, bütün yaş qruplarından olan ziyarətçilərin istirahət edə və maariflənə biləcəyi məkana çevrilib. Əsaslı yenidənqurma işləri nəticəsində zooparkın sakinləri üçün daha rahat volyerlər, akvaterrarium, kontakt zooparkı, süni göl və hovuzlar, baytarlıq klinikası inşa edilib. Heyvanların saxlandığı volyerlər hər növün özünəməxsus ehtiyacları nəzərə alınaraq hazırlanıb və sahəsi kifayət qədər genişləndirilib.

Bakı Zooloji parkının yalnız görünüşü deyil, həm də məram və yanaşmasının yeni olduğu xüsusi qeyd edilməlidir. Zooparkın əsas məqsədi insanlar üçün canlı aləm, xüsusən də Azərbaycanın nadir faunası haqqında məlumat əldə edə biləcəkləri tədris, tədqiqat və konservasiya mərkəzinə çevrilməsindən ibarətdir. Bu xüsusda, Azərbaycanın "Qırmızı kitab"ına daxil olan növlərin təbii populyasiyası və reintroduksiyası baxımından, burada heyvanların artırılması üçün münbit şərait yaradılıb. Hazırda zooparkdakı heyvan növlərinin ümumi sayı 125, "Qırmızı kitab"a düşən növlərin sayı isə 22-dir.

Qeyd edək ki, zooparklar yalnız əyləncə məkanı deyil, həm də elmi-maarifçilik müəssisəsi funksiyasını yerinə yetirir. Ümumiyyətlə, zooparkın fəaliyyət istiqamətlərinə ətraf mühitin, o cümlədən nadir və nəsli kəsilməkdə olan növlərin mühafizəsi, çoxaldılması üzrə işlərin həyata keçirilməsi, heyvanların müvafiq tələblərə uyğun saxlanılması üçün şəraitin yaxşılaşdırılmasına yönəlmiş tədqiqat işlərinin aparılması, canlı aləm və biomüxtəlifliyin qorunması sahələrində insanların məlumatlandırılması daxildir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**114-cü kitab: avqust 2021 - oktyabr 2021. - Bakı: Azərnəşr, 2021, S. 308-310.**

## CIDIR DÜZÜNDƏ AĞACƏKMƏ AKSİYASIİNDA İŞTİRAK

*(7 noyabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 7-də xalqımızı möhtəşəm Qələbəyə aparan 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi aksiyası çərçivəsində Cıdır düzündə ağac əkmişlər. İşğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində görülən tədbirlər Topxana meşəsini də əhatə edir. Heydər Əliyev Fondunun layihəsiçərçivəsində «Regional İnkişaf» ictimai Birliyinin könüllüləri tərəfindən Topxana meşəsində də ağacəkmə aksiyası keçirildi.

Topxana meşəsi Şuşanın qədim tarixə malik nadir sərvətlərindəndir. Şuşa rayonu ərazisindəki torpaqların 20 faizini əhatə edən bu meşə vaxtilə təbiət möcüzəsini xatırladırdı. Burada yaşı bilinməyən müxtəlif növ ağaclar vardı. Lakin ermənilər işğal dövründə təbii sərvətlərimizi talayıb, meşələrimizi də qırıblar.

1988-ci ilin noyabrında başlanmış ekoloji terror nəticəsində 30 ilə yaxın işğal müddətində Topxanada minlərlə qiymətli ağac kəsilərək məhv edilibdir. Bu gün qədim Şuşanın Topxana meşəsini də əhatə edən ağac- əkmə kampaniyası zamanı 3 hektar ərazidə dağdağan, göyrüş, saqqızağacı, qarağac əkildi, əraziyə 100 kiloqram palıd toxumu səpildi.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**115-cü kitab: oktyabr 2021 - noyabr 2021. - Bakı: Azərnəşr, 2022.- S. 280.**

## NİZAMİ GƏNCƏVİ ADINA MƏDƏNİYYƏT VƏ İSTİRAHƏT PARKINDA ƏSASLI TƏMİR VƏ YENİDƏN QURULMADAN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*(30 dekabr 2021-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Nizami Gəncəvi adına Mədəniyyət və istirahət parkında əsaslı təmir və yenidən qurulmadan sonra yaradılmış şəraitlə tanış olmuşlar.

Bakının Xətai rayonunda 11,2 hektar ərazisi olan parkda paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının səmərəli istirahəti üçün hər cür şərait yaradılıb.

Mövcud park və xiyabanların yenidən qurulması və yenilərinin salınması Bakının müasir görünüşünə və ekoloji vəziyyətinə müsbət təsir edən əsas amillərdəndir. «Nizami ili»nin sonunda dahi mütəfəkkirin adını daşıyan parkın yenidən qurulmadan sonra istifadəyə verilməsi həm də rəmzi olaraq xüsusi məna kəsb edir.

Bir vaxtlar «Luna Park» adı ilə məşhur olan ərazi uzun illər baxımsız qalmışdı. Ətraf ərazilərdə yaşayan sakinlərin sevimli istirahət məkanı olan parkda əsaslı yenidən qurulmaya zərurət yaranmışdı. Bu 241 məsələ Prezident İlham Əliyevin 2021-ci il 19 aprel tarixli Sərəncamı ilə həllini tapdı.

1922-ci ildə salınmış parkın şəhərin estetik görünüşünə uyğunlaşdırılması məqsədilə onun ərazisində yerləşən bir və ikimərtəbəli inzibati binalarda əsaslı təmir və yenidən qurulma işləri həyata keçirilib, süni göl yaradılıb, amfiteatr və 1938-ci ildən mövcud olan yay kinoteatrı yenidən qurulub, iki fəvvarə kompleksi və müasirtipli işıqlandırma sistemi yaradılıbdır. Parkda müasir, müxtəlifölçülü oturacaqlar, idman qurğuları quraşdırılıb, uşaq əyləncə kompleksi yaradılıbdır. Yay kinoteatrının qarşısında çay daşlarından qədim tipli yeni qala divarı tikilib. Parkın ərazisində yaşıllaşdırılma işləri görülüb, minlərlə ağac, kol və dekorativ bəzək bitkiləri əkilibdir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**116-cı kitab: noyabr 2021 - yanvar 2022. - Bakı: Azərnəşr, 2022.- S. 240-241.**

## "XIZI-ABŞERON" KÜLƏK ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİNDƏ İŞTİRAK

*(13 yanvar 2022-ci il)*

Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının yanvarın 13-də Gülüstan sarayında təməlqoyma mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

-Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün Gülüstan sarayında Azərbaycanda inşa ediləcək yeni külək elektrik stansiyasının təməli qoyulur. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu, çox gözəl hadisədir. Bu stansiya Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsinə öz töhfəsini verəcəkdir. Bu stansiyanın yaradılması bir daha onu göstərir ki, bərpaolunan enerji növlərinin istehsalına Azərbaycan dövləti çox böyük önəm verir. Təxminən bir il bundan əvvəl Azərbaycan Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti arasında icra müqaviləsi imzalanmışdır. Faktiki olaraq stansiyanın tikintisi ilə bağlı qərar verilmişdir və son bir il ərzində fəal iş aparılaraq bu gün artıq biz bu gözəl günü birlikdə qeyd edirik. Bu stansiya Azərbaycanda bərpaolunan enerji sektorunda ən böyük elektrik stansiyası olacaqdır. Onun istehsal gücü 240 meqavatdır və təbii ki, dediyim kimi, həm ölkəmizin enerji təhlükəsizliyinə töhfə verəcək, eyni zamanda, çoxlu iş yerlərinin yaradılmasına səbəb olacaq. Həmçinin bizim təbii qaza qənaətimiz ilə bağlı planlarımızda olan məsələlər də öz həllini tapacaq. Təbii ki, ətraf mühitə mənfi təsirin azaldılması istiqamətində bu stansiyanın çox böyük əhəmiyyəti olacaqdır.

Mən şadam ki, bizim bərpaolunan bu böyük enerji layihəsinin icraçısı və investoru qardaş Səudiyyə Ərəbistanının şirkətidir. Bildiyiniz kimi, Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında çox sıx dostluq və qardaşlıq münasibətləri vardır. Biz müstəqillik dövründə bu əlaqələrin inkişaf etdirilməsində fəal çalışmışıq. Mən Səudiyyə Ərəbistanı Krallığına səfərlərimi böyük məmnuniyyətlə xatırlayıram. Kral həzrətləri, Vəliəhd həzrətləri ilə keçirdiyim görüşlər bir daha bizim aramızdakı dostluq və qardaşlığın təzahürüdür. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik. Təbii ki, bütün Azərbaycan xalqı Səudiyyə Ərəbistanının Azərbaycana işğal dövründə göstərdiyi siyasi dəstəkdən xəbərdardır. Səudiyyə Ərəbistanı o nadir ölkələrdəndir ki, erməni işğalına görə Ermənistanla ümumiyyətlə diplomatik əlaqələr qurmamışdır və bu, Azərbaycan xalqına, Azərbaycan dövlətinə göstərilmiş böyük mənəvi dəstəkdir və qardaşlığın əlamətidir. Azərbaycan xalqı bunu yüksək qiymətləndirir.

Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Eyni zamanda, iqtisadiyyatın müxtəlif sahələrində fəal əməkdaşlıq edirik. Pandemiyaya qədər Səudiyyə Ərəbistanından gələn turistlərin sayı ildən-ilə artırdı. Ümid edirəm ki, pandemiya başa çatandan sonra biz yenə də Səudiyyə Ərəbistanının vətəndaşlarını, öz qardaşlarımızı Azərbaycanda görəcəyik.

İqtisadi sahədə çox böyük perspektivlər var. Təbii ki, biz birlikdə energetika sahəsində OPEC+ formatında fəal çalışırıq. Deyə bilərəm ki, OPEC+ formatı yaradılandan bu günə qədər Səudiyyə Ərəbistanı ilə Azərbaycanın əməkdaşlığında xüsusi rol oynamışdır. Bu formatda iştirak edən digər ölkələrlə bərabər biz neftin qiymətinin sabitləşməsinə nail ola bilmişik.

Bu stansiyanın investoru tanınmış və bu sahədə böyük təcrübəsi olan Akvopao şirkətidir. Şirkət haqqında çox danışmaq olar, təkcə onu qeyd etməliyəm ki, bu, enerji sahəsində dünyanın ən böyük şirkətidir. Mənə verilən məlumata görə, şirkət tərəfindən inşa edilmiş stansiyaların enerji istehsalı gücü 42 min meqavatdan çoxdur. Yəni, təsəvvür etmək o qədər də çətin deyil və şadam ki, bu şirkət Azərbaycana da maraq göstərir.

Əlbəttə ki, burada bizim ikitərəfli dövlətlərarası əlaqələrimizin rolu çox böyükdür, eyni zamanda, son illər Azərbaycanda, o cümlədən energetika sahəsində aparılan islahatlar, gözəl investisiya iqlimi, ölkəmizin uğurlu inkişafı, ölkəmizdə mövcud olan sabitlik, əmin-amanlıq, təhlükəsizlik – bütün bu amillər təbii ki, hər bir investor üçün önəmli rol oynayır. Bir də ki, Azərbaycanda xarici investisiyaların qorunması da ən yüksək səviyyədədir. Xarici investorlar yaxşı bilirlər ki, bizim sözümüz imzamız qədər qiymətlidir və dəyərlidir. Bu möhtəşəm Gülüstan sarayında 1994-cü ildə imzalanmış Əsrin müqaviləsi artıq uzun illərdirki icra edilir və o müqavilədə bir söz, hətta bir vergül belə dəyişdirilməyib. Bütün digər müqavilələrə, böyük xarici şirkətlərlə imzalanmış müqavilələrə bizim münasibətimiz buna bənzərdir. Ona görə, Azərbaycana 10 milyardlarla dollar həcmində xarici sərmayə qoyulub. Bu sərmayə qoyuluşu davam edir. Xüsusilə dünyada hökm sürən maliyyə böhranı, eyni zamanda, pandemiya ilə bağlı iqtisadi fəallığın təbii olaraq azalması - bütün bunlar mənfi amillərdir. Amma buna baxmayaraq, qardaş ölkənin şirkəti Azərbaycana böyük həcmdə investisiya qoyuluşuna qərar verib, bu qərarı qəbul edib və bu gün biz Xızı rayonunda inşa ediləcək 240 meqavat gücündə külək elektrik stansiyasının təməlini qoyuruq. Onu da bildirməliyəm ki, Azərbaycan müstəqillik dövründə uzun illər ərzində öz enerji təhlükəsizliyinin təmin edilməsi üçün fəal çalışıb. Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, həm xam neft, həm təbii qaz, neft məhsulları və elektrik enerjisini daxili tələbatı ödəmək üçün tam istehsal edir və eyni zamanda, bu dörd məhsulu dünya bazarlarına ixrac edir. Beləliklə, ölkəmizin enerji təhlükəsizliyi tam təmin edilib və ildən-ilə artan təbii qazın ixracı və elektrik enerjisinin ixracı digər ölkələrin enerji təhlükəsizliyinə də müsbət təsir göstərir. Ancaq onu da bilməliyik ki, ölkə sürətlə inkişaf edir. Keçən ilin yekunlarına görə, bizim neft və qazla bağlı olmayan, yəni qeyri-neft sənayemiz təxminən 20 faiz artıbdır. Ölkə əhalisi artır, tələbat artır. Ona görə təbii ki, biz yeni enerji növlərinin istehsalı ilə ciddi məşğul olmalıyıq. Bərpaolunan enerji növlərinin istehsalı enerji sahəsində bizim gündəliyimizdə duran ən başlıca vəzifələrdən biridir. Onu da bildirməliyəm ki, işğaldan azad edilmiş ərazilərdə, Cəbrayıl rayonunda hazırda böyük günəş elektrik stansiyasının tikintisi ilə bağlı danışıqlar, müzakirələr aparılır. Bu stansiyanın enerji istehsalı potensialı da 240 meqavata bərabər olacaq. Deyə bilərəm, aparılmış dəqiq təhlil nəticəsində bəlli oldu ki, işğaldan azad edilmiş ərazilərdə bütövlükdə 10 min meqavata yaxın bərpaolunan külək və günəş elektrik enerjisinin istehsalı mümkündür. Əlbəttə, biz çox istərdik ki, dost ölkələrin investorları, şirkətləri bu imkanları da araşdırsınlar və bizimlə bərabər bu böyük layihələrə start versinlər.

Onu da bildirməliyəm ki, Azərbaycan həm daxili tələbatı tam ödəyir, eyni zamanda, bütün qonşu ölkələrə elektrik enerjisi ixrac edir. Qonşu ölkələrlə bizi birləşdirən yüksəkgərginlikli enerji xətləri bu imkanı bizə yaradır, lazım olarsa, yeni xətlər də çəkilər. Çünki region ölkələrində və eyni zamanda, Avropada elektrik enerjisinə tələbat artır. Bəzi ölkələr nüvə elektrik stansiyalarının bağlanması ilə əlaqədar qərar qəbul ediblər, biz, eyni zaman-da, kömürlə işləyən elektrik stansiyalarının bağlanması prosesini müşahidə edirik. Eyni zamanda, dünyanın demək olar ki, gündəliyinin ön sıralarında olan "Yaşıl gündəliyi" də təsdiq edilib və biz öz növbəmizdə işğaldan azad edilmiş əraziləri - 10 min kvadratkilometr ərazini "yaşıl enerji" zonası elan etmişik. Artıq bir neçə su elektrik stansiyası inşa edilib, fəaliyyətdədir. Günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı konkret planlarımız var.

Bir sözlə, bu külək elektrik stansiyasının yaradılması bir çox mənalarda olduqca önəmli və əhəmiyyətli layihədir. Bu, gözəl göstəricidir. Digər potensial investorlar üçün də bir siqnaldır ki, onlar da vaxt itirmədən müəyyən addımlar atsınlar. Onu da bildirməliyəm ki, Azərbaycanın bərpaolunan enerji potensialına dünyanın böyük şirkətləri tərəfindən böyük maraq vardır. Hazırda Azərbaycan Energetika Nazirliyi dünyanın bir neçə aparıcı şirkəti ilə müvafiq danışıqlar aparır və yenə də deyirəm, bu, müxtəlif amillərin vəhdətidir. Həm ölkəmizdə sabitlik, əmin-amanlıq, ölkəmizin inkişafı ilə bağlı dünyada çox müsbət fikirlər, yəni, həqiqəti əks etdirən fikirlər, siyasətimizin proqnozlaşdırılması və eyni zamanda, güclü sənaye potensialı, iqtisadi müstəqillik, enerji təhlükəsizliyinin təmin edilməsi və hazırlıqlı kadr potensialı var. Yəni, bunlar əsas amillərdir. Bu amillər istənilən investor üçün böyük əhəmiyyət kəsb edir.

Mən tam əminəm ki, hazırda ölkəmizdə inşa ediləcək bu ən böyük bərpaolunan enerji stansiyasının açılışından sonra və bəlkə də açılışına qədər biz digər investisiya layihələrini icra etməyə başlayacağıq. O ki qaldı, bu stansiyanın açılışına, ümid edirəm, çox vaxt keçmədən biz bu böyük enerji layihəsinin açılışını birlikdə qeyd edəcəyik.

Bir daha sizi və bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, dediyim kimi, yaxın gələcəkdə bu stansiyanın açılışını birlikdə qeyd edək. Sağ olun.

* * * *

Sonra Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, **şahzadə Əbdül Əziz bin Salman Əl-Səud** çıxış edərək deyib:

- Cənab Prezident, icazə verin, çıxışıma onunla başlayım ki, Sizə, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səudun və vəliəhd Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını çatdırım. Onlar Azərbaycan Respublikasına davamlı uğur diləyir, Azərbaycanla münasibətlərin daha da möhkəmlənməsində Səudiyyə Ərəbistanı Krallığının maraqlı olduğunu bir daha vurğulayırlar. Bu gün burada təməlqoyma mərasimində Sizinlə olmaqdan çox məmnunam. Zatialiləri cənab Prezident, gözəl Bakı şəhərində bizi bu qədər səmimi qəbula görə icazə verin, Sizə səmimi təşəkkürümü bildirim.

Səudiyyə Ərəbistanı Krallığının energetika naziri, şahzadə Əbdüləziz bin Salman əl Səud Prezident İlham Əliyevin rəhbərlik keyfiyyətləri sayəsində OPEC+ çərçivəsində əldə edilən uğurların əhəmiyyətini vurğuladı. O, son bir neçə il ərzində dünya neft sənayesində və OPEC+ formatında ölkələrimiz arasında güclü müttəfiqlik, tərəfdaşlıq və dostluq əlaqələrinin qurulduğunu qeyd etdi. Nazir azərbaycanlı həmkarı ilə də bu sahədə fəal iş apardıqlarını bildirərək dedi:

- Azərbaycan və Səudiyyə Ərəbistanı arasında uzun müddət ərzində güclü diplomatik və iqtisadi münasibətlər olub. Krallıq 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olub. Bu münasibətlər müasir Azərbaycan dövlətinin banisi, Zati-aliləri mərhum Prezident Heydər Əliyevin 1994-cü ildə Ər-Riyada səfəri ilə daha da gücləndirilib. Allah ona rəhmət eləsin!

Ölkələrimiz arasında bir çox oxşarlıqlar var. Hər iki ölkə dinamik və qabaqcıl ölkə olaraq, iqtisadiyyat və cəmiyyətimizin müasirləşdirilməsi və transformasiyası yoluna qədəm qoyublar. Odlar yurdu Azərbaycan birmənalı şəkildə müasir karbohidrogen sənayesinin beşiyi olduğunu iddia edə bilər, çünki hələ XIX əsrdə burada quyulardan neft hasil edilirdi. Hazırda biz bu gün bütün dünya ilə birgə iqlim dəyişikliyinə qarşı mübarizənin aparılmasında

və qlobal istiləşmənin fəsadlarının qarşısının alınmasında bir araya gələrək ortaq və mühüm marağa sahibik. “ACWA Power” 2030-cu ilə qədər Səudiyyə Ərəbistanında elektrik enerjisinə olan daxili tələbatın 50 faizini məhz bərpaolunan enerji mənbələri sayəsində təmin etmək üçün külək və günəş enerjisi potensialını artıraraq Krallığımızın bərpaolunan enerji sahəsində təşəbbüslərinin önündə olub. Bu gün qeyd etdiyimiz kimi Azərbaycana yatırılan 300 milyon dollara yaxın sərmayə “ACWA Power” şirkətinin Səudiyyə Ərəbistanı hüdudlarından kənarda qoyduğu ən iri sərmayədir. Bildiyiniz kimi, bu enerji stansiyasının gücü külək hesabına əldə olunan 240 meqavat olacaq ki, bunun da sayəsində 300 min evin elektrik enerjisi təmin ediləcək. Eyni zamanda, 220 milyon kubmetr qaza qənaət olunacaq və biz il ərzində 400 min ton karbon qazının atmosferə atılmasını azaldacağıq. Bununla biz Azərbaycanın 2030-cu ilə qədər bərpaolunan enerji mənbələri sayəsində 30 faiz elektrik enerjisinin əldə olunması məqsədinə əhəmiyyətli dərəcədə töhfə vermiş olacağıq.

Əlavə olaraq “ACWA Power” şirkəti Azərbaycanda dənizdə külək enerjisi stansiyasının tikilməsi layihəsi ilə əlaqədar Anlaşma memorandumu imzalayacaq ki, onun ümumi gücü təxminən 500 meqavat olacaq. İlkin mərhələdə külək enerjisindən istifadə potensialı araşdırılaraq yaşıl karbohidrogenlərin hasil edilməsindəki mümkün tətbiqi öyrəniləcək.

Cənab Prezident, bu gün böyük fərəh hissi ilə qeyd edirəm ki, biz iki nazirlik olaraq birgə çalışırıq və bu rübün sonuna qədər iki nazirlik arasında bir çox aspektlər üzrə əməkdaşlığımızın irəli aparılması yolları ilə əlaqədar olaraq, istər neft-qaz sahəsi, neft-kimya məhsulları, bərpaolunan enerji, səmərəlilik, karbon tullantılarının atmosferə atılmasının azaldılması üzərində qurulmuş iqtisadiyyat üzrə memorandumun hazırlanmasına ümid edirik. Əməkdaşlıq üçün ümumi istəyin olacağı təqdirdə, biz hər bir aspekt üzrə işbirliyi qurmalıyıq. Bu, ölkə və onun xalqı üçün, bizim üçün böyük əhəmiyyət kəsb edir. Bu ölkənin rəhbərliyi ilə əməkdaşlıq bizim üçün mühüm əhəmiyyətə malikdir. İki müsəlman ölkəsi arasında uzun məsafənin olmasına baxmayaraq, onların öz planlarına görə bir-birinə bu qədər yaxın olmasını görməkdən yaxşı nə ola bilər. Bu, ölkələrimizi ayıran məkan və məsafələrdən asılı olmayaraq, məhz onların rəhbərliyinin uzaqgörənliyi, iradəsi ilə izah olunur. Bununla belə, ölkələrimizi birləşdirən amil öz xalqlarının rifahını yaxşılaşdırmaq kimi məsələlərdən ibarət ümumi gündəlikdir. Sağ olun, cənab Prezident.

* * * *

Mərasimdə Azərbaycanda bərpaolunan enerji sahəsində görülən işlər barədə videoçarx nümayiş etdirilib.

* * * *

Daha sonra Prezident İlham Əliyev və şahzadə Əbdül Əziz bin Salman Əl-Səud stansiyanın təməlini qoyublar.

**AZƏRTAC**
**2022, 13 yanvar**

## “QOBU” ENERJİ QOVŞAĞININ AÇILIŞINDA İŞTİRAK VƏ DÖVLƏT BAŞÇISININ AZƏRTAC-A MÜSAHİBƏSİ

*(11 fevral 2022-ci il)*

Fevralın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Qobu” Enerji Qovşağının - yükötürmə gücü 1000 meqavat olan 330/220/110 kilovoltluq “Qobu” yarımstansiyasının və 385 meqavatlıq “Qobu” Elektrik Stansiyasının açılışında iştirak edib.

“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Prezident İlham Əliyevin 2020-ci ilin avqustunda təməlini qoyduğu 385 meqavatlıq “Qobu” Elektrik Stansiyası və yükötürmə gücü 1000 meqavat olan 330/220/110 kilovoltluq “Qobu” yarımstansiyası rekord müddətdə tikilib. Azərbaycan energetikası tarixində ilk dəfə istilik elektrik stansiyasının layihələndirilməsini xarici institutlar deyil, “Azərenerji” ASC-nin Layihə-Axtarış Energetika İnstitutu layihələndirib və tikintini də yerli şirkət həyata keçirib. Ən əsası odur ki, burada tikilən yarımstansiya Bakıda inşa olunan ilk 330 kilovoltluq yarımstansiyadır.

Prezident İlham Əliyev “Qobu” Enerji Qovşağını işə saldı.

Məlumat verildi ki, istər elektrik stansiyasının, istərsə də yarımstansiyanın tikinti prosesi fasiləsiz rejimdə aparılıb. Elektrik stansiyasının maşın zalları, qazpaylayıcı stansiya, anbar, emalatxana binaları, yarımstansiyanın açıq paylayıcı qurğuları, idarəetmə mərkəzi, mühəndis korpusu və başqa yardımçı binalar paralel şəkildə tikilib. Aqreqatların, avadanlığın, texnika və materialların daşınması, quraşdırılması, tikintisi, yüksək gərginlikli ötürücü xətlərin çəkilməsi kimi mürəkkəb proseslər də sinxron şəkildə aparılıb. Beləliklə, “Qobu” Enerji Qovşağının tikintisi nəzərdə tutulan müddətdə başa çatdırılıb.

“Qobu” Enerji Qovşağı ölkəmizdə, xüsusilə Bakıda və Abşeron yarımadasında elektrik enerjisinə sürətlə artan tələbatı ödəmək, paytaxtın və yarımadanın regionlardakı elektrik stansiyalarından asılılığını azaltmaq, elektrik enerjisi ilə təchizatın dayanıqlılığını və etibarlılığını maksimum səviyyəyə çatdırmaq, texniki itkiləri azaltmaq, sistem qəzası təhlükəsini minimuma endirmək, Bakıda və Abşeron yarımadasında tənzimləyici generasiya gücü funksiyasını üzərinə götürərək 500 kilovoltluq “Abşeron” yarımstansiyasının əvəzedicisi funksiyasını daşımaq, paytaxtın 330 kilovoltluq dairəvi elektrik təchizat sistemini yaratmaq və digər amillər baxımından olduqca əhəmiyyətlidir.

Bildirildi ki, yükötürmə gücü 1000 meqavat olan 330/220/110 kilovoltluq “Qobu” yarımstansiyasında isə ən müasir avadanlıq quraşdırılan 330 kilovoltluq açıq paylayıcı qurğu inşa edilib. Eyni zamanda, həmin qurğunun yanında 220 kilovoltluq açıq paylayıcı qurğu yaradılıb və yarımstansiyalar üçün hər birinin gücü 250 meqavolt-amper olan 4 avtotransformator quraşdırılıb. 110 kilovoltluq açıq paylayıcı qurğu isə “Qobu” Elektrik Stansiyasının qarşısında tikilib.

Yarımstansiyanın ərazisində müasir mikroprosessor tipli rəqəmsal idarəetmə və mühafizə panelləri ilə təchiz olunmuş yeni nəsil avadanlıqdan ibarət idarəetmə binası tikilib. Yarımstansiyada məsafədən idarə olunan mikro-SCADA dispetçer idarəetmə sistemi, əksqəza avtomatikası sistemi qurulub. Rəqəmsal enerjisistem konsepsiyasına uyğun olaraq istismara verilən yarımstansiyada aktivlərin, proseslərin, resursların idarə edilməsi, tədarük və paylanma zəncirlərinin təkmilləşdirilməsi, qüsurların vaxtında aradan qaldırılması, problemlərin tez həlli proqram təminatı vasitəsilə avtomatik həyata keçiriləcək.

İdarəetmə mərkəzi ilə yanaşı, mühəndis yataqxana korpusu inşa edilib, işçi heyət üçün xidməti otaqlar, fasiləsiz əmək fəaliyyətini təmin edən şərait yaradılıb. Yarımstansiyanın ərazisində abadlıq işləri görülüb, daxili yollar çəkilib.

Qeyd edək ki, ən müasir üslubda inşa olunan 385 meqavatlıq "Qobu" Elektrik Stansiyasında isə 4 maşın zalı tikilib və ümumilikdə 21 aqreqat quraşdırılıb. Bu aqreqatların hər birinin gücü 18,3 meqavatdır. Burada 7 ədəd güc transformatoru quraşdırılaraq yarımstansiya ilə əlaqələndirilib.

"Qobu" Enerji Qovşağının enerjisistemə inteqrasiyası üçün Şirvandakı "Cənub" Elektrik Stansiyasına 108 kilometr məsafədə 330 kilovoltluq ötürücü xətt inşa edilib. Eyni zamanda, "Qobu" yarımstansiyasını strateji əhəmiyyətli 330 kilovoltluq "Yaşma" yarımstansiyası ilə əlaqələndirmək üçün 47 kilometr məsafədə 330 kilovoltluq elektrik verilişi xətti çəkilib. Bundan əlavə, 220 kilovoltluq 5-ci "Abşeron", 5-ci "Cənub" və 110 kilovoltluq 3-cü, 4-cü "Puta" hava xətlərinin giriş-çıxış sxemi ilə yarımstansiyaya qoşulması işləri başa çatdırılıb.

Beləliklə, səhralığı xatırladan ərazidə cəmi bir il ərzində yüksəkgərginlikli ötürücü xətlərin, 385 meqavatlıq elektrik stansiyasının və 330/220/110 kilovoltluq yarımstansiyanın bir araya gətirildiyi böyük enerji şəhərciyi salınmaqla son illərin ən böyük infrastruktur layihələrindən biri reallaşdırılıb.

"Qobu" Enerji Qovşağının açılışından sonra Prezident İlham Əliyev Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a müsahibə verdi.

**Prezident İlham Əliyevin AZƏRTAC-a müsahibəsi**

**- Salam, möhtərəm cənab Prezident, AZƏRTAC-a müsahibə üçün vaxt ayırdığınıza görə Sizə dərin minnətdarlığımızı bildiririk.**

**Cənab Prezident, bu gün 330 kilovoltluq "Qobu" elektrik yarımstansiyası və 385 meqavatlıq elektrik stansiyası istifadəyə verilir. Bir neçə gün bundan əvvəl yenidən qurulan "Yaşma" qovşaq yarımstansiyasının açılışında iştirak etdiniz. Ölkəmizdə enerji potensialının gücləndirilməsi baxımından bu stansiyaların əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

- "Qobu" Enerji Qovşağı son illər ərzində inşa edilən ən böyük enerji obyektlərindən biridir. Nəzərə alsaq ki, həftənin əvvəlində "Yaşma" yarımstansiyası işə salındı, hər kəs görə bilər, cəmi bir həftə ərzində Azərbaycanda enerji sahəsində nə qədər böyük işlər görülüb. Əlbəttə, bu nəhəng enerji obyektlərinin inşası zaman tələb edirdi. Ancaq ən qısa mümkün vaxt kəsiyində belə nəhəng enerji obyektlərinin inşa edilməsi bizim güclü imkanlarımızdan xəbər verir.

Həftənin əvvəlində Yaşmada böyük yarımstansiyanın istifadəyə verilməsi enerji dayanıqlılığına xidmət göstərəcək. Gücü 750 meqavat olan yarımstansiya, əlbəttə ki, bizim enerji sistemimizdə önəmli yer tutacaq. Bu gün isə 385 meqavat gücündə "Qobu" Elektrik Stansiyasının açılması, əlbəttə, generasiya güclərimizi böyük dərəcədə artıracaq. Bu stansiyanın yanında cəmi bir il ərzində 1000 meqavatlıq yarımstansiya inşa edilib. Onu da deməliyəm ki, bu genişmiqyaslı nəhəng layihələrin icrasında ancaq Azərbaycan şirkətləri, Azərbaycan mütəxəssisləri, fəhlələri iştirak ediblər. Yəni, bu, onu göstərir ki, bizim çox güclü texniki potensialımız, kadr potensialımız var.

Bu gün hər kəs görür ki, dünyada iqtisadi, maliyyə böhranı hələ də başa çatmayıb. Buna baxmayaraq, Azərbaycanda öz vəsaiti hesabına inşa edilən bu nəhəng obyektlərin istifadəyə verilməsi həm maliyyə imkanlarımızı göstərir, maliyyə müstəqilliyimizdən xəbər verir, texniki imkanlarımızı göstərir və onu göstərir ki, son illərdə elektrik enerjisi sahəsində çox böyük işlər görülüb, bu işlərin yenə də davamı var. Çünki artan tələbat - həm daxili tələbat, həm xarici tələbat, artan ixracımız bunu diktə edir. Onu da bildirməliyəm ki, keçən il Azərbaycanda 27 milyard kilovat/saat elektrik enerjisi istehsal edilmiş və 1,6 milyard kilovat/saat ixrac olunmuşdur. Bu, rekord göstəricidir. Yəni, biz artıq çox ciddi elektrik enerjisini ixrac edən ölkəyə çevrildik. Qeyd etdiyim kimi, həm daxili tələbat, həm də xaricdə enerji gücümüzə olan tələbat bizi yeni addımların atılmasına sövq edəcək.

**- Cənab Prezident, məlumdur ki, Azərbaycanda demoqrafik mənzərə çox müsbətdir, əhalimiz hər il artır. Eyni zamanda, ölkəmizdə sənaye istehsalı da sürətlə inkişaf edir. Təbii ki, bütün bu amillər Azərbaycanda elektrik enerjisinə tələbatın artmasına səbəb olur. Elektrik enerjisinə artan bu tələbatın hansı mənbələrdən təmin olunması nəzərdə tutulur?**

-Bəli, Azərbaycanda demoqrafik mənzərə çox müsbətdir. Müstəqillik dövründə əhalimiz 7 milyondan 10 milyona çatıbdır. Bu, ölkədə gedən müsbət meyillərin təzahürüdür, sabitliyin, əmin-amanlığın, iqtisadi inkişafın, sosial rifahın təzahürüdür. Əlbəttə ki, bizdə bütün sahələrdə olan potensial bu demoqrafik artıma uyğun olmalıdır. Eyni zamanda, ölkə iqtisadiyyatı artır, sənaye potensialı artır. Keçən il biz xalqımızı gözəl göstəricilərlə sevindirə bildik. Keçən il iqtisadiyyatımız 5 faizdən çox artıb, qeyri-neft sektorunda sənaye istehsalı isə təxminən 20 faiz artıb. Yanvar ayının ilk yekunları mənə bu günlərdə məruzə edildi. Nəticələr daha da ümidvericidir. İqtisadi artım təxminən 6 faiz, qeyri-neft sektorunda ümumi daxili məhsul təxminən 9 faiz, qeyri-neft sənaye istehsalı sahəsində isə artım 24 faiz olmuşdur. Bu da rekord göstəricidir. Yəni, bu, onu göstərir ki, müsbət dinamika bu il də təmin ediləcək. Yanvar ayı ilin başlanğıcıdır. Dünyanın istənilən ölkəsində yanvar ayında iqtisadi artım templəri adətən o qədər güclü olmur, o cümlədən Azərbaycanda. Amma qeyd etdiyim bu göstəricilər, necə deyərlər, özlüyündə bir nəticədir.

Əlbəttə ki, artan sənaye artan generasiya gücləri tələb edir. Məhz biz buna görə belə nəhəng obyektləri inşa edirik. Artan daxili tələbatı belə gözəl enerji stansiyaları ilə təmin edəcəyik. Eyni zamanda, qeyd etdiyim kimi, bizim enerji gücümüzə xaricdə tələbat artır. Bizim 4 qonşu ölkəyə elektrik enerjisinin ixracatı artmaqdadır - Türkiyə, Rusiya, Gürcüstan və İran. Qeyd etdiyim kimi, 1,6 milyard kilovat/saat elektrik enerjisi ixrac etmişik. Bizim həm neft, həm qaz, həm elektrik enerjisi ixracatı bu gün həm Azərbaycanın, həm qonşu ölkələrin və hətta Avropa ölkələrinin enerji təhlükəsizliyinə töhfə verir. Azərbaycan nadir ölkələrdəndir ki, bütün qonşu ölkələrə həm xam neft, həm təbii qaz, neft-kimya məhsulları, neft məhsulları və elektrik enerjisini ixrac edir.

Bu, əlbəttə ki, son illər ərzində əldə edilmiş nailiyyətlərdir. Biz hamımız xatırlayırıq ki, müstəqilliyimizin ilk illərində bizim özümüzə enerji gücü çatmırdı. Mövcud olan stansiyalar yararsız vəziyyətdə idi və yeni stansiyaların tikilməsinə pulumuz yox idi, Azərbaycan elektrik enerjisini Rusiyadan idxal edirdi. Təbii qazla bağlı qıtlıq var idi, bölgələrdə, ümumiyyətlə, qaz yox idi və neft hasilatı kəskin düşmüşdü. Bu gün isə Azərbaycan dünya miqyasında bütün bu enerji komponentlərinin inkişafına görə qabaqcıl ölkələrdəndir. Təsadüfi deyil ki, bu ay keçirilmiş 8-ci Cənub Qaz Dəhlizi Məşvərət Şurası məhz bu uğurlarımızı bir daha qeyd etdi. Orada çıxış edən demək olar ki, bütün iştirakçılar Azərbaycanın potensialından, Azərbaycanın imkanlarından danışdılar. Mən orada çıxış edərkən dedim ki, biz etibarlı tərəfdaşıq, öz öhdəliklərimizi yerinə yetiririk, buna gücümüz də çatır, iradəmiz də çatır, məsuliyyətimiz də çatır. Ona görə bugünkü mənzərə çox müsbətdir və ölkə daxilində enerji təhlükəsizliyi ilə bağlı heç bir problem yoxdur, amma bu gün dünyanın bir çox ölkələrində bu problemlər var və kəskinləşir. Bəzi ölkələr, ümumiyyətlə, öz enerji balansını düzgün tərtib edə bilmirlər. Çünki xarici təchizatçılardan asılıdırlar və orada müəyyən problemlər yaranıbdır. Ona görə biz həm ölkə daxilində, həm bölgədə, həm geniş mənada qitədə çox etibarlı enerji təchizatçısı ölkəsinə çevrilmişik. Əlbəttə ki, növbəti planlarımız da var. Həm daxildə, həm xaricdə artan tələbatı ödəmək üçün bizim böyük planlarımız var, onlar reallaşır, o cümlədən bərpaolunan enerji növləri ilə bağlı planlarımız. Əminəm ki, bu gün burada qeyd etdiyimiz açılış və buna bənzər açılışlar bundan sonra da çox olacaq.

**- Cənab Prezident Siz bərpaolunan enerji növləri ilə bağlı məsələyə toxundunuz, növbəti sualımız da bununla bağlıdır. Son illər Azərbaycanda bu istiqamətdə genişmiqyaslı işlərə start verilib. Bərpaolunan enerji növlərinin inkişafı istiqamətində həyata keçirilən işlər barədə məlumat verməyinizi xahiş edirik.**

- Bu sahəni mən artıq bir neçə ildir ki, prioritet sahə kimi müəyyənləşdirmişdim. Onu da bildirməliyəm, adətən bu sahəyə o ölkələr daha ciddi fikir verir ki, o ölkələrdə təbii enerji resursları yoxdur, ya azdır, ya da ki, çatmır. Ona görə qazı və neft məhsullarını əvəzləmək üçün ölkələr məcburən bu sahəyə fikir verirlər, investisiyalar qoyurlar. Bizdə isə əksinə, biz özümüzü və tərəfdaşlarımızı bundan sonra ən azı 100 il ərzində təbii qazla təchiz edə bilərik. Buna baxmayaraq, bu gün bərpaolunan enerji növlərinə sərmayə qoyuruq. Nə üçün? İlk növbədə, ona görə ki, bu, ən təmiz enerji növüdür. Düzdür, təbii qaz da təmiz enerji növüdür və biz Azərbaycanda elektrik enerjisini istehsal etmək üçün hazırda ancaq təmiz enerji növlərindən istifadə edirik, mazutdan istifadə etmirik, kömürdən istifadə etmirik. Halbuki bir çox ölkələr bu məhsullardan istifadə edirlər. Biz təbii qazdan, sudan, günəşdən, küləkdən istifadə edirik. Bunu nəzərə alaraq gələcəkdə ətraf mühiti qorumaq üçün biz mütləq bərpaolunan enerji növlərini yaratmalıyıq. İkinci səbəb ondan ibarətdir ki, bizim buna imkanımız var, potensialımız var. Ölkədə o qədər gözəl investisiya iqlimi yaradılıb ki, həm özümüz, həm də xarici firmalar buna böyük maraq göstərirlər. Bu marağı biz yaratmışıq. Əgər neft-qaz sahəsində uğurlu siyasətimiz aparılmasaydı və tərəfdaşlar bizə inanmasaydılar, o cümlədən Azərbaycanın gələcəyinə inanmasaydılar, bu qədər böyük xarici sərmayə qoymazdılar. Ona görə bu gün bərpaolunan enerji növlərinin tam işə salınması istiqamətində çox ciddi iş gedir və bu işin nəticələrini biz görürük. Nədə görürük? İlk növbədə onda ki, xarici firmalar, böyük şirkətlər bu sahəyə investisiya qoyurlar. Keçən ay bu sahədə ən böyük şirkətlərdən biri – “ACWA Power” və Azərbaycan arasında imzalanmış kontrakt əsasında təməlqoyma mərasimi keçirildi, 240 meqavatlıq külək elektrik stansiyası gələn il istifadəyə verilməlidir. Hazırda BP şirkəti ilə Cəbrayıl rayonunda 200 meqavatdan çox gücə malik olan günəş elektrik stansiyasının inşası ilə bağlı danışıqlar gedir. Günəş elektrik stansiyasının inşası ilə bağlı Birləşmiş Ərəb Əmirliklərinin Mazdar şirkəti ilə danışıqlar gedir. Hər iki layihə təqribən 400-450 meqavat gücündədir. Üstəlik qeyd etdiyim kimi “ACWA Power” ilə 240 meqavat, ondan sonra “Xudafərin” və “Qız qalası” su anbarlarında İranla bərabər 280 meqavatlıq elektrik stansiyalarının tikintisi nəzərdə tutulur. O gücün yarısı bizə çatacaq, bu da əlavə 140 meqavat təşkil edəcək. “Azərenerji”nin özünün 50 meqavatlıq külək elektrik stansiyası var. Ondan sonra azad edilmiş torpaqlarda keçən il “Güləbird”, “Suqovuşan-1”, “Suqovuşan-2”, Kəlbəcərdə Lev çayı üzərində 4 su elektrik stansiyası yenidən quruldu. Azad edilmiş torpaqlarda bu il 5 su elektrik stansiyasının inşasının tamamlanması nəzərdə tutulur. Orada da təqribən 25-30 meqavat gücündə stansiyalar olacaq. Həmçinin azad edilmiş torpaqlarda ermənilər tərəfindən dağıdılmış 30-a yaxın su elektrik stansiyasının tikintisi mümkündür və olacaqdır. Mən fürsətdən istifadə edərək, yerli və xarici investorları bu sahəyə dəvət etmək istəyirəm. Çünki dövlət onsuz da bu işləri görəcək və görür. Amma yaxşı olardı ki, özəl şirkətlər də bu sahəyə investisiya qoysunlar. Əlbəttə ki, bizim böyük potensialımız Kəlbəcər-Laçın zonasındadır və azad edilmiş digər torpaqlarda. Mən bu rəqəmləri bildirmişdim, 9 min meqavatdan çox təsdiq edilmiş enerji potensialı var, günəş və külək stansiyalarını nəzərə alaraq. Bizim ən böyük potensialımız Xəzər dənizindədir və təsadüfi deyil ki, hazırda dünyanın aparıcı enerji şirkətləri Xəzər dənizinə çox böyük diqqət yetirirlər, bizə artıq təkliflər gəlməyə başlamışdır. Xəzər dənizinin bərpaolunan enerji istehsalı ilə bağlı potensialı 150 min meqavatdan çoxdur. Ona görə bütün bu işləri biz düzgün planlaşdırmalıyıq.

Daxili tələbatı təbii ki, ödəmişik, ödəyəcəyik, ixracla bağlı öz fəaliyyətimizi genişləndirməliyik, yeni ixrac bazarlarına çıxmalıyıq. Bizim bütün dörd qonşu ölkə ilə dediyim kimi, enerji bağlantıları var, biz indi yeni bir layihə üzərində işləyirik. Zəngəzur dəhlizi ilə Azərbaycandan Naxçıvan Muxtar Respublikasına, oradan isə Türkiyəyə və İrana yeni xəttin çəkilişi indi artıq planlarımızdadır. Mən demişdim ki, Zəngəzur dəhlizi təkcə dəmir yolu, avtomobil yolu, hava nəqliyyatı üçün deyil. Eyni zamanda, Zəngəzur dəhlizi enerji növlərinin ixrac edilməsi ilə bağlı öz rolunu oynayacaq. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasını elektrik enerjisi ilə təmin etmək üçün və oradan xarici bazarlara çıxmaq üçün və Türkiyədən sonra Avropaya çıxmaq üçün yeni bir xəttimiz olacaq. Bir xətt Gürcüstan-Türkiyə üzərindən keçir və ikinci xətt oradan keçməlidir. Biz bunun üzərində işləyirik və artan ixracımız həm önəmimizi artıracaq, geosiyasi önəmimizi artıracaq, eyni zamanda, bizə əlavə valyuta gətirəcək. Biz təkcə neftdən, qazdan yox, eyni zamanda, elektrik enerjisindən də valyuta qazanacağıq və ölkəmiz daha da firavan yaşayacaq. Ona görə bütün bu layihələr bizim planlarımızdadır. Bugünkü açılış mərasimi bir daha gücümüzü göstərir, iradəmizi göstərir. Onu göstərir ki, qarşımızda duran bütün vəzifələri biz uğurla icra edirik.

**- Cənab Prezident, AZƏRTAC-ın suallarını ətraflı cavablandırdığınıza görə Sizə minnətdarıq. Sizə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayırıq. Çox sağ olun.**

- Sağ olun.

**AZƏRTAC**
**2022, 11 fevral**

## QARADAĞ GÜNƏŞ ELEKTRİK STANSİYASININ TƏMƏLQOYMA MƏRASİMİ

*(15 mart 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin «Masdar» şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi ilə əlaqədar Gülüstan sarayında keçirilmiş tədbirdə iştirak etmişdir.

Dövlət başçısı tədbirdə çıxış etdi

### Prezident İlham Əliyevin çıxışı

-Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Bu gün ölkəmizin energetika sahəsində çox əlamətdar bir gündür. Bu gün Qaradağ Günəş Elektrik Stansiyasının təməli qoyulur. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm. Doğrudan da çox önəmli bir hadisədir, 230 meqavat gücündə olan bu stansiya həm ölkəmizin enerjiyə artan tələbatını ödəyəcək, eyni zamanda, ixrac imkanlarımızı da genişləndirəcək.

Mən çox şadam ki, bu böyük layihənin icraçısı dünyada tanınmış və bu sahədə böyük təcrübəsi olan "Masdar" şirkətidir. Qeyd etdiyim kimi, "Masdar" şirkətinin bu sahədə çox böyük təcrübəsi var, bir çox ölkələrdə uzun illər uğurla fəaliyyət göstərir. Əlbəttə ki, bu şirkətin Azərbaycana sərmayə qoyması çox təqdiredici bir haldır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xarici sərmayə üçün çox cəlbedici ölkədir, açıq ölkədir. Azərbaycanda çox gözəl investisiya iqlimi vardır və eyni zamanda, Azərbaycan xarici tərəfdaşlar qarşısında üzərinə düşən bütün öhdəliklərini yerinə yetirir. Xarici sərmayənin Azərbaycana böyük həcmdə qeyri-neft sektoruna qoyulması bizim əsas prioritetlərimizdən biridir. Çünki uzun illər neft-qaz sahəsinə 10 milyardlarla dollar sərmayə qoyulubdur. Bu, bizə imkan verdi ki, enerji sahəsində istədiyimizə nail olaq. Bu gün Azərbaycan həm xam neft, təbii qaz, neft məhsulları və elektrik enerjisini ixrac edən ölkədir. Bizdə elektrik enerjisinin ixracı nöqteyi-nəzərdən böyük potensial var. Biz dörd qonşu ölkəyə ixracı artıq təmin etmişik və əminəm ki, gələcəkdə digər bazarlara da elektrik enerjisi ilə çıxacağıq. Bunu nəzərə alaraq, hər bir yeni stansiyanın inşa olunması qeyd etdiyim kimi, bizim ixrac imkanlarımızı da artırır.

"Masdar" şirkəti bizim üçün dost ölkəni - Birləşmiş Ərəb Əmirliklərini təmsil edir. Bizim ikitərəfli münasibətlərimiz çox yüksək səviyyədədir. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə uğurla əməkdaşlıq edirik. Ticarət əlaqələrimiz artır, turizm sahəsində çox böyük imkanlar var və şadam ki, bu sahədə də artım göz qabağındadır. Bir sözlə, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında əlaqələrin böyük perspektivi var. Şadam ki, bərpaolunan enerji istehsalı sahəsində də əməkdaşlığa bu gün start verilir. Əslində, Azərbaycan Energetika Nazirliyi ilə "Masdar" şirkəti arasında icra müqaviləsi bir il bundan əvvəl imzalanmışdır. Bu müddət ərzində hazırlıq işləri gedirdi və bu gün biz artıq təməlqoyma mərasiminə toplaşmışıq.

Bildirməliyəm ki, bu ilin əvvəlindən energetika sahəsində çox önəmli addımlar atılıbdır. Yanvar ayında bu sahədə məşhur olan, Səudiyyə Ərəbistanını təmsil edən "ACWA Power" şirkəti ilə 240 meqavat gücündə Külək Elektrik Stansiyasının təməli qoyuldu. Fevral ayında "Azərenerji" tərəfindən inşa edilmiş 385 meqavat gücündə elektrik stansiyasının açılışı oldu və bu gün 230 meqavat gücündə günəş elektrik stansiyasının təməli qoyulur. Yəni hələ 3 ay tamamlanmayıb ki, artıq 855 meqavat gücündə yeni generasiya gücləri yaradılır, artıq 385 meqavat gücündə yaradılıbdır. Əminəm ki, 2023-cü ildə əlavə güclər bizim ümumi

sistemimizə daxil ediləcəkdir və bu, işin sadəcə olaraq başlanğıc hissəsidir. Çünki bərpaolunan enerji növlərinin inkişafı bizim üçün prioritet məsələdir. Biz uzun illər bu məsələnin həlli ilə bağlı çalışırıq və bu gün real nəticələr görürük. Bütövlükdə Azərbaycanda mövcud olan sabitlik, iqtisadi inkişaf, qonşu ölkələrlə münasibətlərimiz, nəqliyyat, kommunikasiyalar, elektrik xətləri nöqteyi-nəzərdən qonşu ölkələrlə sıx təmaslar unikal bir vəziyyət yaradır ki, Azərbaycan nəinki xam neft, neft məhsulları və təbii qaz, eyni zamanda, elektrik enerjisinin böyük istehsalçısı və ixracatçısı olacaqdır. Mən buna əminəm, biz artıq bu işin təzahürlərini görürük. Onu da nəzərə almalıyıq ki, qonşu ölkələrdə və Avropa qitəsində elektrik enerjisinə böyük ehtiyac vardır. Biz elektrik enerjisini yalnız ekoloji cəhətdən təmiz mənbələrdən istehsal edirik - təbii qaz, su, günəş və külək. Bir daha demək istəyirəm ki, Azərbaycanda bərpaolunan enerji növlərinin potensialı həddindən artıq böyükdür. Məhz buna görə dünyanın aparıcı enerji şirkətləri indi Azərbaycanla bu sahədə əməkdaşlıq etməyə çox maraqlıdırlar. Əminəm ki, biz yaxın gələcəkdə yeni layihələrin başlanmasına start verəcəyik.

Böyük potensial işğaldan azad edilmiş ərazilərdədir. Artıq dəqiq hesablamalar aparılıb və günəş, külək enerji növlərinin istehsalı təxminən 9-10 min meqavata çata bilər. Artıq ilkin addımlar da atılır, bp şirkəti ilə generasiya gücü 200 meqavatdan çox olan günəş elektrik stansiyasının inşası ilə bağlı danışıqlar gedir. Ümid edirəm ki, bu danışıqlar da uğurla nəticələnəcək. Digər böyük şirkətlər bu bölgəyə maraq göstərirlər. Bildirməliyəm ki, işğal dövründə 30 il ərzində ermənilər və Ermənistan dövləti o vaxt işğal altında olan torpaqlarda bütün infrastrukturu, bütün binaları, tarixi, dini abidələrimizi dağıtmışlar, bunu təsdiqləyən bir çox sənədlər, video-foto məlumatlar vardır. O cümlədən Kəlbəcər və Laçın rayonlarında 30-dan çox su elektrik stansiyasını məhv etmişlər və biz artıq azad edilmiş torpaqlarda genişmiqyaslı işlərə başlayaraq, o cümlədən elektroenergetika sahəsinə böyük diqqət göstərmişik. Keçən il 4 su elektrik stansiyasını bərpa etmişik. Onların ümumi generasiya gücü 20 meqavatdır. Bu il isə 5 su elektrik stansiyasının yenidən qurulması planlaşdırılır və bu stansiyaların generasiya gücü 27 meqavat olacaqdır. Düzdür, digər stansiyalarla müqayisədə həcm o qədər də böyük deyil. Lakin bu stansiyaların ancaq Kəlbəcər və Laçın rayonlarında sayı 30-dan çox olacaqdır və bu, su elektrik stansiyalarıdır. Günəş və külək elektrik stansiyalarının yaradılması üçün təbii ki, daha böyük potensial var. Yenə də demək istəyirəm ki, bütün infrastruktur yaradılıb, daxili xətlər müasirləşdirilib, bir çox yarımstansiyalar inşa olunub, o cümlədən azad edilmiş torpaqlarda cəmi bir il ərzində 7 yarımstansiya yaradılıbdır.

Xarici bazarlar bizim hüdudlarımızın kənarındadır və Avropadadır. Yenə də deyirəm, böyük tələbat var. Daxili tələbat artmaqdadır. Müstəqillik dövründə Azərbaycan əhalisi 7 milyondan 10 milyona çatıbdır. Yəni, bu, əlbəttə ki, böyük üstünlükdür. Eyni zamanda, sənaye və iqtisadiyyatımız artır. Bu ilin iki ayında ümumi daxili məhsul 6,7 faiz, qeyri-neft sektoru 10,1 faiz, qeyri-neft sənaye istehsalı təxminən 21 faiz artmışdır. Bütün bunlar post-pandemiya dövründə əldə edilmiş nailiyyətlərdir və onu göstərir ki, Azərbaycanda aparılan islahatlar, sənayeləşmə siyasəti, biznes mühitinin yaxşılaşdırılması və xarici sərmayənin cəlb edilməsi istiqamətində doğrudan da təqdirəlayiq addımlar atılır. Əlavə etsəm ki, Azərbaycan dünya miqyasında o ölkələrdəndir ki, ölkəmizdə xarici dövlət borcu çox aşağı səviyyədədir, cəmi 7,4 milyard dollardır. Əgər istəsək, biz bu borcu bir gün ərzində sıfırlaya bilərik. Əlbəttə ki, həm beynəlxalq maliyyə qurumları, həm böyük şirkətlər, investorlar Azərbaycana çox böyük maraqla yanaşırlar. Bizim siyasətimiz isə ölkəmizin bundan sonrakı sürətli inkişafını təmin etmək, əlbəttə ki, ilk növbədə, azad edilmiş torpaqları bərpa etmək, - bu, böyük ərazidir, 10 min kvadratkilometrdən çox bir ərazidir, - və eyni zamanda, ölkəmizin dayanıqlı inkişafını təmin etməkdir. Bu, aksiomadır ki, elektrik enerjisi olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, birinci şərtdir, bu, əsas şərtdir. Xoşbəxtlikdən Azərbaycanda zəngin neft və qaz yataqları vardır və bu yataqların istismarı və işlənilməsi uğurla gedir. Müasir infrastruktur

vardır - həm nəqliyyat, həm kommunikasiya, həm də elektrik xətləri ixrac bazarları ilə bizi birləşdirir. Güclü siyasi iradə vardır. Dünyanın demək olar ki, əksər ölkələri ilə sıx tərəfdaşlıq əlaqələri vardır. Bir çox dostlarımız var, onlardan biri də Birləşmiş Ərəb Əmirlikləridir. Mən bütün sərmayə maraqlarını, biznes maraqlarını nəzərə alaraq onu da bildirməliyəm ki, əgər iki ölkə arasında yaxın dostluq əlaqələri olmasaydı, yəqin ki, bu layihəni də biz görməzdik. Yəni, bütün bu amillərin vəhdəti çox gözəl bir imkan yaradır. Hesab edirəm ki, biz bu imkandan böyük səmərə ilə istifadə edirik və edəcəyik.

Mən stansiyanın inşasına uğurlar arzulayıram, "Masdar" şirkətinə bizə etibar etdiyi və böyük sərmayəni qoymağa planlaşdırdığı üçün təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, biz yaxın gələcəkdə Qaradağda bu stansiyanın açılışını birlikdə qeyd edəcəyik. Sağ olun.

* * * *

Sonra Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri **Suhail Al Mazrouei** mərasimdə çıxış edərək dedi:

- Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev.

Zati-aliləri, xanımlar və cənablar.

Bu cür tarixi münasibətlə bu gün sizlərin qarşısında çıxış etməkdən şərəf və iftixar hissi duyuram. Zati-aliləri, düzgün qeyd etdiyiniz kimi, Birləşmiş Ərəb Əmirlikləri Azərbaycanın yaxın dostudur. Bizi dərin mədəni və iqtisadi əlaqələr, eləcə də təmiz enerjiyə əsaslanan dayanıqlı gələcəklə bağlı ümumi baxışlarımız bağlayır. Bu gün bu əlaqələr daha da güclənir. Zati-aliləri, sizin dəstəyiniz sayəsində biz Azərbaycanda ilk dəfə olan istehlak səviyyəsində günəş enerjisi layihəsinin təməlqoyma mərasimini qeyd edirik. Böyük şərəf hissi ilə bu layihədə sizinlə işləmək fürsəti bizə nəsib oldu. Mən bu mühüm layihənin gerçəkləşdirilməsinə yardım etmək məqsədilə "Masdar" şirkətinə və Birləşmiş Ərəb Əmirliyinə etimad göstərdiyinə görə Azərbaycan Prezidenti Zati-ailələri İlham Əliyevə, Azərbaycan dövlətinə şəxsən təşəkkürümü bildirmək istəyirəm.

Bu gün "Masdar" 30-dan artıq ölkədə çalışır. Bizim məqsədimiz günəş enerjisi texnologiyalarını dünyanın bir çox ölkəsində tətbiq etməkdən ibarətdir. Mən, Azərbaycanda bərpaolunan enerji planlarını enerji siyasətinin mühüm hissəsinə çevirmək istəyinə görə, həmçinin qardaşım və yaxın dostum, Azərbaycanın energetika naziri Pərviz Şahbazova təşəkkürümü bildirmək istəyirəm.

Zati-aliləri, Sizin rəhbərliyinizlə Azərbaycan 2030-cu ilə qədər bərpaolunan enerji sahəsində quraşdırılmış güclərin 30 faizə qədər artırılması kimi mühüm məqsədləri öz qarşısına qoyub. Biz Birləşmiş Ərəb Əmirlikləri də eyni məqsədi öz qarşımıza qoyuruq. Biz də 2030-cu ilə qədər həmin həcmin 30 faizə qədər artırılmasını planlaşdırırıq.

Birləşmiş Ərəb Əmirlikləri və "Masdar" şirkəti təmiz enerjiyə aid geniş gündəliyin icrasında Azərbaycana birbaşa xarici sərmayələrini və dəstəyini davam etdirməyi səmimiyyətlə arzulayırlar və biz tərəfdaşlığımızı daha da gücləndirmək üçün daha böyük imkanları araşdıracağıq.

Mən şəxsən Azərbaycanın strateji mövqeyinə, Zati-aliləri, Sizin müəyyən etdiyiniz planlara görə təşəkkürümü bildirirəm. Azərbaycan nəinki Avropaya ənənəvi enerji daşıyıcılarını, o cümlədən təbii qazını, eləcə də təmiz enerji mənbələri və hidrogen sayəsində istehsal olunan enerjini gələcəkdə ixrac edəcək. Birgə işləyərək biz hamımız üçün daha yaşıl və dayanıqlı gələcəyi qurmaq məqsədilə təmiz enerji layihələrinin icrasını davam etdirəcəyik.

Zati-aliləri, hörmətli qonaqlar, icazə verin, Birləşmiş Ərəb Əmirlikləri və onun rəhbərliyi adından sizə bu gün burada bizimlə olduğunuza və bunu sizinlə qeyd etmək fürsətinə görə bir daha səmimi təşəkkürümü bildirim.

Çox sağ olun.

* * * *

Mərasimdə Azərbaycanda bərpaolunan enerji sahəsində görülən işlər barədə videoçarx nümayiş etdirildi.

* * * *

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazrouei stansiyanın təməlini qoydular.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**118-ci kitab: fevral 2022 - aprel 2022. - Bakı: Azərnəşr, 2022.- S. 119-126.**

## PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA FÜZULİ ŞƏHƏRİNDƏ YENİ YARADILACAQ PARKDA AĞAC ƏKİBLƏR

*(10 may 2022-ci il)*

İşğaldan azad olunmuş ərazilərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan bərpa-quruculuq işləri bu yerlərə yenidən həyat verir, ermənilərin ekoloji sistemə vurduqları zərərin nəticələri aradan qaldırılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 10-da Füzuliyə səfərləri çərçivəsində şəhərdə yeni yaradılacaq mərkəzi park kompleksinin ərazisində ağac əkiblər.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev dövlətimizin başçısına və birinci xanıma parkda görüləcək işlər barədə məlumat verdi.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilər minalardan təmizlənib təhlükəsiz vəziyyətə gətirildikcə, digər quruculuq işləri kimi, ekoloji tarazlığın bərpası istiqamətində də ciddi addımlar atılır. İşğalçı Ermənistan tərəfindən məhv edilmiş yaşıllıq massivlərinin bərpası məqsədilə ağacəkmə tədbirləri davam etdirilir. İşğaldan azad olunan ərazilərdə ekoloji tarazlığın bərpası istiqamətində görülən tədbirlər Füzuli rayonunu da əhatə edir. Füzulidə yeni yaradılacaq park kompleksi də şəhərdə ekoloji tarazlığın qorunması işinə mühüm töhfə verəcək.

**AZƏRTAC**
**2022, 10 may**

## LAÇIN RAYONUNDA "HƏKƏRİÇAY" SU ANBARI LAYİHƏSİ İLƏ TANIŞLIQ

*(26 iyun 2022-ci il)*

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunda "Həkəriçay" su anbarı layihəsi ilə tanış olub.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılov dövlətimizin başçısına layihə barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilər həm təbii ehtiyatlar, biomüxtəliflik, meşə ərazilərinin bolluğu, həm də su ehtiyatları baxımından çox zəngindir. Azərbaycanda formalaşan su ehtiyatlarının təqribən 20 faizi məhz bu ərazilərin payına düşür. Başlanğıcını Laçın rayonu ərazisindən götürən Həkəri çayının uzunluğu 113 kilometr, orta illik su sərfi saniyədə 10,7 kubmetrə yaxındır. Həkəridə tutumu təxminən 90 milyon kubmetr olan su anbarı tikməklə buradakı təmiz, genetik faydalı suyu 254 kilometr uzunluğunda magistral yolla Sabirabada qədər gətirmək mümkündür. Artıq bu sahədə müvafiq tədqiqatlar aparılıb. Hazırda layihənin texniki-iqtisadi əsaslandırılması həyata keçirilir.

Qeyd edildi ki, "Həkəriçay" su anbarı içməli suyun toplanması üçün nəzərdə tutulur. Magistral üzərində nasos stansiyalarının tikilməsi ilə nisbətən hündür coğrafi ərazidə yerləşən 7 rayona suyun verilməsi planlaşdırılır. Layihənin istifadəyə verilməsi nəticəsində 3 milyona yaxın insanı içməli su ilə təmin etmək mümkün olacaq.

**AZƏRTAC**
**2022, 26 iyun**

## YENİ TİKİLMİŞ 4,4 MVT GÜCÜNDƏ "KƏLBƏCƏR-1" KİÇİK SU ELEKTRİK STANSİYASININ AÇILIŞINDA İŞTİRAK

*(26 iyun 2022-ci il)*

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər rayonunda yeni tikilmiş 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının (KSES) açılışında iştirak edib.

"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyası haqqında məlumat verdi.

Bildirildi ki, Lev çayı üzərində inşa olunan stansiya işğaldan azad edildikdən sonra Kəlbəcərdə tikilərək istismara verilən ilk enerji istehsalı obyektidir.

"Yaşıl enerji zonası" konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək "Kəlbəcər-1" KSES-də maşın zalı tikilib, yeni aqreqat, generator, idarəetmə panelləri və transformatorlar quraşdırılıb. Burada 110/6 kilovoltluq yarımstansiya da inşa edilib.

Qeyd olunub ki, "Kəlbəcər-1" KSES Azərbaycanın ümumi enerji sisteminə qoşulub. Rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olan yeni stansiyanın işinə Kəlbəcərdən olduğu kimi, Bakıdakı Baş İdarəetmə Mərkəzindən də nəzarət və onu idarə etmək əlçatan olub. Məsafədən idarə edilən KSES-lər demək olar işçi heyət olmadan işlədilir. Stansiyaların idarəetmə sistemi tam avtomatlaşdırılıb, xüsusi proqram təminatı ilə rəqəmsallaşdırılıb ki, bu da istehsal olunan elektrik enerjisinin maya dəyərinin daha da aşağı düşməsinə gətirib çıxarır.

Dövlətimizin başçısı stansiyanı işə saldı.

Xatırladaq ki, işğaldan azad edilən ərazilərin "yaşıl enerji zonası"na çevrilməsi ilə bağlı dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Vətən müharibəsində Qələbədən sonra ümumi gücü 20 meqavat olan "Güləbird", "Suqovuşan-1", "Suqovuşan-2" və "Kəlbəcər-1" Kiçik Su Elektrik stansiyaları tikilib istifadəyə verilib. İndiyədək bu stansiyalarda 30 milyon kilovat/saat elektrik enerjisi istehsal olunub.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 120-ci kitab: may 2022 - iyul 2022. - Bakı: Azərnəşr, 2022.-S. 215-216.**

## KƏLBƏCƏRDƏ "ÇIRAQ-1" KİÇİK SU ELEKTRİK STANSİYASINDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLUB

*(26 iyun 2022-ci il)*

İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər rayonunda "Çıraq-1" Kiçik Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub.

Dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verilib.

Bildirilib ki, "yaşıl enerji" strategiyasına uyğun olaraq hazırda Kəlbəcər rayonunun ərazisində ümumi gücü 27 meqavat olan 5 kiçik su elektrik stansiyası tikilir.

Kiçik su elektrik stansiyalarında ümumilikdə 9 hidroaqreqat fəaliyyət göstərəcək. Stansiyaların enerjisistemə inteqrasiyası üçün 110 və 35 kV-luq xətlər çəkilir. İşlərin böyük hissəsi görülən bu 5 stansiya rəqəmsal qaydada mərkəzi SCADA Dispetçer İdarəetmə Sisteminə inteqrasiya ediləcək. Açılıb-qoşulma, intellektual tənzimləmə, operativ monitorinq və təhlil aparılması mümkün olan yeni stansiyaların idarə edilməsi Kəlbəcərdən olduğu kimi, Bakıdan da həyata keçiriləcək.

Kəlbəcərdə yeni tikilən elektrik stansiyalarında il ərzində ümumilikdə 100 milyon kilovat/saata yaxın ekoloji cəhətdən təmiz enerji istehsal olunacaq. Bu isə 50 milyon kubmetr təbii qaza qənaət edilməsi deməkdir.

"Azərenerji" ASC-nin mütəxəssislərinin apardığı araşdırmalar göstərir ki, ermənilərin təbiəti məhv etməklə köhnə nəsil texnologiyalar əsasında kortəbii hesablamalarla apardıqları planlaşdırmadan fərqli olaraq, dördüncü nəsil sənaye inqilabına uyğun süni intellektə adaptasiya edilən müasir texnologiyalar əsasında ölkənin ən böyük su bazası olan bol sulu Kəlbəcər və Laçın çayları üzərində nəzərdə tutulandan dəfələrlə artıq ekoloji cəhətdən təmiz hidroyaşıl enerji istehsal etmək mümkündür.

Qeyd edilib ki, növbəti illərdə Kəlbəcər və Laçın rayonlarında yenidən qurulması təklif edilən digər kiçik su elektrik stansiyalarının ümumi gücü 82,2 MVt təşkil etsə də, yeni hesabatlara əsasən bu həcmi iki dəfə artırmaq mümkün olacaq.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**120-ci kitab: may 2022 - iyul 2022. - Bakı: Azərnəşr, 2022.- 219-220.**

## QUBADLIDA ZABUXÇAY VƏ BƏRGÜŞADÇAY SU ANBARLARININ LAYİHƏLƏRİ İLƏ TANIŞLIQ

*(19 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Qubadlı rayonu ərazisində yaradılacaq Zabuxçay və Bərgüşadçay su anbarlarının layihələri ilə tanış olmuşdur.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Zaur Mikayılov dövlət başçısına layihələr barədə məlumat verdi. Bildirildi ki, bu layihələr Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli Sərəncamı ilə yaradılmış Komissiyanın 21-ci iclasında Zabux çayının Həkəri çaya birləşdiyi yerdən aşağı hissədə su anbarının yaradılması və magistral boru kəmərinin tikintisi məqsədilə verilmiş tapşırıqların icrası olaraq ASC tərəfindən hazırlanıb.

ASC tərəfindən Türkiyə Respublikasının «Suyapı» məsləhətçi şirkəti dəvət edilərək, Zabux çayının Həkəri çaya birləşdiyi yerdən aşağı hissədə su anbarının və ondan ayrılacaq magistral kanalların (Laçın– Qubadlı–Zəngilan) yaradılması məsələsi üzrə müvafiq araşdırmalar aparılaraq təkliflər hazırlanıbdır. Araşdırmalar əsasında layihələrdə nəzərdə tutulan ümumi ərazisi 12100 hektar olan əkin sahəsinə saniyədə 6,18 kubmetr suyun mütəmadi verilməsi üçün tutumu 26,7 milyon kubmetr olan su anbarının yaradılması daha münasib hesab edilib. Su anbarının hündürlüyü 40 metr, uzunluğu 615 metr olan torpaq bənddən yaradılması təklif edilib.

Zabux çayının suyunun yeni su anbarında tənzimləməklə uzunluğu 49 kilometr olan polad boru xətti ilə Qubadlı və Zəngilan rayonlarında yerləşən torpaq sahələrinə verilməsi, eyni zamanda, layihədə subasar zonadan avtomobil yolunun kənarlaşdırılaraq yeni yolun çəkilməsi və bəndyanı su-elektrik stansiyasının tikilməsi nəzərdə tutulur. Nəticə etibarilə Qubadlı və Zəngilan rayonları ərazisində «Dost Aqro» şirkətinin 1900 hektar, «Azərsun» MMC-nin 3300 hektar, «AzərAqrar» şirkətinin 2500 hektar, «Aqrovay» şirkətinin 2700 hektar, «Dost Ziraat Heyvandarlıq» şirkətinin 1700 hektar əkin sahəsi suvarma suyu ilə təmin oluna bilər.

Bərgüşadçay su anbarının yeri isə topoqrafik və mürəkkəb geoloji şərait nəzərə alınmaqla, ən optimal variant olaraq Qubadlı şəhərindən yuxarıda – Bəxtiyarlı kəndinin yaxınlığında yaradılması təklifi qəbul edilib.

Ümumi sututumu 67 milyon kubmetr olan bu su anbarı vasitəsilə Qubadlı rayonu ərazisində 12000 hektar sahənin suvarma suyu ilə təmin edilməsinin və açıq kanal, yaxud təzyiqli boru vasitəsilə «Qız qalası» hidroqovşağından su götürəcək magistral kanalın qidalandırılması üçün isə saniyədə 10 kubmetr suyun verilməsinin mümkünlüyü müəyyən edilib. Su anbarından suyun təzyiqli boru kəməri ilə veriləcəyi halda ümumi gücü 30 meqavat olan 3 su-elektrik stansiyasının quraşdırılması mümkün olacaqdır.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**123-cü kitab: oktyabr 2022 – noyabr 2022. - Bakı: Azərnəşr, 2022.- S. 45-47.**

## ZƏNGİLANDA ARXİMED TURBİNİ TİPLİ SU ELEKTRİK STANSİYASI İŞƏ SALINMASI MƏRASİMİM

*(19 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 19-da Zəngilanda Arximed turbini tipli Su Elektrik Stansiyasının işə salınması mərasimində iştirak ediblər.

Kənd təsərrüfatı naziri İnam Kərimov dövlətimizin başçısına və birinci xanıma stansiya barədə məlumat verdi.

Bildirildi ki, Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsi çərçivəsində keyfiyyətli ekoloji mühitin yaradılması və enerjidən səmərəli istifadə edilməsi üçün dayanıqlı enerji mənbələrinə üstünlük verilib.

Bu baxımdan, kəndin dayanıqlı enerji ilə təmin edilməsi üçün Həkəri çayı üzərində Almaniyanın "Rehart GmbH" şirkəti tərəfindən istehsal olunan və hər biri 212 kilovat olmaqla 3 hidravlik turbindən və müvafiq hissələrdən ibarət Arximed turbini tipli Su Elektrik Stansiyası inşa edilib. Üç ədəd generatorun quraşdırıldığı stansiya Ağalı kəndinin elektrik enerjisinə tələbatını tam təmin etmək gücünə malikdir.

Arximed qurğusunun digər enerji istehsal sistemləri ilə müqayisədə ən böyük üstünlüyü ondan ibarətdir ki, təzyiqsiz sudan enerji istehsal edə bilir, asan quraşdırılır və iqtisadi baxımdan sərfəlidir.

Prezident İlham Əliyev Stansiyanı işə saldı.

Diqqətə çatdırıldı ki, balıqların Arximed turbinlərinin içindən keçə bilməsi və elektrik enerjisinin balıq ölümünə səbəb olmadan istehsal edilməsi ətraf mühitin qorunması baxımından xüsusi əhəmiyyətə malikdir.

Qeyd edək ki, Arximed turbinlərinin istismar müddəti 50-60 il proqnozlaşdırılır.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**123-cü kitab: oktyabr 2022 – noyabr 2022. - Bakı: Azərnəşr, 2022.- S. 67-68.**

## CƏBRAYILDA YARADILACAQ MEŞƏ TƏLİM MƏRKƏZİ, AĞILLI TİNGÇİLİK VƏ DOSTLUQ MEŞƏSİ KOMPLEKSİNİN LAYİHƏSİ ILƏ TANIŞLIQ ÇƏRÇİVƏSİNDƏ RAYON ƏRAZİSİNƏ 18 BAŞ CEYRAN BURAXILIB

*(19 oktyabr 2022-ci il)*

Oktyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin layihəsi ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Cəbrayıl rayonu ərazisinə 18 baş ceyranın buraxılması mərasimində də iştirak ediblər.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleksdə görüləcək işlərlə bağlı məlumat verdi.

Bildirildi ki, Şirvan Milli Parkından götürülən 18 baş ceyran Cəbrayıl rayonu ərazisinə fərdi reintroduksiya olunub. Proses bu il və gələn il də davam etdiriləcək.

Qeyd edək ki, Azərbaycan ərazisində ceyranların sayının kritik həddə azalması təhlükəsi nəzərə alınaraq ceyran populyasiyasının tarixi areallarında təbii bərpasının təmin edilməsi məqsədilə Azərbaycan Prezidenti tərəfindən 2003-cü ildə Şirvan Milli Parkı yaradılıb. Həyata keçirilən intensiv mühafizə tədbirləri nəticəsində Azərbaycanda ceyranların populyasiyası bərpa edilib. İşğaldan azad edilmiş ərazilərdə fauna növlərinin - ceyran, bezoar keçisi, Dağıstan turu və nəcib maralın, o cümlədən balıq və yırtıcı quş növlərinin 2022-2023-cü illər ərzində öz tarixi areallarına reintroduksiyası nəzərdə tutulub.

**AZƏRTAC**
**2022, 19 oktyabr**

## «AZƏRBAYCAN–TÜRKİYƏ BEYNƏLXALQ MEŞƏ TƏLİM MƏRKƏZİ», «AĞILLI TİNGÇİLİK» VƏ «DOSTLUQ MEŞƏSİ» KOMPLEKSİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*(20 oktyabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 20-də Cəbrayıl rayonu ərazisində yaradılacaq «Azərbaycan–Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi», «Ağıllı Tingçilik» və «Dostluq Meşəsi» Kompleksinin təməlqoyma mərasimində iştirak etmişlər.

Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev kompleksdə görüləcək işlərlə bağlı dövlət başçılarına məlumat verdi.

Bildirildi ki, işğaldan azad edilmiş ərazilərdə 2021-ci ildə qəbul edilmiş Azərbaycan–Türkiyə–Qarabağ Tədbirlər Planına uyğun olaraq, bir sıra ikitərəfli tədbirlərin həyata keçirilməsinə başlanılıb. Bu tədbirlər çərçivəsində, həmçinin «Azərbaycan–Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi», «Ağıllı Tingçilik» və «Dostluq Meşəsi» Kompleksinin yaradılması nəzərdə tutulub.

Bu məqsədlə yerli və türkiyəli mütəxəssislərlə birlikdə Cəbrayıl rayonunun Şükürbəyli–Cəbrayıl– Hadrut yolunun ətrafında 40 hektar ərazi seçilib. Ərazi dəniz səviyyəsindən 603 metr yüksəklikdə, Bakı şəhərindən 340 kilometr, Zəngilan Beynəlxalq Hava Limanından 72 kilometr, Füzuli Beynəlxalq Hava Limanından isə 35 kilometr məsafədə yerləşir. Məlumat verildi ki, kompleksdə üç mərtəbədən ibarət Meşə Təlim Mərkəzində konfrans zalı, təlim otaqları, qonaq evi, ikimərtəbəli inzibati bina, laboratoriya, yeməkxana, «Ağıllı Tingçilik» və «Dostluq Meşəsi» yaradılacaqdır. Təlim Mərkəzində türkiyəli mütəxəssislər və beynəlxalq təlimçilər tərəfindən Azərbaycan, Türkiyə, Mərkəzi Asiya və digər region ölkələrinin meşə mütəxəssislərinə təlimlər keçiriləcək. Mərkəzin elektrik təchizatı üçün 180 kilovat gücündə Günəş Elektrik Stansiyasının quraşdırılması planlaşdırılır.

«Ağıllı Tingçilik»də qabaqcıl texnologiyalar əsasında istixanalar, toxum saxlama mərkəzi, qapalı kök sistemli ting istehsal sahələri, köçürmə sahələri, kölgələndirmə, soyuducu, qablaşdırma və gübrə anbarları, ting tədarük mərkəzi, təlim zonası, maşın və traktor təlim parkları inşa ediləcəkdir. Burada il ərzində yerli iqlim şəraitinə uyğunlaşdırılmış 2 milyon müxtəlif ting yetişdiriləcək, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının meşə fondu torpaqlarında meşələrin salınmasında və yaşıllaşdırma işlərində istifadə olunacaq. Məlumat verildi ki, layihə ərazisində torpaqqazma və doldurma işlərinə bu il iyunun 20-də başlanılıb və layihənin 2024-cü il iyulun 1-də tam yekunlaşdırılmaqla istismara verilməsi nəzərdə tutulur.

Sonra Azərbaycan və Türkiyə prezidentləri ərazidə ağac əkdilər. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan əraziyə 15 baş ceyran buraxdılar. Azərbaycan ərazisində ceyranların sayının kritik həddə azalması təhlükəsi nəzərə alınaraq, ceyran populyasiyasının tarixi areallarında təbii bərpasının təmin edilməsi məqsədilə Azərbaycan Prezidenti tərəfindən 2003-cü ildə Şirvan Milli Parkı yaradılıb və həyata keçirilən intensiv mühafizə tədbirləri nəticəsində ölkəmizdə ceyranların populyasiyası bərpa edilibdir.

2021-ci ilin noyabr sayımına əsasən, Şirvan Milli Parkının ərazisində 6228 baş ceyran məskunlaşıbdır. Həssas ekosistemlərin bərpası, o cümlədən flora və fauna növlərinin qorunması üçün əsas fəaliyyətlərdən hesab olunan reintroduksiya layihələri davam etdirilir. İşğal dövründə bioloji müxtəliflik komponentlərinə ciddi ziyan dəymiş Qarabağ bölgəsində də bu layihələrin icrası planlaşdırılıb. İşğaldan azad edilmiş ərazilərdə fauna növlərinin –

ceyran, bezoar keçisi, Dağıstan turu və nəcib maralın, o cümlədən balıq və yırtıcı quş növlərinin 2022– 2023-cü illər ərzində öz tarixi areallarına reintroduksiyası nəzərdə tutulub.

Azad olunmuş ərazilərdə balıq növlərinin populyasiyasının bərpası üçün də davamlı işlər görülür. İki il ərzində Bəsitçay, Həkəri və Bərgüşad çaylarının hövzələrinə balıq körpələrinin buraxılışı təşkil olunub və bu işlər növbəti illərdə də həyata keçiriləcəkdir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**123-cü kitab: oktyabr 2022 – noyabr 2022. - Bakı: Azərnəşr, 2022.- S. 81-83.**

## “OĞUZ” KİÇİK SU ELEKTRİK STANSİYALARI SİLSİLƏSİ İSTİSMARA VERİLİB

*(2 dekabr 2022-ci il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Oğuzda Daşağıl çayı üzərində “Oğuz-1”, “Oğuz-2”, “Oğuz-3” kiçik su elektrik stansiyaları silsiləsinin açılışında iştirak edib.

“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına kiçik su elektrik stansiyaları haqqında məlumat verdi.

Bildirildi ki, alternativ və bərpaolunan enerji mənbələrinin əhatəsinin genişləndirilməsi, azalmaqda olan su ehtiyatlarından səmərəli istifadə, təbii qaza qənaət, ətraf mühitin qorunması və “yaşıl enerji”nin prioritet istiqamət seçilməsi ilə bağlı Prezident İlham Əliyevin qarşıya qoyduğu tələblərə uyğun olaraq “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti tərəfindən Oğuz rayonunun Daşağıl çayı üzərində 5 kilometr məsafədə kaskad üsulla 3 yerdə ümumi gücü 3,6 meqavat olan kiçik su elektrik stansiyasından ibarət hidroqovşaq yaradılıb, bu stansiyalarda ümumilikdə 8 hidroaqreqat quraşdırılıb. Baş Daşağıl kəndində hər üç stansiyanın mənbəyi olaraq suqəbuledici və sel sularının ötürülməsi üçün sutullayıcı qurğu inşa edilib. Bu qurğunun yaradılması “yaşıl enerji”nin istehsalı ilə yanaşı, rayonun su təchizatına da töhfəsini verib.

Qeyd edildi ki, pilləli üsulla tikilən üç kiçik su elektrik stansiyasında il ərzində 15 milyon kilovat-saatadək elektrik enerjisinin alınması mümkündür. Əhalisi 44 min nəfər olan Oğuz rayonunun enerji tələbatı 5-6 meqavat təşkil edir ki, mövsümi olaraq onun yarı hissəsini məhz bu elektrik stansiyaları qarşılaya biləcək. Ekoloji cəhətdən daha təmiz və qənaətli enerji istehsal edəcək “Oğuz” kiçik su elektrik stansiyaları silsiləsinin istismara verilməsi regionda yeni iş yerlərinin açılması ilə yanaşı, “yaşıl enerji” nisbətinin bir qədər də yüksəlməsinə səbəb olub.

Məlumat verildi ki, hər üç elektrik stansiyası rəqəmsal qaydada “Azərenerji”nin SCADA dispetçer sisteminə qoşularaq Azərbaycanın ümumi enerji sisteminə inteqrasiya edilib.

Dövlətimizin başçısı elektrik stansiyalarını işə saldı.

Onu da vurğulayaq ki, Prezident İlham Əliyevin “yaşıl enerji” strategiyasına uyğun olaraq son 2 ildə ölkəmizin istər işğaldan azad edilən, istərsə də digər ərazilərində ümumi gücü 50 meqavatdan artıq olan 14 kiçik su elektrik stansiyası yaradılıb və yaradılmaqdadır.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**124-cü kitab: noyabr 2022 – dekabr 2022. - Bakı: Azərnəşr, 2022.- S. 102-103.**

## BAKI AĞ ŞƏHƏRİN MƏRKƏZİ PARK KVARTALINDA GÖRÜLMÜŞ İŞLƏRLƏ TANIŞLIQ VƏ QARABAĞ ATLARI KOMPLEKSİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*(27 dekabr 2022-ci il)*

Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında bir sıra tikililər, avtomobil yolları və digər infrastruktur işləri tamamlanıb.

Dekabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kvartalda görü-lən işlərlə tanış olub, Bakı Ağ Şəhər Qarabağ Atları Kompleksinin təməlini qoyub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov və Bakı Ağ Şəhər layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlətimizin başçısına Kvartalda görülən işlər barədə məlumat veriblər.

Bildirilib ki, Bakı Ağ Şəhərin Mərkəzi Park Kvartalında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən müxtəlif ölçülü küçələrin salınması və yolaltı kommunikasiya infrastruktur işləri tamamlanıb. Bunlar, əsasən Qarabağ Atları, 3-cü Şərq, 6-cı Park küçələri və bir sıra digər küçələrdir.

Bununla da artıq Ağ Şəhərin Xəqani Rüstəmov küçəsindən əlavə daha iki küçəsinin Ba-bək prospektinə rahat giriş və çıxışı təmin ediləcəkdir. Prospekt boyunca magistral su xətti, yüksək və ortatəzyiqli qaz xətləri, elektrik magistral xətlər köçürülərək Ağ Şəhər layihəsinə uyğunluğu təmin edilib.

Tamamlama işləri çərçivəsində arabalar üçün panduslar, yerüstü piyada keçidləri, qoruyucu tumbalar, Daxili İşlər Nazirliyinin "Təhlükəsiz şəhər" xidməti tərəfindən videokameralar quraşdırılıb, "Azərsu" və "Azərişıq" Açıq Səhmdar cəmiyyətləri, "Azəriqaz" İstehsalat Birliyi tərəfindən yeraltı kommunikasiyalar, "Delta Telecom" MMC tərəfindən isə İT kanal sistemləri çəkilib.

Mərkəzi Park Kvartalı 2017-ci ildə təhvil verilmiş Paris evlərindən əlavə, 36, 20 və 8 mərtəbəli yaşayış binaları, 6-cı Park küçəsi boyunca ikimərtəbəli qeyri-yaşayış binaları, ticarət və ictimai iaşə obyektləri, orta məktəb, ofis və dövlət inzibati binaları, bir sıra park və yaşıllıq zonalarından ibarətdir.

Bildirildi ki, Qarabağ Atları küçəsinin mərkəzində səkkizmərtəbəli, müasir fasadlı yaşayış binalarının əhatəsində Qarabağ Atları Meydanı yerləşir.

Prezident İlham Əliyev Qarabağ Atları Meydanına gələrək burada ağac əkdi.

Sonra dövlətimizin başçısı Bakı Ağ Şəhər Qarabağ Atları Kompleksinin təməlini qoydu.

Meydanla tanışlıq zamanı qeyd olundu ki, ətrafdakı binalarda mağazaların, kafe və restoranların, digər ictimai iaşə obyektlərinin açılması nəzərdə tutulur. Burada həmişəyaşıl ağaclar və kollardan ibarət landşaft salınıb. Meydanın mərkəzində Qarabağ atlarının heykəl kompleksi quraşdırılıb. Qarabağ atları heykəl kompleksi Azərbaycanın Qarabağ torpaqlarının 30 illik işğaldan azad edilməsi ilə nəticələnən 44 günlük Vətən müharibəsindəki Zəfərinə həsr edilib. Yeddi Qarabağ atından ibarət kompleksin hazırlanmasına amerikalı heykəltaraş Robert Sammers cəlb olunub. Qeyd edək ki, heykəltaraş Dallas şəhərində yerləşən "Mal-qara sürülməsi", Kaliforniya hava limanında "Con Ueyn" və digər əsərləri ilə dünyada məşhurdur.

Qarabağ Atları küçəsində avtomobillərin və piyadaların təhlükəsiz hərəkəti üçün hər cür şərait yaradılıb. Burada Ağ Şəhər layihəsinə uyğun olaraq piyadalar üçün panduslar və yerüstü keçidlər salınıb, eni 6-8 metr olan səkilərdə xüsusi dizaynlı daş düzümündə küçənin adı qeyd edilib, yaşıllıq zolaqları salınıb, avtomobil və velosiped dayanacaqları yaradılıb, piyadaların istiqamətləndirilməsi üçün yol göstəriciləri və xəritələr, tullantı qutuları, oturacaqlar quraşdırılıb. Küçə şimalda Babək prospektinə, cənubda isə Mərkəzi Parka birləşir.

Prezident İlham Əliyev avtobusla Bakı Ağ Şəhər Mərkəzi Park Kvartalını gəzdi.

Dövlətimizin başçısına məlumat verildi ki, Meydanın ətrafındakı yaşayış binalarının birinin fasadında keramikadan xüsusi hazırlanmış pano quraşdırılıb. Həmçinin burada dördmərtəbəli hipermarket binasının, Babək prospektində müasir dizaynlı çoxfunksiyalı binanın və yaşıllaşdırılmış avtodayanacağın inşası başa çatıb. Bu kommersiya binaları Babək prospekti boyunca yerləşən satış və ticarət məkanlarının davamı olacaq.

Diqqətə çatdırılıb ki, burada, həmçinin Bakı Ağ Şəhərin "landmark"ı olan və hazırda tikintisi aparılan 12 mərtəbəli ofis binası beynəlxalq standartlara uyğun iş məkanı təklif edəcək. Yeraltı və yerüstü avtodayanacaqların, müasir havalandırma sisteminin, sürətli liftlərin nəzərdə tutulduğu binanın qarşısında gəzinti və istirahət üçün geniş yaşıl meydan salınacaq. Ətraf mühit və ekologiyanı tikintidə əsas amil kimi nəzərə alaraq binanın BREEAM ekoloji sertifikatlaşma təşkilatı tərəfindən layihələndirmə mərhələsindən dəyərləndirilməsinə başlanılıb. Bu, artıq Bakı Ağ Şəhərdə BREEAM sertifikatlı ikinci ofis binası olacaq. Biznes mərkəzinin arxasında, hündür binaların əhatəsində 1 hektar ərazisi olan Mərkəzi Park layihələndirilib. Parkda gözoxşayan landşaft və incəsənət nümunələri yer alacaq. Bu park piyadalar üçün şimalda Babək prospekti və Qarabağ Atları Meydanından başlayan Fəvvarələr meydanı və piyada körpüsü boyunca Ağ Şəhər bulvarınadək 2 kilometrlik maneəsiz gəzinti xiyabanı olacaq.

**Prezident İlham Əliyev:** Məqsədimizə çatmışıq, şəhər içində artıq şəhər var.

**Ruslan Sadıxov:** Maşallah, cənab Prezident, qoyduğunuz bütün təməllər hamısı uğurlu olur. Ağ Şəhər də onlardan biridir. Həm uğurlu, həm də böyük bir ekoloji layihə kimi dünyada tanınır. Həmçinin Bakı şəhərinin sakinləri arasında da böyük etimadla qarşılanır.

Dövlətimizin başçısına Bakı Ağ Şəhər layihəsi çərçivəsində növbəti illərdə görüləcək işlər barədə də məlumat verildi.

Qeyd edək ki, Bakı Ağ Şəhər layihəsi Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşı-laşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər planı" çərçivəsində həyata keçirilir. Bakı Ağ Şəhər dünyanın qabaqcıl və müasir ekoloji şəhərsalma layihəsi kimi müxtəlif beynəlxalq və yerli mükafatlara, Honkonqda "MIPIM Asia Awards 2011" müsabiqəsində "Mərkəzi və Qərbi Asiyanın ən yaxşı gələcək layihəsi" nominasiyasında, Dubayda "Cityscape Global" və bir sıra digər sərgilərdə "Ən yaxşı şəhərsalma layihəsi" kimi müxtəlif mükafatlara layiq görülüb.

Ağ Şəhərin təhvil verilmiş kvartallarında artıq minlərlə sakin keyfiyyətli və müasir şəhər mühitində yaşayır. Burada layihələndirilən və tikilmiş binalar, parklar və digər ictimai yerlər Bakı şəhərinin gözəl memarlıq simasına öz töhfəsini verməkdədir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**124-cü kitab: noyabr 2022 – dekabr 2022. - Bakı: Azərnəşr, 2022.- S. 254-258.**

## BAKIDA CƏNUB QAZ DƏHLİZİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN 9-CU VƏ YAŞIL ENERJİ MƏŞVƏRƏT ŞURASI ÇƏRÇİVƏSİNDƏ NAZİRLƏRİN 1-Cİ İCLASLARININ AÇILIŞI OLUB

*(3 fevral 2023-cü il)*

Azərbaycan Prezidenti İlham Əliyev açılışda iştirak edib

Fevralın 3-də Bakıda, "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarının açılışı olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli Prezident Yohannis,

Hörmətli komissar Simson,

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Əvvəlcə mən Rumıniya Prezidentini salamlamaq istəyirəm. O, Azərbaycana rəsmi səfərə gəlib və bugünkü mühüm tədbirdə iştirakına görə təşəkkürümü bildirirəm. Bu, bir daha onu göstərir ki, Rumıniya enerji təhlükəsizliyi məsələlərinə böyük diqqət yetirir və bizim gələcək ümumi addımlar strateji tərəfdaş olan ölkələrimiz arasında əlaqələndirmə nəticəsində atılacaqdır.

Mən xüsusi olaraq xanım komissar Simsona təşəkkürümü bildirmək istəyirəm ki, o, bizim bütün təşəbbüslərimizə davamlı dəstək verib və Cənub Qaz Dəhlizi Məşvərət Şurasının toplantısının çox fəal həmsədri olub və bu mühüm layihənin uğurlu icrasına töhfə verib.

Biz bu gün artıq doqquzuncu dəfədir ki, toplaşırıq və əlbəttə, bir çox məsələlər haqqında danışmalıyıq, adətən etdiyimiz kimi, görülən işləri nəzərdən keçirməliyik və ən vacibi, gələcək addımlarımızı planlaşdırmalıyıq.

Cənub Qaz Dəhlizi Məşvərət Şurasının səkkizinci toplantısından sonra dünyada çox şey dəyişibdir. O toplantı bir il öncə burada keçirilmişdi. Dünya dəyişib, enerji təhlükəsizliyi məsələlərinin hər bir ölkə üçün əhəmiyyəti daha da artır və adətən görüşlərdə söy-lədiyimiz kimi enerji təhlükəsizliyi həqiqətən milli təhlükəsizlik məsələsidir. Yeni marşrutların qurulması və yeni mənbələrin cəlb olunmasına gəldikdə, bütün bunlar birgə səylərimizlə edilmişdir və indi görünür, bu, heç vaxt görünmədiyi kimi vacibdir. Yaxşı haldır ki, biz hər bir şeyi vaxtında etdik, vaxt itirmədik. Baxmayaraq ki, Cənub Qaz Dəhlizi layihəsinin icrasında müəyyən yubanmalar oldu, lakin biz onu mümkün qədər tez başa çatdırmağa çox sadiq idik. İndi isə biz artıq onun genişləndirilməsi haqqında danışırıq.

Cənub Qaz Dəhlizi iki ildən bir az çox vaxt əvvəl açıldı. Bu gün biz artıq TANAP-ın 16 milyard kubmetrdən 30 milyard kubmetrə qədər genişləndirilməsini nəzərdən keçiririk və TAP-ın 10 milyard kubmetrdən 20 milyard kubmetrə genişləndirilməsi haqqında danışırıq. Bu, alternativ enerji mənbəyinə böyük ehtiyac duyulduğunu göstərir. Bu, enerji təchizatının davamlı şaxələndirilməsinin zəruriliyini nümayiş etdirir. Biz buna hazırıq. Ona görə, əvvəlki illərdə birgə səylərimizlə görülmüş bütün işlər bu gün bizim səlahiyyətimizdədir və bizim heyətimiz daha da böyüyür, bu gün bu zalda daha çox bayraqlarımız və hörmətli qonaqlarımız var.

Ötən il bir neçə vacib hadisə oldu. Bu da bizim enerji təhlükəsizliyi sahəsində ümumi öhdəliyimizi nümayiş etdirir. Əvvəlcə mən mühüm bir sənədi qeyd etmək istərdim. O sənəd

ötən ilin iyulunda Bakıda Avropa Komissiyasının rəhbəri xanım Ursula Fon der Lyayen və mənim tərəfimdən imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Memorandumdur və o, əslində, gələcək planlarımız üçün aydın yol xəritəsidir. Avropaya qaz ixracımızı 2027-ci ilə qədər iki dəfə artırmağı planlaşdırırıq və bu, mümkündür, çünki bizim resurslarımız var. Bizim qarşılıqlı siyasi iradəmiz və çox yüksək səviyyədə etimadımız mövcuddur. Cənub Qaz Dəhlizi layihəsinin uğurla həyata keçirilməsinin mühüm amillərindən biri, təbii ki, həll olunmalı texniki və bəzən, siyasi məsələlərdən başqa, yüksək səviyyədə qarşılıqlı etimaddır və mən bunu qarşılıqlı həmrəylik adlandırardım. Məhz bu halda, əgər kiminsə nəyə isə ehtiyacı olanda biz dərhal dəstək verməyə çalışırıq. Hesab edirəm ki, bu, gələcək işlərdə bizi istiqamətləndirəcək tərəfdaşlığın yaxşı ruhudur. Xüsusən indi, Cənub Qaz Dəhlizinin Məşvərət Şurası çərçivəsində, biz ilk olaraq Yaşıl Enerji Məşvərət Şurasını keçirəcəyik.

Digər mühüm bir hadisə isə Yunanıstanla Bolqarıstan arasında interkonnektorun açılması idi. Bu, Cənub Qaz Dəhlizi layihəsi və müəyyən dərəcədə onun şaxələndirilməsi sayəsində oldu və nəticədə bizim üçün təbii qazımızın artıq Bolqarıstana təchizini başlamaq imkanını yaratdı. Həmçinin biz bu genişləndirmə və interkonnektorlar vasitəsilə qonşu ölkələrə də dəhlizin genişləndirilməsini nəzərdə tuturuq.

Təbii ki, dekabr ayı enerji təhlükəsizliyi üçün çox vacib idi, çünki iki mühüm hadisə baş tutdu. Birincisi, biz Azərbaycan və Rumıniya qaz təchizatı haqqında saziş imzaladıq və qaz təchizatı bu yaxınlarda başlayacaq. Beləliklə, Rumıniya həmin Cənub Qaz Dəhlizində iştirak edən ölkələr heyətinə qoşulur və biz, həmçinin Yaşıl Enerjinin İstehsalı və Nəqli sahəsində Sazişi Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında imzaladıq. Bu, səylərimiz üçün əlavə əməkdaşlıq imkanını yaradacaq enerji təhlükəsizliyində bir növ yeni səhifə açacaq. Bir sözlə, bunlar vacib hadisələr idi.

Əgər bu il haqqında danışsaq, yanvar ayında biz Azərbaycan ilə Macarıstan arasında qaz təchizatı sahəsində Anlaşma Memorandumunu imzaladıq və beləliklə, heyətimizə üzv olan ölkələrin sayı artır. Bütün bunlar, ilk növbədə, cəlb edilmiş ölkələrlə sıx siyasi münasibətlər, fəal əlaqələndirmə və Avropa Komissiyası ilə Azərbaycanın bu təşəbbüslərə səmərəli rəhbərliyi sayəsində mümkün olmuşdur. Bu, həmçinin Avropa İttifaqı ilə Azərbaycan arasında başlamış və rəsmi çərçivəyə salınmış enerji dialoqunu da nümayiş etdirdi. Həmin dialoq təbii qazı, elektrik enerjisini, hidrogeni və yaşıl hidrogeni əhatə edir. Hesab edirəm bu, əməkdaşlığımızın çox nadir və səmərəli formatıdır.

Avropaya qaz təchizatının artırılması ilə bağlı Avropa Komissiyası ilə imzalanmış Anlaşma Memorandumundan dərhal sonra Azərbaycandan daha çox qazın təchiz edilməsi məqsədilə əlavə imkanların yaradılması üçün fəal şəkildə işləməyə başladıq. Hazırda yeni yataqlardan bu il gözlədiyimiz hasilata, eləcə də mövcud "Şahdəniz" yatağında hasilatın artırılmasına əlavə olaraq, - bu, birmənalı olaraq baş tutur, - biz, həmçinin ölkə daxilində enerji səmərəliliyi üzərində işləyirik. Biz itkilərin azaldılması proqramı, o cümlədən elektrik enerji və təbii qazın kombinasiyası əsasında daxili istehlak proqramı üzərində çalışırıq. Beləliklə, Azərbaycanda elektrik enerjisinin istehsalında istifadə olunan təbii qaza ixrac məqsədilə daha çox qənaət etmiş olarıq.

Təbii qaz ixracı artır - 2021-ci ildə təxminən 19 milyard kubmetr, ötən il isə 22,6 milyard kubmetr olmuşdur. Biz bu il onun 24,5 milyard kubmetr olmasını gözləyirik. Bu, o deməkdir ki, Avropa Komissiyası ilə Anlaşma Memorandumu uğurla icra olunur. Biz nəinki hasilatı, o cümlədən ixracı artırırıq və həmçinin onun coğrafiyasını genişləndiririk. Əminəm ki, layihəyə qoşulmuş ölkələr bu gün bunun faydasını artıq görürlər və görəcəklər. Həmçinin digər bağlantılar və potensial interkonnektorlar vasitəsilə biz Avropada daha çox ölkələri bu layihəyə qoşa biləcəyik.

Təbii qaz resurslarına gəldikdə, mən artıq dəfələrlə bildirmişəm ki, təbii qaz ehtiyatları bizə və tərəfdaşlarımıza ən azı 100 il üçün bəs edəcək. Əlbəttə ki, biz gələcəyə doğru baxırıq və bu gün yaşıl enerji ilə bağlı Məşvərət Şurasının ilk iclası da olacaq. Heyət nisbətən kiçikdir - cəmi 4 ölkə var.

Bu gün komandamızda yalnız dörd iştirakçı ölkə olsa da, bu sayın artma potensialı var, çünki biz düşünürük ki, yalnız hökumətlər deyil, şirkətlər də bu mühüm təşəbbüsdə iştirak etməyə maraq göstərəcəklər. Məşvərət Şurasının ilk iclasında, sözsüz ki, konseptual məsələlər həllini tapmalıdır: öz fəaliyyətimizi necə quracağıq, hər iştirakçı ölkənin məsuliyyəti nədən ibarət olacaq, özəl şirkətlər necə cəlb olunacaq, – bu, şirkətlərdən ibarət konsorsiummu olacaq, yoxsa hər bir iştirakçı dövlət öz suveren ərazisində üzərinə düşən işi özü yerinə yetirəcək? Bütün bu məsələləri müzakirə etmək və razılaşdırmaq tələb olunur. Çünki məsələ yalnız Azərbaycandakı quru və dəniz yataqlarında bərpaolunan enerjinin istehsalı, yaxud Gürcüstanla sərhədimizə qədər yeni ötürücü elektrik xəttinin çəkilməsi ilə deyil, habelə Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsi ilə bağlıdır.

Buna görə də biz planlarımızı düzgün qurmalı və kimlərin potensial investor ola biləcəyini bilməliyik. Əlbəttə ki, biz beynəlxalq maliyyə qurumları ilə də əməkdaşlığımızı davam etdirəcəyimizə ümid edirik. Fürsətdən istifadə edərək tərəfdaşlarımız olan ölkələrin hökumətlərinə minnətdarlığımı bildirmək istərdim. Bu ölkələr Türkiyə, Gürcüstan, Yunanıstan, Bolqarıstan, Albaniya, İtaliya və yeni tərəfdaşlarımız olan Rumıniya, Moldova və Macarıstandır.

Davamlı dəstəyinə və əla rəhbərliyinə görə Avropa Komissiyasına xüsusi təşəkkürümü bildirirəm. Həmçinin ABŞ və Böyük Britaniya hökumətlərinə dərin təşəkkürümü bildirmək istərdim. Çünki onlar təşəbbüsümüzü davamlı dəstəkləmiş, eləcə də investisiya və maliyyə imkanları da daxil olmaqla geniş əməkdaşlıq üçün güclü bünövrə təmin etmişlər.

Bu prosesdə iştirak edən şirkətlər, xüsusilə SOCAR və BP bir-birilə strateji əlaqələr qurmuş iki aparıcı şirkətdir. Bu əlaqələr ən azı 30 il də davam edəcəkdir. Bu gün aramızda nümayəndələrinin iştirak etdiyi aparıcı maliyyə qurumları da vardır. Bunlar Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Beynəlxalq Maliyyə Korporasiyasıdır. Yəni, bütün aparıcı maliyyə qurumları bizimlədir. Biz ümidvarıq ki, səmərəli əməkdaşlığımızı bərpaolunan enerji sahəsində də davam etdirəcəyik.

Bu gün biz Azərbaycanda “Masdar” və “ACWA Power” kimi investorlarla birlikdə günəş və külək enerjisinin istehsalı ilə bağlı iki sərmayə layihəsini həyata keçiririk. Bu layihələrin ümumi həcmi 470 meqavatdır. Həmçinin bu yaxınlarda BP şirkəti ilə birlikdə bir layihənin icrasına başlayacağıq. Bu, işğaldan azad olunmuş Cəbrayıl rayonunun ərazisində inşa ediləcək 240 meqavatlıq elektrik stansiyası olacaqdır. Yəni, cəmi 710 meqavat. Hər şey plan üzrə gedərsə, təxminən bir il və ya ilyarım ərzində biz bu həcmdə bərpaolunan enerji istehsal edəcəyik. Bu isə yüz milyonlarla kubmetr qaza ixrac məqsədləri üçün qənaət etməyə imkan verəcəkdir.

Bərpaolunan enerji ilə bağlı planlarımıza gəldikdə, artıq qeyd etdiklərimə əlavə olaraq deyə bilərəm ki, hələ ki, üç əsas enerji şirkəti ilə aramızda razılaşdırılmış və imzalanmış anlaşma memorandumu var. Onlara uyğun olaraq həm quruda, həm də dənizdə 25 qiqavat bərpaolunan günəş və külək enerjisi istehsal ediləcəkdir. Bu həcmin 10 qiqavatı “Masdar” şirkəti, 12 qiqavatı “Fortescue” şirkəti tərəfindən istehsal olunacaqdır. “ACWA Power” şirkəti isə bugünkü mərasimdə imzalanmış və hazırda icra olunan razılaşmaya əlavə olaraq 2,5 qiqavat enerjinin istehsalı üzrə öhdəlik götürəcəkdir. Bu, həqiqətən də çox böyük potensialdır.

Qara dənizin dibi ilə çəkiləcək elektrik kabelinə gəldikdə isə iş planımızı mərhələli şəkildə və Avropanın şərtləri ilə əlaqəli şəkildə qurmaq tələb olunur. Bu, həmçinin Avropa

qitəsində potensial əməkdaşlıq imkanlarımızı daha geniş miqyasda müəyyən etmək üçün lazımdır. Əminəm ki, Rumıniya və Macarıstan yaşıl enerjini qəbul edəcək son məntəqələr olmayacaqdır.

Azərbaycan, həmçinin çox böyük yaşıl enerji potensialına malikdir. Bu, artıq təsdiq olunmuş faktdır. Yalnız dənizdə külək enerjisinin potensialı 157 qiqavatdır, quruda külək və günəş enerjisinin potensialı 27 qiqavatdır, iki ildən də artıq müddət əvvəl Vətən müharibəsi zamanı azad etdiyimiz torpaqlarda 10 qiqavata yaxındır. Biz, həmçinin Naxçıvan Muxtar Respublikasında böyük bərpaolunan enerji potensialı müəyyən etmişik. Hazırda 500 meqavatlıq günəş elektrik stansiyasının tikintisinin mümkünlüyü ilə bağlı danışıqlar aparılır. Düşünürəm ki, bu potensial daha artıq olacaqdır. Yəni, hazırda əlimizdə olan imkanlar bunlardan ibarətdir.

Qazın paylanması ilə əlaqədar yaxşı uğurlarımız var. Biz yaşıl enerji ilə bağlı saziş imzalamışıq. Biz, həmçinin təbii qaz və bərpaolunan enerji imkanları arasında səmə-rəliliyin artırılmasına əsaslanan qarşılıqlı əlaqə yaratmalı və bunu vahid paket çərçivəsində etməliyik. Bizim güclü siyasi iradəmiz və əlbəttə ki, fəaliyyətimizin uğurlu tarixçəsi var. Bizim müxtəlif formatlarda və müxtəlif ölkələrlə birgə həyata keçirdiyimiz bütün layihələr – istər Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, istər Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri, istərsə də Cənub Qaz Dəhlizi – hamısı uğurlu olmuşdur.

Əminəm ki, Avropa qitəsində həm təbii qaz, həm də bərpaolunan enerji istehsalı ilə bağlı gələcək planlarımız uğurlu olacaqdır. Bunun üçün işimizi komanda şəklində davam etdirməli, bir-birimizi davamlı surətdə dəstəkləməliyik. Əminəm ki, gələn ilin fevralında Bakıda baş tutacaq növbəti görüşümüzdə biz yeni nailiyyətlərimiz barədə danışacağıq.

Diqqətinizə görə təşəkkür edirəm!

* * * *

Qeyd edək ki, tədbirlərdə Avropa İttifaqının, Türkiyə, İtaliya, ABŞ, Böyük Britaniya, Gürcüstan, Macarıstan, Rumıniya, Bolqarıstan, Yunanıstan, Albaniya, Moldova, Monteneqro, Serbiya, Ukrayna və Xorvatiyanın yüksək səviyyəli nümayəndələri iştirak edirlər.

İclaslarda enerji şirkətlərindən SOCAR, BP, BOTAŞ, TANAP, TAP, TPAO, TAQA, Bulgargaz EAD, Bulgartransgaz, İCGB, Fluxys, ROMGAZ SA, SACE, Desfa, TotalEnergies, FGSZ Ltd, SNAM, Uniper, Petronas, ACWA Power, Masdar, Fortescue Future Industries, WindEurope, SolarPower Europe, maliyyə təsisatlarından isə Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Asiya İnkişaf Bankı və digər qurumlar təmsil olunur.

Tədbir "Cənub Qaz Dəhlizi və Yaşıl enerji üzrə nazirlər sessiyası", "Cənub Qaz Dəhlizi: Əlverişli, sabit və təhlükəsiz təbii qaz təchizatının genişləndirilməsi" və "Yaşıl enerji: Xəzər dənizinin külək enerjisinin Avropa enerji bazarlarına çatdırılması" mövzularında plenar sessiyalarla davam edəcək.

Həmçinin Məşvərət Şurası çərçivəsində "Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Hökumətləri arasında imzalanmış yaşıl enerji sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası üzrə Rəhbər Komitənin ilk iclasının keçirilməsi də planlaşdırılır.

Sonda iclasların yekunlarına dair mətbuat konfransı keçiriləcək.

**AZƏRTAC**
**2023, 3 fevral**

## NEFTÇALANIN YENİKƏND KƏNDİNDƏ “AZERBAIJAN FISH FARM” MMC-NİN NƏRƏ DAMAZLIQ TƏSƏRRÜFATINDA YARADILAN ŞƏRAİTLƏ TANIŞLIQ

*(18 aprel 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 18-də Neftçalanın Yenikənd kəndində “Azerbaijan Fish Farm” MMC-nin Nərə Damazlıq Təsərrüfatında yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma zavodda yaradılan şərait barədə məlumat verildi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hazır məhsullara baxdılar.

Bildirildi ki, S.Q.Kərimov adına Kür-təcrübi nərə balıqartırma zavodu 1954-cü ildə istismara verilib və özəlləşdirilənədək Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində fəaliyyət göstərib. Özəlləşdirildikdən sonra müəssisədəki 34 nohur tam yenidən qurulub, qapalı su çevrəsi əsasında fəaliyyət göstərən texnologiya alınıb, hovuzlar təmir olunub və yeni hovuzlar quraşdırılıb. Həmçinin yeni idarə binası, yeməkxana və “Qonaq evi” binası müasir səviyyədə inşa olunub, su təchizatı sistemi yenilənib, ərazi abadlaşdırılıb.

Diqqətə çatdırılıb ki, investisiya proqramının icrası nəticəsində müəssisənin Xəzəryanı dövlətlər arasında ilk dəfə olaraq nohur, açıq su təchizatı sistemi və qapalı su çevrəsi əsasında fəaliyyət göstərən ixtisaslaşmış damazlıq təsərrüfatının yaradılmasına nail olunub.

Müəssisəyə 16 milyon manata yaxın vəsait yatırılıb, 90-dək yeni iş yeri yaradılaraq işçilərin ümumi sayı 115 nəfərə çatdırılıb. Onların orta aylıq əməkhaqqı 600 manat təşkil edir.

Vurğulandı ki, hazırda müəssisə tam özəl sahibkarlıq subyekti olduğundan “Azerbaijan Fish Farm” MMCnin Yenikənd Nərə Damazlıq Təsərrüfatı adlanır. Müəssisə 1 əsas və 2 yardımçı təsərrüfatdan ibarətdir. Əsas təsərrüfat Neftçala rayonunun Yenikənd kəndində yerləşir və ümumi sahəsi 58,6 hektar təşkil edir. Təsərrüfat nohurlardan, qapalı su çevrəsi təchizatı sistemindən və müxtəlif hidrotexniki qurğulardan, o cümlədən sudurulducu sistemlərdən ibarətdir.

Niderlandın tanınmış şirkətlərindən biri tərəfindən qurulmuş qapalı su çevrəsi sistemi müxtəlif yaş qruplarına aid balıqların yetişdirilməsi üçün hovuzları, suyun tərkibini nəzarətdə saxlama sistemini və qurğularını özündə birləşdirir. Balıq saxlanılması, artırılması və yetişdirilməsi üçün 34 nohurun ümumi sahəsi 34 hektardır.

Təsərrüfatın “Dəniz sahili bölməsi”nin ümumi sahəsi 8 hektardır və Xəzər dənizinin sahilində, Nord-Ost qoltuq istiqamətində yerləşir. Təbii mühit şəraitinə uyğunluğu təmin etmək məqsədilə bu bölmə dəniz suyu ilə təchiz olunan və diametri 6 metr olan 12, diametri 9 metr olan 16 və diametri 20 metr olan 32 hovuzdan ibarətdir. Hazırda bu hovuzlarda müxtəlif yaş qruplarına aid ümumi kütləsi 61,7 ton olan nərə cinsli 18 min 400 balıq yetişdirilir.

Qeyd edildi ki, təsərrüfatda il ərzində 10 ton nərə cinsli balıq kürüsü, 200 ton nərə cinsli balıq əti, 100 ton əmtəəlik çəkikimi balıqların istehsal edilməsi nəzərdə tutulur. Nərəcinsli balıqların faktiki istehsalı 65 ton, kürü məhsulu isə 1,327 ton təşkil edir.

Bioloji müxtəlifliyin qorunması və nəsli kəsilməkdə olan balıq növlərinin bərpası məqsədilə 1 milyon ədəd nərəcinsli balıq körpəsinin artırılaraq, aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə Xəzər dənizinə buraxılması da layihədə yer alıb.

“Azerbaijan Fish Farm” MMC-nin Yenikənd Nərə Damazlıq Təsərrüfatı ilə bağlı layihənin icrası zamanı sosialyönümlü tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulub və bu tədbirlərin bir hissəsi artıq yerinə yetirilib. Belə ki, Yenikənd kəndi və Bankə qəsəbəsində yollar abadlaşdırılıb, su təchizatı sistemi qurulub, işıq və qaz təminatı bərpa edilib.

Təsərrüfatın yenidən qurulması zamanı bütün texniki-bioloji normativlərə və qaydalara riayət olunub. Mövcud yerli və beynəlxalq qanunvericilik çərçivəsində fəaliyyət göstərməsi üçün Ətraf Mühit və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədi və Texniki-Bioloji Əsaslandırılma hazırlanıb, istehsal və satış üçün Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) "İSO-22000" və "Halallıq" beynəlxalq sertifikatları alınıb.

Eyni zamanda, kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarət konvensiyası (CİTES) katibliyinin icazə kodu alınıb.

Qeyd edək ki, 2022-ci ildə təsərrüfatda ümumilikdə 2 milyon 101 min 468 manat dəyərində 50 min 731 ton balıq və balıq məhsulları istehsal olunub və satılıb.

**AZƏRTAC**
**2023, 18 aprel**

## “AZƏRENERJİ” ASC-NİN ZƏNGİLANDA “SARIQIŞLAQ” SU ELEKTRİK STANSİYASINDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*(4 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 4-də “Azərenerji” ASC-nin Zəngilan rayonunda “Sarıqışlaq” Su Elektrik Stansiyasında tikinti işlərinin gedişi ilə tanış olub.

“Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Araz çayının sol qolu olan Oxçuçayın üzərində yerləşən stansiyanın qoyuluş gücü 10,5 meqavatdır. Su Elektrik Stansiyasında orta illik elektrik enerjisi istehsalı 26,7 milyon kilovat-saat nəzərdə tutulur.

Qeyd olundu ki, yeni stansiya binasının tikintisi, perimetr boyu hasarlama işləri yekunlaşıb. Maşın zalı, aqreqatlar, generatorlar, idarəetmə panelləri, rele mühafizəsi, avtomatika və idarəetmə panellərində məsafədən idarəetmə kompüterlərinin quraşdırılması üzrə işlər icra edilir. Həmçinin “Şayıflı” Kiçik Su Elektrik Stansiyasından çıxan suyun “Sarıqışlaq” SES-ə ötürülməsi məqsədilə nəzərdə tutulmuş derivasiya borusunun çəkilməsi üzrə işlər davam edir. Derivasiya tipli su elektrik stansiyasının suqəbuledicisi ilə stansiyaarası məsafə 5239 metrdir. “Sarıqışlaq” SES-in turbinlərindən keçən suyun heç bir itki olmadan “Zəngilan” KSES-ə ötürülməsi istiqamətində işlər davam etdirilir.

Bu stansiyada 110 kilovoltluq açıq paylayıcı qurğunun tikintisi, istehsal olunacaq elektrik enerjisinin enerjisistemə inteqrasiyası və stansiyada avtomatik idarəetmə sisteminin qurulması da nəzərdə tutulub. Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək “Sarıqışlaq” SES-də il ərzində 33,2 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq.

Dövlətimizin başçısına Zəngilan, Laçın və Kəlbəcər rayonlarında tikilən Su Elektrik stansiyaları barədə də məlumat verildi.

Bildirildi ki, hazırda “Azərenerji” tərəfindən Zəngilan və Laçın rayonlarında 7 yerdə ümumi gücü 70,5 meqavat olan Su Elektrik stansiyalarının tikintisi aparılır. Oxçuçayın üzərində yerləşən və Zəngilan rayonunun ərazisində yaradılan “Şayıflı”, “Sarıqışlaq”, “Zəngilan” və “Cahangirbəyli” Su Elektrik stansiyaları yeni tikilir və həmin stansiyaların hər birinin gücü 10,5 meqavat olmaqla, ümumilikdə 42 meqavat təşkil edəcək. Laçın rayonundakı 14,25 meqavat gücündə “Ağbulaq”, 8,25 meqavat gücündə “Mişni” və 6 meqavat gücündə “Alxaslı” stansiyaları isə yenidən qurulur.

Yaşıl enerji zonası konsepsiyasına uyğun olaraq, ekoloji cəhətdən təmiz enerji istehsal edəcək bu stansiyaların hər biri rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması mümkün olmaqla yanaşı, stansiyalara Bakıdan və digər yerlərdən nəzarət etmək əlçatan olacaq. Su Elektrik stansiyalarında il ərzində ümumilikdə 230 milyon kilovat-saat ekoloji cəhətdən təmiz yaşıl hidroenerjinin istehsalı nəzərdə tutulub.

Həmçinin diqqətə çatdırıldı ki, hazırda Laçın və Kəlbəcər rayonlarında daha 9 yerdə ümumi gücü 76,8 meqavat olan Su Elektrik stansiyalarının tikintisinə başlanılır. Laçın rayonu ərazisində “Mirik”, “Qaraqışlaq”, “Ağbulaq”, “Zabux” və Kəlbəcərdəki “Zar” Su Elektrik stansiyaları tamamilə yenidən qurulacaq. Eyni zamanda, Kəlbəcər rayonu ərazisində “Nadirxanlı”, “Yuxarı Vəng”, “Aşağı Vəng” və işğaldan azad edilən Murov dağın aşağı istiqamətində “Toğanalı” Kiçik Su Elektrik stansiyaları yeni layihə əsasında tikiləcək.

Qeyd edək ki, bu günədək “Azərenerji” tərəfindən 11 yerdə ümumi gücü 53,6 meqavat olan Kiçik Su Elektrik stansiyaları yenidən qurulub. Onlardan ümumi gücü 27 meqavat olan 5 stansiya Kəlbəcər rayonunda açılışa hazır vəziyyətə gətirilib.

Beləliklə, böyük Zəfərdən sonra işğaldan azad edilən ərazilərdə tikilən Su Elektrik stansiyalarının ümumi sayı 25-ə çatdırılacaq və 200 meqavata yaxın ekoloji cəhətdən təmiz, hidro yaşıl enerji istehsal etmək mümkün olacaq.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 128-ci kitab: may 2023. - Bakı: Azərnəşr, 2023.- S. 32-34.**

## KƏLBƏCƏR RAYONUNDA "QAMIŞLI" KİÇİK SU ELEKTRİK STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*(27 may 2023-cü il)*

Mayın 27-də Kəlbəcər rayonunda "Qamışlı" Kiçik Su Elektrik Stansiyasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev stansiyanın açılışında iştirak edib.

"AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verdi.

Kəlbəcəri tərk edərkən ermənilərin avadanlıqlarını daşıyaraq tamamilə dağıtdıqları "Qamışlı" Kiçik Su Elektrik Stansiyası da "AzərEnerji" tərəfindən tamamilə yenidən tikilib. Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin yaşıl enerji zonasına çevrilməsi ilə bağlı strategiyasına uyğun olaraq yaradılan 6,3 meqavat gücündə "Qamışlı" Kiçik Su Elektrik Stansiyası üçün maşın zalı inşa edilib.

Bildirildi ki, "Qamışlı" stansiyası da daxil olmaqla indiyədək azad edilən ərazilərdə tikilmiş və tikilən su elektrik stansiyalarının hər birində çayın 50 faiz təminatı nəzərə alınmaqla ekoloji normanın saxlanılması üçün derivasiya boruları çayın axını ilə paralel quraşdırılıb. Burada boru ilə axan su da yenidən çaya buraxılır. Bütün yerlərdə, o cümlədən "Qamışlı" stansiyasında da su ehtiyatlarından səmərəli istifadə olunması, daşqınların qarşısının alınması və su itkisinə yol verilməməsi üçün çayın məcrasına uyğun idarəolunan suqəbuledicilər tikilib. Eyni zamanda, təbii mühitin, flora və faunanın qorunması da aidiyyəti dövlət qurumları ilə razılaşdırılmış şəkildə xüsusi diqqətdə saxlanılıb.

Prezident İlham Əliyev "Qamışlı" Kiçik Su Elektrik Stansiyasını işə saldı.

İki hidroaqreqatdan ibarət "Qamışlı" stansiyasında 110 kilovoltluq yarımstansiya yaradılıb. Burada enerjisistemə tam inteqrasiya olunmaqla məsafədən idarəetməyə imkan verən mərkəzləşmiş SCADA sistemi qurulub. Stansiyada Avropanın aparıcı şirkətlərinin istehsalı olan müasir hidroturbinlər, generatorlar, idarəetmə, rele mühafizəsi və avtomatika panelləri quraşdırılıb.

"Qamışlı" Kiçik Su Elektrik Stansiyasında ümumilikdə il ərzində 18,5 milyon kilovat-saat ekoloji cəhətdən təmiz yaşıl hidroenerjinin istehsal edilməsi nəzərdə tutulur.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**128-ci kitab: may 2023. - Bakı: Azərnəşr, 2023.- S. 240-241.**

## KƏLBƏCƏR RAYONUNDA "MEYDAN" KİÇİK SU ELEKTRİK STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*(27 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Kəlbəcər rayonunda "Meydan" Kiçik Su Elektrik Stansiyasının açılışını edib.

Dövlətimizin başçısına stansiyada görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, alternativ və bərpaolunan enerji mənbələrinə keçidin sürətləndirilməsi, su ehtiyatlarından səmərəli istifadə olunması, işğaldan azad edilən ərazilərin yaşıl enerji zonasına çevrilməsi ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Kəlbəcər rayonunun ərazisində Tərtərçayın sol qolu olan Meydan çayının üzərində 3,4 MVt-lıq kiçik su elektrik stansiyası tam yenidən qurulub. Ermənilər tərəfindən partladılaraq yandırılan və avadanlıqları daşınan bu stansiyanı "AzərEnerji" daha müasir və rəqəmsal qaydada yenidən qurub. Burada yeni maşın zalı tikilib, müasir hidroaqreqatlar, generatorlar, idarəetmə, rele mühafizəsi və avtomatika panelləri quraşdırılıb. 1590 metr yüksəklikdə yerləşən baş suqəbuledici qurğu, eləcə də 4564 metr uzunluğunda derivasiya borusu tam yenidən qurulub.

"Meydan" Su Elektrik Stansiyası enerjisistemə inteqrasiya olunmaqla məsafədən idarəetməyə imkan verən mərkəzləşmiş SCADA sisteminə qoşulub. Bununla da stansiyanın idarəetmə sistemi avtomatlaşdırılıb, xüsusi proqram təminatı ilə rəqəmsallaşdırılaraq müasir formaya keçirilib. Eləcə də ərazidə fors-major hallar üçün 45 kVA gücündə ehtiyat dizel generatoru quraşdırılıb. Yenidən qurulan "Meydan" Kiçik Su Elektrik Stansiyasında il ərzində 10 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq.

Prezident İlham Əliyev "Meydan" Kiçik Su Elektrik Stansiyasını işə saldı.

Diqqətə çatdırıldı ki, işğaldan azad olunan ərazilərdə "AzərEnerji" ASC tərəfindən bu günə qədər 11 su elektrik stansiyası yenidən qurularaq bərpa edilib. Hazırda Kəlbəcər, Laçın və Zəngilanda 7 yerdə su elektrik stansiyalarının tikintisi davam edir. Eləcə də Kəlbəcər və Laçında daha 9 yerdə su elektrik stansiyalarının tikintisinə başlanılır. Ümumilikdə bu günə kimi yenidən qurulan və yaxın perspektivdə tikilərək istismara veriləcək bu su elektrik stansiyalarının ümumi gücü 200 MVt-a yaxın olacaq və nəticədə 600 milyon kilovat-saata yaxın ekoloji cəhətdən təmiz hidroyaşıl enerji istehsal ediləcək.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**128-ci kitab: may 2023. - Bakı: Azərnəşr, 2023.- S. 241-243.**

**LAÇIN RAYONUNDA ŞƏRQİ QAFQAZ TURLARI VƏ ŞAHİN QUŞLARI TƏBİƏTƏ, MÜXTƏLİF NÖV BALIQLAR HƏKƏRİ ÇAYINA BURAXILIB**

*(28 may 2023-cü il)*

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Laçın rayonunun ərazisində Şərqi Qafqaz turlarının və şahin quşlarının təbiətə, həmçinin işğaldan azad olunmuş ərazilərdə su ekosisteminin bərpası istiqamətində 32 mindən artıq çəki, qızılbalıq və qızılxallı forelin Həkəri çayına buraxılması mərasimində iştirak edib.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Əvvəlcə Prezident İlham Əliyevin iştirakı ilə ölkə ərazisində reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində rayonun ərazisinə boyunlarına xüsusi siqnalötürücü xaltalar bağlanmış Şərqi Qafqaz turları və şahin quşları təbiətə buraxıldı.

Məlumat verildi ki, Şərqi Qafqaz turları ölkəmizdə Böyük Qafqazın Cənub və Şərq yamaclarında daha geniş yayılıb. Əsasən dəniz səviyyəsindən 1000-3000 metr hündürlükdə yaşayan bu heyvanların sayı ölkəmizdə 7-8 min başdır. Şərqi Qafqaz turlarının fəallığı mövsümdən və yem bazasından asılı olaraq dəyişir. Vaxtilə bu heyvanlar Kiçik Qafqaz dağlarında yaşasalar da, sonradan həmin ərazidə nəsli tükənib.

Həmçinin qeyd olundu ki, adı "Qırmızı kitab"a düşən şahin quşları Qətərdən Azərbaycana gətirilib. Bundan əvvəl də 200-dək şahin quşu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Qətər Dövlətinin Proqramı çərçivəsində ölkəmizin bioloji müxtəlifliyinin inkişafına dəstək məqsədilə Xızı, Siyəzən və Şabran rayonları ərazisində vəhşi təbiətə buraxılıb.

Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu. Bildirildi ki, Laçın rayonu işğaldan azad olunduqdan sonra 2022-ci il sentyabrın 5-8-də rayon ərazisində monitorinq aparılıb. Monitorinq zamanı Laçın şəhəri ərazisində 10 müxtəlif yerdə ümumilikdə 13 hektar yaşıllıq sahəsinin, Laçın yolu adlandırılan ərazidə isə 448,8 hektar meşə sahəsinin yandırılması faktı müəyyən edilib. Yaşıllıq sahəsinin yandırılması nəticəsində müxtəlif növ 7135 ağacın, sıx örtülü meşə sahəsinin məhv edildiyi aşkarlanıb. Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə su ekosisteminin bərpası istiqamətində 32 mindən artıq çəki, qızılbalıq və qızılxallı forelin Həkəri çayına buraxılması mərasimində də iştirak etdi.

Dövlətimizin başçısına nadir və həssas növlərin artırılması və populyasiyalarının bərpası istiqamətində otuz ildən sonra ilk dəfə Qarabağda və Şərqi Zəngəzurda fauna və flora növlərinin tədqiqi, Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan "Qırmızı kitab"ın üçüncü nəşri ilə bağlı görülmüş işlər və perspektivlər barədə məlumat verildi.

Qeyd olundu ki, işğaldan azad edilmiş ərazilərdə ötən dövrdə fauna növlərindən 33 baş ceyran öz tarixi areallarına qaytarılıb. Otuz ilə yaxın işğal dövründə ekoloji tarazlığın pozulması, regiona xas növlərin yaşama yerlərinin fraqmentləşməsi kimi mənfi halların aradan qaldırılması üçün təbii bərpa prosesinə dəstək tədbirləri davam etdiriləcək.

Bildirildi ki, işğal dövründə tamamilə məhv edilmiş hidrometeoroloji müşahidə və ekoloji monitorinq şəbəkəsi yenidən qurularaq modernləşdirilib. Ərazidən axan əsas çaylar üzərində 11 avtomat hidroloji, Şuşa, Ağdam, Füzuli, Kəlbəcər və Zəngilan rayonlarında 5 avtomat meteoroloji, Zəngilan rayonundakı "Ağıllı kənd" ərazisində avtomat aqrometeoroloji, həmçinin transsərhəd ərazilərdə radiasiya fonunun nəzarətdə saxlanılması məqsədilə avtomat radioekoloji stansiyalar quraşdırılıb.

Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə formalaşan bərk məişət tullantılarının idarə olunması istiqamətində görülən işlər barədə də məlumat verildi. Bu ərazilərdə

tullantıların müasir standartlara uyğun idarə olunması üçün xüsusi təyinatlı texnika və avadanlıqların alındığı və Regional Strategiyanın hazırlandığı diqqətə çatdırıldı.

* * * *

Sonra Prezident İlham Əliyev istirahət üçün nəzərdə tutulan kottec tipli evlərin inşası ilə tanış oldu.

**AZƏRTAC**
**2023, 27 may**

## 32 MİNDƏN ARTIQ ÇƏKİ, QIZILBALIQ VƏ QIZILXALLI FORELİN HƏKƏRİ ÇAYINA BURAXILMASI MƏRASİMİ

*(28 may 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də ölkəmizdə reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Laçın rayonunun ərazisində Şərqi Qafqaz turlarının və şahin quşlarının təbiətə, həmçinin işğaldan azad olunmuş ərazilərdə su ekosisteminin bərpası istiqamətində 32 mindən artıq çəki, qızılbalıq və qızılxallı forelin Həkəri çayına burax ılması mərasimində iştirak etmişdir.

Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev dövlət başçısına görülmüş işlər barədə məlumat verdi .Əvvəlcə Prezident İlham Əliyevin iştirakı ilə ölkə ərazisində reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində rayonun ərazisinə boyunlarına xüsusi siqnalötürücü xaltalar bağlanmış Şərqi Qafqaz turları və şahin quşları təbiətə buraxıldı. Məlumat verildi ki, Şərqi Qafqaz turları ölkəmizdə Böyük Qafqazın Cənub və Şərq yamaclarında daha geniş yayılıb. Əsasən dəniz səviyyəsindən 1000–3000 metr hündürlükdə yaşayan bu heyvanların sayı ölkəmizdə 7-8 min başdır. Şərqi Qafqaz turlarının fəallığı mövsümdən və yem bazasından asılı olaraq dəyişir. Vaxtilə bu heyvanlar Kiçik Qafqaz dağlarında yaşasalar da, sonradan nəsli tükənib.

Həmçinin qeyd olundu ki, adı «Qırmızı kitab»a düşən şahin quşları Qətərdən Azərbaycana gətirilib. Bundan əvvəl də 200-dək şahin quşu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Qətər Dövlətinin Proqramı çərçivəsində ölkəmizin bioloji müxtəlifliyinin inkişafına dəstək məqsədilə Xızı, Siyəzən və Şabran rayonları ərazisində vəhşi təbiətə buraxılıb. Sonra dövlət başçısına xatirə hədiyyəsi təqdim olundu.

Bildirildi ki, Laçın rayonu işğaldan azad olunduqdan sonra 2022-ci il sentyabrın 5–8-də rayon ərazisində monitorinq aparılıb. Monitorinq zamanı Laçın şəhəri ərazisində 10 müxtəlif yerdə ümumilikdə 13 hektar yaşıllıq sahəsinin, Laçın yolu adlandırılan ərazidə isə 448,8 hektar meşə sahəsinin yandırılması faktı müəyyən edilib. Yaşıllıq sahəsinin yandırılması nəticəsində müxtəlif növ 7135 ağacın, sıx örtülü meşə sahəsinin məhv edildiyi aşkarlanıb.

Dövlət başçısına nadir və həssas növlərin artırılması və populyasiyalarının bərpası istiqamətində 30 ildən sonra ilk dəfə Qarabağda və Şərqi Zəngəzurda fauna və flora növlərinin tədqiqi, ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş «Qırmızı kitab»ın üçüncü nəşri ilə bağlı görülmüş işlər və perspektivlər barədə məlumat verildi.

Qeyd olundu ki, işğaldan azad edilmiş ərazilərdə ötən dövrdə fauna növlərindən 33 baş ceyran öz tarixi areallarına qaytarılıb. 30 ilə yaxın işğal dövründə ekoloji tarazlığın pozulması, regiona xas növlərin yaşama yerlərinin fraqmentləşməsi kimi mənfi halların aradan qaldırılması üçün təbii bərpa prosesinə dəstək tədbirləri davam etdiriləcək.

Bildirildi ki, işğal dövründə tamamilə məhv edilmiş hidrometeoroloji müşahidə və ekoloji monitorinq şəbəkəsi yenidən qurularaq modernləşdirilib. Ərazidən axan əsas çaylar üzərində 11 avtomat hidroloji, Şuşa, Ağdam, Füzuli, Kəlbəcər və Zəngilan rayonlarında 5 avtomat meteoroloji, Zəngilan rayonundakı «ağıllı kənd» ərazisində avtomat aqrometeoroloji, həmçinin transsərhəd ərazilərdə radiasiya fonunun nəzarətdə saxlanılması məqsədilə avtomat radioekoloji stansiyalar quraşdırılıb.

Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə formalaşan bərk məişət tullantılarının idarə olunması istiqamətində görülən işlər barədə də məlumat verildi.

Bu ərazilərdə tullantıların müasir standartlara uyğun idarə olunması üçün xüsusi təyinatlı texnika və avadanl ıqların alındığı və regional strategiyanın hazırlandığı diqqətə çatdırıldı. Sonra Prezident İlham Əliyev istirahət üçün nəzərdə tutulan kottec tipli evlərin inşası ilə tanış oldu.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev. 128-ci kitab: may 2023. - Bakı: Azərnəşr, 2023.- S. 284-287.**

## MƏRKƏZİ NƏBATAT BAĞININ ƏRAZİSİNDƏ APARILAN ABADLIQ, YENİDƏN QURULMA VƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*(12 iyul 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyulun 12-də Bakıda Mərkəzi Nəbatat Bağının ərazisində aparılan abadlıq, yenidənqurma və tikinti işlərinin gedişi ilə tanış olublar.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına və birinci xanıma Mərkəzi Nəbatat Bağında həyata keçirilən yenidənqurma və tikinti işləri barədə məlumat verdi.

Bildirildi ki, yenidənqurma və bərpa işləri nəticəsində Mərkəzi Nəbatat Bağının ərazi-si 39 hektardan 44,8 hektara çatdırılıb. Vaxtilə ərazidə yerləşən avtomobil təmiri boksları, bir neçə ictimai-iaşə obyekti və müxtəlif təyinatlı qanunsuz tikililər sökülüb. Hazırda bağın ərazisində yeni, müasir layihəyə əsasən geniş bərpa və yenidənqurma işləri müvəffəqiyyətlə davam edir. Layihəyə əsasən bağda müxtəlif növ yeni ağacların əkilməsi, müasir dizaynlı guşələrin yaradılması nəzərdə tutulur.

Qeyd edək ki, Mərkəzi Nəbatat Bağında aparılan yenidənqurma işləri Azərbaycan Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq həyata keçirilir.

Azərbaycan florasında mövcud olan bitki növlərinin və genofondunun qorunması məqsədilə 1934-cü ildə yaradılan bu bağ elmi-tədqiqat müəssisəsi kimi fəaliyyət göstərib. Nəbatat Bağında 2500-dən çox ağac, kol, ot bitkiləri və sair var. Bağda 130-a yaxın nadir bitki növü qorunur. Ötən il Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə "Mərkəzi Nəbatat Bağı" publik hüquqi şəxs Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyinə verilib.

Mərkəzi Nəbatat Bağında görülən işlərlə yaxından tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.

Xatırladaq ki, son illər Azərbaycanın bütün regionlarında, o cümlədən Bakı şəhərində abadlıq və yenidənqurma işləri geniş vüsət alıb. Əhalinin rahatlığının və istirahətinin yüksək səviyyədə təşkili məqsədilə yeni parklar və çoxsaylı yaşıllıq zolaqları salınır, mövcud park və xiyabanlar isə əsaslı şəkildə yenidən qurulur. Həyata keçirilən bu layihələr Bakının və regionların simasını dəyişməklə yanaşı, ölkəmizdə ekoloji vəziyyətin yaxşılaşdırılmasında da mühüm rol oynayır. Aparılan yaşıllaşdırma işlərinə və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da böyük dəstək verir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**129-cu kitab: may 2023 – iyul 2023. - Bakı: Azərnəşr, 2023.- S. 228-229.**

## «AZƏRENERJİ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN «ÇIRAQ-1» VƏ «ÇIRAQ-2» KİÇİK SU ELEKTRİK STANSİYALARININ AÇILMAS MƏRƏASİMİ

*(25 avqust 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Kəlbəcər rayonunda «AzərEnerji» Açıq Səhmdar Cəmiyyətinin «Çıraq-1» və «Çıraq-2» Kiçik Su Elektrik stansiyalarının açılması mərasimində iştirak etmişdir.

Dövlətimizin başçısına stansiyalarda görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Kəlbəcər rayonunun qərbində Tərtər çayı üzərində yerləşən 8,33 meqavat gücündə «Çıraq-1» və Qaraarxac çayı üzərində 3,6 meqavat gücündə «Çıraq-2» Kiçik Su Elektrik stansiyaları «Azərenerji» ASC tərəfindən tamamilə yenidən qurulub. 2022-ci ilin iyununda Prezident İlham Əliyevin tikinti işlərinin gedişinə baxış keçirdiyi bu elektrik stansiyaları müasir avadanlıqlarla təchiz olunub.

Ərazidə iqlim və relyefin sərt olmasına baxmayaraq, tikinti işləri cədvəldən əvvəl başa çatdırılıb. Burada çayın 50 faiz təminatı nəzərə alınmaqla, ekoloji normanın saxlanılması üçün derivasiya boruları subasardan hündür hissədə quraşdırılıb. Həmçinin sel suları nəzərə alınaraq, 1750 metr mütləq yüksəklikdə yerləşən idarəolunan baş suqəbuledici qurğu tikilib, eləcə də 7 kilometr uzunluğunda derivasiya boruları yenidən çəkilib.

«Çıraq-1» və «Çıraq-2» stansiyalarının hər biri üçün maşın zalı tikilib, Avropanın aparıcı şirkətlərinin istehsalı olan müasir ekoturbinlər, generatorlar, idarəetmə, rele mühafizəsi və avtomatika panelləri quraşdırılıb. «Çıraq-1» Kiçik Su Elektrik Stansiyasının ərazisində yeni 110 kV-luq açıq paylayıcı qurğu inşa edilib. 35 kilometr uzunluğunda 35 kV-luq «İstisu» elektrik verilişi xətti yenidən qurularaq, yeni yarımstansiyaya qoşulub, optik kabel xətti çəkilib. Bu yarımstansiya «Çıraq-1», «Çıraq-2» və «Soyuqbulaq» Kiçik Su Elektrik stansiyalarında istehsal edilən elektrik enerjisinin ölkənin enerji sisteminə ötürülməsi üçün qovşaq funksiyasını daşıyır. Eynilə 3,6 meqavat gücündə «Çıraq-2» Su Elektrik Stansiyasının da baş suqəbuledici qurğu, 3 kilometr uzunluğunda derivasiya boru xətti, maşın zalı yenidən qurulub. Stansiyada bir ədəd Avropa istehsalı olan «yaşıl» sertifikatlı müasir ekoturbin, generator, idarəetmə və avtomatika paneləri quraşdırılıb. «Çıraq-1» və «Çıraq-2» stansiyaları enerjisistemə tam inteqrasiya edilməklə məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulub. Hər iki stansiyada ümumilikdə il ərzində 35 milyon kilovat-saata yaxın elektrik enerjisi istehsal olunacaq.

Prezident İlham Əliyev «Çıraq-1» və «Çıraq-2» Kiçik Su Elektrik stansiyalarını işə saldı. Qeyd edildi ki, «Çıraq-1», «Çıraq-2» və «Soyuqbulaq » Kiçik Su Elektrik stansiyalarından əlavə, bu günə kimi Kəlbəcər rayonunda 4,4 meqavat gücündə «Kəlbəcər-1», 6,3 meqavat gücündə «Qamışlı» və 3,4 meqavat gücündə «Meydan» Kiçik Su Elektrik stansiyaları yenidən qurularaq istismara verilib. Hazırda Kəlbəcər rayonunda 5 yerdə ümumi gücü 48,3 meqavat olan kiçik su elektrik stansiyalarının tikintisinə başlanılıb. Bununla da 2024-cü ilin birinci rübündə Kəlbəcər rayonunda ümumi gücü 75,5 MVt, illik enerji istehsal potensialı 230 milyon kilovat-saat olan 10 kiçik su elektrik stansiyası mövcud olacaq.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**130-cu kitab: iyul 2023 – sentyabr 2023. - Bakı: Azərnəşr, 2023.- S. 167-169.**

## KƏLBƏCƏRDƏ "SOYUQBULAQ" KİÇİK SU ELEKTRİK STANSIYASININ AÇILIŞI OLUB

*(25 avqust 2023-cü il)*

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonuna səfər ediblər.

Dövlətimizin başçısı və birinci xanım "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 5,3 MVA gücündə olan "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyasının açılışında iştirak ediblər.

"AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya stansiyada görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Kəlbəcər rayonunun ərazisindən keçən bol sulu Tərtər çayı üzərində yerləşən "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyası "AzərEnerji" tərəfindən tamamilə yenidən qurulub. Ərazini tərk edən düşmən tərəfindən tamamilə dağıdılan bu stansiyada bütün avadanlıq və yararlı hissələr sökülərək daşınıb, daşınması mümkün olmayan hissələr isə məhv edilib. İşğaldan azad edilən ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi ilə bağlı dövlətimizin başçısının tapşırığına uyğun olaraq, əsasən "AzərEnerji" tərəfindən su elektrik stansiyasının baş suqəbuledici qurğusu, 6 kilometr uzunluğunda derivasiya boru xətti, maşın zalı yenidən qurulub. Stansiyada Avropa istehsalı olan yaşıl sertifikatlı, iki müasir ekoturbin, generatorlar, idarəetmə və avtomatika panelləri quraşdırılıb. Stansiyanın enerjisistemə inteqrasiyası üçün uzunluğu 6 kilometr olan 6 kV-luq kabel xətti çəkilib və eyni zamanda, optik kabel xətti ilə də əlaqələndirilib. Ərazidə fors-major hallar üçün ehtiyat dizel generatoru da quraşdırılıb.

Dövlətimizin başçısı "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyasını işə saldı.

Qeyd edildi ki, "Soyuqbulaq" Kiçik Su Elektrik Stansiyası enerjisistemə tam inteqrasiya olunmaqla məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulub. Stansiyada il ərzində 15,5 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq.

**AZƏRTAC**
**2023, 25 avqust**

## LAÇIN RAYONUNDA “MİŞNİ” VƏ “ALXASLI” KİÇİK SU ELEKTRİK STANSİYALARI İSTİFADƏYƏ VERİLİB

*(25 avqust 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Laçın rayonuna səfər ediblər.

Dövlətimizin başçısı Laçın rayonunda “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin “Mişni” və “Alxaslı” Kiçik Su Elektrik stansiyalarının açılışında iştirak edib. “AzərEnerji” ASC-nin prezidenti Baba Rzayev Prezident İlham Əliyevə görülən işlər barədə məlumat verdi.

Laçın rayonunda Həkəri çayının ən böyük qolu olan Hoçaz çayı üzərində yerləşən və ermənilər tərəfindən tamamilə dağıdılan 14,25 meqavat gücündə “Ağbulaq”, 8,25 meqavat gücündə “Mişni” və 6 meqavat gücündə “Alxaslı” Su Elektrik stansiyaları Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq tam yenidən qurulub. Hazırda “Ağbulaq” Su Elektrik Stansiyasında artıq son tamamlama işləri aparılır. “Mişni” və “Alxaslı” Kiçik Su Elektrik stansiyalarında isə işlər başa çatdırılıb.

Qeyd olundu ki, “Mişni” Kiçik Su Elektrik Stansiyasının yenidən qurulması layihəsi çərçivəsində baş suqəbuledici qurğu, 7,2 kilometr uzunluğunda derivasiya boru xətti və maşın zalı yenidən qurulub. Stansiyada Avropa istehsalı olan yaşıl sertifikatlı iki müasir ekoturbin, generatorlar, idarəetmə və avtomatika panelləri quraşdırılıb. Stansiyanın enerjisistemə inteqrasiyası üçün 25 meqavoltamper gücündə 110/10 kV-luq yarımstansiya tikilib, 18 kilometr uzunluğunda 110 kV-luq elektrik verilişi və optik kabel xətləri çəkilib. Bu yarımstansiya “Mişni” stansiyası ilə yanaşı, “Alxaslı” stansiyasında istehsal edilən elektrik enerjisinin ölkə enerjisisteminə ötürülməsi üçün qovşaq funksiyasını daşıyır. Enerjisistemə tam inteqrasiya edilməklə məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulmuş “Mişni” Kiçik Su Elektrik Stansiyasında il ərzində 23 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunacaq.

Bildirildi ki, “Alxaslı” Kiçik Su Elektrik Stansiyasının yenidən qurulması layihəsi çərçivəsində baş suqəbuledici qurğu, 4,3 kilometr uzunluğunda derivasiya boru xətti, maşın zalı yenidən qurulub. Stansiyada Avropa istehsalı olan yaşıl sertifikatlı iki müasir ekoturbin, generatorlar, idarəetmə və avtomatika panelləri quraşdırılıb. Stansiyanın enerjisistemə inteqrasiyası üçün “Mişni” Su Elektrik Stansiyasında tikilmiş 110/10 kV-luq yarımstansiyaya 8 kilometr uzunluğunda 10 kV-luq elektrik verilişi və optik kabel xətləri çəkilib. Enerjisistemə tam inteqrasiya edilməklə məsafədən idarəetməyə imkan verən mərkəzləşdirilmiş SCADA sisteminə qoşulmuş “Alxaslı” Su Elektrik Stansiyasında il ərzində 17 milyon kilovat-saatdan artıq elektrik enerjisi istehsal olunacaq.

Dövlətimizin başçısı “Mişni” və “Alxaslı” Kiçik Su Elektrik stansiyalarını işə saldı.

Qeyd edildi ki, “Ağbulaq”, “Alxaslı” və “Mişni” stansiyaları ilə yanaşı, bu günədək Laçın rayonunda ümumi gücü 40,5 MVt, illik enerji istehsalı potensialı 120 milyon kilovat-saat olan 5 kiçik su elektrik stansiyası yenidən qurularaq istismara verilib. Hazırda 4 stansiyanın yenidən qurulması üzrə işlər davam etdirilir. Gələn ilin birinci rübündə artıq Laçın rayonunda ümumi gücü 65,5 MVt, illik elektrik enerjisi istehsal potensialı 194 milyon kilovat-saat olan 9 su elektrik stansiyası fəaliyyət göstərəcək. Bildirildi ki, su elektrik stansiyalarında ekoloji normalar tam qorunur. Bütün layihələr icra edilərkən çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması məqsədilə xüsusi balıqkeçirici qurğular tikilib. Avropanın yaşıl sertifikatlı avadanlıqlarından istifadə etməklə çay ekosistemi, o cümlədən flora və fauna tam qorunur, çayların məcralarında ekoloji axımdan iki dəfə artıq miqdarda su saxlanılmaqla, aşağı axım zonasının su təminatı,

eyni zamanda, məcraaltı su ehtiyatının formalaşması təmin edilib. Bununla yanaşı, bu işlər görülərkən meşələrin qırılmasına, qayaların dağıdılmasına yol ve-rilməyib, çay məcralarında hidromorfoloji dəyişikliklər edilməyib. Derivasiya boru xətləri çəkilən zaman beynəlxalq təcrübəyə uyğun xüsusi konstruksiyalardan istifadə edilməklə ətraf mühitə təsirlər minimallaşdırılıb. Su elektrik stansiyalarının karbon emissiyasının azaldılmasında rolunu təsdiqləmək üçün beynəlxalq sertifikat əldə edilməsi istiqamətində iş aparılır.

Bu layihələrin sosial-iqtisadi əhəmiyyəti barədə məlumat verilərkən qeyd olundu ki, işğaldan azad edilən ərazilərdə 2021-2023-cü illərdə "AzərEnerji" ASC-nin icra etdiyi layihələr üzrə 3965 işçinin 2570- i yerli sakinlər olub. Daimi iş yerləri ilə təmin edilmiş 197 nəfərin 170-ni Qarabağ və Şərqi Zəngəzur regionundan olan əhali təşkil edir. "AzərEnerji" ASC yerli sakinlərin işlə təminatı üçün tikinti-quraşdırma işlərinə paralel olaraq peşə hazırlığı kursları da təşkil edir. Bu təşəbbüs regionda yeni energetika obyektlərinin tikintisi və istismarında yerli sakinlərin məşğulluğu üçün gələcəkdə də davam etdiriləcək.

Bütün elektroenergetika obyektlərində çalışan işçilərin məişət şəraitinin yaxşılaşdırılması üçün mühəndisyataqxana kompleksləri yaradılıb.

**AZƏRTAC**
**2023, 25 avqust**

## LAÇIN RAYONUNDA "HƏKƏRİ BALIQ TƏSƏRRÜFATI"NIN AÇILIŞI OLUB

*(25 avqust 2023-cü il)*

Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Laçın rayonunda "Həkəri Balıq Təsərrüfatı"nın açılışında iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma təsərrüfat barədə məlumat verildi.

Bildirildi ki, Qarabağ zonasında ilk nərəyetişdirmə təsərrüfatı olan bu müəssisədə il ərzində 35 ton Kür nərəsi, 1,5 ton çökə və 5 ton forel yetişdiriləcək. Bunun üçün müəssisədə hər birinin uzunluğu 40, eni 3 metr olan açıq tipli 36 beton kanal yaradılıb.

Dövlətimizin başçısına və birinci xanıma nərə balığının yetişdirilməsi və kürünün əldə edilməsi prosesi barədə də məlumat verildi.

Diqqətə çatdırıldı ki, ana balıq kürünün formalaşmasından sonra cinslər üzrə məhsul əldə edilməsi üçün mövsümə uyğun olaraq martdan mayadək nohurlarda, bütün ilboyu isə şirin suyu olan qapalı su təchizatı qurğusunda saxlanılır. Balıqların cinsi təyin edildikdən sonra isə damazlıq sürü müəyyənləşdirilir. Sonrakı mərhələdə balıqların genetik pasportlaşdırılması və çipləşdirilməsi həyata keçirilir. Daha sonra balıq məhsullarının hazırlanması və emalı üçün erkək balıqların ayrılması, dişi balıqlardan kürü istehsalına başlanması prosesi aparılır. Sonda isə körpə balıqların buraxılması, kürü və balıq məhsullarının əldə edilməsi prosesi həyata keçirilir.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, gələcəkdə müəssisənin fəaliyyətinin genişləndirilməsi planlaşdırılır. Belə ki, nərə əti isthesalının ildə 70 tona, kürünün 3 tona, forel ətinin isə 10 tona çatdırılması nəzərdə tutulur.

**AZƏRTAC**
**2023, 25 avqust**

## «AZƏRENERJİ» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN CAHANGİRBƏYLİ SU-ELEKTRİK STANSİYASININ AÇILIŞI MƏRASİMİ

*(28 sentyabr 2023-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də «AzərEnerji» Açıq Səhmdar Cəmiyyətinin Cahangirbəyli Su-Elektrik Stansiyası-nın açılışı mərasimində iştirak etmişdir.

«AzərEnerji» ASC-nin prezidenti Baba Rzayev döv-lət başçısına stansiyada görülmüş işlər barədə məlumat verdi. Bildirildi ki, işğaldan azad olunmuş ərazilərdə ye-ni «yaşıl enerji» potensialının yaradılması ilə bağlı Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, 2022-ci ilin payız aylarında «AzərEnerji» ASC tərə-findən Oxçuçayın Zəngilan rayonunun ərazisindən ke-çən hissəsində dörd yerdə hər birinin gücü 10,5 meqa-vat, ümumi gücü 42 meqavat olan su-elektrik stansiya-ları (SES) silsiləsinin tikintisinə başlanılıb. Artıq Sarı-qışlaq, Şayıflı və Zəngilan SES-lərdə işlər yekunlaş-maqdadır, Cahangirbəyli SES-də isə işlər tamamla-nıbdır.

Cahangirbəyli SES üçün tikilmiş maşın zalında 5,25 meqavat gücündə Avropa istehsalı olan «yaşıl» sertifikatlı frensis tipli iki ekoturbin, generatorlar, məsafədən idarəedilən rəqəmsal avadanlıqlar quraş-dırılıb. Stansiyada il ərzində 30 milyon kilovat-saat-dan çox elektrik enerjisi istehsal ediləcək.

Prezident İlham Əliyevin cari ilin mayında tikinti-sinə baxış keçirdiyi bu 4 stansiyadan ibarət 42 meqa-vatlıq Zəngilan Su-Elektrik Stansiyalar Silsiləsi iş-ğaldan azad edilmiş ərazilərdə tamamilə yeni inşa edilən ilk ən böyük enerji istehsalı layihəsidir. Bu la-yihə rekord müddətdə – cəmi bir ilə ərsəyə gəlib. İn-diyədək nə Azərbaycanda, nə də digər yerlərdə bu sayda, bu gücdə və bu müddətdə SES-lərin tikilməsi faktına rast gəlinməyib.

Bu 4 stansiyanı su ilə təmin etmək üçün «Azər-Enerji» tərəfindən dəniz səviyyəsindən 600 metr yük-səklikdə baş suqəbuledici qurğu tikilib. Eni 450, uzun-luğu 250 metr olan qurğunun su tutumu 400–450 min kubmetrə bərabərdir. Bu qurğunun yaradılması ener ji istehsalından əlavə, kənd təsərrüfatı və ekoloji cə-hətdən olduqca əhəmiyyətli hadisədir. Baş suqəbuledi-cinin tikilməsi 30 il müddətində çirklənən çay yatağı-nın təmizlənməsinə, flora və faunanın dirçəlməsinə də yardım edəcəkdir.

Baş suqəbuledicidən çayın suyunun 35 faizi məcra-sında saxlanılmaqla, 23 kilometr məsafədə qoşa de-rivasiya boruları çəkilib. Borudan çıxan su təkrar çaya buraxılır. Cahangirbəyli SES-in ətrafında 8 mindən çox ağac əkilib.

Dövlətimizin başçısı Cahangirbəyli Su-Elektrik Stansiyasını işə saldı.

Oxçuçay üzərindəki SES-lərin tikilməsi ilə bağlı Dövlət Ekoloji Ekspertiza Agentliyinin təşkilatçılığı və aidiyyəti dövlət qurumlarının, media və qeyri-hö-kumət təşkilatlarının iştirakı ilə açıq ictimai dinlə-mələr keçirilib və layihəyə yüksək qiymət verilib.

İşğaldan azad edilmiş ərazilərdə bolsulu çaylar üzərində «AzərEnerji» tərəfindən tikilən və gələcək-də inşa olunacaq 370 meqavat gücündə SES-lər say və güc baxımından ölkənin digər yerlərində fəaliyyət göstərən az sulu çayların üzərində yerləşən 1060 meqavat gücündə böyük SES-lərdən üç dəfə az olma-sına baxmayaraq, daha çox enerji istehsal edəcək. Çünki əsasən Azərbaycan ərazisində formalaşan bol sulu və iti axan dağ çayları üzərində tikilən yeni stansiyalar ölkənin digər yerlərindəki stansiyalardan fərqli olaraq, suyun azalan vaxtı da məhsuldar işlə-yir. Belə ki, avqust–sentyabr aylarında istehsal həc-mi 25–30 faizə düşsə də, aprel–may aylarında 80 faiz-dən yuxarı olur və ilin bütün fəsillərində orta hesabla 40-42 faiz güclə çalışır. Digər yerlərdə isə bu göstə-rici 10-12 faizdir.

Beləliklə, işğaldan azad edilmiş ərazilərdə tam yeni tikilmiş 4 stansiyadan ibarət Zəngilan Su-Elektrik stansiyaları silsiləsində il ərzində 130 milyon kilovat-saatdan artıq «yaşıl enerji» istehsal ediləcək. Bu da alternativ enerji mənbələrinə keçiddə çox böyük rol oynamaqla, Prezident İlham Əliyevin regionu «yaşıl enerji» zonasına çevirməklə bağlı tapşırığının icrasına mühüm töhfədir. Silsilə SES layihəsi regionun enerji və iqtisadi inkişafına töhfə verməklə bərabər, əhalinin məşğulluğu baxımından da əhəmiyyətlidir.

**Əliyev, İlham. İnkişaf - məqsədimizdir / İ. H. Əliyev.**
**131-ci kitab: sentyabr 2023 – snoyabr 2023. - Bakı: Azərnəşr, 2023.- S. 21-24.**

## DUBAYDA BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ŞEYX MƏHƏMMƏD BİN ZAYED ƏL NƏHYAN İLƏ GÖRÜŞ

*(30 noyabr 2023-cü il)*

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil olunacaq Dünya İqlim Fəaliyyəti Sammitində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərində səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Dubay şəhərində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşüb.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28-ə ev sahibliyi etməsi və bu tədbirin yüksək səviyyədə təşkil olunması münasibətilə Şeyx Məhəmməd bin Zayed Əl Nəhyana təbriklərini çatdırdı.

Görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq və qardaşlığa əsaslanan əlaqələrin hərtərəfli inkişafından məmnunluq ifadə olundu.

Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin sərmayəsi ilə 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təsis edilməsi və onun açılış mərasimində Birləşmiş Ərəb Əmirliklərinin 4 nazirinin iştirakı ölkələrimiz arasında qardaşlığın bariz nümunəsi kimi qiymətləndirildi. Birləşmiş Ərəb Əmirliklərindən olan tərəfdaşlarla imzalanmış sazişlərə uyğun olaraq bərpaolunan enerjinin 10 qiqavata çatdırılacağı vurğulandı.

Söhbət zamanı ölkələrimiz arasında yaradılmış birgə investisiya fondunun əhəmiyyəti qeyd edildi, bunun iqtisadi-ticari əlaqələrimizin və qarşılıqlı sərmayə sahəsində əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyi bildirildi.

SOCAR ilə Əbu-Dabi Milli Neft Şirkəti – ADNOC arasında uğurlu əməkdaşlığın və birgə layihələrdə iştirakın əhəmiyyəti vurğulandı.

Birləşmiş Ərəb Əmirliklərinin "AD Ports Group" şirkətinin Azərbaycan ilə limanlararası, gəmiçilik, nəqliyyat, logistika sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu, Orta Dəhliz istiqamətində nəqliyyat-logistika sahəsində tərəfdaşlığın böyük perspektivlərinin olduğu qeyd edildi.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Görüşdə regional məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

**AZƏRTAC**
**2023, 30 noyabr**

**DUBAYDA COP28 ÇƏRÇİVƏSİNDƏ TƏŞKİL OLUNAN DÜNYA İQLİM FƏALİYYƏTİ SAMMİTİNİN AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV TƏDBİRDƏ İŞTİRAK EDİB**

*(1 dekabr 2023-cü il)*

Dekabrın 1-də Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil olunan Dünya İqlim Fəaliyyəti Sammitinin açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan və BMT-nin Baş katibi Antonio Quterreş dövlətimizin başçısını qarşıladılar.

Sonra birgə foto çəkdirildi.

**AZƏRTAC**
**2023, 1 dekabr**

## COP29-UN GƏLƏN İL ÖLKƏMİZDƏ KEÇİRİLMƏSİ İLƏ ƏLAQƏDAR PREZİDENT İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ MÜŞAVİRƏ KEÇİRİLİB

*(15 dekabr 2023-cü il)*

Dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirədə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Bir neçə gün bundan əvvəl ölkəmiz növbəti böyük uğura imza atmışdır, COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçiriləcək. Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı.

Bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi.

Düzdür, antiterror əməliyyatından sonra bəzi Qərb ölkələri Azərbaycana əsassız ittihamlar irəli sürmüşdür. Bizə qarşı irəli sürülmüş bu ittihamların heç bir əsası yoxdur. Çünki Azərbaycan öz suveren ərazisində separatçılığa qarşı, işğalçılara qarşı antiterror əməliyyatı keçirərək beynəlxalq hüququn aliliyini özü bir daha təmin etmişdir və eyni zamanda, bütün humanitar normalara riayət edərək öz suverenliyini bərpa etmişdir. Bəzi Qərb ölkələri, onların arasında təbii ki, ənənəvi olaraq Fransa bununla barışmaq fikrində deyil. Halbuki artıq beynəlxalq birlik də görür ki, hətta Ermənistan bu vəziyyətlə barışıb və COP29 konfransının keçirilməsi bunu bir daha göstərir. Ancaq Fransada bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaq-lar.

Bir də bəzi hallarda beynəlxalq aləm, beynəlxalq birlik anlayışı Qərbdə təhrif edilir. Beynəlxalq birlik 30-40 ölkə deyil. Beynəlxalq birlik dünyanın bütün ölkələridir və bu ölkələr yekdilliklə Azərbaycana öz böyük dəstəyini göstərmişdir. Bu, birinci dəfə deyil. Biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır. Bu, artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir.

İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz bu günə qədər bir çox beynəlxalq tədbirlər keçirmişik. Hətta bu il Beynəlxalq Astronavtika Konqresini böyük müvəffəqiyyətlə keçirmişik. Onu da hər kəs bilir ki, bu mötəbər beynəlxalq tədbir ikinci dəfə Bakı şəhərində keçirilib. 50 il bundan əvvəl sovet Azərbaycanının paytaxtı olan Bakıda, bu il isə müstəqil Azərbaycanın paytaxtı olan Bakıda bu tədbir keçirilmişdir. Ancaq təbii ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə

müqayisəyə gəlmir. Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq.

Hesab edirəm ki, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Ona görə biz dərhal bütün hazırlıq işlərinə start verməliyik. Bizim vaxtımız o qədər də çox deyil, 11 aydan az vaxtımız var. Ona görə mən hesab etdim ki, birinci müşavirəni öz sədrliyimlə keçirim, bütün lazımi tapşırıqları verim. Bu tapşırıqların yerinə yetirilməsi barədə müntəzəm olaraq mənə məlumat veriləcək.

Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək.

**AZƏRTAC**
**2023, 15 dekabr**

**PREZİDENT İLHAM ƏLİYEV BMT-NİN İQLİM DƏYİŞMƏLƏRİ ÜZRƏ ÇƏRÇİVƏ KONVENSİYASININ İCRAÇI KATİBİNİ QƏBUL EDİB**
*(2 fevral 2024-cü il)*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stili qəbul edib.

Bakının gözəlliyinin onda heyranlıq doğurduğunu deyən Saymon Stil COP29-un Azərbaycanda keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirdi.

Qonaq BMT-nin faktaraşdırıcı missiyasının artıq Azərbaycanda olduğunu və Azərbaycan tərəfi ilə səmərəli müzakirələr apardığını, İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un keçirilməsi ilə bağlı Azərbaycan tərəfindən görülən hazırlıq işlərinin yüksək qiymətləndirildiyini qeyd etdi. Saymon Stil BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının əməkdaşlarının Azərbaycanda müxtəlif sahələr üzrə tərəfmüqabilləri ilə çox məhsuldar görüşlər keçirdiklərini və müzakirələr apardıqlarını vurğuladı. O, COP29-un keçirilməsi üzrə Azərbaycanda yaradılmış təşkilat komitəsində qadınların yer almasını müsbət dəyərləndirdi. Qonaq qeyd etdi ki, artıq COP-un 28 dəfə təşkil edilməsi və təmsil etdiyi təşkilatın heyətinin COP-un keçirilməsi üzrə zəngin təcrübəsini nəzərə alaraq BMT ailəsi olaraq Azərbaycanı dəstəkləməyə və təcrübələrini bölüşməyə hazırdırlar.

Prezident İlham Əliyev vurğuladı ki, beynəlxalq ictimaiyyətin yekdil mövqeyi ilə COP29-un Azərbaycanda keçirilməsi barədə qərar ölkəmizə etimadın və hörmətin təzahürüdür. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan tərəfi bu tədbirin uğurla keçirilməsi üçün bu təşkilatla və bütün BMT ailəsi ilə yaxından əməkdaşlıq etməyə hazırdır. Azərbaycanın beynəlxalq tədbirlərin təşkili üzrə zəngin təcrübəsinin olduğunu vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, COP29 ölkəmizdə keçirilən və ümumiyyətlə dünyada miqyasına görə ən çox iştirakçının qatıldığı tədbirlərdən biri olacaq. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan tərəfindən həm təşkilati, həm də tədbirin mahiyyəti nöqteyi-nəzərindən bütün zəruri addımlar atılır və bu baxımdan ölkəmiz beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlığı yüksək qiymətləndirir. Azərbaycan Prezidenti COP29-un təşkili prosesinə könüllülərin də yaxından cəlb olunacağını dedi.

Dövlətimizin başçısı qeyd etdi ki, COP29-un Azərbaycanda keçirilməsi barədə qərar regional sülh gündəliyinin irəliyə aparılması kontekstində əldə edilib və bu da ümumiyyətlə COP-un tarixində yeni bir inkişafdır.

Prezident İlham Əliyev Azərbaycanın milli və regional səviyyədə yaşıl enerjiyə keçid istiqamətində təşəbbüsləri barədə məlumat verdi, COP29-un Azərbaycanda ke-çirilməsinin ölkəmizin yaşıl enerjiyə keçid istiqamətində səylərinə və bu sahədə beynəlxalq tərəfdaşlarla əməkdaşlığının daha da inkişafına təkan verəcəyinə əminliyini bildirdi.

Qonaq COP çərçivəsində Azərbaycanın sədrliyinin çox mühüm mövzuya – iqlim maliyyələşdirilməsi mövzusuna həsr olunduğunu və bunun COP-un gündəliyində duran ən vacib məsələlərdən biri olduğunu qeyd edərək, bu xüsusda çoxtərəfli diplomatiyanın və bütün tərəfdaşlarla inklüziv şəkildə işin aparılmasının vacibliyinə toxundu.

Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan həmişə çoxtərəfli diplomatiyaya mühüm əhəmiyyət verib və beynəlxalq təşkilatlarda, çoxtərəfli platformalarda daim çox fəal siyasət yürüdüb. Bu baxımdan Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyini və bunun Hərəkata üzv dövlətlər tərəfindən yüksək qiymətləndirildiyini qeyd etdi, ölkəmizin digər beynəlxalq təşkilatlarla da uğurlu əməkdaşlığını vurğuladı.

Görüşdə COP28-ə ev sahibliyi etmiş Birləşmiş Ərəb Əmirlikləri, COP29 və COP30-a müvafiq olaraq ev sahibliyi edəcək Azərbaycan və Braziliya arasında üçtərəfli əməkdaşlığın vacibliyi vurğulandı.

**AZƏRTAC**
**2024, 2 fevral**

# EKOLOJİ TƏQVİM

## Yanvar

**11 yanvar –** Qoruqlar və Milli Parklar günü
**26 yanvar -** Dünya ekoloji təhsil günü
**28-29 yanvar –** Beynəlxalq nüvə müharibəsi əleyhinə səfərbərlik günü

## Fevral

**1 fevral –** Vəfat etmiş heyvan müdafiəçilərinin xatirə günü
**14 fevral –** Çayların, suyun və həyatın müdafiəsi naminə fəaliyyət günü
**19 fevral –** Ümumdünya dənizdə yaşayan məməli heyvanları müdafiə günü (Balinalar günü)

## Mart

**1 mart –** Ümumdünya pişiklər günü
**15 mart –** Ümumdünya dələ ovuna qarşı fəaliyyət günü
**18 mart -** Qlobal təkrar emal günü
**21 mart -** Ümumdünya torpaq günü
**22 mart –** Ümumdünya su günü (Su ehtiyatlarının Ümumdünya mühafizəsi günü)
**23 mart –** Ümumdünya meteoroloq günü
**Martın sonuncu şənbəsi –** Dünya saatı

## Aprel

**1 aprel –** Beynəlxalq quşlar günü
**7 aprel –** Ümumdünya sağlamlığı qoruma günü
**15 aprel –** Ekoloji biliklər günü
**18 aprel –** Beynəlxalq abidələri və tarixi yerləri mühafizə (qoruma) günü
**19 aprel –** Novruzgülü (qargülü) günü
**22 aprel -** Beynəlxalq yer günü
**24 aprel –** Ümumdünya laborator heyvanları mühafizə günü
**26 aprel –** Radiasiya qəzaları və fəlakətlərində həlak olanların xatirə günü

## May

**3 may –** Günəş günü
**12-13 may –** Köçəri quşlar günü

**15 may –** Beynəlxalq iqlim günü
**22 may –** Bioloji müxtəliflik günü
**23 may –** Azərbaycan ekoloqları günü
**24 may –** Avropa parkları gün
**25 may –** Afrika günü
**31 may –** Ümumdünya tüstüsüz (dumansız) hava günü (Siqaret çəkməyə qarşı Ümumdünya mübarizə günü)

**<u>İyun</u>**

**5 iyun –** Ümumdünya ətraf mühiti mühafizə günü **(**Beynəlxalq ekoloq günü)
**8 iyun –** Ümumdünya okeanlar günü
**17 iyun –** Ümumdünya səhralaşma və quraqlıqla mübarizə günü
**27 iyun –** Ümumdünya balıqçılıq günü

**<u>İyul</u>**

**4 iyul –** Beynəlxalq əsir-delfinlər günü
**11 iyul –** Ümumdünya əhali günü

**<u>Avqust</u>**

**2 avqust –** Maral günü
**16 avqust –** Beynəlxalq kimsəsiz heyvanlar günü
**28 avqust –** Baykal günü

**<u>Sentyabr</u>**

**Sentyabda bir həftə –** Ümumdünya aksiya - "Planeti zibildən təmizləyək"
**8 sentyabr –** Durna günü
**9 sentyabr –** Gözəllik günü
**11 sentyabr –** Ümumdünya vəhşi təbiət fondunun yaranması günü
**15 sentyabr –** Sülh günü. Qrinpisin yaranması günü
**16 sentyabr –** Beynəlxalq ozon qatının mühafizəsi günü
**21-27 sentyabr** – "Biz dünyanı təmizləyirik" həftəsi
**22 sentyabr –** Ümumdünya avtomobilsiz günü
**27 sentyabr –** Ümumdünya turizm günü
**Sentyabrın sonuncu hətəsi –** "Xəzət həftəsi"

**<u>Oktyabr</u>**

**1 oktyabr –** Ümumdünya vegeterian günü

**3-4 oktyabr –** Ümumdünya quşları müşahidə günü
**4 oktyabr –** Beynəlxalq heyvanları müdafiə günü
**6 oktyabr –** Ümumdünya yaşayış yerini qoruma günü
**8 oktyabr –** Beynəlxalq təbii fəlakətlərlə mübarizə günü
**13 oktyabr –** Beynəlxalq təbii fəlakətlərdən qorunma günü
**14 oktyabr –** Qoruq işçiləri günü**,** Ümumdünya standartlaşma günü
**16 oktyabr –** Ümumdünya qida günü

**<u>Noyabr</u>**

**6 noyabr –** Beynəlxalq müharibə və hərbi münaqişələr zamanı ətraf mühitin istismarının qarşısını alma günü
**29 noyabr –** Ümumdünya təbiəti mühafizə cəmiyyətinin yaranması günü
**30 noyabr –** Ümumdünya ev heyvanları günü

**<u>Dekabr</u>**

**3 dekabr –** Beynəlxalq pestisidlərlə mubarizə günü
**5 dekabr –** Ümumdünya Torpaq günü
Beynəlxalq könüllülər günü
**11 dekabr –** Beynəlxalq dağlar günü
**29 dekabr –** Beynəlxalq bioloji müxtəliflik gün

# NƏTİCƏ

Azərbaycan qlobal təşəbbüslərə həmişə ilk qoşulan ölkələr sırasında olmuşdur. 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Azərbaycan həm bərpaolunan enerji yaradır, həm də sürətlə yaşıllaşdırma işlərini davam etdirir. Ətraf mühit və "yaşıl artım" ölkənin dayanıqlı inkişafını təmin edən önəmli amillərdəndir.

Qlobal iqlim dəyişmələrinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu, istilik effekti yaradan qaz emissiyasının beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə olacaq. Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Dövlətin iqtisadi inkişafında milli prioritet kimi qəbul olunan ətraf mühitin qorunması vəzifəsi iki növbəti məqsədin effektiv reallaşdırılmasına xidmət edir. Bunlar yüksəkkeyfiyyətli ekoloji mühitin təmin olunması və "yaşıl enerji" məkanının yaradılmasıdır.

Ölkəmiz özünün qabaqlayıcı tədbirlərini və müxtəlif iqtisadi sektorların uyğunlaşma imkanlarını araşdırmağa, o cümlədən iqlim dəyişmələrinə xüsusi həssas sektorlar üçün yerli və beynəlxalq vəsaitləri səfərbər edərək, müvafiq uyğunlaşma tədbirlərinin planlaşdırılma-sı və icrasını davam edir. İşğaldan azad edilmiş ərazilər 2050-ci ilədək "netto sıfır emissiya" zonası elan edilib. Bu isə həmin ərazilərin enerji təminatını tamamilə bərpaolunan (su, külək, günəş) mənbələrdən əldə etmək imkanı verir. Energetika Nazirliyinin məlumatına görə, günəş elektrik stansiyalarında 79,4 mln. kvt/saat enerji istehsal edilib, bu da 2022-ci ilin göstəricisi ilə müqayisədə 30,4 faiz artım deməkdir. Keçən il Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda 223 mln. kvt/saat elektrik enerjisi istehsal edilib ki, bu da illik müqayisədə 8,6 faiz daha çoxdur. Əminliklə demək olar ki, Azərbaycan bu missiyanın öhdəsindən də gələcək. Ərazilərimiz "yaşıl enerji" zonasına çevriləcək.

Bu il martın 1-də Bakıda Cənub Qaz Dəhlizi (SGC) Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu toplantısı və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclası keçiriləcək. Tədbirdə beynəlxalq enerji şirkətlərinin və maliyyə qurumlarının iştirakı gözlənilir.

Artıq onuncu dəfə təşkil olunan Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin iclasının keçirilməsi, eləcə də Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasının baş tutması Azərbaycanın Avropanın enerji təminatında artan rolunu açıq-şəkildə ortaya qoyur. İqtisadi inkişafını durmadan şaxələndirərək genişləndirən Azərbaycan bununla da Avropanın enerji təhlükəsizliyini təkcə neft-qaz potensialı ilə də deyil, alternativ enerji mənbələri hesabına da təmin etməsi işində əhəmiyyətli addım atıb.

Xatırladaq ki, fevralın 3-də Bakıda, "Gülüstan" sarayında Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclası ötən ilin 3 fevral tarixində Gülüstan sarayında keçirilib. Tədbir çərçivəsində Energetika Nazirliyi ilə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti arasında "Dənizdə 1,5 QVt-dək külək layihəsinin həyata keçirilməsinə dair İcra Müqaviləsi", "Quruda 1 QVt külək stansiyasının yaradılmasına dair Anlaşma Memorandumu" və "Azərbaycan Respublikasında enerji saxlanc sistemlərinin inkişaf etdirilməsinə dair Anlaşma Memorandumu" imzalanıb.

Butün bu kimi genişmiqyaslı beynəlxalq tədbirlər Azərbaycan Prezidenti İlham Əliyevin birbaşa iştirakı və şəxsi təşəbbüsü ilə həyata keçirilməkdədir. Şübhəsiz, bu ilin sonunda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Bakıda keçirilməsi də elə bu zərurətdən irəli gəlib.

Bu ikicildlik kitabda Azərbaycan Prezidenti İlham Əliyevin bu sahədə geniş və çoxzəhmətli fəaliyyətini toplu halında verməyə çalışdıq. Biz əminik ki, Azərbaycan cəmiyyətinin ekoloji maarifləndirilməsi üçün bu toplu əvəzsiz rol oynayacaqdır.

## ƏDƏBİYYAT


**1. Əliyev, İlham.** İnkişaf - məqsədimizdir / İ. H. Əliyev; 1-131-ci kitab. - Bakı: Azərnəşr, 2008-2023.

**2. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu.-** 1997-2023.

**3. Qurbanov, Sadiq.** Zamana sığmayan lider: Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi / S. H. Qurbanov - Bakı:  2022. - 436 s.

**4.Ələkbərov, Urxan.** Davamlı insan inkişafının əsasları / U.K .Ələkbərov .- Bakı: Təhsil, 2007.- 132 s.

**5.Qurbanov, Sadiq.** Davamlı inkişaf kontekstində ekoloji siyasətin prioritet istiqamətləri və yaşıl iqtisadiyyat / S. H. Qurbanov - Bakı : İzə, 2023. - 272 s.

6.**Ələkbərov, Urxan**. Davamlı insan inkişafı və ekoloji sivilizasiyasnın əsasları / U.K .Ələkbərov .- Bakı: Təhsil, 2017.- 176 s.

**7. Qurbanov, Sadiq.** Yeni "yaşıl" iqtisadi modelə doğru keçid: qlobal çağırışlar, imkanlar və perspektivlər / S. H. Qurbanov - Bakı : İzə, 2023. - 272 s.

**8. Qurbanov, Sadiq.** "Yaşıl iqtisadiyyat və ekoloji imperativlərə doğru yol: yeni çağırışlar, imkanlar və perspektivlər" mövzusunda beynəlxalq elmi-praktiki konfrans: 12-14 oktyabr 2022 = Towards a new economic model or an alternative development path of "Greening" the economy: at the plenary session of the "Green" economy conference: october 12-14, 2022 / S. H. Qurbanov; Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi. - Bakı: İzə, 2022. - 96 s.

**9. Исмайлов, Закир.** Экологическое просвещение читателей: Опыт Президентской библиотеки Управления делами Президента Азербайджанской Республики / З. И. Исмайлов // Вестник Библиотечной Ассамблеи Евразии (БАЕ). - 2015. - № 3. - С. 74-76.

**10. https://azertag.az/**

**11. https://eco.preslib.az/**

**12. https://xalqqazeti.az/**

**İlham Əliyevin ekoloji siyasəti**

**Dayanıqlı inkişaf və yaşıl dünya**

**(2003-2023)**

**3 cilddə**

## I cild

Nitqlər, çıxışlar, müsahibələr, görüşlər, qəbullar, müraciətlər,

iqtibaslar və ekoloji təqvim